

BÖYÜK İQTİSADİ ENSİKLOPEDİYA

İDEYA MÜƏLLİFİ VƏ BAŞ REDAKTOR
akademik **ZİYAD ƏLİABBAS oğlu SƏMƏDZADƏ**

AZƏRBAYCAN İQTİSADÇILAR İTTİFAQI
BAKI – 2012

BÖYÜK İQTİSADİ ENSİKLOPEDİYA

IV

MNOÖPRSŞ

AZƏRBAYCAN İQTİSADÇILAR İTTİFAQI
BAKI – 2012

Baş redaktorun müavinləri

i.e.d., prof. ***Məmmədhəsən Meybullayev***
i.e.d., prof. ***Amil Məhərrəmov***
i.e.d. ***Elşən Hacızadə***

Redaksiya heyətinin üzvləri

ABBASOV ƏLİ
ABBASOV İBAD
AXUNDOV VAHİD
ALIYEV İSA
ALIŞANOV ARİF
ASLANLI RÜFƏT
ATAKİŞİYEV MÜŞFİQ
BƏŞİROV ELXAN
ÇƏNDİRLİ İSKƏNDƏR
ƏHMƏDOV MƏHİŞ
ƏLƏKBƏROV FÜZULİ
ƏLƏSGƏROV AĞASƏLİM
ƏLİYEV AYDIN
ƏLİYEV NATİQ
ƏLİYEV RAUF
ƏLİYEV ŞAHRZA
ƏMİRASLANOV AZƏR
ƏSƏDOV HEYDƏR
ƏSƏDULLAYEV ÇİNGİZ
HACIYEV ŞƏMSƏDDİN
HƏSƏNOV KƏRƏM
HÜSEYNOV TELMAN
İBRAHİMOV ELDAR
İBRAHİMOV İSLAM
İMANOV KAMRAN
İMANOV QORXMAZ
İSMAYILOV ELDAR
KAZIMLI XANHÜSEYN
KƏRİMOV XOSROV
KƏRİMOV QÜDRƏT
QARAYEV FƏRHAD
QASIMOV SÜLEYMAN
QƏRİBOVA FİRUZƏXANIM
QULİYEV ASİF
QULİYEV ELDAR
QULİYEV RÜFƏT
MƏDƏTOV MANSUR
MƏMMƏDLİ OQTAY
MƏMMƏDOV FAZİL
MƏSİMLİ ƏLİ
MİRZƏYEV SƏFA
MEHBALIYEV SƏTTAR
MÖVSÜMOV ŞAHMAR
MUSAYEV AKİF
MUSTAFAYEV ŞAHİN
MÜSLİMOV SƏLİM
NADİROV ASƏF
NOVRUZOV VAHİD
NURİYEV ƏLİ
PƏNAHOV MUSA
RÜSTƏMOV ELMAN
SADIQOV MİRDAMƏD
SADIQOV ŞAHİN
SƏMƏDZADƏ AYTƏN
SƏMƏDZADƏ ELŞAD
ŞAMİLOVA HÜRÜ
ŞƏRİFOV SAMİR
VƏLİYEV ARİF
VƏLİYEV SAMİR
ZEYNALOV VİDADİ

Böyük İqtisadi Ensiklopediyanın IV cildinin hazırlanmasına cəlb edilmiş müəlliflər

akad. Z.Ə.Səmədzadə; akad. A.A.Nadirov; i.e.d., prof. M.X.Meybullayev; i.e.d., prof. E.M. Hacızadə; i.e.d., prof. A.F.Musayev; i.e.d., prof. V.T.Novruzov; i.e.d., prof. Ş.Ə.Səmədzadə; akad. Q.Ş.Məmmədov; h.f.d., prof. Z.A.Əsgərov; ~~prof.~~ X.H.Kazımlı; i.e.d., prof. İ.H.İbrahimov; i.e.d., prof. M.C.Atakişiyev; i.e.d., prof. A.M.Məhərrəmov; i.e.d., prof. N.A.Əliyev; g.m.e.d., prof. E.N.Xəlilov; t.e.d., prof. Ə.V. Musayev; i.e.d., prof. Q.Y. Əbdülsəlimzadə; t.e.d., prof. K.S.İmanov; i.e.d., prof. R.Ə.Nəbiyev; i.e.d., prof. M.A.Məmmədov; s.e.d., prof. H.M.Rəcəbli; c.e.d., prof. Z.S.Məmmədov; i.e.d., prof. B.X.Ataşov; i.f.d. M.A.Mədətov; i.f.d. Ə.T.Zeynallı; i.f.d. A.N.Alışanov; i.f.d. İ.D.Abbasov; i.f.d. F.H.Qəribova; i.f.d. X.Ş.Kərimov; i.f.d. F.M.Qarayev; i.e.d., prof. M.C.Hüseynov; i.f.d. Ş.H.Əliyev; i.f.d. O.Q.Məmmədli; L.V.Abışlı; i.f.d. X.S.Abdullayev; A.Q.Babayev; A.A.Ələsgərov; i.f.d. M.Y.Həmidova; i.f.d. H.S.Şamilova; i.f.d. E.Z.Səmədzadə; i.f.d. V.Ə.Rüstəmov; i.f.d. R.R.Əliyev; R.Ə.Hacıbalayev; T.H.Qurbanova; Ü.V.Bağırova; K.Ə.Əzizova; Z.A.Mirzəyev; i.f.d. M.Q.Məmmədov; E.M.Hüseynov; i.f.d. A.Q. Ağayev; i.f.d. Q.S.Bayramov; E.H.Bəşirov; S.N.Nəsrullayeva; T.F.Cavadov; A.H.Mansurov; S.D.Yunusov

Məsləhətçilər

İqtisadi nəzəriyyə, dünya iqtisadiyyatı və milli iqtisadiyyat: L.İ.Abalkin, A.A.Nadirov, V.N.Krasilnikov, A.K.Ələsgərov, M.X.Meybullayev, İ.H.Alıyev, M.A.Əhmədov, M.B.Bağırov, Ə.C.Muradov. **Uçot, audit, statistika, qiymətləndirmə:** S.M.Qasımov, R.A.Səlimov, İ.M.Abbasov, V.T.Novruzov, Q.Ə.Abbasov, C.B.Namazova, Ş.A.Ağabəyov. **Maliyyə fəaliyyəti, dövlət büdcəsi, sığorta və qiymətli kağızlar bazarı:** İ.F.Fətizadə, A.Ə.Bayramov, F.S.Fərəcov, X.İ.Rzayev, N.C.Xəlilov, M.Ə.Məmmədov, V.Z.Zeynalov, V.Ə.Rüstəmov. **Pul-kredit siyasəti, bank fəaliyyəti:** Ç.R.Əsədullayev, E.M.İsmayılov, A.S.Quliyev, C.F.Hacıyev, T.Ə.Paşayev, Z.F.Məmmədov. **Vergi və gömrük məsələləri:** N.Ə.Əmirov, S.N.Ələkbərov, A.Ə.Cahangirov, S.M.Mehdiyev, M.F.Vahabov, Ş.S.Bağırov, Y.A.Kəlbiyev, C.Q.Nuriyev, A.H.Əsgərov, A.Ə.Əşrəfov. **Sahibkarlıq, marketinq və menecment, xidmət sahələrinin iqtisadiyyatı:** R.A.Quliyev, M.Q.Musayev, Z.M.Əzimov, F.H.Şərifov, V.S.Hümmətov, M.A.Məmmədov, F.A.Quliyev, İ.H.İbrahimov, T.E.Əliyev, Q.O.Kərimov, A.H.Səmədov, A.Ə.Əzizov, R.H.Hüseynov. **Sosial siyasət, əhali, urbanizasiya, məşğulluq, miqrasiya, əmək məsələləri:** S.S.Mehbalıyev, A.N.Alışanov, İ.E.Rəhimov, Z.H.Babayev, A.A.Məmmədov, V.Ə. Əfəndiyev, E.L.Mehdiyev, E.M.Hüseynov

Böyük İqtisadi Ensiklopediyanın nəşrə hazırlanması üzrə işçi qrupu

A.Z.Səmədzadə, A.M.Quliyev, H.S.Şamilova, T.H.Qurbanova, M.A.Mədətov, R.Ə.Hacıbalayev, L.V.Abışlı, L.A.Nəbiyeva, A.A.Əhmədov, M.Y. Həmidova, M.B.Oruclu, O.A.Oruclu, R.Z.Baxışov, S.Y.Əlizadə, Y.A.Məmmədova, S.V.Musayeva, A.R.Əhmədova, K.L.Heybətov, M.G.Eyvazova, N.N.Hüseynova, T.R.Acalov, A.E.Namazova

İnkişafın innovasiya mərhələsinə keçilməsi, rəqabətədavamlı milli iqtisadiyyatın formalaşdırılması və inkişaf dinamikasının sürətləndirilməsi başlıca olaraq insan kapitalı ilə bağlı bir çox məsələlərin öz həllini tapmasını, o cümlədən təhsilin dünya standartlarına cavab verməsini tələb edir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Ensiklopediyanın məqsədi – bütün dünya üzrə səpələnmiş biliklərin toplanıb müəyyən sistem halına salınması və müxtəlif təbəqədən olan insanların başa düşdüyü dildə yazılaraq köhnə nəsillərdən yeni nəsillərə ötürülməsidir.

Deni Didro

ÖN SÖZ

İctimai elmlər arasında özünəməxsusluğu ilə seçilən və daim inkişafda olan iqtisad elminin cəmiyyətdə rolunun artmasını, müasir dünyada inkişaf etmiş ölkələrin iqtisadiyyatının mahiyyətini, xarakterini, inkişaf meyillərini və qanunauyğunluqlarını müəyyən edən əsas ideyaların, konsepsiyaların, modellərin, anlayışların, kateqoriyaların və s. öyrənilməsini və istifadəsini asanlaşdırmaq üçün "Böyük İqtisadi Ensiklopediya"nı hazırlayıb nəşr etməyi qərara aldıq.

Bildirmək istəyirəm ki, iqtisadi ensiklopediyanın hazırlanması üçün vacib mənbələrdən hesab edilən iqtisadi lüğətlərin tərtib olunmasına Azərbaycanda hələ XX əsrin əvvəllərindən başlanmışdır. 1907-ci ildə Bakıda Orucov qardaşlarının mətbəəsində Ü.Hacıbəyovun "Türki-rusi və rusi-türki lüğəti" çap olunmuşdur. Maraqlıdır ki, lüğətdə bir çox iqtisadi anlayışların rus dilindən türk dilinə (Azərbaycan dilinə) tərcüməsi ilə yanaşı, həm də qısa təfsiri verilmişdir.

İqtisadiyyat üzrə lüğətlərin hazırlanması işi XX əsrin I yarısının sonlarında və II yarısında daha da genişləndi. K.Marksın "Kapital"ının və digər nüfuzlu əsərlərin Azərbaycan dilinə tərcüməsi iqtisadi terminlər bazasını xeyli gücləndirdi, iqtisadi terminlərə dair bir neçə izahlı lüğətlər nəşr edildi.

XX əsrin 70-ci illərində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin bilavasitə dəstəyi ilə çoxcildli "Azərbaycan Sovet Ensiklopediyası" nəşr edildi. Bu nüfuzlu nəşrdə dünya, SSRİ və respublikamız barədə kifayət qədər geniş məlumatlar öz əksini tapdı. Azərbaycan müstəqillik əldə etdikdən sonra sovet sisteminə xas olan ideoloji məhdudiyyət və qadağaların aradan qaldırılması, milli maraqların qorunması zərurəti, genişlənən inteqrasiya əlaqələri müstəqil Azərbaycanın ensiklopediyasının hazırlanması işinə ciddi təkan verdi.

Cənab İlham Əliyevin imzaladığı tarixi sərəncamda Milli Ensiklopediyamızın qarşısında duran əsas vəzifələr aşağıdakı kimi xarakterizə olunur: *"Bu ensiklopediya öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycanın yeni dövrdəki tələblərinə cavab verməli, xalqımızın həyatında baş vermiş mühüm tarixi, ictimai-siyasi, elmi və mədəni hadisələri obyektiv surətdə əks etdirməlidir. Bizim yeni ensiklopediyamız azərbaycançılıq ideologiyasının mötəbər daşıyıcısı olmalıdır".*

Azərbaycan Milli Ensiklopediyasının "Azərbaycan" cildinin nəşri (2007-ci il) ölkəmizin həyatında mühüm bir hadisə kimi qiymətləndirildi. Hər bir azərbaycanlı üçün çox dəyərli töhfə hesab edilən belə sanballı və mötəbər nəşr ölkəmizdə sahə ensiklopediyalarının, o cümlədən hər bir dövlətin, xalqın yaşaması üçün başlıca şərt olan "iqtisadiyyat" sahəsi üzrə müvafiq ensiklopediyanın hazırlanmasını obyektiv zərurətə çevirdi. İqtisadçılar İttifaqı professional mütəxəssislər, iqtisadçı alimlər, nüfuzlu elm mərkəzləri ilə məsləhətləşmələr apardı və işə başladıq...

Redaksiya heyəti nəşrin hazırlanmasında belə bir faktı da əsas götürmüşdür ki, respublikamız müstəqillik əldə etdikdən sonra ölkədə yeni iqtisadi sistemin formalaşması iqtisadi biliklərin bir sıra istiqamətlərinin aktuallığını və əhəmiyyətini köklü surətdə artırmış, sərt inzibati-amirlik sisteminə xas olan, lakin azad bazar münasibətlərinin üstünlük təşkil etdiyi cəmiyyətlərdə özünü doğrultmayan müddəaların, anlayışların, kateqoriyaların geniş şəkildə işıqlandırılmasına ehtiyacı azaltmışdır.

Ensiklopediyanı hazırlayanda dünyanın inkişaf etmiş ölkələrində iqtisadi terminlərə dair nəşr olunmuş lüğətlərdən, statistik külliyyatlardan, beynəlxalq iqtisadi, maliyyə-bank, əmək təşkilatlarının internet resurslarından istifadə olunmuşdur. Burada azad bazar münasibətlərinin geniş vüsət aldığı ölkələrdə istifadə edilən makroiqtisadi tarazlıq, maliyyə sistemi, pul-kredit, qiymətli kağızlar bazarı, tələb, təklif, rəqabət, inhisar, açıq və qapalı iqtisadiyyat problemləri, marketinq, investisiya, menecment, innovasiya, birja, müxtəlif iqtisadi nəzəriyyələr, elmi məktəblər və s. ilə bağlı çoxsaylı anlayışların mahiyyəti açıqlanmışdır.

Bu nəşrdə həmçinin müstəqil Azərbaycan dövlətinin iqtisadi qüdrətinin artmasına, qloballaşan dünya iqtisadiyyatına inteqrasiya olunmasına xidmət edən inkişaf strategiyası, azad bazar münasibətlərinin inkişafına və milli maraqlara cavab verən yeni iqtisadi sistemin formalaşmasının elmi-metodoloji əsasları, mahiyyəti barədə konkret fakt və dəlillərə əsaslanan yazılar verilmişdir.

"Böyük İqtisadi Ensiklopediya"da Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri, bazar strukturları və infrastrukturları, aparıcı maliyyə, bank institutları haqqında yığcam məlumatlar öz əksini tapmışdır ki, bu da cəmiyyətdə iqtisadi mədəniyyətin yüksəldilməsi, iqtisadi təhsilin təkmilləşməsi üçün vacibdir.

Razılıq hissi ilə bildirirəm ki, nəşrdə verilən iqtisadi terminlərin əsas hissəsini Azərbaycan dilində işlədilən sözlər təşkil etsə də, bir sıra terminlər beynəlxalq təcrübədə istifadə olunduğu kimi verilmişdir.

Ensiklopediya işıq üzü görənədək iqtisadçı alim və mütəxəssislərlə məsləhətləşmələr aparılmış, əksər məqalələr müvafiq iqtisadi strukturlarda müzakirə olunmuş, yaradıcı heyətin ünvanına Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Vergilər Nazirliyi, Mərkəzi Bank, Sənaye və Energetika Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Nəqliyyat Nazirliyi, Təhsil Nazirliyi, Hesablama Palatası, Dövlət Gömrük Komitəsi, Dövlət Neft Şirkəti, Dövlət Neft Fondu, Dövlət Sosial Müdafiə Fondu, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Qeyri-Hökumət Təşkilatları Forumu, Beynəlxalq Maliyyə Korporasiyası, İsveçrənin İqtisadiyyat üzrə Dövlət Katibliyi (SECO), Beynəlxalq İqtisadçılar İttifaqı tərəfindən daxil olmuş dəyərli tövsiyə və təkliflər nəzərə alınmışdır. Ensiklopediyada informasiya xarakterli materiallar, şəkillər və xəritələr verilmişdir ki, bütün bunlara görə də Heydər Əliyev Fonduna, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivinə, Dövlət Statistika Komitəsinə, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə, Azərbaycan Dövlət Teleqraf Agentliyinə (AzərTac), Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinə, Azərbaycan Marketinq Cəmiyyətinə, Azərbaycan Tarix Muzeyinə öz təşəkkürümüzü bildiririk.

"Böyük İqtisadi Ensiklopediya"nın yaradıcı heyəti görülmüş işlərə öz müsbət münasibətini bildirməklə yanaşı onu da qeyd etməyi vacib sayır ki, 7000-dən çox sözü əhatə edən "Böyük İqtisadi Ensiklopediya" Rusiya Federasiyası istisna olmaqla MDB məkanında milli dildə işıq üzü görən ilk iri həcmli nəşrdir.


"Böyük İqtisadi Ensiklopediya" tələbələr, magistr, doktorantlar, təhsil və idarəetmə sistemində, iqtisadiyyatın müxtəlif sferalarında çalışan müəllimlər və mütəxəssislər, sahibkarlar və investorlar, həmçinin geniş oxucu kütləsi, o cümlədən gələcəyimiz olan məktəblilər üçün nəzərdə tutulmuşdur.

Ensiklopediyanın ərsəyə çatmasındakı xidmətlərinə görə redaksiya heyətinin üzvlərinə, iqtisadi strukturlarda çalışan professional mütəxəssislərə, ensiklopediyanın kompüter, dizayn işlərində, cədvəllərin, qrafiklərin işlənib hazırlanmasında əməyi olmuş bütün insanlara dərin minnətdarlığımı bildirirəm.

İdeya müəllifi və
Baş redaktor **akademik Ziyad Səmədzadə**

M

MORQAN CON (1837-1913) – Amerika maliyyəçisi, XX əsrin əvvəllərində ən varlı insanlardan biri. Kolleksiyaçı və filantrop. Morqan ailəsi bir neçə iri kommersiya və investisiya bankına, həmçinin bir sıra iri kompaniyanın (O.S.STEEL, General Electric, General Motors) nəzarət səhm paketinə sahibdir.



MORQENŞTERN (MORGENSTERN) OSKAR (1902-1978) – amerikalı iqtisadçı. İqtisadi tsikl, beynəlxalq ticarət məsələlərini, siyasi iqtisad problemlərinin statistik və riyazi təhlil metodologiyasını tədqiq etmişdir. Riyaziyyatçı C.Fon Neyman ilə birlikdə oyunlar nəzəriyyəsini bazar iqtisadiyyatının təhlilinə tətbiq etmişdir (gözlənilən faydalılıq nəzəriyyəsi). Neyman – Morqenştern konsepsiyasının əsas müddəaları 1944-cü ildə "Oyunlar nəzəriyyəsi və iqtisadi davranış" adı ilə dərc edilmişdir.



MORTENSEN DEYL (1939) – Amerika iqtisadçısı. 1961-ci ildə Uillamett Universitetində (Oreqon) bakalavr, 1967-ci ildə Karnegi Mellon Universitetində fəlsəfə doktoru elmi dərəcəsini almışdır. 1965-ci ildən Şimal-Qərb Universitetində dərs deyir. İqtisadi dinamika cəmiyyətinin prezidenti olub (1996-2000), əməyin iqtisadiyyatı institutunun mükafatına (2005) layiq görülüb. 2010-cu ildə o, amerikalı Daymond Piter və britaniyalı Pissarides Kristofer ilə birlikdə "axtarış modelli bazarların tədqiqinə görə" Nobel mükafatına layiq görülmüşdür. Əsas əsərləri "İş axtarışı, işsizliyin müddəti və Fillips əyrisi" (1970), "Əmək haqqının bölgüsü: nəyə görə eyni qabiliyyətli insanlara müxtəlif əmək haqqı ödəyirlər" (2003).



MORTİFİKASİYA – sahibi tərəfindən səhmin etibarsız elan edilməsi (itirilmə və digər bu kimi hallar nəticəsində).

MOSKVİN DMİTRİY DMİTRİYEVİÇ (1926-2005) – sovet, rus iqtisadçısı, i.e.d., prof., SSRİ-nin əməkdar elm xadimi. 1943-1947-ci illərdə Moskva Aviasiya İnstitutunda oxuyub, sonra isə Moskva İqtisadi-Statistika İnstitutuna keçib və 1951-ci ildə oranı bitirib. 1951-1972-ci illərdə SSRİ EA İqtisadiyyat İnstitutunda kiçik elmi işçidən direktor müavininədək yüksəlib. Keçən əsrin 50-ci və 80-ci illərində Sibir və Uzaq Şərq regionunda əhalinin və məhsuldar qüvvələrin yerləşdirilməsinin öyrənilməsi üçün elmi ekspedisiyalarda iştirak edib. 1959-cu ildə "SSRİ-nin Şimal-Şərqində əhali və əmək ehtiyatları problemi" mövzusunda namizədlik, 1968-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. Elmi fəaliyyət ilə yanaşı pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. 1972-ci ildən Moskva polad və ərinti institutunda siyasi iqtisad kafedrasının müdiri olmuşdur. İstehsal qüvvələrinin inkişafı və yerləşdirilməsi, əmək ehtiyatları, əhalinin miqrasiyası, iqtisadi nəzəriyyə üzrə ixtisaslaşmışdı. 1970-ci ildən SSRİ EA Sibir şöbəsinin məşhur iqtisadi jurnalı olan "EKO"nun



təsisçisi və unudulmaz redaktor müavini olub. 1981-ci ildə "Nə? Harada? Niyə?" (şagirdlər üçün siyasi iqtisad) kitabını buraxıb və bu kitab müttəfiq respublikaların dillərinə tərcümə olunub. 2001-ci ildə rəhbərlik etdiyi kafedranın əməkdaşları ilə birlikdə "İqtisadi nəzəriyyənin əsasları. Siyasi iqtisad" kitabını hazırlayıb nəşr etdirmişdir. 40-dan çox elmlər namizədi və elmlər doktoru yetişdirmişdir. Çoxlu elmi və dissertasiya şuralarının üzvü olub. SSRİ-nin dağılmasından sonra elmi varislik uğrunda mübarizə aparmış, əsaslandırılmamış radikal islahatların əleyhinə çıxmış və islahatlar yolu ilə dəyişikliklərin aparılmasının tərəfdarı olmuşdur.

Azərbaycan alimlərinin və elmi kadrlarının yetişdirilməsində müstəsna xidmətləri olmuşdur.

MOTİVASİYA – stimul və motivlər toplumu. Stimul adətən, maddi təminatla əmək haqqında ifadə olunur. Motivə isə daxili təhriketmə gücü, istək, oriyentasiya və s. aiddir.

MÖHKƏM BAZAR – bu bazar şəraitində qiymətlərin yüksək səviyyəsi, eləcə də onların artması meyli müşahidə olunur.

MÖHKƏM MÜƏYYƏN EDİLMİŞ GƏLİRİN SIĞORTA ZƏMANƏTİ – üçüncü şəxsə aid olan və həyat sığortası ilə rentanın sığortasının əlaqələndirilməsi kimi sığorta zəmanəti.

MÖHTƏKİRLİK, EHTİKARLIQ (lat. *speculatio* – diqqətlə baxma, izinə düşmə) – müxtəlif qiymətlərin (dəyərlərin), əmtəələrin, səhmlərin, istiqrazların, valyutanın və s. təkrar satışının qaimə xərclərindən yüksək olan alış və satış qiyməti (məzənnəsi) arasında fərqdən qazanc əldə etmək məqsədi ilə bu qiymətlərin, əmtəələrin, səhmlərin, istiqrazların, valyutanın və s. alqı-satqısı. Hazırda möhtəkirlik hər hansı bir iqtisadiyyatda həmişə iştirak edən element kimi nəzərdən keçirilir ki, burada iqtisadi qərarlar qeyri-müəyyənlik şəraitində baş verir. Qiymətlərin artırılması və azaldılması üzrə oyun, arbitraj, spred (stredl) kimi möhtəkirlik növləri fərqləndirilir. Son illər həmçinin opsionlarla möhtəkirlik (mükafatlaşmalarla sövdələşmələr) geniş yayılmışdır ki, bunlar da məhdud riskli birja sövdələşmələrinin xüsusi formasıdır.

MÖVSÜMİ DƏYİŞMƏLƏR (qalxıb-enmələr) (ing. *seasonal fluctuations*) – çox vaxt əsas meylin, trendin üzərinə qoyulan zaman (müvəqqəti) sırasının mövsümi tərkib hissəsi. Ciddi mənada "mövsümi" termini tamamilə düzgün deyil, çünki təbii iqlim şərtləri ilə mütləq (vacib) əlaqəsi olmayan iqtisadi göstəricilərin vaxtaşırı dəyişmələri (qalxıb-enməsi) nəzərdə tutulur (onlar həmçinin texniki, iqtisadi, mədəni amillərlə də izah oluna bilərlər). Mövsümi dəyişmələri (qalxıb-enmələri) uçota almaq üçün sadə orta kəmiyyətlər metodu (ümumi meylin dəyişməzliyi, yaxud sabitliyi halında), trendin kənar edildiyi orta sürüşkən metodu (bu zaman mövsümi dəyişmələr "düzgündür", yəni zaman sırasının hamarlanması intervalında birbirini qarşılıqlı ödəyirlər) və digər daha mürəkkəb metodlar tətbiq olunur. Çox zaman mövsümi dəyişmələr sinusoidlərlə və digər triqonometrik funksiyalarla təxmini təsvir olunur.

MÖVSÜMİ GÜZƏŞT – mövsümdənkənar alqıları həyata keçirən istehlakçılar üçün əmtəə və xidmətlərin qiymətinin azaldılması.

MÖVSÜMİ İSTEHSAL – mövsümdən asılı olaraq il ərzində məhsulun qeyri-bərabər istehsalı. İlin ayrı-ayrı dövrlərində istehsalın yüksəldilməsi, azalması və ya tamamilə dayandırılması ət, süd, balıq, yeyinti, meşə sənayesində, tikintidə, eləcə də kənd təsərrüfatında mövcuddur. Mövsümi istehsalın aradan qaldırılması məhsul buraxılışını çoxaltmağa, əmək ehtiyatlarından və əsas fondlardan dolğun istifadəyə imkan yaradır.

MÖVSÜMİ İŞÇİLƏR – müəyyən dövr (mövsüm) ərzində, bir qayda olaraq, 6 aydan çox ol-



mayan müddət ərzində təbii-iqlim şərtləri ilə əlaqədar yerinə yetirilən işlərdə məşğul olan şəxslər. Bu məşğuliyyət növü bir sıra sahələrdə, hər şeydən əvvəl kənd təsərrüfatında, meşə, balıqçılıq sahələrində, sənayenin bəzi sferalarında, tikintidə istehsalın mövsümi xarakteri ilə əlaqədardır. Mexanikləşmə qaneedici səviyyədə və ya məqsədyönlü olmayanda əlavə, bir qayda olaraq, az ixtisaslı əl əməyinə (cərgələrarası alaq etməyə, ot çalımma, gec yetişən tərəvəz və meyvələrin yığımına) tələbat yaranır. Kənd təsərrüfatı mövsümi işçilərinin sayı geniş əraziyə və müxtəlif təbii-iqlim şəraitinə malik olan ölkələrdə daha çoxdur. Məsələn, ABŞ-da, Kanadada mövsümi işçilərin hər il bir regiondan digərinə müvafiq mövsümi işlərə yerdəyişməsi baş verir.

MÖVSÜMİ İŞSİZLİK – ilin müəyyən fəslində yaranan işsizlik.

MÖVSÜMİ QİYMƏTLƏR – 1. Mövsümdən asılı olaraq kənd təsərrüfatı məhsullarının dəyişən tədarük və pərakəndə qiymətləri. 2. Yeni tikintinin hesablaşma dəyərini, müxtəlif obyektlərin yenidən qurulması, genişlənməsi, texniki cəhətdən yenidən silahlanmasını müəyyən etmək üçün istifadə olunan və işlərin görülməsi üçün xərclər smetasına daxil olan qiymətlər.

MÖVSÜMİ RÜSUMLAR – malların ixracını və idxalını operativ tənzimləmək üçün tətbiq olunan rüsumlar. Bu halda gömrük tarifində nəzərdə tutulmuş gömrük rüsumları dərəcələri tətbiq olunmur. Mövsümi rüsumların qüvvədə olduğu müddət ildə altı aydan çox ola bilməz.

MUXTAROV MURTUZA (1857-1920) – milli burjuaziyanın görkəmli nümayəndələrindən biri, böyük xeyriyyəçi. Cavanlıqda arabaçı olub, mədənlərdən çəllələklə şəhərə və Bakıdan Tiflisə qara neft daşıyıb satan M.Muxtarov 1870-ci ildə arabasını satıb Balaxanı-Zabrat kəndləri ətrafındakı mədənlərin birində fəhlə işləməyə başlayır, az bir zamanda buruq işinə mükəmməl yiyələnir. O, maşınların səsindən, balta və boruların ahəngindən, avadanlıqların gurultusundan quyunun dərin qatlarındakı vəziyyətini müəyyən edə bilirdi. Çox keçmir ki, M.Muxtarov layihə çəkməyi və sxem qurmağı da öyrənir və bir sözlə, işinin mahir bilicisinə çevrilir. Təkcə Bakıda yox, Maykop və Qroznı neft mədən sahibləri ilə də müqavilə bağlayıb quyu qazırdı, zavod və mədənlərlə, konstruktor büroları ilə texniki və işgüzar əlaqələri var idi. Muxtarov diplomsuz neft mühəndisi kimi şöhrət tapmış, Azərbaycan neft sənayesi tarixinə özünün ixtirası ilə daxil olmuşdur. 1895-ci ildə dünyada ilk dəfə metal ştanqlarla zərbə qazma dəzgahını quraşdırır və bunun üçün dövlət patenti alır. O, bu ixtirasına "Bakı qazma sistemi" adı verir. Həmin dəz-



Əmircanda ikiminarəli məscid



Bakı, Səadət sarayı

gahın əvvəlkilərdən üstünlüyü çox idi. Onun digər ixtiraları da vardır. 1890-cı ildə yaratdığı "Podrat qazma" kontoru Bakının Balaxanı, Suraxanı, Ramana və Sabunçu neft rayonlarında neft quyularının qazılmasında böyük rol oynamışdır. Bu sahələrdəki quyuların əksəriyyəti onun "Podrat qazma" kontoru tərəfindən qazılmışdır. Qara qızıl fontanları, nəhayət, onun da üzünə gülərək, əlini milyonlara çatdırmışdı. Özünün xüsusi mədənləri də var idi. Elektrik qatarı ilə Bakıdan Buzovnaya gedərkən Sabunçudan sonra birinci dayanacaq onun adı ilə "Muxtarovka" adlanırdı. Bu dayanacağın ətrafındakı bütün neft quyuları vaxtilə ona məxsus idi. M.Muxtarov XIX əsrin sonunda Bibiheybətdə qazma avadanlığı zavodunu işə salır. O, xaricə öz zavodunun buraxdığı avadanlıqları satmaqla yanaşı, eyni zamanda, oradan da, xüsusilə, Amerikadan çoxlu maşın və cihazlar alırdı. Hətta inqilabdan sonra da onun adma avadanlıq göndərilirdi.

Çox məğrur olan bu insan Bakının yeganə milyonçusu idi ki, yanında heç bir qoçu saxlamayıb.

M.Muxtarov bizə əzəmətli binalar miras qoyub getmişdir. Bakı şəhərində, onun ətraf kəndlərində, Rusiyanın şəhərlərində və Avropanın bəzi ölkələrində hazıradək hifz olunub qalmış bir çox binalar onun adı ilə bağlıdır. 1913-cü ildə Abşeronun qumsal dəniz sahilində Mayak qülləsi, Mərdəkanın Pirhəsən adlanan yerində Axund Mirzə Abu Turabın qəbri üstündə günbəz, Vladiqafqaz şəhərində məscid, Kislovodskda, İtaliyanın Florensiya şəhərində mövcud olan gözəl, yaraşıqlı binalar M.Muxtarovun vəsaiti ilə tikilmişdir.

Həyat yoldaşı Liza xanım Tuqanova vladiqafqazlı general Tuqanovun ortancıl qızı olub. Liza xanımla evlənmək üçün o, əvvəl Vladiqafqazda ikiminarəli məscid tikdirib. Onların öz övladları olmasa da, bir çox uşaqlara qəyyumluq etmiş, oxudub savad vermişdi. Ümumiyyətlə, Muxtarov Bakının, demək olar ki, bütün xeyriyyə cəmiyyətlərində yaxından iştirak etmiş və maddi köməyini əsirgəməmişdi.

O, Əmircan kənd əhalisi üçün də məscid tikdirir. Bakıda üzvü olduğu "Səadət" xeyriyyə cəmiyyəti üçün məktəb binasını da M.Muxtarov tikdirmişdi. 1908-ci ilin 3 iyun tarixindən fəaliyyətə başlamış "Tərəqqi" qəzeti də "İrşad" mətbəəsində məhz Muxtarovun vəsaiti ilə çap edilirdi. O, "İrşad" mətbəəsini pulla alıb, onu işlətmək üçün Haşım bəy Vəzirovun sərəncamına verir. M.Muxtarov Liza xanımla Avropaya səyahətə gedərkən oradakı binaların gözəlliyinə valeh olur. Venesiyadakı bir binanın memarlığı onu lap valeh edir və Bakıya gəlib 1 il müddətində, 1911-1912-ci illərdə həmin binaya oxşar Bakıdakı sarayını tikdirir. M.Muxtarov 6 ünvanında yerləşən Saray fransız qotikası üslubunda tikilmiş sənət əsəridir. Sarayın hər sütunu, tağları, buta və gülləri, pəncərə və qapıları, bəzəklərinin hamısı təkrarolunmaz sənət əsəri, memarlıq incisidir. İndi bu binanı "Səadət sarayı" adlandırırlar. Murtuza Muxtarovun həyatı 1920-ci ildə qırılır. Həmin ilin aprel ayında Muxtarovun sarayına soxulan iki nəfər bolşevik ondan təcili evi tərk etməsini tələb edir. Muxtarov bu rəzilliyə dözə bilməyib

əlindəki tapança ilə bolşeviklərin birini güllələyib öldürür, digər gülləni isə öz alnına vurur. Muxtarovun ölümündən sonra həyat yoldaşı Liza xanım bir müddət sarayın qonşuluğunda yerləşən evlərdən birinin zirzəmisində yaşayır. Xaricə qaçmaq məqsədi ilə, saxta olsa da, bir Türk paşasına ərə gedir. Bəzi mənbələrdə qeyd edilir ki, Liza xanım 1950-ci illərdə Parisdə vəfat etmişdir, amma onun məzarının yerləşdiyi yer barədə heç bir məlumat yoxdur.

MULTİDİVİZİON TƏŞKİLAT FORMASI (ing. *Mform (multidivisional form) organization*) – idarəetmənin desentralizasiya olunduğu, eynitipli məhsul qrupları və ya müxtəlif bazarlarına xidmət üçün ayrı-ayrı qrupların və ya bölmələrin cavabdeh olduğu firmalar üçün səciyyəvi təşkilati struktur. Hər bölmənin ayrıca müstəqil rəhbərliyi, özünəməxsus satış, istehsal və başqa funksiyaları vardır. Belə strukturda yuxarı səviyyəli idarəçilər bölmələrin gündəlik fəaliyyəti üçün məsuliyyəti aşağı səviyyəli idarəçilərə həvalə edirlər. Lakin onlar bölmələrin idarəçilərinin gəlirlilik haqqında hesabatlarını izləyir və bir qayda olaraq, investisiya fondlarının bölmələr arasında yerləşdirilməsinə nəzarəti öz əllərində saxlayırlar. "Mforma" termininin müəllifi O.Uilyamson iddia edir ki, Uform (unitar təşkilati formalı) firmalarla müqayisədə Mformun təşkilati tipli firmaların mənfəətlə əlaqədar olmayan məqsədlər güdməsi ehtimalı daha kiçikdir. Çünki yuxarı səviyyəli idarəçilər öz bölmələrinin qarşısında yalnız mənfəətlə əlaqədar olan məqsədlər qoya bilərlər. Beləliklə, onlar özlərinin tabeliyində olanlar üzərində nəzarətin Uform təşkilati tipli firmalarla müqayisədə bir qədər zəifləməsinə imkan verirlər.

MULTİPLİKASİYA EFFEKTİ – genişləndirici vergi-büdcə siyasəti gəlirləri və bununla da istehlak xərclərini artırdıqda məcmu tələbdəki əlavə yerdəyişmələr.

MULTİPLİKATOR (lat. *multiplicare* – artırıram, çoxaldıram) – gəlirin dəyişilməsinin investisiyaların dəyişilməsindən asılılığını göstərən əmsal, başqa sözlə, aqreqat kəmiyyəti ilə onun struktur tərkib hissəsi arasında nisbəti xarakterizə edən əmsal. Multiplikator ideyası iqtisadiyyat elminə ilk dəfə ingilis iqtisadçısı, Kembric məktəbinin nümayəndəsi R.Kan tərəfindən 1931-ci ildə gətirilmişdir. O, investisiyanın əhalinin alıcılıq qabiliyyəti və məşğulluğun multiplikasiyasına necə gətirib çıxardığını göstərmişdir.

Multiplikatorun ümumiləşdirilmiş izahını C.M.Keyns özünün "Məşğulluq, faiz və pul haqqında ümumi nəzəriyyə" kitabında irəli sürmüşdür. Multiplikator nəzəriyyəsi müəyyən sahələrdə istehsalın və onun müəyyən sferalarında məşğulluğun genişlənməsinə məsrəflərin stimullaşdırıcı təsirinin mövcudluğunu izah edir. Ümumi milli məhsulun (ÜMM) ölçüsündə bu müsbət artan səmərə (effekt) – multiplikasiya səmərəsi (effekti) adlanır. Multiplikator say əmsalıdır, o, investisiyaların ölçüsünün artdığı şəraitdə ÜMM-in artım ölçüsünü göstərir. Tutaq ki, investisiyaların artımı 100 milyon manat təşkil edir, bu, ÜMM-in 300 milyon manat artmasına gətirib çıxarıb, beləliklə, multiplikator = 3; əgər ÜMM 200 milyon manat artarsa, onda multiplikator 2-yə bərabər olardı. Multiplikator = ÜMM-in artması / İnvestisiyaların artması və ya ΔÜMM = Multiplikator x ΔİKeyns həm də göstərdi ki, multiplikator yığıma meyillik həddinin (YMH) əks kəmiyyətidir:

$$\text{Multiplikator} = \frac{1}{\text{YMH}} \text{ və ya}$$

$$\text{Multiplikator} = \frac{1}{1 - \text{YMH}}$$

İMH – istehlaka meyillilik həddi, deməli,

$$\Delta\text{ÜMM} = \frac{1}{\text{YMH}} \cdot \Delta\text{Y}$$

Keyns nəzəriyyəsi çərçivəsində multiplikator dövlət (dövlət sifarişləri), firmalar və əhali tərəfindən həyata keçirilən iri xərclərin (investisiyaların) pozitiv təsirini əsaslandırır, milli istehsalın səmərəliliyinə və artımına müsbət təsir edir. Sonradan multiplikator hallarına vaxt amilinin uçotu ilə baxılmağa başlandı və multiplikatorun dinamik modeli yarandı, bu, P.Samuelsonun, C.Robinsonun, F.Hayekin və s. əsərlərində dəqiq işləndi. Multiplikatorun dinamik modeli ilkin investisiyaların səmərəliliyinin təkrar edilməsi üzrə qurulur. Əmanətlərin və investisiyaların dinamikasının təhlili zamanı multiplikator nəzəriyyəsindən istifadə məcmu tələbin, ÜMM həcminin təsir meyarlarını göstərir. Bu nəzə-

riyyə müxtəlif məktəblər tərəfindən tənqidə məruz qalsa da, o, səmərəli tələb, bazar iqtisadiyyatının tənzimlənməsinin zəruriliyi və mümkünlüyü konsepsiyasının əsaslandırılmasında çox böyük rol oynamışdır.

MULTİVALYUTA ŞƏRTİ (DÜZƏLİŞİ) – valyuta düzəlişinin bir növü. Bu düzəlişə əsasən, xarici ticarət müqavilələsində və ya beynəlxalq kredit müqaviləsində daha sabit valyutaların kursunun orta riyazi kəmiyyətinin ödəniş aparılan valyutaya münasibətdə dəyişməsi halında məbləğin yenidən hesablanmasını nəzərdə tutur.

MURADOV ƏDALƏT CƏLAL OĞLU (1962) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1990-cı ildə Taras Şevçenko adına Kiyev Dövlət Universitetinin iqtisadiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1993-cü ildə "Bazar iqtisadiyyatına keçid şəraitində region iqtisadiyyatının struktur dəyişiklikləri" mövzusunda namizədlik, 1998-ci ildə isə Kiyev Dövlət Universitetində "Keçid iqtisadiyyatının dünya təsərrüfatı sisteminə inteqrasiyası" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1999-cu ilə qədər Taras Şevçenko adına Kiyev Dövlət Universitetində elmi-pedaqoji, eləcə də investisiya bankında analitik fəaliyyətlə məşğul olmuşdur. 1999-cu ildən etibarən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında professor vəzifəsində çalışır.

Ə.Muradov 4 monoqrafiyanın, bir dərsliyin, iki dərs vəsaitinin və müxtəlif ölkələrdə çap olunmuş 50-dən artıq elmi məqalənin müəllifidir.

Hazırda Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyində İqtisadi siyasət, təhlil və proqnozlaşdırma şöbəsinin müdiridir.

MURADOV RƏŞAD ŞAHBAZ OĞLU (1966) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1983-



1989-cu illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu, daha sonra 1990-1992-ci illərdə Bakı Dövlət Universitetinin aspiranturasını bitirmişdir.

1992-ci ildə "İş qüvvəsinin təkrar istehsalı" mövzusunda namizədlik, 2003-cü ildə isə "Müasir dövrdə Azərbaycan Respublikasında əmək bazarının formalaşması və məşğulluq siyasətinin istiqamətləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

67 elmi əsərin, o cümlədən iki monoqrafiyanın müəllifidir.

Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin "İdarəetmənin təşkili" kafedrasının professorudur.

MURADOV ŞAHBAZ MUSA OĞLU (1938) – Azərbaycanın görkəmli iqtisadçı alimi, AMEA-nın müxbir üzvü (2001). 1961-ci ildə Azərbaycan Dövlət Universitetini fərqlənmə



diplomu ilə bitirmişdir. Həmin ildən indiyədək AMEA-nın İqtisadiyyat İnstitutunda çalışır. 1965-ci ildə iqtisad elmləri üzrə namizədlik, 1972-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1977-ci ildə ona professor elmi adı verilmişdir. Keçmiş İttifaqda və respublikamızda qadın əmək ehtiyatlarından istifadənin sosial-iqtisadi və demoqrafik aspektlərinin kompleks şəkildə tədqiqi onun adı ilə bağlıdır.

O, 1961-1966-cı illərdə kiçik elmi işçi, 1966-1968-ci illərdə baş elmi işçi vəzifələrində işləmişdir. 1968-ci ildən isə İnstitutun "Demoqrafiya və iş qüvvəsinin təkrar istehsalı" şöbəsinə rəhbərlik edir. Eyni zamanda, 1991-ci ildən İnstitutun elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmış və 1999-cu ildən 2008-ci ilədək İnstitutun direktoru olmuşdur.

Onun rəhbərliyi ilə 45 nəfər namizədlik və 4 nəfər doktorluq dissertasiyasını müdafiə etmişdir.

Ş.M.Muradovun apardığı başlıca tədqiqat işlərinin nəticələri 350 çap vərəqi həcmində olan 225 əsərində öz əksini tapmışdır. Həmin əsərlərin 25-i irihəcmli monoqrafiyalardır.

Ş.M.Muradov Azərbaycan Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən İxtisaslaşdırılmış doktorluq elmi şurasının üzvü, YUNESKO-nun Azərbaycan Respublikasında "Bioetika elmi

bilikləri və texnologiyaların etikası" üzrə Milli Komitənin və bir sıra elmi şuraların üzvüdür. Hazırda AMEA-nın İqtisadiyyat İnstitutunda şöbə müdiri vəzifəsində çalışır.

Əsərləri: Azərbaycan SSR-də qadın əmək ehtiyatlarından istifadənin sosial-iqtisadi problemləri, Bakı, 1974; Azərbaycan SSR-in əmək ehtiyatları və onlardan səmərəli istifadə edilməsi yolları, Bakı, 1974; Azərbaycan SSR-də kəndin sosial-iqtisadi və demoqrafik inkişaf məsələləri, Bakı, 1978; Azərbaycan Respublikası əhalisinin dinamikası və quruluşu: əsas demoqrafik və etnodemoqrafik dəyişikliklər (1897-2007), Bakı, 2008.

MUR HENRİ LÜDVELL (1869-1958) – Henri Mur 1869-cu ildə Merilendin Çarlz dairəsində anadan olmuş, 1892-ci ildə Baltimordakı Renfold-Meykon Kollecini bitirmişdir. 1896-cı ildə bir il əvvəl nəşr olunmuş məqaləsinin mövzusu olan Tünenin təbii əmək haqqı konsepsiyasına həsr olunmuş dissertasiya işini müdafiə edərək, Con Hopkins Universitetində fəlsəfə doktoru dərəcəsini almışdır. Vena Universitetində bir il Mengerdən dərs aldıqdan sonra o, yenə də Con Hopkins Universitetinə qayıdır və burada 1896-cı ildə müəllimlik vəzifəsinə başlayır. 1897-ci ildə o, Smit Kollecində siyasi iqtisad professoru olur, sonra 1902-ci ildə Kolumbiya Universitetinə keçir və burada akademik karyerasının sonuna kimi qalır. 1929-cu ildə o, könüllü olaraq səhhəti ilə bağlı problemlərinə görə istefaya çıxmış və 1958-ci ildə 88 yaşında vəfat etmişdir.



Əgər ekonometrika iqtisadi nəzəriyyənin iddia etdiyi qarşılıqlı əlaqələrin yoxlanılması üçün istifadə edilən statistik metodların məcmusudursa, onda Henri Muru ilk ekonometrist hesab etmək olar. Onun tələb-təklif əyrilərinin kəmiyyət qiymətləndirilməsi, əmək haqqının səviyyələrinin və işgüzar tsikllərin determinantının kəşfi 1930-cu ildə təsis edilmiş İqtisadi Cəmiyyətindən iki onillik əvvələ təsadüf edir.

Onun "Əmək haqqı qanunları" adlı birinci kitabı (1911) əmək haqqına nisbətən son həddi məhsuldarlığı nəzəriyyəsinin yoxlanması üzrə ilk cəhd idi.

Növbəti "İqtisadi tsikllər: onların qanunları və səbəbləri" adlı kitabı (1914) səkkizillik atmosfer yağıntıları vasitəsilə işgüzar fəallığın tsikllərinin səbəblərinə əsaslı izahını özündə əks edirdi. O, sübut edirdi ki, yağış tsiklləri elə müddətli tsiklləri əmələ gətirir ki, onlar buğdanın qiymətlərinin, həmçinin sənaye məhsullarının qiymətlərinin tsikllərini yaradır. O, ingilisdilli ədəbiyyatda ilk dəfə tələb əyrisinin statistik qiymətləndirilməsinə nail olmuşdur. 1919-cu ilin məqaləsində o, "qiymətlərin çevikliyi" konsepsiyasını təqdim etmişdir (qiymət üzrə tələbin elastikliyinə tərs kəmiyyət) və bu kəmiyyəti müxtəlif kənd təsərrüfatı məhsulları üçün tətbiq etmişdir. Bundan sonra Mur təhlilini təklif əyriləri üçün davam etdirərək, emal olunan sahənin dəyişməsini keçən ildəki qiymətlərin dəyişməsi ilə əlaqələndirmişdir; sübut olunmuşdur ki, bu sonralar istehsalçıların proqnozlaşdırdıqlarından asılı olaraq qiymətlər öz müvazinət nöqtəsindən ya uzaqlaşa, ya da yaxınlaşa bildiklərini iddia edən tor haqqında nəzəriyyəsinin əsasını qoymuşdur. Mur Venera planetinin səkkizillik dövrü ilə qiymətlərin səkkizillik tsiklini izah edərək, tələb əyrisinin yeni tipindən istifadə etməklə iqtisadi tsikllərə həsr olunmuş daha erkən tədqiqatlarını "İqtisadi tsikllərin mənbəyi" adlı işində (1923) davam etdirmiş, lakin heç də maraqla qarşılanmamışdır.

MUSAYEV AKİF FƏRHAD OĞLU (1947) – Azərbaycanın görkəmli iqtisadçı alimi, AMEA-nın müxbir üzvü (2001). ADU-nu bitirmişdir. 1967-ci ildən Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunun iqtisadi-riyazi modellər laboratoriyasında işləmişdir. 1972-1975-ci illərdə SSRİ Elmlər Akademiyasının Mərkəzi İqtisadiyyat-Riyaziyyat İnstitutunun aspiranturasında oxumuş, 1977-ci ildə Moskva şəhərində iqtisadi-riyazi üsullar ixtisası üzrə namizədlik dissertasiyasını müdafiə etmişdir.



1992-ci ildə Xalq təsərrüfatı və onun sahələrinin (sənaye) iqtisadiyyatı, planlaşdırılması və idarə edilməsinin təşkili ixtisası

üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1993-cü ildən professordur.

A.Musayev 1976-1980-ci illərdə Kibernetika İnstitutunda baş elmi işçi, 1980-1991-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunda baş müəllim, dosent, 1991-1999-cu illərdə Azərbaycan Dövlət Neft Akademiyasında Maşınqayırma sənayesinin iqtisadiyyatı və menecment kafedrasının müdiri vəzifələrində işləmişdir.

O, 1999-cu ildən Vergilər Nazirliyi Tədris Mərkəzinin, eyni zamanda Analitik-İnformasiya İdarəsinin rəisi vəzifələrində işləmişdir.

Professor A.Musayev təqribən 500 ç.v. həcmində 276 elmi əsərin, o cümlədən 7 monoqrafiyanın, 15 dərslik və dərs vəsaitinin, 12 fənn proqramının, 221 elmi məqalənin, broşüra, metodik göstərişin və s. müəllifidir. Əsərləri xarici ölkələrdə, o cümlədən Almaniyada, Rusiyada, İranda, Macarıstanda, İtaliyada, Latviyada və s. çap olunmuşdur.

Britaniyanın Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi və Amerikanın Şimali Karolina Bioqrafiya İnstitutunun idarə heyətləri tərəfindən professor Musayev Akif Fərhad oğlu Dünya elm və təhsilinə verdiyi töhfələrə görə Beynəlxalq Şərəf Diplomuna və Görkəmli Lider Mükafatına layiq görülmüş, onun adı Beynəlxalq Görkəmli Şəxsiyyətlər kitabının 10-cu nəşrinə daxil edilmişdir.

Professor A.Musayevin elmi kadrların hazırlanmasında böyük xidməti vardır.

Professor A.Musayev Rusiyada, İranda, Almaniyada, Türkiyədə, Macarıstanda, Fransada, İtaliyada və digər ölkələrdə keçirilən bir çox elmi konfrans və seminarlarda çıxış etmişdir.

Professor A.Musayev "Azərbaycan" Universitetinin rektoru olmuş, hazırda isə Vergi Siyasəti və Strateji araşdırmalar Baş İdarəsinin rəisi vəzifəsində çalışır.

Əsərləri: Нефтедобыча и нефтяное машиностроение: анализ взаимодействия. Университет Азербайджан, Баку, 1997, 220 s.; Qiymətli kağızlar bazarı, Bakı, Səda, 1999, 324 s.; N.N.Vəliyev və A.S.Quliyevlə birlikdə; Vergi siyasətinin iqtisadi problemləri, Bakı, 2004, 792 s.

MUSAYEV MİRAĞA ƏŞRƏF OĞLU (1935-1995) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1964-cü ildə namizədlik, 1971-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. Ona 1977-ci ildə professor elmi adı verilmişdir. 80 ç.v. həcmində 60 elmi əsərin, o cümlədən 4 monoqrafiyanın müəllifidir. Professor M.Musayev akademik Ə.S.Sumbatzadənin rəhbərlik etdiyi iqtisadi tarix elmi məktəbinin nümayəndəsidir. Bakı şəhərində ticarətin inkişafı və milli kapitalın təkamülü problemlərini tədqiq etmişdir. "XIX əsrdə Bakı şəhərinin ticarəti (1800-1883)", "XIX əsrin axırlarında Bakı şəhərinin ticarəti (1883-1900)", "XX əsrin əvvəllərində Bakı şəhərinin ticarəti (1900-1917)" monoqrafiyalarında Bakı şəhərinin timsalında Azərbaycanda kapitalizmin bir əsr ərzində inkişafı və onun xüsusiyyətləri öyrənilmişdir.



1959-1972-ci illərdə Azərbaycan SSR EA İqtisadiyyat İnstitutunda elmi işçi, 1972-1975-ci illərdə ADU-nun "Siyasi iqtisad" kafedrasında professor, 1975-ci ildən isə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda "Siyasi iqtisad" kafedrasının müdiri, bir müddət isə institutun prorektoru vəzifəsində çalışmışdır.

MUSTAFAYEV FAMİL FRONT OĞLU (1966) – Azərbaycan iqtisadçısı, i.e.d.



1989-cu ildə Rusiyada Rostov Dövlət Universitetinin iqtisadiyyat fakültəsini və 2002-ci illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. 1998-ci ildə "Keçid dövründə çoxukladlı iqtisadiyyatın formalaşmasında özəlləşdirmənin rolu" mövzusunda dissertasiya müdafiə edərək iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır. 2010-cu ildə "Transformasiya şəraitində makroiqtisadi proseslərin dövlət tənzimlənməsi problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1989-cu ildən Azərbaycan Texniki Universitetinin "Siyasi iqtisad" kafedrasında müəllim, 1992-ci ildən Azərbaycan Respublikası Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək

Komitəsində şöbə rəisi, sonra isə Sahibkarlığa Kömək Milli Fondunun direktor müavini, 1994-cü ildən "Azərbaycan İnvestisiya Şirkəti" SC-nin vitse-prezidenti, prezidenti, 1996-cı ildən Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsində şöbə rəisi, Milli Depozit Mərkəzinin icraçı direktoru, prezidenti, 1999-cu ildən Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində Milli Depozit Mərkəzinin prezidenti vəzifələrində işləmişdir. 2004-cü ildən "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin direktor müavini vəzifəsində çalışır.

Makroiqtisadi problemlərə dair iki monoqrafiyanın, 50-dən çox elmi məqalənin, dərslik, dərs vəsaiti və tədris proqramlarının müəllifidir.

MUSTAFAYEV MUXTAR MEHDİ OĞLU (1910-1988) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof.



1953-cü ildə Moskva Dövlət İqtisad İnstitutunda "XVIII əsrin axırı və XIX əsrin əvvəllərində Qarabağ xanlığının iqtisadiyyatı" mövzusunda namizədlik, 1967-ci ildə "XIX əsrdə Azərbaycanda iqtisadi fikrin inkişafi" adlı doktoluq dissertasiyalarını müdafiə etmişdir. 1968-ci ildə ona professor elmi adı verilmişdir.

Onun Azərbaycan, rus və alman dillərində müxtəlif mövzularda yazdığı 300-dən çox elmi əsəri, kitabları, məqalələri, redaktə etdiyi və rəy verdiyi işləri vardır. M.Mustafayev iqtisadi mövzuda yazılan 80 ç.v. həcmində 30-dan çox elmi məqalə və kitabın, alman dilində qəzet və jurnallar üçün yazılan 60-dan çox məqalənin müəllifidir.

1949-cu ildə Berlində "Teylixe Rundşan" nəşriyyatında rus dilində 10 ç.v. həcmində "Qarabağ xanlığının iqtisadiyyatı" adlı monoqrafiyasını nəşr etdirmişdir. Çox zəngin materiallar əsasında xanlığın iqtisadiyyatını əks etdirən bu kitab ərazi və milli məsələlərin mənşəyinə işıq salmaq baxımından qiymətlidir.

1962-ci ildə "Azərnəşr" tərəfindən rus dilində 7,5 ç.v. həcmində "M.F.Axundovun iqtisadi görüşləri" adlı monoqrafiyası çap edilmişdir.

O, 1972-ci ildə Leninqradda keçirilən iqtisadi tarixə dair Beynəlxalq konqresin iştirakçısı olmuşdur. Professor M.Mustafayev klassiklərin Azərbaycan dilinə tərcüməsində fəal iştirak etmişdir. Alman, rus dillərini mükəmməl bilirdi.

1983-cü ildə çapdan çıxmış "Rusca-azərbaycanca siyasi iqtisad terminləri sözlüyü"nün tərcüməçilərindən biri olmuşdur.

M.Mustafayev respublikanın müxtəlif ali məktəblərində "Siyasi iqtisad" fənnindən mühazirələr oxumuş, kafedra müdiri, professor vəzifələrini yerinə yetirmişdir.

MUSTAFAYEVA NAZİLƏ MUSTAFA QIZI (1950) – Azərbaycan iqtisadçısı, i.e.d.

1983-cü ildə "Müttəfiq Respublikalar şəraitində milli gəlirlərin bölüşdürülməsi və yenidən bölüşdürülməsi problemləri" mövzusunda namizədlik,



2009-cu ildə "Azərbaycan Respublikasında makroiqtisadi proposiyaların balanslaşdırılması və iqtisadi artımın problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

AMEA İqtisadiyyat İnstitutunda 1973-2009-cu illərdə kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi, "Siyasi-iqtisadi tədqiqatlar və iqtisadi fikir tarixi" şöbəsinin müdiri vəzifələrində çalışıb.

N.M.Mustafayeva tərəfindən bir sıra böyük elmi əhəmiyyət kəsb edən problemlər tədqiq olunmuşdur: istehsal olunan və bölüşdürülən milli gəlirlərin əsas struktur ünsürlərinin qarşılıqlı əlaqələri və uyğunluğu; xalis məhsulun əsas formalarının respublikada istifadə edilən milli gəlirlərdən geri qalmasına təsiri; istehsal edilən və bölüşdürülən milli gəlirin dinamikası, struktur və inkişaf meyilləri; Azərbaycan Respublikasının iqtisadi mənafelərinin regional bölgü münasibətləri sistemində formalaşması; müasir şəraitdə Azərbaycan Respublikasının məcmu ictimai məhsulu və milli gəlirin tarazlaşdırılmasının xüsusiyyətləri.

100-ə qədər əsərin, o cümlədən 5 kollektiv monoqrafiyanın müəllifidir. 2005-ci ildə "Transformasiya iqtisadiyyatında makroiqtisadi mütənasibliklərin formalaşması" adlı monoqrafiyası çap olunmuşdur. Hazırda Azərbaycan Dövlət İqtisad Univer-

sitetinin "İqtisadi nəzəriyyə" kafedrasında çalışır.

MUSTAFAZADƏ MƏMMƏD ƏBDÜLKƏRİM OĞLU (1909-1989) – Azərbaycan



iqtisadçısı, i.e.d., prof. 1948-ci ildə fizika-riyaziyyat elmləri üzrə namizədlik, 1973-cü ildə iqtisad elmləri doktoru alimlik dərəcəsi almaq üçün "Xalq təsərrüfatı sahələrinin optimal planlaşdırılması problemləri (Azərbaycan SSR timsalında)" mövzusunda dissertasiya müdafiə etmişdir. 1974-cü ildə M.Ə.Mustafazadəyə professor adı verilmişdir.

O, Azərbaycan SSR EA Kibernetika İnstitutunda nəzəri və praktik iqtisadi-riyazi modelləşdirmə sahəsində elmi məktəb yaratmışdı.

Professor M.Mustafazadə 75 elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir. 1984-cü ildə iqtisadi-riyazi modellərin qurulması və hesablama texnikasından istifadə üsullarının işlənməsinə, onların xalq təsərrüfatının planlaşdırılması və idarəedilməsi məsələlərinin həllində, geniş tətbiqində xidmətlərinə görə Azərbaycan SSR Dövlət Mükafatına layiq görülmüşdür.

Onun rəhbərliyi altında 20 namizədlik və 2 doktorluq dissertasiyası müdafiə olunmuşdur.

M.Mustafazadə S.M.Kirov adına ADU-da prorektor (1943-1949) və Qiyabi Pedaqoji İnstitutunda direktor vəzifələrində (1944-1949) çalışmışdır. 1961-ci ildən ömrünün sonunadək Azərbaycan SSR EA Kibernetika İnstitutunun xətti proqramlaşdırma laboratoriyasının rəhbəri olmuşdur.

MUTUAL BANK – lokal səviyyədə fəaliyyət göstərən kooperativ bank; bir qayda olaraq tikintinin maliyyələşməsi və mənzilin alınması üçün istifadə edilir.

MUZD – iki xüsusi mülkiyyətçi, yəni istehsal vasitələrinin mülkiyyətçiləri olan işə götürənlərlə məhsuldar və yaradıcı əmək qabiliyyəti barəsində sərəncam vermək üçün müstəsna hüquqlara malik olan vətəndaşlar arasında iqtisadi münasibətlərin formasıdır. Muzdun mahiyyəti ondan ibarətdir ki, işçi öz iş qüvvəsini əmək haqqı müqabilində istehsal vasitələrinin mülkiyyətçisinə müvəqqəti istifadəyə verir. Bu üsulla satılmış əmək muzdlu əmək, bu iş qüvvəsi – muzdlu iş qüvvəsi, işçi isə muzdlu işçi adlanır. Muzdlu işçi və sahibkar hüquqlardan eyni dərəcədə istifadə edən tərəfdaşlardır. İşçi qüvvəsinin muzdlu işəgötürənlə muzdlu işçi arasında əmək müqaviləsi (kontraktı) formasında təsbit olunur; Müqavilədə işçi qüvvəsinin alqı-satqısı ilə bağlı bütün şərtlərə riayət edilməsi barədə tərəflərin qarşılıqlı hüquq və vəzifələri göstərilir. Məsələn, əmək müqaviləsi üzrə muzdlu işçi sahibkarın müəyyən təsərrüfatında müxtəlif peşə, ixtisas, iş üzrə çalışmağı və həmin firmanın əmək rejiminə tabe olmağı öhdəsinə götürür. Sahibkar da öz tərəfindən muzdlu işçiyə onun yerinə yetirdiyi işə müvafiq olaraq əmək haqqının ödənilməsini, əmək və məşğulluqla bağlı qanunvericilikdə, eləcə də əmək müqaviləsinin özündə nəzərdə tutulan əmək şəraitinin təmin edilməsini öhdəsinə götürür. Muzdlu əmək şəraitində vasitəçilik xidmətləri əmək birjaları və məşğulluq xidmətləri tərəfindən həyata keçirilir. Muzd sistemləri müddətli və müddətsiz olur. Müddətsiz muzd sistemində muzdlu işçi ilə işə götürən arasında kontrakt bağlanmır. İşçi işə qəbul edilərkən və işdən azad edilərkən onun əmək kitabçasında müvafiq qeyd edilir. Müddətsiz muzdlu əməkdən çox vaxt ixtisaslı fəhlələri işə qəbul edərkən istifadə edilir. Müddətli muzdlu əmək halında işçi ilə işə götürən arasında bağlanan müqavilənin qüvvədə olma müddəti müəyyən edilir. Müəssisə rəhbərləri muzdlu əməyin müddətli formasına üstünlük verirlər, çünki o, dəyişkən iqtisadi və siyasi şəraitdən asılı olaraq məşğulluq sahəsində siyasətin həyata keçirilməsində işə götürənə daha çox sərbəstlik verir.


MUZDLU İŞÇİLƏR TƏRƏFİNDƏN SOSİAL SIĞORTAYA AYIRMALAR – sosial təminat fondlarına muzdlu işçilər tərəfindən, sığorta proqramlarını idarə edən sığorta müəssisələri və ya digər institusional vahidlər tərəfindən ödənilən sosial sığortaya ayırmalar növü. Milli hesablar sistemində gəlirin ikinci bölgüsü hesabının göstəricisi.

MUZDLA İŞƏ GÖTÜRƏNLƏR TƏRƏFİNDƏN SOSİAL SIĞORTAYA FAKTİKİ AYIRMALAR – sosial tə-

minat fondlarına muzdla işəgötürənlər, habelə işçilərini sosial yardımla təmin etmək üçün sığorta proqramlarını idarə edən sığorta müəssisələri və ya digər institusional vahidlər tərəfindən bilavasitə ödənilən sosial sığortaya ayırmalar. Sosial sığortaya muzdla işə götürənlərin ayırmaları göstəricisinin tərkib hissəsi kimi gəlirlərin əmələ gəlməsi hesabında milli hesablar sistemində istifadə olunur.

MUZDLA İŞƏ GÖTÜRƏNLƏR TƏRƏFİNDƏN SOSİAL SIĞORTAYA ŞƏRTİ HESABLANMIŞ AYIRMALAR – üçüncü tərəf – muzdlu işəgötürənlər ixtisaslaşdırılmış sığorta və ya pensiya fondunu cəlb etmədən muzdlu işçilərin sosial hüquqlarını de-fakto təmin etmək öhdəliyini üzərinə götürdükləri halda, sosial sığortaya ayırmaların müəyyən normativləri üzrə həmin muzdla işə götürənlər tərəfindən ehtiyatda qalmalı olan kəmiyyət. Bu kəmiyyət sosial yardımların və əlavə pensiyaların ödənilməsi üçün nəzərdə tutulur. Muzdla işə götürənlər tərəfindən sosial sığortaya şərti hesablanmış ayırmalar göstəricisi muzdla işə götürənlər tərəfindən sosial sığortaya faktiki ayırmalarla birlikdə muzdla işə götürənlər tərəfindən sosial sığortaya ayırmaları əmələ gətirir ki, bunlar da muzdlu işçilərin əməyinin ödənilməsi tərkibində gəlirlərin ilkin bölgüsü hesabında əks olunur.


MUZDLA İŞƏ GÖTÜRƏNLƏRİN SIĞORTALANMASI – sahibkara ödəmə məbləğini zəmanət verən sığorta növü; sahibkar bu məbləği ona (fəhləyə) istehsalda bədbəxt hadisə nəticəsində onun xəsarət alması və ya ölümü ilə əlaqədar ödəməlidir. Bu ödəməni sahibkar qanunvericiliyə uyğun olaraq könüllü və ya məhkəmənin qərarı ilə ödəyir.



MUZDLA İŞLƏYƏNLƏR QARŞISINDA SAHİBKARLARIN MƏSULİYYƏT SIĞORTASI – işsizlik zamanı sığorta növü; belə sığorta fondları sahibkarların müntəzəm ayırmaları hesabına formalaşır. Bəzi ölkələrdə bu sığorta növü icbaridir.

MUZDLU ƏMƏK – mülkiyyətçisi olmayan təsisatda müqavilə əsasında muzdla işləyən işçinin əməyi.

MUZDLU İŞÇİLƏRİN ƏMƏK HAQQI – işəgötürənin müəyyən dövr ərzində yerinə yetirilmiş işə görə muzdlu işçilərə pulla və natural formada məhsulla ödədiyi haqqın məbləğidir. Ona əmək haqqından vergilər və tutulan digər məbləğlər də daxil edilir. Əmək haqqına maliyyələşdirmə mənbələrindən asılı olmayaraq pul və natural məhsul formasında hesablanmış bütün ödənişlər (müxtəlif növ mükafatlar, əlavələr və sosial güzəştlər) daxil edilir. Belə ödənişlər aşağıdakılardan ibarətdir: görülmüş işə (işlənmiş vaxta) görə günəmuzd ödənişlər, tariflər üzrə ödənişlər, vəzifə maaşı və gəlirdən faizlər, mənfəətdən hesablanmış əmək haqqı; həvəs-



Sxem 1

ləndirmə məqsədilə ödəmələr (mükafatlar, aylıq tarif və maaşa əlavələr; iş rejimi və əmək şəraiti ilə əlaqəli əlavə ödənişlər; qanunvericiliyə uyğun olaraq işlənməmiş vaxta görə (məsələn, məzuniyyətə görə) ödənişlər; faizli haqq və komission haqqı; ixtisasartırma və kadrların yenidən hazırlanması məqsədilə təhsil alarkən işçilərə verilən əmək haqqı; işçilərin günahı olmadan zay məhsulun (işlərin, xidmətlərin) istehsalı üçün haqq; müəssisədə istehsalat təcrübəsi keçən tələbə və şagirdlərə verilən əmək haqqı; xüsusi müqavilələr əsasında müəssisələrdə işləməyə cəlb edilmiş, əvəzçilik yolu ilə digər müəssisə və təşkilatlardan işə qəbul edilən şəxslərə əmək haqqı; yeməkxanalarda, bufetlərdə, profilaktoriyalarda işçilərin yeməyinin dəyərinin artmasına görə əlavə ödənişlər, habelə məktəbəqədər uşaq müəssisələrində, sanatoriyalarda və sağlamlıq düşərgələrində yerləşən uşaqlara verilən əlavə ödənişlər; hökumət qərarı ilə gəlirlərin indeksləşdirilməsi ölçülərindən artıq istehsal üçün qiymətlərin bahalaşmasına görə əlavə ödənişlər; ev qulluqçularına ödənilən əmək haqqı; "çay pulu". Milli Hesablar Sistemində istifadə edilən göstəricidir.


MÜASİR İQTİSADİ TSİKL – XX əsrin ikinci yarısından başlayaraq iqtisadi tsikldə bir sıra yeni xüsusiyyətlər yaranmışdır. Bu xüsusiyyətlərin yaranmasının səbəbləri çoxdur. Onların arasında istehsalın və mübadilənin ictimailəşməsinin artmasını, beynəlxalq inteqrasiyanın inkişafını, dövlətin antiböhran siyasətini qeyd etmək olar. *Müasir iqtisadi tsiklin* aşağıdakı xüsusiyyətlərini göstərmək olar:

Böhranlar arasında intervallar, tsiklin davametmə müddəti XIX əsrin axırları – XX əsrin birinci yarısında 11-12 il olduğu halda indi bu interval 6-7 ilə bərabərdir;

Böhran fazası ölkələrin əksəriyyətində eyni vaxtda başlanır, halbuki əvvəllər böhranlar daha asinxron şəkildə təzahür edirdi;

Böhranlar xroniki inflyasiya və işsizlik fonunda baş verir, bu





Sxem 2

halda böhran iqtisadiyyatının yeni növü – staqflyasiya iqtisadiyyatı yarana bilər: iqtisadiyyatda eyni vaxtda həm staqnasiya (durğunluq), həm də inflyasiya müşahidə olunur;

Böhranların növbələşmə ardıcıllığı dəyişmişdir, o qədər də dərin olmayan və uzun müddət davam etməyən bir neçə böhrandan sonra inkişaf etmiş ölkələrin çoxunda iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən klassik böhran başlanır. 1974-1975, 1980-1982, 1991-1993-cü illərdəki böhranlar bu qəbildən idi;

Dövlət fəal antiböhran siyasəti yeritməyə başlamışdır. Bu siyasət bütün iqtisadi tsiklin gedişinə güclü təsir göstərir.

Nəticədə, iqtisadi tsiklin fazaları arasında sərhədlər silinmiş, bu fazalar rəvan şəkildə bir-birini əvəz etməyə başlamışdır. Bu halda bəzi fazalar ötürülə bilər. Böhrandan sonra depressiyadan yan keçməklə canlanma başlanır. Bütün bu xüsusiyyətlər iqtisadi tsiklin gedişinə, onun fazalarına və bu fazaların növbələşməsinə ciddi təsir göstərir. İqtisadi tsiklin dəyişməsinə səbəb olan tədbirlər arasında dövlətin antiböhran siyasəti xüsusi rol oynayır. İş burasındadır ki, iqtisadi qeyri-sabitlik müasir dünyanın xarakterik cəhətidir. Buna görə dövlətlərin əksəriyyəti iqtisadiyyatda tsiklin dəyişikliklərinin yumşaldılmasına yönəlmiş antiböhran siyasəti işləyib hazırlayır və həyata keçirir.

MÜAVİNƏT – qanunvericiliklə nəzərdə tutulan hallarda vətəndaşlara verilən pul ödəməsi; qocalığa görə, xəstəliyə və

əmək qabiliyyətinin itirilməsinə görə və bəzi digər hallarda maddi təminat forması. Müavinət 3 qrupa bölünür: 1) dövlət pensiyası almayan və heç bir gəlir mənbəyi olmayan qocalara və əlillərə, uşaqlıqdan əlillərə, cüzam xəstəliyinə görə verilən müavinət; 2) müvəqqəti olaraq əmək qabiliyyətini itirənlərə, hamilə və azyaşlı uşağı olan qadınlara verilən müavinət; 3) uşaqlı ailələrə verilən müavinət; çoxuşaqlı və tək analara aylıq və birdəfəlik verilən müavinət; az təmin olunmuş ailələrin uşaqlarına verilən aylıq müavinət; müddətli qulluqda olan hərbi qulluqçuların uşaqlarına verilən müavinət. Çoxuşaqlı analar dördüncü və hər sonrakı uşaq anadan olanda aylıq müavinət alır; bundan əlavə üçüncü və hər sonrakı uşaq anadan olanda birdəfəlik müavinət verilir.

MÜBADİLƏ DƏYƏRİ – bir əmtəənin digərinə münasibətdə alıcılıq qabiliyyətini xarakterizə edən əmtəə istehsalı və tədavülü hadisəsi. Bilavasitə mübadilə dəyəri mübadilə olunan əmtəələr arasında miqdar nisbətidir; məsələn, X əmtəə A = Y əmtəə B. Mübadilə dəyəri, yəni bu tənlikdə X kəmiyyətində əmtəə "A"-nın alıcılıq qabiliyyəti məhz Y kəmiyyətində əmtəə "B" ilə müəyyən olunur. Xüsusi iqtisadi hadisə kimi mübadilə dəyəri hələ antik dünyanın mütəfəkkirləri olan Ksenofont və Aristotel tərəfindən aşkar və təsvir edilmişdir. Aristotelin "Siyasət" əsərində əmtəənin mübadilə dəyəri ilə istehlak dəyəri fərqləndirilir. Aristotel yazırdı: "Hər cür sahiblikdə obyektin istifadə edilməsi ikilidir... Məsələn, ayaqqabıdan həm ayağa geyməkdən ötrü, həm də onu digər bir şeyə dəyişməkdən ötrü istifadə olunur". Mübadilə dəyəri meyarı elmi dövriyyəyə ilk dəfə 1776-cı ildə ingilis klassik siyasi iqtisad məktəbinin əsasını qoyanlardan biri olan A.Smitin "Xalqlar sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" kitabında gətirilmişdir. A.Smit qeyd edirdi: "Dəyər" sözü iki müxtəlif mənaya malikdir: bəzən o, hər hansı predmetin faydalılığını, bəzən isə bu predmetə sahib olmanı təmin edən digər predmetlərin əldə edilməsi imkanını ifadə edir. Birincini "istehlak dəyəri", ikincini isə "mübadilə dəyəri" adlandırmaq olar. Mübadilə dəyərinin mahiyyət xarakteristikası K.Marks tərəfindən "Kapital" əsərində verilmişdir.

Hadisələrin səthində mübadilə olunan əmtəələrin miqdar nisbəti kimi çıxış edən mübadilə dəyəri əslində bir əmtəənin ona mübadilə olunan digər əmtəənin dəyərinin maddi ifadəsidir. Bu cür təzahür forması əmtəə istehsalına çəkilən, bilavasitə əmək məsrəfləri ilə tənzimlənən əmtəə istehsalçılarının spesifik sosial-iqtisadi münasibətləri kimi əmtəə dəyərinin xalis ictimai təbiətini əks etdirir. Bununla belə, əmtəənin dəyərinin digər əmtəənin istehlak dəyərində ifadə olunması dəyərin yeganə mümkün təzahür forması olsa da, dəyərin kəmiyyət müəyyənliyini ehtiva etmir. Əmtəə dəyərinin ona sərf olunan iş vaxtının saatlarda, yaxud hər hansı bir süni "dəyər göstəricilərində" (utopik sosialistlərin "ədalətli mübadilə bazarları"nın yaradılması, rikardoçuların, prudonçuların və onların "işçi", "əmək", yaxud "zəhmətli" pullar konsepsiyaları ilə "mübadilə bankları" və s. layihələri) kəmiyyətcə ifadə olunma cəhdləri tam iflasa uğradı, çünki ictimai münasibət kimi dəyər yalnız əmtəələrin bir-birinə ictimai münasibətində, yəni mübadilə dəyəri vasitəsi ilə ifadə edilə bilər. Əmtəə münasibətlərinin inkişafı ilə mübadilə dəyəri də inkişaf edir. Bu prosesin əhəmiyyəti onunla müəyyən edilir ki, o, mübadilə dəyərinin spesifik forması kimi pulun yaranmasına gətirib çıxarır. Əmtəə münasibətlərinin təşəkkül tapmasının ən erkən mərhələlərində, epizodik hallarda baş verən mübadilə aktları şəraitində əmtəənin dəyəri yeganə ifadəsini ona mübadilə olunan digər əmtəənin istehlak dəyərinin miqdarında tapdı. Buna görə də dəyərin belə təzahür forması sadə, tək və təsadüfi dəyər forması adını aldı.

Əmtəə sövdələşmələrinin sürətlənməsi ilə əmtəənin dəyəri ona mübadilə olunan əmtəələrin istehlak dəyərlərinin daha çox müxtəlifliyində təzahür olmağa başlayır. Tam və ya geniş dəyər forması meydana gəlir. Əmtəə münasibətlərinin daha da inkişaf etməsi onun ümumi dəyər formasına çevrilməsinə gətirib çıxarır, bunun da xüsusiyyəti ondan ibarətdir ki, daha çoxlu sayda mübadilə olunan əmtəələrin dəyəri hər hansı bir əmtəənin istehlak dəyərinin miqdarında bir formada ifadə olunmağa başlayır.

İlkin olaraq bu rolda elə əm-

təələr çıxış edirdilər ki, onların istehlak dəyəri yerinə yetirdikləri ictimai funksiyaya – mübadilə dəyərinin maddi daşıyıcısı olmaq tələblərinə tam cavab vermirdi. Əmtəələri onlar tərəfindən istehlak dəyərinin itkisi olmadan hissələrə bölmək olmazdı, çox zaman onları qoruyub saxlamaq və yerini dəyişdirmək və s. çətin idi. Bu, bir qayda olaraq, elə əmtəələr idi ki, onlara – təminatlı tələbat var idi, məsələn, mal-qara, xəz, çul və s. Buna görə də bunlar spesifik əmtəələr – əmtəə mübadiləsi vasitəçiləri qismində çıxış edə bilirdilər. Ümumi dəyər forması rolunda metallar, o cümlədən qızıl və gümüş çıxış edən zaman həmin metallar pul dəyər formasına çevrilir. Beləliklə, əmtəə münasibətlərinin inkişafı mübadilə dəyərinin mövcud olmasının müstəqil əlahiddə maddi forması kimi pulun yaranmasına gətirib çıxardı. Bununla əlaqədar pul əmtəəsinin istehlak dəyəri miqdarında təqdim olunan əmtəənin mübadilə dəyəri rolunda çıxış edən qiymət kimi əmtəə münasibətlərinin belə spesifik hadisəsi meydana gəldi. Mübadilə dəyərinin tələbatdan və onun çoxluğundan, alıcıların subyektiv zövqlərindən və üstünlüklərindən, tələb və təklifin daim dəyişən nisbətindən və s. asılılığını əks etdirən bu mübadilə dəyərinin kəmiyyətcə funksional qanunauyğunluqları (tələb qanunu, təklif qanunu, tələb və təklifin elastikliyini müəyyən edən qanunauyğunluqlar) hər şeydən əvvəl ingilis alimi A.Marşalın 3 cildlik "İqtisad elminin prinsipləri", marjinalizmin nümayəndələrindən K.Mengerin "Siyasi iqtisadın bünövrələri", Y.Bem-Baverkin "Təsərrüfat nemətlərinin dəyər (qiymət) nəzəriyyəsinin əsasları", F.Vizerin "İctimai təsərrüfat nəzəriyyəsi", eləcə də neoklassik məktəbin müasir nümayəndələrindən C.R.Hiksin "Dəyər və kapital", P.Samuelsonun "İqtisadiyyat" və s. əsərlərində tədqiq edilmişdir.

MÜBADİLƏ ƏQDİ – birjada: "nağd pul ilə mübadilə" əqdi. Həmin əqdə uyğun olaraq, alıcı ekvivalent həcmdə nağd malın müqabilində özünün uzunmüddətli fyuçers kontraktını və ya malın razılaşdırılmış qiymət üzrə verilməsi müqabilində müvafiq qısamüddətli fyuçers kontraktını satıcıya verir.

MÜBADİLƏ MƏZƏNNƏLƏRİ SİSTEMİ – ölkənin mərkəzi bankının xarici valyuta bazarında davranışını əks etdirən norma və qaydaların məcmusu. Bu sistemin əsas qaydalarına aşağıdakılar aiddir: mərkəzi bankın müdaxiləsinin köməyi ilə mübadilə məzənnələrinin sabit vəziyyətdə saxlanması və ya mərkəzi bankın müdaxiləsi olmadan məzənnələrin mütləq çevikliyinin saxlanması. Valyuta bazarlarında vaxtaşırı müdaxilə etməklə milli valyutanın məzənnəsinin artmasının və ya aşağı düşməsinin qarşısını alırlar. Bank sistemində bu kimi əməliyyatlar mübadilə dərəcələrinin "çirkli" üzməsi kimi də işlədilir.

MÜBADİLƏ TƏNLİYİ – bu tənliyə görə pul kütləsinin qiymətinin pulun dövriyyə sürətinə hasili qiymətlərin səviyyəsinin real milli məhsula hasilinə bərabərdir: $MV = PQ$, burada M – dövriyyədə olan pulun miqdarı, V – pulun dövriyyə sürəti, P – əmtəə və xidmətlərin satış qiyməti, Q – satışın həcmidir. Onu Amerika iqtisadçısı İrvinq Fişerin (1867-1947) adı ilə Fişer tənliyi də adlandırırlar və o, monetar doktrinanın alətlərindən biridir.

MÜBAHİSƏLİ BORC – mübahisə doğuran, isbat edilməsi tələb olunan borc.

Borclu olması ehtimal edilən təşkilat kreditor müəssisə qarşısında öhdəliklərini yerinə yetirməkdən imtina edirsə, kreditorun isə borc almasını təsdiqləyən sübutları yoxdursa və ya kifayət deyildirsə, bu halda mübahisəli borc yarana bilər. Əgər kredit müqaviləsi yoxdursa və ya düzgün tərtib edilməmişdirsə, əgər borclu təşkilat yenidən təşkil edilmişdirsə, bu zaman köhnə öhdəlikləri üzrə ödənişdən imtina edirsə və digər oxşar hallarda mübahisəli borc yaranır.

Mübahisəli borclar üzrə ödəniş məsələsi adətən arbitraj məhkəmələrində həll edilir, bu məhkəmənin qərarları hər iki tərəf üçün məcburidir. Əgər məhkəmə mübahisəli borcu həqiqi borc hesab edərsə, borclu təşkilat onu ödəməyə borcludur; əgər borc həqiqi borc hesab edilməzsə, onda kreditor təşkilat həmin borcu zərər kimi silir və ya şübhəli borclar üzrə ehtiyat hesabına ödəyir.

MÜCƏRRƏD MÜQAVİLƏ – tərəflərin hüquq və vəzifələri dəqiq müəyyən edilmədən bağlanmış müqavilə.

Əqd bağlanmasının hazırlıq mərhələlərinin gedişində bağlana bilər.

MÜDAFİƏ ETMƏ SXEMİ – müdafiə etmə səviyyələrinin spektridir ki, təşkilatda dəyişikliklərin tətbiqi zamanı bunu gözləmək olar. Bəzən bu sxemi "müdafiə nərdivanı" da adlandırırlar ki, bunun da hər pilləsi yeniliklərin müdafiəsinin daha yüksək səviyyəsi deməkdir.

MÜDDƏTLİ ƏQD – bu kontrakta əsasən, tərəflərdən biri gələcəkdə müəyyən anda müəyyən miqdarda malı və ya maliyyə alətlərini göndərməyi öhdəyə götürür, digər tərəf isə onların haqqının müəyyən edilmiş qiymət üzrə ödəniləcəyinə zəmanət verir.

Adətən bu cür kontraktların hər biri, şərtləri standartlaşdırılmış fyuçers kontraktlarından fərqli olaraq, ayrılıqda bağlanır.

Müddətli əqdlərin növləri:

1) forvard;
2) fyuçers;
3) svop;
4) opsionlar;
5) müxtəlif opsionların kombinə edilmiş əqdlər (ikiqat opsion, spred, strenql).

Müddətli əqdlər bağlanma və icra üsullarına, zəmanət şərtlərinə, bağlanma yerinə, risklərdən (kredit, maliyyə, əməliyyat risklərindən) qorunma dərəcəsinə görə bir-birindən fərqlənir. Müddətli əqdlər çox vaxt ya sığortalama (hec) məqsədilə, ya da spekulyasiya (məkan və ya zaman spekulyasiyası) məqsədləri üçün istifadə edilir.

MÜDDƏTLİ ƏMANƏT – faiz hesablanmaqla əvvəlcədən şərtlənmiş (nəzərdə tutulmuş) müddətə banka və ya digər maliyyə kredit idarəsinə köçürülən hüquqi və ya fiziki şəxsin pul əmanəti. Əmanət bankı ənənəvi müddətli əmanətlərlə yanaşı, müddətli depozitlərlə də əməliyyatlar aparır. Müddətli əmanətin məbləği müqavilənin fəaliyyət göstərdiyi (qüvvədə olduğu) müddət ərzində dəyişməz qalır ("əlavə haqlarla müddətli əmanət" istisna təşkil edir). Müddətli əmanətin vaxtından əvvəl çıxarılması zamanı müştəri əmanətə görə hesablanan faizlərdən tam və ya qismən məhrum ola bilər. Müddətli əmanətin növlərinə daxildir: a) xüsusi müddətli əmanət, onun müddəti əvvəlcədən razılaşdırılır və yenidən nəzərdən keçirilmir; b) müddətli depozitlər, onların davamiyyət müddəti 1, 2, 3, 6 ay və daha çoxdur, qısa depozitlər üçün isə 1, 2, 3 həftədir; adətən Əmanət bankında müddətli depozitlər 3, 6 aya və 1 ilə qəbul olunur; banklarda iri məbləğ yerləşdirilən zaman onların qorunma müddəti tərəflərin razılığı ilə fərdi olaraq müəyyən edilə bilər; c) ilkin bildirişlə müddətli əmanət, bununla əmanətin çıxarılması haqqında banka ilkin bildiriş üçün müddət müəyyən edilir; əmanətə görə faiz dərəcəsinin səviyyəsi bu müddətin davamiyyətindən asılıdır; ç) pul vəsaitlərinin əmanəti haqqında emitent bankın yazılı şəhadətnaməsini təsdiq edən və əmanətin məbləği və əmanətə görə faiz müddəti bitdikdən sonra əmanətçinin və ya onun varisinin onu almasını təsdiq edən depozit sertifikatı. Depozit sertifikatının sahibi yalnız hüquqi şəxs ola bilər.

MÜDDƏTLİ HƏYAT SIĞORTASI – polisin (sığorta vəsiqəsinin) təsbit olunmuş müddəti ilə sığorta növü; onun sahibi yalnız ölümdən sığortalanmanın dəyərini keçirir.

MÜDDƏTLİ QƏTİ ƏQD – bu birja əqdinə görə öhdəliklər müəyyən müddətdə əqdin bağlandığı anda qeydə alınmış məzənnələr (qiymətlər) üzrə yerinə yetirilməlidir.

MÜDDƏTLİ SIĞORTA – göstərilmiş dövr ərzində sığortalının ölümü zamanı sığorta məbləğinin ödənilməsinə zəmanət verir.

MÜDDƏTLİ VEKSEL – üzərində müddəti və məhdud ödəniş vaxtı təsbit edilmiş veksel. Müddətli veksel həmin müddətə uyğun olaraq ödənişə təqdim edilir. O, tam dəyəri üzrə ödənilməlidir. Lakin bu veksel üzrə qismən ödəniş də ola bilər və vekselsaxlayanın bundan imtina etməyə ixtiyarı yoxdur. Veksel ödənildikdə ləğv edilir. Vekselverən veksel məbləğinə faiz əlavəsi nəzərdə tutduğu halda, vekselsaxlayan onu ödəməlidir. Bu, əvvəlcədən müəyyənləşdirilmiş gündə təqdim edilən və ya təqdimindən sonra müəyyən aralıq vaxtda ödənilən vekselləre aiddir. Qalan vekselllərdə bu şərt yazılmamış hesab olunmalıdır.

Vekselin müddəti

Veksellərin müddəti aşağıdakı tədiyə tarixləri ilə müəyyən edilir:

1) təqdim edildiyi gün (verildikləri tarixdən 1 il ərzində ödənişə təqdim edilə bilər). Vekselverən belə bir şərt də qoya bilər ki, bu veksel müəyyənləşdirilmiş tarixdən tez ödənişə təqdim edilə bilməz. Həmin müddət vekselverən və ya in-



dossantlar tərəfindən istənilən tərəfə dəyişdirilə bilər;
2) təqdimindən sonra müəyyən aralıq vaxt. Təqdimindən sonra müəyyən aralıq vaxtda ödənişə təqdim olunan veksellər üzrə tədiyə müddəti aksept (və ya şikayət) tarixi ilə müəyyən edilir. Akseptantdan şikayət verilməyibsə, tarixi qoyulmamış aksept vekselin akseptləşdirilməsi üçün nəzərdə tutulmuş müddətin sonuncu günü hesab olunur;
3) tərtibindən sonra müəyyən aralıq vaxt. Bu halda tədiyə müddəti veksel tərtib edildiyi an dərhal müəyyən edilir. Bundan nadir hallarda istifadə olunur;
4) əvvəlcədən müəyyən edilmiş tarix. Tədiyə tarixi (konkret gün və ya təqdimindən, yaxud tərtibindən sonrakı vaxt) əvvəlcədən müəyyən edilmiş veksellər həmin müddətdə (və ya növbəti iş günlərindən birində) ödənişə təqdim edilir.

MÜDDƏTSİZ ƏMANƏT – bankda və ya digər kredit maliyyə idarəsində tələb olunana qədər pul əmanəti; onun qorunması əvvəlcədən müəyyən edilmiş hər hansı bir müddətlə məhdudlaşır. O, bankdan əmanətçinin istəyinə görə qismən və ya tam olaraq götürülə bilər.

MÜƏLLİF HÜQUQLARINDAN İSTİFADƏ – müəlliflik hüququnun tərkib hissəsi olan əmlak hüquqlarından gəlir götürmək məqsədilə açıqlanmış əsərin hər hansı üsulla surətinin çıxarılması, yayılması, kirayəyə verilməsi, idxal edilməsi, kütləvi nümayişi, kütləvi ifası, efirlə kütləvi bildirişi, kabellə kütləvi bildirişi, tərcüməsi, yenidən işlənməsi və digər üsullarla istifadəsi. Başqa şəxslər tərəfindən əsərdən analoji istifadə istisna olunur. Müəlliflik hüququ ilə qorunan əsərdən qonorar ödənilməsi şərti ilə istifadəyə icazə verilməsi də müəlliflik hüququndan istifadə sayılır.

MÜƏLLİF QONORARI – qorunan əsərlərdən istifadəyə görə müəllif hüququ ilə müəyyən edilmiş həddə müəlliflərə ödənilən bütün növ haqlar və ya kompensasiyalar. Əsərdən istifadə hüququna görə ödənilən qonorar müəllifin iqtisadi (əmlak) hüquqlarının ən mühüm aspektidir.

MÜƏLLİF MÜQAVİLƏSİ – müəllifin əsərindən istifadə edilməsi ilə bağlı müstəsna və ya müstəsna olmayan hüquqlarının müəyyən haqq müqabilində verilməsi haqqında müqavilə.

Müəllif istifadəçiyə aşağıdakı hüquqları verə bilər:
– əsərin təkrar çap (ifa) edilməsi;
– yayılması;
– idxal edilməsi;
– kütləvi şəkildə nümayiş etdirilməsi;
– kütləvi şəkildə ifa edilməsi;
efirə verilməsi;
– kabel vasitəsilə hamıya çatdırılmaq üçün məlumat;
– tərcümə;
– yenidən işləmə.

Müqavilədə müəllifin hüquqları istifadəçiyə hansı müddətə verməsi göstərilə bilər. Adətən, mükafat əsərdən istifadə edilməsi hesabına alınan mənfəətdən faiz şəklində ödənilir, lakin sabit məbləğ də müəyyən edilə bilər.

Müqavilədə göstərilmiş öhdəlikləri yerinə yetirməmiş və lazımınca yerinə yetirməmiş tərəfə qüvvədə olan qanunvericiliyə müvafiq sanksiyalar tətbiq edilir.

MÜƏLLİF OPSİONU (ing. *authors option*) – əcnəbi müəlliflər tərəfindən yazılmış əsərlərin nəşri haqqında kontraktlar, müqavilələr bağlanması zəruri olduqda tətbiq edilir. Müəllif hüququna malik olan əcnəbi yazıçı ilə müəllif opsionu haqqında müqaviləyə əsasən həmin

müəllifin əsərinin nəşr edilməsinin mümkünlüyünü müəyyən etmək məqsədilə bu əsər nəşriyyata daxil olur. Bu halda nəşriyyat müəyyən olunmuş müddətdə müvafiq cavab verməyə borcludur. Bu müddət ərzində müəllif hüququnun və əsərin sahibi həmin əsərin həmin dildə nəşr edilməsi barədə başqa nəşriyyatla bu cür saziş bağlaya bilməz. Adətən bu cür sazişdə hər hansı ödəniş nəzərdə tutulmur.

MÜƏLLİFLİK HÜQUQU – elm, ədəbiyyat və incəsənət əsəri müəlliflərinin hüquqlarını ifadə edən hüquqi termin. Obyektiv mənada müəlliflik hüququ əsərlərin yaradılması və istifadəsi üzrə münasibətləri tənzimləyən hüquqi normaların


© copyright

all rights reserved

məcmusudur və qorunma aləti kimi çıxış edir, subyektiv mənada isə öz-özlüyündə əsərlərin yaradıcılarına məxsus olan şəxsi (qeyri-əmlak) və əmlak (iqtisadi) hüquqlardır və bu hüquqlar müstəsna xarakterə malikdir.

MÜƏLLİFLİK HÜQUQUNUN ƏRAZİ XARAKTERİ – hər hansı ölkənin müəllif hüquqları qanunvericiliyinin onun sərhədlərindən kənarda qüvvəsinin olmadığını göstərən hüquqi fakt.

MÜƏLLİFLIK HÜQUQUNUN QÜVVƏDƏ OLMA MÜDDƏTİ – əsərin yaradılması anından başlayaraq yaranan müəlliflik hüququnun qanunvericiliklə müəyyən edilmiş qorunma müddəti. Müəllifin şəxsi (qeyri-əmlak) hüquqlarının qorunması müddətsizdir. Mövcud müəllif hüquqları qanunvericiliyinə uyğun olaraq, müəlliflik hüququ əsərin yaradılması anından başlayaraq, müəllifin həyatı boyu və onun ölümündən sonra 70 il müddətində qorunur. Bu müddətdə qorunan əmlak hüquqlarıdır. Qanunvericilikdə müəlliflik hüququnun xüsusi qorunma müddətləri də müəyyən edilmişdir: anonim və ya təxəllüslə dərc edilmiş əsərə müəlliflik hüququ həmin əsərin qanuni dərc edildiyi tarixdən etibarən 70 il, şərikli əsərə müəlliflik hüququ müəlliflərin həyatı boyu və şərik müəlliflərin axırıncısının vəfatından sonra 70 il müddətində qüvvədə qalır. Müəllifin vəfatından sonra 30 il müddətində ilk dəfə dərc edilmiş əsərə müəlliflik hüququ onun qanuni


(261)

Anno Octavo

Annæ Reginæ.

An Act for the Encouragement of Learning, by veſting the Copies of Printed Books in the Authors or Purchaſers of ſuch Copies, during the Times therein mentioned.

Whereas Printers, Booksellers, and other Perſons have of late frequently taken the Liberty of Printing, Reprinting, and Publiſhing, or cauſing to be Printed, Reprinted, and Publiſhed Books, and other Writings, without the Conſent of the Authors or Proprietors of ſuch Books and Writings, to their very great Detriment, and too often to the Ruin of them and their Families: For Preventing thereof for the future, and for the Encouragement of Learned Men to Compoſe and Write uſeful Books; May it pleaſe Your Majeſty, that it may be Enacted, and be it Enacted by the Queens moſt Excellent Majeſty, by and with the Advice and Conſent of the Lords Spiritual and Temporal, and Commons in this preſent Parliament Aſſembled, and by the Authority of the ſame, That from and after the

İlk dəfə müəlliflik hüququnu tətbiq edən kraliça Annanın statutu (hüquqi akt) 10 aprel 1710-cu il

dərc edilmə tarixindən sonra 70 il müddətində qüvvədə qalır. Kollektiv əsərə müəlliflik hüquqları belə əsərin dərc edildiyi, dərc edilməmişdirsə, yaradıldığı tarixdən 70 il müddətində qüvvədə qalır. Qorunma müddətləri bitdikdən sonra əsər və ya əlaqəli hüquqların obyektləri iqtisadi dövriyyədən çıxarılmır və qanunvericilikdə nəzərdə tutulmuş hallarda dövlət varidatı elan edilə bilər.

MÜƏLLİFLİK HÜQUQUNUN POZULMASI – müəlliflik hüququ ilə qorunan və istifadə edilməsi üçün qanunla icazə tələb olunan əsərdən icazəsiz istifadə. Qanunvericilikdə nəzərdə tutulan xüsusi hallar istisna olmaqla, əsərin icazəsiz surətinin çıxarılması, yayılması, kirayəyə verilməsi, idxal edilməsi, kütləvi nümayişi, kütləvi ifası, kütləvi bildirişi, efirlə kütləvi bildirişi, kabellə kütləvi bildirişi, tərcüməsi, yenidən işlənməsi və digər üsullarla istifadəsi müəllifin hüquqlarının pozulması hesab olunur.

MÜƏLLİFLİK ŞƏHADƏTNAMƏSİ – müəllifin ixtira hüququnu təsdiq edən sənəd. Əgər müəllif öz ixtirasına müstəsna hüququnu qoruyub saxlayırsa, onda belə müəllif şəhadətnaməsi patent adlanır.

MÜƏSSİSƏ – ictimai tələbatın ödənilməsi və mənfəət alması məqsədi ilə məhsul istehsal edən və satan, işlər görən və xidmətlər göstərən hüquqi şəxs olan müstəqil təsərrüfat subyekti ("Müəssisələr haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsi).

Müəssisə təşkilati-hüquqi forması göstərilməklə xüsusi ada malik olur. Qanunvericiliyə müvafiq olaraq dövlət, kollektiv, xüsusi və qarışıq mülkiyyət formalarına əsaslanan müəssisə növləri fəaliyyət göstərə bilər. Müəssisələr dövlət müəssisəsi, fərdi (ailə), şərikli (tam ortaqlı), payçı və şərikli (kommandit ortaqlıqlar), məhdud məsuliyyətli müəssisələr və səhmdar cəmiyyəti kimi təşkilati-hüquqi formalarda fəaliyyət göstərirlər.

Ana şirkət, müəssisə – kapitalın xeyli hissəsinə sahib olan və ya onun bölmələrindən biri kimi tanınan, digər şirkət üzərində nəzarət etmək üçün səslərin böyük hissəsinə malik olan şirkət. **Qeyd:** "Şirkətin rəsmi ünvanı" anlayışından fərqlidir.

MÜƏSSİSƏ ƏMLAKI – müəssisənin dövriyyə və dövriyyədənkənar aktivlərinin məcmusu.

MÜƏSSİSƏ, İDARƏ VƏ TƏŞKİLATLAR HESABINA İŞÇİLƏRİN SIĞORTALANMASI – əvvəllər keçmiş SSRİ-də SSRİ və ya müttəfiq respublikaların Nazirlər Sovetinin icazəsi ilə həyata keçirilirdi. Bu zaman sığorta ödənişi işdə sığortalanmışın bədbəxt hadisə nəticəsində baş verən ümumi əmək qabiliyyətinin daimi itirilməsi və ya ölümü zamanı nəzərdə tutulurdu. Sığorta haqlarını yalnız müəssisə, təşkilat və idarələr ödəyirdilər. Hazırda bu sığorta növü dövlət və qeyri-dövlət sığortasına bölünür. İndi bu məsələni müəssisələr, təşkilatlar və idarələr özləri həll edə bilərlər.

MÜƏSSİSƏDƏ İSTEHSAL ÖZÜNÜİDARƏETMƏSİ – müəssisənin əmlakının (kapitalının) onun sahibləri hüququnda öz işçiləri tərəfindən idarə edilməsinin xüsusi forması. O, şəxsi heyətin nümayəndəli orqanları vasitəsi ilə və ya kənardan dəvət edilmiş, amma müəssisənin işçilərinin nəzarəti altında olan seçkili rəhbərlər vasitəsi ilə həyata keçirilir.

Dünyada istehsal özünüidarəetməsinin təşəkkül tapması tarixi birinci növbədə, kooperativ hərəkatının tarixidir. Hazırda o, sosial yönümlü postindustrial iqtisadiyyatın formalaşması ilə əlaqədar inkişaf üçün yeni təkan və imkan əldə etmişdir. Xaricdə istehsal özünüidarəetmə sistemi (İÖS) işçilərin nəzarətinə keçən müəssisələr şəbəkəsini (kapitalın 50%-dən artığı işçilərin mülkiyyətindədir), işçilərin kollektiv (pay və bölünməz) mülkiyyətli müəssisələrini və istehsal kooperativlərini əhatə edir.

Eyni zamanda əmək nümayəndələri (işçilər kimi) və kapital nümayəndələri (sahibkar kimi) olan bu müəssisələrdə işləyən şəxslərin maraqlarının ikili olması ilə əlaqədar həmin müəssisələr ikiqat məqsəd: kommersiya (sahibkar) və sosial xarakterli (əlavə iş yerlərinin yaradılması, öz üzvlərinin həyat şəraitinin yaxşılaşması, onlar üçün sabit sosial bazanın yaradılması) məqsədlər də güdür.

Özünü idarə edən müəssisələrin fəaliyyət göstərməsinin əsas prinsipləri kooperativ müəssisələrlə, demək olar ki, eynidir: onlar könüllü birləşmə, assosiasiya üzvləri olan işçilərin bərabərliyi, fəaliyyət nəticələrinin yalnız işçilərin əmlak töhfəsinə görə yox, həm də əmək töhfəsinə görə bölgüsü, müəssisənin fəaliyyət nəticələrinə görə məsuliyyətin bərabər bölgüsü prin-

sipi üzrə yaradılır. Belə müəssisələrdə demokratik idarəetmə prinsipi həyata keçirilir: hər bir assosiasiya üzvü 1 səhmə – 1 səsə malikdir. Əmlak bərabərsizliyi prinsipinin fəaliyyət göstərdiyi səhmdar cəmiyyətinin və ya kommersiya müəssisəsinin idarəetmə prinsipindən fərqli olaraq belə müəssisənin fəaliyyətində hər bir assosiasiya üzvü həlledici səsə malikdir (1 adama – 1 səs). Özünü idarə edən müəssisələrdə ehtiyat investisiya fondlarının və işçilərin peşə təhsili fondlarının məcburi olması nəzərdə tutulur.

İÖS-nin çiçəklənməsi və tənəzzülü dövrləri, onun modellərinin və prinsiplərinin transformasiyası, iqtisadiyyatda xüsusi çəkisinin tərəddüd etməsi bu məqamda iqtisadi proseslərin tənzimlənməsində inzibati və bazar alətlərinin üstünlüyündən asılıdır.

Özünü idarə edən müəssisələr inkişaf etmiş və uzun müddət ölkələrin iqtisadiyyatında öz yerini tapmış istehsal kooperativlərinin bazasında təşkil olunmuşdur. 1990-cı illərin əvvəllərində vahid Avropa bazarının formalaşması və bazar mexanizmlərinin təsirinin güclənməsi ilə kooperativlərin yeni şəraitə uyğunlaşması, onların fəaliyyətinin səmərəliyinin yüksəldilməsi və rəqabət qabiliyyəti zəruriliyi yaranmışdır. Bir sıra ölkələrdə (Avstriyada, Belçikada, İtaliyada, Fransada) kooperativlərin fəaliyyət prinsiplərini və mexanizmlərini əhəmiyyətli dərəcədə dəyişdirən qanunverici aktlar qəbul edilmişdir. Bu qanunlar əsasında ilkin haqların yuxarı həddləri artırıldı, xarici əmanətçilərin kooperativ fondlarına əl yetərliliyi (çıxışı) açıldı, üçüncü şəxslərin üzvlüyü institutu tətbiq olundu (səs hüququ olmadan), qiymətli kağızların buraxılışına icazə verildi (üzvlər üçün – səs hüququ ilə, üzvü olmayanlar üçün – səs hüququ olmadan), partisipant müəssisələrlə qarşılıqlı yardım fondlarının yaradılmasına icazə verildi, onların fəaliyyəti üzərində daha ciddi nəzarət tətbiq edildi.

İÖS-nin inkişafı üçün əlverişli sosial-iqtisadi mühitin yaradılmasına istehsalın vergi güzəştləri, öz fəaliyyətinə başlayan kollektiv müəssisələrə kömək göstərməklə, mülkiyyətçi işçilərə və əmək kollektivlərinə məsləhət yardımı ilə istehsal demokratiyası təsir göstərdi. Məsələn, ABŞ-da ESOP (İşçilərin mülkiyyəti ilə bölgüsü planı) işçilərin kollektiv mülkiyyətinin formalaşmasına və fəhlə kooperativlərinin meydana gəlməsinə təkan verdi. 90-cı illərin əvvəllərində 2 min firmada işləyən 1 mln. nəfərə yaxın adam müəssisənin kapitalının 51%-dən çoxuna malik idi; 700-ə yaxın şirkət kollektiv mülkiyyəti hüquqları ilə tam işçilərə məxsus idi. İspaniyada işçilərin mülkiyyəti olan müəssisələrə münasibətdə dövlətin himayəçilik siyasəti ictimai iqtisadiyyat adlanan iqtisadiyyatın inkişafına təsir göstərdi. O, dövlət və xüsusi bölmələrlə yanaşı fəaliyyət göstərir. Kollektiv müəssisələrin, "birləşmiş əmək" kooperativlərinin, "Mondraqon" kooperativ müəssisələr kompleksinin, səhmdar "zəhmətkeşlər şirkəti"nin fəaliyyətinə yerli hakimiyyət orqanları tərəfindən nəzarət olunur, onlar xeyli vergi güzəştlərindən (ölkədə mövcud olan orta mənfəət dərəcəsinin 20%-i həcmində), dövlətin və ictimai institutların maliyyə dəstəyindən istifadə edirlər.

MÜƏSSİSƏLƏRİN MALİYYƏ QRUPLAŞMALARI – maliyyə vəziyyətlərinə, bazarın digər subyektləri ilə ödəniş və hesablaşmaların mövqeyinə, maliyyə dayanıqlığının və ödəniş qabiliyyətinin səviyyəsinə görə şirkətlərin konkret məcmusunun bölgüsünü xarakterizə edən birlik.

Məqsədlərindən asılı olan qruplaşmalar

1. Maliyyə nəticələri üzrə – mənfəət əldə edən və ya zərərə məruz qalan müəssisə üzrə işlənib hazırlanır;
2. Kiçik biznesin müəssisələri üzrə – mənfəət və mədaxil ölçüsünə görə qruplaşmalar işlənib hazırlanır;
3. Ödəniş qabiliyyəti üzrə – müddəti keçmiş debitor və kreditor borcuna malik müəssisələr, ödəniş qabiliyyətinin əmsalı üzrə müəyyən intervallara düşən müəssisələr ayrılır.

İntervallardan hər birinə düşən müəssisələr onların kəmiyyətinə görə (təşkilatların ümumi sayına faizlə), işçilərin orta siyahı sayına görə (işçilərin ümumi sayına faizlə), debitor və kreditor borcunun ölçüsünə görə (ümumi məbləğə faizlə) xarakterizə edilə bilər.

MÜƏSSİSƏLƏRİN, İDARƏLƏRİN VƏ TƏŞKİLATLARIN VƏSAİTLƏRİ HESABINA İŞÇİLƏRİN SIĞORTALANMASI – həyat və sağlamlıq üçün yüksək təhlükəli iş-

lərdə çalışan fəhlə və qulluqçuların şəxsi sığortalanması növü.

MÜƏSSİSƏLƏRİN VEKSELİ – sənaye müəssisəsinin "əmtəə kreditləri", "xidmət kreditləri", pul kreditləri aldığı zaman verdiyi (aldığı) veksel; müəssisənin hər hansı bazar subyektinə borcunun cari səviyyəsini tərtib edən veksel müəyyən olunmuş müddətdə ödənilməlidir.

MÜƏSSİSƏNİN TƏŞKİLATİ STRUKTURU – müəssisələrin bölmələri arasında qarşılıqlı əlaqə.

Müəssisənin xətti-funksional təşkilat strukturu ilk dəfə ABŞ-ın dəmiryolu şirkətləri tərəfindən XIX əsrdə tətbiq edilmişdir. Məhz o zaman dəmir yolu sahəsində qovuşma dalğası başlandı. Bu qovuşmalar nəticəsində əmələ gələn şirkətlər idarəetməni itirməyə başladılar və təşkilati yeniliklərdən istifadə etməyə məcbur oldular.

Müəssisənin qurulmasının xətti-funksional sxemi şəkil 2-də verilmişdir.

Sxemə uyğun olaraq müəssisə funksional əlamətlərinə görə bölmələrə bölünür. Təşkilatın qurulmasının bu üsulu funksional departamentləşmə adlanır. Müəssisə rəhbərliyi hər bir bölmə qarşısında öz dürüst müəyyən edilmiş vəzifəsini qoyur və bu bölməyə müfəssəl reqlamentləşmiş vəzifələr tapşırır. İstehsal bölmələri məhsul buraxılışı, funksional xidmətlər isə onların fəaliyyəti ilə məşğuldurlar.


Müəssisənin əsas funksional xidmətləri marketinq, mühasibat uçotu, maliyyənin idarə edilməsi, iqtisadi planlaşdırma və şəxsi heyətin idarə edilməsi şöbələridir. Təbiidir ki, hər bir konkret müəssisədə funksional bölmələrin miqdarı, onların adları və səlahiyyətləri müxtəlif olur.

Əgər müəssisənin və ya onun hər hansı bir funksional bölməsinin ölçüsü böyükdürsə, onda bu bölmələr öz növbəsində daha kiçik struktur vahidlərinə bölünəcəkdir. Məsələn, mühasibat uçotu bölməsi çərçivəsində ehtiyatların, məsrəflərin, əsas vəsaitlərin və s. uçotu yarımşöbələri yarana bilər. Bu halda bölmələr arasında münasibətlər xətti prinsip üzrə qurulacaqdır: yarımşöbənin müdiri şöbə rəisinə, şöbə rəisi bu fəaliyyət istiqamətinə kuratorluq edən vitse-prezidentə (və ya direktorun müavininə), şöbə rəisi isə öz növbəsində müəssisənin rəhbərinə (prezidentinə, baş direktoruna) tabedir.

Xətti-funksional strukturun üstünlükləri ən çox o halda üzə çıxır ki, müəssisə kütləvi iri seriyalı məhsulların buraxılışı üzrə ixtisaslaşır, istehsal texnologiyaları kifayət qədər zəif dəyişir, müəssisənin xarici mühiti nisbətən sabitdir, bazarda rəqabətin əsas amili isə qiymətdir.


Real şərait bu modeldən nə qədər çox imtina edirsə, xətti-funksional təşkilati strukturun çatışmazlıqları daha güclü təzahür edir.

Bir qayda olaraq, xətti-funksional struktura malik olan müəssisələrin əməkdaşları öz vəzifələrini formal yerinə yetirirlər. Onlar müəssisənin missiyasına laqeyddirlər, firmanın uğurunda onların marağı əmək haqqının artımı imkanı ilə şərtlənir. Belə bir şəraitdə təşəbbüskarlıq göstərmək çətindir. Yaradıcılıq ide-



Sxem 1

Müəssisələrin qurulmasının xətti funksional bölgüsü




Sxem 2

yaları həmkarların və rəislərin laqeydliyi ilə qarşılanır. Əlbəttə, xətti-funksional strukturlu bütün müəssisələrdə belə bir atmosferin olduğunu iddia və təsdiq etmək düzgün olmazdı. Lakin müəssisənin artımının müəyyən mərhələsində bu cür psixoloji iqlimin yaranması ehtimalı yüksəkdir.

Konkret funksional xidmətin və bütün müəssisənin məqsəd və vəzifələrinin razılaşdırılması ehtimalı yüksəlir. Bölmələrin rəhbərləri ştatların şişirdilməsinə meyillidirlər, çünki çox zaman bölməyə ayrılan fondların həcmi və rəhbərin şəxsi hakimiyyəti məhz onun xidmət sahəsinin işçilərinin miqdarından asılıdır. Sıravi qulluqçunun bütövlükdə müəssisənin məqsəd və vəzifələrinin, həmçinin öz bölməsinin məqsəd və vəzifələrinin reallaşmasında böyük marağı vardır. Çünki məvacibin artırılmasında, vəzifə yüksəlişində və s. məsələlərdə rəhbərin xeyirxahlığına bununla nail olmaq olar. Bürokratiyanı qorumağa səy göstərən pulsuz və ya dotasiya ilə verilən naharlar, hovuzdan, idman kompleksindən və s. pulsuz istifadə etmək kimi hallar onların şirkətlərinin maliyyə vəziyyətinə mənfi təsir göstərsə də, rəhbərin hörmətini artırır.

Müəssisələrin divizional quruluşu



Sxem 3

Xətti-funksional struktura malik olan müəssisələrdə xarici mühitdə baş verən dəyişikliklərə tez reaksiya vermək qabiliyyəti inkişaf etməmişdir. Qərarlar yavaş-yavaş qəbul olunur, çünki problemlərin müzakirəsi hər bir funksional bölmənin daxilində aşağıdan yuxarıya doğru iyerarxiya zəncirində baş verir. Yüksək səviyyədə qəbul edilmiş qərarların keyfiyyəti təkcə rəhbərin və mütəxəssislərin özlərinin səlahiyyəti ilə yox (bu səlahiyyət yüksək ola bilər), onlara daxil olan informasiyanın etibarlılığı və dürüstlüyü ilə müəyyən olunur. XX əsrin əvvəllərində korporasiyanın hissiyyatlı rəhbərləri ("Ceneral motors" şirkətindən olan kiçik Alfred Sloun və onların "Prokter end Qembl", "Düpon" və "Sirs" kompaniyalarından olan həmkarları kimi) dərk etdilər ki, xətti-funksional struktur artıq onların tələbatlarına cavab vermir. Bu şirkətlərin artdığı və artmasının planlaşdırıldığı ölçü amili nəzərə alınarkən əyani görünürdü ki, təşkilatın xətti-funksional sxemindən istifadə olunması çox ciddi problemlərin yaranmasına gətirib çıxaracaqdır. Əgər nəhəng firma öz fəaliyyətini üç və ya dörd əsas bölməyə sığışdırmağa cəhd göstərəcəksə, onda hər bir rəhbərin

əlverişli miqyasa qədər nəzarət sferasını azaltmaqdan ötrü, hər bir belə şöbə yüzlərlə bölmələrə bölünə bilər. Öz növbəsində bu, komandalar zəncirini həddən artıq uzun və idarəolunmaz hala gətirib çıxaracaqdır. Bundan əlavə, iri firmaların bir çoxu həmin funksional sahədə öz fəaliyyətini bir neçə coğrafi regionda yayır, belə ki, bütün fəaliyyəti nəzarət altında saxlamaq hər hansı bir funksional xidmətin (məsələn, marketinq xidmətinin) rəhbərinə çətin olur. Bu cür problemlərin qarşısını almaqdan ötrü göstərilən firmaların rəhbərləri divizional təşkilati strukturu işləyib hazırladılar və ilk dəfə tətbiq etdilər. Sonradan dünyanın inkişaf etmiş ölkələrinin əksər iri müəssisələri bu struktura keçdilər (bax: sxem 1).

Bütün müəssisə ya əmtəə və xidmət növləri üzrə, ya alıcı qrupları üzrə, ya da coğrafi regionlar üzrə bölünür. Hər bir divizion istehsal bölməsi ilə yanaşı, bir tərəfdən divizionun rəhbərliyinə, digər tərəfdən isə mərkəzi funksional xidmətlərə tabe olan xüsusi (öz) funksional xidmətlərinə malikdir. Məhz mərkəzi və divizional funksional xidmətlər arasında vəzifələrin bölgüsündə divizional sxem üzrə müəssisənin qruplaşmasında ən mühüm problemlər idarəetmə mütəxəssisləri ilə əlaqədardır.

Divizionlar və müəssisənin rəhbərliyi arasında əlaqə müxtəlif sərtlik dərəcəsinə malik ola bilər. Əgər divizionlara hüquqi şəxs statusu əldə etmək icazəsi verilirsə, onda müəssisə holdinqə çevrilir.

Divizional strukturun bir neçə əsas variantı fərqləndirilir. "Məhsul" strukturu; burada hər bir divizion ayrı-ayrı məhsul növünün işlənib hazırlanması və irəliləyişi ilə məşğuldur və bazarın dəyişən tələblərinə daha tez cavab verilməsinə və istehlakçılara yeni məhsul növlərinin təklif edilməsinə imkan verir. "Regional" struktur; burada hər bir divizion hər hansı bir ərazidə müəssisənin fəaliyyəti üzərində məsuliyyət daşıyır, yerli qanunvericiliyin, ənənələrin və regionun sosial-iqtisadi inkişaf xüsusiyyətlərinin səmərəli nəzərə alınmasına imkan verir. Əgər müəssisənin divizionlara bölünməsi istehlakçıların iri qruplarının tələblərinə uyğun aparılırsa, onda bu, bazarda tələbin daha tam ödənilməsinə imkan verir. Beləliklə, divizional strukturun konkret variantının seçilməsi müəssisənin strateji planlarının reallaşmasının təmini nöqteyi-nəzərindən çox mühüm olan amillə müəyyən edilməlidir.

Şübhəsiz ki, divisional- təşkilati struktur xətti-funksional təşkilati struktura nisbətən daha çevikdir. Lakin XX əsrin 60-cı illərinin ortalarında inkişaf etmiş ölkələrin bir sıra müəssisələrinin xarici mühiti, texnologiyaları elə sürətlə dəyişdi, inkişaf etdi və layihələr elə mürəkkəb oldu ki, bunlar üçün divizional struktur kifayət etmədi. Bu müəssisələrin xarici mühitin sürətli dəyişikliklərinə cavab vermək və daim təkmilləşən texnologiyanı tətbiq etmək imkanına malik olmasından ötrü adaptiv təşkilati strukturlar işlənib hazırlandı. "Adaptiv" strukturlar mexaniki strukturları əvəz edir, bu onunla əlaqədardır ki, əvvəla, həll olunan vəzifələri ayrı-ayrı elementlərə parçalamaq və hər bir mütəxəssisin müəyyən edilmiş iyerarxiya roluna uyğun olaraq mütəxəssislər üzrə bölmək mümkün olmur, buna görə də şəxsi heyətin vəzifələrinin daimi yenidən bölgüsü ilə işlərin daimi koordinasiyası zəruridir; ikincisi, bəzən təşkilatın əsaslı surətdə yenidən qurulmasını tələb edən xarici mühitin siqnallarına tez cavab (reaksiya) vermək lazımdır. ABŞ-da adaptiv strukturlar sənayenin bir çox sahələrində: aerokosmik, müdafiə, kimya, elektronika sahələrində, bank işində və s. geniş yayılmışdır.

Adaptiv strukturların iki əsas növü mövcuddur: layihə və matris.

Müəssisənin qurulmasının layihə sxeminin divizional strukturla çox oxşarlığı var, lakin fərq ondadır ki, əgər divizionlar müəssisənin daim fəaliyyət göstərən bölmələri kimi kifayət qədər uzun müddətə yaradılırsa, layihələr yalnız bir konkret vəzifənin həlli, məsələn, kosmik gəminin qurulması üçün yaradılır. Müəyyən olunmuş müddətdə və təsdiq olunmuş smeta hədlərində müəssisə rəhbərliyi tərəfindən qarşıya qoyulmuş vəzifələri həll etmək üçün müəssisənin müəyyən məsələlər üzrə ixtisaslaşan əməkdaşlarını bir komandaya toplayırlar. Hər bir layihə çərçivəsində xüsusi (öz) funksional xidmətlər yaradılır ki, bunlar da divizional strukturlar kimi müəssisənin mərkəzi funksional xidmətləri qarşısında hesabat verirlər. Layihə bitən

zaman "komanda" buraxılır, onun üzvləri isə yeni layihəyə keçirlər və ya müəssisədən işdən çıxırlar. Göründüyü kimi, layihə təşkilati struktur divizional strukturun adaptiv formasıdır. Lakin müəssisə xalis formada layihə strukturunu tətbiq etmək imkanına malik deyil, o, istismar üçün çox bahadır. Buna görə də, bir çox müəssisələrdə, ilk növbədə, aerokosmik sahədə adaptiv təşkilatın daha səmərəli variantı – matris strukturu işlənib hazırlanmışdır. Matris strukturunu layihə və xətti-funksional strukturun simbiozu kimi nəzərdən keçirmək olar. Matris müəssisəsi layihələrə bölünür, lakin layihələr çərçivəsində ixtisaslaşmış funksional bölmələr yaradılmır. Layihə rəhbərlərinə mərkəzi funksional şöbələrdən mütəxəssislər qrupu təhkim olunur. Onlar, bir qayda olaraq, layihədə onun bütün reallaşma dövründə yox, onların qarşısında qoyulmuş yarım vəzifələrin yerinə yetirilməsi zamanı iştirak edirlər. Beləliklə, resursların az məsrəfləri zamanı (hər şeydən əvvəl şəxsi heyət müəyyənləşdirilərkən) layihə müəssisələrinin mobilliyi ilə müqayisədə çevikliyə nail olunur.

Matris təşkilati strukturun əsas çatışmazlığı onun mürəkkəbliyidir. Üfüqi və şaquli səlahiyyətlərin matris qoyuluşu bir çox problemlər yaradır. Hər şeydən əvvəl sıravi əməkdaşların opportunist davranışa meyli daha əyani görünür, axı onların iki rəisi olur: layihənin və müvafiq funksional xidmətin rəhbəri. Bunlar arasında xətti əlaqələr müəyyən edilməmişdir və onların səlahiyyətləri çox zaman kəsişir. Belə bir şəraitdə funksional xidmətlərin rəhbərləri layihənin rəhbərinin səlahiyyətlərini xalis qərargah funksiyalarına yönəldərək bütün hakimiyyəti ələ keçirməyə cəhd göstərirlər. Bütün bu çətinliklərə baxmayaraq, matris strukturundan iqtisadiyyatın bir çox sahələrində: kimya sənayesində, bank işində, hətta səhiyyədə istifadə edirlər.

MÜƏSSİSƏNİN (OBYEKTİN) START QİYMƏTİ – qanunvericiliklə nəzərdə tutulmuş qayda tətbiq edilməklə əmlakın hesablanmış və ilk hərraca çıxarılma qiyməti.

MÜƏSSİSƏNİN AKTİVİ – müəssisənin əsas vəsaitindən, digər uzunmüddətli vəsait qoyuluşundan, dövriyyə vəsaitindən və maliyyə aktivlərindən (qeyri-maddi aktivlər də daxil olmaqla) ibarət əmlak.

MÜƏSSİSƏNİN AKTİVLƏRİ – müəssisənin pul dəyərinə malik olan və konkret tarixdə şirkətin əmlakını göstərən balansın aktivində əks etdirilən mülkiyyəti, o cümlədən pul vəsaitləri, material qiymətliləri, qeyri-maddi aktivlər, maliyyə qoyuluşları və borc öhdəlikləri. Müəssisənin aktivləri dedikdə, o cümlədən dövriyyə kapitalı (nağd pul, investisiyalar, xammal və yarımfabrikatlar, debitor borcu); əsas kapital (daşınmaz əmlak, dəzgahlar və avadanlıqlar); təxirə salınmış tədiyələr və qeyri-maddi aktivlər (patentlər, şirkətin işgüzar reputasiyası, ticarət markası, müəllif hüquqları, struktur kapitalı, istehlak kapitalı və s.) başa düşülür.

İnkişaf etmiş xarici ölkələrin uçot terminologiyasında müəssisənin aktivləri aşağıdakı növlərə bölünür:

1) dövriyyə aktivləri – hesabat dövrü (adətən bir il) ərzində istifadə edilmiş, satılmış və ya istehlak olunmuş vəsaitlər;

2) qeyri-dövriyyə aktivləri – bir hesabat dövründən (bir ildən) çox istifadə edilən, təsərrüfat fəaliyyətində istifadə edilmək məqsədi ilə alınan və il ərzində satış üçün nəzərdə tutulmayan vəsaitlər.

Bank aktivləri dedikdə kassadakı nağd pul, ssudalar və qiymətli kağızlar başa düşülür.

MÜƏSSİSƏNİN ƏSAS VƏ DÖVRİYYƏ FONDLARININ SIĞORTALANMASI – sığorta müqaviləsində nəzərdə tutulmuş sığorta hadisələrinin təsiri nəticəsində əsas və dövriyyə fondlarının məhv olmasına və ya zədələnməsinə görə sığorta təşkilatlarının məsuliyyətini nəzərdə tutan sığorta növü. Sığortanın əsas növlərinə aiddir.

MÜƏSSİSƏNİN İMKANSIZLIĞI – müəssisənin əmtəələrin (işlərin, xidmətlərin) haqqının ödənilməsi barədə kreditorların tələblərini təmin etməyə qabil olmaması, o cümlədən büdcəyə və büdcədənkənar fondlara məcburi ödənişləri borclunun öhdəliyinin onun əmlakından çoxluğu ilə əlaqədar və ya borclunun balansının strukturunun qeyri-qənaətbəxşliyi ilə əlaqədar təmin etmək iqtidarında olmaması.

MÜƏSSİSƏNİN İSTEHSAL POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ (ing. *evaluation of an enterprises production (productive) potential*) – auditdə: yoxlanılan obyektin maliyyə vəziyyətinin ekspert qiy-

mətləndirilməsi elementi, üsulu. İstehsal potensialını xarakterizə etmək üçün aşağıdakı göstəricilərdən istifadə edilir:

1) əmlakın ümumi dəyərində istehsal aktivlərinin miqdarı, dinamikası və xüsusi çəkisi;

2) əmlakın ümumi dəyərində əsas vəsaitlərin miqdarı, dinamikası və xüsusi çəkisi;

3) əsas vəsaitlərin köhnəlmə əmsalı;

4) orta amortizasiya norması;

5) əsaslı vəsait qoyuluşlarının miqdarı, dinamikası və xüsusi çəkisi, onların maliyyə qoyuluşları ilə nisbəti.

İstehsal aktivləri netto balans məlumatlarına əsasən, əsas vəsaitlərin, istehsal ehtiyatlarının və yarımçıq istehsalın cəmlənməsi yolu ilə müəyyən edilir. Bu halda istehsal aktivləri ilin əvvəli və sonu üçün, eləcə də sahəvi göstəricilər ilə müqayisə edilir.

MÜƏSSİSƏNİN MENECMENTİ – Bazar iqtisadiyyatı şəraitində müəssisələrin idarə edilməsi mərkəzləşdirilmiş inzibati idarəetmə sistemi ilə müqayisədə xeyli mürəkkəbləşir. Bu onların hüquq və məsuliyyətlərinin genişlənməsi və həmçinin dəyişən ətraf təsərrüfat mühitinə daha çevik uyğunlaşması zərurəti ilə əlaqədardır. Bazar iqtisadiyyatı şəraitində əvvəllər təşkilatlar qarşısında qoyulmayan və ya onlar tərəfindən müstəqil həll edilməyən xeyli məqsədlər və məsələlər meydana çıxmış, çoxlu yeni müəssisələr yaradılmış, mülkiyyət formaları dəyişmiş, yeni təsərrüfat əlaqələri yaranmış, idarəetmənin bazar mexanizmləri formalaşmışdır. Bununla əlaqədar yaranan problemləri müasir menecment olmadan həll etmək mümkün deyildir.

Menecment ictimai inkişafın güclü hərəkətvericisi və sürətləndiricisidir.

Menecment insanların məqsədlər sisteminə nail olmaq üçün proseslərin təşkili ilə, əlaqələndirilməsi ilə məşğul olan, elmi baxışların, marketinq konsepsiyasının və s. insan amillərinin istifadə edilməsi ilə əlaqədar və realizə edilən peşə fəaliyyəti növüdür.

Müasir menecment idarəetmə qərarlarının minlərlə mümkün olan variantları və nüanslarıdır. Bir müəssisənin işləyib hazırladığı və özünü yaxşı göstərmiş yanaşmalar (baxımlar), başqa müəssisə üçün nəinki faydasız, hətta, zərərli ola bilər.

Müstəqil bilik sahəsi olan menecment texnika, ekologiya, iqtisadiyyat, psixologiya, riyaziyyat, sosiologiya, idarəetmənin təşkili, hüquq və s. fənlərlə qarşılıqlı əlaqəlidir. Menecment sistemi rəqabətqabiliyyətli qərarların qəbulu və realizə edilməsinə imkan verən elmi baxışlar, metodlar, məqsədli, təminat, funksional və idarəedici alt sistemləri özündə birləşdirən sistemdir. Beləliklə, menecment sahələrarası elmdir və onun məqsədi rəqabətqabiliyyətli və səmərəli idarəetmə qərarlarının və eyni zamanda bütünlükdə müəssisənin menecment siste-



Layihənin təqdimatı



Perspektiv üçün proqnozlar müzakirə edilir

minin yerinə yetirilməsinə nail olmaqdır.

"Müəssisənin menecmenti" dedikdə son məqsəd kimi mənfəət götürmək üçün fəaliyyətin idarə edilməsi başa düşülür. Müəssisələr sənaye, ticarət, inşaat, nəqliyyat və s. sahələrinə aid olub, müxtəlif növ fəaliyyət dairələrində, elmi-tədqiqat və təcrübi-konstruktor işləri (ETTKİ), istehsal, satış, maliyyə və s. sahələrdə işləyə bilərlər. Müəssisənin və ya firmanın təsərrüfat fəaliyyətinin məzmununu istehsal prosesinin bütün lazımi resurslarla və bütünlükdə texnoloji tsiklin təşkil olunması: istehsalda ETTKİ nəticələrinin tətbiq edilməsi; istehsal texnologiyasının işlənib hazırlanması və təkmilləşdirilməsi; məhsulun tələb olunan səviyyədə və keyfiyyətinin təmin edilməsi; kommersiya əməliyyatlarının aparılması; istehsala texniki xidmətin təşkili, istehsalın maddi-texniki təchizatı, material resursları ilə təminat, idarəetmə heyətinin təminatı, bütün növ hesablamaların yerinə yetirilməsi və s. əhatə edir.

Müəssisənin menecmenti onun hərtərəfli fəaliyyətinin idarə edilməsini nəzərdə tutur. Məlum olduğu kimi, müəssisənin fəaliyyətini birləşdirən əsas mənqa məhsul istehsalı (xidmət) hesab edilir. Müəssisənin fəaliyyətinin digər istiqamətləri məhsul istehsalı üzrə işləri normal təmin etmək üçün təyin olunur. Müəssisənin daha səmərəli idarə edilməsi üçün menecmentin elmi əsasları işlənib hazırlanır. Onun ayrı-ayrı şərti müstəqil istiqamətləri fərqləndirilir.

Müəssisənin menecmenti elə qurulmalıdır ki, az xərclə istehsalın səmərəliliyinin daha da yüksəldilməsinə nail olunsun. Bunun üçün daima yeni imkanları axtarıb tapmaq, qoyulan məsələlərin həlli üçün müxtəlif mənbələrdən resursları tapıb, istifadə etmək imkanı əldə olunsun.

Menecment sahəsində bir çox mütəxəssislər müəssisənin istehsal menecmentini müəssisənin maliyyə-iqtisadi idarə edilməsi kimi təqdim edirlər. O, əsasən üç dayaq üzərində qurulur: çeşidin idarə edilməsi, maya dəyərinin idarə edilməsi və maliyyənin idarə edilməsi. Müəssisənin idarə edilməsinin bu funksiyaları informasiyanın daima mübadiləsi sayəsində bir-biri ilə sıx əlaqəlidir və bunun nəticəsində müəssisə üzrə bütövlükdə işlərin real vəziyyətini görməyə imkan olur.

Məlumdur ki, məhsul çeşidi, onun hər bir növündən yalnız səmərəlilik nöqteyi-nəzərindən seçim əsasında tərtib olunur. Vəsaitlərin daima çatışmadığı halda bu, çeşidin azalmasına, istehlakçıların itirilməsinə gətirib çıxara bilər ki, nəticədə dövriyyənin böyük miqdarda ixtisarına səbəb olar. Odur ki, bu amillərdən birinin nəzərə alınmaması bütövlükdə aktivliyi əks etdirmir.

İdarəetmənin sadalanan funksiyaları strukturlaşdırılmış informasiya olmadan fəaliyyət göstərə bilməzlər. Belə informasiyanın yığılması və işlənməsi – müəssisədə marketinq xidmətinin vəzifəsidir. Marketinq xidmətinin vəzifələri ənənəvi kənar marketinqlə, yəni qiymətlər, rəqiblər və s. haqqında informasiya toplamaqla məhdudlaşmır, öz müəssisəsinin öyrənilməsində daxili marketinqin böyük rolu vardır. Onun vasitəsi ilə kiçik vaxt ərzində müəssisənin maliyyə-iqtisadi vəziyyəti haqqında tam və obyektiv informasiya almaq mümkündür.

İstehsal obyektlərinin idarə edilməsi nəzəriyyəsi və praktikasının təhlili göstərir ki, menecmentə dair tətbiq edilən elmi

yanaşmaların sayı çox ola bilər və onlar aşağıdakılardır: sistem yanaşma; kompleks yanaşma; inteqrativ yanaşma; marketinq yanaşma; funksional yanaşma; dinamik yanaşma; təkrar istehsal yanaşma; proses yanaşma; normativ yanaşma; kəmiyyətcə (riyazi) yanaşma; inzibati yanaşma; motivativ yanaşma; situasiya yanaşma.

Göstərilən hər bir yanaşma menecmentin həlledici məsələlərindən birinə və ya bir neçəsinə xas ola bilər. Bu yanaşmalar birbirini təkrar etmir, əksinə, birbirini tamamlayır. Aşağıda bu yanaşmaların xüsusiyyətləri qısaca verilir.

Sistem yanaşma. Sistem yanaşma zamanı istənilən sistemə (obyekt) qarşılıqlı əlaqəli elementlərin toplusu kimi baxılır. Sistemin çıxışı (məqsəd), girişi, xarici mühitlə əlaqə, əks rabitə onun elementləridir. Sistem də "giriş", "çıxış" üçün işlənir.

Kompleks yanaşma. Kompleks yanaşma tətbiq edilən zaman menecmentin texniki, ekoloji, iqtisadi, təşkilati, sosial, psixoloji və lazımi siyasi, demoqrafik aspektləri və onların qarşılıqlı əlaqələri nəzərə alınmalıdır.

Əgər menecmentin zəruri aspektlərindən biri nəzərdən qaçırılırsa, problem həll olunmayacaqdır. Təəssüf ki, təcrübədə bu tələbə çox vaxt riayət olunmur. Məsələn, yeni əmək alətləri layihələndirilən zaman ekoloji göstəricilərə ikinci dərəcəli diqqət verildiyindən, onlar çox keçmir ki, rəqabət qabiliyyətliyini itirirlər.

İnteqrasiya (birləşmə) baxımı. Menecmentə inteqrasiya: a) menecment sisteminin ayrı-ayrı altsistemləri və elementləri arasında, b) idarəetmə obyektinin həyat tsiklləri (dövrləri) arasında, c) üfüqi idarəetmə subyektləri arasında tədqiqatlar və əlaqələrin güclənməsinə istiqamətlənir.

"İnteqrasiya" termini idarəetmə subyektləri arasında əməkdaşlığın dərinləşməsini, onların birləşməsini, sistemin təşkilediciləri arasında qarşılıqlı fəaliyyətin və qarşılıqlı təsirin dərinləşməsini göstərir. Bu halda menecment sisteminin ayrı-ayrı altsistemləri və təşkilediciləri arasında inteqrasiya, onlar arasında qarşılıqlı əlaqələrin dərinləşməsi və konkretləşməsi, bu qarşılıqlı əlaqələrin kəmiyyətcə idarə edilməsi ilə təmin olunur. Misal üçün, idarəedici altsistem firmanın xidmətlərinə və bölmələrinə onların fəaliyyəti üçün keyfiyyət, kəmiyyət, resurs məsrəfləri, vaxt və s. üzrə konkret göstəricilər verir və bunların əsasında qoyulmuş məqsədə nail olunur.

İdarəetmə obyektinin həyat tsiklinin dövrləri üzrə inteqrasiyanın dərinləşməsi idarəetmənin vahid uzlaşmış informasiya sisteminin formalaşması ilə təmin olunur. Bu halda informasiya sistemi marketinq, ETTKİ, istehsalın texnoloji hazırlığı, istehsalın özü, istehlakçıda onun tətbiqi, istismarı, işlətmə dövrləri üzrə keyfiyyət, kəmiyyət, xərclər və s. göstəricilərini birləşdirir. Obyektin həyat dövrləri üzrə sadalanmış göstəricilərinin uzlaşması idarəetmənin operativliyini və resurstutumu strukturunun səmərələşdirilməsini təmin etməyə imkan verir.

İnteqrasiya firmaya əlavə imkanlar verir: buraxılan məhsulun keyfiyyəti yüksəlir, müstəqil təşkilatların, idarələrin, firmaların üfüqi əməkdaşlığının genişləndirilməsi nəticəsində idarəetmə elementlərinin qarşılıqlı əlaqələri yaxşılaşır və s.

Menecmentə inteqrasiya baxışlarının tətbiq edilməsi firmanın yeni rəqabət üstünlüklərinin tapılmasında, menecment sisteminin təkmilləşdirilməsində böyük imkanlar açır.

Marketinq yanaşma. Marketinq yanaşmada idarəedici altsistem istənilən məsələnin həllinin istehlakçıya istiqamətlənməsini nəzərdə tutur. Marketinq meyarlarının seçilməsində üstünlüklər aşağıdakılardır:

1) istehlakçıların ehtiyaclarına müvafiq obyektin keyfiyyətinin yüksəldilməsi; 2) keyfiyyətin yüksəlməsi sayəsində istehlakçıların resurslarına qənaət; 3) istehsalın miqyası, elmi-texniki tərəqqi, menecment sisteminin tətbiqi amilləri sayəsində istehsalda resurslara qənaət edilir.

Funksional yanaşma. Menecmentə funksional yanaşmanın mahiyyəti ondan ibarətdir ki, tələbata funksiyaların toplusu kimi baxılır və tələbatın ödənilməsi üçün həmin funksiyalar yerinə yetirilməlidir. Funksiyalar müəyyən edildikdən sonra bu funksiyaların yerinə yetirilməsi üçün bir neçə alternativ obyekt yaradılır və onlardan elə seçilir ki, o obyektin həyat tsikli üçün faydalı səmərə vahidinə görə minimum məcmu məsrəf tələb edir.

Alternativ əşya yanaşma. Mövcud obyekt səmərələşməyə məruz qalır ki, obyektin struk-

turunun, onun iş prinsiplərinin kökündən yaxşılaşması mümkün olur.

Dinamik yanaşma. Dinamik yanaşma tətbiq edilən zaman idarəetmə obyektinə dialektik inkişaf, səbəb-nəticə əlaqəli və tabeçiliklə fəaliyyətdə olan obyekt kimi baxılır, 5-10 il və daha çox keçmiş zamanlara nəzər salınır, retrospektiv təhlil aparılır və perspektiv üçün proqnozlar işlənilir.

Təkrar istehsal yanaşma. Təkrar istehsal yanaşma konkret bazarın tələbatını faydalı səmərə vahidinə görə kiçik məcmu xərclərlə əmtəə istehsalının daima yeniləndirilməsinə istiqamətlənir. Təkrar istehsal yanaşmanın elementləri aşağıdakılardır:

1) obyektin yeniləşdirilməsinin planlaşdırılmasında müqayisəli qabaqlama bazasının tətbiqi; 2) vaxta qənaət qanunu, obyektin həyat tsikli ərzində, onun faydalı səmərə vahidinə görə keçmiş, canlı və gələcək əmək qənaətlərinin cəmi kimi şərh etmək; 3) obyektin buraxılan, layihələşdirilən və perspektiv məhsul modellərinin, təkrar istehsal tsikllərinə qarşılıqlı əlaqədə baxmalı; 4) xarici mühit elementlərinin təkrar istehsalının keyfiyyətcə və kəmiyyətcə mütənasibliyi (ölkənin makromühiti və ərazinin infrastrukturu); 5) iri firmalar üçün elm və istehsalın kompleks birliklər çərçivəsində inteqrasiyası.

Obyektin yeniləşdirilməsinin planlaşdırılmasında müqayisə bazası kimi analoji obyektin ən yaxşı dünya nümunəsi; yeni obyektin mənimsənilmə başlanğıcına qədər nail olunacaq perspektiv göstəricilər; istehlakçıya tələb olunacaq perspektiv göstəricilər götürülə bilər.

Proses yanaşma. Proses yanaşma zamanı idarəetmə funksiyalarına qarşılıqlı əlaqə kimi baxılır. İdarəetmə prosesi bütün funksiyaların ümumi cəmidir, o, fasiləsiz qarşılıqlı fəaliyyət göstərərək, giriş və çıxışı əmələ gətirir və təşkilatın qarşısında duran məqsədə nail olur. Menecment sisteminin tədqiqinə proses yanaşmada tədqiqatı həyata keçirmək üçün 4 qrup yanaşmadan istifadə edilir:

1. İdarəetmə prosesinin məzmunca təhlili zamanı, onun ümumi iqtisadi və ya sosial kontekstində istehsal prosesi ilə əlaqəsi nöqteyi-nəzərindən (istehsal, yığım, istehlak və s.); istehsal-təsərrüfat fəaliyyətinin növləri nöqteyi-nəzərindən (maliyyə, konstruktor-texnoloji fəaliyyət, satış və s.) və idarəetmə metodları və vasitələri nöqteyi-nəzərindən tədqiqi.
2. İdarəetmə prosesinin təşkilati təhlili zamanı idarəetmə funksiyalarını sistemləşdirmək məqsədi ilə idarəetmə prosesinin funksiya və mərhələlərini (marketinqdən başlamış planlaşdırma, icra və nəzarətə qədər) ayırmaqdan və ya tsiklinin əsası olan qərarların qəbulunu öyrənməkdən ibarətdir. Təşkilati təhlil sayəsində, habelə idarəetmə prosesində iştirak edən subyektlər (idarəetmə orqanları, vəzifələr və s.) və onların qarşılıqlı fəaliyyət qaydası müəyyən edilir.
3. İdarəetmə prosesinin texnoloji xarakteristikası hər şeydən əvvəl informasiya aspektlərinə aid edilir və informasiyanın işlənməsi və qərarların qəbulu proseslərinin səmərələşdirilməsi üçün iqtisadi-riyazi metodların və EHM-lərin tətbiqi imkanları ilə əlaqələndirilir. Buraya eyni zamanda, idarəetmə proseslərinə mühəndis yanaşmaları aid edilir. Burada istehsal proseslərinin daxili strukturu öyrənilir, onların təşkilatı-inzibati, analitik-konstruktiv, informasiya-texniki əməliyyatları və idarəetmənin texnoloji işləri ayrılır.
4. İdarəetmə prosesinə problemlərin həlli kimi yanaşma adamların qarşılıqlı əlaqəsinin psixoloji, sosial-psixoloji və hüquqi aspektlərinin təhlil edilməsini qarşıya qoyur.

Qeyd etmək lazımdır ki, idarəetmə prosesi makro səviyyədə ümumi və vahid xalq təsərrüfatı xarakteri daşıyır. O, bütün cəmiyyət sayəsində iqtisadi-sosial inkişaf siyasətini, məqsədini və strategiyasını əhatə edir.

Ayrı-ayrı təşkilatların makrosəviyyəsində idarəetmənin təşkilatdaxili (firmadaxili) prosesləri daha böyük əhəmiyyət kəsb edir ki, onların məzmunu, təşkilati və texnoloji xüsusiyyətlərinin ümumiliyi istehsal-təsərrüfat təşkilatlarının sosial xüsusiyyətlərinə, istehsal fəaliyyətində və idarəetmə proseslərində adamlar onların davranışına böyük təsir göstərir.

Normativ yanaşma. Normativ yanaşmanın mahiyyəti menecment sisteminin bütün altsistemləri üzrə idarəetmə normativlərinin müəyyən edilməsi ilə bağlıdır. Normativlər menecment sisteminin əsas elementləri üzrə müəyyən edilməlidir: a) məqsəd altsistemlərinə (əmtəənin keyfiyyəti və resurstu-

tumluğu, bazarın parametrləri, istehsalın təşkilati-texniki səviyyəsinin göstəriciləri, kollektivin sosial inkişafı, ətraf mühitin mühafizəsi), b) funksional altsistemlər (planların keyfiyyəti, menecment sisteminin mütəşəkkilliyi, uçot və nəzarət, keyfiyyət normativləri, keyfiyyətli əməyin stimullaşdırma normativləri), c) təminat altsistemləri (işçilərin və bölmələrin qarşısında duran məqsəd, məsələlər, firma üzrə bütün lazımi müxtəlif növ resurslarla təmin olunma, səmərəli istifadə olunma normativləri) bütün normativlər komplekslilik, səmərəlilik, əsaslılıq, perspektivlik (vaxta görə və miqyasına görə tətbiq) tələblərinə cavab verməlidir.

Müəssisələrdə təkrar istehsal prosesinin onun bütün cəhətlərinin və ünsürlərinin vəhdəti – qarşılıqlı əlaqədə olan norma və normativlərin formalaşmasının obyektiv imkanlarını təmin edir. Həmin sistemin əsas prinsipləri: idarəetmə səviyyəsindən asılı olmayaraq norma və normativlərin formalaşmasına yanaşmanın metodoloji ümumiliyi; elmi-texniki tərəqqi və digər amillər əsasında istehsal sahəsində baş verən dəyişikliklərə müvafiq olaraq norma və normativlərin daim təzələnməsi; müxtəlif idarəetmə səviyyəsində formalaşan norma və normativlərin müqayisəli olması. Müəssisələrdə norma və normativlərin toplanması, yığılması və təzələnməsinin avtomatlaşdırılmış sistemi AİİS-in (avtomatlaşdırılmış informasiya və idarəetmə sistemi) tərkib hissəsidir. Müəssisələrdə normativ baza istehsalın texniki səviyyəsinin yüksəldilməsi, onun tərkibi və həcminin dəyişdirilməsi kimi amillərin təsirinin nəzərə alınması əsasında daim dəqiqləşdirilir. Qüvvədə olan norma və normativlər sistemində onlar aşağıdakı qaydada qruplaşdırılır: ictimai istehsalın səmərəlilik normativləri, əmək məsrəflərinin norma və normativləri: xammal, material, yanacaq, enerji sərfi və ehtiyat norma və normativləri, istehsal güclərindən istifadə norma və normativləri, yeni işə salınan müəssisələrin və obyektlərin layihə güclərinin mənimsənilməsinin davamiyyət normaları, əsaslı vəsait qoyuluşunun və əsaslı tikintinin normativləri; maliyyə norma və normativləri, ətraf mühitin mühafizəsi norma və normativləri. Bunlardan başqa sahə (müəssisə) üçün spesifik olan texnika və texnologiya, istehsalın təşkili xüsusiyyətləri və başqa amilləri əks etdirən norma və normativlər hazırlanır. Firma (müəssisə) xarici mühitin elementlərinin fəaliyyət normativlərini idarə etmir, lakin o, bu norma bank-



Biznes-plan bəyənilir

larına malik olmalıdır və xarici mühit elementlərinin normativlər sisteminin inkişafında fəaliyyət göstərməlidir. Menecment sisteminin hər bir elementi üzrə əsaslı normativlər çox olarsa, idarəetmənin bütün səviyyələrində mütəşəkkillik, avtomatlaşdırılmış uçot və nəzarətin səviyyəsi bir o qədər yüksək olacaqdır.

Kəmiyyətcə yanaşma. Kəmiyyətcə yanaşmanın mahiyyəti ondan ibarətdir ki, burada keyfiyyət qiymətləndirilməsindən kəmiyyət qiymətləndirilməsinə keçid riyazi, statistik metodların, mühəndis hesablamalarının, ekspert üsulların, bal sistemlərinin tətbiqi ilə yerinə yetirilir. Burada rəqəmlərlə idarə edirlər, nəinki sözlə.

İnzibati yanaşma. İnzibati yanaşmanın mahiyyəti normativ aktlarla (əmrlərlə, sərəncamlarla, göstərişlərlə, standartlarla, təlimatlarla, qaydalarla və s.) idarəetmə funksiyalarının, səlahiyyət və vəzifələrin, normativ xərclərin və ümumilikdə menecment sisteminin elementlərinin qaydaya salınmasından ibarətdir.

Davranış baxımı. Davranış baxımının məqsədi işçilərə, öz şəxsi imkanlarını dərk etməkdə, firmanın qurulması və idarə edilməsinə dair davranışlıq elminin əsas konsepsiyasının tətbiq edilməsində kömək etməkdir. Bu baxımın əsas məqsədi firmanın səmərəliliyinin yüksəldilməsində insan amilinin və resurslarının rolunu tətbiq etmək və davranış elminin nailiyyətlərini tətbiq etməkdir.

Situasiya baxımı. İdarəetmənin müxtəlif metodlarının yararlılığı və faydalılığı konkret şəraitlə müəyyən edilir. Firmanın istər daxili mühitinin, istərsə də xarici mühitinin tez-tez dəyişən müxtəlif amilləri obyektin daha yaxşı idarə edilməsi üçün konkret idarəetmə metodunu tətbiq etməyə imkan vermir. Situasiyadan asılı olaraq, ən əlverişli metod isə konkret şəraitə müvafiq metod ola bilər.

Şamil Səmədzadə

MÜƏSSİSƏNİN MƏQSƏDLƏRİ – müəssisənin gələcəkdə əldə etməyi nəzərdə tutduğu fəaliyyət göstəriciləri. Hər hansı bir müəssisənin məqsədlərinin formalaşması prosesi üç mərhələdən keçir.

Birinci mərhələ – təşkilatın missiyasının – onun mövcud olmasının dürüst ifadə edilmiş səbəblərinin, müəssisənin son vəzifəsinin seçimi. Təşkilatın missiyası alternativ idarəetmə qərarlarının təhlili zamanı başlanğıc nöqtəsi funksiyasından ibarətdir.

İkinci mərhələ – missiya əsasında müəssisənin strateji məqsədlərinin (uzunmüddətli, ortamüddətli, qısamüddətli) formalaşmasıdır. Bu məqsədlər qəbul edilmiş qərarların bütün sonrakı prosesi üçün meyarlar funksiyasını yerinə yetirir. Məqsədlər sistemi özünü qoruyan sistem olmalıdır. Yəni, bir məqsədə nail olmaq üçün zəruri olan hərəkət və qərarlardır.


Üçüncü mərhələ taktiki vəzifələrin strateji məqsədlərinin təmin edilməsidir. Qeyd etmək lazımdır ki, strateji məqsədlər firmanın təklifini, taktiki məqsədlər isə onun maliyyini (enişini) müəyyən edir.

Missiyanın seçim zəruriliyi görkəmli rəhbərlər tərəfindən qəbul edilmişdir. Belə ki, Henri Ford "Ford" şirkətinin missiyasını "insanlara ucuz nəqliyyatın təqdim edilməsi" kimi müəyyən etmişdir. Onun qeyd etdiyi kimi, əgər bunu kimsə edərsə, o zaman mənfəət ondan yan keçməyəcəkdir. Müəssisənin missiyası xarici və daxili problemlərin əsl kombinasiyası deməkdir. Bu problemlər müəssisə tərəfindən mövcud olduğu bütün dövr ərzində həll edilməlidir. Xüsusilə "Ford" şirkətinin missiyası – öz səhmdarları üçün mənfəətli şərtlərlə (daxili məqsəd) insanlara ucuz nəqliyyat təqdim etməkdən ibarətdir (xarici məqsəd).

Hər hansı bir təşkilat (istər kommersiya firması, veteranlar ittifaqı, istərsə də Mərkəzi bank) missiyaya malikdir. Bu missiya, əvvəla, təşkilatın rəsmi sənədlərində (hər şeydən əvvəl nizamnaməsində) təsbit olunmalı və möhkəmlənməlidir; ikincisi, bütün əməkdaşların nəzərinə çatdırılmalıdır ki, onlar üçün həmin missiya bu əməkdaşların gündəlik hərəkətlərinin daxili psixoloji göstərişi olmalıdır.

Hər bir müəssisə müxtəlif insanlardan ibarətdir. Bununla belə, müəssisənin mülkiyyətçiləri bu təşkilatın üzvləridir, işçiləri isə onun muzdlu qulluqçularıdır. Təbiidir ki, hər hansı bir təşkilatın əsas təyinatı onun üzvlərinin mənafelərinin, hər şeydən əvvəl, onun mülkiyyətçilərinin mənafelərinin irəli çəkilməsidir. Bu daxili məqsəd müasir cəmiyyətdə istehlakçıların müəssisənin məhsuluna olan tələbinin yalnız səmərəli ödə-

Müəssisənin nümunəvi sxemi



Sxem 1

nilməsi vasitəsilə əldə oluna bilər. Bu isə öz növbəsində istehlakçıların tələblərinin hərtərəfli öyrənilməsi, ixtisaslaşdırılması və formalaşması vasitəsilə mümkündür. Bu, firmanın xarici məqsədidir. Firmanın daxili və xarici məqsədlərinin (missiyasının) bu cür səmərəli əlaqələndirilməsi kapitalist təsərrüfatçılıq sisteminin böyük nailiyyətidir.

Hər hansı bir səhmdar cəmiyyətinin daxili məqsədi (missiyanın tərkib hissəsi kimi) səhmlərin bazar qiymətlərinin və dividendlərin ölçüsünün artmasıdır. Təşkilatın missiyası əsasında onun ali rəhbərliyi tərəfindən firmanın ümumi strateji məqsədləri müəyyən edilir.

Müəssisənin ali rəhbərliyi əvvəlcə strateji məqsədlər sistemini düzgün tərtib etməli, sonra bu məqsədləri səmərəli surətdə institusionallaşdırmalı, onlar haqqında işçi heyətini məlumatlandırmalı və öz təşkilatında onların həyata keçirilməsini stimullaşdırmalıdır.

Strateji məqsədlərin inkişafında taktiki vəzifələrin işlənib hazırlanması zəruridir. Bunsuz strateji planlaşdırma mənasızdır. Taktiki vəzifələr üç mühüm xarakteristikaya malikdir: a) onlar qısa müddət üçün nəzərdə tutulur; b) dürüst yerinə yetirilmə imkanına malikdir; c) icraçıların ümumi şəkildə dəqiq təsvir edilmiş dairəsinə malikdir, bunun nəticəsində konkret adamların konkret hərəkətləri ilə asanlıqla münasibətdə olurlar.

MÜƏSSİSƏNİN PASSİVİ – müəssisənin kreditor borcu da daxil olmaqla borc və cəlb edilmiş vəsaitdən (subvensiyalar, dotasiyalar və s. istisna olunmaqla) ibarət öhdəlik.

Cədvəl 1

Azərbaycanda mülkiyyət növləri üzrə müəssisələrin sayı

	2001				2006				2009				2011			
	dövlət və bələdiyyə	xüsusi	xarici	qarışıq	dövlət və bələdiyyə	xüsusi	xarici	qarışıq	dövlət və bələdiyyə	xüsusi	xarici	qarışıq	dövlət və bələdiyyə	xüsusi	xarici	qarışıq
Cəmi o cümlədən:	15385	37658	1834	922	1452	51956	2732	1077	14234	66680	3782	1421	12701	74310	4693	1712
Kənd təsərrüfatı	718	7775	17	19	696	8307	20	38	682	9271	31	44	647	9505	49	47
Sənaye	1252	3071	189	248	1135	4634	320	300	950	5920	443	350	960	6258	475	412
Tikinti	2035	2013	157	69	1771	4002	247	84	1662	6790	416	149	1491	7588	585	189
Ticarət	1912	14776	653	348	1375	21400	906	398	1298	24806	1205	508	1288	27471	1450	576
Nəqliyyat	537	650	114	73	544	1201	186	78	478	1752	240	86	292	1193	209	52
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar	991	3711	513	78	964	4793	787	89	938	6886	1000	125	100	676	38	7
Təhsil	453	112	21	2	476	219	34	-	496	362	37	2	492	507	54	6
Digər sahələr	7487	5550	170	85	7561	7400	232	90	7730	10893	410	157	7431	21112	1833	423

MÜƏSSİSƏNİN POTENSİALININ TƏHLİLİ (ing. *analysis of enterprise potential*) – şirkətin inkişaf imkanlarının və onun strukturunun dəyişməsinin təhlili. Təhlilin bu növündə struktur elementləri istehsal edilən mallar, göstərilən xidmətlər, perspektivli tədqiqatlar, marketinq araşdırmaları, maliyyələşdirmə mənbələri, perspektivli tərəfdaşlardır. Müəssisənin potensialının təhlili rəqib şirkətlərlə müqayisədə onun imkanlarını qiymətləndirməyə və inkişafın mümkün perspektivlərini müəyyənləşdirməyə imkan verir.

MÜƏSSİSƏNİN RENTABELLİYİ – müəssisənin əsas vəsaitlərindən və istehsal resurslarından istifadə edilməsinin səmərəlilik göstəricisi. Müəssisənin ümumi rentabelliyi mənfəət ilə əsas vəsaitlərin və dövriyyə vəsaitlərinin orta dəyəri arasında nisbətlə xarakterizə olunur.

MÜƏSSİSƏNİN TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN TƏHLİLİ – müəssisənin fəaliyyətinin nəticələrinin iqtisadi təhlili. Bu halda həmin fəaliyyətin müəssisə qarşısında qoyulmuş məqsəd və vəzifələrə uyğun olub-olmaması kompleks şəkildə qiymətləndirilir. Bu təhlil idarəçiliyin zəruri elementidir. O, məhsulların, əmtəələrin və xidmətlərin istehsalını, dövriyyəsini və istehlakını, resurslardan istifadə edilməsinin səmərəsinin, istehsal edilən məhsulun keyfiyyətini xarakterizə edən iqtisadi göstəricilərin qiymətinin və onların zaman etibarı ilə dəyişmələrinin aşkar edilməsinə yönəlmişdir. Təhlilin gedişində müşahidə edilən, öyrənilən amillərin səbəbləri və mümkün nəticələri aşkar edilir.

Təsərrüfat fəaliyyətinin təhlilinin növləri

Ümumi təhlilin köməyi ilə müəssisənin fəaliyyətinin bütün sahələri tədqiq edilir. Məqsədli təhlil ayrı-ayrı istiqamətləri və xüsusi məsələlərin həllini (məsələn, təkrar maddi ehtiyatlardan istifadə edilməsini) əhatə edir.

Müəssisənin təsərrüfat fəaliyyətinin təhlilinin predmetləri aşağıdakılardır:

1) müqavilə öhdəliklərinə riayət edilməsi;

2) əsas istehsal fondlarından, maddi, əmək və maliyyə ehtiyatlarından istifadə edilməsi;

3) məhsulun maya dəyəri;

4) istehsalın modernləşdirilməsi və yenidən qurulması.

İstehsalın səmərəliliyinin, mənfəətin və rentabelliyin öyrənilməsi, onların artırılması ehtiyatlarının aşkar edilməsi xüsusi yer tutur. Təsərrüfat fəaliyyətinin təhlilinin aşağıdakı metodları fərqləndirilir: müqayisəli təhlil və faktor təhlili.

Müqayisəli təhlil zamanı faktiki göstəricilər plan göstəriciləri ilə, eləcə də keçən ilin müvafiq dövrləri, sahənin digər müəssisələri ilə tutuşdurulur. Faktiki göstəricilər normativ göstəricilərlə müqayisə edilir, fərqlərin səbəbləri aşkar edilir.

Faktor təhlili öyrənilən göstəricinin dəyişməsinə ayrı-ayrı amillərin təsirini müəyyənləşdirir.

Təsərrüfat fəaliyyətinin təhlilinin metodlarından asılı olmayaraq bu təhlil təsirli olmalı, aşkar edilmiş nöqsanların aradan qaldırılması, fəaliyyətin ən mənfəətli istiqamətlərinin inkişaf etdirilməsi üzrə tədbirlərin işlənib hazırlanmasının əsası olmalıdır. Bazar iqtisadiyyatında təsərrüfat fəaliyyətinin aşağıdakı növləri böyük əhəmiyyət kəsb edir: malgöndərənlərin təhlili, portfelin təhlili, istehlakçıların təhlili, prioritetin təhlili.

MÜƏSSİSƏNİN TOPDANSATIŞ QİYMƏTİ – məhsul istehsalçılarının istehsal etdikləri məhsulu istehlakçılara satdığı qiymət. Müəssisə və təşkilatlar öz məhsullarını reallaşdırarkən, öz istehsal və reallaşdırma xərclərini ödəməli, həmçinin bazarda fəaliyyət göstərməyə imkan verən mənfəət əldə etməlidir. Odur ki, müəssisənin topdansatış qiymətinin kəmiyyəti xərclərin həcmindən (maya dəyərindən), mənfəətdən, qiymətə əlavələrdən (güzəştlərdən) və əlavə dəyər vergisindən ibarətdir.

MÜƏYYƏN E DİLMİŞ (KONKRET MÜƏYYƏN EDİLMİŞ) ƏMLAK GİROVU (ing. *fixed charge (specific charge)* – belə girov zamanı borclu borcun ödənilməsi istiqamətində heç bir hərəkət etmirsə, kreditorun müəyyən aktivi borcu ödəmək məqsədilə satmaq hüququ vardır. Borclu bu aktivlə borclu olduğu şəxsin razılığı olmadan heç bir əməliyyat apara bilməz.

MÜƏYYƏN EDİLMİŞ (ƏSAS) KAPİTAL (AKTİVLƏR) (ing. *fixed capital (assets)*) – istehlak üçün deyil, şirkətin fəaliyyətinin təmin edilməsi üçün nəzərdə tutulan istehsal vasitələri, maşınlar və başqa aktivlər – uzun amortizasiya müddətləri ilə əsas fondlar.

MÜƏYYƏN EDİLMİŞ RENTA (ing. *fixed annuity*) – sığorta şirkəti tərəfindən satılan və danışılmış müddətə və ya ömürlük müəyyən edilmiş (fiksaja salınmış) gəlirə zəmanət verən investisiya müqaviləsi.

MÜƏYYƏN OBYEKTDƏN ƏLDƏ EDİLƏN GƏLİRLƏ TƏMİN OLUNMUŞ İSTİQRAZLAR (ing. *revenue bond*) – bələdiyyə istiqrazlarının bu növü üzrə faizlər və onların nominal dəyəri onların maliyyələşdirdiyi layihədən əldə edilən gəlir hesabına ödənilir.

MÜFƏSSƏL SERTİFİKAT – sedent şirkətdən təkrar sığortaçı tərəfindən qəbul edilmiş təkrar sığorta müqaviləsinin hər bir halının təfsilatını əks etdirən sənəd.

MÜFƏTTİŞLİK HAQQINDA QEYD-ŞƏRT – əksər təkrar sığorta müqavilələrini ehtiva edən şərt. Müqavilə şərtlərinə riayət etməklə təkrar sığortanın riskini müəyyən etmək olar. Bunun üçün təkrar sığortaçıya həmin təkrar sığortalının kitabını yoxlamaq hüququ verilir.

MÜFLİS – əgər hüquqi şəxs kreditorların tələblərini ödəməyə qadir deyildirsə, o, məhkəmənin qərarı ilə müflis sayıla bilər.

MÜFLİSLƏŞMƏ (ing. *bankruptcy*) – 1. Plan və ümidlərin dağılması, iflası, süqutu. 2. Fiziki və hüquqi şəxslərin (firmanın, bankın, müəssisənin) rəsmi (məhkəmə qaydasında) olaraq qeyri-tədiyə qabiliyyətinin qəbul edilməsini bildirən mülki hüquq anlayışı, öz öhdəliklərinə görə borcların ödənilməsindən imtina edilməsi.



Müflisləşmə – borclunun öz öhdəliklərini ödəmə qabiliyyətinin olmamasıdır. Müflisləşmə bazar iqtisadiyyatı şəraitində dəyər qanununun fəaliyyətilə, rəqabət, inflyasiya, ölkədə iqtisadi situasiyanın qeyri-sabitliyi, fiziki şəxsin və firmanın (bankın, müəssisənin) rəhbərliyinin qeyri-səlahiyyətli olması ilə şərtlənir. Firmaların və xüsusi şəxslərin qeyri-tədiyə qabiliyyəti, onların müflisləşməsi qaydalarının nizamlanması beynəlxalq təcrübədə yüz illərdir mövcuddur. Orta əsrlərdən indiyə kimi qeyri-tədiyə qabiliyyəti, müflisləşmə məsələlərinə dair çoxlu qanunvericilik aktları qəbul edilmişdir. Borclunun qeyri-tədiyə qabiliyyətinin qəbul edilməsi (tanınması) ya müqavilə əsasında, ya da məhkəmə qaydasında baş verir. Fiziki şəxslərə münasibətdə ya borcların könüllü tənzimlənməsi, ya da əmlakın ləğv edilməsi tətbiq olunur. Məcburi ləğvetmə məhkəmə tərəfindən aparılır. Hüquqi şəxslərin müflisləşməsi təcrübəsi iki formada prosedura qaydalarını nəzərdə tutur: iflas olanla kreditorun sülh sazişini və firmanın (bankın, müəssisənin) tənzimlənməsi planının təsdiq edilməsini; müflis təşkilatın ləğv edilməsini. Ləğv qaydasının iki əsas tipi mövcuddur: məcburi və könüllü. Məhkəmənin qərarı ilə şirkətin (bankın) məcburi ləğvi məhkəmə və dövlət orqanlarının nəzarəti altında həyata keçirilir. Əgər müflis təşkilatın rəhbərliyi inzibatçılıq və özünüləğvetmə qaydasını könüllü həyata keçirmirsə; kreditorlar rəsmi şəxs (dövlət və ya məhkəmə məmurları) tərəfindən təşkilatın fəaliyyətinin təhlili zəruriliyi haqqında qərar qəbul edirlərsə; kreditorlar nə təşkilatın rəhbərliyi ilə, nə də bir-birilə razılığa gələ bilmək iqtidarında deyilsə; təşkilatın əmlakı iflas haqqında işlər üzrə qeyri-dövlət mütəxəssisinin xidmətlərinin ödənilməsi üçün kifayət deyilsə; məhkəmə qaydasında təşkilatın iqtisadi fəaliyyətinin sağlamlaşdırılmasının, müflisləşmə qaydasının qarşısının

Cədvəl 1

ABŞ tarixində 10 nəhəng müflisləşmə

Şirkət	Müflisləşmə tarixi	Fəaliyyət növü	Aktivlər, mlrd.dollar
Lehman Brothers Holdings Inc.	15.09.2008	Maliyyə, investisiyalar	691,1
Washington Mutual, Inc.	26.09.2008	Bank işi	327,9
WorldCom, Inc.	21.07.2002	Telekommunikasiya	103,9
General Motors Corp.	01.06.2009	Avtomobil istehsalı	91
Enron Corp.	02.12.2001	Energetika	65,5
Conseco, Inc.	17.12.2002	Maliyyə	61,4
Chrysler LLC	30.04.2009	Avtomobil istehsalı	39,3
Thornburg Mortgage, Inc.	01.05.2009	Bank işi	36,5
Pacific Gas and Electric Co.	06.04.2001	Elektroenergetika	36,2
Texaco, Inc.	12.04.1987	Neft-kimya	34,9
Cəmi			**1487,7**

Mənbə: www.bancruptcydata.com

alınmasının məqsədəuyğun olmaması qəbul edilmişdirsə, məcburi ləğvetmə aparılır.

Bəzi ölkələrdə (məsələn, Rusiyada) könüllü ləğvetmə (özünüləğvetmə) məhkəmənin və ya İflas İşləri üzrə Federal Xidmətin (İİFX) müdaxiləsi olmadan aparılır. Bütün proses ləğvedici tərəfindən həyata keçirilir və kreditorlar tərəfindən nəzarət olunur. Bu cür proses çox səmərəlidir, çünki məhkəmə xərcləri ilə ağırlaşdırılmır. Təcrübədə (o cümlədən, müflisləşmə haqqında işlərə dair məhkəmə icraatında) yeni meyil – borcların tənzimlənməsi planının reallaşması yolu ilə firmanın (bankın, müəssisənin) tədiyə qabiliyyətinin bərpa olunması təzahür olunur. Qeyri-tədiyə qabiliyyətli təşkilatların sağlamlaşdırılması və ləğv edilməsi arasında keçilməz sədd yoxdur, onlar birindən digərinə keçməyə qadirdirlər; bir qayda olaraq, yenidən təşkilati qaydalar həyata keçirilir, sonra isə onların qeyri-məhsuldarlığının aşkar edilməsi zamanı bu cür ardıcıllıq xeyli dərəcədə təşkilatın mövcudluğu fazasının təbii dəyişməsinə cavab verir.

MÜHAFİZƏKARCASINA (hərəkətsiz) TƏKRAR ALINMA – bu termin təşkilat tərəfindən sınaqdan keçirilmiş malgöndərəndən artıq əvvəllər alınmış malların sonradan əldə olunmasının müəyyən edilməsi üçün nəzərdə tutulur.

MÜHASİB (alm. *Buchhalter, buch* – kitab, *halten* – tutmaq) – mühasibat uçotu üzrə mütəxəssis, yaxud mühasibatlıq qaydalarına riayət etməklə ticarət və uçot kitablarını aparan şəxs. "Mühasib" termini XV əsrdə meydana gəlmişdir. Mühasib adını alan ilk vəzifəli şəxs – İnsbruk hesablama palatasının kargüzarı XristoforŞtrexer olmuşdur. Vyana Dövlət Muzeyində imperator I Maksimilianın





1498-ci il 13 fevral tarixli əmri qorunub saxlanır. Bu əmrin 5-ci maddəsində deyilir ki, kitabda hesablama palatasının kargüzarlıq və katib işini aparan şəxs mühasib adlanacaq və bu iş Xristofor Ştrexerə həvalə olunur və ona Ulrix Meringer kömək edəcəkdir. Bu şəxs hesabdarlığa dair bütün müşavirələrdə iştirak etməlidir. 1498-ci ildə Almaniyada hesablama kitablarının aparılması ilə məşğul olan şəxs katib adlanırdı. O dövrdən başlayaraq "mühasib" və "mühasibatlıq" terminləri keçmiş adları sıxışdıraraq tədricən hər yerdə yayıldı, XVIII əsrdə Rusiyaya keçdi.

Müasir mühasib konkret uçot işini aparır və müəyyən təsərrüfat əməliyyatlarına nəzarət edir. Azərbaycanda mühasibin fəaliyyəti "Mühasibat haqqında" qanunla və digər normativ-hüquqi aktlarla tənzimlənir. Mühasibdən yalnız mühasibat uçotuna dair yox, həmçinin iqtisadiyyata, istehsalın təşkilinə, planlaşdırmaya, iqtisadi təhlilə, maliyyə, kredit, bank, statistika, hüquq, audit və digər sahələrə dair dərin biliklərin olması tələb olunur.

MÜHASİBAT BALANSI – təsbit olunmuş müddətə müəssisə, təşkilat və firmanın maliyyə və təsərrüfat fəaliyyətini əks etdirən göstəricilər məcmusu, mühasibat uçotu sənədi. Mühasibat balansları aktiv və passiv hissədən ibarət olmaqla, təqvim mərhələsinin sonuna, yaxud əvvəlinə müvafiq göstəricilər sistemi üzrə tərtib edilir.

MÜHASİBAT QEYDİYYATI – mühasibat uçotunda təsərrüfat əməliyyatlarının qeydiyyatının forması. Mühasibat qeydiyyatının aşağıdakı növlərini fərqləndirirlər: 1) xronoloji qeydiyyat – təsərrüfat əməliyyatlarının icrası və rəsmiləşdirməsinin ardıcıllıqla xüsusi qeydiyyat jurnallarında qeyd edilməsi; 2) sistematik qeydiyyat – təsərrüfat əməliyyatlarının məzmununa uyğun olaraq mühasibat uçotu hesablarında ikiqat yazılar vasitəsi ilə qeydiyyatı.

MÜHASİBAT UÇOTU – müəssisənin, idarənin, təşkilatın və başqa təsərrüfat subyektlərinin əmlakının, öhdəliklərinin, kapitalının, dövriyyə vəsaitlərinin və ümumiyyətlə, bütün maliyyə-təsərrüfat fəaliyyətinin natural göstəricilər əsasında, pul ifadəsində, fasiləsiz, başdan-başa, sənədləşdirilmiş və mühasibat registrlərində qarşılıqlı əlaqələndirilmiş bütün təsərrüfat əməliyyatlarının mühasibat hesablarında ikili yazılmış üsulu ilə yığılması və qaydaya salınması sistemi.

Mühasibat uçotu müəssisənin təsərrüfat fəaliyyətinin pul şəklində ifadəsi olan informasiyanın toplanması, qeydiyyatı və ümumiləşdirilməsi, bu informasiyanın ikiqat qeydiyyat metodu ilə qeydə alınması və ümumiləşdirilməsi üçün tənzimlənmiş sistemdir. Mühasibat uçotu obyektləri müəssisənin əmlakının və öhdəliklərinin hərəkətində ifadə olunan hər hansı təsərrüfat əməliyyatlarıdır. Adətən, mühasibat uçotunun aşağıdakı əsas tərkib hissələrini fərqləndirirlər: a) müəssisənin təsərrüfat fəaliyyəti haqqında informasiyanın başdan-başa və fasiləsiz sənədləşdirilməsi yolu ilə toplanması; b) bu əməliyyatların pul ifadəsində (adətən faktiki çəkilmiş xərclərin cəmlənməsi yolu ilə) qiymətləndirilməsi; c) təsərrüfat əməliyyatları haqqında informasiyanın mühasibat uçotu registrlərində toplanması; ç) informasiyanın ikiqat qeydiyyat metodu ilə mühasibat uçotu hesabında əks etdirilməsi; d) mühasibat uçotu məlumatlarının inventarlaşdırılması; e) mühasibat hesabatının tərtib edilməsi.

Mühasibat uçotunun mahiyyəti hər bir təsərrüfat əməliyyatının aparıldığı eyni pul məbləği üçün ikili yazı şəklində, eyni vaxtda iki hesabda – bir hesabın kreditində və digər hesabın debetində əks etdirilməsindən ibarətdir. Mühasibat uçotu hesablarının müxbirləşmə sistemi mövcud olduğuna görə hesablar üzrə bütün aktiv saldoların cəmi bütün passiv saldoların cəminə bərabər olur (bax: Mühasibat uçotu hesabı).

Mühasibat uçotuna metodoloji rəhbərliyi Maliyyə Nazirliyi həyata keçirir. Mühasibat uçotunda təsərrüfat əməliyyatları icrasının müşahidə vasitəsi sənəddir. Mühasibat uçotu hesabları bir-birilə ikitərəfli – üfüqi və şaquli surətdə bağlıdır. Bu hesablar cədvəl şəklində qurulur; cədvəlin sol tərəfi debet, sağ tərəfi kredit adlanır. Qeydiyyat hesablarda aşağıdakı kimi aparılır: əvvəlcə hər hansı vəsait qalığı debetə (aktiv hesaba), vəsaitin mənbəyi haqqında məlumat isə kreditə (passiv hesaba) yazılır. Sonrakı qeydiyyatlar da bu qaydada aparılır. Vəsait, yaxud təsərrüfat əməliyyatları növləri üzrə məlumatları ümumiləşdirən hesablar sintetik hesablar adlanır. Sintetik hesablar xüsusi bölmələrə ayrılır və bu bölmələrdə eyni məbləğ vəsaitlərin konkret növləri üzrə ayrı-ayrı göstərilir; belə hesablar analitik hesablar adlanır. Hər bir sintetik hesabdakı qeydlərin yekunu bütün analitik hesablardakı qeydlərin yekununa bərabər olmalıdır. Qeydlər əsasında sintetik hesablar üzrə dövriyyə balansı, analitik hesablar üzrə isə dövriyyə cədvəli tərtib edilir.

Mühasibat uçotu hesablarında maddi sərvətlər üzrə göstərilən yekunların düzgünlüyünü yoxlamaq üçün vaxtaşırı inventarizasiya aparılır, mal göndərənlər, alıcılar, bank, debitor və kreditorlarla hesablaşmaların nəticələri yoxlanılır. Bir sıra təsərrüfat əməliyyatlarının icrasında sərf olunmuş xərclərin həcmi hesablanmalıdır. Belə hesablama kalkulyasiya adlanır; kalkulyasiya da mühasibat uçotunun metoduna daxildir. Mühasibat uçotunun sənədlərə əsaslanması və ucdantutma xüsusiyyəti ilkin məlumatların xeyli hissəsinin tərtib edilməsi və hazırlanması zərurətini doğurur.

Mühasibat uçotunun əsas vəzifələri bunlardır: müəssisələrə operativ rəhbərlik edilməsi və onların idarəsi üçün zəruri olan; onların təsərrüfat prosesləri və fəaliyyətlərinin maliyyə nəticələri barədə, eləcə də investorlar, malgöndərənlər, alıcılar, kreditorlar, vergi və maliyyə orqanları, banklar və digər əlaqədar şəxslər tərəfindən istifadə edilmək üçün tam və etibarlı informasiyanın formalaşması; əmlakın mövcudluğuna və hərəkətinə, maddi, əmək və maliyyə resurslarından təsdiq edilmiş normalara, normativlərə və smetalara müvafiq qaydada istifadə olunmasına nəzarətin təmini; müəssisənin təsərrüfat fəaliyyətində neqativ halların qarşısının vaxtında alınması, bu cür halların aradan qaldırılması üçün daxili resursların aşkar və səfərbər edilməsi.

Mühasibat uçotu prinsiplərinə, maliyyə hesabatlarının formasına və məzmununa dair hamılıqla qəbul olunmuş uçot standartları şamil edilir. Belə ümumi prinsiplərə, uçotun əsas (baza) funksiyaları, xüsusilə də informasiyanın tanınması, ölçülməsi (qiymətləndirilməsi) və tam açıqlanması aiddir. Bunlara tarixi dəyər, gəlirdən istifadə olunması, xərclərin və daxilolmaların uyğunlaşdırılması (uzlaşdırılması), maddilik, mühafizəkarlıq, məzmunun formadan üstün olması, aydınlıq və mühasibat uçotunun ümumi qəbul edilmiş prinsiplərinin varisliyi aiddir.

Səlahiyyətli strukturlar mühasibat uçotunun prinsiplərinə ciddi metodoloji nəzarət edir: istənilən anda onlar iqtisadi resursların və borcların aktivlər, yaxud öhdəliklər kimi təsvir olunması; qeydiyyatdan keçmiş aktivlərin və öhdəliklərin, habelə onlarda baş verən dəyişikliklərin ölçülməsi qaydaları; hansı məlumatların və necə təqdimatı; habelə hansı hesabatların tərtib olunması məsələləri barədə vahid rəy (konsensus) təqdim edir.

Müəssisə mühasibat uçotunu həyata keçirərkən bir qayda olaraq mühasibat işinin təşkilati formasını (müəssisənin hüquqi forması və təsərrüfatçılığın konkret şəraiti nəzərə alınmaqla), uçot informasiyasının işlənmə texnologiyasını müstəqil şəkildə müəyyənləşdirir, müvafiq qaydada öz uçot siyasətini formalaşdırır. Mühasibat uçotunun təşkilinə görə müəssisənin rəhbəri məsuliyyət daşıyır. O, mühasibat uçotunun düzgün aparılması üçün zəruri şərait yaratmağa borcludur. Müəssisədə mühasibat uçotu bilavasitə baş mühasibin rəhbərlik etdiyi mühasibatlıq tərəfindən həyata keçirilir.

Mühasibatlıq xidməti olmayan müəssisədə mühasibat uçotu ixtisaslaşdırılmış təşkilat tərəfindən, yaxud müvafiq mütəxəssis tərəfindən müqavilə əsasında həyata keçirilə bilər.

Müəssisə özünün ayrı-ayrı struktur bölmələrini (məsələn, yardımçı kənd təsərrüfatı, meşə tədarükü təsərrüfatı, mənzil-kommunal təsərrüfatı, nəqliyyat təsərrüfatı), eləcə də müəssisənin tərkibinə daxil, hüquqi



şəxslər olmayan filial və nümayəndəlikləri ayrıca balansa keçirə bilər.

MÜHASİBAT UÇOTU HESABI – mühasibat uçotunun aparılması məqsədilə təsnif olunan müəssisənin təsərrüfat fəaliyyətinin yekcins faktorlar qrupu; mühasibat uçotunun müxtəlif registr növü.

Mühasibat uçotu hesabı aktiv, passiv və aktiv-passiv hesablara bölünür. Aktiv mühasibat uçotu hesabında müəssisənin əmlakının uçotu aparılır (geniş mənada); passiv mühasibat uçotu hesabında bu əmlakın maliyyələşməsi mənbələrinin uçotu həyata keçirilir; aktiv-passiv mühasibat uçotu hesabı isə qarışıq hesablardır.

Hər hansı bir mühasibat uçotu hesabı iki hissədən: debet və kredit hissələrindən ibarətdir ki, bunlarda həmin mühasibat uçotu hesabı üzrə uçot obyekti ilə əks (müxtəlif istiqamətli) əməliyyatlar qruplaşdırılır. Aktiv hesablarda müəssisənin əmlakının daxil olması debet üzrə, çıxılması isə kredit üzrə yazılır. Passiv hesablarda vəsaitlərin mənbəyinin artırılması kredit yazısında, azalması isə debet yazısında əks olunur. Müəssisənin təsərrüfat həyatının hər bir faktı (təsərrüfat əməliyyatı) eyni zamanda iki qarşılıqlı əlaqəli (müxbirləşən) mühasibat uçotu hesabı – birinin debeti, digərinin isə krediti üzrə eyni pul məbləğinin yazısı formasında nəzərə alınmalıdır. Məsələn, hesablaşma hesabından kassaya 100 manatın alınması əməliyyatı "Kassa" hesabı debeti üzrə və 100 manat "Hesablaşma hesabı" krediti üzrə yazı kimi hesablaşma hesabı kassasına təqdim edilməlidir. Yəni hesablaşma hesabında pulun miqdarı bu məbləğ qədər azalacaq, kassada isə artacaqdır. Müəyyən dövr ərzində hesab üzrə bütün debet yazılarının məbləği debet üzrə dövriyyə, kredit yazılarının məbləği isə kredit üzrə dövriyyə adlanır; debet və kredit dövriyyələri arasında fərq "hesab saldosu" adlanır. Aktiv hesablar yalnız debet saldosuna (debet üzrə dövriyyələrlə kredit üzrə dövriyyələr arasında fərq mənfi olmamalıdır), passiv hesablar isə yalnız kredit saldosuna malikdir. Aktiv-passiv hesablar saldosu həm kredit, həm də debet saldosu ola bilər. Əgər hesabat dövrünün sonunda hesab saldosu digər hesabla müxbirləşmədə silinməlidirsə, onda birinci hesab əməliyyat hesabı, ikinci isə əsas hesab adlanır.

Bütün mühasibat uçotu hesabları (balansarxası hesab istisna olmaqla) müəssisənin mühasibat balansında yazılır. Aktiv saldo balansın aktivində, passiv saldo isə balansın passivində qruplaşdırılır. Bütün aktiv və passiv mühasibat uçotu hesablarının cəmi bərabər olmalıdır. Bu cəm balansın valyutası adlanır. Aktiv hesabların passiv hesablarla və passiv hesabların aktiv hesablarla müxbirləşməsi zamanı balansın valyutası dəyişmir. Əgər aktiv və passiv hesablar müxbirləşirsə, o, ya arta, ya da azala bilər (oxşar olaraq həm müəssisənin əmlakı, həm də bu əmlaka uyğun öhdəlikləri dəyişir).

Balansarxası hesabların saldosu mühasibat balansına daxil deyil.

Balansarxası hesablarda uçot ikili yazı tətbiq edilmədən aparılır. Bu hesablar öz aralarında və ya balans hesabları ilə müxbirləşmir. Təsərrüfat əməliyyatlarının ümumiləşməsi dərəcəsinə görə mühasibat uçotu hesabı analitik və sintetik səviyyələrdə fərqləndirilir. Analitik hesablar sintetik hesabları detallaşdırır (təfsilatı ilə göstərir). Sintetik mühasibat uçotu hesabında əks olunan təsərrüfat əməliyyatları qrupu bir neçə yarım (alt) qruplara bölünür ki, bunların hər biri üçün analitik hesablar açılır. Məsələn, "Materiallar" sintetik hesabında müəssisənin malik olduğu bütün materiallar nəzərə alınır. Bu sintetik hesaba material növləri üzrə analitik hesablar açıla bilər. Təbiidir ki, analitik hesablar üzrə kredit və debet dövriyyələrinin cəmi müvafiq olaraq onlara açılan sintetik hesabın kredit və debet dövriyyələri ilə uyğun gəlməlidir. Sintetik və analitik hesablarla yanaşı, uçotda, həmçinin aralıq mövqeyi tutan subhesablardan da istifadə olunur.

Bəzi ölkələrdə sintetik mühasibat uçotu növləri və onların müxbirləşməsi sxemləri Maliyyə Nazirliyi tərəfindən təsdiq edilən müəssisənin maliyyə təsərrüfat fəaliyyətinin mühasibat uçotunun hesablar planında və onun tətbiq edilməsi üzrə təlimatında göstərilmişdir. Mühasibat uçotu hesabı təsərrüfat əməliyyatları haqqında məlumatların və mühasib uçotunda digər informasiyanın qruplaşdırılması və saxlanılması üçün əsas vahiddir. Mühasibat uçotunda sintetik hesab əmlakın, kapitalın, maliyyə nəticələrinin və s. müəyyən edilmiş növü üzrə təyin olunmuş əlamətlərinə görə ümumiləşdirilmiş məlumatların qruplaşdırılmasına xidmət edir. Analitik hesab isə sintetik hesabın daxilindəki şəxsi, material və başqa hesablardakı məlumatları daha təfsilatı ilə qruplaşdırır. Subhesab qruplaşdırılmış analitik uçot məlumatlarını özündə əks etdirməklə sintetik hesabın bir hissəsidir.

MÜHASİBAT UÇOTU HESABLARININ TƏSNİFLƏŞDİRİLMƏSİ – müəyyən əlamətlər üzrə mühasibat uçotu hesablarının qruplaşdırılması, onların öyrənilməsi və düzgün tətbiqi məqsədilə müxtəlif qrupların ümumi xassələrinin təyin edilməsi. Mühasibat uçotu obyektlərinin çoxsaylı və müxtəlif olması çoxlu sayda müxtəlif hesablar tətbiq etmək zərurəti doğurur.

MÜHASİBAT UÇOTU REGİSTRLƏRİ – təsərrüfat əməliyyatlarının ilkin uçot sənədlərinə əsasən sistemləşdirilməsi.

MÜHASİBAT UÇOTU SƏNƏDLƏRİ (*Accounting records*) – ümumiyyətlə, ilkin qeydlərdən və yardımçı sənədlərdən ibarət olur, məsələn, pul vəsaitlərinin elektron rabitə sistemi ilə köçürülməsi barədə çeklər və sənədlər, hesab-fakturalar, müqavilələr, əsas və köməkçi baş kitablar, uçot jurnalı qeydləri, həmçinin maliyyə hesabatlarına edilmiş, lakin formal uçot jurnalının qeydlərində əks olunmamış düzəlişlər, xərclərin bölüşdürülməsi, hesablamalar, müqayisələr, izahedici məlumatlar üçün nəzərdə tutulmuş iş vərəqləri və iri formatlı cədvəllər.

MÜHASİBAT UÇOTUNDA FƏALİYYƏTDƏ OLAN VAHİD PRİNSİPİ – təsərrüfat proseslərində iştirak edən şəxslərin maraq dairəsini cızan beynəlxalq mühasibat uçotu prinsipi. Mühasibat uçotu vahidi kimi konkret təsərrüfat subyekti müəyyən edilir. Nəticədə maliyyə hesabatlarına daxil etmək üçün mümkün uçot elementlərinin sahəsi və onların xarakteristikaları daralır. Mühasibat uçotu obyektinin müəyyən edilməsi zamanı iki əsas yanaşmadan istifadə olunur.

Birinci yanaşma mühasibat uçotu obyektini təsərrüfat vahidi kimi müəyyən edir. Təsərrüfat vahidi resurslara sərəncam verir, öhdəliklərin yerinə yetirilməsi üçün məsuliyyət daşıyır və öz fəaliyyətini idarə edir. Təsərrüfat vahidi fərd, partnyor, korporasiya, birləşmiş qrup ola bilər. Mənfəətli və ya mənfəətsiz fəaliyyətə görə cavabdehdir.

İkinci yanaşma təsərrüfat vahidini şəxs, qrup və ya institutların iqtisadi maraq blokunda müəyyən edir. Təsərrüfat vahidinin fəaliyyət hüdudlarını maraqlı şəxs və ya qruplar, eləcə də onların maraqları müəyyən edir. Mühasibat uçotunda təsərrüfat vahidi kimi müəssisə (və ya onun hissəsi), yaxud bir neçə qarşılıqlı əlaqəli şirkətlər birliyi çıxış edə bilər.

MÜHASİBAT UÇOTUNUN HESABLAR PLANI – mühasibat uçotunun müəyyən edilmiş əlamətləri üzrə sintetik hesabların və subhesabların məcmusu.

MÜHASİBAT MƏNFƏƏTİ – sahibkarlıqdan əldə olunan gəlirlər mühasibat hesabatı ilə

təsdiq olunur. Burada sahibkarlıq mənfəəti və əldən verilən səmərə təsbit olunur.

MÜHASİBAT UÇOTUNUN MEMORİAL-ORDER FORMASI – mühasibat uçotunun aparılması formalarından biri. Bu halda ilkin sənədlər əsasında xüsusi jurnalda qeyd olunan memorial orderlər tərtib edilir. Sonda memorial orderlərin əsasında sintetik uçot hesablarında (bax: Mühasibat uçotu hesabı) və baş mühasibat kitabında qeydlər aparılır. Memorial orderlərə əlavə edilən sənədlər analitik uçot registrlərində yazılar üçün əsasdır. Hər ayın sonunda sintetik uçot hesabları və analitik uçot hesabları üzrə dövriyyə cədvəlləri tərtib edilir və onlar qarşılıqlı tutuşdurulur.

MÜHASİBAT UÇOTUNUN STANDARTLARI – mühasibat uçotunun aparılmasına dair icbari qaydaları və ya göstərişləri müəyyən edən normativ sənəd. Mühasibat uçotu standartları Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və Milli Mühasibat Uçotu Standartları olmaqla iki hissəyə bölünür.

Maliyyə Hesabatlarının Beynəlxalq Standartları Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən işlənib hazırlanmış, qəbul edilmiş və ya təsdiq olunmuş Mühasibat Uçotunun Standartları, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və Şərhlər üzrə Daimi Komitənin şərhləri, habelə Maliyyə Hesabatlarının Şərhləri üzrə Beynəlxalq Komitənin müvafiq şərhləridir.

İctimai Sektor üçün mühasibat uçotunun beynəlxalq Standartları Mühasiblərin Beynəlxalq Federasiyasının İctimai Sektor üzrə Komitəsi tərəfindən işlənib hazırlanmış, qəbul və ya təsdiq olunmuş mühasibat uçotu standartlarıdır.

Milli Mühasibat Uçotu Standartları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən mühasibat uçotu standartlarıdır. Hazırda Azərbaycan Respublikasında milli mühasibat uçotu standartları, kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları və büdcə təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları müvafiq olaraq Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və İctimai Sektor üçün Milli Mühasibat Uçotu Standartları əsasında hazırlanaraq, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ilə nizamlanan bütün məsələləri əhatə edir.

Milli Mühasibat Uçotu Standartlarının Tətbiqi üzrə Şərhlər və Tövsiyələr müvafiq icra hakimiyyəti orqanı tərəfindən Milli Mühasibat Uçotu Standartlarının müddəalarının şərh olunması məqsədilə işlənib hazırlanmış və təsdiq edilmiş metodoloji təlimatlardır.

MÜHASİBAT UÇOTUNUN TƏŞKİL EDİLMƏSİ PLANI – uçot fəaliyyətinin əvvəlcədən nəzərdə tutulan sistemi. Planda işlərin yerinə yetirilməsi qaydası və müddətləri nəzərdə tutulur və o, aşağıdakı elementlərdən ibarət olur:

1) **sənədləşdirmə və sənəd dövriyyəsi planı** – burada təsərrüfat əməliyyatlarının uçotu üçün zəruri sənədlərin siyahısı verilir. Müvafiq blanklara tələbatın səviyyəsi müəyyən edilir, bütün sənədlərin rəsmiləşdirilməsi üçün cavabdeh şəxslərin əhatə dairəsi, sənədin tətbiqi qaydası, yeri və vaxtı göstərilir;

2) **inventarlaşdırma planı** – bu planda həm plan üzrə, həm də plandankənar inventarlaşdırma aparılmasının formaları, qaydası və müddətləri müəyyən edilir;

3) **hesabların müxbirləşməsi və hesablar planı** – müəssisə və təşkilatlarda plan və tapşırıqların yerinə yetirilməsinə nəzarət üçün mühasibat uçotunda kompleks hesablardan istifadə edilir. Bu kompleks hesabların sistemləşdirilmiş siyahısı hesablar planı adlanır. Hesablarda təsərrüfat vəsaitinin və onların əmələgəlmə mənbələrinin dəyişməsi və təsərrüfat proseslərinin nəticələri haqqında məlumat toplanır. Azərbaycanda hazırda vahid hesablar planı tətbiq edilir. Bu da xalq təsərrüfatının bütün sahələrində mühasibat uçotunun vahid qaydada qurulmasına imkan yaradır. Hesablar planından istifadəni asanlaşdırmaq üçün hər bir hesaba şifrə verilir. Mühasibat yazılışları zamanı hesabın adı əvəzinə onun şifrəsi göstərilir. Bu da həm uçotu, həm də onun avtomatlaşdırılmasını asanlaşdırır. Təsərrüfat əməliyyatlarının ikili yazılışı hesablar arasında qarşılıqlı əlaqə yaradır. Bu qarşılıqlı əlaqəyə (görüşlərə) hesabların müxbirləşməsi deyilir,

4) **hesabatın planı** – burada hesabat formaları, hesabat dövrləri və sair göstəricilər sadalanır;

5) **uçotun texniki tərtibatı planı** – burada uçot formaları və uçotun həyata keçirilməsi üçün

zəruri vəsaitlər hərtərəfli xarakterizə edilir;
6) **mühasibat işçilərinin əməyinin təşkili planı** – burada mühasibat bölmələrinin strukturu və onların uçot işlərinin qrafikləri əks olunur.

MÜHASİRƏ MƏQSƏDİLƏ HÜCUM – müdafiə olunan rəqibə hər tərəfdən hücum. Bazarın hər bir seqmenti malın xüsusiyyətlərinin bütün mümkün ahəngi ilə hücuma məruz qalır.

MÜHÜM İŞTİRAK PAYI – səhmdar kapitalının və ya səsvermə hüququnun 10 və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla sahiblik.

MÜHÜM QÜSUR – maldan (işdən, xidmətdən) onun məqsədli təyinatına müvafiq surətdə istifadə olunmasını qeyri-mümkün və ya yolverilməz edən, istehlakçı üçün aradan qaldırıla bilməyən, aradan qaldırılması üçün çoxlu əmək və vaxt məsrəfi tələb edən, malı (işi, xidməti) müqavilədə nəzərdə tutulduğundan başqa şəklə salan, yaxud aradan qaldırıldıqdan sonra yenidən üzə çıxan qüsur.

MÜXBİR BANK – xüsusi müxbir hesabların açılması və ya üçüncü bankda müxbir bankların hesabı vasitəsi ilə hesablaşmalar və tədiyələr üzrə birbirinin tapşırıqlarını müxbir müqaviləsi əsasında yerinə yetirən bank.

MÜXBİR MÜQAVİLƏSİ – ölkə daxilində və ya onun hüdudlarından kənarda banklar arasında bağlanan müqavilə. Bu müqaviləyə görə, iştirakçılardan birinə tədiyə və hesablaşmalar üzrə əməliyyatların yerinə yetirilməsi tapşırılır.

Banklar bu cür müqavilə bağlayarkən müvəqqəti hesablaşmaların hansı hesablar üzrə aparılacağını əvvəlcədən nəzərdə tuturlar. Bu halda komisyon ödənişlərin tarifləri və imza nümunələri mübadilə edilir.

MÜKAFAT – 1. İstənilən fəaliyyət sahəsində uğurlu işə görə pul və ya maddi həvəsləndirmə. Mükafatlar pul və natural, fərdi və kollektiv növlərə bölünür. 2. Opsion satıcısına alıcının müəyyən vaxt kəsiyi ərzində əvvəlcədən danışılmış qiymət üzrə qiymətli kağızların, malların satılması və ya alışı hüququna görə ödədiyi məbləğ. 3. Sığorta edənin sığorta edən idarəyə ödədiyi məbləğdir (sığorta mükafatı). Bu zaman sonuncu sığorta polisinin sahibinə polis şərtləri ilə nəzərdə tutulan sığorta halının baş verməsi zamanı müəyyən məbləğ ödəməyə məsul edilir. 4. Bir qiymətin digəri üzərində ötmə ölçüsü, məsələn, eyni malın minimal qiyməti üzərində real qiyməti. Buradan da "mükafatla", yəni "daha yüksək qiymətlə" anlayışı yaranır.

MÜKAFAT ARTIRMASI – alışın həvəsləndirilməsi qismində aşağı qiymətlə və ya havayı təqdim olunan istənilən mal.

MÜKAFAT DEPOSU – təkrar sığorta əməliyyatlarının maliyyə sabitliyinin təmin edilməsi məqsədilə sesioner üçün nəzərdə tutulan mükafatın sedent tərəfindən müvəqqəti tutulan hissəsi; yaxud təkrar sığortalının öhdəliklərinin zəmanəti kimi təkrar sığortaçı tərəfindən tutulan təkrar sığorta mükafatının bir hissəsi.

MÜKAFAT EHTİYATI – ilk illərdə sığortaçının hesabına daxil olan sığorta mükafatının artığından yaranan fond. Təkrar sığortanın ümumi qəbul edilmiş qaydalarına uyğun olaraq riskin bir hissəsini verən sığortaçı itkilərin ödənilməsi və mükafatların geri qaytarılması məqsədilə ehtiyatın yaradılması üçün təkrar sığorta mükafatının bir hissəsinin tutulması hüququna malikdir.

MÜKAFAT İSTİQRAZI *(premium bond)* – bazar qiyməti nominal dəyərindən yüksək olan istiqraz.

MÜKAFATI ƏVVƏLCƏDƏN ÖDƏNİLƏN ƏQD – məlum həcmdə mükafat ödənilməklə qiymətli kağızları və malları müəyyən müddət ərzində müəyyən qiymətə almaq (satmaq) hüququ. Bu halda tələb təklifdən xeyli artıq olur, qiymətlər və birjada bağlanan əqdlərin sayı artır.

MÜKAFATLAR DEPOSU – təkrar sığorta müqaviləsi üzrə nəzərdə tutulmuş öhdəliklərin icrasının təminatı kimi təkrar sığortalanan tərəfindən saxlanan mükafatın təkrar sığortalanana çatacaq hissəsi.

MÜKAFATLI ƏQD – birja əqdinin bu növündə iştirakçılardan biri əvvəlcədən sazişlə razılaşdırılmış haqq (mükafat) müqabilində müəyyən müddət, dövr ərzində alış həyata keçirmək və ya ondan imtina etmək hüququ qazanır.

Mükafatı qabaqcadan ödənilən əqd alıcının əqddə göstərilən

qiymətli kağızları almaqdan imtina etməsinə imkan verir. Bu halda alıcının imtina etməsinin dəyəri satıcıya qabaqcadan ödənilmiş mükafatın dəyərinə bərabərdir. Əqd bağlanarkən əks mexanizm də nəzərdə tutulur: satıcı qiymətli kağızları satmaqdan imtina edə bilər (müqavilədə nəzərdə tutulduğu kimi), lakin bu halda onun imtinası müqabilində alıcıya mükafat ödənilməlidir.

MÜKƏMMƏL RƏQABƏT ŞƏRAİTİNDƏ İSTEHSAL RESURSLARINA TƏLƏBAT – *mükəmməl rəqabət* şəraitində istehsal amillərinə tələbat bir çox hallarda qrafik şəkildə göstərilir. Bu halda ordinat oxu üzərində müvafiq amilin qiymətini, absis oxunda isə həmin amilin miqdarını ayırırlar.

İstehsal amilinə tələb əyrisi həmin amilin məhsuldarlığının yuxarı həddi və məhsulun qiyməti ilə şərtlənir. Mükəmməl rəqabət şəraitində müəssisənin əmtəəsinin qiymətinin sabitliyinə bu məhsulun miqdarından asılı olmadığına görə həmin amilə tələbat əyrisi yalnız getdikcə azalmaqda olan məhsuldarlığın yuxarı həddindən asılıdır və o, hamar şəkildə absis oxuna tərəf enir. Bu halda tələb əyrisinə mənsub olan hər bir nöqtə, müvafiq amilin qiyməti gəlirin yuxarı həddindən aşağı və ya ona bərabər olana qədər alınacaq miqdarını əks etdirir.

MÜQAVİLƏ – iki və ya bir neçə şəxs arasında iştirakçıların hüquq və vəzifələrinin müəyyən edilməsi, dəyişdirilməsi və ya onlara xitam verilməsi barədə saziş.

Müqavilədə onun iştirakçıları barəsində məlumatlar, o cümlədən onların hüquqi ünvanları göstərilir, sazişin predmeti və mahiyyəti şərh edilir. Eyni zamanda müqavilə bağlayan tərəflərin öhdəlikləri, eləcə də müqavilənin yerinə yetirilməsi şərtləri, iştirakçıların bir-birinə mallar, işlər, xidmətlər təqdim etməsi müqabilində ödənişin üsulları, iştirakçıların öhdəliklərini yerinə yetirmədiklərinə görə məsuliyyətin şərtləri, müqavilənin ləğv edilməsi və ya uzadılması şərtləri göstərilir.

Müqavilə razılığa gələn tərəflərin nümayəndələrinin imzaları və əgər müqavilənin iştirakçısı hüquqi şəxsdirsə, tərəflərin möhürləri ilə təsdiq edilir. Müqavilələrin müxtəlif növləri mövcuddur. Onlar özünün predmeti, məzmunu və iştirakçıları ilə müəyyən edilir.

MÜQAVİLƏ AZADLIĞI – müqavilə hüququnun bu əsas prinsipinin mənası ondan ibarətdir ki, müqavilə tərəfləri müqavilənin bağlanması və onun məzmunu məsələlərini öz mülahizələrinə əsasən həll edirlər.

MÜQAVİLƏ İŞTİRAKÇISI – dövlət, hökumət və ya beynəlxalq təşkilat onlar üçün müqavilənin məcburiliyinə razılıq verdikləri halda bu müqavilə qüvvədədir.

MÜQAVİLƏ QİYMƏTLƏRİ – tərəflərin razılığına görə, bir qayda olaraq, dövlətlərarası və ya hökumətlərarası ticarət müqavilələri əsasında müəyyən edilir. Onlar müvafiq göndərmə və ödəmə şərtləri ilə müəyyən keyfiyyətli əmtəənin həqiqi qiymət səviyyəsini əks etdirir. Lakin müqavilə qiymətləri haqqında məlumatlar kommersiya sirri olduğundan, onlar haqqında məlumat əldə etmək çətindir.

MÜQAVİLƏ ŞƏRTLƏRİ – müqavilədə tərəflərin müəyyən etdiyi şərtlər onun məzmunu adlanır. Müqavilə təcrübəsində müqavilə şərtlərinə digər göstəricilərlə yanaşı sığorta göstəriciləri də daxil ola bilər.

MÜQAVİLƏ TƏKRAR SIĞORTASI – müəyyən şərtlərdə qeyd-şərtli sığorta risklərinin təkrar sığortalı tərəfindən verilməsini, təkrar sığortaçı tərəfindən qəbul edilməsini üzərinə götürən həmin təkrar sığortalı ilə təkrar sığortaçı arasında müqavilə münasibətləri.

MÜQAVİLƏ ÜZRƏ MƏSULİYYƏT SIĞORTASI – müqavilə öhdəliklərinin yerinə yetirilməməsi ilə və ya lazımi dərəcədə yerinə yetirilməməsi ilə sığortalı tərəfindən törədilən zərərin ödənilməsi sığortası.

MÜQAVİLƏNİN ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ POZULMASI – mülki hüquqda tərəflərdən birinin müqavilənin dəyişdirilməsi və ya pozulması tələbinin səbəblərindən biri.

Adi dəyişiklikdən fərqli olaraq, müqavilənin əhəmiyyətli dərəcədə pozulması o pozuntu sayılır ki, o biri tərəfə zərər yetirmiş olsun.

MÜQAVİLƏNİN İCRASI – şirkət tərəfindən qəbul edilən öhdəliklər üzrə sığorta və ya təkrar sığorta üzrə ilk mükafatın ödənilməsi.

MÜQAVİLƏNİN İCRA EDİLDİYİ YERİN QANUNU (ing. *lex loci solution*) – bu qaydaya görə, müqavilədən irəli gələn öhdəlik hansı dövlətin ərazisində icra edilməlidirsə, həmin dövlətin hüququ tətbiq

olunur. Müqavilənin bağlandığı yerin qanunu kimi, öhdəliyin icra edildiyi yerin qanunundan da mülki-hüquqi müqavilə öhdəliklərinin nizama salınması üçün təhkimetmə düsturu kimi istifadə olunur. Lakin öhdəliyin icra edildiyi yerin qanunundan çox vaxt daha məhdud mənada icranın (ifanın) yerinin bütün qanununu malların təhvil verilməsi (təhvil-təslim aktının forması, təhvil-təslimin hansı gün və günün hansı vaxtında həyata keçirilə bilməsi və s.) və ödənişin həyata keçirilməsi qaydası, o cümlədən müvafiq ödəmə sənədlərinin forması və məzmunu kimi məsələlər kompleksinin tənzimlənməsi üçün malın faktiki təhvil verilməsi və ya ödəniş edilməsi yerinin qanunu kimi istifadə olunur.

MÜQAVİLƏNİN TƏCRÜBƏSİNDƏN ÇIXAN HÜQUQİ HƏRƏKƏTLƏR – sığortada bu üçüncü şəxslər qarşısında məsuliyyətlə əlaqədar hüquqi hərəkətlərə aid ola bilər.

MÜQAVİLƏNİN TƏRTİB EDİLDİYİ YERİN QANUNU (ing. *lex loci contractus*) – bu qaydaya görə, əşyanın olduğu yerin qanunu ilə birgə, kollizion hüquqda tarixən yaranmış bağlama müəyyən edilir. Bu qanun müqavilə hansı dövlətin ərazisində tərtib olunmuşdursa, həmin dövlətin hüququnun tətbiqinin əsaslarını təşkil edir. Bu bağlama alqı-satqı, icarə, barter və s. müqavilələrdən irəli gələn öhdəliklərin tənzimlənməsi üçün istifadə olunur.

MÜQAVİLƏ-SİFARİŞ – təsərrüfat müqaviləsinin bir növü. Burada tərəflər kimi sifarişçi və icraçı göstərilir. Sifarişçi icraçı tərəfindən işlərin görülməsi və ya məhsulun hazırlanması barədə sifariş verir.

İşlərin müqavilə-sifariş üzrə yerinə yetirilməsi bu əqddə iştirak edən tərəflərin hər ikisi üçün münasibdir. Sifarişçi ona lazım olan məhsulu ona lazım olan həcmdə alır, malgöndərən hazır məhsulun satış bazarının axtarışı ilə əlaqədar xərclərdən azad olur. Bununla da kommersiya xərcləri azalır və məhsulun satışından əldə edilən mədaxildə mənfəət payı artır.

Məsələn, tikiş atelyesində paltar sifariş verərkən müqavilə-sifariş tərtib edilir.

MÜQAYİSƏLİ DİNAMİK ÜSTÜNLÜK NƏZƏRİYYƏLƏRİ – mütləq üstünlüklər nəzəriyyəsinə xas olan nöqsanlar nisbi üstünlüklər nəzəriyyəsinin yaranmasını stimullaşdırmışdır. Vaxtilə Londonda dilerliklə məşğul olmuş David Rikardo özünün "Siyasi iqtisadın və vergi tutulmasının prinsipləri" adlı kitabında (1817) isbat etmişdir ki, beynəlxalq ticarətdə iştirak bütün ölkələr üçün xeyirlidir. Nisbi üstünlüklər nəzəriyyəsinə əsasən, ölkədə istehsal xərcləri ixrac edilən mal üzrə xərclərdən yüksək olduqda həmin mal idxal edilməlidir. Sonradan iqtisadçılar isbat etmişlər ki, bu prinsip David Rikardonun nəzərdən keçirdiyi İngiltərədə və Portuqaliyada şərab və mahud istehsalı ilə əlaqədar, məşhur şərti misalda göstərdiyi kimi, yalnız iki ölkəyə və iki mala deyil, istənilən sayda ölkəyə və istənilən sayda mala şamil edilir. Rikardo riyazi vasitələrlə isbat etmişdir ki, həmin iki malın Portuqaliyada istehsal edilməsi İngiltərə ilə müqayisədə ucuz başa gəldiyinə (yəni Portuqaliyada hər iki mal üzrə mütləq üstünlüklər olduğuna) baxmayaraq, onun şərab istehsalı və ixracı üzrə ixtisaslaşması sərfəli olar, çünki bu ölkədə mahud ilə müqayisədə şərab istehsalı xərcləri aşağıdır. İngiltərənin isə mahud istehsalı və ixracı üzrə ixtisaslaşması məqsədəuyğundur, çünki onun istehsal xərcləri şərab ilə bağlı xərclərdən aşağıdır. Şərabı Portuqaliyadan idxal etmək və əvəzində ingilis mahudunu ixrac etmək daha sərfəli olar. Bu nəzəriyyənin əsas məziyyəti onu isbat etməsidir ki, beynəlxalq ticarət onun iştirakçıları üçün sərfəlidir. Bəzi hallarda mənfəətin az, digər hallarda çox olmasına fikir vermək lazım deyil. Rikardo nəzəriyyəsinin böyük üstünlüyü bundan ibarətdir. O sübut etmişdir ki, əmək bölgüsünün onun bütün iştirakçıları üçün sərfəli olması barədə A.Smitin ideyası xarici ticarətdə də təsdiqlənir. Bu nəzəriyyənin əsas qüsuru ondan ibarətdir ki, o, müqayisəli üstünlüklər yaranmasının səbəblərini izah etmir.

Müqayisəli üstünlüklər nəzəriyyəsi ilə əlaqədar olmayan, lakin onu tamamlayan beynəlxalq ticarət nəzəriyyələri vardır. Amerikalı iqtisadçı Pol Kruqmanın miqyas effekti nəzəriyyəsi (inhisarçı rəqabətə əsaslanan beynəlxalq ticarət nəzəriyyəsi) istehsal amilləri ilə eyni dərəcədə təchiz olunmuş ölkələr arasında ticarətin mövcud olması səbəblərini izah edir. Adətən inhisarçı rəqabət çərçivəsində istehsalın miqyası artdıqda məhsulun hər vahidinin istehsalı üçün xərclər

Cədvəl 1

Benzinin müqayisəli qiymətləri (2010-cu il)

Ölkə	Litri $	K%*
Azərbaycan	0,7	100,0
ABŞ	0,8	114,3
Böyük Britaniya	1,9	271,4
Çin	0,75	107,1
Yaponiya	1,35	192,9
Almaniya	1,65	235,7

* – Azərbaycandakı benzinin qiymətinin göstərilən ölkələrdəki benzinin qiymətinə nisbəti

azalır. Beləliklə, bu cür ölkələrin hətta texnoloji baxımdan bircins, lakin diferensiasiya edilmiş məhsullar üzrə ixtisaslaşması və onları mübadilə etməsi (sahədaxili ticarət) onlar üçün sərfəli olur. Məsələn, avtomobil istehsal edən ölkələr arasında avtomobil ticarəti aparılır.

Macar mənşəli ingilis iqtisadçısı Bela Balassanın yaratdığı sahədaxili beynəlxalq ticarət nəzəriyyəsi Kruqmanın nəzəriyyəsinə çox oxşayır. Balassa həm bütövlükdə miqyas effektinə, həm də müxtəlif ölkələrdəki istehlakçıların zövq fərqlərinə, onların sərhəd regionlarının coğrafi yaxınlığına, kənd təsərrüfatı mövsümlərinin üst-üstə düşməməsi faktına xüsusi diqqət yetirmişdir.

İngilis iqtisadçıları Ecuort və Marşall, Avstriya mənşəli Amerika iqtisadçısı Haberler beynəlxalq ticarətin standart modelini işləyib hazırlamışlar. Onların fikrincə, Smit, Rikardo, Hekşer-Olin nəzəriyyələri bir ölkənin bu və ya digər əmtəə və ya əmtəələr qrupu üzrə tam ixtisaslaşmasının səciyyəvi olmadığı ümumi mənzərənin xüsusi hallarıdır.

MÜQAYİSƏLİ QİYMƏTLƏR – dəyər göstəricilərinin müqayisə edilməsi zamanı baza kimi şərti qəbul olunan müəyyən ölkədə, regionda (iqtisadi rayonda, inzibati-ərazi qurumunda və s.) müəyyən dövrün (il, ay) qiymətləri. İstehsalın, istehlakın, investisiyaların və s. fiziki həcminin dəyişməsini xarakterizə edən ümumiləşdirilmiş iqtisadi göstəricilərin dinamikasının (artım və ya enmə sürətinin) təhlili zamanı müqayisəli qiymətlərdən istifadə olunması və müqayisəli qiymətlərin yenidən hesablanması öyrənilən göstəricinin, yaxud onun ayrı-ayrı ünsürlərinin bilavasitə qiymətləndirilməsi, zaman (dinamik indeks), yaxud məkan ərzində nisbətini xarakterizə edən qiymət indeksi vasitəsilə həyata keçirilə bilər. Ümumi dəyər iqtisadi göstəricilərin (ÜDM-in, milli gəlirin, kapital qoyuluşlarının, əsas fondların) yenidən qiymətləndirilməsi üçün müqayisəli qiymətlərdə deflyatorlardan, yəni aqregirləşmiş əmtəə (xidmət) qrupları, fəaliyyət növləri, iqtisadiyyat sahələri, bütövlükdə xalq təsərrüfatı üzrə qiymətlərin orta dəyişməsini göstərən ümumi (aqreqat) qiymət indekslərində istifadə olunur. Keçmiş (retrospektiv) dövrdə ümumi deflyator qiymət indekslərinin hesablanması və ümumi iqtisadi göstəricilərin yenidən hesablanması müqayisəli qiymətlərdə dövlət statistika orqanları tərəfindən həyata keçirilir.

Müqayisəli qiymətlərdə yenidən hesablamadan, həmçinin dövlət büdcəsinin icra edilməsi gedişinin işlənib hazırlanması və təhlili zamanı istifadə olunur. İqtisadi təhlil praktikasında müqayisəli qiymətlər kimi bəzən fəaliyyətdə olan qiymətlərdən istifadə edilir ki, burada keçmiş illərin göstəriciləri yenidən hesablanır. Müqayisəli qiymətlərdə yenidən hesablamanın zəruriliyi regionlar üzrə eyniadlı əmtəə və xidmətlərin qiymət səviyyəsində müxtəlif fərqlərin

mövcudluğu və ərazi baxımından dəyər iqtisadi göstəricilərin müqayisəsi zamanı yarana bilər. Məsələn, əsas fondlara qoyulan investisiyaların regional strukturuna görülən işlərin yerinə yetirilməsindəki və pərakəndə əmtəə dövriyyəsindəki qiymət fərqləri əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Regionlar üzrə dəyər iqtisadi göstəricilərin müqayisəsi zamanı qiymət səviyyələrində ərazi fərqlərinin təsirinin aradan qaldırılması üçün müqayisəli qiymət kimi şərti olaraq hər hansı bir regionun (bir qayda olaraq, orta qiymət səviyyəli) qiymətləri qəbul edilir.

MÜQAYİSƏLİ QİYMƏTLƏRLƏ QİYMƏTLƏNDİRMƏ – ÜDM və ondan istifadəni səciyyələndirən göstəricilər müqayisəli qiymətlər üzrə də hesablanır. Belə hesablamalar əvvəlki ilə nisbətən aparılır. ÜDM-in müqayisəli qiymətlərlə yenidən qiymətləndirilməsi ikiqat deflyasiya (uyğunlaşdırma) üsulu ilə aparılır. Bu zaman müqayisəli qiymətlərlə əlavə dəyərin həcmi müqayisəli qiymətlərlə hesablanmış istehsalın (buraxılışın) həcmi və aralıq istehlak arasındakı fərq kimi hesablanır. İstehsalın (buraxılışın) və aralıq istehlakın yenidən qiymətləndirilməsi iki üsulla həyata keçirilə bilər: 1) müvafiq qiymət indeksi vasitəsilə deflyasiya (uyğunlaşdırma); 2) fiziki həcm indeksləri və natural göstəricilər vasitəsilə baza ilinin cari qiymətlərlə olan məlumatlarına ekstrapolyasiya edilməsi (hesablanması).

ÜDM-in istifadəsinə dair göstəricilərin müqayisəli qiymətlərlə yenidən qiymətləndirilməsi (hesablanması) üçün müvafiq qiymət indekslərindən (istehlak qiymətlərinin indeksi, kapital qoyuluşunun qiymət indeksi və s.) və ya natural göstəricilərdən istifadə edilir. ÜDM-in indeks-deflyatoru (uyğunlaşdırıcısı) ÜDM-in cari qiymətlər üzrə həcminin, onun əvvəlki ildəki həcminə nisbətlə xarakterizə edilir. Məhsul və xidmətlərin qiymət indeksindən fərqli olaraq, ÜDM-in indeks-deflyatoru (uyğunlaşdırıcısı) həm qiymətlərin, həm də xalis vergilərin həcminin dəyişməsinin nəticəsi sayılan əmək ödənişlərinin, mənfəətin (qarışıq gəlirlər də daxil edilməklə) və əsas kapitalın istehlakının dəyişməsini xarakterizə edir. Mərkəzi Hesablar Sistemində istifadə edilən göstəricidir.

MÜQAYİSƏLİ MƏLUMATLAR (*Comparatives*) – maliyyə hesabatlarındakı müqayisəli məlumatlar məbləğlərdən (məsələn, maliyyə vəziyyəti, əməliyyatların nəticələri, pul vəsaitlərinin axını) və iqtisadi subyektin birdən çox dövr üçün maliyyə hesabatlarında aşkara çıxarılmış müvafiq məlumatlardan ibarət ola bilər. Məlumatların ifadə olunmasının əsas prinsipləri və metodları aşağıdakılardır:

a) Müqayisəli göstəricilər – cari dövrün maliyyə hesabatlarının bir hissəsi kimi ora daxil edilmiş və əvvəlki dövrün məbləğlərini, eləcə də açıqlanan digər məlumatlarını ifadə edən bu göstəricilər cari dövrlə əlaqədar ("cari dövrün göstəriciləri" adlandırılır) məbləğlərlə və aşkara çıxarılmış digər məlumatlarla müqayisə edilmək üçün nəzərdə tutulur. Müqayisəli göstəricilər cari dövrün maliyyə hesabatlarının ayrılmaz hissəsi olmaqla, başa çatmış müstəqil maliyyə hesabatı kimi deyil, yalnız cari dövrün göstəriciləri kontekstində nəzərdən keçirilməlidir.

b) Müqayisəli maliyyə hesabatı əvvəlki dövrün məbləğlərindən və açıqlanan digər məlumatlarından ibarətdir. Cari dövrün maliyyə hesabatı ilə müqayisə edilmək üçün təqdim edilə bilər, lakin cari dövrün maliyyə hesabatlarının bir hissəsini təşkil edə bilməz.

MÜQAYİSƏLİ REKLAM – eyni əmtəələr sinfinə aid məhsulların bir markasının digəri ilə birbaşa müqayisəsi yolu ilə birincinin ikincidən üstün olmasını bildirən reklam forması. Müqayisəli reklamdan çox vaxt dezodorantlar, diş pastaları, avtomobillər və başqa əmtəə siniflərində istifadə edilir.

Məhsulun iki əsas parametrini (qiymətini və keyfiyyətini) müqayisə edərkən bəzən haqsız reklamdan istifadə edirlər.

Reklam verənlər və istehsalçılar reklam haqqında qanunu pozmamaq üçün öz mallarını konkret rəqiblərin malları ilə müqayisə etməməyə çalışır, onu mənsubiyyəti göstərilməyən mal ilə – rəqib malların təcəssümü ilə müqayisə edirlər.

MÜLKİ HƏYƏCANLARDAN SIĞORTALANMA – təttillərlə, xuliqanlıq və hüquqa zidd digər hərəkətlərlə əlaqədar maddi zərərin və dolayı itkilərin (məsələn, avadanlığın və ya nəqliyyat vasitələrinin boşdayanmalarından) vurulmasından sığortalanma.



MÜLKİ HÜQUQ – mülki dövriyyə iştirakçılarının hüquqi vəziyyətini, mülkiyyət hüquqlarının yaranma əsaslarını və reallaşma qaydasını, əqli mülkiyyətə istisna hüquqlarını, müxtəlif öhdəlikləri (müqavilələr üzrə), həmçinin digər şəxsi, qeyri-əmlak və əmlak münasibətlərini tənzimləyən normalar sistemi. Vətəndaşların bərabərliyinə, iradə azadlığına və əmlak sərbəstliyinə əsaslanır. Mülki hüquq və ona müvafiq olan qanunvericilik iqtisadi münasibətlərin dövlət tənzimlənməsinin yaranma dövründə meydana gəlmişdir.

MÜLKİ MƏSULİYYƏT SIĞORTASI – müstəsna olaraq mülki qanunvericiliyin tələblərini nəzərə alaraq zərər vuran tərəfindən ödənilməli olan və müqavilə öhdəliklərinin yerinə yetirilməməsi ilə (və ya lazımi dərəcədə yerinə yetirilməməsi ilə) əlaqədar olmayan üçüncü şəxslərin həyatına, sağlamlığına və ya əmlakına dəymiş zərərə görə sığortalının (sığortalanmış şəxsin) məsuliyyəti. Mülki məsuliyyət sığortası sığortalının günahı nəticəsində baş verən bədbəxt hadisədən üçüncü şəxslərin ölümü, xəsarət alması, onların mülkiyyətinin məhvi, korlanması və ya xarab olması zamanı bu üçüncü şəxslərin xeyrinə mülki iddia üzrə ondan (sığortalıdan) cərimə kimi tutulan məbləğ ölçüsündə pul ifadəsini həmin sığortalıya təmin edən xüsusi sığorta növüdür. İlk növbədə, avtomobil, motosikl və s. sahiblərinə şamil olunur. Bu sığorta növündən, həmçinin evlərin, tamaşa müəssisələrinin, ticarət təşkilatlarının sahibləri və s. istifadə edirlər.


MÜLKİYYƏT – konkret mülkiyyət münasibətləri tipini əks etdirən istehsal vasitələrinin və məhsulların hər hansı bir dövrdə müəyyən şəxslərə, fərdlərə və ya kollektivlərə məxsus olması. Mülkiyyətin iqtisadi və hüquqi kateqoriyaları fərqləndirilir. İqtisadi kateqoriya kimi mülkiyyət insanlar arasında mənimsəmə və özgəninkiləşdirmə münasibətlərini ifadə edir. Hüquqi kateqoriya kimi mülkiyyət obyektiv formalaşmış mülkiyyət münasibətlərinin subyektiv şərhi, artıq təcrübədə formalaşmışların qanunvericiliklə təsbit edilməsinə olan ictimai tələbatın təzahürüdür. Belə hallarda mülkiyyət özü hüquqdur. Sahiblik hüququ qanunla verilən əşyaya faktiki malik olmaq və onu xüsusi sahiblikdə (yiyələnməkdə) saxlamaq imkanıdır. İstifadə hüququ əmlakın istismarı, ondan faydalanmaq və ya gəlirin və bəhrənin alınması imkanıdır. Əmlaka sərəncamlıq hüququ mülkiyyətçiyə verilən əmlakın hüquqi taleyini müəyyənləşdirən hərəkətləri öz ixtiyarına buraxmaq və mənafeyi üçün istifadə etmək imkanıdır. Bu səlahiyyətlər (hüquqlar) sıx qarşılıqlı əlaqədədir və yalnız kompleks halında mülkiyyət hüququnun məzmununu təşkil edir.

Qarışıq mülkiyyət – təsərrüfatçılıq subyektlərinin kollektiv mülkiyyəti. Mülkiyyətin formaları fərqləndirilir:

– qarışıq mülkiyyət – müxtəlif milli mülkiyyət formalarını təmsil edən subyektlərin kollektiv mülkiyyəti;

– qarışıq Azərbaycan və xarici mülkiyyət formalarını təmsil edən subyektlərin kollektiv mülkiyyəti (bax: sxem 1).

MÜLKİYYƏT HÜQUQU – mülkiyyətçinin öz əmlakına sahib olma, istifadə, sərəncam-



Sxem 1

vermə hüququ. Mülkiyyətçi mülahizəsinə görə özünəməxsus əmlaka münasibətdə qanun çərçivəsində hərəkət edə bilər. Digər şəxslərin resurslara sərbəst girişdən kənarlaşdırılması o deməkdir ki, mülkiyyətçi onlara münasibətdə mülkiyyət hüququnun spesifik xüsusiyyətlərini müəyyən edir. Belə hərəkətin mənası və məqsədi mülkiyyət hüququnun yüksək qiymətləndirildiyi və ondan cəmiyyət üçün maksimal xeyir əldə edə bilən insanlar tərəfindən bu hüququn əldə olunması üçün şəraitin yaradılmasından ibarətdir. Əmlakın mülkiyyətçisi olmayan, amma 15 ildən çox müddətə vicdanla ona sahiblik edən və ya mülkiyyətçisi olanlar həmin əmlaka mülkiyyət hüququ ala bilərlər.

Mülkiyyət hüququ, iqtisadi nəzəriyyəyə görə, resursun (istehsal vasitələri və ya iş qüvvəsi) özü deyil, resursdan istifa-

dəyə verilən hüquq dəsti və ya payıdır. Mülkiyyət hüququ cəmiyyət tərəfindən icazə verilən (dövlət qanunları, ənənələr, adətlər, müdiriyyətin sərəncamı ilə və s.), insanlar arasında nemətlərin mövcudluğu ilə yaranan və onlardan istifadəyə aid davranış münasibətləri kimi başa düşülür.


Mülkiyyət hüququ nəzəriyyəsinin əsasını iki məşhur amerikalı iqtisadçılar – R.Kouz və A.Alçian qoymuşlar. Bu nəzəriyyə üzrə tədqiqatlarını sonralar Y.Barçel, Q.Bekker, D.Nort, N.S.Çenq, R.Pozner və digərləri davam etdirmişlər.

Tam hüquq dəsti aşağıdakı elementlərdən ibarətdir: sahiblik hüququ – nemətlər üzərində fiziki nəzarət hüququ; istifadə etmə hüququ – nemətlərin faydalı xassələrini özü üçün işlətmək hüququ; idarəetmə hüququ – nemətlərdən kimin və necə istifadə edəcəyini təmin edən qərar hüququ; gəlir hüququ – nemətlərdən istifadənin nəticələrinə sahib olmaq hüququ; suverenlik hüququ – neməti özgəninkiləşdirmək, istehlak etmək, dəyişdirmək və ya məhv etmək hüququ; təhlükəsizlik hüququ – nemətlərdən məhrum edilmədən və xarici mühit tərəfindən vurulan ziyandan qorunmaq hüququ; nemətləri irsən ötürmək hüququ; nemətə sahibliyin daimi olması hüququ; xarici mühitə zərər yetirən üsulun istifadəsinin qadağan olunması; cərimə şəklində olan məsuliyyət hüququ – nemətin borc əvəzinə alınması; qalıq səciyyəli hüquq – pozulmuş səlahiyyətlərin bərpasını təmin edən prosedurların və institutların mövcudolma hüququ.

Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin II bəndinə müvafiq olaraq Azərbaycan Respublikasında "Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər".

1991-ci ildə qəbul edilən "Azərbaycan Respublikasında mülkiyyət haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin 61-ci bəndinə əsasən, "Azərbaycan Respublikası ərazisində olan bütün xalq təsərrüfatı sahələrinin müəssisələri, energetika, nəqliyyat və rabitə şəbəkələri (sistemləri), dövlət mənzil fondu, dövlət idarələrinin əmlakı, mədəni sərvətlər və tarixi abidələri infrastruktur obyektləri, o cümlədən kurort-turist təyinatlı obyektlər, dövlət vəsaiti hesabına yaradılmış digər əsas fondlar, dövlət bankları, maliyyə və kredit ehtiyatları, qiymətli kağızlar və Azərbaycan Respublikasının qarşısında duran vəzifələri həyata keçirmək üçün lazım olan digər əmlak Azərbaycan Respublikasının dövlət mülkiyyətinə aiddir".

Qanunun 20-ci maddəsinin 1-ci



Sxem 2

bəndində qeyd olunur: "Xüsusi mülkiyyət hüququ istehsal vasitələrinə, qeyri-istehsal təyinatlı predmetlərə və sərvətlərə, pul vəsaitinə və qiymətli kağızlara, onlardan istifadə olunmasının nəticələrinə sahiblik, onlardan istifadə və onların barəsində sərəncam sahəsində ayrı-ayrı şəxslərin qanunla qorunan hüquqlarının məcmusudur".

Bu Qanunun 11-ci maddəsinin 1-ci bəndində göstərilir: "Bələdiyyə mülkiyyətində yerli dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının əmlakı yerli büdcənin, büdcədənkənar fondların vəsaiti, mənzil fondu evlərindəki qeyri-yaşayış otaqları, mühəndis infrastruktur obyektləri (su kəməri, kanalizasiya təsərrüfatı, istilik təchizatı, elektrik təchizatı, qaz təchizatı, şəhər elektrik nəqliyyat qurğuları və şəbəkələri, bayır abadlıq obyektləri) istehlakçılara bilavasitə kommunal xidmətlər göstərən digər obyektlər ola bilər". Bu mülkiyyət formasından başqa, mülkiyyətin digər formaları və növləri də mövcuddur. Kollektiv mülkiyyətə hüquqi şəxslər olan kollektiv və icarə müəssisələrinin, kooperativlərin, səhmdar cəmiyyətlərinin, təsərrüfat ortaqlıqları və təsərrüfat assosiasiyalarının, həmkarlar ittifaqı təşkilatlarının və başqa ictimai-dini təşkilatların, vətəndaşların birlik və ictimai hərəkatlarının mülkiyyəti aiddir.

Vətəndaşın mülkiyyətində aşağıdakılar ola bilər: 1) torpaq sahələri; 2) yaşayış evləri, mənzillər, bağlar, bağ evləri, qarajlar, ev təsərrüfatı ləvazimatı və şəxsi istehsal predmetləri; 3) pul vəsaiti; 4) səhmlər, istiqraz vərəqələri və başqa qiymətli kağızlar; 4) kütləvi informasiya vasitələri; 5) mallar istehsalı, məişət xidməti, ticarət sahəsində, sahibkarlıq fəaliyyətinin başqa sahələrində müəssisələr, əmlak kompleksləri, binalar, tikililər, avadanlıq, nəqliyyat vasitələri və başqa istehsal vasitələri; 6) dövlət təhlükəsizliyi və ya ictimai təhlükəsizlik mülahizələrinə, yaxud beynəlxalq öhdəliklərə görə vətəndaşa məxsus olmayan əmlakın qanunvericilikdə nəzərdə tutulan ayrı-ayrı növləri istisna olmaqla istehsal, sosial, mədəni və başqa təyinatlı hər hansı digər əmlak, fərdi mülkiyyət. Hüquqi şəxslər sayılan ictimai birliklərin mülkiyyətində binalar, tikililər, mənzil fondu, avadanlıq, inventar, mədəni-maarif və sağlamlıq təyinatlı əmlak, pul vəsaiti, səhmlər, digər qiymətli kağızlar və onların nizamnamələrində nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün zəruri sayılan başqa əmlak ola bilər.

Vətəndaşların mülkiyyət hüququ daşınmaz əmlak, ev təsərrüfatı və fərdi istehlak predmetləri, pul, qiymətli kağızlar, şirkətlər, biznes və s. formasında mülkiyyətə sahibolma hüququna qanunla təminatdır. Əmlakı əldə edən vətəndaş mülkiyyət hüququnu, qanunla digər hal nəzərdə tutulmayıbsa, əmlakın ötürülmə anından etibarən əldə edir.

Torpağa mülkiyyət hüququ torpaq sahəsinin mülkiyyətçisinin qanuna zidd olmayan istənilən yolla ona sərəncam verməsidir. Hüquqi şəxslər sayılan xeyriyyə fondları və ictimai fondlar öz nizamnamələrində nəzərdə tutulan fəaliyyəti həyata keçirmək üçün təsisçilərin onlara verdikləri əmlak üzərində mülkiyyət hüququna malikdirlər.

Hüquqi şəxslər sayılan dini təşkilatların mülkiyyətində binalar, ayin predmetləri, istehsal, sosial və xeyriyyə təyinatlı obyektlər, pul vəsaiti və onların fəaliyyəti üçün zəruri sayılan başqa əmlak ola bilər.

Hüquqi şəxs sayılan təsərrüfat cəmiyyətlərinin və ortaqlıqlarının, kollektiv müəssisələrin və icarə müəssisələrinin, kooperativlərin və başqa hüquqi şəxslərin sahibkarlar birliyi (konsernlər, assosiasiyalar, sahələrarası regional birliklər və başqa birliklər) iştirakçılar tərəfindən könüllü surətdə onun mülkiyyətinə verilən, habelə sahibkarlar birliyinin fəaliyyəti nəticəsində əldə edilən əmlak üzərində mülkiyyət hüququna malikdir.

MÜLKİYYƏT VƏ SAHİBKARLIQ – sahibkarlıq ilə mülkiyyət arasında qarşılıqlı əlaqə həddsiz mürəkkəb və çoxşaxəlidir. Birincisi, mülkiyyət onun barəsində sərəncam vermək səlahiyyətlərini təsərrüfatçılıq subyektləri arasında bölməklə iqtisadi əqdlərin həyata keçirilməsi, yəni sahibkarlığın bir anlayış kimi mövcud olması üçün ilkin şərt kimi çıxış edir. İkincisi, mülkiyyət resurslardan istifadəni bəzi subyektlərə təhkim etməklə və başqaları üçün bu istifadə hüququnu məhdudlaşdırmaqla sahibkarın iqtisadi sərbəstliyinin hədlərini müəyyənləşdirən amil kimi çıxış edir. Üçüncüsü, mülkiyyət istehsal amillərinin xarakterini və onların birləşdirilməsi üsulunu mü-

əyyən etməklə sahibkarlığın həyata keçirilməsi formalarını müəyyənləşdirir. Dördüncüsü, mülkiyyət ondan istifadə edilməsinin nəticələrini – gəliri mənimsəmək hüququnu şərtləndirməklə sahibkarlığın motivasiya bazasına çevrilir. Beşincisi, mülkiyyət resurslardan istifadə edilməsi ilə bağlı xərcləri və bu istifadənin nəticələrini özündə birləşdirməklə bazarın səmərəliliyi tələblərini təmin edən sahibkarlıq üsullarından istifadəni nəzərdə tutur. Sahibkarlıq sahəsində mülkiyyət resurslar barəsində sərəncam vermək hüququdur. Bunun nəticəsində sahibkar üçün mülkiyyət, ilk növbədə, həmin mülkiyyətin sahibinə qərarlar qəbul etmək imkanı verən bütün hüquqların məcmusudur. Həmin hüquqların əsasları aşağıdakılardır: əmlakdan istifadə hüququ, əmlakdan gəlir əldə etmək, əmlakı dəyişdirmək və onun barəsində sərəncam vermək, yəni əmlakı özgəninkiləşdirmək hüququ. Hakimiyyət səlahiyyətləri toplu şəklində dəyişə bilər. Mülkiyyət münasibətlərinin xarakteri mülkiyyət hüquqlarının bölünməsinin və qruplaşdırılmasının xüsusiyyətlərini müəyyən edir.

MÜLKİYYƏTÇİ – sahibkarlığın subyekti, daha konkret desək, mülkiyyətin subyekti, mülkiyyət hüququna malik olan mülkiyyət obyektinin sahibi, sərəncamçısı və ya istifadəçisi qismində çıxış edən hüquqi, fiziki şəxs.

MÜLKİYYƏTDƏN GƏLİRLƏR – maliyyə aktivlərinin, torpağın və istehsal edilməyən digər qeyri-maliyyə aktivlərinin (faydalı qazıntılar və s. təbii aktivlər, patentlər, lisenziyalar və s.) istifadəyə verilməsi ilə əlaqədar hüquqi və fiziki şəxslərin (institusional vahidlərin) aldığı və ya ödədiyi gəlirlərdir. Onlar aşağıdakılardan ibarətdir: faizlər, dividendlər (mənfəət payı), icarə haqqı, renta ödənişi, müəssisə sahibləri tərəfindən gəlirlərin götürülməsi, birbaşa xarici investisiyaların təkrar investisiyasından daxilolmalar, sığorta hesabına mülkiyyətdən gəlirlər. Milli Hesablar Sistemində istifadə edilən göstəricidir.

MÜRDAL (MYRDAL) HUNNAR KARL (1898-1987) – isveçli iqtisadçı, dünya iqtisadiyyatı problemləri üzrə mütəxəssis. 1974-cü ildə "Pul nəzəriyyəsi və iqtisadi dəyişikliklər nəzəriyyəsinə dair novator işlərinə, həmçinin iqtisadi, sosial və institusional hadisələrin dərin təhlilinə görə" iqtisadiyyat üzrə Nobel mükafatı laureatı (F.fon Hayek ilə birlikdə) olmuşdur. Görkəmli sosial-demokrat xadimlərdən biri hesab edilir. İqtisadi təhsilini Stokholm Universitetində almışdır. Doktorluq dərəcəsi alandan sonra (1927) siyasi iqtisaddan dərs demişdir. Stokholm Universitetinin professoru (1927-1930, 1933-1938), siyasi iqtisad və maliyyə kafedrasının müdiri (1933-cü ildən), Cenevrə Beynəlxalq Münasibətlər İnstitutunun professoru (1930-1931), bir neçə hökumət komissiyasının üzvü, iqtisadi, sosial və vergi məsələləri üzrə hökumətin məsləhətçisi (1933-1938), parlamentin – riksdaqın üzvü (1935) olmuşdur. 1938-1940-cı illərdə Karnegi Korporasiyası (ABŞ) tərəfindən yaradılmış Amerika zəncilərinin problemlərinin öyrənilməsi mərkəzinin rəhbəri, 1943-1945-ci illərdə İsveçin ABŞ-dakı səfirliyinin iqtisadi məsələlər üzrə müşaviri, ticarət naziri (1945-1947), 1947-ci ildə BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (AİK) Baş katibi vəzifələrində işləmişdir. Stokholm Universitetinin beynəlxalq iqtisadi münasibətlər üzrə professoru (1961), Dünya İqtisadiyyatı Tədqiqatları İnstitutunun banisi (1961) və ilk direktoru olmuşdur. Dəvət edilmiş professor kimi dəfələrlə xaricdə, o cümlədən Kaliforniya (1973-1974) və Nyu-York universitetlərində (1974-1975) işləmişdir. Britaniya Elmlər Akademiyasının, Amerika Elm və İncəsənət Akademiyasının, İsveç Kral Elmlər Akademiyasının üzvü olmuş, Avropa və Amerika universitetlərinin 30-dan çox fəxri elmi dərəcəsinə layiq görülmüşdür. 1970-ci ildə xanımı sosioloq Alva Mürdal ilə birlikdə AFR hökumətinin beynəlxalq Sülh mükafatı ilə təltif olunmuşdur.



Mürdalın diqqətini xalis nəzəri problemlər yalnız elmi karyerasının ilk illərində cəlb etmişdir. Mürdal "Pul tarazlığı", "Monetary Equillibirium" (1939) məqaləsində "ex ante" ("gözləmə") və "ex post" ("həyata keçmə") anlayışlarını iqtisadi nəzəriyyəyə daxil etmişdir. İsveçdə iqtisad elminin inkişafında mühüm rol oynamış bu anlayışlardan birincisi müəyyən iqti-

sadi dəyişənin gözlənilən qiymətinə, ikincisi isə həmin dəyişənin reallaşan və ya faktiki qiymətinə aiddir.

30-cu illərdə Mürdal İsveçin demoqrafik siyasətinin işlənib hazırlanmasında iştirak etmişdir. Onun "Böhran və əhali problemləri" ("Kris i befolkningsfragan", 1934, Alva Mürdal ilə birlikdə) əsərində İsveçdə doğumun azalmasının səbəblərinə nəzər yetirilmiş və yeni demoqrafik siyasətin həyata keçirilməsi üçün hökumətə tövsiyələr təqdim olunmuşdur. Həmin siyasətdə çoxuşaqlı ailələrə subsidiyalar ödənilməsi, onlara dövlət dəstəyi, intensiv mənzil siyasəti və başqa tədbirlər nəzərdə tutulurdu. Bu tövsiyələrin çoxu sonrakı onilliklərdə gerçəkləşdirildi.

1938-ci ildə Karnegi Korporasiyasının xahişinə əsasən Mürdal Amerikada zəncilərin vəziyyətini öyrənmək üçün tədqiqatçılar qrupuna rəhbərlik etmiş və bu problemi kompleks şəkildə tədqiq etmişdir. Bu işin nəticəsi onun "Amerika dilemması: zənci məsələsi və müasir demokratiya" ("*An American Dilemma: The Negro Problem and Modern Democracy*", 2 cilddə, 1944) adlı kitabında əksini tapmışdır. Bu kitab Amerikada irqi münasibətlərin ən sanballı araşdırmalarından biri hesab edilmiş və dövlətin bu sahədə siyasətinə dərin təsir göstərmişdir.

50-ci illərin axırlarından etibarən Mürdal Asiyanın zəif inkişaf etmiş ölkələrinin problemlərinin öyrənilməsi ilə məşğul olmuş, öz tədqiqatlarının nəticələrini üçcildlik "Asiya dramı: xalqların yoxsulluğu haqqında tədqiqat" ("*Asian Drama: An Inquiry Into the Poverty of Nations*", 1968) adlı əsərdə şərh etmişdir. Kitabda sübut edilirdi ki, əhalinin sayının artmasına, becərilmək üçün yararlı torpaqların bölünməsinə nəzarət, həmçinin səhiyyə və təhsil sahələrində yalnız əsaslı islahatlar sayəsində iqtisadi inkişafa və Cənub-Şərqi Asiya ölkələrinin kəskin sosial problemlərinin həllinə nail olmaq mümkündür.

MÜRƏKKƏB FAİZ *(compound interest)* – əvvəlki dövrlərdə alınmış faiz gəlirinə ödənilən faiz.

MÜRƏKKƏB FAİZİN ƏLAVƏ EDİLMƏSİ *(compounding)* – aktivin cari dəyərindən onun gələcək dəyərinə keçid prosesi.

MÜRŞÜDLÜ FUAD ƏLƏKBƏR OĞLU (1951) – 1972-ci ildə D.Bunyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu fərqlənmə ilə bitirib. 1978-ci ildə SSRİ EA-nın İqtisadiyyat institutunun (Moskva şəhəri) məqsədli aspiranturasında namizədlik dissertasiyasını müdafiə edib. Əmək fəaliyyətinə Azərbaycan EA-nın İqtisadiyyat İnstitutunda başlayıb (1972-1980-ci illər). 1980-1989-cu illərdə "Azərbaycan kommunisti" jurnalının Sosial-iqtisadi problemlər şöbəsinin müdiri vəzifəsində işləyib. 1989-1990-cı illərdə Azərbaycan SSR EA İqtisadiyyat İnstitutunun "Qeyri-istehsal sferanın və xalq tələbatının inkişafı problemləri" şöbəsinin müdiri olub. 1990-1992-ci illərdə Azərbaycan Dövlət İqtisad İnstitutunun elmi işlər üzrə prorektoru vəzifəsində çalışıb. 1993-1996-cı illərdə Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsinin İqtisadi və maliyyə-kredit siyasəti şöbəsinin böyük referenti olub. 1996-2002-ci illərdə Bakı şəhərində müxtəlif kommersiya strukturlarında, o cümlədən "Improtex" şirkətlər qrupunda maliyyə meneceri vəzifəsində çalışıb. 2002-ci ilin mart ayından Azərbaycan Beynəlxalq Bankında Marketinq şöbəsinin müdiri, Strateji planlaşdırma və marketinq departamentinin direktoru vəzifələrində işləyib, 2005-ci ilin yanvar ayından İdarə Heyəti sədrinin müşaviridir.



Bir çoxu xaricdə nəşr olunan iqtisadiyyatın və sosial sferanın aktual məsələlərinə dair 80-dən artıq elmi işin müəllifidir. Müxtəlif beynəlxalq elmi forum və bank konfranslarında iştirak edir. 2000-ci ildə Dünya Bankının "Büdcə prosesinin tədqiqatı" layihəsində xarici ekspertin yerli məsləhətçisi qismində iştirak edib. "Beynəlxalq əməkdaşlıq" nominasiyasında "İlin meneceri-2009" Rusiya müsabiqəsinin qalibidir. Beynəlxalq İqtisadçılar İttifaqının üzvüdür.

MÜSADİRƏ – məhkəmə orqanlarının qərarları əsasında dövlətin xeyrinə əmlakın, qiymətli əşyaların, malların və s. alınması.

MÜSBƏT AKSEPT (ing. *positive acceptance*) – ödənişin bu formasında malın tədiyəçisi və

ya alıcısı ödənişə razılığını yazılı şəkildə hökmən təsdiq etməli və ya satıcının tədiyə tələbnaməsini ödəməkdən imtinanı rəsmiləşdirməlidir. Mənfi aksept halında alıcı ödəniş aparmağa razı olmamasını yazılı şəkildə bildirir.

MÜSLÜMOV SƏLİM YANVAR OĞLU (1961) – Azərbaycanın görkəmli iqtisadçısı, i.e.d., prof.



1987-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində "Əmək məhsuldarlığının təhlili və onun informasiya təminatı" mövzusunda namizədlik, 2006-cı ildə Kazan Dövlət Maliyyə-İqtisad İnstitutunda "Sığorta-pensiya sistemində mühasibat uçotunun, təhlilin və auditin yenidən qurulması" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 4 kitabın və 50-dən artıq elmi məqalənin müəllifidir. Bir çox əsərləri xaricdə nəşr olunmuşdur.

Azərbaycan Dövlət Aqrar Universitetində iqtisad elmləri üzrə Birləşmiş Dissertasiya Şurasının üzvüdür.

Azərbaycan Respublikasında iqtisadi islahatların elmi-metodoloji bazasının yaradılmasında, xüsusilə də Vergi Məcəlləsinin və Gömrük Tarifləri Sisteminin hazırlanmasında, həmçinin müasir standartlara uyğun sığorta-pensiya sisteminin qurulmasında yaxından iştirak etmişdir. Gömrük xidməti general-mayorudur.

Hazırda Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunun sədridir.

MÜSTƏQİL BROKER – birjada daimi agenti olmayan şirkətin əmrinə, yaxud müştərilərə xidmət etməyi çatdırmayan başqa brokerlərin sərəncamına görə əməliyyatları yerinə yetirən birja üzvü.

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ (MDB) – Sovet İttifaqı dağıldıqdan sonra 1991-ci il dekabrın 8-də Rusiya, Ukrayna, Belarus tərəfindən öz aralarında siyasi, iqtisadi, mədəni əlaqələri genişləndirmək məqsədilə yaradılan təşkilat.

Daha sonralar Azərbaycan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Tacikistan, Türkmənistan, Özbəkistan 1991-ci il dekabrın 21-də MDB-yə qoşulmaq haqqında razılığa gəldilər. Azərbaycan Parlamenti bu qərarı 1993-cü ilin sentyabrında ratifikasiya etdi və MDB-nin tamhüquqlu üzvü oldu.

1993-cü ilin oktyabrında MDB-yə üzv qəbul edilən Gürcüstan 2008-ci ilin avqust ayında Rusiya ilə münasibətləri kəskinləşdikdən sonra həmin qurumun üzvlüyündən çıxmışdır.

Türkmənistan 2005-ci ildən MDB-də müşahidəçi kimi fəaliyyət göstərir. Monqolustan MDB-nin bir sıra strukturlarında müşahidəçi qismində çıxış edir. 2008-ci ildə Əfqanıstan MDB-yə daxil olmaq barədə müraciət etmişdir.

MDB daxilində müxtəlif inteqrasiya blokları formalaşmışdır. *Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına* Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Ermənistan daxildir. 2002-ci il oktaybrın 7-də yaradılmış təşkilatın məqsədi beynəlxalq terrorizm və ekstremizm, narkotik və psixotrop maddələrin dövriyyəsi ilə mübarizə aparmaqdır. Bu müqaviləyə əsasən Rusiya silahlı qüvvələri Mərkəzi Asiya və Qafqazda qalmaqdadır.

Avrasiya İqtisadi Birliyinə Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tacikistan daxildir. Təşkilatın məqsədi üzv ölkələr arasında ticarət dövriyyəsini artırmaq, maliyyə sferasında inteqrasiya, gömrük və vergi qanunvericiliyinin unifikasiyasıdır. Təşkilat 1992-ci ildə ticarət maneələrinin aradan qaldırılması məqsədilə gömrük ittifaqı formasında yaradılmışdır. Ukrayna və Moldova təşkilatda müşahidəçi qismində çıxış etmişdir.

Şanxay Əməkdaşlıq Təşkilatına Rusiya, Çin, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tacikistan daxildir. Bütün təşkilatlarda Rusiya aparıcı dövlət olmasına baxmayaraq, ŞƏT-də bu funksiyanı Çin ilə bölüşdürür.

Vahid İqtisadi Məkana Rusiya, Belarus və Qazaxıstan daxildir. 2005-ci ildə yaradılmış təşkilatın məqsədi gömrük maneələrinin ləğvi və vahid gömrük və vergi tariflərinin tətbiqidir. Rusiya və Belarusiya ittifaq dövləti isə gələcəkdə vahid dövlətin yaradılmasını nəzərdə tutur.

MÜSTƏQİL TARİF – başqa dövlətlərlə müqavilə bağlamadan hər hansı dövlətin birtərəfli tərtib etdiyi gömrük rüsumu.

MÜSTƏQİL TƏLƏBAT – müəyyən dəst və ya komplektə onun tərkib hissəsi kimi daxil

olmayan, müstəqil dəyərə malik məmulata tələbat.

MÜSTƏQİLLİK (*İndepen-dence*) – Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq aşağıdakılardan ibarətdir:

a) fikir müstəqilliyi – peşəkar mühakimələri nüfuzdan salan təsirlərə məruz qalmadan fikir və ya rəy formalaşdırmağa, səmimiyyətlə hərəkət etməyə, habelə obyektivlik, peşəkar inamsızlıq nümayiş etdirməyə imkan verən əhvali-ruhiyyə.

b) hərəkət müstəqilliyi – kifayət qədər əhəmiyyətli faktların və halların qarşısının alınmasından ibarətdir. Bu zaman şüurlu və məlumatlı üçüncü tərəf bütün aidiyyəti məlumatlardan, o cümlədən tətbiq edilmiş hər hansı ehtiyat tədbirlərindən xəbərdar olaraq təşkilatın və ya qrup üzvünün səmimiliyinin, obyektivliyinin və ya peşəkar inamsızlığının etibardan düşməsi qənaətinə gəlir.

MÜSTƏQİM (BİRBAŞA) İNVESTİSİYALAR – bilavasitə hər hansı bir məhsulun istehsalına yönəldilən kapital qoyuluşları. Müstəqim investisiyalar möhtəkirlik mənfəətinin (fond bazarında qiymətli kağızların satışından əldə olunan) alınmasına yox, dividendlər, istiqrazlar üzrə faizlər və s. kimi mənfəətdən payın alınmasına yönəldilir. Müstəqim investisiyalar investorlara investisiya olunan istehsal üzərində faktiki nəzarəti təmin edir.

MÜSTƏMLƏKƏ MALI – adətən, əvvəllər müstəmləkə ticarəti predmeti olmuş qitələrdən gətirilən mal.

MÜSTƏSNA HÜQUQ – əsərdən və əlaqəli hüquqların obyektlərindən hər hansı formada və üsulla istifadənin həyata keçirilməsi, həyata keçirilməsinə icazə verilməsi, yaxud qadağa qoyulması. Müəlliflik hüququ bütövlükdə müstəsna hüquqdur. Qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla, əsərdən və əlaqəli hüquqların obyektlərindən istifadəyə müstəsna hüquqların sahibinin icazəsi olmadan heç kəs əsərdən və əlaqəli hüquqların obyektlərindən istifadə edə bilməz.

MÜŞAHİDƏ ŞURASI – "ikiyaruslu idarəetmə strukturu"nun qüvvədə olduğu bəzi Avropa ölkələrində (Almaniya, Niderland, Finlandiya, Fransa və s.) səhmdar cəmiyyətlərinin ali kollegial idarəetmə orqanı. Səhmdarların ümumi yığıncağında seçilən və "yuxarı yarusu" təşkil edən müşahidə şurası sonra səhmdar cəmiyyətinin idarə heyətini və ya müdiriyyətini ("aşağı yarus") seçir. Fransada işçilərinin sayı 20 nəfər və daha artıq olan məhdud məsuliyyətli cəmiyyətlər ən azı üç nəfərdən ibarət müşahidə şurası seçməlidirlər. Müşahidə şurası müdiriyyətin fəaliyyətinə nəzarət edir. Almaniyada işçilərinin sayı 500 nəfər və daha çox olan səhmdar cəmiyyətlərdə müşahidə şurası yaradılması məcburidir. Müşahidə şurasının fəaliyyət göstərdiyi müxtəlif ölkələrdə onların üzvlərinin sayı səhmdar cəmiyyətinin ölçüsündən asılı olaraq 3 nəfərdən 15 nəfərə qədər olur. Müşahidə şurasının tərkibinə daxili üzvlərlə (həmin səhmdar cəmiyyətinin ali müdirləri) yanaşı, kənar üzvlər – başqa səhmdar cəmiyyətlərinin və bankların nümayəndələri, hüquqşünaslar, məsləhətçilər və başqaları da daxil ola bilərlər. Müşahidə şurası hər bir səhmdar cəmiyyətində müəyyən edilmiş dövriliklə iclaslar keçirir. İri şirkətlərdə bu cür iclasların dövriliyi, bir qayda olaraq, ildə 3-4 dəfə müəyyən edilir. Səhmdar cəmiyyətlərin cari fəaliyyəti üçün müşahidə şurası çərçivəsində müvafiq komitələr yaradılır. Bu cür komitələrin sayı və tərkibi müxtəlif səhmdar cəmiyyətlərində müxtəlif ola bilər. Adətən, müşahidə şurası audit (təftiş), strategiya, maliyyə, mükafatlandırma məsələləri, şura üzvlüyünə namizədlərin irəli sürülməsi və seçilməsi üzrə (səhmdar cəmiyyətin ümumi yığıncağında seçilmək üçün) komitələr yaradır. Müşahidə şurası müəssisənin fəaliyyət strategiyasını müəyyənləşdirir, onun siyasətinin əsas istiqamətlərinə nəzarət edir, illik və perspektiv planları, hesabatları təsdiqləyir, ali rəhbərlərin təyin olunmasına və dəyişdirilməsinə nəzarəti həyata keçirir. Səhmdar cəmiyyətinin nizamnaməsində həyata keçirilməsi üçün müşahidə şurasının razılığının alınması zəruri olan əməliyyat növləri nəzərdə tutula bilər. Anqlosaks ölkələrində və Rusiyada direktorlar şurası müəyyən dərəcədə müşahidə şurasının analoqudur. Azərbaycanda "Müəssisələr haqqında", "Səhmdar cəmiyyəti haqqında" və digər qanunlarda müşahidə şurasının mahiyyəti, vəzifələri, strukturu açıqlanır.

MÜŞAHİDƏ VAHİDİ – müayinə zamanı əlamətləri ölçülməli və qiymətləndirilməli olan

Cədvəl 1

Azərbaycan Respublikasında müştərilərin bank hesablarının sayı və tərkibi

(ədəd, dövrün sonuna)

Tarix	Bank müştərilə-rinin sayı (dövrün sonuna)	o cümlədən:			Müştəri hesablarının sayı (dövrün sonuna)	o cümlədən:		cari hesablardan		
		fiziki şəxslər	ondan: sahibkarlıqla məşğul olanlar	hüquqi şəxslər		cari hesablar	depozit hesabları	fiziki şəxslər	ondan: sahibkarlıqla məşğul olanlar	hüquqi şəxslər
2009	1941067	1870679	37190	70388	2262771	2062134	200637	1979434	41530	82700
2010										
01	1982853	1911512	37647	71341	2308743	2100858	207885	2017075	41723	83783
02	2032673	1959886	38333	72787	2367720	2150296	217424	2065387	42540	84909
03	2071691	1996066	44110	75625	2426570	2202328	224242	2118964	48723	83364
04	2125741	2045974	50799	79767	2460337	2229516	230821	2142588	55586	86928
05	2192577	2111006	51389	81571	2537995	2293651	241344	2205517	56321	88134
06	2247948	2165001	51983	82947	2626128	2375528	250600	2285951	57031	89577
07	2322626	2238188	53076	84438	2712546	2451885	260661	2361082	57926	90803
08	2382378	2297127	53567	85251	2798023	2530124	267899	2438274	63333	91850
09	2383798	2383798	52936	82818	2837109	2560042	277067	2468994	62200	91048
10	2503316	2415053	64766	88263	2975397	2683341	292056	2589037	64766	94304
11	2546604	2457313	54479	89291	3057713	2757026	300687	2661913	64616	95113
12	2588957	2494325	57965	94632	3173876	2896583	277293	2772884	68717	123699
2011										
01	2532935	2449042	46450	83893	3273522	3009183	264339	2885233	62677	123950
02	2576435	2493277	44825	83158	3217098	2944542	272556	2823337	61019	121205
03	2551432	2468503	41358	82929	3299264	3018754	280510	2897219	60102	121535
04	2497754	2415694	41759	82060	3294808	3006587	288221	2886039	62954	120548
05	2582960	2498982	43583	83978	3411641	3120003	291638	2996137	64686	123866
06	2658675	2574312	44677	84363	3516574	3217030	299544	3096908	66435	120122
07	2664188	2577896	45622	86292	3615651	3308956	306695	3180614	67479	128342
08	2746704	2660204	46097	86500	3687878	3373043	314835	3243111	66949	129932
09	2732671	2645243	46367	87428	3692107	3367163	324944	3234314	66865	132849
10	2821827	2736328	52053	85499	3896163	3566494	329669	3431999	68612	134495
11	2868688	2783452	52678	85236	3988446	3650090	338356	3515624	69417	134466
12	2916678	2831807	53175	84871	4077125	3730551	346574	3604632	70791	125919
2012										
01	2912461	2829041	52803	83420	4146445	3786037	360408	3648841	70812	137196
02	2948643	2864224	56881	84419	4236074	3870516	365558	3731715	75139	138801

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

müşahidə obyektinin tərkib elementi (xarici ədəbiyyatda "elementar vahid" terminindən istifadə olunur). Məsələn, demoqrafik müayinələr zamanı həmin müayinənin qarşısında qoyulmuş məqsəddən asılı olaraq, müşahidə vahidi insan da, ev təsərrüfatı da ola bilər. Müəssisələrin maliyyə-iqtisadi fəaliyyətinin öyrənilməsi vaxtı müşahidə vahidi müəssisədir.

MÜŞTƏRİ – alıcı; daimi alıcı, sifarişçi ya bir iş üçün gələn; pul müqabilində su, elektrik, telefon, radio və s. istifadə edən, habelə qəzet, jurnal və s. abunəçi olan şəxs; istəyən, arzu edən, həvəskar; yükgöndərən, yükalan sərnişin, icarəçi və s. kimi daşıyıcı ilə bağlanmış müqaviləyə uyğun olaraq nəqliyyatdan istifadə edən hüquqi və ya fiziki şəxs.

Müştəri olmaq – istəmək, almağa hazır olmaq, almaq istəmək.

Müştəri çıxmaq – yiyələnmək, mənimsəmək istəmək.

Müştəri gözü ilə baxmaq – bir həvəskarın, maraqlanan bir adamın alıcı gözü ilə baxması, qiymətləndirməsi.

MÜŞTƏRİLƏRİN DƏYƏR TƏHLİLİ (ing. *customer value analysis*) – müştərilərin qiymətləndirdiyi nemətlərin, səmərələrin müəyyən edilməsi, eləcə də rəqib şirkətlərin müxtəlif əmtəə təkliflərinin müştərilər tərəfindən müqayisəli qiymətləndirilməsini təyin etmək üçün aparılan təhlil. Bu təhlilin nəticələri hansı rəqiblərə hücum etmək olacağını müəyyənləşdirməyə və bu hücumun strategiyasını seçməyə imkan verir. Bu təhlil təşkilatın işində ona hücum edən və ya cavab tədbirləri görən rəqiblər üçün ən zəif yerləri aşkarlamağa kömək edir.

MÜŞTƏRİNİN MÜDAFİƏSİ – çoxsaylı risklərin sığortalanması üsulları.

MÜTLƏQ RENTA – torpaq rentasının bu forması torpaq üzərində xüsusi mülkiyyət inhisarı nəticəsində yaranır, torpaq sahələrinin münbitliyindən və yerləşmə ərazisindən asılı olmayaraq torpaq sahibkarları tərəfindən mənimsənilir. Mütləq rentanın mükəmməl elmi-nəzəri izahını K.Marks vermişdir.

Torpaq sahibkarları onların torpaqlarından yalnız torpaq rentası şəklində müvafiq haqq müqabilində istifadə etməyə icazə verirlər. Bu halda mütləq renta istifadə edilən hər hansı, o cümlədən ən pis torpaqdan da tutulur.

Mütləq rentanın mövcud olmasının başlıca səbəbi ondan ibarətdir ki, torpaq üzərində xüsusi mülkiyyət obyekti kimi inhisar mövcuddur. Mütləq renta ödənilməsinin şərti kənd təsərrüfatında kapitalın, məsələn, sənaye ilə müqayisədə üzvi quruluşudur. Nəticədə, kənd təsərrüfatı məhsullarının bazar dəyəri həmin məhsulun istehsal qiymətindən yuxarı olur. Bu fərq nə qədər çox olsa, mütləq rentanın kəmiyyəti bir o qədər çox olur. Mütləq rentanın mənbəyi kənd təsərrüfatında çalışan və kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan muzdlu işçilərin izafi əməyidir.

İcarəçi torpaq sahibinə yalnız torpaqdan istifadə etdiyinə görə mütləq rentaya bərabər icarə haqqı ödəyir. Əgər müəyyən torpaq sahəsinə kapital qoyulmuşdursa, icarə haqqı ssuda faizi qədər artacaqdır. Kənd təsərrüfatında və sənayedə kapitalın üzvi quruluşunun səviyyələrində fərqin əhəmiyyətli dərəcədə azalmasına baxmayaraq, əkinçilikdə bu səviyyə hələ də aşağıdır. Buna görə də mütləq rentanın mövcud olması üçün şərait davam edir.

MÜTLƏQ STATİSTİKA GÖSTƏRİCİLƏRİ – konkret məkan və zaman daxilində iqtisadi, demoqrafik, sosial və ekoloji hadisələri səciyyələndirən əlamətləri ifadə edən göstəricilər. Statistika göstəriciləri miqdar (və ya ölçü vahidi), uzunluq, sahə, kütlə (çəki məcmusunda), vaxt vahidi, pul vahidi ilə və ya elementlərin (vahidlərin) sayı şəklində, onların əlamətlərinin ölçülərini bilavasitə (mütləq) səciyyələndirən, statistika tərəfindən öyrənilən statistik məcmunun ilkin ifadə formasıdır. Mütləq göstəricilər fərdi və yekun göstəricilərə ayrılır.

Fərdi mütləq göstəricilər bilavasitə statistik müşahidələr əsasında alınır. Ayrı-ayrı kənd təsərrüfatı müəssisələrində (ailə kəndli təsərrüfatlarında) taxılın, kartofun, pambığın və s. kənd təsərrüfatı bitkilərinin əkin sahəsi, ayrı-ayrı sənaye müəssisələrində işləyənlərin sayı, əsas istehsal fondlarının dəyəri, ümumi məhsulun həcmi, mənfəətin məbləği və s. fərdi mütləq göstəricilərdir.

Yekun mütləq göstəricilər öyrənilən statistika məcmusunun bütün vahidlərini, yaxud da onun ayrı-ayrı qruplarını xarakterizə edir. Yekun mütləq

göstəricilər, əsasən, müşahidə nəticəsində əldə olunmuş fərdi mütləq göstəricilərin cəmlənməsi yolu ilə müəyyən edilir. Mütləq göstəricilər həmişə adlı kəmiyyətlər olur və mütləq ölçü vahidlərində – natural (ton, kiloqram, kvadratmetr, kubmetr, kilometr, litr, ədəd və s.), dəyər (manat və s.) və əmək (adam-saat, adam-gün və s.) ölçü vahidlərində ifadə olunurlar.

MÜTLƏQ ÜSTÜNLÜK – məhsul istehsalçılarının əmək məhsuldarlığına əsasən müqayisəsi.

MÜTLƏQ ÜSTÜNLÜKLƏR NƏZƏRİYYƏSİ – mütləq üstünlüklər nəzəriyyəsinin yaradıcısı olan Adam Smit özünün məşhur "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" əsərinin (1776) birinci bölməsini "məhsuldar əmək qüvvələrinin inkişafındakı böyük tərəqqidə bacarıq, vərdiş və düşüncənin də əhəmiyyətli payı var, bu isə, əmək bölgüsünün nəticəsidir" sözləri ilə başlayır. Sonradan belə bir nəticəyə gəlir ki, "hansısa yad ölkə bizi hazırlaya biləcəyimizdən daha ucuz qiymətə hansısa məhsulla təchiz edə bilərsə, onu həmin sahədə öz sənaye məhsulumuzun bəzi üstünlüklərə malik olan bir hissəsinə almaq daha yaxşı olar". Mütləq üstünlüklər nəzəriyyəsinə görə, ölkə istehsal məsrəflərinin xarici ölkələrə nisbətən yüksək olduğu malları idxal, istehsal məsrəflərinin aşağı olduğu, yəni mütləq üstünlüklərin olduğu malları isə ixrac etməlidir. Merkantilistlərə əks olaraq, A.Smit həm ölkə daxilində, həm də dünya bazarında rəqabət azadlığını alqışlayır, fiziokratların fransız iqtisadi məktəbinin irəli sürdüyü "laissez-faire" dövlətin iqtisadiyyata müdaxilə etməməsi prinsipini bölüşdürdü. Mütləq üstünlüklər nəzəriyyəsinin daha güclü tərəfinə onu aid etmək olar ki, o beynəlxalq ticarətin bütün iştirakçıları üçün üstünlükləri nümayiş etdirir. Bu nəzəriyyənin zəif tərəfi odur ki, o, bütün məhsullarının digər ölkələr qarşısında mütləq üstünlüklər olmadan istehsal edildiyi ölkələrə yer qoymur.

MÜTLƏQ YOXSULLUQ – fərdin yalnız minimal istehlak tələblərində bioloji varlığını qorumaq iqtidarlı ən aşağı yoxsulluq səviyyəsi.

MÜVAFİQ MEYARLAR (*Suitable criteria*) – aşağıdakı xüsusiyyətləri ifadə edir:

a) münasiblik – münasib meyarlar nəzərdə tutulmuş istifadəçilər tərəfindən qərarların verilməsinə imkan yaradır;

b) mükəmməllik – audit tapşırığının şərtləri kontekstində nəticələrə təsir göstərə biləcək amillər nəzərə alınırsa, o zaman meyarlar kifayət qədər mükəmməl sayıla bilər. Mükəmməl meyarlar təqdim etmə və aşkarlama üçün oriyentirlərdən ibarətdir;

c) etibarlılıq – etibarlı meyarlar müzakirə mövzusunun kifayət qədər əsaslı şəkildə qiymətləndirilməsinə və ya ölçülməsinə, o cümlədən müvafiq səriştəyə malik mütəxəssislər tərəfindən analoji hallarda istifadə edildikdə, zəruri məlumatların təqdimatına və aşkarlanmasına imkan verir.

ç) bitərəflik – bitərəf meyarlar qərəzsiz nəticələr əldə etməyə imkan verir.

d) anlaşılma – anlaşılan meyarlar aydın, hərtərəfli və yüksək səviyyədə olan fərqli izahlardan rahat nəticələr əldə etməyə imkan verir.

MÜVAFİQ SƏRİŞTƏLİ KƏNAR ŞƏXS – 1 saylı Keyfiyyətə Nəzarət üzrə Beynəlxalq Standartın məqsədlərinə uyğun olaraq (*Suitably qualified external person – for the purpose of ISQC 1*) auditor təşkilatına daxil olmayan, lakin tapşırıq üzrə tərəfdaş kimi hərəkət etmək qabiliyyətinə və səriştəsinə malik şəxs. Məsələn, başqa bir təşkilatın tərəfdaşı və ya tarixi maliyyə məlumatlarının auditini və təhlilini həyata keçirə bilən, habelə əminliyi təmin edən və ya əlaqəli xidmətlər üzrə tapşırıqları yerinə yetirə bilən heyətə malik peşəkar mühasibat təşkilatının, yaxud keyfiyyətə nəzarətlə bağlı müvafiq xidmətlər təqdim edən təşkilatın işçisi.

MÜVƏKKİL BANK (ing. *authorized bank*) – büdcə hesablarına xidmət göstərilməsində, hökumətin regional bələdiyyə hakimiyyəti orqanlarının tapşırıqlarının və proqramlarının yerinə yetirilməsində iştirak edən maliyyə-kredit idarəsi. Müvəkkil banklar valyuta əməliyyatlarının aparılması üçün Mərkəzi Bankın lisenziyasını almış banklar və digər kredit təşkilatlarıdır.

Müvafiq hakimiyyət orqanlarının agent müqavilə sazişləri əsasında fəaliyyət göstərir. Bu hakimiyyət orqanları banklara zəruri funksiyalar və səlahiyyətlər verirlər, müvəkkil bankların konkret fəaliyyət şəraitini qaydaya salırlar. Müvəkkil banklara və onların işinə olan tə-

ləblər hökumət idarələri üçün məcburi, yerli hakimiyyət orqanları üçün tövsiyə xarakteri daşıyır. Hökumətin müvəkkil bank seçimində əsas meyarı onların maliyyə vəziyyəti və xüsusi vəsaitlərin həcmidir.

MÜVƏQQƏTİ (MÖVSÜMİ) MİQRASİYA – müəyyən müddətə, adətən, ilin bu və ya digər mövsümündə əhalinin həm ölkə daxilində, həm də onun sərhədlərindən kənara yaşayış yerini dəyişməsi. İqtisadi müvəqqəti (kənd təsərrüfatı, tikinti, balıqçılıq, meşə təsərrüfatı və sənayenin digər sahələrində işlərin mövsümi artması ilə əlaqədar olaraq, müəyyən dövrdə əlavə işçilərin cəlb olunmasına zərurətin yaranması səbəbindən) miqrasiya və sosial-mədəni müvəqqəti (təhsil almaq, müalicə, istirahət və s. ilə əlaqədar) miqrasiya bir-birindən fərqləndirilir. Müvəqqəti (mövsümi) miqrasiya daimi yaşayış yerinin dəyişməsinə səbəb olmur, bir çox ölkələrdə hesaba alınmır və onun haqqında məlumatlar dolayı yolla əldə edilir.

MÜVƏQQƏTİ DİSTANSİYA – müqavilənin imzalanması və ya sifarişin yerləşməsi, real məhsul göndərişi və ya xidmətlərin təqdim olunması arasında keçən vaxt.

MÜVƏQQƏTİ İDXAL – elə bir gömrük rejimidir ki, burada gömrük ərazisindəki əmtəələrdən (avadanlıq, material, nəqliyyat vasitələri və s.) gömrük rüsumlarından və vergilərdən tam və ya qismən azad edilməklə və iqtisadi siyasət tədbirlərinin tətbiqi ilə istifadəsinə icazə verilir. Müvəqqəti idxal olunan əmtəələr təbii aşınma nəticəsində dəyişikliklərdən başqa dəyişməz vəziyyətdə, ya da normal nəqletmə və saxlanma zamanı itki vəziyyətində qaytarıla bilər. Müvəqqəti idxal zamanı girov tutulur, bu da sifarişçilərə qaytarılır. Müvəqqəti idxalın müddətlərini bu idxalın məqsəd və şərtlərini nəzərə alaraq gömrük orqanları müəyyən edir.

MÜVƏQQƏTİ İŞÇİLƏR – bağlanmış əmək müqaviləsinə (sazişinə) müvafiq olaraq müəyyən müddətə işə götürülmüş şəxslərin siyahı sayı. Əmək hüququna görə 2 ayadək müddətə yerində olmayan işçiləri (vəzifəsi saxlanılmaqla) əvəz etmək üçün 4 ayadək müddətə işə qəbul olunan fəhlə qulluqçular. Əmək qabiliyyəti itirildikdə müvəqqəti işçilərin iş yeri əmək qabiliyyəti bərpa olunanadək və ya əlillik müəyyən edilənədək (müqavilə üzrə iş müddətinin qurtarması vaxtından gec olmayaraq) saxlanılır. Müvəqqəti işçilər məzuniyyət hüququna malik deyildirlər. Müvəqqəti işçilər işdən getmək istədikdə 3 gün əvvəl bu barədə müdiriyyətə xəbər verməlidir.


MÜVƏQQƏTİ QAİBLƏR – əhalinin siyahıyaalınmasında ayrılan köməkçi kateqoriya. Mövcud yaşayış məntəqəsində və ya ərazidə daimi yaşayan, lakin siyahıyaalmanın gərgin anında başqa yerdə olan adamların məcmusudur. Daimi əhali kateqoriyasına daxildirlər. Əhalinin siyahıyaalınmasında daimi yaşayış yerindən 6 aydan az müddət ərzində çıxmışlar müvəqqəti qaiblər sayılır.

Müvəqqəti yaşayanlar – əhalinin siyahıyaalınmasında ayrılan köməkçi kateqoriya. Siyahıyaalmanın gərgin anında mövcud yaşayış məntəqəsində və ya ərazidə olan, lakin başqa yerdə daimi yaşayan adamların məcmusudur, mövcud əhali kateqoriyasına daxildirlər. Əhalinin siyahıyaalınmasında müvəqqəti yaşayanlara, daimi yaşayış yerlərində 12 aydan çox olmayaraq yaşamayanlar daxildir.

MÜVƏQQƏTİ MƏNFƏƏTİN SIĞORTASI – dolayı maliyyə zərərinin sığortalanması üzrə müqavilə növü; burada itkinin ölçüsü zədələnmiş və ya məhv olmuş əmlakın bərpa müddətindən asılı deyil.

MÜVƏQQƏTİ RENTANIN SIĞORTALANMASI – rentanın sığortalanması növü; bunun üçün sığorta haqları hesabına yığılan fonddan müəyyən illər ərzində şəxsə ödənilən müntəzəm gəlir xarakterikdir. Ömrün axırına qədər ödənilən ömürlük sığorta rentasından fərqlənir. Müvəqqəti rentanın sığortalanması müvəqqəti pensiyanın sığortalanması kimi istifadə olunur. Əgər rentanın (pensiyanın) ödənişi sığorta müqaviləsinin tərtib edilməsi anından başlayırsa, onda renta dərhal renta adlanır. Əgər ödəniş ildən sonra başlayırsa, bu, möhlətli rentadır. Sonuncu halda ödənilməli olan haqların məbləği möhlət dövrü ərzində və ya birdəfəlik ödənilir. Müvəqqəti rentanın sığortalanması üzrə netto dərəcə həyat sığortası üzrə illik tarif dərəcələrinin hesablanması zamanı möhlət əmsalları kimi istifadə olunur (bax: sxem 1).

MÜVƏQQƏTİ SƏRBƏST PUL VƏSAİTLƏRİNİN İDARƏ EDİLMƏSİ – müvəqqəti



Sxem 1

sərbəst pul vəsaitlərindən qiymətli kağızlarla qısamüddətli, əlavə mənfəətin qazanılmasına yönəlmiş əməliyyatlar aparılması üçün istifadə edilməsi ilə bağlı tədbirlər kompleksi; müvəqqəti sərbəst pul vəsaitlərinin idarə edilməsi dövriyyəsinin həcmi çox olan iri müəssisələr üçün xüsusilə aktualdır.

Pul vəsaitləri likviddir, lakin onlar faiz gətirmir. Qiymətli kağızlar faiz gətirmir, lakin onlardan bilavasitə tədiyə vasitəsi kimi istifadə etmək olmaz. Maliyyə meneceri çalışmalıdır ki, onun sərəncamında olan pul vəsaitləri likvidlik üçün məsrəflərin yuxarı həddinin qiymətli kağızlar üzrə alına biləcək faizlərə bərabər olduğu nöqtəni aşmasın.

Əslində pul vəsaitləri müəssisənin biznesi idarə etməsi üçün zəruri olan "xammal" növlərindən yalnız biridir. Kapital faiz gətirə biləcəyi halda onu "bağlı saxlamaq" baha başa gəlir. Ümumiyyətlə, sərbəst pul vəsaitlərini nə üçün bank hesabında saxlamaq lazımdır? Onları yalnız hesablaşmalar aparılması üçün zəruri olduqda sifariş etmək olmazmı? Axı hər dəfə xırda sifarişlər vermək baha başa gəlir. Həddən artıq pul vəsaitləri ehtiyatlarının saxlanması ilə (bu halda həmin pulların gətirə biləcəyi faizlər itirilir) həddən artıq kiçik ehtiyatların çox tez-tez yeniləşdirilməsi (əlavə inzibati xərclər çəkməklə) arasında balans tapmaq lazımdır. Əgər faiz dərəcəsi yüksəkdirsə, müəssisə pul vəsaitlərinin nisbətən kiçik ehtiyatlarını saxlamağa çalışacaqdır. Əgər müəssisənin pul vəsaitlərinə tələbatı variasiya edirsə və inzibati xərclər çoxdursa, müəssisə nisbətən sanballı pul ehtiyatları saxlamağa çalışır.

Əgər qiymətli kağızları satmaq çətindirsə, bu halda müəssisənin alternativ seçimi var: bankdan borc almaq. Bu halda maliyyə meneceri yenə seçim qarşısında qalır. Bir tərəfdən, banklar kredit üçün yüksək faiz dərəcəsi alır, müəssisə borc almamaq üçün kifayət qədər böyük həcmli likvid ehtiyatlar saxlamağa çalışır. Digər tərəfdən, böyük həcmdə likvid qalıqları saxlamaqla, müəssisə pul vəsaitləri üçün maksimum gəlir əldə etmir.

Bir sıra hallarda müəssisələr banklardakı faizsiz hesablarda real bank xidmətlərinin haqqını ödəmək üçün lazım olandan bir qədər çox qalıq saxlamağa üstünlük verir, bununla da bankları onlarla əməkdaşlığa stimullaşdırırlar. Çünki, sərbəst pul vəsaitlərinin bankda yerləşdirilməsi bankın müəssisə üçün zəruri olduğu vaxtda ona kredit verməyə hazır olması müqabilində qeyri-aşkar kompensasiya ola bilər. Bank həm də işgüzar kontaktların və qiymətli ideyaların mənbəyi ola bilər. Bundan əlavə, hesabda pul vəsaitləri qalığının çox olması "dar gündə" yaxşı sığorta vasitəsidir.

MÜVƏQQƏTİ SIĞORTA RENTASI – müəyyən dövr ərzində sığortalanmış şəxsə sığorta təşkilatı tərəfindən ödənilən müntəzəm gəlir; şəxsi sığortanın bir növü.

MÜVƏQQƏTİ UYĞUNSUZLUQ – istehsalçının konkret malları istehsal etmək istədiyi anla istehlakçıların onları əldə etmək istədikləri an arasındakı ziddiyyət.


MYASNİKOVİÇ MİXAİL VLADİMİROVİÇ (1950) – belarus iqtisadçısı; i.e.d.; Belarus RA-nın müxbir üzvü. 1972-ci ildə Brest İnşaat Mühəndisləri İnstitutunu bitirib. 1977-ci ildə Minsk şəhəri kommunal təsərrüfat idarəsinə baş mühəndis təyin edilib, sonra isə həmin idarənin rəhbəri olub. 1983-cü ildə Minsk





Belarusun Baş naziri M.Myasnikoviç Gəncə Avtomobil Zavodunda (2011)





şəhəri Sovet rayonu Xalq Deputatları Sovetinin sədri seçilib. 1990-cı ildə BSSR Nazirlər Sovetinin Sədrinin müavini, BSSR İqtisadiyyat və Planlaşdırma Dövlət Komitəsinin sədri, 1991-1994-cü illərdə Belarus Respublikası Nazirlər Sovetinin birinci müavini, 1995-2001-ci illərdə Belarus prezidenti adminstrasiyasının rəhbəri, 2001-2004-cü illərdə Belarus Milli Elmlər Akademiyasının prezidenti, 2004-2010-cu illərdə akademiyanın Rəyasət heyətinin sədri olub. 2010-cu ildən Belarus Respublikasının Baş naziridir.

1994-cü ildə "Belarus Respublikasında bazar iqtisadiyyatının formalaşdırılmasının şərt və amilləri (siyasi-iqtisadi təhlil)" mövzusunda namizədlik, 1998-ci ildə "Maliyyə-sənaye qrupları və bazar iqtisadiyyatının formalaşmasında onların rolu" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Myasnikoviç "Şərəf nişanı" (1981), III dərəcəli Vətən (2000), Rusiya Dostluq (2009) ordenləri ilə təltif olunub. İqtisadiyyat, beynəlxalq əməkdaşlıq və dövlət quruculuğu sahəsində bir çox monoqrafiyaların və elmi əsərlərin müəllifidir.



Belarus Milli Kitabxanası

N

NADİROV ASƏF ABBASQULU OĞLU (1930) – Azərbaycanın görkəmli iqtisadçı alimi, AMEA-nın akademiki (1989).



1951-ci ildə Azərbaycan Dövlət Universitetinin geoloji coğrafiya fakültəsini bitirmişdir. Asəf Nadirov 1956-cı ildə SSRİ EA Coğrafiya İnstitutunda "Naxçıvan MSSR: İqtisadi-coğrafi səciyyəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. A.Nadirov keçmiş İttifaq məkanında, xüsusilə Azərbaycanda iqtisad elminin aktual nəzəri-metodoloji və təcrübi problemlərinin tədqiqinə həsr olunmuş 800-dən çox elmi əsərin, o cümlədən monoqrafiya, kitab və kitabçanın müəllifidir. 50-ci illərin axırları və 60-cı illərdə apardığı gərgin elmi-tədqiqat işlərinin nəticəsi olaraq A.Nadirov 1968-ci ildə "Azərbaycanda sənayenin səmərəli yerləşdirilməsinin iqtisadi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1958-1992-ci illərdə (34 il) Azərbaycan EA İqtisadiyyat İnstitutunda şöbə müdiri, 1964-1981-ci illərdə həmin institutda elmi hissə üzrə direktor müavini, 1981-1998-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyətinin üzvü olmuşdur. Azərbaycan EA İqtisadiyyat İnstitutunun nəzdindəki ixtisaslaşmış müdafiə şurasının sədr müavini (1980-1989) və sədri (1990-1998) olmuşdur.

Akademik A.Nadirovun bilavasitə rəhbərliyi ilə 50-dən çox elmlər namizədi və 6 elmlər doktoru hazırlanmışdır.

A.Nadirov regional iqtisadiyyatın tətbiqi sahəsində Azərbaycan məktəbinin banisi kimi tanınmışdır. 1958-ci ildə apardığı tədqiqatı ümumiləşdirərək o, B.Əbdürrəhmanov və başqaları ilə birlikdə respublikanın iqtisadi rayonlaşmasının təkmilləşməsi ideyasını irəli sürmüşdür.

A.Nadirovun yaradıcılığının ana xəttini sənayenin inkişafı, onun quruluşunun təkmilləşdirilməsi və səmərəli yerləşdirilməsi problemləri təşkil etmişdir. Akademik ipəkçiliyin və ipək sənayesinin səmərəli inkişafı üçün respublikada geniş təbii imkanların, əhalinin böyük istehsal təcrübəsinin və tarixi ənənələrinin mövcud olduğunu əsaslandırmışdır. Azərbaycanda qənd istehsalının yaradılması ideyasını da ilk dəfə o irəli sürmüş və onun heyvandarlığın yem bazasının möhkəmlənməsi sahəsində də mühüm rol oynaya biləcəyini qeyd etmişdir.

Akademikin əsərlərində respublika sənayesinin yaxın və uzaq gələcəkdə iqtisadi rayonlar üzrə daha dərin ixtisaslaşması, kompleks və səmərəli inkişafı, daha optimal yerləşdirilməsi istiqamətləri müəyyən edilmiş, habelə bu problemlərlə bağlı bir sıra sosial-iqtisadi məsələlərin həllinə aid mülahizələr dolğun əksini tapmışdır. Müəllif ötən əsrin 70-80-ci illərindəki əsərlərində respublika sənayesinin yerli xammalın hasilatı ilə bağlılığının imkan daxilində məhdudlaşdırılmasının, əməktutumlu sahələrin üstün inkişafının, eyni zamanda, respublikada istifadə olunan bir çox yerli xammal ehtiyatlarının kompleks halda emalının həyata keçirilməsinin, ümumiyyətlə, sənayenin həm iqtisadi rayonlarda, həm də respublikada bütövlükdə kompleks inkişaf səviyyəsini yüksəltməyin və ixtisaslaşmasının dərinləşməsinin zəruriliyini və yollarını əsaslandırmışdır.

Son illərdə onun apardığı elmi-tədqiqat işlərində Azərbaycanın gələcək iqtisadi inkişafına bir baxış, iqtisadi islahatların Çin

yolu, mülkiyyət münasibətlərinin formalaşması, Azərbaycanın bazar iqtisadiyyatına keçməsi və dünya iqtisadiyyatına inteqrasiyası, bu istiqamətdə neft kontraktlarının mahiyyətinin və əhəmiyyətinin açılması, iqtisadiyyatın gələcək inkişaf yollarının müəyyənləşdirilməsi, iqtisadi islahatlar sahəsində qabaqcıl ölkələrin təcrübəsinin təhlili və yayılması kimi aktual məsələlər mühüm yer tutur.

A.Nadirov 1966-1981-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyası Xəbərləri "İqtisadiyyat" seriyasının baş redaktor müavini, 1981-ci ildən yaxın dövrlərə qədər isə həmin jurnalın baş redaktoru vəzifəsində işləmişdir.

Aşəf Nadirov uzun illər həm keçmiş İttifaq respublikalarında, həm də bir çox xarici ölkələrdə (Fransa, Hindistan, Türkiyə, İran, Almaniya, Yunanıstan, Macarıstan, Belçika və s.) keçirilən beynəlxalq simpozium və elmi konfranslarda Azərbaycan iqtisad elmini layiqincə təmsil etmişdir. Bundan başqa o, Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq, regional və respublika elmi forum, simpozium və konfranslarının əsas təşkilatçılarından biri kimi çıxış etmişdir. A.Nadirovun əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, "Şöhrət" ordeninə, bir çox medallara, fəxri fərmanlara layiq görülmüşdür.

Əsərləri: "Sosialist istehsalının yerləşdirilməsi", Bakı, 1965; "Azərbaycan şəhərlərinin iqtisadi inkişaf məsələləri", Bakı, 1966; "Azərbaycanda sənayenin səmərəli yerləşdirilməsinin iqtisadi problemləri", Bakı, Elm, 1976; "Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri", Bakı, 2001; "Azərbaycan iqtisadiyyatı", Bakı, 2003.

NAFTA – Şimali Amerika Azad Ticarət Assosiasiyasının (NAFTA) yaradılması haqqında ABŞ, Meksika və Kanada arasındakı razılaşma. 1994-cü il yanvarın 1-də qüvvəyə minmişdir. Amerika transmilli korporasiyalarının təsiri altında ABŞ administrasiyası tərəfindən irəli sürülmüşdür. Amerika iqtisadiyyatının Kanada və Meksika iqtisadiyyatı ilə nail olunan qovuşma səviyyəsi onun dövlətlərarası rəsmiləşdirilməsini tələb



Naftanın simvolu

edirdi. XX əsrin 90-cı illərinin əvvəllərinə dünyada baş verən siyasi və iqtisadi vəziyyətdəki radikal dəyişiklər də buna şərait yaradırdı: Aİ öz regionunda inteqrasiya proseslərinin genişlənməsini və dərinləşməsini kəskin surətdə sürətləndirdi; Yaponiya, Çin və Cənub-Şərqi Asiya ölkələri səylə iqtisadi potensiallarını gücləndirirdi; Asiya-Sakit Okean iqtisadi əməkdaşlığı artırdı. Formalaşan şərait dünya bazarında Amerika korporasiyalarının rəqabət qabiliyyətini saxlamaq üçün ABŞ-ın qarşısında öz qitəsində inteqrasiya proseslərinin fəallaşdırılması vəzifəsini qoydu.

ABŞ, Meksika və Kanadanın aparıcı şirkətləri ABŞ və Kanadanın maliyyə, elmi-texniki və sahibkarlıq potensialının rəqabət qabiliyyətini mühüm amil – Meksika şəraiti üçün xarakterik olan aşağı istehsal məsrəfləri ilə birləşdirməyi təxmin edirdi. Xüsusən 1993-cü ildə Kanadada iş vaxtının 1 saatı 5,75 dollar, ABŞ-da 4,5 dollar, Meksikada 50 sent idi. İlk növbədə, Meksika ilə mal mübadiləsinin liberallaşdırılması nəzərdə tutulurdu, belə ki, Kanada-ABŞ ticarətində NAFTA-nın imzalanma anına məhdudiyyətlər kənarlaşdırılmışdı.

Razılaşma ilə xarici iqtisadi münasibətlərin liberallaşması, ticarətdə məhdudiyyətlərin dağılması və üç dövləti ayıran sərhədlər vasitəsilə mal, xidmət, kapital və işçi qüvvəsinin sərbəst hərəkəti üçün vahid Şimali Amerika kontinental bazarının təşkili nəzərdə tutulurdu. İlk növbədə, hazır malların ticarətini məhdudiyyətlərdən azad etmək nəzərdə tutulurdu. 1994-cü ildə sənaye və ərzaq malları ilə qarşılıqlı ticarətdə rüsumlar 65%-ə endirilmişdi. Enerji resursları, kənd təsərrüfatı malları, avtomobil və toxuculuq bazarlarında rəvan liberallaşma nəzərdə tutulurdu.

Özünün iqtisadi potensialına görə, NAFTA üzrə şimal və cənub qonşular ABŞ-dan çox geri qalır: Kanadanın ÜDM-i ABŞ-ın ÜDM-nin təxminən 10%-ni, Meksikanın ÜDM-i isə 5%-ni təşkil edir. Daha zəif inkişaf etmiş ölkələrə və regionlara (Yunanıstan, İrlandiya, Portuqaliya) birgə büdcə fondlarından maliyyə yardımının təqdim olunduğu Aİ-dən fərqli

olaraq, NAFTA Meksikaya heç bir yardım göstərmir. Bununla belə, ekspertlərin qiymətləndirmələrinə görə, NAFTA-da iştirak Meksikaya öz iqtisadiyatının islahatlaşması dövrünü azaltmağa və 50 ilə yox, 10-15 ilə inkişaf etmiş ölkələrin səviyyəsinə nail olmağa imkan verəcək. NAFTA-ya daxil olmaqda Meksika üçün ən böyük uduş, ilk növbədə, ABŞ-dan xarici kapitalın daxil olmasının sürətlə artımı olacaqdır. İstehsalın inkişafı üçün birinci dərəcəli əhəmiyyətə malik olan birbaşa xarici investisiyaların həcmi üzrə XX əsrin 90-cı illərinin ortalarında Meksika Latın Amerikası ölkələri arasında birinci yeri tuturdu. Əgər 1986-1991-ci illərdə ölkəyə orta hesabla il ərzində 3,1 mlrd. dollar daxil olurdusa, 1994-cü ildən sonra bu göstərici 8 mlrd. dollardan aşağı olmurdu. İnvestisiya fəaliyyətinin canlanması ilə bağlı ölkədə əmək ödənişi səviyyəsi 1997-ci ildə 1990-cı illə müqayisədə orta real hesablamada 29% artdı.

NAFTA-da iştirak Meksikanın üzərinə böyük öhdəliklər qoyur. Kənd təsərrüfatı məhsulları üzrə o, ABŞ və Kanada ilə ayrılıqda ikitərəfli razılaşma bağlayır. Şimal əməkdaşlarının yüksək texnoloji məhsullarının öz bazarına daxil olmasını asanlaşdırmaq üçün Meksika Amerika və Kanada istehsalı olan kompüterlərə əvvəlki 20%-lik rüsumu tamamilə ləğv etmişdir. Üçüncü ölkələrdən analoji məhsula rüsum saxlanılır: o, tədricən 3,9%-ə enəcək, bu, Meksika bazarından ucuz yapon və Cənubi Koreya teknikasını sıxışdırmaqda şimal qonşulara kömək edəcəkdir.

10 il ərzində Meksika avtomobillərinin idxalına məhdudiyyətlərin əksəriyyətini ləğv etməlidir, bu isə, amerikalı ixracatçılara onların satışının kəskin artmasını vəd edir. Bundan başqa, 1994-cü ildən başlayaraq, Meksikada xarici sərmayədarların imkanlarını genişləndirən qanun tətbiq olunmuşdur. Sənaye və kənd təsərrüfatının bir çox sahələrində xaricilərə "İstənilən proporsiyalarda" kapital qoymağa icazə verilir. Düzdür, enerjidaşıyıcıları və radioaktiv filizin kəşfiyyatı və hasilatında, nəqliyyat və kommunikasiya infrastrukturunda xaricilərin pay iştirakı hələlik məhdudlaşdırılmışdır.

Zaman keçdikcə, Meksika bank və sığorta şirkətlərində xarici iştiraka məhdudiyyətləri ləğv etmək öhdəliyi götürülmüşdür. Bu baş verəndə, Amerika və Kanada maliyyə kapitalı Meksika sığorta bazarının təxminən 1/3-i üzərində nəzarəti öz əlinə götürə biləcəkdir.

ABŞ-ın işgüzar dairələri NAFTA-ya böyük ümidlər bəsləyir: Amerika ixracının əhəmiyyətli genişlənməsi və bununla əlaqədar, iş yerləri sayının artması gözlənilir. ABŞ-dan Meksikaya əmək-tutumlu, material tutumlu və ekoloji cəhətdən bahalı istehsalların köçürülməsi istehsal məsrəflərinin azaldılmasına və Amerika sənayesinin əksər məmulatlarının rəqabət qabiliyyətini artırmağa imkan verəcəkdir. Uzunmüddətli planda NAFTA-da iştirakın köməyilə Amerika TMK-ı yeni satış bazarlarının mənimsənilməsi, öz müəssisələrində yeni iş yerlərinin açılması, rəqabət qabiliyyətinin və mənfəətin artırılması məqsədilə Latın Amerikasında iqtisadi iştiraklarının genişlənməsini təxmin edirlər.

Kanada NAFTA-da iştirak vasitəsilə satış bazarını genişləndirməyə, istehsal məsrəflərini azaltmağa və yeni yüksək texnologiyalı sahələrin (kompüterlər, telekommunikasiyalar və s.) mənfəətini artırmağa ümid edir. Bundan başqa, qitə miqyasında liberal bazar məkanının formalaşması Kanadaya üçüncü ölkələrdən, əsasən, Aİ üzvləri və Yaponiyadan birbaşa və portfel investisiyaların axınını stimullaşdıracaqdır.

1990-cı illərin axırlarında NAFTA-nın fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi üçün statistik göstəricilər çox az idi. Amma artıq nəticə çıxarmaq olar ki, bu formal yox, real beynəlxalq inteqrasiya strukturudur. Xüsusən, 1994-1997-ci illər ərzində ABŞ-ın Meksika və Kanada ilə mal dövriyyəsi 44% artmışdı. Eyni zamanda, bir sıra Latın Amerikası ölkələri Şimali Amerika inteqrasiya qruplaşmasından narazıdırlar. Belə ki, NAFTA-nın şərtlərinə görə, ABŞ, Kanada və Meksikanın nəqliyyat vasitələri istehsalçıları komplektləşdirici məmulatların 62,5%-ni NAFTA şirkətlərindən almaq öhdəliyi götürmüşlər.

Bundan başqa, Meksikaya investisiya axını Şimali Amerika analitiklərinin fikrincə, Latın Amerikasının digər ölkələrinə birbaşa xarici investisiyaların azaldılması hesabına həyata keçirilir. Mərkəzi və Cənubi Amerika ölkələri, ilk növbədə,

Çili və bütöv qruplaşmalar – MERKOSUR və KARİKOM NAFTA-ya hiddət və qibtə ilə nəzər salaraq, gələcəkdə bu iqtisadi struktura birləşmək istəklərini bildirirlər.

NAĞD "İNƏK" – 1. Sabit gəlir gətirən etibarlı şirkət. 2. Fasiləsiz nağd pul axınını təmin edən biznes.

NAĞD MAL BAZARI – bu bazarda əqdlər (fyuçers birjasının əksinə olaraq) həqiqi əmtəə üçün bağlanır. Real əmtəə bazarında bağlanan əqdlərin müxtəlif növləri vardır: malın dərhal göndərilməsi şərti (spot) və yaxud malın müəyyən müddət ərzində göndərilməsi şərti ilə.

Real əmtəə bazarının təşkilati formaları auksionlar, uzunmüddətli kontraktlar, birdəfəlik əqdlər, telefon-telefaks bazarları, tenderlər, real əmtəə birjaları və s.

NAĞD MAL İLƏ BAĞLI ƏQDLƏR – bu əqd bağlanarkən kontragentlərdən biri malı razılaşdırılmış şərtlərlə digərinə verir və onun dəyəri mal alıcının mülkiyyətinə daxil olduğu anda ödənilir.

NAĞD ÖDƏNİŞ – maddi nemətlər və xidmətlər üçün avans şəklində və ya onların çatdırılmasından dərhal sonra nağd pul vəsaiti şəklində ödəniş. Beynəlxalq ticarətdə nağd ödənişlər çeklər, köçürmələr, akkreditivlər, inkasso vasitəsilə həyata keçirilir.

NAĞD PUL – ölkənin nağd pul dövriyyəsində müasir şəraitdə, adətən, qiyməti olmayan metallardan hazırlanmış sikkələr, banknotlar, əsginaslar şəklində tədavüldə olan emitent ölkənin qanunvericiliyi ilə müəyyən edilmiş nominal dəyərə malik olan pullar, pul nişanları.

Nağd pullar emitent ölkənin ərazisində sərbəst tədavül edən, əmtəə mübadiləsi prosesində istifadə edilə, əmtəə və xidmətlərin ümumi ekvivalenti rolunu yerinə yetirə, eləcə də bir iqtisadi subyektin digəri qarşısında borc öhdəliklərini ödəyə bilər.

Bir qaüyda olaraq, hər bir ölkənin nağd pullarını saxtalaşdırmaqdan qorumaq üçün müxtəlif müdafiə dərəcələri vardır: su nişanları, mikroşrift, xüsusi kağız, xüsusi boya və s.

NAĞDSIZ HESABLAŞMALAR – nağdsız pul dövriyyəsində tətbiq edilir. Pul tədavülünün bu formasının xarakteristikaları pul vəsaitlərinin bank hesabına köçürülməsi, alıcının hesabından satıcının hesabına köçürülməsi yolu ilə saxlanması və hərəkətidir. Bu halda nağdsız hesablaşmanın əlverişli cəhəti ondan ibarətdir ki, gəlirləri dövlət orqanlarından gizlətmək və vergitutmadan yayınmaq çətin olur. İnkişaf etmiş ölkələrdə bütün hesablaşmaların yarıdan çoxu nağdsız formada aparılır.

Nağdsız hesablaşmaların aşağıdakı formaları vardır: çeklərlə hesablaşmalar; nəqliyyat təşkilatlarının sərbəst tələbnamələri üzrə hesablaşmalar; tədiyə tələbnamələri və tapşırıqları üzrə hesablaşmalar; əmtəəsiz əməliyyatlar üzrə hesablaşmalar; əmtəə əməliyyatları üzrə hesablaşmalar və s.

Elektron ödəniş xidmətlərindən və nağdsız ödəniş alətlərindən istifadənin genişləndirilməsi ilə yüksək ödəniş mədəniyyətinə malik olan cəmiyyətin formalaşdırılması və nağdsız dövriyyənin inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması qarşıda duran vacib məsələlərdən biridir (bax: sxem 1, qrafik 1, 2, 3).

Müasir mərhələdə ölkədə elektron ödəniş xidmətlərinin genişlənməsi üçün yeni dövlət proqramının həyata keçirilməsi zərurəti yaranmışdır. Təsərrüfat subyektlərinin və geniş əhali təbəqəsinin elektron ödəniş xidmətlərinə çıxış imkanlarının artırılması, aidiyyatı hökumət və digər qurumların korporativ informasiya sistemlərinin elektron ödəniş sistemləri ilə inteqrasiyasının tamamlanması istiqamətində ölkə səviyyəsində kompleks tədbirlərin həyata keçirilir.

"Azərbaycan Respublikasında müasir elektron ödəniş xidmətlərindən istifadənin genişləndirilməsi üzrə 2012-2016-cı illər üçün Dövlət Proqramı"nın əsas istiqamətləri aşağıdakıları əhatə edir:

– elektron ödəniş xidmətlərinin infrastruktur imkanlarının genişləndirilməsi;

– elektron ödəniş xidmətlərinin institusional bazasının gücləndirilməsi;


– elektron ödəniş xidmətlərindən istifadə effektivliyinin artırılması;


– elektron ödəniş xidmətlərindən istifadəsi üzrə maarifləndirmə;

– əhali və iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə cəlb edilməsi.

Nağdsız ödənişlərin infrastruktur imkanlarının genişləndirilməsi məqsədi ilə aşağıda qeyd edilən məsələlər mühüm əhəmiyyət kəsb edir:

Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi (AZIPS)






Qrafik 1


– vergi, rüsum və digər büdcə ödənişlərinin MÖS infrastrukturu vasitəsilə qəbul edilməsinin təmin edilməsi;

– E-hökumət layihəsi çərçivəsində dövlət orqanları tərəfindən göstərilən elektron xidmətlərə görə ödənişlərin nağdsız ödəniş alətləri vasitəsilə toplanması imkanının yaradılması;

– banklar tərəfindən göstərilən elektron xidmət çeşidlərinin ar-

Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sistemi (KÖMİS)





Sistemə yüklənmiş ödəyici bazası

"Azəriqaz" İB
• 1448001

"Bakıelektrikşəbəkə" ASC
• 791899


"Azərsu" ASC
• 1186249

"Sumqayıtelektrikşəbəkə" ASC
• 376822

"Azərenerji" ASC
• 1265514


Baş Dövlət Yol Polisi İdarəsi
• 1577717

Qrafik 2



Sxem 1

Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sistemi (KÖMİS)



Qrafik 3

tırılması, bank-müştəri münasibətlərinin elektronlaşdırılması;
– kart infrastrukturunun genişləndirilməsi, ticarət, iaşə və xidmət sahələrində POS-terminalların quraşdırılması;
– "Azərpoçt" MMC-nin bütün xidmət şəbəkəsində maliyyə xidmətləri göstərməsi və təşkilatın kart infrastrukturuna inteqrasiya olunması ilə regionlarda, xüsusilə kənd yerlərində elektron ödəniş xidmətlərinə çıxış imkanlarının artırılması.

NAĞIYEV MUSA (1842-1919) – neftxuda, böyük xeyriyyəçi, Bakı milyonçusu. Onun



atası saman satmaqla məşğul idi. İbtidai təhsilini kənd mollaxanasında aldıqdan sonra 25 yaşınadək kənddə atasına kömək edir. 25 yaşına çatanda atası ölür. Öləndə atasının 300 manat borcu qalır. Ruhdan düşməyən Musa 200 manat da borc eləyib, özünə kiçik bir dükan açır. Beləliklə, cibində bir qəpik olmadan 500 manat borcla müstəqil fəaliyyətə başlayır. İki ildən sonra Musa Nağıyev borcunu qaytarır və parça alverinə başlayır. 5 ildən sonra 2000 manat vəsait toplayır. Topladığı pula Qara şəhərdə əl ilə işləyən kiçik bir kerosin zavodu alır. Sonra neftli torpaq sahələri alaraq neft istehsalına başlayır. Bibiheybətin mədənlərində birbirinin ardınca vuran neft fontanları başqaları kimi onu da milyonçu edir. O, müsəlman arvadını boşayıb, Yelizaveta Qriqoryevna adlı bir gürcü qadınla evlənir. Müsəlman arvadından olan İsmayıl adlı oğlu vərəm xəstəliyinə tutulur və ölür.

"İstiqlaliyyət" küçəsində tikdirdiyi bina da İsmayılın xatirəsinə "İsmailiyyə" adlandırılır. 1914-cü ilin maliyyə hesabına görə Musa Nağıyevin qızılla yetmiş milyon manata yaxın tanxası varmış. Mirasının ümumi dəyəri bundan qat-qat çox imiş.


Musa Nağıyev "Cəmiyyəti xeyriyyə" üçün şəhərin mərkəzində əzəmətli "İsmailiyyə" binasını ucaltmağına, bu mülkdən bir qədər yuxarıda Realnı məktəbinin inşasını öhdəsinə götürüb yarımçıq qalmış üçüncü mərtəbəsinin xərcini ödəməyinə, şəhər kənarında (Semaşko) xəstəxana tikdirdiyinə və Bakı su kəməri üçün xeyli pul verməyinə baxmayaraq camaat tərəfindən xəsis sözü ilə damğalanmışdı.

O, birinci realnı məktəbin hamiliyini boynuna almışdı və ildə hazırlıq sinfinə iyirmi beş müsəlman uşağını əlavə qəbul etdirməyə nail olmuşdu. Bunun nəticəsində az bir zamanda məktəbdə müsəlman şagirdlərinin sayı əlli faizə çatmışdı.

Bakının "28 May" küçəsindəki qoşa imarətlər, yenə həmin küçədə qırmızı kərpicdən tikilmiş əzəmətli bina, "Nizami" küçəsində Opera Teatrının yanındakı yaşayış evi, "Azərbaycan" prospektində köhnə Mərkəzi poçt binası, Nigar Rəfibəyli küçəsindəki əzəmətli yaşayış binası, Səməd Vurğun küçəsində Qış klubu (indiki Zabitlər evi), "Astoriya" və "Yeni Avropa" mehmanxanaları və sair bu kimi şəhərin gözəgəlimli binaları Musa Nağıyevin vəsaiti ilə tikilmişdir.

NAL – nağd pul. Rusca "nağd pul" mənası verən "naliçnıye" sözünün slenq qaydaları üzrə ixtisar edilməsi nəticəsində yaranmışdır.

NAMAZƏLİYEV HÜSEYN İBAD OĞLU (1925-2000) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof. 1970-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda namizədlik, 1983-



"İsmailiyyə" binası (AMEA-nın Rəyasət Heyəti)



cü ildə isə Lomonosov adına Moskva Dövlət Universitetində doktorluq dissertasiyasını müdafiə etmişdir. 1984-cü ildə professor adını almışdır. Onun "Maddi-texniki təminatda təsərrüfat fəaliyyətinin iqtisadi təhlili" adlı ilk dərsliyindən MDB ölkələrinin tədris müəssisələrində indi də geniş istifadə olunur.

H.Namazəliyevin ölkəmizdə, keçmiş İttifaq respublikalarında və xarici ölkələrdə 280 çap vərəqi həcmində 173 adda elmi əsəri, o cümlədən 6 monoqrafiyası, 34 dərsliyi, dərs vəsaiti, məqaləsi və məruzə tezisləri çap edilmişdir.

Uzun müddət Azərbaycan Dövlət İqtisad Universitetində "İqtisadi təhlil" kafedrasının müdiri olmuşdur.

NAMAZOVA CƏMİLƏ BAYRAMALI QIZI (1961) – Azərbaycan iqtisadçısı, i.e.d. 1983-cü ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) uçot-iqtisad fakültəsini bitirmişdir.



1987-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində "Tikintidə material resurslarından səmərəli istifadənin uçotu və təhlilinin təkmilləşdirilməsi" mövzusunda namizədlik, 2011-ci ildə isə Azərbaycan Dövlət İqtisad Universitetində "İnvestisiya mühitinin təhlili və onun formalaşmasında vergi siyasətinin rolu" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1987-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi təhlil" kafedrasında baş laborant, müəllim, baş müəllim və dosent vəzifələrində çalışmışdır. 2006-cı ildə Universitetin elmi Şurasında "İqtisadi təhlil və audit" kafedrasının müdiri vəzifəsinə seçilmişdir. 100-ə yaxın elmi məqalənin və 2 monoqrafiyanın müəllifidir.

NANOİQTİSADİYYAT – R.Pindayk və D.Rubinfeldin mikroiqtisadiyyata aid məşhur dərsliyi bu sözlərlə başlanır: "İqtisad elmi iki əsas sahəyə bölünür: mikroiqtisadiyyat və makroiqtisadiyyat. Mikroiqtisadiyyat ayrı-ayrı iqtisadi subyektlərin fəaliyyətini nəzərdən keçirir. Buraya istehlakçılar, işçilər, investorlar, torpaq sahibkarları, firmalar və digərləri aiddir...". Buradakı ifadələrin stilistikasına əsasən ilk baxışda qəribə görünə bilər ki, mikroiqtisadiyyatın obyektlərinin siyahısında, məsələn, işçilər və firmalar kimi müxtəlif agentlər "vergül ilə ayrılır", yəni həmcins obyektlər kimi sadalanır. İşçi ilə firma arasında müəyyən mahiyyət fərqləri vardır. Fərd fiziki və ideoloji mənada bölünməyən (bəzən ziddiyyətli də olsa), firma isə kollektivi təzahür etdirən anlayışdır. Ümumiyyətlə, kollektivlərdə qərarların qəbul edilməsi və icrası ilə bəzən yüz minlərlə fərd – bu firmanın müəyyən qaydada təşkilatlanmış işçiləri və səhmdarları məşğul olurlar. Onların davranışlarının bir nəzəriyyə vasitəsilə adekvat şəkildə təsvir edilməsi yalnız ən ümumi səviyyədə mümkündür. Real həyatda isə müəyyən fəaliyyət hakimiyyətinə malik olan iqtisadçıların çoxu ən sadə subyektlərin zahiri dəyişikliklərə reaksiyası barədə məhz bu cür primitiv təsəvvürdən çıxış edirlər. Digər tərəfdən, aşkardır ki, fərdi və kollektiv iqtisadi agentlərin davranışını izah etmək üçün ən azı iki müxtəlif iqtisadi fənn və onlara uyğun nəzəriyyələr cəlb edilməlidir.

Nanoiqtisadiyyat bir sıra hallarda fərdi agent üçün məhz belə fəndir. Elmi ədəbiyyatda nanoiqtisadiyyat termini ilk dəfə 1987-ci ildə K.Errounun bir işində tətbiq edilmişdir. Onun şərəfinə hazırlanmış məqalələr məcmuəsini tamamlayan "Esse üzərində düşüncələr" məqaləsinin son abzasında deyilir: "Uayteker, Uilyamson və Leybenstayn tərəfindən yazılmış fəsillər iqtisadi əməliyyatlara xas olan təşkilatlanma və daha ümumi mənada qeyri-bazar münasibətləri məsələlərinə həsr edilmişdir. Uayteker bu sahədə mənim baxışlarımın qeyri-müəyyən olmasını qeyd edərkən nəyə görə haqlıdır? Q.Saymonun işi bizim hamımız üçün çox böyük əhəmiyyət kəsb etdiyi halda onun doğurduğu birbaşa nəticələr nə səbəbdən çox olmamışdır? "Köhnə" institusionalizm məktəbinin tərkibində T.Veblen, C.Kommons və U.Mitçell kimi güclü analitiklər olduğu halda nə üçün bu məktəb belə sarsıdıcı məğlubiyyətə uğramışdır? İndi düşünürəm, bu sualların iki ca-

vabı var. Uilyamson və onun həmkarlarının "yeni" institusionalizmə həsr edilmiş əsərlərində təqdim edilmiş birinci cavab nemətlərin spesifikasının təhlilinin zəruri və vacib olmasıdır. Lakin bu istiqamət resursların bölgüsü və onların faydalılıq dərəcəsi barədə ənənəvi iqtisadi suallara yeni cavab verməyə qadir deyildir. Bu istiqamət, çox güman ki, yeni suallara cavab verə bilərdi: nə üçün iqtisadi institutlar başqa şəkildə deyil, məhz bu formada yaranmışlar? Bu düşüncələr bizi iqtisadiyyat tarixinin dərinliklərinə yuvarladır, lakin iqtisadi qərarların daha dəqiq nanoiqtisadi əsaslandırılmasını təmin edir. Əgər mən yunan dilindən düzgün istifadə edirəmsə, "nano" termini "mikro" termininin ekstremal versiyasıdır. İkinci cavab rasional davranış hüdudlarının müəyyən edilməsi ideyası ilə bağlı ciddi məntiqi çətinlikləri etiraf etməkdən ibarədir, hərçənd total rasionallıq ideyası ilə əlaqədar məntiqi çətinliklər də az deyildir.

İqtisadi nəşrlərdə, o cümlədən İnternetdə dərc edilən materialların təhlili göstərir ki, hazırda "nanoiqtisadiyyat" termini əsasən iki mənada işlədilir: 1) nanotexnologiyaları tətbiq edən iqtisadiyyat sektorunun nəzəri təsviri (materialların, maddələrin, məmulatların atom və molekullar səviyyəsində konstruksiya edilməsi); 2) uşaqların iqtisadi davranışı nəzəriyyəsi ("bebinomika"). İnternetdə mövcud olan başqa axtarış sistemləri ilə müqayisədə "Yahoo!" axtarış sistemi "nanoeconomics" terminə istinadların ən tam siyahısını verir (2004-cü ilin sentyabr ayında bu siyahıya təxminən 80 element daxil idi). Həmin istinadların aşağıda göstərilən ikisi istisna olmaqla, hamısında bu termin Errou mənada deyil, yuxarıda sadalanan mənaların birinə uyğun şəkildə istifadə edilir.

Rus dilində iqtisadi ədəbiyyatda "nanoekonomika" termini ilk dəfə 1996-cı ildə (təəssüf ki, o vaxt K.Errounun yuxarıda sitat gətirilən məqaləsi ilə tanış olmadan) təklif edilmişdir. Sonralar "nanoekonomika" termini bir çox alimlərin əsərlərində istifadə edilmiş, "Siyasi ensiklopediya"dakı "Nanoiqtisadiyyat" məqaləsində isə (1999-cu ildə çapdan çıxmışdır) nanoiqtisadiyyata verilmiş tərif aşağıdakı kimi ifadə edilmişdir: "İqtisadiyyat elminin bu sahəsinin tədqiqat obyektləri müəssisə və təşkilatlarda baş verən daxili proseslər, ayrı-ayrı fiziki şəxslər və kollektivlər tərəfindən iqtisadi qərarlar qəbul edilməsi mexanizmləri və faktorlarıdır". Bütün bunlarla birgə, nanoiqtisadiyyat hələ ki, iqtisad elminin bölmələri sistemində hamı tərəfindən qəbul edilmiş yerini tutmamışdır. Bununla əlaqədar yaranan problemlər arasında o da vardır ki, çox vaxt nanoiqtisadiyyatın və mikroiqtisadiyyatın predmetləri qarışdırılır, bəzən isə anlaşılmazlıq yaranır: bir tərəfdən, iri müəssisənin davranışı elə təhlil edilir ki, guya o, fiziki şəxsdir; digər tərəfdən, əslində müəssisənin fəaliyyətinə xas olan xarakteristikalar fərdin davranışına şamil edilir.

Nanoiqtisadiyyatın tərifini dəqiqləşdirmək, oxşar iqtisadi anlayışlar (makroiqtisadiyyat, mikroiqtisadiyyat, mezoiqtisadiyyat və b.) sistemində onun yerini və funksiyalarını tədqiq etmək, ölkə iqtisadiyyatının xarakteristikalarını və onun müasir vəziyyətini nanoiqtisadiyyat mövqeyindən araşdırmaq zəruridir.

Son illərdə qloballaşma prosesləri ilə əlaqədar dünya iqtisadiyyatı problemlərinə maraq artmışdır. Tədqiqat obyekti sahəsi maksimum dərəcədə genişlənmişdir. Bu istiqamət meqaiqtisadiyyat adlanır.

Ayrıca sosial fərdin (agentin) davranış motivlərini və amillərini təsvir edən nanoiqtisadiyyat iqtisadi sistemlərin strukturunda ən aşağı səviyyəyə, meqaiqtisadiyyat isə ən yüksək səviyyəyə aiddir. Lakin onların arasında neçə təbii səviyyə olmalıdır? (bax: cədvəl 1).

Bu sahədə beş iyerarxik səviyyəni (meqasəviyyə, makrosəviyyə, mezosəviyyə, mikrosəviyyə və nanosəviyyə), həmçinin müvafiq iqtisadi fənləri (meqaiqtisadiyyat, makroiqtisadiyyat, mezoiqtisadiyyat, mikroiqtisadiyyat və nanoiqtisadiyyat) fərqləndirmək məntiqə uyğundur. 2 №-li cədvəldə bu fənlər və onların xarakteristikaları xətti qaydada göstərilmişdir (bax: cədvəl 2).

İqtisad elminin əsas bölmələri sistemində nanoiqtisadiyyatın yeri onun obyekti olan fərdin iqtisadi obyektlər sistemində təbii vəziyyəti ilə müəyyən olunur. Nanoiqtisadiyyatın vəzifəsi insanın müxtəlif iqtisadi şəraitlərdə davranışının daxili və xarici determinantlarını, həmçinin faktorlarını rasionallıq

baxımından təyin etmək, izah etmək və planlaşdırmaqdan ibarətdir. Nanoiqtisadiyyatın sayəsində ayrı-ayrı fiziki şəxslərin mikroiqtisadi obyektlərin – müəssisə, ev təsərrüfatları, təşkilatlar, alıcıların davranışının daxili və xarici amilləri kimi obyektlərə təsirini aşkar etmək mümkündür. Bu mənada nanoiqtisadiyyat mikroiqtisadiyyatı və miniiqtisadiyyatı təbii şəkildə tamamlayır.

İqtisad elminin R.Robbins tərəfindən ifadə edilmiş və hazırda hamılıqla qəbul edilmiş tərifi belədir: "İqtisad elmi müxtəlif şəkildə istifadə edilə biləcək məqsədlər və məhdud vasitələr arasında qarşılıqlı münasibətlər baxımından insanın davranışını öyrənən elmdir". Bu mənada nanoiqtisadiyyatı iqtisad elminin bir hissəsi hesab etməyə əsas vardır. Üstəlik, bu tərif makroiqtisadiyyat ilə müqayisədə nanoiqtisadiyyata daha çox münasibdir. Bir qayda olaraq, insan öz məqsədlərini həyata keçirmək üçün vaxtını, qüvvəsini, maraq obyektlərini, təsirini, prioritetlərini, əmlakını və başqa dəyərləri müxtəlif istiqamətlər üzrə bölüşdürür. Belə bölgünün amilləri və effektivliyinin nədən ibarət olması haqqında suallar nanoiqtisadiyyat üçün təbiidir. Məlum olduğu kimi, iqtisadiyyat ictimai elmlərə aid edilir. Öyrənmə obyekti ayrıca fərd olan nanoiqtisadiyyat ictimai elmlər korpusundan da kənara çıxmır. Çünki burada mühitin fərdin davranışına təsirini bu və ya digər dərəcədə nəzərə almaq zəruridir. Burada müəyyən institutun nominal (faktiki) daşıyıcısı, yəni onun iştirakçıları ola biləcək və ya faktiki iştirakçıları olmuş subyektlərin çoxluğu anlayışını təklif edilir. Konkret institut üçün belə daşıyıcı bütün cəmiyyət (məsələn pul institutu), insanların məhdud qrupu (hər səhər şirkətin himnini ifa etmək üçün toplaşan işçilər) və ya konkret insan ola bilər (müəyyən vaxtda dərman qəbul edilməsi). Deməli, meqaiqtisadi, makroiqtisadi və hətta nanoiqtisadi təsisatlar mümkündür. Bu mənada nanoiqtisadiyyatı ümumi sıradan çıxarmağa heç bir əsas yoxdur. L.Yevstiqneyev və R.Yevstiqneyevin fikrincə, klassik institusionalizmin kredosu bütün tarixi reallıqda fərdi iqtisadi sistemin əsas elementi hesab etməkdən ibarət idi. Tədqiqat obyektinin spesifikasına görə, nanoiqtisadiyyat neoklassik, institusional (yeni və köhnə) və təkamül nəzəriyyələrinin kəsişmə nöqtəsidir. Çox güman ki, məhz bu səviyyədə həmin nəzə-

Cədvəl 1

Baza iqtisadi fənlər sistemi və onların predmet sahələrinin strukturlaşdırılması

Obyektlərin strukturu	*Öyrənmə obyektləri*			
	Dünya iqtisadiyyatı	*Ölkə iqtisadiyyatı*	*Müəssisə*	*Fərd*
Proseslər	Meqaiqtisadiyyat (iqtisadi artım, inflyasiya, işsizlik, qeyri-bərabərlik)	Makroiqtisadiyyat (iqtisadi artım, inflyasiya, işsizlik, faiz dərəcələrinin dinamikası)	Mikroiqtisadiyyat (qiymətyaranma, məhsul buraxılışı, resursların cəlb edilməsi)	Nanoiqtisadiyyat (informasiyanın fərd tərəfindən qavranılması və qiymətləndirilməsi, əməyin və istehlakın intensivliyinin öyrənilməsi, dərk edilməsi, adaptasiyası və dinamikası)
Obyekt	Beynəlxalq iqtisadiyyat (ölkələrin fəaliyyəti və qarşılıqlı əlaqəsi)	Mezoiqtisadiyyat (regionların, sahələrin, komplekslərin fəaliyyəti və qarşılıqlı əlaqəsi)	Miniiqtisadiyyat (müəssisənin bölmələrinin fəaliyyəti və qarşılıqlı əlaqəsi)	Nanoiqtisadiyyat (fərdlərin fəaliyyəti və qarşılıqlı əlaqəsi)

Cədvəl 2

Əsas iqtisadi intizam sistemi və onların fənlər üzrə sahələrinin iyerarxiyası

№	İqtisadi intizam	Tədqiqat obyekti	Tədqiqat predmeti	Tədqiqat rakursu
1.	Meqaiqtisadiyyat	Qlobal iqtisadiyyat; meqasəviyyə	Dünya iqtisadiyyatı vahid sistem kimi	Proses və obyekt yanaşmalarının uyğunluğu
2.	Ölkələrarası iqtisadiyyat	Meqaiqtisadiyyat ayrı-ayrı ölkələrin iqtisadiyyatının məcmusu kimi; meqasəviyyə	Ölkələrarası qarşılıqlı iqtisadi əlaqələr	Obyektli yanaşma
3.	Makroiqtisadyyat	Bir ölkənin iqtisadiyyatı; makrosəviyyə	Hər bir ölkənin daxilində iqtisadi proseslər	Prosesli yanaşma
4.	Mezoiqtisadiyyat	İri müəssisələrin, komplekslərin regionların, sahələrin iqtisadiyyatı; makro-mezosəviyyə	İqtisadi əməkdaşlıq və regionların, sahələrin, komplekslərin inkişafı	Obyektli yanaşma
5.	Mikroiqtisadiyyat	Müəssisələrin əməkdaşlığı bölmələrində bazar sahələrinin iqtisadiyyatı; mezo-mikrosəviyyə	İqtisadi proseslər resursların cəlb edilməsi, müəssisələrin istehsal qiymətlərinin formalaşması	Prosesli yanaşma
6.	Miniiqtisadiyyat	Sahələr bölməsində müəssisələrin iqtisadiyyatı; Mikrosəviyyə	İqtisadi əməkdaşlıq və müəssisələr sahələrinin inkişafı	Obyektli yanaşma
7.	Nanoiqtisadiyyat	İstehlak, bölüşdürmə və istehsal proseslərində individual iştirakçıların davranışı; nanosəviyyə	Proseslər, amillər və iqtisadiyyatın individual agentlərinin davranışını müəyyən edən amillər	Proses və obyekt yanaşmalarının uyğunluğu

riyyələrin sintezindən ibarət aktual məsələnin həllində irəliləyişə nail olmaq mümkündür.

Nanoiqtisadiyyatı aşağıdakı 1 və 2 №-li cədvəllərdə göstərilmiş fənlərdən fərqləndirən əsas xüsusiyyət ondan ibarətdir ki, o, iqtisadiyyata aidiyyəti olmayan başqa fənlərlə sıx qonşuluq münasibətlərindədir. Nanoiqtisadiyyat psixologiya, sosiologiya, tarix, erqonomika, aksiologiya (dəyərlər haqqında, yəni insan və ya sosial qrup üçün bu və ya digər obyektlərin və şərtlərin əhəmiyyəti haqqında elm), menecment və digər fənlərin nailiyyətlərinə əsaslanır. Bu fənlər arasında əsas yeri humanitar fənlər tutur.

Nanoiqtisadiyyatın işlənib hazırlanması, bütövlükdə iqtisad elminin və praktikasının inkişafının aktual vəzifəsinə çevrilir. Ölkə iqtisadiyyatının nanoiqtisadi xüsusiyyətlərinin və onların bu iqtisadiyyatın dinamikasına təsirinin öyrənilməsi iqtisadi nəzəriyyənin bütün istiqamətləri üzrə ciddi irəliləyiş tələb edir. Nanosəviyyə üçün həm rasional məqsədli seçim modellərinə əsaslanan ənənəvi yanaşmalar,

Cədvəl 3

Bazis iqtisadi fənlər sistemi və onların predmet sahələrinin iyerarxiyası

İqtisadi fənn	*Öyrənmə obyekti*	*Öyrənmə predmeti*	*Öyrənmə rakursu*
Meqaiqtisadiyyat	Qlobal iqtisadiyyat, meqasəviyyə	Dünya iqtisadiyyatı vahid sistem kimi	Proses və obyekt yanaşmalarının məcmusu
Beynəlxalq iqtisadiyyat	Meqaiqtisadiyyat ayrı-ayrı ölkələrin iqtisadiyyatlarının məcmusu kimi; meqasəviyyə	Ölkələr arasında qarşılıqlı iqtisadi münasibətlər	Obyekt yanaşması
Makroiqtisadiyyat	Ayrıca ölkənin iqtisadiyyatı; makrosəviyyə	Hər ölkənin daxilində iqtisadi proseslər	Proses yanaşması
Mezoiqtisadiyyat	Sahələrin, regionların, komplekslərin, iri müəssisələrin iqtisadiyyatı; makro-mezosəviyyə	Regionların, sahələrin, komplekslərin qarşılıqlı iqtisadi təsiri və inkişafı	Obyekt yanaşması
Mikroiqtisadiyyat	Müəssisələrin qarşılıqlı fəaliyyəti kəsiyində sahə bazarlarının iqtisadiyyatı; mezo-mikrosəviyyə	Müəssisələrə resursların cəlb edilməsi, qiymətlərin, istehsal həcmlərinin formalaşması ilə bağlı iqtisadi proseslər	Proses yanaşması
Miniiqtisadiyyat	Müəssisənin bölmələri kəsiyində iqtisadiyyat; mikrosəviyyə	Müəssisənin bölmələrinin qarşılıqlı iqtisadi təsiri və inkişafı	Obyekt yanaşması
Nanoiqtisadiyyat	İstehsal, bölgü, istehlak proseslərinin fərdi iştirakçılarının davranışı; nanosəviyyə	Fərdi agentlərin davranışını müəyyən edən proseslər, aktorlar və faktorlar	Proses və obyekt yanaşmalarının məcmusu

həm də institusional və təkamül yanaşmaları tətbiq edilə bilər. Bundan əlavə, sistem paradiqmasına əsaslanan sintetik yanaşma da perspektivli istiqamətdir. İqtisadi fərd nəzəriyyəsinin müəssisə (firma) nəzəriyyəsi konsepsiyasına oxşar müxtəlif konsepsiyalarının, o cümlədən, sistem inteqrasiyalı firma nəzəriyyəsi ilə əlaqəli fərdin sistem nəzəriyyəsinin formalaşması zəruridir. Bundan əlavə, spesifik nanoanalitik vasitələr, o cümlədən model alətləri işlənib hazırlanmalı, iqtisadiyyatın bütün sahələrində və müxtəlif səviyyələrdə qərarların hazırlanması, əsaslandırılması və qəbul edilməsi zamanı nanoiqtisadi aspektlər daha çox nəzərə alınmalıdır. Ən qabaqcıl siyasi texnoloqlar artıq indiki mərhələdə *nanosiyasi texnologiyaları* tətbiq etməyə başlamışlar.


Hər bir ölkənin iqtisadiyyatı nano səviyyədən başlayaraq inkişaf edir. İqtisadi artım stimullarının və ona əngəl törədən amillərin mənbəyi də məhz burada yerləşir. Ölkənin davamlı iqtisadi və sosial inkişafının təmin edilməsi tədbirləri də ilk növ-

bədə nanoiqtisadiyyata istiqamətləndirilməlidir.


NANOTEXNOLOGİYALAR – atom və molekullara sərbəst manipulyasiya etmək imkanı verən texnologiya olmaqla 0,1-100 nanometr tərtibində maddənin quruluş və tərkibini tənzimləmək imkanına malik üsullar toplusudur və maddəyə yeni fiziki və kimyəvi xassələr verən texnologiyalarıdır. Nanometr tərtibində maddənin xarakterik xüsusiyyətindən istifadə edilməsi elektronika, kimya, mexanika və digər elm sahələrində yeni texnoloji imkanlar açır ki, bu da elmlərin ayrı-ayrı sahələrində böyük uğurlara gətirib çıxarır.

Bu elmin inkişafında ilk uğurlar Amerika alimlərinin lazerin vasitəsi ilə yalnız karbon atomlarından ibarət miniatür hissəciklərin kəşfi ilə başlanılmışdır. Belə ki, məlum olmuşdur ki, karbon atomları müəyyən şəraitdə bir-biri ilə birləşərək nanohissəciklər – nanoborucuq və kürəciklər (*füllerenlər*) əmələ gətirir və onlar da çox qeyri-adi xassələrə malik olurlar. Hazırda praktiki olaraq alimlər bir sıra kimyəvi elementlərdən nanostrukturların alınmasına nail olmuşlar.


XX əsr boyunca bütün texnologiyalar metrik (*metr*) və mikrometrik *(metrin milyonda bir hissəsi*) ölçülərdə yaradılmışdır. Nanotexnologiya ilə isə mikrometrin mində bir hissəsi ölçülü texnoloji mərhələyə qədəm qoyulur. Bu sərhəd elektronun dalğavari təbiətinin nümayiş olunduğu kvant qanunlarının hakim kəsildiyi ərazidən başlanğıc alır. "Nano" (yun. – nános – *cırtdan*) ölçü metrin milyardda



bir hissəsinə bərabərdir. Əslində isə əksər atomlar 0,1-0,2 nanometr parametrlərində olurlar. Nano miqyasda on hidrogen atomu bir nanometr ölçü verir. Tədqiqatlar göstərir ki, nanotexnologiyalardan istifadə bizim eradan əvvəl 3-cü əsrə gedib çıxır. Qədim hind sənətkarları hələ o zamanlar elmə bəlli olmayan üsullarla çox möhkəm poladlar hazırlamışlar. Tarixdə "Dəməşq poladı"nın möcüzəli xassəsi haqqında xeyli məlumatlar vardır. Bu poladdan XVI əsrdə hazırlanmış xəncərlər çox asanlıqla düşmənin qılıncını kəsərmiş. Elektron mikroskopun köməyi ilə aparılan müayinələr göstərmişdir ki, Dəməşq qılıncının yüksək möhkəmliyinə səbəb çoxtəbəqəli nizamlı quruluşa malik nanoquruluşlardır. Tarixi mənbələrdə məşhur Misir kraliçası Kleopatranın (*b.e.ə. 69-30-cu illər*) kosmetik menyüsuna molekulları bir neçə nanometr ölçüyə malik zeytun, digər bitki və heyvani yağların daxil olduğu göstərilir. Əlbəttə, elm



Müxtəlif nano ölçülü CdSe kvant nöqtələrindən fluoresensiya


MEXANİKA
RİYAZİYYAT
BİOLOGİYA
FİZİKA
KİMYA
KVANT MEXANİKASI
NANOKİMYA, BİOKİMYA
MOLEKULYAR DİNAMİKA ÜSULLARI, STRUKTUR MODULLAŞDIRMA, PERKOLYASİYA ÜSULU
SKANER EDƏN ZOND MİKROSKOPİYASI
NANOMATERİALLARIN FİZİKİ KİMYASI
NANOTEXNOLOGİYALAR
Nanoelektronika
Nanostrukturlaşmış materiallar
Nanoenergetika
Fulyor
Nanotrubkalar
Nanoplyonkalar
Nanobotlar
NANOCƏMİYYƏT


Sxem 1


bunları aşkarlasa da, onların çox uzaq zamanlarda necə yaradılmasının təfərrüatlarını qəti verə bilməmişdir.

Nanotexnologiya haqqında ilk dəfə Nobel mükafatı laureatı, amerikan fiziki Riçard Feynman Kaliforniya Texnologiya İnstitutunda 1959-cu ildə oxuduğu mühazirədə söyləmişdir. O, atom və molekul səviyyəsində baş verən proseslərin məkanında həddən artıq geniş və külli miqdarda boş yerlərin olduğunu deyirdi. Biz həmin yerlərə daxil ola bilsək, atom və molekulları həmin boş yerlərdə istədiyimiz kimi düzə bilsək imkanları qeyri məhdud olan bir texnologiyanın əsasını qoya bilərik. Bu ideyanı reallaşdırmaq ötən əsrin 80-ci illərində atom qüvvət və tunel mikroskoplarının kəşfindən sonra mümkün oldu. İndi alimlərin əlində atomlarla manipulyasiya etməyə imkan verən elə texnologiyalar (*sinxotron şüalanma, spektroskopiyanın müxtəlif növləri və s.*) var ki, onların köməyilə istənilən xassəyə malik maddə, informasiya bankı yarada, yazı yaza bilərik. Nanotexnologiya terminini 1974-cü ildə ilk dəfə Tokiyo Universitetinin professoru Norio Taniguchi təklif etmişdir. Eric Drexler 1986-ci ildə atomlarla manupulyasiya edərək yeni tip maddələrin istehsalından bəhs edən kitab yazmışdı. Bu kitab nanotexnologiyadan bəhs edən ilk kitab idi.

Nanotexnologiyada araşdırmalar fizika və kimya elminin bazasına əsaslanaraq aparılır. Bu elmlərin metodlarını və nailiyyətlərini tətbiq etməklə atom və molekullarla manipulyasiya edərək çox kiçik ölçülü, yüksək dərəcədə aktiv materiallar alırlar. Ənənəvi sənaye texnologiyalarında tərkibindən lazım olmayan maddələri təmizləməklə, istənilən xammaldan verilmiş struktura uyğun material və qurğular hazırlanır. Bu prosesdə maksimum bir mikron tərtibində ölçüsü olan materiallar hazırlamaq mümkündür.

Nanotexnologiyaları müasir elmi texniki tərəqqinin lokomotivi adlandırırlar. Bu istiqamətdə əlçatmaz bir sürət mövcuddur. Hər il nanotexnologiyalar sahəsində tədqiqatlar yüsətlənir, artır və genişlənir. Məlumatlara görə, son 10 ildə bu istiqamətdə elmi məqalələrin nəşri 30 dəfə artmışdır. Bu sahədə alınan patentlərin sayı və eləcə də onun maliyyələşdirilməsi eksponensial qanunla artmaqdadır. 2004-cü ildə dünya nanobazarının həcmi təxminən 500 mlrd. dollar təşkil etmişdir. 2007-ci ildə bu həcm təxminən 3 dəfə artaraq 1400 mlrd. dollar çatmışdır. 2015-ci il üçün bu bazarın həcminin 4000 mlrd. dollar yüksələcəyi gözlənilir. Həmin dövrdə dünya nanosənayesində 20 min müəssisədə təxminən 500 min insanın çalışacağı təxmin edilir.






Dünyanın 60-dan çox ölkəsi nanotexnologiyaların inkişafı, nanoiqtisadiyyat quruculuğu istiqamətində artıq müvafiq dövlət proqramları işləyib hazırlamışlar. Bu proqramlar nanotexnologiyalar sahəsində sektorial innovasiya sistemlərinin balanslaşdırılmış və adaptasiya olunmuş milli strategiyasının

formalaşmasına yönəlmiş fəaliyyət olmaqla, həmçinin, üstün nanotədqiqatların dəstəklənməsi, iqtisadiyyatın real sektorunda elmi-tədqiqat və sınaq konstruktor işlərinin kommersiyalaşmasının sürətləndirilməsinin məqsədini ifadə edir.

Nanotexnologiyalar sahəsində ilk dövlət proqramı ABŞ milli təşəbbüs strategiyası (*National Nanotechnology Initiative – NNI*) olmuşdur. Dünya bazarına daxil olacaq prioritet nanotədqiqatları dəstəkləyən bu strategiya-nın əsas məqsədi dünya səviyyəsində elmi işləmələrin, texnologiyaların transferinin sürətləndirilməsi, təhsil resurslarının, kadr hazırlığı və tədqiqat infrastrukturunun inkişafını stimullaşdırmaq təşkil edir. Ölkənin 11 federal nazirlik və agentliyi NNI çərçivəsində elmi-tədqiqat və sınaq konstruktor işlərini maliyyələşdirirlər. Bunun nəticəsdir ki, son illərdə Amerikan kompaniyalarının 60%-dən çoxunun büdcəsində nanotexnologiyalar üzrə tədqiqatlar üçün xərclər nəzərdə tutulur. Nanotexnologiyalar sahəsində ABŞ-ın potensial rəqibləri Avropa Birliyi və Yaponiya hesab olunur. Avropa Birliyində nanotexnologiyalar Avropa komissiyası büdcəsindən və eyni zamanda, ayrı-ayrı birlik ölkələrinin milli büdcələrindən maliyyələşdirilir. Bu məkanda şərtsiz liderlər kimi Almaniya, Fransa və Böyük Britaniya çıxış edirlər. Nanotexnologiyalar üzrə hər bir milli proqram özünəməxsus xüsusiyyətləri ilə də fərqlənir. Belə ki, ABŞ-da, Çində, İsraildə nanotexnologiyaların inkişafına müdafiə təhlükəsizliyinin təminatçısı kimi baxılır və bununla da ondan ikili təyinatda istifadə edilir. Avropa komissiyası isə üzvləri üçün vahid nanoməkan formalaşdırmaq konsepsiyasını irəli sürmüşdür. Latın Amerikası ölkələri nanotexnologiyalar sahəsində öz milli proqramlarını ABŞ-ın korporativ sektoru ilə partnyorluqda işləməkdədirlər. Sakit Okean regionu ölkələrində daha çox nanoelektronika texnologiyalarının yaradılması və inkişafı ilə bağlı fəaliyyətlər üstünlük təşkil edir. Nanotexnologiyalar üzrə milli proqram təyinatları MDB məkanında da yer almaqdadır. Bu və ya digər formada belə elmi istiqamətlər Ukrayna, Qazaxıstan, Belarus və Qırğızıstanda nəzərəçarpacaq dərəcədə özünü nümayiş etdirməkdədir. Burada liderlik Rusiya Federasiyasına aiddir. Ölkədə artıq "Rosnano" adlanan dövlət korporasiyası təsis edilmiş və nanotexnologiyaların inkişafı üzrə milli proqram qəbul olunmuşdur.





Nanotexnologiyaların inkişafı ilə bağlı əksər ölkələrdə siyasət subyektləri arasında dialoqu təmin etmək üçün, eyni zamanda, prioritetləri formalaşdırmaq məqsədi ilə kombinasiya edilmiş Forsayt (*Forsayt-proses və Forsayt-nəticə*) texnologiyalarından istifadə edilir. Nanotex-

nologiyalar üzrə milli proqramların daha bir fərqləndirici xüsusiyyəti onunla bağlıdır ki, nanoməhsullar və nanoxidmətlərdən istifadənin nəticələri insan sağlamlığına və ekologiyaya təsiri bu proqamlarda əlahiddə tədqiqat vəzifəsi kimi qarşıya qoyulur. Nəhayət, müvafiq milli proqramlarda beynəlxalq əməkdaşlıq istiqaməti mühüm tərkib hissələrindən biri kimi çıxış edir. Nanotexnologiyalar müasir sivilizasiyanın muhüm iqtisadi



komponentə çevrilmişdir. Onlar iqtisadiyyatın bütün sektorlarında təşəbbüsləri ələ almaq əzmindədirlər. İnsan fəaliyyətinin elə bir sahəsi yoxdur ki, orada nanotexnologiyanın nailiyyətlərindən istifadə edilməsin və yaxud bu nəzərdə tutulmasın. Yeni nanomüstəviyə keçid bütövlükdə istehsal intellekt mədəniyyətının yüksək səviyyədə təminatı ilə müşayiət olunur. Nanotexnologiyalar ənənəvi iqtisadi münasibətləri dəyişdirir və gerçək olaraq iqtisadiyyatın müasir ukladını təbəddülatlara uğradır. Bu istiqamətdə aparılan tədqiqatlar texnoloji prosesin inkişafına mühüm köməklik göstərir. Digər tərəfdən, nanotexnologiyalar sferasında reallaşan tədqiqatlar fərqli kommersiya effektivliyi sayəsində çox tezliklə öz xərclərini ödəyir, praktiki həyatda əhəmiyyətli güclü sosial və iqtisadi effekt yaradır. Nanotexnologiyalar bazarı şərti olaraq üç səviyyəyə bölünür.

Birinci səviyyə – buraya hazır məhsullar – örtüklər, keramika, kompozitlər, katalizatorlar, membranlar, işıq buraxan diodlar və başqa nanodispers materiallar aiddir.

İkinci səviyyə bir neçə ildən sonra, yəni yaxınmüddətli perspektivdə bazara çıxarılmağa hazır olacaq məhsulları əhatə edir. Bu qrupa nanoelektron qurğuları, dərmanların çatdırılması vasitələri, mikrosistem texnikasına aid məmulatları, nanokarbon materialları aid edilir.

Üçüncü səviyyə – ortamüddətli və ya uzunmüddətli perspektivdə, yəni 8-10 və daha çox ildən sonra hazır olacaq məhsulları əhatə edir. Bu qrupa nanobiotexnologiyaları, hibrid cihazları və sistemləri, bir sıra başqa məhsulları aid etmək olar.

Nanotexnologiya inqilabının bir prinsipial xüsusiyyəti də ondan ibarətdir ki, onun gedişində elmin inkişaf paradiqması dəyişir. Əvvəllər biz "yuxarıdan aşağıya" doğru, yəni yaradılan predmetlərin miniatürləşdirməsi istiqamətində hərəkət edirdik. İndi isə "aşağıdan", atomlar səviyyəsindən başlayırıq, onlardan kərpiççiklər kimi istifadə edərək, lazımlı materialları və müəyyən xüsusiyyətlərə malik olan sistemləri yaradırıq. Lazımlı xüsusiyyətlərə malik olan materialların yaradılması həm də enerji resurslarına və maddi ehtiyatlara qənaət baxımından nəzərəçarpacaq dərəcədə mənfəət gətirə bilər. Bu gün Yer kürəsində istehsal olunan bütün enerjinin təqribən 20%-i işıqlandırmaya sərf edilir, halbuki adi lampalar əvəzinə işıq buraxan diodlardan istifadə edilsə (bu isə xalis nanoməhsuldur), işıqlandırma üçün enerji sərfi bir tərtib azalacaq, bu isə bir neçə yeni atom stansiyasının tikintisinə bərabərdir.

Nanotexnologiya ilə alınan materialların fiziki və kimyəvi xarakteristikaları qeyri-adi dərəcədə adi texnologiya ilə alınan materiallardan fərqlənir. Məsələn, qızıl nanohissəciklərindən düzəldilmiş qızıl materialının rəngi bizim adət etdiyimiz qızıl rəngindən tamamilə fərqlənir və tünd qırmızı rəngə çalır. Karbon

atomları ilə aparılan nanotexnoloji proseslərdə alınan nanoborucuq 6 dəfə poladdan yüngül olmasına baxmayaraq elə o qədər də ondan möhkəmdir. Bu nanoborucuqlardan, silisium və eləcə də, almazdan alınan nanoliflərin möhkəmliyi o qədər böyükdür k, bu sapın bir dənəsi ilə fili asmaq olur, min dənəsi ilə çay üzərindən asma körpü düzəltmək olar.

Nanotexnologiyanın nailiyyətləri həm də elmin, təhsilin XXİ əsrdə inkişafına güclü təkan verəcəkdir. İndi bəşəriyyətin əsas problemlərindən biri ətraf mühitin qorunması və sağlam, stabil insan inkişafının əldə olunmasıdır. Dünyada 525 milyon kiçik fermer təsərrüfatında çalışan 2,5 milyard əhali təmiz texnologiyadan, təmiz içməli sudan, elementar sanitariyadan və təhlükəsiz suvarma sistemlərindən məhrumdurlar. Dənizdə və sahil zonalarında suda həll olunmuş oksigenin çatışmamazlığı dənizin fauna və florasında mühüm dəyişikliklər yaradır. Oksigenin miqdarı 2 mg/l-dən az olduqda canlılar və fitoplanktonların yaşaması çətinləşir. Son illərin nanotexnologiyanın ətraf mühitin qorunması üçün əldə etdiyi nailiyyətlərdən bəzi nümunələri göstərmək kifayətdir ki, bu sahənin vacibliyi hamıda inam yaratsın.

Massaçusets Texnologiya İnstitutunun alimləri həm hidrofob və həm də hidrofil xassəyə malik SiO - polimer nanohissəciklərindən təşkil olunmuş nazik təbəqə yaratmışlar. Onlar bu nanomaterialla səhra zonalarında havada olan nəmliyi suya çevirmək, bakteriyalardan təmizlənmiş su almaq istəyirlər. Bu nanomaterialla duman və çəni böyük sürətlə suya çevirmək mümkündür.

İsrail, Amerika və Rusiya alimləri nano ölçülü deşikləri olan, polimer əsaslı ultra-filtrasiya qabiliyyətinə malik membran təbəqələri almağa nail olmuşlar. Onların yaratdığı bu təbəqələr bioloji çirkləməyə davamlı, antimikrob xassəli, bioloji toksik maddələr üçün sensor rolunu oynayan, yeraltı və yerüstü sulardan onları kənarlaşdıran materiallardır.

Kanadanın Qərbi Ontario Universitetinin alimləri çirklənmiş zonalarda artezian sularının təmizlənməsi üçün nanomaterialları torpağa hopduraraq yeraltı sularda etan və butan kimi kimyəvi maddələri təmizləmək əzmindədirlər. Aberdin Universitetinin (University of Aberdeen) alimləri günəş şüalarının köməyi ilə çirkli suyu təmizləmək və eyni zamanda elektrik almaq üçün yeni texnologiya hazırlamışlar. Hazırda alimlər karbon nanoborucuqlardan istifadə edərək dəniz suyundan, indiki texnologiyadan iki dəfə ucuz başa gələn texnologiya ilə içməli su almaq üzrə geniş tədqiqatlar aparırlar. Yaponiya alimlərinin yaratdığı mikro-nanoqovucuqlar texnologiyası ilə Şarp Korporasiyası çirkab sularından azotu 90% qədər çıxara bilən zavod tikməyə nail olmuşlar. Əvvəllər çox baha başa gələn üsullarla azotun çirkab sulardan təmizlənməsi bu üsulla dəfələrlə ucuz başa gəlir.

Amerikanın Şimali-Qərb Sakit okean Milli Laboratoriyası (Pacific Ocean Northwest National Laboratory) alimləri zavodların çirkab sularından civəni və digər toksik elementləri 99,9% təmizləyən SAMMS (Self-Assambled Monolayers on Mesoporous Supports) nanomaterialı almışlar. Onlar bu materialın qalay, xrom, radionuklidlər və digər toksik metallar üçun də həssas formalarını alacaqlarını söyləyirlər. Cənubi Koreyanın "Pohang University of Science and Technology" universitetinin alimləri Amerikanın Massaçuset Universitetinin alimləri ilə birlikdə içməli sudan virusları təmizləyən ikiqat nano ölçülü deşikləri olan membran təbəqələri almağa nail olmuşlar. Bu nano materialın hemodializ zamanı da tətbiq olunacağını söyləyirlər. İçməli suların tərkibində Arsenin miqdarının artması (xüsusilə Hindistanda, Banqladeşdə) artıq qlobal problemə çevrilmişdir. "Nanorust" arseni içməli sudan təmizləyir . Amerikanın Rays Universitetinin (Rice University's Center for Biological and Environmental Nanotechnology) alimləri nanotexnologiyaya əsaslanan bu texnologiyanı yaratmışlar.

Dünyanın ən böyük qızıl mədəni olan Cənubi Afrika Respublikası 70 milyon dollar vəsait xərcləyərək qızıl nanohissəciklərindən şaxtalarda zəhərli qazların təmizlənməsi texnologiyasini hazırlamaq ərəfəsindədirlər.


Avstraliyalı alimlər qarğıdalı nişastası tərkibli polimer materialdan ətraf mühit üçün çox əlverişli plastik qablar düzəltmişlər. Belə plastik qabların tullantıları bir müddətdən sonra öz-özünə əriyərək heç bir çirklənməyə səbəb olmur. Yarim-

keçirici nanokristallardan hazırlanmış "süni yarpaq"la havada olan karbon qazını çox yaxşı təmizləmək olur. Bununla alimlər istixana effektini azaltmaq istəyirlər. Tokionun Mitsui Chemicals firması alfa-olefin əsaslı nano-struktura əsaslanan NOTİO adlı yeni material yaratmışlar. Bu nanomaterial, şəffaf, çox elastik, yüngül və istilik keçirməyən materialdır. Ondan qablaşdırma sənayesində istifadə etmək olar.

Müəyyən edilmişdir ki, nanomayenin (bərk nanohissəciklərin mayedə suspenziyası) kontakt istilik keçiriciliyi on dəfələrlə yüksəkdir. Nanomayedən istifadə edərək texnoloqlar ekoloji cəhətdən təhlükəsiz, ucuz, yüngül termometrlər düzəltmək istəyirlər. Bu termometlərlə torpağın, suyun və bərk cisimlərin temperaturunu çox dəqiqliklə ölçmək olur. Meşə materiallarını əvəz edən nanomateriallar ABŞ-ın meşə sənayesinə il ərzində 240 milyon dollarlıq materiala qənaət etməyə imkan verir.

Metalları korroziyadan qorumaq üçün istifadə edilən Fe-fosfatı əvəz edən Bonderite NT keramik nanomaterialdan istifadə etməklə metalların davamlılığını dəfələrlə artırmaq olar. "Nano-Ceram®" aktiv komponenti AlOOH olan alüminium liflərdir. Bu liflərin diametri 2 mm tərtibindədir. Liflər yüksək elektropozitiv aktivliyə malik olduğundan onlardan istifadə edərək həm suda və həm də havada olan bakteriyaları, virusları təmizləmək olur.

Titanium dioksid (TiO_2) yaxşı fotokatalitik xassəyə malikdir. UB şüaların təsiri zamanı o havada olan üzvü çirkləndiriciləri zərərsizləşdirir, bakteriyaları, virusları məhv edir. Onun bu xüsusiyyətindən istifadə edərək torpaqda, suda və havada olan çirkləndiriciləri təmizləyirlər. Tərkibində TiO_2 nanohissəciyi olan rənglərlə binaları rənglədikdə binalar havada olan çirkli qazları təmizləyir. Belə ki, TiO_2 nanohissəcikləri UB şüaların təsiri zamanı üzvi və qeyri-üzvi çirkləndiriciləri parçalayır və yağışlar onları yuyub aparır. Minik maşınları üçün indi nanohissəcik tərkibli elə rənglər alırlar ki, bu rənglər su buraxmır, çirklənmir, cızılmır, parıldayır, günün müxtəlif vaxtlarında maşın müxtəlif rəngdə görünür. Tədqiqat əsaslandırmaları göstərir ki, yaxın perspektivdə iqtisadiyyatın bir çox sahələrində nanotexnologiyalar bir sıra yeni iqtisadi effektlər yaradacaqlar. Fəaliyyət səmərəliliyi nəticəsində maşınqayırma sahəsində bu xüsusi örtük və emulsiyanın köməyi ilə kəsici və emaledici alətlərin resurs imkanlarını genişləndirəcək. Mühərrik və avtomobil sənayesində nanomaterialların tətbiqi ilə səthin daha hamar vəziyyətə gətirilməsi sahəsində avtonəqliyyatın istismar müddətini artıracaq və yanacaqdan istifadəni üç dəfəyədək azaldacaqdır. Energetika sahəsində isə nanomateriallardan istifadə yanacaq və konstruksiya elementlərinin təkmilləşməsi ilə müşayiət olunmaqla alternativ enerji sektorunun inkişafına təkan verəcək, günəş batareyalarının effektivliyini bir neçə dəfə artıracaqdır. Nanotexnologiyalar yüksəkmərtəbəli binalarda inşaat prosesinin asanlaşmasına da yardımçı olacaq, xüsusi nanogeyim dəstləri göydələnlərdə insanların texniki təhlükəsizliyinin tam qarantına çevriləcəkdir. Nanomateriallar həmçinin nüvə reaktorlarının fəaliyyət səmərəliliyini də yüksəldəcək və ətraf mühitin qorunmasına yeni texniki imkanlar gətirəcəkdir. Nanotexnologiyalara əsaslanan nanopreparatlar kənd təsərrüfatında da əhəmiy-




Qazmada yeni nanosistemlər

2008-ci ildə dövlət nanotexnoloji xərcləri

Ölkə	Xərclər mlrd. dollar
Avropa İttifaqı	2440
ABŞ	1821
Yaponiya	1128
Rusiya	1076
Digər ölkələr	510
Çin	510
Cənubi Koreya	350
Hindistan	50
Cəmi:	**7885**

ABŞ dövlət büdcəsindən nanotexnologiyaların inkişafına sərf olunan illik xərclər



Nanotexnologiyaların maliyyələşdirilməsi və inkişafı sahəsində dünya dövlətlərinin siyasəti

Ölkə	Milli proqram	Nanotexnologiyalar sahəsində dövlət siyasəti
ABŞ	"Milli nanotexnoloji təşəbbüs"	2001-ci ildə iqtisadi mənfəət, həyat səviyyəsinin yüksəldilməsi, milli təhlükəsizliyin təmin edilməsi, bu sahədə ABŞ-ın liderliyinin qorunub saxlanması məqsədi ilə nanotexnologiyaların inkişaf və tətbiqini nəzərdə tutur. Bu məqsədlər üçün ayrılan dövlət vəsaitlərinin həcmi 2005-ci ildə 1081 mln. dollar, 2006-cı ildə 1054 mln. dollar təşkil edib. 2003-cü ildə ABŞ milli laboratoriyaları əsasında 5 milli mərkəzin yaradilmasını nəzərdə tutan XXI əsrdə nanotexnologiyalar üzrə tədqiqatlar haqqında qanun qəbul olunmuşdur. 5 il ərzində ABŞ federal agentlikləri 6-dan 22-yə, bu sahəni maliyyələşdirən agentliklərin sayı isə 6-dan 11-ə qalxmışdır.
Avropa	"Avropa İttifaqında 2013-cü ilə kimi nanotexnologiyaların inkişaf strategiyası"	Avropa İttifaqı ölkələri bütün üzv ölkələrin səylərini birləşdirməklə nanotexnologiyaların inkişaf istiqamətini seçmişlər. Tədqiqatların aparılması müddəti 5-dən 7 ilə çatdırıldı. Vahid Avropa büdcəsindən bu məqsədlərə 1,3 mlrd. avro ayrılaraq 2013-cü ildə bu rəqəmi 5 mlrd. avroya çatdırmaq planlaşdırılır.
Yaponiya	"Yaponiyada nanotexnologiyaların inkişafının dövlət proqramı"	Proqram 1999-cu ildən fəaliyyət göstərir və ali dövlət prioriteti "Oqato"ya məxsusdur. Elmi-texniki istiqamətin prioritetidir.
Asiya ölkələri	Nanotexnoloji mərkəzlərin yaradılması və prioritet innovasiya layihələrinin maliyyələşdirilməsi üzrə dövlət proqramları	Cənubi Koreyanın nanosənayeyə investisiyaları 2,6 mlrd. dollar təşkil edir. 2013-cü il üçün Tayvanın xərcləri 630 mln. dollar təşkil edəcək. Honkonqda 50 mln. dollar cəlb edilməklə "Nanotexnologiya və yeni materiallar elmi-tədqiqat mərkəzi" fəaliyyət göstərir. Hər il büdcədən bu məqsədlərə 35 mln. dollar vəsait sərf olunur.

ARDNŞ-in qazma üzrə nanotexnologiyaları

Nanosistemlər "Nanoyaddaş"-a malik olduqlarından qazma məhlulunda "uzun ömürlülük" effekti yaradır

"Nanoneft" sistemi

Təyinatı: Anomal yüksək lay təzyiqi şəraitində qazma məhlullarının reoloji xassələrinin tənzimlənməsi, yaglayıcı xassələrinin idarə olunması, mürəkkəbləşmələrin baş vermə riskinin azaldılması, qazmanın kommersiya sürətinin artırılması.

Patent № İ 20110017
Rəhbər sənəd: TR 1669347-63-2010



"Nano-YAG" sistemi

Təyinatı: Anomal lay və məsamə təzyiqi yataqlarda qazma məhlullarının struktur-mexaniki və kolloid-kimyəvi xassələrinin tribotexnoloji xassələrinin idarə olunması, mürəkkəbləşmələrin baş vermə riskinin azaldılması.

Patent № İ 20110017
Rəhbər sənəd: TR 1669347-63-2010



"Nano-Qudron" sistemi

Təyinatı: Qazma məhlullarının kompleks göstəricilərinin tənzimlənməsi, mürəkkəbləşmələrin baş vermə riskinin azaldılması.

Patent № İ 20110017
Rəhbər sənəd: TR 1669347-63-2010



"Nanobitum" sistemi

Təyinatı: Anomal aşagı lay təzyiqi şəraitində qazma məhlullarının kolloid-kimyəvi xassələrinin tənzimlənməsi, mürəkkəbləşmələrin baş vermə riskinin azaldılması, məhsuldar layların çirklənməsinin qarşısının alınması.

Patent № İ 20110017
Rəhbər sənəd: TR 1669347-63-2010



"Nano-MAY" sistemi

Təyinatı: Dərin Dəniz Stasionar Özüllərindən aparılan qazma işlərində mürəkkəbləşmələrin baş vermə riskini azaldmaq, məhsuldar layların çirklənməsinin qarşısının alınması, qazmanın kommersiya sürətinin artırılması.

Patent № İ 20110017
Rəhbər sənəd: TR 1669347-63-2010



Yeni nanosistemlər



Xızı, Daşgil, Şamaxı, Lerik

dağlarından götürülmüş nümunələr asasında


ARDNŞ-in neft və qaz hasilatı üzrə nanotexnologiyaları

SOCAR NANOTECHNOLOGIES
SCIENTIFIC PRODUCTION CENTER


Təyinatı:
Neft quyularında qum tıxaclarının yuyulma prosesini yaxşılaşdırır, qumun quyudibi zonadan intensiv çıxarılmasını təmin edir və təmirarası müddəti uzadır (Al əsaslı).



Nanosistemin reoloji paremetrlərini əks etdirən qrafik



Nanosistemin qumun qalxma hündürlüyünə təsirini eks etdirən qrafik




SOCAR NANOTEXNOLOGİYALAR
ELMİ İSTEHSALAT MƏRKƏZİ

Təyinatı:
Vurucu quyularda laya təsir zamanı ətrafdakı neft quyularının hasilatı artır, neftin özülülüyü aşağı düşür (Cu əsaslı).




yətini nümayiş etdirəcəklər. Onların köməyi ilə əlverişsiz iqlim vəziyyətlərində məhsulvermə və ümumi məhsuldarlığın artması gerçəkləşəcəkdir. Nanotexnologiyalardan istifadədə daha çox qazanan sahələrdən biri də səhiyyə olacaqdır. Burada nanotexnologiyalar yeni dərmanlar istehsalını sürətləndirəcək, dərman vasitələrinin xəstəlik mənbəyinə yetişməsinin forma və üsulunda xariqüladə çevrilişlərə gətirəcəkdir. Nanokosmetika bir sıra təbii insani qüsurları tezliklə təcrid edəcəkdir. Geniş perspektivlik özünü daha çox tibb texnikası sahəsində göstərəcəkdir. Nanotexnologiyaların yeni tərəqqisi bir çox mürəkkəb məsələlərin də həllinə yardımçı olacaqdır. Onların areal genişliyi kompüter texnologiyasında, hərbdə çox mütərəqqi olan köklü dəyişiklikləri təmin edəcəkdir. Mikromühərriklər, mikrorobotlar, mikronasoslar, mikrooptika, yüksəkhəssaslı sensorlar istehsalı adi reallığa çevrilərək bəşəri sivilizasiyanın geniş xidmətində dayanacaqdır. Perspektivə hesablanan tədqiqatlar göstərir ki, bəşəri sivilizasiyanın inkişafına daha yüksək faydanı nanorobotların yaranışı gətirəcəkdir. Vahid və onluq nanometr ölçüsündə olan bu robotlar ayrı-ayrı atomları manipulyasiya etmək, onların yerini dəyişməklə yeni predmet və materialların istehsalına zəmin olacaqlar. Nanorobotlar, həmçinin, insan orqanizmində də bioloji molekulların öyrənilməsinə xidmət göstərəcək, bir çox xəstəliklərin aradan qaldırılmasına, insan uzunömürlülüyünə səbəb olacaq və bununla da sosial və iqtisadi həyata paradiqmal yeni elmitexniki dəyərlər verəcəklər.

Son illərdə respublikada nanotexnologiyaların tətbiqi sahəsində bir sıra maraqlı işlər görülür. Bakı Dövlət Universitetində nanomateriallar və nanotexnologiyalar üzrə elmi araşdırmaların hazırda dunyanın elm sahəsində prioritet istiqamət olduğunu nəzərə alaraq kimya, fizika, biologiya, tətbiqi riyaziyyat və kibernetika fakultələrinin bazasında 2005-ci il tarixində "Nano araşdırmalar mərkəzi" və "Nanomaterialların kimyəvi fizikası" kafedrası açılmışdır və elə vaxtdan da nanotexnologiyalar istiqamətində kadr hazırlığı və tədqiqat işləri aparılır. BDU alimlərinin nanotədqiqatlar sahəsində apardığı uğurlu tətbiqi xarakterli araşdır-malar dünyanın bu istiqamətdə tədqiqat aparan aparıcı mərkəzlərində çalışan alimlər tərəfindən yüksək qiymətləndirilir və beynəlxalq maliyyə mərkəzləri alimlərimizin işlərinə böyük məbləğdə qrant layihələri ayırırlar. Alimlərimizin nanotədqiqatlar sahəsində apardığı tədqiqat işləri dünyanı indekslənən *Tomson Reyter Agentliyinin* siyahısına düşən yüksək impact factora malik jurnallarında dərc edilir. Yalnız 2006-2011-ci illərdə nanotədqiqatlar sahəsində aparılan tədqiqat işlərinin nəticələri 60-dan artıq nüfuzlu jurnalda məqalələr şəklində dərc edilmişdir. BDU-da bu istiqamətdə aparılan işlərin miqyasını və səviyyəsini daha da artırmaq məqsədi ilə ən müasir cihazlarla təchiz edilmiş yeni nanoaraşdırmalar laboratoriyası 2011-ci



ilin oktyabrın 11-də acılmışdır. Laboratoriya çox yüksək ayrıd etmə qabiliyyətinə malik atom qüvvə və tunel mikrosku, Furye spektrometri, spektroflüorimetr, spektofotometr, böyük ayırd etmə qabiliyyətinə malik müasir optik mikroskop, qamma spektrometri və sair qiymətli cihazlarla təchiz edilmişdir. Laboratoriyanın açılışında Bakı Dövlət Universitetinin rektoru, akad. A.M.Məhərrəmov, Moskva Dövlət Universitetinin rektoru akad. Sadovniçiy V. A., akad. Lunin V.V., MDB-nin Nanotexnologiya üzrə innovasiya mərkəzinin direktoru V.A.Ruzayev, Rumıniyanın Ovidus Universitetinin prof. Eden Mamut, Bilkənd Universitetinin prezidenti prof. Əli Doğramacı, ABŞ-ın Delaver Universitetinin prof. İsmat Shah, Rusiya Elmlər Akademiyasının müxbir üzvü Semyonov A.L. və başqaları iştirak etmişlər.

BDU-nun alimləri superparamaqnit xassələrə və nəhəng maqnit müqavimətinə malik




Tibb nanotexnologiyaların daha rəvanlı təbiiy olunduğu sahədir. Nanocəzaçılıq nanotexnologiyaların bir intişarıdı olub, dərman preparatlarının istəkatına xasdanır.



1974-cü ildə yapon alimi Norio Taniquçi əmal problemlərini müzakirə edərkən "nanotexnologiya" terminindən istifadə etmişdir.




1975-ci ildə rekombinant DNT texnologiyası, 1976-cı ildə isə DNT-nin nukleotid ardıcıllığını müəyyənləşdirən metodlar hazırlandı. 1997-ci ildə differensial somatik hüceyrələrdən ilk dəfə eləniş məməli klonlaşdırıldı.



1975-ci ildə nanoölçülü obyekt olan kvant nöqtəsi və kvant naqilinin mövcudluğunun prinsipial imkanları nəzəridən keçirildi.




XX sirin birinci yarısında nanoobyektlərin öyrənilməsi texnikası yaranmağa başlayıb. 1928-ci ildə optik mikroskopun rezolusiyasını təklif ediblər.



Nanotexnologiyaların sayılara təbliqinə digər misal kvant kompüterlərinin hazırlanmasıdır. 1985-ci ildə Oksford Universitetinin professoru David Dəyç Türinq maşınının riyazi modelinin kvant riyazi variantını təklif etdi. 1994-cü ildə P.Şor (AT&T Bell firması) sübut etdi ki, belə bir maşın təcrübədə təbliq olunsa bilər.

Bu sahədə nanotexnologiyalar birtəmiz yaddaş cihazının yaradılmasına, üçölçülü təsvirə malik ekran və displeylərin hazırlanmasına, super dəqiq kompüter matrislərinin istehsalına yönəldilib.






BDU-da nanotexnologiya laboratoriyasının açılış mərasimi

yeni polimer maqnit nanokompozit materialları almış və onlarda baş verən effektlərin fiziki mexanizmini vermişlər. Universitet alimləri yüksək effektivliyə malik, geniş spektral oblastlarda intensivliyi variyasiya edilə bilən fotolüminsent nanokompozisiyaların alınması texnologiyasını işləmiş və onların çeviricilər texnikasında tətbiqi imkanlarını müəyyən etmişlər. Alimlərimiz elektromaqnit dalğalarını udma qabiliyyətinə malik yeni maqnit nanokompozisiya materialları sintez etmişlər və onların kompleks xassələrini tədqiq etmiş və tətbiq sahələrini müəəyən etmişlər. Şiş hüceyrələrinin müalicəsində istifadəsində edilə bilən üçfazalı superparamaqnit xassələrə malik dərman maddəsi sintez etmişlər. Bu cür dərman sistemləri dərman maddəsini birbaşa xəstə hüceyrələrə aparmaq qabiliyyətinə malikdirlər. Azərbaycanda ilk dəfə BDU-da nanotexnologiya istiqamətində təhsilin bakalavr və magistr pilləsində kadr hazırlığına başlanmış və hazırda təhsilin magistr pilləsində "Nanohissəciklərin fizikası", "Nanomaterialların fiziki kimyası" və "Nanobiotexnologiya" ixtisaslaşmaları sahəsində kadr hazırlığı aparılır. Bakı Dövlət Universiteti MDB-nin Nanotexnologiya üzrə innovasiya mərkəzinin təsisçilərindən biridir. Universitet alimləri respublikada ilk dəfə ana dilində "Nanotexnologiya" adlı dərslik yazmışlar və hal hazırda müxtəlif ali məktəblərdə tələbə və müəllimlər tərəfindən uğurla istifadə edilir. Səudiyyə Ərəbistanının Elmi araşdırmalar mərkəzinin verdiyi qrant layihəsi çərçivəsində Bakı Dövlət Universitetində nanotexnologiyanın neftçıxarmaya tətbiqinin elmi texnoloji əsasları işlənməkdədir. Laboratoriya şəraitində aparılan tədqiqat işləri nəticəsində müəyyən edilmişdir ki, yüksək latalitik xassələrə malik metal nanohissəciklər neftli-sulu mühitlərdə neft məhsullarını parçalayaraq qaz ayrılmanın intensivliyini artırır və bu hasilatı aşağı düşmüş neft quyularında uğurla istifadə edilərək neft hasilatını artıra bilər.


Neft sənayesində nanotexnologiyanın tətbiqi işləri akademik Azad Mirzəcanzadənin ideyası əsasında yaranmışdır.

ARDNŞ-də nanotexnologiyaların neft sənayesinə tətbiqi istiqamətində tətbiqi işlər aparılır. Alınmış uğurlu nəticələrin əsasında 2010-2015-ci illəri əhatə edən "Nanoneft" proqramı işlənib hazırlanmışdır ki, bunun da əsasında "Nanotexnologiyalar" Elmi İstehsalat Mərkəzində işlər "NANOHASİLAT", "NANOQAZMA", "NANONEFTKİMYA" və "EKONANONEFT" istiqamətlərində həyata keçirilir. Əsas məqsəd "Nanoneft" proqramında əks olunan problemləri o cümlədən neft-qaz hasilatının artırılması, köhnə xüsusilə sulaşmış, eləcə də çətin istismar edilən yataqlardan karbohidrogenlərin çıxarılması və bu istiqamətdə xərclərin azalmasına nail olmaqdır.

Azərbaycanda akademik Xoşbəxt Yusifzadə və professor Eldar Şahbazovun rəhbərliyi ilə neft sahəsində nanotexnologiyaların işlənməsinin və tətbiqinin ekspremental və təcrübi əsasları işlənib hazırlanmışdır.



Dünya qazma praktikasında ilk dəfə olaraq "kiçik konsentrasiya effekti" və kiçik konsentrasiyalarda "super kiçik konsentrasiya effekti" yaradılmışdır ki, bunların da əsasında sulaşmış və çətin istismar edilən quyularda nanotexnologiyalar tətbiq olunmaqdadır. Nanotexnologiyanın tətbiqi nəticəsində artıq 32 quyu qazılıb lahiyə dərinliyinə çatdırılmış, qəzasız, mürəkkəbləşmələrsiz həyata kecirilmişdir. Məlum olmuşdur ki, yaradılmış nanosistemlər yüksək kolloidal qazma məhlullarının reoloji və kolloid-kimyəvi xassələrini tənzimləmək məqsədi ilə istifadə olunan bahalı kimyəvi reagentlərin istifadəsini kəskin şəkildə azaldır, bu sistemlər "nano yaddaşa" malikdir və onun təsiri qazma prossesində xətti sürətin artmasına, erkən turbulentliyə hidravilik müqavimət əmsalının azalmasına və enerji qənaətinə səbəb olur. Qazma prosesi zamanı suyun səviyyəsinin azalması, hasilatın artması müəyyən edilərək, multiplikator effekti alınmışdır ki, bu da neft sənayesində səmərəliyin inkişafına zəmin yaradır.



Hazırda reoloji göstəricilərinə əsasən nano hissəciklərin təsiri nəticəsində parametrlərini dəyişmiş gillərin neft sənayesinin hansı istiqamətlərində istifadə olunacağı mütəxəsislər tərəfindən araşdırılır.

Qeyd edək ki, nanobentonit və eləcə də nanosistemlərin istehsalı üçün xüsusi qurğuların quraşdırılması nəzərdə tutulur. İstehsal olunacaq məhsullar tək Azərbaycanın daxili bazarında deyil, həm də xarici bazara satışa çıxarılması nəzərdə tutulur.

Artıq bir çox gil nümunələri əsasında NanoMay, NanoQudron, NanoYağ, NanoNeft, NanoBitum tərkibli qazma məhlulları hazırlanıb. Bu da qazma prosesində müsbət nəticələr verərək realoji göstəricilərin yaxşılaşmasına gətirib çıxarır. Aparılan tədqiqatlar gostərmişdir ki, bu gillər əsasında hazırlanan qazma məhlulları "kiçik konsentrasiyalar" və "superkiçik ölçülərdə kiçik konsentrasiyalar" effektləri əsasında sinergetik prinsiplərin yaranmasına imkan verir. Bizi əhatə edən ətraf mühitdə bir cox maddələr var ki, müəyyən olunmuş müxtəlif effektlərlərin təsirinə əsasən onların tərkibini dəyişməklə istənilən xassəli maddələr almaq olur. Belə maddələrdən biri də polimerdir. Polimer əsasən soyuğa və istiyə davamlı olmadığından istifadəyə yararsız sayılır. Lakin mütəxəssislər nanohissəcikləri əlavə etməklə onun tərkibinin dəyişməsini təsdiq etmişlər. Belə ki, nanohissəciklər çox aktiv hissəciklər olub ayrılıqda birləşərək lazımsız bir maddə əmələ gətirir. Lakin kiçik təsir effekti nəzəriyyəsinə əsasən nano hissəciklərin köməyi ilə polimer öz tərkibini dəyişir və yeni struktur, yəni yeni xassəli nano kompozisiyaya çevrilir.

Qısa bir müddətdə fəaliyyətə başlamış "Nanotexnologiyalar" Elmi İstehsalat Mərkəzində aparılan elmi tətqiqat işləri öz bəhrəsini verməkdədir. Gələcəkdə Mərkəzin fəaliyətinin daha da genişlənməsi nəzərdə tutulur. Təcrübələrin intensiv surətdə aparılması məqsədi ilə laboratoriya muasir tələblərə cavab verən cihazlarla təhciz olunmaqdadır.

Qeyd edək ki, ARDNŞ-nin bir qrup alim və mütəxəssiləri neft sahəsinə gətirdiyi elmi yeniliklərə və əldə etdiyi nailiyyətlərə əsasən YUNESKO-nun "Nanoelm və Nanotexnologiyanın inkişafında töhfəsinə görə" medalının laureatı olmuşdur.

Abel Məhərrəmov
Məhəmmədəli Ramazanov
Eldar Şahbazov
Elşən Hacızadə

NARYAD (rus. – sərəncam kağızı, əmrnamə, order) – müəyyən işin görülməsi, müəyyən məhsulun (materialların, xammalın, hazır məmulatların və s.) verilməsi və ya göndərilməsi üçün sənəd, sərəncam. Naryadlar həm forma, həm də məzmun üzrə fərqli ola bilər. Məsələn, kompleks briqada tərəfindən iş görülməsi üçün naryadda (və ya naryad-hesabatda) müəssisənin

rekvizitləri, xərclər bölməsinin şifri, briqadanın adı (briqadirin soyadı), hesablama dövrü, işin şəraiti və xarakteristikası, plan tapşırığı, kompleks işləmə norması ilə bağlı hesabatlar, eləcə də qiymət normaları göstərilir. Bu sənəddə görülmüş işlərin gündəlik həcmi əks etdirilir, nəzərdə tutulan hesabat dövrü başa çatdıqdan sonra isə briqadanın hər bir üzvü üçün əmək haqqı hesablanır.

Naryad bilavasitə işçi, işçilərin manqası və ya briqadası üçün müəyyən edilmiş tapşırığı əks etdirən ilkin sənəddir. Bir qayda olaraq, naryad iş başlanana qədər verilir. Naryadda görülməli işlərin siyahısı, işin bir vahidi üçün vaxt norması və qiymət, əməyin ödənilməsi formaları və bütün işlər tam həcmdə görüldükdən sonra əmək haqqının ümumi məbləği göstərilir. İşəmuzd fəhlələrin işləməsinin uçotu üzrə ilkin sənədlərin ən geniş yayılmış formalarına işəmuzd naryadlar, raportlar, marşrut vərəqələri, işlərin qəbul edilməsi haqqında aktlar, cədvəllər, biçmə xəritələri və s. aiddir. İlkin sənədlərdə xərc maddələri üzrə əmək haqqının hesablanmasını və sortlaşdırılmasını, eləcə də işləmə normasının yerinə yetirilməsinin hesablanmasını təmin edən aşağıdakı rekvizitlər göstərilməlidir: işçinin soyadı, inisialı, tabel nömrəsi və dərəcəsi, iş yeri (sex, zavod).

NASDAQ İNDEKSİ – qiymətli kağızlarla ticarət edən ticarətçilərin milli assosiasiyası (ABŞ) tərəfindən hər il dərc olunan və onların kotirovkasına əsaslanan birjadankənar bazar indeksi.



NAŞİR – nəşriyyat məhsulunun istehsalını maddi-texniki cəhətdən təmin edən (maliyyələşdirən) nəşriyyat və ya əsas fəaliyyəti bu sahə ilə əlaqədar olmayan fiziki və ya hüquqi şəxs.

NATAMAM MƏŞĞULLUQ – qismən işsizlik. Natamam məşğulluğun iki forması fərqləndirilir: məşğulluğun kifayət qədər olmayan həcmini göstərən və iş qüvvəsinin istifadə edilməməsi ilə xarakterizə olunan gizlin (görünməyən) forması. Görünən natamam məşğulluq nəzərdən keçirilən dövrdə iş vaxtının müəyyənləşmiş dövründən az işləməyə məcbur olan (rəhbərliyin, işə götürənin təşəbbüsü ilə, eləcə də iş qüvvəsi bazarında tam məşğulluqla iş yerlərinin olmaması üzündən) muzdlu əməklə çalışan işçilərin miqdarı ilə müəyyən edilir. Bu şəxslərə natamam iş həftəsində və ya natamam iş günündə, yəni müəssisədə qrafiklə, yaxud bu kateqoriyadan olan işçilər üçün qanunvericiliklə və ya iş həftəsi ərzində iş günlərinin öz miqdarı ilə müəyyən olunmuş az saatla məcburi işləyənlər aiddir. Gizlin natamam məşğulluğun xarakterik əlamətlərinə aiddir: işçinin az gəliri, ixtisasından qeyri-səmərəli istifadə edilməsi, aşağı əmək məhsuldarlığı.

NATAMAM SIĞORTA – sığorta məbləğinin zərərlərin tam ödənilməsinə adekvat olmadığını nəzərdə tutan sığorta əməliyyatı növü. Natamam sığorta – itkilərin tam ödənilməsi üçün sığorta məbləğinin ölçüsü nöqteyi-nəzərindən adekvat olmayan sığorta.

NATURA FORMASINDA MÜAVİNƏTLƏR – nağd pul formasında deyil, əmtəə və xidmətlər formasında yoxsullara verilən müavinətlər.

NATURAL FORMADA SOSİAL MÜAVİNƏTLƏR – fərdi xidmətlər göstərən dövlət idarəetmə orqanlarının və ev təsərrüfatlarına xidmətlər göstərən qeyri-kommersiya təşkilatlarının son istehlakına çəkilən xərclərini səciyyələndirir. Ona daxil edilir: 1) dövlət idarəetmə orqanları və qeyri-kommersiya təşkilatları tərəfindən ev təsərrüfatlarına pulsuz və ya güzəştli qiymətlərlə göstərilən fərdi qeyri-bazar xidmətlərinin, məsələn,

təhsil, mədəniyyət, səhiyyə, idman, sosial təminat, mənzil-kommunal təsərrüfatı və s. sahələr üzrə xidmətlərin dəyəri; 2) ev təsərrüfatlarına təqdim etmək məqsədilə (natural halda sosial müavinətlər) dövlət idarəetmə orqanları və qeyri-kommersiya təşkilatlarının bazar istehsalçılarından satın aldıqları istehlak malları və xidmətlərin dəyəri. Ona daxil edilir: şagirdlər üçün dərsliklərin alınmasına, əlillərə verilən nəqliyyat vasitələrinin alınmasına, təmiri və onlara texniki xidmətlərin göstərilməsinə, protezlərin salınmasına çəkilən xərclər; pulsuz və ya ucuz qiymətlərlə verilən dərmanların dəyəri və s.

NATURAL SIĞORTA (ing. *natural insurance*) – bu sığorta növündə maddi yardım natura şəklində göstərilir. Natural sığorta – elə sığorta formasıdır ki, bu zaman sığorta ödənişləri və sığorta ödəmələri natura formasında həyata keçirilir. Natural sığorta natural təsərrüfatın hökmran olduğu quldarlıq və feodalizm dövrü üçün xarakterikdir. Yaponiyada və Asiyanın bir sıra ölkələrində uzun müddət dövlət tərəfindən həyata keçirilmişdir. Natural sığorta Avropanın bir sıra ölkələrində, o cümlədən İslandiyada kəndli ittifaqları, Almaniyada "inək gildiyaları" (və ya "inək" kassaları) tərəfindən həm dolu nəticəsində dəymiş məhsulun itkisinin ödənilməsi üçün, həm də mal-qaraya dəymiş zərərlərin örtülməsi üçün tətbiq edilmişdir. Natural sığorta iqtisadi cəhətdən zəif inkişaf etmiş bir sıra ölkələrdə hələ də qalır.

NATURAL TƏSƏRRÜFAT – elə təsərrüfat növüdür ki, burada bütün istehsal fəaliyyəti istehsalçıların şəxsi daxili tələbatlarının ödənilməsinə istiqamətlənir. Natural təsərrüfat ən qədim dövrlərdən yaranmış və öz inkişafını geniş ictimai əmək bölgüsü, əmtəə mübadiləsi olmadığı və ancaq xüsusi mülkiyyət münasibətlərinin yarandığı dövrdə tapmışdır.

Natural təsərrüfatın klassik variantı ev sənayesi ilə birləşən əkinçilik idi. Bu, bütün ailə üzvlərinin işlədiyi və daimi olaraq muzdluların tutulduğu ayrı-ayrı kəndli həyətləri, kiçik və iri icmalar, bütöv malikanələr, hətta şəhər və dövlət də ola bilər. Təsərrüfatçılığın belə növü feodalizm dövründə daha inkişaf etmiş forma aldı. Lakin o, belə təsərrüfatı aparan insanların tələbatlarının səviyyəsindən asılı olaraq istənilən ölkədə, eləcə də istənilən vaxtda və yerdə ola bilər. Natural təsərrüfat antik quldarlıq dövlətlərində olduğu kimi, kifayət qədər inkişaf etmiş ticarət və əmtəə mübadiləsi ilə də uzlaşa bilər. Natural təsərrüfatda bitmiş istehsal tsiklinin bütün mərhələləri: istehsal-yığım-istehlak iştirak edir. Beləliklə, insanların hər hansı birliyi – kəndli ailəsi, fermer təsərrüfatı, orta əsrlər şəhəri zəruri istehsal inventarını özü istehsal edə bilər, ev tikə bilər, taxıl üyüdülməsi ilə məşğul ola bilər və s. Natural təsərrüfat istehlak ilə bilavasitə əlaqəyə malik idi, tullantılardan istifadə etməyə, torpağın, meşənin, suyun resurslarını saxlamağa çalışırdı. Belə ki, məhz bu ona zəruri sabitlik verirdi. Natural təsərrüfat üçün nəsildən-nəslə verilən və inkişaf edən istehsal fəaliyyətinin bütün növlərinin ənənələri xarakterikdir. Natural təsərrüfat iqtisadi cəhətdən zəif ölkələrdə, kənar ərazilərdə, həmçinin, hazırda qəbilə və feodal münasibətləri mövcud olan yerlərdə saxlanılır. Hər hansı ölkənin iqtisadi vəziyyətinin pisləşməsi kənd əhalisinin ev təsərrüfatının naturallaşmasına, yeyinti məhsulları ilə özünü təmin etməsinə, evdə (şəhərdə) əl istehsalının genişlənməsinə meylini gücləndirməyə qadirdir.

NATURAL VERGİ – əmtəə formasında tutulan vergilər. Kapitalizmə qədər geniş istifadə olunurdu. Bu vergi vergitutmanın ilkin forması olmuşdur. Belə ki, hələ qədim dövrlərdən tayfa, qəbilə başçılarına, sonra isə feodallara əldə edilmiş məhsulun bir hissəsi natural şəkildə ödənilirdi. Pul yarandığı dövrdən isə bu vergilər tədricən pul şəklində ödənilən vergilərlə əvəz olunmağa başladı.

Sovet dövləti natural vergini kolxozlara, kəndli təsərrüfatlarına tətbiq edirdi. Bu vergi kənd təsərrüfatı məhsulları şəklində tutulurdu.

NAU HESABLAR – əmrlər vasitəsilə ödənişlərin həyata keçirilə bildiyi əmanət hesabları.

NAYT FRENK HAYNEMAN (1885-1974) – Amerika iqtisadçısı, Çikaqo məktəbinin banisidir. O, metodologiya sahəsində radikal və güzəştsiz mövqe tuturdu. Hesab edirdi ki, iqtisadiyyat təmiz elmdir, onun qanunları isə məntiqi



yolla, aprior olaraq intuitiv yaranır. Bu məntiqə əsasən o, iqtisadi nəzəriyyəyə texnoloji, sosioloji, struktur və s. amilləri daxil edənlərlə mübahisəyə girirdi. Onun iqtisad elminə ən böyük töhfəsi qeyri-müəyyənlik və risk amilinin nəzərə alınması ilə mənfəətin formalaşması prosesinin təhlilini aparmasıdır. Ona qədər olan iqtisadi fikirlərdə qeyd olunurdu ki, iqtisadiyyatın sabitliyi dövründə mənfəət sıfra bərabər olur və belə bir şəraitdə yalnız kapital faizindən söhbət gedə bilər. Nayt isə "Risk, qeyri-müəyyənlik və mənfəət" (1921) əsərində bunun səhv mülahizə olduğunu sübuta yetirmişdir.


NEFT – türk mənşəli isim kimi dünyanın bir çox məmləkətlərində neft, Avropa arealında isə müasir məqamda petroleum adlanan karbohidrogen tərkibli, təbii aqreqat halı maye strukturlu olan üzvi maddə; tarixi qədim və zəngindir. Neft "işıltı" mənasını verən *"nafta"* sözü kimi də interpretasiya olunur. Əsasən qonur-qara, sarı-yaşıl çalarlı, müxtəlif konsistentli, uçucu və qaz quruluşlu maddələri özündə cəm edən, çox zaman texniki interpretasiyada dağ yağı və ya dağ qatranı da adlanaraq şərhi verilən neftin, qəbul olunmuş nəzəriyyəyə görə, maqmatik proseslər nəticəsində yüksək temperatur və təzyiqin təsirilə çökmə süxurlarında səpələnən üzvi maddələrin qalıqlarından əmələ gəlməsi ehtimal olunur. Lakin neftin mənşəyi haqqında mübahisələr doğuran müxtəlif hipotetik yanaşmalar mövcuddur. Vulkanik hərəkətlər nəticəsində, yüksək temperatur şəraitində buxar və karbon qazının, kömür anhidridinin qələvi metalların qovuşması ideyasına köklənən tellurik qeyri-üzvi hipoteza Q.Devi, D.Mendeleyev, P.Bertelo tərəfindən irəli sürülərək inkişaf etdirilmişdir. Kosmoqonik hipotezaya (İ.Kant, P.Laplas) görə isə neftin yaranışı yer qabığının dərinliklərində toplanan ağır metalların yüksək təzyiq altında su qatlarını keçərək formalaşması və karbohidrogen tərkibli maddələrin qaz halından mayeyə keçidi kimi təzahürlərlə bağlıdır. A.Lekerye, C.Dobrenin və başqalarının bitki qalıqlarından yaranış üzvi nəzəriyyəsinə görə torfun qonur kömürə, onun daş kömür və antrasitə keçidi, növbəti mərhələdə karbohidrogen ayrılmaları ilə neftin əmələ gəlməsini şərtləndirir. Heyvan qalıqlarından yaranış üzvi hipoteza isə A.Enqelerin təcrübələrindən sonra daha da möhkəmlənmişdir.

Bakı Azərbaycanın qədim tarixə və zəngin mədəniyyətə malik şəhərlərindən biridir. Şəhərin yerləşdiyi Abşeron yarımadasının əlverişli coğrafi mövqeyi, mülayim iqlimi, münbit torpaqları, zəngin faydalı qazıntıları insanların burada çox qədim zamanlardan məskunlaşmasına şərait yaratmışdır. Orta əsrlərdə Bakı şəhəri neft və duz, boyaqotu və zəfəran istehsalının mühüm mərkəzi olmaqla yanaşı, həm də beynəlxalq ticarət mövqeyinə malik məntəqə idi. IX-X əsrlərdən etibarən Ərəb xilafətinin zəifləməsi və müstəqil dövlətçilik ənənələrinin yenidən dirçəlməsi ilə əlaqədar Bakının iqtisadi və siyasi əhəmiyyəti daha da artdı və o, Şirvanın əsas şəhərlərindən birinə çevrildi. 1192-ci ildə Azərbaycan Şirvanşahlar dövlətinin paytaxtı Bakıya köçürüldü və bu, şəhərin sənətkarlıq, ticarət, mədəni və siyasi mərkəz kimi mühüm rolunun yüksəlməsinə böyük təkan verdi. O dövrdə zəngin "neft bulaqları" Bakını qonşu ölkələrdə də məşhurlaşdırmışdı. Ərəb mənbələrində Bakı "Şirvan



Bakı xam neft hasilatı. XX əsrin əvvəlləri – XIX əsrin sonu

məmləkətinin neft çıxan torpağı və sahil şəhəri" kimi xatırlanır, burada mövcud olan "saysız-hesabsız neft mədənləri", "əbədi məşəllər", "alov yüksələn sualtı qayalar" haqqında geniş məlumatlar verilir. XV əsrdən etibarən, Azərbaycanın birinci liman şəhərinə çevrilən Bakı bütün Şərq və Avropa ölkələrindən, o cümlədən Çin, Hindistan, Moskva-Rus dövlətinin torpaqları, Venesiya, Genuya, Portuqaliya, Fransa və digər ölkələrdən quru və su yolu ilə hərəkət edən tacirlərin beynəlxalq ticarət mərkəzi idi. Buradan qonşu və uzaq ölkələrə dəvə karvanları və ticarət gəmiləri ilə neft, duz, boyaqotu və zəfəran məhsulları aparılırdı. Şəhərdə yerləşən Buxara karvansarası (XIV əsr), Moltanı karvansarası (XV əsr) və digər memarlıq abidələri Bakının Qərb və Şərq ölkələri ilə geniş ticarət əlaqələri saxladığını təsdiq edir. XVI əsrdən etibarən, Səfəvilər dövlətinin tərkibinə qatılması, XVIII əsrin II yarısında yaranan Bakı xanlığının mərkəzi olması, Rusiya imperiyasının işğalından sonra quberniya mərkəzinə çevrilməsi XIX əsrin əvvəllərində (1860-cı il) Bakı şəhərinin iqtisadi, siyasi və mədəni mərkəz kimi rolunun inkişaf etməsində çox mühüm rol oynamışdı. XIX əsrin ortalarından etibarən, Şimali Azərbaycanın neft sənayesinin inkişafında dönüş baş verdi. İltizam sistemi şəraitində iqtisadiyyatın bu sahəsində uzun müddət müşahidə olunan durğunluq dövrü coşqun yüksəliş ilə əvəz olundu, neft hasilatı artdı. Az məhsuldar olan məcburi kəndli əməyindən istifadə



olunması dayandırıldı (1864-cü il), mədənlərdə bütünlüklə muzdlu fəhlələrin əməyindən istifadəyə başlanıldı ki, bu da əslində kapitalistsayağı yeniləşmə demək idi.

1847-ci ildə Bibiheybətdə dünyada ilk dəfə olaraq neft quyusunun mexaniki üsulla qazılması mühüm texniki yenilik idi. Müqayisə üçün qeyd edək ki, o dövrdə dünyada birinci neft istehsalı mərkəzi olan ABŞ-da mexaniki qazma üsulundan Bakıdakından on üç il sonra, yəni 1859-cu ildə istifadə olunmağa başlanılmışdı. Əgər 1860-cı ildə Bakıda 247814 pud neft çıxarılmışdısa, bu göstərici 1862-ci ildə 337926 puda çatmış, sonrakı illərdə isə fasiləsiz surətdə artmışdı. 1870-ci ildə burada artıq 1482100 pud neft çıxarılırdı. Neft hasilatının sürətlə artmasının əsas səbəblərindən biri də Rusiya imperiyası miqyasında ağ neftə olan tələbatın artması ilə bağlı idi. Belə ki, məhz bu dövrdən etibarən ağ neftdən təkcə çıraq yanacağı kimi yox, həm də Rusiya imperiyasının inkişaf etməkdə olan sənayesi üçün yanacaq kimi istifadə olunurdu. Neft hasilatının artımı neftayırma sənayesinin meydana çıxmasını şərtləndirirdi.

1858-ci ildə Suraxanıda rus kapitalistləri Kokorev və Qubonin "Zakaspi Ticarət Cəmiyyəti" tərəfindən ilk neftayırma zavodu inşa olundu. 1861-ci ildə Pirallahı adasında tiflisli əczaçı Vitte tərəfindən parafin zavodu, 1863-cü ildə isə Bakının özündə Cavad ağa Məlikov tərəfindən ağ neft zavodu inşa olundu. 1867-ci ilə doğru Bakı neft rayonunda, ikisi daha iri olmaqla, 15 neftayırma zavodu fəaliyyət göstərirdi. 1869-cu ildə bu zavodların sayı 24-ə, 1872-ci ildə 47-yə, 1873-cü ildə 50-yə çatdı. 1872-ci il fevral ayının 17-də Azərbaycan neft sənayesində iltizam sisteminin ləğv olunması və neft mənbələrinin müzayidə yolu ilə ayrı-ayrı şəxslərə verilməsinə başlanılması neft hasilatında qəti dönüş yaratdı, neft sənayesi kapitalist istehsal sahəsinə çevrildi. İltizam sistemi ləğv edildikdən sonra elə birinci ildə neft hasilatı iki dəfədən çox artdı. 1872-ci ildə Bakıda 1,4 milyon pud, 1876-cı ildə 10,6



Neftin əl ilə çıxarılması




Neft daşınması üçün vaqon (Bakı, 1905)

milyon pud, 1882-ci ildə isə 50 milyon pud neft çıxarılmışdı. Bakı rayonunda neft çıxarılmasının artımı öz sürətinə görə o dövrdə ən güclü hesab olunan ABŞ neft sənayesini xeyli qabaqlayırdı. XIX əsrin 70-ci illərində Azərbaycan neft sənayesində məhsuldarlıq ABŞ-dan 20 dəfə az olduğu halda, 1894-cü ildə neft hasilatı 340 milyon puda çataraq ABŞ üzrə eyni göstərici ilə bərabərləşdi və sonrakı illərdə bu göstəricini də ötüb-keçdi. Neft hasilatındakı artım ələlxüsus qazma işlərində yeni texnikanın tətbiq edilməsi ilə müşayiət olunurdu. Məhz, 70-ci illərdə neft sənayesi texniki çevriliş və istehsal proseslərinin genişlənməsi mərhələsinə daxil oldu. Əvvəllər neft köhnə qaydada, əl ilə qazılmış quyulardan tuluqlarla, sonralar isə geniş yayılmış dartaylama üsulu, yəni jelonka vasitəsi ilə çıxarılırdı. 1871-ci ildən etibarən Bakıda buruq üsulu ilə neft quyuları qazılmağa başlandı və 1873-cü ildə mədənlərdə ilk dəfə buxar mühərrikləri tətbiq edildi. İri maşın sənayesinin ən səciyyəvi əlamətlərindən biri olan buxar



Neftin dəvələr vasitəsilə daşınması

mühərriklərinin tətbiqi Azərbaycan neft sənayesinin gələcək inkişafında mühüm əhəmiyyət kəsb edirdi. Azərbaycan neft sənayesinin yüksək inkişaf sürəti azad kapitalın çatışmadığı Çar Rusiyası iqtisadi bazarının imkanlarını qabaqlayırdı. Texniki inqilabla müşayiət olunan neft təsərrüfatının coşqun inkişafı əsaslı vəsait tələb etdiyi üçün neftli torpaqlara, mədən və zavodlara, xüsusən də neft məhsullarının saxlanılmasına, daşınmasına böyük miqdarda kapital qoymaq imkanı olan xarici sahibkarların ölkə iqtisadiyyatına cəlbinə şərait yaratdı. Xarici sahibkarlığa xeyirxah münasibət bəsləyən çar hökuməti 1880-ci il may ayının 1-də xarici ölkə vətəndaşlarının Bakı rayonunda neft mədənlərinə buraxılması məsələsinə dair qərar qəbul etdi. XIX əsrin 70-ci illərinin ikinci yarısında Bakı neft sənayesinə nüfuz edən ən böyük xarici kapital təmsilçisi, əsas kapitalı 3 milyon rubl olan, səhmdarlıq əsasında yaradılan "Nobel qardaşları" ("Branobel") neft hasilatı şirkəti idi. 80-ci illərin ortalarında Fransa kapitalını təmsil




Bibiheybətdə neft fontanı yanğını



Bakıda neft mədənləri (XX əsrin əvvəli)



H.Z.Tağıyev Sankt-Peterburqda neft sənayesi sahiblərinin qurultayında (XIX əsr)




H.Z.Tağıyev bir qrup neft sənayesiçisi ilə (1905-ci il)



H.Z.Tağıyevin kontoru (XIX əsrin sonu – XX əsrin əvvəli)

edən Rotşildlərin Paris bankir evi Rusiyada alınmış və fəaliyyətdə olan müəssisələrin əsasında daha bir iri şirkətin – "Xəzər-Qara dəniz sənaye və ticarət cəmiyyəti"nin əsasını qoymuşdu. XIX əsrin 90-cı illərdə Peterburq şəhərinin fəxri vətəndaşı olan Vişaunun timsalında ingilis kapitalının da Azərbaycan neft sənayesinə nüfuz etməsi prosesi baş verdi. Bununla da yerli müəssisələrin əksər hissəsi xarici kapitalın nəzarəti altına keçdi, xarici kapitalın neft istehsalında mövqeyinin genişlənməsi və möhkəmlənməsi ilə nəticələndi.

Beləliklə, XIX əsrin ikinci yarısını Bakı şəhərinin tarixində yeni mərhələ hesab etmək olar. Bu dövrdə kapitalizmin sürətli inkişafı, neftə olan tələbatın artması, neft yataqlarının intensiv istismarına başlanılması, fabrik-zavod istehsalının meydana gəlməsi ilə Bakı nəinki Rusiya imperiyasının, eləcə də dünyanın ən böyük sənaye şəhərlərindən birinə çevrildi. Burada çox qısa vaxtda İsveç, İngiltərə, Fransa, Belçika, Almaniya, Hollandiya və Amerika Birləşmiş Ştatları firmalarının nümayəndəlikləri yaradıldı. XIX əsrin 70-ci illərində Bakının "neft kəndlərini" – Suraxanı, Bibiheybət, Balaxanı, Ramana, Zığ və Sabunçunu əhatə edən Bakı neft sənaye rayonu yarandı. XIX-XX əsrlərin qovşağında dünyada hasil olunan neftin 50 faizini Bakı nefti təşkil edirdi. Şəhərdə neft sənayesi ilə yanaşı, iqtisadiyyatın digər sahələri də sürətli inkişaf edirdi. Bu dövrdə dünyada ilk dəfə istifadəyə verilən neft tankeri, neft boru



Azərbaycan SSR EA-nın akademiki, Sosialist Əməyi Qəhrəmanı R.Q.İsmayılov



"AzDənizNeft" Birliyinin "Qazma kəşfiyyatı" trestinin baş geoloqu, Dövlət Mükafatı laureatı A.Q.Əliyev (1952-ci il)

kəmərləri, dəmir yolları, telefon stansiyaları, konka və tramvay nəqliyyatı və s. Bakı şəhərinin inkişafını səciyyələndirən çox mühüm nailiyyətlər idi. XIX əsrin sonlarında və XX əsrin əvvəllərində müşahidə olunan iqtisadi yüksəliş nəticəsində Bakı Rusiya imperiyasının Qafqazda ən böyük və əhəmiyyətli şəhərinə çevrilmişdi.

Ümumiyyətlə, Bakı və onun nefti SSRİ kimi böyük bir dövlətin güclü yanacaq bazası hesab edilirdi. İkinci Dünya müharibəsinə başlayan Hitler SSRİ-ni dağıtmaq üçün, ilk növbədə, Bakını ələ keçirmək istəyirdi. Lakin faşizm məhv edildi və bu qələbənin qazanılmasında Bakı nefti misilsiz rol oynadı. Müharibədən sonra SSRİ də Azərbaycan neft sənayesi ciddi çətinliklərlə üzləşdi. Neft-qaz hasilatında azalma meyilləri gücləndi. "Əsrin müqaviləsi"nin uğurla reallaşması neft-qaz hasilatında müsbət dinamikanı təmin etdi (bax: cədvəl 1).



Sosialist Əməyi Qəhrəmanı Q.Abbasov mədəndə neftçilərlə (1974-cü il)

Neft hasilatı tarixində ən maraqlı məqamlar


Eramızdan əvvəl IV-II minilliklər: Fərat çayı ətrafında görüntü və istehlak;

Eramızdan əvvəl III minillik: asfaltdan Mesopotamiya və Misirdə inşaat materialı kimi istifadə;

Eramızdan əvvəl V-III əsrlər: neft haqqında ilk məlumatların antik yunan tarixçiləri Herodotun, Plutarxın əsərlərində və Bibliya yazılarında əks-sədası;

Eramızdan əvvəl IV əsr: Makedoniyalı İsgəndərin Şərq yürüşündə qədim Azərbaycan ərazisində neftlə yanan çırağın ona təqdim olunması;

Eramızdan əvvəl IV-II əsrlər: Çində təbii qazın istehlakı;
Eramızdan əvvəl III-II əsrlər: hərbi döyüşlərdə "yunan atəşi" adlanan neftli məhsuldan istifadə;
Eramızdan əvvəl III əsr: atəşpərəstlərin təbii yanar qazların yerin təkindən özbaşına çıxış arealı – Azərbaycanda ərazi-coğrafi kontekstli toponim yaranışı;
X-XII əsrlər: ərəb və fars alimləri Əbdül Həsən Məsudi, İbn Misqəveyh və Əbu Dulafin əsərlərində Azərbaycan ərazisində quyu üsullu neftçıxarmanın intensiv mövcudluğu barədə qeydləri;
XIII əsr: italyan səyyahları Marko Pola, İosafat Barbaronun Şərq səyahətlərində Abşeronda neftçıxarmanın mövcudluğunun bir daha təsdiqi və xatırlanması;
XIII-XVI əsrlər: Azərbaycanda neft quyularının qazılması və istismarının peşə səviyyəsinə yüksəlişi, neftdən geniş istifadə;
1594-cü il: balaxanılı usta Allahyar Məhəmmədnur oğlunun inşa etdiyi quyunun 64 metrlik dərinliyə malik olması faktı;
1629-cu il: missioner Delya Roşdalonun Azərbaycanda təbii neft fontanı haqqında qeydləri;
1719-cu il: rus çarı I Pyotrun Bakı və Şirvan neft mədənlərinin ələ keçirilməsi məqsədlərinin Şərq yürüşü planlarına daxil etməsi;
1729-cu il: Bakı neftinin geniş çeşiddə Peterburq apteklərində satışı;
1729-cu il: Abşeronda neft quyularının xəritəsinin tərtib olunması;
1733-cü il: Peterburq EA-nın akademiki S.Q.Qemelin qeydlərində Bakıda 52 neft quyusunun mövcudluq təəssüratları;
1804-cü il: Xəzərin Bibiheybət sahilində neft quyusunun qazılması;
1806-cı il: Bakıda neftçıxarmanın intensivləşməsi və onun hasilatının uçot-hesabat göstəricisinə çevrilməsi;
1826-cı il: ABŞ-da duz axtarışı ilə qazılan quyudan neft tapıntısı;
1831-ci il: ABŞ-da Kanaua manufakturasında təbii qazdan ilk istifadə hadisəsi;
1848-ci il: Bakıda dünyada ilk neft quyusunun mexaniki üsulla qazılması;
1848-ci il: Kanada Geoloji Xidmətinin direktoru Ser Uilyam Loqanın antiklinal strukturlardan neftin təbii çıxışına təsadüf etməsi ilə neft-qaz yataqlarının axtarış və kəşfiyyatının nəzəri əsasının qoyulması;
1854-cü il: Rumıniyada neft hasilatının intensiv başlanğıcı;
1854-cü il: Qalsiyada kerosin sənayesinin təşəkkülü;



Azərbaycan SSR EA-nın prezidenti, kimya elmləri doktoru, akademik Y.Q.Məmmədəliyev (1959-cu il)

1854-cü il: şüşə kolbalı məşhur "Vyana lampası"nın görünməsi;
1857-ci il: Rumıniyada iri neft yatağının aşkarlanması;
1859-cu il: ABŞ-da Qərbi Pensilvaniyada polkovnik Dreykin artezian üsullu qazmada nəhəng neft yatağını aşkarlaması ilə ilk dünyəvi neft həyəcanının başlanğıcı;
1865-ci il: ABŞ-da ilk neft nəqletmə kəmərinin inşası;
1870-ci il: amerikalı Con Rokfeller tərəfindən dünyada ilk neft kompaniyası olan "Standart Oil"un yaradılması;
1871-ci il: ABŞ-da Pensilvaniyada ilk neft birjasının açılışı;
1871-ci il: Azərbaycanda neft sənaye əsrinin başlanğıcı;
1872-ci il: neftin qiymətlərində ilk titrəyişlər, "Standart Oil" kompaniyasının neft sənayesinin strateji seqmentləri – emal və nəqliyyatı əlinə keçirməsi;
1873-cü il: norveçli iş adamları Nobel qardaşlarının Bakıda neft işinin təşkilinə başlamaları;
1879-cu il: Nobel qardaşlarının Bakıda 1879-cu ildə dünya neft tarixində ilk şaquli inteqrasiyalı şirkət – "Nobel qardaşları" kompaniyasının təsisi;
1886-cı il: Rusiyada ilk dövri neft nəşriyyatının (*"Trudı Bakinskoqo Otdeleniya İmperatorskoqo Russkoqo Texniçeskoqo Obşestva")* təşəkkülü;
1887-ci il: Meksikada neft hasilatının başlanğıcı;
1888-ci il: Sankt-Peterburqda neft istehsalını tərənnüm edən ilk Ümumrusiya sərgisinin açılışı;
1890-cı il: "Royal Datç" kompaniyasının təsis edilməsi;
1890-cı il: Bakı tərsanələrində ilk neft tankerinin inşası;
1892-ci il: "Şell" neft kompaniyasının təsis edilməsi ilə kerosin bazarının oliqopolizasiyasının başlanması;
1892-ci il: "Mureks" kompaniyasına mənsub tankerin Bakı benzini ilə Süveyş kanalını keçərək Sinqapur və Bankonq limanlarına göndərişi;
1892-ci il: Rusiyanın maliyyə naziri İ.Vittenin vaxtında imperiya büdcəsinin mədaxil hissəsinə neft gəlirlərinin daxil edilməsi;
1893-cü il: İndoneziyada neft hasilatının başlanğıcı;
1898-ci il: Bakıda neft hasilatı həcminin ABŞ-ı ötməsi;
1897-1906-cı illər: Limanlararası o dövr üçün ən uzun magistralın "Bakı-Batumi" neft kəmərinin inşası və açılışı;
1904-cü il: Pirallahı adası sahilində neft hasilatının başlanğıcı;
1904-cü il: Britaniya donanmasının daş kömürdən neft yanacaqlı sistemə keçidi;
1907-ci il: ABŞ-ın Missuri ştatında ilk avto yanacaqdoldurma stansiyasının açılışı;
1908-ci il: İranda neft hasilatının başlanğıcı;
1909-cu il: İraqda neft hasilatının başlanğıcı;
1909-cu il: Bibiheybət buxtasında ilk dəniz mədəninin yaranışı;
1909-cu il: İngilis-Fars neft kompaniyasının təsisi (*"1954-cü ildən Bitriş Petrolium"*);
1911-ci il: ABŞ Ali Məhkəməsinin qərarı ilə "Standart Oil" kompaniyasının Standart Oil New Cersy (*hazırda Exxon),* Standart Oil New York (*hazırda Mobil),* Standart Oil Californiya (*hazırda Chevron),* Standart Oil Indiana (*hazırda Amoco),* Standart Oil Ohio (*hazırda BP America)* şirkətlərinə parçalanması;
1911-ci il: ilk dəfə benzin tələbinin kerosini üstələməsi;
1911-ci il: ABŞ-da Pensilvaniyada ilk dəfə su vurumu metodu ilə layveriminin artırılmasının tətbiqi;
1920-ci il: Rusiyada dünyada ilk dəfə olaraq neft sənayesinin milliləşdirilməsi və bu səbəblə də Qərbin rus neftinin alınmasını boykot etməsi;
1920-ci il: ilk tam dövlət mülkiyyətli "Azərineft" neft şirkətinin təsisi;
1926-cı il: ilk dəfə dünya neft ehtiyatlarının tükənməsi haqqında proqnozların ilk dəfə dövriyyəyə çıxışı;
1928-ci il: dünyanın aparıcı nəhəng neft kompaniyalarının prezidentlərinin neft qiymətlərini sabitləşdirmək məqsədi ilə bir araya gəlməsi;
1929-cu il: Azərbaycan Neft Sənayesi Elmi Tədqiqat İnstitutunun təsisi;
1930-cu il: Şərqi Texasda açılan nəhəng neft yatağının izafi istehsal yaradaraq neftin qiymətinin aşağı düşməsi ilə müşayiət olunması və qiymətlərin tənzimlənməsinə rəvac verməsi;
1930-cu il: Moskvada İ.M.Qubkin adına Neft-Qaz İnstitutunun açılışı;
1934-cü il: Küveytdə neft hasilatının başlanğıcı;
1938-ci il: Səudiyyə Ərəbistanında neft hasilatının başlanğıcı;
1938-ci il: Meksikada neft sənayesinin milliləşdirilməsi;
1939-cu il: Pirallahı adası sahilində açıq dənizdə metal direklər üzərində ilk qazma qurğusunun inşası;
1941-ci il: Bakıda İliç bux-

Cədvəl 1

1988-2011-ci illərdə Azərbaycan Respublikasında ÜDM, neft-qaz hasilatı və bütövlükdə ölkə üzrə ixracın dinamikası (faizlə)

İllər	ÜDM-in real artımı	Neft hasilatı	Qaz hasilatı	Əvvəlki ilə nisbətən Respublika iqtisadiyyatı üzrə cəmi ixrac
1988	4,38	- 10,6	- 3,1	x
1989	- 8,84	- 4,3	- 6,0	x
1990	- 11,7	- 7,6	- 13,4	x
1991	- 0,7	- 1,8	- 10,4	x
1992	- 22,6	- 3,5	- 8,7	x
1993	- 23,1	0,8	- 13,6	x
1994	- 19,7	0,8	- 6,3	- 9,93
1995	- 11,8	- 4,2	4,2	- 2,38
1996	1,3	- 0,7	- 5,1	- 0,93
1997	5,8	5,7	- 5,4	23,77
1998	10,0	18,7	- 6,3	- 22,42
1999	7,4	20,9	7,3	53,37
2000	11,1	2,2	4,8	87,72
2001	9,9	3,5	- 11,9	32,6
2002	10,6	1,0	5,5	- 6,34
2003	11,2	4,2	- 11,5	19,52
2004	10,2	1,1	- 3,1	39,57
2005	26,4	429	16,2	20,23
2006	34,5	45,3	55,5	199,4
2007	25,0	29,1	87,6	63,43
2008	10,8	6,9	38,0	124,53
2009	9,3	13,2	1,5	-69,22
2010	4,96	0,7	11,0	45,08
2011	2,8	- 9,4	2,5	2,5

Mənbə: http://www.socar.az və http://www.azstat.org məlumatları əsasında işlənmişdir.

Cədvəl 2

Dünya ölkələrində neftin istehlakı (2010-cu il)

№	Ölkə	Neft istehlakı (barrel/gün)
1	ABŞ	18 690 000
2	AB	13 680 000
3	Çin	8 200 000
4	Yaponiya	4 363 000
5	Hindistan	2 980 000
6	Rusiya	2 850 000
7	Braziliya	2 460 000
8	Almaniya	2 437 000
9	Səudiyyə Ərəbistanı	2 430 000
10	Cənubi Koreya	2 216 000
11	Kanada	2 151 000
12	Meksika	2 078 000
13	Fransa	1 875 000
14	İran	1 809 000
15	İndoneziya	1 115 000
16	Malayziya	536 000
17	Yunanıstan	414 400
18	Ukrayna	348 000
19	Liviya	280 000
20	Norveç	204 100
21	Belorusiya	173 000
22	Özbəkistan	145 000
23	Azərbaycan	136 000
24	Türkmənistan	120 000
25	İordaniya	108 000
26	Xorvatiya	106 000
27	Banqladeş	98 000
28	Litva	74 000
29	Ermənistan	49 000
30	Latviya	40 000
31	Tacikistan	38 000
32	Albaniya	36 000
33	Estoniya	30 000
34	Nikaraqua	29 000
35	Makedoniya	20 000
36	Moldova	19 000
37	Şimali Koreya	16 000
38	Qırğızıstan	15 000
39	Zimbabve	11 000
40	Konqo Respublikası	10 000
41	Əfqanıstan	5 000
42	Somali	5 000
43	Laos	3 000





ARDNŞ-nın Gürcüstandakı Kulevi neft terminalı



Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev və Gürcüstanın Prezidenti M.Saakaşvili BTC neft kəmərinin ilk ölkənin sərhədində qaynaq edilməsi mərasimində (2004-cü il)



Azərbaycan neft-qaz sənayesinin inkişafında xüsusi xidmətləri olan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti akademik Xoşbəxt Yusifzadənin prezident İlham Əliyevə Xəzərdə kəşf edilən yeni neft-qaz yataqları barədə məlumat verir



Azad Mirzəcanzadə (1928-2006)



Nikolay Baybakov (1911-2008)




Sabit Orucov (1912-1981)



Süleyman Vəzirov (1910-1973)



Rüstəm İsmayılov (1909-1972)



Midhət Abbasov (1926-2012)



Məmmədpaşa Quluzadə (1914-1994)



Baba Pirməmməd (1898-1957)



Vahab Əliyev (1908-1993)



Murtuza Nağıyev (1908-1975)



Qurban Abbasov (1926-1994)



Vsevolod Neqresov (1903-1967)




İzzət Orucova (1909-1983)



İsrafil Quliyev (1917-1981)



Əli Musayev (1912-1989)



Ələddin Quliyev (1927-1983)

Dünyada neft-qaz hasilatı, neft-kimya sənayesinin inkişafına öz layiqli töhfəsini vermiş Azərbaycan alim və mütəxəssisləri



Qutrya Viktor Stepanoviç (1910-1983)

tasında dünyada ilk maili trubinli quyu inşası;
1947-ci il: Meksika körfəzi şelfində neft yatağının aşkarlanması;
1948-ci il: Neft daşlarında neft-qaz yataqlarının açılışı;
1948-ci il: ABŞ-ın neft idxalçısına çevrilməsi;
1950-ci il: ərəb-amerikan neft şirkəti "Aramko" tərəfindən Səudiyyə Ərəbistanından Aralıq dənizinin Suriya və Livan sahillərinə yetişən nəhəng neft kəmərinin inşası;
1950-ci il: İngilis-İran kompaniyasının milliləşdirilməsi, Britaniyanın İran neftini boykot etməsi, müharibədən sonrakı ilk neft böhranı;
1953-cü il: Səudiyyə Ərəbistanı ilə İraqın neft sənayesinin vəziyyəti haqqında informasiya mübadiləsi (*neft tarixində bu qəbildən dövlətlərarası ilk saziş)*;
1956-cı il: neft daşımalarının mühüm arteriyası Süveyş kanalının bağlanması, ikinci neft böhranı;
1956-cı il: Əlcəzair və Nigeriyada neft hasilatının başlanğıcı;
1959-cu il: Liviyada neft hasilatının başlanğıcı;
1959-cu il: Avropa qaz sənayesinin təməlini qoyan dünya qaz nəhəngi "Qroningen" (*Niderland)* yatağının açılışı;
1960-cı il: Qərbi Sibirdə ilk neft yatağı "Şaimsk"in açılışı;
1960-cı il: OPEK-in təsis edilməsi;
1964-cü il: Şimal dənizində kəşfiyyat işlərinin başlanması;
1964-cü il: sıxılmış təbii qazın kontinentlərarası təchizatının müntəzəmləşməsi;
1967-ci il: Ərəb-İsrail müharibəsi ilə "Aramconun" ABŞ və Böyük Britaniyaya neft satışına embarqo qoyması, üçüncü neft böhranı;
1969-cu il: Qərbi Sibirdə nəhəng "Samotlar" yatağının açılışı;
1969-cu il: Şimal dənizində neft hasilatının başlanğıcı;
1969-cu il: Liviyada neft sənayesinin milliləşdirilməsi;
1973-cü il: 20 ildən sonra ilk dəfə yenidən neft tələbinin təklifi üstələməsi;
1973-cü il: OPEK-in hasilatı azaldıb, neftin qiymətini 70% artıraraq İsraillə müharibədə Misir və Suriyanı dəstəkləməsi, dördüncü neft böhranı;
1973-cü il: ixracat potensialı ildə 22 milyard m^3 olmaqla Qərbi Sibir qazının Avropaya nəqlini reallaşdıran nəhəng qaz kəmərinin inşası;
1974-1976-cı illər: Səudiyyə Ərəbistanının "Aramco"nu mərhələli olaraq milliləşdirməsi;
1975-ci il: Küveytin "Gulf-BP" konsessiyasının milliləşdirilməsi;
1976-cı il: Venesuelanın "Shell", "Exxon" və başqa xarici kompaniyaların konsessiyasını milliləşdirməklə onların milli "Petroleos de Venesuela" şirkətinə qatması;
1979-1981-ci illər: İran inqilabı, İran-İraq müharibəsi, ABŞ-da, Qərbi Avropada və Yaponiyada neft ehtiyatları yaradılması praktikasına keçid, neftin bir barelinin qiymətinin 40 ABŞ dollarına yüksəlişi, beşinci neft böhranı;
1982-ci il: OPEK-in hasilata ilk dəfə kvotalar tətbiq etməsi;
1986-cı il: neftin bir barelinin 10 ABŞ dollarına qədər enişi;
1987-ci il: Başda Səudiyyə Ərəbistanı olmaqla, OPEK ölkələrinin birgə səyləri ilə neft qiymətlərinin bərpası;
1990-1991-ci illər: İraqın Küveytə intervensiyası, BMT-nin İraqa sanksiyalar tətbiq etməsi;
1991-ci il: SSRİ-nin süqutu;
1993-1994-cü illər: Rusiyada neft kompleksinin özəlləşdirilməsinin başlanğıcı;
1993-cü il: Xəzər neft həyəcanının başlanğıcı;
1994-cü il: "Əsrin müqaviləsi"nin bağlanması, Bakı-Ceyhan ideyasının yaranışı;
1995-ci il: "Petro-Canada" şirkətinin özəlləşdirilməsi;
1997-ci il: Kiotoda CO_2 emissiyasının azaldılması və neft-qaz istehsalına ekoloji pressinqin gücləndirilməsi üzrə beynəlxalq deklorasiyanın imzalanması;
1998-ci il: neftin bir barrelinin yenidən 10 ABŞ dollarına qədər enişi, kiçik neft kompaniyalarının iflası, nəhənglərin birləşməsi, ilk dəfə OPEK-in müstəqil neft ixracatçıları ilə hasilatın məhdudlaşdırılmasına rəğmən sövdələşmələrə girməsi;
1999-cu il: iqtisadiyyatın dirçəlisi, neftin bir barelinin qiymətinin 25 ABŞ dollarına yüksəlişi, Avropa qaz və enerji bazarlarının geniş liberallaşması, ABŞ-da elektrik və qaz kompaniyalarının konvergensiyası, Latın Amerikası, Yaxın Şərq və Afrikada xarici investorlar üçün neft-qaz sahəsində özəlləşmə tendensiyalarının güclənməsi;
2003-2004-cü illər: İraqın ABŞ tərəfindən işğalı, neft qiymətlərinin yüksəlişinin rekord səviyyədə qeydə alınması;
2008-ci il: neftin bir barelinin rekord səviyyəyə – 159 ABŞ dollarına çatması;



ARDNŞ-nin və BP Azərbaycan şirkətinin rəhbərliyinin Ulu öndər Heydər Əliyevlə görüşü

2008-2010-cu illər: Dünya maliyyə böhranı, neftin qiymətinin kəskin aşağı düşməsi;
2011-2012-ci illər: Neftin qiymətinin qalxması – 1 barel neftin 100 ABŞ dolları həddini aşması.

NEFT DOLLARLARI – neft ixrac edən ölkələr təşkilatına (OPEK) daxil olan, neft hasil edən ölkələrin xalis valyuta gəlirləri. Bu gəlirlərin çox hissəsi Amerika dolları şəklində saxlandığına görə onlar "neft dolları" adlanır. "Neft dolları" anlayışı 1970-ci illərdə neft şokları deyilən hadisələrlə əlaqədar yaranmışdır. O vaxt neftin qiymətinin bir neçə dəfə artması dünya enerji böhranına, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr neft istehsalçıları və istehlakçıları arasında ziddiyyətlərin kəskinləşməsinə, qarşılıqlı tədiyə-hesablaşma qarşılıqlı münasibətlərində böhrana səbəb olmuşdu. Bu ziddiyyətlər müxtəlif ölkələrdə müxtəlif yollarla həll edilirdi. Sənaye cəhətdən inkişaf etmiş ölkələrdə əsas istiqamət alternativ enerji mənbələri, resursqoruyucu mexanizmlər axtarışının fəallaşması oldu. Neft idxal edən ölkələrlə neft ixrac edən ölkələr arasında hesablaşmaların təkmilləşdirilməsi prob-



Tofiq İsmayılov adına gəmi (dalğıc əməliyyatlarına dəstək)

lemi ixracatçı ölkələrin maye yanacaq satışından əldə etdikləri valyuta aktivlərinin bu vəsaitlərdən məhrum olmuş ölkələrə müddətsiz kredit, borc və ya birbaşa investisiyalar formasında köçürülməsi yolu ilə həll edilirdi. Neft dollarının dünya tədiyə dövriyyəsinə qaytarılması prosesinin məqsədi neft istehlak edən ölkələrin tədiyə balanslarındakı kəsiri kompensasiya etməkdir. Bu proses "geriyə tsikl" adlanır. Neft ixrac edən ölkələrin iqtisadiyyatının kifayət qədər olmaması onların neft ixracından əldə edilmiş valyuta gəlirlərindən özlərinin istifadə etməsinə imkan verməmişdir. 1970-ci illərdə xarici banklar tərəfindən neft dollarının yalnız bir qismi xarici banklar tərəfindən ərəb ölkələrinin infrastruktur sahəsindəki iri layihələrinə yalnız bir qismi təkrar sərf edilmişdir. OPEK üzvü olan ölkələrin hökumət orqanlarına məxsus neft dollarından xarici ölkələrin kommersiya bankları vasitəsilə əsasən maye yanacaq istehlak edən və maye yanacağın qiymətinin artırılmasından daha çox zərər çəkmiş maye yanacaq istehlak edən inkişaf etməkdə olan ölkələrə təkrar sərmayə qoyulmuşdur. Fars körfəzində böhran ərəfəsində (1990) OPEK üzvü olan ölkələrin xarici banklardakı əmanətlərinin elan edilmiş məbləği 152,7 milyard dollar, onların borcları isə 57 milyard dollar olmuşdur. Neft dolları təkrar sərmayə şəklində, eyni zamanda, neft dollarları sənaye şirkətlərinin və digər şirkətlərin səhmlərinə və istiqrazlarına, eləcə də sənaye cəhətdən inkişaf etmiş ölkələrin daşınmaz əmlakına sərmayə qoyulurdu. Bu, neft dollarlarının özəl sahiblərinə daha çox aiddir. Neft dollarları avroistiqrazlar bazarında da investisiya üçün sərf edilirdi. Beləliklə, neft ixrac edən ölkələrin artıq valyutalarının təkrar sərmayə qoyulması sənaye cəhətdən inkişaf etmiş ölkələrin daxili kapital qoyuluşlarının əlavə maliyyələşdirmə mənbəyi kimi xidmət edirdi.

NEFT EHTİYATLARI – təsbit edilmiş vaxt ərzində yatağın kəşf olunmuş hissəsindən reallaşmış hasilat miqdarını hesaba almayan, kommersiya baxımından çıxarılması mümkün sayılan karbohidrogenlərin həcmi. Ehtiyatlar kateqoriyasının təyinatında işləmə planı, hasilat proqnozu, fiskal şərtlər, hüquqi təminat və bazarla bağlı tələblər kimi onların iqtisadi qiymətləndirilməsi də mühüm əhəmiyyət kəsb edir. Burada layihənin kommersiya baxımından lüzumluğu və faydalığı ilə ehtiyatların təsdiq edilmə meyarları da şərtləndirilir. Ehtiyatların öyrənilmə dərəcəsinə görə təsnifatı: ehtiyatlar – A, V, S_1, S_2, resurslar – S_3, D_1, D_2 olaraq yeddi kateqoriyaya bölünür. Resurslar – təsbit edilmiş vaxt ərzində qiymətləndirilərək, yatağın kəşf olunmuş hissəsindən qalıq və ya hasil edilən karbohidrogenlərin çıxarıla bilən həcmi (kəşf edilmiş resurslar) ilə kəmiyyəti qiymətləndirilən, amma hələ ki, aşkarlanmamış (kəşf edilməmiş resurslar) karbohidrogenlərin cəmindən ibarətdir.

NEFT KİMYASI – neft və neft məhsullarını öyrənən kimya sahəsi.

NEFT QUYUSU – neft-qaz və kondensatın hasilatı üçün əsasən şaquli və ya maili lülə şəklində qazılan spesifik quyu. Neft quyularının təsnifatı: 1. Dayaq quyuları – strukturun geoloji quruluşunun təyinatı üçün qazılır. 2. Axtarış quyuları – münasib neft yataqlarının ətrafında qazılır. 3. Kəşfiyyat quyuları aşkarlanmış yataqların sərhədlərini müəyyənləşdirmək üçün qazılır. 4. İstismar quyuları. 5. İnceksiya. Neft təsərrüfatında quyular axtarış-kəşfiyyat xarakterli və istismar təyinatlı olaraq qazılır. Mexaniki üsulla ilk quyu 1847-ci ildə Azərbaycanda Abşeron yarımadasında qazılmışdır. İlk dəniz quyusunun isə 1896-cı ildə ABŞ-da Kaliforniyada qazıldığı göstərilir. Bu quyu sahildən 250 metr aralı qazılmışdır. Lakin 1804-cü ildə Xəzərin Bibiheybət sahilində usta K.Səlimxanovun neft hasilatı məqsədi ilə inşa etdiyi quyunun şelf zonasını əhatə etməsi bu tarixi faktı qabaqlamış olur. Bu hadisədən yüz il sonra isə (1904-cü ildə) Pirallahı adası sahilində dəniz neftinin yeni axtarışı işlərinə başlanılmışdır. Həmin ildən də rəsmi statistikada dənizdəki neftçıxarmanın uçotu start götürmüşdür. XX əsr statistikasına görə, dəniz şelfində ilk platforma quyusunun 1932-ci ildə Abşeronda qazıldığı göstərilir. 1949-cu ildə isə Xəzərin Qara Daşlar ərazisində qazılan ilk quyunun fontan vurması həm Azərbaycanın, həm də dünyanın neft tarixində dəniz şelfindən hasilatın başlanğıcı və ilk dəniz quyusunun istismara verilməsi kimi yadda qalmışdır. Neft sənayesində qazılan quyuların sayı,

Cədvəl 1

Dünyanın neft ehtiyatları

Ölkələr	Kəşf edilmiş ehtiyatlar, milyard barel	Gündəlik hasilat, milyon barel	Gündəlik istehlak, milyon barel
Səudiyyə Ərəbistanı	266,7	10,70	2,29
Kanada	178,6	3,35	2,26
İran	138,4	4,17	1,80
İraq	115,0	2,39	0,64
Küveyt	104,0	2,74	0,32
Birləşmiş Ərəb Əmirlikləri	97,8	3,05	0,46
Venesuela	87,0	2,64	0,76
Rusiya Federasiyası	60,0	9,79	2,90
Liviya	41,5	1,88	0,27
Nigeriya	36,2	2,17	0,29
Qazaxıstan	30,0	1,43	0,24
ABŞ	21,3	8,51	19,48
Çin Xalq Respublikası	16,0	3,97	7,57
Qətər	15,2	1,20	0,12
Meksika	11,6	3,19	2,13



Qərbi Azəri platforması

Cədvəl 2

2010-cu il üzrə dünyanın 24 ən iri neft yataqları

Yataqlar	Ölkələr	Qiymətləndirilmiş ehtiyatlar, milyard barel
Qavar	Səudiyyə Ərəbistanı	75-83
Burqan	Küveyt	66-72
Kantarel	Meksika	35
Bolivar	Venesuela	(18 hasil olunan)
Safaniya-Havcı	Səudiyyə Ərəbistanı / neytral zona	30-32
Rumaliya	İraq	30
Tengiz	Qazaxıstan	20
Axvaz	İran	15-26
Kirkuk	İraq	17
Marun	İran	16
Datsin	Çin Xalq Respublikası	16
Qaşaran	İran	15
Aqacari	İran	14
Samotlor	Qərbi Sibir, Rusiya Federasiyası	14-16
Pradxo-Bey	Alyaska, ABŞ	13
Kaşaqan	Qazaxıstan	13
Abkayk	Səudiyyə Ərəbistanı	12
Romaşkino	Volqa-Ural hövzəsi, Rusiya Federasiyası	12-14
Berri	Səudiyyə Ərəbistanı	12
Zakum	Abu-Dabi, Birləşmiş Ərəb Əmirlikləri	12
Manifa	Səudiyyə Ərəbistanı	11
Faruzan-Mərcan	Səudiyyə Ərəbistanı / İran	10
Marlim	Kampos, Braziliya	10-14

əksəriyyəti ABŞ-da olmaqla, 1 milyonu ötmüşdür. Dünyada ən dərin quyu 1985-ci ildə 12261 metr olmaqla, Rusiyada Kola yarımadasında qazılmışdır. Bu rekordu uzunluq aspektində 2008-ci ilə qədər Qətər dövlətində Əl-Şahin neft hövzəsində 12261 metr dərinliyində yer səthi üzrə iti bucaq altında qazılan "Maersk Oil BD-04A" quyusu aşmışdır. Hazırda (2011-ci il, yanvar) Rusiyada "Saxalin-I" layihəsi çərçivəsində Saxalin adasının kontinental şelfində "Odoptu" neft-qaz yatağında iti bucaq altında qazılan quyunun uzunluq ölçüləri 12390 metr təşkil etmişdir.

NEFT TANKERİ – neft daşıyan xüsusi gəmi. "Zaroastr" adlı

tanker dünyada ilk dəfə 1878-ci ildə Xəzərdə hərəkət etmişdir. İlk okean tankeri isə 3 min ton tutumlu Almaniyanın "Qlyukauf" gəmisi olmuşdur. Əsl tanker bumu XX əsrin ortalarında başlamışdır. Fransızlar tutumu 550 min ton olan gəmi inşa etmişlər, sonralar isə yaponlar tutumu 565 min ton olan tanker düzəltmişlər.

NEFT YATAQLARI – neft təyin edilmiş ərazidə neftli hövzə. Adətən, bir neçə yüz kilometr ərazini əhatə edir. Neft yataqları 10 milyon ton neft həcmində kiçik, 10-100 milyon ton orta, 100-1000 milyon ton iri, 1-1,5 milyard ton nəhəng, 5 milyard ton və ondan çox unikal adlanır. Neft yataqları genişliklə geoloji sistemdə rayonlaşmaya məruz qalır. Formalaşmış təsnifata görə, neft-qaz rayonları zona, sahə, əyalət və hövzələrə (bir neçə min km^2-dən 1 milyon km^2-ə qədər) bölünür. Dənizdə və quruda olmaqla Azərbaycanda kəşf olunmuş, işləməyə verilmiş və perspektivdə olan 231 struktur mövcuddur. Bu strukturların 38,1%-i dənizdə, 61,9%-i isə quruda cəmləşmişdir. Respublikada 69 neft yatağı aşkarlanmışdır. Bu yataqların 42-si qurunun, 27-si dənizin payına düşür. Bütün fəaliyyəti ərzində Azərbaycana məxsus yataqlardan 2,0 milyard tona yaxın karbohidrogen resursu çıxarılmışdır. Hasilat pikləri: neft üzrə quruda 1941-ci ildə 23,4 milyon ton neft, 2010-cu ildə ümumi 50,1 milyon ton neft, 26,3 milyard m^3 qaz.

NEFTİN HASİLAT METODLARI – əsasən 3 tipik forması – 1-ci, 2-ci və 3-cü metodları vardır. Birinci – yalnız təbii yolla hasilat. İkinci – lay təzyiqini süni yollarla artırmaqla hasilat. Üçüncu – xüsusi reagentlər və texnologiyalar vasitəsilə hasilat.

Qazlaşdırma ilə bağlı 2012-ci ildə layihələr icra ediləcəkdir. Bu işlərin, demək olar ki, böyük hissəsi görülmüşdür. Ancaq yenə də qarşıya vəzifə qoyulubdur ki, 2013-cü ilin sonuna qədər texniki və coğrafi cəhətdən mümkün olan bütün layihələr, bütün rayonları əhatə edən layihələr başa çatmalıdır... İndi böyük şəhərlərdə, rayon mərkəzlərində bu işlər gedir. Biz artıq kəndlərdə də bu işlərin görülməsinə başlamışıq. Qeyd etməliyik ki, 2013-cü ilin sonuna qədər biz bu hədəfə çata bilərik.

Bizim zəngin qaz ehtiyatlarımız vardır. Biz qazı dünyaya ixrac edirik və daha da böyük həcmdə ixrac edəcəyik. Belə olan halda biz bunu maksimum şəkildə, yəni 95 faiz – bu maksimum bizim coğrafiyamızı nəzərə alsaq mümkündür, təmin etməliyik və edəcəyik.

İlham Əliyev

NEFTİN MARKER NÖVLƏRİ – neft yüngül (*0,65-0,87*) q (sm), orta (*0,871-0,910*) və ağır (*0,910-1,05*) q(*sm*) kimi qruplaşdırılır. İstilik qabiliyyəti 43,7-46,2 mc(*kq*) 10400-11000 kkal (*kq*). Tərkibindəki kükürdün miqdarına görə neft azkükürdlü (*0,5%-ə qədər*), kükürdlü (*0,5-2%*) və yüksək kükürdlü (*2%-dən çox*) olur. Tarixə nəzər yetirdikdə görərik ki, əvvəllər bazarda neftin qiymətini ABŞ-ın çox məşhur neft oliqarxı "Standart Oil" müəyyənləşdirirdi. Sonradan ABŞ-da bu işi Texas dəmiryolu komitəsi, digər ölkələrdə isə neft inhisarçıları müəyyən edirdilər. Bir qədər sonra qiymətqoymada hakimiyyət OPEK-in əlinə keçdi. İndi isə belə təyinat hər gün ani olaraq vurğulandığı kimi, aparıcı neft birjalarının ticarət zalında, açıq bazarda treyderlərlə alıcıların birbaşa qarşılıqlı təmasında, Yer kürəsinin müxtəlif ərazilərindən kompüter ekranlarına gətirilən üsul və vasitələrlə həll edilir. IPE Avropa üçün brend, Asiyada SİMEX Sinqapur-Dubay, Amerikada isə NYMEX Nyu-York-Qərbi Texas qarşılıqlı marker növünün satışını reallaşdırır. Bununla belə, bu əsas neft markerləri ilə yanaşı, digər əlahiddə növlər də mövcuddur. "Layt" markasından olan Azərbaycan nefti isə dünya bazarlarına "Yurols" adlı Rusiya neft qarışığı toplumunda xüsusi "Azərilayt" adı ilə çıxarılır. İrili-xırdalı olmasına baxmayaraq, fərqli növlər qlobal bazarda neftin qiymətləndirilməsində iştirak etmirlər. Səudiyyə Ərəbistanının bənzərsiz neft nəhəngi "Qafar" yatağından dünya neftinin 75%-nin hasil edilməsinə baxmayaraq, "yüngül ərəb nefti" kimi tanınan bu növün qiymətyaratmada marker nümunəsi titulu yoxdur. Ümumi götürüldükdə, dünya bazarında "brent" markalı neft dominant üstünlüklərə malikdir.

NEFT-QAZ ƏMƏLİYYATLARI – karbohidrogenlərin kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi, çıxarılması, hasilatı, sabitləşdirilməsi, hazırlanması, oyadılması, təzyiq göstərilməsi, toplanması, saxlanması, yüklənib göndərilməsi, çatdırılma məntəqəsinədək nəql edilməsi və kontrakt sahəsində hasil edilmiş karbohidrogenlərin marketinqi və kontrakt sahəsində ləğvetmə işləri ilə bağlı bütün əməliyyatlar.

NEFT-QAZ ƏMƏLİYYATLARI MƏSRƏFLƏRİ – əməliyyat məsrəfləri və əsaslı məsrəflər; neft-qaz əməliyyatları məqsədləri üçün podratçının faktiki çəkdiyi bütün məsrəfləri əhatə edir.

NEQATİV GƏLİR VERGİSİ – yüksək gəlirli ailələrdən vergi tutan, gəlirləri az olan ailələrə isə müavinət şəklində ödənilən vergi sistemi.

NEQATİV TƏLƏBAT – alıcıların müəyyən mala mənfi münasibəti. Bazarda həmin mala tələbatın minimum olması və ya ümumiyyətlə olmaması.

NEQATOR İDDİASI – mülkiyyətçiyə onun əmlakından istifadə etməsinə mane olan əngəllərin aradan qaldırılmasına, mülkiyyətçinin əşyaya malik olma hüququndan məhrum edilməsi ilə bağlı bu cür pozuntulardan onun mülkiyyət hüququnun qorunmasına yönəldilən iddiası.

NEMÇİNOV VASİLİ SERGEYEVİÇ (1894-1964) – rusiyalı iqtisadçı və statistik, SSRİ EA-nın akademiki (1946), Lenin adına Ümumittifaq Kənd Təsərrüfatı Akademiyasının akademiki olmuşdur (1948).



1917-ci ildə Moskva Kommersiya İnstitutunun İqtisadiyyat bölməsini bitirmişdir. 1917-1922-ci illərdə dövlət statistika orqanlarında (Moskva, Kiyev, Çelyabinsk şəhərlərində) rəhbər işdə çalışmışdır. RSFSR-də əhalinin birinci siyahıyaalınmasında Çelyabinsk vilayəti üzrə rəhbər olmuşdur (1920). 1922-1926-cı illərdə Mərkəzi Statistika İdarəsinin müvəkkili, Ural Statistika İdarəsinin (Sverdlovsk şəhəri) müdiri olmuşdur. 1928-1940-cı illərdə K.A.Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyasında elmi-pedaqoji sahədə fəaliyyət göstərmişdir. 1949-1963-cü illər – məhsuldar qüvvələrin öyrənilməsi üzrə şuranın sədri, eyni vaxtda 1947-ci ildən – Sov. İKP MK yanında İctimai Elmlər Akademiyasının siyasi iqtisad kafedrasının professoru, 1953-1959-cu illərdə SSRİ EA iqtisad, fəlsəfə və hüquq elmləri bölməsinin akademik-katibi, 1953-1962-ci illərdə SSRİ EA Rəyasət Heyətinin üzvü, Beynəlxalq Statistika İnstitutunun həqiqi üzvü (1958), İngiltərə Kral Statistika Cəmiyyətinin fəxri üzvü (1961) olmuşdur.

Nemçinovun elmi fəaliyyətində onun məşğul olduğu problemləri üç qrupa bölmək olar: statistik-iqtisadi problemlər, xalis iqtisadi problemlər və iqtisadi-riyazi problemlər. Nemçinov riyazi metodların iqtisadiyyatda geniş miqyasda və tezliklə tətbiqinin vacibliyini başa düşən ilk mütəxəssislərdən biri olmuş, dəqiq kəmiyyət metodlarının iqtisadiyyatda tətbiq edilməsinin və sovet iqtisad elmi tərəfindən plan-iqtisad məsələlərinin təhlilinin və həllinin riyazi metodlarının işlənib hazırlanmasının zəruriliyini önə çəkmişdir. 1958-ci ildə o, SSRİ-də ilk iqtisadi-riyazi tədqiqatlar laboratoriyasını təşkil etmiş, 1963-cü ildə həmin laboratoriya əsasında SSRİ EA Mərkəzi İqtisadi Riyazi İnstitutu (MİRİ) yaradılmışdır. 1923-1924-cü illərdə SSRİ Mərkəzi Statistika İdarəsi tərəfindən tərtib olunmuş, dünyada ilk xalq təsərrüfatı balansının prinsiplərini, ideyalarını inkişaf etdirmişdir. Balans sxemlərinin xalq təsərrüfatının planlaşdırılması və idarə edilməsi təcrübəsində istifadəsinə dair tədqiqatlar aparmışdır. Nemçinov – iqtisadi kibernetika məsələlərinin tədqiqatı, elektron-hesablama maşınlarının və həll qurğularının xalq təsərrüfatının mənafeyi üçün tətbiqi sahəsində pionerdir. SSRİ Dövlət mükafatına (1946), xətti proqramlaşdırma metodlarının və iqtisadi modellərin elmi cəhətdən işlənməsində iştirak etməsinə görə Lenin mükafatı laureatına (1965 – ölümündən sonra) layiq görülmüş, üç Lenin ordeni, eləcə də digər orden və medallarla təltif edilmişdir.

NEMƏT – yaşamaq üçün lazım olan şeylərin məcmusu (yeyəcək, içəcək və s.); rifah. Xoşbəxtlik, səadət, yaxşılıq.

NEMƏTLƏR – insan tələbatlarının ödənilməsi vasitələri, başqa sözlə, insanların həyati tələbatlarını ödəyən, insanlara xeyir gətirən, zövq verən hər



şey. "Məhsul" anlayışının sinonimidir. Öz natural xassələrinə görə nemətlər əşya (məhsul) və informasiya obyektlərinə, xüsusi və kollektiv fəaliyyətə (xidmətlərə); son istehlakdan kənarlaşma səviyyəsinə görə – istehlak nemətlərinə və resurslara (istehlak nemətləri istehsalı üçün istifadə olunan istehsal amillərinə); istifadə müddətinə görə – dəfələrlə istifadə olunan uzunmüddətli (bina, kitab, kompüter və s.) və birdəfəlik istifadə üçün nəzərdə tutulan qısamüddətli (çörək, süd, kibrit və s.) növlərə bölünür. Nemətlər içərisində qarşılıqlı əvəz edilənlər və ya substitutlar (balıq və ət, dəmir yolu və təyyarə, kino və teatr), qarşılıqlı tamamlanan nemətlər və ya komplementar (avtomobil və benzin, kağız və qələm, kompüter və disket) ayrılır.

İstehlak xarakterinə görə təsnifatlandırılarkən nemətlərin iki növünü fərqləndirirlər: xüsusi və kollektiv. Xüsusi nemətlər bölünəndir və onun hər vahidi ancaq bir nəfər tərəfindən istehlak edilə bilər (məsələn, yemək, içkilər). Kollektiv nemətlər bir qayda olaraq birgə istehlak olunur. Başqa sözlə, onların istehsalı və bölgüsü müsbət xarici effektlərlə bağlıdır.

Öz növbəsində, kollektiv nemətlər iki yarımnövə bölünə bilər: klub və ictimai. Klub nemətləri ancaq müəyyən həddə qədər birgə istifadə oluna bilər (avtobusda oturacaqların sayı, kabel televiziyası şəbəkəsində mümkün abonentlərin sayı və s.). Klub nemətlərinin faydalılığı onun hər istifadəçisi üçün – qeyri-rəqabət sərhədi adlanan müəyyən kəmiyyətdən başlayaraq, onların sayından asılıdır. Qeyri-rəqabət sərhədi keçildikdən sonra istehlakçıların bir-birinə vurduqları ziyan böyüyür. Belə ki, avtobus tamamilə boş ola bilər, oturacaqlar tam doldurula bilər, pik saatlarında isə hətta ayaq üstə durmaq üçün yer olmaya bilər. İctimai nemətlər üçün qeyri-rəqabət sərhədi verilən məkan çərçivəsində əldə oluna bilməz. Buna görə ictimai nemətlər, həmçinin, "istehlakda istinasızlıq" (mümkün hal) xassəsinə də malikdir (bax ictimai nemətlər).

Marksın nəzəriyyəsinə görə, nemətlərin dəyəri ictimai zəruri əmək məsrəfləri, yəni orta ictimai normal şəraitdə və orta intensivlikdə baş verən işin məsrəfləri ilə müəyyən olunur. Neoklassik konsepsiyalara uyğun olaraq, nemətlərin qiyməti onların nadirliyindən, yəni nemətlərin bu və ya digər növünə olan tələbin intensivliyindən və onların nağd sayından asılıdır. Bu zaman nəzərdə tutulur ki, istənilən tələbat bir neçə nemətlər ilə ödənilə bilər. İstənilən nemətlər isə bir neçə tələbatın ödənilməsi üçün istifadə oluna bilər.

NEOİNSTİTUSİONALİZM – institusionalizmin metodoloji texnoloji determinizm əsaslı müasir çaları. Neoinstitusionalizm K.Eyrosun mədəniyyətin və təsərrüfat fəaliyyətinin qarşılıqlı rabitəsi prinsipi, C.Helbreytin nəhəng korporasiyaların təsiri ilə bazar sisteminin modifikasiyası, Q.Myürdalın sosial sistemlərin təhlili və Y.Kornainin tarazlıq prinsipinin tənqidinə yönəlmiş tədqiqatlarında daha mütəşəkkil vəhdət tapmışdır.

NEOKEYNSÇİLİK – keynsçiliyin müharibədən sonrakı dövrdə inkişaf şəraitində bazar təsərrüfatının dövlət tənzimlənməsi konsepsiyasını əsaslandıran modifikasiyası. Neokeynsçilik 1950-ci illərin birinci yarısında qərarlaşmış və 1970-ci illərin axırlarına qədər Qərbin inkişaf etmiş ölkələrinin iqtisadi siyasətinin əsas konsepsiyalarının biri

kimi mövcud olmuşdur. Neokeynsçiliyin ən tanınmış nümayəndələri R.Harrod, E.Hansen, Y.Domar, C.Robinson, N.Kaldor və başqalarıdır. Müharibədən sonrakı ilk onilliklərdə başlanmış elmi-texniki inqilab (ETİ) və həmin dövrdə təsərrüfatın inkişafında sanballı dinamizm nümayiş etdirən sosialist ölkələri ilə kəskin rəqabət şəraitində Qərbin inkişaf etmiş ölkələrinin iqtisadi siyasətində davamlı iqtisadi artımın təmini vəzifəsi ön plana keçmişdir. Lakin Keynsin nəzəriyyəsi bütövlükdə iqtisadiyyata qısamüddətli iqtisadi təhlil çərçivəsində statik yanaşma ilə fərqlənirdi. Bu yanaşmada əsas makroiqtisadi parametrlər dəyişməz qalırdı. Neokeynsçilik isə əsas diqqəti iqtisadi dinamikaya və iqtisadi tsikl nəzəriyyəsinə yönəldirdi.

Neokeynsçilik metodologiyası məcmu tələb, məcmu təklif, yığımlar, investisiyalar, milli gəlir və milli iqtisadiyyatın fəaliyyətinin əsas keyfiyyət asılılıqlarını fərqləndirməyə imkan verən başqa məcmu xalq təsərrüfatı kəmiyyətlərindən istifadə edən, Keyns tərəfindən işlənib hazırlanan makroiqtisadi yanaşmaya əsaslanır. Lakin neokeynsçilik statik yanaşmanı tənqid etmiş və uzunmüddətli dinamika elementlərinə əsaslanmışdır. Keynsin əsərlərində bu elementlər də təhlil edilmişdir. Neokeynsçilik çərçivəsində əsasən tam məşğulluğun təmin edilməsinə istiqamətlənmiş iqtisadiyyatın dövlət tənzimləməsi nəzəriyyəsindən uzunmüddətli artım siyasətinin əsaslandırılmasına keçid baş verir. Neokeynsçilik Keynsin belə bir postulatını dəstəkləyir ki, bazar təsərrüfatı avtomatik olaraq makroiqtisadi tarazlıq yaratmaq iqtidarında deyil, lakin Neokeynsçilik ağırlıq mərkəzini böhranın təhlilindən bütövlükdə bu tsiklin mexanizminin rekonstruksiya edilməsi üzərinə keçirir. Bu məqsədlə Keynsin səmərəli tələb nəzəriyyəsi inkişaf etdirilmişdir. Həmin nəzəriyyə əsasında iqtisadiyyatın tsiklik dəyişikliklər doğuran makroiqtisadi komponentlərinin qarşılıqlı təsiri nəzərdən keçirilir. Ümumi daxili məhsulun (ÜDM) faktiki səviyyəsinin potensial səviyyədən fərqlənməsi səmərəli tələbin dəyişməsinin nəticəsi kimi izah edilir (Harrod iqtisadi inkişafın bu iki tipindən əlavə, sahibkarlığın inkişafını da göstərirdi). Bu proseslər iqtisadi inkişafın "uzun dalğa" nəzəriyyələri ilə əlaqələndirilir, tələbin dövlət tərəfindən sistematik idarə edilməsi siyasəti ilə əsaslandırılırdı. "İqtisadi artım nəzəriyyəsi" (Harrod, Domar) milli gəlirin artım amillərini, bu artımın davamlı olmasını, dinamik tarazlığı təmin edən şərtlər problemini irəli sürmüşdür. Həmin nəzəriyyəyə görə, uzunmüddətli perspektivdə "özü-özünü dəstəkləyən artım" əmək məhsuldarlığının, məşğulluğun, kapitalın artım sürətinin davamlılığı ilə, eləcə də "kapital-məhsul" nisbətinin və milli gəlirin tərkibində mənfəətin nisbi payının sabit qalması sayəsində təmin edilir. İnvestisiyaların dinamikası ilə milli gəlir arasında qarşılıqlı əlaqə ayrıca tədqiq edilmişdir. Bu məqsədlə multiplikator və akselerator arasında qarşılıqlı əlaqəyə əsaslanan kumulyativ proses nəzəriyyəsi yaradılmışdır. Faktiki iqtisadi artımın potensial artımla kortəbii şəkildə yalnız təsadüfən üst-üstə düşə bilməsi barədə nəticə çox əhəmiyyətlidir. Bu, dövlətin müdaxiləsini zərurətə çevirir. Neokeynsçilik elmi-texniki tərəqqi (ETT) problemlərinə böyük əhəmiyyət verirdi. Texniki inkişafın tipləri və texniki göstəricilər problemi araşdırılmış, elmi tədqiqatların, yeni texnikanın tətbiqinin, iqtisadiyyatın strukturunun yenidən qurulmasının dövlət tərəfindən maliyyələşdirilməsinin və stimullaşdırılmasının zəruri olması barədə nəticə çıxarılmışdır.

1950-1960-cı illərdən ETİ ilə yanaşı neokeynsçilik də Qərbin inkişaf etmiş ölkələrinin iqtisadiyyatının demək olar ki, böhransız, davamlı inkişafının mühüm mənbəyinə çevrilmişdir. Lakin 1970-ci illərdə neokeynsçilik dərin böhran vəziyyətə düşdü və həmin onilliyin sonunda neokonservativ nəzəriyyələr tərəfindən sıxışdırıldı. Bu, ilk növbədə, artımın dövlət tərəfindən stimullaşdırılması barədə Keynsin reseptlərinin səmərəsinin tükənməsi ilə bağlı idi. Səmərəli tələbi idarə etmək cəhdləri iqtisadiyyatı durğunluq vəziyyətindən çıxarmır, yüksək inflyasiyaya səbəb olurdu. Bu hadisə staqflyasiya adlanır.

Son onilliklərin "monetar inqilabı" şəraitində neokeynsçiliyin müstəqil sol təmayülü güclənmiş və postkeynsçilik adı almışdır (Robinson, Koldar, Sraffa və b.). Postkeynsçilik neoklassik ənənəni kəskin tənqid edir, bazar iqtisadiyyatında qeyri-müəyyənliyin, inhisarların


qeyri-mükəmməl rəqabətinin və başqa amillərin rolunu vurğulayır, bölgü sferasını balanslaşdırmaq məqsədilə dövlət tərəfindən "gəlirlər siyasəti" yeridilməsinin zəruri olmasını israr edir.

NEOKLASSİK İQTİSADİYYAT NƏZƏRİYYƏSİ – XIX əsrin axırlarında iqtisadi təfəkkürdə yaranmış bu nəzəriyyəni müasir iqtisad elminin başlanğıcı hesab etmək olar. Bu nəzəriyyə klassik iqtisad elmində marjinalist inqilaba səbəb olmuşdur. Onun nümayəndələri həddi nəzəriyyələri ilə əməkdəyər nəzəriyyələrini birləşdirməyə cəhd etmişlər. Neoklassiklər iqtisadiyyatın ifrat təhlili vasitələri, ilk növbədə, U.Cevons, K.Menqer, L.Valras tərəfindən praktik olaraq eyni vaxtda ifadə edilmiş ifrat faydalılıq, eləcə də klassik siyasi iqtisadın bəzi nümayəndələri, məsələn, İ.Tünen tərəfindən istifadə edilən ifrat məhsuldarlıq anlayışının təhlil vasitələrini inkişaf etdirmişlər. Adları çəkilən müəlliflərlə yanaşı, C.Klark, F.Ecuort, İ.Fişer, V.Pareto və K.Viksel də neoklassisizmin ən məşhur nümayəndələrinə aiddir. Bu müəlliflər nemətlərin qiymətini müəyyən etmək üçün onların qıtlığının əhəmiyyətini vurğulayır, resursların mahiyyət etibarilə optimal bölgüsü barədə ümumi təsəvvür yaradırdılar. Bu halda, onlar ifrat təhlil nəzəriyyələrindən çıxış edərək nemətlərin optimal dəstini, istehsalın optimal strukturunu, amillərdən istifadə edilməsinin optimal intensivliyini, optimal məqamın (faiz dərəcəsinin) şərtlərini təyin edirdilər.

Bu məktəbin əsas nailiyyəti Valras tərəfindən işlənib hazırlanmış rəqabət tarazlığı modelidir. Keynsçilikdən fərqli olaraq neoklassik iqtisadiyyat nəzəriyyəsi iqtisadi hadisələrə makroiqtisadi mövqedən yanaşmır. Neoklassiklər sonradan yaranmış maddi rifah iqtisadiyyatı və iqtisadi artım nəzəriyyələri üçün təməl yaratmışlar. Bəzən bu konsepsiyaları "neoklassik məktəb" adlandırırlar. Bir sıra iqtisadçılar yaxın vaxtlara qədər klassik nəzəriyyənin, neoklassizmin və keynsçiliyin ayrı-ayrı müddəalarını birləşdirməyə cəhd edirdilər. Bu meyil, neoklassik sintez adı almışdır.

NEOKLASSİK MƏKTƏB – XX əsrin əvvəllərində marjinal inqilabdan bəhrələnən iqtisadi fikrin əsas magistral istiqamətlərindən biri. Son faydalılıq və son məhsuldarlıq konsepsiyalarının yaranması neoklassik məktəbin mükəmməl rəqabət sfe-

İqtisadi nəzəriyyələrin təkamülü prosesi



Sxem 1

rasında bazar sahibkarlığı təsərrüfatının nəzəriyyəsinin işlənməsinə zəmin olmuşdur. Xüsusən azad rəqabət və qiymət yaranma mexanizmlərinin təkmilləşən xətti neoklassikləri şəxsi və ictimai tarazlıq konsepsiyasını formalaşdırmağa vadar etmişdir. Neoklassik məktəbin yaradıcısı Avropada A.Marşall, Amerikada isə C.Klark olmuşdur. Neoklassik məktəb XX əsrin 30-cu illərinə qədər iqtisadi nəzəri və praktik həyatda hakim mövqedə dayanmışdır.

NEOKLASSİK SİNTEZ – ilk dəfə 1937-ci ildə C.Hiks tərəfindən elmi dövriyyəyə çıxarılmışdır. O, makronəzəriyyəni neoklassik mikronəzəriyyə ilə vahid nəzəri sistemdə birləşdirməklə kompromis variantlı "neoklassik sintez" adlanan ideya irəli sürmüşdür. P.Samuelsonun tədqiqatlarında bu nəzəriyyə inkişaf etdirilmişdir.

NEOKONSERVATİZM – Qərb iqtisadi təfəkküründün neoklassik istiqamətinin ən nüfuzlu müasir növlərindən biri. Metodoloji yanaşmalara və praktik nəticələrə görə, bir-birinə yaxın olan məktəblər qrupunu birləşdirir: Çikaqo məktəbinin monetarizm doktrinası (M.Fridman), Frayburq məktəbinin neoliberalizmi (V.Oyken), "yeni Fransa məktəbi" (E.Malenvo, T.Monbrial, L.Stoleryü). Onların ümumi cəhəti bazara və rəqabətə iqtisadiyyatın tənzimlənməsinin ən səmərəli mexanizmləri kimi münasibət bəsləmələridir. Lakin köhnə mühafizəkarlardan, "ortodoksal" liberalizm nümayəndələrindən fərqli olaraq neokonservatorlar dövləti bazar mexanizmlərinə sərbəstlik təmin edən, bazarda "oyun qaydaları"nı müəyyənləşdirən bazar infrastrukturunun formalaşmasına şərait yaradan zəruri institut sayırlar. Bu halda dövlət tənzimlənməsinin (ilk növbədə pul-kredit münasibətlərinin tənzimlənməsinin) müxtəlif formaları, selektiv struktur və elmi-texniki siyasət yeridilməsi, inkişafın agenti kimi dövlətin rolunun dəyişməsi ön plana çəkilir. Bu əsasda iqtisadi siyasətin bir-birinə çox oxşar modelləri qurulur. Bilavasitə təklif iqtisadiyyatı nəzəriyyələri, rasional gözləmələr nəzəriyyəsi müddəalarına əsaslanan neokonservativ iqtisadi siyasət əmtəə və xidmətlərə olan tələbin artırılmasından istehsalın stimullaşdırılmasına, tələbin məhdudlaşdırılması, xüsusilə xərclərin azaldılması, qənaətin və kapital yığımının təqdir edilməsi, bazar mexanizmlərinin inkişaf etdirilməsi yolu ilə milli iqtisadiyyatın səmərəliliyinin artırılmasına istiqamətləndirilmişdir. Məhdudlaşdırıcı pul siyasəti, vergilərin, dövlət xərclərinin və dövlət borcunun artım sürətinin, büdcə kəsirinin azaldılması nəticəsində Qərbin aparıcı ölkələrində inflyasiya sürəti əhəmiyyətli dərəcədə azalmışdır. Dövlət xərcləri azaldılarkən sosial ehtiyaclar üçün məsrəflər daha çox zərər çəkmişdir. Ümumi daxili məhsulda (ÜDM) onların nisbi payının artım sürəti aşağı düşmüşdür.

NEOLİBERALİZM – XX əsrin ikinci yarısında iqtisadi təfəkkürün əsas istiqamətlərindən biri. Neoliberalizm yeni (gənc) tarixi məktəbin ideyaları, neoklassika və ənənəvi liberalizm ənənələri ideyalarının sintezi əsasında xalq təsərrüfatı haqqında təlim yaratmağa cəhd etmişdir. Metodoloji baxımdan neoliberalizm tarixi məktəbə (xüsusilə K.Büxerin və V.Zombartın əsərlərinə) daha yaxındır. İctimai inkişaf prosesinin tədrici təkamül kimi izah edilməsi bu gün üçün səciyyəvi əlamətdir. Neoliberalistlər marjinalizmə yalnız geniş yayılmış bir nəzəri üsul kimi baxır, lakin onu tədqiqat üsulu kimi tətbiq etmirlər. Neoklassik artım və istehsal funksiyaları nəzəriyyəsinin müəllifləri kapitalist təkrar istehsalının kəmiyyət aspektlərini tədqiq etdikləri halda, neoliberallar keyfiyyət xarakterli, institusional problemlərə daha artıq diqqət yetirirdilər. Ənənəvi liberalizmlə neoliberalizmi yaxınlaşdıran

– ilk növbədə, istehsal vasitələri üzərində xüsusi mülkiyyətin hərtərəfli möhkəmlənməsi və təqdir edilməsi əsasında fərdi azadlıq ideyasıdır. Bununla bərabər, öz sələflərindən fərqli olaraq neoliberallar təsərrüfat həyatı proseslərini mikroiqtisadi mövqedən, müəssisələrin mülkiyyətçiləri olan ayrı-ayrı xüsusi sahibkarların mənafeləri baxımından deyil, makroiqtisadi mövqelərdən qiymətləndirirdilər. Neoliberalizm nəzəriyyəsinin işlənib hazırlanmasında alman iqtisadçıları, ilk növbədə, neoliberalizmin təməlini qoymuş və onun metodologiyasını yaratmış V.Oyken böyük rol oynamışdır. İkinci Dünya müharibəsindən sonra AFR-də və bir sıra digər Qərb ölkələrində neoliberalizm ideyaları geniş yayılmışdır. Neoliberalizm keyns-

çiliklə eyni vaxtda yaranmışdır. Hər iki təlim kapitalizmin özözünü tənzimləməsi barədə ənənəvi təsəvvürləri puç etmiş 1929-1933-cü illər böhranına siyasi iqtisadın münasibətini əks etdirirdi. Lakin C.Keyns kapitalizmin üzləşdiyi bəlaları səmərəli tələbin xroniki çatışmazlığı, dövlət iqtisadiyyata müdaxilə etmədikdə, bu quruluşun inkişaf üçün kifayət qədər stimuldan məhrum olması ilə əlaqələndirdiyi halda, neoliberalizmin baniləri bütün bəlaların bilavasitə mənbəyini mükəmməl rəqabətin zəifləməsində və istehsalın bazar tənzimləyicilərinin təsirini pozan təsərrüfatın inhisarlaşdırılmasında görürdülər.

NEŞ CON FORBS (1928) – Amerika iqtisadçısı, oyunlar və tarazlıq nəzəriyyələrinin banisi.



1994-cü ildə C.Xarşanyi və R.Selten ilə birlikdə "qeyri-kooperativ oyunların təhlilinə görə" Nobel mükafatı almışdır. Kornegi Texnoloji İnstitutunu bitirmişdir. Prinston Universitetində (1951), Massaçusets Texnoloji İnstitutunda (1951-1959) tədrislə və tədqiqatla məşğul olmuşdur. Priston Universitetinin riyaziyyat fakültəsinin professorudur. XX əsrin 50-ci illərdən başlayaraq "N sayda iştirakçısı olan oyunlarda tarazlıq nöqtələri", "Razılaşmalar problemi", "Qeyri-kooperativ oyunlar", "İki iştirakçısı olan kooperativ oyunlar" əsərlərini nəşr etdirmişdir. Neş qeyri-kooperativ oyunlar və kooperativ oyunlarda razılaşmalar nəzəriyyələrinin əsasını qoymuşdur. XX əsrin 70-80-ci illərdə qeyri-kooperativ oyunlar nəzəriyyəsi üstünlük əldə etməyə başladı.

NETTİNQ – 1. Bir neçə bank və ya onların filialları arasında borc öhdəliklərinin və maliyyə (o cümlədən, material) aktivlərinin qarşılıqlı kompensasiyası. Bu əməliyyat sayəsində bankların komisyon rüsumlarına qənaət etmək və valyuta risklərini azaltmaq imkanı yaranır. 2. Valyuta əqdlərinin konsolidasiyası, hərracların bütün iştirakçılarının və birja bölmələrinin hərəkətlərinin iriləşdirilməsi və uzlaşdırılması yolu ilə kəmiyyətcə azaldılması.

NETTO (lat. *netto* – xalis, təmiz) – malın qablaşdırılması nəzərə alınmadan xalis kütləsi. Güzəştlər çıxıldıqdan sonra malın xalis qiyməti, məsrəflər çıxıldıqdan sonra xalis gəlirdir ("brutto" termini ilə müqayisə edin).

NETTO DƏRƏCƏNİN ƏSAS HİSSƏSİ – netto mükafatı məbləğinin ödənişlərin məbləğindən çox olmasının 50% ehtimalını təmin edən netto dərəcənin bir hissəsi. Netto dərəcənin əsas hissəsi sığorta məbləğinin itkili olmasını əks etdirir.

NETTO-AKTİVLƏR – şirkətin kapitalının bazar dəyəri, o cümlədən onun qeyri-maddi aktivlərinin, eləcə də xarici borc öhdəliklərinin dəyəri.

NETTO-BALANS – xarici ticarətdə idxal ilə ixracın bərabər olması.

NETTO-FAİZ – vergilər çıxıldıqdan sonra faiz ödəmələri.

NETTO-İDXALATÇI – malların (xidmətlərin) hər hansı qrupunun idxalı ixracdan az olduğu ölkə.

NETTO-İXRACATÇI – malların (xidmətlərin) hər hansı qrupunun ixracı idxaldan az olduğu ölkə.

NETTO-MƏNFƏƏT – xalis mənfəət.

NETTO MÜKAFAT – sığorta fondunun formalaşması üçün nəzərdə tutulan brutto mükafatın bir hissəsi, ondan sonralar sığorta ödənişləri edilir.

NETTO-STAVKA – illik stavkadan sığorta haqlarının ehtiyatı üçün ayrılan hissə.

NEYMAN MODELİ – iqtisadi sistemin maksimal mümkün artım sürətinə, həmçinin, ona uyğun olan proporsiyaların və qiymətlərin tapılması üçün nəzərdə tutulan model; genişlənən iqtisadiyyatın sadə modeli. C.Fon Neyman tərəfindən 1937-ci ildə təklif edilmişdir. Neyman modeli iki A və B qeyri-mənfi matrisaları tərəfindən "m x n" qaydasında verilir. Matris A = (a_{ij}), məsrəf matrisi $B = (b_{ij})$ – buraxılış matrisi adlanır. Aij əmsalı j istehsal üsulunda i amilini və ya məhsul məsrəfləri kəmiyyətini, bij əmsalı isə -i məhsul buraxılışının istifadə edilməsinin vahid intensivliyi zamanı j üsuluna görə bu i məhsul buraxılışını göstərir. Modelin əsas çatışmayan cəhəti iqtisadiyyatın artımını məhdudlaşdıran xarici amillərin (əsasən, təkrar istehsal edilməyən resursların) nəzərə alınmamasıdır.

İqtisadiyyatın maksimum texnoloji artım sürəti aşağıdakı düstur ilə müəyyən edilir:

$$\sum_j x_j b_j p_i - \alpha \sum_j x_j a_j p_i =$$

$$= 0 \geq \sum_i b_j p_i - \alpha \sum_i a_j p_i$$

Burada; $x=x_1, ..., x_n$ – istehsal üsullarının intensivlik vektoru, minimum isə sıfırdan fərqlənən məxrəc üçün bütün i üzrə götürülür. Artım sürəti və x intensivlik vektoru, hansı ki, burada maksimuma nail olunur, Neyman sürəti adlanır. $P = (p_1,..., p_m)$ 0 amilləri və məhsulların Neyman qiymətləri ilə Neyman sürəti əlaqələndirilir.

Neyman intensivliyi və qiymətləri üçün fərqləndirici cəhət ondan ibarətdir ki, onlar artımın optimal trayektoriyasını və ona uyğun olan qiymətlərin optimal trayektoriyasını təsvir etməyə imkan verir.

NƏBİYEV NƏBİ ƏLİABBAS OĞLU (1925-2011) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof. 1958-ci ildə "Azərbaycanın qərb rayonlarının iqtisadi-coğrafi xarakteristikası və təsərrüfatının perspektiv inkişafı" mövzusunda namizədlik, 1980-ci ildə Daşkənd şəhərində "Azərbaycanın mineral xammal sərvətlərindən kompleks istifadə edilməsi və istehsalın inkişafı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.



250 çap vərəqi həcmində olan 20 kitabı, 150-dən çox jurnal, elmi konfrans məqalələri və tezislərinin əksəriyyəti təbii sərvətlərin, faydalı qazıntıların iqtisadi-ekoloji baxımdan səmərəli istifadə edilməsinin nəzəri-praktik məsələlərinə həsr edilmişdir. "Azərbaycanın mineral xammal ehtiyatlarından səmərəli istifadə edilməsi və istehsalın inkişafı" (1978), "Təbii sərvətlər və ekoloji mühit", (1987) "Təbii sərvətlərdən istifadə edilməsi və mühafizəsi" (1989) kitablarını, həmçinin, müstəqillik illərində "İqtisadiyyat, cəmiyyət və ekoloji mühit" (2000) fundamental monoqrafiyasını yazmışdır. Ekologiyanın iqtisadi problemləri sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasında böyük xidmətləri var. Bu sahədə respublikada elmi məktəb yaratmışdır.

1951-ci ildən ömrünün axırınadək AMEA-da işləmişdir. Prezident təqaüdçüsü olub.

NƏBİYEV RASİM ƏMİR OĞLU (1950) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1983-cü ildə Tbilisi Dövlət Universitetində "Sosializm quruculuğunun müxtəlif pillələrində təsərrüfat hesabının nəzəri və praktik məsələləri" mövzusunda namizədlik, 2003-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Müdafiə Şurasında "Azərbaycanın keçid dövründə kommersiya hesabının nəzəri və praktik problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Əmək fəaliyyətinə 1975-ci ildə Bakı Dövlət Universitetində müəllim vəzifəsində başlamışdır.



Təhsil sahəsindəki xidmətləri yüksək qiymətləndirilmişdir. 1999-cu ildə Yusif Məmmədəliyev adına mükafata layiq görülmüşdür.

2004-2009-cu illərdə Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın iqtisad elmləri və hüquq elmləri üzrə Ekspert Şurasının sədri olmuşdur. 1 monoqrafiya və 2 kitab, 100-dən çox məqalənin müəllifidir. Hazırda Azərbaycan İctimai-Siyasi Universitetinin rektorudur.

NƏCƏFOV ZAKİR MƏCİD OĞLU (1951) – Azərbaycan iqtisadçısı, i.e.d., 1972-ci ildə M.Əzizbəyov adına Neft-Kimya İnstitutunu bitirmişdir. 1986-cı ildə namizədlik, 2011-ci ildə "Azərbaycan Respublikasında milli innovasiya sisteminin formalaşması və inkişafı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.



1972-1973-cü illərdə "Sumqayıtkimyasənaye" İB-də iqtisadçı, 1973-1990-cı illərdə AMEA-nın Neft-Kimya Prosesləri İnstitutunun "İqtisadi tədqiqatlar" laboratoriyasında kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi vəzifələrində çalışmaqla neftayırma və neft-kimya sənayesinin perspektiv inkişaf istiqamətlərinin əsaslandırılması və səmərəliliyi sahələrində elmi-tədqiqat işlərinə rəhbərlik etmişdir. 1990-cı ildə yeni yaranmış "Azərməişəttexnologiya" EİB-nə elmi katib vəzifəsi həvalə edilməklə, iqtisadi şöbənin rəisi, 1991-ci ildə həmin Birliyin nəzdində yaradılmış "Ekstra" elmi-istehsalat dövlət müəssisəsinə rəhbər, 1992-ci ildən həmin birliyin baş direktoru, 1993-

cü ildə Kiyev "MASMA" EİB-nin "MASMA servis" dövlət müəssisəsinin Bakı filialının direktoru, 1994-cü ildə AMEA-nın Nəzarət-Təftiş şöbəsinin rəisi, 1999-cu ildə AMEA-nın Maliyyə-İqtisad şöbəsinin rəis müavini, 2001-ci ildən bugünədək həmin şöbənin rəisidir. 4 monoqrafiyanın, çoxsaylı elmi məqalənin müəllifidir.

NƏQLETMƏ KƏMƏRİ – neft məhsulları və təbii qazın nəqletmə sistemi. İlk neft nəqletmə kəməri 1865-ci ildə "Standartoyl" şirkətini ABŞ-ın dəmiryol maqnatlarının asılılığından qurtarmaq üçün salınmışdır. 1897-1907-ci illərdə Bakı və Batumi arasında salınmış neft kəməri dövrünün ilk və nəhəng kəmərlərindən sayılırdı. Dünyada ən nəhəng neft nəqletmə kəmərlərindən biri. Uzunluğu 5300 kilometr olan və 1964-81-ci illərdə SSRİ-də salınmış Dostluq neft kəməridir.

NƏQLİYYAT – iqtisadiyyatın mühüm sahəsi. Onun tərkibinə ölkə ərazisində müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmış yüklərin və insanların daşınma vasitələri, o cümlədən dəmir yolu, avtomobil, dəniz, daxili su, hava, şəhər və şəhərətrafı elektrik, metropoliten, həmçinin ölkənin ərazisində yerləşən magistral boru kəmərləri daxildir.

Azərbaycan Respublikasının əlverişli geosiyasi mövqeyi onun beynəlxalq nəqliyyat sisteminə inteqrasiya olunmasında mühüm rol oynayır. Azərbaycan Respublikasının ərazisində kəsişən "Avropa-Qafqaz-Asiya" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri vasitəsilə beynəlxalq və daxili daşımaların həyata keçirilməsinin təmin edilməsi üçün nəqliyyatın bütün növlərinə: dəmir yolu, su, avtomobil, hava və metropoliten nəqliyyatına malikdir. Həmçinin, respublikanın paytaxtı Bakı şəhərində nəqliyyatın tərkib hissəsi olan metropoliten də fəaliyyət göstərir. Respublikada yerüstü və digər nəqliyyat növlərinin hərəkətini təmin edən, daim yeniləşən geniş yol və müasir naviqasiya infrastrukturları mövcuddur.



Dəmir yolu nəqliyyatı. 1880-ci ildə uzunluğu 20 km olan Bakı-Sabunçu sahəsində neftin buxar dartısı vasitəsilə daşınması üçün dəmir yolu xəttinin tikilib istifadəyə verilməsi ilə Azərbaycan dəmir yollarının əsası qoyulmuşdur. Daha sonra 1883-cü ildə uzunluğu 550 km olan Bakı-Tiflis, 1900-cü ildə isə uzunluğu 231 km olan Dərbənd-Biləcəri dəmir yolunun tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir. Keçmiş SSRİ məkanında ilk elektrikləşdiril-





miş dəmir yolu 1926-cı ildə məhz Azərbaycanda Bakı-Sabunçu-Suraxanı sahəsində istismara verilmişdir.

Azərbaycan Respublikasında dəmir yollarının ümumi uzunluğu 2944 km, istismar uzunluğu isə 2122 km təşkil edir ki, bunun da 1277,1 km-i elektrikləşdirilmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra respublikada lokomotiv, vaqon və digər hərəkət tərkiblərinin əsaslı təmiri təşkil edilmişdir. Bundan başqa, dəmir yolunun hərəkət sürətinin artırılması planlaşdırılır ki, bu da yük buraxma qabiliyyətini artıracaqdır.

Su nəqliyyatı. Azərbaycanda su nəqliyyatının təşkilati əsası 1858-ci ildə "Qafqaz və Merkuri" Səhmdar Dənizçilik Cəmiyyətinin təsis edilməsi ilə qoyulmuşdur.

Hazırda dəniz donanmasında dedveyti 13,5 min ton olan tankerlər, 28 və 52 vaqonluq tutumu olan bərələr, quru yükdaşıyan, RO-RO tipli və xüsusi təyinatlı gəmilər mövcuddur. Azərbaycan Xəzər dənizində ən güclü donanmaya malikdir. Azərbaycana məxsus gəmilər nəinki Xəzər hövzəsində, həmçinin Qara dəniz, Aralıq dənizi, Mərmərə dənizi hövzələrində fəaliyyət göstərməklə, müxtəlif yükləri Avropa, Yaxın Şərq, Şimali Afrika ölkələrinin, eləcə də digər ölkələrin limanlarına daşıyır.



Milli Qəhrəman Mübariz İbrahimovun adına gəmi ("Palmali" Şirkətlər Qrupu)

XVI əsrin ortalarında əsası qoyulmuş və 1902-ci ildə yenidən qurulmuş Bakı limanı bu gün Azərbaycanın ən iri limanıdır. Liman yükaşırma işləri, yüklərin anbarlarda yığılıb saxlanılması və bununla əlaqədar yardımçı əməliyyatlarla yanaşı, gəmilərə müxtəlif növ xidmətlər göstərir. Limanın Azərbaycanın avtomobil və dəmir yollarının daxil olduğu beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişdiyi ərazidə yerləşən Ələt qəsəbəsinə köçürülməsi nəzərdə tutulur ki, bu da gələcəkdə onun regionda mühüm logistik mərkəzlərdən birinə çevrilməsinə səbəb olacaqdır.

Avtomobil nəqliyyatı. 1920-1930-cu illərdə, əsasən, neft sənayesində texnoloji və xüsusi məqsədlər üçün ixtisaslaşdırılmış avtomobil parkının yaradılması ilə əsası qoyulmuş avtomobil nəqliyyatı sürətlə inkişaf edərək, hərəkət tərkibinin sayı 896 ədəddən hazırda 780 min ədədə çatmışdır. Avtomobil nəqliyyatı respublika üzrə sərnişin və yükdaşımalarının 65%-ni təşkil edir.

2008-ci ildə Bakı şəhərində sərnişin nəqliyyatının hərəkətinin tənzimlənməsi və şəhər nəqliyyatının idarə edilməsi üçün

ən müasir texnologiyalar tətbiq edilməklə Nəqliyyat Əməliyyatlarının İntellektual İdarəedilməsi Sisteminin yaradılmasına başlanılmışdır. Bu sistemin fəaliyyət dairəsi yalnız Bakı şəhərinin ərazisini deyil, eyni zamanda, bütün Abşeron yarımadasını əhatə edəcəkdir.

Hava nəqliyyatı. 1925-ci ildə Keşlə qəsəbəsində ilk hava limanının tikilməsi ilə Azərbaycanda hava nəqliyyatının təşkilati əsası qoyulmuşdur. Respublika müstəqillik əldə etdikdən sonra, beynəlxalq standartlara cavab verən müasir Boeing, Aerobus, ATR və s. tipli hava gəmiləri, həmçinin, helikopterlər alınaraq hava nəqliyyatı parkı müasirləşdirilmişdir.

Azərbaycanda Bakı, Gəncə və Naxçıvan şəhərlərində beynəlxalq hava limanları fəaliyyət göstərir. Yerli əhəmiyyətli Yevlax, Şəki, Zaqatala və Lənkəran hava limanlarının müasir standartlara uyğun yenidən qurulmasına başlanılmışdır. Bakı şəhərində yerləşən Heydər Əliyev Hava Limanında müasir tipli logistik yük terminalı fəaliyyət göstərir.

Metropoliten. 1967-ci ilin noyabr ayının 6-da Bakı şəhərində 5 stansiyadan (Bakı Soveti – 26 Bakı Komissarları – 28 Aprel – Gənclik – Nəriman Nərimanov) və 6,5 km-lik yeraltı yollardan ibarət olan birinci xətt istismara verilməklə, metropolitenin fəaliyyətinin əsası qoyulmuşdur. Hazırda metropolitendə 2 xətt üzrə 22 stansiya mövcuddur. Stansiya və tunellərdən başqa böyük texniki qurğular kompleksi də istismara verilmişdir. Metronun istismar xəttinin ümu-



Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi





"Dərnəgül" metro stansiyası

Sərnişin daşınmasına görə dünyanın 20 nəhəng aeroportu

№	Aeroport	Sərnişin daşınması, ildə mln. nəfər
1.	Atlanta	90,0
2.	Çikaqo	69,4
3.	London	67,1
4.	Tokio	66,8
5.	Paris	60,9
6.	Los-Ancelos	59,5
7.	Dallas	57,1
8.	Pekin	55,9
9.	Frankfurt	53,5
10.	Denver	51,2
11.	Madrid	50,8
12.	Honkonq	47,9
13.	Nyu-York	47,8
14.	Amsterdam	47,4
15.	Las-Veqas	43,2
16.	Hyuston	41,7
17.	Feniks	39,9
18.	Banqkok	38,6
19.	Sinqapur	37,7
20.	Dubay	37,4

Yük daşınmasına görə dünyanın 20 nəhəng aeroportu

№	Aeroport	Yük dövriyyəsi, ildə mln. t
1.	Honkonq	3,7
2.	Memfis	3,7
3.	Şanxay	2,6
4.	İnçeon	2,4
5.	Ankoric	2,3
6.	Paris	2,3
7.	Tokio	2,1
8.	Frankfurt	2,1
9.	Luisvill	2,0
10.	Sinqapur	1,9
11.	Dubay	1,8
12.	Mayami	1,8
13.	Amsterdam	1,6
14.	Los-Ancelos	1,6
15.	London	1,5
16.	Nyu-York	1,5
17.	Taypey	1,5
18.	Pekin	1,4
19.	Çikaqo	1,3
20.	Banqkok	1,2

Dünyanın ən çox vertolyot stansiyası olan 20 ölkəsi

№	Ölkə	Vertolyot stansiyaları-nın sayı
1.	Cənubi Koreya	516
2.	ABŞ	126
3.	Rusiya	48
4.	Çin	45
5.	Hindistan	37
6.	İndoneziya	36
7.	Almaniya	25
8.	KXDR	22
9.	İraq	21
10.	Türkiyə	21
11.	İran	19
12.	Pakistan	19
13.	Yaponiya	15
14.	Braziliya	13
15.	Kanada	12
16.	Əfqanıstan	11
17.	Böyük Britaniya	11
18.	Yunanıstan	9
19.	İspaniya	9
20.	Səudiyyə Ərəbistanı	9

Dünyanın ən az vertolyot stansiyası olan 20 ölkəsi

№	Ölkə	Vertolyot stansiyaları-nın sayı
1.	Avstraliya	1
2.	Avstriya	1
3.	Azərbaycan	1
4.	Bəhreyn	1
5.	Belarus	1
6.	Belçika	1
7.	Kamboca	1
8.	Lüksemburq	1
9.	Mərakeş	1
10.	Meksika	1
11.	Monqolustan	1
12.	Niderland	1
13.	Norveç	1
14.	Peru	1
15.	Fransa	1
16.	Xorvatiya	1
17.	Çexiya	1
18.	İsveçrə	1
19.	Estoniya	1
20.	CAR	1

Dünyanın ən qısa avtomobil yolları olan 20 ölkəsi

№	Ölkə	Avtomobil yollarının uzunluğu, km
1.	Tuvalu	8
2.	Nauru	24
3.	Monako	50
4.	Maldiv adaları	88
5.	MFŞ	240
6.	Andorra	270
7.	San-Marino	292
8.	San-Tome və Prinsipi	320
9.	Lixtenşteyn	380
10.	Sent-Kits və Nevis	383
11.	Seyşel adaları	458
12.	Kiribati	670
13.	Tonqa	680
14.	Dominika	780
15.	Sent-Vinsent və Qrenadina	829
16.	Komor adaları	880
17.	Vanuatu	1070
18.	Qrenada	1127
19.	Antiqua və Barbuda	1165
20.	Sent-Lüsiya	1210

Dünyanın ən qısa dəniz yolları olan 20 ölkəsi

№	Ölkə	Dəniz yollarının uzunluğu, km
1.	Kiribati	5
2.	Yunanıstan	6
3.	Lixtenşteyn	28
4.	Lüksemburq	37
5.	Albaniya	43
6.	Toqo	50
7.	İsveçrə	65
8.	Benin	150
9.	Şri-Lanka	160
10.	Slovakiya	172
11.	Tacikistan	200
12.	Fici	203
13.	Bruney	209
14.	Portuqaliya	210
15.	Kuba	240
16.	Latviya	300
17.	Niger	300
18.	Estoniya	320
19.	Qayana	330
20.	Avstriya	358

Dünyanın ən qısa dəmir yol şəbəkəsi olan 20 ölkəsi

№	Ölkə	Dəmir yollarının uzunluğu, min km
1.	Paraqvay	36
2.	Sent-Kits və Nevis	50
3.	Nepal	59
4.	Panama	76
5.	Cibuti	100
6.	Çernoqoriya	250
7.	Lüksemburq	275
8.	Kosta-Rika	278
9.	Salvador	283
10.	Svazilend	301
11.	Eritreya	306
12.	Qvatemala	332
13.	Livan	401
14.	Liberiya	429
15.	Qırğızıstan	470
16.	İordaniya	507
17.	Toqo	532
18.	Benin	578
19.	Mali	593
20.	Fici	597

Dünyanın ən uzun avtomobil yolları olan 20 ölkəsi

№	Ölkə	Avtomobil yollarının uzunluğu, min km
1.	ABŞ	6466
2.	Hindistan	3316
3.	Çin	1931
4.	Braziliya	1752
5.	Yaponiya	1197
6.	Kanada	1042
7.	Fransa	952
8.	Rusiya	933
9.	Avstraliya	813
10.	İspaniya	681
11.	Almaniya	644
12.	İtaliya	488
13.	Türkiyə	427
14.	İsveç	425
15.	Polşa	424
16.	Böyük Britaniya	398
17.	İndoneziya	391
18.	CAR	362
19.	Meksika	357
20.	Pakistan	259

Dünyanın ən uzun dəmir yol şəbəkəsi olan 20 ölkəsi

№	Ölkə	Dəmir yollarının uzunluğu, min km
1.	ABŞ	226,4
2.	Rusiya	87,2
3.	Çin	77,8
4.	Hindistan	63,3
5.	ABŞ	46,7
6.	Almaniya	41,9
7.	Avstraliya	37,9
8.	Argentina	31,4
9.	Fransa	29,2
10.	Braziliya	28,9
11.	Yaponiya	23,5
12.	Polşa	22,3
13.	Ukrayna	21,7
14.	CAR	20,9
15.	İtaliya	19,7
16.	Meksika	17,5
17.	Böyük Britaniya	16,5
18.	İspaniya	15,3
19.	Qazaxıstan	13,7
20.	İsveç	11,6

Dünyanın ən uzun neft kəmərləri olan 20 ölkəsi

№	Ölkə	Neft kəmərlərinin uzunluğu, min km
1.	ABŞ	244,6
2.	Rusiya	74,3
3.	Kanada	23,6
4.	Çin	20,2
5.	Qazaxıstan	10,4
6.	Meksika	8,7
7.	Hindistan	7,7
8.	Əlcəzair	7,6
9.	İran	7,0
10.	Liviya	7,0
11.	Venesuela	6,7
12.	Kolumbiya	6,1
13.	Argentina	5,9
14.	İndoneziya	5,7
15.	İraq	5,4
16.	Braziliya	4,5
17.	Ukrayna	4,5
18.	Misir	4,3
19.	Səudiyyə Ərəbistanı	4,2
20.	Sudan	4,1

Dünyanın ən uzun dəniz yolları olan 20 ölkəsi

№	Ölkə	Dəniz yollarının uzunluğu, min km
1.	Çin	110,0
2.	Rusiya	102,0
3.	Braziliya	50,0
4.	ABŞ	41,0
5.	İndoneziya	21,6
6.	Kolumbiya	18,0
7.	Vyetnam	17,7
8.	Konqo (Kinşas)	15,0
9.	Hindistan	14,5
10.	Myanma	12,8
11.	Argentina	11,0
12.	Papua-Yeni Qvineya	11,0
13.	Boliviya	10,0
14.	Peru	8,8
15.	Nigeriya	8,6
16.	Fransa	8,5
17.	Banqladeş	8,4
18.	Finlandiya	7,8
19.	Almaniya	7,5
20.	Malayziya	7,2

Dünyanın ən uzun qaz kəmərləri olan 20 ölkəsi

№	Ölkə	Qaz kəmərlərinin uzunluğu, min km
1.	ABŞ	548,7
2.	Rusiya	158,8
3.	Ukrayna	33,3
4.	Argentina	28,1
5.	Çin	28,1
6.	Avstraliya	27,1
7.	Almaniya	24,4
8.	Meksika	22,7
9.	İran	19,2
10.	İtaliya	17,5
11.	Fransa	14,7
12.	Əlcəzair	14,6
13.	Polşa	13,6
14.	Qazaxıstan	11,1
15.	Pakistan	10,4
16.	Braziliya	9,9
17.	Özbəkistan	9,7
18.	İspaniya	7,7
19.	Türkiyə	7,6
20.	Böyük Britaniya	7,5

mi uzunluğu 30 km, qatarlarda olan vaqonların sayı isə 264-dür. Yaxın gələcəkdə Bakı metropoliteni xətlərinin uzunluğunun 52 kilometrə, stansiyaların sayının isə 32-yə çatdırılması planlaşdırılır.

Yol infrastrukturu. XX əsrin əvvəllərinə qədər Azərbaycanın yol infrastrukturu əsasən təbii torpaq yollardan ibarət idi. Yalnız 1911-ci ildən sonra bərk örtüklü yolların tikintisinə başlanılmış və hazırda bu yolların uzunluğu 18635 km təşkil edir. "Avropa - Qafqaz - Asiya" (TRASEKA) və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan Respublikasının ərazisindən keçən hissələri, eləcə də respublika əhəmiyyətli digər avtomagistrallar yenidən qurularaq beynəlxalq standartlara uyğunlaşdırılır. Paralel olaraq, Bakı şəhərində və respublikanın digər iri yaşayış məntəqələrində nəqliyyat sıxlığının aradan qaldırılması məqsədilə çoxsaylı yol ötürücüləri, körpü, tunel, piyada keçidlərinin, çoxmərtəbəli yerüstü və yeraltı avtomobil dayanacaqlarının tikintisi həyata keçirilir.

Nəqliyyat sahəsində təhsil müəssisələri. Nəqliyyatın spesifikliyi nəzərə alınaraq, nəqliyyat sisteminin dayanıqlı fəaliyyətinin təmin olunması məqsədilə hava və su nəqliyyatı üzrə ixtisaslı kadrlarm hazırlanması üçün Milli Aviasiya Akademiyası və Dövlət Dəniz Akademiyası yaradılmışdır. Avtomobil və dəmir yolu nəqliyyatı üzrə mütəxəssislərin hazırlığı Azərbaycan Texniki Universitetində, yol infrastrukturu üzrə kadrların hazırlanması isə Memarlıq və İnşaat Universitetində həyata keçirilir. Həmçinin, respublikanın digər dövlət və özəl təhsil müəssisələrində də nəqliyyat sahəsi üzrə mütəxəssislər hazırlanır.



Yeni Avtovağzal

Azərbaycanda 2011-ci ildə nəqliyyat və tranzit potensialının genişləndirilməsi məqsədi ilə regional və yerli əhəmiyyətli iri infrastruktur layihələrinin reallaşdırılması, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolunun, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, TRASEKA və Şimal-Cənub, Şərq-Qərb beynəlxalq dəhlizlərində yolların tikintisi davam etdirilmiş, yeni metro stansiyaları və hava limanı istifadəyə verilmişdir.

NƏQLİYYAT MÜƏSSİSƏSİ – qanunvericiliyə və öz təsis sənədlərinə uyğun fəaliyyət göstərən, yük, sərnişin, baqaj və poçtdaşımalar, nəqliyyat vasitələrinin saxlanılması, texniki xidmət və təmir, yükləmə-boşaltma və liman xidmətləri göstərən hüquqi şəxs.

NƏQLİYYAT NAZİRLİYİ (NN) – 1998-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən yaradılmışdır. Dəmir yolu, su, avtomobil, mülki hava nəqliyyatı və avtomobil yolları sahələrində vahid dövlət siyasətini formalaşdıran və həyata keçirən, sahələrarası münasibətləri tənzimləyən mərkəzi icra hakimiyyəti orqanıdır.

1993-cü ildən başlayaraq Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçid və aparılan iqtisadi islahatlar nəticəsində nəqliyyat xidmətlərinə olan tələbatın xarakterindən asılı olaraq, nəqliyyatın iş şəraiti köklü surətdə dəyişmiş, sonrakı dövr ərzində isə nəqliyyat sahəsində strukturların və idarəetmə institutlarının əsaslı yeniləşdirilməsinə nail olunmuşdur. İlkin özəlləşdirmələr birbaşa inzibati idarəetmədən bazar subyektlərinin dövlət tənzimlənməsi sisteminə keçirilmiş, yeni sosial-iqtisadi şəraitdə nəqliyyatın fəaliyyətinin hüquqi əsası yaradılmışdır.

İslahatların aparılmasına başlanılan dövrdən nəqliyyat sistemi bütövlükdə sərnişin və yükdaşı-

malarına olan tələbatın ödənilməsi ilə yanaşı, keyfiyyətcə yeni mərhələyə daxil olmuşdur.

Azərbaycan müasir nəqliyyat sisteminə quru yol nəqliyyatı – dəmir yol, metro, tramvay, trolleybus, avtobus, taksi, yük avtomobili, magistral boru və qaz kəməri, su nəqliyyatı – dəniz, daxili su, hava nəqliyyatı, köməkçi və əlavə nəqliyyat sahələri daxildir.

Azərbaycan Respublikasının nəqliyyat sistemində dəmir yolu aparıcı sahədir. 2010-cu ildə dəmir yollarının ümumi uzunluğu 1920-ci ildəki 837 km-dən 2,5 dəfə artmışdır. Azərbaycan dəmir yolunun texniki-iqtisadi göstəricilərində müsbət irəliləmələr dövrü 1999-cu ildən başlamışdır. Neft sənayesinin inkişafı ilə əlaqədar müvafiq sistemlərin sayı xeyli artmış, bir sıra stansiyalarda müasir konteyner parkları yaradılmışdır. Dəmir yol stansiyalarında yenidənqurma işləri aparılır. TRASEKA Proqramı çərçivəsində Poylu-Salahlı, Tovuz-Qovlar körpüləri və Biləcəri buxarla yuma stansiyası bərpa olunmuşdur. Dəmir-beton şpallar zavodu (illik istehsal gücü 350 min ədəd) istifadəyə verilmişdir.

2010-cu ildə avtomobil yollarının ümumi uzunluğu 21,5 min km, ondan ümumi istifadədə olan 18,8 min km, o cümlədən bərk örtüklü yol 18,6 min kmdən çox olmuşdur. Respublikada bütün şəhərləri, rayon mərkəzlərini, şəhərtipli qəsəbələri, hava və dəniz limanını, dəmir yol stansiyalarını, kurort və əhalinin digər istirahət yerlərini, həmçinin dövlət sərhədinin keçid məntəqələrini əlaqələndirən avtomobil yolları şəbəkəsi formalaşmışdır. 2010-cu ildə respublikanın yük dövriyyəsinin j hissəsi, yük daşımalarının 6%-i su (dəniz) nəqliyyatının payına düşmüş və 1990-cı ilə nisbətən 30 faizdən çox olmuşdur. Dəniz nəqliyyatı ilə bütünlükdə 13,2 mln. ton yük daşınmışdır. Regionda ən böyük gəmiçilik şirkətlərindən biri olan Xəzər Dəniz Gəmiçiliyinə quru yük gəmisi və tanker donanması, yük-sərnişin dəniz gəmi-bərələri, "Xəzər Dəniz Gəmi Təmiri" İstehsalat Birliyi, "Xəzər Dəniz Yol İdarəsi", layihə-konstruktor bürosu; informasiya-hesablama mərkəzi, Azərbaycan Dövlət Dənizçilik Akademiyası və digər obyektlər daxildir. Dəniz nəqliyyatında balıq ovu, sənaye, təsərrüfat, hərbi, elmi-tədqiqat, xidmət və s. təyinatlı gəmilər istismar edilir.

Azərbaycan Respublikasının hava nəqliyyatı ilə müxtəlif ölkələrdəki 80-dən çox şəhər ilə əlaqə saxlanır, ölkə daxilində 20 istiqamətdə sərnişin və yük daşınır. Heydər Əliyev adına Beynəlxalq Hava Limanı saatda 1700 sərnişinə xidmət göstərir. Bu, 1985-ci il səviyyəsinə nisbətən 6 dəfədən çoxdur. 1 sərnişinin orta daşınma məsafəsi 1316,3 *km*-dir. Sahəni inkişaf etdirmək üçün aviasiya xətləri yeni tipli sərnişin və yük təyyarələri ilə təmin edilir. Aviasiyada yerüstü naviqasiya və radiotexnika avadanlığı ilə təmin olunmuş sistemlərdən geniş istifadə edilir. Azərbaycan Respublikasında hazırda iki beynəlxalq aeroport (Bakı və Naxçıvanda) fəaliyyət göstərir. Respublika Mülki Hava Donanması dünyanın bir çox ölkələrinə sərnişin və yük daşınmasını həyata keçirir. Respublikada helikopter təsərrüfatı da mövcuddur. Respublikanın hava nəqliyyatı sahəsi üçün yüksək ixtisaslı kadrlar Milli Aviasiya Akademiyasında hazırlanır. Azərbaycan hökuməti Hava Yolları Dövlət Konserni Beynəlxalq Mülki Aviasiya Təşkilatının və Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının tamhüquqlu üzvüdür. XX əsrin ikinci yarısında dünyanın inkişaf meyillərini araşdırarkən məlum olur ki, nəqliyyatın bütün növləri üçün intensiv inkişaf xarakterikdir. Ölkədaxili nəqliyyat əlaqələrinin inkişafı ilə yanaşı, dövlətlər, uzaq regionlararası əlaqələr daha sürətlə inkişaf edir. Bu gün 10000 km-lə bir-birindən uzaqda yerləşən ölkələr arasında birbaşa nəqliyyat iqtisadi əlaqələri yaranır və bu meyil getdikcə daha da genişlənir. Qloballaşan dünyada hər bir dövlət yaxşı başa düşür ki, dünya iqtisadiyyatına qovuşmadan sabit inkişafı təmin etmək olmaz.

Azərbaycan Brüsseldə keçirilən (1993) beynəlxalq konfransda Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafını başlıca məqsəd kimi nəzərdə tutan bəyannaməni imzalamış və TRASEKA Proqramına qoşulmuşdur. Avropa İttifaqının dəstəyi ilə Bakıda keçirilən (1998) dünyanın 32 dövlətinin nümayəndələrinin iştirak etdiyi "Böyük İpək Yolu"nun bərpasına həsr olunmuş beynəlxalq konfransda Avropa və Asiyanın 12 dövləti tərəfindən Avropa-Qafqaz-

Asiya (TRASEKA) dəhlizinin inkişafına dair beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş imzalanmışdır. Bakıda TRASEKA-nın Daimi Katibliyinin baş ofisi açılmışdır.

Azərbaycanın Avropa-Asiya nəqliyyat dəhlizində müstəsna rolu bu dəhlizin reallaşması sahəsində Avropa və Asiyanın aparıcı dövlətlərinin son dərəcə maraqlı olması, Azərbaycanın dinamik inkişafında nəqliyyat amilinin rolunu xeyli artırır. Keçmiş İttifaq zamanı respublikanın yük dövriyyəsi SSRİ üzrə vahid xalq təsərrüfatı kompleksinin tələbləri baxımından formalaşmışdı ki, bu da respublikanın maraqları baxımından tam sərfəli deyildi. Azərbaycan müstəqillik əldə etdikdən sonra onun nəqliyyat iqtisadi əlaqələri ölkənin milli maraqları, iqtisadi təhlükəsizlik baxımından qiymətləndirilir. Bu məqsədlə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin fəaliyyətinin genişlənməsi, yüklərin maneəsiz, yubanmadan daşınmasına xidmət edən və bazar iqtisadiyyatının tələblərinə cavab verən normativ-hüquqi baza yaradılması, dəmir yolunun rekonstruksiya edilməsi, Bakı dəniz limanının yenidən tikilməsi, Bakıda və regionlarda müasir aeroportların istifadəyə verilməsi, özünün maddi-texniki bazası ilə Avropada ən böyük gəmiçilik idarələrindən sayılan Xəzər Gəmiçilik İdarəsinin gücündən səmərəli istifadə edilməsi sahəsində konkret proqramlar həyata keçirilir.

Qədim İpək Yolunun bərpası Azərbaycanın Avropa və Şərqlə əməkdaşlığının daha da dərinləşməsi, inteqrasiya proseslərinin güclənməsi üçün təsirli amil, eyni zamanda, onun iqtisadi təhlükəsizliyinin etibarlı qarantıdır. Nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğun olaraq yeniləşməsi, milli nəqliyyat-yol sisteminin dünya kommunikasiya məkanına sürətli inteqrasiyası üçün möhkəm baza yaratmışdır.

Cədvəl 1

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində nəqliyyatın fəaliyyəti (Azərbaycan hissəsində)

	2000	2005	2010	2011
Yük daşınmışdır, milyon ton	29,1	46,7	51,7	53,9
Tranzit yük daşınmışdır, milyon ton	8,5	15,0	16,0	16,2
Yük dövriyyəsi, milyard ton-km	8,40	13,4	13,2	13,6
Tranzit yüklərin dövriyyəsi, milyard ton-km	3,6	6,6	7,1	7,8
Sərnişin daşınmışdır, milyon sərnişin	152,1	158,7	223,2	241,5
Sərnişin dövriyyəsi, milyard sərnişin-km	3,1	3,4	4,7	4,9

Şübhəsiz ki, Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir yolu dəhlizinin istifadəyə verilməsi Azərbaycanın Avropa və Şərq ilə nəqliyyat-iqtisadi əlaqələrinin inkişafına çox böyük təkan verəcəkdir.

Qısa zaman kəsiyində ölkədə nəqliyyat fəaliyyətinin tənzimlənməsi üçün normativ hüquqi baza yaradılmış, vahid dövlət nəqliyyat siyasəti formalaşmış, onun beynəlxalq nəqliyyat sisteminə inteqrasiya olunması təmin edilmişdir.

Bu mərhələnin prinsipial xüsusiyyətlərindən biri ondan ibarətdir ki, respublika əhalisinin və iqtisadiyyatın nəqliyyat xidmətlərinə artan tələbatı ödənilir, tranzit potensialı artırılır; nəqliyyat xidmətləri bazarı inkişaf edir, sağlam rəqabət mühiti genişləndirilir; ölkə əhalisinin, xüsusilə ucqar ərazilərdə yaşayan vətəndaşların müxtəlif nəqliyyat xidmətləri ilə təmin edilməsi yaxşılaşır.

Son illərdə Nəqliyyat Nazirliyi ölkənin tranzit imkanlarından tam istifadə edilməsi, milli yükdaşıyıcıların rəqabət qabiliyyətinin artırılması və nəqliyyat xidmətləri ixracının inkişafı, nəqliyyat növlərində yeni təhlükəsizlik standartlarının tətbiq edilməsi ilə bağlı mühüm proqramlar həyata keçirir.

Respublikada ətraf mühitin çirklənməsinin qlobal xarakter aldığını nəzərə alaraq, gələcəkdə neqativ halların qarşısının alınması məqsədi ilə ekoloji təhlükəsizlik standartlarına cavab verən nəqliyyat vasitələrindən istifadə edilməsi, katalitik ney-

trallaşdırıcıların quraşdırılması ilə daxiliyanma mühərriklərinin təkmilləşdirilməsi və ekoloji baxımdan təmiz alternativ yanacaq növlərinin tətbiq edilməsi istiqamətində görülən işlərin miqyası genişlənir.

Nəqliyyat Nazirliyi nəqliyyat sisteminin dövlət tənzimlənməsi və idarə olunması funksiyalarını həyata keçirərkən aşağıdakıları nəzərdə tutur:

– nəqliyyatın fəaliyyətinin hüquqi əsaslarının vahid prinsiplər əsasında inkişafı;

– nəqliyyatın ayrı-ayrı sahələrinin inkişafına dair məqsədli proqramların işlənib hazırlanması;

– nəqliyyat sahəsində siyasətin formalaşması və həyata keçirilməsi, o cümlədən vergiqoyma, maliyyələşdirmə, investisiya, texniki və tarif nəzarəti fəaliyyətlərinin həyata keçirilməsini tənzimləyən siyasətin yeridilməsi, nəqliyyat sahəsinə ayrılmış büdcə vəsaitlərinin və digər vəsaitlərin nəqliyyatın müxtəlif növləri arasında balanslaşdırılmış formada bölüşdürülməsi; nəqliyyat sisteminin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi; nəqliyyat xidmətlərinə artan tələbatın ödənilməsi; nəqliyyat xidmətləri bazarında rəqabətin inkişafı, nəqliyyatda innovasiya texnologiyalarının tətbiqi üçün şəraitin yaradılması; sahibkarların maraqlarının və tələblərinin öyrənilməsi və nəzərə alınması üzrə əməkdaşlıq, nəqliyyat sahələrinin rəqabət qabiliyyətliliyinin artırılması üçün stimullaşdırıcı tədbirlərin görülməsi;

– nəqliyyatda vahid informasiya məkanının yaradılması;

– nəqliyyat sisteminin inkişafı üçün dövlətin və qeyri-dövlət sektorunun səylərinin birləşdirilməsi, onların maraqlarının qorunması;

– müdafiə və səfərbərlik xarakterli məsələlərin həlli.

Azərbaycan hökuməti yaxın və uzaq gələcəkdə ölkənin nəqliyyat növləri infrastrukturlarının artan tələbata uyğun inkişafının aşağıdakı prioritet istiqamətlərini müəyyənləşdirmişdir:

Dəmir yolu nəqliyyatı üzrə: köhnəlmiş nəqliyyat infrastrukturlarının və dəmir yolu nəqliyyatı vasitələrinin müasirləşdirilməsi və yenilərinin inşası.

Su nəqliyyatı üzrə: müasir liman kompleksinin yaradılması; su nəqliyyatı ilə yüklərin intensiv daşınmasının təmin edilməsi məqsədi ilə daşıma güclərinin artırılması, o cümlədən dövlət mülkiyyətində olan ticarət donanmasının yeniləşdirilməsi məqsədilə müxtəlif təyinatlı yeni gəmilərin alınması.

Avtomobil nəqliyyatı üzrə: ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərində respublika əhəmiyyətli avtomobil yollarının yenidən qurulması, rayonlararası yolların müasirləşdirilməsi; yol hərəkətinin təşkili və tənzimlənməsi sisteminin təkmilləşdirilməsi; avtomobil nəqliyyatı vasitələrinin texniki və ekoloji tələblər baxımından beynəlxalq standartlara uyğun yeniləşdirilməsi.


Hava nəqliyyatı üzrə: hava nəqliyyatı infrastrukturlarının tranzit potensialının artırılması, turizmin inkişaf etdirilməsi məqsədi ilə genişləndirilməsi; hava nəqliyyatı parkının yeniləşdirilməsi; ölkənin beynəlxalq hava limanlarında azad iqtisadi zonaların yaradılması.

Şəhər və sərnişin nəqliyyatı üzrə: respublikanın iri şəhərlərində yolların yenidən qurulması və genişləndirilməsi; yeni metro stansiyalarının və avtomobil yollarının, körpülərin, yol ötürücülərinin, yeraltı keçidlərin, çoxmərtəbəli yerüstü və yeraltı avtomobil dayanacaqlarının tikilməsi; şəhər sərnişin nəqliyyatı sisteminin fəaliyyətinin müasir tələblərə uyğun qurulması və idarə edilməsində yeni intellektual texnologiyaların tətbiq edilməsi; müxtəlif mülkiyyət formasına malik olan operatorlar üçün eyni şəraitin yaradılması və rəqabətin inkişaf etdirilməsi.

NƏQLİYYAT SIĞORTASI – müxtəlif yollarda təhlükələrdən (risklərdən) sığortalanma növü. Dəniz, çay, quru, hava və qarışıq sığorta növlərinə bölünür. Sığorta obyektləri uyğun nəqliyyat vasitələri və onların daşıdıqları yüklərdir. Yalnız yüklərin sığortalanması "karqo", yalnız nəqliyyat vasitələrinin sığortalanması "kasqo" adlanır. Nəqliyyat sığortası müqaviləsinə yükün, sərnişinin, sürücünün, nəqliyyat vasitəsinin sığortası da daxildir. Nəqliyyat sığortasında sığortaçı yanğın, ildırım vurması, partlayış, gəmilərin toqquşması və s. hadisələr nəticəsində yaranmış itkiyə görə məsuliyyət daşıyır. Nəqliyyat sığortası franşiza tətbiq olunmaqla və onsuz həyata keçirilir.

NƏQLİYYATDA REKLAM – reklamın bu növü ictimai nəqliyyatdan istifadə edən milyonlarla insan arasında reklam in-

Dünyanın müxtəlif ölkələrində 1 km avtostradanın tikintisi üçün çəkilən xərc (mln. dollar)




Qrafik 1

formasiyasının yayılmasına şərait yaradır. Nəqliyyatda reklamın üç növünü fərqləndirirlər:
– ictimai nəqliyyat salonlarında yerləşdirilən reklam planşetləri, posterlər;
– nəqliyyat vasitələrinin bayır hissələrində, yəni bayır tərəfdən yerləşdirilən reklam planşetləri, posterlər;
– stasionar xarakter daşıyan (stansiyalarda, dayanacaqlarda və yaxınlıqdakı ərazidə yerləşdirilən) plakatlar.

NƏQLİYYATIN İQTİSADİYYATI – iqtisadi nəzəriyyənin, tətbiqi iqtisad elminin vacib sahəsi olub, nəqliyyatın təbiəti və xüsusiyyətlərini, spesifik qanunauyğunluqlarını öyrənir. Nəqliyyat növlərinin iqtisadiyyatı (iqtisadiyyatın vahid nəqliyyat sahəsini təşkil edən) eyni inkişaf qanunlarına, istehsal və sosial-iqtisadi proseslərin, istehsal olunan məhsulun təyinatının (dövlət və əhalinin tələblərinə müvafiq olaraq yük və sərnişin daşınması və ya nəqliyyat xidməti) eyniliyinə malikdir. Nəqliyyat növlərinin iqtisadiyyatı istehsal spesifikliyindəki, istehsal fondlarının strukturundakı, istehsal xərclərinin tərkibindəki, texnika və texnologiyaların inkişaf səviyyəsindəki və s. müxtəliflikliklərlə fərqlənirlər. Bu, ayrı-ayrı nəqliyyat növlərinin iqtisadiyyatının öyrənilməsini zəruri edir.

Nəqliyyatın iqtisadiyyatı özündə ölkənin nəqliyyat sisteminin tərkib hissəsi kimi hər bir nəqliyyat növünün texniki-iqtisadi xüsusiyyətlərini ayrıca nəzərdən keçirir; idarəetmənin təşkilini, optimal texniki və təşkilati qərarların seçilməsinin metod və prinsiplərini, yük və sərnişin daşımalarında qənaəti, istismar işlərini, maddi-texniki bazanın səmərəliliyini, əməyin elmi təşkili və əmək haqqını, nəqliyyat istehsalına çəkilən xərclərin və əldə olunan nəticələrin metod və kateqoriyalarını öyrənir. Nəqliyyatın iqtisadiyyatı xalq təsərrüfatının planlaşdırılması; sənayenin, kənd təsərrüfatının, əməyin iqtisadiyyatı, statistika, iqtisadi coğrafiya, texniki elmlərlə əlaqəlidir. Nəqliyyatın iqtisadiyyatı elmi tövsiyələrdən nəqliyyat əlaqələrinin rasionallaşdırılması – ölkə ərazisində istehsalın rasional yerləşdirilməsi, müəssisələrin optimal ölçüsünün seçilməsi, istehsalın ixtisaslaşmasının və kooperativləşməsinin

2025-ci ilə kimi sürət qatarları üçün dəmir yolu tikintisinin planlaşdırılmış həcmi (min km)



Qrafik 2

iqtisadi əsaslandırılması zamanı istifadə edir. Bu nəqliyyatı artıq işdən azad etməyə, xalq təsərrüfatında maddi-texniki təchizat sistemini təkmilləşdirməyə, daşımalara tələbatı daha tam ödəməyə, daşınma zamanı sənaye və kənd təsərrüfatı məhsullarının itkisini azaltmağa imkan verir. Sərnişin daşımalarının elmi əsaslarla planlaşdırılması əhalinin tələbatının ödənilməsinə və turizmin inkişafına xidmət edir.

NƏSİHƏT XARAKTERLİ REKLAM – malın həyat tsiklinin genişlənməsi mərhələsində tətbiq edilir, firmanın ölçülübbiçilmiş tələbinin formalaşmasını təmin edir.

Nəsihət xarakterli reklamın vəzifələri:

Malın müəyyən markasına üstünlük verilməsinin formalaşması;

Reklam edilən markanın təşviq edilməsi və ya istehlakçıların diqqətinin həmin markaya yönəldilməsi;

Malın istehlak xassələri barədə təsəvvürlərin dəyişdirilməsi;

İstehlakçını dərhal həmin malı almağa inandırmaq;

İstehlakçını kommivoyajeri qəbul etməyə inandırmaq.

NƏSRULLAYEV FİKRƏT AĞAGÜL OĞLU (1939-2012) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1968-ci ildə Moskva Dövlət Universitetində namizədlik, 1993-cü ildə Sankt-Peterburq Dövlət Universitetində "Bazar münasibətlərinin və sahibkarlığın yaranması və inkişafının regional xüsusiyyətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.



Onun "Kapital, onun formaları, tətbiqi sferası və dövranı" (1995), "İnflyasiya şəraitində işsizlik və məşğulluq" (1996), "İqtisadi nəzəriyyənin predmeti və metodologiyası" (1997), "Azərbaycanda bazar iqtisadiyyatına keçidin ümumi qanunauyğunluqları və xüsusiyyətləri" (1998) adlı əsərləri gənc tədqiqatçılar nəslinin hazırlanmasında çox əhəmiyyətlidir.

Azərbaycan Dövlət İqtisad Universitetinin professoru olub.

NƏSRULLAYEV NAMİQ NƏSRULLA OĞLU (1945) – 1967-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun energetika fakültəsini, 1970-ci ildə M.Lomonosov adına Moskva Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsini bitirmişdir. 1968-ci ildən Moskvada akademik B.N.Petrovun rəhbərliyi ilə SSRİ Elmlər Akademiyası İdarəetmə Problemləri İnstitutunun aspiranturasında avtomatik idarəetmə və tənzimləmənin invariantlılıq nəzəriyyəsi, ekstremal tənzimləmə sistemləri üzərində işləmişdir. 1978-ci ildə bort nüvə energetikası qurğuları üzrə texnika elmləri namizədi elmi dərəcəsi almışdır.



1978-1987-ci illərdə Azərbaycan Elmlər Akademiyası Kibernetika İnstitutunun direktor müavini, "Kibernetika" XKB-nin direktoru işləmişdir. 1987-ci ildə Azərbaycan "Ulduz" Elm İstehsalat Birliyinin və "Rabitə Sistemləri" Elmi-Tədqiqat İnstitutunun direktoru təyin edilmiş, həmin vəzifələrdə 1995-ci ilədək çalışmışdır. 1995-ci ildə Azərbaycan Respublikası İqtisadiyyat nazirinin birinci müavini, 1996-cı ildən 2001-ci ilədək Azərbaycan Respublikasının İqtisadiyyat naziri vəzifəsində fəaliyyət göstərmişdir. 2001-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikası Hesablama Palatasının Sədri vəzifəsinə təyin edilmiş, 2007-ci ilin aprel ayında səhhəti ilə əlaqədar öz xahişi ilə həmin vəzifədən azad edilmişdir. N.Nəsrullayevin Palatanın Sədri vəzifəsində işlədiyi dövrdə "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının 2002-ci il 5 mart tarixli 269-II Q nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsi" qəbul edilmiş, dövlət maliyyə nəzarəti orqanı kimi Hesablama Palatası təşkilati-struktur baxımından formalaşmış və fəaliyyətə başlamış, bir sıra ölkələrin Ali Audit Qurumları ilə ikitərəfli əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində mühüm işlər görülmüşdür.

1973-cü ildə SSRİ Nazirlər Sovetinin xüsusi mükafatı, 1986-cı ildə "Əmək rəşadəti" medalı, 2005-ci ildə Rusiya Federasiyasının Prezidentinin fərmanı ilə "Dostluq" ordeni, 2007-ci ildə Rusiya Federasiyasının Hesab-

lama Palatasının "Fərqlənmə nişanı" ilə təltif edilmişdir.
15 müəlliflik şəhadətnaməsi almış, 32 elmi əsəri nəşr edilmişdir.
Azərbaycan Respublikası Prezidentinin 31.10.2011-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilmişdir.

"NƏZAKƏT QİSMİNDƏ" – sığorta tərəfindən ödənilən və polisdə (sığorta vəsiqəsində) əvvəlcədən ciddi razılaşdırılmayan tədiyə.

NƏZARƏT – 1. Qanunlarla, digər normativ aktlarla, eləcə də proqramlarla, planlarla, müqavilələrlə nəzərdə tutulan arzu olunan və lazımi vəziyyətə obyektin müşahidə olunan vəziyyətinin uyğun gəlməsini yoxlamaq məqsədi ilə obyekt üzərində müşahidəni ehtiva edən iqtisadi obyektlərin və hadisələrin idarəsinin tərkib hissəsi. 2. Obyekt üzərində nəzarət, idarəetmə səlahiyyətlərinin bir əldə cəmləşməsi. 3. Marketinqin planlaşması prosesinin və ya tsiklinin mərhələsi. Bu zaman səmərəliliyin real göstəriciləri plan göstəriciləri ilə müqayisə olunur. 4. Yoxlama məqsədilə baxmaq, göz qoymaq, nəzər yetirmək, göz altında saxlamaq, fikir vermək, diqqət yetirmək.

Nəzarət etmək – nəzər yetirmək, üstünə göz qoymaq, baxmaq, yadda saxlamaq. Hər hansı bir fəaliyyətə nəzarət edən idarə.


NƏZARƏT ALTINDA OLAN SIĞORTA ŞİRKƏTİ – sənaye və ya ticarət qrupuna daxil olan firmaların mənafeyi naminə əməliyyatların sığortalanması üçün bir qrup tərəfindən yaradılan şirkət.

NƏZARƏT EDƏN KOMPANİYA – digər kompaniyanın nəzarət səhm paketinə malik olan kompaniya. Holdinq kompaniyasından fərqli olaraq konkret istehsal fəaliyyətini özü həyata keçirir.

NƏZARƏT MÜHİTİ (ing. *Control environment*) – bura idarəetmə və rəhbər funksiyaları, iqtisadi subyektdə həyata keçirilən daxili nəzarət və onun əhəmiyyəti ilə bağlı mülkiyyətçinin nümayəndələrinin və rəhbərliyin mövqeyi, məlumatlılığı və hərəkətləri daxildir. Nəzarət mühiti daxili nəzarətin bir elementidir.

NƏZARƏT SƏHM PAKETİ – səhmdar cəmiyyətinin fəaliyyətinin bütün aspektləri üzrə qərarlara nəzarət etmək üçün lazım olan qədər səs sayını təmin edən səhmlər payıdır. Səhmlərin nəzarət paketinin sahibi cəmiyyətin fəaliyyətinə təsir göstərmək, o cümlədən onun profilini dəyişmək, istehsalın həcmini müəyyən etmək, səhmdar cəmiyyətini tənzimləmək və s. iqtidarındadır.
Nəzəri olaraq səhmlərin nəzarət paketi 50%, üstəgəl bir səhmdən ibarət olmalıdır. Praktik olaraq isə, səhmdar cəmiyyətin fəaliyyətinə nəzarət etmək üçün daha kiçik miqdarda səhmlərə malik olmaq kifayətdir. Bu onunla izah olunur ki, birincisi, yeniləşdirilmiş səhmlərin bir hissəsi onların sahiblərinə səsvermə hüququ verir. İkincisi, səhmdar cəmiyyətin formalaşması üçün səhmlər çox sayda səhmdarların əlində cəmləşərkən nəzarət paketi kimi yerləşdirilmiş səhmlərin ümumi miqdarının 20-30%-i kifayət edir. Bundan başqa, kiçik miqdarda səhmlərin sahibləri, bir qayda olaraq, səhmdarların ümumi yığıncaqlarında iştirak etmir. Bu isə səhmdar cəmiyyətin formalaşması üçün səhmlərin bir şəxsdə cəmləşməsinin dərəcəsinin azalmasına imkan verir.

NƏZARƏTÇİ – 1. Təşkilatların fəaliyyətinin yoxlanmasına nəzarət edən şəxs. 2. Büdcəyə, mühasibat uçotuna və auditə görə cavab verən şirkətin vəzifəli şəxsi.



NƏZARƏTSİZ – üstündə nəzarət olmayan, fikir verilməyən, diqqət yetirilməyən, nəzarət edilməyən, heç kəs tərəfindən nəzarət edilməyən.

NƏZARƏTSİZLİK – nəzarətsiz şeyin halı, vəziyyəti, nəzarət olmadığı hal. Baxımsızlıq.

NƏZƏRDƏ TUTULAN DƏYİŞKƏNLİK *(implied volatility)* – riskin elə qiyməti (o) nəzərdə tutulur ki, bu zaman opsionun cari bazar qiyməti onun dəyərinin müəyyənləşdirilməsi üçün istifadə edilməsi düsturla hesablanmış qiymətə bərabər olur.

NƏZƏRDƏ TUTULAN DİVİDENDLƏR *(implied dividend)* – ölçüləri səhmlərin cari və forvard qiymətlərindən irəli gələrək müəyyən edilmiş dividendlər.

NƏZƏRİYYƏ (yun. *theoria* – nəzərdən keçirmə, müşahidə, tədqiq etmə) – 1. Təbiətin və cəmiyyətin inkişafının obyektiv qanunauyğunluqlarını əks etdirən ümumiləşdirilmiş təcrübə, ictimai praktika. 2. Müəyyən elmi və ya onun müəyyən bölməsini təşkil edən ümumiləşdirilmiş müddəaların, eləcə də sənətkarlığın və ya incəsənətin müəyyən növü sahəsində tətbiq edilən qaydaların ümumi sayı. 3. Hər hansı hadisələr, faktlar barəsində elmi müddəaların məcmusu, elmi təlim; müəyyən məsələyə dair baxışlar sistemi. 4. Real gerçəkliyə əsaslanmayan mücərrəd biliklər, mühakimələr. Nəzəriyyənin həqiqiliyinin meyarı və onun inkişafının əsası praktikadır.

NİFTULLAYEV VAQİF MƏMMƏDQULU OĞLU (1944-2007) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1972-ci ildə namizədlik, 1992-ci ildə "Yeni təsərrüfatçılıq şəraitində pambıqçılıqda əmək məhsuldarlığının yüksəldilməsi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.



300-ə qədər elmi əsərin, o cümlədən bir neçə monoqrafiyanın və kitabın müəllifidir. Aqrar sektorun iqtisadi problemlərini, o cümlədən kənd təsərrüfatında həyata keçirilən iqtisadi islahatları tədqiq etmişdir.

1967-1975-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda elmi işçi işləmişdir. 1975-1978-ci illərdə Cəlilabad və Ağdam rayonlarında kənd təsərrüfatının müxtəlif sahələrində çalışmışdır. 1979-cu ildən ömrünün sonuna kimi Azərbaycan ETKTİ və Tİ-də elmi işçi, baş elmi işçi və şöbə müdiri vəzifələrində işləmişdir.

NİKAH – qadın ilə kişinin bir-biri və uşaqları qarşısında hüquq və vəzifələrini müəyyən edən, tarixən şərti olaraq cəmiyyət tərəfindən idarə və tənzim olunan münasibət forması. Nikah ər-arvadlıq, analıq və atalıq hüququnun təminatına edilməsinə yönəldilməklə kişi və qadın arasında bağlanmış azad, könüllü, bərabərhüquqlu ittifaqdır. Nikah münasibətlərinin hüquqi və mənəvi cəhətdən nizamlanması azadlıq prinsipinə zidd deyildir və ilk növbədə, onun hüquqlarının müdafiə olunmasına yönəldilmişdir. Nikah ər-arvad arasında, sonra isə ər-arvad və uşaqlar arasında xüsusi hüquq münasibətlərinin müəyyən edilməsinə səbəb olur. İctimai hadisə olan nikah cəmiyyətin sosial-iqtisadi şəraitindən asılıdır, onun inkişafı ilə nikahda da dəyişikliklər yaranır. Nikaha din, siyasət, hüquq, əxlaq və s. amillər təsir göstərir. Qarşılıqlı məhəbbətlə ər-arvadlıq, valideynlik borcu, qarşılıqlı hörmət, yardım və s. mənəvi amillər nikahın möhkəm və daimi olmasına kömək edir.



Azərbaycan Respublikasında nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir və yalnız Ədliyyə Nazirliyinin müvafiq orqanında bağlanmış nikah tanınır. Nikah Ədliyyə Nazirliyinin orqanı tərəfindən nikaha daxil olmaq istəyən şəxslərin bu barədə ərizə verdikləri gündən 1 ay sonra onların iştirakı ilə bağlanır.

Üzürlü səbəblər olduqda nikahın bağlanma müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən azaldıla və ya 1 aydan çox olmayan müddətə uzadıla bilər. Xüsusi hallarda (hamiləlik, uşağın doğulması və digər hallarda) nikah ərizə verilən gün bağlana bilər.

Ər-arvadın hüquq və vəzifələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən nikahın bağlanmasının dövlət qeydiyyatı günündən yaranır.



Müvafiq icra hakimiyyəti orqanı nikahın qeydiyyatından imtina etdikdə nikaha daxil olmaq istəyən şəxslər (onlardan biri) ***inzibati qaydada və (və ya)*** məhkəməyə şikayət edə bilərlər.

Aşağıdakı şəxslər arasında nikahın bağlanmasına yol verilmir:

– yaxın qohumlar (valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey (ümumi ata və ya anası olan) qardaş və bacılar);

– övladlığa götürənlər və övladlığa götürülənlər;

– ikisindən biri və ya hər ikisi başqası ilə nikahda olan şəxslər;

– ikisindən biri və ya hər ikisi ruhi xəstəlik və ya kəmağıllıq nəticəsində məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslər.

Nikaha daxil olan şəxslərin tibbi müayinəsi, habelə tibbi-genetik, ***tibbi-psixoloji*** və ailənin planlaşdırılması məsələləri üzrə məsləhət verilməsi onların razılığı ilə yaşayış yerindəki dövlət və bələdiyyə tibb müəssisələrində pulsuz həyata keçirilir.

Nikaha daxil olan şəxslərin tibbi müayinəsinin nəticələri həkim sirridir. Nikaha daxil olan şəxslərdən biri özündə dəri zöhrəvi xəstəliyinin və insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (AIDS) olmasını o birindən gizlətdikdə, digər tərəf nikahın etibarsız sayılması tələbi ilə məhkəməyə müraciət edə bilər.

Nikahın pozulması – ər (arvad) öldükdə nikaha xitam verilir. Ərin (arvadın) və ya onların hər ikisinin ərizəsi əsasında, eləcə də məhkəmə qaydasında fəaliyyət qabiliyyəti olmayan hesab edilən ərin (arvadın) qəyyumunun ərizəsi əsasında nikaha xitam verilə bilər.

Arvadın hamiləliyi dövründə və ya uşağın doğulmasından sonra 1 il müddətində arvadın razılığı olmadan ər nikaha xitam verilməsi barədə iddia qaldıra bilməz.

Nikaha xitam verilməsi müvafiq icra hakimiyyəti orqanı, Ailə Məcəlləsində nəzərdə tutulmuş hallarda isə məhkəmə tərəfindən həyata keçirilir. Ər-arvadın yetkinlik yaşına çatmayan ümumi uşaqları olmadıqda, nikaha onların razılığı əsasında müvafiq icra hakimiyyəti orqanında xitam verilə bilər.

Yetkinlik yaşına çatmayan ümumi uşaqlarının olmasından asılı olmayaraq ərin (arvadın) ərizəsi əsasında nikaha xitam verilməsi aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanında aparılır: ər (arvad) məhkəmə qaydasında itkin düşmüş hesab edildikdə; ər (arvad) məhkəmə qaydasında fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə; ər (arvad) cinayət törətməyə görə ən azı 3 il müddətinə azadlıqdan məhrum olunduqda.

Ər-arvadın birgə mülkiyyətinin bölünməsi, ehtiyacı olan və əmək qabiliyyətini itirmiş ərin (arvadın) saxlanması üçün vəsait ödənilməsi haqqında, eləcə də tərəflərdən biri məhkəmədə fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə və ya ən azı 3 il müddətə azadlıqdan məhrum edildikdə, habelə tərəflər arasında uşaqlar barədə yaranan mübahisələrə müvafiq icra hakimiyyəti orqanında nikahın pozulmasından asılı olmayaraq, məhkəmə qaydasında baxılır.

Ər-arvadın yetkinlik yaşına çatmayan ümumi uşaqları olduqda və ya ər (arvad) nikahın pozulmasına razı olmadıqda nikah məhkəmə qaydasında pozulur. Ər-arvadın razılığı olduqda, lakin onlardan biri müvafiq icra hakimiyyəti orqanında nikahın pozulmasından yayındıqda (ərizə verməkdən imtina etdikdə, nikahın pozulmasının dövlət qeydiyyatı üçün gəlmədikdə və s.) nikahın pozulması məhkəmə qaydasında həyata keçirilir.

Ər-arvadın birgə yaşamasının və ailənin saxlanmasının qeyri-mümkünlüyü məhkəmə tərəfindən müəyyən edildikdə, ni-

Kişilərin çoxluq təşkil etdiyi dünyanın 20 ölkəsi

№	Ölkə	Hər 100 qadına düşən kişi
1.	BƏƏ	219
2.	Qatar	200
3.	Küveyt	154
4.	Maldiv adaları	144
5.	Bəhreyn	124
6.	Oman	122
7.	Səudiyyə Ərəbistanı	118
8.	Palau	114
9.	Butan	110
10.	İordaniya	110
11.	Qrenada	108
12.	Andorra	107
13.	Hindistan	106
14.	Çin	106
15.	Samoa	106
16.	Əfqanıstan	105
17.	Liviya	105
18.	Suriya	105
19.	Albaniya	104
20.	Cibuti	104

Qadınların çoxluq təşkil etdiyi dünyanın 20 ölkəsi

№	Ölkə	Hər 100 qadına düşən kişi
1.	Estoniya	84
2.	Latviya	86
3.	Rusiya	86
4.	Ukrayna	86
5.	Belarus	87
6.	Ermənistan	89
7.	Litva	89
8.	Zimbabve	90
9.	Antiqua və Barbuda	91
10.	Macarıstan	91
11.	Gürcüstan	91
12.	Maldova	91
13.	Monako	91
14.	San-Marino	91
15.	Bolqarıstan	92
16.	Çad	92
17.	Banqladeş	93
18.	Qazaxıstan	93
19.	Mavritaniya	93
20.	Xorvatiya	93

kah məhkəmə qaydasında pozulur.

Tərəflərdən birinin nikahın pozulması haqqında razılığı olmadıqda, məhkəmə ər-arvadın barışması üçün 3 ay müddət müəyyən etməklə işi təxirə sala bilər. Barışıq olmadıqda və ya onlar (onlardan biri) nikahın pozulmasına təkid etdikdə nikah pozulur.

Yetkinlik yaşına çatmayan ümumi uşaqları olan ər-arvadın nikahın pozulmasına qarşılıqlı razılığı olduqda, nikah onun pozulma səbəbləri məhkəmə qaydasında araşdırılmadan pozulur. Ailə Məcəlləsinin müvafiq maddəsinə uyğun olaraq ər və arvad uşaqları barədə sazişi baxılmaq üçün məhkəməyə təqdim etmək hüququna malikdir. Bu saziş olmadıqda və ya həmin saziş uşaqların maraqları pozulduqda məhkəmə onların mənafeyinin müdafiəsi üçün tədbirlər görür.

Nikahın məhkəmə qaydasında pozulması ərin (arvadın) bu barədə ərizə verdikləri gündən 1 aydan tez olmayaraq həyata keçirilir.

Nikah məhkəmə qaydasında pozularkən, ər (arvad) məhkəməyə yetkinlik yaşına çatmayan uşaqlarının kiminlə qaldığını, uşaqların, ehtiyacı olan və əmək qabiliyyətini itirmiş ərin (arvadın) saxlanması üçün vəsaitin ödənilmə qaydasını, bu vəsaitin miqdarını, ər-arvadın ümumi birgə mülkiyyətinin bölünməsini müəyyənləşdirən saziş təqdim edə bilərlər.

Ər-arvad arasında saziş olmadıqda, eləcə də bu saziş uşaqların və ya tərəflərdən birinin marağını pozduqda, məhkəmə:

– boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərindən hansının yanında qaldığını müəyyən etməli;
– uşaqlar üçün alimentin hansı valideyndən və hansı miqdarda tutulduğunu müəyyən etməli;
– ər-arvadın (onlardan birinin) tələbi ilə onların birgə mülkiyyətində olan əmlakın bölgüsünü aparmalı;
– ərindən (arvadından) saxlanması üçün vəsait almaq hüququna malik olan arvadın (ərin) tələbi ilə ərdən (arvaddan) tutulmalı olan vəsaitin miqdarını müəyyən etməlidir.
– əmlak bölgüsü üçüncü şəxsin mənafeyinə toxunduqda məhkəmə əmlak bölgüsü haqqında tələbi ayrıca icraata ayıra bilər.
Nikah müvafiq icra hakimiyyəti orqanında pozulduqda pozulmanın dövlət qeydiyyatına alındığı gündən, məhkəmə qaydasında pozulduqda isə bu barədə məhkəmənin qətnaməsinin qanuni qüvvəyə mindiyi gündən nikaha xitam verilmiş sayılır.
Nikahın məhkəmə qaydasında pozulması zamanı vətəndaşlıq vəziyyəti aktları dövlət qeydiyyatı üçün müəyyən olunmuş qaydada dövlət qeydiyyatına alınır.
Nikahın pozulması barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindiyi gündən 3 gün müddətində məhkəmə bu qətnamədən çıxarışı müvafiq icra hakimiyyəti orqanına göndərməyə borcludur.
Ər (arvad) nikahın pozulması haqqında şəhadətnaməni alana qədər yenidən nikaha daxil ola bilməz.
Ölmüş elan edilən və ya itkin düşmüş hesab edilən ər (arvad) gəlib çıxdıqda məhkəmənin müvafiq qətnamələri ləğv olunmaqla, nikah müvafiq icra hakimiyyəti orqanında onların birgə ərizəsinə əsasən bərpa oluna bilər. Tərəflərdən biri yeni nikaha daxil olubsa, nikah bərpa oluna bilməz.
Ailə Məcəlləsində nəzərdə tutulmuş şərtlər pozulduqda, eləcə də tərəflərdən birinin və ya hər ikisinin ailə qurmaq niyyəti olmadıqda bağlanan nikah (saxta nikah) etibarsız sayılır. Nikah məhkəmə qaydasında etibarsız sayılır. Məhkəmə nikahın etibarsız sayılması barədə qanuni qüvvəyə minmiş qətnamədən çıxarışı 3 gün müddətində nikahın bağlandığı müvafiq icra hakimiyyəti orqanına göndərməyə borcludur. Etibarsız hesab edilmiş nikah onun bağlandığı gündən etibarsız sayılır.
Aşağıdakı şəxslər nikahın etibarsız sayılmasını tələb etmək hüququna malikdirlər:
– nikah yaşına çatmayan şəxslə və nikah yaşına çatana qədər nikaha daxil olmaq üçün bu Ailə Məcəlləsində nəzərdə tutulmuş icazə olmadıqda nikah bağlanarsa, yetkinlik yaşına çatmayan ər (arvad), onun valideynləri (onları əvəz edən şəxslər) və ya müvafiq icra hakimiyyəti orqanı;
– nikah tərəflərdən birinin könüllü razılığı olmadan, yəni məcburiyyət, aldatma, yanılma nəticəsində və ya nikaha daxil olan şəxs nikahın bağlanmasının dövlət qeydiyyatı anında öz hərəkətlərinin mahiyyətini anlamaq və onları idarə etmək iqtidarında olmadıqda bağlanarsa, nikah bağlanarkən hüquqları pozulmuş ər (arvad);
– nikahın bağlanmasına mane olan hallar barədə məlumatı olmayan ər (arvad), məhkəmə qaydasında fəaliyyət qabiliyyəti olmayan hesab edilən ərin (arvadın) isə qəyyumu;
– pozulmamış əvvəlki nikah üzrə ər (arvad);
– saxta nikah bağlandığı halda nikahın saxta olmasını bilməyən ər (arvad).
Nikah yaşına çatmayan, eləcə də, məhkəmə qaydasında fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslərlə bağlanan nikahın etibarsız sayılması barədə işə baxılarkən müvafiq icra hakimiyyəti orqanı işdə iştiraka cəlb olunmalıdır.
Nikahın etibarsız sayılması barədə işə baxılanadək nikahın bağlanmasına qanuna görə mane olan hallar aradan qalxdıqda, məhkəmə həmin halların aradan qalxdığı vaxtdan nikahı etibarlı hesab edə bilər.
Yetkinlik yaşına çatmayan ərin (arvadın) mənafeyi tələb etdikdə, eləcə də nikahın etibarsız sayılması barədə onun razılığı olmadıqda, nikah yaşına çatmayan şəxslə bağlanmış nikahın etibarsız sayılması barədə iddianı məhkəmə rədd edə bilər.
Saxta nikaha daxil olmuş şəxslər məhkəmədə işə baxılana qədər faktiki olaraq ailə qurublarsa, məhkəmə nikahı saxta hesab edə bilməz.
Ər-arvad arasında nikah bağlanması üçün qanunla qadağan olunmuş qohumluq halları və ya nikah bağlanarkən onlardan birinin başqa şəxslə pozulmamış nikahda olduğu hallar istisna olmaqla, əvvəllər pozulmuş nikah sonradan etibarsız sayıla bilməz.
Nikahı etibarsız sayılmış şəxslərin birgə əldə etdikləri əmlaka



Azərbaycan Respublikası Mülki Məcəlləsinin ümumi paylı mülkiyyət haqqında müddəaları tətbiq edilir.

Ailə Məcəlləsinin müvafiq maddələrinə əsasən, ər və arvad arasında bağlanmış nikah müqaviləsi etibarsız sayılır.

Nikahın etibarsız sayılması bu nikahdan doğulan və ya nikahın etibarsız sayılması günündən sonra 300 gün ərzində doğulan uşaqların hüquqlarına təsir etmir.

Nikah etibarsız hesab edilərkən məhkəmə, belə nikahın bağlanması nəticəsində hüquqları pozulmuş ərin (arvadın) saxlanması üçün digər tərəfdən bu Ailə Məcəlləsinə uyğun olaraq vəsait tuta bilər. Habelə nikah etibarsız hesab edilən vaxtadək həmin şəxslərin birlikdə əldə etdikləri əmlakın bölgüsü zamanı həmin Məcəllə ilə müəyyən edilmiş normaları tətbiq edə, həmçinin nikah müqaviləsini tamamilə və ya qismən etibarlı saya bilər.

Ər (arvad) ona vurulmuş maddi və ya mənəvi ziyanın mülki qanunvericiliklə nəzərdə tutulmuş qaydalar üzrə ödənilməsini tələb edə bilər.

Nikah etibarsız hesab edildikdə, ər (arvad) nikah qeydə alınan zaman seçdiyi soyadı saxlaya bilər.

NİKAH MÜQAVİLƏSİ – nikah müqaviləsi nikaha daxil olan şəxslər arasında bağlanan, nikah dövründə və (və ya) nikah pozulduqda ər-arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edən saziş. Nikah müqaviləsi ilə ər-arvad birgə mülkiyyətin qanunla müəyyən olunmuş rejimini dəyişərək, ümumi əmlaka, onun ayrı-ayrı növlərinə və ya ər-arvadın hər birinin əmlakına birgə, paylı və ya ayrıca mülkiyyət rejimi tətbiq edə bilərlər. Nikah müqaviləsi ər-arvadın mövcud olan və gələcəkdə əldə edəcəkləri əmlaka dair bağlana bilər.

Ər-arvad nikah müqaviləsində bir-birinin qarşılıqlı saxlanması, bir-birinin gəlirlərində iştirak üsulları, hər birinin ailə xərclərində iştirakı qaydası ilə bağlı hüquq və vəzifələrini, nikah pozulduqda hər birinə düşəcək əmlakı və ər-arvadın əmlak münasibətlərinə dair hər hansı başqa müddəanı müəyyənləşdirmək hüququna malikdirlər.

Nikah müqaviləsində nəzərdə tutulmuş hüquq və vəzifələr müəyyən müddətlərlə məhdudlaşa bilər, bu müxtəlif şəraitin yaranıb-yaranmamasından asılı ola bilər. Nikah müqaviləsində ər-arvadın hüquq və fəaliyyət qabiliyyətini, öz hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək hüququnu, uşaqlara münasibətdə hüquq və vəzifələrini, eləcə də ər-arvad arasın- dakı şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən, ehtiyacı olan və əmək qabiliyyətini itirmiş olmayan ərin (arvadın) saxlanılması üçün vəsait almaq hüququnu məhdudlaşdıran, ər-arvaddan birini çox əlverişsiz vəziyyətə salan və ailə qanunvericiliyinin əsaslarına zidd müddəalar nəzərdə tutula bilməz.

Nikah müqaviləsi nikahın bağlanmasının dövlət qeydiyyatına qədər, eləcə də nikah dövründə istənilən vaxtda bağlana bilər. Nikahın bağlanmasının dövlət qeydiyyatına qədər bağlanmış nikah müqaviləsi nikahın bağlanmasının dövlət qeydiyyatına alındığı gündən qüvvəyə minir. Nikah müqaviləsi yazılı formada bağlanır və notariat qaydada təsdiq olunur.

Nikah müqaviləsi ər-arvadın razılığı ilə istənilən vaxt Ailə Məcəlləsinin müvafiq maddəsində göstərilən qaydada dəyişdirilə və ya pozula bilər. Nikah müqaviləsinin icrasından birtərəfli qaydada imtina etməyə yol verilmir. Ərin (arvadın) tələbinə əsasən məhkəmənin qətnaməsi ilə nikah müqaviləsi Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müqavilələrin dəyişdirilməsi və pozulması üçün nəzərdə tutulmuş əsaslarla və qaydada dəyişdirilə və ya pozula bilər. Nikah müqaviləsində nikah pozulduqdan

sonrakı dövr üçün nəzərdə tutulan vəzifələr istisna olmaqla, nikaha xitam verilməsi anından nikah müqaviləsinə də xitam verilir.

Nikah müqaviləsi Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə əqdlərin etibarsız hesab edilməsi üçün nəzərdə tutulmuş əsaslarla məhkəmə tərəfindən tamamilə və ya qismən etibarsız hesab edilə bilər.

NİKAH SIĞORTASI (digər adı: *toy sığortası; cehiz sığortası*) – sığorta məbləği sığorta müqaviləsi bitənə qədər sığortalanmışın ömrünün qalan hissəsinə qədər yaşaması və şərtlənmiş hadisənin (əgər nikah bağlanmamışdırsa), nikahın qeydiyyatı və ya razılaşmış yaşa çatması zamanı ödənilir.

NİKKEY İNDEKSİ – Tokio fond birjasında qiymətli kağızların məzənnələri indeksidir. Qiymətli kağızların məzənnələrinin çəkisiz orta kəmiyyəti kimi müəyyən olunur. Bazis dövrü 16 may 1949-cu il tarixidir (1949-100).

NİKONOV ALEKSANDR ALEKSANDROVİÇ (1918-1995) – rus iqtisadçısı, iqtisad elmləri doktoru, prof., SSRİ (1984) və Rusiya Kənd Təsərrüfatı Elmlər Akademiyasının akademiki, Rusiya Elmlər Akademiyasının akademiki (1991). Latviya Kənd Təsərrüfatı Akademiyasını bitirmişdir (1959). 1944-1961-ci illərdə Latviyada işləmiş, on il kənd təsərrüfatı naziri olmuşdur. 1963-1968-ci illərdə Stavropol Kənd Təsərrüfatı İstehsalı İnstitutunun direktoru, Lenin adına Ümumittifaq Kənd Təsərrüfatı Akademiyasının birinci vitse-prezidenti, 1984-cü ildən prezidenti olmuşdur. 1990-cı ildən ömrünün sonuna qədər Rusiya Kənd Təsərrüfatı Elmlər Akademiyasının Aqrar İnstitutunun direktoru, Macarıstan, Latviya Elmlər Akademiyasının fəxri üzvü, Beynəlxalq və Avropa Kənd Təsərrüfatı İqtisadçılar Assosiasiyalarının üzvü, Beynəlxalq İslahatlar Siyasəti İnstitutunun (ABŞ) üzvü, Sosialist kənd təsərrüfatı iqtisadiyyatı və təşkili sahəsində görkəmli mütəxəssisdir. Rusiyada aqrar islahat konsepsiyasının işlənməsi ona məxsusdur. Müasir şəraitdə kənd təsərrüfatının davamlı idarə edilməsi metodologiyasını işləyib hazırlamışdır. Eksperimental avrosənaye birliklərinin fəaliyyətinin təşkilinə, əməyin təşkilinin mütərəqqi formalarının yayılmasına sanballı töhfələr vermişdir. Onun təşəbbüsü və rəhbərliyi ilə kənd təsərrüfatının aqrar-sənaye kompleksinin digər sahələri ilə iqtisadi münasibətlərinə, kəndin sosial inkişafına, müasir şəraitdə kənd təsərrüfatının idarə edilməsi probleminə aid tədqiqatlar aparılmışdır. Nikonov elektron-hesablayıcı maşınlarının və riyazi metodların kənd təsərrüfatının elmi tədqiqatlarına geniş tətbiq edilməsinin təşəbbüsçüsüdür. 4 dəfə Lenin ordeni, SSRİ-nin digər orden və medalları ilə təltif olunmuşdur.



NİSBİ DİVİDEND – səhmlərin investor üçün cari gəlirlilik ölçüsü olan əmsal; cari (bu il üçün elan edilmiş) dividendlərin səhmlərin indiki bazar qiymətinə bölünməsi yolu ilə hesablanır.

NİSBİ GƏLİRLİLİK ƏMSALI – hər yüz səhmə düşən mənfəətin onların cari qiymətinin nisbətinə bərabər kəmiyyət.

NİSBİ XƏRCLƏRİN ARTMASI QANUNU – bir məhsulun azalması hesabına digər məhsulun istehsalının artması arasında qarşılıqlı əlaqəni xarakterizə edən qanun. Nisbi xərclərin artması qanunu elə situasiyalarda tətbiq edilir ki, cəmiyyətin istehsal imkanları ən yüksək həddə yaxındır, resurslar məhduddur, gəlirlilik isə azalır.

NİSBİ ÜSTÜNLÜK – məhsul istehsalçılarının istehsalın alternativ dəyərinə əsasən müqayisə edilməsi.

NİSBİ ÜSTÜNLÜKLƏR NƏZƏRİYYƏSİ – mütləq üstünlüklər nəzəriyyəsinin çatışmazlığı nisbi üstünlüklər nəzəriyyəsinin meydana gəlməsinə səbəb oldu. Keçmiş londonlu diler David Rikardo özünün "Siyasi iqtisad və vergitutma prinsipləri" kitabının (1817) bir bölməsini bu nəzəriyyəyə həsr etmişdir. O, sübuta yetirmişdir ki, beynəlxalq ticarətdə iştirak bütün ölkələr üçün sərfəlidir. Çünki hər bir ölkə özünün nisbi üstünlüyünə malikdir. Portuqaliya və İngiltərədə şərab və mahud istehsalı ilə bağlı özünün şərti nümunəsində Rikardo dəqiqliklə sübut etmişdir ki, Portuqaliyada bu iki məhsulun istehsalı İngiltərəyə nisbətən ucuz başa gəlsə də (yəni, Portuqaliyada hər iki məhsul üzrə mütləq üstünlüklər var), mahudla müqayisədə məsrəflərin

aşağı olduğu şərabın istehsalı və ixracında ixtisaslaşmaq onun üçün daha sərfəlidir. Öz növbəsində, İngiltərə üçün mahudun istehsalı və ixracında ixtisaslaşmaq məqsədəuyğundur, çünki şərabla müqayisədə mahuda məsrəflər aşağıdır. Ona görə də şərabı ingilis mahudu ilə mübadilə edib Portuqaliyadan gətirmək sərfəlidir.

Tutaq ki, 25 m uzunluqda mahud parça 50 l tutumlu şərab çəlləyinə mübadilə edilir və istehsal məsrəfləri ancaq əmək sərfi ilə ölçülür. Portuqaliyada mahud parçanın istehsalına 90 işçinin, İngiltərədə 100 işçinin illik əməyi sərf olunur. Bir çəllək şərabın istehsalına uyğun olaraq, 80 və 120 işçinin illik əməyi sərf olunur.

Əgər Portuqaliya mahud istehsalından imtina edib, onu İngiltərədən idxal etsə, özünün 10 işçisinin illik əməyinə qənaət etmiş olacaq. Öz növbəsində, İngiltərə şərab istehsalından imtina etsə, 20 işçisinin illik əməyinə qənaət etmiş olacaq.

Nümunədə göstərilir ki, hər iki ölkədə əmək ödənişi eynidir. Amma əgər onlar müxtəlif olsa belə, Rikardonun davamçılarının göstərdiyi kimi, bu nisbi üstünlüklər nəzəriyyəsinə əsaslı dəyişiklik etmir.

NİYYƏTLƏR HAQQINDA MƏKTUB – bu məktubun müəllifi müvafiq şərtlər daxilində müəyyən hərəkət etmək niyyətində olduğunu bəyan edir. İnvestorun niyyətləri haqqında məktub – ABŞ praktikasında qarşılıqlı fondun investorunun niyyətləri haqqında bəyanat. İnvestor həmin məktubda 13 ay müddətində qiymətli kağızların satışında komisyon rüsumundan güzəşt hüququna malik olmaq üçün yetərli məbləğdə pul sərmayə qoymaq niyyətini elan edir.

NİYYƏTLƏR HAQQINDA MÜQAVİLƏ – qabaqcadan bağlanan bu sazişdə tərəflər müqavilə əsasında qarşılıqlı əməkdaşlıq etmək niyyətini göstərir və gələcəkdə konkret müqavilə bağlamaq arzusunu bildirirlər. Niyyətlər haqqında müqavilə hüquqi baxımdan icra edilməsi məcburi olan sənəd deyildir.

NİZAMNAMƏ FONDU – yeni yaradılan müəssisənin təsisçiləri tərəfindən xüsusi vəsaitlərin formalaşması üçün həmin müəssisəyə verilən maddi və qeyri-maddi aktivlərin dəyəri və pul vəsaitlərinin məbləği. Nizamnamə fonduna binalar, tikililər, avadanlıq, torpaqdan, təbii ehtiyatlardan istifadə etmək hüquqları, digər əmlak hüquqları, pul vəsaitləri və başqa dəyərlər köçürülə bilər.

NİZAMSIZLIQ – qaydanın, intizamın pozulması, təşkilatın nasazlığı; uyğunsuzluq, dağılma.

NOBEL QARDAŞLARI – XIX əsrin ikinci yarısından etibarən, Azərbaycan neft sənayesinin inkişafında Nobellər ailəsinin çox mühüm rolu olmuşdur.

Nobellər İsveçin qədim və köklü şəcərəyə malik ailələrindən biridir. Sülalənin banisi Petrus Olai Nobelius (1655-1707) olmuşdur. Nobellərin İsveçdə tanıması isə İmmanuel Nobel (1802-1872) və onun oğullarının adı ilə bağlıdır. İmmanuel Nobel əmək fəaliyyətinə ticarət gəmisində matros kimi başlamışdı. Sonralar İ.Nobel inşaat işlərini dərindən öyrənərək tikinti podratçısı kimi çalışır. O, XIX əsrin 20-ci illərində Stokholmda bina və körpülərin inşasında yaxından iştirak edirdi. Tikinti işləri ilə əlaqədar İmmanuel Nobel tez-tez qayaları partlatmaq üçün müxtəlif texniki təcrübələr də aparırdı. Əmək fəaliyyəti ilə yanaşı, təhsilini də davam etdirən İ.Nobel Kral İncəsənət Akademiyasında və Mexanika Məktəbində oxumuşdur. İmmanuel Nobel 1827-ci ildə varlı ailədən olan Andrietta Ahlsell ilə ailə qurmuş və onun bu izdivacdan 8 uşağı olmuşdur.


Nobellər ailəsinin Bakı ilə tanış ilk üzvü Robert Nobel olmuşdur. İmmanuel Nobelin böyük oğlu olan Robert Nobel 1829-cu ildə anadan olub. 60-cı illərin əvvəllərində o, məşhur fin kommersantı Polin Lennqren ilə ailə qurmuş və Helsinqforsda yerləşmişdir. Ümumiyyətlə, Polin ilə izdivacdan Robertin daha üç uşağı – İnqeborq, Lüdviq və Tyura adlı övladları olmuşdur. Lenqrenlərlə qohum olaraq Helsinqforsda yerləşdikdən sonra Robert işıq yağlarının satışı ilə məşğul olan "Avrora" mağazasının şəriki olmuşdur. 1869-cu ildə Edla Kollin ilə evlənərək "bal ayı"na çıxmış Lüdviq Nobelin xahişi ilə Peterburqa gələn Robert qardaşı gələnə kimi onun işlərinə rəhbərlik etmişdir.

Qardaşının "bal ayı" ərzində Robert onun işlərinin öhdəsindən yüksək səviyyədə gəlsə də, "İjevsk Avantürası"nda iştirak etmək istəmirdi. Buna görə də, Lüdviq zavodun mülki məhsullarının satışı işini ona həvalə etdi. Robert yaxşı pul qazanırdı,

lakin bütün pullarını riskli sahələrə qoyurdu. Lüdviq berdanka tüfəngi üçün 500 min qundaq hazırlamaq işini də ona tapşırdı.


Nobel qardaşlarını Azərbaycana gətirən də məhz silah məsələsi oldu. Yüz minlərlə tüfəng qundağı üçün Almaniyadan baha qiymətə gətirilən qoz ağacı Nobel qardaşlarına sərfəli olmadığından, Sankt-Peterburq və İjevsk ətrafında isə qoz ağacı bitmədiyindən qardaşlar bunu imperiyanın müxtəlif bölgələrində axtarmağa başladılar. Mütəxəssislər qoz ağacının Qafqazda, xüsusən də Lənkəran meşələrində çox olmasını söylədikdən sonra Lüdviq Nobel 1873-cü ildə qardaşı Robert Nobeli Azərbaycana göndərdi. Lakin o, Lənkəranda qoz ağacı massivi tapa bilmədi və Nobel qardaşları tüfəng qundağı düzəltmək üçün qoz ağacını daha ucuz qiymətə başa gələn toz ağacı ilə əvəz etdilər. Buna baxmayaraq, Robert Nobelin Azərbaycana səfəri hədər getmədi. O, yolüstü Bakıda qaldı, Qaraşəhər və Ağşəhəri, neft mədənlərini gəzdi, maliyyə, sənaye və iqtisadi vəziyyəti öyrəndi, əsl gəlir mənbəyinin Bakıda olduğunu qabaqcadan çox düzgün qiymətləndirdi.

Ümumiyyətlə, Nobellərin Bakı haqqında ilk təsəvvürləri XIX əsrin 60-cı illərində yaranmışdı. O dövrdə ABŞ kerosini Avropada şöhrət qazandı ki, bu da qəzet və jurnallar vasitəsi ilə kimyaya, texnikaya aid xəbərləri daimi izləyən Nobellərin diqqətindən yayınmadı. Lüdviq qardaşı Robertə göndərdiyi 1864-cü il 16 fevral tarixli məktubda kerosin lampalarından söz açır, rus kapitalisti Kokorevin 1858-ci ildə Bakıda kerosin istehsal edən kiçik bir zavod açmasından danışırdı: "Rusiyanın içərilərində Kokorevin Qafqaz şəhəri Bakıdan gətirdiyi mədən yağlarından istifadə olunur. Qiyməti hələ çox baha olsa da, güman etməyə əsas var ki, bu yağlar yaxın gələcəkdə ABŞ yağları ilə rəqabət apara biləcək gücə malikdir. Bu ehtiyatlar ABŞ-da olduğundan heç də az deyil. Ümumiyyətlə, neft məsələsində çox parlaq gələcək var"... Lakin onların heç biri güman etmirdi ki, bu "parlaq gələcəyin" əsas iştirakçıları məhz onlar olacaqlar.



Nobel qardaşları (saat əqrəbi istiqamətində): Robet, Alfred, Lüdviq və yeni doğulmuş Emil (Sankt-Peterburq, 1843)


Robert Nobel 1873-cü ilin sonunda Sankt-Peterburqa qayıtdıqdan sonra Bakıda neftlə bağlı geniş biznes imkanlarının olduğunu qardaşı Lüdviq Nobelin nəzərinə çatdırdı və onu perspektiv cəhətdən tükənməz sərvətə sahib olmağın mümkünlüyü fikrinə inandıra bildi. Robert Nobel qardaşı Lüdviqdən 25 min rubl alaraq 1874-cü ildə Azərbaycana qayıtdı və 1875-1876-cı illərdə Bakı neft sənayesində sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa başladı. Lüdviq Nobel İsveçdəki qardaşı Alfredə yazdığı 1875-ci il 31 oktyabr tarixli məktubunda Robertin Bakıya edəcəyi səfərinə böyük ümidlə yanaşdığını bildirirdi: "Görək xammal və hasilat işlərini necə sahmana salacaq. Mən öz tərəfimdən məndən asılı olan hər şeyi etdim. Onun həyatının sonrakı uğurları və xoşbəxtliyi bundan



"Nobel qardaşları" şirkətinin Qaraşəhərdəki neft kəməri nasosu




Qaraşəhərdə "Nobel qardaşları" şirkətinə məxsus zavodların ümumi mənzərəsi











"Nobel qardaşları" şirkətinə məxsus mexaniki zavod






Balaxanıda neft çənləri

"Nobel qardaşları" şirkətinin körpüsündə boru kəməri






Nobel qardaşları yoldaşlığının kerosin pudunun satışından əldə etdiyi orta illik gəlir
(1878-1910-cu illər ərzində)




Kerosinin əsas qiymətləri — *Aksiz 40 qəpik* — *Aksiz 60 qəpik*

Bakı şəhərində neft məhsullarının ümumi illik istehsalı




I Neft hasilatı
II Mazut hasilatı
III Kerosin istehsalı
IV Sürtgü yağları istehsalı

Bakıdan xarıcə çixarılan neft məhsullarının ümumi illik ixracı




I kerosin
II mazut
III sürtgü yağları

Bakıdan 23 il ərzində xarıcə çixarılan kerosinin ümumi məbləği



I kerosin

asılıdır". Robert Bakıya gəldikdən sonra Xəzər dənizinin şərqində yerləşən Çələkən adasındakı mədənlərin işlənilməsi üçün lisenziya aldı. Robert Nobel 120-yə qədər neft emalı zavodunun fəaliyyət göstərdiyini, bununla belə neftin hələ də köhnə üsullarla hasil edildiyini biləndə texniki yeniliklərin tətbiqi qərarına gəldi. O, "Tiflis cəmiyyəti"ndən Qaraşəhərdə 25 min rubla kiçik bir zavod aldı və onu yenidən qurdu. Neft emalı



Nobel qardaşlarının "Neftayırma zavodu" (Bakı, 1880-ci ilin axırları)

zavodu üçün avadanlıqlar hazırlamaq məqsədi ilə Bakıda mexaniki emalatxanası olan isveçrəli Martin Vestvala sifarişlər verdi. R.Nobel neft emalı zavoduna rəhbərliyi gənc kimyaçı mühəndislər Erland Teel və Avqust Avelinə həvalə etdi. Gərgin səylər nəticəni çox gözlətmədi. 1875-ci ilin payızında Robert Nobelin zavodu ilk məhsullarını istehsal etdi. Robert özü əla səviyyəli kimyaçı olduğu üçün onun neft məhsulları keyfiyyətinə görə nəinki yerli rəqibləri, hətta Rusiyaya ildə 40 min ton kerosin ixrac edən ABŞ məhsullarını da ötüb-keçdi. Hasilat sürətlə genişləndi, Robert Nobel alman geoloqu Fillin köməyi ilə yeni neft mədənləri aşkar etdi. Sankt-Peterburqdan Lüdviq, Parisdən isə Alfred Nobellər Bakıdakı qardaşlarına maliyyə vəsaiti və məsləhətlər baxımından yardımlarını əsirgəmirdilər. Lakin, Peterburq qəzetləri Bakıdakı neft həyəcanından günlərlə, aylarla, bəzən isə illərlə davam edən nəhəng neft fontanlarından bəhs etdiyi bir dövrdə Çar Rusiyası hökuməti yerli istehsala diqqəti artırmaq üçün ABŞ-dan ixrac olunan neft məhsullarına aksiz vergisini artırdı. Belə bir vaxtda Lüdviq Nobel də marağını boğa bilmədi və 17 yaşlı oğlu Emanuellə birgə Bakıya yollandı. Burada o, bir daha əmin oldu ki, tüfəng, top, dinamit və sairədən əldə olunan gəlirlərlə müqayisədə Robertin Bakıdakı neft müəssisəsinin əldə etdiyi qazanc qat-qat çoxdur. 1876-cı ilin sentyabr ayında yenidən Bakıya qayıdan Lüdviq qardaşı Alfredə yazdığı məktubunda "Bakı neftinin genişmiqyaslı daşınmasını həyata keçirmək planlarının olduğunu", "inanılmaz gəlir əldə etməyin mümkünlüyünü" bildirirdi.


Bakıda o, Robertlə birgə ciddicəhdlə xüsusi kerosin zavodunun inşasını başa çatdırmağa çalışırdı. Bu məqsədlə 300 min dollar kapital qoyulsa da, bu məbləğ kifayət etmədi. Boru kəmərləri və böyük rezervuarlar lazım idi və buna görə də qardaşlar dostları Satndartşeldi onun 150 min dollar sərmayəsi ilə birgə fəaliyyətə cəlb etdilər. Beləliklə, təkcə istehsal işlərinə 450 min dollar vəsait sərf olundu.

Nobel qardaşları neft istehsalı və onun emalı ilə məşğul olmaq, neftin daşınmasını, onun satışını təşkil etmək və bütövlükdə neft sənayesini texniki səviyyəyə qaldırmaq istiqamətindəki fəaliyyətlərini daha da genişləndirmək və daha iri istehsal müəssisəsi açmaq qərarına gəlirlər. 1879-cu ildə Lüdviq Nobel İjevsk silah zavodu üzrə ortağı, peterburqlu baron və sənayeçi P.A.Bilderlinqlə birgə əsas kapitalı 3 milyon rubl olan "Tovarişestvo Neftyanoqo Proizvodstva Bratyev Nobel Branobel" – Nobel Qardaşlarının Neft Hasilatı Şirkəti (qısaca "Nobel qardaşları" şirkəti) adlanan iri istehsal müəssisəsi səhmdar cəmiyyəti yaratdı. 1880-ci ildə "Nobel qar-

daşları" şirkətinin kapitalı 4 milyon, 1881-ci ildə 6 milyon, 1882-ci ildə 10 milyon, 1900-cü ildə isə 15 milyon rubla çatdı. Qardaşlardan biri – Robert Nobel neft sənayesində 1880-ci ilə qədər işləsə də, ağır xəstəliyi ilə əlaqədar Bakını tərk etdi və xaricə köçdü, lakin ömrünün axırınadək müəssisənin şəriki olaraq qaldı.

XIX əsrin 80-ci illərinin əvvəlində "Nobel qardaşları" şirkəti Rusiyanın daxili bazarında neft məhsulları ilə ticarət sahəsində üstünlüyü ələ aldı. Birliyin kapitalının böyük hissəsi nəqliyyat və satışın təşkilinə yönəldildi. Qüdrətli çoxsahəli istehsal-nəqliyyat-satış kombinatına çevrilmək istiqamətində inkişaf edən "Nobel qardaşları" şirkətində neft anbarları, gəmilər, sisternlər və neft kəmərləri 80-ci illərdə əmlakın 75%-ni təşkil edirdi. Qryazu-Tsaritsin dəmir yolunda Nobellərə məxsus 1.500 xüsusi vaqonsistern var idi. Nobellər neft məhsullarının Volqa üzərindəki körpülərdən və daxili bazarlara quru yollarla daşınmasında çox mühüm mövqe tuturdular. 1882-1883-cü illərdə "Nobel qardaşları" şirkəti Rusiyada ağ neftlə ticarəti bütünlüklə özünə ram etmək üçün ilk dəfə cəhd göstərdi və bu məqsədlə ağ neft ticarəti sindikatının layihəsini irəli sürdü. Elə həmin vaxt şirkət Bakı ağ neftini Qərbi Avropada satmaq üçün özünün xüsusi təşkilatını yaratmağa başladı. 1898-ci ildə Bakı neft hasilatına görə ABŞ-ı ötüb-keçdiyi bir dövrdə "Nobel qardaşları" şirkəti ha- silatının miqdarı 20 milyon puddan çox olan 8 ən iri firmadan biri idi.

Neft istehsalının inhisarlaşması uğrunda başlanmış mübarizənin qızğın çağında, 1884-cü ildə Bakı Neft Sənayeçiləri Qurultayı Təşkilatı təşəkkül tapdı. Qurultay, əsasən, iqtisadi vəziyyətindən asılı olmayaraq bütün sənayeçilərin mənafelərini əks etdirən bir qurum kimi düşünülmüşdü. Tədricən neft hasilatı, neft emalı və neftin daşınması ilə məşğul bir neçə iri neft firması Bakı Neft Sənayeçiləri qurultayında həlledici mövqeyə



Nobel qardaşlarının "Nefttəmizləyici zavodu" (Bakı, 1890-cı il)

sahib oldular. Onlardan biri də "Nobel qardaşları" şirkəti idi. Həmin şirkətin səsləri artaraq 117-yə çatdı, yəni bu bütün səslərin 16%-ni təşkil etdi. Qurultaylar arası dövrdə təşkilatın fəaliyyətini təşkil edən Bakı Neft Sənayeçiləri Şurasına rəhbərliyi isə 1888-ci ilə kimi Lüdviq Nobel özü həyata keçirirdi. "Nobel qardaşları" şirkətinə ümumi rəhbərlik Lüdviq Nobelə həvalə olundu. Şirkətin böyük şöhrəti və onun dünyada məşhur kapital sahibləri ilə eyni sırada durması Lüdviq Nobelin adı ilə bağlıdır. 1888-ci il mart ayının 31-də vəfat edən Lüdviq Nobel Sankt-Peterburqda Smolensk Lüteran qəbiristanlığında dəfn olundu. Bundan sonrakı dövrdə, yəni 1888-ci ildən 1919-cu ilə qədər "Nobel qardaşları" şirkətinin işləri ilə Nobellər nəslinin nümayəndəsi Lüdviqin oğlu Emanuel Nobel məşğul olmuşdur. 1889-cu ildə Rusiya Texniki Cəmiyyəti Lüdviq Nobelin şərəfinə təntənəli yığıncaq təşkil etdi. Bu yığıncaqda "Nobel qardaşları" şirkəti qızıl medal və Lüdviq Nobelin adına 6 min rubl miqdarında təqaüd təsis etdi.

1893-cü ildə Peterburqda Maliyyə Nazirliyinin razılığı ilə neft firmalarının nümayəndələri arasında Bakı Ağ Neft İstehsalçıları İttifaqının yaradılması haqqında müqavilə imzalandı. 1897-ci ilə qədər fəaliyyət göstərən və Bakı neftinin ilk ixracat sindikatı olan bu ittifaqda da söz sahibi "Nobel qardaşları" şirkəti idi. İttifaqın paylarının 9.610-u bu şirkətə məxsus idi. "Bakı Ağ Neft İstehsalçıları İttifaqı" dünya bazarlarını bölüşdürmək


uğrunda mübarizə aparırdı.

1893-cü ildə isə "Nobel qardaşları" şirkəti "Simens qardaşları və kompaniyası" şirkəti ilə müqavilə bağladı. Müqavilənin şərtlərinə görə, Gədəbəy filiz mədənlərində çıxarılan bütün filiz "Nobel qardaşları" şirkətinə satılırdı. Mis kolçedanı bu şirkətin Qaraşəhərdəki kimya zavoduna göndərilir və orada emal edilirdi. Bu müqavilə ilə XIX əsrin son rübündə dağmədən sənayesinin mühüm bir sahəsi neft sənayesində yaranmış inhisar birliklərinə tabeliyinin başlanğıcı oldu.

Lüdviq Nobelin rəhbərliyi dövründə də "Nobel qardaşları" şirkəti Bakı neft sənayesində öz birinciliyini qoruyub saxlayırdı. Belə ki, bu birlik təkcə Sabunçu və Balaxanıda 44 neft mədəninə sahib idi. 1914-cü ilin məlumatlarına görə, bu mədənlərdə 2525 nəfər çalışırdı. Neft hasilatının ümumi həcmi 45-75 milyon pud təşkil edirdi ki, bu da Bakıda hasil olunan ümumi neft həcminin 25-28 faizi demək idi. Nobel qardaşları texnikanın təkmilləşdirilməsini, iqtisadi cəhətdən üstünlük qazanılmasını, nəqliyyat sürətinin artırılmasını kapital yığmaq rəqabətində qələbənin əsas amili hesab edirdilər. Qardaşlar bütün layihə işlərini, təcrübə zavodları, emalatxana və konstruktor bürolarındakı işləri, tədqiqat nəticələrini son dərəcə məxfi saxlayır, sifarişləri əksər hallarda gizli yerinə yetirirdilər. Məlumat üçün qeyd edək ki, "Nobel qardaşları" şirkəti özlərinin və Bakıdan aldıqları 1 milyard 426 milyon pud neft məhsullarını daxili və xarici bazarlara çıxarmışlar. Onlardan 1 milyard 174 milyon pudu Xəzər dənizi və Volqa çayı ilə Rusiyaya, 252 milyon pudu isə Qara dənizdən dünya bazarlarına çıxmaq üçün Cənubi Qafqaz dəmir yolu vasitəsi ilə daşınmışdır. Satışdan 868 milyon rubl gəlir əldə edilmişdi və onun da 178 milyon rublu xarici bazarların payına düşürdü. Nobellər nəinki neft hasilatında, ondan alınan məhsulların dünya bazarına göndərilməsində, hətta, ağ neft və sürtkü yağları istehsalı üzrə də birinciliyi əldə saxlayırdılar. Təkcə onu demək kifayətdir ki, 1879-1904-cü illər ərzində "Nobel qardaşları" şirkəti 1 milyard 195 milyon pud neft emal etmişdi. Yerli sahibkar ağ nefti istehsal edəndən sonra yerdə qalan məhsulları dənizə axıtdıqları halda, Nobellər onları iri həcmli, dəyirmi rezervuarlarda saxlayır, satır və milyonlar qazanırdılar. Onların zavodlarında yalnız 1912-ci ildə 37,6 milyon pud yüksək keyfiyyətli neft məhsulları istehsal edilmişdir. Nobellərin boru kəmərləri ilə ildə 65 milyon pud neft nəql edilirdi. Bu göstəricilər üzrə onların tayı-bərabəri yox idi.

"Nobel qardaşları" şirkətinin biznesdəki uğurlarının ən mühüm amillərindən birini şirkətin rəhbərliyinə bacarıqlı, işgüzar, təşəbbüskar və yüksək ixtisaslı mütəxəssislərin cəlb olunması təşkil edirdi. Məsələn, bunlardan biri, Lüdviq Nobelin nikahdankənar oğlu Yalmar Krussel (1856-1919) 1890-1892-ci illərdə Bakıya gələrək, "Nobel qardaşları" şirkətində mühəndis-texnoloq kimi fəaliyyət göstərmişdir. 1916-cı ilə qədər şirkətdə texniki şöbəyə rəhbərlik etmiş və Nobellərin iqtisadi yüksəlişində mühüm rol oynamışdır. Yalmar Krussel Edla Nobelin qohumlarından Siqrid Mellqren ilə ailə qurmuşdu.

Digər belə bir mütəxəssis Karl



"Nobel qardaşları" şirkəti tərəfindən milyard pud həcmində neft hasil edilməsi şərəfinə hazırlanmış bürünc lövhə. 1879-1906

Vilhelm Haqelin (1860-1954) 1878-ci ildə Bakıya gələrək 1883-cü ilə qədər Robert Nobelin rəhbərliyi altında çalışmışdır. O, 1883-cü ildə Stokholmda yerləşən Ali Texniki Məktəbə daxil olmuşdur. 1890-cı ildə isə yenidən Bakıya dönmüş və 1899-cu ildən etibarən "Nobel qardaşları" şirkətinin idarə heyətinə seçilmişdi. Şirkətin Bakıda yerləşən bütün donanma və müəssisələrinə rəhbərlik etmək ona həvalə olunmuşdu. 1906-cı ildə isə o, İsveçin Rusiyadakı baş konsulu təyin edildi. 1923-cü ildə Karl Vilhelm Haqelin İsveç Texniki Elmlər Akademiyasının fəxri üzvü seçilmişdi.

Mixail Belyamin (1831-1908) Lüdviq Nobelin yanında mühəndis işləmiş və rəhbərlikdə çalışmışdır. 1880-ci ildən isə o, şirkətin idarə heyəti üzvlərindən biri kimi fəaliyyət göstərmişdir. 1899-cu ildən təqaüdə çıxana qədər M.Belyamin "Nobel qardaşları" şirkətinin ən məsul vəzifələrində çalışmışdır. Onun oğlu Mixail Belyamin dağ mühəndisi idi. O, 1891-ci ildə Bakıya gəlmiş və "Nobel qardaşları" şirkətinin xətti ilə 1893-cü ildə ABŞ-da oxumağa göndərilmişdir. 1895-ci ildən "Nobel qardaşları" şirkəti idarə heyətinin üzvü seçilmişdir. 1919-cu ilə qədər Petroqradda yaşayan M.Y.Belyamin daha sonra ailəsi ilə birlikdə İstanbula köçmüş, oradan isə Parisə köçərək XX əsrin iyirminci illərinin əvvəllərində orada vəfat etmişdir.

Pyotr Bilderlinq (1844-1901) fin zadəgan ailəsində anadan olmuş, hərbi təhsil alaraq general-mayor rütbəsinədək yüksəlsə də, 1885-ci ildən "Nobel qardaşları" şirkətinin administrasiyasının, daha sonra isə ömrünün sonuna qədər şirkətin idarə heyətinin üzvlərindən biri olmuşdur.

Artur Lessner (1867-1946) XX əsrin əvvəllərində "Nobel qardaşları" şirkətinin texniki şöbəsinə, 1904-cü ildən şirkətin Balaxanı mədənlərinə rəhbərlik etmişdir, 1914-cü ildən şirkət direktorlarından biri, 1917-1920-ci illərdə isə Bakıda şirkətin baş rəhbəri olmuşdur.

İdarə heyətinin fəaliyyətində Hans Olsenin də xüsusi rolu olmuşdur. 1880-ci ildə işləmək üçün Kronştadta gələn Hans Olsen Rusiyanın paytaxtında Emanuel və Karl Nobellərlə tanış olur. 1887-ci ilin yazında Emanuel Nobel Skandinaviya ittifaqının hesablarını təftiş edərkən ona yaxından kömək edən Hans Olseni çox işgüzar və bacarıqlı mütəxəssis kimi tanıyır. "Nobel qardaşları" şirkətində ona iş təklif olunsa da, Olsen yenicə şəxsi müəssisə açdığı üçün bu təklifi qəbul etmir. Uzun cəhdlərdən sonra, 1893-cü ildə Emanuel Nobel Hans Olseni tovlayaraq "Nobel qardaşları" şirkətinə cəlb edə bildi və yaxşı zəhmət haqqı müqabilində onu ildə cəmi dörd-beş dəfə keçirilən Şura iclaslarında iştirak etməyə razı saldı. Çox keçmədi ki, Emanuelin təklifi ilə şirkət mallarının satış işlərini qaydaya salmaq üçün Hans Olsen Londona ezam olundu. Bundan az sonra isə o, Emanuel Nobelin böyük etimadı sayəsində şirkətin xarici şöbəsinə direktor təyin edildi. 1896-cı ilin avqust ayının 7-də Robert Nobelin, dekabrın 10-da isə Alfred Nobelin vəfatından sonra maliyyə dairələri və səhmdarlar arasında "Nobel qardaşları" şirkətinin sonu çatması ilə bağlı söz-söhbət yayıldığı bir vaxtda Hans Olsen Avropanın müxtəlif şirkətləri ilə işgüzar danışıqlara başladı, çox uğurlu nəticələr əldə etdi. 1897-ci ildə Hans Olsenin dəvəti ilə Rotşildlərin nüfuzlu bank birliyinin kommersiya şöbəsinin rəhbəri Jül Aron Peterburqa gəldi. Olsen həm Rotşildlərlə, həm də "Standart Oil" şirkəti ilə mehriban münasibətlər qurulmasının vacibliyini başa düşürdü və məhz onun şəxsi səyləri sayəsində adları çəkilən şirkətlər ilə yüksək səviyyəli əməkdaşlıq qurmaq mümkün oldu. Lüdviq Nobelin qızı Mina Nobel ilə evləndikdən sonra Hans Olsen şirkətin xarici şöbəsinə rəhbərlik etməklə yanaşı neft, mazut və sürtkü yağlarının Rusiya bazarlarında satışı işlərinə nəzarəti də həyata keçirirdi. "Standart Oil" şirkətinin təcrübəsini əsas götürən Hans Olsen müxtəlif ölkələrdə fəaliyyət göstərən və şirkətin maraqlarından daha çox öz şəxsi mənfəətləri üçün çalışan xarici ticarət agentlərini baş idarəyə tabe olan vahid satış şirkəti halında birləşdirdi. Ağıllı və uzaqgörən bir şəxs kimi Hans Olsen "Nobel qardaşları" şirkətinin Bakı idarəsinin həlledici rola malik olduğunu və şirkət üçün həyati əhəmiyyət kəsb etdiyini başa düşürdü. Buna görə də o, ilk və son dəfə Bakıya gələrək, şirkətin Bakı idarəsinin rəhbəri Haqelinlə görüşdü, yeni neft və mazut mədənlərinin istismarı ilə bağlı müzakirələr

apardı. Hans Olsen Avropada sürtkü yağlarının satışını həyata keçirən bütün Avropa və ABŞ şirkətlərini Parisdə topladı və toplantı gedişində SAİK (“*Sosete darmeman, dindustri, e de kommers*”) Assosiasiyası yaradıldı. SAİK Avropada və onun hüdudlarından kənarda sürtkü yağlarının satışı sahəsində çox böyük uğurlar əldə etdi ki, bu uğurların qazanılmasında Hans Olsenin böyük əməyi olmuşdu. Lakin gərgin və aramsız işlər Hans Olsenin sağlamlığına təsirsiz ötüşmədi. 1901-ci ilin yazında başlayan üzücü xəstəlik onu müalicə üçün Peterburqdan İsveçrəyə köçməyə məcbur etdi. 1904-cü ildə Emanuel Nobel Hans Olsenin şərəfinə 160 nəfərlik möhtəşəm vida ziyafəti təşkil etdi və “Nobel qardaşları” şirkətinin yüksəlişindəki, uğurlu fəaliyyətindəki xidmətlərinə görə ona dərin təşəkkürünü bildirdi. Hans Olsen neft sənayesindən birdəfəlik uzaqlaşmadı. O, “Norsk Hidro” şirkətinin təsisçilərindən biri kimi qalmaqla yanaşı sonralar da “Nobel qardaşları” şirkətini xarici danışıqlarda təmsil edirdi. Bütünlükdə çevik, işlək, uzaqgörən və yüksək ixtisaslı kadrlardan ibarət idarə heyəti “Nobel qardaşları” şirkətinin uğurlarında böyük rol oynamışdır.

Ucsuz-bucaqsız Rusiya imperiyasını neft və neft məhsulları ilə təmin etməyin, dünya bazarlarına çıxmağın çətin olduğunu nəzərə alan Nobel qardaşları dəniz və okean üçün tankerlər, dəmir yolu üçün sistern-vaqonlar düzəldir və bu yolla neft və neft məhsullarının daşınmasının sürətini artırırdılar. 1877-ci ildə dünyada ilk dəfə olaraq Lüdviq Nobelin layihəsi əsasında İsveçin Motala gəmiqayırma zavodunda 15 min pud ağ neft tutan, duru yanacaqla, mazutla işləyən, “Zoroastr” (“Zərdüşt”) adlandırılan buxar tankeri inşa olundu. Tez bir zamanda, yəni 1878-ci ildə Xəzər dənizində suya salınıb istismar edilməyə başladı.

1879-cu ildə “Nobel qardaşları” şirkəti tərəfindən daha böyük buxar tankeri – “Moisey”in hazırlanması üçün sifariş verildi. Bu tanker dövründə Transatlantik neft daşımalarını həyata keçirən nəqliyyat vasitələri içərisində ən böyüyü idi. Bununla da, “Nobel qardaşları” şirkəti Rusiya imperiyası daxilində quru və dəniz kommunikasiyalarında inhisarçıya çevrildi.

Nobellər, eyni zamanda, birinci olaraq ilk neft kəmərini çəkib istifadəyə verdilər. Balaxanı mədənlərini şirkətin Qaraşəhərdəki neftayırma zavodu ilə birləşdirən, uzunluğu 10 kilometr, sutkalıq ötürmə gücü isə 80 min pud olan bu neft kəməri və başqa texniki yeniliklər Nobellərə yüksək keyfiyyətli kerosin (ağ neft) istehsal etmək, Rusiyanın ağ neft bazarında inhisarçıya çevrilmək imkanı verdi.

1883-cü ildə Qaraşəhərdə “Nobel qardaşları” şirkətinə məxsus kimya zavodu inşa edildi. Bu zavod, əsasən, kükürd turşusu istehsal edirdi.

Nobel qardaşları xarici ölkələrdən Bakıya təcrübəli ustalar gətirir, qazma sahəsində olan yenilikləri tətbiq edirdilər. Artıq XIX əsrin 80-ci illərinin əvvəllərində Balaxanı-Sabunçu sahələrində qazma və neftçıxarma texnikasının ən yeni nümunələrinə rast gəlmək olurdu. Belə ki, “Nobel qardaşları” şirkəti tərəfindən ilk dəfə olaraq neft quyularının qazılmasında buxar maşınları tətbiq edilmiş, jelonka ilə neftin çıxarılmasında elektrik enerjisindən istifadə olunmuşdu. Zığda isə dərinliyi o zaman üçün rekord sayılan 2300 fut (1 fut – 0,3048 metr) dərinlikdə quyu qazılmışdır. Nobel qardaşları yeni neft yataqlarının kəşfini və laylarda təxmini neft ehtiyatını öyrənməyə çalışırdılar. Bu məqsədlə onlar Stokholmdan məşhur geoloq Şeqrini Bakıya dəvət etmişdilər. Şeqrinin uzun müddət apardığı tədqiqatlar nəticəsində “Nobel qardaşları” şirkəti bir çox neft yataqlarında, o cümlədən 1904-cü ildə Pirallahı adasında dərinliyi 260 sajen olan quyu qazmış və neft hasil etmişdilər. Bundan başqa, onlar Dərbəndin “Bərəkət” adlanan hissəsində, Qroznı və Maykop mədənlərində də neft quyusu qazdırmış, neft aşkar edilən sahələrdən külli miqdarda neft çıxarmışdılar.

Bütövlükdə, “Nobel qardaşları” şirkəti ümumi həcmi 70502 sajen olan 433 neft quyusu qazmış və həmin quyulardan 900 milyon pud neft hasil etmişlər.

“Nobel qardaşları” şirkəti dünyada ilk dəfə ABŞ-ın Texas neft sahəsində tətbiq edilən və quyuların diametrini nisbətən kiçiltməklə metal sərfini azaltmağa imkan verən rotor qazma üsulunu Azərbaycanda tətbiq etmək üçün ABŞ-dan lazım olan dəzgah və alətləri aldı. Onların əsl mütəxəssislərini – qazma ustalarını Bakıya dəvət etdi. Suraxanıda bu üsulla neft

quyusu qazılmağa başlandı və bu iş müvəffəqiyyətlə başa çatdırıldı. Bundan sonra Azərbaycanda rotor qazma üsulu ilə qazılan quyuların sayı ildən-ilə artmağa başladı.

Bakı neft mədənlərində neft quyularının istismarı zamanı onların ətrafında çoxlu neft ehtiyatı saxlaya bilmirdilər. Belə ki, mədən sahiblərinin heç birində onun üçün rezervuarlar yox idi. Neft quyusunun yaxınlığında quraşdırılan, həcmi yalnız 100-200 pud olan taxta çənlər mövcud idi. Bir qədər aralıda isə həcmi 40-70 min pud olan torpaq anbarlarından istifadə edilirdi. Quyu fontan vuran zaman həmin anbarlar bir neçə saat ərzində dolduğundan, sahibkar tez bir zamanda quyu ətrafındakı müəyyən ərazini qazılmış torpaqla çəpərləyib nefti oraya axıdırdı. Bunun nəticəsində də süni neft gölləri əmələ gəlirdi.

Bu torpaq anbarlar çox baha başa gəlir, neft torpağa hopur, buxarlanır və beləliklə, külli miqdarda neft itirilirdi. Bunları görən Lüdviq Nobel neftin mədənlərdə saxlanılması sahəsində irəliyə doğru cəsarətli addım ataraq yerüstü rezervuarlar layihələşdirib tikdirməyə başlayır. Bu zaman o, kərpic və daşlarla tikilən materialları daha möhkəm materialla, dəmirlə əvəz etdi. O, neft ehtiyatını tez və düzgün hesablamağın mümkünlüyünü təmin etmək üçün onlara silindrik forma verdi. Tez bir zamanda bu yenilik neft sahibkarları tərəfindən rəğbətlə qarşılanmışdı. Onlar öz mədənlərində bunu tətbiq etmiş və beləliklə də, neft mədənlərində xam neft ehtiyatını artırmaq mümkün olmuşdur. Bu da, öz növbəsində, neft emalı zavodlarının fasiləsiz işləməsini təmin etmiş və mədənlərdə tez-tez baş verən yanğınların qarşısını almışdır.

Bakı neft mədənləri ilə tanışlıq zamanı Nobel neft mədənlərinin Bakıdan 15-16 verst, dəniz sahilindən isə 10 verst məsafədə yerləşməsinin, neft emalı zavodlarının isə Bakı buxtası boyu fəaliyyət göstərməsinin və şəhərdən 2-3 verst məsafədə olmasının şahidi olmuşdu. Neft mədənlərdən emal zavodlarına ikitəkərli at arabalarda, kələkötür torpaq yollarla və ən yaxşı halda həcmi 20 pud olan çəlləklərdə daşınırdı. Neftin bir pudunun bu üsulla yaxın məsafəyə daşınması 6-10 qəpiyə başa gəlirdi. Bəzən neftin daşınmasına sərf olunan xərc neftin xam qiymətindən xeyli çox olurdu. O dövrdə ağ neftdən başqa məhsul istehsal olunmadığı üçün bir pud ağ neft almağa təqribən 3 pud xam neft tələb edilirdi. Bu da bir pud ağ neftin qiymətinin 27 qəpiyə başa gəlməsinə səbəb olurdu. Çox hallarda isə havanın əlverişsizliyi üzündən neftin daşınması dayandırılır, neft emalı zavodları işləmir, sifarişlər yerinə yetirilmirdi. Belə vəziyyətlə qəti razılaşmayan Lüdviq Nobel neftin daşınması sistemini kökündən dəyişməyi qarşısına məqsəd qoyur, neftin mədənlərdən neft emalı zavodlarına daşınmasını nasosla işləyən boru kəmərləri ilə həyata keçirməyi qərara alır. Onun ilk hesablamalarına görə, bu üsulla mədənlərdən Qaraşəhərdəki neft emalı zavodlarına bir sutka ərzində 100 min pud neftin daşınmasının 15 min rubla başa gəlməsi müəyyən edilmişdi. Lakin başqa neft sahibkarları Lüdviq Nobelin bu ideyasını bir tərəfdən başa düşməmiş, digər tərəfdən isə onun burada hansısa hiyləgərlik işlədərək neft mədənlərini və bütövlükdə, onların neftini öz əlinə keçirməyə çalışdığını söyləmişdilər. Beləliklə, Lüdviq Nobel öz mütərəqqi layihəsi ilə meydanda tək qalmışdı. Lakin, boru kəmərinin gələcəyinə inanan Lüdviq Nobel onun tikintisi üçün kapital əldə etmiş, çətinliklə də olsa boru kəmərinin müəyyən sahələrdən keçirilməsinə icazə almışdır. Eyni zamanda ABŞ-dan polad borular gətirilməsinə, təcrübəli boruçəkən ustalar dəvət olunmasına nail olmuşdur. Balaxanıdan Qaraşəhərə boru kəmərinin çəkilməsi ilə əlaqədar olaraq minlərlə neftdaşıyan arabaçı ixtisara düşmüş, buna görə də həmin arabaçılar kəməri neçə yerdən zədələmiş və sındırmışdılar. Belə halların və digər təxribatların qarşısını almaq üçün Lüdviq Nobel boru kəmərinin bütün yol boyu qorunmasına nəzarət edən silahlı kazak dəstələri – nəzarətçiləri yaratmışdı. Beləliklə, 1878-ci ildə, çox çətin də olsa, bu layihə həyata keçirilmiş və sutkada 35 min pud neft nəql etmək mümkün olmuşdu. Boru kəməri 100 min rubla başa gəlmiş, bir il ərzində öz xərcini ödəmişdi. Bu yolla neftin zavodlara daşınması 7 dəfə ucuz başa gəlmişdi. Yalnız bundan sonra başqa sahibkarlar da öz mədənlərindən zavodlara boru kəməri çəkməyə başlamışdılar.

Nobel qardaşları tərəfindən Bakı-Batumi arasında kerosin kəmərinin inşa olunması (bu boru kəmərinin inşasına 1897-ci ildə başlanılmış və 1907-ci ildə istismara buraxılmışdır) və 1883-cü ildə Cənubi Qafqaz dəmir yolunun fəaliyyətə başlaması Bakı neft sənayesinin inkişafında böyük rol oynamışdı. Bakı neftini Qara dəniz sahilinə çıxarılması üçün əlverişli şərait yaratmış və beləliklə də xarici bazarlara külli miqdarda neft və neft məhsullarının göndərilməsi təmin olunmuşdu.

Görülən tədbirlər nəticəsində ağ neftin qiyməti xeyli aşağı düşmüşdü. Belə ki, 1877-ci ildə bir pud ağ neftin qiyməti Tsaritsında orta hesabla 1 rubl 85 qəpik (əlavə vergisiz) olduğu halda, 1879-cu ildə bu qiymət 75 qəpiyə, sonradan isə 15-20 qəpiyə enmişdi.

Yüksək ixtisaslı kadrları öz müəssisəsinə cəlb etmək, onların istirahəti və işləməsi üçün lazımi şərait yaratmaq üçün Lüdviq Nobelin təşəbbüsü ilə Qaraşəhərin qurtaracağında heç nəyə yaramayan sahədə iki il ərzində (1887-1888) "Villa Petrolea" – "Neft villası" (indiki Nizami adına park) adlanan çox gözəl və yaşıl park salınmışdı. O, villanın bağında Lənkəran, Tiflis, Batumi, Rusiya və Avropanın müxtəlif yerlərindən gətirilən 80 min ağac və bəzək kolları əkdirmişdi. Burada fəvvarə vuran və eyni zamanda, şirin su saxlamaq üçün istifadə olunan çarhovuzlar tikilmişdi. Burada yaşıllıqlar içərisində kontor, elmi işçilər, mühəndislər üçün rahat evlər, teatr, kitabxana, yeməkxana və bilyard otağı inşa edilmişdi. Lüdviq buraya torpağı Lənkərandan, şirin suyu isə gəmilər vasitəsi ilə Həştərxandan gətirirdi. Parkın planlaşdırılması və abadlaşdırılması ilə Avropada çox məşhur olan botanik E.Bekli məşğul idi. Neft villası sahibkara o dövr üçün çox baha bir qiymətə 250 min rubla başa gəlmişdi.

Cəbi Bəhrəmov
Hacı Həsənov

NOBEL MÜKAFATI – beynəlxalq mükafat.

Alfred Nobel 1833-cü ildə İsveçin Stokholm şəhərində anadan olmuşdur. İmmanuel Nobel ailəsinin üçüncü oğlu olan Alfred doğulduğu zaman atası iflas etmişdi, ona görə də ailənin maddi vəziyyəti ürəkaçan deyildi. Nobellər ailəsi 1837-ci ildə Finlandiyaya, 1842-ci ildə isə Sankt-Peterburqa daşınaraq özünün uğurlu iqtisadi karyera yoluna qədəm qoyduğu zaman, Alfred də onlarla idi. Uşaq yaşlarından ona xüsusi müəllimlər tərəfindən tərbiyə və təhsil verilirdi. On yeddi yaşına çatanda Alfred Nobel artıq İsveç, rus, fransız, ingilis, alman dillərində sərbəst şəkildə danışır, fizika və kimya elmləri ilə yanaşı, ingilis ədəbiyyatına və şeirə də böyük maraq göstərirdi. İmmanuel Nobel oğlu Alfredi kimya mühəndisliyi sahəsində təhsil almaq üçün xaricə göndərir. İki il müddətində o, İsveç, Almaniya, Fransa və ABŞ-da olur. Parisdə olduğu zaman dövrün məşhur kimyaçısı T.J.Pelouzenin laboratoriyasında çalışır və burada güclü partlayıcı hesab olunan nitroqliserinin ixtiraçısı, italyan alimi Askanio Sobrero ilə tanış olur. Alfred Nobel də nitroqliserinlə maraqlanmağa başlayır. A.Nobel nitroqliserinin barıtdan daha güclü olmasına baxmayaraq, təzyiq və istinin təsiri ilə asanca partladığı üçün praktik istifadə baxımından əlverişsizliyi qənaətinə gəldi. O, 1852-ci ildə ailəsi tərəfindən Sankt-Peterburqa geri çağırıldıqdan sonra nitroqliserinlə bağlı çalışmalarını burada davam etdirdi. Lakin Krım müharibəsindən sonra Rusiya ordusu üçün silah sifarişi dayandırıldığından, onun atası iflas etdi, atası, iki oğlu – Alfred və Emil ilə birlikdə öz vətəninə geri döndü. Alfred Nobel 1863-cü ildən etibarən nitroqliserin ilə bağlı çalışmalarını Stokholmda davam etdirdi. Lakin, 1864-cü ildəki çalışmaları zamanı laboratoriyada baş verən partlayış nəticəsində qardaşı Emil və 4 nəfər adam həlak oldu. Bundan sonra Alfred Nobelin şəhər daxilində çalışmaları qadağan edildiyi üçün o, işlərini Malaren gölü yaxınlığındakı bir yerdə davam etdirdi və nitroqliserinin partlayıcı maddə kimi istifadə yollarını araşdırdı. Araşdırmalar nəticəsində 1864-cü ildə dinamiti kəşf edən Alfred Nobel 1865-ci ildə birinci, 1866-cı ildə isə ikinci fabrikini açdı. A.Nobel araşdırmaları davam etdirərək 1877-ci ildə "Balistit" adını verdiyi barıt növünü, 1879-cu ildə isə bərabər miqdarda nitroqliserinlə nitrosellüloz qarışığından ibarət olan daha təsirli dumansız barıtı kəşf etdi. Alfred Nobel 1896-cı ildə San-Remoda vəfat etdi. O, geriyə buraxdığı mirasın 33200000

kronunu hər il insanlığa xidmət göstərən böyük elmi kəşflərə xərclənməsini vəsiyyət etdi. Bu mükafatlar fizika, kimya, tibb və ya fiziologiya, ədəbiyyat və sülhə xidmət də daxil olmaqla, ümumilikdə beş sahəni əhatə edəcəkdi. Əvvəllər Nobelin bu vəsiyyəti böyük mübahisə doğursa da, İsveç hökumətinin 1900-cü ildə qurduğu Nobel Cəmiyyətinin xətti ilə mükafatlar hər il müntəzəm olaraq verilməyə başlandı. Nobel mükafatları hər il Alfred Nobelin vəfat etdiyi gündə – 10 dekabr tarixində verilir. Dünyanın ən nüfuzlu mükafatı hesab olunan Nobel mükafatının əsas hissəsini Alfred Nobelin varidatı təşkil etsə də, mükafatın verilməsində Bakı neftindən əldə olunan gəlirin də müəyyən rolu var (ilk fondun təxminən 10% – "Branobel" şirkətinin payına düşür). İlk "Nobel mükafatı" fizika sahəsində almaniyalı Vilhelm Konrad Rentgenə təqdim olundu.

1889-cu il 31 mart tarixində – Sankt-Peterburq şəhərində İmperator adına Rusiya Texniki Cəmiyyətinin Lüdviq Nobelin vəfatının ildönümündə keçirilmiş ümumi iclasında qərar verildi ki, ölkəmizin inkişafına xidmət göstərmiş bu insanın dürüst, ağıllı və enerji dolu həyatını yaddaşlarda xoş xatirə kimi həkk etmək üçün bütün lazımi səylər göstərilsin. Bu məqsədlə metallurgiya və neft sənayesi (bütünlükdə bu sahə və ya onun hər hansı bir hissəsi) sahələrində ən yaxşı iş və tədqiqatlar, habelə bu sahələrdə (ələlxüsus Rusiyanın inkişafı naminə praktik tətbiq baxımından dəyərli olan) istehsalat texnikasının təkmilləşdirilməsi və ixtiralara görə Lüdviq Nobelin adına mükafat təsis edildi. Bu mükafat 1917-ci ilə kimi Rusiya mühəndis cəmiyyətində ən nüfuzlu mükafatlardan biri olaraq qaldı.



Nobel mükafatı

1904-cü ildə isə Bakıda Emanuel Nobelin adını daşıyan mükafat təsis edildi. 1000 qızıl rubl həcmində olan bu mükafat neft-çıxarma sənayesində ən yaxşı işlər və kəşflər üçün təqdim edilirdi.

1909-cu ildə Bakı neft-kimyaçısı V.F.Gerr (1845-1940) "Bakı neftinin fraksiyalarım 500-dən 1600 C-cən, xüsusi çəkisi 1,4-lü azot turşusu ilə oksidləşdirməklə oksalat turşusu sıralarından olan ikiəsaslı yağlı turşuların alınması" elmi işinə görə "Emanuel" mükafatının (E.Nobel adına Bakı mükafatı) ilk laureatı oldu. 1911-ci ildə Moskva Universitetinin professoru A.M.Nestyukov və onun assistenti K.L.Malyarov "Neftin doymamış karbohidrogenlərinin formalinlə buxarlanması ilə maye məhsullarının alınması və xassələri barədə" elmi işinə görə "Emanuel" mükafatının ikinci laureatı oldular. 1914-cü ildə dağ-mədən mühəndisi S.Q.İsakov "Əl ilə idarə olunan dartaylama barabanı və jelonkanın dartaylama çarxma dartılmasını alan alət" elmi-konstruktor işinə görə "Emanuel" mükafatının üçüncü sonuncu laureatı olmuşdur.

İki dəfə Nobel laureatı olmaq olmaz. Bu mükafatın təltif edilməsinin bütün proseduralarını fondun Nizamnaməsinə uyğun olaraq İsveç Kral Elmlər Akademiyası aparırdı.

Nobel qardaşlarının XX əsrin əvvəllərində Bakı nefti sənayesindəki fəaliyyətləri nəticəsində əldə etdikləri böyük kapitalın bu mükafatın təsis edilməsində şübhəsiz mühüm rolu olmuşdur. Bu mənada tam əsasla demək olar ki, indiki Nobel mükafatının mayasını Bakı nefti, Azərbaycan sərvəti təşkil edir.

NOMENKLATURA (lat. *nomenklatura* – ad, adların siyahısı) – 1. Vəzifələrin tabelik səviyyələrinə görə yerləşən iyerarxik sistemi və bu sistemin idarəetmə aparatında ən yuxarı səviyyəsi. 2. Adların, materialların, istehsal edilən və satılan əmtəə və xidmətlərin sistemləşdirilmiş siyahısı.

NOMİNAL (lat. *nominalis* – adlı) – qiymətli kağızların üstündə göstərilən dəyəri; onların zəruri rekvizitlərindən biri.

NOMİNAL DƏYİŞƏNLƏR – monetar vahidlərlə ölçülən dəyişənlər.

NOMİNAL FAİZ DƏRƏCƏSİ – 1. İnflyasiya nəzərə alınmadan hesablanan faiz dərəcəsi. 2. Kommersiya və dövlət bankları tərəfindən kredit əməliyyatları üzrə təyin edilən faiz dərəcəsi. Nominal faiz dərəcəsi cari qiymətlər əsasında il üzrə hesablanır və bu gün sərmayə qoyulacaq pulun müqabilində gələcəkdə nə qədər çox pul əldə etmək olacağını göstərir. Nominal faiz dərəcəsi ilə real faiz dərəcəsi arasında əlaqə Fişer tənliyi ilə ifadə edilir:

$$\dot{I}=r+p,$$

Burada $\dot{I}$ – nominal faiz dərəcəsi; r – real faiz dərəcəsi; p – inflyasiya tempidir.

Bu tənlik göstərir ki, real faiz dərəcəsi və inflyasiya tempi dəyişdikdə nominal faiz dərəcəsi də dəyişə bilər. Fişer tənliyi ilə bərabər kəmiyyət nəzəriyyəsi də pul kütləsinin həcmi ilə nominal faiz dərəcəsi arasındakı əlaqəni səciyyələndirir: ölkədə pul kütləsi artdıqda inflyasiya güclənir, bu isə nominal faiz dərəcəsinin artmasına şərait yaradır. İnflyasiya ilə nominal faiz dərəcəsi arasındakı bu əlaqə "Fişer effekti" adlanır.

NOMİNAL GƏLİR – 1. Qiymətli kağız üzrə onun nominal dəyərinin faizi şəklində sabit gəlir. 2. Firmanın, şirkətin pul gəlirinin real dəyəri nəzərə alınmayan hissəsi.

Firmanın nominal gəliri onun real dəyərindən aşağıdır, lakin bəzən şirkətin gələcək potensial imkanlarını müəyyən edərkən nominal gəlir hesablanır.

Qiymətli kağız üzrə nominal gəlir həmin qiymətli kağız üzrə real gəlirə heç də həmişə müvafiq olmur. Lakin bəzi qiymətli kağızlar, məsələn, sahibləri şirkətin mənfəətindən asılı olmayaraq sabit gəlir alan imtiyazlı səhmlər məhz nominal gəlir əsasında ödəniş aparılmasını nəzərdə tutur.

NOMİNAL QİYMƏT – 1. Bazarda malın kotirovka edilən qiyməti, bu şərtlə ki, kotirovka günündə həmin mal ilə bağlı heç bir əqd bağlanmamış olsun. 2. Güzəştlər çıxılana qədər preyskurantda göstərilmiş qiymət.

NOMİNAL SƏHMLƏRİ SAXLAYAN – öz adından və digər şəxsin tapşırığı ilə səhmləri saxlayan, bununla belə, bu səhmlərin mülkiyyətçisi olmayan şəxs (və ya təşkilat). Nominal səhmləri saxlayan (qiymətli kağızlar bazarının peşəkar iştirakçısı) qiymətli kağızların idarə edilməsinin kifayət qədər yüksək səviyyəsini, səhmdarların mənafelərini təmin edir. Səhmlərin mülkiyyətçiləri olmayaraq, onlar bu səhmləri öz adından saxlayır, məhz buna görə də onları "nominal saxlayanlar" adlandırırlar. Nominal səhmləri saxlayanların hüquqları səhmlərin sahibləri və ya digər nominal səhmləri saxlayanlarla bağlanan müqavilə nəticəsində yaranır. Bu müqavilə agent müqavilələri sırasına aiddir. O, həvalə və komissiya müqavilələrinin elementlərini ehtiva edir. Bəzi hallarda nominal səhmləri saxlayan öz adından çıxış edir. Məsələn, o, şəxslər haqqında göstəricilərin verilməsinə görə reyestri saxlayan qarşısında cavab verir ki, səhmləri bu şəxslərin tapşırığı ilə saxlayır. Çox zaman nominal səhmləri saxlayan səhmdarın adından və onun tapşırığı ilə səhmlərlə sövdələşməni həyata keçirərək səhmdarın inanılmış şəxsi kimi fəaliyyət göstərir. Bu halda o, klassik nümayəndədən bir qədər fərqlənir. Nominal səhmləri saxlayan kimi çıxış etməkdən ötrü səhmdar cəmiyyəti, səhmdar və ya digər nominal saxlayanlarla agent müqaviləsi bağlamaq kifayət deyil. Səhmdarların reyestrində qeydiyyat da vacibdir: o, prinsipialın yazılı tapşırığı əsasında həyata keçirilir. Bununla belə, müqavilə münasibətlərinin mövcudluğunu təsdiq edən sənədləri səhmdarların reyestrini saxlayana göndərmək tələb olunmur. Çətinliklər yalnız səhmdarın tapşırığı ilə fəaliyyət göstərən nominal səhmləri saxlayanın öz hüquqlarını digər nominal saxlayana verəndə, o isə öz növbəsində üçüncü və s. şəxslərə ötürəndə yaranır. Səhmlərin mülkiyyətçiləri və reyestr saxlayan arasında nominal səhmləri saxlayanın çoxhalqalı zənciri yaranır.

Xüsusi münasibətlər o halda yaranır ki, nominal səhmləri saxlayan kimi qiymətli kağızların sertifikatlarının qorunması və ya qiymətli kağızlara olan hüquqların uçotu üzrə xidmətləri göstərən hüquqi şəxs qismində depozitari çıxış edir. Depozitari və səhmlərin sahibləri arasında qorunma (saxlanma) müqaviləsi bağlanır ki, bunun da əsasında səhmlərin

verilməsi baş verir. Saxlanma müqaviləsinin bağlanması zamanı səhmlərin sahibi qorunmağa qəbul olunmuş səhmlərə aid emitentin fəaliyyəti haqqında və emitent tərəfindən verilmiş informasiyanın sahibinə ötürülməsi haqqında məlumatlandırma qaydası ilə tanış olmalıdır. Depozitari kimi müstəqil təşkilat, maliyyə-kredit idarəsinin bölməsi və ya investisiya institutu çıxış edə bilər. Bankların depozitar fəaliyyəti daha tam tənzimlənir. Bank depozitari və səhmlərin sahibi arasında hüquqi münasibətlər depo hesabı müqaviləsi əsasında yaranır. Depo hesabı dedikdə qiymətli kağızların uçotu üçün nəzərdə tutulan depozitari registrində ümumi əlamətlə birləşmiş yazıların məcmusu başa düşülür. Deponent tərəfindən depozitarının verilən və nominal səhmləri saxlayan kimi qeydiyyatdan keçən həmin depozitarianın vəzifəsi depo hesabı müqaviləsində öz əksini tapmalıdır. Nominal səhmləri saxlayan mülkiyyətçilərin və ya digər nominal səhmləri saxlayanın maraqlarını müdafiə edərək, onun hüquqlarının həyata keçirilməsini öz üzərinə götürür. Səhmdarların ən mühüm hüquqları arasında əsas yeri ümumi yığıncaqda iştirak hüququ tutur. Nominal səhmləri saxlayanın əsas vəzifəsi səhmdarların ümumi yığıncağının keçirilməsini səhmlərin mülkiyyətçisinə bildirməkdir. Səhmdar nominal səhmləri saxlayanla müqaviləbağlayaraq ona öz hüquqlarını reallaşdırmağı həvalə edir. Bu hüquqların sırasına ümumi yığıncaqda iştirak da daxil edilə bilər.

NOMİNAL ÜDM – istehsal olunmuş əmtəə və xidmətlərin cari qiymətlərlə məcmu dəyərləndirilməsi.

NOMİNAL VALYUTA MƏZƏNNƏSİ – hər hansı bir xarici ölkənin valyutasının milli valyutaya mübadilə olunduğu kurs (məzənnə). Nominal valyuta məzənnəsi aşağıdakı kimi ifadə olunur:

$$E_n = \frac{C_f}{C_d}$$

Burada E_n – nominal valyuta məzənnəsi;
C_f – xarici valyuta;
C_d – milli valyuta.

NOMİNAL ZƏRƏRLƏR – zərərçəkmiş tərəf kontragent tərəfindən kontrakt şərtlərinin pozulması nəticəsində ona dəymiş zərəri dəqiq qiymətləndirə bilmədikdə zərərçəkmiş tərəfə ödənilməli olan vəsait (məbləğ).

NOMİNATİV SƏHM – tamamilə konkret şəxsin adına verilmiş və xüsusi kitabda səhmlərin qeydiyyat reyestrində həmin səhmdarın fərdi məlumatlarına uyğun qeydiyyata alınan səhm. Bu cür səhm başqa şəxsə satılan və ya verilən halda səhmdar səhmin arxa tərəfində imza etməlidir. Bu, həmin səhmdarın bu səhmin saxlayıcısının hüquqlarından imtina etməsi deməkdir. Bu ötürmə əməliyyatı üçün "indossament", "jiro" kimi beynəlxalq terminlərdən istifadə edilir.

NON-FORFETYUR – növbəti mükafatın ödənilməməsi zamanı sığorta müqaviləsinin qüvvədə qalması, qorunub saxlanması. Polisin fəaliyyət müddəti (əmanətin sığortalanması və ya həyat sığortası) ödənc dəyərini almağa imkan verdikdən sonra, faizlərlə ödənilməmiş mükafatların ödənc dəyərindən yüksək olmayan şərtlərdə yeni mükafatların ödənilməməsinə baxmayaraq polis saxlana bilər.

NORMA – 1. Qanuniləşdirilmiş, məcburi qəbul edilmiş qayda, üsul. 2. Resursların sərf edilməsinin, gəlirlərin, mənfəətin qazanılmasının vaxt sərfinin, məhsul istehsalının sənədli şəkildə təsdiqlənmiş normativ səviyyəsini müəyyənləşdirən kəmiyyət, bir şeyin müəyyən olunmuş ölçüsü, orta qiyməti. *Hüquq normaları.* Hamı tərəfindən qəbul edilmiş adi, məcburi qayda, nizam.

NORMALAŞDIRILMAQ – norma qoyulmaq, normaya tabe edilmək, həddin təyini.

NORMALAŞDIRILMIŞ – normaya salınmış, normaya tabe edilmiş, yaxud yaxınlaşdırılmış.

NORMALAŞDIRMAQ – bir şey üçün norma qoymaq, həddtəyin etmək; normaya tabe etmək.

NORMAL ƏMTƏƏ – digər amillər sabit dəyişməz qalmaq şərti ilə gəlirin artması nəticəsində istehlakı artan əmtəələr.

NORMAL MƏNFƏƏT – məsrəflərə daxil edilməyən, sahibkarlıq məsrəfləri üçün qeyd olunmayan, şərti olaraq mühasibat mənfəətinə daxil edilən sahibkarlıq gəlirindən mənfəət. Sahibkarın nəzərə alınmayan məsrəflərinin (şəxsi əmək məsrəfləri, xüsusi mülkiyyətdən istifadə) kompensasiyası üçün minimal zəruri mənfəət.

NORMAL TİCARƏT VAHİDİ – müəyyən fond birjasında qəbul edilmiş ticarət vahidi.

NORMATİV (lat. *norma tio* – qaydaya salmaq) – 1. Hər hansı iqtisadi əməliyyatın qiymətləndirilməsi üçün müvafiq olmalı göstərici. 2. İstehsal proseslərinin yerinə yetirilməsi zamanı bir kütlə, sahə, həcm, uzunluq vahidinə düşən xammal və ya materialların xüsusi sərfini xarakterizə edən normaların elementlər üzrə tərkib hissələri, istehsal proseslərinin növləri üzrə texnoloji tullantıların, xammal və material itkilərinin həcmi. Bir qayda olaraq, natural vahidlərlə və ya faizlə ölçülür. Mərkəzləşdirilmiş planlı iqtisadiyyat şəraitində plan normativləri cəmiyyətin resurslardan səmərəli istifadə edilməsinə olan tələblər kimi nəzərdən keçirilir. Onlar dövlətin müəssisələr (təşkilatlar) ilə və bu müəssisələrin (təşkilatların) öz aralarında qarşılıqlı münasibətlərini tənzimləyir. Bazar iqtisadiyyatı şəraitində normativlər korporasiyaların və firmaların idarə olunmasında da eyni məqsədlə istifadə edilir. Hər iki şəraitdə sosial normativlər mühüm rol oynayır. Onlar sosial sferanın arzu edilən və artıq əldə edilmiş inkişaf səviyyəsinin meyarları, sosial prioritetlər nəzərə alınmaqla resursların regionlar arasında bölüşdürülməsi vasitəsinə çevrilməlidir. Yeni texnika və texnologiya yaradılarkən, müəssisələrin layihələndirilməsində, inşasında və yenidən qurulmasında, əmək şəraitinin yaxşılaşdırılması və ətraf mühitin mühafizəsi üzrə tədbirlərin həyata keçirilməsində sosial və ekoloji normativlərə riayət edilməsi zəruridir.

NORMATİV AKT – hüquq mənbələri növlərindən biri. Normativ akt hüquq normalarının müəyyənləşdirilməsi, dəyişdirilməsi və ləğv edilməsi məqsədilə dövlət orqanı tərəfindən verilir. İctimai münasibətlərin müəyyən növünü nizamlayır. Normativ aktın hansı formada verilməsi Azərbaycan Respublikasının "Normativ-hüquqi aktlar haqqında" qanununda dəqiq müəyyənləşdirilmişdir.

NORMATİV, QEYRİ-MADDİ – dəqiq kəmiyyət və keyfiyyət göstəriciləri olmayan (məsələn, kadrlar və ya təchizat şöbəsinin əməkdaşlarının səlahiyyətli olub-olmaması, bütövlükdə şirkətin qarşısında duran məqsədlərə qarşı aşağı manqa rəhbərlərinin loyallığı) xarakteristikaları qiymətləndirməyə imkan verən normativ. Mühakimələrin aydınlaşdırılması, sınaq və səhvlər, intuitiv fikirlərlə yanaşı, daha obyektiv metodlardan da istifadə olunur. Qeyri-maddi normativ xülasə və seçimlərin, testləşmə və sosiometrlərin tərtib edilməsidir.

NORMATİV-TEXNİKİ SƏNƏDLƏR – məhsulun keyfiyyətinə dair tələblərin təsbit edildiyi sənədlər.

Normativ-texniki sənədlərə aşağıdakılar aiddir:

– dövlət standartı;
– müəssisə standartı;
– texniki şərtlər;
– texniki təsvirlər;
– reseptura və s.

Təşkilatın öz məhsullarına keyfiyyət sertifikatı alması üçün istehsal edilən məhsullar üçün normativ-texniki sənədlərin mövcud olması zəruridir. Normaların sertifikatlaşdırılması zamanı sertifikatlaşdırılmış müəssisədə bəyan edilmiş normativ-texniki sənədlərin tətbiqi zəruridir. Bu sənədlərə riayət edilməməsi sertifikatın geri çağırılmasına gətirib çıxara bilər. Keyfiyyət sertifikatının mövcud olması şirkətin məhsulunun rəqabət qabiliyyətini artırmaq üsullarından biridir.

NORRİS LA QARBİA QANUNU (ing. *Norris La Guardia act*) – 1932-ci ildə ABŞ-da qəbul edilmiş və həmkarlar ittifaqlarının mövcud olması hüququnu müəyyənləşdirən, eləcə də həmkarlar ittifaqlarının dinc hərəkətlərinin qadağan edilməsi barədə məhkəmə qərarlarının qəbuluna icazə verməyən qanunvericilik aktı.

NOSTRO HESABLAR – bankın və ya kredit təşkilatının xarici ölkələrin müxbir banklarındakı hesablarında olan qalıqları. "Nostro" hesablar xarici valyutada, vəsaitlərin yerləşdirildiyi ölkənin pul vahidində aparılır.

NOTİS – təkrar sığorta müqaviləsinin maddəsi. Əgər təkrar sığortaçı müqavilənin müəyyən müddəalarını nəzərdən keçirmək niyyətindədirsə, onda o, məcburi qaydada və bir qayda olaraq, ilin qurtarılmasına üç ay qalmış təkrar sığortalı şirkətə bildiriş göndərilməsini nəzərdə tutur.

NOTKİN ALEKSANDR İLİÇ (1901-1982) – sovet iqtisadçısı, iqtisad elmləri doktoru (1944), prof. (1931), SSRİ EA-nın müxbir üzvü (1976). Moskva Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir (1925). SSRİ Dövlət Plan Komitəsinin İqtisadi Tədqiqatlar İnstitutunun

alim mütəxəssisi (1933-1937) olmuşdur. 1927-ci ildən pedaqoji fəaliyyət göstərmiş, o cümlədən MDU-da, Moskva Nəqliyyat Mühəndisləri İnstitutunda, Xarici Ticarət Akademiyasında dərs demişdir. 1938-ci ildən SSRİ EA-nın İqtisadiyyat İnstitutunda təkrar istehsal şöbəsinin, templər və proporsiyalar sektorunun müdiri işləmişdir. Siyasi iqtisadın metodoloji məsələlərinə dair diskussiyaların fəal iştirakçısı (1927-1929-cu illər) kimi tanınmışdır. Siyasi iqtisadın metodologiyası, təkrar istehsal, ictimai istehsalın strukturu və səmərəliliyi problemlərinə dair bir sıra əsərlərin müəllifidir.




NOU-HAU (ing. *know-how* – necə etmək lazım olduğunu bilirəm) – intellektual mülkiyyətin müxtəlif növlərinin istehsalın texnoloji sirlərinin, praktik istehsal, texniki, kommersiya, idarəetmə və kommersiya dəyərinə malik olan, istehsalda və peşəkar praktikada tətbiq edilə bilən, lakin patentlə qorunmayan başqa fəaliyyət növlərinin şərti adı. "Nou-hau"nun təqdim edilməsi formaları müxtəlifdir: texniki sənədlər, məmulat nümunələri, kommersiya xarakterli məxfi məlumatlar, istehsalın təşkil edilməsi, işçilərin hazırlanması və s. barədə informasiya. "Nou-hau"nun sahibi aşağıdakı hallarda bu informasiyanı üçüncü şəxs tərəfindən qanunsuz istifadədən qorumaq hüququna malikdir: a) həqiqi və ya potensial kommersiya dəyərinə malik olan bu informasiya üçüncü şəxslərə aid deyil; b) bu informasiyadan qanuni əsaslarla sərbəst istifadə etmək mümkün deyil. "Nou-hau"nun qorunma müddəti bu şərtlərin qüvvədə olma müddəti ilə məhdudlaşır. Başqasının "nou-hau"sundan qanunsuz istifadə edən şəxs həmin "nou-hau" sahibinə vurulmuş ziyanı ödəməyə borcludur.

Xarici iqtisadi əqdlər çərçivəsində "nou-hau" əldə edilməsi müvafiq sənədlərin xarici firmaya verilməsini, işçilərin öyrədilməsinin təşkilini istehsalın tənzimlənməsində mütəxəssislərin iştirakını və başqa məqamları nəzərdə tutan xüsusi sazişlər bağlanması yolu ilə həyata keçirilir. "Nou-hau" patent hüquqlarından istifadə etmək üçün lisenziyalarla birlikdə pul ilə alınır, eləcə də, lisenziya sazişlərinin və texniki əməkdaşlıq haqqında sazişlərin obyekti ola bilər (bax: sxem 1).

NOVATORLUQ – prinsip etibarilə yeni malların, texnologiyaların praktikada reallaşdırılması, istehsalın və satışın təşkili üsullarının, sahibkarlıq fəaliyyətinin təşkilati formalarının tətbiq edilməsi. Şəxsiyyətin yaradıcı potensialının təzahür forması olan novatorluq insan amili ilə bağlıdır. Lakin novatorluğa meyil fərdlərin şəxsi keyfiyyətlərindən nə qədər güclü asılı olsa da, hər halda, iqtisadi həyatda bir hadisə kimi novatorluq sahibkarlıq fəaliyyətinin xarakteri ilə şərtlənir. İxtiraçı hələ novator demək deyil. İxtiraçı yalnız o halda novator olur ki, özünü sahibkar kimi, yəni təsərrüfatçılıqda daha yaxşı nəticələr uğrunda mübarizə aparan şəxs kimi reallaşdırmış olsun. Əvvəla, o, bazarda qeyri-müəyyənliyin aradan qaldırılmasının optimal üsulu kimi bazardakı vəziyyəti özü üçün sərfəli istiqamətdə dəyişməlidir. Bu isə yalnız innovasiya fəaliyyəti vasitəsilə mümkündür. İkincisi, bazarda davamlı üstünlüklərə malik olmaq yalnız yeniliklərin tətbiq edilməsi yolu ilə mümkündür. Buna görə də sahibkarları novatorluğa sövq edən həqiqi səbəb onların arasındakı rəqabətdir.

Sahibkarlığın daxili xassəsinə çevrilmiş novatorluq bazarda

İnformasiya sistemində "nou-hau"-nun yeri



Sxem 1

tələb və təklif arasında qarşılıqlı əlaqələri kökündən dəyişir. Bu halda təklif artıq bazar mexanizminin passiv elementi deyil, tələbin dəyişməsinə uyğunlaşaraq onun dəyişməsinin və hətta formalaşmasının ən mühüm şərtinə, bazarda tarazlığın daim pozulması mənbəyinə çevrilir. Sahibkarlıqda həlledici amil rolunu sahibkarın bazardakı sövqitəbii davranışı, öncədən görməsi deyil, bazarda şəraitin dəyişdirilməsinə yönəlmiş yaradıcı fəaliyyəti oynayır. Novator xarakterinə malik olan sahibkarlıq isə elmi-texniki tərəqqinin müstəsna fəal amilinə və iqtisadi inkişafın hərəkətverici qüvvəsinə çevrilir.

NOVQORODKA – XV-XVI əsrlərdə tədavüldə olmuş gümüş rus sikkəsi. Rubl ilə müqayisədə onun dəyərinin yüzdə bir hissəsinə bərabər idi. XVI əsrdə novqorodkanı "kopeyka" əvəz etdi.

NOVOJİLOV VİKTOR VALENTİNOVİÇ (1892-1970) – sovet iqtisadçısı; prof. (1937), i.e.d. (1941), RSFSR-in əməkdar elm xadimi (1957). Kiyev Universitetini bitirmişdir (1915); statistika, sənaye iqtisadiyyatı, xalq təsərrüfatında məsrəflərin və nəticələrin ölçülməsi üçün



iqtisadi-riyazi üsulların optimal planlaşdırılması və istifadə edilməsi sahəsində işləmişdir. "Qiymətlər və dövlət tənzimlənməsi" (1924) adlı işində qeyri-kommersiya qiymət siyasətini tənqid etmişdir. Novojilov qeyd edirdi ki, süni şəkildə aşağı salınmış qiymətlər ümumi istehlakı artıra bilməz. Çünki "ölkə malik olduğundan artıq əmtəə istehlak edə bilməz", amma bu cür qiymətlər həm məhsulların, həm də gəlirlərin qeyri-müntəzəm bölgüsünü gücləndirir, nəticədə ucuz qiymətə mal ala bilən "bəxtəvər istehlakçılar" və sərbəst qiymətlərlə normalaşdırılan qiymətlər arasındakı fərq hesabına varlanan ayrı-ayrı alverçilər qazanırlar. Yaranan əmtəə qıtlığı onların bölgüsündə nizamsızlığa gətirib çıxarır. Bu isə həm istehlak predmetlərinin, həm də istehsal vasitələrinin normalaşdırılmış bölgüsünü tələb edir. Novojilov bu qənaətə gəlirdi ki, qeyri-kommersiya qiymət siyasəti pul təsərrüfatından natural təsərrüfata, "hərbi kommunizm" metodlarına doğru atılan ilk addım olur. Novojilov kapital qoyuluşlarının səmərəliliyinin ümumi məsələlərinin tədqiqinə sanballı töhfə vermişdir. Effekt elementləri müxtəlif olduğuna görə xalq təsərrüfatının səmərəliliyini ədədi şəkildə ifadə etmək mümkün olmadığından o, effekti eyni olan variantların müqayisəsinin əsas şərtini irəli sürmüşdür. Bu halda, həmin variantlar üçün məsrəflərin müqayisə edilməsi yolu ilə seçim edilə bilər. Effekt eyniliyi məhsul buraxılışının həcmi, yeri və vaxtı üzrə qaydalara riayət etməli və iqtisadi siyasətin eyni məqsədlərinə müvafiq olmalıdır. Başqa sözlə desək, Novojilov variantların ümumi effektə gətirilməsi proseduraşını təklif etmişdir. Novojilov xətti proqramlaşdırma metodlarının və iqtisadi modellərin elmi cəhətdən işlənib hazırlanmasına görə akad. L.V.Kantoroviç və akad. V.S.Nemçinov ilə birlikdə Lenin mükafatına layiq görülmüşdür (1965).

NOVRUZOV VAHİD TAPDIQ OĞLU (1950) – Azərbaycanın görkəmli iqtisadçı alimi,



i.e.d., prof., 1978-ci ildə Q.V.Plexanov adına Moskva Xalq Təsərrüfatı İnstitutunda "Xidmət sferasının maddi-texniki təchizatının planlaşdırılmasının normativ bazasının təkmilləşdirilməsi" mövzusunda namizədlik, 1990-cı ildə həmin İnstitutda "Müttəfiq respublikalarda sosial-məişət infrastrukturunun inkişaf problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 2000-ci ildə professor elmi adı almışdır. 100-dən artıq əsərin müəllifidir.

1992-1996-cı illərdə Milli Məclis Aparatının iqtisadi qanunvericilik şöbəsində bölmə müdiri, şöbə müdirinin müavini, şöbə müdiri vəzifələrində çalışmışdır. 1996-cı ildən indiyə kimi Azərbaycan Respublikası Auditorlar Palatasının Sədri vəzifəsində işləyir, Azərbaycan Dövlət Neft Akademiyasında kafedra müdiridir.

Əsərləri: Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı, Azərnəşr, Bakı, 1998, Ə.Nağıyev ilə birgə, 24,0 ç.v.; Azərbaycanda audit. Təşəkküldən inkişafa doğru, Nağıl evi, Bakı, 2002, 10,25 ç. v.; İnkişaf və tərəqqinin Heydər Əliyev modeli, Azərnəşr, Bakı, 2004, 18,0 ç.v.; Daxili audit, Nağıl evi, Bakı, 2008, 20,75 ç.v.

NÖQTƏVİ QİYMƏT (ing. *point estimation*) – bir ədədlə ifadə edilən statistik qiymət. Kiçik həcmli seçmələr zamanı məchul parametrin nöqtəvi qiyməti qiymətləndirilən parametrdən əhəmiyyətli dərəcədə fərqlənə bilər, yəni kobud xətalara gətirib çıxara bilər. Buna görə də müşahidələrin sayı az olduqda interval qiymətlərindən istifadə etmək lazımdır.

NÖVBƏTİ İPOTEKA (ing. *Second mortgage)* – öncədən girov qoyulmuş daşınmaz əmlakın girov qoyulması; bu cür ipoteka əvvəlki ipotekaya qarşı subsidiya olunur (iddialar ikinci dərəcədə təmin olunacaqdır). Bir sıra ölkələrdə bir öhdəliyin yerinə yetirilməsinin təminatı kimi girov qoyulmuş daşınmaz əmlak (əvvəlki ipoteka) həmin və ya digər borcalanın həmin və ya digər girov saxlayıcısına olan digər öhdəliyinin (növbəti ipoteka) təminatı kimi girov qoyula bilər. Növbəti girov saxlayıcısının tələbləri həmin əmlakın dəyərindən əvvəlki girov saxlayıcılarının tələbləri ödənildikdən sonra ödənilir. Girov

saxlayıcılarının ardıcıllığı daşınmaz əmlaka olan hüquqları qeydə alan vahid dövlət reyestrinin məlumatına əsasən müəyyən edilir.

NULLİFİKASİYA (lat. *nullificatio* – məhv etmə) – sənədin hüquqi qüvvəsini itirməsi. Qiymətli kağızlar və pul nominatlarına tətbiq olunan nullifikasiya onların dəyərsizləşməsi.

NUMİZMATİKA – 1. Sikkələri və sikkə xəzinələrini tarixi, iqtisadi, mədəni abidələr kimi öyrənən elm. 2. Sikkə kolleksiyaları toplamaqla maraqlanan insanların hobbisi.

NURİYEV ELDAR SİRAC OĞLU (1936) – Azərbaycan iqtisadçısı, i.e.n. 1961-ci ildə



Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. 1961-ci ildə "Bakıbaştikinti" İdarəsinin 1 nömrəli evtikmə kombinatında usta, icraçı və Kombinatın həmkarlar təşkilatının sədri vəzifəsində çalışmışdır. 1964-1966-cı illərdə kombinatın partiya təşkilatının katibi, 1967-1972-ci illərdə Azərbaycan Komunist Partiyasının MK-da işləmişdir. 1972-1988-ci illərdə Azərbaycan Respublikası Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda baş elmi işçi, bölmə və şöbə müdiri, elmi işlər üzrə direktor müavini, 1988-1991-ci illərdə Azərbaycan Respublikası Tikinti Materialları Sənayesi nazirinin müavini, 1991-1998-ci illərdə nazirliyin bazasında yaradılmış "Azərsənayetikintimaterialları" Dövlət Konserninin vitse-prezidenti, 1998-2000-ci illərdə Satınalmalar üzrə Dövlət Agentliyində şöbə müdiri, 2001-2008-ci illərdə Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentlikdə satınalmalar üzrə menecer vəzifəsində çalışmışdır. 2008-ci ilin fevral ayından Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin İqtisadiyyat və smeta normaları şöbəsinin müdiri vəzifəsində çalışır.

E.S.Nuriyev 1982-1991-ci illərdə Moskvada nəşr olunan "Экономика строительства" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

1975-ci ildə Moskvada Dövlət Tikinti Komitəsinin Elmi-Tədqiqat Tikintinin İqtisadiyyatı İnstitutunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Azərbaycanda Tikinti kompleksinin inkişafına aid 50-dən çox elmi əsərin müəllifidir.

NURİYEV ƏLİ XUDU OĞLU (1939) – Azərbaycanın görkəmli iqtisadçı alimi, AMEA-



nın müxbir üzvü (2001). 1963-cü ildə Azərbaycan Dövlət Universitetinin iqtisad fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

Ə.Nuriyev 1966-cı ildə Azərbaycan EA-nın İqtisadiyyat İnstitutunun aspiranturasına daxil olmuş, 1969-cu ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. 1991-ci ildə Azərbaycan EA İqtisadiyyat İnstitutunun ixtisaslaşdırılmış Müdafiə Şurasının iclasında "Yeni təsərrüfatçılıq şəraitində müttəfiq respublikaları xalq təsərrüfatının ərazi quruluşunun təkmilləşdirilməsi" (Azərbaycan Respublikasının timsalında) mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Ə.Nuriyev 100-ə yaxın əsər, o cümlədən 11 monoqrafiya və kitabçanın müəllifidir. İqtisadiyyat İnstitutu elmi şurasının, doktorluq və namizədlik dissertasiyaları müdafiə şuralarının üzvüdür. Naxçıvan Elm Mərkəzində işləyərkən ictimai elm sahələrinin inkişafına, bu sahədə kadrların seçilməsi və hazırlanmasına böyük qüvvə sərf etmişdir. Elmi kadrların hazırlanmasında xidmətləri var.

O, 40 ilə yaxındır ki, elmi yaradıcılığını pedaqoji fəaliyyətlə sıx əlaqələndirir. 1964-cü ildən 1970-ci illərin axırlarınadək Azərbaycanın müxtəlif ali məktəblərində siyasi iqtisad fənnindən mühazirələr oxumuşdur. Son 18 ildə Sumqayıt şəhərində Azərbaycan Sənaye İnstitutunda, Sumqayıt Dövlət Universitetində iqtisadi fənləri tədris etmişdir. Ə.Nuriyev yaradıcılığı, ideyaları geniş praktik tətbiqini tapmış alimlər sırasında özünə layiqli yer tutur. Onun elmi-tədqiqat işinin nəticələrindən 1969-1970 və 1995-ci illərdə respublikanın yeni iqtisadi rayonlaşma şəbəkəsinin hazırlanmasında, 1990-1992-ci illərdə yeni inzibati rayonların yaradılmasında, Naxçıvan Muxtar Respublikasında IX-X beşillik planların və inkişaf proqnozlarının işlənib hazırlanmasında istifadə olunmuşdur. "Azərbaycan Respublikasının böhrandan

çıxması və inkişafının prinsipial məsələləri" monoqrafiyası isə AMEA-nın illik hesabatında iqtisad elminin mühüm nailiyyəti kimi qeyd edilmişdir.

Hazırda Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Geostrateji Araşdırmalar Mərkəzinin rəhbəridir.

Əsərləri: Məhsuldar qüvvələrin respublika daxilində yerləşməsinin təkmilləşməsinin sosial-iqtisadi problemləri, Bakı, 1982; Regional inkişafın dövlət tənzimlənməsinin konseptual məsələləri, Bakı, 1988; Azərbaycan Respublikasının böhrandan çıxması və inkişafının tənzimlənməsinin konseptual məsələləri, Bakı, 1992; Azərbaycan iqtisadiyyatı (xaricdə yaşayan azərbaycanlılar üçün), Bakı, 2003; Regional siyasət və idarəetmə, Bakı, 2004; İnsan və həyat fəlsəfəsi, Bakı, 2005; Regional idarəetmənin əsasları, Bakı, 2007; Regional siyasət və idarəetmənin əsasları, Bakı, 2011.

NURİYEV ZAKİR ƏLİBALA OĞLU (1960) – Azərbaycan iqtisadçısı. 1981-ci ildə



Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. Həmin ildən Azərbaycan Respublikası Rabitə Nazirliyi Nəzarət və təftiş idarəsinin baş təftişçisi, "Mühasibat uçotu və hesabat" şöbəsinin rəis müavini, 1989-cu ildən Rayon Rabitə İstehsalat Birliyində mühasibat uçotu və hesabat şöbəsinin rəisi, 1993-cü ildən "Rabitəbank" SKB-nin İdarə Heyətinin sədri işləmişdir. 1998-ci ildən bankın müşahidə şurasının sədridir. 1996-2005-ci illərdə Azərbaycan Respublikasının Banklar Assosiasiyasının prezidenti olub. Quruma rəhbərlik etdiyi dövrlərdə bir sıra layihələrin təşəbbüskarı olmuş, özəl bank sektorunun formalaşması proseslərində fəal iştirak etmişdir.

NUVOVİŞ (fr. *nouveau riche* – yeni varlı) – 1. Müharibə dövründə, iqtisadi böhran və bum şəraitində ticarət spekulyasiyaları hesabına sürətlə və gözlənilmədən varlanmış adam. 2. Möhkəm sosial əlaqələri, davranış və mədəniyyət ənənələri olmayan təsadüfi varlanmış adam.

NÜFUZ REKLAMI – reklam fəaliyyətinin bu növü fiziki şəxsin (vətəndaşın, sahibkarın və s.) və ya hüquqi şəxsin (təşkilatın, firmanın, cəmiyyətin və s.) uzunmüddətli işgüzar nüfuzunun formalaşdırılması məqsədinə xidmət edir.

NÜMUNƏVİ MÜQAVİLƏ – əqd bağlanması haqqında danışıqların əsası olan müqavilə layihəsi. Bu halda həmin sahədə fəaliyyətin standart şərtlərindən istifadə edilir.

Nümunəvi müqavilələr təcrübəli birjalar, assosiasiyalar, konsaltinq şirkətləri tərəfindən işlənib hazırlanır.

Bir qayda olaraq, nümunəvi müqaviləyə əsasən konkret fəaliyyət sahəsində əqdlər bağlanmasının xüsusiyyətləri nəzərə alınır, danışıqların müddətini qısaltmaq və xərcləri azaltmaq imkanı yaranır.

NÜMUNƏVİ ÖLÜM CƏDVƏLLƏRİ – *ölüm cədvəlləri* sisteminin bir qolu olmaqla, nəslin kəsilməsi ardıcıllığı oxşar olan əhali üçün yaşlaşdıqca ölüm intensivliyinin dəyişməsini əks etdirir. Nümunəvi ölüm cədvəllərinin hər hansı sisteminə daxil olan ölüm cədvəlləri bir sıra parametrlərlə fərqlənə bilər. Onların sırasına, bir qayda olaraq, gözlənilən ömür uzunluğu daxildir. Ömür uzunluğuna kəmiyyət üzrə nizamlanmış nümunəvi ölüm cədvəllərinin sırasında (nümunəvi ölüm cədvəlləri ailəsi) nəslin kəsilməsi ardıcıllığının təkamül modeli kimi baxıla bilər. Nümunəvi ölüm cədvəlləri sisteminə daxil olan regional ailə cədvəlləri ölkənin müəyyən qrupunun ölüm xüsusiyyətlərini əks etdirir.

Bir çox hallarda nümunəvi ölüm cədvəlləri hər cins üçün ayrıca qurulur. Bəzi hallarda cüt cədvəllər sistemi tərtib olunur, hər "kişi" cədvəlinə bir "qadın" cədvəli uyğun gəlir. Nəzərdə tutulur ki, belə cütlük sistemi kişi və qadın ölümündə ən tipik nisbəti əks etdirir. Nümunəvi ölüm cədvəlləri adi ölüm cədvəlləri dəstindəki məlumatların statistik işlənməsi əsasında qurulur. Bu zaman qruplaşdırma, korrelyasiya, amillərin təhlili, ekstrapolyasiya, interpolyasiya və s. metodlar tətbiq olunur.

Nümunəvi ölüm cədvəllərindən demoqrafiyada birincisi ölənlərin natamam, yaxud çox dəqiq olmayan uçotunun aparıldığı ölkələrdə yaş ölüm səviyyəsini və gözlənilən ömür uzunluğunu qiymətləndirmək üçün; ikincisi – demoqrafik proqnozun işlənib hazırlanması zamanı; üçüncüsü – ölümün demoqrafik təhlilində istifadə olunur.

Nümunəvi ölüm cədvəllərinin qurulmasına ilk dəfə 1944-cü ildə A.Koull təşəbbüs göstərmişdir. O, ölüm səviyyəsinin indikatoru kimi 10 yaşda (e10) gözlənilən ömür uzunluğunu götürmüşdür. Ölüm ehtimalı hər yaş üçün xətti reqressiya metodu ilə müəyyən edilirdi.

1955-ci ildə BMT ekspertləri 158 müxtəlif ölüm cədvəllərinin statistik işlənməsi yolu ilə 40 cədvəldən ibarət nümunəvi ölüm cədvəllərinin seriyasını qurmuşlar. Bu cədvəllər 18-75 yaşadək gözlənilən ömür uzunluğunun artması və ölüm səviyyəsi üzrə nizamlanmışdı. Baxmayaraq ki, bu cədvəllər ötən əsrin 50-ci illərinin ortalarına hesablanmışdı, onlar müasir demoqrafik tədqiqatlarda da tətbiq olunur.

Generativ ölüm – uşaq doğma funksiyasının həyata keçirilməsi ilə bağlı qadınların ölümü. Səbəbləri – abortun, hamiləliyin, doğuşun və doğuşdan sonrakı dövrün fəsadları (qanaxma, toksikozlar, sepsis, doğum zədəsi və s.), həmçinin, hamiləliklə və doğuşla bağlı olmayan, lakin onların gedişini ağırlaşdıran xəstəliklər. Generativ ölümün intensivlik göstəricisi (əmsalı) 100 min diri doğulmuş uşaqlara hesablanır.

Ana ölümü əmsalı (Minilliyin bəyannaməsində əks olunmuş inkişaf göstəricilərindən) – hamiləliklə bağlı (hamiləliyin ağırlaşması səbəbi ilə) və ya hamiləliyin yanlış aparılması nəticəsində (bədbəxt hadisələr, yaxud əvvəlcədən nəzərdə tutulmuş hər hansı digər bir səbəbdən) hamiləlik dövründə və hamiləliyin vaxtından və harada keçməsindən asılı olmayaraq, doğuş vaxtı, ya da azadolmadan sonra 42 gün ərzində qadınların ölüm hadisələrinin sayı (hər 100000 diri doğulana hesablamaqla). Beynəlxalq xəstəlik təsnifatının X yenidən baxış nəşrinə uyğun olaraq, doğuşdan sonra uşağın 6 aylığından 1 yaşınadək olan dövrdə baş vermiş ana ölümləri də buraya daxil edilir.

Ana ölümü əmsalını eyni bir vaxt dövründə qeydiyyata alınmış (və ya qiymətləndirilmiş) ana ölümünün sayını həmin dövrdə qeydiyyatdan keçmiş (və ya qiymətlər üzrə çıxarılmış) diri doğulanların ümumi sayına bölməklə, alınmış nəticənin 100000-nə vurulması yolu ilə hesablamaq olar. Bu göstəricini vətəndaş vəziyyətləri aktlarının qeydiyyatı, ev təsərrüfatları müayinələri və ya xəstəxana müəssisələrindən toplanan məlumatlara əsaslanaraq hesablamaq olar. Alternativ metodların siyahısına reproduktiv yaşda qadınların bütün ölüm hallarının tədqiqatı (reproduktiv yaşlı qadınların ölüm səbəblərinin tədqiqatı adlanan), hamilə qadınlar haqqında lonqityud tədqiqatları və ev təsərrüfatlarının çoxsaylı müayinələrinin aparılması da daxil edilir. Bütün bu metodlar hamilə qadınların ölümünə dair və ölüm səbəbləri haqqında dəqiq məlumatlardan asılıdır və belə məlumatları əldə etmək kifayət qədər çətin olur. Digər problem mühüm reprezentativ seçmələrə malik olmaq zərurətindən ibarətdir ki, bu da məsrəfləri artırır. Bu halda, sorğudan istifadə etməklə, problemi aradan qaldırmaq mümkündür. Bu metodla respondentlərə 4 sadə sual verilir: onların neçə bacısı yetkinlik yaşına çatmışdır? Onlardan neçəncisi ölmüşdür və ölənlərin içərisində hamilə qadınlar olmuşdurmu? Lakin oxşar qiymətləndirmə də müayinə anınadək 10-12 yaşları əhatə edir. Demoqrafik və tibbi-sanitar müayinələrinin gedişində bacıların sorğusu metodunun birbaşa tətbiq edilməsində respondentlərdən ölüm tarixi haqqında məlumat verilməsi xahiş olunur ki, bu da müayinəyə başlayan anadək 0-6 yaşlarında olanlar arasında yaxın zamanlaradək aparılmış qiymətləndirmə əsasında hesablamalara imkan verir.

Ananın ölümünün səbəbləri iki qrupa ayrılır. Qadınların bilavasitə doğuşla əlaqədar ölüm səbəbləri aşağıdakılar ola bilər: ağırlaşmış hamiləlik (ölüm hamiləlik dövründə, doğuş vaxtı, həmçinin puerpal dövrdə baş verə bilər); tibbi müdaxilə, onun olmaması və yaxud düzgün olmayan müalicə, həmçinin, göstərilən səbəblərdən istənilən birinin nəticəsində baş verən hadisələr silsiləsi. Doğuşdan əvvəl, doğuş vaxtı və yaxud doğuşdan sonra baş verən qadın ölümünün dolayısı səbəbləri xroniki və inkişaf etmiş xəstəliklər, birbaşa səbəblər isə hamiləliyin özü yox, onun bəzi fizioloji nəticələri ola bilər. Ana ölümü haqqında dərc edilən məlumatlarda həmişə qeyd aparıldığını (qeydiyyatdan keçmiş ana ölümü hallarını əks etdirən) dəqiqləşdirmək lazımdır: hamiləlik və doğuşla bilavasitə əlaqədar olan, qeydiyyatdan keçmiş ölüm hallarının sayı və

yaxud qeydiyyatdan keçmiş həm bilavasitə, həm də dolayı səbəblər nəticəsində ana ölümü hallarının sayını. Ana ölümünün ümumi əmsalının hesablanmasında doğuş zamanı İİV/QİÇS və ya yoluxucu xəstəliklərdən ölən ana ölümlərinin sayı da nəzərə alınır.

Dünya Səhiyyə Təşkilatının məlumatına görə, 1990-cı illə müqayisədə 2010-cu ildə ana ölümünün sayı 34% aşağı düşmüşdür. Doğuş zamanı və ya doğuşdan sonra ölən anaların sayının yarısı 6 ölkənin (Əfqanıstan, Hindistan, Konqo, Nigeriya, Pakistan və Efiopiya) payına düşür. Ümumilikdə, dünya üzrə azalma müşahidə olunsa da, bu, ayrı-ayrı ölkələrdə müxtəlif cür təzahür edir. Belə ki, təəccüblü olsa da, ABŞ-da hər 100 min doğuş zamanı ölən anaların sayı 1990-cı ildəki 12 haldan 2008-ci ildə 17 hala yüksəlmişdir. Dünya üzrə ən çox azalma Maldiv adalarında (hər il 8,8%), əksinə, ən çox artma isə Zimbabvedə (hər il 5,5%) qeydə alınmışdır. Dünya Səhiyyə Təşkilatının baş direktoru bu göstəricinin 2015-ci il üçün 1990-cı ilin 75%-i səviyyəsinə endirilməsinin məqsədəuyğunluğunu qeyd etmişdir. ***Körpə ölümü*** – doğulduğu andan 1 yaşı tamam olanadək ölüm hallarını göstərir. Körpə ölümü əmsalı ilə hesablanır ki, bu da doğulmuş nəsil üçün həmin nəsildən 1 yaşa qədər ölənlərin sayının həmin nəsildən olan doğulanların sayı nisbətinə bərabərdir və hər 1000 nəfər diri doğulana hesablanır. Körpə ölümü əmsalı təqvim ili üçün hesablanır.

Körpə ölümünün ətraflı təhlilində həyatın birinci ili ayrı-ayrı dövrlərə bölünür: 0-27 günlük neonatal dövr, o cümlədən 0-6 günlük erkən neonatal dövr, 7-27-ci günlük gec neonatal dövr və 28-364 günlük postneonatal dövr. Neonatal, erkən neonatal, gec neonatal və postneonatal ölüm səviyyələri müvafiq dövrlər ərzində ölənlərin sayının bu dövrdə doğulanların sayına nisbəti kimi hesablanır; postneonatal ölüm səviyyəsini ölçmək üçün postneonatal dövründə ölənlərin sayı bəzən ömrünün 28-ci gününə qədər yaşayanların sayına (həyatın birinci 27 günü ərzində doğulanların və ölənlərin fərqi) aid edilir. Erkən neonatal körpə ölümünə, həmçinin, perinatal ölüm komponenti kimi baxılır. Körpə ölümü sonrakı bütün yaş qruplarındakı ölümü xeyli üstələyir. Ahıl və qoca yaşlar istisna olmaqla, əhalinin sağlamlıq vəziyyətini xarakterizə edən əsas (xəstələnmə ilə, ölümlə və s. yanaşı) göstəricilərdən biridir. Körpə ölümünün aşağı düşməsi əhalinin gözlənilən ömür uzunluğu göstəricisinin artmasına səbəb olur.

XX əsrin 70-90-cı illərində körpə ölümünün əsas səbəbləri inkişaf etmiş ölkələrdə perinatal dövrün xəstəlikləri olmuşdur. Körpə ölümünün göstəricilərinə və səbəblərinə hamiləliyin yarımçıq qalması daha çox təsir göstərir. İnkişaf etmiş ölkələrin əksəriyyətində vaxtından əvvəl doğulmuş uşaqların payına 60%-dən çox körpə ölümü hadisəsi düşür. Körpə ölümü göstəricisi həm də doğuşların sayından, ananın yaşından, onun xəstəliklərindən, sosial və məişət şəraitindən və s. asılıdır. Qızlarla müqayisədə oğlan uşaqları arasında körpə ölümü 10-20% çoxdur. Körpə ölümü aşağıdakı kimi hesablanır: (ömrünün 1-ci ili ərzində verilən ildə ölən uşaqların sayı / verilən ildə diri doğulan uşaqların sayı) X 1000. Körpə ölümünün göstəricisini (%) hesablamaq üçün bir neçə metod tətbiq edilir. Ən sadəsi aşağıdakıdır: (ömrünün birinci ili ərzində ölən uşaqların sayı / verilən ildə doğulan uşaqların 2/3 + keçən ildə doğulan uşaqların 1/3) X 1000.

Bu metod belə əsaslandırılır ki, XX əsrin birinci rübündə inkişaf etmiş ölkələrdə 1 yaşadək ölən uşaqlar arasında 60-70 % həmin ildə doğulanların payına, 30-40% isə keçən ildə doğulmuş uşaqların payına düşürdü. Bu metod, empirik olaraq körpə ölümü göstəricisinin doğulan uşaqların proporsional (mütənasib) bölünməsi üsulu ilə hesablanırdı. Lakin XX əsrdə körpə ölümünün aşağı düşməsi inkişaf etmiş ölkələrdə əsasən postneonatal ölüm hesabına baş verirdi. Nəticədə körpə ölümünün strukturunda neonatal ölümün payı kəskin yüksəlmiş və beləliklə, 1 yaşadək olan uşağın ölmək ehtimalı da artmışdır. Körpə ölümünün səviyyəsi ömrünün 1-ci ilində ölən uşaqlar arasında 20-30 % olduqda, keçən ildə doğulan uşaqlara 30-40% yox, 15-25% düşürdü. Buna görə, körpə ölümü əmsalını daha dəqiq aşağıdakı düsturla müəyyən etmək olar: (verilən təqvim ilində 1 yaşadək ölən uşaqların sayı / keçən il doğulan uşaqların 1/5 + həmin ildə doğulan uşaqların

4/5) x 1000. Uşaqların ömrünün 1 yaşına qədər müxtəlif yaş intervallarında ölüm səviyyəsini müəyyən etmək üçün ən dəqiq metod – ölüm cədvəllərinin qurulmasıdır.

Ratsın düsturu – demoqrafik statistikada müəyyən təqvim dövrü, bir qayda olaraq, 1 il üçün *körpə ölümü əmsalının* hesablanması məqsədilə tətbiq olunur. İlk dəfə XX əsrin əvvəlində alman statistiki Y.Rats tərəfindən təklif olunmuşdur. Ümumi şəkildə aşağıdakı kimi yazılır:

$$m = \frac{M_0}{\alpha N + \beta N'} \cdot 1000$$

Burada: M_0 – həmin ildə 1 yaşadək uşaqların sayı; N – həmin ildə doğulanların sayı; N' – əvvəlki ildə doğulanların sayı, $\alpha+\beta=1$. α və β çəkiləri ölüm hallarının ömrünün birinci ilinin ayları üzrə bölüşdürülməsi haqda hipotezadan çıxış edərək müəyyənləşdirilir. Körpə ölümünün sonradan aşağı düşməsi gedişində $\alpha=2/3$, $\beta=1/3$ və s. kimi qəbul olunur. Düstur o hallarda tətbiq edilir ki, 1 yaşadək ölənlərin sayını nəsillər üzrə bölmək olmur.

Eyler metodu (ölüm cədvəllərinin qurulması üçün) – ölənlərin yaş tərkibi haqda məlumatlardan və keçən dövr üçün əhalinin təbii artım əmsalından *(r)* istifadəyə əsaslanır. Eyler metodu, nəsil kəsilsə, getmə ardıcıllığı dəyişməz olan və sayı həndəsi qaydada artma ilə bağlı əhalinin (miqrasiyasız) ölüm səviyyəsini adekvat qiymətləndirməyə imkan verir. XVIII əsrin ortalarında Eyler tərəfindən işlənmişdir. Ölüm siyahıları metodundan fərqli olaraq, bu metod illik doğuşların sayının həndəsi qaydada artmasını nəzərdə tutur. Bu isə demoqrafik proseslərin real gedişinə müvafiqdir. Eyler metodu ilə hesablamaların aparılması zamanı ölənlərin rəqəmlər sırası d_x çıxış göstəricisidir. Əhalidə yaşlar üzrə ölənlərin sayı (M_x) haqda irəli sürülmüş fərziyyələrdə $d_x e^{-rz}$ kəmiyyət kimi əlaqələndirilir. Burada x – yaş, e – natural loqarifmlərin əsasıdır və

$$d_x = M_x e^{rx} / \sum_x M_x e^{rx}$$

Müasir demoqrafiyada natamam demoqrafiya statistikası olan ölkələr üçün nümunəvi ölüm cədvəlləri ilə birlikdə, həmçinin, tarixi-demoqrafik tədqiqatlarda istifadə olunur.

NYUS-MEYKERLƏR (ing. *news maker* – yenilik hazırlayanlar) – iqtisadiyyat, birja işi və sahibkarlıq sahəsində, digər fəaliyyət sahələrində elm xadimləri, mütəxəssislər, ölkənin ictimai-siyasi həyatına ciddi təsir göstərən və bu həyatda fəal iştirak edən siyasətçilər.

NYUS-RELİZ – müqavilə bağlanarkən şirkət və ya əmtəə haqqında istifadə edilən məlumatlar.

NYU-YORK FOND BİRJASI İNDEKSİ – "böyük lövhə"yə daxil edilmiş bütün səhmləri (2200-yə qədər səhm) xarakterizə edən ümumi fond indeksi.

O

OBLİQATOR TƏKRAR SIĞORTASI – 1. İcbari təkrar sığorta forması, buna uyğun olaraq, ölkə ərazisində fəaliyyət göstərən bütün sığorta şirkətləri qanunvericiliyə əsasən sığortalanmağa qəbul edilən bütün riskləri təyin olunmuş (yazılı formada) payda dövlət və ya digər təkrar sığorta şirkətinə verməyə borcludurlar. Bu cür təkrar sığorta növü təkrar sığorta kanalları üzrə valyutanın xaricə axınının qarşısını almaq üçün ölkənin sığorta bazarının həcmindən maksimum istifadə etmək məqsədi güdür. 2. Təkrar sığorta müqaviləsi; buna uyğun olaraq orijinal (əsl) sığortaçı (sedent) həmin sığorta növü üzrə bütün riskləri verməli, təkrar sığortaçı isə qəbul etməlidir. Obliqator təkrar sığortaçı – təkrar sığorta müqaviləsidir ki, bunun çərçivəsində həmin növdən olan bütün fərdi müqavilələr sedent tərəfindən təkrar sığortaya verilməli və təkrar sığortaçı tərəfindən təkrar sığortaya qəbul edilməlidir.

OBLİQO – 1. Veksel üzrə borcun məbləği. 2. Hesaba alınmış veksellər üzrə öhdəliyi olan şəxslərin borcunun hesaba alındığı və ya müştərinin bankla əməliyyatları üzrə bütün borcunun əks olunduğu bank kitabı.

OFERTA – müqavilə bağlanması haqqında təklif. Oferta o zaman verilmiş sayılır ki, bir və ya bir neçə şəxsə ünvanlanmış bu təklifdə onu vermiş şəxsin (*oferentin*) razılığı (*aksept*) olduqda, öz təklifinin icrasına hazır olduğu ifadə edilsin.

OFSET – razılaşma, əmtəələr və xidmətlərlə mübadilə. Müxtəlif növ xidmətlər və güzəştlər müqabilində kapital qoymaq imkanı yaratmaqdır. Məsələn, kooperasiya müqaviləsində detalların təqdim edilməsidir.

OFSET ƏQDİ – qiymətli kağızların və digər maliyyə alətlərinin alqı-satqısının əvəzlənməsini nəzərdə tutan əqd; fyuçers birjasında tərəflərin öhdəliklərinə xitam verən əqd; açıq əmtəə-fyuçers birjasında kontraktın alqı-satqısından əvvəl bilavasitə əmtəə ödənişi olmadan kompensasiya əqdi. Standartlaşdırılmış kontrakt bağlanmasını nəzərdə tutur.

OFFŞOR (ing. *off/off* – ordan, *shore* – sahil, tam mənada sahildən kənar) – termin İkinci Dünya müharibəsindən sonra Qərbi Avropa ölkələrinə ABŞ-ın "Marşall planı" üzrə yardımı nəticəsində yaranmışdır. Bu plana görə, ABŞ-la aktiv əməkdaşlıq edən ölkələrə yardım edilmiş, istehsal etdikləri mallar dollar hesabı ilə alınmış və onların büdcə təsisatları subsidiyalar, istiqrazlar vasitəsi ilə müdafiə olunmuşdur. Müasir zamanda offşor zonalardan kontinental şelfdə neft-qaz hasilatını reallaşdıran birliklər daha çox istifadə edirlər. İqtisadçılar isə geniş mənada "offşor" terminindən azad iqtisadi və maliyyə zonaları kontektsində istifadə edirlər.

Offşor "varlıların cənnəti" kimi də işlədilir, çünki bu zonaların qanunlarına əsasən vergilər aşağı həddə təyin edilir, bəzi vergilər isə heç tutulmur. Belə ərazilərdə hüquqi və fiziki şəxslər üçün digər alternativ şərtlər qoyurlar.

OFFŞOR SIĞORTA ŞİRKƏTİ – xüsusi statusa malik sığorta şirkətidir. Bir qayda olaraq, sığorta fəaliyyətinin milli tənzimləmədən çıxarılan (olduğu yerə görə), yaxud xüsusi hüquqi statusa (burada aparılan sığorta əməliyyatları sığorta fəaliyyətinin milli tənzimlənməsi altına düşmür, ya da bir sıra mühüm üstünlükləri var) malikdir. Offşor maliyyə mərkəzində (offşor biznesi zonasında) yerləşən sığorta şirkətidir. Bir qayda olaraq, offşor sığorta şirkətinin yaradılması offşor maliyyə mərkəzlərində xarici sığortaçılara

Offşor (ing. *offshore* – sahildən kənar) – xarici şəxslərə məxsus şirkətlərin tam və ya qismən vergidən azad-olunma əsasında verginin planlaşdırılması metodudur. İlk dəfə olaraq bu termindən 1950-ci illərin axırında ABŞ-da nəşr olunan qəzetlərdən birində istifadə edilmişdir.



Offşor şirkəti – xarici şəxslərin mülkiyyətində olan və qeydiyyata alınmış ölkə ərazisində fəaliyyət göstərməyən müəssisə. Ənənəvi vergilərin tutulması çox hallarda müəyyən edilmiş illik vergi yığımlar əvəzinə tətbiq olunur.

Offşor və yerli müəssisənin qarşılıqlı fəaliyyəti nəticəsində:

- gəlirdən vergi ödənişləri praktik olaraq ləğv olunur;
- sosial və gəlir vergilərinin ödənişləri əhəmiyyətli dərəcədə azalır.

Offşor zonaları – xarici kredit təşkilatları və digər kompaniyalar tərəfindən xarici fiziki və hüquqi şəxslərlə şəhərlər, rayonlar, ölkələr ərazisində xarici valyuta vasitəsilə əməliyyatların aparılması. Offşor zonanı yaratmış dövlətin müdaxilə etməməsi və yaxud müdaxilənin minimum həddə olması şərti ilə

! "Offşor zona" anlayışı "azad iqtisadi zona" anlayışından fərqlidir.

ⓘ Offşor zonaların vahid siyahısı mövcud deyil, bu zonalara Beynəlxalq Valyuta Fondu (BVF) və müxtəlif ölkələrinin Mərkəzi Bankları tərəfindən nəzarət olunur. Amma bu nəzarət heç də həmişə istənilən nəticəni vermir.

Klassik offşor zonalar

Qanunvericiliyə uyğun olaraq offşor kompaniyalar tamamilə vergidən azad edilməsi imkanı verən ölkələr. Fəaliyyətlə bağlı lisenziyanın müddətinin artırılmasına görə "firma" ölkə hökumətinə yalnız müəyyən edilmiş illik yığım ödəyir (Panama, Baham, Virgin adaları).

Xüsusiyyətləri: fəaliyyətlə bağlı ölkə hökumətinə hesabatların təqdimatı tələb olunmur, yaxud hesabatın təqdim edilməsi minimum səviyyəyə çatdırılıb.

Vergi güzəştləri olan ölkələr

1. Liviya
2. Gibraltar
3. Beliz
4. Dominika
5. Nevis
6. Samoa
7. Panama
8. Honkonq
9. Kayman adaları
10. Baham adaları
11. Mavriki
12. Anquilla
13. Santa Luçiya
14. Anjuan
15. Seyşel adaları
16. Vanuatu
17. Antiqua və Barbuda
18. Terks və Kaykos
19. İngiltərənin Virgin adaları

Bu siyahı sabit xarakter daşımır. İldən-ilə dəyişə bilər.

Vergi yığımı aşağı olan zonalar

Offşor kompaniyaları üçün güzəştli vergi ödənişini təklif edən ölkələr.

Xüsusiyyətlər: fəaliyyətlə bağlı maliyyə hesabatlarının təqdim edilməsi tələb olunur.

Sxem 1


verilən vergi güzəştləri hesabına vergiləri minimuma endirmək məqsədi güdür.

OĞUZ-QƏBƏLƏ-BAKI SU KƏMƏRİ – Azərbaycanda ən böyük layihələrdən biri. 2010-cu il dekabrın 28-də istifadəyə verilmişdir.

Oğuz-Qəbələ-Bakı su kəməri şəhər əhalisinin 75 faizini fasiləsiz təmiz, keyfiyyətli su ilə təmin edəcəkdir. Oğuz və Qəbələ rayonlarından yüksək keyfiyyətli içməli suyun Bakıya gətirilməsi təşəbbüsünün müəllifi ümummilli lider Heydər Əliyevdir. Ulu öndərin layiqli davamçısı, dövlət başçısı İlham Əliyev isə Azərbaycanın ən nəhəng infrastruktur layihələrindən olan bu ideyanın reallaşması istiqamətində mühüm addımlar atmışdır. 2007-ci ilin martında Oğuz rayonunun Sincan kəndində bu layihənin təməli qoyulmuş və tikinti işlərinə başlanmışdır. Uzunluğu 262 kilometrdən çox olan kəməri su ilə təmin etmək üçün çoxlu artezian quyusu qazılmış, yarımstansiya quraşdırılmışdır. Oğuz rayonu ərazisində dəniz səviyyəsindən 417 metr yüksəklikdə baş suqəbuledici qurğular kompleksi tikilmiş, eyni zamanda, suyun tənzimlənməsi üçün kəmər üzərində çoxsaylı nizamlayıcı qurğular inşa olunmuşdur.



Oğuz-Qəbələ-Bakı su kəmərinin əsas texniki və iqtisadi parametrləri



Oğuz-Qəbələ-Bakı su kəməri (03.09.2011-ci il tarixinə olan məlumat)

Oğuz-Qəbələ-Bakı Su Kəməri (30.09.2011 tarixə olan məlumat)


Trassanın uzunluğu: 268,3 km
Boruların quraşdırılması: 268,3 km-100,0%
Boruların təchizatı, cəmi: 268,3 km-100,0%
o cümlədən, polad borular: 53,6 km
GRP borular: 214,7 km

ARDNF tərəfindəu cəmi ödənilmiş məbləğ: 757,5* milyon manat


**Buna həmçinin layihənin texniki-iqtisadi əsaslandırılması, yerqurluşu, hidroloji, geoloji xəritə, ekspertiza işləri və bank xərcləri daxildir.*

Qeyd: bir sıra müqavilələrin dəyəri ABŞ dollarının manata qarşı cari məzənnəsinə uyğun olaraq göstərilmişdir.


Quyuların qazılması və tikintisi (mln. manat)
Podratçı: A+B Oyl Services MMC



3 ədəd 110 kv-luq yeraltı quraşdırılması (mln. manat)
Podratçı: Azeneo şirkəti



Polad boruların təchizatı
Akkreditiv (mln. manat)
Podratçı: Han-Teknolojik şirkəti



Layihənin idarə edilməsi və nəzarət üzrə məsləhətçi (mln. manat)
Məsləhətçi: CES GmbH şirkəti



Sıgortaedici qovşağın tikintisi (mln. manat)
Podratçı: T.T.Ş. İnşaat MMC



Quyuların qazılması və tikintisi (mln. manat)
Podratçı: Transvell Naxçıvan



Sıgortaedicilər üçün GRP boru, dirsək, üçlük və s.-in istehsalı
Podratçı: Azkompozit şirkəti



Elektrik şəbəkəsinin tikintisi (mln. manat)
Podratçı: Sumqayıt Elektrik Dəstləşdirmə şirkəti




Quyuların qazılması və tikintisi, 36 quyu (mln. manat)
Podratçı: Qalf Drilling Saplay Fze




GRP boru, dirsək, üçlük və s.-in istehsalı (mln. manat)
Podratçı: Azkompozit şirkəti



Kəmərin quraşdırılması və polad boruların təchizatı
(mln. manat)
Podratçı: Turan-Hazınadaroğlu şirkəti



Quyuların qazılması və tikintisi (mln. manat)
Podratçı: Arsan-Arıtma şirkəti









Suyun fiziki və kimyəvi analizinin aparıldığı laboratoriyada suyun tərkibinə daim nəzarət etmək üçün ən müasir avadanlıq və cihazlar quraşdırılmışdır. Oğuz-Qəbələ-Bakı su kəmərinin sonuncu nöqtəsi olan və dəniz səviyyəsindən 190 metr yüksəklikdə yaradılan Abşeron qurğular kompleksi paytaxtın 17-ci kilometrliyində yerləşir. Burada kəmərin idarə olunması üçün bütün infrastruktur müasir səviyyədə qurulmuşdur. Layihə üzrə idarəetmə və nəzarətin beynəlxalq təcrübəyə uyğun reallaşdırılması üçün tender yolu ilə Almaniyanın "CES Consulting Engineers Salzgitter" şirkəti seçilmişdir.

Su kəmərinin layihələndirilməsi və tikintisi "Turan Xəzinədaroğlu İnşaat və Ticarət" – "Tekser İnşaat Sənaye və Ticarət" – "Gəncə körpü tikinti-2" hüquqi şəxslər birliyi tərəfindən həyata keçirilmişdir.

OLİQARXİYA (yun. *oligarcia, oligos* – az sayda, *arche* – hakimiyyət) – siyasi və iqtisadi hökmranlıq, kiçik qrup insanların idarə etməsi, həmçinin, qrupun özüdür, məsələn, maliyyə oliqarxiyası (bax: sxem 1).


OLİQOPOLİYA (yun. o*ligos* – azsaylı, bir neçə və *poleo*, satıram) – müəyyən əmtəələrin istehsalı və satışında azsaylı nəhəng şirkətlərin böyük bazar payı əldə etməsi, hegemonluğu. Oliqopoliya nəzəriyyəsinin inhisardan fərqi ondan ibarətdir ki, bu zaman bazarda bir deyil, bir neçə şirkət üstünlük əldə etmiş olur (bax: sxem 1).

OLİQOPSONİYA – pay bölgüsü genişliyi, bazar qiymətlərinin dəyişməsində əks olunan

Dövlət quruluşunun əsas növləri

Baza növləri		Müxtəliflik
Bir nəfərin hakimiyyəti	→	Çar hakimiyyəti, tiranlıq
Bir neçə nəfərin hakimiyyəti	→	Aristokratiya Oliqarxiya Timokratiya, Dinastiya (nisbətən az yayılmış növlər)
Çoxlarının hakimiyyəti	→	Demokratiya

Sxem 1



Sxem 1

bir neçə alıcının iştirak etdiyi sahəvi bazar tipi.

ONKOL (ing. *on call* – zəngədək) – əmtəə, veksel və qiymətli kağızların girov qoyulması hesabına bank krediti almış müştərinin onun üçün açılmış kreditdən mərhələlərlə istifadə etmə hüququ. Hər iki tərəfin tələbi ilə onkol istənilən an ləğv edilə bilər.

ONKOL KREDİTİ (lat. *onkos* – şişmə, köpmə, ing. *lone on call-ceykas* – tələb olunana qədər) – qısamüddətli kredit, kreditorun birinci tələbi ilə ödənilir.

Valyuta brokerlərinə, diler və müştərilərə təqdim edilir. Onkol krediti xəzinə, kommersiya və digər veksellərin, qiymətli kağızların və əmtəələrin təminatı altında verilir. Onkol krediti üzrə faiz dərəcələri müddətli ssudalar üzrə olan dərəcələrdən aşağıdır. Təcrübədə onkol krediti qiymətli kağızlarla birja möhtəkirliyinin kreditləşməsi üçün istifadə olunur.

ONKOL SAZİŞ – malın tədarük edilməsi sazişi şərtlərinə görə alıcıya ixtiyar verilir ki, o, malı seçib götürdüyü gün həmin mala təcili birjanın müəyyən etdiyi qiymətə müvafiq olaraq özü qiymət təyin etsin.

ONLUQ QRUPU – kredit-maliyyə sahəsində ölkə qrupu birliyidir ki, həm də "Paris klubu", "Kreditorlar klubu" adları altında məşhurdur. Parisdə 1961-ci ildə təşkil olunmuşdur.

"Onluq qrupu"nun tərkibi

"Onluq qrupu" bu adı 1962-ci ildə almışdır. Həmin vaxt Belçika, Böyük Britaniya, Almaniya, Hollandiya, İtaliya, Kanada, ABŞ, İsveç, Fransa və Yaponiya Beynəlxalq Valyuta Fonduna 6,2 mlrd. ABŞ dollarının təqdim olunması haqqında baş razılaşma imzaladılar. Bu vəsait öz tədiyyə balanslarının sağlamlaşdırılması və iqtisadiyyatda böhranlı vəziyyətlərin aradan qaldırılması BVF-nin üzv ölkələri üçün kredit resursları kimi nəzərdə tutulmuşdu. "Onluq qrupu"nun tərkibi beynəlxalq ticarət sahəsində üzv ölkələrin lider mövqeyi ilə müəyyən olunur. Keçən illər ərzində bu ölkələr öz mövqelərini daha da möhkəmləndirmişlər və beynəlxalq iqtisadi münasibətlərə daha artan səviyyədə təsir edirlər.



Xüsusən, "Paris klubu" çərçivəsində inkişaf etməkdə olan ölkələrin xarici borcunun tənzimlənməsi üzrə bir sıra əməli tövsiyələr işlənib hazırlanmışdır. "Onluq qrupu"nun işində BVF-nin üzvü olmayan İsveçrə də iştirak edir.

"Onluq qrupu" hökumətlərarası təşkilat statusuna malikdir. Onun fəaliyyəti İYBB, BVF kimi dünyanın aparıcı kredit təşkilatlarının ali rəhbərlərinin iştirakı ilə üzv ölkələrin maliyyə nazirlərinin müşavirə və qarşılıqlı məsləhətləşmələri formasında həyata keçirilir.

Təşkilat öz işində sərt reqlamenti rəhbər tutmur, görüşlər bağlı qapılar arxasında keçirilir. Ardıcıl olaraq iştirakçı ölkələrin maliyyə nazirləri çıxış edir. Görüşlər zamanı beynəlxalq maliyyə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunur.

ONŞOR – vergidən tam deyil, qismən azad olma və ya müvafiq vergi güzəştli şərtlər əhatəsi.

OPEK – neft ixracatçısı ölkələri təşkilatı. Dövlətlərarası iqtisadi-siyasi təşkilat kimi 1960-cı ildə Bağdadda təsis olunmuşdur. Təşkilatın nizamnaməsi 5 il keçdikdən sonra Karakasda qəbul edilmişdir. OPEK-in məqsəd və funksiyasına təşkilat üzvü olan ölkələrin neft siyasətinin unifikasiyası, səmərəli istehsal və ticarətin təşkili, dünya neft qiymətlərinin tənzimlənməsi, ekoloji missiya və s. daxildir. Hazırda OPEK-ə 12 dövlət: Əlcəzair, Venesuela, Qabon, İndoneziya, İraq, İran, Qətər, Küveyt, Liviya, Nigeriya, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və Anqola daxildir. Digər ölkələrin assosiativ üzvlüyü OPEK nizamnaməsində əksini tapmışdır. Katibliyi əvvəllər Cenevrə (İsveçrə) şəhərində yerləşirdi, 1965-ci il sentyabrın 1-dən isə Vyanaya (Avstriya) köçürülüb. Təşkilatın məqsədi neftin qiymətini sabit saxlamaq, istehlakçıları neft məhsulları ilə təchiz etmək, neft hasilatına yönəldilmiş investisiyalardan fayda götürməkdir. OPEK ölkələri dünya neft yataqlarının 2/3-nə nəzarət edir. Onların payına dünya neft hasilatının 40%-i, ixracının isə yarısı düşür. Dünyada iri neft istehsalçısı olan Rusiya təşkilatda müşahidəçi qismində çıxış edir.

OPEK
Neft ixrac edən ölkələrinin təşkilatı



OPEK təşkilatının mövcud üzvləri


OPEK təşkilatının sabiq üzvləri

OPEK təşkilatı 1960-cı ildə Bağdad şəhərində keçirilən konfransda beş neft ölkəsi tərəfindən yaradılmışdır.

Hazırda OPEK təşkilatının 12 üzvü var. Onlar dünya neft ehtiyatının 2/3 çox hissəsinə nəzarət edirlər. Onların payına dünya neftinin 35-40% hasilatı və 55% ixracı düşür.

OPEK təşkilatının Baş Qərargahı Avstriyanın Vyana şəhərində yerləşir.

Dünya neft ehtiyatlarında OPEK-in payı



"OPEK səbəti" – OPEK üzv ölkələri ilə bazara çıxarılan neft çeşidləri.

"OPEK səbətinin qiyməti" – bir barel üzrə neft çeşidlərinin orta çəki qiyməti.

Əsas funksiyaları:

Kvotaların təyinetmə yolu ilə neft hasilatının həcminin tənzimlənməsi
İxrac həcminin dəyişdirilməsi hesabına dünyada neft qiymətlərinin tənzimlənməsi

OPEK SƏBƏTI – anlayış 1987-ci il yanvarın 1-dən etibarən tətbiq edilir. 2005-ci ilin ortalarından başlayaraq səbətin dəyəri səbətə daxil olan neft markalarının orta qiyməti şəklində müəyyən edilir. Səbətə Saharan Blend (Əlcəzair), İran Heavy (İran), Basra Light (İraq), Kuwait Export (Küveyt), Es Sider (Liviya), Bonny Light (Nigeriya), Qatar Marine (Qətər), Arab Light (Səudiyyə Ərəbistanı), Murban (BƏƏ), BCF (Venesuela), 2007-ci ilin yanvarından Girassol (Anqola), 2007-ci il oktyabrın 16-dan Oriente (Ekvador) daxildir.

OPERATİV (əməliyyat) DÜZƏLİŞİ – xüsusi təkrar sığorta müqaviləsi ilə örtülən fəaliyyətin növünü və xarakterini müəyyən edir.

OPERATİV İNFORMASİYA – istehlakçılar haqqında göstəricilər bazasında saxlanılan məlumatlar. Burada göstərilir ki, hansı alıcı mal alıb, hansı vaxt kəsiyində bunu edib, sonuncu alış tarixi nə vaxt olub. Operativ informasiyadan iqtisadi həyatın digər sahələrində də istifadə olunur.

OPERATİV LİZİNQ – lizinq forması; burada lizinq şirkəti icarədə olan əmlakın saxlanması və təmiri üzrə lizinq alana xidmətlər göstərir.

OPERATİV PLANLAŞDIRMA – firmadaxili planlaşdırmanın bu növü ümumi plan vəzifələrini konkret icraçıya çatdırmağa imkan verir. Operativ planlaşdırmanın əsas vəzifələri aşağıdakılardır:

1) bölmələrin tam yüklənməsini təmin etmək məqsədilə istehsalat proqramının aylar, ongünlüklər, günlər üzrə bölgüsü;

2) tapşırığın bölmələrə, iş yerlərinə çatdırılması və tapşırığın yerinə yetirilməsi üçün vaxt hüdudlarının müəyyən edilməsi;

3) təqvimə uyğun olaraq plan normativlərinin və normalarının işlənib hazırlanması;

4) istehsalın texniki baxımdan müəyyən edilmiş müddətdə hazırlanmasının planlaşdırılması;

5) zəruri resursların, vəsaitlərin və detalların iş yerlərinə təqdim edilməsi;

6) istehsalat prosesində təşkilatın bütün tərkib hissələrinin əlaqələndirilmiş şəkildə fəaliyyətinin təmin edilməsi;

7) ehtimal edilən nasazlıqların qarşısını almaq və işin dəqiqliyini təmin etmək üçün iş prosesinin operativ tənzimlənməsi.

OPERATİV UÇOT – daxili uçot sistemi. Təsərrüfat proseslərinə nəzarət və onları operativ idarə etmək üçün aparılır. Müqavilə prosesi və öhdəlikləri marketinq, iş və xidmətlərin hazırlanması operativ uçotu səciyyələndirən cəhətlər sırasındadır.

OPPORTUNİZM (fr. *opportunisme*; lat. *opportunus* – rahat, əlverişli) – iqtisadiyyatda burjua ideologiyasının fəhlə sinfinə təsirinin yayılmasına, onun həqiqi maraqlarının kapitalın maraqlarına tabe olmamasına aparan fəhlə hərəkatında ideya-siyasi cərəyanın tərkib hissəsi. Opportunizmin iqtisadi nəzəriyyəsi, siyasəti və praktikası fəhlə sinfini burjuaziya ilə əməkdaşlığa yönəldir. Marksizm-leninizmə, dünya kommunist hərəkatına və sosializmə qarşı onun mübarizəsində imperializmin aləti rolunu oynayır. Opportunizm XIX əsrin ikinci yarısında meydana gəlmişdir. İlkin olaraq onun nəzəri əsasını K.Marks və F.Engels tərəfindən tənqidə məruz qalan və XIX əsrin sonlarında tam iflasa uğrayan marksaqədərki qeyri-proletar sosializmin müxtəlif cərəyanlarının (xristian sosializmi, alman və ya "həqiqi" sosializm, prudonizm, bakunizm, blankizm, lassalçılıq, dürinqçilik və s.) utopik, reformist və ya anarxist-ekstremist ideyaları təşkil edirdi. İnqilabi fəhlə hərəkatında opportunizmin qələbəsi ilə opportunizm ideologiyası xüsusi formalarda çıxış edir və açıq antimarksist xarakteri daşıyır (məsələn, fabiçilik sosializmi), həm də təftişçilik formasında çıxış edir. Kapitalizmin ümumi böhranı dövründə opportunizm iki əsas formada təqdim edilir: 1) dünya kommunist hərəkatında təftişçilik ("sağ" və "sol"); 2) fəhlə partiyalarının sağ sosialist sosial forması.

Sosial reformist iqtisadi konsepsiyalar ("demokratik sosializm", "qarışıq iqtisadiyyat", "bazar sosializmi" və s.) və onlara müvafiq siyasət 1951-ci ildə sosialist internasionalında birləşən sosial-demokrat partiyalarının liderləri və nəzəriyyəçiləri tərəfindən hazırlanırdı: Y.Vilson, C.Streyçi, E.Krosled, R.Krosmen, C.Koul (Böyük Britaniya); K.Şumaxer, E.Ollenhayer, V.Brandt, F.K.Şiller, K.Nemis, R.Levental (AFR); B.Pitterman, B.Krayski, B.Kautski, F.Klenner, K.Çernes, Y.Brauntal (Avstriya); J.Mok, Q.Molle, A.Filip (Fransa); U.Palme (İsveç) və s. Opportunizm bütöv tarixi dövrün – imperializmin və kapitalizmin ümumi böhranının sosial məhsuludur.

OPSİON – sahibinə müəyyən edilmiş tarixdə müəyyən baza aktivini əvvəlcədən razılaşdırılmış qiymətlərlə almaq və ya satmaq hüququnu verən qiymətli kağız. "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi" Dövlət Proqramına görə, xarici sərmayəçilər tərəfindən dövlət özəlləşdirmə payları (çekləri), habelə ilkin və təkrar bazarlarda özəlləşdirilən müəssisələrin səhmləri yalnız dövlət özəlləşdirmə opsionları silinmək üçün təqdim edildikdən sonra satın alına bilər. Dövlət özəlləşdirmə opsionu onun sahibinə (xarici sərmayəçiyə) sonradan özəlləşdirmədə istifadə etmək üçün özəlləşdirmə çeklərini almaq, özəlləşdiriləcək müəssisələrin səhmlərini almaq hüquqları verən adsız (təqdim edənə) nağd qiymətli kağızdır.

OPSİON BİRJA – opsionların müxtəlif növlərinin ticarəti üzrə ixtisaslaşan birja. Ən tanınmış opsion birjaları Amsterdamda yerləşən Avropa opsion birjası və Çikaqo opsion birjasıdır. Birjanın gəlirləri mənbələrinə opsionların alınmasına görə müştərilərin ödədiyi mükafat aiddir. Təminat rolunu oynayan aktivlərin ilkin dəyərinin 85%-dən çoxu ödənildikdə və yerdə qalan aktivlərə xidmət göstərilməsi iqtisadi cəhətdən əlverişli olmadıqda, qiymətli kağızların vaxtından əvvəl ödənilməsi imkanı yaranır ki, buna da *bağlayıcı opsion* deyilir. Bu proses, yəni ödənilmə, xüsusi hüquqi şəxs tərəfindən, yerdə qalan aktivlərin originatoruna və ya serviserə (xidmət edənə) satışından əldə olunan vəsaitlər hesabına həyata keçirilir. Bağlayıcı opsion investorların likvidliyini qoruyur.

OPSİON BORCU – opsionlu borc: borcun formalarından biri və ya borc öhdəliyi müqaviləsi. Bu halda kreditor müəyyən hədlər daxilində əsas borcun ödənilməsi şərtlərini seçmək hüququna malikdir. Bu hüquq, məsələn, borc öhdəliyinin və ya onun müəyyən hissəsinin borcun verildiyi valyutada deyil, ondan fərqli valyutada ödənilməsi barədə tələbdən ibarət ola bilər.

OPSİON DİLERİ – həm dövriyyədə olan opsionlar üzrə (onları fond birjalarında istənilən vaxtda almaq və ya satmaq olar), həm də adi opsionlar üzrə (onları almaq olar, lakin satmaq olmaz) fond, əmtəə və ya valyuta birjasında əqdlər bağlayan diler.

OPSİON DİVİDENDİ – səhmdara gəlirin pul və ya yeni səhmlər şəklində ödənilməsi formasını seçmək hüququ verilməsini nəzərdə tutan dividend.

OPSİONDAN İSTİFADƏ QİYMƏTİ – səhm üçün qiymət. Opsionu almış şəxs "koll" opsionu halında müvafiq qiymətli kağızı həmin qiymətə ala bilər və ya "put" opsionu halında onu həmin qiymətə sata bilər.

OPSİONLAR BAZARI (ing. *Options exchangec*, almancadan *Optionenborse*, ital. *Çercado de opciones*) – qiymətli kağızların alqı-satqısı üçün opsionlar dövriyyəyə buraxılan fond birjası bazarı.

OPSİONUN MÜVƏQQƏTİ DƏYƏRİ (*time value – of an option*) – opsionun müddətinin keçməsi şərti ilə qiymətinin daxili dəyərindən artıq olması.

OPTİMAL (lat. *optimus* – yaxşı) – ən əlverişli, ən münasib, ən müvafiq. *Optimal əkin dövrü. Optimal şərait.*

OPTİMAL İDARƏETMƏ – verilmiş şərtlər daxilində (çox zaman ziddiyyətli) qarşıya qoyulmuş məqsədə ən yaxşı formada nail olmaq. Məsələn, minimum vaxt ərzində maksimum dəqiqliklə iqtisadi səmərə əldə etmək.

OPTİMAL QƏRAR – model çərçivəsində qoyulmuş şərtlər və məhdudiyyətlərə uyğun olaraq verilmiş tapşırığa əsasən optimal modelin keyfiyyətinin minimallaşdırılması və maksimallaşdırılması barədə qərar. Model qarşıya qoyulmuş məsələni tam əks etdirmədiyindən, qəbul edilmiş qərar da ideal hesab edilə bilməz. Lakin bu qərar digər metodlarla qəbul edilmiş qərarlardan ən yaxşısı hesab olunur.

OPTİMAL QİYMƏTİN ƏMƏLƏ GƏLMƏSİ – optimal proqramlaşdırma nəzəriyyəsinin prinsiplərinə əsasən qiymətin formalaşması mexanizmi. Optimal qiymətin əmələ gəlməsi konsepsiyasının işlənib hazırlanması sosialist iqtisadiyyatının optimal fəaliyyət göstərməsi nəzəriyyəsi çərçivəsində aparılırdı. Optimal qiymətin əmələ gəlməsi konsepsiyası hökmran "məsrəf konsepsiyalarından" fərqli olaraq qiymətin formalaşmasını razılaşdırılmış tələb və təklif zamanı məhsul istehlakının səmərəliliyi amilinə, riyazi cəhətdən – riyazi proqramlaşdırmanın optimal qiymətləndirmənin hesablanmasına əsaslanırdı. Güman edilirdi ki, bu cür qiymət-

lər, eyni zamanda, plan vəzifəsinin həlli ilə (*optimal planın tərtib edilməsi ilə*) və iqtisadi normativlər sisteminin işlənib hazırlanması ilə alınmalıdır. Riyazi cəhətdən sübut edilir ki, obyektiv cəhətdən şərtlənmiş qiymətləndirmədən istifadə edilərkən qiymətlərin əsası kimi bütün plan vəzifələri onun icraçıları üçün eyni cür rentabellidir; optimal plana daxil olmayan bütün variantlar zərərlidir; planın tərtibi zamanı nəzərə alınmayan, lakin onu yaxşılaşdıran bütün kəşflər, ixtiralar, təşkilati tədbirlər nə qədər mənfəətli olacaqsa, onun xalq təsərrüfatı miqyasında iqtisadi səmərəsi də bir o qədər olacaqdır.

OPTİMAL PLANLAŞDIRMA – təsərrüfat obyektinin inkişafına dair bir çox mümkün variantlardan ən yaxşı (optimal) variantın (resurslardan daha səmərəli istifadəni təmin edən variantın) seçilməsinə imkan verən metod və vasitələrin məcmusu. Optimal planlaşdırma istehsalın (müəssisə, birlik, sahə, iqtisadi rayon, bütünlükdə ölkə iqtisadiyyatı) planlaşdırılmasının və idarə edilməsinin müxtəlif səviyyələrində tətbiq oluna bilər. İqtisadi-riyazi metodlara və modellərə əsaslanan planlaşdırma tədbirlərinin görülməsi; bu, məqsəd funksiyasının maksimum qiymətini və mümkün planlar məcmusundan müəyyən məhdudiyyətlər nəzərə alınmaqla optimal (ən yaxşı) planı seçməyə imkan verir.

Bu variant optimal plan adlanır. Optimal planlaşdırma riyazi proqramlaşdırma və iqtisadi-riyazi modelləşdirmə məsələlərinin həllinə əsaslanır. Bu halda modellərin iki növündən istifadə edilir:

1) planlaşdırma obyektlərinin modelləri;

2) planlaşdırma proseslərinin informasiya modelləri.

Plan qərarının qəbul edilməsinin (yaxud əvvəl qəbul edilmiş plana yenidən nəzər salınmasının, onun təshih edilməsinin) ən yaxşı vaxtının seçilməsi optimal planlaşdırmanın mühüm *problemidir*.

Optimal planlaşdırma optimal qiymətyaranma ilə sıx əlaqədardır. Azad bazar münasibətləri şəraitində də bir çox hallarda bu və ya digər riyazi proqramlaşdırma məsələlərinin həlli vasitəsilə əldə etmək mümkündür.

OPTİMAL TARİF – ölkənin maddi rifahını və ya onun faydalılığını maksimallaşdıran tarif.

Optimal tarif tətbiq edilməsinin nəticələri

Əgər xaricdən əmtəə və ya xidmətlər təklifinin qiymət elastikliyi sonsuz deyildirsə, ölkə ticarət şərtlərini həmin əmtəə növünün idxalı üçün tarif tətbiqi yolu ilə yaxşılaşdıra bilər. Çünki idxal edilən mala tələbatın azalması dünya bazarında onun qiymətinin azalmasına səbəb olur. Bu cür tarifi tətbiq edən ölkə ticarətin həcmini azaldır və onun şərtlərini yaxşılaşdırır. Ticarət şəraitinin yaxşılaşdırılması hesabına əldə edilən səmərə ticarətin həcminin azalması ilə əlaqədar itkiləri kompensasiya etdiyi halda optimum əldə edilir. Malın ölkədən ixrac edilməsinə görə vergi də xaricdə həmin mala tələb qiymət üzrə elastik olmadıqda maddi rifah vəziyyətinə eyni şəkildə təsir göstərir.

Optimal ixrac tarifinin və ya ixrac vergisinin müəyyən edilməsi ilə əlaqədar əsas çətinlik cavab tədbirləri görülməsi təhlükəsidir.

OPTİMALLAŞDIRMA – 1. Mümkün variantlardan ən yaxşısının seçilməsi prosesi. 2. Sistemin ən yaxşı vəziyyətinə gətirilməsi prosesi. Mümkün variantlardan ən yaxşısının və ya müəyyən funksiyanın ekstremumunun tapılması. Biznes plan hazırlayarkən, layihə qurarkən, müəyyən prosesi idarə edərkən və s. meydana çıxır. Optimal variantı seçmək üçün bütün mümkün variantlar müqayisəli qiy-



mətləndirilir. Variantların sayı çoxdursa, belə variantı taparkən riyazi proqramlaşdırma və ya optimal idarəetmə nəzəriyyəsinin üsulları işlədilir. Bunun üçün variantları müəyyən edən dəyişmələr seçilir, onların dəyişmə məkanı (meyli) riyazi təsvir olunur və variantların keyfiyyətini göstərən optimallıq (meyarı) müəyyən edilir. Optimallaşdırma məsələsi isə bu meyarın (məsələn, istehsal xərcləri və ya müddəti, tələb edilən xammalın miqdarı) ekstremumunun tapılmasına gətirilir. Ayrılmış vəsait məlumdursa, məhsulun miqdarı optimallıq meyarı kimi götürülə bilər. Təcrübədə effektli variant bir neçə göstərici (məsələn, müəssisənin işi, məhsulun miqdarı, keyfiyyəti, maya dəyəri, əmək məhsuldarlığı, tələb olunan xammal və enerjinin miqdarı) ilə xarakterizə edilir. Bu halda, ən yaxşı planın seçilməsi çoxmeyarlı optimallaşdırma məsələsidir. Bir sıra hallarda variantları müəyyən edən şərtlər və ya parametrlər qeyri-müəyyəndir (məsələn, hava şəraiti). Belə optimallaşdırma məsələsində yaxşı variant seçərkən müxtəlif optimallıq meyarları nisbi qiymətləndirilir. Variantları xarakterizə edən bütün şərtlərin riyazi şəkildə lazımi dəqiqliklə təsviri həmişə mümkün olmadığından, ən yaxşı variantı seçmək üçün formal üsullar kifayət deyil. Ona məsul şəxs yaxşı variant seçərkən öz təcrübəsinə əsaslanır, eksperimentin rəyini nəzərə alır.

OPTİMAL-PARETO YENİDƏN BÖLGÜSÜ – ümumi rifah nəzəriyyəsi – gəlirin və ya sərvətin bir tərəfdən digərinə yenidən bölgüsü anlayışı, bu zaman həm donorun, həm də resipiyentin faydalılığı və təmin edilməsi artır (məsələn, birincinin xeyriyyəçilik fəaliyyəti nəticəsində o birinin mənəvi cəhətdən təmin edilməsi).

OPTİMUM (lat. *optimum*, ən yaxşı) – əlverişli şərtlərin toplusu, verilmiş şərtlər və resurslar daxilində məsələnin ən yaxşı həlli yolu və ya məqsədə çatmağın ən yaxşı yolu. İqtisadi nöqteyi-nəzərdən geniş mənada istehsalın səmərəli təşkili, dar mənada material ehtiyatlarından səmərəli istifadə nəticəsində minimum xərclər müqabilində maksimum iqtisadi nəticənin əldə edilməsidir.

ORDER – elə bir sənəddir ki, onun əsasında bir şəxs (çıxarıcı) başqa şəxsə (ödəyiciyə) çıxarıcının hesabına remitentə pul, qiymətli kağızlar və ya digər əvəzolunan əşyalar verməyi tapşırır. Order remitentin adına, adsız və ya əmrə dair qeyd-şərtlə verilə bilər. Əgər order "veksel" və ya "çek" kimi göstərilirsə, onda birinci növbədə, Mülki Məcəllənin veksellər və ya çeklər haqqında müddəaları tətbiq edilir.

ORDER JURNALI – şahmat formasında qurulmuş uçot cədvəlidir ki, burada bir yazı ilə iki hesabda dərhal debet və kredit hesabında təsərrüfat əməliyyatlarını əks etdirmək mümkündür (bax: Mühasibat uçotu hesabı), başqa sözlə, sintetik, bir sıra hallarda isə analitik uçotun xronoloji qeydiyyatının uçot registridir.

ORDER KONOSAMENT – beynəlxalq gəmiçilikdə yüklərin daşınması prosesində daşıyıcı ilə yük sahibi arasındakı münasibətləri müəyyənləşdirən, onun əsasında yükü göndərənə və ya alıcıya, habelə onun əmri ilə başqasına verilə bilən sənəd. Order konosamentinin verilməsi adlı və ya blanklı köçürmə yazısı ilə həyata keçirilir.

ORDER QİYMƏTLİ KAĞIZLARI – elə qiymətli kağızlardır ki, təslim imzası yolu ilə (indossament) onların digər şəxsə ötürülmə mümkünlüyünü nəzərdə tutur.

ORİJİNAL KOMİSSİYA – təkrar sığortaçıya verilən sığorta mükafatının azaldılması hesabına sedentə təkrar sığortaçı tərəfindən təkrar sığorta müqaviləsinin bağlanması zamanı ödənilən komisyon mükafat. O, adətən, təkrar sığortaçıya çatası sığorta mükafatının 10-30%-ni təşkil edir.

ORİJİNAL MÜKAFAT – sığortalıdan sığortaçıya alınan, eyni zamanda, təkrar sığorta müqaviləsinə görə sedent olan mükafat.

ORİJİNAL ŞƏRTLƏR HAQQINDA RAZILAŞMA – təkrar sığorta məqsədi ilə sığortalanan üçün sığorta müqaviləsi (orijinal müqavilə) şərtləri. Burada müddətlər və tarif dərəcələri göstərilir, təkrar sığortaçı yalnız onun proporsional payı məbləğində orijinal müqavilə üzrə sığortaçının şərtlərində olduğu kimi sedent qarşısında məsuliyyət daşıyır və bir qrup sığorta mükafatını alır.

ORİQİNATOR – kreditlər və ya borclar verən şəxs. Oriqinatorun verdiyi kreditlərdən irəli gələn hüquqlar, kreditlər xüsusi hüquqi şəxsə ötürülənədək ona məxsus olur.

ORTA AKSİZ – eynicinsli, sortlarının qiymət səviyyələri

müxtəlif olan mallar üçün tətbiq edilir.

ORTA DƏYİŞƏN XƏRCLƏR – dəyişən xərclərin istehsal həcminə nisbəti.

ORTA ƏMƏK HAQQI – işçiyə vəzifəsi (peşəsi) üzrə işəgötürən tərəfindən ödənilmiş məvacib və onun tərkibinə daxil olan ödənclərin Əmək Məcəlləsində və digər normativ hüquqi aktlarda nəzərdə tutulan qaydada müəyyən olunan məbləğdir (bax: cədvəl 1, 2).

ORTA GƏLİR – məcmu gəlirin məcmu satış həcminə nisbəti.

ORTA KƏMİYYƏTLƏR – statistikada mühüm ümumiləşdirici göstəricilər; keyfiyyətcə yekcins və kəmiyyətcə vahidləri bir-birindən fərqlənən ictimai-iqtisadi hadisələrin tipik səviyyəsini xarakterizə edir. Orta kəmiyyətlər müxtəlif amillərin alətin dəyişməsinə birgə təsirini ifadə edir. Statistika məcmusunda fərdi kəmiyyətlərin ümumi meyildən təsadüfi uzaqlaşmaları orta kəmiyyətlərdə qarşılıqlı ödənilir. Orta kəmiyyətin bu xüsusiyyəti haqqında K.Marks yazmışdır: "Hər bir sənaye sahəsindəki fərdi fəhlə, məsələn, Pyotr və Pavel, orta fəhlədən azçox fərqli olur. Bir halda ki, biz sayca çox fəhlə götürürük, riyaziyyatçıların dilində "xəta" deyilən bu fərdi fərqlər bir-birini silib aparır" (Kapital, c.1, B., 1969, səh.326). Orta kəmiyyət böyük ədədlər qanunu ilə sıx bağlıdır. Orta kəmiyyətdə hadisələrin ümumi inkişaf meyli və qanunauyğunluğu daha aydın ifadə olunur. Orta kəmiyyət konkret məkan və zaman şəraitində obyektiv tipik səviyyəni göstərir. Məsələn, orta ömür müddəti orta əmək haqqı, orta hasilat, fəhlə və qulluqçuların orta gəliri və s. orta kəmiyyətin obyektivliyinin təmini üçün qruplaşdırma metodundan istifadə edilməlidir. Bu məqsədlə ümumi orta kəmiyyət qrup orta kəmiyyətlə tamamlanmalıdır. Orta kəmiyyət hesablanan əlamətin xarakterindən və mövcud məlumatdan asılı olaraq hesabi, harmonik, həndəsi, mediana, moda və s. formada hesablana bilər.

ORTA MƏCMU XƏRCLƏR – məcmu xərclərin istehsal həcminə nisbəti.

ORTA RİSKLİ QİYMƏTLİ KAĞIZLAR PORTFELİ – qiymətli kağızlar portfelinin bu tipinin səciyyəvi əlaməti aqressiv və konservativ artım portfellərinin investisiya xassələrini özündə birləşdirməsidir. Bu portfel etibarlı uzunmüddətli qiymətli kağızlardan (konservativ artım) və kurs dəyəri sürətlə artan riskli fond alətlərindən (aqressiv artım portfeli) formalaşır. Bu halda, kapitalın orta artımı və investisiyalar riskinin orta (zəif) səviyyəsi müşahidə olunur.

ORTA SIĞORTA HAQQI – sığortalanmış şəxsin gəlir səviyyəsindən, yaşından, cinsindən, sağlamlıq vəziyyətindən, ailə tərkibindən asılı olmayan bütün region ərazisində bərabər sığorta haqlarıdır. Orta sığorta haqqı xaricdə icbari tibbi sığortanın təşkili zamanı "mənfəətsiz tibbi sığorta təşkilatları" tərəfindən tətbiq edilir.

ORTA VERGİ DƏRƏCƏSİ – ümumi vergilərin ümumi gəlirlərə nisbəti.

ORTAQ SƏRVƏTLƏR – istehlak edildikcə tükənən, amma istehlakı məhdudlaşdırıla bilməyən əmtəələr.

ORTAQ ŞİRKƏT – elə şirkət və ya hər hansı hüquqi şəxsdir ki, göstərilən tərəf həmin şirkətin və ya hər hansı digər hüquqi şəxsin ümumi yığıncağında səslərin 50%-dən çoxunu təmin edən səhmlərin bilavasitə və ya dolayısı ilə sahibidir.

ORTAQLIQ – fiziki və ya hüquqi şəxslərin birgə iqtisadi fəaliyyət üçün birləşməsidir. Tam ortaqlıq və qarışıq ortaqlıq (kommandit ortaqlığı) fərqləndirilir.

ORUCOV AYAZ İSMAYIL OĞLU (1959) – Milli Məclisin İqtisadi Siyasət Komitəsinin



üzvü, i.f.d. Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun "Mühəndis-iqtisad" fakültəsini və Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun "Avtomobil yolları" fakültəsini bitirmişdir. "Tərəqqi" medalı ilə təltif edilmişdir.

1976-cı ildən Bakı Baş Tikinti İdarəsində fəhlə, 1985-ci ildən Bakı Şəhər İcraiyyə Komitəsinin "Yoltəmirtikinti" trestinin 6 №-li idarəsində yol ustası, iş icraçısı, sahə rəisi işləmişdir. 1989-cu ildən "Azərsənayequraşdırma" trestinin 2 №-li idarəsinin mühəndisi, baş mühəndisi, 1990-cı ildən Bakı Şəhər İcra Hakimiyyətinin Əsaslı Təmir İdarəsinin birinci dərəcəli mühəndisi, 1991-ci ildən "Naringi" kooperativinin sədri, 1992-ci ildən Nizami rayon İcra Hakimiyyətinin Təsərrüfatlararası Mənzil Layihə Birliyinin texniki

Cədvəl 1

ABŞ-da orta aylıq əmək haqqı və ona düşən benzin (litrlə) 1950-ci ildən hal-hazıra kimi

İllər	Orta aylıq əmək haqqı, dollarla	Orta aylıq əmək haqqı, litr benzinlə
1950	203,95	4213
1951	233,26	4644
1952	247,77	4690
1953	261,62	4652
1954	262,97	4977
1955	275,12	4734
1956	294,36	5065
1957	303,47	4786
1958	306,15	4636
1959	321,32	4865
1960	333,93	5046
1961	340,563	4767
1962	357,62	4835
1963	366,39	4782
1964	381,36	4812
1965	388,22	4740
1966	411,53	4868
1967	434,453	4978
1968	464,31	5165
1969	491,14	5310
1970	515,52	5420
1971	541,42	5123
1972	594,48	4091
1973	631,68	4349
1974	669,23	4811
1975	719,24	6185
1976	768,87	3581
1977	814,95	4746
1978	879,67	5287
1979	956,62	4212
1980	1042,79	3318
1981	1147,76	3476
1982	1210,94	5093
1983	1269,94	3846
1984	1344,59	4628
1985	1406,83	4886
1986	1443,48	6139
1987	1535,54	6533
1988	1611,16	6701
1989	1674,96	6536
1990	1752,33	4949
1991	1817,63	6141
1992	1911,28	6889
1993	1927,72	6288
1994	1979,46	6872
1995	2058,80	7150
1996	2159,49	6698
1997	2285,50	7090
1998	2405,12	6884
1999	2539,15	7916
2000	2679,57	8048
2001	2743,49	7112
2002	2771,01	7724
2003	2838,74	6752
2004	2970,71	5980
2005	3079,41	5036
2006	3220,95	4709
2007	3367,12	4220
2008	3554,21	4114
2009	3795,41	6113
2010	3906,25	4375

Cədvəl 2

2010-cu ildə dünyanın müxtəlif ölkələrində müəllimlərin orta aylıq maaşı

Ölkə	2010-cu ildə müəllimin məktəbdə minimal maaşı, il ərzində AQP üzrə dollarla*	İl ərzində saatların miqdarı****	Əmək haqqının ölkədəki bikmakın qiymətinə nisbəti*****	Şagirdlərin sayının müəllimlərin sayına nisbəti******
ABŞ	34`500	1080	27	15,1
Böyük Britaniya	30`172	-	19,7	13,6
Kanada	30`341**	-	21,4	16,4
Avstraliya	32`406	813	24,7	12,1
Yeni Zelandiya	19`236	950	14,2	14,7
İsveçrə	48`286	750	20,5	11,9
Almaniya	47`936	714	27	14,9
Fransa	26`019	618	14,6	11,9
İspaniya	38`533	693	21,6	10,0
Finlandiya	31`282	550	17,6	13,1
Rusiya	5`120***	845	6,1	8,8

**2010-cu ildə dünyanın müxtəlif ölkələrində tam məşğul məktəb müəlliminin minimal başlanğıc maaşı (vergisiz, başqa sözlə təmiz maaş). Müəllimlərin orta aylıq maaşı AQP üzrə dollarla hesablanmışdır.*
Mənbə: Education at a Glance 2009: OECD Indicators - OECD © 2010 - ISBN9789264024755
*** məktəb müəlliminin maaşının ən az olduğu Kvebek şəhəri üzrə rəqəmlər.*
mənbə: www.nucleuslearning.com
****Rusiyada məktəb müəlliminin orta aylıq maaşı.*
Mənbə: www.gazeta.ru
*****Orta məktəbin yuxarı siniflərində tədris olunan dərs saatlarının miqdarı əks olunmuşdur.*
Mənbə:Education at a Glance 2009: OECD Indicators - OECD © 2010 - ISBN 9789264024755
******"The Economist"in hazırladığı metodologiyaya əsasən: www.woopidoo.com*
******* Mənbə: Education at a Glance 2009: OECD Indicators - OECD © 2010 - ISBN 9789264024755*

komplektləşdirmə idarəsinin rəisi vəzifələrində çalışmışdır. 1994-cü ildən "Mil" korporasiyasının idarə heyətinin, 1996-cı ildən "Hidromaşserviz" Qapalı Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri olmuşdur.

Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü kimi iqtisadi qanunvericilik bazasının təkmilləşdirilməsi işində fəal iştirak edir.

Bolqarıstan, Finlandiya, İspaniya, Qazaxıstan, Rusiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin üzvüdür. 2007-ci ildən Azərbaycan Respublikası Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun direktorudur.

ORUCOV SABİT ATABABA OĞLU (1912-1981) – neft və qaz sənayesinin görkəmli təşkilatçılarından biri, Sosialist Əməyi Qəhrəmanı, Lenin və SSRİ Dövlət mükafatı laureatı, texnika elmləri doktoru, Azərbaycanın Əməkdar elm xadimi.



1931-1936-cı illərdə Neft Sənayesi İnstitutunda oxumuşdur. 1936-1946-cı illərdə kompressor təsərrüfatında mexanik, neftçıxarma ustası, Suraxanı mədənlərində direktor olmuşdur. "Orconikidzeneft"in idarə rəisi, "Azərneftkombinat"da qazma üzrə rəis müavini, "Azneft" də baş mühəndis işləmişdir. 1946-1947-ci illərdə SSRİ Neft Sənayesi Nazirliyində şöbə müdiri, 1947-1949-cu illərdə "Krasnodarneft" Birliyində rəisin birinci müavini – baş mühəndis, 1949-1953 və 1955-1957-ci illərdə SSRİ neft sənayesi nazirinin müavini, 1957-1959-cu illərdə Azərbaycan Xalq Təsərrüfatı Şurasının Sədri, Nazirlər Soveti Sədrinin müavini, 1959-1962-ci illərdə Azərbaycan Nazirlər Sovetinin SSRİ Nazirlər Sovetindəki nümayəndəsi. 1962-1965-ci illərdə SSRİ Dövlət Plan Komitəsində neft və qaz sənayesi məsələlərilə məşğul olmuş, 1965-1972-ci illərdə SSRİ neft sənayesi nazirinin birinci müavini, 1972-1981-ci illərdə SSRİ qaz sənayesi naziri olmuşdur.

S.A.Orucov Xəzər dəniz neft yataqlarında, xüsusilə də Neft daşlarında neft çıxarılmasına böyük əmək sərf etmiş, SSRİ qaz sənayesinin inkişafında müstəsna xidmətləri olmuşdur. Xüsusilə Sibirdə qaz sənayesinin inkişafına diqqət yetirirdi.

SSRİ Neft Komitəsinin sədri və dünya neft konqreslərinin sədr müavini seçilmişdir. "Yüksəkdərinlikli iribloklu dəniz neft buruqları özülləri", "İranın neft sənayesi", "Qaz sənayesi inkişaf yolunda" kimi əsərlərin müəllifidir.

Sabit Orucov dəfələrlə Azərbaycan və SSRİ Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur.

OSSİLYATOR – texniki indikator olub, bazarda alışın və satışın vəziyyətini göstərir. İndikatorun maksimal göstəricisi bazarın maksimal alış, minimal göstəricisi isə bazarın maksimal satış səviyyəsində olduğunu xarakterizə edir.

OSTROM ELİNOR (1933) – Amerika politoloqu və iqtisadçısı. Kaliforniya Universitetində incəsənət bakalavrı (1954), incəsənət magistri (1962) və fəlsəfə doktoru (1965) olub. 1974-cü ildən İndiana Universitetinin professorudur. 2009-cu ildə "İqtisadi təşkilatçılıq sahəsindəki tədqiqatlarına görə" ilk qadın olaraq Nobel mükafatına layiq görülmüşdür. "İctimai seçim" cəmiyyətinin prezidenti (1982-1984) olmuşdur. 1997-ci ildə F.Seydman mükafatı ilə təltif edilmişdir. 2001-ci ildən ABŞ Milli Akademiyasının üzvüdür.

OSTROVİTYANOV KONSTANTİN VASİLYEVİÇ (1892-1969) – sovet iqtisadçısı və ictimai xadimi, SSRİ EA-nın həqiqi üzvü (1953), Çexoslovakiya EA-nın həqiqi üzvü (1957).



Moskva Kommersiya İnstitutunu bitirmişdir (1917). 1919-1921-ci illərdə partiya işində çalışmışdır. 1922-ci ildən Kommunist Akademiyasının ali məktəblərində, Ali Partiya Məktəbində və Sov.İKP MK nəzdində İctimai Elmlər Akademiyasında, SSRİ EA-nın İqtisadiyyat İnstitutunda pedaqoji və elmi fəaliyyət göstərmiş, 1947-1953-cü illərdə bu institutun direktoru olmuşdur. 1948-1954-cü illərdə "Voprosı ekonomiki" jurnalının baş redaktoru, 1949-1953-cü illərdə SSRİ EA-nın İqtisadiyyat, Fəlsəfə və Hüquq bölməsinin akademik katibi, 1953-1962-ci illərdə SSRİ EA-nın vitse-prezidenti

vəzifələrində işləmişdir. Sovet iqtisad elminin inkişafı onun adı ilə bağlıdır. Siyasi iqtisadla bağlı bir çox dərsliklərin müəllifidir. Əsas elmi tədqiqatları kapitalizm və sosializm siyasi iqtisadına həsr edilmişdir.

OUKEN ARTUR (1928-1980) – Amerika iqtisadçısı, neokeynsçiliyin nümayəndəsi. İmplisit



müqavilələr nəzəriyyəsinin müəllifi hesab edirdi ki, sahibkarlar və fəhlələr arasında müqavilə bağlamasalar da uzunmüddətli əməkdaşlıq münasibətlərinə girirlər.

Artur Ouken Amerika iqtisadiyyatındakı empirik asılılıqları aşkar etməklə tanınmışdır. Bu asılılıqlar sonralar "Ouken qanunu" adlandırılmışdır. "İnkişaf siyasi iqtisad" və "Bərabərlik və effektivlik: Böyük dilemma" (1975) kitablarında, həmçinin, ölümündən sonra nəşr olunan "Siyasətin formalaşmasının iqtisadi nəzəriyyəsi" kitablarında belə bir suala cavab tapmağa çalışmışdır: nə üçün inkişaf etmiş iqtisadiyyatlarda nemət və resurs bazarları tələb və təklifin qiymət hesabına deyil, həcm hesabına dəyişməsinə uyğunlaşdırılır. Onun fikrinə görə, bu cür dəyişmə nəticəsində işsizlik əmək haqqının, artıq istehsal gücü isə, qiymətlərin aşağı düşməsinə səbəb olmur. Bu, vaxtilə Keynsin irəli sürdüyü "İşsizlik şəraitində tarazlıq" paradoksuna yeni keynsçilərin cavablarından biri idi.

OUKEN QANUNU – bu qanuna görə, işsizliyin səviyyəsi ilə ÜMM-in həcmi arasında tərs əlaqə mövcuddur. Qanun işsizliyin səviyyəsinin real ÜDM-in illər üzrə böyük olmayan artımı zamanı (2,5%-i ötməyən), demək olar ki, dəyişməz halda saxlanılmasını və ÜDM-in daha əhəmiyyətli dəyişilməsi zamanı əks tərəfə 1% hərəkətini nəzərdə tutur.

OVERBOT (ing. *overbought* – yüksək alış) – 1) əmtəə bazarının alınması dərəcəsi. Əgər bazar həddən artıq alınmışsa (adətən bu, yüksələn meyil zamanı yüksək məqsədlərə müvafiq olur), bu zaman alverçilər tərəfindən müqavilələrin satışı başlanır; 2) daha böyük alış həcmi (çox vaxt qiymətli kağızlarla əlaqədar istifadə olunur) nəticəsində hər hansı əmtəəyə olan qiymətlərin kəskin yüksəlməsi.

OVERDRAFT – cari hesabdan ayrıca ödəmələr formasında bankın bu hesab sahibinə verdiyi kredit məbləği. Müştərinin öhdəliklər hesabındakı debet qalığı olaraq əvvəlki kredit saldosundan artıq olan məbləğdə ödənişin yerinə yetirilməsi zamanı yaranan vəsait *overdrafi* kimi həyata keçirilir. Belə kreditin miqdarı, onun təminat forması, ödənişlərin müddəti və digər şərtlər bank və cari hesab sahibi arasındakı razılaşmalar üzrə aparılır.

OVERDRAFT, GÜNDÜZ – mərkəzi bankda və ya klirinq palatasında maliyyə müəssisəsinin hesabında bir neçə iş saatı ərzində qalan mənfi qalıq; bir qayda olaraq, belə oberdraftın limiti Mərkəzi bank və ya özəl ödəniş sistemləri vasitəsilə müəyyən edilir.

OVERDRAFT KREDİT XƏTTİ (ing. *Overdraft Line of Credit)* – borcalana borc vəsaitlərini müəyyən edilmiş limit çərçivəsində hissələrlə almaq imkanını verən kredit xətti. Likvidliyin qorunması üçün geniş istifadə edilir və borcalana hesablarda pul vəsaitlərinin mövcud olmadığı halda lazım olan xərcləri çəkməyə imkan verir. Faizlər kredit vəsaitlərinin istifadə edildiyi faktiki müddətə olan borc məbləğinə hesablanır.

OVERNAYT (ing. *overnight*) – bir ticarət və ya bank günü ərzində həyata keçirilən əməliyyat, həftəsonu isə cümə günün-



dən bazar ertəsi səhərəcən olan əməliyyatları nəzərdə tutur.

OVERSAYD DİLİVERİ – gəminin gətirdiyi yükün birbaşa lixterə və ya göyərtə-göyərtəyə variantı ilə verilməsi.

OVERSOLD (ing. *oversold* – yüksək satış) – mal təklifinin artması nəticəsində onun qiymətinin aşağı düşməsi.

OVERTAYM – 1) nəzərdə tutulmuş iş vaxtından əlavə vaxtlara görə işçilərə verilən haqq; 2) işçilər üçün əlavə iş saatlarıdır; bu vaxt ərzində onlar gəminin yüklənməsi və ya boşaldılması ilə məşğul olur.

OYKEN VALTER (1891-1950) – neoliberalizmin Frayburq (Almaniya) məktəbinin



başçısı. Yaratdığı ordoliberalizm istiqamətində real təsərrüfat tipindən bəhs edir. Onun fikrinə görə, real təsərrüfat tipi milli-regional xüsusiyyətlər, adət və ənənələr, din, mədəniyyət, psixologiya, insanların təfəkkürü ilə müəyyən olunur. Oyken müəyyən edir ki, xalq mədəni cəhətdən inkişaf etdikcə, daha çox qeyri-mərkəzləşdirilmiş (azad) iqtisadiyyatı seçir. Oyken və onun təmsil etdiyi neoliberalizmdə dövlətin rolu bazarı yaratmaqdan və sonra isə arbitr rolunu oynamaqdan ibarətdir. Dövlətin iqtisadiyyatda rolu hakimin futbol oyunundakı rolu kimi, yəni qaydalara nəzarət etmək kimi təsvir olunur. Oyken əsərlərini "İqtisadiyyatın qaydaları" adı ilə nəşr etdirmişdir.

"OYUĞA TUŞLANMIŞ" – bazarın ayrıca bir seqmentində rəqabət. Bəzən həm də oyuğun alınması və ya doldurulması haqqında danışırlar.

OYUNLAR NƏZƏRİYYƏSİ – müasir riyaziyyatın bir bölməsi. Münaqişəli vəziyyətlər deyilən hallarda (yəni iştirakçıların mənafelərinin ya bir-birinə zidd olduğu, ya da bu mənafelər bir-birinə zidd olmasa da üst-üstə düşmədiyi hallarda) qərarlar qəbul edilməsinin riyazi modellərini öyrənir. Birinci halda, bu modellər "antaqonist oyunlar", ikinci halda isə "mənafeləri bir-birinə zidd olmayan oyunlar" adlanır. Oyunlar nəzəriyyəsinin baniləri C.Fon Neyman və O.Morqenştern bazar iqtisadiyyatı üçün səciyyəvi olan rəqabət hallarını müəyyən "oyun" kimi təsvir etməyə cəhd göstərmişlər. Ən sadə halda, yalnız iki rəqibin, məsələn, satış bazarı uğrunda mübarizə aparan iki rəqibin mübarizəsindən (duopoliya) söhbət gedir. Daha mürəkkəb hallarda "oyunun" iştirakçılarının sayı çox olur. Onlar öz aralarında daimi və ya müvəqqəti koalisiyalar, ittifaqlar yarada bilərlər. İki şəxsin "oyunu" "qoşa oyun" adlanır. Oyunda "n" sayda oyunçu iştirak etdikdə "n şəxsin oyunu", koalisiyalar yaradıldığı halda "koalisiyalı oyun" barədə söhbət gedir.

"Oyun"un mahiyyəti ondan ibarətdir ki, iştirakçılardan hər birinin fikrincə, ona ən çox uduş və ya ən az məğlubiyyət gətirən qərarlar qəbul edir *(yəni fəaliyyət strategiyası seçir)*, bu iştirakçıya aydındır ki, oyunun nəticəsi təkcə ondan deyil, həm də tərəfdaşının (tərəfdaşlarının) hərəkətlərindən asılıdır. Başqa sözlə desək, o, qeyri-müəyyənlik şəraitində qərarlar qəbul edir. Bu cür qərarlar "oyun matrisi" və ya "tədiyə matrisi" deyilən cədvəldə əks etdirilir.

Oyunlar nəzəriyyəsinin vəzifələrindən biri bütün iştirakçıları ən yüksək dərəcədə qane edən müəyyən tarazlığın (kompromisin) mümkün olub-olmaması və əgər mümkündürsə, hansı



şərtlər daxilində mümkün olmasını aydınlaşdırmaqdan ibarətdir. Bu halda, çox vaxt bu cür tarazlığın əldə edildiyi nöqtə *("yəhər" nöqtəsi)* aşkar edilir.

Oyunlar nəzəriyyəsinin prinsipial əhəmiyyəti ondan ibarətdir ki, o, hamılıqla qəbul edilmiş optimallıq anlayışını genişləndirir, ona bu cür mübahisədə (oyunda) müxtəlif tərəfləri razı salan kompromis qərar kimi mühüm elementlər daxil edir. Praktikada isə iqtisadçılar iqtisadiyyatın müxtəlif bölmələrinin maraqlarını nəzərə alan modellər işləyib hazırlayarkən, oyunlar nəzəriyyəsi yanaşmalarından istifadə edilir. Bundan əlavə, sənaye müəssisələrində çoxsaylı praktiki iqtisadi məsələlərin həlli üçün (məsələn, məhsulun keyfiyyətinin artırılması, yaxud xammal, materiallar və dəstləşdirici elementlər ehtiyatının müəyyən edilməsi sahəsində optimal qərarların seçilməsi üçün) oyunlar nəzəriyyəsinin riyazi üsulları tətbiq oluna bilər. Burada birinci halda "mübarizə" daha çox məhsul buraxmaq (məhsulun bir vahidinə daha az əmək sərf etmək) istəyi ilə məhsulu daha yaxşı hazırlamaq, yəni daha artıq əmək sərf etmək arasında, ikinci halda isə təsadüflərdən sığortalanmaq üçün daha çox resurs tədarük etmək arzusu ilə dövriyyə vəsaitlərini "öldürməmək" üçün daha az resurs tədarük etmək məqsədləri arasında "mübarizə" gedir.

Qeyd etmək lazımdır ki, bu cür məsələlərin həlli üçün başqa iqtisadi-riyazi üsullardan da istifadə edilir.

Ö

ÖDƏMƏ – iddiaların və zərərlərin məbləğinin toplanması üçün müxtəlif mənbələrdən alınmış pul vəsaitləri.

ÖDƏMƏ BALANSI – hər hansı bir ölkəyə xaricdən daxil olan valyuta gəlirləri ilə elə həmin ölkənin müəyyən müddət keçdikdə icra etdiyi ödəmələr arasındakı qarşılıqlı münasibət.

ÖDƏMƏ FONDU – ictimai istehsal prosesinin bərpa olunmasına, fasiləsiz təkrar istehsalın təmin edilməsinə sərf olunmuş istehsal vasitələrinin məcmusu. Ödəmə fondu təbii formasına və dəyərinə görə öz dəyərini bütünlüklə istehsal edilmiş məhsulun üzərinə keçirən cari əmək məsrəflərindən və öz dəyərini əmək məhsullarının üzərinə tədricən, köhnəldikcə keçirən əmək vasitələrinin köhnəlmə (amortizasiya) məbləğindən ibarətdir. Məcmu ictimai məhsuldan sərf edilmiş istehsal vasitələrinin ödənilməsinə ayrılan hissə. Ödəmə fondu natural və maddi mahiyyətinə görə əmək vasitələrindən və əmək predmetlərindən ibarətdir. Dəyər formasında ödəmə fondu maddiləşmiş keçmiş əməkdir; amortizasiya fondu və dövriyyə fondlarının dəyəri şəklində olur. Bunlar da istehsal prosesində sərf edilmiş əmək predmetlərinin bərpasına ayrılır. Məcmu ictimai məhsuldan maddi istehsal xərcləri ödənildikdən sonra qalan digər hissə milli gəliri əmələ gətirir.

Ödəmə fondunun strukturunda iki əsas hissə fərqlənir: a) il ərzində istehlak edilmiş əsas istehsal fondlarının əvəzlənməsinə sərf edilən əmək vasitələri – bu hissənin əsas mənbəyi amortizasiya fondu; b) istehlak edilmiş dövriyyə fondlarının əvəzlənməsinə sərf edilən əmək predmetlərindən ibarət hissə. Bu halda, əsas istehlak fondları işlədildikcə qismən sıradan çıxır və ödəmə fondu hesabına həm tamamilə (renovasiya), həm də qismən – əsaslı və cari təmir formasında bərpa olunur. Dövriyyə fondları bir istehsal tsikli ərzində tamamilə istehlak edilir və il ərzində bir neçə dəfə əvəzlənir. Məhsulların fond verimi artdıqca və fond tutumu azaldıqca, əsas fondların xidmət müddəti qısaldıqca məhsulun hər vahidinə düşən istehsal fondları sərfi azalır. Məhsulun material tutumunun azalması da onun hər vahidinə düşən dövriyyə fondları sərfinin azalmasına səbəb olur. Nəticədə ümumi daxili məhsulda (ÜDM) ödəmə fondunun nisbi payı azalır, geniş təkrar istehsalın əsas mənbəyi olan əlavə məhsulun nisbi payı isə artır. Ödəmə fondu geniş təkrar istehsalın mühüm amili ola bilər. Bu o halda mümkün olur ki, fiziki və mənəvi cəhətdən köhnəlmiş əsas və dövriyyə fondları əvəzləndikdə əmək vasitələri və əmək predmetləri yeniləşir, istehsalın intensivliyinin və səmərəliliyinin artırılması təmin edilir. Bu halda, geniş təkrar istehsal prosesində yığım fonduna qənaət edilir, bu isə ictimai istehsalın ikinci bölməsində məhsulların milli gəlir çərçivəsində artırılması, əhalinin maddi rifahının yüksəlməsi üçün şərait yaradır. Elmi-texniki inqilabın (ETİ) nəticələrindən istifadə edilməsi sayəsində məcmu ictimai məhsulda ödəmə fondunun nisbi payı məhsulun hər vahidinin istehsalı üçün məcmu (canlı və əşyalaşmış) əməyə qənaət edilməsinin, ictimai istehsalın səmərəliliyini və intensiv resurs-qoruyucu iqtisadi tərəqqinin imkanlarını artırmağın mühüm göstəricisi hesab edilirdi. Bu göstəricidən, həmçinin azad bazar münasibətləri şəraitində hər hansı bir ölkə iqtisadiyyatının səmərəlilik problemlərinin tətbiqində istifadə edilə bilər.

ÖDƏMƏ KARTI – maqnit təbəqəli plastik kart; xidmət sferasında məşğul olan müəyyən mağazalar və şirkətlər tə-



Ödəmə kartları

rəfindən ödənilmək üçün qəbul olunur. Ödəmə kartının sahibi hər ayın sonunda aparılmış (çəkilmiş) bütün məsrəflərə görə ümumi hesabı alır. Belə kartlar üzrə xüsusi olaraq kredit verilmir, belə ki, onların sahibi bütün məbləği dərhal ödəməlidir. Lakin əgər bundan sonra kartın sahibi bütün borcu tam ödəmirsə, tədiyyənin gecikdirilməsinə görə cərimə hesablanır. Ödəmə kartının kredit kartından üstünlüyü ondan ibarətdir ki, aylıq məsrəflərin kəmiyyətcə məhdudiyyətləri yoxdur, bu isə, məsələn, məzuniyyətin xaricdə keçirilməsi zamanı daha rahatdır.

Əmlak və ya aktivlər müəyyən edən resurslar hesabına öhdəlikləri yerinə yetirmək qabiliyyəti olan tərəf ödəmə qabiliyyətli kimi çıxış edir.

ÖDƏMƏ QABİLİYYƏTİ OLMAYAN BORCLU – digər tərəfin xeyrinə konkret hərəkət etmək (əmlakın verilməsi, pul vəsaitlərinin ödənilməsi, işlərin görülməsi və s.) öhdəliyini üzərinə götürmüş, lakin həmin öhdəliyi yerinə yetirməyə imkanı olmayan tərəf.

Borclunun borcu ödəməyə imkanı olmaması məhkəmə qaydasında tanınır. Adətən, borclunun borcu ödəməyə imkansız elan edilməsi həmin təşkilata münasibətdə müflisləşmə proseduranın başlanması deməkdir. Müəssisənin borcu ödəməyə imkansız elan edildikdən sonra onun borcları qanunla müəyyən edilmiş ardıcıllıqla ödənilir. Məsələn, işçilərə əmək haqqı ödənilməsi üzrə borc birinci dərəcəli borc hesab edilir.

ÖDƏMƏ QABİLİYYƏTİ PRİNSİPİ – vergilərin insanlar üzərinə bu yükü daşımaq qabiliyyətlərinə uyğun qoyulmasını nəzərdə tutan prinsip.

ÖDƏMƏ MƏNBƏYİNDƏ TUTULAN VERGİLƏR – rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyindən 10% dərəcə ilə vergi tutulur. Dividendin faktiki sahibi olan fiziki və hüquqi şəxslərdən vergi tutulduqda, dividendi alan fiziki və hüquqi şəxslərin həmin gəlirindən bir daha vergi tutulmur. Həmin gəlir dividend şəklində yenidən əldə edilən zaman vergiyə cəlb olunmur.

Rezident banklara və ya qeyri-rezident bankların Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə kreditlər (ssudalar), depozitlər (hesablar) üzrə ödənilən faizlər istisna olmaqla, rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, gəlir Azərbaycan mənbəyindən əldə edilmişdirsə, ödəniş mənbəyindən 10% dərəcə ilə vergi tutulur.

Həyatın yığım sığortası üzrə sığorta olunanın ödədiyi və ya onun xeyrinə ödənilən sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq kimi alınan gəlirdən də ödəmə mənbəyində vergi tutulur.

Daşınar və daşınmaz əmlak üçün icarə haqqından, həmçinin rezidentin və ya qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinin ödədiyi və ya onun adından ödənilən royaltidən, gəlir Azərbaycan mənbəyindən əldə edilmişdirsə, ödəmə mənbəyində 14% dərəcə ilə vergi tutulur. İcarə haqqı vergi ödəyicisi kimi uçotda olmayan fiziki şəxs tərəfindən ödənildikdə, icarəyə verən bu maddəyə uyğun olaraq, vergini özü ödəyir və vergi uçotuna alınaraq bəyannamə təqdim edir.

Qeyri-rezidentin Azərbaycan mənbəyindən əldə olunan gəliri kimi müəyyən edilən və qeyri-rezidentin Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyinə aid olmayan ümumi gəlirindən ödəmə mən-



bəyində xərclər çıxılmadan aşağıdakı dərəcələrlə vergi tutulur: dividenddən 10%; faizlərdən 10%; rezident müəssisəsinin, yaxud sahibkarın, riskin sığortasına və ya təkrar sığortasına dair müqaviləyə uyğun olaraq sığorta ödəmələrindən 4%; Azərbaycan Respublikası ilə digər dövlətlər arasında beynəlxalq rabitə və ya beynəlxalq daşımalar həyata keçirilərkən rabitə və ya nəqliyyat xidmətləri üçün rezident müəssisəsinin və ya sahibkarın ödəmələrindən 6%.

ÖDƏMƏ MÜDDƏTİ – alınan gəlir hesabına ilkin investisiyaların qaytarılma vaxtı. Ödəmə müddəti tədiyyələrin həm nominal, həm də kapitallaşmış axınları əsasında hesablana bilər. Birinci halda, ödəmə müddəti gəlirlər axınının elementlərinin ardıcıl toplanması ilə və gəlirin cəminin investisiyaların cəminə bərabər olması müddətini nəzərə almaqla hesablanır. İkinci halda, ödəmə müddəti hesablaşma dərəcəsinə görə diskontlaşmış gəlir axınının elementlərinin ardıcıl cəmlənməsi ilə və bu cəmin investisiyaların cari (layihənin əvvəlinə gətirilən) cəminə bərabər olması müddətini nəzərə almaqla hesablanır.

ÖDƏMƏ RİSKİNİN SIĞORTALANMASI – kreditlərin sığortalanması növü, ödəyicinin ödəməmə (qeyri-tədiyə) halında itkilərdən sığortalanması. Ödəmə riskinin sığortalanması İkinci Dünya müharibəsindən sonra beynəlxalq iqtisadi əməkdaşlıqda, xarici ticarət təcrübəsində sənaye avadanlığının göndərilməsi və uzunmüddətli kreditlərdə, kompensasiya və idxal-ixrac sövdələşmələrində xeyli yer tutur. Şərtlənmiş müddətlərdə kreditlərin ödənilməsi zəmanəti məqsədilə kreditorlar bir çox hallarda ixrac kreditlərinin və ya ödəməmə riskinin sığortalanmasını həyata keçirirlər. Böyük Britaniyada belə risklərin sığortalanması ixrac kreditlərinin zəmanəti departamenti, "İndemniti" cəmiyyəti, "Lloyd" korporasiyası, Almaniyada "Kermes" cəmiyyəti, Fransada "KAFAS" təşkilatı tərəfindən həyata keçirilir.

ÖDƏMƏMƏLƏR ("qeyri-ödəmələr") – sürəkli maliyyə-pul borcları. Ödəmələr – davamlı borclar real bazar ölkələrində terminologiyada təsbit olunmur. Milli iqtisadiyyatda işlədilən "ödəmələr" və "qeyri-ödənclər" termini də Sovetlər İttifaqının maliyyə sistemindən miras qalmış, vaxtı ötmüş debitor və kreditor borclarını mənalandıran rusca "neplateji" sözünün milli tərcümə variantıdır. Lakin onun ensiklopedik interpretasiyası borclunun kreditorla hesablaşmadan, o cümlədən tədiyəçinin akseptdən, vekseldən imtina etməsini, digər anlamda ödəmə və ayırmaların daxil olmamasını ifadələndirir.

ÖDƏMƏYƏ HAZIR OLMA – alıcının əmtəə üçün ödəməyə hazır olduğu maksimum məbləğ.

ÖDƏNC MƏBLƏĞİ – sığortalının vaxtından əvvəl müqavilənin ləğv edilməsinə görə ona hər gün ödənilməli olan hər bir uzunmüddətli həyat sığortası müqaviləsinə görə yığılmış mükafat ehtiyatlarının dəyəridir. Maliyyə, pul-kredit sistemində geniş istifadə olunan iqtisadi anlayış.

ÖDƏNİLƏN İPOTEKA – elə ipotekadır ki, bunun faizləri və əsas məbləği müəyyən illər ərzində vaxtında və tədricən ödənilir.

ÖDƏNİLMİŞ ÇEK – bank tərəfindən ödənilmiş, dövr etməli olmayan çek.

ÖDƏNİLMİŞ KAPİTAL – səhmdarların aldığı səhmlərin onlar tərəfindən qismən və tam ödənilməsi nəticəsində əmələ gələn səhmdar kapitalı.

ÖDƏNİŞ AGENTİ – ödənişləri həyata keçirmək üçün cavabdehliyi üzərinə götürmüş bank.

ÖDƏNİŞ QABİLİYYƏTİ – mühüm maliyyə iqtisadi amili kimi daha çox çəkiyə malikdir. O, operativliyin və manevrliliyin təminatçısı kimi çıxış edərək istehsalın fasiləsizliyini, səmərəliliyini, uzun və qısa müddətdə öhdəliklərin reallaşdırılmasını gerçəkləşdirir və maliyyə riskini, iflas ehtimalını müəyyənləşdirən əlavə kapitalın cəlb olunması imkanlarını səciyyələndirir.

ÖDƏNİŞ ZAMANI GÜZƏŞTLƏR – payın ödənilməsi zamanı alman komisyon haqq. Güzəştin ölçüsü payın dəyərinə görə faizlərlə müəyyən olunur və adətən, həmin payın əldəedilmə anından keçən vaxtdan asılı olur.

ÖDƏNİŞİN ARTMASI HAQQINDA SIĞORTA MÜQAVİLƏLƏRİNDƏ QEYD-ŞƏRT – polisdə inflyasiya və ya artan xərclərlə əlaqədar tikilən obyektin sığorta dəyərinin mümkün artmasını nəzərdə tutan tikinti riskini örtən şərt.

ÖDƏNİŞLƏRİN ARTMASI – müəyyən əsasda mükafatların və sığorta məbləğinin ödənilməsinin avtomatik artımını nəzərdə tutur.

ÖDƏNİŞLƏR AXINI – bütün ödəniş üzrə öhdəliklər yerinə yetirildikdən sonra emitentin sərəncamında olan pul axınlarının qiymətli kağızların sahibləri arasında bölüşdürülməsini müəyyən edən qaydalar.

ÖDƏNİŞLƏR TRİGGERİ – baş verməsi ilə vaxtından əvvəl ödənməyə səbəb olan hadisə (vaxtından əvvəl ödənmə triggeri).

Kredit reytinqləri: defolta hansı ölkə daha yaxındır (2011-ci il)

Ölkələr	S&P	Fitch	Moody's
ABŞ	AA+	AAA	Aaa
Rusiya	BBB	BBB	Baaİ
Fransa	AAA	AAA	Aaa
Almaniya	AAA	AAA	Aaa
İspaniya	AA-	AA-	Aİ
İtaliya	A	A+	Aa2
Portuqaliya	BBB-	BB+	Ba2
İrlandiya	BBB+	BBB+	Ba1
Yunanıstan	CC	CCC	Ca

Aaa/AAA	Minimal risk	Ba/BB	Əhəmiyyətli risk
Aa/AA	Çox aşağı risk	B/B	Yüksək risk
A/A	Aşağı risk	Caa/CCC	Çox yüksək risk
Baa/BBB	Nisbi risk	D	Maliyyə öhdəlikləri üzrə defolt

Mənbə: www.bcs-express.ru

ÖHDƏLİKLƏ MÜƏYYƏN EDİLƏN MƏSRƏFLƏRİN ARTMA QANUNU – bu qanuna əsasən, məhsulun hər yeni istehsal vahidinin öhdəliklə müəyyən edilən istehsal məsrəfləri məhsul istehsalının artması ilə yüksəlir.

ÖHDƏLİKLƏRİN YERİNƏ YETİRİLMƏSİNİN TƏMİN EDİLMƏSİ ÜSULLARI – bəzi digər öhdəliyin təmin edilməsinə verilən öhdəlik (əsas öhdəlik adlanır). Öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinin ən geniş yayılmış üsulları dəbbələmə, girov, tutulma, zaminlik, zəmanət və behdir. Kontragentlər arasında müqavilə kimi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinin digər üsulları da nəzərdə tutula bilər. Öhdəliklərin icrasının təmin edilməsi haqqında sazişin

həqiqi (doğru) olmaması əsas öhdəliyin həqiqi olmamasına dəlalət etmir. Əks hal düzgün deyil: əsas öhdəliyin həqiqi olmaması onun öhdəliyini təmin edən qeyri-həqiqiliyə işarədir.

ÖHDƏSİNƏ QOYULAN MƏSRƏFLƏR – şirkətin strategiyanın dəyişdirilməsi zəruriliyini dərk etmək bacarıqsızlığı ilə şərtlənən məsrəfləri.

"ÖKÜZ" BAZARI – qiymətlərin uzun müddət artdığı bazar.

"ÖKÜZLƏR" – qiymətli kağızların və valyutaların artırılma məzənnəsində iştirak edən birja dəllalları sazişlərinin icra edilməsi anında səhmlərin artırılma məzənnəsi hesabına, yəni gəlirin kurs fərqindən çıxarılması məqsədilə sazişlərin bağlanılmasında qeyd olunmuş məzənnə üzrə səhmlər alırlar. Bu termin öküz buynuzlarının zərbəsi istiqamətinə bənzətmə yolu ilə, yəni aşağıdan yuxarıya yaranmışdır.

ÖLÇMƏ VASİTƏLƏRİ – ölçmələrdə istifadə edilən və normalaşdırılmış metroloji xassələrə malik olan texniki vasitələr.

ÖLÇMƏ VASİTƏLƏRİNİN KALİBRLƏNMƏSİ – dövlət metroloji nəzarətinə aid olmayan ölçmə vasitələrinin tətbiq olunması yararlılığının müəyyən edilməsi və təsdiqi məqsədilə yerinə yetirilən əməliyyatların məcmusu.

ÖLÇMƏ VASİTƏLƏRİNİN MÜQAYİSƏLİ YOXLANMASI – ölçmə vasitələrinin müəyyən edilmiş texniki tələblərə uyğunluğunun təyin və təsdiq edilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanı, yaxud bu səlahiyyətlər verilmiş hüquqi şəxslərin metroloji xidmətləri tərəfindən yerinə yetirilən əməliyyatların məcmusu.

ÖLÇMƏ VASİTƏLƏRİNİN MÜQAYİSƏLİ YOXLANMASI HÜQUQUNUN VERİLMƏSİ – müvafiq icra hakimiyyəti orqanı tərəfindən müqayisəli yoxlama işlərinin yerinə yetirilməsi səlahiyyətlərinin rəsmi tanınması.

ÖLÇMƏ VASİTƏLƏRİ TİPİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA SERTİFİKAT – ölçmə vasitələri tipinin qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiq edilməsi, müəyyən edilmiş tələblərə uyğun olması haqqında müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən sənəd.

ÖLÇMƏLƏRİN DƏQİQLİYİ – ölçmələrin və ya hesablamaların bu və ya digər nəticələrini həqiqi nəticələr kimi qəbul etməyin mümkünlüyü.

Ölçmələrin dəqiqliyi bir sıra amillərdən asılıdır, o cümlədən tədqiq edilən qrupun düzgün seçilməsi, seçimin reprezentativliyi, hesablamaların mümkün xətası, insan amili və s.

Adətən ölçmələrin dəqiqliyi faizlə və ya ədəbi ifadə şəklində göstərilir.

İnformasiyanın sonradan işlənməsi şərtləri, eləcə də həmin informasiya əsasında qəbul edilən qərarlar çox vaxt ölçmələrin dəqiqliyindən asılı olur. Beləliklə, hər hansı tədqiqatlar aparılarkən ölçmələrin mümkün qədər dəqiq olmasına çalışırlar.

ÖLÇMƏLƏRİN VƏHDƏTİ – ölçmələrin elə vəziyyətidir ki, onların nəticələri qəbul edilmiş vahidlərlə ifadə olunur və ölçmələrin xətaları müəyyən edilmiş sərhədlərdə yerləşir.

ÖLÇMƏLƏRİN VƏHDƏTİNİN TƏMİN EDİLMƏSİ ÜZRƏ NORMATİV SƏNƏDLƏR (metroloji qayda və normalar) – müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş dövlət standartları, qaydalar, tövsiyələr, təlimatlar, həmçinin, qanunvericiliyə uyğun qaydada tətbiq edilən dövlətlərarası və beynəlxalq standartlar.

ÖLÇMƏLƏRİN YERİNƏ YETİRİLMƏSİ ÜSULLARI – ölçmələrin nəticələrinin alınmasını təmin edən əməliyyat və qaydalar.

ÖLÇÜ VAHİDİNİN MİLLİ ETALONU – bu etalon dövlət orqanı tərəfindən həmin ölçü vahidi etalonlarının hamısının qiymətlərinin müəyyən edilməsi üçün əsasdır.

ÖLÜ AKTİVLƏR – 1. Reallaşdırılması çətin və ya praktik qeyri-mümkün olan əmlak, qiymətlilər (mal-material və qeyri-material qiymətliləri), qiymətli kağızlar. 2. Gəlir gətirməyən əmlak.

ÖLÜ FRAXT – dəniz daşınması müqaviləsində göstərilmiş yükün yüklənməmiş miqdarına fraxt. Gəmini kirayə edən bunu daşınma üçün təqdim etməyə məsuldur.

ÖLÜM VƏ YA ƏMƏK QABİLİYYƏTİNİN İTİRİLMƏSİ ZAMANI SIĞORTALANMA – şəxsi sığorta növüdür ki, bu zaman sığortaçı sığorta müqaviləsinin bağlandığı müddət ərzində məsuliyyət daşıyır. Ölüm və ya əmək qabiliyyətinin itirilməsi zamanı sığortalanma – könüllü həyat sığortası növüdür. Müqavilə dövlət sığorta idarəsi tərəfindən 1 ildən

20 ilə qədər, 16 yaşdan 60 yaşa qədər müsbət tibbi sübut nəticəsində bağlanır. Sığorta məbləği sığortalanmışın ölümü zamanı və ya bədbəxt hadisə nəticəsində ümumi əmək qabiliyyətinin daim itirilməsi zamanı ödənilir.

ÖMRÜN QALAN HİSSƏSİNİN SIĞORTALANMASI – sığorta müddətinin bitməsi, sığortalının və ya sığortalanmışın müəyyən yaşa çatması, yaxud sığortalının və ya sığortalanmışın həyatında razılaşdırılmış hadisənin baş verməsi ilə əlaqədar sığorta məbləğinin ödənilməsini nəzərdə tutan şəxsi sığorta növü.

ÖMÜRLÜK ANNUİTET (life annuities) – sığorta müqaviləsidir. Bu müqaviləyə görə, müştərinin ömrü boyu müntəzəm pul ödənişləri nəzərdə tutulur.

ÖMÜRLÜK HƏYAT SIĞORTASI – ölüm halından sığortalanma. Sığortalanmışın bütün ömrü ərzində həyata keçirilir.

ÖMÜRLÜK RENTA (perpetuity) – sığortalanmış şəxsin qalan ömrü ərzində müəyyən edilmiş müddətdən ödənilən renta.

ÖMÜRLÜK SIĞORTA – sığortalanmışın bütün ömrü boyu müqaviləyə görə sığortaçının məsuliyyət daşıdığı zaman əmək qabiliyyətinin itirilməsi və ya ölümü hallarında sığortalanma növü. Ömürlük sığorta olunana sığorta ödəmələri hesabına yaradılmış fonddan əmək qabiliyyətinin bədbəxt hadisə nəticəsində itirilməsi hallarında ömrünün sonuna kimi ödənilən müntəzəm gəlirdir. Ömürlük sığorta keçmiş SSRİ-də həyat sığortasının bir növü idi. Sığorta şərtlərinə görə o, ölüm hadisəsi və əmək qabiliyyətinin itirilməsi zamanı sığortalanmaya oxşardır. Bəzi fərqləri də mövcuddur.

"ÖN QAPI" (ing. *front door*) – rəsmi mexanizm olub, onun vasitəsilə bir sıra ölkələrin maliyyə institutları müvəqqəti likvidlik çatışmazlığına məruz qalan uçot evlərinə borc verirlər. Beləliklə, sonuncu instansiya kreditoru kimi çıxış edərək, onlar verilən borclara cərimə faiz dərəcəsi müəyyənləşdirir (bu, veksel faiz dərəcəsi adlandırılır).

ÖZ XƏRCİNİ ÖDƏMƏ – təsərrüfatçılıq prinsipi; buraxılan məhsulun və ya göstərilən xidmətlərin reallaşmasından əldə olunan gəlirlərlə xərclərin tam örtülməsini nəzərdə tutan maliyyə müəssisəsinin vəziyyəti. Öz xərcini ödəmə kommersiya hesabının əsas şərti.

ÖZ XƏRCİNİ ÖDƏYƏN TƏKLİF – bu zaman reklama sərf olunan bütün məsrəfləri, həmçinin inzibati və poçt xərclərini ödəyir.

ÖZAL TURQUT (1927-1993) – Türkiyənin görkəmli siyasi və dövlət xadimi. Türkiyə Cümhuriyyətinin 8-ci prezidenti.

1950-ci ildə İstanbul Texniki Universitetini mühəndis-elektrik ixtisası üzə bitirmiş və elektrotexnika sahəsində magistr elmi dərəcəsini almışdır. Universiteti qurtardıqdan az sonra öz ixtisasını artırmaq məqsədilə ABŞ-a getmişdir. Vətənə qayıtdıqdan sonra müxtəlif dövlət idarələrində və xüsusi bölməyə aid müəssisələrdə işləmişdir.

Dövləti xidmətə Türkiyənin Energetika və Təbii Ehtiyatlar Nazirliyində başlayan T.Özal 1958-1959-cu illərdə ilk iqtisadi və sosial inkişaf planının hazırlanmasında iştirak etmişdir. O, 1960-1961-ci illərdə Müdafiə Nazirliyinin elmi-məsləhət şurasında işləmişdir.



1965-ci il seçkilərində Süleyman Dəmirəl başda olmaqla, Ədalət Partiyası qalib gəldikdən sonra iki il Baş nazirin məsləhətçisi olmuş, 1967-1971-ci illərdə isə Dövlət Plan Təşkilatının müşaviri işləmişdir. 1971-ci ildə 12 mart siyasi böhranından sonra istefaya çıxaraq ABŞ-a getmiş və 1973-cü ilə qədər Beynəlxalq Bərpa və İnkişaf Bankında işləmişdir. 1973-cü ildə Türkiyəyə qayıdaraq ölkənin ən güclü şirkətlərindən birində – "Sabançı Holdinq"də baş koordinator olmuş və qısa müddətdən sonra daha perspektivli işlərə girişmiş, yüksək dövləti vəzifələrdə çalışmışdır. 1979-cu ildə Süleyman Dəmirəl hökumətində Türkiyə Baş nazirinin iqtisadi işlər üzrə müşaviri və eyni zamanda, Dövlət Plan Təşkilatının məsləhətçisi olmuşdur. 1980-ci il sentyabrın 12-də baş vermiş dövlət çevrilişindən sonra təşkil olunmuş B.Ulusu hökumətində Türkiyə Baş nazirinin iqtisadi işlər üzrə müavini vəzifəsində işləmişdir. T.Özal 1983-cü ilin fevral ayından İslam İnkişaf Bankının Orta Şərq üzrə Baş əlaqələndiricisi işlənmişdir.

1983-cü ilin may ayından sonra Ana Vətən Partiyasının təşkilatçılarından biri və onun sədri olmuşdur. 1983-cü ildə Parlament seçkilərində onun rəhbər-

lik etdiyi Ana Vətən Partiyası 400 mümkün səsdən 211 səs toplamış və T.Özal Türkiyənin 45-ci Baş naziri seçilmişdir. 1987-ci ildə parlament seçkilərində Ana Vətən Partiyası 292 səs toplamış və T.Özal yenidən Baş nazir vəzifəsini tutmuşdur. T.Özal 1989-cu ildən 1993-cü ilə qədər Türkiyənin prezidenti olmuşdur.

O, iqtisadiyyat və texnika sahəsində bir sıra elmi əsərlərin müəllifidir. Texas Universitetinin fəxri professoru olmuşdur. Beynəlxalq aləmdə T.Özal bəzən haqlı olaraq Türkiyədə baş verən "iqtisadi möcüzələrin atası" adlandırılır. 80-ci illərdə Türkiyədə yeridilən iqtisadi strategiya isə "Özal modeli" kimi qiymətləndirilir.

Onun fəal surətdə həyata keçirdiyi iqtisadi siyasətin nəzəri əsasını monetarizm adlanan ABŞ-ın Çikaqo məktəbinin (M.Fridman, A.Xarberger və başqaları) irəli sürdüyü yeni fikir cərəyanı təşkil edir.

T.Özalın bir partiya lideri, hökumət və dövlət başçısı kimi yürütdüyü iqtisadi siyasətin əsasını rəqabət şərtləri hakim olan azad bazar iqtisadiyyatını hər vasitə ilə inkişaf etdirmək üzrə tədbirlər təşkil etmişdir. O, həyata keçirdiyi iqtisadi siyasətlə iqtisadiyyatın ardıcıl olaraq liberallaşdırılmasına, "milli mənafe naminə dövlətin iqtisadi işlərə müdaxiləsinin, müxtəlif məhdudiyyətlərin minimuma endirilməsinə" çalışır. O hesab edirdi ki, dövlətin təşkilatçılıq və istiqamətverici funksiyası ümumi səviyyədə həyata keçirilməli və detalları qətiyyən əhatə etməməlidir.

T.Özalın inadla həyata keçirdiyi iqtisadi siyasətin ana xəttini Türkiyədə mövcud olan aqrar xarakterli qapalı iqtisadiyyatın strukturunun dəyişdirilməsi üzrə görülən tədbirlər təşkil edir. Ölkədə uzun müddət birtərəfli şəkildə həyata keçirilmiş idxal məhsullarının daxildə istehsalını təşkil etmək və sənaye istehsalının daxili tələbatı ödəmək sahəsində ixtisaslaşması siyasəti öz imkanlarını tamamilə tükətdi və dərin maliyyə iqtisadi böhranı ilə nəticələndi. Daxili tələbatın ödənilməsinə yönəlmiş sənayeləşmə modeli monetaristlərin geniş istifadə etdikləri "açıq iqtisadiyyat" strategiyası ilə əvəz edildi, ixracata xidmət edən xalq təsərrüfatı sahələrinin sürətlə inkişaf etdirilməsi zərurəti çox kəskin şəkildə dayanmış olan valyuta probleminin həll edilməsində və müvafiq olaraq baş vermiş olan maliyyə-iqtisadi böhrandan çıxılmasında başlıca amil kimi irəli sürüldü. Həyata keçirilən dövlət tədbirləri geniş miqyasda ixrac məhsulları istehsal edən sahələrə yönəldildi. Türk lirəsinin çevik məzənnə siyasətinin tətbiqi siyasəti milli valyutanın sürətlə qiymətdən düşməsinə səbəb olsa da, türk məhsullarının rəqabət imkanlarını artırmaq məqsədinə xidmət etdi. T.Özal idxal siyasətinin də getdikcə liberallaşdırılması xəttini seçərək, daxili himayəçilik tədbirlərini azaltmağa səy göstərir. Onun fikrincə, idxalın liberallaşdırılması bazarın qapılarını xarici mallar üçün geniş açmaqla yanaşı, ölkə daxilində rəqabət mübarizəsi üçün eyni şərait yaratmalı, yerli istehsalçıların məhsullarının istər daxili, istərsə də xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasına kömək etməlidir.

T.Özal dövründə ixracatın təşviq olunması sahəsində həyata keçirilmiş və olduqca müsbət nəticələr vermiş tədbirlər sistemi keçid iqtisadiyyatı ölkələri üçün örnək ola bilər. Bu tədbirləri dörd qrupa bölmək olar: 1) ixracat miqdarı və ya məbləğindən asılı olaraq birbaşa subsidiyalar vasitəsilə təşviqlər, məhsullar ixrac olunarkən ödənilmiş daxili vergilərin geri qaytarılması, dəstəkləmə və qiyməti sabitləşdirmə fondu üzrə verilən subsidiyalar; 2) ucuz maliyyə mənbəyinin təmin edilməsi yolu ilə təşviq (ucuz ixracat diskont krediti); 3) vergi üstünlüyü verilməsi yolu ilə ixracatçıların təşviqi (bu bir çox vergilər üzrə təşviq edilirdi); 4) digər dolayı imkanlar yaradan və üstünlük verən təşviqlər (ixracat məhsulları istehsal etmək üçün mal idxalında gömrük istisnaları, idxalat üçün valyuta toplanması, valyutaların ölkə xaricində saxlanılmasına icazə verilməsi və s.). Bu tədbirlər arasında məhsul ixrac edilərkən daxildə ödənilmiş vergilərin geri qaytarılması sistemi xüsusən təsirli idi. İxracatın yarısına qədəri bu sistemdən faydalanırdı. 1980-1990-cı illərdə ixracatçılara bu yol ilə 4,3 mlrd. dollar məbləğində vergi geri qaytarılmışdır. İnflyasiyaya qarşı mübarizə tədbirlərinin həyata keçirilməsində qəribə bir təzad özünü göstərirdi. Bir tərəfdən, mövcud izafi tələbi məhdudlaşdırmaq, digər tərəfdən isə büdcə kəsirlərini "adi" (inflyasiya yaratmayan) mənbələr hesabına ödə-

mək üçün vergi gəlirlərinin artırılması istər-istəməz işgüzar fəallığın müəyyən dərəcədə sönməsi ilə nəticələnir. Həyata keçirilən iqtisadi strategiyanın məntiqi isə əks vəziyyəti – işgüzar fəaliyyətin ciddi olaraq canlandırılmasını tələb edirdi. T.Özal özünün iqtisadi siyasətində pul-dəyər amillərindən ölkədə işgüzar fəallığı canlandırmaq üçün geniş istifadə etdi. Vergi mexanizmində ciddi güzəştlərdən istifadə edilərək təşəbbüsçülər təşviq edilir, onların investisiya fəaliyyəti istiqamətləndirildi. Xalq təsərrüfatı üçün birinci dərəcəli əhəmiyyət kəsb edən sahələrin inkişafı, sosial-iqtisadi tərəqqi baxımından geri qalmış şərq regionlarının canlandırılmasına cəlb etmək üçün də təşəbbüsçülərə böyük güzəştlər nəzərdə tutulurdu. Ölkədə "əsas" vergi olan gəlir vergisinin yüksək həddi 1985-ci ildə 63 faizə (1963-cü ildə 68 və 1981-ci ildə 75 faizdən) endirildi. Xəzinənin maliyyə ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuş ən aşağı həddi isə 10 faizdən 25 faizə qaldırıldı. Milli gəlirdə vergilərin xüsusi çəkisi 80-ci illərdə 20-23 faiz səviyyəsində qalmışdır, T.Özalın iqtisadi siyasəti xarici kapitala münasibətdə qarşılıqlı mənfəət balansını əsas tutur, xarici mənbələrdən geniş miqyasda faydalanmağa yönəldilirdi. Əcnəbi kapital qoyuluşlarını hər vasitə ilə təşviq edirdi. Açıq qapı siyasəti çərçivəsində Türkiyədə 80-ci illərdə istehsal edilən malların ixracını sürətləndirmək üçün birbaşa maliyyə dəstəyi mexanizmindən də geniş istifadə edildi. Müəyyən edilmiş malların ixracında mükafat sistemi tətbiq edilməyə başlandı. Bu sistemdən yararlanan ixrac malların vahidinə və ya fiziki həcminə görə (1 ton ixracat üçün 1-100 dollar arasında) mükafat verilirdi. Bu sistem türk mallarının xarici bazarlarda rəqabət gücünü artırmaq məqsədini güdürdü. Həmin sistem təxminən 120 məhsul növünə şamil edilmişdir. Ödəmə məbləğləri 1987-ci ildə 19,5 mlrd. türk lirəsindən 1990-cı ildə 1290 mlrd. lirəyə çatmışdır. Özalın başçılığı ilə yeridilən iqtisadi siyasət Türkiyənin real həyatında ciddi dəyişikliklərlə nəticələnmişdir. Azad bazar prinsiplərinin geniş tətbiq edildiyi ölkə iqtisadiyyatı mühüm kəmiyyət və keyfiyyət dəyişikliyinə məruz qalmış və iqtisadi tərəqqi güclü təkan almışdır.

ÖZƏL ƏMANƏTLƏR – vergilər və istehlak xərcləri ödənildikdən sonra ailə təsərrüfatlarının qalan məcmu gəliri.

ÖZƏL ƏMTƏƏLƏR – istehlakı qadağan edilə bilən və istehlak edildikcə tükənən əmtəələr.

ÖZƏL SEKTOR – ölkə iqtisadiyyatının xüsusi mülkiyyətə əsaslanan hissəsi. Azərbaycan müstəqillik əldə etdikdən sonra özəl sektorun inkişafı istiqamətində fundamental əhəmiyyət kəsb edən işlərin görülməsi – yeni iqtisadi sistemin formalaşmasında mülkiyyət münasibətlərinin və hüquqi bazanın təkmilləşdirilməsi, sahibkarlığa diqqətin artırılması zərurəti yarandı. Hansı sahələrin mütləq özəlləşdirilməsi, hansı sahələrin dövlətin mülkiyyəti kimi saxlanılması, özəlləşdirilən sahələrin necə qiymətləndirilməsi olduqca vacib məsələlərdən idi. Respublikanın sosial-iqtisadi həyatında özəlləşdirmənin və bu prosesin mərhələ-mərhələ həyata keçirilməsinin vacibliyini görən ölkə rəhbəri "Kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi və səhmlər satışı üzrə pullu auksionların keçirilməsi haqqında" Əsasnamə, "Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" Qanun, "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" Dövlət Proqramı, 1995-ci ilin mart ayında mülkiyyət islahatını sürətləndirmək, onun mütəşəkkil getməsini təmin etmək məqsədilə "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməli tədbirlər haqqında" və 1996-cı il 25 mart tarixli "Özəlləşdirilən dövlət müəssisə və obyektlərinə mülkiyyət hüququnun rəsmiləşdirilməsi haqqında" Fərman imzaladı.

Özəlləşmənin 1-ci mərhələsi "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı"nda öz əksini tapdı. Bu mühüm sənəddə müəyyən edilmiş məqsədlər bazar iqtisadiyyatının yaradılması, iqtisadiyyatın strukturunun milli maraqların tələblərinə uyğun şəkildə yenidən qurulması, iqtisadiyyata daxili və xarici investisiyaların cəlb edilməsindən ibarət idi. Əsasən kiçik özəlləşməni əhatə edən bu mərhələdə ticarət, xidmət, iaşə obyektləri, sənayenin müxtəlif sahələrində, tikintidə, nəqliyyatda fəaliyyət göstərən yüzlərlə kiçik müəssisə

hərraclarda satılaraq öz sahibini tapmışdı.

Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin 2-ci mərhələsi Dövlət Özəlləşmə Proqramında (2000-ci il, avqust) əks olundu. Proqramın əsas məqsədi artıq yüksəlişdə olan milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və rəqabət mühitinin formalaşdırılması əsasında onun səmərəliliyini artırmaq, bazar münasibətlərinin daşıyıcıları olan özəl mülkiyyətçilər təbəqəsi dairəsini genişləndirmək və gücləndirmək, iqtisadiyyata həm daxili, həm də xarici investisiyalar cəlb etmək, əhalinin özəlləşdirmə prosesində geniş və fəal iştirakını təmin etmək olmuşdur. Bu mərhələdə daha geniş miqyaslı özəlləşmənin başlanğıcı qoyulmuş və proqrama uyğun olaraq, yanacaq-energetika, metallurgiya, maşınqayırma, kimya və neft-kimya sənayesində, nəqliyyat və rabitə sahələrində iri müəssisələr özəlləşdirməyə açıq elan edilmişdi.

Özəlləşdirmə prosesində dövlətin məqsədi bundan ibarət idi ki, özəlləşdirilən hər bir müəssisə fəaliyyət göstərsin və xüsusən də özəlləşdirmənin istehsala müsbət təsiri olsun.

2010-cu ildə respublikada 14,0 mindən çox kiçik müəssisə, 1200 xarici və müştərək müəssisə, 6 birja fəaliyyət göstərmişdir. Kiçik müəssisələr tərəfindən istehsal olunan məhsul və xidmətlərin həcmi 2007-ci illə müqayisədə 3,5 dəfə artmışdır.

Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya etməsi biznes infrastrukturunun müasir standartlara uyğun qurulmasını, ölkənin bu sahədə potensialının reallaşdırılmasını, yerli şirkətlərin rəqabət qabiliyyətini artırmaqla bilavasitə məhsuldarlığın da yüksəldilməsini tələb edir. Bu gün Azərbaycan iqtisadiyyatında ölkənin özəl sektorunu təmsil edən inkişaf imkanları böyük, idarəetmə mədəniyyəti yüksək olan çoxsaylı strukturlar fəaliyyət göstərir:



Gəncə Avtomobil Zavodu – 2004-cü il dekabrın 24-də müəssisənin konveyerindən ilk avtomobil düşür və bu hadisə şəhər səviyyəsində təntənəli qeyd olunmuşdur. Zavodda ilk istehsal olunan avtomobil VAZ-11113 "OKA" markalı avtomobillər idi.

2005-ci ilin mayında müəssisə Rusiyanın UAZ ASC ilə əsas razılaşmanı imzalayıb və avqust ayında Gəncə avtomobil zavodunda UAZ avtomobillərinin yığımı təşkil olunub.

Gəncə Avtomobil Zavodu 2005-ci ilin oktyabr ayında Çinin "Can Qan" korporasiyası ilə əməkdaşlıq müqaviləsi əsasında

Gəncə
Avtomobil
Zavodu

"Can Qan" avtomobillərinin yığımına başlayıb.

2006-cı ilin oktyabrında isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasına səfəri zamanı 2 dövlət arasında iqtisadi əlaqələrin qurulması, o cümlədən Minsk traktor və avtomobil zavodları ilə Gəncə avtomobil zavodu arasında əməkdaşlığın yaradılması barədə Belarus Respublikasının dövlət başçısı ilə razılığa gəlinib. Bu razılığa əsasən avtozavod bu müəssisələrlə müqavilə bağlayıb. 2007-ci il martın 27-də isə Gəncə Avtomobil Zavodunda yığımdan keçən ilk "Belarus" markalı traktor konveyerdən düşüb.

Paralel olaraq müəssisədə MAZ yük avtomobillərinin yığımı da təşkil olunub. Ağırtonnajlı yük avtomobillərinin yığımı üçün avtozavodda əlavə texnoloji xətt quraşdırılıb. 2006-cı il aprelin 30-da müəssisədə yığılan "Gəncə" və "Pəhləvan" adları daşıyan ilk MAZ avtomobilləri istehsal olunmuşdur.

"Azrosprominvest" Azərbaycan-Rusiya Birgə Müəssisəsi – "Daş Salahlı Bentonit" Səhmdar Cəmiyyəti (Azərbaycan Respublikası) və "Bentonit Elm-İstehsalat Birliyi" (Rusiya Federasiyası) tərəfindən təsis olunmuş və 2006-cı ilin sentyabr ayında dövlət qeydiyyatına alınmışdır. Müəssisənin əsas məqsədi Daş Salahlı bentonit gili mədənini elmi-geoloji əsaslarla birgə istismar etmək, 3 növ bentoməhsul istehsal edən zavod tikmək, yerli kadrların peşəkar-







Daş Salahlı bentonit mədəni

lıq səviyyəsini artırmaq, innovasiyaların tətbiqinə nail olmaq, bazar coğrafiyasını genişləndirmək, ölkə iqtisadiyyatının qeyri-neft sektoruna, regionun inkişafına töhfələr verməkdir.

Daş Salahlı bentonit gili mədəni Qazax rayonunun Daş Salahlı kəndindən qərb istiqamətində 2 km və Qazax şəhərindən şimali-qərb istiqamətində 12 km aralıda yerləşir. Mədəndə geoloji-kəşfiyyat işləri Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 70-ci illərin əvvəllərində start götürmüş, 1971-ci ildə geoloji-kəşfiyyat işlərinin 1-ci mərhələsi başa çatmış və mədənin istismarına başlanmışdır. İstismarın 1-ci mərhələsi göstərmişdir ki, Daş Salahlı mədənində ən yüksək keyfiyyətli sənaye məhsulu istehsal etmək üçün bentonit mövcuddur. Geoloji-kəşfiyyat işlərinin miqyaslı öyrənilməsi 1976-cı ildə yekunlaşmış və ümumi ehtiyatı 80 milyon tondan çox olan 3 sahə – Mərkəzi, Şimal və Cənub sahələri müəyyənləşdirilmişdir. 1976-1991-ci illərdə mədən intensiv istismar edilmişdir. Hasilatın həcmi həmin illərdə 700 min tondan 850 min tona qədər dəyişmişdir. 1992-ci ildən başlayaraq hasilatın həcmi 20 min tona qədər aşağı enmişdir. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" qəbul edildikdən sonra Daş Salahlı bentonit gili mədəni ikinci həyatını yaşamağa başlamışdır.

Hazırda məhsuldarlığı ildə 250 min ton olan, aktivləşdirilmiş bentonit, bentonit tozu və dənəvərləşdirilmiş bentonit istehsal edən zavodun inşası başa çatmış, müəssisə texniki heyətin, geoloji xidmətin rahat, səmərəli çalışması üçün inzibati bina və müasir laboratoriya ilə təchiz edilmişdir. Müəssisə nəinki MDB ölkələrinə, hətta Avrasiya bazarına yüksək keyfiyyətli bentoməhsullar ixrac etməyə qadirdir. Daş Salahlı bentonit emalı zavodunda istehsal olunan məhsullar neft-qaz, metallurgiya, avtomobilqayırma, inşaat materialları, gigiyena sektorlarında uğurla tətbiq oluna bilər. Daş Salahlı bentoniti şişmə qabiliyyətinə, yüksək bağlayıcılıq funksiyalarına görə avtomobilqayırma, maşınqayırma müəssisələrinin tökmə istehsalatlarında, qəlib qatışıqlarında müvəffəqiyyətlə istifadə olunur. Su saxlamaq və adsorbsiya xüsusiyyətləri Daş Salahlı bentonit gilini inşaatda hidroizolyasiya materialı kimi istifadə etməyə imkan verir. Daş Salahlı bentonit gilinin su suspenziyaları gilin aşağı qatılığında (5-7%) yüksək özlüklüyə, həmçinin geləmələgətirmə və susaxlama məziyyətlərinə malikdir. Ona görə də Daş Salahlı bentonit tozu qazma məhlullarında tətbiq olunan normativ sənədlərin ən yüksək tələblərinə cavab verir.

"AKKORD" Şirkətlər Qrupu – Azərbaycan tikinti sektorunun liderlərindən olan "AKKORD" 2005-ci ildə təsis edilmişdir. Şirkət qısa müddət ərzində yaşayış evlərinin tikintisi və satışı, həmçinin, digər ictimai obyektlərin tikintisi, tikinti materiallarının istehsalı və emalı sahəsində liderlik əldə edib. Bu gün "AKKORD" Azərbaycanda

AKKORD
SƏNAYE TİKİNTİ İNVESTİSİYA KORPORASİYASI



"AKKORD" Beton Zavodu





"AKKORD" Sement Zavodu (Qazax rayonunun Daş Salahlı kəndi)



"AKKORD" Beton Zavodu





qeyri-neft sektorunun inkişafına öz töhfələrini verərək tikinti sahəsində yeni standartlar yaratmağa nail olub. Azərbaycan iqtisadiyyatının inkişafında əvəzsiz rolu olan "AKKORD" yaşayış binalarının tikintisi ilə yanaşı dinamik templərlə böyüməkdə olan inşaat sektorunun tikinti materiallarına olan tələbatını təmin etmək istiqamətində də böyük uğurlara nail olub. "AKKORD" ölkədə yeganə tikinti şirkətidir ki, Beynəlxalq Layihələrin İdarəetmə Assosiasiyasının Standartını qəbul edib. Şirkət "Primavera" proqramının son versiyasından istifadə etməklə tikinti prosesini ən yüksək səviyyədə gerçəkləşdirməyə, tikinti layihələrinin idarə olunmasına nail olub.

Şirkət SGS – Sistem və Xidmət Sertifikasiya – Şirkətinin İSO 9001-2008 Standartına Uyğunluq Sertifikatını alıb. Bu sertifikat şirkətin beton və kərpic istehsalı, körpü tikintisi, yaşayış binalarının layihələndirilməsi və inşasının beynəlxalq tikinti meyarlarına cavab verdiyini təsdiqləyir.

"AKKORD" hazırda inşa etdiyi avtomobil yolları, körpü və tunellərin tikintisinin keyfiyyətinə əmin olmaq, həmçinin istehsal və inşaat prosesində peşəkar məsləhətləşmələr aparmaq üçün Avropanın bu sahələrdə aparıcı inşaat şirkətləri ilə razılaşmalar imzalayıb.

Tikinti sahəsinin lideri olmaq yolunu tutan və hazırda 3500 nəfərə qədər işçisi olan "AKKORD" təməlində "Hər şey insan üçün" fəlsəfəsi dayanır. "AKKORD" tikinti prosesi zamanı bədbəxt hadisələrdən maksimum qorunmaq, işçi həyatının təhlükəsizliyini hər an nəzarətdə saxlamaqla sağlamlıq, təhlükəsizlik və ətraf mühiti mühafizə kodeksinə ciddi əməl edilir.

"Yeni Yasamal" yaşayış binası, "Kosmos" yaşayış binası, "Etalon" yaşayış kompleksi, "Abşeron" gənclər şəhərciyi, "Uğur-1" qapalı yaşayış kompleksi, Bakıxanov Yaşayış Kompleksi – "Uğur-2" iri mənzil tikintisi layihələri "AKKORD"a məxsusdur.

Azərbaycanın ən böyük tikinti şirkəti olan "AKKORD" irimiqyaslı yol-infrastruktur layihələrinin reallaşdırılması sahəsində də liderdir. Zığ dairəsi – Heydər Əliyev Beynəlxalq Hava Limanı Yolu, Bakı-Şamaxı Asfalt Yolu, Bakı-Quba Beton Yolu, Qazax-Gürcüstan sərhədi avtomobil yolu, "Qələbə meydanı" tunel kompleksi, Heydər Əliyev prospekti, Babək və Şah İsmayıl Xətai prospektlərinin kəsişməsində körpü-tunel kompleksi, onlarca keçid, tunel və yolötürücüləri "AKKORD" tərəfindən tikilib.



"AKKORD" istehsal sahəsində də uğurla təmsil olunur. Şirkət kərpic, sement, boya, asfalt, beton, mərmər-qranit, çınqıl zavodlarına, tikiş fabrikinə, PVC və Paslanmayan materiallar, Dəmir və metal konstruksiya sexlərinə sahibdir. Şirkət Gürcüstan, Qazaxıstan və Ukraynada həyata keçirilən infrastruktur layihələrində fəal iştirak edir.

"AKKORD" Azərbaycanın müasir tikinti tarixində iz qoymaq, mühüm regional layihələrdə iştirak etmək, Qafqazın və Avrasiya məkanının tikinti sektorunda nüfuz qazanmaq yolunu seçib.

"AZENCO" Şirkəti – Qafqazda energetika sahəsində tikinti, layihələndirmə və mühəndislik işləri aparan ən iri şirkətdir. Xüsusi kapitalının həcmi təxminən 500 milyon ABŞ dollarına bərabərdir. Azərbaycan hökuməti 2008-ci ildə şirkətin hüquqi statusunu dəyişənə qədər şirkət dövlət müəssisəsi olan "Azerenerji" ASC-nin tərkibində "Azenerjitikinti" MMC adı altında fəaliyyət göstərib. Dövlət "Azenco" Açıq Səhmdar Cəmiyyətinə çevrildi. Bu dəyişiklik "Azerenerji" şirkəti üçün köməkçi əməliyyat şirkətlərinin özəlləşdirilməsinə yönəldilən yenidən strukturlaşdırma ilə bağlı başlanğıc idi. Növbəti addım olaraq Dövlət Komitəsi özəlləşdirməyə dair investisiya müsabiqəsi elan etdi.

İNTERENERJİ (Azərbaycan) 23 dekabr 2009-cu ildə "Azen-

azerbaijan energy construction | azenco



co”nun 97,5% həcmindəki payına sahib olaraq investisiya müsabiqəsinin qalibi elan olundu. “Azenco” şirkəti biznes fəaliyyətində iki istiqamət müəyyənləşdirib: energetika sahəsində tikinti, təmir, sınaq, quraşdırma xidmətləri və müxtəlif sənaye məhsullarının kütləvi istehsalı. Bu günə qədər “Azenco” 400 MVt gücündə Şimal kombinəedilmiş dövrlü elektrik stansiyasının tikintisini, ümumi gücü 700 MVt-dan çox olan 7 modullu elektrik stansiyasının tikintisini, 525 MVt gücündə olan Sumqayıt Birləşdirilmiş Dövrəli Elektrik Stansiyasının Tikintisini, Azərbaycan Respublikası Milli Bayraq Meydanının Tikintisini, 330/110/10 kV gücündə olan Xaçmaz yarımstansiyasının tikintisini, 330 kV gücündə olan İmişli-Parsabad Elektrik Veriliş Xəttinin (EVX) tikintisini həyata keçirmişdir.

“Azinko Holding”in şəhərimizi bəzəyən əsrarəngiz və möhtəşəm yaşayış binalarının, eləcə də ictimai, istirahət və sair obyektlərin tikintisində xüsusi yeri var. 2006-cı ildən fəaliyyətə başlayan “Azinko Holding” öz tərkibində 5 şirkəti birləşdirir. Bunlar “Atilla İnşaat” MMC, “Zəfər KO” MMC, “AZ-İN-KO” MMC, “Nəsildən Nəslə” MMC, “Regional İnşaat” MMC daxildir. İnşaat bazarında əsl keyfiyyət nişanı ilə seçilən və müştərilərinin daima istəklərini nəzərə alan “Azinko Holding”in istifadəyə verdiyi binalar müasir mühəndis və tikinti texnologiyalarının tətbiqi ilə inşa edilir. “Azinko Holding” MMC-nin qısa bir zaman kəsiyində belə böyük uğurlara nail olması onun






Jumeirah Bilgah Beach Hotel (Bilgəh)




Yaşayış kompleksi


"Sahil" yaşayış kompıeksi










"Grand Park Plaza"
yaşayış kompleksi





İnşaat bazarında əsl keyfiyyət nişanı ilə seçilən və müştərilərinin daim istəklərini nəzərə alan
"Azinko Holding"in
istifadəyə verdiyi binalar müasir mühəndis və tikinti texnologiyalarının tətbiqi ilə inşa edilir

Azərbaycanın zəngin və qədim memarlıq, şəhərsalma ənənələrinə sadiq qalaraq müasir beynəlxalq tikinti normalarına əməl etməsi, dünyanın ən aparıcı tikinti şirkətlərinin təcrübəsindən bəhrələnməsi, eləcə də yüksək səviyyədə təşkilatlanması, ciddi nizam-intizama əsaslanan çevik idarəetmə sisteminə, əsasən mükəmməl təhsil almış, böyük təcrübəyə malik, beynəlxalq standartlarla işləyə bilən, peşəkar və yüksəkixtisaslı mühəndis-texniki işçilərdən ibarət əmək kollektivinə malik olması ilə əlaqədardır.

Binalarda sakinlər üçün müasir tələblərə cavab verən bütün mühəndis kommunikasiya vasitələri (beynəlxalq standartlara uyğun su və enerji təchizatı, ventilyasiya, yanğından mühafizə, isitmə, soyutma, kabel televiziyası və kanalizasiya sistemləri, "Mitsubishi" markalı yük və sərnişin liftləri və s.) qurulmuşdur.

Şirkətin istifadəyə verdiyi "Dalğa Plaza" İş Mərkəzi daxili dizayn və interyer baxımından fərqlənir və bu da mərkəzi iş adamları üçün daha əlverişli və cəlbedici edir.

Şirkət tərəfindən Abşeronun şərqində, Bilgəh qəsəbəsində dəniz sahilində 9 hektar sahədə "Jumeirah Bilgah Hotel" kompleksi istifadəyə verilib.

5 ulduzlu hotel kompleksinə 14 ədəd kotec tipli iki mərtəbəli evlər qrupu da daxildir. Hotel binası 17 mərtəbəli kaskadtipli bina olaraq, müasir memarlıq nümunəsidir. Hotel kompleksinə universal kinokonsert zalı, əsas yemək zalı, restoran, diskoteka, açıq kafe, banket zalı, su hovuzu, fitnes mərkəzi, sauna və türk hamamı, yeraltı avtomobil dayanacağı, panoramlı liftlər daxildir.

Şirkət tərəfindən görülən bütün tikinti işləri öz xüsusi keyfiyyəti ilə fərqlənir. əlaqədar dövlət orqanlarının apardığı çoxsaylı və çoxnövlü ekspertizalar, testlər və digər yoxlamalar tikililərin beynəlxalq tikinti norma və standartlarına tam cavab verən, seysmik davamlı material və avadanlıqlarla, eləcə də qabaqcıl tikinti metodları ilə inşa edildiyini təsdiq etmişdir.

"Dərəçiçək" MTK – 2004-cü ildən fəaliyyət göstərir. MTK mülki və sənaye obyektlərin tikintisi, müxtəlif qurğu və avadanlıqların quraşdırılması üzrə ixtisaslaşmışdır. Eyni zamanda, respublika ərazisində sifarişlər üzrə müəssisə və təşkilatların ən yeni maşın və mexanizmlərlə təchiz edilməsi xidmətini həyata keçirir.





"ISR Plaza" hotel



"Hilton" hotel

Yarandığı dövr ərzində "Dərəçiçək" MTK Bakıda, Sumqayıtda tikinti normalarına və təhlükəsizlik qaydalarına uyğun beynəlxalq standartlar səviyyəsində müasir yaşayış kompleksləri, məktəblər, idman meydançaları istifadəyə vermişdir. Yüksək ixtisaslı mühəndis-texniki, ixtisaslaşdırılmış fəhlə heyətinə, kifayət qədər maddi-texniki bazaya malik şirkət mənzil və digər sosial obyektlərin tikintisi bazarında layiqli yer tutmaq əzmindədir.

"İSR" Şirkətlər Qrupu – 1995-ci ildən fəaliyyət göstərir. Şirkətlər qrupuna istehsal, xidmət, ticarət və nəqliyyat sektorlarını təmsil edən 20-yə yaxın şirkət daxildir. Bunlardan Bakı Əyləncə Mərkəzinin, Nərgiz Ticarət Mərkəzinin, Tayota Bakı Mərkəzinin, "İSR Residence-I" və "İSR Residence-II" elit yaşayış komplekslərinin, Bakı Avtomobil Bazarının, "Azər-Yod" yod-brom zavodunun, "Park İnn Azərbaycan Hotel"inin, "ISR Plaza"nın, "Radisson Hotel"inin və "Hilton Baku Hotel"in adlarını çəkmək olar. Şirkətlər qrupunun Bakı şəhərindəki müəssisələrində 1500-dən çox insan çalışır. Qrupa daxil olan şirkətlər daim Azərbaycanın iqtisadi inkişafında mühüm rol oynayan iri sərmayə qoyuluşlarını həyata keçirirlər. "İSR" şirkətlər qrupunun müəssisələri ölkənin özəl sektorunda iri vergi ödəyicilərindir.

"NB Qrup" ASC – əsası 2004-cü ildə qoyulub. Azərbaycanın kimya sənayesi sahəsində uğurla fəaliyyət göstərən və dinamik surətdə inkişaf edən şirkətdir. 26 hektar ərazini əhatə edən şirkə-



"NB Qrup" zavodu





tin tərkibində 10 zavod fəaliyyət göstərir. Almaniya, Türkiyə, İtaliya istehsalı olan müasir, ən son avadanlıq, rəqəmsal texnologiyalarla təchiz edilmiş müəssisə 2008-ci ildə istehsal prosesinə başlayıb. Kimya sənayesi sahəsində fəaliyyət göstərən şirkət inşaat malları kateqoriyasından boya məhsulları, sement və gips əsaslı inşaat qarışıqlarının, alkid, polimer kimi sənaye əhəmiyyətli yarım məhsulların, kimyəvi məişət məhsulları seriyasından isə qatı və maye sabun, təmizləyici vasitələr, plastik və metal qabların istehsalını həyata keçirir. "NB Qrup"un strategiyası yüksək səviyyəli və yüksək keyfiyyətli yerli istehsal brendləri formalaşdıraraq, müştərilərinin tələblərinə cavab vermək, bu istiqamətdə ölkə iqtisadiyyatının aparıcı qüvvələrindən biri olmaqdır. Şirkət fəaliyyətini beynəlxalq standartlar, keyfiyyətin təmin olunması, ətraf mühitin və ekologiyanın qorunması, əməyin mühafizəsi və texniki təhlükəsizlik idarəetmə sisteminin tələblərinə uyğun qurub.

"NB Qrup" ASC "Azpol", "Corella", "Bermuda" markalı boyaların və "Alev" markalı sabun, təmizləyici və yuyucu vasitələrin istehsalçısıdır.

Metal qablar istehsalı zavodunda kimya və qida sənayesində istifadə olunan silindrik, konusvari və dördkünc formada 250 q-dan 25 kq-dək dəmir vərəqədən müxtəlif ölçülü qablar istehsal edilir. Zavodun illik istehsal gücü 6 milyon ədədi keçir. Qablar boya və montaj köpüyünün qablaşdırılmasında istifadə olunur. Plastik qablara

gəlincə 2,5; 7,5 və 15 litrlik boya üçün, həmçinin yuyucu vasitələr üçün müxtəlif ölçüdə qablar və montaj köpüyünün plastik qapaqları istehsal edilir. İllik istehsal gücü 5 milyon ədəddən yuxarıdır.

Müasir dünyanın ən son texnoloji yeniliklərini tətbiq etməklə, "NB Qrup" fəaliyyət göstərdiyi bütün sahələrdə "Keyfiyyətli Azərbaycan brendi"nin qoruyucusu və bu təminatı davamlı möhkəmləndirən şirkət kimi çalışır.

"NB Qrup" 2011-ci ildən Türkiyənin "Çağlayan Kimya və İnşaat Sənaye Ticarət A.Ş." ilə əməkdaşlıq edir.

"Bakond" – 1987-ci ildə "BAKKondisioner" Elmi-İstehsal Birliyi zavodlarında istehsal edilən kondisionerlərin və məişət texnikasının satışı, quraşdırılması və texniki xidməti sahəsində ixtisaslaşan Texno-Ticarət Mərkəzi kimi yaradılmışdır. Azərbaycanın aparıcı şirkətlərindəndir. Fəaliyyət sahəsini genişləndirən "Bakond" şirkəti aparıcı dünya istehsalçılarının məişət, elektron texnikası və istehsal avadanlığının idxalı, satışı, quraşdırılması və texniki xidməti ilə məşğul olur. "Bakond" müxtəlif kondisionerləşdirmə ventilyasiya, ofis və telekommunikasiya sistemlərinin quraşdırılmasının layihələndirilməsi və servis xidməti sahəsində aparıcı yer tutur. Şirkətdə geniş çeşidli məhsulların satışı üzrə salon və dünya standartlarına cavab verən yüksək ixtisaslı servis mərkəzi fəaliyyət göstərir. "Bakond" şirkəti bir çox beynəlxalq istehsalçılarla əməkdaşlıq edir. Şirkət "Panasonik", "LG Electronics", "Toshiba", "Daikin", "BORK", "Gree", "Zwilling JA Henckels", "Citizen" şirkətlərinin Azərbaycanda rəsmi partnyorudur.

BAKOND



"KARVAN-L" Şirkəti – 1993-cü ildə yaranmışdır.

Azərbaycanda müxtəlif istehsal növləri ilə məşğul olan bir neçə müəssisəni özündə birləşdirən ilk və iri özəl istehsalat və ticarət təşkilatlarından biridir. Şirkət üç əsas istiqamətdə fəaliyyət göstərir: kimya, lak-boya, metal dam örtüyü istehsalı. "KARVAN-L" şirkətinin işgüzar sisteminin əsasını distillə edilmiş naften turşuları, sikkativ, korroziyaya qarşı inhibitorlar, demulqatorlar, rezin texnikası üçün modifikatorlar, dam örtükləri və lak-boya məhsullarının istehsalı təşkil edir.

"KARVAN-L" şirkəti müştərilərin marağını həmişə nəzərə alır və buna görə də həmişə yüksək keyfiyyətli məhsullar istehsal edir. "KARVAN-L" şirkəti daxili və xarici bazarda yüksək keyfiyyəti və rəqabət aparmaq bacarığı ilə seçilir. "KARVAN-L" şirkəti məhsullarını Azərbaycanın bütün bölgələrinə, həmçinin MDB və Baltikyanı ölkələrə, Avropaya, ABŞ-a, Asiyaya göndərilir.



"NURGÜN" Şirkətlər Qrupu – Azərbaycanın ən fəal və iri holdinqlərindən biri. Holdinq avtomobil biznesi, bankçılıq, sığorta, ticarət və sənaye sektorunda təmsil olunub.

"Nurgün Motors" şirkəti "Nurgün" Şirkətlər Qrupunun aparıcı şirkətlərindən biridir. "Nurgün Motors" dünya avtomobil istehsalçılarının flaqmanlarından olan "Nissan" Konserninin Azərbaycanda rəsmi distribütorudur.

1992-ci ildən fəaliyyət göstərən "NBC Bank" ASC "Nurgün" Şirkətlər Qrupuna daxildir. "NBC Bank"ın missiyası müştəri münasibətlərini inkişaf etdirmək, kiçik və orta sahibkarlığın inkişafına hər cür kömək göstərmək, əhalinin istehlak kreditlərinə olan ehtiyaclarının ödənilməsinə töhfə vermək, iqtisadiyyatı keyfiyyətli bank məhsulları və xidmətləri ilə təmin etmək və insan resurslarını qorumaqdır.

"Nurgün" Şirkətlər Qrupu "Rəvan Sığorta" ASC-nin təsisçisidir. 1998-ci ildən fəaliyyət göstərən "Rəvan Sığorta" Açıq Səhmdar Cəmiyyəti artıq 14 illik təcrübəyə malik bir şirkət kimi sığorta bazarında xüsusi mövqeyə sahibdir. İlk əvvəl "Double İnsurance Company" QSC kimi fəaliyyət göstərən "Rəvan Sığorta" ASC 2004-cü ildə təsisçilərin dəyişməsi ilə yanaşı, şirkət adının dəyişməsi prosesini yaşayaraq "Star Alyans Sığorta Şirkəti" QSC adını almışdır. Şirkətin formalaşmasının sonuncu mərhələsi isə 2007-ci ilə təsadüf edir. Belə ki, məhz bu ildə Şirkətin "Nurgün" Şirkətlər Qrupunun tərkibinə daxil olması onun yeni inkişaf mərhələsinə başlamasına səbəb olmuşdur və 2009-cu ildə adı dəyişdirilərək "Rəvan Sığorta" ASC olmuşdur. Hal-hazırda "Rəvan Sığorta" ASC 4 milyon manat nizamnamə kapitalı ilə Azərbaycanda sığorta şirkətləri arasında ən yüksək kapitala malik olan şirkətlərdən biridir. "Rəvan Sığorta" ASC 19 sığorta növü üzrə fəaliyyət göstərir.



"Nurgün" Şirkətlər Qrupuna daxil olan və 1994-cü ildən fəaliyyət göstərən "Nurgün İnşaat" şirkəti respublikada yaradılan ilk özəl inşaat şirkətlərindən biridir. Fəaliyyət göstərdiyi illər ərzində "Nurgün İnşaat" bir sıra irimiqyaslı tikinti layihələrini reallaşdırmışdır. Bura idman kompleksini, yüksəkmərtəbəli binaların lahiyələndirilməsi və tikintisini, avtomobil salonları və s. inşasını aid etmək olar.

"Nurgün" Şirkətlər Qrupuna daxil olan istehsal müəssisələrindən biri "Bəyaz" brendinin sahibi "Sabah" un istehsalı müəssisəsidir. Bu istehsal müəssisəsi Bakı şəhərində yerləşən və ən son texnologiyalarla təchiz edilmiş müəssisələrdən biridir. Sutkalıq istehsal gücü 250 ton olan bu müəssisədə Türkiyənin "Unormak" və "Endustrial Elektrik" şirkətlərinə məxsus elektron avadanlıqları quraşdırılmışdır. Müəssisə 2006-cı ildən tam gücü ilə istehsala başlamışdır.

"Büllur" fabriki "Nurgün" Şirkətlər Qrupa daxil olan əsas istehsal müəssisələrindən biridir. Müəssisə 2005-ci ildən tam gücü ilə fəaliyyət göstərməyə başlamışdır. Hazırda müəssisədə məişət kimyası məhsullarının bütün çeşidləri istehsal olunur ("Bello" qab yumaq üçün vasitələr, "Bellosil" şüşətəmizləyən vasitələr, "Bello" gigenik təmizləyici tozlar, habelə "Bello" maye sabunu və s.). Şirkətin məqsədi istehsal edilən məişət kimyası məhsullarının yerli istehsalçıları arasında liderlikdir.

"Nurgün" Şirkətlər Qrupuna pərakəndə ticarətdə özünəməxsusluğu ilə seçilən "Kontinen-

tal" və "Ailə" supermarketlər şəbəkəsi də daxildir. "Kontinental" supermarketlər şəbəkəsi Bakıda iri və tanınmış ticarət obyektlərindən biridir. Bu supermarketlər məhsulların keyfiyyəti və müştərilərə yüksək xidmət səviyyəsi ilə seçilir. "Kontinental" supermarketlər şəbəkəsi sayəsində "Nurgün" şirkəti Azərbaycan bazarında ərzaq mallarının ilk distribütorlarından və dilerlərindən biri olmuşdur. "Kontinental" supermarketlər şəbəkəsi Azərbaycanda premium seqmentə malik ilk və yeganə supermarket şəbəkəsidir. Şirkətlər qrupunun mühüm tərkib hissələrindən biri müxtəlif məhsulların topdansatışı üzrə ixtisaslaşmış "Nurgün Trading" şirkətidir. Hal-hazırda şirkətin 3000-dən artıq mağazanı əhatə edən, distribütor şəbəkəsi mövcuddur.

"Nurgün" Sirkətlər Qrupu "Nestle" ("NAN", "Nido", "Milkmaid", "Nescafe Classic", "Nescafe Gold", "Nescafe 3x1", "CofeMate", "Kakao Nesquik", "Maggi" bulyonları), "BAR-S", "Krings", "Granini", "Vaihinger", "Perrier", "Vittel", "S.Pelleqrino", "Budweiser", "Holsten", "Les Grands Chais" kimi markaların Azərbaycan Respublikasında eksklüziv distribütorudur.

"Nurgün" Sirkətlər Qrupuna daxil olan "Kaspian Transport" MMC 2004-cü ildən beynəlxalq yükdaşımaları bazarında aktiv fəaliyyət göstərir. Fəaliyyətə başladığı ilk gündən etibarən, şirkət əsasən avtomobillərin daşınması üzrə ixtisaslaşdırılmışdır. Bu sahədə liderlik edən "Kaspian Transport" şirkəti, 2008-ci ilin yekunlarına və avtoparkın həcminə görə Azərbaycan Respublikasında, demək olar ki, ən böyük avtomobil daşıyıcısıdır. Belə ki, hal-hazırda şirkət avtoparkı ən müasir texniki parametrlərə malik və EURO 4 standartlarına cavab verən "Ford Cargo 1830" markalı yükdaşıyan (TIR) və konteyner daşıyan avtomaşınlardan ibarətdir.

"North-West İnternational LLC" Şirkətinin Azərbaycan Nümayəndəliyi – 2001-ci ildən etibarən ABŞ-ın "North-West İnternational LLC" şirkətinin nümayəndəliyi kimi fəaliyyət göstərir. Azərbaycanda ən müasir plastik qapı və pəncərə sistemlərindən biri sayılan "Laoumann" sisteminin və "ALPROF" brendi adı altında istehsal olunan alüminium profillərin tanınmış istehsalçısıdır. "North-West İnternational LLC" şirkətinin Azərbaycan nümayəndəliyi plastik qapı və pəncərə sistemlərini "Techno-Plast" firmasının 5-ci nəsil istehsalı olan 5 ən yeni avadanlığında müasir texnologiyalar, yüksəkkeyfiyyətli xarici xammal və xüsusi əlavələrdən kompleks istifadə etməklə istehsal edir.

2006-cı ildən etibarən isə ABŞ-ın "North-West İnternatio-







nal LLC" şirkətinin Azərbaycan Nümayəndəliyi "ALPROF" Azərbaycan-Türkiyə Birgə Məhdud Məsuliyyətli Cəmiyyətinin səhmlərini alaraq alüminium profillərin istehsalı sahəsində yeni bir səhifə açmışdır. İlk dəfə Azərbaycanda qapı və pəncərə sistemləri üçün alüminium profillərin istehsalına 2001-ci ildə təsis edilmiş "ALPROF" Azərbaycan-Türkiyə Birgə Məhdud Məsuliyyətli Cəmiyyəti başlamışdır. "ALPROF" brendi altında istehsal olunan mallar qısa zaman kəsiyində yerli bazarlarda öz yerini tutmuş və tədricən mövqeyini möhkəmləndirmişdir. Qapı və pəncərə sistemləri üçün alüminium profillərin istehsalının hələ formalaşma mərhələsində olduğu vaxtlardan "ALPROF" BMMC yerli bazarı bu qəbildən olan məhsullarla təmin edən ilk istehsalçılardandır.

Hazırda şirkətdə məhsulun istehsal həcmi ildə 3600 tona qədər artırılıb ki, bunun da 40%-i Ukraynanın Kiyev, Qazaxıstanın Atırau, Rusiyanın Volqoqrad, Rostov və Mahaçqala kimi şəhərlərinə ixrac olunur.

"Embawood" MMC – 1996-cı ildə Masallıda ilk istehsal sahəsi olaraq fəaliyyətə başlamışdır. 2000-ci ildə Xırdalanda şirkətin ikinci fabriki açılmış və Sumqayıtda da şirkətə məxsus fabrik fəaliyyət göstərir. Həmçinin, 2000-ci ildə "Embawood" şirkəti ev mebeli bazarından başqa özünün İdeal Dizayn adlı ofis mebeli brendini yaradaraq ofis mebeli bazarına daxil olmuşdur. 2005-ci ildə şirkət pərakəndə satışa başlamış və ilk mağazasını istifadəyə vermişdir. "Em-







bawood" şirkəti 2008-ci ildən başlayaraq xarici bazarlara daxil olmağa başlamışdır. Şirkət 2010-cu ildə ikinci ev mebeli brendi – Madeyranı, döşək brendi – Dolce Nocheni bazara çıxarmışdır.

Bu gün "Embawood"un Azərbaycan, Gürcüstan, Rusiya, İran, Türkiyə, Ukrayna, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Tacikistan və Qırğızıstan kimi ölkələr də daxil olmaqla 7 fabriki və 200-dən çox mağazası mövcuddur.

"İDEAL DİZAYN" – 2000-ci ildə "Embawood" MMC-nin ofis mebeli brendi olaraq yaradılıb və Azərbaycanda ofis mebelinin istehsalını və satışını həyata keçirir. Ümumiyyətlə, Embawood şirkətinin 3 brendi mövcuddur: "Embawood", "Madeyra" və "İdeal Dizayn". İlk 2 brend ev mebeli sektorunda fəaliyyət göstərirsə, "İdeal Dizayn" irihəcmli layihələri həyata keçirir və məhsul portfelində ofis mebelləri ilə yanaşı, eyni zamanda hotel, təhsil ocaqları, kafe, restoran, bar mebelləri mövcuddur.

"Embawood" şirkətinin hazırda Azərbaycan, Gürcüstan, Rusiya, İran, Türkiyə, Ukrayna, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Tacikistan və Qırğızıstanda fabrik, anbar və satış şəbəkələri mövcuddur. Qapalı ərazilərinin cəmi sahəsi 60000 mI-dir.

Azərbaycanda Xırdalan, Masallı və Sumqayıt şəhərlərində 3 böyük fabriki fəaliyyət göstərir. "İdeal Dizayn" məhsullarının böyük hissəsi Xırdalan Mebel Fabrikində istehsal olunur. Fabrik 3 hektar ərazini əhatə edir və aylıq istehsal gücü 9000 dəstdir. Sumqayıt mebel fabrikində yarımfabrikatlar – dsp, mdf, hdf, dvp, Masallı mebel fabrikində ev mebelləri və yumşaq mebel dəstləri istehsal olunur.

Şirkətin fabriklərində "Holzma", "Homag", "İma", "Burkle", "Morbidelli", "Biesse" kimi dünya şirkətlərinin müasir avadanlıq və dəzgahlarından istifadə edilməklə postforminq, fiqurlu frezləmə və digər yüksək texnologiya tələb edən əməliyyatlar aparılır.

Ofis mebeli istehsalında istiyə, suya və zərbəyə davamlı melamin, laminat, pvc üzlüklü lövhələrdən istifadə edilir ki, bu da müştərilərin istək və ehtiyaclarının qarşılanması üçün çeşid çoxluğuna imkan verir.

Şirkət kütləvi istehsalla yanaşı, müştərilərin fərdi sifarişlərini də yerinə yetirir. Bu sifarişlərin





operativ olaraq zamanında və keyfiyyətli yerinə yetirilməsi üçün özəl istehsal xətti və peşəkar, işinə məsuliyyətlə yanaşan dizayn-konstruktor qrupu mövcuddur.

"İdeal Dizayn" layihələr üzrə zəngin təcrübəyə malikdir. İndiyə kimi dövlət və özəl strukturların, o cümlədən nazirlik, bank, maliyyə, hotel və şirkətlərin müxtəlif həcmdə layihələrində iştirak etmiş və açar təslimini müvəffəqiyyətlə reallaşdırmışdır. Layihələr ideya, layihələndirmə planının hazırlanması, tətbiq və tamamlama prosesləri daxil olmaqla 4 mərhələdə kompleks şəkildə işlənib həyata keçirilir.

"İdeal Dizayn" üçün keyfiyyət ən mühüm göstəricidir. Tətbiq edilən yeni keyfiyyət sistemi istehsal prosesi zamanı çatışmazlıqların tamamən aradan qaldırılması istiqamətində çox mühüm addımlardan biridir. Belə ki, keyfiyyətə nəzarət xammaldan son məhsul alınana kimi aparılan bütün proseslərdə mərhələli şəkildə həyata keçirilir. Əgər hər hansı bir prosesdə detalda nöqsan aşkarlanarsa, həmin detal "keyfiyyət zonası"na ötürülür, aradan qaldırılması mümkün olduqda, problem həll edilir və detal istehsal prosesinə qaytarılır, nöqsanın aradan qaldırılması mümkün olmadıqda o istehsal prosesindən çıxarılır, yenisi ilə əvəzlənir. Şirkət son olaraq 2011-ci ildə "Moody International Ltd" tərəfindən audit olunub və ISO 9001:2008 sertifikatına, Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən uyğunluq sertifikatlarına layiq görülüb.

"İdeal Dizayn" ofis mebelləri satışında çeşid çoxluğuna malikdir. Rəhbər dəstləri, menecer dəstləri, işçi qrupları, operativ mebel dəstləri, kürsü, stul və yumşaq mebellər yerli fabriklərdə istehsal olunmaqla yanaşı Türkiyə və Avropanın tanınmış ofis mebeli istehsalçılarından da idxal olunur.

"İdeal Dizayn" məhsullarına bir il müddətində zəmanət verir və konsultasiya, çatdırılma, quraşdırılma, montaj və satışdan sonra xidməti öz müştərilərinə ödənişsiz olaraq həyata keçirir.

Pulsuz konsultasiya – Məkanın tam dizayn tərtibi üzrə menecer və dizaynerlərin konsultasiyası pulsuz olaraq aparılır. Dizayner-menecer qrupu ofisə baş çəkərək mebel və avadanlıqların yerləşdirilməsi üçün iki və ya üç ölçülü qrafikada professional eskiz variantların hazırlanmasını həyata keçirib müştərinin daha uyğun və üstün hesab etdiyi seçimi reallaşdırmaqda ən yaxın köməkçi rolunu oynayır.

Pulsuz çatdırılma və quraşdırılma – Məhsulların çatdırılması və quraşdırılması Bakı və Sumqayıt ərazisində pulsuz həyata keçirilir. "İdeal Dizayn" müştərilərinə tərəfdaş gözü ilə baxdığından məhsulu təkcə satmaqla işini bitmiş hesab etmir, eyni zamanda onun ünvana çatdırılaraq quraşdırılması lazımi şəkildə təşkil olunur. Müştərilərin sifarişi əsasında Azərbaycanın hər bir bölgəsinə çatdırılma həyata keçirilir.

Satışdan sonra xidmət – Müştərilərinə zəmanət şərtləri daxilində "İdeal Dizayn"ın satışdan sonra xidmət qrupu fəaliyyət göstərir. Satışdan Sonra Xidmət (SSX) qrupu müştərilərin müraciəti əsasında ünvana baş çəkərək yaranmış problemin tam aradan qaldırılmasını həyata keçirir.

"M-Line" MMC – 2011-ci ildə fəaliyyətə başlamışdır. Dövlətin güzəştli krediti və şirkətin vəsaiti hesabına inşa olunmuşdur. Fabrikin ümumi dəyəri 7,8 milyon manatdır ki, bunun 55 faizini güzəştli dövlət krediti təşkil edir. Müəssisədə mebel istehsalı







və dizaynı sahəsində ən son texnoloji yeniliklər tətbiq edilmişdir. Fabrikdə müştərilərin zövqünə tam cavab verməklə istənilən növdən olan yüksəkkeyfiyyətli məişət, ofis, muzey, xəstəxana, mehmanxana, təhsil müəssisəsi və digər inzibati binalar üçün istehsal edilən mebellər daxili və xarici bazar üçün nəzərdə tutulmuşdur. Müştərilər mebelləri hazır model cərgəsindən və ya fərdi sifariş əsasında seçə bilərlər. "M-Line" mebel fabrikində tətbiq olunan keyfiyyətə nəzarət sistemi mebel istehsalında istifadə edilən materialların və hazır məhsulların davamlılığını və uzunömürlülüyünü təmin edir. Fabrikdə təbii ağacdan, MDF-dən, laminəedilmiş MDF-dən, təbii və süni şpondan boyalı və laklı mebellərin istehsalı nəzərdə tutulmuşdur. Xammal Braziliya, Almaniya, Avstraliya, Kanada və digər ölkələrdən gətirilir. Fabrikdə quraşdırılan Almaniya və İtaliya istehsalı olan avadanlıq mebel istehsalında ən son texnologiyalara əsaslanır. Fabrikdə ilk dəfə olaraq aylıq istehsal gücü 18-20 min kvadratmetr olan poliuretan üzlük materiallarının istehsal xətti quraşdırılmışdır.

Şirkət İSO 9001-2008 Beynəlxalq İdarəetmə və Azərbaycan istehsal standartlarına malikdir. Burada İtaliyanın "Galletti" firmasının istehsalı olan havalandırma və tam avtomatlaşdırılmış yanğınsöndürmə sistemləri quraşdırılmış, 600 kubmetr həcmində yeraltı su anbarı tikilmişdir.

Fabrikdə sifarişlərə uyğun olaraq əllə işlənmiş mebellər də hazırlanır. Burada həmçinin keyfiyyət nəzarət masası da yaradılmışdır. Mebellər bazara həm xarici, həm də yerli adlarla çıxarılır.

"AZMDF" Zavodu – Abşeron rayonu ərazisində yerləşən zavodun açılışı 2011-ci il fevralın 21-də olmuşdur. Mebel hazırlanmasında geniş istifadə edilən MDF materialların istehsalında xammal – ağac materialları Rusiyadan gətirilir. İndiyədək dünyanın müxtəlif ölkələrindən idxal edilən MDF materialları artıq Azərbaycanda ən yüksək keyfiyyətlə istehsal olunur. Zavodda Almaniyanın "Siemens"





və Yaponiyanın "Mitsubishi" şirkətlərinin idarəetmə proqramları ilə təmin olunmuş müasir texniki avadanlıq quraşdırılmışdır. Keyfiyyətli məhsulun əldə olunması üçün müəssisədə ən son mikrobioloji, fiziki-kimyəvi avadanlıqla təchiz olunmuş laboratoriya fəaliyyət göstərir. Zavodda kimyəvi-bioloji prosesləri həyata keçirən 3 min kubmetr həcmində xüsusi sutəmizləyici qurğu quraşdırılmışdır. Müəssisənin elektrik təchizatı üçün 100/10/0,4 kilovatlıq yarımstansiya fəaliyyət göstərir. Zavodun istehsal gücü ildə 85 min kubmetr plitə təşkil edir. Bu isə o deməkdir ki, "AZMDF" MDB məkanında və qonşu dövlətlər arasında bu profilli ən böyük zavoddur. Zavod tam istehsal gücünə çatdıqda müəssisədə 500 işçi çalışacaqdır.

"NAA AGROTARA" MMC – Azərbaycan bazarında meyvə, tərəvəz və digər məhsulların saxlanması üzrə aparıcı soyuducu-anbar bazası olaraq fermerlərdən və ticarət şirkətlərindən 5 min tondan artıq məhsul qəbul edərək anbar xidmətləri göstərir. Adi soyuducu kameralarından başqa, anbar ərazisində alma, üzüm, xurma və narın saxlanması üçün xüsusi təchiz olunmuş kameralar vardır. Bu kameralarda tətbiq olunan müasir texnologiyalar məhsulların 12 ayadək saxlanmasına imkan verir.

Azərbaycan İnvestisiya Şirkəti və Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası tərəfindən təsis edilmiş Xəzər Beynəlxalq İnvestisiya Şirkəti müəssisəyə 5,5 milyon manat investisiya qoyaraq "NAA Agrotara" MMC-





nin 36 faiz payçısı olmuşdur.
Şirkətin bir çox rayonlarda meyvə qurudulması və emalı müəssisələri fəaliyyət göstərir. Samuxda yaradılmış müəssisədə ildə 1500 ton meyvə və tərəvəz, o cümlədən göyərti qurutmaq mümkündür. Qurudulmuş məhsullar yüksək keyfiyyəti, təbii olması ilə seçilir.
1996-cı ildə təsis edilmiş **"Avesta" Konserninə** tikinti, infrastruktur layihələrini həyata keçirən "İlkan" MMC, "Günel Ltd" MMC, "Həsən-96" MTK, "Azər-Ross" MTK və digər müəssisələr daxildir. Hotel, ofis,



yaşayış binalarının tikilib istifadəyə verilməsi sahəsində zəngin təcrübəyə malikdir.
Konsernin prezidenti İbrahimov İbrahim Hüseyn oğlu (1958) Naxçıvan MR Babək rayonunun Nehrəm kəndində anadan olub. 1982-ci ildən əmək fəaliyyətinə başlamış və müxtəlif illərdə elektroenergetika sektorunda texnoloq, böyük mühəndis, təchizat üzrə iqtisadçı, habelə kənd təsərrüfatı sahəsində briqadir, "Qərənfil" kooperativinin sədri olmuşdur.
1995-ci ildə Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat fakültəsini bitirib. İqtisad üzrə fəlsəfə doktorudur (2012). 1995-2000-ci illərdə Naxçıvan MR Ali Məclisinin deputatı seçilmiş, parlamentdə məqsədyönlü fəaliyyət göstərmişdir.
Rəhbərlik etdiyi "Avesta" Konserninin dünyanın bir çox ölkələri – Rusiya, Türkiyə, İran, Polşa, Çexiya, Çin, Koreya, Birləşmiş Ərəb Əmirlikləri ilə iqtisadi əlaqələri mövcuddur.
Azercell Telekom MMC 1996-cı ildə təsis edilmişdir. Fəaliyyətinin ilk illərindən etibarən Azercell bazarda lider möv-





Azercell Telekom MMC-nin inzibati binası


Azercell








Azercell
4G
inkişafda


HP IT Club
Certificate of Appreciation
Azercell Telecom
Converged Infrastructure Solution
HP Azerbaijan
2013
Certificate of Appreciation
AZERCELL
Converged Infrastructure Solution
Azercell




Sürəti hiss et!



"Azercell"in mövcud əhatə dairəsi

Cədvəl 1

Abonentlərin sayı

İl	Cəmi
1997	20371
1998	55831
1999	179640
2000	380857
2001	519346
2002	668598
2003	912137
2004	1308640
2005	1706158
2006	2333387
2007	2800007
2008	3520198
2009	3600000
2010	3850000
2011	4250000

qeyini saxlamaqdadır. Azercell TeliaSonera-nın bir hissəsidir. TeliaSonera 2002-ci ilin dekabr ayında İsveçin Telia şirkəti ilə Finlandiyanın Sonera şirkətlərinin birləşmələri nəticəsində yaranmışdır. Hazırda Avrasiyanın ən böyük və ən güclü potensiala malik olan beynəlxalq telekomunikasiya şirkətlərindən biridir. "Azercell Telekom" MMC-in prezidenti Ali Ağandır.

Azercell Azərbaycana bir sıra innovativ texnologiyaları və konsepsiyaları gətirmişdir: GSM texnologiyası, GPRS/EDGE, 24/7 Telefon Mərkəzi, tam xidmət göstərən Azercell Ekspres ofisləri, "BlackBerry® Solutions" məhsulu və s.

İlk mobil rabitə xidməti Fakturalı Xətt Sistemi əsasında qurulmuşdur. 1998-ci ildə Azercell dünya telekommunikasiya sektorunda abonentlərin istifadəsinə öncədən ödəmə sistemini (Sim-Sim) təklif edən ilk şirkətlərdən biri oldu.

Hazırda 4000000-dan çox abonenti olan Azercell ölkə əhalisinin 99,8 %, ölkə ərazisinin isə 80%-ni (20% işğal olunmuş əraziləri çıxmaq şərti ilə) əhatə edir. Şirkətin rabitə bazarındakı payı 60% təşkil edir. Bakı metropoliteni də Azercellin xidmət zonasına daxildir. Ölkənin Gəncə, Naxçıvan, Quba, Şəki, Masallı, Sabirabad və Sumqayıt kimi iri şəhərlərində Azercellin regional nümayəndəliyi açılmışdır. 2008-ci ildə Azercell Telekom 151 ölkənin 383 operatoru ilə rouminq sazişi imzalamışdır.

Azercell Telekom İSO 10002: 2004 beynəlxalq standartına uyğunluq IIP (Investors In People) – İnsanlara Sərmayədar (İS) standartı üzrə sertifikatlarının sahibidir və MDB məkanında ilk şirkət olaraq Gümüş Sertifikat əldə edib.

Azercell 2011-ci il ərzində Azərbaycanda telekommunikasiyanın inkişafına təqribən 170,2 milyon dollar vəsait yatırıb. Uzun illərdir Azərbaycanın qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Azercell 15 il ərzində bu istiqamətdə 1 milyard 55 milyon dollara yaxın vəsait sərf edib. Qeyri-neft sektorunda həm də ən böyük vergi ödəyicilərindən olan Azercell 2011-ci ildə dövlət büdcəsinə 136 milyon ABŞ dolları (15 ildə cəmi 1 milyard ABŞ dolları) həcmində vergi ödəyib. 2011-ci il üçün Azercell ödəmələrinin büdcədə xüsusi çəkisi təqribən 1,85 % təşkil edib.

Azercell özünün əsas kapitalı saydığı insan resurslarına 2011-ci ildə 2 milyon ABŞ dolları (15 ildə cəmi 13,2 milyon) həcmində sərmayə yatırıb.

Fəaliyyətinin əsas prioritetlərindən birini təşkil edən sosial layihələrə 2011-ci ildə şirkət tərəfindən 1,2 milyon ABŞ dolları (15 ildə cəmi 15,9 milyon) məbləğində vəsait xərclənib.

2011-ci ildə Azercell Avropa Biznes Assambleyasının (EBA) təsis etdiyi nüfuzlu Socrates mükafatına layiq görüldü və Beynəlxalq Biznes Mükafatı (International Business Awards – Stevie) qaliblərinin siyahısında yer aldı. Şirkət həm də xidmət sahəsində nüfuzlu keyfiyyət sertifikatı sayılan EN15838 Müştərilərlə Əlaqə Mərkəzi (*Customer Contact Center*) nişanını alan regionun ilk özəl şirkəti oldu (bax: cədvəl 1).

"AZVİRT" MMC – 1995-ci ildə yaranmışdır. Fəaliyyət göstərdiyi ilk gündən müasir texnologiyalardan istifadə etməklə topladığı çoxillik təcrübədən yararlanaraq, habelə yüksək peşəkarlıq sayəsində "AzVirt" MMC tezliklə Azərbaycanın ən etibarlı şirkətlərindən birinə çevrilmişdir. Şirkətin xidmətləri sırasına avtomobil yollarının və təyyarə limanlarının tikintisi, təmiri və yenidənqurulması, körpü tikintisi və təmiri, yolinşaat materiallarının istehsalı,



layihələndirmə işləri və s. daxildir. "AzVirt" MMC yüksək ixtisaslı kadr potensialına malikdir. Cəmiyyətin apardığı elmi-praktik araşdırmalar nəticəsində Azərbaycanda ilk dəfə olaraq şirkət qırmadaş-mastikalı və polimerli asfalt-beton qarışığını tətbiq edir. Şirkət məhsuldar və dünya standartlarına cavab verən asfaltqarışdırıcı qurğulardan, daşdoğrayan-çeşidləyən qurğudan, xarici ölkə istehsalı olan asfaltdöşəyənlərdən, vərdənlərdən, yol frezlərindən, bitumdaşıyan, sementdaşıyan maşınlardan, yükləyicilərdən və s. avadanlıqlardan ibarət olan güclü maşın-mexanizm parkına malikdir.

1999-cu ildə şirkət tərəfindən yeni aerovağzal kompleksinə aparan estakadada yüksək keyfiyyətli yol çəkilmiş, habelə komplekse giriş yolları və aeroportlarda xüsusi tip avtonəqliyyatların hərəkəti üçün yollar tikilmişdir. Ümumiyyətlə, "AzVirt" MMC ölkədə, ilk növbədə paytaxt Bakıda ən keyfiyyətli yolların tikilməsində zəngin təcrübəyə sahibdir. 2004-cü ildə "AzVirt" MMC Böyük İpək Yolunun tərkib hissəsi olan "Şəmkir-Qazax avtomobil yolunun bərpası"na başlamış və 2006-cı il noyabrın 1-də həmin yolun rəsmi açılış mərasimi olmuşdur. "AzVirt" MMC "Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" çərçivəsində Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə hava limanının uçuş-enmə zolağının, perronun, yönəldici yolların və Gəncə-Qazax yolundan hava limanına asfalt-beton yolun yenidən qurulması işlərini 2006-





Lənkəran Beynəlxalq Hava Limanı (2006-2008)



Zaqatala Hava Limanı (2006-2008)



Heydər Əliyev Beynəlxalq Hava Limanında Yeni Aerovağzal Kompleksinin tikintisi,
Hava Nəzarət Qülləsinin tikintisi, Mövcud Aerovağzal Terminalının yenidən qurulması. (2011)

cı ildə başa çatdırmış, 2008-ci ildə Lənkəran hava limanının aerodrom ərazisini, Zaqatala hava limanını istismara vermişdir. Azərbaycan Respublikasının Prezidentinin "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün Tədbirlər Planı" və "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008-2013-cü illər üçün əlavə Tədbirlər Planı" haqqında xüsusi sərəncamlarına əsasən "AzVirt" MMC son illərdə "Bakı şəhəri, Əzizbəyov dairəsi – Heydər Əliyev Beynəlxalq Hava Limanı avtomobil yolunun yenidən qurulması" üzrə işləri başa çatdırmışdır. Tikilən 8-12 hərəkət zolaqlı yolun 4 zolağı əsas sürətli yol olaraq nəqliyyatın birbaşa hava limanına gediş-gəlişini təmin edir. Layihəyə əsasən yaşayış məntəqələri ərazisində nəqliyyatın daha rahat hərəkəti üçün Əzizbəyov dairəsindən Sabunçu dairəsinədək 12 zolaqlı, Sabunçu dairəsindən hava limanınadək isə 8 zolaqlı yol tikilmişdir. Yolda hərəkətin tənzimlənməsi üçün yol kəsişmələrində 3 müxtəlif səviyyəli yolötürücünün – qovşaqların (Sabunçu qovşağı, dəmiryolu üzərindən körpü, Suraxanı qövşağı), 1 kanal üzərindən körpünün, neft borularının keçirilməsi üçün ümumi uzunluğu 120 m olan 6,0x2,5 m ölçülü yeraltı tunelin, 6 yerüstü və 1 yeraltı piyada keçidinin tikintisi həyata keçirilib. Yoldan yağış və qrunt sularının kənarlaşdırılması üçün ümumi uzunluğu 39500 pm olan müxtəlif diametrli drenaj boruları qoyulmuşdur. Başa çatdırılmış hava limanı və Binə yol



Qəbələ Beynəlxalq Hava limanı (2011)

qovşaqları istismara verilmişdir. Hava limanı qovşağı – 2 səviyyəli, tam "yonca yarpağı" tipli yol qovşağı olub, Zığ qəsəbəsi-hava limanı və Bakı şəhəri-Mərdəkan qəsəbəsi istiqamətlərində hərəkətlərin tamamilə təhlükəsiz və maneəsiz tənzimlənməsini həyata keçirir. Qovşaq yollarının ümumi uzunluğu 6757 m, körpünün konstruksiyası – gərginləşdirilmiş dəmir-beton, körpünün uzunluğu 127 m, eni 39,8 m-dir. Körpünün tikintisi üçün 1200 mm diametrli 2190 pm svay vurulmuş, 9303 m^3 beton qarışığı, 1270 ton müxtəlif diametrli armatur işlənilmişdir. 26 ha sahədə abadlaşdırma və qovşağın işıqlandırılması işləri həyata keçirilmişdir.

Binə qovşağı Binə qəsəbəsindən Bakı şəhəri və Mərdəkan qəsəbəsi istiqamətlərində olan hərəkətlərin maneəsiz tənzimlənməsi üçün tikilmişdir. Qovşaq yollarının ümumi uzunluğu – 3700 m, körpünün konstruksiyası – polad aşırımlı asma körpü, körpünün uzunluğu 95 m, körpünün eni 27,5 m, piyada yolunun eni 4 m-dir. Körpünün tikintisi üçün ümumi çəkisi 2200 tona yaxın polad qurğular, 8600 m^3 beton qarışığı, 870 ton müxtəlif diametrli armatur işlənmişdir. 8 ha sahədə abadlaşdırma və yaşıllaşdırma işləri aparılmış, müasir suvarma sistemi quraşdırılmış və qovşağın işıqlandırılması işləri həyata keçirilmişdir.

Mərdəkan yol qovşağı – körpü və tunel olmaqla üç səviyyəli yol qovşağıdır. Körpünün konstruksiyası – gərginləşdirilmiş dəmir-beton (asma tipli), körpünün uzunluğu 225 m, eni 23,5 m, tunelin ümumi uzunluğu 400 m, qapalı hissəsinin uzunluğu 55 m-dir. Körpü və tunelin tikintisi üçün 22000 m^3 beton qarışığı, 2615 ton müxtəlif diametrli armatur işlənilmişdir.

2012-ci ildə "Heydər Əliyev Beynəlxalq Hava Limanı–Bilgəh qəsəbəsi avtomobil yolu", Buzovna dairəsində tunel, Bu-

zovna dəmir yolu kəsişməsində müxtəlif səviyyəli yol qovşağının, habelə Bilgəh Kardiologiya Mərkəzinin qarşısında iki səviyyəli tuneltipli yol qovşağı istismara verilmişdir.

Hazırda "AzVirt" MMC "Heydər Əliyev Beynəlxalq Aeroportunda yeni uçuş-enmə zolağının, perronun, yönəldici yolların tikintisi", "Qəbələ hava limanının tikintisi", "Qəbələ-Ağdaş yolunun yenidənqurulması (km 0,0-22,0)", Serbiya Respublikasında E-763 avtomobil magistralının Ljig-Boljkovci, Boljkovci – Takovo və Takovo – Preljina hissələrinin inşası və s. mühüm layihələrin həyata keçirilməsi istiqamətində işləri davam etdirir.

Şirkətin uğurlu fəaliyyətində texnika elmləri doktoru, professor, professional mühəndis və təşkilatçı Əliyev Əli Musa oğlunun (1933) böyük xidmətləri var. O, Ermənistan Respublikası Vedi rayonunun Dəhnəz kəndində anadan olmuşdur. Atası Musa kişi Abbasqulu bəy Şadlinskinin "Qırmızı taboru"nda batalyon komandiri kimi mənfur erməni daşnaklarına qarşı mübarizə aparmışdır. 1937-ci ildə sovet hökuməti tərəfindən "xalq düşməni" adı altında tutularaq türməyə göndərilən Musa kişinin ailəsi Qazaxıstan Respublikasının Cambul vilayətinə sürgün edilmişdir.

Ə.Əliyev 1953-cü ildə Frunze Sənaye Texnikumunun "Şəhər yollarının və körpülərin tikintisi" fakültəsini bitirmişdir. Həmin il Qırğızıstan Respublikası Avtomobil Nəqliyyatı Nazirliyinin "Yolmühəndistikinti" trestində mühəndis-layihəçi, sonra-



professor Əli Əliyev

dan isə tikintinin baş mühəndisi vəzifəsində çalışmışdır. Ümumittifaq miqyasında ən böyük magistrallardan olan Frunze-Oş avtomobil yolunun, Narın çayı üzərində bir neçə körpünün, o cümlədən uzunluğu 99 m-ə çatan asma körpünün və uzunluğu 2,4 km olan tunelin tikintisində fəal iştirak etmişdir.

1965-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. 1972-ci ildə Bakı şəhərində yeni yaradılmış "Xüsusiləşdirilmiş yol tresti"nə rəis təyin edilmişdir.

1973-cü ildə "Aktivləşdirilmiş mineral tozlu asfalt-betonların tədqiqi" mövzusunda namizədlik, 1984-cü ildə isə "Asfalt-betonun regenerasiyası" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Professor Ə.M.Əliyevin təklif etdiyi aktivləşdirilmiş mineral tozlardan istifadə etməklə asfalt-beton qarışıqlarının hazırlanması üzrə yeni texnologiya hazırda bir sıra MDB ölkələrində avtomobil yollarının və aerodromların uçuş-enmə zolaqlarının tikintisində geniş tətbiq olunur.

1985-ci ildə istehsalatdan ayrılmadan Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun "Avtomobil yolları, körpü və tunellər" kafedrasında pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. 1989-cu ildə professor alimlik dərcəsi almışdır. Professor Ə.M.Əliyev hazırda Ali Attestasiya Komissiyasının ekspert şurasının üzvüdür. Onun rəhbərliyi altında "Azərbaycan Respublikasında asfalt-beton örtüklü yol və aerodrom geyimlərinin tikintisi üzrə rəhbərlik" texniki-normativ sənədi hazırlanmış və Dövlət Tikinti və Arxitektura Komitəsi tərəfindən təsdiq edilmişdir.

Bir çox xarici ölkələrin nüfuzlu mükafatlarına layiq görülmüşdür. 2004-cü ildə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının vitse-prezidenti, 2006-cı ildə Bolqarıstanın paytaxtı Sofiya şəhərində yerləşən Avropa Mədəniyyət Akademiyasının akademiki seçilmişdir.

2005-ci ildə Qırğızıstanda professor Ə.M.Əliyevin şərəfinə Narın çayı üzərində vaxtilə onun iştirakı ilə salınmış ən böyük körpülərdən birinə "Qırğızıstan-Azərbaycan Dostluq Körpüsü" adı verilmiş və körpünün üzərinə xatirə lövhəsi vurulmuşdur. 80-dən çox elmi əsərin, o cümlədən 3 monoqrafiyanın müəllifidir.

Azad bazar münasibətləri təkmilləşdikcə sahibkarlıq fəaliyyəti getdikcə daha çox sahələri əhatə edir. Dünyanın bir sıra ölkələrində olduğu kimi, Azərbaycanda da özəl atçılıq təsərrüfatları fəaliyyət göstərir.

AzMeCo şirkəti Bakıda Qaradağ rayonunda metanol zavodu

tikib istifadəyə verib. İlk vaxtlar zavod 60% istehsal gücü ilə işləməyə başlamışdır. Lakin artıq 2013-cü ilin mart ayında onun istehsal gücünü ildə 720 min ton metanola çatdırmaq planlaşdırılır ki, bu da 100% istehsal gücü deməkdir. Zavod Johnson Matthey şirkətinin mülkiyyəti olan ICI ingilis texnologiyaları əsasında tikilib. İstehsal prosesi bütövlükdə avtomatlaşdırılıb və Honeywell amerika şirkətinin IT texnologiyaları əsasında idarə olunur. Zavodda üçqat müdafiə sistemi mövcuddur.

Metanol istehsalı ekoloji baxımdan ən təmiz məhsul hesab olunur. Belə ki, onun tullantıları nə atmosferə, nə də kanalizasiya sisteminə axıdılmır. Metanol istehsalı zamanı maye qaza su əlavə olunur. Hətta atmosferə buraxılan karbon qazı da metanol istehsalında xammal kimi istifadə olunur. İstehsal olunmuş metanol kimyəvi məhsuldur. Hazırda bir çox xalq təsərrüfatı malları metanoldan hazırlanmışdır. Samsung, Sony, Toshiba kimi şirkətlər mobil telefonların istehsalı zamanı ondan istifadə edirlər. Son 10 ildə dünyada metanol istehlakı 2 dəfə artmışdır. Metanol dünyanın alternativ enerji mənbəyidir. 2020-ci ildə Çində 220 metanol zavodu fəaliyyət göstərəcək. Hazırda Avropada keyfiyyətin yüksəldilməsi məqsədilə benzinə 3% metanol əlavə edirlər. Bu benzinin oktan əmsalını artırmış olur.

Bakıda metanol zavodu 20 ha ərazini əhatə edir. Hazırda bu ərazidə bir zavod tikilib, sonra isə bir neçə kiçik və orta istehsallar yaradılacaq. Bu Azərbaycanda kiçik və orta biznesin inkişafına təkan verəcək. AzMeCo Sumqayıt texnoparkının ərazisində metanoldan xammal kimi istifadə edəcək zavod tikməyi planlaşdırır. Metanoldan həm daxili tələbat üçün, həm də ixrac məqsədilə istifadə etmək olar. Müqayisə üçün qeyd edək ki, hazırda Türkiyə ildə 500 min ton, İtaliya 800 min ton, Çin isə 35-40 mln. ton metanol istehlak edir. Artıq BP, Statoil, Mitsubishi, Mitsui və digər tanınmış şirkətlər zavodun məhsulunu əldə etmək istədiklərini bildirmişlər. Şirkət Qazaxıstan və İrakda da analoji zavodların istifadəyə verilməsini nəzərdə tutur.

Şirkətin rəhbəri Nizami Nəsib oğlu Piriyevdir (1958). O Rusiyada Qazpromun bir hissəsi olan StroyTransQazOilda baş direktor işləyib. 2006-cı ildə Azərbaycana qayıdaraq AzMeCo şirkətini yaradıb. Bununla yanaşı, bir sıra ölkələrdə layihələr həyata keçirməkdədir. Avropa İqtisadiyyat, Sənaye və Ticarət Palatasının Azərbaycan Nümayəndəliyinin prezidentidir.



Royal Pegasus Azerbaijan – 2011-ci ilin mart ayından Azərbaycan Atçılıq Klubu belə adlandırılmağa başlanmışdır. Hazırda şirkət atçılıq sənayesi





“ROYAL PEGASUS AZERBAIJAN” klubunun beynəlxalq yarışlarda qalib olmuş atları məşq meydanında

üzrə nəinki ölkəmizdə, həmçinin bütün MDB məkanında liderdir.

2000-ci ildə Bakı şəhəri ərazisində fərdi sahibkar Məmmədmirzə Hüseynov (1958, 11 may) tərəfindən Azərbaycan Atçılıq Klubu yaradılmışdır. Klubun yerləşdiyi ərazidə həmçinin Atçılıq zavodu fəaliyyətə başlamışdır. Bu məqsədlə atçılıq sahəsində təcrübəsi olan professional mütəxəssislər cəlb olunmuşlar. Klubun yaradılmasında məqsəd Azərbaycanda ingilis, ərəb, axaltekin cinsli atların yetişdirilməsidir. Yarandığı gündən etibarən bütün dünyada tanınmış at cinslərinin yetişdirilməsi üçün klubda baza formalaşdırılmışdır. Azərbaycan atçılıq zavodunun əsasını atçılıq sənayesi üzrə inkişaf etmiş Rusiya, ABŞ, Fransa, İngiltərə, Almaniya, Türkiyə, Argentina kimi ölkələrin madyanları, Seattle Slew, Secretariat, Storm Cat, Dynaformer, Street Cry, Smart Strike, Gulch, A.P. Indy və s. kimi cins at ailələrinin nümayəndələri təşkil edir. Klub hər il dünya atçılıq sənayesi sahəsində lider ölkələr olan ABŞ, Fransa, İngiltərə, İrlandiyanın at torqlarında iştirak edir. Bununla yanaşı, cins atlar yetişdirmək üçün Rusiyadan ərəb və axaltekin madyanları gətirilir. 2002-ci ildə klub ərəb atları yetişdirdiyi üçün dünya ərəb atları təşkilatının (WAHO) konfransında iştirak etmişdir. Həmin konfransda klub təşkilata üzvlük haqqında ərizə ilə müraciət etmiş və nadir hallardan biri kimi ilk cəhddən qəbul edilmişdir. 2004-cü ildə klub dünya cins ingilis atları təşkilatının, 2005-ci ildən isə IFHA beynəlxalq təşkilatının üzvüdür. Beləliklə, 2002-ci ildən başlayaraq klub beynəlxalq forumlarda iştirak edir və dünya atçılıq sənayesində lider olan Rusiya, ABŞ, Fransa, İngiltərə, Almaniya, Türkiyə və s. ölkələrin jokey klubları ilə sıx əlaqə saxlayır. 2005-2008-ci illərdə klub mütəmadi olaraq Azərbaycanı Rusiyada at yarışlarında təmsil etmişdir. Belə ki, 2005-ci ildə klubun Sweet Mistress atı (məşqçi Yaqub Musayev) 6-cı, 2006-cı ildə Eşkiya adlı at (məşqçi Yaqub Musayev) 1-ci, 2007-ci ildə Avşar bəy adlı at (məşqçi Yaqub Musayev) 7-ci, 2008-ci ildə Kader Fırtınası adlı at (məşqçi Hüseyn Zamanov) 2-ci olub. 2004-2010-cu illərdə ABŞ-dan 18 cins at gətirilmiş və həmin atlar 2008-ci ildən etibarən Bakıda keçirilən bütün at yarışlarının qalibi olmuşlar. Həmin atlar Seattle Slew, Secretariat, Storm Cat, Dynaformer, Street Cry, Smart Strike, Gulch və s. kimi məşhur istehsalçıların cins atları olmaqla Kentuki ştatının Kinland auksionunda əldə edilmişdir.

ÖZƏLLƏŞDİRMƏ (lat. privatus – şəxsi, xüsusi) – dövlət mülkiyyətinin şəxsi (hüquqi və fiziki) əllərə verilməsi; milliləşdirmənin əksi (bax: cədvəl 1, sxem 1, 2, 3, 4).


ÖZƏLLƏŞDİRMƏ ÇEKİ – dövlət nümunəli qiymətli kağız. Bu çeklər özəlləşdirmə obyektlərinin alınması zamanı tədiyə vasitəsi kimi tətbiq edilir.

Azərbaycanda özəlləşdirmə çekləri nominalı olmayan qiymətli kağızlardır. Bir özəlləşdirmə payı 4 çekdən ibarətdir. Bu çeklər özəlləşdirmə üçün nəzərdə tutulan dövlət müəssisələrindən pulsuz pay almaq hüququ verir. Rusiyada özəlləşdirmə çeki həmin vauçeri özəlləşdiriləcək müəssisənin səhmləri ilə dəyişdirilməsi yolu ilə özəlləşdirmə prosesində iştirak etmək hüqu-

Cədvəl 1

Özəlləşdirmə

MƏQSƏDLƏR	FORMALARI	METODLARI
Mülkiyyət institutunun və mülkiyyətçilər təbəqəsinin yaradılması	Ödənişsiz	Pay çekləri vasitəsi ilə özəlləşdirmə (vauçer)
		Şəxsi hesablar vasitəsi ilə özəlləşdirmə
	Qismən ödənişli	Alış hüquqlu icarə
		Hərrac
	Ödənişli	Tender
		Məqsədli satış
		Müxtəlif elementli qarışıq variantlar


Özəlləşdirmənin məqsədləri
Bazar iqtisadiyyatlı ölkələr
Dövlət sektoru borclarının azaldılması
Bazarın inkişaf etdirilməsi
Sahibkarlığın stimullaşdırılması
Fərdi azadlığın genişləndirilməsi
Xalq kapitalizminin inkişafı
Həmkarların zəiflənməsi
Yeni müstəqil dövlətlər
Fərdi sahibkar-mülkiyyətçilər təbəqəsinin formalaşdırılması
Müəssisələrin fəaliyyət sə-mərəliyinin yüksəldilməsi
Rəqabət mühitinin yaradılması
İqtisadiyyatın anti-inhisarlaşmasına və ölkədə maliyyə vəziyyətinin stabilləşməsinə dəstək
Xarici investisiyaların cəlb edilməsi
Əhalinin sosial müdafiəsi, özəlləşdirmədən əldə olunmuş vəsaitin hesabına sosial infrastruktur obyektlərinin inkişaf etdirilməsi.

Sxem 1



Sxem 2

quna yazılı şəkildə təminat verən şəhadətnamədir. İxtisaslaşdırılmış investisiya müəssisələri (çek investisiya fondları) vauçerlərlə dəyişdirilmiş səhmlər üzrə dividendlər şəklində gəlir əldə edir və öz səhmdarlarına dividend ödəyirlər.


ÖZƏLLƏŞDİRMƏ ƏQDİ – qanunvericiliyə uyğun olaraq dövlət əmlakının satıcısı ilə alıcısı arasında bağlanılan alqı-satqı müqaviləsi.

ÖZƏLLƏŞDİRMƏ QİYMƏTLİ KAĞIZLARI – özəlləşdirmə zamanı dövlət əmlakının müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada özgəninkiləşdirilməsi məqsədi ilə buraxılan qiymətli kağızlar.


ÖZƏLLƏŞDİRMƏNİN OBYEKTİ – özəlləşdirilməsi qadağan dövlət əmlakı istisna olmaqla, ölkə ərazisində və onun hüdudlarından kənarda ölkənin dövlət mülkiyyətindəki əmlakı, dövlətin müştərək müəssisələrin nizamnamə fondundakı payı, dövlətə məxsus səhmlər, özəlləşdirilən müəssisələrin altında yerləşən torpaq sahələri.

ÖZÜMƏŞĞULOLAN – öz müəssisəsində (təsərrüfatlarında) işləyənlər və sərbəst ticarətlə məşğul olanların sayını xarakterizə edir. Əmək statistikasında istifadə edilən göstəricidir.

ÖZÜNÜ SIĞORTA ETDİRƏN – özünü sığortalamanı həyata keçirən fiziki və ya hüquqi şəxs. Özünü sığorta etdirənin təsərrüfat müstəqilliyi nizamnamə sənədləri ilə müəyyən olunur.



Sxem 3



Sxem 4

ÖZÜNÜ SIĞORTALAMA – müəyyən risklər nəticəsində mümkün zərərin örtülməsi məqsədilə müntəzəm ayırmalar hesabına sığortalı tərəfindən öz sığorta (ehtiyat) fondlarının yaradılması. Özünü sığortalama riskə məruz qalan bilavasitə hüquqi və ya fiziki şəxslərə natural və pul sığorta fondlarının yaradılmasının qeyri-mərkəzləşdirilmiş formasıdır, yaxud qısa mənada sığortalının öz üzərinə götürdüyü riskdir. Özünü sığortalama – sığorta edilən tərəfindən müntəzəm pul ayırmaları hesabına yaratdığı şəxsi sığorta (ehtiyat) fondlarının yaradılmasıdır.

ÖZÜNÜN TUTDUĞU MƏBLƏĞ – sığorta məbləğinin bir hissəsidir ki, bu həddər daxilində ilkin sığortaçı sığortalanmış risklərə görə məsuliyyət daşıyır.

ÖZÜNÜTƏNZİMLƏMƏ – iqtisadi sistemin normal fəaliyyətini pozan, müstəqil, xarici təsirlərsiz fəaliyyətin arzu olunan rejimini müəyyən etməyə, saxlamağa və xarici təsirlərə reaksiya verməyə imkan verən bu iqtisadi sistemdə onun ünsürlərinin, xassələrinin qabiliyyətinin mövcudluğu. Özünü tənzimləmə əks əlaqənin köməyi ilə əldə olunur, özünüqurma və özünütəşkiletmə formasında həyata keçirilir.

P

PAAŞE İNDEKSİ – həyat səviyyəsini saxlamaq üçün məsrəflərin dəyərini ölçmək məqsədilə nəzərdə tutulan qiymət səviyyəsinin göstəricisi (alman iqtisadçısı Q.Paaşenin soyadından götürülmüşdür). Müəyyən əmtəə dəstinin cari qiymətini bazis dövründə əmtəələr dəstinin müvafiq qiymətilə müqayisə etmək yolu ilə hesablanır. Bu zaman çəkilər kimi cari dövrün "istehlak səbəti"ndən istifadə olunur. Paaşe indeksinin hesablama metodikası "istehlak səbəti"nin dəyişməsinə yol verir (ona daxil olan əmtəələrin faktiki çəkiləri). Bahalaşan malların az bahalı mallarla əvəz edilməsi imkanına yol verilərkən, hesablama aparılanda aqreqatlaşmış qiymətlərə bu cür yanaşma ona gətirib çıxarır ki, malların qiymətləri qeyri-bərabər artdığı halda, Paaşe indeksi həyat dəyərinin artımını daha az əhəmiyyətli təqdim edir, burada baş verən rifah halının enməsi əks olunmur. Paaşe indeksi uzun müddət SSRİ-də əhalinin həyat dəyəri indeksinin hesablamaları üçün sovet statistikası tərəfindən istifadə olunurdu.

Paaşe qiymət indeksi


$$I_p = \frac{\sum p_1 q_1}{\sum p_0 q_1}$$

$\sum p_1 q_1$ – hesabat dövründə əmtəələrin faktiki dəyəri.

$\sum p_0 q_1$ – bazis dövrünün qiymətləri ilə hesabat dövründə satılmış əmtəələrin dəyəri.

PABLİK RİLEYŞNZ (ing. *public relations* – ictimai əlaqələr, ictimai münasibətlər, kütlə üçün hekayət) – yaranışı və inkişafı cəmiyyət qanunları, ictimai ənənə və tələblərlə şərtlənmişdir. İctimaiyyətə sosial lüzumlu, təbliğat xarakterli olmadan kommersiya və digər məqsədləri informasiya verən firma ilə cəmiyyət arasında idarə edilən kommunikasiya prosesidir. Firma ilə cəmiyyət arasında idarə edilən kommunikasiya prosesi kimi "Pablik Rileyşnz"

"Pablik Rileyşnz" anlayışına əsas yanaşmalar



Sxem 1



"Pablik Rileyşnz" anlayışına əsas yanaşmalar



Sxem 1

ictimaiyyətə sosial lüzumlu, təbliğat xarakterli olmayan, özünün fəlsəfi qayəsi, kommersiya və digər məqsədlər üçün informasiya kimi təzahür edir. Burada başlıca şərtlərdən biri də ictimaiyyətlə əlaqələrdə milli mentalitet elementlərinə uyğun olan əlaqələr sistemini yaratmaqdan ibarətdir. "Pablik Rileyşnz" çox zaman PR abreviaturasında qısa olaraq piar kimi də səsləndirilir.

PAPAVA VLADİMİR (1955) – gürcü iqtisadçısı; Gürcüstanın Strateji və Beynəlxalq Araşdırmalar Fondunun baş elmi işçisi; professor. 1978-ci ildə Tbilisi Dövlət Universitetini iqtisadçı kibernetik ixtisası üzrə bitirib. 1982-ci ildə SSRİ EA Mərkəzi İqtisadi-Riyaziyyat İnstitutunda namizədlik, 1989-cu ildə Tbilisi Dövlət Universitetində doktorluq dissertasiyasını müdafiə edib. 1997-ci ildən Gürcüstan Milli Elmlər Akademiyasının müxbir üzvüdür. Beynəlxalq Elmlər Akademiyasının, Nyu-York Elmlər Akademiyasının, Beynəlxalq İnformasiyalaşma Akademiyasının həqiqi üzvüdür. 2004-cü ildə "Makroiqtisadi qaydaların metod və modelləri" adlı silsilə elmi məqalələrə görə gürcü alimlərin bir qrupu ilə birgə Gürcüstanın Dövlət mükafatına layiq görülüb.



O, Paata Ququşvili adına İqtisadiyyat İnstitutunun baş elmi işçisi, Mərkəzi Asiya və Qafqaz İnstitutunun böyük elmi işçisidir. Postkommunist iqtisadiyyatı və Mərkəzi Qafqaz ölkələrinin iqtisadi inkişafı problemlərinə dair 200-dən artıq məqalənin müəllifidir. Bu məqalələr praktik təcrübəyə əsaslanır. 1994-2000-ci illərdə Gürcüstanın İqtisadiyyat naziri olarkən Papava pul islahatı, iqtisadiyyatın liberallaşdırılması, institusional dəyişikliklərin həyata keçirilməsində bilavasitə iştirak etmişdir. Gürcüstan hökumətinin üzvü və Dünya Bankının nümayəndəsi kimi BVF və Dünya Bankı ilə aparılan danışıqlarda bilavasitə iştirak etmişdir. 2004-2008-ci illərdə Gürcüstan parlamenti "Maliyyə və büdcə" Komitəsinin üzvü olub. O, "Vergilər nəzərə alınmadan iqtisadiyyat" modelinin, Nodar Xaduri ilə birlikdə "Gizli siyasi iqtisad nəzəriyyəsi"nin, vergi rüşvətxorluğu indekslərinin, "postkommunizmdən bazar iqtisadiyyatına keçid

üçün sosial fəaliyyət" metodunun, bərabərlik doktrinasının müəllifidir.

PARAFLAMA (ing. *paraphing*) – razılaşdırılmış mətnin axırında, bəzən onun hər səhifəsində tərəflərin nümayəndələrinin öz inisiallarının qoyulması yolu ilə müqavilənin mətnində əks olunan şərtlərə razılıqlarının təsdiqi forması.


PARALEL ƏQD – qarşılıqlı təsirdə olan iki müqavilənin mövcud olması ilə əlaqədar əmtəə mübadiləsi əməliyyatı. Həmin müqavilələrə əsasən, malın satıcısı müəyyən müddət ərzində qarşılıqlı alış əməliyyatı aparmağı öhdəyə götürür.

PARALEL İDXAL – elə vəziyyətdir ki, bu zaman idxalatçılar bir ölkənin distribütorlarından məhsulu alır və onu həmin istehsalçının adi bölgü sisteminin hissəsi olmayan digər ölkənin distribütorlarına satırlar. Belə vəziyyətin səbəbi müxtəlif ölkələrdə eyni məhsula olan qiymət fərqidir.

PARALEL İŞLƏMƏ – vaxtın qısaldılması məqsədi ilə istehsalçıları və hazırlayanları malın işlənməsi üzrə bir briqadada birləşdirmək.


PARETO QANUNU – gəlirin kəmiyyəti ilə onu alan şəxslərin sayı arasında nisbəti əks etdirən asılılıq. Gəlirlərin bölgüsü qanunu italiyalı iqtisadçı V.Pareto tərəfindən ifadə edilmişdir. Əgər X-ni bərabər və ya yuxarı, gəlirli insanların sayını N ilə işarə etsək, nisbəti $N=Ax\ x^{-m}$ tənliyi və ya ədəbiyyatda daha çox rast gəlinən $LgN=LgA-mlqx$ kimi göstərmək olar. Burada A və *m* tənliyin parametrləridir. *Abqc* gəlirlərin bölgüsü əyrisində (şəklə bax) baxılan asılılığa bqc əyrisinin sahəsi cavab verir. Burada istənilən perpendikulyarın uzunluğu, məsələn, *bd* gəliri 0*d*-dan çox və ya bərabər olan insanların sayını göstərir. Müxtəlif tarixi dövrlərdə bir sıra ölkələrin statistikasını öyrənərək, Pareto müəyyən etdi ki, bqc sahəsində əyrinin forması daimiliyi ilə fərqlənir, yəni gəlirlərin müəyyən kəmiyyətdən yüksək bölgüsü müəyyən çevikliyi saxlayır. Pareto 0*d* kəmiyyətindən aşağı gəlirlərin sahəsinə (uyğun statistik bölgünün olmaması ucbatından hesab edirdi ki, ab əyrisinin forması ancaq hipotetik xarakter daşıya bilər), həmçinin, ən yüksək gəlirlər sahəsinə qanunun fəaliyyətini yaymırdı. O bildirirdi ki, açıq qanunun əsasında sosial şərtlər deyil, təbii insan qabiliyyətlərinin qeyri-bərabər bölgüsü dayanır. Buradan qanunun təbii xarakteri haqqında və beləliklə, istənilən sosial dəyişikliklər

Gəlirli insanların miqdarı ≥ ox



Sxem 1

Pareto qanununun əsas mənası – 20% səy nəticəsində 80% nəticə



Qrafik 1

yolu ilə bölgü prinsipini dəyişmək haqqında nəticə yaranır.
Gəlir 0*x*-a bərabərdir və ya çoxdur.

PARETO PRİNSİPİ – italyan iqtisadçısı V.Paretonun prinsipidir. O təsdiq edirdi ki, işə həsr etdiyimiz vaxtın 80%-i ancaq 20% nəticə verir, qalan 20% isə 80% nəticə gətirir, amma əksər halda bu rəqəmlər 90 və 10%-ə çatır.
Bu rəqəm nisbəti onu sübut edir ki, iş vaxtının əksər hissəsi, bir qayda olaraq, əhəmiyyətsiz məsələlərin həllinə yönəlir. Və çox az vaxt hiss edilən nəticəni yaradan səmərəli işə ayrılır.
Bu prinsipin əsas müddəaları:
1) əhəmiyyətli amillər azdır, aktuallıq kəsb etməyən məsələlər isə çoxdur və ancaq təsadüf edilən hərəkətlər mühüm nəticələrə gətirib çıxarır;
2) səylərin əksər hissəsi arzu edilən nəticələr yaratmır;
3) adətən, gördüklərimiz əldə etdiklərimizdən fərqlənir, həmişə gizli qüvvələr mövcuddur;
4) qrup və ya fərdi hərəkətlər əksər hallarda əhəmiyyətsiz vaxt itkisini əks etdirir. Bu hərəkətlərin yerinə yetirilməsi heç cür arzu olunan nəticəyə nail olmağa yaxınlaşdırmır;
5) əksər uğurlu hadisələr az sayda yüksək istehsal qüvvələrinin işinin nəticəsi olur və xoşagəlməzliklərin əksəriyyəti əhəmiyyətsiz sayda pozucu qüvvələrin hərəkətlərinin nəticəsində baş verir.
Vaxtdan istifadə səmərəliliyinin artırılması üçün Pareto prinsipinin uçotu təcrübədə özünü çoxdan doğrultmuşdur, belə ki, o, hər kəsə 80% arzu olunan nəticənin alınması üçün həmin 20% cəhdə nəyin daxil olmasını müəyyən etməyə imkan verir. Səmərəli olmaq üçün vacib olmayan (qeyri-aktiv) öhdəlikləri yerinə yetirdiyiniz vaxtın 80-90%-ni ayırıb və onu aktiv olan, yəni məqsədyönlü nəticələrə gətirib çıxaran 20%-ə əlavə etmək lazımdır. Bu, zəruridir, ona görə ki, məhz vacib olmayan işlər insanın öz davranışını dəyişmək istəyinə mane olur.

PARETO VİLFREDO (1848-1923) – italyan iqtisadçısı, sosioloqu, publisist və siyasətçi-



si, siyasi iqtisadın Lozanna məktəbinin banisi. Parisdə italyan ailəsində anadan olmuş, Turin Universitetində riyazi və mühəndis təhsili almışdır.
1870-1890-cı illərdə Dəmir Yol SC-nin üzvü olmuş, 1877-ci ildən siyasi iqtisadla məşğul olmağa başlamış və "Adam Smit cəmiyyəti"ni yaratmışdır. 1882-ci ildə İtaliya Dəmir Yollar Cəmiyyətinin Baş direktoru təyin olunmuş, 1883-cü ildə "İstehsalatda bədbəxt hadisələrin baş verməsi ilə əlaqədar sahibkarların vətəndaş məsuliyyəti barədə" qanun layihəsinin təşəbbüskarı kimi çıxış etmişdir. Lozanna Universitetinin siyasi iqtisad professoru (1893-1906) olmuş, 1896-cı ildə ilk iri monoqrafiyası olan "Siyasi iqtisad kursu" kitabını nəşr etdirmiş, 1902-ci ildə isə onun "Sosialist sistemləri" monoqrafiyası çap olunmuşdur. 1916-cı ildə uzun illər üzərində işlədiyi "Ümumi sosiologiya traktatı" İtaliyada 2 cilddə çap edilmişdir. Onun nəzəriyyəsində təsərrüfat həyatının müxtəlif tərəflərinin kəmiyyət təhlilinə üstünlük verilir.
Müasirlərindən dərin biliyi, məsələlərə fəlsəfi və sistemli yanaşması ilə fərqlənən Pareto hesab edirdi ki, hər bir quruluş və cəmiyyətdə hər hansı bir insanın həyat səviyyəsinin yaxşılaşması cəmiyyətin, heç olmazsa, digər bir üzvünün həyat səviyyəsinin pisləşməsi hesabına əldə olunur. Beləliklə, iqtisadiyyatın optimal səviyyəsinə nail olunur. Bu müddəa iqtisadi ədəbiyyatlara "Pareto optimumu" adı ilə daxil olmuşdur.

PARETO-OPTİMAL YENİDƏN BÖLÜŞDÜRMƏ – ümumi qənaətbəxş güzəran nəzəriy-

Cədvəl 1

Borcu olan ölkələrin kateqoriyaları

➔ Ən yoxsul ölkələr: Toronto şərtləri
➔ Orta səviyyəli gəliri olan ölkələr arasında ən yoxsul ölkələr: Hyuston şərtləri
➔ Orta səviyyəli gəliri olan ölkələr arasında varlı ölkələr: Paris klubunun standart şərtləri
➔ İstisna: siyasi və digər amillərin nəzərə alınması ilə ayrıca hallarda ölkənin xarici borcu xüsusi şərtlər əsasında azaldıla bilər.

yəsi, gəlirlərin bir şəxsdən digərlərinə yenidən bölüşdürülməsi, nəticədə həm donor, həm də resipient razı qalır və səmərəlilik artır. Məsələn, donorun öz xeyriyyəçilik işindən razı qalması kimi.

PARİS KLUBU – kreditor-dövlətləri ("böyük səkkizlər", üstəgəl Avstriya, Niderland, Belçika, İspaniya, Norveç, İsveç, İsveçrə) birləşdirən beynəlxalq təşkilat; suveren borc alanlara kreditlərin şərtlərinin yenidən baxılması məsələlərini müzakirə etmək üçün kreditor ölkələrin qeyri-formal təşkilatıdır. Beynəlxalq Valyuta Fondu (BVF) ilə sıx əməkdaşlıqda fəaliyyət göstərir. Əgər hər hansı bir borclu dövlət iqtisadi çətinliklərə məruz qalaraq (xüsusilə, tədiyə balansının tarazlaşdırılması üçün) BVF himayəsi altında "sağlamlaşma proqramı" həyata keçirməyə başlayarsa, Paris klubu həmin ölkənin hökuməti ilə birgə onun xarici dövlət borcunun restrukturlaşdırılması haqqında razılaşma işləyib hazırlayır. Nəticədə əmtəə və kapitalın idxalının həcmini azaltmadan tədiyə balansının passiv saldosunu azaltmaq imkanı yaranır.

PARİTET (lat. *paritas* – bərabərlik, eyni mövqe, tərəflərin bərabər hüququ) – 1. İki və ya bir neçə tərəfin, məqsədlərin, vəsaitlərin eyni vəziyyətinin bərabər qiymətləndirilməsi. Hüquq və öhdəliklərin, ödənişlərin bərabərliyi, müxtəlif iqtisadi subyektlərin bazarda vəziyyəti. 2. Müxtəlif ölkələrin pul vahidləri arasında ya verilən pul vahidlərini təcəssüm etdirən qızılın kəmiyyəti üzrə, ya da onların alıcılıq qabiliyyəti üzrə nisbəti. 3. Qiymətli kağızın nominal dəyərə ekvivalent olan qiyməti. Qiymətli kağızın nominal dəyərindən də aşağı ola bilər. İstiqraz vərəqələri üzrə əməliyyatlar aparılarkən böyük əhəmiyyətə malikdir. Bir qayda olaraq aşağıdakı anlamlarda fərqləndirilir: valyuta pariteti – dövlətlərarası səviyyədə qanunvericilik qaydasında müəyyən edilən valyutalar arasındakı nisbətdir; qızıl paritet: a) dövlət tərəfindən müəyyən edilən və qanunla təsbit edilən ölkənin pul vahidinin qızıl məzmunudur. Belə ki, ABŞ dolları vaxtı ilə 0,81853 qram xalis qızılla təminat kimi müəyyən edilir; b) qızıl təminatı kimi müəyyən edilən qızılın çəkisi üzrə iki pul vahidinin nisbəti; sikkə pariteti: iki tərəfin pul vahidlərinin qızıl və ya gümüş məzmununun nisbə-

Cədvəl 1

Paris klubunun daimi üzvləri, 19 dövlət

	ABŞ		Finlandiya		Kanada
	Böyük Britaniya		Fransa		Niderland
	Almaniya		İrlandiya		Norveç
	Avstriya		İsveç		Rusiya Federasiyası
	Avstraliya		İsveçrə		Yaponiya
	Belçika		İspaniya		
	Danimarka		İtaliya		

Cədvəl 2

Toronto şərtləri

➔ Göstərilən şərtlər Dünya Bankı tərəfindən müəyyən edilmiş hər nəfərə düşən gəlirin səviyyəsindən yuxarı olmayan ölkələrə tətbiq oluna bilər (hazırda bu səviyyə ildə 540 ABŞ dolları təşkil edir)
➔ Kreditorlara borclu tərəfə aşağıdakı şərtlərin variantları kimi irəli sürülməsi təklif olunur: A – variantı (borc məbləğinin azaldılması); ✓ Borcun üçdə bir hissəsinin silinməsi; ✓ Borcun qalan hissəsinin ödənilməsi ilə bağlı bazar faiz dərəcələri üzrə ödəmə şərtlərinə yenidən baxılması; ✓ Borcun qaytarılması müddəti 14 il, o cümlədən onun 8 ilinin güzəştli dövr kimi nəzərə alınması; B – variantı (uzunmüddətli borclar); ✓ faizlər bazar dərəcələrinə əsasən hesablanır; ✓ Borcun qaytarılması müddəti 25 il, o cümlədən onun 14 ilinin güzəştli dövr kimi nəzərə alınması; C – variantı (Borc üzrə xidmət ödənişlərinin azaldılması); ✓ Güzəştli faiz dərəcələrinin təklifi (iki dəyər arasında böyük olanın seçilməsi: ildə 3,5% və ya bazar faiz dərəcəsinin yarısı); ✓ Borcun qaytarılması müddəti 14 il, o cümlədən onun 8 ilinin güzəştli dövr kimi nəzərə alınması.

Cədvəl 3

Hyuston sərtləri

➔ Kommersiya kreditlərinin qaytarılma müddəti 15 ilədək uzadılıb, onun güzəştli dövrü 8 il təşkil edir.
➔ İnkişafa rəsmi dəstək proqramı çərçivəsində təklif edilən kreditlərin qaytarılması müddəti 20 ilədək uzadılıb, onun güzəştli dövrü 10 il təşkil edir.
➔ Borcun ötürülməsi müddəası. Kreditorlara inkişafa dəstək proqramı çərçivəsində verilmiş kreditlər üzrə yaranmış borc öhdəliklərinin bütün məbləğini və ya kreditin 10 %-ni (və ya 10 mln. dollar, əgər bu məbləğ borc öhdəliyinin 10%-dən çox olarsa) satmaq və ya dəyişmək hüququ verilir.

Cədvəl 4

Standart (klassik) şərtlər

➔ Borcun 10 %-dək restrukturlaşdırılması (bəzi hallarda yalnız əsas borc) ✓ Qaytarılma müddəti 10 il, 5 illik güzəştli dövr ilə ✓ Bazar dərəcələri.

tidir; müxtəlif pul sistemlərinə malik iki dövlətin pul vahidlərində olan, qızıl və gümüş bazar dəyərlərinin nisbətidir; nominal paritet – pul vahidi və etalon kimi qəbul edilən metal və ya digər valyuta arasında rəsmi surətdə müəyyən edilən nisbətdir; opsionların pariteti – əgər koll – opsion üçün reallaşma qiyməti, üstəgəl, mükafat müvafiq fyuçers müqavilənin qiymətinə, putopsion üçün – reallaşma qiyməti çıxılan mükafata bərabər olarsa, opsion paritet vəziyyətində olar; alıcılıq qabiliyyəti pariteti – iki və ya daha artıq valyuta arasında onların alıcılıq qabiliyyəti üzrə mal və xidmətlərin müəyyən yığımına görə nisbətidir. Dəstin əmtəə nomenklaturasından asılı olaraq, alıcılıq qabiliyyəti pariteti xüsusi (müəyyən əmtəə qrupu üzrə) və ya ümumi (bütün ümumi məhsul üzrə) ola bilər. Laspeyres düsturu üzrə valyutaların alıcılıq qabiliyyəti pariteti – milli iqtisadiyyatın mürəkkəb strukturunu nəzərə alaraq, iki ölkənin qiymət səviyyəsi nisbətini göstərən beynəlxalq indeksdir. Paaşe düsturu üzrə isə valyutaların alıcılıq qabiliyyəti pariteti – müəyyən ölkənin, xarici dövlətin nümayəndələrinin əmtəələrinin vahid dəstinin qiymət səviyyələrinin nisbətidir. Müqayisə edilən xarici dövlətin iqtisadiyyatının strukturunun göstəricilərinin köməyi ilə valyuta pariteti formasında ümumiləşdirilir. Faiz pariteti – faiz dərəcələrindəki fərq diskont ölçüsündə və ya valyutanın forvard məzənnəsi mükafatında birbaşa əks olunduğu zaman iki valyuta arasındakı nisbətdir; faiz dərəcələri pariteti – nəzəri cəhətdən olan vəziyyətdir, bu zaman forvard müqaviləsi məzənnəsi ilə "spot" məzənnəsi arasındakı fərq müvafiq xarici dövlətin faiz dərəcəsi və daxili faiz dərəcəsi arasındakı fərqə bərabərdir.

PARİTET İNDEKSİ – fermerlərin məhsullarının qiymətlərinin (qiymət indeksi) onların aldıqları qeyri-kənd təsərrüfatı məhsullarının qiymətlərinə nisbəti (qiymət indeksi); qiymətlərin saxlanması siyasəti üçün əsasdır.


PARİTET İSTEHLAK QABİLİYYƏTİ (PİQ) – müxtəlif ölkələrin valyutalarının, pul vahidlərinin müqabil nisbəti. Əsas əmtəə və malların alışı üzrə təyinat tapır.

PARİTET, QIZIL – ölkənin pul vahidində dövlət tərəfindən təyin edilmiş və qanunla müəyyən edilmiş təmiz qızılın miqdarı (çəkisi); iki pul vahidi arasında qızıl təminatı kimi təyin edilmiş qızılın çəkisinə görə nisbəti.

PARİTET PRİNSİPİ (MİLLİ REJİM) – beynəlxalq münasibətlər prinsipi olub, xarici vətəndaşlar və hüquqi şəxslər üçün həmin ölkənin vətəndaşları və hüquqi şəxslərin istifadə etdiyi rejimi təyin etmək öhdəliyini bildirir.

PARİTET, VALYUTA – valyutalar arasında qanunvericiliklə və hökumətlərarası səviyyədə qurulan nisbət. 1978-ci ilə qədər valyuta pariteti valyutaların qızıl tərkibi ilə müəyyən edilirdi. Sonra BVF-nin Nizamnaməsinə görə, SDR bazasında 1979-cu ildə AİB-ə üzv-ölkələrin öhdəliklərini müəyyən edən Avropa Valyuta İttifaqı fəaliyyətə başlamış, milli valyutaların valyuta paritetini təyin edilmiş hüdudlarda saxlamış, milli valyutaların bazar kurslarından razılaşdırılmış hüdudlardan kənarlaşmasına yol verməmişdir.

PARKİNSON QANUNLARI – ingilis tarixçisi S.Parkinson tərəfindən 1955-ci ildə Britaniyanın "The Economist" ("İqtisadçı") jurnalında, sonradan isə (1958-ci ildə) digər məqalələri ilə birlikdə "Parkinson qanunları" adlı kitabında dərc etdirdiyi satirik məqalələr toplusu.



1. İşin həcmi onun yerinə yetirilməsi üçün ayrılan vaxtı məşğul etməyə zəruri olduğu qədər və o ölçüdə artır.
2. Xərclər gəlirlərlə bərabərləşməyə səy göstərir.
3. Genişlənmə mürəkkəbləşmə, mürəkkəbləşmə isə ayrılma deməkdir.
4. Heyətin sayı işin daha çox, az və ya tamam olmamasından asılı olmasına baxmayaraq artır.
5. Mühüm qərarın qəbul olunmasını kənarlaşdırmaq üsulu varsa, əsl bürokrat mütləq onu tapacaq.



6. Elmin tərəqqisi xarici jurnalların sayına əks mütənasibdir.
7. Məsələnin təxmin edilən vaciblik və mürəkkəbliyi onun həllinə ayrılan vaxta düz mütənasib artır.
8. İstənilən işçi təqaüd yaşına çatmağa beş il qalmış, bu yaşın neçə olmasından asılı olmayaraq, zirəkliyini itirir.

PARTİYALARIN BÖLÜNMƏSİ – bu anlayış adətən topdansatış tacirin fəaliyyətinə aiddir. Bu isə, iri partiya mallarının mənimsənilməsindən və sonrakı bölgü üçün onların kiçik partiyalara bölüşdürülməsindən ibarətdir.

"PARTİZAN HÜCUMU" – qiymətlərin ağlagəlməz endirilməsi, bəzi xüsusi seçilən regionlarda satışın stimullaşdırılması və ya təcavüzkar reklam tədbirlərinin vasitəsi ilə güclü rəqibin "həyatının çətinləşdirilməsi".

"PASSİV İŞSİZLƏR" – sosial təminat proqramları əsasında uzun müddət yardımlar alaraq iş axtarmayan və ya daha axtarmaq istəməyən işsizlər qrupu.

"PASSİV TƏKRAR SIĞORTA" – riskin təkrar sığortaya qəbul edilməsi.

PAŞAYEV KƏRİM PAŞA OĞLU (1936) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1966-cı ildə Moskvada namizədlik, 1981-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. Ticarətin idarə edilməsi problemləri ilə məşğul olmuşdur. K.P.Paşayev 120-dən çox elmi əsərin, dərslik və monoqrafiyanın müəllifidir. Rəhbərliyi altında 10 nəfər elmlər namizədi hazırlanmışdır. 1966-cı ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda baş



müəllim, dosent, professor, kafedra müdiri vəzifələrində çalışmışdır. 1966-1970-ci illərdə həmin institutda dekan müavini və dekan olmuşdur. K.Paşayev 1989-cu ildə Azərbaycan Xalq Təhsili Nazirliyində əvvəlcə Elm İdarəsinin rəisi, sonra isə nazir müavini vəzifəsində işləmişdir. Daha sonra Gəncə Texnologiya İnstitutunun birinci prorektoru, 1992-1993-cü illərdə Azərbaycan Pedaqoji Universitetinin iqtisadi məsələlər üzrə prorektoru olmuşdur.
Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin professorudur.

PATENT (lat. *patens, patentis* – şəhadətnamə, fərman) – irəli sürülən təklifin dövlət tərəfindən ixtira kimi tanınmasını təsdiq edən və həmin ixtira üzərində şəxsin müstəsna hüququnu təsbit edən sənəd. Patent verilmiş ixtiradan patent alanın razılığı ilə istifadə olunur. Patentin qüvvədə olması müddəti (adətən 15-20 il) milli qanunvericiliklə müəyyən edilir. Patent verilən zaman patent rüsumu tutulur. Azərbaycanda patent ixtiraların hüquqi mühafizəsi formalarından biridir; ondan, bir qayda olaraq, xaricilər istifadə edirlər. İxtiraların hüquqi mühafizəsinin digər forması müəlliflik şəhadətnaməsidir.
Patent verildikdə dövlət orqanlarının tutduqları məbləğ. Patent almaq sifariş verildikdə, patent ekspertizasının qərarına etiraz edildikdə, patent hüquqlarının başqasına verilməsi rəsmiləşdirildikdə, patent verildikdə tutulur. Həmçinin, patentin qüvvədə olduğu müddətdə illik rüsum tutulur.

PATENT HÜQUQU – elə hüquq sahəsidir ki, onun normalarının köməyi ilə patent verilməsi hesabına texniki qərar və ixtiralara hüquqların mühafizə sistemi və müdafiəsi müəyyən olunur. Patent hüququnun mənbəyi qismində elə qanunlar çıxış edir ki, onlar da ixtira, təlimatlar üzrə hüquq münasibətlərini və



1895-ci ildə Morze əlifbası formasında radio siqnallar qəbul etməyi bacaran ilk aparat kəşf edilmişdi. Onun ixtiraçısı rus alimi Aleksandr Stepanoviç Popovdur. Buna baxmayaraq onun müəllifliyi şübhə altına alınır. Onun başlıca rəqibi italyan radio-texniki Qulyemo Markoni hesab olunur. O 1896-cı ildə bu kəşfinə görə patent almışdır.




İlk qeydə alınmış ticarət markası isə 1876-cı ildə Bass pivə bişirmə zavodunun qırmızı üçbucaq şəkilli markası olub.






Dünyada üzərində patent hüququ möhkəmləndirilmiş ilk avtomobil 1886-cı ildə meydana gəlmiş Bensin avto-mobili olmuşdur.






1876-cı ildə ABŞ-da Aleksandr Qrehem Bell kəşf etdiyi telefon aparatına görə 174465 saylı patent almışdır.




1802-ci ildə İngiltərədə Riçard Trevitik ilk parovoz üçün patent almışdır.



İlk yazı maşını 1714-cü ildə Henri Mill tərəfindən kəşf edilib və o ona görə ingilis kraliçasından patent almışdır.

10 sentyabr 1846-cı ildə ixtiraçı Massaçuetsdən kiçik Elias Hou tikiş maşını üçün patent almışdır.



patent idarələrinin digər aktlarını tənzimləyir. Patent hüququ özündə aşağıdakıları müəyyən edən normaları cəmləyir:
1) ixtira hesab olunmayan obyektlərin xarakteri;
2) obyektin ixtira kimi təqdir olunması üçün texniki meyarlar;
3) patent sahibinin texniki qərar və ixtiralara hüququ;
4) patent sahibinin hüquqlarının başqasına satılması və patentlərin pozulmasına münasibətdə mübahisəli məsələlərin həlli qaydası.
Patent hüququnda patentlərin alınmasına ərizə verilməsi qaydası və onların baxılması çox əhəmiyyətlidir: patent idarəsinə təqdim olunası sənədlər müəyyən edilir, ixtira formulunun necə müəyyən olunduğu və patent təsvirinin necə tərtib olunduğu razılaşdırılır. Hüquq sahəsi; onun normaları, patent verməklə ixtiraların hüquqi mühafizəsi sistemini müəyyənləşdirir. Patent hüququ ayrı-ayrı ölkələrdə kapitalizmin qərarlaşması ilə meydana gəlmişdir. Patent hüququ patent sahibinə texniki yeniliyin təcrübədə tətbiqinə sərf etdiyi məsrəfləri ödəmək, habelə qoyulmuş kapitaldan mənfəət götürmək imkanı verir. Patent hüququnun əsas məzmununu patent sahibinin hüquqlarını, onların (hüquqların) bütünlükdə və ya bir hissəsinin başqasına verilməsi qaydasını, həmçinin, həcmi hüquqların pozulması nəticələrini müəyyən edən normalar təşkil edir. Patent hüququ həmçinin patent almaq üçün sifariş vermə qaydasını və patent haqqında mübahisələrin həlli qaydasında nizamlayır. Patent hüququnun əsas mənbəyi ali qanunverici orqanın qəbul etdiyi xüsusi qanunlardır.

PATENT RÜSUMU – ixtiraların sənaye nümunələrinin, faydalı modellərin patentləşdirilməsi, həmçinin, patent qanunları əsasında müəyyən edilmiş qaydada və miqdarda ticarət nişanlarının qeyd edilməsi ilə əlaqədar funksiyaların yerinə yetirilməsinə görə patent idarəsi tərəfindən alınan yığım.

PATENT SAZİŞİ – patentdən qarşılıqlı istifadə edilməsi barədə iki şirkət arasında bağlanan saziş.

PATERNALİZM – firma səviyyəsində sosial-əmək münasibətlərinin tənzimlənməsi forması. Belə şəraitdə sahibkar işçilərinə əmək müqaviləsi və əmək qanunvericiliyində nəzərdə tutulduğundan əlavə güzəştlər verir. Digər firmalara nisbətən əlavə güzəştlərin təqdim olunması nəticəsində rəhbərlik firmaya əlavə mütəxəssislər cəlb edə, namizədlər arasından ən yaxşılarını seçə, kadr itkisinin qarşısını ala, mənəvi-psixoloji mühiti yaxşılaşdıra, işçilərdə firmaya sadiqliyi artıra və ümumi maraqlar çərçivəsində daha da fəallıq göstərməyə həvəsləndirə bilər. İşçilər isə, öz növbəsində, firmanın işinin təkmilləşdirilməsi, bazarda uzun müddət qalması, daha çox bazar payı əldə etməsi üçün yeni mütərəqqi ideyalarla çıxış edə bilərlər.

PAUPER – dilənçi, yaşayış üçün vəsaitdən məhrum insan.

PAUPERİZASİYA (lat. *pauper* – kasıb) – yoxsullaşma prosesi.

PAUŞAL ÖDƏNİŞ – lisenziya haqqının sazişlərdə qəti müəyyən edilmiş məbləği. Bu məbləğ gözlənilən iqtisadi səmərənin və lisenziatın (lisenziyanın alıcısının) lisenziyadan istifadə edilməsi nəticəsində gözlənilən mənfəəti əsasında hesablanır.
Pauşal ödəniş həm birdəfəlik, həm də möhlətlə həyata keçirilə bilər. Ödənişin bu növünün üstünlüyü ondan ibarətdir ki, lisenziar (lisenziyanın satıcısı) ciddi riskə getmədən və nisbətən qısa müddətdə bütün məbləği alır. Mahiyyət etibarilə pauşal ödəniş lisenziyadan istifadə edilməsi üçün onu almağın qiymətidir.

PAY – pul ödənişlərinin məbləği, fərdin şirkətin kapitalındakı hissəsi. Onun hesabına hüquqi və ya fiziki şəxsin şirkətin iclaslarında iştirakı, dividend əldə etməsi və şirkətin ləğvi za-

manı müəyyən əmlaka sahib olması. Pay xüsusi pay şəhadətnaməsində qeydə alınır. Ödənişlər şirkətin pay fondunu formalaşdırır.

Pay bölgüsü dedikdə bir daşınmaz əmlak obyekti ilə təmin edilmiş kreditin (ipoteka kreditinə, xüsusilə də kommersiya kreditinə tətbiqi baxımından) birdən çox sayda daşınmaz əmlak obyektləri ilə təmin edilmiş kreditdə olan payı başa düşülür. Hissə, adətən, daşınmaz əmlak obyektindən daxil olan xalis əməliyyat gəliri və ya xalis pul axınının, bu cür kreditin təminatı kimi istifadə olunan bütün daşınmaz əmlak obyektlərindən daxil olan müvafiq xalis əməliyyat gəlirinə və ya xalis pul axınına bölünməsi yolu ilə hesablanır. Bölüşdürülmüş payların cəmi 100%-ə bərabər olmalıdır.

PAY FONDU – xırda investorların vəsaitlərini qiymətli kağızlar buraxılışı formasında akkumulyasiya etmək və həmin qiymətli kağızları yenidən girovdan çıxarmaq üzrə ixtisaslaşan investisiya təsisatı. Pay fondunun iki tipi fərqləndirilir: açıq pay fondu və interval tipli pay fondu. Əgər pay fondu açıq tiplidirsə, idarəçi şirkət onun buraxmış olduğu investisiya paylarını investorun tələbi ilə fondun qaydalarına əsasən müəyyən edilmiş müddətdə girovdan çıxarmağı öhdəsinə götürür. İnterval fondunda payların girovdan çıxarılması investorun tələbi ilə qaydalarda müəyyən edilmiş müddətdə, lakin ildə bir dəfədən gec olmayaraq həyata keçirilir.

Qiymətli kağızlar bazarında bankların fəaliyyətinin məhdudlaşdırıldığı və banklarla pay fondları arasında birbaşa rəqabət olmadığı yerlərdə pay fondları daha geniş yayılmışdır. Məsələn, ABŞ-da investisiya bankları ayrı-ayrı şəxslərlə işləmir, başqa banklar isə qiymətli kağızlar bazarında birbaşa işləyə bilməzlər. 1990-cı illərin əvvəllərində Rusiyada, digər keçmiş Sovet respublikalarında və Şərqi Avropa ölkələrində yaranmış çoxsaylı "maliyyə piramidaları" pay fondlarının spekulyativ analoqları hesab edilirdi. Bu şirkətlər öz qiymətli kağızları ilə alqı-satqı əməliyyatları aparırdı, onların yenidən girovdan çıxarılması üçün resurslar isə qısamüddətli kotirovkalar əsasında bu qiymətli kağızların daha yüksək məzənnə üzrə satış həcminin artırılması hesabına səfərbər edilirdi. Qısa müddətdə bu şirkətlərin hamısı müflisləşdi. 1995-ci ildən başlayaraq Rusiya hökuməti sivil pay fondlarının yaradılmasını stimullaşdırmağa cəhd göstərmişdir.

Bəzi ölkələrin (məsələn, Rusiyanın) qanunvericiliyinə görə, pay fondları hüquqi şəxs statusuna malik olmayan əmlak kompleksidir. Onun idarə edilməsi etimada əsaslanan idarəçi şirkət (müvafiq lisenziyası olan kommersiya təşkilatı) tərəfindən həyata keçirilir. Fondun investisiya payı pay fondunun əmlakının girovdan çıxarılma tarixində dəyəri ilə müəyyən edilən məbləğdə pul vəsaitləri almaq üçün investorun hüququnu təsdiqləyən adlı qiymətli kağızdır. İnvestisiya paylarının yerləşdirmə müddəti qeyri-məhduddur. İnvestisiya payları üzrə faizlər və dividendlər hesablanmır. İnvestisiya paylarından törəmə qiymətli kağızlar buraxılmasına yol verilmir.

PAY İNVESTİSİYA FONDU – hüquqi şəxsin yaradılmasının mütləq prosedur olmadığı əmlak fondudur. Əmlaka vəkil olunan idarəetmə şirkətin müdiriyyəti tərəfindən həyata keçirilir, bu da müvafiq pay investisiya fondunun əmlakının artım məqsədini daşıyır. Pay investisiya fondunun səhmdarları qismində həm fiziki, həm də hüquqi şəxslər çıxış edə bilərlər. Dövlət orqanları, həmçinin, yerli özünüidarəetmə orqanları pay investisiya fondunun səhmdarı qismində çıxış edə bilməzlər. Pay investisiya fondunun əmlakını səhmdarların vəsaitləri ilə vəkil olunan idarəetmə prosesində, şirkətin müdiriyyəti tərəfindən əldə olunan əmlak hüquqları da daxil olmaqla, vəkil olunan idarəyə ötürülən səhmdarların vəsaiti və bitişdirilmiş (artırılmış) əmlak təşkil edir. Pay investisiya fondunun təşkili səhmdarlar tərəfindən investisiya paylarının əldə olunması nəticəsində həyata keçirilir, bu da şirkətin müdiriyyəti tərəfindən yaradılır və əmlaka vəkil olma idarəsi tərəfindən müqavilənin bağlanmasını nəzərdə tutur. Vəkil olma idarəsi haqqında müqaviləyə əsasən, şirkətin müdiriyyəti istisna olmaqla səhmdarların maraqları nəzərə alınaraq pay investisiya fondu əmlakının idarəçiliyinə məsul edilir. Əgər şirkət müdiriyyəti buraxdığı investisiya paylarının alınmasını həyata keçirmək öhdəliyini üzərinə götürsə, pay investisiya fondu açıq ola bilər.

Pay İnvestisiya Fondunun fəaliyyəti



Qrafik 1

Bu isə, səhmdarın tələbi üzrə pay qaydasının müddəalarına əsaslanaraq müəyyən edilən, amma tələbin təqdim edilmə tarixindən 15 iş gününü ötməyən müddətdə və ya fasilə ilə həyata keçirilməlidir

PAY MÜLKİYYƏTİ – ümumi işin iştirakçılarından, varəsələrdən, kollektiv mülkiyyətçilərdən birinin iddia edə biləcəyi gəlirlərin, əmlakın, digər dəyərlərin hissəsi; ümumi işin iştirakçıları tərəfindən onların öz resurslarının, pul vəsaitlərinin bu işə maya qoyulmasını nəzərdə tutan tədbir pay iştirakı adlanır.

PAY ŞƏKLİNDƏ TİKİNTİDƏ İŞTİRAK MÜQAVİLƏSİ – bu müqaviləyə əsasən, tərəflərin biri (bina tikən) müqavilə ilə müəyyən olunmuş müddət ərzində öz qüvvəsi və ya digər şəxsləri cəlb etməklə çoxmənzilli binanı, yaxud digər daşınmaz əmlak obyektini tikmək və bu obyektlərin istismara verilməsi üçün icazə aldıqdan sonra onları pay şəklində tikintidə iştirak edən şəxslərə təhvil vermək, digər tərəf isə (pay şəklində tikintidə iştirak edən şəxs) müqavilə ilə müəyyən olunmuş qiyməti ödəmək və çoxmənzilli binanın və ya digər daşınmaz əmlakın istismara verilməsi üçün icazənin mövcud olduğu halda həmin tikilini qəbul etmək öhdəliyini daşıyır.

PENSİYA (lat. *pensio* – ödəniş) – vətəndaşların dövlət tərəfindən təyin olunmuş yaş həddinə çatması, əlilliyinin meydana çıxması, valideynlərinin itirilməsi, dövlət qarşısında xüsusi xidmətlərinə görə təyin olunmuş aylıq ödəniş. Pensiya sisteminin məqsədi özündə hüquqi, iqtisadi və sosial normaları birləşdirərək, əmək qabiliyyətini itirmişləri maddi cəhətdən təmin etməkdən ibarətdir.

PENSİYA FONDUNA ÖDƏNİLƏN SIĞORTA HAQQI – bəzi ölkələrdə (məsələn, Rusiya Federasiyasında) qanunvericiliyə uyğun olaraq sığorta haqlarının ödəyicilərinin (hüquqi və ya fiziki şəxslərin) ölkənin Pensiya fonduna ödədiyi dövlət pensiya sığortası üçün icbari tədiyələr.

PENSİYA KAPİTALI – müvafiq olaraq fərdi hesabın sığorta hissəsində qeydə alınan və fərdi hesabın yığım hissəsində toplanan vəsaitlərin məbləği.

PENSİYA KASSASI – öz üzvlərinin sığorta haqlarının toplanması və yenidən bölgüsü yolu ilə pensiyaların və müxtəlif yardımların sığortasını aparan idarə.

PENSİYA SXEMİ – təshih edilmiş (qeyd-şərt) müddət ərzində müəyyən olunmuş vaxtda, müəyyən (təsbit olunması vacib olmayan) ölçüdə vaxtaşırı pensiya ödənişlərinin alınması məqsədilə pensiya fonduna (sığorta fonduna) əmlak haqqının və ya sığorta pensiya haqlarının qaydalarını, ölçülərini və ödəniş ardıcıllığını müəyyən edən pensiya sığortası şərtlərinin məcmusu.

PENSİYALARIN SIĞORTALANMASI – şəxsi sığorta növü; burada sığortalı birdəfəlik sığorta haqqını (mükafatını, tədiyəsini) ödəyir, sığortaçı isə şərtlənmiş müddət ərzində və ya ömürlük pensiyanı ona vaxtaşırı ödəməlidir. Bu sığorta növü əsasən Qərbdə yayılmışdır. Son



illər isə digər ölkələrdə də tətbiq olunur.

PENSİYA SIĞORTASININ FƏRDİ HESABI – 1. Pensiya fonduna ayırmaların fərdi uçotu üçün dövlət pensiya sığortası iştirakçısının hesabı. 2. ABŞ-da işçi tərəfindən açılan, bu və ya digər səbəblərdən iş yerində pensiya sığortası ilə əhatə olunmayan pensiya hesabı.

PENSİYA SİSTEMİ – vətəndaşlara pensiya formasında maddi təminatın verilməsi məqsədi daşıyan hüquqi, maliyyə-iqtisadi və təşkilati sistem və normaların məcmusu.

Azərbaycanın müasir pensiya sisteminin əsas məzmununu sığortaolunanlar üçün fərdi hesabların açılaraq ödənilən sosial sığorta haqlarının həmin hesablar üzrə fərdi uçotunun qurulması, vətəndaşların pensiya təminatının bu uçotun məlumatlarına əsasən aparılması təşkil edir.

Qısa müddətdə 1 milyon 900 minə yaxın sığortaolunana sosial sığorta nömrəsi verilmiş və onlar üçün fərdi hesab açılmışdır.

İslahatların mühüm halqası kimi pensiya və müavinətlərin əhaliyə çatdırılmasında müasir texnologiyaların tətbiqinə nail olunmuşdur. Hazırda ölkə üzrə bütün ödəniş aparılan pensiyaçıların 99,4 faizi öz pensiyalarını plastik kartlarla alırlar. Bu göstərici üzrə Azərbaycan dünyada ən şəffaf praktikaya malik ölkələrdən biri hesab olunur.

Yeni sığorta-pensiya sisteminin dayanıqlı və dinamik inkişafına nail olunması, bu zəmində vətəndaşların pensiya təminatının daha da təkmilləşdirilməsi tədbirləri Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş (30.12.2008) "2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı" çərçivəsində davam etdirilir.

2011-ci il yanvarın 1-dən bütün növ əmək pensiyalarının sığorta hissəsinə 5,7 faizlik artım tətbiq olunmuşdur.

Nəticədə, 2011-ci ilin əvvəli ilə müqayisədə ölkə üzrə əmək pensiyalarının orta aylıq məbləği 28,7 faiz artaraq 145,2 manata, o cümlədən yaşa görə əmək pensiyalarının orta aylıq məbləği 36,4 faiz artaraq 160,4 manata çatmışdır. Ölkə üzrə əmək pensiyalarının orta aylıq məbləğinin əməkhaqlarının orta aylıq məbləğinə nisbəti 40 faiz, yaşa görə əmək pensiyaları üzrə isə 45 faiz təşkil etmişdir. Digər tərəfdən, aparılan son islahatdan sonra pensiyaçılarımızın 97 faizinin pensiya məbləği yoxsulluq həddinin üzərinə çıxmışdır. Bu artımlardan sonra pensiya xərclərinin ÜDM-ə nisbəti 2012-ci ildə 5,34 faiz proqnozlaşdırılır. Həmin göstərici 2003-cü ildə 3,9 faiz təşkil etmişdir.

Qlobal maliyyə böhranının təsirinin davam etdiyi, əksər ölkələrin pensiya sistemlərinin göstəricilərinin aşağı düşdüyü 2011-ci ildə, ilkin məlumatlara əsasən, Dövlət Sosial Müdafiə Fondunun gəlirləri əvvəlki ilə nisbətən 354 milyon manat və ya 20,1 faiz artaraq 2 milyard 120 milyon manat təşkil etmişdir.

2011-ci ildə sosial sığorta haqları üzrə gəlirlər 2010-cu ilə nisbətən 10,8 faiz artaraq 1 milyard 230 milyon manat olmuşdur. Sosial sığorta daxilolmalarının 58,6 faizi qeyri-büdcə təşkilatlarının payına düşmüş, onların ödədiyi sosial sığorta haqlarının məbləği əvvəlki ilə nisbətən 12,5 faiz və ya 80 milyon manat artmışdır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin və torpaq mülkiyyətçilərinin sosial sığortaya

Cədvəl 1

Azərbaycan Respublikasında pensiya islahatının həyata keçirilməsi mərhələləri

Pensiya təminatı ilə bağlı qanunvericilik aktlarının hazırlanması	
o cümlədən:	
"Vətəndaşların pensiya təminatı haqqında" yeni qanunun hazırlanması	aprel-iyul, 2001-ci il
"Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Qanunun hazırlanması	aprel-iyul, 2001-ci il
Könüllü şəxsi pensiyaların institusional inkişafı üçün qanunvericiliyin hazırlanması	2001-ci ilin sonunadək
Sosial sığorta haqqında Azərbaycan Respublikası qanununa dəyişikliklər və əlavələr edilməsi	aprel-may, 2002-ci il
Pensiya maliyyə sisteminin idarəedilməsi üzrə avtomatlaşdırılmış sistemin layihəsinin hazırlanması	iyul, 2001-ci il – iyul, 2002-ci il
Fərdi uçot sisteminin yaradılması üçün lazımi avadanlığın quraşdırılması, proqram təminatının və iş yerlərinin hazırlanması	2001-ci il – may 2003-cü il
Yeni avtomatlaşdırılmış yığım sisteminin işlənib hazırlanması	dekabr, 2001-ci il – may, 2003-cü il
Pensiya maliyyə sisteminin idarəedilməsi üzrə yeni avtomatlaşdırılmış sistemin quraşdırılması	sentyabr, 2002-ci il – avqust, 2003-cü il
Pensiya hesablamalarının avtomatlaşdırılması üzrə sistemin layihəsinin hazırlanması və tətbiqi	dekabr, 2002-ci il – may, 2004-cü il
Sığorta olunanların fərdi hesablarının pensiyaçılara paylanması	iyul, 2003-cü il – iyul, 2005-ci il
İşçilərin fərdi gəlirləri haqqında məlumatın yığılması	2003-cü ilin axırlarından başlayaraq
Mövcud pensiyaçılar haqqında məlumatların yeni sistemə keçirilməsi	2004-cü il
Pensiyaların təyin edilməsi üçün əmək qabiliyyətli	2005-ci ilin yanvarından
Əhalinin əvvəlki iş stajı haqqında məlumatın yığılması	2005-ci ilin yanvarından başlayaraq
Fərdi uçota dair məlumata əsaslanan pensiyaların hesablanmasına başlanması	2005-ci il
Yeni pensiya orqanının tam fəaliyyətə başlaması	2005-ci il

Cədvəl 1

Əmək pensiyası alan pensiyaçıların pensiya növünə görə sayı (2006-2011-ci illərdə ilin sonuna) (min nəfər)

	Göstəricilər	2006	2007	2008	2009	2010	2011
1	Yaşa görə	783,4	798,1	835,8	858,7	831,1	812,8
2	Əlilliyə görə	275,9	285,6	301,7	311,8	324,7	331,6
3	Ailə başçısını itirdiyinə görə	128,7	126,4	137,6	137,9	136,3	133,2
	Cəmi	1188,0	1210,1	1275,1	1308,4	1292,1	1277,6

cəlb edilməsi daha da gücləndirilmiş, fiziki şəxslərdən daxilolmalar 14 faiz, torpaq mülkiyyətçilərinin ödəmələri isə 13 faiz artmışdır.


Sığorta-pensiya sisteminin aktuar təhlilinə əsaslanmaqla sistemin orta və uzunmüddətli inkişafı üzrə tədqiqatların təşkili məqsədi ilə Dünya Bankı və BMT-nin İnkişaf Proqramı ilə birgə tədbirlər 2011-ci ildə davam etdirilir. Həmin tədbirlər makroiqtisadi, demoqrafik və bilavasitə sistemin fəaliyyətini səciyyələndirən göstəricilərin əlaqəli şəkildə öyrənilməsi ilə yanaşı, sığorta-pensiya sistemində real yığım komponentinin tətbiqi ilə bağlı amilləri də əhatə etmişdir. Aktuar tədqiqatların ilkin nəticələri göstərir ki, Azərbaycanda pensiya yaşının tənzimlənməsi istiqamətində vaxtında qəbul olunmuş düzgün qabaqlayıcı qərarlar nəticəsində pensiyaçıların ümumi sayı 2020-ci ilədək sabit qalacaqdır ki, bu da sistemin maliyyə dayanıqlığının və islahatların davam etdirilməsi üçün əlverişli şəraitin təmin olunmasının başlıca şərtlərindəndir. Halbuki, bir çox inkişaf etmiş ölkələrdə həmin məsələnin həllinə yalnız 2008-2010-cu illərin maliyyə böhranından sonra başlanılmışdır ki, bu da ciddi gərginliklərlə müşayiət olunur.

Cədvəl 1

Dünya ölkələrində pensiyaçıların orta məbləği (doll.)

Norveç	2150
Finlandiya	1900
Küveyt	1800
Almaniya	1290
İspaniya	1285
ABŞ	1200
İtaliya	900
Yaponiya	850
Fransa	800
Böyük Britaniya	700
Polşa	500
Türkiyə	450
Estoniya	424
Latviya	362

Azərbaycan Respublikasında əmək pensiyalarının məbləğinin artım dinamikası



Qrafik 1

"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli prezident fərmanının icrası olaraq Dövlət Sosial Müdafiə Fondu tərəfindən əhaliyə interaktiv və informativ elektron xidmətlərin göstərilməsi işi daha da təkmilləşdirilmişdir. Azərbaycanın sığorta-pensiya modelinin üstünlüklərini nəzərə alan Beynəlxalq Sosial Təminat Assosiasiyası (BSTA) 2011-ci ilin iyun ayında Bakı şəhərində Avrasiya regionu üzrə Əlaqələndirmə Mərkəzi açmışdır.

PENSİYA TRAST-FONDLARI – işəgötürən şirkətin öz işçilərinin hesablarına ödənişləri, eləcə də işçilərin özlərinin həmin fondlara ödənişləri əsasında yaranmış fondların etimad edilmiş hamiləri (qəyyumları). ABŞ-da geniş yayılmışdır. Pensiya trast-fondları ona etibar edənlərin maliyyə maraqlarının gözlənilməsinə nəzarət etməlidir və öz hərəkətlərinə görə hüquqi məsuliyyət daşıyır. Onlar aktivlərə nəzarət edir, aktivləri qiymətli kağızlar şəklində yerləşdirir, qiymətli kağızlar üzrə gəlir əldə edir və gəliri bölüşdürürlər. Pensiya trast-fondları şirkətin səhmlərini almaq üçün nağd pul vəsaitindən istifadə etmək hüququna malikdir və bu pulu müəssisə daxilində saxlayır. Pensiya trast-fondlarına daxil olan mənfəət vəsaitləri pensiya formasında ödənilən ana qədər onlardan vergi tutulmur. Pensiya trastı tərəfindən toplanmış vəsaiti pensiyaya çıxarkən dərhal, yaxud 5 il müddətində bərabər məbləğlərlə sığorta polisi almaq olar. Həmin sığorta polisinin şərtlərinə əsasən, şəxs ömrünün sonuna qədər hər il müəyyən məbləğ alır.

PERMANENT GƏLİR NƏZƏRİYYƏSİ – istehlakçıların davranışını izah etmək üçün təklif olunmuşdur. Nəzəriyyənin müəllifi amerikalı iqtisadçı, 1976-cı ildə iqtisadiyyat sahəsində Nobel mükafatı laureatı Milton Fridmandır (1912-2003). Bu nəzəriyyənin əsasını təşkil edən müddəa ondan ibarətdir ki, subyektlər öz istehlak xərclərini (C.M.Keynsdə olduğu kimi) cari gəlirdən asılı olmayaraq, daimi (permanent) gəlir hesabına formalaşdırır, beləliklə, bütün həyatı boyu istehlakın bərabər səviyyəsini təmin etməyə çalışırlar. Permanent gəlir istehlakçıların uzun müddət ərzində (bir neçə il və ya bütün həyatı boyu) gözlədikləri gəlirdir. Bu gəlir insanın bütün sərvəti ilə determinə edilmişdir: onun sərəncamında olan vəsaitlər (səhmlər, istiqrazlar, daşınmaz əmlak) və insan kapitalı (sağlamlıq ehtiyatı, qabiliyyətlər, ixtisas səviyyəsi və s.) – bir sözlə, subyektin qazancını təmin edən nə varsa, hamısı. Permanent gəlir, müəyyən mənada, subyektin orta gəliri, onun realizə edilmiş bütün potensial gəlirlərinin orta qiymətidir.

Beləliklə, cari gəlir (Y) aşağıdakı kimi hesablana bilər:

$$Y = Y^p + Y^t,$$

Burada Y^p – permanent gəlir, Y^t – müvəqqəti gəlirdir.

Sabit gəlir (Y^p) insanların ehtimallarına görə, gələcəkdə saxlanacaq gəlir hissəsidir. Gəlirin bu səviyyəsi hava şəraiti, qısamüddətli iqtisadi tsikl, qabaqcadan hiss olunmayan mənfəətlər və ya zərərlər kimi müvəqqəti və ya ötəri amillərin təsiri aradan qaldırılacağı halda, ev təsərrüfatlarının əldə edəcəyi gəlir səviyyəsidir.

Müvəqqəti gəlir (Y^t) iqtisadi subyektlərin gələcəkdə saxlayacağını gözləmədikləri gəlir hissəsidir. Bu, gəlirin müvəqqəti, təsadüfi dəyişməsidir.

Gəlirdən yaranan şokların (meyillərin) istehlakçılarda müxtəlif şəkildə reaksiyaya səbəb olan növləri:

Müvəqqəti (təsadüfi) şoklar. Bu şoklar zamanı birinci dövrün cari gəliri dəyişsə də, istehlaka, demək olar ki, təsir göstərməyəcəkdir, çünki gəlirin xeyli hissəsi yığıma yönəldiləcəkdir.

Permanent şoklar. Bu şoklar zamanı birinci və ikinci dövrlərin gəliri artır (azalır), bu halda istehlak da eyni nisbətdə dəyişir.

Gələcəkdə gözlənilən şoklar. Bu halda söhbət elə şoklardan gedir ki, birinci dövrdə gəlir dəyişmir, lakin ikinci dövrdə istehlak xərcləri dəyişir.

Permanent gəlir nəzəriyyəsindən çıxan nəticə belədir: İstehlaka orta meylin qiymət sürəti sabit gəlir, məxrəci cari gəlir olan kəsrin qiyməti ilə düz mütənasibdir. Beləliklə, gəlirin yüksək olduğu illərdə istehlaka meyil orta səviyyədən aşağı olur və ya əksinə. Lakin uzunmüddətli dövrdə bu kəmiyyət sabitdir.

PERSONALIN DƏYƏRLƏRİNİN İYERARXİYASI – işçiləri səmərəli fəaliyyətə həvəsləndirən motivlərin tabelik pilləsi. Dünya təcrübəsində personalın dəyərlərinin aşağıda sadalanan iyerarxiyaları yaranmışdır:

a) maraqlı iş və şəxsi töhfənin faydalılığının dərk edilməsi;




b) rəhbər tərəfindən əməyin ədalətli qiymətləndirilməsi;
c) qərarlar qəbul olunmasında iştirak imkanı;
ç) şirkətdə məşğulluğun sabitliyi və xidməti irəliləmə perspektivləri;
d) əmək haqqının məbləği və s.

PERSPEKTİV QİYMƏTLƏNDİRMƏ (ing. *projection*) – perspektiv maliyyə məlumatları aşağıdakılara əsasən hazırlanır:
a) baş verəcəyi gözlənilməyən gələcək hadisələr haqqında mülahizəyə əsaslanan ehtimallara, məsələn, bəzi iqtisadi subyektlərin fəaliyyətinin ilkin mərhələdə olmasını və ya öz əməliyyatlarının xüsusiyyətlərini əhəmiyyətli dərəcədə dəyişməsini nəzərdə tutma hallarına;
b) ən yaxşı qiymətləndirmə metodundan istifadə edilməklə irəli sürülmüş ehtimallara və fərziyyəyə əsaslanan ehtimalların məcmusuna.

PERSPEKTİV MALİYYƏ PLANI – növbəti maliyyə ili üçün büdcə layihəsi ilə eyni vaxtda tərtib edilən, dövlətin sosial-iqtisadi inkişafının ortamüddətli proqnozuna əsaslanan yazılı sənəd.
Perspektiv maliyyə planının işlənib hazırlanmasının məqsədləri bunlardır:
1) qanunverici (nümayəndəli) orqanlara sosial-iqtisadi inkişafın proqnozlaşdırılan ortamüddətli meyilləri barədə informasiya təqdim edilməsi;
2) həyata keçirilən dəyişikliklərin, proqramların, qanunların maliyyə nəticələri barədə fərziyyələrin kompleks şəkildə təqdim edilməsi;
3) maliyyə siyasəti sahəsində perspektiv tədbirlərin həyata keçirilməsinin mümkünlüyü və məqsədəuyğunluğunun təsdiq edilməsi;
4) uzunmüddətli mənfi meyillərin aşkar edilməsi və vaxtında zəruri tədbirlər görülməsi.
Şirkətin perspektiv maliyyə planı üç il müddətinə işlənib hazırlanır. Birinci il üçün büdcə tərtib edilir, sonrakı iki il isə plan dövrü hesab edilir. Bu dövr ərzində nəzərdə tutulan iqtisadi siyasətin praktik nəticələri müşahidə edilir.
Perspektiv maliyyə planı, ilk növbədə, cari il üçün büdcə əsasında formalaşır.

PEŞƏ XƏSTƏLİKLƏRİ – 1) peşə zərərlərinin orqanizmə təsirindən baş verən xəstəliklər. Səbəbi: bir çox toz növləri (pnevmokoniozlar), toksiki mad-







dələr (benzol, civə, qurğuşun), bir sıra fiziki amillər, ionlaşdırıcı şüaların təsiri, vibrasiyalar, iş şəraitində havanın yüksək və aşağı temperaturu, yüksək, yaxud aşağı atmosfer təzyiqi (Kesson xəstəliyi, dağ xəstəliyi) və s. Törəmə səbəblərinə görə peşə xəstəlikləri müxtəlif formada olur. Təsiredici amilin xarakterindən asılı olaraq xəstəliyin gedişində bir sıra orqan və sistemlər (tənəffüs, sinir, ürək-damar sistemi, qaraciyər və s.) zədələnir;2) peşə xəstəlikləri, peşə patologiyası – terapiyanın bölməsi; zərərli istehsalat amillərinin törətdiyi xəstəliklərin əmələgəlmə mexanizmini, səbəbini, müalicəsini öyrənir; profilaktikasını, əmək gigiyenasını işləyib hazırlayır. Əlverişsiz iş şəraitinin orqanizmə təsiri barədə hələ qədim yunan və Roma alimləri (Aristotel, Hippokrat, Qalen) yazmışlar. Peşə patologiyası və əmək gigiyenasının banisi XVII əsrdə yaşamış italyan həkimi Bernardino Ramassini olmuşdur.

Peşə xəstəlikləri nəticəsində əlil olanlar və ailə başçısını itirənlərə iş stajından, yaşından asılı olmayaraq xüsusi güzəştlərlə pensiya təyin edilir.

PEŞƏLƏRİN QOVUŞMASI – eyni müəssisədə, yaxud təşkilatda iş günü ərzində işçinin əsas peşəsi ilə yanaşı, digər peşə (ixtisas və ya vəzifə) üzrə də əlavə iş görməsi.

PEŞƏ MƏSULİYYƏTİ – müəyyən peşədən olan nümayəndələr tərəfindən öz vəzifələrinin yerinə yetirilməsi zamanı üçüncü şəxslərə dəymiş ziyan (zərər) halında yaranan məsuliyyət.

PEŞƏ MƏSULİYYƏTİNİN SIĞORTASI – müəyyən peşə sahələrində mütəxəssislərin peşə öhdəliklərinin yerinə yetirilməsi prosesində sığorta olunanın (sığortalanmış şəxsin) hərəkətləri nəticəsində müştərilərə və digər üçüncü şəxslərə dəyən ziyanın ödənilməsinə təminat verən məsuliyyət sığortası sinfi. Peşə məsuliyyətinin sığortası mütəxəssis şəxslərin hərəkətlərinin, səhvlərinin, nöqsanlarının doğurduğu maliyyə itkiləri ilə əlaqədardır. Peşə məsuliyyətinin sığortası sığorta müqaviləsinin qüvvədə olduğu müddət zamanı, eyni zamanda, həmin müddət ərzində baş vermiş səhv və ya nöqsanlar nəticəsində sonradan meydana çıxan məsuliyyət hallarına şamil olunur. Peşə məsuliyyətinin sığortası fərdi əmək fəaliyyəti ilə məşğul olan müəyyən peşə sahiblərinin sığorta müdafiəsi

üçün nəzərdə tutulan sığorta təminatı növüdür. Belə təminat müstəsna olaraq hüquqi məsuliyyətə şamil olunur, mənəvi məsuliyyəti əhatə etmir. Bir çox ölkələrdə mövcud qanunvericiliyə uyğun olaraq peşə məsuliyyətinin sığortası icbari xarakter daşıyır. Belə hallarda icbari sığorta müqaviləsinin mövcudluğu peşəkar fəaliyyətə xüsusi razılıq (lisenziya və s.) alınması üçün zəruri şərtlərdən biri hesab edilir. Təcrübədə peşə məsuliyyətinin sığortası aşağıdakı peşəkar şəxslərə şamil olunur: balans və maliyyə hesabatlarının hazırlanmasında öz müştərilərinə xidmətlər göstərən mühasiblər və ya mühasibat firmaları, auditorlar, memarlar, diş həkimləri, göz həkimləri, vəkillər, hüquqşünaslar, sığorta və birja brokerləri və s.

PEŞƏ STANDARTLARI (ing. *professional standards*) – audit və keyfiyyətə təminat standartları üzrə Beynəlxalq Şuranın (IAASB) "Keyfiyyətə nəzarət, audit, təhlil, digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə beynəlxalq standartlara giriş" kontekstində göstərilmiş audit tapşırıqları ilə bağlı standartlar. Bir qayda olaraq, BMF-nin (IFAC) Peşəkar Mühasiblərin Etika Məcəlləsinin "A" və "B" hissələrindən ibarət müvafiq etik tələblər və müvafiq milli etik tələblər.

PEŞƏ YÖNÜMÜ – gənclərin peşə seçməyə hazırlanması, münasib peşəyə yiyələnməsi və işə düzəlməsi məqsədilə (onların şəxsi təmayül və keyfiyyətlərini, xalq təsərrüfatının ixtisaslı kadrlara tələbini nəzərə almaqla) həyata keçirilən ictimai-pedaqoji tədbirlər sistemi. Peşə yönümü insan tərbiyəsinin bir hissəsi, əmək ehtiyatlarının səmərəli bölüşdürülməsi vasitəsidir; şəxsiyyətin hərtərəfli inkişafına, onun potensial imkanlarının aşkara çıxarılmasına və təlim prosesinin intensivləşdirilməsinə kömək edir. Peşə yönümünün həyata keçirilməsində ümumtəhsil məktəblərinə bütün əmək kollektivləri – müəssisələr və təşkilatlar, kənd təsərrüfatı müəssisələri, texniki peşə, orta ixtisas və ali məktəblər kömək edir.

PETRAKOV NİKOLAY YAKOVLEVİÇ (1937) – rus iqtisadçısı, iqtisad elmləri doktoru, professor (1972), SSRİ EA-nın müxbir üzvü (1984), SSRİ EA-nın akademikidir (1990). MDU-nun iqtisadiyyat fakültəsini (1959) bitirmişdir. 1960-cı ildən SSRİ Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda, 1965-ci ildən isə SSRİ EA-nın Mərkəzi Riyazi-İqtisadi İnstitutunda işləmişdir. 1990-1991-ci illərdə SSRİ prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi, 1991-ci ildən isə Rusiya EA-nın Bazar Problemləri İnstitutunun direktorudur. Onun əsas əsərləri xalq təsərrüfatının idarə edilməsinin bazar mexanizmləri, qiymətəmələgəlmə proseslərinin modelləşdirilməsi, bazar şəraitində iqtisadi siyasətin həyata keçirilməsinin nəzəriyyəsi və metodları, keçid iqtisadiyyatı şəraitində qiymətəmələgəlmənin nəzəri aspektləri barədədir.



PETTİ UİLYAM (1623-1687) – ingilis iqtisadçısı, xırda sənətkar ailəsində doğulmuş, Leyden, Paris, Oksford universitetlərində tibb təhsili almış, 1647-ci ildə surətçıxaran maşın icad etmiş, 1649-cu ildə fizika elmləri doktoru, 1651-ci ildə isə anatomiya və musiqi professoru olmuşdur. 1659-cu ildə İngiltərədə II Karlın məsləhətçisi seçildi. 1865-ci ildə II Yakobun hakimiyyətə gəlişindən sonra o, yeni kralın məsləhətçisi oldu.



Burjuaziyanın mənafeyinə xidmət edən Petti merkantilistlərdən fərqli olaraq, var-dövlətin mənbəyini tədavüldə deyil, istehsalda görürdü. Pettini əməkdəyər nəzəriyyəsinin yaradıcısı hesab etmək olar. O, izafi dəyərin yaranma mənbəyini izah etməyə çalışaraq, ümumi izafi dəyər kimi rentanı göstərirdi. Rentanın növləri kimi torpaq rentası, pul rentası (borc faizi), diferensial rentanı fərqləndirirdi. O hesab edirdi ki, əmək haqqının yüksəldilməsi kapitalistə ziyandır və əmək haqqı fəhlənin minimum yaşayışını təmin etməlidir. O, burjuaziya cəmiyyətini təbii və əbədi hesab edirdi. Dövlətin iqtisadiyyata müdaxiləsini vacib sayırdı. A.Smit və D.Rikardo əsərlərində onun baxışlarından istifadə etmişlər.

U.Pettinin əsərləri içərisində 1662-ci ildə nəşr olunmuş "Vergilər və rüsumlar haqqında traktat" kitabı xüsusi qeyd olunur.


Sonrakı illərdə alimin "Siyasi hesab" (1690), "Mütəfəkkirin dastanı" (1691), "İrlandiyanın siyasi anatomiyası" (1691), "Pulların müxtəlifliyi" (1695) kitabları nəşr olunmuşdur. Onun iqtisad elminə daha böyük töhfəsi isə milli sərvətin və vergiqoyma üçün lazımi bazanın müəyyən edilməsi yolu ilə milli gəlirin qiymətləndirilməsinə xidmət edən "Siyasi hesab" adlı əsəridir.

PƏRAKƏNDƏ BANK – əsasən istehlakçılara xidmət göstərən, çoxsaylı xırda sövdələri həyata keçirən və bölmələr şəbəkəsinə ehtiyacı olan kommersiya bankı.

PƏRAKƏNDƏ QİYMƏTLƏR İNDEKSİ – istehlak bazarında pərakəndə qiymətlərin artması və ya azalması göstəricisi.

PƏRAKƏNDƏ SATIŞ QİYMƏTLƏRİ – qiymətlərin əmələ gəlməsi prosesinin son mərhələsinin nəticələri və xalq istehlakı məhsullarının faktiki satış qiymətləri. Bu qiymətlərlə məhsullar birbaşa istehlak sferasına daxil olur. Pərakəndə satış qiyməti kəmiyyətcə sənaye topdansatış qiyməti ilə ticarət əlavələrinin (güzəştlərinin) məcmusundan ibarətdir.

PƏRAKƏNDƏ TİCARƏT "QARMONU" – əmtəələrin geniş istehlakçı kütləsinə satışını nəzərdə tutan pərakəndə ticarətin təkamül tarixi. O, pərakəndə tacirlərin növbə ilə mal diapazonunu genişləndirmək və daraltmaq meylinə malik olduqları konsepsiyaya əsaslanır.




Qrafik 1

PƏRAKƏNDƏ TİCARƏTİN DÖVR ETMƏSİ – pərakəndə ticarətin inkişaf nəzəriyyəsi. Buna müvafiq olaraq, bu ticarət növünün yeni formaları öz fəaliyyətini aşağı məsrəflərlə, yüksək olmayan qiymətlərlə və dar mənfəət norması ilə xarakterizə olunan əməliyyatlardan başlayır. Zaman keçdikcə bu göstəriciləri yetkinlik anı çatana qədər artırır. Bu mərhələdə mallara olan yüksək qiymətlər və daha aşağı qiymətləri təklif edən rəqib axını nəticəsində pərakəndə ticarət müəssisələri zəifləyir.

PƏRAKƏNDƏ TİCARƏTİN HƏYAT TSİKLİ (silsiləsi) – pərakəndə ticarətin təkamül nəzəriyyəsi. Bunun əsasında əmtəənin həyat tsikli (silsiləsi) anlayışı dayanır və buna müvafiq olaraq, yeni pərakəndə ticarət növləri öz inkişafında törəmə, artım, yetkinlik və tənəzzül mərhələlərini keçir.

PİKET KEÇİRMƏK – yuxarı orqanların və ya müdiriyyətin hərəkətlərinə qarşı etiraz forması. Bu halda, şirkətin işçiləri keçirilən tətildə iştirak etmək üçün və ya öz tələblərini elan etmək məqsədilə şirkətin binalarının yaxınlığında toplaşırlar.

PİQU ARTUR SESİL (1877-1959) – ingilis iqtisadçısı, A.Marşalın tələbəsi və ardıcılı, Kembric siyasi iqtisad məktəbinin neoklassiki.Piqu 1877-ci ildə Raydın Uvayt adasında hərbi zabit ailəsində anadan olmuşdur. Kembricdə Karl kollecində hüquq ixtisasına yiyələnmişdir. Kembric Universitetini bitirdikdən sonra orada A.Marşalın rəhbərliyi ilə tədqiqatlar aparmışdır. 1908-ci



ildə Marşal universitetdən getdikdən sonra siyasi iqtisad kafedrasının rəhbəri (1943-cü ilə qədər) olmuş, eyni zamanda, İngiltərə hökumətinin iqtisadi siyasətinin hazırlanmasında iştirak etmişdir. 1918-1919-cu illərdə valyuta komitəsinin, 1919-1920-ci illərdə gəlir vergisi üzrə Kral komissiyasının, 1924-1925-ci illərdə isə N.Çemberlenin pul dövriyyəsi məsələləri üzrə komitəsinin üzvü olmuşdur. "Stasionar vəziyyətlər iqtisadiyyatı", "Məşğulluq və tarazlıq", "Sənaye fəallığının tərəddüdü", "Müharibənin siyasi iqtisadı", "Gəlir", "Qismən məşğulluq" elmi əsərlərinin müəllifidir. Onun ən məşhur əsəri "Rifahın iqtisadi nəzəriyyəsi"dir. Bu əsərdə Piqu özünün sosial islahatlar konsepsiyasını irəli sürmüşdür. Bu konsepsiyanın əsas tezisini belə ifadə etmək olar: "Gəlirlərin daha bərabər bölgüsü maddi rifah halının yüksəlməsinə xidmət edir". O, elmə "milli divident" anlayışını daxil etmişdir.


PİRAMİDA – maliyyə şirkətlərinin öz praktikasında tez-tez istifadə etdiyi şübhəli varlanma üsulu, fırıldaqçı əqd. Şübhəli əqdin mahiyyəti ondan ibarət olur ki, şirkətin cəlb etdiyi, piramidanın aşağı təbəqələrini təşkil edən şəxslərin qiymətli kağızlarının satışından əldə edilən vəsaitlərin bir qismi reklam xərclərinə və şirkətin sahiblərinin gəlirinə sərf edilir. Bir qismi isə şirkətin qiymətli kağızlarını daha əvvəl almış, piramidanın yuxarı təbəqələrindəki şəxslərə dividendlər kimi ödənilir.

Bir qayda olaraq, piramidanın həyat dövrünün başa çatması (piramidanın dağılması) nəticəsində aşağı təbəqələrdəki iştirakçılar öz sərmayələrini itirir, şirkət özü isə ya müflisləşir, ya da yenidən bu cür piramidalar yaratmağa başlayır. Bəzi ölkələrdə piramidaşəkilli maliyyə əməliyyatları aparılması qanunvericiliklə qadağan edilir.

1990-cı illərin əvvəlində Rusiyada bir sıra bu cür piramidalar yaranmışdı. Onlardan ən böyükləri – "MMM" səhmdar cəmiyyəti və "Russkiy Dom Selenqa" müflisləşdi, nəticədə yüz minlərlə əmanətçi öz pullarını itirdi.

PİRAMİDA STRUKTURU – sığortaçının agent şəbəkəsinin təşkili tiplərindən biri. Əksər sığorta şirkətləri tərəfindən qəbul edilir.

PİRAT NÜSXƏ – hüquq qanunvericiliyi ilə qorunan əsərin





və ya fonoqramın, müəllifin və ya digər hüquqi sahibinin razılığı olmadan hazırlanmış (istehsal edilmiş) nüsxəsi.

PİRATÇILIQ – müəlliflik hüququ və əlaqəli hüquqların sahiblərinin (və ya hüquqi varislərinin) icazəsi olmadan əsərin və əlaqəli hüquqlar obyektlərinin hər hansı üsulla, o cümlədən surətinin çıxarılması, yayılması, kirayəyə verilməsi, idxal edilməsi, kütləvi nümayişi, kütləvi ifası, kütləvi bildirişi, efirlə və kabellə kütləvi bildirişi, tərcüməsi, yenidən işlənməsi və s. istifadəsi.

PİSSARİDES KRİSTOFER (1948) – yunan-kipr mənşəli britaniyalı iqtisadçı. Hazırda London iqtisadiyyat məktəbində iqtisadiyyat kafedrasına rəhbərlik edir. Elmi marağı əməyin iqtisadiyyatı, iqtisadi artım və iqtisadi siyasət məsələləridir. 2010-cu ildə o, amerikalı Daymond Piter və Mortensen Deyl ilə birlikdə "Axtarış modelli bazarların tədqiqinə görə" Nobel mükafatına layiq görülmüşdür. O, Esseks Universitetində 1970-ci ildə bakalavr, 1971-ci ildə magistr elmi dərəcəsini almışdır. Sonra o, London iqtisadiyyat məktəbində dərs demişdir. 1973-cü ildə doktor elmi dərəcəsini almışdır. 1976-cı ildən həmin məktəbdə makroiqtisadiyyat sahəsində tədqiqatlar proqramına rəhbərlik etmişdir.



Əsərləri: "İş yerlərinin yaradılması və işsizliyin ləğv edilməsi" (1994), "İşsizlik nəzəriyyəsinin tarazlığı" (2000).

"PİŞİKLƏR VƏ İTLƏR" (ing. *cats and dogs*) – möhtəkirlik səhmləri.

PLAGİAT (lat. *plagiatus* – oğurlanmış) – başqasının ədəbi, elmi, sənət əsərinə, ixtiraya müəllifliyinin qəsdən (tamamilə və ya qismən) mənimsənilməsi.

PLAGİATÇILIQ – əsərin başqa şəxsin adı altında tam və ya qismən açıqlanması, yəni özgənin elmi, ədəbi, bədii və ya digər növ əsərini öz adı ilə nəşr etdirməsi. Yaxud özgənin müəlliflifiyini mənimsəmə və ya mənbəyi və müəllifi göstərilmədən əsəri və ya onun bir hissəsini köçürməklə yeni əsərin yaradılması, bu cür əsərlərin yenidən dərc edilməsi, qəzet, jurnal məqalələrinin və yayım təşkilatları üçün verilişlərin hazırlanması, habelə, şərikli müəllifliyə məcbur etmə.

PLANLAMAQ – planını çəkmək, planını almaq, planlaşdırmaq.

PLANLAŞDIRILMAQ – planı alınmaq, planı çəkilmək, planı tərtib edilmək. Məsələn: məhsuldarlıq planlaşdırılarkən bütün imkanlarımız nəzərə alınmamışdır.

PLANLAŞDIRMA – planlı və qarışıq iqtisadiyyatlı ölkələrdə idarəetmə forması. Mikrosəviyyədə bu firmaların biznes-planlar, qısamüddətli operativ proqnozlar hazırlaması formasında çıxış edir. Makrosəviyyədə isə planlaşdırma bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə geniş yayılmış dövlət idarəçiliyi formasıdır. Qərbi Avropada bu sahədə ixtisaslaşmış strukturlar fəaliyyət göstərir. Planlaşdırma öz inkişafı dövründə müəyyən dəyişikliklərə məruz qalmışdır. Belə ki, keçən əsrin 50-ci illərinədək o, imperativ, yəni məcburi xarakter daşıyırdısa, sonradan daha çox indikativ, yəni tövsiyə xarakteri al- mağa başladı. İndikativ planlarda istehsal və istehlakın həcmi, strukturu, artım sürəti, qiymətlərin dinamikası, ixrac və idxal, investisiyalar, məşğulluq, vergilər və s. öz əksini tapır. Cari dövr başa çatanadək ödənilməli olan faizlərin cəmidir.

PLANLAŞDIRMAQ – tikinti, qurğu və s. planını və ya layi-



həsini tərtib etmək, hazırlamaq, planlamaq. Binanın tikintisini planlaşdırmaq.
Plana, çertyoja əsasən düzəltmək, yerləşdirmək; bir şeyin cizgiyə, plana əsasən qurulması, yerləşdirilməsi üçün yer ayırmaq. Parkı planlaşdırmaq.
Hər hansı bir tədbirin, işin və s. gedişi, inkişaf etdirilməsi planını tərtib etmək. Bir işin həyata keçirilməsi, başa çatdırılması üçün plan üzrə vaxt təyin etmək.
PLANLI – əvvəlcədən müəyyənləşdirilmiş plana əsasən həyata keçirilən, plan üzrə olan. Planlı təsərrüfat, planlı təchizat, planlı tikinti.
PLANLILIQ – bir şeydə plan olması, bir şeyin plana tabe olması; müntəzəmlik, sistemlilik, mütəşəkkillik.
PLANSIZ – əvvəlcədən müəyyənləşdirilmiş plana əsaslanmayan, plan üzrə olmayan, plana tabe olmayan. Plansız tikinti. Plansız işləmək. Qeyri-müntəzəm, qeyri-mütəşəkkillik.
PLANSIZLIQ – planın olmadığı hal, plana uyğun gəlməmə, plan üzrə olmama, qeyri-müntəzəmlik, qeyri-mütəşəkkillik.
PLANTASİYA TƏSƏRRÜFATI – iri əkinçilik təsərrüfatı; tropik və subtropik zona ölkələrində ixrac olunan ərzaq və texniki bitkiləri (şəkər qamışı, qəhvə, çay, düyü, banan, ananas, tütün, pambıq və s.) becərmək üçün təşkil olunur. İlk plantasiyaları ispanlar XVI əsrin əvvəlində Estanyolla adasında (indiki Haiti a.) yaratmışlar. Plantasiya sistemi qul əməyindən geniş istifadə etməklə yaranmış və inkişaf etmişdir. İmperializm dövründə müstəmləkə və asılı ölkələrin plantasiya təsərrüfatı inhisarçı kapitalın tətbiq sahəsinə çevrilmişdir. Asiya və Latın Amerikası ölkələrində yarımfeodal tipli iri torpaq sahibliyi (latifundiyalar) ilə yanaşı, xarici kapitala məxsus plantasiya da inkişaf etmişdir.
Bir sıra ölkələrdə (Əlcəzair, Kolumbiya, Ekvador) xarici plantasiyalar milliləşdirilmiş və bunların əsasında dövlət və kooperativ təsərrüfatları yaradılmışdır. Afrikanın bəzi ölkələrinin (Nigeriya, Konqo Xalq Respublikası, Mərakeş və s.) kənd təsərrüfatında dövlət və kooperativ plantasiyalar mühüm yer tutur.
PLASTİK KART – şəxsi nağdsız pul hesablaşma formalarından biri. İnkişaf etmiş ölkələrdə nağd pul tədavülündən imtina edilir və nağdsız qeyri-pul formalarına, xüsusilə plastik kartdan (kredit və debet) istifadə edilməsinə keçirlər. Plastik kart cəmiyyətdə qarşılıqlı maliyyə münasibətlərinin strukturunu ciddi surətdə dəyişdi. İnsanlar tədiyə qabiliyyətli kommersiya banklarında hesablaşma və cari hesablar açırlar. Bankdakı hesab – bu hesaba görə sabit dövriyyələr bankın plastik kartının alınmasının zəruri şərtidir. Pərakəndə ticarətin strukturunda plastik kartlar Avropada tədiyələrin 5%-ə yaxınına, ABŞ-da 10%-ə yaxınına xidmət göstərir. Plastik kartın avtorizasiyasının (həqiqiliyinin qorunması və yoxlanması) texnologiyası mürəkkəbdir, bahalı elektron və kompüter xidmətini, etibarlı telekommunikasiya şəbəkəsini tələb edir. Plastik kart tədiyə dövriyyəsinin etibarlığını tam ölçüdə təmin etmir. Saxta əməllərdən yaranan zərərin miqdarı hər il artır ki, bu da bankları itkiləri kompensasiya etmək üçün xüsusi ehtiyat fondları saxlamağa məcbur edir.
Plastik kartların digər çatışmayan cəhəti xüsusi şəxslər arasında hesablaşmaların mürəkkəbləşməsidir. Bu məqsədlər üçün tətbiq edilən bankomatlar həm texniki cəhətdən, həm də informasiya proqramına münasibətdə çox bahalıdır.
PLATON (b.e.ə. 428 və ya 427 – b.e.ə. 348 və ya 347) – qədim yunan mütəfəkkiri. "Qanunlar" əsərində Platon bir sıra iqtisadi fikirlər irəli sürmüşdü. O hesab edirdi ki, mübadilə prosesi nəticəsində müxtəlif əmtəələr eyni ölçüyə gətirilir. Platona görə, pul təkcə tədavül və yığım vasitəsi olmayıb, həm də dəyər ölçüsü funksiyasını həyata keçirir. Bununla yanaşı, o, pulun yığım



vasitəsi kimi istifadə olunmasının əleyhinə çıxış edir və israfçılığı tənqid edirdi. O, iqtisadi tarixdə ilk dəfə olaraq qiymət məsələsinə toxunmuşdu. Qiymətlərin dövlət tərəfindən tənzimlənməsinin vacibliyini bildirirdi və qeyd edirdi ki, qiymətqoyma prosesi zamanı lazımi miqdarda mənfəət əldə olunmalıdır.

PLEXANOV GEORGİ VALENTİNOVİÇ (1856-1918) – rus iqtisadçısı, filosofu, publisistidir. Voronej Hərbi Gimnaziyasını bitirmiş, 1873-cü ildə Peterburqa köçmüş, 1875-ci ildə Dağ İnstitutuna daxil olaraq, xalqçılarla birləşib inqilabi fəaliyyətə başlamışdır. 1880-ci ildə polisdən gizlənmək məqsədilə xaricə (İsveçrə, İtaliya, Fransa və digər Qərbi Avropa ölkələrinə) mühacirət etmiş və 1917-ci ilə kimi orada yaşamışdır. Mühacirətdə marksizmlə tanış olmuş və F.Engelslə görüşmüşdür. 1883-cü ildə Cenevrədə ilk rus marksist təşkilatı olan "Əməyin azadlığı"nı yaratmışdır. 1903-cü ilə qədər marksist kimi fəaliyyət göstərmiş və "İskra" qəzetini buraxmışdır. Oktyabr inqilabına çox mənfi münasibət göstərir və bildirirdi ki, Rusiya hələ buna hazır deyildir.



POÇT BONLARI – köçürülmüş az miqdar məbləğin əvəzinə poçt bürosu tərəfindən verilən və hər hansı bir poçt şöbəsində həmin məbləği dərhal almaq hüququ verən şəhadətnamə. Fransada, Böyük Britaniyada, Niderlandda, ABŞ-da, Hindistanda və digər ölkələrdə tətbiq edilir.

POÇT İLƏ BİRBAŞA ÜNSİYYƏT – alan şəxsə poçt vasitəsilə ev və ya iş ünvanlarına yollanan və məhsulu reklam edən və (və ya) daimi əsaslarla qarşılıqlı münasibətlərin saxlanılmasına yönələn materiallar.

POÇT İLƏ MALLARIN SİFARİŞİ ÜÇÜN KATALOQ – adətən rəngli kataloqlar nəzərdə tutulur. Burada məhsullar və onların qiymətləri göstərilir. Kataloqlar poçt ilə yollanır, satıcı burada malları seçib, onu poçt ilə sifariş edə bilər.

PODRAT MÜQAVİLƏSİ – bu müqaviləyə görə bir tərəf (podratçı) digər tərəfin (sifarişçinin) tapşırığı ilə iş görmək və bu işin nəticəsini sifarişçiyə təhvil vermək öhdəliyi daşıyır. Sifarişçi həmin nəticəni qəbul etməyə və haqqını ödəməyə borcludur. Podrat müqaviləsində işin yerinə yetirilməsinin başlanğıc və son, bəzi hallarda isə aralıq müddətləri, həmçinin görülməli işin qiyməti göstərilməlidir.

Əgər iş tam həcmdə yerinə yetirilməmişdirsə, sifarişçi istənilən vaxtda işin artıq yerinə yetirilmiş hissəsinə mütənasib qiyməti podratçıya ödəməklə müqavilənin icrasından imtina edə bilər. Bu halda, iş sifarişçinin müqavilənin icrasından imtina etməsi haqqında bildiriş alınana qədər görülmüş olmalıdır.

PODRATÇI – müqavilənin tərəflərindən biri olub, müəyyən işi yerinə yetirməyi öhdəsinə götürmüş fiziki və ya hüquqi şəxs. Subpodratçı podratçı və ya əməliyyat şirkəti ilə birbaşa və ya vasitəli müqavilə üzrə, yaxud onların adından tərəflər arasında bağlanmış sazişlə əlaqədar mallar göndərən, işlər görən, yaxud xidmətlər göstərən hər hansı fiziki və ya hüquqi şəxs deməkdir.

PODRATIN SIĞORTALANMASI – tikinti müqaviləsinə



görə işin yerinə yetirilməməsi riskindən sığortalanma.

POLİPOLİYA (ing. polypoly) – rəqabətin saxlanmasına imkan verən məhdud sayda satıcıların yaratdığı bazar vəziyyəti.

POLİS (fr. *police* – *ital. polizza* – qəbz, təqsim edilmə) – sığorta haqqında şəhadətnamə kimi sığortaçı tərəfindən verilən sığorta və təkrar sığorta haqqında yazılı müqavilə. Qərb ölkələrində bütün sığorta növlərindən istifadə olunur. Polis – sığorta müqaviləsini və onun şərtlərinin məzmununu təsdiq etmək üçün sığortaçı tərəfindən onda sığorta olunan şəxsə verilən sənəddir (şəhadətnamədir). Fəaliyyət müddətindən, məsuliyyətin həcmindən və hədlərindən, xüsusi şərtlərdən və s. asılı olaraq polisin bir neçə növü fərqləndirilir. Bəzi ölkələrdə qanunvericilik bütün sığorta sənədləri dəstindən yalnız polisi məhkəmə sənədi kimi qəbul edir. Bir sıra ölkələrdə, həmçinin, sığorta şəhadətnaməsi termini tətbiq olunur. Polis sığorta müqaviləsinin başlanmasını təsdiq edən və sığorta hadisəsi baş verən zaman müqavilə şərtləri ilə müəyyən olunan pul məbləğinin (sığorta kompensasiyası və ya ödəməsi) sığortalıya sığortaçı tərəfindən ödənilməsini nəzərdə tutan sənəddir. Polis sığorta cəmiyyəti (şirkəti) tərəfindən şəxsə, yaxud icarəyə verilən sığorta haqqında müqavilənin bağlanması şərtləri göstərilən sənəddir.

POLİS İLİ – gəmi sahibinin sığorta klubunda (cəmiyyətində) öz məsuliyyətini sığortaladığı vaxt dövrü.

POLİS SAHİBİNİN ÖLÜMÜNƏ QƏDƏR HƏYAT SIĞORTASI – elə həyat sığortasıdır ki, burada polisin sahibi hər il mükafat ödəyir. Mükafatın ölçüsü yaş artdıqca yüksəlmir, sığorta məbləği isə vərəsələrə keçir.

POLİS (SIĞORTA VƏSİQƏSİ) SAXLAYICISI – əmlakı sığortalayan, sığortaçı ilə şəxsi sığorta müqaviləsi və ya məsuliyyətin sığortası müqaviləsi bağlayan fiziki və ya hüquqi şəxs. Polis saxlayıcısı sığorta haqqı ödəyir və qanuna əsasən (məcburi sığorta) və ya müqaviləyə əsasən (könüllü sığorta) sığorta halı yarandıqda ödəniş (sığorta məbləği) almaq, eləcə də həmin məbləğin başqa şəxs tərəfindən alınmasını təmin etmək (şəxsi sığortada məsuliyyətin sığortalanması zamanı) hüququna malik olur.

Əmlak sığortasında polis saxlayıcısı əmlakın mülkiyyətçisi, əmlakı icarəyə götürmüş və ya istifadə üçün əldə etmiş şəxs, maddi qiymətliləri saxlamaq üçün girov kimi qəbul edən təşkilat (lombard) ola bilər.

Şəxsi sığortada polis saxlayıcısı özünü, başqa şəxsləri (məsələn, uşaqlarını) sığortalamış vətəndaşlar, eləcə də öz işçiləri barəsində sığorta müqavilələri bağlayan təşkilatlardır.

Məsuliyyətin sığortasında polis saxlayıcısı kimi polis saxlayıcısının hər hansı fəaliyyəti (və ya onun fəaliyyətsizliyi) nəticəsində yarana biləcək ziyanın (zərərin) ödənilməsi üzrə öz vəzifələrini qanun və ya müqavilə əsasında üçüncü şəxslərə həvalə edən istənilən fiziki və ya hüquqi şəxs çıxış edir.

POLİS ŞƏRTLƏRİNİN İZAHI – polis şərtləri elə izah olunmalıdır ki, onların mənaları təhrif olunmasın. Hər bir ikimənalı, qeyri-dəqiq və qeyri-müəyyən polis ifadələri sığortalının xeyrinə izah edilməlidir.

POLİSƏ GÖRƏ HAQQ – mükafatların toplanmasına görə xərclərin ödənilməsi üçün hər bir mükafata əlavə edilən polisin ölçüsündən asılı olaraq təsbit olunmuş ödəniş.

POLİSİN FƏALİYYƏT GÖSTƏRMƏSİNİN SON MÜDDƏTİ – sığorta müqaviləsinin fəaliyyət müddətinin bitməsidir ki, bu müddət başa çatdıqdan sonra müqavilənin fəaliyyət müddəti ərzində öhdəliklərin yerinə yetirilməməsi zamanı bu öhdəliklərin icrasının iddia müddəti ərzində məhkəmə qaydasında tələb etmək olar.

POLİSİN FƏALİYYƏTİNİN DAYANDIRILMASI – mükafatların ödənilməməsi nəticəsində mümkündür. Müqavilə şərtinin yerinə yetirilməməsi ("non-forfetyur") zamanı və ya "non-forfetyur" haqqında qaydaların olmaması zamanı mükafat ödənişlərinin saxlanması haqqında razılaşmanın fəaliyyət müddəti bitdikdən sonra polis qüvvəsini itirir.

POLİSİN SON FƏALİYYƏT MÜDDƏTİ – polisin örtülməsinin bitmə vaxtı.

POLİS-SIĞORTA MÜQAVİLƏSİ – polisin (sığorta vəsiqəsinin) üz tərəfində müqavilənin əsas müddəaları, əks tərəfində isə sığorta qaydaları göstərilmişdir. Valyutalaşmış polisdə sığorta məbləği göstərilir. Valyutalaşmamış polisdə sığortalanan məbləğin maksimum həcmi göstərilir. Baş polisdə sığorta olunan müəyyən dövr ərzində

bütün yükgöndərmələrinin sığortalanması göstərilir. Qrup polisi sığorta olunanlar kollektivinə verilir. Müqavilәli polis müqavilənin bağlandığı andan ödəmələri alana qədər riskləri örtür. Dövlət rüsumu ödənilməmiş qaldıqda polis açıq olur. "Taksa" edilmiş polisdə sığorta obyektinin dəyəri dəqiq göstərilir.

POPOV QAVRİİL XARİTONOVİÇ (1936) – rus iqtisadçısı; Beynəlxalq İqtisadçılar İttifaqının (Bİİ) prezidenti; Rusiya Azad İqtisadçılar Cəmiyyətinin (RAİC) prezidenti; Moskvadakı Beynəlxalq Universitetin prezidenti; Beynəlxalq Menecment Akademiyasının fəxri akademiki, prezidenti; Təbiət Elmləri Rusiya Akademiyasının akademiki; i.e.d.; professor.



1959-cu ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin İqtisadiyyat fakültəsini bitirib. Stalin və Lenin təqaüdlərinə layiq görülüb. Mühasibat uçotu və təsərrüfat fəaliyyətinin təhlili kafedrasında aspirantura-da saxlanılıb. 1963-cü ildə "İnformasiya maşınlarının iqtisadiyyatda tətbiqi" mövzusunda namizədlik, 1971-ci ildə isə "İctimai istehsalın idarə edilməsi nəzəriyyəsinin metodoloji problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1963-1968-ci illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin İqtisadiyyat fakültəsində assistent, dosent, laboratoriya müdiri, kafedra müdiri və dekan işləyib. 1971-1973-cü illərdə MDU-da işləyərkən, eyni zamanda SSRİ EA İctimai Elmlərin İnformasiya İnstitutunda elmi-tədqiqat işi ilə də məşğul olmuşdur. Həmin vaxt R.İ.Xasbulatov onun müavini olub. 1988-1992-ci illərdə "Вопросы экономики" jurnalının baş redaktoru işləyib və onun dövründə jurnalın tirajı 80 minə çatdırılıb. Onun elmi rəhbərliyi altında 50 namizədlik və 4 doktorluq dissertasiyası müdafiə olunub. O, 300-dən artıq elmi əsərin, o cümlədən 18 şəxsi və 15 kollektiv müəllifli monoqrafiyanın müəllifidir. Onun kitabları Çin, Macarıstan, Bolqarıstan, Monqolustan, Vyetnam, Kuba və digər ölkələrdə tərcümə olunaraq nəşr olunmuşdur. A.Acubeylə yazdığı "Nə etməli?" kitabı Fransa, Yaponiya, Koreyada, "Yenidənqurma" kitabı isə İtaliyada yenidən nəşr olunub.

O, həmişə sosialist iqtisadiyyatını modernləşdirməyə çalışırdı. Sosialist iqtisadiyyatında müəssisələrin yeri, onların tamamilə təsərrüfat hesabına keçməsi, nazirliklərin birləşdirilməsi, idarəetmənin iqtisadi metodları, kadrların idarə edilməsi, rəhbərin işinin təşkili və s. problemlər ilə məşğul olmuşdu. Bütün bu tədqiqatlar nəticə vermədiyində Popov sovet sisteminin qeyri-səmərəli olduğu qənaətinə gəldi və bu sistemi inzibati sistem adlandırdı ki, bu da hamı tərəfindən qəbul edildi. 1985-ci ildə nəşr etdirdiyi "Səmərəli idarəetmə" kitabında o, sosializmin Çin variantına oxşar yeni modelini irəli sürdü. Sov.İKP-nin islahatlar aparmaq iqtidarında olmadığı qənaətinə gələn Popov ona müxalif oldu və 1991-ci ildə Moskva meri seçildi. Onun rəhbərliyi altında yaşayış evlərinin, ticarət, ictimai iaşə və xidmət obyektlərinin pulsuz özəlləşdirilməsi həyata keçirildi.

1986-cı ildə Lomonosov mükafatına layiq görülüb. O, Tokio və Seul şəhərlərinin, Merilend ştatının (ABŞ) fəxri vətəndaşıdır. Cənubi Yuta Universitetinin (ABŞ), Daulinq Kollecinin (Nyu-York) fəxri doktorudur.

PORTFEL (fr. *portefeuille* – daşımaq) – 1. Müəyyən tarixə firma, sahə, makroiqtisadiyyat səviyyəsində əmtəələr sifarişi toplusu. 2. Fiziki və ya hüquqi şəxsin malik olduğu qiymətli kağızların portfelidir. 3. İqtisadi subyektin var-dövlətini təşkil edən aktivlərin kombinasiyasıdır. İqtisadiyyatın portfel tədqiqini elmə ilk dəfə C.Hiks gətirmişdir. Sonradan onun təlimini qeyri-müəyyənlik və risk amilini əlavə etməklə Q.Markovits və qiymətli kağızlar bazarında vəziyyəti nəzərə almaqla alternativ aktivlərin qiymətləndirilməsini əlavə edən U.Şarp və firmanın kapitalının strukturu və dividendlərin bölüşdürülməsini əlavə edən M.Miller ge-



nişləndirmişlər. Onların hər biri 1990-cı ildə Nobel mükafatı almışdır.

PORTFEL İNVESTİSİYALARI – fond bazarının konyunkturası dəyişdikcə qiymətli kağızların satışı üçün onların alınmasıdır. Başqa sözlə, mənfəət əldə edilməsi məqsədilə səhmlərə, istiqrazlara və uzunmüddətli digər qiymətli kağızlara vəsaitlərin qoyulması, kreditordan asılı olmayan borc alana kredit verilməsidir. Portfel investisiyalarının idarə edilməsi portfel meneceri adı altında hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilir. Portfel investisiyalarının əsas məqsədi – möhtəkirlik mənfəətinin (fond bazarındakı oyunlardan) və ya kreditə görə faizlərin əldə edilməsidir.

PORTFEL NƏZƏRİYYƏSİ və ya qiymətli kağızlar portfelinin idarə edilməsi nəzəriyyəsi – müəyyən risk dərəcəsinə malik olan müxtəlif qiymətli kağızlar portfelindən gözlənilən daxilolmaların maksimum sayını investor üçün təmin edə biləcək yolların tədqiq edilməsi. Digər tərəfdən, qiymətli kağızlar portfeli öz sahibinə gətirdiyi gəlirlərin müəyyən səviyyəsində minimum riskə malik ola bilər. Qiymətli kağızlardan əldə edilən gəlir faizlər və ya dividendlər ilə müəyyən dövr ərzində qiymətli kağızlara malik olmaq hesabına kapitalın hər hansı artımının cəmi və ya bu hesaba yaranmış ziyanın fərqinə bərabərdir. Portfelə daxil olan qiymətli kağızlar kolleksiyasından gözlənilən daxilolmalar həmin portfeli təşkil edən fərdi investisiyalar hesabına gözlənilən daxilolmaların orta qiymətidir. Lakin unutmaq olmaz ki, qiymətli kağızlar portfelinə malik olmaq riski (ehtimalı) fərdi investisiyalara malik olmaq riskindən xeyli aşağıdır.

PORTFEL SIĞORTASI – qiymətli kağızlar portfelinin maliyyə itkilərindən avtomatik sığortalanması. Bu sığortalanma fyuçers indeksləri vasitəsilə həyata keçirilir. Qiymətli kağızların məzənnə riski yüksək olduğundan sığorta şirkəti bu sığorta üçün ən yüksək sığorta haqları tələb edir. Portfel sığortası əsas etibarilə qısamüddətli olur.

PORTFOLİO (ing. *portfolio* – mühüm sənədlər üçün qovluq) – firmanın və ya mütəxəssisin imkanları, potensialı, xidmətləri barədə fərziyyə söyləməyə imkan verən mühüm sənədlərin, peşəkar iş nümunələrinin, fotoşəkillərin toplusu (adətən portfolionu rəssamlar, memarlar, fotoqraflar, fotomodellər və başqaları tətbiq edir).



PORTO (ital. *porto* – port xərcləri) – kredit, sığorta, ticarət və digər təşkilatlar, eləcə də, öz müştəriləri üçün xüsusi şəxslər tərəfindən yerinə yetirilən portteleqraf xərcləri.

POSESSOR HÜQUQU – kirayəçi icarə müqaviləsini yerinə yetirmədiyi təqdirdə, icarə olunan obyektin sahibinin kirayəçiyə məxsus olan əmlakı girov qismində istismar etmək üzrə qanuni hüququ.

POSTAUDİT – investisiya layihəsinin həyata keçirilməsinə başlamazdan əvvəl qiymətləndirilməsi.

POST NUMERANDO ("geri") **RENTASI** – sığorta təminatının növbəti ödənişi üçün müəyyən edilən hər dövrün sonunda ödənilən renta.

POSTİNDUSTRİAL CƏMİYYƏT NƏZƏRİYYƏSİ – Amerika sosioloqu Daniel Bellin postindustrial cəmiyyət nəzəriyyəsində sənayeləşmə bitdikdən sonra cəmiyyətin iqtisadi xüsusiyyətləri haqqında məsələ qarşıya qoyulur.

Postindustrial cəmiyyət, Bellin fikrincə, beş əlamətlə xarakterizə olunur: 1) iqtisadiyyatın malların isehsalından xidmətlərin istehsalına keçidi; 2) məşğul işçilər arasında ixtisaslı mütəxəssislər və texniklərin üstünlük təşkil etməsi; 3) nəzəri biliyin aparıcı rolu; 4) texniki-iqtisadi mühitin texnologiyalar üzərində nəzarətə istiqamətlənməsi; 5) yeni "intellektual texnologiya" qərarlarının qəbuletmə prosesinin təmin olunması. Bell "sənayeləşmə" böhranından çıxışı həm "postindustrial

Postindustrial cəmiyyət

Postindustrial cəmiyyətinin xarakteristikası
Postindustrial cəmiyyətdə təbii resursların hasilatı və emalı informasiyanın yığılması və işlənməsi, həmçinin xidmət sahələrinin inkişafı ilə əvəz olunur
İnformasiya texnologiyaları ictimai həyatın mühüm sahələrini zəbt edir: sənaye, siyasət, hərbi, mədəniyyət
Texnoloji bazisin dəyişməsi (tətbiqi biliyin tərəqqisi və istehsal vasitələrinin təkmilləşdirilməsi) bütün sosial əlaqələrin təşkilinə təsir etmişdir
Məşğulluğun, peşəkar ixtisaslaşmış qrupların nisbəti, strukturu dəyişilir
Cəmiyyətdə sosial mövqelərin strukturu sosial statusla müəyyənləşdirilir
Statuslar insanın peşəkar fəaliyyəti, onun təhsili, təcrübəsi, istedadı və s. əsasında müəyyənləşdirilir

Sxem 1

meyillərinin" inkişafında, həm də mədəniyyətin din ilə qırılmasının dəf edilməsində görür.

Postindustrial cəmiyyət haqqında ideyanın digər variantı Amerika sosioloqu və futuroloqu Alvin Toffler tərəfindən "Üçüncü dalğa" kitabında (1980) irəli sürdüyü supertindustrializm nəzəriyyəsidir. Müəllif sənayeləşmənin iflası və "yeni sivilizasiyanın" yaranması ilə müasir cəmiyyətin yaşadığı dəyişikliklər prosesinin mürəkkəbliyini və müxtəlifliyini izah etməyə çalışır. Belə keçidi o, tarixi inkişaf prosesində diyirlənib gələn "dəyişikliklər dalğasının" ardıcıl olaraq dəyişməsi nəzəriyyəsi ilə izah edir. Təxminən on min il əvvəl "sivilizasiyanın aqrar dalğası" başladı. XVII əsrin sonlarından Avropada sənaye inqilabı başladı, bu da "planetar dəyişikliklərin" ikinci böyük dalğasına və sənayeləşmə sivilizasiyasının təsdiqinə gətirib çıxartdı. XX əsrin 60-cı illərindən isə, "üçüncü dalğanın" yaxınlaşması başladı.

Sosial psixologiya və cəmiyyətin həyat tərzi sahəsində "üçüncü dalğa" "istehsal və istehlaka yönələn sənayeləşmə fərdindən" "mənəvi dəyərlərə və yaradıcılığa istiqamətlənən yeni şəxsiyyətə" keçid deməkdir. Pula sitayiş, hökmranlıq və tabeçilik münasibətləri əvəzinə qarşılıqlı anlaşma və qarşılıqlı yardım münasibətləri; iri təşkilatlar çərçivəsində sərt əmək intizamı əvəzinə sürüşkən qrafik üzrə kiçik təşkilatlarda və evdə könüllü əmək; əvəzedilməz resursların israfçılığı əvəzinə təbiətlə, təzələnmiş enerji mənbələrinə əməkdaşlığa istiqamət; artım xatirinə artım əvəzinə məhdud balanslaşdırılmış artım.

POSTİNDUSTRİAL CƏMİYYƏT PARADİQMASI – qloballaşma kontekstində formalaşaraq mühüm mənəvi energetik resursu insan biliyi və in-

Cədvəl 1

Postindustrial cəmiyyət

İqtisadiyyat	Xidmət sahəsinin istehsal sahəsindən üstünlüyü
Siyasət	Hüquqi dövlətin formalaşması və demokratiyanın gələcək inkişafı
Sosial sahə	Peşəkar bölgü, vətəndaş cəmiyyətinin inkişafı
Mənəvi sahə	Elmə və təhsilə üstünlük verilir



formasiyada ehtiva olunan, xidmətin sferasının genişlənməsi, istehsalın müəyyən məhdudlaşması, deindustrializasiya, deurbanizasiya ilə müşayiət olunan yeni cəmiyyət tipi.

POST-YOXLAMA – yoxlamadan sonra şirkətin səmərəliliyinin qiymətləndirilməsi.

POTENSİAL (lat. *potentia* – qüvvə, güc) – geniş mənada – müəyyən məqsədə çatmaq, planlı, hər hansı tapşırığı həyata keçirmək üçün mövcud olan, səfərbər edilən və hərəkətə gətirilə bilən vəsait, ehtiyat, mənbə; ayrıca şəxsin, cəmiyyətin, dövlətin müəyyən sahədəki imkanı; iqtisadi potensial, istehsal potensialı. "Potensial" termini riyaziyyat, fizika, texnika, biologiya və kimyada, hərbi işdə də işlədilir.

POZİSİYALAŞMA – məqsədli bazarın (yəni şirkətin harada rəqabət etməyə niyyətli olmasının təyin edilməsi) və fərqli üstünlüklərin (şirkətin necə rəqabət etməyə hazırlaşmasının müəyyən edilməsi) seçimi. Malın pozisiyalaşması – istehlakçının düşüncəsində şirkətin malının nadir surətinin formalaşması. Pozisiya müdafiəsi – mövcud malların ətrafında "fortifikasiya" istehkamlarının yüksəldilməsi.

POZİSİYALAŞMA DİAQRAMI – alıcıların nöqteyi-nəzərindən marka pozisiyasının müəyyən edilməsi üçün əlverişli alət (qavramanın sxem-kartı adı altında da məşhurdur).

POZİTİV İQTİSADİ NƏZƏRİYYƏ – bu nəzəriyyə iqtisadi faktlar arasında asılılıqları öyrənmək əsasında iqtisadiyyatda nələrin mövcud olduğu və nələrin baş verə biləcəyi sualına cavab verir. Məsələn, cari istehlakın azalması əmanətlərin artmasına gətirib çıxarır.

Pozitiv iqtisadi nəzəriyyə insanların iqtisadi davranışı barədə elmi təsəvvürlər yaratmalıdır. O, faktlarla işləyir və subyektiv mühakimələrdən azaddır; iqtisadiyyat sahəsində münasibətləri və iqtisadi şəraiti təsvir edir (məsələn, hazırda işsizlik hansı səviyyədədir və işsizliyin artması inflyasiyaya necə təsir göstərir). Pozitiv iqtisadi nəzəriyyə dəyişənlər arasında münasibətləri aydınlaşdırmağa kömək edir. Eyni zamanda həmin münasibətləri müqayisə edir, gələcəkdə bu dəyişənlərdən hər hansı biri variasiyaya məruz qaldıqda nələr ola biləcəyini proqnozlaşdırır.

İstehsalın effektivliyi problemi pozitiv iqtisadi nəzəriyyənin tərkib hissəsidir. Bu nəzəriyyə iqtisadi fəaliyyəti, bu və ya digər təsisatların iqtisadi sistemə təsirlərini təhlil edir. İqtisadi hadisələrin və proseslərin qanunauyğunluqlarını aşkar etməyə imkan verir, normativ iqtisadiyyat nəzəriyyəsi ilə sıx əlaqəli şəkildə inkişaf edir və zənginləşir.

Pozitiv iqtisadi nəzəriyyənin metodları:

1) limit analizi və ya marjinalizm;
2) funksional analiz;
3) taraz yanaşma;
4) nəzəriyyənin verifikasiya edilməsi (yoxlanması) metodu.

Mikroiqtisadi nəzəriyyənin metodologiyasında çıxış nöqtəsi mikroiqtisadiyyatın pozitiv və normativ nəzəriyyələrə bölünməsidir.

PRAYMERİZ – ABŞ-da namizədlərin seçkili vəzifələrə irəli sürülməsi üçün seçicilərin ilkin yığıncağı, həmçinin, belə seçkilərdə səsvermə prosesinin özü.

PRAYM-RAYT – ABŞ banklarının birinci sinif müştərilərə (daimi, daha kredit qabiliyyətli) kreditlər üzrə faiz sistemi. Praym-rayt nisbətən nadir halda dəyişilir və kredit dəyərinin müəyyən edilməsi üçün əsasdır (əlavə kreditləşmə riskinin səviyyəsindən asılıdır).

PRAYM-TAYM – 1. Daha yüksək kredit qabiliyyətinə malik

daimi və etibarlı müştəri hesab olunan kredit təşkilatlarından və iri borc alanlardan ("1-ci dərəcəli" borcalanlardan) təminatsız təqdim olunan kreditə görə tutulan ən aşağı faiz dərəcəsi. 2. Digər kredit növləri üzrə dərəcənin hesablanmağa başlandığı minimal faiz dərəcəsi. 3. Radio qovşağı və televiziya translyasiyasının elə dövrüdür ki, bu zaman təxmin edildiyi kimi, radio və televiziya daha geniş auditoriyanı cəlb edir.

PRAYS-LİST – 1. Kurs dəyərini əks etdirən bülleten, birjada nəşr olunan operativ informasiyadır ki, qiymətlər dinamikası haqqında göstəricilərlə təmin edir. 2. Satılan, təchiz olunan məhsula qiymət preyskurantı. Digər mənalarda da işlədilir.

PREFAKSİYA – preferensiya tədbirlərinin müxtəlifliyi.

PREFERENSİAL REJİM (lat. preferensia – güzəşt, imtiyaz) – üçüncü tərəfə şamil olmadan bir dövlətin digər dövlətə verdiyi güzəştli iqtisadi rejim. Çox zaman gömrük rüsumlarına, xarici ticarət və valyuta əməliyyatlarının sığortalanmasına və s. güzəşt kimi tətbiq edilir.

PREFERENSİYALAR – ayrı-ayrı ölkələrin və ya bir ölkənin malları ölkəyə idxal edildikdə onların bir hissəsinə və ya hamısına münasibətdə dövlətlər tərəfindən təyin olunmuş xüsusi, imtiyazlı, daha üstün gömrük rüsumları.

PRENUMERANDO ("irəli") **RENTASI** – sığorta təminatının növbəti ödənişi üçün müəyyən edilən və hər dövrün əvvəlində ödənilən renta.

PRESEDENT (qarşıda gedən, qarşıdakı) – 1. Əvvəllər baş vermiş hadisədir ki, sonralar analoji hallarda nümunə və ya bəraət kimi göstərilə bilər. 2. Məhkəmənin və ya digər dövlət orqanının qərarıdır ki, sonradan belə işlərin həlli zamanı mütləqdir.

PRESKOTT EDVARD (1940) – Amerika iqtisadçısı. Karnegi-Melloni Universitetinin fəlsəfə doktoru, Arizona Universitetinin professorudur. 1992-1995-ci illərdə İqtisadi Dinamika Cəmiyyətinin prezidenti olmuşdur. 2004-cü ildə iqtisadi siyasətin zamanı və işçi dövrlərinin əlaqələndirilməsinə görə Nobel mükafatına layiq görülmüşdür. **Əsas əsərləri:** "Optimal vergiqoyma, rasional gözləmələr və optimal nəzarət dinamikası" (1980), "Gizli informasiyalı iqtisadiyyatda rəqabət tarazlığının ümumi təhlili" (1984).



PREYSKURANT – əmtəə və xidmətlərin qiymətlər məcmusu, tədarükçü və alıcılar arasında əmtəə və xidmətlərin təqdim edilməsinə görə hesablaşmaların aparıldığı rəsmi sənəd. Qiymətlərin növləri (topdan, pərakəndə, alış və s.) üzrə hazırlanır. Preyskurantda əmtəənin adı, onun qısa xarakteristikası, texniki göstəriciləri, standart nömrəsi, artikul, ölçü vahidi, vahidinin qiyməti öz əksini tapır.

PREYSKURANT QİYMƏTLƏRİ (fr. *prix courant* – cari qiymət) – xüsusi sorğu kitabçasında – preyskurantda təsbit olunan sənaye və kənd təsərrüfatı məhsullarının, əmtəə və xidmətlərin qiymətləri. Bir qayda olaraq qüvvədə olma müddəti qeyd olunmadan, lakin beş ildən az olmayan müddətə müəyyən olunur. Preyskurant qiymətlərinin sorğu kitabçaları sərbəst şəkildə dərc olunur, orada aşağıdakı məlumatlar əks oluna bilər: ayrı-ayrı əmtəə kateqoriyalarının bazis qiymətləri; ölçü, keyfiyyət və s. görə tətbiq edilən əlavələr; təyinat yeri, qiymətləndirmə metodu; nəqletmə üsulları; onların təqdim edilməsi şərtləri və güzəştlər; vergilər və qiymətin faktiki ölçüsünün asılı olduğu digər şərtlər.

PREVENSİYA – xəbərdarlıq, xəbərdarlıq hərəkətləri.

PRİFİKS – müəyyən edilmiş qiymət elə bir qiymətdir ki, onu aşağı salmaq və ya yuxarı qaldırmaq olmaz.

PRİMA – veksel tədavülündə köçürmə vekselinin ilk nüsxəsini belə adlandırırlar. Onun üzərində belə bir qeyd edilir: "Əgər ikinci və üçüncü nüsxə üzrə ödəniş olmayıbsa, əsl birinci üzrə ödəyin". Hər nüsxədə onun hesab üzrə necə olduğu qeyd olunur:

– birinci – "prima";
– ikinci – "sekunda";
– üçüncü – "tersiya".

PRİNSİPAL – 1. Öhdəlikdə əsas borclu; nümayəndənin adından hərəkət edən şəxs. 2. Fiziki və ya hüquqi şəxsdir ki, onun tapşırığı üzrə və onun hesabına agent (broker) birja əməliyyatları aparır. 3. Şirkət, investisiya bankıdır ki, təkrar bazarda öz hesabına qiymətli kağızları alır və bu zaman məqsəd gələcəkdə onları mənfəətlə

yenidən satmaqdır. 4. Elə şəxsdir ki, onun xahişi ilə bank, kredit təşkilatı və ya sığorta təşkilatı (təminat) pul məbləğinin ödənişi üzrə onun kreditoruna (benefisiarına) təminat öhdəliyi verir.

Açılmamış prinsipal – sövdələşmədə öz nümayəndəsi və ya agenti vasitəsilə anonim olaraq, öz adını elan etmədən iştirak edən şəxsdir.

PROAKTİV MODEL – sosial-iqtisadi fəaliyyətin sistemaltılarından biri kimi əhalinin iqtisadi vəziyyətinin yaxşılaşdırılmasını təmin edən kompleks ölçülər sistemi.

PROBLEMİN GENİŞLƏNDİRİLMİŞ HƏLLİ – məlumatların geniş və dərindən axtarışı alternativ qərarların çoxsaylı müxtəlif meyarların qiymətləndirilməsi əsasında aparılan əsaslı təhlil.

PRODAKŞN ŞERRİNQ – neft-qazçıxarmada xarici kapitalın cəlbində geniş yayılmış xüsusi forma, hasilatın pay bölgüsü haqqında saziş. Belə əməkdaşlıq bir çox ölkələrdə, xüsusən də, Rusiyada tətbiq edilir. Bu ölkədə "Prodakşn-şerrinq", hasilatın pay bölgüsü üzrə əməkdaşlıq müvafiq adla ifadə olunan və 1995-ci ildən fəaliyyət göstərən xüsusi qanunla tənzimlənir. Mövcud praktikaya əsasən, belə fəaliyyət aşağıdakı nəzəri sxem üzrə təsbit olunur. Neft hasil edən müəssisə dövlətlə sazişə girərək bir çox ödənişlər və vergilər müqabilində hasil edilən məhsulun pay bölgüsü imkanını qazanır və yalnız mənfəətdən vergi ödəyir. Hər bir saziş yerli şəraiti nəzərə almaqla, fərdi xüsusiyyətlə tərtib



olunur. İnvestorun payına düşmüş hasil edilən neft həm daxili, həm də xarici bazarda reallaşa bilər. Mübahisələr iqtisad məhkəmələrində həllini tapır.

PRODÜSER – bir qayda olaraq, fonoqramların, audiovizual əsərlərin istehsalını, yayımını təşkil edən və maliyyələşdirən şəxs.

PROFESSİYA (lat. Professio – məşğuliyyət, ixtisas) – əmək fəaliyyətinin növü, məşğuliyyət, xüsusi hazırlıq tələb edir və yaşamağın mənbəyi hesab olunur. Professiya əmək bölgüsü nəticəsində yaranır. XX əsrin sonlarında onların sayı bir neçə minə çatdı.

PROFİSİT – müsbət saldo, artıqlıq.

PROKURİST – bəzi ölkələrdəki ticarət müəssisələrinə vəkil edilmiş, istənilən hər cür sazişləri bağlamaq üçün qeyri-məhdud səlahiyyəti olan şəxs.

PROQNOZ (yun. prognosis – öncədəngörmə) – obyektin gələcəkdə vəziyyəti, yaxud bu vəziyyətə nail olunması üçün alternativ yollar və müddət barədə elmi əsaslandırılmış mülahizə. Bu mülahizə təxmini xarakter daşısa da, müəyyən mənada yenə əsaslandırılmış olur. İqtisadi proqnozlar operativ, qısamüddətli, perspektiv (ortamüddətli və uzunmüddətli) növlərə bölünür. Analitik proqnoz – demoqrafik proqnoz. Məqsədli əhalinin təkrar istehsalının müasir meyillərinin əhalinin gələcək sayına və tərkibinə, həmçinin, bütövlükdə sosial-iqtisadi inkişafa mümkün təsirini qiymətləndirmək sistemidir. Adətən əhalinin sayı və cins-yaş tərkibinin qiymətləndirilməsi kimi ifadə olunur. Qiymətləndirmə əhalinin təkrar istehsalı dəyişməz olduğu, həmin vaxtda müşahidə olunan doğum, ölüm və miqrasiya meyillərinin saxlandığı, yaxud onlarda bəzi dəyişikliklərin olduğu fərziyyə əsasında edilir. Proqnozun müxtəlif variantlarının müqayisəsi əhalinin artım komponentlərinin hər birinin təsir dərəcəsini qiymətləndirməyə imkan verir.

PROQNOZLAŞDIRMANIN FAİZLİ METODU (*percent-of-sales method*) – proqnozlaşdırma metodu. Bu zaman belə bir ehtimaldan istifadə olunur ki, maliyyə hesabatının çoxsaylı maddələri ilə gələn il satış həcmləri arasında nisbət keçən il olduğu qədər olacaqdır.

PROQNOZUN ETİBARLILIĞI – proqnozun özünü doğrultması ehtimalı. Ekspert üsulu və ya proqnozun etibarlılıq intervalının eni əsasında hesablanır.

PROQRAM TƏMİNATININ ETİBARLILIĞI – istismar prosesində iş qabiliyyətinin saxlanmasına görə proqram təminatının xüsusiyyəti. Nasazlıq nəticəsində proqramın yerinə yetirilməsində meydana çıxan səhvlərlə xarakterizə olunur. Səhvlər həm tapşırığın yerinə yetirilməsində müəyyənləşdirilmiş ardıcıllığın pozulması (proqramın işinin pozulması) kimi, həm də maşının müxtəlif əməliyyatları düzgün yerinə yetirməməsi və ya EHM-in yaddaşında saxlanan məlumatların təhrifi kimi meydana çıxa bilər. Sıradan çıxmanın son nəticəsi çıxış məlumatlarının təhrif edilməsinə və ya proqramın "daim eyni yerdə təkrarlanmasına" səbəb olur.

PROQRAMLAŞDIRMAYA NƏZARƏT VASİTƏLƏRİ (ing. *proqramming controls*) – operativ rejimli əsas qurğular vasitəsilə kompüter proqramlarına edilən yanlış dəyişikliklərin aşkar edilməsi və qarşısının alınması. Nəzarət vasitələrinin köməyi ilə, məsələn, ayrıca əməliyyat və proqram yaratma kitabxanalarından, xüsusi proqramlar kitabxanasına aid proqram təminatından istifadə etməklə bu proqramlara müdaxilə məhdudlaşdırıla bilər. Operativ rejimdə proqramlara edilən dəyişikliklərin müvafiq qaydada sənədləşdirilməsi, idarə edilməsi və onlara nəzarətin həyata keçirilməsi vacibdir.

PROQRESSİV VERGİ – vergitutma obyektinin dəyərinin artmasının vergi dərəcələrinin artımı ilə müşayiət olunmasına deyilir. Azərbaycan Respublikasında tətbiq olunan fiziki şəxslərin gəlir vergisi proqressiv vergidir. Belə ki, aşağı gəlir əldə edən (2000 manatadək) fiziki şəxslər 14 faiz dərəcə ilə, yüksək gəlir əldə edən (2000 manatdan yuxarı) fiziki şəxslər isə 30 faiz dərəcə ilə gəlir vergisi ödəyirlər.

PROLONQASİYA ƏQDİ – alıcıya və ya satıcıya əməliyyatın vaxtını uzatmaq və bazarda qiymətli kağızların məzənnəsinin dəyişməsindən asılı olaraq qəti hesablaşmanı təxirə salmaq hüququ verən qiymətli kağızlarla bağlı əqd.

PROPORSİONAL (MÜTƏNASİB) VERGİ – müəyyən növ vergini ödəyən vergi ödəyicilərinin hamısı üçün bu verginin eyni dərəcədə tətbiq olunması deməkdir. Məsələn, Azərbaycan Respublikasında tətbiq olunan mənfəət vergisi vergitutma bazasının həcmindən asılı olmayaraq 20 faiz dərəcə ilə tutulur. Yəni, vergi dərəcəsi *t*, mənfəətin ümumi məbləği *y* olduqda, vergi ödəmələrinin ümumi məbləği ty olacaqdır. Bu halda, sərəncamda olan verginin məbləği isə yalnız $y-ty = y(1-t)$ olacaqdır. Xalis vergi dərəcəsi 0,1 və ya 10 % olduqda təsərrüfat subyektinin sərəncamda qalan gəlir ümumi milli gəlirin yalnız 90%-nə bərabər olacaqdır. Məsələn, əgər milli gəlir 1000 manatdırsa, onda təsərrüfat subyektinin sərəncamında olan gəlir cəmi 900 manat olacaqdır. Məhsul buraxılışının hər bir səviyyəsində vergi dərəcəsinin dəyişməsi sərəncamda olan gəlirin məbləğinə təsir göstərir, bu da öz növbəsində, istehlak xərclərinin, məcmu tələbin və nəticə etibarilə istehsalın tarazlaşmış həcminin dəyişməsinə səbəb olur.

PROPORSİONAL PÜŞKATMA – səhmlərin yeni buraxılışına abunə artıq olduğu halda keçirilən püşkatma. Bu halda, səhmlərin bölüşdürülməsi sifariş edilmiş səhmlərin sayından asılı olaraq həyata keçirilir. Üstünlüyün xırda, yoxsa iri investorlar tərəfində olması direktorlar

Cədvəl 1

Proporsional vergi

Gəlir, doll.	Vergi dərəcəsi, %	Vergi məbləği, doll.
100	10	10
200	10	20
300	10	30

Vergi məbləği gəlir artdıqca yüksəlir, gəlir azaldıqca isə aşağı düşür

şurası tərəfindən qəbul edilmiş qərardan asılıdır.

PROPORSİONAL TƏKRAR SIĞORTA – təkrar sığorta növü özündə kvota və ekssedent təkrar sığortanı və onun digər formalarını ehtiva edir. Bu zaman təkrar sığortaçı zərərlərin ümumi həcmində və mükafatların ümumi həcmində öz payına malikdir. Proporsional təkrar sığorta – sığortaçı və təkrar sığortaçının hər birinə düşən risklərə görə məsuliyyətin bir hissəsinə uyğun olaraq həmin sığortaçı ilə təkrar sığortaçı arasında sığorta haqlarının bölgüsüdür. Bu, kvota və ekssedent sistemləri zamanı baş verir. Kvota sistemi zamanı sığortaçı hər bir sığorta məbləğindən sabit faizdə təkrar sığorta payı müəyyən edir. Ekssedent sistemi zamanı həmin kateqoriyadan olan risklərin müəyyən ölçüsündən artıq olan sığorta məbləğinin bir hissəsi təkrar sığortalanır. Proporsional təkrar sığorta – tam və ya qismən itkinin sığortalanması zamanı təkrar sığortaçının payını, eləcə də orijinal mükafat formasında təkrar sığortaçının payını müəyyən edən, təsbit olunmuş faiz nisbəti əsasında sedentlə sessioner arasında riskin bölgüsüdür. Proporsional təkrar sığorta – bu sığorta növünün xüsusiyyəti ondan ibarətdir ki, sığorta məbləği, sığorta haqları və sığorta ödənişləri burada təkrar sığortalı ilə təkrar sığortaçı arasında proporsional (mütənasib), yəni onların öz məsuliyyətinə qəbul etdikləri paylara uyğun olaraq bölüşdürülür. Proporsional təkrar sığortada da, öz növbəsində, kvota təkrar sığortası və ekssedent məbləği metodu üzrə təkrar sığorta fərqləndirilir. Proporsional təkrar sığorta – bağlanmış müqaviləyə görə örtülmək üçün təkrar sığortaçıya verilən riskdə onun payı sedentin özünün iştirakına əvvəlcədən razılaşdırılmış nisbətə görə müəyyən edilir. Proporsional təkrar sığorta tarixən ən qədim sığorta növlərindən biri sayılmış, XIX əsrin sonuna qədər, demək olar ki, təkrar sığorta riskinin yeganə ümumi forması olmuşdur. Bu baxımdan proporsional təkrar sığorta ənənəvi təkrar sığorta adlanır. Proporsional təkrar sığorta müqaviləsinin aşağıdakı formaları mövcuddur: kvota (quta share treaties); ekssedent (surplus treaties); kvota-ekssedent və ya qarışıq.

PROTEKSİONİZM (lat. *protectio* – himayəçilik, müdafiə) – xarici malın birbaşa və vasitəli məhdudlaşdırılmasının müxtəlif formalarından istifadə edilməklə milli iqtisadiyyatın sahələrini xarici rəqabətlərdən mühafizə və milli biznesin xarici bazarlarda genişlənməsinə şərait yaradılması məqsədi ilə aparılan siyasət. Proteksionizm iqtisadi himayəçilikdir. Proteksionizm iqtisadi siyasət kimi Avropada kapital yığımının baş verməsinin ilkin mərhələsində (XVI-XVIII əsrlər) yaranmışdır. Müasir dünya təcrübəsində proteksionizm dövlətlər tərəfindən geniş tətbiq olunur. Müharibədən sonra Amerika, Avropa, Asiya və Afrikadakı inteqrasiya prosesləri kollektiv proteksionizmin (Avropa İqtisadi Birliyi, OPEK və s.) yaranmasını şərtləndirdi. Məsələn, AB öz daxilində ticarət məhdudiyyətlərinin ləğvi yolu ilə (gömrük rüsumları, kvotalaşdırma, lisenziyalaşdırma) yanaşı, xarici ölkələrə qarşı vahid ticarət maneələrini tətbiq edir. İnkişaf etmiş ölkələrdə sözün geniş mənasında aqrar proteksionizmi tətbiq olunur. Onlar bunu yerli fermerləri və daxili bazarı qorumaq məqsədilə edirlər. Lakin proteksionizm tədbirləri QATT və sonradan onun əsasında yaradılmış ÜTT tərəfindən məhdudlaşdırılır. 1994-cü ildən etibarən mütəmadi olaraq gömrük rüsumlarının və ticarət maneələrinin azaldılması istiqamətində danışıqlar aparılır. Əlbəttə, ÜTT-yə üzv ölkələrin əksəriyyətinin inkişaf etməkdə olan ölkələr olması da öz sözünü deyir. XXI əsrin əvvəllərində, dünya maliyyə böhranının tüğyan etdiyi bir dövrdə də proteksionizm alətlərindən yenidən fəal surətdə istifadə etməyə başlayırlar. ÜTT-nin kəskin etirazlarına baxmayaraq İEÖ, Rusiya və digər ölkələr belə addımlara əl atırlar (bax: sxem 1).

PROTOKOLUN TƏHLİLİ – marketinq araşdırmalarının bu metodunun mahiyyəti ondan ibarətdir ki, respondent qərar qəbul edilməsi ilə əlaqədar müəyyən vəziyyətə salınır. O, qərarın qəbulu prosesində rəhbər tutduğu bütün amilləri və arqumentləri sözlə təsvir etməlidir. Bəzən bu metod videoaparaturadan istifadə edilməsini nəzərdə tutur. Tədqiqatçı respondentlər tərəfindən təqdim olunmuş protokolları təhlil edir. Protokolun təhlili metodu qərar qəbulu ərəfəsində paylandığı hallarda, məsələn, ev almaq haqqında qərar qəbul edilərkən

istifadə edilir. Bu halda, tədqiqatçı ayrı-ayrı mərhələlərdə qəbul edilən qərarları vahid tam şəklində toplayır.

Qəbul edilməsi prosesi çox qısa olan qərarların təhlilində də bu metoddan istifadə edilir. Bu halda protokolun təhlili metodu qərar qəbul edilməsinin sürətini azaldır. Protokolun təhlili bu cür alışların bəzi aspektlərindən baş çıxarmağa və onların motivlərini başa düşməyə imkan verir.

PRUDENSİAL (lat. *prudens*) – ağıllı, dərrakəli, ehtiyatlı, riskdən imtina edən.

PRUDON PYER JOZEF (1809-1865) – Fransa xırda burjua siyasi iqtisadçısı, "Mülkiyyət nədir?" (1840), "İqtisadi ziddiyyətlər sistemi və ya dilənçilik fəlsəfəsi" (1846), "Vergi nəzəriyyəsi" (1861) adlı iqtisadi əsərlərin müəllifidir. Kapitalizmi tənqid edərək, onun islahatlar yolu ilə dəyişdirməsi ideyasını irəli sürürdü. Lakin sosial məsələlərin həllini o, istehsalda deyil, tədavül və bölgüdə axtarırdı. Bu isə onun xırda burjuaziyaya aid olduğunu bir daha sübut edirdi. Prudonun cəmiyyətin yenidən qurulması fikirlərinin əsasında myutyualizm (qarşılıqlı xidmətlər) nəzəriyyəsi dururdu. O hesab edirdi ki, cəmiyyət inqilabi yolla deyil, istehsal alətlərinin mərhələli şəkildə fəhlələrin əlinə keçməsi nəticəsində dəyişdirilməlidir. Onlar isə, öz növbəsində, artellərdə birləşməlidirlər. O, anarxik baxışlara malik idi. Prudonizm kəndlilərin və sənətkarların üstünlük təşkil etdiyi Fransa, İspaniya və İtaliyada geniş yayılmışdı.



PSD İNDEKSİ (ing. *Finist*) – Rusiya bazarında dolların alıcılıq qabiliyyətini əks etdirən indeksi. "Finİst" səhmdar cəmiyyəti tərəfindən hazırlanır və "Delovoy mir" ("Business World") gündəlik qəzetində nəşr olunur.

PSİXOQRAFİK SEQMENTLƏŞMƏ – insanların həyat tərzinə və şəxsi xüsusiyyətlərinə görə qruplaşması.

PUL – ən ümumi ekvivalent kimi istifadə olunan universal əmtəənin xüsusi növü; alqı-satqı vaxtı qiymət ölçüsü kimi işlədilən metal və ya kağız parçası; kapital; sərvət; bank bileti. Onun vasitəsi ilə bütün digər əmtəələrin dəyəri ifadə olunur. Pul elə bir əmtəədir ki, o, tədavül, tədiyə (ödəniş), dəyər ölçüsü, sərvətin yığılması funksiyalarını yerinə yetirir. Elmi iqtisadi ədəbiyyatlarda pulun müxtəlif izahları vardır. Pul "alıcılıq gücünün müvəqqəti məkanı, anbarı, vasitəsidir" (M.Fridman, A.Şvarts).

Funksional yanaşmaya görə, pul "sövdələrin həyata keçirilməsi üçün istifadə olunan məcmu aktivlərdir" (Q.Menkyu), "məlum tədiyə əlaqələrinin hamı tərəfindən qəbul edilən mübadilə vasitəsidir" (R.Barr), "insanların pul kimi qəbul etdiyi şeydir" (U.M.Qalperin). Əmtəə baxışına görə isə pul "ən ümumi ekvivalent rolunu sabit yerinə yetirən əmtəədir" (K.Marks).

Pulun yaranmasına dair iki konsepsiya – rasional və təkamül konsepsiyaları mövcuddur. Rasional konsepsiyada pulun mənşəyi insanlar arasında razılaşma ilə izah olunur. XVIII əsrə qədər bu konsepsiya üstünlük təşkil etmişdir. Onun müasir nümayəndələri ABŞ iqtisadçıları P.Samuelson və C.K.Hellbreyt hesab olunur. Təkamül konsepsiyasına görə isə pul mübadilənin və dəyər formalarının tarixi inkişafının labüd nəticəsidir. Bu, marksist konsepsiyadır.

Pulun mahiyyətinə dair əsas nəzəriyyələr. Pulun mahiyyətinə dair geniş yayılmış nəzəriyyələr kəmiyyət (miqdar), metal və nominal pul nəzəriyyələridir.

Kəmiyyət nəzəriyyəsinə görə, pulun alıcılıq qabiliyyəti tədavüldə pulun miqdarının dəyişməsindən asılıdır. Tədavüldə pulun miqdarı artdıqda pul vahidinin qiyməti (alıcılıq qabiliyyəti) aşağı düşür. Əksinə, tədavüldə pulun miqdarı azaldıqda, onun alıcılıq gücü artır. Pulun kəmiyyət nəzəriyyəsinin banisi fransız iqtisadçısı J.Boden (1530-1596) olmuşdur. Sonralar ingilis müəllifləri D.Yum (1711-1776) və C.Mill (1773-1836), habelə fransız Ş.Monteskye (1689-1755) öz əsərlərində bu nəzəriyyəni inkişaf etdirmişlər. Pulun kəmiyyət nəzəriyyəsinin inkişafında ABŞ iqtisadçısı İ.Fişerin böyük rolu vardır. O, iqtisad elminə özünün məşhur mübadilə tənliyini gətirmişdir.

$$MV=PQ,$$

Burada M – pul kütləsi, V – pulun dövriyyə sürəti (bu sürət sabit qəbul edilir), PQ – milli gəlirə bərabər olan milli məsrəfdir (Q əmtəənin miqdarı, P – onun qiymətidir).


Bu tənliyə görə, ölkədə dövr edən ümumi pul kütləsi deyilən

əmtəələrin qiymət məbləği arasında mexaniki əlaqə mövcuddur.


Metal pul nəzəriyyəsinə görə, qızıl və gümüş öz təbiətləri etibarilə puldur. Bu nəzəriyyənin ilk nümayəndələrindən biri XIV əsr fransız alimi N.Orem hesab olunur. Metal pul nəzəriyyəsi sonradan Merkantilistlər tərəfindən inkişaf etdirilərək pulun millətin sərvəti olması haqqında təlimlə əlaqələndirilmişdir. Metal pul nəzəriyyəsi kağız pulların inkişafı, qızıl devizi, üzən valyuta sistemlərinin meydana gəlməsi ilə təkamülə uğramışdır. Qızılın pul kimi dövriyyədən çıxması ilə bu nəzəriyyənin əhatə dairəsi məhdudlaşmışdır. Nominal pul nəzəriyyəsində pul özünün daxili dəyəri olmayan şərti nişan (şərti ölçü vahidi) hesab olunur. Metal pul nəzəriyyəsindən fərqli olaraq, burada pul nəinki nəcib metallarla (qızıl və gümüşlə) eyniləşdirilir, əksinə, onların arasında əlaqənin olması inkar edilir. Belə hesab olunur ki, pulun dəyəri onun maddi məzmunundan (materialından) asılı deyil. Pulun dəyəri onun adı ilə (nominalı) müəyyən olunur.

Pul vahidi dedikdə pul hesablaşmalarının, əmanətlərin və s. təmin edilməsində ölçü vahidi kimi istifadə olunan pulun minimum məbləği başa düşülür.

Pulun funksiyaları. Pulun mahiyyəti və rolu onun funksiyalarında təzahür edir. Müasir ekonomiksdə pulun 3 funksiyasından – tədavül vasitəsi, dəyər ölçüsü və yığım vasitəsi funksiyalarından bəhs olunur. Marksist ədəbiyyatlarda isə tarixən meydana gəlmə ardıcıllığına görə pulun 5 funksiyası göstərilir: 1) dəyər ölçüsü; 2) tədavül vasitəsi; 3) dəfinə və yığım



Sxem 1




Sxem 2

Pulun mənşəyinin əsas konsepsiyaları



Sxem 3



Sxem 4

vasitəsi; 4) tədiyə vasitəsi; 5) dünya pulu.

Əmtəə tədavülü prosesi tədavül vasitəsi kimi pula ehtiyac doğurur. Pul əmtəə mübadiləsində vasitəçi kimi çıxış edir.

Dəfinə funksiyasını qızıl yerinə yetirir. Qızıl inkişaf etmiş bazar iqtisadiyyatı olan ölkələrin rəsmi ehtiyatlarının ən mühüm tərkib hissəsidir.

Dəfinə – artıq pulların zərurət yarandıqda ötürüldüyü və tədavüldə olan pul kütləsini artırmağa ehtiyac yarandıqda tədavül dairəsinə qaytarıldığı saxlanc yeridir.

Əmtəə istehsalı və tədavülü inkişaf etdikcə əmtəənin kreditlə satışının baş verdiyi münasibətlər yaranır.

Pulun tədiyə vasitəsi kimi funksiyasından kredit pulları – veksellər, banknotlar, çeklər əmələ gəlir. Kredit pullara, həmçinin, depozit pullar (banklararası hesablaşma sistemi kimi), elektron pullar (EHM-in köməkliyi ilə hesablaşma sistemi, "SWİFT"), "plastik pullar", American Express, Union və s. "kredit kartları" aiddir.

Müxtəlif ölkələr arasındakı iqtisadi dövriyyədə pulun nəzərdən keçirilən funksiyalarının yerinə yetirilməsi onu dünya pulu edir. Dünya bazarında pul rolunu çəki ilə götürülən qızıl oynayır.

Dünya pulları:

– dəyərin ümumi ölçüsü kimi fəaliyyət göstərir;

– ümumi tədiyə vasitəsi kimi təsir göstərir;

– ümumi alqı vasitələri kimi çıxış edir;

– ictimai sərvətin ümumi təcəssümünə xidmət edir; məsələn, qızılın bir ölkədən digərinə ötürülməsi.

Pul qoymaq – hər hansı bir məqsədə pul xərcləmək.

Pul dartmaq – birisindən hər hansı bir yolla pul almaq və ya çəkməyə çalışmaq.

Pul eləmək – satıb pula çevirmək, əvəzində pul almaq.

Pul kəsmək – metal pul zərb etmək, kağız pul kəsmək.


Pul tökmək – çoxlu pul xərcləmək, pul qoymaq.

Pul çıxarmaq – pul əldə etmək, gəlir götürmək.

PUL (ing. *pool*) – müvəqqəti xarakter daşıyan birlik forması. Ticarət, birja, patent və s. pullar mövcuddur. Pullarda ümumi gəlir və mənfəətin bölüşdürülməsi qaydaları vardır. Gəlir və mənfəət əvvəlcə ümumi fonda daxil olur, sonra əvvəlcədən müəyyən edilmiş proporsiyalarda bölüşdürülür; təsərrüfat agentləri arasında razılaşmanın bir növüdür. Bu zaman mənfəət ümumi fonda daxil olur və pul iştirakçılarının qabaqcadan müəyyən etdikləri kvotalara müvafiq olaraq bölüşdürülür.

PUL AKTİVLƏRİ – maliyyə vəsaitləri və kənar şəxslərin müəyyən sabit məbləği müəyyən təşkilata ödəmək barədə öhdəlikləri. Balansda maya dəyəri üzrə qeyd edilən qeyri-pul

Pul islahatlarının keçirilməsi üsulları



Sxem 5

aktivlərindən fərqli olaraq, bu aktivlər balansda gəlirin gözlənilən qiyməti üzrə əks etdirilir. Aktivlərin pul və qeyri-pul aktivlərinə bölünməsi inflyasiya sürətinin təsirinin hesablanması üçün zəruridir.

PUL AQREQATLARI (AQREQATI) – pul tədavülünün təhlilində tətbiq edilən göstəricilər. Pul kütləsinin müxtəlif komponentlərinin cəmi kimi qurulmuş göstəricilərə aqreqat göstəriciləri də deyilir.

İnkişaf etmiş ölkələrin maliyyə-iqtisad statistikasında tətbiq edilən əsas pul aqreqatlarına aşağıdakılar aiddir:

1) *M0* aqreqatına banklardan kənarda tədavüldə olan nağd pulları (tədavüldə və müəssisə və təşkilatların kassalarında olan əsginaslar və sikkələr, ayrı-ayrı ölkələrdə xəzinə biletləri) daxildir;

2) *M1* aqreqatına *M0* və eləcə də banklardakı cari hesablarda ("tələb edilənə qədər" hesablarda) olan pullar, digər çek əmanətləri, yol çekləri, bəzi hallarda kredit kartları daxildir. Qeyd etmək lazımdır ki, cari hesablardakı depozitlər pulun bütün funksiyalarını yerinə yetirir və onları rahatca nağd pula çevirmək olar. Ümumi daxili məhsulun realizə edilməsi, milli gəlirin bölüşdürülməsi və yenidən bölüşdürülməsi, yığım və istehlak əməliyyatlarına məhz M1 aqreqatı xidmət edir;

3) M2 aqreqatına M1 aqreqatının bütün komponentləri və üstəlik, kommersiya banklarındakı müddətli və əmanət de-

Cədvəl 1

Pul dövriyyəsi qanununun xüsusiyyətləri

Pul tədavülü qanununun əhəmiyyəti	Pulun tədavülü qanunu onun tədavül və ödəniş funksiyalarını yerinə yetirməsi üçün lazım olan pul kütləsinin həcmini müəyyənləşdirir
Pul tədavülünün düsturları	1. Dövriyyədəki pul kütləsi satılan məhsulların (iş və xidmətlərin) qiymətlərinin cəminə bərabər olmalıdır və aşağıdakı düsturla hesablanır: $M=\frac{R-K+P-BP}{V}$ Burada, M – pul kütləsi, R – verilmiş dövrdə satılmış əmtəə və xidmətlərin qiymətlərinin cəmi; K – verilmiş dövrdən sonra ödənişi gözlənilən əmtəələrin qiymətlərinin cəmi; P – verilmiş dövrdə ödənişi həyata keçirilən əmtəələrin qiymətlərinin cəmi; BP – qarşılıqlı ödənişlərin cəmi; V – pul dövriyyəsinin sürəti 2. İl ərində eyni pulların əmtəə dövriyyəsinə bir-neçə dəfə xidmət etməsini nəzərə almaqla, pul kütləsi istehsal olunmuş əmtəə və xidmətlərin qiymətlərinin cəminə bərabər olmalıdır $MV=PQ$ Burada, M – pul kütləsi; V – pul dövriyyəsinin sürəti; P – il ərində qiymətlərin orta həddi; Q – il ərzində istehsal olunmuş və satılmış əmtəə və xidmətlərin həcmi

pozitləri (bir qayda olaraq, kiçik məbləğdə və dörd ilə qədər), yəni asanlıqla nağd pula çevrilə bilən əmanətlər, həmçinin, qısamüddətli dövlət qiymətli kağızları daxildir. Sonuncular dövriyyə vəsaiti kimi fəaliyyət göstərmir, lakin onları nağd pula çevirmək olar. Kommersiya banklarındakı əmanət depozitləri istənilən vaxt götürülür və nağd pula çevrilir.

M3 aqreqatına *M2* aqreqatının bütün komponentləri və üstəlik, kommersiya kredit müəssisələrindəki uzunmüddətli əmanətlər, eləcə də pul bazarında dövriyyədə olan qiymətli kağızlar, o cümlədən müəssisələr tərəfindən yazılan kommersiya vekselləri daxildir. Qiymətli kağızlara sərmayə qoyulmuş vəsaitlərin bu hissəsi bank sistemində yaradılmır, lakin onun nəzarəti altındadır, çünki vekselin tədiyə vasitəsinə çevrilməsi üçün bir qayda olaraq, bankın aksepti, yəni emitent tədiyə qabiliyyətli olmadığı halda bank onu ödəyəcəyinə təminat verməlidir;

M4 aqreqatına *M3* aqreqatının bütün komponentləri və üstəlik, iri kredit müəssisələrində depozitlərin müxtəlif formaları aiddir.

Aqreqatlar arasında tarazlıq olmalıdır, əks halda, pul tədavülü pozulur. Təcrübə göstərir ki, $M2 > M1$ olduqda tarazlıq yaranır, $M2 + M3 > M1$ olduqda bu tarazlıq möhkəmlənir. Bu halda, pul kapitalı nağd dövriyyədən nağdsız dövriyyəyə keçir. Aqreqatlar arasında bu münasibət pozulduqda pul tədavülündə fəsadlar başlanır: pul nişanlarının çatışmaması, qiymətlərin artması və s.

XX əsrin uzun bir dövrü ərzində M_1 aqreqatı pul kütləsinin ən dəqiq ölçü vasitəsi kimi istifadə olunmuşdur. 80-ci illərdə isə milli iqtisadiyyatın vəziyyətinin

Dar pul aqreqatı

Dünyanın 20 ən çox dar pul aqreqatı olan ölkəsi

№	Ölkə	Dar pul aqreqatı, mlrd. dollar
1.	Yaponiya	5417
2.	Çin	2434
3.	ABŞ	1436
4.	Kanada	356,2
5.	Rusiya	252,5
6.	İsveçrə	207,0
7.	İsveç	185,4
8.	Danimarka	143,0
9.	Polşa	118,2
10.	Səudiyyə Ərəbistanı	113,2
11.	Braziliya	95,0
12.	Meksika	92,4
13.	Çexiya	86,6
14.	Cənubi Koreya	80,7
15.	Venesuela	79,9
16.	Suriya	73,5
17.	Əlcəzair	60,9
18.	Türkiyə	53,3
19.	Sinqapur	52,6
20.	Malayziya	51,5

Dünyanın 20 ən az dar pul aqreqatı olan ölkəsi

№	Ölkə	Dar pul aqreqatı, mln.doll.
1.	San-tome və Prinsipi	27,8
2.	Tonqa	36,2
3.	Samoa	60,1
4.	Dominika	72,1
5.	Solomon adaları	87,0
6.	Komor	100,6
7.	Vanuatu	101,6
8.	Şərqi Timor	102,8
9.	Sent –Kits və Nevis	107,2
10.	Qrenada	141,4
11.	Sent-Vinsent və Qrenadina	150,8
12.	Seyşel adaları	164,8
13.	Svazilend	211,8
14.	Salvador	213,7
15.	Ruanda	233,6
16.	Sent – Lüsi	261,3
17.	Burundi	261,6
18.	Antiqua və Barbuda	296,4
19.	Qayana	344,2
20.	Beliz	345,7

Geniş pul aqreqatı


Dünyanın 20 ən çox geniş pul aqreqatı olan ölkəsi

№	Ölkə	Geniş pul aqreqatı, mlrd. dollar
1.	ABŞ	10990
2.	Yaponiya	6160
3.	Çin	4523
4.	Kanada	1299
5.	Braziliya	724,9
6.	Cənubi Koreya	478,0
7.	İsveçrə	477,6
8.	Rusiya	318,4
9.	Türkiyə	248,4
10.	Tailand	237,5
11.	Malayziya	200,9
12.	Sinqapur	179,0
13.	Meksika	147,4
14.	Səudiyyə Ərəbistanı	134,3
15.	İndoneziya	131,5
16.	CAR	124,1
17.	Misir	112,2
18.	Polşa	109,0
19.	Yeni Zelandiya	99,9
20.	Danimarka	95,8

Dünyanın 20 ən az geniş pul aqreqatı olan ölkəsi

№	Ölkə	Geniş pul aqreqatı, mln. dollar
1.	San-Tome və Prinsipi	37,0
2.	Komor	41,7
3.	Şərqi Timor	89,9
4.	Solomon adaları	96,8
5.	Tonqa	100,7
6.	Lesoto	108,1
7.	Samoa	162,8
8.	Seyşel adaları	188,5
9.	Burundi	189,9
10.	Ruanda	227,4
11.	Dominika	289,9
12.	Sent-Vinsent və Qrenadina	302,7
13.	Cibuti	338,0
14.	Vanuatu	430,0
15.	Svazilend	441,5
16.	Maldiv adaları	487,8
17.	Tacikistan	544,0
18.	Qrenada	578,1
19.	Beliz	653,8
20.	Madaqaskar	667,2

Pul dövriyyəsinin sxemi



1 – Zəruri resurslar üçün (işçi qüvvəsi, torpaq) firmalar tərəfindən ev təsərrüfatlarına ödənişlər;
2 – Dövlət orqanları tərəfindən dövlət qulluqçularının əməyinin ödənilməsi;
3 – Ev təsərrüfatlarının malik olduqları resursların satışından əldə etdiyi gəlirlər (əmək haqqı, faizlər, dividendlər, renta);
4 – Ev təsərrüfatlarının istehlak üçün çəkdikləri xərcləri;
5 - Ev təsərrüfatlarının xalis vergilərinin ödənilməsi;
6 - Ev təsərrüfatlarının formalaşdırdığı və pul bazarına istiqamətləndirdikləri yığımlar;
7 – Firmaların pul bazarında investisiyaları üçün səfərbər etdikləri vəsaitlər;
8 – Firmaların investisiya xərcləri;
9 – Dövlətin pul bazarlarında səfərbər etdiyi yığımlar (dövlət istiqrazları);
10 – Dövlət tədarükü;
11 – Ölkəyə idxal edilmiş məhsulların dəyərinin ödənilməsi;
12 – Ölkədən ixrac edilmiş məhsullara görə daxil olmuş pul vəsaitləri
13 – Firmaların əmtəə və xidmətləri realizə etməsinə görə əldə etdiyi gəlirlər.

Sxem 6

Cədvəl 2


Azərbaycan Respublikası üzrə pul aqreqatları (dövrün sonuna) (mln, manat)


İl, Ay	Geniş mənada pul kütləsi (M3)	o cümlədən						Pul multiplikatoru	
		M2 pul aqreqatı	o cümlədən				SDV-də depozitlər*	M3 pul aqreqatının pul bazasına nisbəti	M2 pul aqreqatının manatla pul bazasına nisbəti
			M1 pul aqreqatı	o cümlədən		Manatla müddətli depozitlər*			
				Banklardan kənarda nağd pul(M0)	Manatla tələb edilənədək depozitlər*				
2009	8469,2	6169,2	5239,8	4174,8	1065,0	929,4	2300,0	1,73	1,27
2010									
01	8143,8	5837,7	4857,2	3972,8	884,4	980,5	2306,1	1,77	1,28
02	8132,6	5853,1	4982,5	4083,9	898,6	870,6	2279,4	1,74	1,26
03	8673,4	6182,6	5190,7	4312,1	878,6	991,9	2490,9	1,76	1,26
04	8735,5	6347,7	5337,5	4434,3	903,2	1010,2	2387,8	1,76	1,28
05	8929,8	6454,0	5439,8	4543,5	896,3	1014,2	2475,8	1,77	1,29
06	9082,5	6629,4	5544,1	4587,3	956,8	1085,3	2453,0	1,77	1,30
07	9054,5	6892,0	5756,5	4811,4	945,1	1135,5	2162,5	1,70	1,30
08	9315,0	7046,6	5803,9	4850,8	953,1	1242,7	2268,4	1,73	1,31
09	9390,0	7156,1	5901,7	4897,4	1004,3	1254,4	2233,9	1,70	1,30
10	9619,9	7314,5	5999,9	4942,6	1057,3	1314,6	2305,4	1,70	1,30
11	9620,8	7417,7	5964,0	4994,3	969,7	1453,7	2203,1	1,71	1,32

12	10527,5	8297,5	6718,9	5455,8	1263,1	1578,6	2230,0	1,61	1,30
2011									
01	10107,3	7763,8	6542,3	5266,8	1275,5	1221,5	2343,5	1,68	1,30
02	10272,6	7907,7	6555,5	5363,1	1192,4	1352,2	2364,9	1,68	1,30
03	10757,4	8115,5	6608,5	5427,1	1181,4	1507,0	2641,9	1,71	1,29
04	10760,6	8176,4	6660,4	5457,8	1202,6	1516,0	2584,1	1,74	1,33
05	11056,1	8392,0	6833,6	5610,3	1223,3	1558,4	2664,1	1,76	1,34
06	11412,5	8735,4	7126,4	5851,6	1274,8	1609,0	2677,2	1,74	1,34
07	11921,2	9351,4	7679,8	6199,0	1480,8	1671,6	2569,8	1,72	1,36
08	12336,2	9569,8	7885,5	6493,7	1391,8	1684,3	2766,4	1,71	1,34
09	12652,2	9630,3	7809,7	6465,9	1343,8	1820,6	3021,9	1,74	1,34
10	12652,2	9748,6	7835,8	6505,3	1330,5	1912,8	2903,6	1,74	1,36
11	12830,7	9991,9	8027,0	6529,4	1497,6	1964,9	2838,8	1,71	1,35
12	13903,2	10997,2	8824,8	7158,2	1666,6	2172,4	2906,0	1,64	1,33
2012									
01	13474,6	10550,6	8361,9	6810,8	1551,1	2188,7	2924,0	1,75	1,39
02	13799,2	10694,3	8362,7	6911,2	1451,5	2331,6	3104,8	1,74	1,37

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

*) Qeyri-rezidentlərin və dövlət idarəetmə orqanlarının depozitləri daxil olmadan




Əsas pul nəzəriyyələri
Pul nəzəriyyələri
Metal
Pul qızılla eyniləşdirilirdi (Nikolya Orezme)
Miqdar
Tədavüldə olan pulun miqdarı ilə əmtəələrin qiymət səviyyəsi və pulların özünün dəyəri arasında asılılığı izah edir
Klassisizm
Pul mübadilənin texniki vasitəsidir (A.Smit)
Nominalist
Pulların dəyəri onların nominalı ilə müəyyən edilir (Knapp)
Transaksion istiqamət[1]
MV =PQ (İ.Fişer)
Marksizm
Əmtəənin dəyərini qızıl və gümüşün təbii xüsusiyyətləri deyil, onların ümumi tədavül vasitəsi kimi çıxış etmə qabiliyyətinə görə izah edir.
Kembric istiqaməti
M=kPY2 (A.Marşall)
Metallizm
Kağız pulları da pul hesab edirdilər, lakin onların xırdalanmasını tələb edirdilər (Kpis, Leksis, Lansburq, XIX əsr)
Müasir monetarizm
Pul kütləsi qaydası: Pul kütləsi istehsalın artımına təxminən bərabər olan rəvan sürətlə artmalıdır.
Merkantilizm
(Stefford, Monkretyen)
Erkən
Aktiv pul balansı ideyası (XVI əsrin ortalarına kimi)
Sonrakı
Aktiv ticarət balansı ideyası (XVI əsrin ortaları – XVIII əsrin sonları)
1 M – tədavüldə olan pulun miqdarı
V – pulun dövriyyədə sürəti
P – qiymət səviyyəsi
Q – əmtəələrin həcmi
2 M – pul kütləsinin həcmi
k – Marşall əmsalı
P – əmtəə qiymətlərinin ümumi səviyyəsi
Y – Ümumi Milli Məhsulun (ÜMM) həcmi

Sxem 7

Cədvəl 4

Azərbaycan Respublikası üzrə pul icmalı (dövrün sonuna)

mln. manat

İl, ay	Xalis Xarici Aktivlər	Xalis Daxili Aktivlər	İqtisadiyyata kredit qoyuluşu	Geniş pul kütləsi	Geniş pul kütləsi, manatla	Manatın dövretmə sürəti
2009	3529.3	4940.0	8556.4	8469.2	6169.2	5.61
01	4094.8	3914.6	7255.2	8009.3	5594.7	0.69
02	3787.4	3541.2	6770.2	7328.4	5264.8	0.73
03	3189.1	3208.5	6299.8	6397.4	4740.9	1.42
04	3217.4	3285.2	6381.1	6502.4	4732.3	1.90
05	3245.4	3366.7	6487.6	6612.0	4811.2	2.36
06	3348.0	3346.1	6569.0	6693.9	4872.0	2.93
07	3426.4	4156.1	7322.8	7582.4	5091.6	3.40
08	3316.7	4252.5	7733.7	7569.1	5333.5	3.87
09	3193.8	4264.7	7906.4	7458.4	5222.4	4.49
10	3676.9	3998.9	8128.2	7675.6	5388.5	4.95
11	3707.3	4197.7	8253.8	7904.9	5575.6	5.32
12	3529.3	4940.0	8556.4	8469.2	6169.2	5.61
2010						
01	3668.2	4475.8	8613.4	8143.8	5837.7	5.45
02	3547.8	4584.9	8550.5	8132.6	5853.1	6.28
03	4003.4	4670.1	8658.5	8673.4	6182.6	6.18
04	3891.0	4844.6	8797.5	8735.5	6347.7	6.14
05	3823.2	5139.9	8945.5	8929.8	6454.0	6.15
06	3682.3	5400.3	9033.5	9082.5	6629.4	5.94
07	3854.7	5200.0	8852.5	9054.5	6892.0	5.76
08	4027.6	5287.6	9011.3	9315.0	7046.6	5.57
09	4070.8	5319.3	9160.7	9390.0	7156.1	5.46
10	4046.6	5573.5	9257.0	9619.9	7314.5	5.33
11	4253.3	5367.6	9352.5	9620.8	7417.7	5.38
12	4638.3	5889.4	9785.7	10527.5	8297.5	5.01
2011						

(Cədvəl 4-ün ardı)

01	5059.4	5048.1	9782.7	10107.3	7763.8	5.32
02	4993.7	5279.1	9801.2	10272.6	7907.7	5.09
03	5201.7	5555.9	9987.6	10757.4	8115.5	5.14
04	5607.8	5153.0	10354.3	10760.6	8176.4	5.03
05	5530.1	5526.2	10542.9	11056.1	8392.0	5.03
06	5526.9	6185.8	10708.6	11412.5	8735.4	5.16
07	5605.1	6316.3	10910.1	11921.2	9351.4	4.86
08	4967.0	7369.4	11328.3	12336.2	9569.8	4.84
09	4996.0	7656.3	11487.8	12652.2	9630.3	4.79
10	5449.4	7202.9	11600.5	12652.2	9748.6	5.01
11	5247.2	7583.7	11677.5	12830.7	9991.9	4.97
12	7849.9	6053.5	11814.2	13903.2	10997.2	4.55
2012						
01	8179.2	5295.6	11960.9	13474.6	10550.6	4.65
02	8320.9	5478.4	12101.5	13799.2	10694.3	4.49

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

həlledici parametrlərinin *M1*-dən çox, *M2* aqreqatından asılı olduğu məlum oldu. Ona görə də hazırda məhz *M2* dinamikası pul-kredit siyasətinin ən mühüm obyektidir.

Azərbaycan Respublikasında aşağıdakı pul aqreqatlarından istifadə edilir:

M0 – tədavüldə olan bütün kağız və metal pul nişanlarını əhatə edir.

M1 – M0 aqreqatını, eləcə də müəssisələrin və əhalinin kommersiya banklarındakı hesablaşma, cari və xüsusi hesablarındakı vəsaitləri və əhalinin kommersiya banklarındakı tələb edilənə qədər depozitlərini əhatə edir;

M2 – M1 aqreqatını və üstəlik, əhalinin kommersiya banklarındakı müddətli depozitlərini əhatə edir.

M3 – M2 aqreqatını və üstəlik, depozit və əmanət sertifikatlarını, habelə dövlət istiqrazlarını əhatə edir.


PUL BAZARI SERTİFİKATI – yığımların cəlb edilməsi üçün banklar tərəfindən buraxılan qısamüddətli depozit sertifikatlarının bir növü. Onlara görə faizlər, bir qayda olaraq, depozit sertifikatlarının digər növlərindən yüksəkdir.

PUL CƏRİMƏSİ – hüquqi və ya fiziki şəxsin müəyyən təsərrüfat və ya intizam pozuntularına görə, onun təqsiri isbat edildiyi halda tətbiq olunan əmlak xarakterli təsir tədbiri.

Pul cəriməsi, adətən, sadəcə cərimə və ya tənbeh adlanır. Vəzifəli şəxslərin təqsiri müəyyən edildikdə, bu prosedur kifayət qədər tez-tez tətbiq edilir. Cərimələrin məbləği hər bir halda inzibati hüquq normaları və əmək müqaviləsinin, kontraktının şərtləri tətbiq edilməklə ayrıca müəyyən edilir.

Müqavilənin şərtlərinə görə qiymətlilərin korlanmasına və ya itirilməsinə görə tam və ya qismən maddi məsuliyyət, eləcə də vəzifəli şəxs tərəfindən müqavilə şərtlərinin yerinə yetirilməməsinə görə pul formasında cərimələr nəzərdə tutula bilər.

Pul bazarı modeli



Qrafik 1

Məsələn, müqavilədə belə bir qeyd-şərt ola bilər ki, iş yerinə 15 dəqiqə gecikməyə görə müəyyən məbləğ tutulur.

Pul cərimələri, adətən, işçilərin əmək haqqından tutulur. Bu barədə onlara məlumat verilməlidir. Bundan əlavə, cərimənin məbləğini müəssisənin kassasına və ya firmanın hesabına ödəməyin zəruri olması qaydası müəyyən edilə bilər.

PUL FONDLARI – təşkilatların maliyyə resursları. Bu resurslar vasitəsilə təsərrüfat fəaliyyəti zəruri pul vəsaitləri ilə təmin edilir; geniş təkrar istehsal; elmi-texniki tərəqqinin maliyyələşdirilməsi; yeni texnikanın mənimsənilməsi və tətbiq edilməsi; iqtisadi stimullaşdırma; büdcə və banklarla hesablaşmalar həyata keçirilir.

Müəssisənin pul fondlarını dörd qrupa bölmək olar:

1) xüsusi vəsait fondları:
nizamnamə kapitalı;
əlavə kapital;
ehtiyat kapital;
investisiya fondu;
valyuta fondu
və s.

2) cəlb edilmiş vəsait fondları:
istehlak fondu;
dividendlər üzrə hesablaşmalar;
gələcək dövrlərin gəlirləri;
qarşıdakı xərclər və tədiyələr üçün ehtiyatlar.

3) borc vəsaitləri fondları:
bank kreditləri;
faktorinq;
lizinq və s.;

4) operativ pul fondları:
əmək haqqının ödənilməsi üçün;
dividendlərin ödənilməsi üçün;
büdcəyə ödənişlər üçün və s.

Müəssisənin pul fondlarının birinci qrupuna xüsusi vəsait fondları daxildir. Onlar müəssisənin fəaliyyətində həlledici rol oynayır, çünki bu fondların həcmi və təşkili barədə tələblər kifayət qədər birmənalıdır.

Pul fondlarının ikinci qrupu cəlb edilmiş vəsait fondlarıdır. Onlar ikili xarakterə malikdir. Bu vəsaitlər bir tərəfdən müəssisənin dövriyyəsindədir, digər tərəfdən onlar (dividendlər və istehlak fondu) müəssisənin işçilərinə məxsusdur. Bu vəsaitlərin, ikili xarakteri həm də onunla təsdiqlənir ki, birincisi, onlar müəssisənin balansında passivin beşinci bölməsində, yəni qısamüddətli öhdəliklər arasındadır; ikincisi, bəzi hesablamalarda onlar müəssisənin öhdəliklərindən çıxılır.

Pul fondlarının üçüncü qrupu borc vəsaitləri fondlarıdır. Bazar iqtisadiyyatı şəraitində heç bir müəssisə borc vəsaitlərindən istifadə etmədən ötüşə bilməz. Fondların müxtəlifliyi onlardan müxtəlif vəziyyətlərdə istifadə etməyə imkan verir. Normal iqtisadi şəraitdə borc vəsaitləri istehsalın səmərəsinin artırılmasına kömək edir.

Pul fondlarının dördüncü qrupunu təşkil edən müəssisənin operativ pul fondları müəssisə tərəfindən vaxtaşırı yaradılır. Bu pul vəsaitləri fondları bütün müəssisələrdə yaradıla bilər.

PUL İSLAHATI – milli valyutanın möhkəmləndirilməsi və pul sisteminin təkmilləşdirilməsi məqsədilə ölkənin pul sistemindəki dəyişikliklər. Pul islahatının məqsədi milli valyutanın zəifləməsinin qarşısını almaq, milli pul vahidinin sabitliyini təmin etmək, bununla da makroiqtisadi tarazlığa nail olmaqdan ibarətdir. Pul islahatı pul nişanlarının dəyişdirilməsi, denominasiya və s. vasitəsi ilə həyata keçirilir. Pul islahatlarının növləri aşağıdakılardır: pul nişanlarının nominal dəyərinin saxlanılması zamanı yeni nümunədə pulların buraxılışı ilə onların tam və ya hissə-hissə dəyişdirilməsi; pul vahidinin iriləşməsi formasında denominasiya; milli valyutanın məzənnəsinin dəyişdirilməsi; devalvasiya – milli valyutanın sabit valyutalara münasibətdə pul vahidinin real qızıl məzmununun azalması ilə məzənnənin aşağı düşməsi; revalvasiya – milli valyutanın sabit valyutalara münasibətdə pul vahidinin real qızıl məzmununun artması ilə

məzənnənin yüksəlməsi. Açıq devalvasiya zamanı (yəni, dövlət tərəfindən rəsmi olaraq tanınmış) tədavüldən pul kütləsinin müəyyən hissəsi çıxarılır; gizli devalvasiya zamanı mövcud pul nişanlarının qiymətdən düşməsi baş verir.

PUL KÜTLƏSİ – iqtisadiyyatda fiziki və hüquqi şəxslərin, habelə institusional dövlət strukturlarının malik olduğu əmtəə və xidmətlərin dövriyyəsini təmin edən nağd və nağdsız tədiyə və yığım vasitələrinin məcmusu. Ümumi ekvivalent olan nemət tərifə görə, tam likvidliyə malikdir. Müasir milli iqtisadiyyatlarda likvidliyi vahidə yaxın olan kifayət qədər böyük sayda maliyyə aktivləri mövcuddur. Onların hamısı bu və ya digər dərəcədə pul funksiyalarını yerinə yetirirlər, ona görə də onların məcmusu pul kütləsi adlanır.

İqtisadi fəallığın stimullaşdırma tədbiri kimi monetar orqanlar tərəfindən pulun miqdarının artırılması tədbiri həyata keçirilir ki, bu da monetar ekspansiya adlanır.

İqtisadiyyatda işgüzar dövrlərə təsir etmək və inkişafın makroiqtisadi məqsədlərinə nail olunmasına köməklik məqsədi ilə pul siyasətinin aparılması zamanı məcmu pul kütləsinin idarə edilməsi "Monetar idarəetmə" adı almışdır.

Müəyyən dövr ərzində pul kütləsinin və onunla əlaqədar kəmiyyət dəyişmələrinin təhlili zamanı müxtəlif göstəricilər (pul aqreqatları) tətbiq edilir. Bu hesablamalar nəticəsində əldə edilən məlumatlar əsasında Maliyyə Nazirliyi və Mərkəzi Bankın şəxsində dövlət tərəfindən pul kütləsinin, onun artım sürətinin və həcminin tənzimlənməsinə yönəlmiş pul-kredit siyasəti tədbirləri işlənib hazırlanır və həyata keçirilir (bax: pul aqreqatları).

PUL MULTİPLİKATORU – pul-kredit sisteminə qoyulan sərmayənin bir vahid artması və azalması nəticəsində pul kütləsinin neçə dəfə artacağını və ya azalacağını göstərən ədədi əmsal. Pul multiklipatoru effektinin əsasını təşkil edən iqtisadi hadisə banklar və digər pul-kredit təsisatları tərəfindən pul yaradılmasıdır. Bunun necə baş verməsini şərti misal üzərində nəzərdən keçirək. Fərz edək ki, bank əmanət şəklində 10 milyon manat almışdır. Bu məbləğin istənilən anda əmanətçiyə verilməsi üçün əmanətlərin bütün məbləğini bankda saxlamağa ehtiyac yoxdur, onların bir hissəsini saxlamaq kifayətdir. Hazırda müxtəlif ölkələrin banklarında əmanətçiyə verilməsi üçün zəruri olan nağd pulun (ehtiyat məbləğin) nisbi payı əmanətlərin ümumi məbləğinin 3%-dən 15%-ə qədər dəyişir. Nəzərdən keçirdiyimiz halda fərz edək ki, ehtiyatların nisbi payı 10%-ə bərabərdir. Onda bankın balans hesabı aşağıdakı kimi olacaqdır:

Aktivlər	Passivlər
Ehtiyat 1.000	Əmanətlər 10.000
Ssudalar 9.000	
Cəmi 10.000	Cəmi 10.000

Deməli, tədavüldə olan pulun miqdarı artaraq 10 milyon manatdan 19 mln. manata çatacaqdır. Bu məbləğin 9 milyon manatı bank tərəfindən yaradılmış (əlavə tədavülə buraxılmış) pullardır.

Proses bununla bitmir. 9 milyon manat ssuda (borc) almış müştəri pulları xərcləyəcək, həmin pulları (yenə 9 milyon manat) alan müştəri isə onları banka qoyacaqdır. Aşkardır ki, ilkin əmanətin bütün məbləği ehtiyat kimi istifadə edilənə qədər pul yaradılması prosesi davam edəcəkdir. Yuxarıda deyilənləri nəzərə alaraq, ilkin əmanətin və ehtiyatın nisbi payını bilməklə, bank tərəfindən yaradılmış pulların ümumi məbləğini asanlıqla hesablaya bilərik:

10 milyon manat x 10=100 milyon manat və ya daha ətraflı şəkildə:

10 mln. manat+9 mln. manat+8100 mln. manat+...=
=10 mln. manat x
x(1+9/10+(9/10)2+(9/10)3+...) =
=10 mln. manat x 1/(1-9/10)=
=10 mln. manat x 10=
=100 mln. manat

Beləliklə, ehtiyat məbləğin hər bir manatı 10 yeni manat yaradır.

Yeni pulların ehtiyat məbləğə nisbəti təklif multiplikatoru və ya pul multiplikatoru adlanır. Multiplikator ehtiyatın səviyyəsi ilə tərs mütənasib asılıdır və 1/R-ə bərabərdir. Burada R – ehtiyat səviyyəsidir. Bizim nəzərdən keçirdiyimiz misalda pul multiplikatoru =1/0.1=10.

Mutiplikativ effektin sayəsində milli bank sistemində ehtiyatların ümumi səviyyəsinin azalması tədavüldə olan pul kütləsinin artmasına və iqtisadiyyatda

inflyasiya proseslərinin güclənməsinə səbəb olur və ya əksinə. Nağd pul kütləsinin artması və ya azalması proseslərinin (məsələn, dövlət istiqrazları almaq üçün pulun götürülməsi) və bank ehtiyatları səviyyəsinin dəyişməsi monetar siyasətin iqtisadiyyata təsirinin əsasını təşkil edir.

PUL MÜKAFATLANDIRILMASI – işçilərin əməyinin maddi ödənişidir ki, onun həcmi də görülmüş işlərin kəmiyyət və keyfiyyətindən asılıdır. Əmək haqqı və mükafat ödənişləri formasında həyata keçirilir.

Pul mükafatlandırılması formaları:

1. Komisyon mükafatlandırılma. Bu halda ticarət işçilərinin əməyinin ödənişi pul dövriyyəsindən, malların satışı zamanı pul mədaxilindən asılıdır.
2. Agent mükafatlandırılması; bu zaman malların satışı, reklamı və ya alışı zamanı vasitəçi-agentlərin xidmətlərinin ödənişi nəzərdə tutulur.
3. Deqressiv mükafatlandırılma. Elə ödəniş üsuludur ki, bu zaman vasitəçiyə mükafat məbləği reallaşma həcmindən asılı olur.
4. Xətti mükafatlandırılma. Bu elə sistemdir ki, bu zaman vasitəçi reallaşma həcmindən asılı olaraq heç bir dəyişiklik olmadan dövriyyədən müəyyən faiz alır.
5. Proqressiv mükafatlandırılma. Bu elə ödəniş üsuludur ki, bu zaman reallaşdırılan məhsulun həcminin artımından asılı olaraq mükafat faizi artır.

PUL NƏZƏRİYYƏSİ, KƏMİYYƏT – pul nəzəriyyəsinə görə qiymət tərəddüdlərinin və ya pulun alıcılıq gücünün izahı kağız pulların kəmiyyətinin dəyişməsindən ibarətdir. Onların sayı artdıqca pul vahidinin qiyməti aşağı düşür, bu sayın azalması ilə qiymət artır. Bu nəzəriyyə ilk dəfə filosof Devid Yum tərəfindən irəli sürülmüşdür. Pulların kəmiyyət nəzəriyyəsi tərəfdarları hesab edirlər ki, pul qiymətli metallar istehsalı sahəsində deyil, pulların əmtəələrlə görüşdüyü yerdə – dövriyyə prosesində yaranır. Pulların kəmiyyət nəzəriyyəsinin işlənib hazırlanmasında iki əsas istiqamət mövcuddur. Birincisi, mexaniztik – ölkədə dövriyyədə olan kağız pulların ümumi kütləsi ilə əmtəələrin qiymətləri arasında birbaşa mexaniki əlaqənin olması ehtimalından doğur. Bu istiqamət başlanğıcını İ.Fişerin əsərlərindən götürür. Pulun kəmiyyət nəzəriyyəsinin ikinci istiqaməti psixoloji – son faydalılıq nəzəriyyəsinə əsaslanır. Və birinci istiqamətdən fərqli olaraq pul dövriyyəsinə təsir edən psixoloji amil və proseslərə böyük diqqət verir. Bu istiqamət Avstriya və Kembric məktəblərinin bəzi alimlərinin əsərlərində özünü göstərir.

PUL NORMASI PRİNSİPİ – beynəlxalq mühasibat uçotu prinsipidir ki, buna müvafiq olaraq, bütün təsərrüfat fəaliyyəti vahid pul normasının köməyilə qiymətləndirilir. Bu prinsip mühasiblər tərəfindən hesablarda və maliyyə hesabatlarında ancaq o maddələrin əks etdirilməsini nəzərdə tutur ki, bunlar kifayət qədər obyektiv pul qiymətləndirməsini əks etdirə bilsin.

Tətbiq olunan qiymətləndirmələrin altı əsas növü var:

1) ilkin dəyər – vəsaitlərin mənimsənilməsinə görə ödənilən pul məbləğidir;
2) bərpa dəyəri – əvəzləşdirmə dəyəri kimi – mövcud vəsaitlərin verilən anda əvəzləşdirmə zərurəti zamanı ödənilməli olan pul məbləğidir;
3) bazar dəyəri – mövcud vəsaitlərin reallaşdırılması zamanı real olaraq əldə oluna bilən pul məbləğidir;
4) xalis satış dəyəri – konkret vəsaitin satışı zamanı real olaraq əldə olunan pul məbləğidir. Bu satışın özünə olan xərclərin çıxılması ilə satış qiymətidir (debitor borcuna münasibətdə – xalis satış dəyəri üzrə balansda təsbit olunmalı olandır; bu o deməkdir ki, ümidsiz borclar üzrə ehtiyatı çıxaraq, onu əks etdirmək lazımdır);
5) gətirilmiş dəyər – pul vəsaitlərinin qarşıdakı axınının cari dəyəri (belə qiymətləndirmə, bir qayda olaraq, uzunmüddətli investisiyaların və öhdəliklərin təsbit edilməsi zamanı istifadə olunur);
6) həqiqi dəyər – aktivlərin məlumatlı tərəflər arasında, həmçinin, yaxın gələcəkdə bunu etməyi arzulayanlar arasında mübadilə olunacaq dəyəri (çox zaman bu aktivlərin bazar dəyərinin sinonimi kimi qəbul olunur).

PUL ÖHDƏLİKLƏRİ – fiziki, hüquqi şəxslərin və ya dövlətin borcları və hesabları ödəmək üzrə öhdəlikləri.

Müəssisələrin pul ödəmək, hesabları və tələbnamələri, o cümlədən hesablanmış əmək haqqının, təqdim edilmiş pul hesablarının (tədiyə tələbnamələrinin) ödənilməsi, elan edilmiş divi-

dendlərin ödənilməsi, vergilərin və digər tədiyələrin ödənilməsi, bank ssudalarının və onlara görə faizlərin qaytarılması, buraxılmış istiqrazların girovdan çıxarılması üzrə öhdəlikləri yaranır. Dövlətin öhdəlikləri dövlət sifarişlərinin və tədarüklərin, sosial müavinətlərin ödənilməsi, istiqrazların, pul sertifikatlarının girovdan çıxarılması və onlara görə faiz ödənilməsi, alınmış kreditlərin qaytarılması zərurəti ilə şərtlənmişdir.

Danışıqsız icra edilməli olan pul öhdəlikləri şərtsiz pul öhdəlikləri adlanır.

PUL SİSTEMİ – ölkə daxilində pul tədavülünün tarixən yaranmış və dövlətin qanunvericilik aktlarında təsbit olunmuş təşkili forması.

Zaman keçdikcə müxtəlif tarixi proseslərin, eləcə də həmin ölkələrdə fəaliyyət göstərən iqtisadi sistemlərin tələblərinin təsiri altında müxtəlif ölkələrin pul sistemləri xeyli dəyişmişdir. Müasir dövrdə fəaliyyətdə olan pulların növündən asılı olaraq iqtisadi ədəbiyyatda pul sistemlərinin iki tipini fərqləndirirlər: metal dövriyyə sistemi. Bu halda, pul əmtəəsi bilavasitə tədavül edir və pulun bütün funksiyalarını yerinə yetirir, kredit pulları isə metal pula dəyişdirilir. Bu sistemin aşağıdakı növləri vardır:

bimetallizm – bu pul sistemində ümumi ekvivalent rolu iki metala təhkim edilmişdir. Dünyanın əksər ölkələrində həmin metallar qızıl və gümüşdür;

monometallizm – bu pul sistemində iqtisadiyyatda ümumi ekvivalent kimi xidmət edən bir metal var. Qərb cəmiyyətində bu rol tarixən qızıla təhkim edilmişdir.

kağız-kredit tədavül sistemi. Bu halda özlərinin heç bir dəyəri olmayan kredit pulları tamdəyərli pulları sıxışdıraraq dövriyyədən çıxarmış və onları əvəz etmişdir.

Ölkələrin müasir pul sisteminə aşağıdakı elementlər daxildir: pul vahidi, qiymət miqyası, pulun növləri, emissiya sistemi, pul tədavülünü tənzimləyən dövlət aparatı.

Ölkə iqtisadiyyatının tipindən asılı olaraq, aşağıdakı sistemlər fərqləndirilir:

inzibati amirlik iqtisadiyyatının pul sistemi. İnzibati amirlik pul sisteminin əsas, ən səciyyəvi cəhətləri bunlardır: müəssisələrin pul vəsaitləri vahid dövlət bankının hesablarında saxlanır, pul sisteminin direktiv idarəçiliyi ciddi mərkəzləşdirilmişdir, milli pul vahidinin valyuta məzənnəsi direktiv qaydasında müəyyən edilir, dövlət bankı əhalinin əmanətlərinin cəlb edilməsində inhisarçıdır;

bazar iqtisadiyyatı ölkələrinin pul sistemləri.

Bu sistemlərin əsas xarakteristikaları aşağıdakılardır:

pul dövriyyəsi müxtəlif kredit təşkilatları arasında paylanmışdır;

nağd və nağdsız tədiyə dövriyyələri arasında qanunvericilik yolu ilə həddqoyulmamışdır, yəni nağd və nağdsız tədiyələr öz aralarında bərabərləşdirilmişdir;

pul-kredit sisteminin tənzimlənməsi bazar metodları ilə həyata keçirilir;

pul sisteminin idarə edilməsi ölkənin dövlət tərəfindən inhisarçılıq səlahiyyətləri verilmiş vahid mərkəzi bank tərəfindən, eləcə də, vergi orqanlarının köməyilə həyata keçirilir;

dövlətin pul nişanları mərkəzi bankın aktivləri ilə, daha dəqiq desək, qızıl-valyuta ehtiyatları ilə təmin edilmişdir;

əhalinin əmanətləri və yığımları, əsasən, kommersiya banklarında yerləşdirilir, dövlət bankının inhisarçılığı yolverilməz hesab edilir.

Azərbaycan Respublikasında pul sistemi "Mərkəzi Bank haqqında" Qanuna müvafiq olaraq fəaliyyət göstərir. Həmin qanunda pul sisteminin əsasları və xüsusiyyətləri müəyyən edilmişdir. Azərbaycan Respublikası ərazisində rəsmi pul vahidi Azərbaycan manatıdır. Azərbaycan Mərkəzi Bankının bütün aktivləri ilə təmin edilən əsginazlar və metal sikkələr qanuni tədiyə qüvvəsinə malikdir. Əsginasların və sikkələrin nümunələri Azərbaycan Mərkəzi Bankı tərəfindən təsdiq edilir. Əsginasların və ya sikkələrin xarici görkəminə dəyişikliklər edildikdə, kütləvi informasiya vasitələri yeni pul nişanlarının nümunələrini vətəndaşların nəzərinə çatdırmağa borcludurlar.

PUL SİYASƏTİ – dövlət tərəfindən pul tədavülü sahəsində həyata keçirilən, ölkədə pul kütləsinin (pul kreditinin) parametrlərinin qorunub saxlanmasına və ya dəyişdirilməsinə yönəlmiş tədbirlərin məcmusu. Dövlətin pul siyasəti pul kreditinin və emissiyasının artırılmasına və ya onların azaldılmasına yönələ bilər. Birinci halda, bu siyasət kredit ekspansiyası, ikinci halda kredit restriksiyası adlanır.

İstehsalın azalması və işsizliyin artması şəraitində mərkəzi banklar kreditin genişləndirilməsi və faiz normasının azaldılması yolu ilə konyunkturanı canlandırmağa çalışırlar.

İqtisadi yüksəliş isə, əksinə, çox vaxt "birja vurnuxması", spekulyasiya, qiymətlərin artması, iqtisadiyyatda disproporsiyaların güclənməsi ilə müşayiət edilir. Belə hallarda mərkəzi banklar konyunkturanın kəskinləşməsinin qarşısını almaq məqsədilə krediti məhdudlaşdırır, faiz dərəcəsini artırır, tədiyə vasitələri emissiyasını azaldır, digər zəruri tədbirlər görürlər.

Dövlətin pul siyasəti yalnız o halda uğurlu ola bilər ki, dövlət mərkəzi bank vasitəsilə özəl təsisatların miqyasına və xarakterinə təsir göstərə bilsin. Çünki inkişaf etmiş bazar iqtisadiyyatında məhz onlar bütün pul-kredit sisteminin bazasıdır.

Pul siyasəti metodları iki qrupa bölünür:

1) ümumi metodlar (bütövlükdə ssuda kapitalları bazarına təsir göstərirlər);

uçot (diskont) siyasəti (uçot siyasəti XIX əsrin axırları – XX əsrin əvvəllərində çox geniş yayılmışdı);

açıq bazarda əməliyyatlar (qiymətli kağızların əvvəlcədən elan edilmiş məzənnə üzrə alınması və ya satılması);

zəruri ehtiyat normalarının müəyyən edilməsi (zəruri ehtiyat normalarının dəyişdirilməsi bankların ehtiyatlarının həcminə birbaşa təsir metodudur. Bu metodu ilk dəfə 1933-cü ildə ABŞ təsdiq etmişdir);

2) selektiv metodlar (kreditin konkret növlərinin tənzimlənməsi və ya ayrı-ayrı sahələrə, iri firmalara kreditlər verilməsi üçün nəzərdə tutulmuşdur):

kreditlərin ayrı-ayrı növləri üzrə nəzarət;

bank əməliyyatlarının riskinin və likvidliyinin tənzimlənməsi. Mərkəzi bank tərəfindən aparılan, pul kütləsinin azaldılması, kreditin məhdudlaşdırılması siyasəti "daralmış (sıxılmış, məhdudlaşdırılmış) pul siyasəti" adlanır.

b) Azərbaycan Respublikasında pul siyasətinin həyata keçirilməsi üçün cavabdeh olan dövlət orqanları arasında əsas rol Mərkəzi Banka məxsusdur (bax: Mərkəzi Bank).

1994-2010-cu illərdə Azərbaycanda aparılan pul və məzənnə siyasəti 4 mərhələ keçmişdir. **Birinci mərhələ (1994-1996)** makroiqtisadi sabitliyin təmin olunması tələblərindən irəli gələn sərt pul siyasəti yeridilməsi ilə səciyyəvi olmuşdu. Ölkədə makroiqtisadi sabitliyin təmin olunması zərurəti 1992-1994-cü illərdə yaranmış vəziyyətin obyektiv reallıqları ilə əlaqədar idi. Bu dövrdə Azərbaycanda orta illik inflyasiyanın tempi 1600-1800% təşkil edirdi, milli valyuta isə ABŞ dollarına nisbətən dəfələrlə dəyərdən düşmüşdü. Dövlət büdcəsinin kəsiri ÜDM-in 13-14%-nə çatmışdı. Bu kəsir ancaq nağd pulun çap olunması hesabına örtülürdü. Nəticədə böyük həcmdə pul emissiyası baş verirdi. Kommersiya bankları Mərkəzi Bankdan məhdudiyyətsiz olaraq kredit resurslarını cəlb etmək imkanına malik idi və bu amil valyuta və pul bazarında maliyyə möhtəkirliyi miqyasının genişlənməsinə gətirib çıxarırdı. Pul kütləsinin real iqtisadi situasiyaya və tələbata uyğun olmayan lüzumsuz inflyasyon artımı son nəticədə ölkənin maliyyə sistemini iflic vəziyyətə salır və iqtisadi subyektlərin fəaliyyətində qeyri-müəyyənlik amilini gücləndirirdi.

Ölkənin maliyyə sisteminin kəmiyyət parametrləri pisləşmişdi və bununla yanaşı, onun strukturu bəsit, inkişaf səviyyəsi isə çox aşağı idi. Bazar iqtisadiyyatının tələbinə cavab verən sivil pul bazarı tamamilə mövcud deyildi. İnflyasiya şəraitində bankların pul bazarındakı fəaliyyəti yalnız faiz dərəcəsi və məzənnə ilə bağlı maliyyə möhtəkirliyi ilə məhdudlaşırdı. 1994-cü ilin 2-ci yarısından başlayaraq hökumət və Mərkəzi Bank tərəfindən makroiqtisadi vəziyyətin sabitləşdirilməsi istiqamətində radikal addımlar atıldı. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatında makroiqtisadi sabitliyin təmin edilməsinin əsas istiqamətləri işlənib hazırlandı və "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşməsi tədbirləri haqqında" xüsusi Fərman (15.06.1994) qüvvəyə mindi. İlkin antiinflyasiya tədbiri dövlət büdcəsi kəsirinin Mərkəzi Bankın kreditləri hesabına maliyyələşdirilməsinin dayandırılması oldu. Tədiyə balansının cari əməliyyatlar hesabı kəsirinin fasiləsiz maliyyələşdirilməsi və milli valyutanın sabitliyinin təmin olunması məqsədilə ölkənin rəsmi valyuta ehtiyatlarının həcmi lazımi səviyyəyə çatdırıldı.

Bu tədbirlər dayanıqlı makroiqtisadi sabitliyin bərqərar olmasını şərtləndirdi və sabit iqtisadi artımın başlanması üçün ilkin şərait formalaşdırdı. Sərt pul siyasətini həyata keçirməklə, Mərkəzi Bank pul və valyuta bazarlarında gərginliyin tam aradan qaldırılmasına, hiperinflyasiyanın dayandırılmasına və makroiqtisadi sabitliyin bərqərar olmasına nail oldu.

İkinci mərhələ (1997-1998) sərtləşmənin dayanması və xəfif yumşalma ilə xarakterizə olunurdu. Bu proses iqtisadiyyatda institusional quruculuğun yeni mərhələsinə adekvat olan pul və məzənnə siyasətinin yeridilməsi ilə səciyyəvi idi.

Üçüncü mərhələdə (1999-2002) Mərkəzi Bank pula tələbatın genişlənməsi ilə müşayiət olunan iqtisadi artım templərini və iqtisadiyyatda struktur islahatlarının dərinləşməsini nəzərə alaraq, pul və məzənnə siyasətini əsaslı şəkildə yumşaltmağa başladı. Mərkəzləşdirilmiş kreditlərə görə faiz dərəcəsi və məcburi ehtiyat normaları azaldıldı. Manatın məzənnəsinin "tənzimlənən üzən məzənnə" rejimində dəyişməsi siyasəti həyata keçirildi. Bu tədbirlər deflyasiya meyillərinin qarşısını almaq və iqtisadiyyatın pula təminatı səviyyəsini daha da yaxşılaşdırmaqla yanaşı, valyuta ehtiyatlarının artmasına, ixracatın stimullaşmasına, makroiqtisadi sabitliyin daha da dərinləşməsinə əlverişli şərait yaratdı. 2008-ci ildə baş vermiş ümumdünya maliyyə böhranı və neftin dünya qiymətlərinin aşağı düşməsinin Azərbaycan iqtisadiyyatına təsiri çox minimal oldu. Milli valyutanın və bank sisteminin sabitliyi bütövlükdə qorunub saxlanıldı, iqtisadi artım 2008-ci il və sonrakı illərdə davam etdi.

Dördüncü mərhələ (2003) ikirəqəmli iqtisadi artım tempi, adambaşına düşən ÜDM-in və əhalinin gəlirlərinin sürətlə artması, iqtisadi fəallığın regionlara yönəlməsi, xüsusilə neft gəlirlərinin artmasının bu vəzifələrin reallaşmasında mühüm amilə çevrilməsindən yaranan yeni makroiqtisadi situasiya ilə səciyyəvidir. Yaxın illərdə ölkənin valyuta bazarına böyük məbləğdə xarici valyuta axınlarının baş verəcəyi, pul bazarı həcminin xeyli böyüyəcəyi, bank sisteminin maliyyə "dərinliyi"nin yüksək templə artacağı gözlənilir. Makroiqtisadi sabitliyin qorunub saxlanması, qeyri-neft sektorunun beynəlxalq rəqabət üstünlüklərinin təmin olunması, bank sektorunun iqtisadi artımda rolunun daha da artırılması pul siyasətinin əsas vəzifələrinə çevrilir.

Ölkədə bazar münasibətlərinin təşəkkül tapması pul siyasəti alətlərinin təkmilləşdirilməsi ilə müşayiət edilmişdir.

Uçot dərəcəsi monetar siyasətdə və maliyyə resurslarının bölüşdürülməsində makroiqtisadi sabitlik əldə olunana qədər əhəmiyyətli rol oynamırdı. İnflyasiyanın 1880% olduğu bir şəraitdə uçot dərəcəsinin 50-100% olması ucuz kredit bazarının mövcudluğuna və kreditə süni tələb formalaşdırıldığına dəlalət edirdi. Uçot dərəcəsi 1994-cü ilin iyulunda 100%-dən 150%-ə, dekabrında 200%-ə, 1995-ci ilin yanvarında isə 250%-ə qaldırıldı. 1995-ci ilin martından Mərkəzi Bank kommersiya banklarının pul resurslarına olan tələblərini mərkəzləşmiş kreditlər hesabına bazar qiymətindən aşağı olmayan qiymətlə ödəməyə imkan verən mexanizm yaratdı. Kredit auksionunda tələb və təklifdən asılı olaraq formalaşan faiz dərəcəsi Mərkəzi Bankın uçot dərəcəsi kimi müəyyən edildi.

Banklara özlərinə cəlb etdikləri əmanətlərə və verdikləri kreditlərə görə faiz dərəcəsini müstəqil surətdə, uçot dərəcəsindən asılı olmadan müəyyən etməyə icazə verildi.

Çevik faiz siyasətinin əsas məqsədi kredit resurslarına olan süni tələbi möhtəkirliyi aradan qaldırmaq, bu yolla pul kütləsinin lüzumsuz artım tempini azaltmaq, inflyasiyanın səviyyəsini aşağı salmaq və kreditlər üzrə faiz dərəcəsinin inflyasiyasının tempi ilə müqayisədə real müsbət səviyyəsinə nail olmaq idi. Kredit auksionları keçirilməsinə başlanmasından etibarən kredit faizinin müsbət saldosuna – onun inflyasiya tempindən yüksək olmasına nail olundu. Bu, inflyasiyanı şərtləndirən ucuz kredit emissiyasının qarşısını almaqla kredit təşkilatlarının kapitalını inflyasiya vergisindən xilas etdi. İnflyasiyanın səviyyəsi nəzərdə tutulmuş səviyyəyə endirildikdən və sabitləşdirildikdən sonra uçot dərəcəsi tədricən azaldıldı.

Uçot dərəcəsi 1995-ci ildən başlayaraq 35 dəfədən çox azaldı və 2005-ci ildə 7% təşkil etdi. Mərkəzi Bank səmərəli pul siyasəti yeritmək üçün lombard və

overnayt kimi yeni kreditləşdirmə alətlərinin tətbiqini genişləndirirdi. 2005-ci il ərzində 5 lombard və 3 overnayt krediti verilmişdir. Verilmiş kreditlərin ümumi həcmi müvafiq olaraq 2,1 milyon manat və 3 milyon manat təşkil etmişdir.

Açıq bazar əməliyyatlarının aparılmasının əsas şərtlərindən biri dövlət qiymətli kağızlar bazarının müəyyən inkişaf səviyyəsinə çatmasıdır. 1996-cı ildə Nazirlər Kabineti tərəfindən dövlət qısamüddətli istiqrazlarının (DQİ) buraxılışının əsas şərtlərinin təsdiq edilməsi ilə Azərbaycanda likvid dövlət qiymətli kağızlar bazarının təməli qoyuldu. Müvafiq hüquqi baza yaradıldıqdan sonra DQİ üzrə ilk hərraclar keçirildi (20.09.1996). DQİ-lərə sərmayələrin yüksək etibarlılığı və qısamüddətliyi, bu qiymətli kağızlarla aparılan əməliyyatların operativliyini təmin edən zəruri bazar infrastrukturunun mövcudluğu DQİ bazarının digər bazar seqmentlərinə nisbətən daha çox inkişafına səbəb oldu. DQİ bazarının mövcudluğu dövlət büdcəsinə müəyyən gəlirlər gətirdi və Mərkəzi Banka açıq bazar əməliyyatları aparmaq imkanı verdi. Mərkəzi Bank bank sistemində qısamüddətli likvidliyi tənzimləmək üçün DQİ-lərdən istifadə etdi. 2003-cü ilin sonunda 12,24 milyon manat birbaşa satış və 10,28 milyon manat məbləğində REPO əməliyyatı aparıldı.

Müxtəlif mənbələr, o cümlədən neft gəlirlərinin artması hesabına dövlət büdcəsi gəlirlərinin əhəmiyyətli artımı dövlət qiymətli kağızları emissiyasına tələbatı azaltdı. Bunu nəzərə alaraq Mərkəzi Bank ümumi həcmi 60 milyon manat, nominal dəyəri 1 milyon manat məbləğində olan 300 min ədəd qısamüddətli notunu buraxaraq Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində (QKDK) dövlət qeydiyyatından keçirmiş və ilk auksion təşkil etmişdi (14.09.2004). 2005-ci il ərzində qısamüddətli notların yerləşdirilməsi üzrə 52 auksion keçirilmiş və 309 milyon manat məbləğində sterilizasiya əməliyyatları aparılmışdı.

Məcburi ehtiyat normaları pul siyasətinin məqsədlərinə nail olmaq, dövriyyədəki pul kütləsinin zəruri parametrlərdə saxlamaq üçün Mərkəzi Bank tərəfindən geniş istifadə edilir. Məcburi ehtiyat normaları monetar siyasətin aləti kimi 1992-ci ildən tətbiq edilir. Kredit ekspansiyasını azaltmaq və ya artırmaq, bank sisteminin izafi likvidliyini tənzimləmək üçün məcburi ehtiyat normalarının dəyişdirilməsindən istifadə olunur. Məcburi ehtiyat normaları təkcə manatın yox, həm də dövriyyədə olan xarici valyuta kütləsinin tənzimlənməsində mühüm rol oynayır. 31.05.1993-cü ildən məcburi ehtiyat normaları əmanətlərin növləri üzrə diferensiallaşdırılır və tələb olunanadək əmanətlərə nisbətən müddətli əmanətlər daha aşağı məcburi ehtiyat normalarına cəlb olunurdu. 31.05.1993-cü ildən 01.01.1995-ci ilədək məcburi ehtiyat normaları valyutalar üzrə diferensiallaşdırılırdı. Həmin tarixdən istər manat, istərsə də xarici valyutalar üzrə bərabər məcburi ehtiyatların tətbiq olunmasına başlandı (bax: cədvəl 1).

1999-cu ildə bankların likvidliyini artırmaq məqsədilə həm manat hesabları, həm də xarici valyuta hesabları üzrə məcburi ehtiyat normaları dəyişdirildi və noyabrın 1-dən 12%-dən 10%-ə endirildi. Qiymətli kağızlar bazarının inkişafına şərait yaratmaq üçün Mərkəzi Bank tərəfindən banklara məcburi ehtiyat fondunda saxladıqları vəsaitlərin 1999-cu ilin mayından 25%-ni, noyabrından isə 50%-ə qədərini qiymətli kağızların alınması üçün istifadə edilməsinə icazə verildi. Bu qərar DQİ bazarının genişlənməsində əhəmiyyətli rol oynadı. 01.01.2003-cü ildən isə məcburi ehtiyat normaları yenidən diferensiallaşdırıldı. Banklar tərəfindən uzunmüddətli kreditlərin verilməsini stimullaşdırmaq üçün uzunmüddətli depozitlər üzrə məcburi ehtiyat normaları sıfra endirildi. Bundan sonra uzunmüddətli depozitlərin artım tempi daha da sürətləndi. Pul kütləsinin əhəmiyyətli artımını nəzərə alaraq, qiymətli kağızlar bazarını inkişaf etdirmək, burada real bazar faiz dərəcələrinin formalaşmasına şərait yaratmaqdan ötrü Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə (27.02.2003) banklar tərəfindən məcburi ehtiyatlar hesabına DQİ-lərin alınmasına icazə verilməsi praktikasına son qoyuldu (01.02.2003) və təkrar bazarda dövriyyəyə yararlı qiymətli kağızların həcmi əhəmiyyətli dərəcədə artdı.

Mərkəzi Bank hazırda mütərəqqi beynəlxalq təcrübəyə uyğun olaraq məcburi ehtiyatların klassik ortalama sistemi ilə he-

Cədvəl 1

Azərbaycan Respublikasında cəlb edilmiş əmanətlər üzrə faiz dərəcələri

Fəaliyyət müddəti	Hüquqi şəxslərdən cəlb edilmiş vəsaitlər		Fiziki şəxslərdən cəlb edilmiş vəsaitlər	
	Manatla	SDV ilə	Manatla	SDV ilə
01.10.92-30.04.93				
Tələb olunanadək	15,0	15,0	15,0	15,0
1 aydan 1 ilədək	12,0	12,0	12,0	12,0
1 ildən yuxarı	10,0	10,0	10,0	10,0
01.05.93-30.05.93				
Tələb olunanadək	15,0	15,0	15,0	15,0
1 aydan 1 ilədək	12,0	12,0	12,0	12,0
1 ildən 3 ilədək	10,0	10,0	10,0	10,0
3 ildən yuxarı	8,0	8,0	8,0	8,0
31.05.93-19.12.93	12,0	12,0	12,0	12,0
20.12.93-30.04.94	12,0	25,0	12,0	25,0
01.05.94-30.06.94	12,0	5,0	12,0	5,0
01.07.94-31.12.94	18,0	5,0	18,0	5,0
01.01.95-31.03.95	12,0	12,0	12,0	12,0
01.04.95-28.02.97	15,0	15,0	15,0	15,0
01.03.97-01.11.99	12,0	12,0	12,0	12,0
02.11.99-01.01.03	10,0	10,0	10,0	10,0
Uzunmüddətli depozitlər üzrə	0,0	0,0	0,0	0,0
Digər depozitlər üzrə	10,0	10,0	10,0	10,0

sablanması praktikasını tətbiq edir. Məcburi ehtiyatların məbləği bankların cəlb etdikləri depozitlər üzrə mövcud dərəcə ilə hesabat dövrünün sonunda təqdim olunan hesabat əsasında müəyyən olunur. Növbəti hesabat dövrü ərzində banklar məcburi ehtiyatlardan sərbəst şəkildə istifadə edə bilər. Bu sistemin tətbiqi bankların müştəri tələblərinə daha çevik reaksiya göstərmələrinə, həm də banklararası pul-kredit bazası və qiymətli kağızlar bazarının inkişafına təkan verir.

SDV – sərbəst dönərli valyuta

Azərbaycanda maliyyə bazarı inkişaf etdikcə və onun strukturu mürəkkəbləşdikcə, Mərkəzi Bankın monetar tənzimləmə alətlərinin çeşidi də genişlənir (bax: Mərkəzi Bank).

Ötən illər ərzində Mərkəzi Bankın pul siyasəti strateji vəzifələrin həllində ölkədə makroiqtisadi sabitliyin təmin olunması və qorunmasında, iqtisadi resessiyanın nəticələrinin aradan qaldırılmasında, iqtisadi artımın dəstəklənməsi və əhalinin real gəlirlərinin artırılmasında mühüm rol oynamışdır. Pul siyasəti Mərkəzi Bankın səlahiyyətləri çərçivəsində inflyasiyanın məqbul səviyyədə saxlanmasına, iqtisadiyyatın remonetizasiyasının sürətlənməsinə və qeyri-neft sektorunun əlverişli beynəlxalq rəqabət qabiliyyətinin saxlanmasına yönəltməklə, makroiqtisadi tsiklin daha sürətli artım fazasına daxil olmasında həlledici amil olmuşdur. Səmərəli pul siyasəti yeridilməsi, səmərəli monetar idarəetmənin yaradılması Mərkəzi Bankın qarşısında duran makroiqtisadi vəzifələrin reallaşmasını təmin etmişdi. 1996-2004-cü illərdə ortaillik toplam inflyasiya aşağı

(30%) olmuşdur (ortaillik 2,3-3%). Pula real tələbatın intensiv surətdə genişlənməsi şəraitində 1995-2004-cü illərdə manatla pul təklifi (iqtisadiyyatın remonetizasiyası) 3,6 dəfə artmışdır.

Pul emissiyasının artmasında dövlət büdcəsi çərçivəsində neft gəlirlərindən istifadənin genişlənməsi, iqtisadiyyata xarici investisiya qoyuluşunun yüksək sürətlə artması, neft ixracının əsasən qiymət amili hesabına çoxalması amilləri valyuta bazarında izafi xarici valyuta təklifini xeyli artırmışdı. Belə bir şəraitdə Mərkəzi Bank manatın məzənnəsinin sabitliyini saxlamaq və iqtisadiyyatı "holland sindromu" təhlükəsindən qorumaq məqsədilə yaranmış izafi valyuta kütləsini bazardan çıxarmalı olmuşdu.

1995-2005-ci illərdə ABŞ dollarına qarşı məzənnəssi "üzən-tənzimlənən" rejimdə formalaşmış, onun səviyyəsi (dövrün sonuna) cəmi 10% dəyişmişdir. Manatın ümumi xarici ticarət dövriyyəsi üzrə real effektiv məzənnə indeksi 2005-ci ilin dekabrında 1995-ci ilin dekabr ayına nisbətən 5,6% (qeyri-neft sektoru üzrə) ucuzlaşmış, beləliklə, milli ixracat xarici bazarlarda yüksək qiymət üstünlüyünə malik olmuşdur.

Son 5 ildə də həyata keçirilən pul məzənnə siyasəti ölkənin davamlı inkişafının təmin edilməsinə, investisiya mühitinin yaxşılaşmasına, əhalinin gəlirlərinin qorunmasına əlverişli şərait yaratmışdır.

PUL STANDARTI – bir və ya bir neçə ölkənin pul sisteminin əsası kimi ümumi razılığa görə qəbul edilən dəyər və ya material (metal).

Bu əsasa münasibətdə pulun (xüsusilə pul vahidinin) dəyər məzmunu müəyyən edilir.

Tarixən fərqləndirilən pul sistemlərinin qüvvədə olduğu dövrdə ardıcıl olaraq aşağıdakı standartlar mövcud olmuşdur:

metal standartı – kağız pul (kredit pulları) bu və ya digər metalın müəyyən miqdarına bərabər hesab edilirdi;

qızıl standartı – kağız pulları istənilən anda əsginasın nominalı ilə müəyyən edilən miqdarda qızıl sikkəyə dəyişmək olardı;

qızıl-külçə standartı – beynəlxalq mübadilədə valyutaların nisbətinin müəyyən edilməsi üçün tətbiq olunurdu. Valyutaların dəyəri müəyyən miqdarda (qramla) qızıla bərabər hesab edilirdi;

qızıl-deviz standartı – bu sistemdə qızıl ilə yanaşı bəzi valyutaların dəyərinin, başqa valyutalarla ifadə edilməsi üsulundan istifadə olunmağa başlamışdır (dəyərin ifadə edildiyi valyutalar deviz adlanırdı, deviz valyutalarının tərkibində qızıl vardı və onlar qızıl ilə mübadilə edilə bilərdi);

qızıl-valyuta (qızıl-dollar) standartı – pulun qızıl ilə əlaqəsi tərkibində qızıl olan Amerika dolları vasitəsilə ifadə edilirdi.

PUL TƏDAVÜLÜ – əmtəənin dövr etməsinə, həmçinin qeyri-əmtəə ödənişlərinə və hesablaşmalara xidmət edən pulun nağd və nağdsız formada fasiləsiz hərəkəti, tədavül və tədiyə vasitəsi kimi hərəkəti. İctimai məhsulun bölgüsü, tədavülü və mübadiləsi vasitəsi kimi çıxış edir. Pulun meydana gəlməsi ilə yaranır, hər ölkənin pul sistemi çərçivəsində baş verir. Sadə əmtəə istehsalı şəraitində əmtəə-pul-əmtəə metamorfozundan əmtəə-pul (alqı), pul-əmtəə (satqı) aktlarının uyğunsuzluğu imkanı (satmaq, lakin almamaq), yəni ifrat istehsal böhranlarının baş verməsi imkanı yaranır. Sadə pul tədavülü əsasında pulun kapital kimi (pul-əmtəə-pul) tədavülü inkişaf edir. Pul-əmtəə-pul formasında xırda əmtəə istehsalçılarının əmək məhsulları realizə olunmaqla bərabər, iş qüvvəsinin şəxsi istehlak predmetlərinə mübadiləsi də baş verir. Bu da iş qüvvəsinin təkrar istehsalı üçün zəruridir. Verilən hər bir anda zəruri olan pulun ümumi kəmiyyəti pul tədavülü qanunu əsasında müəyyən edilir. Bu qanun pul tədavülü sabitliyinin saxlanmasına təsir edən amilləri və iqtisadiyyatın maddi-pul balansını əks etdirir.

PUL TƏDAVÜLÜ QANUNU – tədavül üçün zəruri olan pul kəmiyyətini müəyyən edən iqtisadi qanundur.

PUL TƏKLİFİ – iqtisadiyyatda mövcud olan pulun miqdarı.

PUL ÜÇÜN FAİZ DƏRƏCƏSİ (ing. *Cash rate*) – növbəti iş gününədək pul vəsaitlərinin borc alınmasına görə beynəlxalq bankın müəyyən etdiyi qısamüddətli faiz dərəcəsi. Pul üçün faiz dərəcəsi açıq pul bazarında tələb və təklif əsasında müəyyən edilir. Pul üçün faiz dərəcəsi bazarda üstünlük təşkil edən qısamüddətli borc instrumentlərinin faiz dərəcələrindən birbaşa asılıdır: dövlətin pul siyasətində olan dəyişikliklərə çox

həssasdır. Bu termin Avstraliyada və Yeni Zelandiyada istifadə olunur.

PUL VƏSAİTLƏRİ – fiziki və hüquqi şəxslərdə, dövlətdə nağd və nağdsız formada mövcud olan bütün pullar və pul nişanları, digər yüksək likvidliyə malik aktivlər.

Nağdsız pul vəsaitlərinə müəssisələr tərəfindən bankların və digər maliyyə-kredit təsisatlarının hesablarında saxlanan vəsaitlərin bütün məbləği daxildir. Bankda, pul bazarında qısamüddətli əməliyyatlar aparmaq üçün müəyyənləşdirilmiş əməliyyat zonası – "pul otağı" fəaliyyət göstərir.

"Azərbaycan Respublikasının ərazisində nağd pul dövriyyəsinin təşkil edilməsi qaydaları"na müvafiq olaraq təşkilatlar onların təşkilati-hüquqi formasından asılı olmayaraq, sərbəst pul vəsaitlərini bank müəssisələrində müqavilə şərtləri daxilində müvafiq hesablarda saxlayırlar.

Müəssisələrin kassalarına daxil olan nağd pul vəsaitləri sonradan müəssisənin hesabına köçürülmək üçün bank müəssisələrinə təhvil verilməlidir.

Fiziki şəxslərin pul vəsaitləri həm nağd, həm də nağdsız formada saxlana bilər (vətəndaşların arzusuna və seçiminə əsasən).

PULA OLAN TƏLƏB (ing. *money demand, demand for money*) – əhalinin əlində olması arzu edilən pulun miqdarı (bu, özündə həm nağd pulları, həm də firmaların və xüsusi şəxslərin cari bank hesablarında olan vəsaitləri ehtiva edən "pul qalıqları" adlanır). Onu nəzərdə tutur ki, bu "arzu" iqtisadi subyektlərin sərvəti ilə məhdudlaşır və onlar bu sərvətin hansı hissəsinin pul kimi, hansı hissəsinin isə sərvətin ona alternativ olan fiziki kapital, banklarda müddətli əmanətlər, istiqrazlar kimi seçimini edirlər. Deməli, pula olan tələb likvidliyin üstünlüyü ilə izah olunur. Əldə pul olarsa, ona həmişə operativ sərəncamlıq etmək olar. Başqa sözlə, pula tələb həmişə əmtəə və xidmətlərə olan tələbdir ki, bunları həmin pullara almaq mümkündür. Lakin buna görə, məsələn, əmanətlərə və ya istiqrazlara görə faizlərdən imtina etmək lazım gəlir. Likvidliyin üstünlüyü qeyri-müəyyənliyin artımı, gələcək faizlərin (xüsusilə informasiyanın sürətlənməsi dövrlərində) ölçülərində inamsızlıq şəraitində, eləcə də, pulun tələb olunduğu dəqiq vaxtın bilinməməsi üzündən artır. Beləliklə, qeyri-müəyyənlik amili pula olan tələbə böyük təsir göstərir. Pula olan tələb bərabər şərtlər zamanı ölkədə pul kütləsinin ölçüsünü müəyyən edir. Pula olan nominal tələb (o, qiymətin artımının ardınca dəyişmişdir), pula olan real tələb və ya sadəcə, pula olan tələb fərqləndirilir. Pul qalıqlarının alıcılıq qabiliyyəti nəzərə alınmaqla hesablanan kəmiyyəti qəbul edilmişdir.

$$\text{Real tələb} = \frac{M_d}{P},$$

burada M_d – pula olan nominal tələb, P – qiymətlərin orta səviyyəsidir.

Pula olan tələb monetarizmin əsas anlayışlarından biridir. M.Fridman hətta yazırdı: "İlkin yaxınlıqda miqdar pul nəzəriyyəsi pula olan tələb nəzəriyyəsidir".

Monetaristlər öz modellərində ictimai istehsalın tənzimlənməsi aləti kimi dövlətin pul siyasəti haqqında nəticə və tövsiyələrini əsaslandırırdılar.

PULA TRANSAKSİYA SORĞUSU (ing. *transaction demond for money*) – vaxtaşırı gəlirlərarası (yəni həftəlik əmək haqqı, aylıq maaş) gündəlik xərcləri maliyyələşdirmək üçün saxlanan pullara sorğu. Bu məqsədlər üçün saxlanılan pulların miqdarı gəlirlərin (və xərclərin) səviyyəsindən asılıdır. Pullara transaksiya sorğusu pula olan ehtiyatdan sorğu (gözlənilməyən xərcləri çıxartmaq üçün) və pula olan spekulyativ sorğu (qiymətli kağızları alıb onların qiymətinin dəyişməsini gözləməklə) ilə birlikdə pula olan sorğunu təşkil edir.

PUL-KREDİT SFERASINDA KONVERGENSİYA – valyuta bazarı, müvafiq dövlət institutları (Mərkəzi Bank), yaxud tənzimlənən dövlət institutları tərəfindən valyuta dəhlizi çərçivəsində valyuta bazarı ilə müəyyən olunan məzənnə üzrə bir ölkənin valyutasının xarici valyutaya mübadiləsi. Bazar məzənnəsi üzrə sərbəst mübadilə olunan valyutalar dönərli (sərbəst konvertasiya olunan) valyutalar adlanır. Milli valyutanın, ölkə iqtisadiyyatının sabitliyini təsdiq edir və dünya bazarında bu ölkənin fəal fəaliyyət göstərməsi imkanını təmin edir. Borcların konvergensiyası kreditin ödənilməsi müddətinin uzadılması, borc faizinin ölçüsünün dəyişməsi məqsədi ilə əvəz olunması deməkdir.

PULLA TƏMİNAT – stabil pul tədavülünə, pulun material, əmtəə resursları, ehtiyatlar, qızıl və digər dəyərlərlə möhkəmləndirilməsinə səbəb olan maddi şərtlərin məcmusu, pul tədavülünün tənzimlənməsinin etibarlı sisteminin yaradılması.

PULLARIN "YUYULMASI" – elə əməliyyatların məcmusudur ki, bu zaman daxilolmaların əsl mənbəyi və ya pul məbləğinin təyinatı gizlədilir və onlara leqal (qanuni) xarakter vermir. Başqa sözlə, qeyri-qanuni yolla (oğurluqla, narkotik alveri ilə və s.) qazanılan pullarla əməliyyatlardır, burada məqsəd həmin pulların leqal mənbələrdən yaradılması təəssüratını oyatmaqdır. Kriminal biznesin geniş yayılmış müxtəlifliyindən biridir. Pulların "yuyulması"nda banklar və xüsusilə offşorlarda fəaliyyət göstərən digər maliyyə müəssisələri böyük rol oynayır. Elektron köçürməsinin müasir sisteminin köməyilə pullar müxtəlif banklar, şirkətlər və ya onların filialları arasında çox asanlıqla dövr edir, beləliklə, son hesabda onların mənbəyini müəyyən etmək mümkün olmur. Hesablamalara görə, mütəşəkkil beynəlxalq cinayətkarlığın illik gəlirləri trilyonlarla dollar təşkil edir ki, bu da dünyanın yüzlərlə iri şirkətinin və inkişaf etməkdə olan ölkələrin məcmu gəlirlərini ötüb-keçir.

PULLU QİYMƏTLİ KAĞIZLAR – pul məbləğinin (gəlirlərin) əldə edilməsi üçün sahibinə hüquq verən qiymətli kağızlar. Pullu qiymətli kağızlara aiddir: istiqraz vərəqələri, vekseller, çeklər, depozit və əmanət sertifikatları, bank əmanət kitabçaları və qiymətli kağızlar haqqında qanunlarla qiymətli kağız siyahısına aid olunan digər sənədlər.

PULUN ALICILIQ QABİLİYYƏTİ – 1. Əhalinin bütün xalq istehlakı mallarına və xidmətlərinə olan tədiyə qabiliyyətli tələbi. Əhalinin gəlirləri, yığımın (qənaətin) həcmi, istehlak kreditinin verilməsi şərtləri, mövcud qiymətlərin səviyyəsi, dövlətin sosial siyasəti, demoqrafik amillər və s. əsasında formalaşır. 2. Pul vahidinin müəyyən miqdar əmtəə və xidmətlərə mübadilə edilmək qabiliyyəti.

PULUN ARTMA ƏMSALI – ehtiyatların hər bir dolları ilə bank sisteminin yaratdığı pulun məbləği.

PULUN DƏYƏRİ ZAMANDA (ing. *time value of money*) – bu maliyyə konsepsiyası ondan ibarətdir ki, eyni miqdar pul bu gün gələcəkdə bu məbləğdən daha dəyərlidir.

PULUN DÖVLƏT NƏZƏRİYYƏSİ – müəllif: Georq Fridrix Knapp (1842-1926) – alman iqtisadçı və statistiki. Knapp pulun dövlət nəzəriyyəsinin banisidir. Bu nəzəriyyə dövlətin pul tədavülünü tənzimləməklə təsərrüfatı idarə etməsinin mümkünlüyünü əsaslandırır. Həmin nəzəriyyəyə görə, pul dövlət hakimiyyətindən törəmədir, buna görə də pulun alıcılıq qüvvəsini dövlət müəyyən edir. Pulun dövlət nəzəriyyəsinin bu cür tərəfdarları pulun əmtəə təbiətini, onun daxili dəyərə malik olmasını, pulun əsas yığım vasitəsi kimi funksiyasını qəbul etmirlər.

PULUN GERİ QAYTARILMASI TƏMİNATI – pərakəndə mal satanın və ya istehsalçının alınan malın alıcını hansısa səbəbdən razı salmadığı təqdirdə, onun bütün ödədiyi pulu geri qaytarmaq vədi (bir şərtlə ki, mal yaxşı vəziyyətdə qaytarılacaq).

PULUN MİQRASİYASI – pulun ölkə daxilində müxtəlif respublikalar, regionlar, vilayətlər, rayonlar, şəhərlər və kəndlər arasında, eləcə də əhalinin müxtəlif sosial qrupları arasında yerdəyişməsi.

"PUT-KOLL" NİSBƏTİ – verilən qiymətli kağızın bütün "put" opsionlarının bütün "koll" opsionlarına nisbəti; bazar "əhvalı"nın indikatoru.

PUT OPSİONU (ing. *put option*) – satış üçün nəzərdə tutulan opsion. Bu halda qiymətlərin azalacağı hiss edildikdə və ya mənfəətləri, yaxud investisiyaları qorumaq məqsədilə əqd bağlanır.

"PUT" VƏ "KOLL" OPSİONLARI PARİTETLƏRİ TƏNLİYİ (ing. *put-call parity relation*) – "put" və "koll" opsionlarının qiymətləri, müvafiq qiymətli kağızlar və opsionun icrasının gətirilən dəyəri arasında əlaqə.

PÜŞKATMA – səhmlərin yeni buraxılışını almaq üçün sifarişlərin miqdarı bölüşdürülən qiymətli kağızlar ehtiyatı ilə müqayisədə çox olduqda həmin sifarişlərin təsadüfi seçimi, püşkatmada uduzmuş şəxslər qabaqcadan ödədikləri məbləği geri alırlar.

R

RABAT (ing. *rebate* – endirim, güzəşt) – əmtəəni çoxlu miqdarda əldə etdikdə onun qiymətindən faiz və ya məbləğ formasında güzəşt edilməsi.

Satışın stimullaşdırılması kimi əmtəənin müəyyən səviyyədən çox əldə edildiyi sübut olunduqdan sonra ödənilmiş məbləğin bir hissəsinin geri qaytarılmasıdır. Rabat adətən iri şirkətlər tərəfindən distribütorlara və dilerlərə, nadir hallarda isə son alıcılara təqdim olunur.

Gəmi ticarətində rabat tariflərin endirimi şəklində gəmi sahibləri tərəfindən yükgöndərənə yalnız onların gəmisindən istifadə müqabilində təqdim edilir.

FOREX (Foreks) valyuta bazarında bu, komissiya haqqının müəyyən hissəsinin brokerə qaytarılması şəklində mövcuddur.

2011-ci ildən "əmtəə rabatı" internet ticarətində də fəaliyyət göstərir.

RADİKAL – qəti hərəkət və tədbirlər tərəfdarı. Köklü, əsaslı, qəti, ən təsirli.

RADİKAL İQTİSADİ KEÇİD – Şərqi Avropa ölkələrində neoliberal əsaslara söykənən intensiv, bazara tez, radikal keçid tendensiyası (bu tendensiya Polşada klassik formada "şok terapiyası", Çin və Macarıstanda təkamüllü evolyusiya "qradualizm"i, keçmiş SSRİ məkanında yaranmış yeni müstəqil dövlətlərdə (1992-1993-cü illərdə) "şok terapiyası" tətbiq edilmişdir.

RAFAKSİYA – malın keyfiyyətinin aşağı düşməsi səbəbindən qiymətinin endirilməsi, adətən, taxıl, ərzaq məhsulları, həmçinin, xammal ilə ticarətdə tətbiq edilir.

RAHAT BAYRAQLAR – dövlət bayraqları. Vergilərə, əmək haqqına, sosial sığortaya və s. çəkilən xərcləri aşağı salmaq məqsədilə bir sıra inkişaf etmiş ölkələrin sahibkarları öz gəmilərini dövlət bayraqları altında üzdürürlər. Məsələn, gəmilərin ingilis bayrağı altında üzməsi əlavə olaraq vergi güzəştləri əldə etmək deməkdir. Bundan ötrü gəmi şirkətlərinin gəmilərini Qibraltar, Men adası kimi Britaniya limanlarında qeydiyyata salması kifayətdir.

RAMBURS – borcun üçüncü şəxs vasitəsilə ödənilməsi; beynəlxalq ticarətdə bank vasitəsilə alınmış malın haqqının ödənilməsi.

RAMBURS BANK (ing. *reibursement bank*) – əgər idxalatçı bank ixracatçı bankın müxbir hesablarına malik deyilsə, idxalatçı bankla hesablaşmalar aparan müxbir bank.


RAMBURS KREDİTİ (fr. *rembourser* – qaytarmaq (evi), ödəmək (xərcləri) – ticarət əməliyyatlarının qısamüddətli bank kreditləşməsi; alıcı tərəfindən göstərilən, satıcı tərəfindən banka təqdim edilən köçürmə vekselinin və akseptə qədər satıcının bankında onun uçotunun köməyilə həyata keçirilir; vekselin qoyulduğu bankdır, onu akseptləşdirir və malı müşahidə edən sənədləri alır. Alıcı onları öhdəliyə əks olaraq vekseldə göstərilən son məbləğin ödənişi üzrə ötürür.

RAN-OFF – sığorta müqaviləsinin fəaliyyətinin dayandırılmasından sonra yerinə yetirilməli olan öhdəlik.

RANTYE (fr. *rentier*) – yalnız əmlak və qiymətli kağızlardan əldə edilən sabit gəlir əldə edən şəxs. Maliyyə gəlirləri ilə yaşayan şəxs. Yalnız dividend, qiymətli kağızlardan, kredit faizindən əldə olunan gəlirlər hesabına fəaliyyət göstərən iqtisadi subyekt.

RANTYE-DÖVLƏT – bu, digər ölkələrdə əhəmiyyətli kapital qoyuluşlarına malik olan və oradan dividend və faiz formasında mənfəət alan dövlətdir. Müstəmləkə dövründə belə dövlətlər İngiltərə, Fransa, Portuqaliya, İspaniya və ABŞ idi.

Fillips əyrisi vasitəsi ilə rasional gözləmənin illüstrasiyası



Qrafik 1

Hazırda bu dövlətlər 1950-1960-cı illərdə müstəmləkələrini itirsələr də, keçmiş müstəmləkələrdə iri investisiyalara malikdir və qiymətli kağızlara əmanətdən mənfəət və təqdim olunan kreditlərdən faizlər almaqda davam edirlər.

Rantye-dövlət müasir şəraitdə

Müasir şəraitdə rantye-dövlətlərin investisiyaları bir-birinə qovuşub, onlar bir-birinə münasibətdə də rantye qismində çıxış edirlər. Son illərdə rantye-dövlətlərin sayı Qərbi Avropa dövlətlərinin hesabına artmışdır, həmçinin yeni sənaye ölkələri – "Şərq pələngləri" – Cənubi Koreya, Tayvan, Sinqapur və Tailand hesabına).

RASİON (lat. *rationis* – ölçü) – müəyyən vaxt üçün yemək norması, müəyyən vaxt üçün yemək payı; cirə. *Əsgərin gündəlik rasionu.*

RASİONAL GÖZLƏMƏLƏR NƏZƏRİYYƏSİ – *müəllif*: Robert Lukas, Tomas C. Sarcent, Robert Berron.

Bu nəzəriyyə adaptiv gözləmələr nəzəriyyəsinə qarşı qoyulmuşdur. Onun müəllifləri əvvəlki təcrübəni yalnız təsərrüfat agentliklərinin ümidlərinə təsir göstərən çoxsaylı amillərdən biri hesab edirdilər. Onların fikrincə, rasional subyekt qarşıdakı dövrdə gözləmələrini formalaşdırarkən həm özünün keçmişini, həm də gələcəyini təhlil etməlidir. İnsan qarşıdakı iqtisadi hadisələrin inkişafına keçmiş və gələcək iqtisadi siyasətin təsirini nəzərə almalıdır. Bu nəzəri baxış rasional gözləmələr adı ilə məşhurdur.

Rasional gözləmələr nəzəriyyəsinə görə, əhalinin öz ümidlərinə reaksiyası diskresiyaya əsaslanan sabitləşdirmə siyasətini tamamilə səmərəsiz edir. Məsələn, pul-kredit siyasətini nəzərdən keçirək. Fərz edək ki, aparıcı pul-kredit idarələri "ucuz pul" siyasəti elan etmişlər. Bu siyasətin məqsədi məşğulluğu və məhsulun real həcmini artırmaqdan ibarətdir. Lakin əhali keçmişə nəzər salaraq bundan ehtiyatlana və belə güman edə bilər ki, həmin stimullaşdırma siyasəti inflyasiya ilə müşayiət olunacaqdır. Buna görə əhali müdafiə tədbirləri görür: fəhlələr nominal əməkhaqqının artırılmasını tələb edir, firmalar öz məhsullarına əvvəlkindən xeyli yüksək qiymət qoyur, kreditorlar isə, öz növbəsində, faiz dərəcələrini artırırlar.

Əhalinin bu cür davranışı əmək haqqının səviyyəsinin, malların və xidmətlərin qiymətlərinin artmasına şərait yaradır və beləliklə, "ucuz pul" siyasəti hesabına məcmu tələbin artması qiymətlərin və əmək haqqının artması ilə bütünlüklə əvəzlənir. Nəticədə ölkədə istehsalın real həcmi və məşğulluq səviyyəsi əvvəlki səviyyədə qalır və artmır.

RASİONLAŞDIRMA – rasionun, rasional səmərəli istehlak nisbətlərinin (məsələn, qida məhsullarının, ehtiyatların və s.) müəyyən edilməsi.

Resursların rasionlaşdırılması iqtisadi resursların alqı-satqı əməliyyatlarına kvotalar müəyyən edilməsi şəklində təsəvvür edilir.

İxracın və idxalın rasionlaşdırılması milli iqtisadiyyatın inkişafına kömək etmək, məhsulların rəqabət qabiliyyətini yüksəltmək məqsədi daşıyır.

RATİFİKASİYA – maddə, prosedur və ya əməliyyatın siyasət və qanunun tələblərinə uyğunluğunu bəyan etmək və ya təsdiqləmək.

RAUND-TERN (ing. *round-turn*) – əks əməliyyat aparılması, müəyyən maliyyə aktivlərinin və ya əmtəələrin tədarükü yolu ilə uzun, yaxud qısa mövqeyin ləğv edilməsi prosesi.

RAYFAYZEN (RAİFFEİSEN) FRİDRİX VİLHELM (1818–1888) – alman ictimai xadimi. Almaniyada kredit kooperativlərinin əsasını qoymuşdur. 1843-1865-ci illərdə magistratın məmuru, Almaniyanın bir sıra kiçik şəhərlərinin burqamistri olmuşdur. Rayfayzen tərəfindən kredit yoldaşlıqlarının *(birliklərinin)* təşkili prinsipləri *(pay haqlarının olmaması, kooperativin öhdəliklərinə görə üzvlərin birgə məsuliyyəti, verilmiş borcların (ssudaların) yalnız istehsal ehtiyatları üçün istifadə edilməsi və s.)* əsasən XIX əsrin ikinci yarısında Almaniyada və Avropanın digər ölkələrində kredit kooperasiyasının təşəkkül tapmasına və inkişafına təsir göstərmişdir. Artıq XX əsrin ilk onilliklərində kredit kooperasiyasının təkmilləşməsi və genişlənməsi şərtlərini diktə edən kənd təsərrüfatında kapitalist istehsal münasibətlərinin və bazarın inkişafı ilə Rayfayzen tərəfindən işlənib hazırlanmış kredit kooperasiyasının təşkili prinsipləri köhnəldi və hər yerdə ləğv olundu.



RAYON – 1. Bir ərazinin hər hansı bir coğrafi, iqtisadi və s. cəhətdən tam bir vəhdət təşkil edən hissəsi. Respublikanın, eləcə də böyük şəhərlərin tərkibinə daxil olan inzibati-ərazi vahidi.

RAYONLARARASI – bir neçə rayon üçün ümumi olan, təşkil olunmuş; bir neçə rayona aid olan. *Rayonlararası tikinti idarəsi; Rayonlararası mal-qara kökəltmə məntəqəsi.*

RAYT QANUNU – gəlir səviyyəsi nə qədərdirsə, onların əmanətlilik və xərclənmə səviyyəsi də bir o qədər yüksəkdir.

RAYTS – səhm saxlayanların səhmlərə müvafiq olaraq kapitalın mobilizasiyası məqsədi ilə kompaniya tərəfindən yeni qiymətli kağızları birinci növbədə əldə edə bilmələri üçün imtiyazlar verən sənəd. Həm də yeni səhmlər onlara bazar kursundan aşağı qiymətə təklif olunur. Ona görə də rayts, adətən, öz bazar dəyərinə malikdir və onunla aktiv şəkildə ticarət edilir (alqı-satqı həyata keçirilir).

RAZILAŞMAMA – etibarlı şəxsin və ya vəkilin hərəkətləri ilə razılaşmamaq haqqında və ya həmin şəxsin bəyanat verən adından hərəkət etməyə məsul olmaması haqqında bəyanat.

REAKSİYA (lat. *re* – əks-təsir və *actio* – təsir) – 1. Müxtəlif xarakterli təsirlərə cavab kimi yaranan təsir, vəziyyət, proses. 2. İqtisadi yüksəlişin nəticəsi kimi qiymətlərin sürətlə azalması.

REAKTİV MODEL (lat. *re* şəkilçisi – hərəkətin dönüşü, yeniləşməsi, əks hərəkəti) – sosial-iqtisadi fəaliyyətin sistemlərindən biri kimi bazar iqtisadiyyatı şəraitinin dəyişkənliyinə və adaptasiyasına nisbətən bağlı sosial qrupun müdafiə sistemini ehtiva edir.


REAL DƏYİŞƏNLƏR – fiziki vahidlərlə ölçülən dəyişənlər.

REAL ƏMƏK HAQQI – əmək haqqının verilən səviyyəsində işçinin əldə edə biləcəyi maddi nemətlərin kəmiyyəti, yaxud maddi nemətlərdə və xidmətlərdə ifadə olunan əmək haqqı; işçinin öz əmək haqqına faktiki nə qədər istehlak predmetləri və xidmətlər ala biləcəyini göstərir. Real əmək haqqının həcmi əmək haqqının nominal (pul) həcmindən, istehlak predmetlərinin və xidmətlərin qiymətlərindən, vergilərin həcmindən asılıdır.

Bu, ölkə əhalisinin həyat səviyyəsinin, real gəlirlərinin mühüm göstəricisidir. Əmək haqqı ölçüsünün onun müqabilində alınan malların ümumi qiymət səviyyəsinə nisbəti ilə müəyyən olunur (nominal əmək haqqının pərakəndə qiymətlər indeksinə nisbəti). Əgər məsələn, *əmək haqqı və qiymətlər eyni vaxtda* deyək ki, ilkin indekslə müqayisədə 20% *artıbsa,* onda son nisbət 100/100=1 və yeni nisbət 120/120=1 olacaq. *İşçinin əmək haqqının artması* – əmək haqqı qiymətlərə münasibətdə daha tez artdığı zaman (və ya onlar, ümumiyyətlə, dəyişməyəndə) baş verir. Məsələn, əmək haqqının 20% artması 120/100=1,2 nisbətini verir ki, bununla da işçini 20 % varlı edir. Belə ki, o, indi 20% çox məhsul almaq imkanına malikdir. İqtisad elmində real və pul formasında əmək haqqının məşğulluğun səviyyəsi və istehsal buraxılışı ilə qarşılıqlı əlaqə məsələsi mübahisəli qalır (bax: qrafik 1).

REAL FAİZ DƏRƏCƏSİ (ing. *real interest rate*) – inflyasiya sürəti çıxılmaqla nominal faiz dərəcəsi. Real faiz dərəcəsinin

Əmək təklifi və real əmək haqqı əyrisi



Burada: W/p – real əmək haqqı, Hw – iş saatlarının sayı, SS – əmək təklifi əyrisidir

Qrafik 1

(nominal faiz dərəcəsinin yox) artması xalq təsərrüfatında investisiyaların səviyyəsini azaldır və ya əksinə.

REAL İQTİSADİ TSİKL NƏZƏRİYYƏSİ – XX əsrin axırlarında ABŞ-da yaranmışdır.

Bu nəzəriyyənin nümayəndələri: Ridlend, Preskott, Lonq, Kinq və Plosserdir. Onlar pul amilinin iqtisadiyyata təsirini istisna edirdilər. Buna görə də real tsikl nəzəriyyəsində, ümumiyyətlə, pul təklifinin dəyişməsi ilə əlaqədar impulslar yoxdur.

Real iqtisadi tsikl nəzəriyyəsinin əsas müddəaları:


1) bu nəzəriyyənin tərəfdarlarının işləyib hazırladığı modellər iqtisadi artımın neoklassik nəzəriyyəsinə, o cümlədən Solou və Sorner modellərinə əsaslanır. Bu halda, tsikl, sadəcə olaraq, trend trayektoriyasının ətrafında dəyişmələr və meyillər kimi şərh edilir;

2) real tsikl nəzəriyyəsi modelin qurulmasının stoxastik xarakterli olmasından istifadə edir;

3) real tsikl modellərində istehlakçı seçiminin neoklassik nəzəriyyəsinin standart model postulatları tətbiq edilir. Modellərin əksəriyyətində istehlakçılar öz seçimini müəyyən edərkən (ya cari, ya da gələcək gəlirlər arasında) öz funksiyasını maksimallaşdırmalıdırlar. Deməli, iqtisadiyyatın iştirakçısının təsərrüfat fəaliyyəti xarici şoklara optimal reaksiyadır. Bu o deməkdir ki, real tsikl modellərində "könüllü işsizlik" ilə əlaqədar məşğulluğun dəyişməsi amili vardır;

4) tsiklik dəyişikliklərə səbəb olan iqtisadi mexanizm nəzərdən keçirilən konsepsiyada ümumi xarakter alır. Məsələn, modellərin əksəriyyətində iqtisadiyyatın rəqabətli olması barədə müddəa tələb edilmir, buna görə də tələbin dəyişməsi ilə qiymətlərin ona reaksiyası arasındakı addım sıfıra bərabərdir. Başqa sözlə desək, hər bir anda ideal dərəcədə çevik və mütəhərrik qiymətlər tələb ilə təklifin tamamilə üst-üstə düşməsini təmin edir;

İqtisadi tsikl modeli



Qrafik 1

5) real tsikl nəzəriyyəsi elmi texniki inqilabla əlaqədar meyilləri nəzərə almağa çalışır. Belə ki, stoxastik real tsikl modellərində "titrəmələrin" mənbəyi çox vaxt əmtəə istehsalı texnologiyasında baş verən ekzogen dəyişikliklər olur;

6) bu nəzəriyyədə sahələrarası istehsal əlaqələri xüsusi yer tutur. Bu modelin əsası güclü aqreqasiya etmiş sahələrarası balansdır. Bir fərziyyəyə görə, müəyyən sahəvi məhsulun buraxılışı gözlənilmədən genişlənmişdirsə, bunun ardınca müvafiq xammal və yarımfabrikatlar buraxılışının artırılacağı gözlənilir. Bunun sayəsində model çərçivəsində genişlənən (məhdudlaşan) tələb impulsları bir sahədən digərinə verilə bilər.

REAL İNVESTİSİYALAR – məhsul istehsalına, fəaliyyətin maddi-material növlərinə uzunmüddətli investisiyalaşma. Real investisiyalar, bir qayda olaraq, sahəvi, təkrar istehsal və texnoloji strukturu ilə xarakterizə olunan kapital qoyuluşlarını əks etdirir. Bunların da nisbətini, əsasən, yığımın səmərəliliyi ifadə edir. İstehsalın sürətli beynəlmiləlləşməsi nəticəsində kapital ixracı əhəmiyyətli dərəcədə genişlənir, əsasən, xaricdən gələn investisiyaların həcmi artır.

REALİZƏ (lat. *realis* – maddi, həqiqi) – əmtəənin satılması, qiymətli kağızların, yaxud əmlakın pula çevrilməsi, istiqrazın yayılması.

REAL ÜDM – istehsal olunmuş əmtəə və xidmətlərin baza ilindəki qiymətlərlə məcmu dəyərləndirilməsi. Real ÜDM nominal ÜDM-in baza ilindəki qiymətlərlə kəmiyyətini ifadə edir və aşağıdakı kimi hesablanır:

$$ÜDM_r = \frac{ÜDM_n}{İ_p}$$

Burada: $ÜDM_r$ – real *ÜDM*; $ÜDM_n$ – nominal *ÜDM;* $İ_p$ – qiymət indeksidir.

REAL VALYUTA MƏZƏNNƏSİ – hər iki ölkədə qiymətlər səviyyəsinin dəyişməsi nəzərə alınmaqla hesablanmış valyuta məzənnəsi. O, həmin iki ölkədəki nominal mübadilə məzənnəsi və qiymətlər səviyyəsindən çıxış edərək hesablanır:

$$E_r = E_n \cdot \frac{P_d}{P_f}$$

Burada: E_r – real valyuta məzənnəsi;

E_n – nominal valyuta məzənnəsi;

P_d – öz ölkəsində istehsal olunmuş əmtəələrin qiymət səviyyəsi, qiymətlərin daxili indeksi;

P_f – xaricdə istehsal olunmuş əmtəələrin qiymət səviyyəsi, xaricdə qiymətlərin indeksi.

REALİZASİYA (lat. *realist* – həqiqi) – 1. Müəyyən tədbirin görülməsi, həyata keçirilməsi. 2. İqtisadiyyatda "realizasiya" anlayışı daha məhdud məna daşıyır və öz hərəkətində iki dəfə dövriyyə mərhələsindən keçən kapitalın əmtəə dövriyyəsi kimi hesab edilir: məhsul istehsalı üçün resurslar alınması və alıcının tələbatının təmini, istehsal prosesinin davam etdirilməsi və həyata keçirilməsinin müqabilində mənfəət qazanılması məqsədilə istehsal edilmiş malların satılması. İstehsal prosesini davam etdirməyin mümkünlüyü çox cəhətdən realizasiyadan asılıdır. İstehlakçı üçün realizasiya onun tələbatının təmin edilməsinin mümkünlüyü, istehsalçı üçün isə istehsal prosesinin davam etdirilməsi və bərpa olunması üçün resurslar qazanmaq imkanı deməkdir. Kortəbii şəkildə inkişaf etməkdə olan bazar iqtisadiyyatında çox vaxt istehsal ilə realizasiya arasında əlaqə pozulur. Bunun nəticəsində artıq istehsal böhranı yaranır, yəni istehsal olunmuş məhsulun bir qismi realizə edilməmiş qalır.

Realizasiyanın müasir prinsipləri fərdi tələbatın təmin edilməsi və bütövlükdə cəmiyyətin maddi rifahının artırılması prinsiplərinə əsaslanır (sosial marketinq). Müasir dövrdə realizasiya problemləri firmalar tərəfindən malların istehsal edilməsi prosesinə, bu prosesin təkmilləşdirilməsinə və bazarın özünə fəal təsir göstərilməsi yolu, eləcə də bazarın konyunktura şərtlərinin tədqiq edilməsi və istehsalın alıcıların tələblərinə yönəldilməsi yolu ilə həll edilir.

REDUKSİYA OLUNMUŞ SIĞORTA MƏBLƏĞİ – sığortalanmış növbəti haqların ödənilməsinin vaxtından əvvəl dayandırılması ilə əlaqədar azaldılmış həyat sığortası müqaviləsinin məbləği. Azaldılmış sığorta məbləğində müqavilənin qüvvədə saxlanmasını nəzərdə tutan xüsusi qaydalar mövcuddur.

REFAKSİYA (fr. *refaction* – güzəşt, lat. *re* + *factio* – bölmə) – 1. Mal partiyasının topdansatış qiymətinə tətbiq edilən güzəşt. Malın istehsalçısı (tədarükçü, vasitəçi) bu güzəşti o halda təqdim edir ki, malların keyfiyyəti

ticarət müqaviləsində nəzərdə tutulan standartdan aşağı, yaxud malın bir hissəsi korlanmış, zay və ya itirilmiş olsun. Bu cür refaksiya taxıl məhsulları, dənli bitkilər, yem və başqa mallarla ticarət əməliyyatlarında daha geniş yayılmışdır. 2. Yükün həcmi böyük olduqda, sazişə əsasən, yükü göndərən tərəfindən tariflə nəzərdə tutulan qiymətə tətbiq edilən güzəşt.

REFERENT (lat. *referens* – xəbər verən) – onun funksiyasına daxildir: rəhbər üçün məruzələr hazırlamaq; bəzi məsələlərə dair məsləhətlər vermək; tövsiyələr hazırlamaq.

REFERENT QRUPU – mala münasibətə təsir göstərən insan qrupu və qrupa daxil olan ayrı-ayrı adamların alıcı davranışı.

REFERENT TƏSİRİ – müəyyən nüfuzlu mənbəyə göndəriş sayəsində edilən təsir.

REFLYASİYA – deflyasiyanı dayandırmaq və əvvəlki deflyasiyanın nəticələrini aradan qaldırmaq üçün inflyasiyaya əlverişli vasitə kimi baxaraq, geriyə istiqamət götürmək məqsədilə hökumət tərəfindən pul-kredit tənzimlənməsinin metodlarından istifadə etmə.

REFİNANSƏ – yeni qiymətli kağızların buraxılışı ilə köhnə borcların bağlanışının investisiya sxemi.

REFLASİYA – iqtisadi artım dövründə aşağı düşmüş qiymətlərin dövlət tərəfindən əvvəlki səviyyəyə yüksəldilməsi siyasəti.

REGİONAL İQTİSADİ SİYASƏT – sosial-iqtisadi inkişaf siyasətinin mühüm tərkib hissəsidir. Sosial-iqtisadi inkişaf siyasətinin başqa tərkib hissələrindən (maliyyə, pul-kredit, sosial siyasət, ekoloji siyasət, aqrar siyasət, sənaye siyasəti və s.) fərqli olaraq regional siyasətin özünəməxsus xüsusiyyətləri də var. Regional siyasətin əsas xüsusiyyətlərindən biri onun kompleks xarakter daşıması, bütövlükdə ölkənin sosial-iqtisadi inkişaf siyasətini əks etdirməsidir.

Regional siyasətin müvəffəqiyyəti, hər şeydən əvvəl, prioritet sahələrin düzgün seçilməsindən, inkişaf istiqamətlərinin düzgün müəyyən edilməsindən, hər bir konkret tarixi dövrə görə siyasətin düzgün qurulmasından, regional inkişafın vəzifələrinin müəyyən edilməsindən, ölkədə və onun regionlarında sosial-iqtisadi inkişafda ədalətlilik və səmərəlilik prinsiplərinin gözlənilməsindən, ölkə üçün prioritet sahələrin inkişafının regionların inkişafı ilə düzgün əlaqələndirilməsindən asılıdır.

Regional siyasətin çevikliyi, iqtisadiyyatın aparıcı sahələrinin digər sahələrin inkişafı ilə düzgün əlaqələndirilməsi baxımından XX əsrin 70-80-ci illərinin təcrübəsi mühüm əhəmiyyət kəsb edir. Həmin dövr sosial-iqtisadi inkişaf və regional siyasətin yaradıcı xarakter daşıması, ümumi prinsiplərlə yanaşı çevikliyi, şəraitdən asılı olaraq dəyişməsi və inkişaf etməsi ilə səciyyələnir. Lakin bir qayda olaraq, məlum səbəblər üzündən keçmiş SSRİ-də regional siyasətdə, o cümlədən regional struktur siyasətində İttifaq mənafeləri baxımından səmərəlilik ön plana keçmiş, ədalətlilik prinsipi diqqəti kifayət qədər cəlb etməmişdir. O dövrdə respublikadaxili regionların iqtisadiyyatının İttifaqın tələbatını nəzərə almaqla həddən artıq yüksək səviyyədə ixtisaslaşdırılmasının özü bu həqiqəti təsdiq edən ən güclü faktdır. Demokratik cəmiyyətdə isə ədalətlilik prinsipi əvvəlki dövrlərdə olduğuna nisbətən daha çox ön plana keçir.

Regional siyasətin ədalətlilik prinsipi üzərində qurulması üçün hər bir regionda əhalinin maddi rifah və həyat səviyyəsinin vəziyyəti, o cümlədən ÜDM-in artım sürəti, onun əhalinin hər nəfərinə düşən miqdarı, istehsal və istehlak arasında bölgüsü, əmək haqqının, gəlirlərin həcmi, strukturu, əhalinin istehlakının fizioloji normalar baxımından strukturu və s. öyrənilməlidir.

Zəngin təbii sərvətlərə, güclü iqtisadi potensiala, yüksək ixtisas və peşə yönümlü əmək ehtiyatlarına malik Azərbaycanda regional siyasətin təkmilləşməsi imkanları da böyükdür. Bu problemin həlli yollarını müəyyənləşdirərkən onu da nəzərə almaq lazımdır ki, regional inkişaf siyasəti dövlətin sosial-iqtisadi inkişaf siyasətinin mühüm tərkib hissəsi olduğundan, onun reallaşdırılması mexanizmi də bütövlükdə ölkənin sosial-iqtisadi inkişaf siyasəti mexanizminin tərkib hissəsidir. Ona görə də səmərəli regional struktur siyasəti hər bir regionda sənaye ilə kənd təsərrüfatı, xüsusilə kənd təsərrüfatı ilə emal sənayesi, real sektorla qeyri-real sektor arasında optimal nisbətin təmin edilməsini nəzərdə tutur. Dövlətin regional siyasətinin müvəffəqiyyəti onun obyektlə-

Cədvəl 1

Azərbaycan Respublikasında regionlar üzrə kredit qoyuluşu (01.01.2012)

Regionların adı	Cəmi	orta % dərəcəsi	ondan				Qısamüddətli kreditlər				Uzunmüddətli kreditlər				Vaxtı keçmiş kreditlər
			milli valyutada		sərbəst dönərli valyutada (SDV)		milli valyutada		sərbəst dönərli valyutada (SDV)		milli valyutada		sərbəst dönərli valyutada (SDV)		
			məbləğ	orta % dərəcəsi	məbləğ	orta % dərəcəsi	məbləğ	orta % dərəcəsi	məbləğ	orta % dərəcəsi	məbləğ	orta % dərəcəsi	məbləğ	orta % dərəcəsi	
Azərbaycan Respublikası	10206913.8	16.2	6616831.9	16.2	3590081.8	16.2	1987434.5	18.5	1070907.3	17.2	4629397.4	15.2	2519174.5	15.7	648806.3
o cümlədən:															
Bakı şəhəri	8909981.3	15.5	5645110.7	15.6	3264870.7	15.2	1660408.2	17.4	952472.8	15.8	3984702.5	14.9	2312397.9	15.0	541832.2
Abşeron iqtisadi rayonu	294760.3	17.7	207705.9	16.7	87054.3	20.2	94505.0	15.4	36853.7	16.3	113200.9	17.7	50200.6	23.1	30697.6
Aran iqtisadi rayonu	288055.9	22.8	223369.0	20.8	64686.9	29.6	84635.2	27.2	25128.3	36.2	138733.8	16.9	39558.7	25.5	20070.6
Dağlıq Şirvan iqtisadi rayonu	34760.6	21.3	26269.7	19.5	8491.0	26.7	7090.7	31.5	3136.8	30.8	19179.0	15.1	5354.1	24.2	3357.6
Gəncə-Qazax iqtisadi rayonu	283689.3	21.5	213850.4	20.2	69838.9	25.3	67854.6	26.3	20432.5	29.3	145995.9	17.4	49406.4	23.6	23437.0
Quba-Xaçmaz iqtisadi rayonu	104867.8	21.1	73781.4	18.9	31086.3	26.5	20802.6	24.4	9686.6	33.8	52978.8	16.7	21399.7	23.2	6078.5
Lənkəran iqtisadi rayonu	124448.1	24.6	91694.2	23.2	32753.8	28.6	25045.4	31.9	10931.4	34.4	66648.8	20.0	21822.5	25.7	10495.1
Şəki-Zaqatala iqtisadi rayonu	82482.4	23.3	58898.1	21.3	23584.3	28.2	18374.5	26.4	7980.8	33.3	40523.6	19.1	15603.5	25.6	9167.0
Yuxarı Qarabağ iqtisadi rayonu	11987.8	21.7	10489.0	20.6	1498.8	28.9	4216.9	23.8	547.1	36.5	6272.2	18.6	951.7	24.6	2491.0
Kəlbəcər-Laçın iqtisadi rayonu	2040.2	17.3	1775.7	16.3	264.5	24.0	332.4	27.4	43.2	30.1	1443.3	13.7	221.3	22.8	204.2
Naxçıvan iqtisadi rayonu	69840.1	12.0	63887.8	10.0	5952.3	32.8	4169.2	20.0	3694.2	41.3	59718.7	9.3	2258.1	18.7	975.3

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

"Azarbaycanda iqtisadiyyat hərtərəfli inkisaf etməlidir. Düzdür, neft amili uzun illər ərzində hələ həlledici rola malik olacaqdır. Bu da təbiidir. Çünki qoyulan sərmayələr çox böyükdür və gələcəkdə gözlənilən mənfəətlər də çox böyükdür. Amma, eyni zamanda əgər biz bu gün iqtisadiyyatımızın hərtərəfli inkisafına nail olmasaq, bu, ölkəmizi gələcəkdə çətin problemlərlə üz-üzə qoya bilər. Ona görə məqsədimiz budur ki, Azarbaycanda iqtisadiyyat hərtərəfli inkisaf etsin, təkcə Bakıda yox, bütün regionlarda bu inkisaf müşahidə olunsun.



"Qafqaz Sport Hotel" (Qəbələ)



Tovuz rayonu ərazisində Göytəpə Neolit dövrü arxeoloji abidəsi

Azərbaycanın uğurlu gələcəyi regionların inkişafı ilə bağlıdır. Bu sahəyə böyük diqqət göstərilməlidir. Yeni iş yerlərinin açılması regionlar üçün çox vacib məsələdir".

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev



İstirahət zonası (Mingəçevir)

Regionlarda istehsal və sosial infrastrukturların yenidən qurulması istiqamətində irimiqyaslı layihələr həyata keçirilir. Bakıda, Naxçıvan MR və digər iqtisadi rayonlarda dünya standartlarına cavab verən istehsal və xidmət sahələri, ofislər, binalar istifadəyə verilir.

Belə binalardan biri Nəsimi Rayon İcra Hakimiyyətinin müasir memarlıq üslubunda, yüksək zövq ilə inşa olunmuş yeddi mərtəbədən ibarət yeni inzibati binasıdır.

Binada elektron idarəetmə və məlumat sistemi yaradılmışdır. Rayonun hər bir sakini icra hakimiyyətinin binasına gələrək bu sistem vasitəsilə elektron ərizə yaza və müvafiq şöbəyə göndərə bilər. Bununla yanaşı, vətəndaşlar bu sistemdən internetlə rayon icra hakimiyyətinin rəsmi saytına və ya bu bazaya daxil olaraq evlərindən birbaşa müraciət edə bilərlər.

Yeni inzibati binada yerləşən rayonun operativ idarəetmə mərkəzində rayon ərazisində yerləşən bütün tikililər barədə proqram vasitəsilə məlumat almaq mümkündür. Təbii fəlakətlərin, istehsalat qəzalarının, dağıntıların yaranması təhlükəsi baş verəcəyi təqdirdə mərkəzdə idarəetmənin, xəbərdarlığın və rabitənin təşkili sxemi də yaradılmışdır.





Nəsimi Rayon İcra Hakimiyyətinin yeni inzibati binası (9 may 2012)



Gənclər Mərkəzi (Qazax)



Qaz kompressor stansiyası (Astara)



"Cənub" ES (Şirvan)



İstirahət zonası (Balakən)

rinin, məqsəd, vəzifə və həyata keçirilmə vasitələrinin düzgün seçilməsindən çox asılıdır. Lakin bəllidir ki, ayrı-ayrı ölkələrdə regional siyasətin miqyasına, həyata keçirilməsinə təbii, iqtisadi şərait, ölkənin inkişaf səviyyəsi kimi amillər ciddi təsir edir. Hər bir ölkənin regionları qarşısında müxtəlif vəzifələr durur ki, bu da regional siyasətin obyektlərini, məqsəd və vəzifələrini, deməli, onların həlli vasitələrini də fərqləndirir.

Bazar iqtisadiyyatı ölkələrində regional siyasətin ən çox təsadüf olunan obyektləri işsizliyin azaldılması, həyat səviyyəsinin yüksəldilməsi, regionlar arasında həyat şəraitində və iqtisadi inkişaf səviyyəsində mövcud fərqlərin aradan qaldırılmasıdır.

Regional siyasətin strategiyasını uğurla həyata keçirmək və qarşıya qoyulan məqsədlərə çatmaq üçün hər bir ölkənin inkişaf səviyyəsindən asılı olaraq aşağıdakılar nəzərə alınır: sosial iqtisadi inkişafa təsir edən kompleks amillər, o cümlədən, regionlar arasında yaranmış kəskin fərqlərin minimum səviyyəyədək azaldılması; keyfiyyətli və rəqabət qabiliyyətli yerli məhsullar istehsalının genişləndirilməsi; ölkənin xarici ölkələrdən ərzaq asılılığının minimum səviyyəyə endirilməsi; ölkə regionlarının xarici bazara çıxış imkanlarının genişlənməsi; ölkənin milli maraqlarına cavab verən real sektor sahələrinin inkişaf etdirilməsi və s.

REGİONAL İNVESTİSİYA SİYASƏTİ – sosial-iqtisadi siyasətin konkret region çərçivəsində həyata keçirilən tərkib hissəsi. Bu siyasətin əsas vəzifəsi regionun iqtisadiyyatını inkişaf etdirmək, struktur deformasiyalarını aradan qaldırmaq, regional iqtisadiyyatın səmərəli fəaliyyəti üçün əlverişli bazar mühiti yaratmaq məqsədilə ərazi kəsiyində investisiya fəaliyyətini reqlamentləşdirməkdir.

Regional investisiya siyasəti çox cəhətdən dövlətin regional siyasətinin son nəticəsini qabaqcadan müəyyən etmiş olur. Eyni zamanda, bu siyasət kapitalın təkrar istehsalının spesifik qanunlarına tabedir və iqtisadi-hüquqi və təşkilati-idarəetmə fəaliyyətinin nisbətən əlahiddə sahəsidir.

Regional investisiya siyasəti bütövlükdə dövlətin investisiya siyasətinin ciddi təsirinə məruz qalır. Bu siyasət birbaşa və dolayı tənzimləmə, iqtisadi, inzibati nəzarət metodlarından geniş istifadə edilməklə, konkret investisiya tədbirlərinin həyata keçirilməsinə yönəlmişdir.

Maliyyə investisiyaları üçün zəmin yaradan və bu siyasətin həyata keçirilməsində iştirak edən ən mühüm təsisatlar aşağıdakılardır:

1) dövlət strukturları;

2) banklar, maliyyə şirkətləri və maliyyə-sənaye qrupları;

3) sığorta və investisiya fondları.

REGİONAL SIĞORTA BAZARI – öz aralarında sıx inteqrasiya əlaqələri ilə bağlı olan ayrı-ayrı regionların (*ərazilərin)* sığorta təşkilatlarının, milli sığorta bazarlarının məcmusu. "Vahid Avropa" çərçivəsində "AİB-in vahid sığorta bazarı" yaradılmışdır. Hazırda AİB-in milli sığorta qanunvericiliyinin tam unifikasiya olunması prosesi formalaşır.

REGİONAL SİYASƏT – dövlət siyasətinin tərkib hissələrindən biri. Regional siyasət tədbirləri ölkənin seçmiş olduğu inkişaf strategiyasına uyğun olaraq milli məkanın tənzimlənməsinə yönəlmişdir. Regional siyasətin formalaşmasının və təşəkkülünün obyektiv amili eyni bir regionun strukturunun və təbiətinin müxtəlif resurs, iqtisadi, sosial və siyasi aspektlərdə yekcins olmamasıdır.

Regional siyasətin əsas *obyektləri* müxtəlif regionlar – inzibati-ərazi bölgü vahidləri, siyasi-ərazi bölgü vahidləri, federativ dövlətdə isə federasiyanın subyektləridir.

Regional siyasət terminologiyasında sərhədləri dəqiq müəyyən olan iki qütb vardır: "mərkəz" və "periferiya". Mərkəzin və periferiyanın mənafelərində, o cümlədən regionlar arasında mövcud ziddiyyətlərin həlli, əsasən, milli və regional maraqlar arasında kompromis variant tapılması hesabına həyata keçirilir. Bu maraqlar çox vaxt üst-üstə düşmür. Regional siyasətin qarşıya qoyduğu məqsədləri reallaşdırmaq üçün inzibati, sosial və iqtisadi metodlar tətbiq edilir. Kadr işçilərinin hazırlanması və seçilməsi sosial metodlara aid edilir. İqtisadi metodlar sırasına aşağıdakılar daxildir: subsidiya və dotasiyalar, vergi və gömrük siyasəti, sərbəst iqtisadi zonaların formalaşması.

Məlumdur ki, hər bir inkişaf etmiş dövlət özünün iqtisadi siyasətində regionlar arasında sosial-iqtisadi inkişafa görə, mövcud olan köklü fərqləri azaltmaq üçün müxtəlif güzəşt mexanizmlərindən istifadə edir. Aparılan araşdırmalar göstərir ki, yeni strateji proqramların reallaşması nəticəsində regionların inkişafındakı müsbət meyillərin möhkəmlənməsi, mərkəzdən uzaq olan kənd rayonlarında investisiya mühitinin yaxşılaşması üçün dünya təcrübəsində özünü doğrultmuş iqtisadi mexanizmlərdən istifadə olunması, xüsusi iqtisadi zonaların yaradılması ölkə iqtisadiyyatının tarazlı və keyfiyyətli inkişafını təmin edən amillərdəndir.

REGİONAL STRATEGİYA – sosial-iqtisadi inkişafın ümumi strategiyasının aspektlərindən birinin (*regional aspekt*) nəzərdən keçirilməsi, eləcə də regional siyasətin prinsipial müddəalarının əsaslandırılması zamanı siyasi-iqtisadi dövriyyəyə daxil edilən termin. Regional strategiyanın işlənib hazırlanması zamanı aşağıdakı əsas suallara cavab vermək lazımdır: rəhbər dövlət strukturları tərəfindən sosial-iqtisadi məkanın qeyri-yekcinsliyi qəbul olunurmu; regionların (rayonların, zonaların, arealların) mövcudluğu və onların coğrafi mövqeyinin spesifikliyi, resurs təminatı, sosial-tarixi inkişafı, etnik tərkibi və s. necədir; nümayəndəlik, maliyyə (büdcə) siyasəti sahəsində periferiya (regionlar) ilə mərkəzin münasibətləri hansı prinsiplər əsasında qurulmuşdur; bu münasibətlər hansı dövlətçilik formalarında (konfederasiya, federasiya, unitar sistem və s.) ifadə olunur; regionlar

Cədvəl 1

2004-2011-ci illərdə məhsul istehsalı və xidmət sahələri üzrə istifadəyə verilmiş mühüm əhəmiyyətli müəssisə və obyektlərin regionlar üzrə bölgüsü

	Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, vahid	Sənaye, vahid	Nəqliyyat və anbar təsərrüfatı, vahid	Turistlərin yerləşdirilməsi və ictimai iaşə, vahid	İnformasiya və rabitə, vahid	Təhsil		Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi			İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, vahid
						Ümumtəhsil məktəbləri, şagird yeri*)	Məktəbəqədər uşaq müəssisələri, yer *)	Xəstəxanalar, çarpayı*)	Ambulatoriya-poliklinika müəssisələri, növbədə qəbul*)	Müalicə-diaqnostika və sağlamlıq mərkəzləri, vahid	
Respublika üzrə - cəmi	42	158	49	20	1617	319907	8229	4134	5254	31	64
Bakı şəhəri		9	8	3	270	85393	4875	1855	1874	4	6
Abşeron iqtisadi rayonu - cəmi	0	6	0	2	29	11004	480	0	116	2	2
Gəncə-Qazax iqtisadi rayonu - cəmi	0	8	4	3	231	40577	220	310	395	3	6
Şəki-Zaqatala iqtisadi rayonu - cəmi	5	16	5	9	164	25796	210	385	220	6	3
Lənkəran iqtisadi rayonu - cəmi	1	12	1	1	240	37192	0	40	350	2	4
Quba-Xaçmaz iqtisadi rayonu - cəmi	0	6	4	0	160	21706	0	263	328	1	2
Aran iqtisadi rayonu - cəmi	5	19	8	4	371	56086	725	300	1129	6	15
Yuxarı Qarabağ iqtisadi rayonu - cəmi	1	0	1	0	47	5646	559	140	230	1	5
Kəlbəcər-Laçın iqtisadi rayonu - cəmi	0	0	0	0	0	257	0	0	0	0	0
Dağlıq Şirvan iqtisadi rayonu - cəmi	0	6	1	0	105	13994	80	52	200	1	3
Naxçıvan iqtisadi rayonu - cəmi	30	76	17	1		21776	1080	789	412	5	5

Cədvəl 2

Azərbaycan Respublikasında regionlar üzrə cəlb olunmuş əmanətlər

01.03.2012 min manat

Regionların adı	Cəmi	orta % dərəcəsi	ondan				Tələb olunanadək əmanətlər				Müddətli əmanətlər			
			milli valyutada		sərbəst dönərli valyutada (SDV)		milli valyutada		sərbəst dönərli valyutada (SDV)		milli valyutada		sərbəst dönərli valyutada (SDV)	
			məbləğ	orta % dərəcəsi	məbləğ	orta % dərəcəsi	məbləğ	orta % dərəcəsi	məbləğ	orta % dərəcəsi	məbləğ	orta % dərəcəsi	məbləğ	orta % dərəcəsi
Azərbaycan Respublikası	4330603.2	8.8	2421359.8	8.0	1909243.3	9.8	640703.9	0.4	241044.0	0.1	1780656.0	10.6	1668199.4	11.2
o cümlədən:														
Bakı şəhəri	3973033.9	8.9	2152570.6	8.2	1820463.3	9.8	509084.7	0.3	229755.1	0.1	1643485.9	10.6	1590708.3	11.2
Abşeron iqtisadi rayonu	112634.4	9.4	71563.1	9.0	41071.2	10.1	13647.7	0.6	2892.9	0.1	57915.4	11.0	38178.3	10.9
Aran iqtisadi rayonu	58265.5	5.0	49704.0	4.5	8561.5	8.2	31386.7	1.3	1504.9	0.4	18317.3	10.1	7056.6	9.8
Dağlıq Şirvan iqtisadi rayonu	7979.3	6.5	5774.3	5.2	2205.0	9.7	3316.4	1.1	165.4	0.0	2458.0	10.8	2039.6	10.5
Gəncə-Qazax iqtisadi rayonu	67116.7	7.4	50907.3	6.3	16209.5	10.7	25520.2	1.0	1686.4	0.0	25387.0	11.7	14523.1	11.9
Quba-Xaçmaz iqtisadi rayonu	24566.4	7.4	16856.4	7.0	7710.0	8.4	7264.9	1.5	1312.9	0.0	9591.6	11.2	6397.1	10.1
Lənkəran iqtisadi rayonu	30120.7	6.4	24868.0	5.7	5252.8	9.7	14284.5	1.5	810.6	0.1	10583.4	11.3	4442.2	11.4
Şəki-Zaqatala iqtisadi rayonu	22659.0	5.8	18357.4	5.2	4301.7	8.3	10403.0	0.8	800.5	0.0	7954.4	10.9	3501.2	10.2
Yuxarı Qarabağ iqtisadi rayonu	9252.6	3.6	8753.6	3.3	499.0	8.8	7343.6	1.9	92.8	0.2	1410.0	10.6	406.3	10.7
Kəlbəcər-Laçın iqtisadi rayonu	2152.4	4.9	2045.8	4.8	106.6	6.6	1440.4	1.9	48.2	0.4	605.5	11.6	58.3	11.7
Naxçıvan iqtisadi rayonu	22822.1	2.4	19959.4	2.2	2862.8	3.6	17011.9	0.6	1974.4	0.0	2947.5	11.4	888.4	11.5

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

arasında qarşılıqlı münasibətlərin tənzimlənməsində dövlətin rolu nədən ibarətdir və s.

Zərurət yarandıqda bu strategiyada müəyyən strateji məqsədlər – müdafiə qabiliyyəti və təhlükəsizlik, resurs və iqtisadi siyasət, milli-etnik quruculuq və s. məsələlər də nəzərdə tutula bilər.

Regional strategiya dövlət fəaliyyətinin ümumi strategiyasının tərkib hissəsidir və regional siyasətin əsas ünsürü hesab olunur.

REGİONAL STRATEJİ MARKETİNQ – ümumdövlət marketinq sisteminin elementi, ümumdövlət səviyyəli marketinqlə müəssisələrin (firmaların, təşkilatların) marketinqi arasında əlaqələndirici, vahid məqsədlər sistemində müxtəlif səviyyəli subyektlərin mənafelərini praktik olaraq uzlaşdırmağa imkan verən vasitə. Bəzi ölkələrdə, məsələn, Rusiyada regional strateji marketinq bir sıra idarəetmə funksiyalarının mərkəzdən yerlərə verilməsi prosesləri ilə şərtlənmişdir (bu, dünya miqyasında oxşar proseslər üçün də səciyyəvi haldır). Regional strateji marketinqin funksional rolu (ictimai əmək bölgüsündə həmin regionun tutduğu yer nəzərə alınmaqla) ümumdövlət səviyyəli strateji marketinqin müəyyən etdiyi sosial-iqtisadi məqsədlər baxımından regionun optimal inkişafını təmin etməkdir. Regional strateji marketinqin köməyi ilə elə mühit yaradılır ki, bu mühitdə müəssisələr, firmalar və vətəndaşlar əlaqəli fəaliyyət göstərirlər. Həmin mühit inzibati məcburetmə olmadan onların ümumi strateji məqsədə doğru hərəkətini stimullaşdırır.

Regional strateji marketinqin formalaşma şərtləri aşağıdakılardır: a) idarəetmə funksiyalarının və məsuliyyətin mərkəzlə regionlar arasında dəqiq bölgüsü və buna müvafiq olaraq maliyyə vəsaitlərinin bölgüsündə nisbətlərin dəyişməsi; b) təbii resurslar üzərində mülkiyyətin ərazidə dəqiq bölünməsi; c) regionlara müstəqil reallaşdırılan inkişaf proqramlarına malik olmaq hüququ verilməsi. Bu halda, ölkənin bütün ərazisində iqtisadi və hüquqi qaydaların ümumiliyinə riayət edilməsi vacibdir.

Regional strateji marketinqin işlənib hazırlanması məqsədin və zəruri məhdudiyyətlərin, ilk növbədə, resurs məhdudiyyətlərinin müəyyən olunmasını, sosial-tarixi xüsusiyyətlərin nəzərə alınmasını, regional iqtisadiyyatın ixtisaslaşmasını, mövcud əmək resurslarını, onların hazırlanmasını və başqa şərtləri nəzərdə tutur. Strateji və xüsusi məqsədlərin seçimi, onların prioriteti, "məqsədlər ağacı"nın qurulması, bir tərəfdən regionun ölkə iqtisadiyyatında yeri ilə (bu, məsələn, federal proqramlarda qeyd edilir), digər tərəfdən regionun özünün spesifikası, onun resurslarla təminolunma dərəcəsi ilə müəyyən edilir. Konkret vəziyyətdən asılı olaraq bu mərhələdə prioritet məqsədlər cəmiyyətdə vəziyyətin sabitləşdirilməsi, əhalinin məşğulluğunun təmin edilməsi, əhalinin salamat qalması probleminin həlli və başqa məqsədlər ola bilər. Regional strateji marketinqin formalaşması iki növ təhlükə ilə üzləşir: a) yerli mənafelər dövlətin mənafelərindən üstün ola bilər; b) mərkəz regionun ərazisinin iqtisadi və sosial inkişafında onun ağlabatan dərəcədə müstəqil olmasına imkan verməyə bilər. Buna görə də regional strateji marketinqin formalaşmasının ən mühüm şərti bütün səviyyələrdə mülkiyyət münasibətləri, hüquqi, kredit-vergi münasibətləri, təbiətdən səmərəli istifadə, ətraf mühitin qorunması, təbii resursların ixracına və satılmasına nəzarət və başqa aspektlər də daxil olmaqla mərkəzlə regionun mənafelərinin tarazlaşdırılmasının iqtisadi mexanizminin sınaqdan çıxarılmasıdır.

REGİSTR – 1) bir şeyin siyahısı, göstəricisi; qeydiyyat üçün kitab; 2) ticarət donanmasında müxtəliftipli gəmilərin tikintisi qaydalarını müəyyənləşdirən onların tikintisinin düzgünlüyünü müşahidə edən və istismar prosesində onların saz vəziyyətdə olmasına texniki nəzarəti həyata keçirən orqan.

REİDXAL – 1. Satılmamış, istifadə olunmamış və xaricdə emal olunmamış əmtəələrin geri qaytarılması; reidxal, əsasən, müqavilənin pozulması, malın xarab olması, müqavilə şərtinə görə keyfiyyətə uyğun gəlməməsi və s. hallarda baş verə bilər. 2. Gömrük rejimi; bu halda əmtəələr ölkənin gömrük ərazisindən adi ixrac rejimində çıxarılır, sonra isə heç bir gömrük rüsumu, vergi, sanksiya tətbiq edilmədən geri qaytarılır. 3. Xaricə investisiya edilmiş vəsaitin geri qaytarılması (reinvestisiya).

REİXRAC – əvvəl ölkəyə gətirilmiş, amma emal olunmamış məhsulların xaricə çıxarılması.

REİNJİNİRİNQ – 1) injinirinqin yeni səviyyəyə qaldırılması vasitəsi ilə müəssisələrin, firmaların, şirkətlərin sağlamlaşdırılması prosesi; 2) fəaliyyətdə olan obyektdə daha əvvəl reallaşdırılmış texniki qərarların modernləşdirilməsi üzrə fəaliyyət.

REİNKARNASİYA – qiymətli kağızların başqa formaya (məsələn, qızıl sertifikatların və xüsusi təyinatlı qiymətli kağızların, kuponlu istiqraz vərəqələrinin müəyyən müddətə kuponsuz istiqraz vərəqələrinə) çevrilməsi.

REİNTERMEDİASİYA – pul vəsaitlərinin rəqabət aparan qeyri-bank maliyyə institutlarından banklara və başqa depozit müəssisələrinə axını; bu, depozitlərin sığortalanması və ya gəlirlilik səviyyəsinin dəyişməsi ilə əlaqədar olaraq, riskin azalması ilə bağlı ola bilər.

REİNVESTİSİYA – mənbəyi və obyekti üst-üstə düşən kapital qoyuluşu. Mənbə və obyekt kimi ayrı-ayrı müəssisələr, iqtisadiyyatın sahəsi, müxtəlif növ aktivlər və bütövlükdə, ölkə iqtisadiyyatı çıxış edə bilər. Reinvestisiyalaşdırma inkişaf etməkdə olan ölkələr üçün çox böyük əhəmiyyətə malikdir. İnkişaf etməkdə olan ölkələr reinvestiyalaşdırmanı dəstəkləmək üçün həmin vəsaitləri vergidən azad edirlər.

REİNVESTİSİYA RİSKİ (ing. *reinvestment risk*) – faiz ödənişləri məbləğlərinin təkrar sərmayə qoyulması şərtlərinin istiqraz şərtlərindən pis olması riski.

REİNVESTİSİYA VARRANTI (ing. *reinvestment warrant*) – kupon gəlirinin eyni tipli istiqrazlara təkrar sərmayə qoyulması hüququ verən istiqraz varrantı.


REKAMBİO – 1) etiraz edilmiş vekseli ödəmiş şəxs tərəfindən həmin veksel üzrə borclu şəxslərdən birinə qarşı irəli sürülmüş, ödənilmiş məbləğin kompensasiyası, faizlərin, cərimələrin və etiraz üzrə xərclərin ödənilməsi haqqında tələb. Bu tələb tratta (retratta və ya retura deyilən əks veksel) formasında təqdim edilə bilər; 2) inkassoya qəbul edilmiş vekselin etirazı ilə əlaqədar xərclərin ödənilməsi haqqında bankın müştəriyə təqdim etdiyi hesab.

REKLAM (lat. *reklama;* fr. *reklamare* – qışqırmaq) – 1. Bir adama və ya bir şeyə şöhrət qazandırmaq, yaxud istehlakçı, müştəri, tamaşaçı cəlb etmək məqsədilə görülən tədbir. 2. Məşhurlaşdırmaq, populyarlaşdırmaq məqsədilə bir adam və ya bir şey haqqında məlumat yaymaq. 3. Bir adam və ya şey haqqında məlumat verən plakat. 4. Malların satış bazarlarında alıcılara təsir vasitəsi. Reklam əsas kütləvi informasiya vasitələrində, yəni radio və televiziyada, mətbuatda, reklam lövhələrində, kinoda, həmçinin internet və birbaşa marketinqdən istifadə etməklə, ideya və ya malların təqdim olunmasının istənilən ödənişli formasıdır.


Reklam fəaliyyətinin subyektləri aşağıdakılar hesab edilir: istehsalçı, əmtəə, xidmət, ideya, yeniliklər haqqında maraq formalaşdırmaq və ya marağı saxlamaq istiqamətində məqsədyönlü fəaliyyət göstərən reklam sifarişçiləri, istehsalçıları və yayıcıları, reklam agentlikləri reklam fəaliyyətinin subyektləridirlər.

Hər bir ölkədə reklam fəaliyyəti müvafiq qanunla və digər qanunvericilik aktları ilə tənzimlənir. Reklam haqqında Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq reklama ümumi tələblər aşağıdakılardır:

– Məcburi sertifikasiya edilməli olan, lakin uyğunluq sertifikatı olmayan əmtəələrin reklamı qadağandır.



Sxem 1



Sxem 2

Cədvəl 1

Müxtəlif ölkələrdə reklam xərcləri, 2010-cu il

	Xərclər, milyon EKYU	ÜMM-də xüsusi çəkisi, milli valyuta	Bir sakinə düşən xərclər
ABŞ	65 725.2	1.41	264.2
Avropa (AB ölkələri)	42 458.2	-	143.2
Yaponiya	22969.3	0.9	186.6
Böyük Britaniya	9 841.6	1.29	171.9
Almaniya	9 284.1	0.86	149.8
Fransa	6 636.7	0.76	118.2
İspaniya	6 490.5	1.88	166.9
İtaliya	4845.6	0.62	84.2
Niderland	1992.5	0.98	134.2
İsveçrə	1743.2	1.08	259.3
Danimarka	1 514.4	1.57	295.1
İsveç	1469.6	0.85	173.0
Finlandiya	1055.2	1.01	212.6
Avstriya	1 045.4	0.91	137.1
Belçika	847.1	0.61	85.2
Norveç	631.9	0.77	149.5
Yunanıstan	383.4	0.78	38.2
İrlandiya	314.8	1.02	89.6
Portuqaliya	308.1	0.75	29.8

Qeyd: 1 dollar 0.870 - 0.876 EKYU-ya bərabərdir

– Bazar subyektlərinin, əmtəənin, istehlakçını çaşdıra bilən yanlış müqayisə edilməsi və onun reklam yayımı, əmtəənin alınması, yaxud sövdələşmə zamanı istehlakçının seçmə sərbəstliyinə təsir göstərən qanunsuz reklam üsullarından istifadə olunması kimi istehlakçıları çaşdırmağa yönəldilmiş hərəkətlər yolverilməzdir.

– Əvvəlcədən müvafiq xəbərdarlıq etmədən, qeyri-reklam xarakterli kütləvi informasiya, kino və nəşr məhsullarında, konkret əmtəəyə, yaxud istehsalçıya, icraçıya və ya satıcıya maraq formalaşdırmaq və ya marağı saxlamaq məqsədi ilə, reklam istehlakçısının diqqətini məqsədyönlü şəkildə cəlb edilməsinə yol verilmir.

Kütləvi informasiya vasitələrində reklam informasiya, redaksiya və ya müəllif materialı kimi dərc olunduqda, yaxud yayıldıqda, ondan ötrü haqq alınmır.

– istehsalı və realizə olunması qadağan olunan əmtəənin reklamına yol verilmir.

Qanunla, həmçinin müstəsna hüquq obyektlərinin (intellektual mülkiyyət) reklamda istifadəsi qanunvericilikdə nəzərdə tutulan qaydada həyata keçirilə bilər.

Reklam vətəndaşları zorakılığa, təcavüzə çağırmamalı, çaşqınlıq yaratmamalı, həmçinin fiziki şəxslərin sağlamlığına və təhlükəsizliyinə xələl gətirə bilən hərəkətlərə, təbiəti mühafizə qanunvericiliyinin pozulmasına yönəlmiş fəaliyyətə təhrik etməməlidir. Mədəniyyət sərvətləri, o cümlədən dini təyinatlı mədəniyyət sərvətləri onların mənsub olduğu mülkiyyətçilərin (istifadəçilərin), o cümlədən dini qurumların razılığı olmadan reklam məqsədi ilə istifadə edilə bilməzlər. Azərbaycan Respublikasının ərazisində reklamda dövlət dili işlənilir və bu, dövlət dilinin normalarına uyğun olaraq tətbiq edilməlidir. Zəruri hallarda reklamda dövlət dili ilə yanaşı, digər dillər də istifadə oluna bilər. Lakin onların tutduğu sahə Azərbaycan dilindəki qarşılığının tutduğu sahədən böyük olmamalı və Azərbaycan dilindəki yazıdan sonra gəlməlidir.


Haqsız və qeyri-dəqiq reklam fərqləndirilir. Aşağıdakı hallarda reklam haqsız sayılır:

– reklam olunan əmtəədən istifadə etməyən hüquqi və fiziki şəxsləri gözdən saldıqda;

– mahiyyətcə reklam olunan əmtəə ilə digər hüquqi və fiziki şəxslərin əmtəələri arasında qeyri-etik müqayisə apardıqda, həmçinin rəqibin şərəf və ləyaqətini, yaxud işgüzar nüfuzunu təhqir edən obraz və məna daşıdıqda;

– reklam olunan əmtəə haqqında, başqa reklamlarda istifadə olunmuş ümumi layihəni, mətni, reklam formullarını, əksləri mu-

Reklam informasiyasının iki mərhələli təsir modeli



Sxem 3

siqi və ya səs effektlərini imitasiya və köçürməklə, həmçinin fiziki şəxslərin etimadından, yaxud onların təcrübəsizliyindən sui-istifadə etməklə, o cümlədən reklamda əhəmiyyətli informasiyanın müəyyən hissəsini qəsdən gizlətməklə istehlakçıları yanlış istiqamətləndirdikdə.

Aşağıdakılar barədə həqiqətə uyğun olmayan məlumatları əks etdirən reklam qeyri-dəqiq hesab olunur:

– əmtəənin tərkibi, hazırlama üsulu və tarixi, təyinatı, istehlak xassələri, istifadə şərtləri, sertifikat və dövlət standartlarına uyğunluq nişanlarının mövcudluğu, kəmiyyəti və istehsal olunduğu yer;

– əmtəənin bazarda mövcudluğu, onun göstərilən həcmdə, vaxtda və yerdə əldə edilməsi imkanları;

– reklamın yayımı anında əmtəənin dəyəri (qiyməti);

– ödəmənin əlavə şərtləri;

– əmtəənin yerinə çatdırılması, dəyişdirilməsi, geri qaytarılması, təmiri və digər xidmətlər;

– yararlılıq müddəti, xidmət müddəti və təminat öhdəliyi;

– dövlət rəmzlərindən (bayraq, gerb, himn), həmçinin beynəlxalq təşkilatların rəmzlərindən istifadə hüquqları;

– rəsmi tanınmaq, medallar, prizlər, diplomlar və digər mükafatların alınması;

– əmtəə seriyanın müəyyən qismini təşkil edirsə, onun tam seriyasının əldə edilməsi haqqında məlumat verilməsinin mümkünlüyü;

– tədqiqat və sınaqların nəticələri, elmi terminlər, texniki, elmi və digər dərc olunmuş materiallardan sitatlar;

– statistik məlumatlar;

– başqa əmtəə (əmtəələr) ilə, həmçinin digər fiziki və hüquqi şəxslərin mövqe və hüquqları ilə müqayisə;

– reklam sifarişçisi haqqında məlumat və əmtəəyə olan tələbatın faktiki ölçüsü.

Sənədli şəkildə təsdiqlənmədiyi halda "ən", "yalnız", "təkcə" və bu kimi digər terminlərdən istifadə edildikdə.

Əksər ölkələrdə müxtəlif əmtəə növlərinin reklamı bir sıra xüsusiyyətləri ilə fərqlənir.

Azərbaycan Respublikasında reklam haqqında qanuna görə spirtli içkilərin bütün üsullarla reklamına aşağıdakı hallarda yol verilmir:

– spirtli içkilərin içilməsi prosesinin nümayiş edilməsinə;

– spirtli içkilərin içilməsinin ictimai, idman və şəxsi uğur qazanmaqda, yaxud fiziki və ya psixi halın yaxşılaşmasında vacib rolu olması təəssüratının yaradılmasına;

– spirtli içkidən imtina edənlərin gözdən salınmasına;

– alkoqolun müsbət müalicəvi xassələri haqda məlumatların verilməsinə;

– müəyyən məhsulun tərkibində alkoqolun çox olmasının bu məhsulun üstünlüyü kimi təqdim edilməsinə;

– bilavasitə yetkinlik yaşına çatmayanlara, qadınlara müraciət edildikdə, obraz kimi yeniyetmə və gənclər arasında populyar olan şəxslərdən və idmançılardan, həmçinin 25 yaşadək istənilən şəxsdən istifadə edilməsinə;

– spirtli içki reklamının yetkinlik yaşına çatmayanlar və qadınlar üçün nəzərdə tutulan kino və video məhsullarda, mətbuat orqanında hər hansı şəkildə yayımına;

– spirtli içkinin qəzetlərin birinci səhifələrində, jurnalların titul səhifələrində reklam yayımına;

– spirtli içkinin uşaq, təhsil, idman obyektlərində, ayin binalarında və tikililərində, həmçinin onlardan 100 metrədək məsafədə reklam yayımına.

Həkim resepti əsasında buraxılan dərman vasitələrinin, qanunvericilikdə müəyyən olunmuş qaydada istehsalına və ya satışına icazə verilməyən tibb vasitələrinin, habelə tətbiqinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən icazə verilməyən müalicə, profilaktika, diaqnostika və reabilitasiya metodlarının reklamına yol verilmir.


Tərkibində narkotik vasitələr və psixotrop maddələr olan preparatların reklamına yol verilmir.

Müvafiq icra hakimiyyəti orqanının rəyi olmadan kütləvi müalicəvi seanslarının, hipnoz metodlarının, psixi və bioenerji təsirlərin müalicəvi xassələrinin reklam yayımına yol verilmir.

Bütün növ silahların, hərbi texnikanın reklamına (icazə verilmiş ov və idman silahları istisna olmaqla) yol verilmir.

Reklam fəaliyyətində pornoqrafiyadan istifadə qadağandır.

Reklam informasiyasının ikimərhələli təsir modeli



Sxem 4

Cədvəl 1

Marketinqi həyata keçirərkən reklamın funksiyaları

Marketinqin mərhələsi	Reklamın funksiyaları
Bazarın hazırlanması	İstehlakçıların yeni mallar haqqında məlumatlandırılması, potensial alıcılar seqmentinin formalaşdırılması
Yeni əmtəənin bazara yeridilməsi	Satışın fəallaşması, mövcud əmtəənin satış coğrafiyası barədə informasiya və alıcıların sayının artırılması
Kütləvi satış	Satış həcminin optimal səviyyədə saxlanması, əmtəənin rəqabətliliyinin təmin olunması
Tələbin çevrilməsi	İstehlakçıların istiqamətləndirilməsinin dəyişdirilməsi, reklamın sönməsi (demarketinq funksiyası), kontr-reklam, tələbatı az olan ənənəvi əmtəələrin bazardan sıxışdırılması üçün yeni əmtəələrin reklam olunması

Cədvəl 2

Əlamətlər	Xüsusiyyətlərin müəyyənləşdirilməsi
İctimai xarakter	Reklam müraciəti eyni zamanda çoxlu insanlara ünvanlanır. Alıcı mövcud əmtəəni almaq üçün cəmiyyətə aydın olan motiv əldə edir.
Məlumatlandırma qabiliyyəti	Satıcı təklifi bir neçə dəfə təkrar edə bilər, alıcı isə rəqabətin təklifləri ilə onu müqayisə edə bilər. Geniş, ardıcıl reklam satıcı haqqında yaxşı fikir formalaşdırır
Ekspressivlik	Nou-hau və texniki vasitələr hesabına reklam parlaq, təsirli və effektli ola bilər
Anonimlik	Reklam dialoqu istisna edir. Auditoriya onun etdiyi təklifə dərhal cavab verməyə də bilər

Maliyyə (o cümlədən, bank), sığorta, investisiya xidmətlərinin, hüquqi və fiziki şəxslərin pul vəsaitlərinin istifadəsi ilə bağlı digər xidmətlərin, həmçinin qiymətli kağızların reklamının istehsalı, yerləşdirilməsi və yayımında aşağıdakılara yol verilmir:

– reklam olunan xidmət və ya qiymətli kağızlara birbaşa aid olmayan kəmiyyət xarakterli məlumatların yayılmasına;


– qiymətli kağızların emissiya prospektləri qeyddən keçməmiş onların reklam edilməsinə;

– adi səhmlərə əsaslanaraq dividendlər haqqında təminatlar verilməsinə;

– reklamda müqavilə şərtləri göstərildikdə, bu şərtlərdən hər hansı birinin göstərilməməsinə.

Reklam yayımında istiqrazın, əmanətin, qiymətli kağızların və onların satışından əldə edilən həqiqi və ya gözlənilən gəlir, həmçinin alışın şərtləri haqqında reklam istehlakçılarında yanlış təsəvvürün yaradılmasına yol verilmir.

Reklam fəaliyyətinin vacib bir növü sosial reklam hesab edilir. Sosial reklam ictimai və dövlət maraqlarına xidmət edir və xeyriyyəçilik məqsədi daşıyır. Sosial reklamda kommersiya təşkilatlarının, fərdi iş adamlarının adları, onların əmtəələrinin konkret markaları, eyni zamanda qeyri-kommersiya təşkilatlarının sahibkarlıq fəaliyyəti nəticəsində istehsal olunmuş əm-


REKLAM PLANININ HAZIRLANMASI MƏRHƏLƏLƏRİ
Məqsədlərin müəyyənləşdirilməsi
Tələb və imiclə bağlı olan konkret məqsədlər
Məsuliyyətin müəyyənləşdirilməsi
Özünün reklam bölməsində istifadə etmə
Hər çeşid qrupu üzrə müxtəlif agentliklərdən istifadə etmə
Büdcənin müəyyənləşdirilməsi
Ümumi təşviq büdcəsinin hazırlanması metodlarının seçilməsi
Reklamın büdcəsinin ətraflı hazırlanması
Reklam obyektinin seçilməsi
Tutulması və ya təsir edilməsi vacib olan bazarların (seqmentlərin) dəqiq müəyyənləşdirilməsi
Reklamın məzmunu
Əsas reklam-kommersiya mövzusunun formalaşdırılması
Reklam vasitələrinin seçilməsi
Aşağıdakı amillərin təhlili: dəyər, faydasız auditoriyanın mövcudluğu, əhatə, tezlik, reklam müraciətlərinin sabitliyi, təsir dərəcəsi
Əsas və köməkçi reklam vasitəsinin seçilməsi
Reklam müraciətlərinin formalaşdırılması
Müraciətin məzmununun müəyyənləşdirilməsi (üslub, motivasiya, cəlbediciliyi)
Reklam tədbirlərinin planı
Reklamın təkrarlanması tezliyi
Keyfiyyət, rentabellik

Sxem 5

Reklamın səmərəliyinin proqnozlaşdırılması metodları



Sxem 6

təənin markaları (modelləri, artikulları) göstərilə bilməz. Hüquqi və fiziki şəxslərin sosial reklamın istehsalı və yayımı sahəsində təmənnasız fəaliyyətləri, sosial reklam istehsal etmək və yaymaq üçün digər hüquqi şəxslərə ödəmələri xeyriyyəçilik hesab edilir və qanunvericilikdə nəzərdə tutulan güzəştlərə malikdir.

Reklam sifarişçisi, reklam istehsalçısı, reklam yayıcısı və reklam agentlikləri reklam materiallarını və onların surətlərini, sonradan edilən əlavə və dəyişikliklər də daxil olmaqla, reklamın yayıldığı son gündən etibarən bir il müddətində saxlamağa borcludurlar.

Reklam fəaliyyətinə dövlət nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanları öz səlahiyyətləri çərçivəsində aşağıdakı hüquqlara malikdir:

– hüquqi və fiziki şəxslər tərəfindən yol verilən qanunauyğun gəlməyən reklam yayımlarının qarşısını almaq;

– reklam sifarişçisi, reklam istehsalçısı, reklam yayıcıları və reklam agentliklərinə reklam qanunvericiliyinin pozulmasına yol verdikləri haqda xəbərdarlıqlar, onların əks reklam yaymaqları haqda icrası məcburi olan qərarlar göndərmək;

– reklam qanunvericiliyinin pozulması ilə bağlı müvafiq məhkəmələrə iddiaçı kimi müraciət etmək. Bu halda müvafiq icra hakimiyyəti orqanları dövlət rüsumundan azad edilirlər.

Reklam fəaliyyətinə özünü nəzarəti reklamçıların peşəkar cəmiyyətləri, birlikləri, assosiasiyaları həyata keçirirlər. Onlar:

– reklam haqqında hüquqi normativ aktların hazırlanmasına cəlb edilirlər;

– reklamın qanunvericilik aktlarına uyğunluğunu yoxlamaq məqsədilə onun müstəqil ekspertizasını keçirir, öz təkliflərini müvafiq icra hakimiyyəti orqanlarına, habelə reklam sifarişçilərinə, istehlakçılarına və yayıcılarına göndərirlər;

– reklam haqqında qanunvericiliyə riayət edilməsinə nəzarət etmək üçün müvafiq icra hakimiyyəti orqanları tərəfindən cəlb edilirlər.

REKLAM TƏZYİQİ – bazarda eyni reklam vasitələrindən istifadə edən böyük sayda reklam verənlərin mövcudluğu. Bu çox zaman istehlakçıları çaşdırır.

REKLAMASİYA (lat. *reclamatio* – inkar, etiraz) – alınan və ya tədarük edilən məhsulun və ya görülən işin lazımsız keyfiyyətinə və ya növünə dair şikayət ərizəsi; malın keyfiyyəti aşağı olduğu üçün zərəri ödəmək haqqında tələb, iddia. *Parçanın pis rənginə görə reklamasiya.*

REKLAMÇI – reklam tərtib edən, reklam düzəldən, reklam tərtibçisi.

REKORD (ing. *record*) – 1. İdman yarışında göstərilən ən yüksək nailiyyət. 2. Əməyin, təsərrüfatın hər hansı bir sahəsində ən yüksək nailiyyət. *Dünya rekordu. Respublika rekordu.*

REKREASİYA (lat. *recreatio*, bərpa, istirahət) – istirahətin təşkili, insanların fiziki, intellektual və psixo-emosional fəaliyyətinin bərpası. Rekreasiya turizm, idman, mədəniyyət və həmçinin sanator-kurort sahələrini əhatə edir. Rekreasiya xidməti iqtisadiyyatın inkişaf etməkdə olan sahəsidir.

REKUPERASİYA (lat. *recuperatio* – geriyə alma, qaytarma) – 1. Səhmin məzənnəsi sürətlə düşdükdən sonra onun reabilitasiyası. 2. Fond bazarında səhmlərin birja məzənnələrinin təkrar oxunması.

İstehlakçını daha bahalı məhsulu almağa məcbur etmək məqsədilə əmtəə və xidmətlərin satışa çıxarılmasının qanunla qadağan olunmuş halları da mövcuddur ki, bu da aldadıcı reklam kimi qiymətləndirilir.

REKURSİV MODEL – dəyişənlərin müəyyən çoxluğunun cari qiymətlərinin başqa bir çoxluğun cari qiymətlərini, sonuncunun əvvəlki qiymətlərinin isə birincinin cari qiymətlərini müəyyən etdiyi model. Rekursiv modelin ən sadə nümunəsi aşağıdakı şəkildədir:

$$yt=a+bx1; \quad xt=c+dxt-1,$$

Burada: x və y – dəyişən kəmiyyətlərdir, a, b, c və d – sabit kəmiyyətlərdir.

REKVİRENT – notariusa vekseli protest etmək tələbi ilə müraciət edən veksel sahibi.

REKVİZİT – saziş və ya sənədin tərkibində formal elementlərin yekunu. Bu elementlər olmadıqda onların hüquqi qüvvəsi itir.

REQALİY – dövlətə məxsus olan xidmət (*məsələn, poçt, teleqraf*) sahələri.

REQRESS – bir fiziki və ya hüquqi şəxs digər fiziki və ya hüquqi şəxsə irəli sürülən ödənilmiş məbləğin ödənilməsi haqqında əks tələb; yaxud dəymiş zərərin ödənilməsini təmin etmək məqsədilə sığorta hadisəsinin baş verməsində günahkar olan üçüncü şəxsə iddiaçının irəli sürdüyü hüququ tələb.

REQRESSANT – tələbin irəli sürüldüyü şəxsin əvəzinə müəyyən bir ödənişi həyata keçirməsi ilə bağlı itkilərin ödənilməsi barədə digər şəxsə əks tələb irəli sürən şəxs.


REQRESSAT – reqressantın üzərinə tələb yönəltdiyi şəxs.

REQRESS İDDİASI – 1. Bir şəxsin digər şəxsə ünvanladığı zərərin ödənilməsi haqqında əks tələb; bu sənədə görə həmin zərər digər şəxsin günahı üzündən baş vermişdir. 2. Borclunun günahı üzündən üçüncü şəxsə iddiaçı tərəfindən ödənilən pul məbləğinin və ya əmlak dəyərinin qaytarılması haqqında borcluya olan iddia; məsələn, sığorta təşkilatının reqress iddiasına əsasən, törədilmiş zərərə görə cavabdeh olan şəxs, sığorta ödənişlərinin məbləğini zərərçəkmişə ödəməyə borcludur. Reqress iddiası üzrə borclunun üzərinə, onun üçüncü şəxsə ödədiyi məbləğin tam həcmdə kreditora ödənilməsi vəzifəsi qoyulur. Öz işçisinə müəssisənin reqress iddiası istisna təşkil edir ki, bu zaman ümumi maddi məsuliyyət normaları fəaliyyət göstərir.

REQRESSİV VERGİ – yüksək gəlirli vergi ödəyicilərinin aşağı gəlirli vergi ödəyicilərinə nisbətən gəlirlərinin daha az hissəsini ödəməli olduqları vergi. Bu vergi tətbiq olunduqda vergitutma bazasının həcmi artdıqca vergi dərəcəsi azalır.

REQRESSİYA – hər hansı təsadüfi kəmiyyətin orta qiymətinin bir və ya bir neçə (çoxqat reqressiya) başqa kəmiyyətdən asılılığı.

REQRESSİYA TƏHLİLİ (ing. *regression analysis*) – sər-



bəst və asılı dəyişənlər arasında asılılığı müəyyənləşdirmək və münasibətləri qiymətləndirmək üçün istifadə edilən statistik metod. Qurulmuş reqressiya tənliyi əsasında aparılan reqressiya təhlili asılı dəyişən kəmiyyətin dəyişməsinə hər bir sərbəst dəyişənin töhfəsini müəyyən edir. Reqressiya təhlilinin iki növünü fərqləndirirlər: qoşa reqressiya təhlili və çoxqat reqressiya əsasında təhlil.

REMALİYYƏLƏŞDİRMƏ (lat. *refunding*) – köhnə dövlət borcunun yeni istiqrazlar buraxılması nəticəsində örtülməsi. Bu əsasən qısamüddətli istiqrazların uzunmüddətli istiqrazlarla əvəzlənməsi şəklində həyata keçirilir.

REMARKA – hesabda, ticarət kitabının səhifələrində edilən qeyd.

REMARKETİNQ – müəyyən əmtəəyə azalmaqda olan tələbatı "canlandırmağa" yönəlmiş təkrar marketinq. Yeni reklam kampaniyasının keçirilməsi, yaxud yeni hədəf bazarında malın reklam və tətbiq edilməsi yolu ilə həyata keçirilir. Remarketinq başqa yeni əmtəənin tətbiq edilməsinə də yönəlmiş ola bilər. Adətən, flankerinq (mövcud əmtəənin "cinahlar üzrə" təkmilləşdirilməsi) ilə paralel aparılır və bir neçə flankerinq qədər vaxt tələb edir (tələbin artırılması və stimullaşdırılması baxımından). Bu halda, köhnə əmtəə daha reklam edilmir.

REMEDİUM (lat. *remedium* – bir şeyə qarşı vasitə) – sikkənin faktiki kütləsinin və onun əyarının müəyyən edilmiş normativ kəmiyyətlərə uyğun olmaması. Qanunda bu cür xətalar yol verilən hesab edilir, çünki tədavül prosesində sikkənin sürtülməsi nəzərə alınır.

Remediumun qiyməti sikkənin çəkisinin mində bir hissəsi ilə ölçülür.

Remediumun növləri:

– sikkənin kəsilməsi prosesində onun çəkisinin və əyarının müəyyən edilmiş normativlərdən yol verilə bilən xətası;

– sikkə tədavüldə olarkən onun sürtülmə dərəcəsi (sikkənin tamdəyərli olması dövrünü uzatmaq məqsədilə onun tədavüldə olarkən sürtülməsinin müəyyən dərəcəsinə yol verilir).

Sikkənin remedium həddində köhnəlməsi ilə əlaqədar xərcləri dövlət öz üzərinə götürür.

REMİSSİYA – hesab üzrə ödəmələrdə edilən güzəştlər.

REMİTASİYA (lat. *remitere* – göndərmə) – remissa tətbiq edilməsini nəzərdə tutan xarici valyuta şəklində borcun ləğvi metodu. Remitasiyanın mahiyyəti aşağıdakılardan ibarətdir:

Borclu milli valyuta bazarında, milli valyuta müqabilində xarici valyuta (tratta, çek, teleqraf baratı) alır və onu kreditora göndərir.

Borclu çek və ya köçürmə veksel alınması və onların kreditora göndərilməsi yolu ilə borcunu ödəyir.

REMİTENT – xeyrinə ilk köçürmə vekseli (tratta) yazılan şəxs.

REMİZ – birja dəllalları və qiymətli kağız alıcıları arasında vasitəçi olmaq istəyən şəxsə birja dəllalları tərəfindən verilən komisyon mükafatı.

REMİZA – köçürmə vekseli yolu ilə pulların ödənilməsi.

RENOVASİYA (lat. *renovatio* – təzələnmə, bərpa olunma) – əsas istehsal fondlarının mənəvi və fiziki aşınma nəticəsində iqtisadi cəhətdən yeniləri ilə əvəz edilməsi prosesi; ictimai istehsalın fasiləsizliyinin təminatının zəruri şərti. Renovasiya sıradan çıxmış ayrı-ayrı əmək vasitələrinin əvəz olunması, müəssisələrin və ya onların bölmələrinin yenidən qurulması *(bunun gedişində aşınmış əsas fondların bir hissəsi əvəz olunur)*, ləğv olunmuş köhnə müəssisələrin əvəzinə yeni müəssisələrin tikintisi yolu ilə həyata keçirilməsidir. Renovasiyaya yönəldilən kapital qoyuluşlarının mənbəyi amortizasiya fondudur.

Keçmiş SSRİ-də amortizasiya fondunun bir hissəsi müəssisələrin *(birliklərin)* sərəncamında qalırdı və istehsalın inkişafı fonduna yönəldilirdi. Əsasən renovasiya məqsədilə istifadə olunurdu. Renovasiya gedişində aşınmış maşın, avadanlıq və s. bir qayda olaraq, daha təkmil əmək vasitələri ilə əvəz olunur. Renovasiyanın həcmi – təkrar istehsal templərinin və proporsiyalarının formalaşması amillərindən biridir. Renovasiyanın həcmi sadə təkrar istehsal zamanı əsas istehsal fondlarının cəminə bərabərdir. Geniş təkrar istehsal zamanı bu, məbləğdən azdır. Bu kəmiyyətlər arasındakı riyazi asılılıq Y.B.Kvaşa, E.Domar və digər iqtisadçılar tərəfindən tədqiq edilmişdir. Müvafiq şərtlər zamanı *(əsas fondların renovasiyası üçün amortizasiya norması və işədüşmə əmsalı vaxt vahidi ərzində sabitdir və nəzərdən keçirilən fondlar qrupu üçün*

vahiddir) əsas fondların zəruri renovasiyasının həcmi əsas fondların cəminin *á1*-in zəruri əvəzedilmə əmsalının hasilinə bərabərdir və aşağıdakı düsturla müəyyən edilir:

$$á1 = (1+a- á1)T=a,$$

burada: a – əsas fondların işədüşmə əmsalı; T – əsas fondların normativ xidmət müddətidir.

Əsas fondların renovasiyası – fiziki və mənəvi aşınma nəticəsində sıradan çıxmış əsas istehsal fondlarının yenisi ilə əvəz edilməsinin iqtisadi prosesi; istehsalın fasiləsizliyinin təmin edilməsinin zəruri şərtidir. Renovasiya əsaslı vəsait qoyuluşu mənbəyi amortizasiya fondudur. Renovasiyanın zəruri həcmi əmək vasitələrinin aşınma dərəcəsi ilə müəyyən edilir. Renovasiya zamanı, bir qayda olaraq, aşınmış maşın, avadanlıq və s. daha təkmil əmək vasitələri ilə əvəz edilir.

RENTA (alm. *Rente;* fr. *Rente*; lat. *Rendita, Raddita* – geri verilmiş, qaytarılmış) – kapitaldan, torpaqdan, əmlakdan müntəzəm götürülən və sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan gəlir növü. Torpaq sahibləri torpaq rentası alırlar.

İqtisadi kateqoriya kimi, feodal cəmiyyətində təşəkkül tapmışdır. Klassik siyasi iqtisada görə, kəndlinin izafi məhsul verimi-nin torpaq mülkiyyətçisinin mənimsəməsi formasıdır. İqtisadi məzmun daşımaqla təbii ehtiyatlarla bağlı əldə edilən gəlirdə ifadə olunan renta, iqtisadçı təfəkküründə məhdud ehtiyatlar kontekstində torpaqdan və digər təbii resurslardan istifadə haqqının qiymətini xarakterizə edir. Məhz torpağın, təbii resursların



unikal təklifliliyi şərti, onların təsbit olunmuş miqdarı renta tədiyələrini əmək haqqı, mənfəət və faizlərdən ayıran xüsusiyyətdir. Torpaq təbiətin ödənişsiz sərvəti kimi istehsal xərcləri ilə ilk baxışda heç bir funksional əlaqəsi olmasa da, onun münbitliyinin doğurduğu renta ödənişləri fərdi istehsalçı üçün xərclər yaradır. İctimaiyyət üçün konkret olaraq xərc sayılmayan renta məhsul artıqlığı təsəvvürünü canlandırsa da, istifadənin alternativ variantları müqabilində o, məhz ödənişlərin xərcləri kimi çıxış edir. Renta mükafat olmaqla xərclərin dəyəri ilə bazar qiymətləri arasında fərq kimi, böyük səylərin, ustalığın nəticəsi deyil, sadəcə, səxavətli irsiyyətdən qaynaq alır. Beləliklə, renta iqtisadi təbiətini kəndlinin izafi məhsulverimin torpaq mülkiyyətçisinin mənimsəməsi formasını təşkil edən feodal cəmiyyətində təşəkkül tapan iqtisadi kateqoriyadır.

RENTA MÜQAVİLƏSİ – bu müqaviləyə görə bir tərəf *(renta alan)* əmlakı digər tərəfin *(renta ödəyicisinin)* mülkiyyətinə verir. Renta ödəyicisi isə alınmış əmlakın müqabilində renta alana vaxtaşırı müəyyən pul məbləği şəklində renta ödəməyi öhdəsinə götürür.

RENTA SIĞORTASI (ing. *rent insurance*) – müntəzəm şəkildə sığorta şirkəti tərəfindən sığortalı şəxsə gəlir ödənilən sığorta növü; başqa sözlə, bu gəlirin sığortası. Bir qayda olaraq, bu sığorta növü fərdi sığorta münasibətlərinə aiddir.

RENTABELLİK – istehsal resurslarından istifadə edilməsinin səmərəlik göstəricisi.

Müəssisənin rentabellik növləri aşağıdakılardır:

Ümumi rentabellilik – faizlər hesablanana qədər mənfəətin kəmiyyətinin müəssisənin aktivlərinə nisbəti kimi müəyyən edilir;

Dövriyyənin rentabelliyi – faizlər hesablanana qədər mənfəətin müəssisənin ümumi maliyyə daxilolmalarına nisbəti;

İnvestisiyaların rentabelliliyi – investisiya qoyulması nəticəsində xüsusi mənfəətin artımının müvafiq istehsala inves-

$$\text{Kapitalın rentabelliyi} = \frac{\text{Nəticə (mənfəət və ya zərər)}}{\text{Bütün aktivlərin orta cəmi}} \times 100$$

və

$$\text{Dövriyyənin rentabelliyi} = \frac{\text{Nəticə (mənfəət və ya zərər)}}{\text{Satışdan əldə edilmiş gəlir}} \times 100$$

x

$$\text{Aktivlərin dövrlüyü} = \frac{\text{Satışdan əldə edilmiş gəlir}}{\text{Bütün aktivlərin orta cəmi}} \times 100$$

tisiyaların həcminə nisbəti;


Məhsulun rentabelliyi – məhsulun satışından əldə edilən mənfəətin onun istehsalına və dövriyyəsinə məcmu xərclərə (məhsulun ümumi maya dəyərinə) nisbəti;

Kapitalın rentabelliyi – müəssisənin təsərrüfat fəaliyyətinin səmərəlik göstəricisi (təşkilatın iqtisadi məqsədinin həyata keçirilmə dərəcəsi). Müəssisənin mənfəətinin həmin müəssisəyə kapital qoyuluşuna nisbəti kimi müəyyən edilir;

Səhmlərin rentabelliyi – müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin səmərəliliyini əks etdirən göstərici. Planlaşdırmada və plan üzrə tapşırıqların yerinə yetirilməsinin qiymətləndirilməsi zamanı tətbiq edilir;


Hesablanmış mənfəət – müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin səmərəliliyini əks etdirən göstərici. Planlaşdırmada və plan üzrə tapşırıqların yerinə yetirilməsinin qiymətləndirilməsi zamanı tətbiq edilir. Hesablanmış rentabellik ($R_{hes.}$) hesablanmış mənfəətin ($M_{hes.}$) əsas

Müəssisə aktivlərinin rentabelliyini ifadə edən göstəricilərinin qarşılıqlı əlaqəsi



Sxem 1

Firma rentabelliyini formalaşdıran model



Sxem 2

istehsal fondlarının və normalaşdırılan dövriyyə vəsaitlərinin orta illik dəyərinə ($ƏİF_{o.i.d.}$) faiz nisbəti kimi təyin edilir:

$$R_{hes} = M_{hes.} \text{x } 100\% / ƏİF_{o.i.d}$$

RENTABELLİK ƏMSALI – məlumatlar, məmulatlar qrupunun rentabelliyi; müəssisənin, firmanın ümumi buraxılışında onların ölçülü xüsusi çəkisi.

RENTANIN SIĞORTALANMASI – şəxsi sığorta növü; buna görə sığortaçı müəyyən edilmiş müddətdə sığorta rentası formasında gəliri müntəzəm ödəməlidir. Rentanın sığortalanması keçmiş SSRİ-də xüsusi sığortanın aşağı səviyyəsi, Qərb ölkələrində isə sosial təşkilatın əlaməti kimi qiymətləndirmişdir. Rentanın sığortalanması üzrə tarif dərəcələri digər sığorta növlərinə nisbətən yüksəkdir. Rentanın sığortalanmasının müxtəlif növləri içərisində pensiyaların sığortalanması üstünlük təşkil edir. Rentanın sığortalanması bir çox sığorta növlərini əhatə edir ki, bunların içərisində pensiya sığortası fərqlənir. Rentanın sığortalanmasının xarakterik xüsusiyyəti odur ki, sığorta müqaviləsində nəzərdə tutulan dövrdə təsbit olunmuş ölçüdə sığorta ödənişləri həyata keçirilir.

RENTİNQ – icarədarın avadanlığı almağa ixtiyarı olmadan maşın və avadanlıqların qısamüddətli icarəyə verilməsi.

REPARASİYA (lat. *reparatio* – bərpa) – beynəlxalq hüquqa əsasən, sülh müqaviləsinə uyğun olaraq hücum etmiş ölkə tərəfindən qarşı ölkəyə dəymiş zərərin ödənilməsi. Reparasiyanın həcmi və xarakteri dəymiş zərərə müvafiq olaraq müəyyənləşdirilir. İlk dəfə dünya təcrübəsində bu, 1919-cu ilin sülh

Almaniyaya dair reparasiya məsələsinin həlli

1919-cu il Paris sülh konfransı

- Reparasiya komissiyasının yaradılması
- Reparasiya ödəmələrinin ümumi prinsiplərinin müəyyənləşdirilməsi
- 1921-ci il 1 may tarixinədək 20 milyard qızıl marka məbləğində reparasiya üzrə avans ödənişinin müəyyənləşdirilməsi
- Reparasiya üzrə ümumi müddət 30 il müəyyən edilib
- Reparasiya üzrə ümumi məbləğ müəyyən edilməyib

↓

1919-cu il Spa konfransı

Reparasiya ödənişlərinin alınmasında qalib ölkələrinin paylarının müəyyənləşdirilməsi, %-lə

Fransa – 52	İngiltərə – 22	İtaliya – 10	Yaponiya – 0,75	Yunanıstan, serblər, xorvatlar, sloveniyalılar krallığı, Rumıniya – 6,5	Portuqa-liya – 0,75	Belçika – 8

↓

1921-ci il Paris konfransı

42 il ümumi ödəmə müddəti ərzində reparasiya ödəniş sxemlərinin müəyyən edilməsi

1921-ci il London konfransı

132 milyard qızıl marka dəyərində reparasiyanın ümumi məbləğinin müəyyənləşdirilməsi

↓

1923-cü il Rur böhranı
Rurun fransız-belçika ordusu tərəfindən işğalı

↓

1924-ci il London konfransı

- "Daues" planının qəbul olunması – Almaniyanın maliyyə sistemində stabilləşdirmə tədbirlərinin aparılması üçün nəzarət mexanizminin yaradılması
- Almaniyaya 800 milyon marka məbləğində borc verilməsi. Reparasiyanın ödənilməsi üçün mənbələrin müəyyənləşdirilməsi
- Reparasiya üzrə ödənişlərin ardıcıllığının dəyişməsi (ümumi məbləğin dəyişmədiyi şərti ilə)

↓

1929-cu il Haaqa konfransı

- "Yunq" planının prinsipi – 113,9 milyon marka məbləğinədək ümumi reparasiya ödənişlərinin azaldılması
- İllik ödənişlərin azaldılması
- Almaniyanın maliyyə sisteminə beynəlxalq nəzarətin ləğv olunması
- Ödənişlərin 50 il müddətinə müəyyən edilməsi

↓

Quver Moratoriumu (1931-ci il ABŞ prezidenti)

Reparasiya ödənişlərinin müvəqqəti olaraq dayandırılması

1932-ci il Lozan konfransı

Reparasiya ödənişlərinin dayandırılması (Reparasiya ödənişlərinin ümumi müddəti ərzində Almaniya 21 milyard 807 milyon qızıl marka ödəmişdir. Eyni zamanda 39 milyard marka kredit almışdır)

Sxem 2

müqaviləsində öz əksini tapmışdır. Birinci Dünya müharibəsinin yekunlarına əsasən, Almaniya və müttəfiqləri Antanta ölkələrinə və əhalisinə dəymiş zərəri ödəməli idilər. İkinci Dünya müharibəsinin (1939-1945) yekunlarına əsasən (Krım və Potsdam konfransları, 1945) faşist Almaniyası müttəfiqlərə dəymiş zərəri ödəməli idi (bax: sxem 1).

REPATRİASİYA (lat. *patria* – vətən, *repatriare* – vətənə qayıtmaq) – iqtisadi baxımdan kapitalların və borcların repatriasiyalarına bölünür.

Kapitalların repatriasiyası – xaricdə sərmayə qoyulmuş kapitalların öz dövlətinin sahələrinə investisiya qoyulmaq məqsədilə qaytarılması. Kapitalın ölkədən çıxarılması problemi ilə sıx bağlıdır.

Kapitalların repatriasiyasının aşağıdakı formaları vardır:

– əvvəllər xaricdə sərmayə qoyulmuş kapitalların və onlara görə mənfəətlərin vətənə köçürülməsi;

– əmtəə və xidmətlərin satışından daxil olmuş xarici valyuta.

Kapital ixrac edən ölkələrin valyuta-iqtisadi vəziyyəti pisləşdikdə, onlar öz tədiyə balansını optimallaşdırmaq üçün kapitalların repatriasiyasını stimullaşdırırlar.

REPORT – 1. Müəyyən müddətdən sonra yeni, daha yüksək kursla almaq öhdəliyi ilə qiymətli kağızların təcili satılması üzrə birja sazişi. Report deportun əksi olaraq qiymətin artımına istiqamətlənir. 2. Valyuta bazarında xarici valyutanın milli valyutaya nağd yolla satışı ilə gələcəkdə, müəyyən müddətdən sonra onun daha yüksək kursla alışının təşkili haqqında eyni vaxtda bağlanan saziş. 3. Fyuçers əməliyyatlarında broker alverçiləri tərəfindən istifadə olunan kontraktın vaxtının uzadılması üçün kontagentə ödənilən yüksək ödəniş.

REPORT ƏQDİ – qiymətli kağızların spekulyant tərəfindən müəyyən gündə mövcud məzənnə üzrə həmin qiymətli kağızları müəyyən müddətdən sonra yuxarı məzənnə üzrə almaq şərti ilə satışı; pul borcunun spesifik forması – birja maklerləri bu cür əqdlərdən tez-tez istifadə edirlər. Müştəri qiymətli kağızları alır və həmin qiymətli kağızların əvvəlki sahibinə razılaşdırılmış müddət keçəndən sonra ümumi dəyəri əvvəlcə alınmış səhmlərin və istiqrazların dəyərinə bərabər olan başqa qiymətli kağızları satmağı öhdəyə götürür. Bu, qiymətli kağızlarla təmin edilən kreditin bir növüdür. Əgər müqavilə müddəti başa çatdıqdan sonra səhmlərin məzənnə dəyəri əvvəlkindən aşağı olarsa, bu əqdin mənası yoxdur. Bu halda müştərinin gəliri məzənnə fərqi (report) şəklində yaranır.

REPOZİSİYALAŞMA – məqsədli bazarın, müqayisəli üstünlüklərin və ya hər iki amilin dəyişdirilməsi.

REPYUTİNQ – istehsalçının kompleks hərəkətlər və ya işgüzar reputasiya mexanizmi yaratması. Repyutinq stil, imic, işgüzar nüfuz və qudvil (reputasiyanın qiyməti) kimi komponentləri əks etdirir. Məqsədini müştərini anlamaq, onun arzu və tələblərini öyrənmək məramları təşkil edən repyutinqə, həm də "menecment-marketinq-repyutinq" formalı bazar mexanizminin zəncirini yaradan tərkib hissə kimi də baxmaq olar. Təşkilatın reputasiyasının qiyməti çox yüksək ola bilər. Belə ki, "Koka-Kola" kompaniyasının ticarət nişanı 3 milyard, "Kemel" firmasınınkı 2,5 milyard, "Kristal" zavodunun "Stoliçnaya" arağınınkı isə 100 milyon dollar qiymətləndirilir. Elə sahibkarlar vardır ki, onların faksimilinin qiyməti milyonlarla dollar məbləğində dəyərləndirilir və bəzən bu məbləğ məxsusi material aktivlərini belə bir neçə dəfə üstələyir.

RESESSİYA (ing. *recession*) – fəallığın azalması, real ümumi milli məhsulun aşağı düşməsi və bununla əlaqədar olaraq digər göstəricilərin aşağı düşməsi.

RESİPİENT – hər hansı gəlir əldə edən dövlət, fiziki və hüquqi şəxs.

RESİPROSİTİ – təkrar sığorta müqavilələri yerləşdirilərkən adi tələb; bu zaman şirkət onu əsas götürür ki, onun təkrar sığortaya təklif etdiyi sığortaya qarşı, ona oxşar qarşılıqlı şərt-müqabil təkrar sığorta müqavilələrində iştirak etmək təklif olunmalıdır. Resiprositi sığorta mükafatının həcminə görə bu və ya digər tərəfin müqavilələrinin keçirilməsinin gözlənilən nəticələrinə görə təqdim oluna bilər.

RESKONTRO (ital. *Riscontro*) – şəxsi hesablardan ibarət olan köməkçi mühasibat kitabı.

RESPONDENT – marketinq tədqiqatının gedişatında suallara cavab verən şəxslər.


RESTANT – müəssisə və ya təşkilatın balansın hesablanması anı üçün mövcud olan borcları.

RESTRİKSİYA (lat. *restrictio* – məhdudiyyət) – qiymətlərin qaldırılması məqsədilə istehsalın, satışın, ixracın məhdudlaşdırılması; dövlət və banklar tərəfindən inflyasiyanın zəiflədilməsi məqsədilə kreditləşdirmənin məhdudlaşdırılması.

RESTRUKTURİZASİYA – iqtisadi səmərənin və bazar rəqabətinin yüksəldilməsi istiqamətində geniş dairəli tədbirlər sistemi. Restrukturizasiya strukturun dəyişməsi, yenidən təşkilidir. İqtisadi səmərənin və bazar rəqabətinin yüksəldilməsi istiqamətində geniş dairəli tədbirlər sistemi kimi anlaşılır. Restrukturizasiyanın çoxşaxəli metodları daha çox təşkilati və maliyyə elementlərini cəm edən qruplar üzrə ümumiləşir (bax: sxem 1).

RESURSLAR (ehtiyatlar) (fr. *ressource* – köməkçi vasitə) – istehsal prosesində tətbiq olunan və sərf edilən vasitələr. Bilavasitə istehsal prosesində iştirak edən resurslar istehsal amilləri adlanır. Resursların aşağıdakı növləri olur:
– təbii resurslar;
– insan (əmək) resursları;
– kapital formasında resurslar.

Restrukturizasiya vəzifələrinin iyerarxiyası



Sxem 1

Sahibkarlıq qabiliyyətləri (əmtəə və xidmətlər istehsalı üçün müəssisələrə zəruri olan təşkilatçılıq və idarəetmə qabiliyyətləri) şəklində resurslar.
Sahibkarın əsas rolu təbii, insan və kapital resurslarını birləşdirməkdən ibarətdir.

RESURSLARA QƏNAƏT – istehsal amillərindən qənaətlə və səmərəli istifadə edilməsi ilə bağlı tədbirlər kompleksi. Bu tədbirləri birləşdirən cəhət istehsal və istehlak prosesində iştirak imkanıdır.
Resurslara qənaət probleminin səmərəli həlli üçün mövcud olan bütün əmək, təbii, maliyyə, maddi və digər resurslar tətbiq edilir.
Qənaət edilən resurslar aşağıdakı növlərə bölünür:
Təkrar istehsal edilə bilənlər (məhsul, əməkçi kadrlar, təkrar istehsal edilə bilən istehsal resursları və s.);
Təkrar istehsal edilə bilməyənlər (faydalı qazıntılar, torpağın münbitliyi).
Resurslara qənaət əsasən aşağıdakı yollarla təmin edilir:
– resursqoruyucu texnologiyalar;
– enerjiqoruyucu texnologiyalar;
– məhsulun fond tutumunun və material tutumunun azaldılması;
– əmək məhsuldarlığının artırılması;
– canlı və əşyalaşmış əmək sərfinin azaldılması;
– məhsulun keyfiyyətinin artırılması;
– idarəçilərin və marketoloq mütəxəssislərin əməyinin səmərəli tətbiqi;
– beynəlxalq və ictimai əmək bölgüsü;
– daimi elmi-texniki tərəqqi.
Resurslara qənaət iqtisadi effektivliyə və iqtisadiyyatın rəqabət qabiliyyətini artırmağa imkan verir.

RETORNO – sığortaçının verilən hüquqa əsasən bağladığı sığortadan imtinası zamanı sığorta edən idarə tərəfindən tutulan sığorta mükafatının hissəsi.

RETRAGENT (ing. *repurchase* – agent) – girov qoyulmuş qiymətli kağızların alışı ilə məşğul olan şəxs.

RETRATTA – geri köçürülən veksel. Protest edilmiş trattanı ödəyən şəxs tərəfindən ödənişi həvalə edən tratta iştirakçılarından birinə təqdim olunur.

RETREKTİV PREFAKSİYALAR – preferensial səhmlər. Onların sahibləri şirkəti lazım olan anda konkret qiymət üzrə səhmləri ödəməyə məcbur edə bilər. Bu məqsədlə onlar şirkətlərə ödəmə üçün səhmləri təqdim edərək, özlərinin ləğvetmə imtiyazından yararlanırlar. Sahib ləğvetmə müddəti haqqında əvvəlcədən şirkəti xəbərdar etməlidir.

RETROSEDENT – təkrar sığortaya qəbul edilmiş riskləri retrosessiyaya (ikinci təkrar sığortaya) verən sığortaçı və ya təkrar sığortalı. Retrosedent öhdəliyi sonradan təkrar sığortaya verən şəxsdir. Retrosedent riski üçüncü iştirakçıya təkrar sığortaya verən sığorta cəmiyyətidir.

RETROSESSİONARİ – retrosedentdən riski qəbul edən təkrar sığortaçı. Retrosessioner təkrar sığortada retrosessiya qaydasında riski təkrar sığortaya qəbul edən təkrar sığortaçıdır (şəxsdir). Retrosessioner təkrar sığorta öhdəliklərini öz üzərinə götürən şəxsdir. Retrosessioner – retrosedirlənmiş riski qəbul edən sığorta cəmiyyətidir.

RETROSESSİONER – retrosessiya qaydasına uyğun olaraq riskin təkrar sığortasını həyata keçirən sığortaçı.

RETROSESSİYA (fr. *retrocesione* – təkrar güzəşt) – təkrar sığortalanan tərəfindən öz üzərinə götürdüyü riskin bir hissəsinin başqa təkrar sığortalanana ötürülməsi; risklərin davam edən parçalanması. Retrosessiya – təkrar, sığortaya qəbul edilən risklərin gələcəkdə (sonradan) təkrar sığortaya *(retrosessiyaya)* verilməsidir. Retrosessiya sığortada təkrar sığortaçı tərəfindən artıq öz üzərinə qəbul etdiyi riskin digər təkrar sığortaçılara verilməsidir. Retrosessiya ilə riskin növlərinin sonradan bölünməsinə nail olunur. Bəzən təkrar sığorta müqavilələrinə "retrosessiya hüququ olmadan" qeyd-şərti daxil olur.

RETROSESSİYA MÜQAVİLƏSİ – elə müqavilədir ki, bunun şərtlərinə uyğun olaraq əvvəllər *(təkrar yenidən sığortalanmaya qədər)* təkrar sığortaya qəbul edilmiş risklərin gələcəkdə təkrar sığortalanması həyata keçirilir.

REVALVASİYA – pul vahidindəki qızıl tərkibinin rəsmi surətdə artırılması və ya başqa ölkələrin xarici valyutalarına münasibətdə milli valyutanın məzənnəsinin artırılması.

REVOKASİYA (lat. *revocatio* – geri çağırma) – əvvəl verilmiş tapşırığın ləğvi, çek sahibinin əvvəl verilmiş çekin ləğv edilməsi haqqında əmri.



Prezident Reyqan televiziya ilə çıxışı zamanı vergilərin azaldılması haqqında planını təqdim edir (1981-ci il)

REVOLVER KREDİTİ (ing. *revolver* – fırlanmaq, hərlənmək) – avtomatik bərpa olunan kredit; milli və dünya ssuda kapitalları bazarında tətbiq olunur. Bu cür kredit razılaşması tərəfdarlar arasında əlavə danışıqlar olmadan təqdim edilir. Lakin bu zaman müəyyən edilmiş öhdəlik limit və ödəmə müddətləri çərçivəsində qalmalıdır.

REYESTR – qiymətli metallar və qiymətli daşlarla əməliyyatlar aparan, hüquqi və sahibkarlıq fəaliyyəti ilə hüquqi şəxs yaratmadan məşğul olan fiziki şəxslərin (fərdi sahibkarların) uçotu.

REYQANOMİKA – 1980-1988-ci illərdə ABŞ prezidenti olmuş R.Reyqan tərəfindən həyata keçirilən iqtisadi siyasət. Bu, ABŞ-da respublikaçıların mühafizəkar qolunun hakimiyyətə gəlişi ilə bağlıdır. 70-ci illərin ortalarında ABŞ-da yaranmış staqflyasiya ilə mübarizə aparmaq üçün "yüksək vergilərə, büdcə kəsirinə, inflyasiyaya qarşı" şüarı altında tədbirlər görülməyə başlanıldı. Reyqanomikanın əsasını təklif nəzəriyyəsi təşkil edirdi. Nəzəriyyə isə iqtisadi siyasətin əmtəə və xidmətlərə tələbin və istehlakın tənzimlənməsindən istehsalın stimullaşdırılmasına və milli iqtisadiyyatın məhsuldarlığının artırılmasına yönəldilməsinə əsaslanırdı. Bu zaman investisiya və innovasiya proseslərinə geniş imkanlar yaradılır, xərclərin azaldılması, bazarların genişləndirilməsinə gedilir, kapital yığımı və vergilərin aşağı salınmasına üstünlük verilirdi. Ən mühüm cəhət isə bank faizlərinin yüksəldilməsi nəticəsində ölkəyə əlavə kapitalın və investisiyaların cəlb olunması idi. İnvestisiyalar hesabına ölkədə əlavə iş yerləri yaradılırdı.

REYS ÇARTERİ – reys üçün gəminin sığorta müqaviləsi.

REYS POLİSİ – müəyyən reys ərzində yükü və gəmini sığortalayan polisi ifadə edən hava və dəniz sığortası termini.

REYS SIĞORTA POLİSİ – bilavasitə malın göndərildiyi limanda sığorta cəmiyyətinin blankında çap olunub, həm sığorta edən, həm də sığorta olunan tərəfindən imzalanan sənəd.

REYTİNQ – müvafiq vəziyyətə, səviyyəyə, sinfə və ya dərəcəyə aid olan qiymət.

REZİDENT (lat. *residens* – oturmuş, yerində durmuş) – vergitutma subyekti. Daimi qalma yeri prinsipinə əsasən müəyyən edilir. Buna uyğun olaraq vergi ödəyiciləri müəyyən dövlətdə daimi qalma yeri olan və ya olmayan 2 qrupa bölünür. Vergi ödəyicisinin bu və ya digər qrupa aid edilməsi onun vergi statusunu, vergi məsuliyyətini müəyyənləşdirir.

Vergi ödəyicisi olan hüquqi və fiziki şəxslər üçün rezidentliyi müəyyənləşdirməyin qaydaları fərqlidir. Fiziki şəxslər üçün rezidentlik meyarları əsasən aşağıdakılardır: təqvim ili ərzində ölkə ərazisində qaldığı müddət; daimi yaşayış yeri; ölkə vətəndaşlığı. Hüquqi şəxslər üçün rezidentlik meyarları əsasən aşağıdakıları əhatə edir: ölkədə təsis olunması; ölkədə hüquqi ünvanının qeydiyyata alınması; idarəetmə orqanlarının ölkə ərazisində yerləşməsi.

REZİN ÇEK – əmanətçinin cari hesabında konkret tarixdə müvafiq məbləğdə əmanəti təmin etməyən çek.

RƏHİMOV MAİL SƏMƏD OĞLU (1943) – Azərbaycan iqtisadçısı, i.f.d. 1964-cü ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. 1966-1986-cı illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsinin nəzdindəki Elmi Tədqiqat İqti-



sadiyyat İnstitutunda iqtisadçı, elmi işçi, sektor və şöbə müdiri vəzifələrində işləmişdir.

1986-1991-ci illərdə Azərbaycan Neft Akademiyasında çalışmışdır.

Azərbaycanda balans metodları ilə planlaşdırma sahəsində, o cümlədən sahələrarası balansların hazırlanmasında böyük təcrübə qazanmışdır. Natural ifadədə hesabat sahələrarası balansların (1964 və 1966-cı illər), habelə natural və dəyər ifadəsində proqnoz sahələrarası balansların (1970, 1980 və 2000-ci illər), "Məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsinin 1985-2000-ci illər üzrə sxemi"-nin hazırlanmasında bilavasitə iştirak etmişdir.

1975-ci ildə "Zaqafqaziya regionunda sahələrarası və respublikalararası əlaqələrin iqtisadi-riyazi tədqiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. "Azərbaycan Respublikasının iqtisadi inkişafını tənzimləyən qanunlar" (1996), "Beynəlxalq maliyyə" (2000) kimi kitabların və 90-dan artıq elmi məqalənin müəllifidir.

1991-ci ildə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında iqtisadiyyatın idarə edilməsinin təşkili şöbəsinin müdiri təyin edilmişdir. 1993-cü ildə bir müddət Mərkəzi Bankda idarə rəisi, həmin ilin sonundan isə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında təşkil edilən İqtisadi siyasət məsələləri şöbəsində baş məsləhətçi və 1996-cı ildən şöbə müdiri vəzifələrində çalışır.

RƏHMANOV FƏRHAD PƏNAH OĞLU (1952) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1984-cü ildə Moskva şəhərində SSRİ EA Mərkəzi Riyazi-İqtisadiyyat İnstitutunda "Respublika əhalisinin həyat səviyyəsinin inteqral xarakteristikalarının proqnozlaşdırılması" mövzusunda namizədlik, 2007-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində "Azərbaycanda



müasir şəraitdə sosial infrastrukturun tənzimlənməsi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Respublikada və xaricdə sosial sferanın ayrı-ayrı sahələrinin təhlilinə həsr olunmuş 103 elmi əsərin, o cümlədən 5 monoqrafiya və 1 dərs vəsaitinin müəllifidir. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin professorudur.


Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 sentyabr tarixli sərəncamına əsasən ona təhsilin inkişafındakı xidmətlərinə görə "Əməkdar müəllim" fəxri adı verilmişdir.

RƏQABƏT (lat. *concurrentia* – rastlaşmaq, *concurrens* – bəhs-

Rəqabətin əlamətləri

Müsbət (məqbul)	Mənfi (qeyri-məqbul)
• Resursları bölüşdürür • Tələb və təklifi tarazlaşdırır • Bazar qiymətlərini formalaşdırır • İstehsal xərclərinin aşağı salınmasını və yeni məhsulların istehsalını stimullaşdırır • İstehlakçının müstəqil olmasını, istehsalçıların diktəsindən qorunmasına zəmanət verir • Məhsulun keyfiyyətinin yüksəldilməsinə və çeşidin genişlənməsinə təsir edir	• Əhalinin müxtəlif sosial qrupları arasında gəlirlərin qeyr-bərabər bölüşdürülməsinə şərait yaradır • Çox saylı, kiçik, orta və iri əmtəə istehsalçılarının bir hissəsini iflasa gətirir, işsizliyə səbəb olur • İnhisarçılıq yaradır

Sxem 1



Sxem 2

ləşmə, yarış) – 1. Mənfəətin artırılması imkanı uğrunda əmtəə və xidmətlərin istehsalçıları arasında mübarizə. 2. Bazarda çoxsaylı istehsalçıların (satıcıların) və alıcıların mövcudluğu, onların bazara sərbəst daxil olması və bazardan çıxması imkanı. 3. Hər hansı bir sahədə eyni məqsədi əldə etmək üçün ayrı-ayrı şəxslər arasında mübarizə, çəkişmə. Rəqabət bazar subyektləri arasında sahibkarlıq fəaliyyətinin ən əlverişli şərtləri uğrunda mübarizənin elə formasıdır ki, bu zaman onların müstəqil fəaliyyətləri hər birinin bazarda əmtəə dövriyyəsinin ümumi vəziyyətinə təsir etmək imkanını əsaslı surətdə məhdudlaşdırır, istehlakçıya lazım olan malların istehsalını stimullaşdırır. Rəqabət sivil bazarın inkişafının mühüm stimuludur (hərəkətverici qüvvəsidir).

Rəqabət münasibətləri əmtəə istehsalı ilə eyni vaxtda meydana gəlmişdir. Bazarda istehsalçı satıcılarla alıcılar arasında mübarizə vasitəsi ilə bazar təsərrüfatının obyektiv tənzimlənmə mexanizmidir ki, bunun nəticəsində tarazlı qiymət müəyyən olunur. Satıcılar istehsal və reallaşmanın ən yaxşı şərtləri uğrunda, alıcılar isə ən əlverişli alqı şərtləri uğrunda rəqabət aparırlar. Bazar iqtisadiyyatında rəqabətin iki əsas növü fərqləndirilir: təkmil rəqabət və qeyri-təkmil rəqabət. Təkmil rəqabət zamanı iqtisadiyyat aşağıdakı cəhətlərlə xarakterizə olunur: a) bazarda çoxsaylı alıcılar və satıcılar mövcuddur və onların hər biri bu əmtəə bazarının nisbətən kiçik payına malik olur; b) alıcıların və müvafiq olaraq satıcıların tələbatları nöqteyi-nəzərindən əmtəələr yekcinsdir (bununla belə, alıcı üçün satışdan sonra xidmət şərtləri, qablaşdırma, reklam, əmtəənin xassələri haqqında ətraflı məlumat, satış yerinin müəyyən edilməsi və alıcı üçün onun əlyetərliliyi bəzən mühüm əhəmiyyət daşıyır); c) bu və ya digər istehsal sahələrində aşağıdakı müxtəlif giriş və çıxış maneələri mövcuddur: dövlət inhisarı, müəyyən əmtəənin istehsalı üçün lisenziyalaşma və ya dövlət qeydiyyatı, dövlət və ya inzibati qadağa, yaxud əmtəənin yaradılması üçün zəruri olan resurslara əlyetərliliyin məhdudlaşması və s.; ç) qiymətlər, onların dəyişməsi, eləcə də alıcılar və satıcılar haqqında mümkün informasiyanın mövcudluğu təkcə həmin regionda yox, həm də digər yerlərdə təmin edilir; d) bazar iqtisadiyyatının bütün agentlərinin rasional (bazarın iqtisadi və hüquqi qanunları mövqeyindən) davranışı. Sadalananlar ideal model kimi qəbul oluna bilər. Çünki ona yaxınlaşma antiinhisar (antitrest) qanunvericiliyinin mühüm rolu zamanı bazar iqtisadiyyatının hüquqi bazasının daim təkmilləşdirilməsi ilə təmin olunur. Azərbaycanda İqtisadi İnkişaf Nazirliyinin Antiinhisar Komitəsi (1992-2001-ci illərdə bu departament Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi adlanırdı) xüsusilə

Cədvəl 1

Rəqabətin xüsusiyyətindən asılı olaraq bazar növləri

Parametrlər	Təkmil rəqabət	İnhisar rəqabəti	Oliqopoliya	İnhisar
Məhsul istehsal edən firmaların sayı	Çoxlu müstəqil firmalar; bazarlar üzərində nəzarət yoxdur	Oxşar əmtəə və xidmətlər istehsal edən çoxlu firmalar	Əmtəə və xidmətlər istehsal edən bir neçə iri firmalar	Bir əmtəə bir firma
Qiymət üzərində nəzarət	Yoxdur. Qiymət bazar tərəfindən müəyyənləşdirilir	Təsir məhduddur	"Qiymət lideri"nin təsiri mövcuddur	Praktik olaraq tam nəzarət
Əmtəə diferensiasiyası	Yoxdur. Əmtəələr keyfiyyətinə və xüsusiyyətlərinə görə fərqlənmirlər	Əmtəə və xidmətlər bazar seqmentləri üçün diferensiasiya olunub	Müxtəlif əmanətlər üçün (məsələn, avtomobil) əhəmiyyətlidir. Standart əmtəələr üçün isə (məsələn, benzin) çox azdır	Yoxdur
Daxilolmada asanlıq	Nisbi asan daxil olma və çıxma	Nisbi asan daxil olma və çıxma	Çətindir. Tez-tez iri investisiyaların qoyulmasını tələb edir	Çox çətindir

təkmil rəqabət qanunlarına və inhisarçı müəssisələr üçün məhdudiyyətlərə riayət edilməsini təmin etmək iqtidarında olan qurum kimi fəaliyyət göstərir. Qeyri-təkmil rəqabət *(oliqopoliya)* elə bir iqtisadi vəziyyəti xarakterizə edir ki, bu zaman bazarda istehsalçı satıcıların az miqdarı qalır. Və qalanlarından ən iriləri bazar qiymətinə həlledici dərəcədə təsir göstərmək imkanı qazanır. Qeyri-təkmil rəqabət elə forma ala bilər ki, bu zaman sahədə yalnız bir istehsalçı *(inhisar)* və ya bir alıcı *(monopsoniya)* mövcuddur. İnhisar rəqabəti zamanı firma öz fəaliyyətinin iki əsas parametrinə – qiymət və buraxılışın həcminə nəzarət etmək vəziyyətindədir və ona az istehsal etmək və qiymətləri xeyli dərəcədə artırmaq əlverişlidir. Bununla belə, inhisarçının hökmranlığı tam olmur. Belə ki, real olaraq həmişə yeniliklərin və əvəzləyicilərin rəqabəti, eləcə də potensial rəqabət, xarici alıcıların və satıcıların rəqabəti mövcuddur. Həmçinin, sahələrarası rəqabəti – daha yüksək mənfəət norması uğrunda kapitalların bir sahədən digərinə axınını və sahədaxili rəqabəti fərqləndirmək olar ki, bunun gedişində tarazlı qiymət formalaşır. Bundan əlavə, qiymət rəqabəti və qeyri-qiymət rəqabəti mövcuddur. Qiymət rəqabəti zamanı rəqabət qiymətlərin dəyişməsi vasitəsilə aparılır. Qeyri-qiymət rəqabəti zamanı rəqabət xərclərin azalması, məhsulun və xidmətlərin keyfiyyətinin, etibarlılığın yüksəldilməsi, ödənişi, satışdan sonrakı xidmət şərtlərinin yaxşılaşması, satış metodlarının təkmilləşdirilməsi hesabına aparılır. Rəqabət mübarizəsində qeyri-bazar və müvafiq olaraq qeyri-hüquqi mübarizə formaları: maliyyə fırıldağı, iqtisadi casusluq, iqtisadi boykot, reket və s. istifadə olunur. Rəqabətin aşağıdakı növlərini fərqləndirirlər: funksional (müəyyən əmtəənin rəqabəti); görünüş (qiymətə və keyfiyyətə görə); firmalararası (ayrı-ayrı müəssisələr, firmalar

arasında); sahədaxili və sahələrarası; təkmil və qeyri-təkmil (Qərb iqtisadi ədəbiyyatlarında geniş yayılmışdır); sağlam və haqsız rəqabət.

Rəqabət aparmaq – üstünlük qazanmaq üçün cəhd etmək, mübarizə aparmaq; bərabər olmağa çalışmaq, geri qalmamaq, yarışmaq.

RƏQABƏT EDƏN MAL NÖVLƏRİ – texniki xüsusiyyətlərinə görə oxşar olan rəqabət edən mal növləri.

RƏQABƏT HƏRRACI (RƏQABƏT TENDERİ) (ing. *competitive tender*) – özəl firmaların ənənəyə görə dövlət sektorunda istehsal edilən malların və xidmətlərin dövlət sektoruna təqdim edilməsinə dair müqavilələr bağlamaq üçün tenderdə (hərracda) iştiraka dəvət olunması. Rəqabət hərracları bu malların və xidmətlərin çatdırılmasında rəqabət yaratmaq və beləliklə, dövlət idarələrinin, yerli hakimiyyət orqanlarının və səhiyyə orqanlarının xərclərini azaltmaq məqsədi ilə keçirilir.

RƏQABƏT QABİLİYYƏTİ – obyektin digər ən yaxşı analoji obyektlərlə müqayisədə rəqabət tələbatının ödənilmə dərəcəsini xarakterizə edən xüsusiyyəti. Firmaların mövcud şəraitdə istehlakçılar üçün malın qiymət və qeyri-qiymət xarakteristikalarına görə rəqiblərin malından daha cəlbedici olması. Rəqabət qabiliyyəti əmtəənin texniki səviyyəsi ilə; marketinq və reklam-informasiya təminatı ilə; istehlakçının tələblərinə, texniki şərtlərə və standartlara uyğun gəlməsi ilə; servisin, müəllif nəzarətinin, zəmanət təminatının, alıcı tərəfindən olan personalın öyrədilməsinin təşkili ilə; məhsul göndərişinin *(işlənməsinin, yaradılmasının, satışının)*, zəmanətin müddəti ilə; qiymətlərlə, tədiyələrin şərtləri ilə; konkret bazarda bu əmtəənin vaxtında görünməsi ilə; bu regionda siyasi-iqtisadi vəziyyətlə müəyyən edilir. Bu xassənin qiymətləndirilməsi yüksək, orta və ya aşağı rəqabət qabiliyyətini ayırmağa imkan verir. M.Y.Porter "Rəqabətin beş qüvvəsi modeli" adlı nəzəriyyəsində beş rəqabət qüvvəsinin olduğunu qeyd edir: bir-biri ilə bəhsləşən satıcılar arasında rəqabət; əvəzləyici olan və qiymət cəhətdən rəqabət qabiliyyətli əmtəələr tərəfdən rəqabət; yeni rəqiblərin meydana gəlməsi təhlükəsi; təchizatçıların iqtisadi imkanları və ticarət qabiliyyətləri; alıcıların iqtisadi imkanları və ticarət qabiliyyətləri.

Həmçinin, rəqabət qabiliyyətinin əmtəənin rəqabət qabiliyyəti, əmtəə istehsalçısının rəqabət qabiliyyəti, sahə və ölkə üzrə rəqabət qabiliyyəti kimi səviyyələrini qeyd etmək olar.

RƏQABƏTƏ MÜNASİBƏTDƏ QEYRİ-DİSKRESİON SİYASƏT (ing. *nondiscretionary competition policy*) – inhisarların fəaliyyəti üzərində nəzarətə yanaşma. Bu siyasətin mahiyyəti bazarın strukturu və bazarda davranış barədə müvafiq standartlar müəyyənləşdirilməsindən və bu standartlardan hər hansı sapmaların qəti qadağan edilməsindən ibarətdir.

RƏQABƏTİN QAYDALARI – məhdudlaşdırıcı işgüzar təcrübəyə nəzarət və rəqabətin müdafiəsi üzrə razılaşdırılmış beynəlxalq normalar. Rəqabətin qaydaları Avropa İttifaqının (Aİ) yaradılması haqqında Roma müqaviləsinin 85, 86 və 91 maddələrində tam şərh edilmişdir. Orada göstərilmişdir ki, Aİ daxilində rəqabət azadlığına mane olmaq, onu məhdudlaşdırmaq və ya pozmaq məqsədi ilə müəssisələr arasında hər hansı sazişlər bağlanması, müəssisələrin birləşməsi və onların əlaqələndirilmiş fəaliyyəti haqqında qərarlar qəbul olunması qadağan edilir. Bu cür sazişlər hüquqi qüvvədən məhrum edilmiş hesab edilir.

RƏQABƏT SAHƏSİ – şirkətin rəqabətli mübarizə sahəsi; həm geniş, həm də dar ola bilər. Bəzən həm də *rəqabətin miqyasları* haqqında danışırlar.

RƏQABƏT STRATEGİYALARI – öz rəqiblərinə münasibətdə əmtəə bazarlarında müəssisənin davranış strategiyaları. Adətən, rəqabət strategiyaları iki əsas qrupda – əvəzetmə strategiyasında və genişlənmə strategiyasında birləşir.

Birinci qrupa rəqiblərin hesabına müəssisənin bazar payının genişlənməsini tələb edən müxtəlif yerdəyişmə strategiyası daxildir. Belə strategiyanı bazarın zənginləşməsinə (doldurulmasına) nail olan zaman seçmək məqsədəuyğundur.

Əvəzetmə strategiyasına adətən dempinqi, rəqiblərin davranış imitasiyasını və profilləşməni aid edirlər. Dempinq – qiymətlərin cari bazar qiymətlərindən aşağı endirilməsidir. Baxmayaraq ki, belə davranış bir çox ölkələrin qanunvericiliyi ilə qadağan olunmuşdur, maya dəyərin azalmasını yox, dempinq




Sxem 1

faktının yer almasını müəyyən etmək bəzən çox çətindir.

Rəqiblərin davranış imitasiyasının ən sadə forması qiymət siyasətinin olduğu kimi istifadə olunmasıdır (üzünün köçürülməsidir). Lakin mövcud texnologiyadan olduğu kimi də istifadə etmək (köçürmək) mümkündür.

Ticarət markasının xüsusi xarakteristikalarına istehlakçıların diqqətinin cəlb edilməsi profilləşmə adlanır. Sirr deyil ki, çox zaman alıcılar hər şeydən əvvəl reklam xərcləri kimi xeyli vəsaitlərin investisiya olunduğu "açılmış" ("yayılmış") ticarət markalarına üstünlük verirlər. Hətta əgər rəqiblərin oxşar məhsulunun qiymətindən "açılmış" ("yayılmış") ticarət markalı məhsulun qiyməti yüksək olarsa, bəzi istehlakçılar onsuz da

(C.Pildic) Rəqabət üçbucağı



Sxem 2

"profilləşmiş" məhsula üstünlük verəcəklər. Bu seçim "keyfiyyət və etibarlılığın" həm obyektiv mülahizələri, həm də xalis psixoloji rəqabət və maraqla əsaslandırılır. Rəqabət strategiyalarının ikinci qrupunu ya yeni qrup istehlakçılar hesabına tələbin həcminin artması, ya da istehlakçıların mövcud qrupları tərəfindən bu əmtəənin istehlakı həcminin artması hesabına onun intensivləşməsinə yönəldilmiş genişlənmə strategiyası təşkil edir. Bir qayda olaraq, məhsulun həyat tsiklinin erkən mərhələlərində genişlənmə strategiyasını seçmək məqsədəuyğundur. Daxili rəqiblərlə mübarizə üçün, adətən, qiymət metodları tətbiq edilir. Burada məntiq aydındır: müəssisənin orta səviyyədə qiyməti saxlamaq imkanları nə qədər çoxdursa, sabit satış üçün imkanlar da bir o qədər çoxdur. Xüsusilə, belə mübarizə neft sahəsində kifayət qədər kəskin aparılıb və bu gün də aparılır. Xarici rəqiblərlə mübarizə üçün, bir qayda olaraq, himayədarlıq (proteksionist) metodlarından, hər şeydən əvvəl, idxal rüsumlarının dərəcələrinin yüksəldilməsindən istifadə olunur.

RƏQABƏT-BAZAR – subyektlər arasında sahibkarlıq fəaliyyətinin ən əlverişli şərtləri uğrunda mübarizənin elə formasıdır ki, bu zaman onların müstəqil fəaliyyətləri hər birinin bazarda əmtəə dövriyyəsinin ümumi vəziyyətinə təsir etmək imkanını əsaslı surətdə məhdudlaşdırır və istehlakçıya lazım olan malların istehsalını stimullaşdırır.

RƏQABƏTLİ BAZAR – çox sayda alıcının və satıcının oxşar əmtəələr alıb satdığı elə bir bazardır ki, burada hər bir alıcı və satıcı qiymətlə razılaşır.

RƏQABƏTLİ STRATEGİYA – rəqabətin intensivliyi nəzərə alınmaqla müəssisənin, firmanın mövqeyini möhkəmləndirməyə qadir olan hücum və ya müdafiə xarakterli uzunmüddətli tədbirlər. Strategiyanın bir neçə tipi fərqləndirilir: istehsal və satış xərclərində üstünlüklərə nail olmaq cəhdi, məhsulun diferensiasiyası və ya istehsalın miqyası ilə əlaqədar qənaətə nail olmaq məqsədilə müəyyən fəaliyyət növlərinin təmərküzləşməsi.

RƏQABƏTLİ ÜSTÜNLÜKLƏR NƏZƏRİYYƏSİ – Amerika professoru Maykl Porterin rəqabətli üstünlüklər nəzəriyyəsi, əsasən, istehsal amillərinin səmərəli istifadə məsələsinə həsr olunmuşdur. Özünün "Beynəlxalq rəqabət" (1990) kitabında o, 10 ölkədən olan 100-dən çox sahə və altsahənin təhlili əsasında belə bir nəticəyə gəlir ki, bu sahə və altsahələrdə fəaliyyətdə olan milli şirkətlərin beynəlxalq rəqabət üstünlükləri onların fəaliyyətinin mənsub olduqları ölkədə hansı makromühitdə həyata keçirildiyindən asılıdır. Makromühit nəinki istehsal amilləri, həm də daxili bazarda tələbin xarakteri (o, xarici bazara çıxmamışdan əvvəl yetkinliyə nail olmaqda şirkətə kömək edə bilər), qohum və qarışıq sahələrin inkişaf səviyyəsi, ölkədə menecment və rəqabətin səviyyəsi, həmçinin, hökumətin iqtisadi siyasəti və hətta təsadüfi hadisələrlə (müharibə, gözlənilməz ixtiralar və s.) müəyyən olunur. Bu altı əsas parametrin ahəngi (xüsusən, Porterin determinant adlandırdığı ilk dördü) şirkətlərin, altsahələrin və ölkələrin dünya bazarında rəqabət üstünlüklərini müəyyən edir.

RƏQİB – müəyyən bir əmtəənin *(qarşılıqlı əvəz oluna bilən əmtəələrin)* bazarına əmtəə çıxara bilən bazar subyekti.

RƏQİBLƏRİN AUDİTİ – rəqibin zəif və güclü tərəflərinin, onun əsas məqsəd və strategiyalarının dəqiq təhlili.

RƏQİBLƏRİN TƏHLİLİ (ing. *competitor analysis*) – əsas rəqiblərin identifikasiyası; onların məqsəd və strategiyalarının, güclü və zəif cəhətlərinin, bazarda davranış stereotiplərinin qiymətləndirilməsi; hansı rəqiblərdən çəkinmək, hansılara hücumun mümkünlüyünü müəyyənləşdirmək. Rəqabət strategiyasının seçilməsi bütünlüklə müəssisənin bazarda vəziyyətindən asılıdır (liderin, iddiaçının, davamçının, müvafiq "oyuq"da əməliyyatlar aparan şirkətin müəyyən edilməsi). Rəqiblərin strategiyalarını qiymətləndirərkən sahənin bütün müəssisələrini (firmalarını) strateji qruplara bölmək məqsədəuyğundur. Rəqiblərin güclü və zəif cəhətlərini aşkar etmək üçün onların dəyərləri təhlil edilir. Rəqiblərin təhlili əsasında rəqabət strategiyaları işlənib hazırlanır.

RƏSMİ SƏNƏD – yaradılması və rəsmiləşdirilməsi təşkilat və ya vəzifəli şəxs tərəfindən müəyyən edilmiş qaydalara müvafiq olaraq həyata keçirilən sənəd.

Bu cür sənədlərə aşağıdakılar aiddir:

– təşkilat tərəfindən bağlanmış müqavilələr;

– firma rəhbərinin daxili əmrləri;
– mühasibat arayışları, hesabatlar və s.

Müəssisələrdə tərtib edilən sənədlərin əksəriyyəti rəsmi sənədlərə aiddir. Rəsmi sənədlərdəki informasiya, bir qayda olaraq müəssisədə icra edilməli və ya mühasibat uçotunda əksini tapmalıdır.

Qanunvericilik aktları, hökumətin qərarları, prezidentin fərmanları, nazirlik və idarələrin sərəncamları və digər sənədlər də rəsmi sənədlərə aiddir. Bu cür rəsmi sənədlərin ölkə ərazisində bütün vətəndaşlar və təsərrüfatçılıq subyektləri tərəfindən icra edilməsi məcburidir.

RƏSMİ STATİSTİKA – "Statistik işlər haqqında" proqram çərçivəsində müvafiq məcmuələrdə mövcud olan, prosesləri xarakterizə etmək məqsədilə səlahiyyətli orqanların aldıqları məlumatlar.

RƏSMİ STATİSTİKA MATERİALLARININ İSTEHSALI – statistik məlumatların yığılması, işlənib hazırlanması, bazada yerləşdirilməsi, təhlili və yayılması üçün zəruri olan bütün fəaliyyətlər.

RƏVAC – müştərisi çox olan; tezsatılan, çoxişlənilən, işəgedən.

Rəvac vermək – irəli aparmaq, tərəqqi etdirmək, inkişaf etdirmək, irəlilətmək.

Rəvac tapmaq – irəli getmək, tərəqqi etmək, inkişaf etmək, irəliləmək.

RİELTER (ing. *realter*) – daşınmaz əmlak bazarında daşınmaz əmlak alqı-satqısı üzrə mütəxəssis.

RİFAH – yaşayışda xoş güzəran, firavanlıq, bolluq və rahatlıq. *Xalqın rifahına çalışmaq.*

RİFAH NƏZƏRİYYƏSİ – iqtisadiyyata normativ yanaşmaya əsaslanan nəzəri konsepsiya. Maddi sərvətlərin bölüşdürülməsinin rifah halına təsirini öyrənir.

Rifah nəzəriyyəsinin predmeti iqtisadi optimumu təsvir etmək, dövlətin iqtisadi siyasətinə dair tövsiyələr işləyib hazırlamaqdır. Bu nəzəriyyənin çıxış nöqtəsi istehlakçının hökmranlığıdır. Bu o deməkdir ki, fərdi istehlakçının və firmanın üstünlük verdiyi dəyərlər iqtisadi optimumun rasional kriterisinə daxil edilir. Rifah nəzəriyyəsinə görə, müəyyən şərtlər daxilində rəqabət tarazlığı Pareto mənada optimaldır (bu vəziyyətdə bir insanın vəziyyətini pisləşdirmədən başqa insanın tələbatının təmin edilmə dərəcəsini artırmaq mümkün deyildir) və resursların Pareto mənada hər hansı optimal bölgüsünə rəqabət iqtisadiyyatında nail olmaq mümkündür. Bu nəzəriyyənin bəzi tərəfdarlarının fikrincə, rəqabətə əsaslanmayan planlı iqtisadiyyatda da optimuma nail olmaq mümkündür.

RİFAH SƏVİYYƏSİ – insanların tələbatlarının ödənilməsinin səviyyəsi və ya həyat şəraitinin xarakteristikası *(bax: əhalinin rifah səviyyəsi)*; başqa sözlə, əhalinin zəruri maddi və mənəvi nemətlərlə, yəni insanların müəyyən tələbatlarını ödəyən əmtəələrlə, xidmətlərlə və şərtlərlə təmin edilməsi. Həyat səviyyəsini xarakterizə edən göstəricilər sistemi ilə ifadə olunur.

RİKARDO DAVİD (1772-1823) – ingilis iqtisadçısı. Birja



maklerinin oğludur. İki il ticarət məktəbində oxumuş, sonra isə atasının müəssisəsində işləmişdir. İqtisad elminə marağı A.Smitin "Xalqların sərvəti" əsərini oxuduqdan sonra yaranmışdır. Lakin Rikardo A.Smitin üslubundan nəzərə çarpacaq dərəcədə fərqlənən təfəkkür üslubuna malik olmuşdur.

1817-ci ildə ilk böyük əsəri olan "Siyasi iqtisadın başlanğıcı və vergiqoyma" nəşr olunmuşdur. 1818-ci ildə parlamentə seçilmişdir. Siyasi iqtisadda əməkdəyər nəzəriyyəsinin banilərindən biri olan Rikardonun fikrincə, dəyər hər hansı əmtəənin istehsalına yönəlmiş əməyin nəticəsi ilə deyil, əlverişsiz şəraitdə istehsal olunmuş eyni əmtəəyə sərf edilən əməklə ölçülməlidir. Bu isə kənd təsərrüfatında qiymətəməələgəlmənin əsasını təşkil edir. Rikardo əmtəənin dəyərini əmək vasitələrinin yaratması haqqında əvvəllər mövcud olmuş baxışları tənqid edir və bildirirdi ki, əmək vasitələri özləri köhnə əməyin nəticəsində yaradılmışdır və o da dəyərini yeni yaradılmış əmtəənin üzərinə keçirir. Eyni zamanda, Rikardo "Müqayisəli üstünlüklər nəzəriyyəsi"nin banisi kimi xarici ticarətin və beynəlxalq əmək bölgüsünün inkişafına əvəzsiz töhfə vermişdir.

RİKARDONUN EKVİVALENTLİK TEOREMİ – bu nəzəriyyəyə görə, dövlət borcunun artırılması istehsalın və

məşğulluğun real həcminə heç cür təsir göstərmir, çünki vergi ödəyiciləri borc üzrə daha yüksək faizlər ödəmək üçün gələcəkdə vergilərin yüksək olacağını gözləyə bilərlər.

Bu nəzəriyyəyə görə, xüsusi yığımların eyni həcmdə artması büdcə kəsirinin məsrəflərini ödəyir. İnsanlar elə düşünürlər ki, bu gün büdcə kəsiri ilə bağlı məsrəflər nəticə etibarilə həm onların özləri, həm də varisləri üçün vergilərin artmasına gətirib çıxaracaqdır. Buna görə də onlar həmin yüksək vergilər ərəfəsində öz yığımlarını artırır (cari istehlakı azaldırlar). Büdcə kəsiri özəl yığımların artmasına səbəb olan əmanətlərin dövlət tərəfindən xərclənməsi deməkdir. Daha formal tərzdə desək, bu teoremə görə, büdcə kəsirinin borclar hesabına maliyyələşdirilməsi ÜDM-ə mövcud vergilərin artırılması yolu ilə maliyyələşdirmək kimi məhdud təsir göstərir.

Bu nəzəriyyə amerikalı iqtisadçı Robert Berronun işləri sayəsində indi populyarlaşmışdır. O, elə bir fərziyyənin əsasını təşkil edir ki, dövlətin həyata keçirdiyi büdcə siyasəti (fiskal siyasət) əsas iqtisadi dəyişənlər olan məşğulluq səviyyəsinə və istehsalın həcminə təsir edə bilməz. Bu nəzəri versiya borcun neytrallığı adlanır.

RİQİDLİK (lat. *rigidus* – bərklik, möhkəmlik) – iqtisadi sistemin, əmtəə və xidmətlərin yüksək dayanıqlıqlı istehsal xərcləri ilə xarakterik olunan vəziyyəti. Müxtəlif elm sahələrində onun tətbiq mahiyyəti də fərqlidir. Koqnitiv, effektli və motivasiyalı təsnifatda yeni situasiya tələblərinə, proqram dəyişikliklərinə hazırlıqsızlıq kimi mahiyyət daşıyan riqidlik çox zaman konservatizmlə də paralel anlaşılır. Müasir iqtisad elmində də riqidlik spesifik məzmunda işlənilir. Riqidlik iqtisadi düşərgədə digər mənada istehsal xərclərinin qiymət dəyişməsinə verdiyi reaksiyasıdır. O, monetar amillərin təsiri ilə yaranan qısamüddətli mərhələdə qiymətlərin qeyri-elastikliyində də fərqli xüsusiyyətə malikdir. Burada qeyd olunan yüksək dayanıqlı xərclər o xərclərdir ki, onların ayrı-ayrı məsrəf elementlərini və ümumi strukturunu endogen təsirlər vasitəsilə kiçicik azaldılması belə mümkün deyildir.

RİMESSA – beynəlxalq hesablaşmalar sistemində sənədin ödənilməsi nəzərdə tutulan ölkədə pul öhdəliyinin ödənilməsi (veksel, çek, pul köçürülməsi) üçün istifadə olunan sənəd. Məsələn, köçürülməsi xarici ölkəyə nəzərdə tutulan veksel üzrə ödəniş həmin pul öhdəliyi olan və vekselin olduğu ölkədə olan borclu tərəfindən veksel saxlayandan alına bilər. Bu vekseli alan onu öz kreditoruna indossir edir və bu andan veksel üzrə tələb hüququ həmin şəxsə keçir. Beləliklə, borclu xarici kreditora olan öhdəliyini vekseli öz ölkəsində almaqla, bu ölkənin valyutasını ödəniş öhdəliyi olan başqa ölkə valyutasına konvertasiya etmədən ödəyir. Öhdəliklərin bu cür ödəmə üsulu remitirləşmə adlanır.

RİNQ – bir neçə sahibkarın kartel formasında inhisar yaratmaq məqsədilə malın alışı sahəsində bağladıqları qısamüddətli razılaşma.

RİSK – təbii fəlakətlər, hadisələrin uğursuz gedişi, alıcı və satıcıların səhvləri, təsərrüfat fəaliyyətinin digər iştirakçıları tərəfindən öhdəliklərinin pozulması, qiymətlərin, vergilərin, ödənişlərin, siyasi vəziyyətin və s. dəyişməsi. Təsərrüfat həyatında müəyyən qərar və hərəkətlər nəticəsində mənfi təzahürlü hadisələrlə qarşılaşma ehtimalını şərtləndirir. Riskin əsası gələcəyə inamsızlıq, mümkün təhlükədir. Uğuru əldən vermək, çətin vəziyyətlə rastlaşmaq, mənfəət əvəzinə zərər çəkmək riski səciyyələndirən cəhətlərdəndir.

İqtisadi riskin aşağıdakı növlərini qeyd etmək olar: *İstehsal* – əmtəə və xidmətlər istehsalı ilə bağlı olan risklər; *Kommersiya* – əmtəə və xidmətlərin satışı prosesi ilə bağlı risklər; *Maliyyə* – azad bazar subyektlərinin banklar və digər maliyyə institutları ilə bağlı münasibətləri sahəsində özünü göstərən risklər; *Bank sistemli* – bir bank tərəfindən öhdəliyin yerinə yetirilməməsi zəncirvari reaksiya doğuraraq bütün bank sisteminin böhranına səbəb olacaq risklər; *İşlə bağlı* – investisiyaların maliyyələşdirilməsindən asılı olmayaraq, istehsal fəaliyyətindən və aktivlərin likvid dəyərlərindən investisiyaların, pul axınlarının həcminin qeyri-müəyyənliyi ilə şərtləndirilən risklər; *Diversifikasiya olunmuş* – qiymətli kağızlar sahibinin gözlədiyi gəlirləri almaması riskləri; *Kommersiya* – alıcının maliyyə vəziyyəti (sığorta edən kimi çıxış edən) və onun müqavilənin ye-



rinə yetirilməsinin ayrı-ayrı mərhələlərində hərəkətləri ilə əlaqədar meydana çıxa biləcək risklər. Kommersiya riskinə müflisləşmə riski və ödənişlərin ləngiməsi daxil ola bilər; *Konvertasiya ilə bağlı* – milli valyutadan başqa digər ölkə valyutasına konvertasiya nöqteyi-nəzərdən risklər və bunun nəticəsi olaraq resursların idarə edilməsinin operativliyi ilə yaranmış risklər; *Valyuta* – xarici iqtisadi ticarət, kredit, valyuta əməliyyatları, fond və əmtəə birjalarında əməliyyatlar aparılarkən xarici valyutanın milli valyutaya nisbətən kursunun dəyişməsi ilə bağlı valyuta itkiləriləbağlı risklər. Açıq valyuta mövqeyi zamanı meydana çıxır. Valyuta riski idxalçılar və ixracatçılar üçün qiymətlər onlar üçün xarici valyutada olduqda meydana gəlir. İxracatçı müqavilə bağladığı vaxtdan bu müqavilə üzrə ödənişləri həyata keçirdiyi ara dövrdə onun milli valyutaya nisbətən itkilərinə məruz qalır. İdxal edən isə kursun əks hərəkəti zamanı itki verir. Hər iki halda milli valyuta ilə ekvivalentlər müqavilə imzalanarkən idxal və ixrac edənin ümid etdikləri məbləğdən əlverişsiz tərəfə fərq olacaqdır.

Təhlükə mənbəyinə görə isə aşağıdakı riskləri fərqləndirmək mümkündür:

– təbiət hadisələrinin (sel, qar yağması, zəlzələ, torpaq sürüşməsi, epidemiyalar, yanğınlar və s.) dağıdıcı təsiri ilə;

– siyasi xarakterli səbəblərlə (müharibə, çevriliş, inqilab və s.);

– iqtisadi xarakterli amillərlə (valyuta kursunun, səhmlərin düşməsi, inflyasiya, müflisləşmə, tərəfdaşların öz müqavilə öhdəliklərini yerinə yetirməməsi və ya keyfiyyətsiz yerinə yetirməsi, kreditin qaytarılmaması və s.);

– hüquqi xarakterli şəraitlərlə (qanunvericilikdə dəyişikliklər və onun icrası prosesində meydana çıxan uyğunsuzluqlar, oğurluq, soyğunçuluq, cinayətkar səhlənkarlıq, yalançı müflisləşmə, fırıldaqçılıq və mülkiyyət hüququnun pozulması və s.).

Azad bazar sistemi şəraitində iqtisadiyyatın davamlı inkişafını təmin edən çoxlu imkanlar mövcuddur. Təəssüf ki, belə imkanlar risklə də bağlıdır.

Sərt inzibati-amirlik sistemində risk probleminə kifayət qədər fikir verilmirdi.

Hər hansı bir ölkənin (onun iqtisadi təsərrüfat subyektlərinin) öz maliyyə öhdəliklərini yerinə yetirə bilmədiyi, yaxud yerinə yetirmək istəmədiyi halda *ölkə riski* baş verir.

XX əsrin 80-ci illərinin sonunda SSRİ-də təsərrüfatçılıq mexanizminin təkmilləşməsi ictimai mülkiyyətlə yanaşı, digər mülkiyyət formalarının inkişafı, sahibkarlıq fəaliyyətinə münasibətin dəyişməsi və bu sahədə atılan addımlar risk anlayışının tez-tez işlədilməsini zəruri etdi. Bir təsərrüfatçının azadlığı digər bazar subyektlərinin azadlığı ilə müşayiət olunur, onlar bir-birlərinin məhsullarını ala və ya almaya bilər, onun müqabilində başqa qiymətə məhsul təklif edə, öz qiymətlərini, sövdələşmə şərtlərini və s. diktə edə bilərlər. Birinin qazancı digərinə zərər ola bilər.

Beləliklə, bazar subyektlərinin bərabər iqtisadi azadlığı mütləq iqtisadi riskə səbəb olur. Lakin bazar iqtisadiyyatı şəraitində təsərrüfat fəaliyyətində tam azadlıq yoxdur.

V.İ.Dal izah edirdi ki, risk iş-

güzarlıq, zirəklik, xoş nəticəyə çatmaq ümidilə bəxtəbəxt hərəkət etmək deməkdir. S.İ.Ojeqov isə riski mümkün təhlükə kimi qiymətləndirirdi. Bir qayda olaraq, bazar münasibətləri elə şəraitdə qurulur ki, sahibkarlar rəqiblərinin maliyyə vəziyyəti, bazarın konyunkturası, bölgənin iqtisadi vəziyyəti və s. haqqında heç də həmişə dolğun və dürüst məlumat ala bilmirlər. Bu hal bazar münasibətlərinə qeyri-müəyyənlik elementləri gətirir və mənfəət əldə etməyə aparan davranış variantını seçmək imkanını çətinləşdirir. Mənfəət əldə etmək imkanının real təminatı yalnız zərər çəkmək şəraitinin əvvəlcədən qiymətləndirildiyi halda mümkün olur.

Yaranma mənbələrinə görə risklərə qiymət verərkən onların xarici və daxili qruplarını fərqləndirirlər. Məsələn, banklar risklərdən qorunmaq üçün likvidlik risklərini və uğur risklərini fərqləndirirlər.

Likvidlik risklərinə daxildir:

– kredit riski və ya kreditlərin vaxtında qaytarılmaması ilə bağlı risk;

– yeni, planlaşdırılmamış kreditlər riski;

– bazar riski və ya yeni fəaliyyət növləri üzrə risk;

– başqa risklər.

Uğur risklərinə aiddir:

– sahə;

– sığorta;

– faiz;

– valyuta və s.

Daxili risklərin idarə edilməsi baş verəcək risklərdən dəyəcək itkilərin azalmasını təmin edir. Bu risklərə əməkdaşların keyfiyyət göstəriciləri daha güclü təsir edir. Təsərrüfat subyektlərinin maddi-texniki bazasının səviyyəsi də risklərin idarə edilməsində mühüm rol oynayır. Təcrübə göstərir ki, riskdən qaçmamaq, onu qabaqcadan görərək mümkün qədər aşağı səviyyəyə endirmək baş verəcək itkilərin minimuma endirilməsinə kömək edir.

Riskin həcminin pulla ifadəsi riskə məruz qalmış fiziki və hüquqi şəxsin əmlakına, çəkilmiş xərclərinə nisbətən dəymiş itkinin səviyyəsini ifadə edir. Hesablaşmalarda əsas fondlar, dövriyyə vəsaitləri, məcmu xərclər və s. göstəricilər istifadə edilə bilər.

Risklər haqqında ən dolğun təsəvvürü itki ehtimallarının bölgü



əyrisi verir. Ümumiyyətlə, təcrübədə riskli idarəetmə metodlarının aşağıdakı növlərindən istifadə olunur:

– riskdən yayınma metodları;

– riski məhdudlaşdırmaq metodları;

– riski disspasiya etmək (səpələmə) metodları;

– riski əvəz etmək metodları.

Riskdən yayınma metodlarından risk etmədən fəaliyyət göstərməyə üstünlük verən sahibkarlar istifadə edirlər. Bir qayda olaraq, onlar şübhəli tərəfdaşların xidmətlərindən imtina edir, etibarlı, ədalətli, konstruktiv mövqe göstərən tərəfdaşlarla işləməyə üstünlük verirlər.

Riskin məhdudlaşdırılması metodları dedikdə risk mənbələrini kifayət qədər dəqiq və konkret müəyyənləşdirmək, onları nəzarətdə saxlamaq başa düşülür.

Müasir dövrdə sahibkarlıq fəaliyyəti ilə uğurla məşğul olan fiziki və hüququ şəxslər risklərdən dəyən itkilərin minimuma endirilməsi üçün müxtəlif marketinq metodları və üsullarından: bazarın seqmentləşdirilməsindən, onun tutumunun qiymətləndirilməsindən, potensial istehlakçılara və investorlara məhsulun və bütövlükdə müəssisənin ən yaxşı keyfiyyətləri barədə hərtərəfli informasiyanın verilməsi də daxil olmaqla, reklam kampaniyasının təşkilindən, rəqiblərin davranışının təhlilindən, rəqabət mübarizəsi strategiyasının hazırlanmasından, xərcləri idarə etmək siyasəti və ölçülərinin işlənib hazırlanmasından və s. istifadə edirlər.

XX əsrdə "soyuq müharibə" illərində, qlobal qüvvələr ara-

sında, xüsusilə ABŞ və SSRİ arasında qarşıdurmalar dövründə senari analizi deyilən tədqiqat üsulu yarandı. 1970-ci illərdə başlanmış neft böhranı hərtərəfli proqnozlaşdırma metodlarının daha sürətli inkişafına təkan verdi.

Riskə elmi yanaşmanın inkişafının növbəti mərhələsi, əsasən, 1980-ci illərin maliyyə maraqları, törəmə maliyyə alətləri deyilən vasitələrin geniş yayılması ilə bağlı idi. Ancaq peşəkarların əksəriyyəti 1990-cı illərə qədər elmi metodları qəbul etmirdi. Həmin illərdə kompüterlərin hesablama gücü, nəhayət, kifayət qədər geniş əhatəli məlumatları nəzərə almağa imkan verdi. Radiasiya risklərinin və ekoloji risklərin qiymətləndirilməsi üsullarının əsasını təşkil edən "sərhədsiz risklər" nəzəriyyəsinin təntənəsi riskin qiymətləndirilməsi nəzəriyyəsinə mühüm töhfə oldu.

Riskin ölçülməsi və qiymətləndirilməsi vasitələri dəyişir, çünki onlar çox müxtəlif peşələri əhatə edir və əslində həmin vasitələr müxtəlif peşələrə uyğun olaraq təyin edilə bilərlər. Peşə etikası kodeksində əsas diqqət, adətən, riskin (müştərinin, tamaşaçının, cəmiyyətin üzləşdiyi və ya ümumiyyətlə, həyatda qarşılaşdığımız risklərin) peşəkarlar tərəfindən qiymətləndirilməsində və azaldılmasında cəmləşir.

Bəzi sənaye sahələrində risklər yüksək dəqiqlikli ədədi üsullarla idarə edilir. Məsələn, nüvə və aviasiya sənayesi sahələrində layihələşdirilən bir sıra mürəkkəb sistemlərin işində yarana biləcək nasazlıqlar çox arzuedilməz nəticələrə gətirib çıxara bilər.



2011-ci il martın 11-də Yaponiyada baş vermiş zəlzələ nəticəsində dəymiş zərərin təqribən 16-25 trilyon iyena (198-309 milyard dollar) olması bildirilir. Hesablamalarda sosial infrastrukturun, yaşayış binalarının və zavodların bərpasına çəkiləcək xərclər də nəzərə alınmışdır. Təbii fəlakət nəticəsində sənaye artımının ləngiməsi, ÜDM-in və ticarətin həcminin azalması ilə bağlı xərclər ümumi zərərə daxil edilməmişdir.

Sığorta şirkətlərinin zəlzələ və onun ardınca yaranmış sunami ilə bağlı ümumi ödəmələri, ilkin hesablamalara görə, ən azı, 34 milyard dollar (2,8 trilyon iyena) təşkil edəcəkdir. Lakin Fukusima atom elektrik stansiyasının sığorta edəni – Deutsche Kernreaktor Versicherungsgemeinschaft AES-də qəza ilə əlaqədar sığorta kompensasiyası ödəməyəcəkdir. Çünki atom elektrik stansiyası zəlzələ və sunami nəticəsində vurulmuş zərərdən sığortalanmamışdı.

Yaponiya Bankı dağıdıcı zəlzələ nəticəsində kommersiya banklarında və başqa maliyyə institutlarında ciddi problemlərin yarana biləcəyindən ehtiyat edərək, qısamüddətli kredit bazarlarına fövqəladə fondlardan 18 trilyon iyena (təxminən 220 milyard dollar) ayırmışdır.


1995-ci il yanvarın 17-də Kobe prefekturasında baş vermiş zəlzələ nəticəsində Yaponiyaya dəymiş zərərin məbləği 9,6 trilyon iyena (119 milyard dollar) təşkil etmişdir.

Professional iqtisadçıların hesablamalarına görə, dəymiş zərərlə əlaqədar ölkənin dövlət borcu artacaq, ÜDM-in artım sürəti ləngiyəcəkdir. Aşağıda Yaponiyada baş vermiş zəlzələ nəticəsində iqtisadiyyatın ayrı-ayrı sahələrinə dəymiş zərər barədə bəzi faktlar verilir:

Cosmo Oil şirkətinin (İtixara) neftayırma zavodunda yanğın baş vermişdir. Sendayda neftkimya zavodunda partlayış və yanğın baş vermişdir;


Nissan şirkəti özünün 4 zavodunda işin dayandırıldığını elan etmişdir;

Hino, Toyota, Honda və Mit-



Sxem 1

subishi Motors şirkətləri özlərinin Yaponiyadakı bütün zavodlarında istehsalı dayandırmışlar. "Toyota Motor Corporation" isə artıq martın 18-də dünyanın 26 ölkəsində və regionunda yerləşdirilmiş istehsal təyinatlı 51 törəmə şirkətində zəlzələ nəticəsində həmin zavodların dəstləşdirmə məmulatları ilə təminatında çətinliklər yaranmışdır; "Sony" şirkəti Totiqi prefekturasının Kanuma şəhərində sənaye təyinatlı izolyasiya lenti istehsal edən zavodu, həmçinin CD və DVD-disklər, yarımkeçirici lazerlər, optik qurğular, nazik maqnit təbəqələr, xarici montaj avadanlıqları buraxılışı üzrə zavodlarını bağlamışdır; "Sharp" şirkəti işıq-diod ekranları buraxılışı üzrə zavodda istehsalı dayandırmışdır; Primearth EV Energy Co (İngiltərə) şirkətinin Senday şəhərində yerləşən və Panasonic şirkətinə aid olan zavodu dağılmışdır; "Mitsubishi Electric" şirkəti Kanaqava prefekturasının Kamakura şəhərində telekommunikasiya peykləri buraxılışı üzrə zavodu bağlamışdır;



Sxem 2

"Mitsubishi Chemical Corporation" şirkətinin (İngiltərə) İbaraki prefekturasında yerləşən etilen zavodu boru kəmərinin deformasiyası və məhsulun gəmilərə yüklənib-boşaldılması vaxtı istifadə edilən liman körpülərinin dağılması səbəbindən işi dayandırmağa məcbur olmuşdur. Maruzen Petrochemical Co (Yaponiya) Tiba prefekturasında yerləşən etilen zavodunda istehsalı dayandırmışdır; Ölkədə əsas dəniz limanları bağlandığına görə yapon avtomobillərinin və ehtiyat hissələrinin ixracı dayandırılmışdır; Yaponiya bankı təbii fəlakətlərin nəticələrinin ləğvi üzrə komitə yaratmışdır. Komitəyə bu bankın başçısı Masaaki Sirakava rəhbərlik edir. Bank bazarlarda likvidliyi dəstəkləmək üçün əlindən gələni edəcəyini bildirmişdir.

Yaponiyanın ən əhəmiyyətli fond indekslərindən biri sayılan Tokio fond birjasının Nikkei 225 indeksi bir anda təxminən 5 % ucuzlaşmışdır.

Risklərin qiymətləndirilməsində müxtəlif metodlardan istifadə edilir. Adətən, risklərin aşağı olduğu sahələrdə bu metodlar "geniş mənada məqbul" hesab edilir. Riskin daha yüksək səviyyəsi (adətən 10-100 dəfəyə qədər artıq risklər "geniş mənada məqbul" hesab edilir) onun azaldılmasına çəkilən xərclərin müqabilində gözlənilən səmərə ilə əsaslandırılmış olmalıdır, belə risklər "dözülən" hesab edilir. Bu səviyyədən kənar risklər "dözülməz risklər" kimi təsnif edilir.


Risk ilə gəlir arasında nisbət maliyyə sahəsində fundamental məsələlərdən hesab edilir. İnvestorun əldə etmək istədiyi gəlir nə qədər çox olsa, onun potensial gəliri də bir o qədər çoxdur. Səbəb budur ki, investorların əlavə risk qəbul etmələri üçün onlara kompensasiya ödəmək lazımdır. Məsələn, artıq formalaşmış, beynəlxalq aləmdə nüfuz qazanmış bankların səhmləri ən təhlükəsiz investisiyalardan biri hesab edilir, lakin onların təmin etdiyi gəlir faizi digər tanınmayan bankların səhmləri ilə müqayisədə daha aşağı olur. Çünki belə bankların müflisləşməsi ehtimalı daha nüfuzlu bankların müflisləşməsi ehtimalından çoxdur.

Riskin aşağıdakı əsas funksiyaları var:

– **Qoruyucu funksiya** – təsərrüfatçılıqla məşğul olan subyekt üçün risk normal haldır, buna

görə uğursuzluqlara rasional münasibət yaranmalıdır;
– **Analitik funksiya** – risk mövcud olduqda düzgün qərarın mümkün variantlarından birini seçməyin zəruriliyi nəzərdə tutulur;
– **İnnovasiya funksiyası** – problemlərin qeyri-ənənəvi həllərinin axtarışının stimullaşdırılmasında təzahür edir;
– **Tənzimləyici funksiya** – ziddiyyətli xarakterə malik olan bu funksiya iki: konstruktiv və dağıdıcı formada çıxış edir.
Psixologiyada risk termini tədqiqatların üç istiqaməti ilə bağlıdır:
• risk – fəaliyyətdə gözlənilən uğursuzluğun ölçüsü kimi. Riskin dərəcəsi əlverişsiz nəticələrin dərəcəsi ilə uğursuzluq ehtimalının hasili kimi təyin edilir;
• risk – subyekt üçün müəyyən itkilər (uduzma, xəstəlik, başqa zərərlər) doğura biləcək hərəkət kimi. Bu halda riskin aşağıdakı növləri fərqləndirilir: fəaliyyətdə situativ üstünlüklərin əldə edilməsi nəzərdə tutulan motivasiyalı risk; rasional əsası olmayan motivasiyasız risk; əsaslandırılmış risk və əsaslandırılmamış risk.
• risk, seçim vəziyyəti kimi. Nisbətən az cazibədar, lakin daha etibarlı strategiya ilə daha cazibədar, lakin nisbətən az etibarlı strategiya ("Soğan olsun, nağd olsun") arasında seçim vəziyyəti.
Riskə meyllilik fərdin kifayət qədər sabit xarakteristikası olmaqla, impulsivlik, müstəqillik, müvəffəqiyyətə cəhd, hökmranlığa meyl kimi şəxsi xüsusiyyətlərlə bağlıdır. Mədəniyyət və sosial şərait də riskli davranışa təsir göstərir.
Zəmanətlər riskin antipodudur. Bu halda, zəmanətlərin iki növünü fərqləndirirlər: nailiyyətə zəmanət (müvəffəqiyyətə hesablanmış zəmanət) və kompensasiyaya zəmanət (uğursuzluğa hesablanmış zəmanət).
Qərarlar qəbul edilməsi nəzəriyyəsində təəssüf (və təəssüfün gözlənməsi) riskin qəbul edilməməsindən fərqli qərar qəbul olunmasında (maddi cəhətdən hər kəsin uduzacağı halda "status-kvo"nu saxlamağa üstünlük verilməsi) mühüm rol oynaya bilər.
Müasir şəraitdə bizə əsla məlum olmayan hallardan özümüzü qorumaq üçün şəxsi təşviş və tərəddüd hisslərimizə etibar etməliyik. Qavin de Beker özünün "Təşvişin hədiyyəsi" adlı kitabında yazır: "Həqiqi təşviş əslində hədiyyədir; yalnız təhlükə ərəfəsində səslənən, salamat qalmağa çağıran siqnaldır.

Biznesin dəyər həcminə təsir göstərən makroiqtisadi riskin əsas amilləri



Sxem 3

Bizə heç bir zəmanət verməyən bütün başqa təşvişlər isə bizə elə hökmranlıq edir ki, Yer kürəsində heç bir başqa canlı varlıq bunu özünə rəva görmür. Belə olmamalıdır". Risk elə müəyyən edilməlidir ki, o, hamımızın birlikdə bu "həqiqi qorxunu" ölçmək və bölüşmək üsuluna – rasional şübhə, əsassız qorxu və şəxsi təcrübəmizdə üzləşdiyimiz, "kəmiyyət xarakteri daşımayan" bir sıra başqa xətaların məcmusuna çevrilsin.

Maliyyə davranışı sahəsi insanın riski qəbul etməməsinin, asimmetrik təəssüf hissinin və adətən analitiklərin "səmərəli" tədqiq etdiyi, insanın maliyyə davranışını dəyişdirən başqa yolların ifadəsidir. Bu halda, risk aktivlərin gəlirliliyi ilə bağlı qeyri-müəyyənliyin dərəcəsidir. İnsanın qərar qəbul etməsinə irrasional təsirin etiraf edilməsi, nəticə etibarilə, riskin bəsit şəkildə qiymətləndirilməsindən irəli gələ biləcək fəlakətləri azalda bilər. İlk baxışda rasional təsir bağışlayan bu qiymətləndirmələr əslində, sadəcə olaraq, çoxsaylı müxtəlif meyllərin bir rasional qiymətləndirmə şəklində cəmləşməsidir.

RİSK ƏLAVƏSİ – müvafiq əlavə hissənin sığorta tariflərinə daxil olması yolu ilə sığorta əməliyyatları nəticəsində maliyyə sabitliyinin təmin olunması metodlarından biri. Risk əlavəsi – sığorta məbləğinin itkililiyinin onun orta (gözlənilən) təyinatından mümkün sapmalarının örtülməsi üçün nəzərdə tutulan netto-dərəcənin bir hissəsidir.

RİSK FONDU – ekstremal şəraitdə müəssisənin sabit maliyyə vəziyyətinin və onun tədiyə qabiliyyətinin təmin edilməsi üçün nəzərdə tutulan xalis mənfəətin bir hissəsi.

RİSK KAPİTALI – sığortalanmışın vaxtından əvvəl ölümü zamanı sığorta müqavilələrinə görə plandan artıq ödənişlərin örtülməsi üçün nəzərdə tutulan, Avropa İttifaqı ölkələrinin sığorta şirkətlərində yaradılan pul vəsaitləri fondu.

RİSK MENECMENT (ing. *risk management*) – broker firmaları, sığortaçılar və təkrar sığortaçılar tərəfindən öz müştərilərinə göstərilən yeni xidmət növü. Bu anlayış "riskin qiymətləndirilməsi" kimi tərcümə olunur. Bura aşağıdakı anlayışların məcmusu daxildir: riskin məruz qaldığı təhlükələrin qiymətləndirilməsi; bu təhlükələrin təsiri nəticəsində zərərin dəyməsi ehtimalı; həmin sığorta obyekti və belə sığortanın həyata keçirilməsi şərtləri üçün ən səmərəli və qlobal sığorta örtülməsinin müəyyən edilməsi; təkrar sığorta müdafiəsinin ölçüsü və məqsədyönlülüyü; riskin inspeksiya olunması, onun üzərində nəzarət tədbirinin həyata keçirilməsi; sığorta hadisəsinin mümkün nəticələrinin qiymətləndirilməsi, məsələn, istehsal prosesinin dayandırılması, müqavilə öhdəliklərinin yerinə yetirilməməsi, üçüncü şəxslər qarşısında məsuliyyətin yaranması və s.

RİSK MÜKAFATI – sığorta ödənişinin məbləğinin ödənilməsinin zəruri fondunun yaradılması üçün sığortaçı tərəfindən təyin olunan sığorta mükafatının əsas hissəsi. O, sığortaçının riski ilə əlaqədardır və buna görə belə adlanır.

RİSK PARAMETRİ – göstəriciyə faizlə *(və ya pul ifadəsində)* müəyyən olunan sığorta tarifi. Çox zaman sığorta növlərinin spesifikliyindən asılı olaraq, müəyyən edilən həmin müxtəlif sığorta növlərinin hər biri üzrə sığorta mükafatının hesablanması üçün tətbiq olunur.

RİSK VƏ QEYRİ-MÜƏYYƏNLİK – qeyri-müəyyən iqtisadi mühitdəki fəaliyyət nəticəsində fərdlərin və ya firmaların aktivlərinin və ya investisiyalarının itirilə biləcəyi vəziyyət. İqtisadi nəzəriyyədə risk və qeyri-müəyyənlik probleminə uzun müddət lazımınca əhəmiyyət verilməmişdir. Məsələn, XX əsr neoklassikləri bazar iqtisadiyyatında resursların yerləşdirilməsi məsələlərini öyrənərkən risk və qeyri-müəyyənlik amillərinə məhəl qoymur, onları kənar amillər hesab edirdilər. Bazarların və resursların yerləşdirilməsinin neoklassik nəzəriyyəsinin əsasını qoyanların bir qismi risk və qeyri-müəyyənlik amilinin müəyyən rol oynadığı hər bir fəaliyyət sahəsinə, o cümlədən, qiymətli kağızlar bazarına xeyli şübhə ilə yanaşırdılar. Onlar birja fəaliyyətini ruletka və lotereya oyunlarına oxşar, bir növ, "rəzil ləzzətlər" hesab edirdilər.

İqtisadi qərarlar qəbul edilməsini labüd olaraq müşayiət edən risk və qeyri-müəyyənlik məsələsi iqtisadi nəzəriyyədə yalnız 1940-cı illərdən başlayaraq, C.Fon Neyman və O.Morqenşteynin (ABŞ) "Oyunlar nəzəriyyəsi və iqtisadi davranış" kitabı çapdan çıxdıqdan sonra qəbul edilmişdir. Müəlliflər maksimallaşdırma problemini

fərdin faydasını və firmanın mənfəətini risk və qeyri-müəyyənlik amili nəzərə alınmaqla ilk dəfə həmin kitabda tədqiq etmişlər. Neyman-Morgenşteyn nəzəriyyəsinə görə, fərd yalnız nemətin maksimum faydalı olmasını təmin edən alternativləri, firmalar isə investisiyalardan maksimum mənfəət əldə etmək ehtimalının daha yüksək olduğu alternativləri seçirlər.

Amerikalı iqtisadçılar – Nobel mükafatı laureatları K.Errou, Q.Markovits, U.Şarp, C.Akerlof, F.Nayt və başqaları risk və qeyri-müəyyənlik probleminin araşdırılmasına böyük töhfələr vermişlər.

Riskdən fərqli olaraq qeyri-müəyyənlik proqnozlaşdırılması kifayət qədər çətin olan dəyişikliklər və ya baş verməsi ehtimalını qiymətləndirmək mümkün olmayan hadisələr nəticəsində yaranır.

RİSK VƏZİYYƏTİ – bu elə vəziyyətdir ki, mümkün nəticələrdən hər birinin ehtimalını bilməklə son nəticəni qabaqcadan dəqiq müəyyən etmək olmur. İnformasiyanın asimmetrikliyi və qeyri-müəyyənlik şəraitində insanlar öz iqtisadi fəaliyyətlərini həyata keçirərkən labüd olaraq risk edirlər. Lotereyada iştirak etmək riskli fəaliyyətin tipik nümunəsidir. Bu fəaliyyət insanın qeyri-müəyyənlik şəraitində davranışı ilə bağlıdır. Riskli vəziyyətdə ehtimalın müxtəlif təbiətini nəzərə almaq, yəni eyni vaxtda həm obyektiv, həm də subyektiv olmaq zəruridir.

RİSKƏ GÖRƏ MÜKAFAT – risk layihələrinə vəsait qoyan səhmdarın əlavə gəliri.

RİSKİN AZALMASI ÜSULU – risklərin minimum səviyyəyə enməsi metodu; riskin vəziyyətdən çıxışına və nəticələrin qeyri-müəyyənliyinin aradan qaldırılması risklərinin diversifikasiyasının tətbiqinə, sığorta polisinin əldə olunmasına müncər olunur.

RİSKİN BİRLƏŞMƏSİ – zərərin azaldılması metodu; burada mümkün zərərlərin və itkilərin riski bir neçə tərəfdaş arasında bölünür. Sövdənin hər bir iştirakçısı üçün risk azalır.

RİSKİN BÖLÜNMƏSİ – riskin bir hissəsinin bu riski daşıyan tərəfindən üçüncü tərəfə çevrilməsi. Məsələn, sığortada təkrar sığortadan istifadə edilməsi. *Riskin bölüşdürülməsi* – vəsaitlərin bir deyil, bir neçə növ qiymətli kağızlara qoyulmasıdır.

RİSKİN DAŞINMASI VAXTI – sığorta müqaviləsinin qəfildən ləğv edilməsi zamanı bu sığorta müqaviləsinə görə sığorta mükafatı hesablanarkən qəbul olunan diqqət vaxtı.

RİSKİN DƏYƏRCƏ QİYMƏTLƏNDİRİLMƏSİ – sığortanın aparıldığı hadisənin və ya məcmu hadisələrin baş verməsi ehtimalının müəyyən edilməsi və onların nəticələrinin pul formasında hesablanması. Sığorta riskinin dəyəri idarə olunan və ya idarə olunmayan müxtəlif amillərin təsiri altında arta və ya azala bilər. Riskin dəyərcə qiymətləndirilməsi sığorta hadisələrinin meydana gəlməsi tezliyini və dəymiş zərərin ölçüsünü xarakterizə edən statistik məlumatlar əsasında müəyyən edilir.

RİSKİN EKSSEDENTİ – müəyyən risk kateqoriyası üzrə itkinin (zərərin) təkrar sığortası haqqında müqavilə, razılıq.

RİSKİN İDARƏ EDİLMƏSİ – müxtəlif növ risklərin azaldılması qaydası; bu qayda ilə investor öz fəaliyyətində qarşılaşır; buna risklərin təhlili və monitorinqi, onların hecirləşməsinin və sığortalanmasının müxtəlif metodlarından istifadə edilməsi ilə nail olunur. Riskin idarə edilməsi – müəssisənin, firmanın, bankın risklərlə bağlı olan mümkün itkilərin azalmasına yönəldilmiş fəaliyyətidir. Ən yayılmış üsullar riskin diversifikasiyası, bazarın, müştərilərin öyrənilməsi, marketinq tədqiqatları, riskin sığorta edilməsidir.

RİSKİN QƏBUL EDİLMƏMƏSİ (*risk aversion*) – onun dərəcəsi investorun riskə məruz qalmasını azaltmaq üçün ödəniş etməsi arzusunu ölçür.

RİSKİN QİYMƏTLƏNDİRİLMƏSİ (ing. *risk evaluation, valuation, estimation, estimate*) – tələb edilən tərkibdə və həcmdə məlumatlar bazasında risk əmsalını müəyyənləşdirən bütün şərtlərin nəzərdən keçirilməsi, riskin nəzərdə tutulan qiymətinə müvafiq kateqoriyalarının müəyyən edilməsi və onların arasında hədd qoyulması.

Qiymətləndirmə meyarları kimi xidmət edən ən mühüm xassələr arasında riskin kateqoriyaları xüsusi qeyd edilir. Məsələn, əgər şəxsi sığorta müqaviləsi bağlanması aktını nəzərdən keçirsək, bu halda, qiymətləndirmə meyarı şəxsin yaşı (eləcə də onun çəkisi və ya boyu) ola bilər. Bundan əlavə, sığorta kontraktı bağlandıqdan az sonra sığortalananın ölümünə və ya əmək qabiliyyətini itirməsinə səbəb

ola biləcək ciddi xəstəlikləri aşkar etmək üçün əvvəlcə həkim müayinəsi aparıla bilər. Real tibbi göstəricilərin məlumatları sığortalanan şəxsin ərizəsində şərh etdiyi məlumatlarla müqayisə edilir. Zəruri hallarda tibb müəssisələrindən informasiya tələb olunur. Sığortaçının sığorta kontraktı bağlamaq haqqında qərarının əsası səhmdar sığorta cəmiyyətinin (SSC), qarşılıqlı sığorta cəmiyyətinin (QSC) və səhmdar sığorta şirkətinin (SSŞ) statistik uçotunda əks edilmiş riskin qiymətləndirilməsi nəticələridir. Riski qiymətləndirmək üçün maksimum yoxlanılmış məlumatlara malik olmaq çox zəruridir. Buna görə də SSC-nin, QSC-nin və SSŞ-nin statistik məlumatlarının düzgün olması son nəticədə riskin qiymətləndirilməsində xətanın çox böyük və ya, ümumiyyətlə, bu cür qiymətləndirmənin səhv olmasına gətirib çıxarır.

Sığortaçı riskin qiymətləndirilməsinin praktik tərəfini sürveyerə etibar edə bilər. Sürveyer sığorta obyekti ilə tanış olduqdan sonra onu hərtərəfli və müfəssəl öyrənməli və sığorta ilə bağlı hüquqi münasibətlər yaratmağın səmərəli olub-olmaması barədə qərarını yazılı şəkildə təqdim etməlidir. Beləliklə, sürveyerin məqsədi sığorta və ya qeyri-sığorta riskini aşkar etməkdən (identifikasiya etməkdən) ibarətdir. Bundan əlavə, sığorta halı baş verdikdən sonra bu halın əhəmiyyətli məqamlarını və vəziyyətin həqiqiliyini müəyyənləşdirməkdən ötrü əvvəlcə imzalanmış sığorta kontraktına əsasən sığortaçının məsuliyyətinə səbəb olan həqiqi vəziyyəti müəyyən etmək üçün riski qiymətləndirmək olar. Bu halda, sığortaçı riskin qiymətləndirilməsi üzrə işi acasterə həvalə edə bilər. Acaster vəziyyəti və şəraiti hərtərəfli və müfəssəl təhlil etdikdən sonra çıxardığı nəticələri sığortaçıya təqdim edir. Lakin hər bir halda, zərərin ödənilməsi barədə son qərar qəbul etmək hüququ sığortaçıda qalır. Sığortaçı şübhəli məqamları təkrar yoxlamaq üçün başqa acasterə müraciət edə bilər.

RİSKİN SEÇİLMƏSİ – özündə daha əlverişli biznesin qalması zamanı öz əlverişli biznesinin təkrar sığortaçıya verilməsi.

RİSKİN SEDİRLƏŞMƏSİ – risklə əlaqədar öhdəliklərin bir şəxs tərəfindən digər fiziki və ya hüquqi şəxsə ötürülməsi. Belə bir müqavilə borclu tərəfin razılığı olmadan da bağlana bilər.

RİSKİN SIĞORTASI – işgüzar əqdlərin keçirilməsi riskinin sığorta hesabına azaldılmasından ibarət sığorta növü. Ən geniş yayılanı bank krediti risklərinin sığortalanmasıdır. Kredit risklərinin sığortalanması obyekti bank kreditləri, öhdəlikləri və havadarlıqları, investisiya kreditləridir. Kredit qaytarılmadıqda kreditor kreditin məbləğinin əvəzini tam və ya qismən ödəyən sığorta təzminatı alır.

RİSKİN TƏKRAR SIĞORTAÇIYA VERİLMƏSİ – sığorta biznesinin aparılmasına görə sığortaçının bütün öhdəliklərinin və ya bir hissəsinin verilməsi (keçirilməsi).

RİSKİN TƏKRAR SIĞORTAYA VERİLMƏSİ ZAMANI KOMİSSİYA (təkrar güzəşt komissiyası) – sığorta mükafatından (haqqından, tədiyəsindən) təkrar sığortaçının apardığı çıxılma; o bunu riski öz üzərinə götürməsi nəticəsində alır.

RİSKİN TRANSFERİ – sığortada sığorta, təkrar sığorta və ya retrosessiya müqaviləsi bağlanarkən baş verən riskin verilməsi.

RİSKLƏRİN BƏRABƏR BÖLÜNMƏSİ – sığortanın əsas prinsiplərindən biri; onu əsas götürür ki, hər bir sığorta cəmiyyətinin maliyyə imkanları məhduddur. Buna görə də, iri riskləri sığortalanmaq üçün qəbul edərək və onları öz məsuliyyətində saxlayaraq, sığorta cəmiyyəti özünü böyük zərərin baş verməsi və ya tam məhv olmasının meydana gəlməsi zamanı öz öhdəliklərinin yerinə yetirilməməsi təhlükəsi altına qoyur. Sığorta cəmiyyəti üçün on iri risklərin 1/10 hissəsində iştirak etmək ağlabatan sayılır.

RİSKLƏRİN ÇIXIŞ PORTFELİ – müxtəlif səbəblər üzündən (məsələn, müqavilənin vaxtından əvvəl dayandırılması zamanı) təkrar sığortaçı tərəfindən qaytarılan risklərin məcmusu.

RİSKLƏRİN DAXİL OLMA PORTFELİ – müxtəlif səbəblər üzündən *(məsələn, müqavilənin vaxtından əvvəl pozulması zamanı)* təkrar sığortaçı tərəfindən qaytarılan risklərin məcmusu. Risklərin daxil olma portfeli təkrar sığortaçı bir çox riskləri "sıfırdan" qəbul edir, belə ki, bir çox risklər artıq sığortalanmanı keçmişlər. Bütün qəbul olunan risklərin məcmusu risklərin portfelini təşkil edir.

RİSKLƏRİN DİVERSİFİKASİYASI – 1. Müxtəlif növ risklərə məruz qalan sferalarda sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq. 2. Müxtəlif növ risklərin sığortalanmaya qəbul edilməsi.

RİSKLƏRİN EYNİLƏŞDİRMƏSİ – riskləri təhlil və idarə edilməsi tsiklinin ən mühüm mərhələlərindən biri. Ehtimal edilən riskli vəziyyətlərin siyahısının hazırlanması, onların yaranmasının səbəblərinin və əlamətlərinin (nəticələrinin) proqnozlaşdırılması, risklərin təsnifatı və risk meyarlarının təyin edilməsi.

RİSKLƏRİN İDENTİFİKASİYASI – müəyyən fəaliyyət növü üçün xarakterik olan və onların xarakteristikasını müəyyən edən risklərin müntəzəm aşkar edilməsindən ibarət risklərin idarə edilməsi üzrə tədbirlər sisteminin ilkin mərhələsi.

RİSKLƏRİN TƏSNİFLƏŞDİRİLMƏSİ – risklərin analizi mərhələlərindən biri olub, gələcəkdə də riski təsnifləşdirməyə və qiymətləndirməyə, həmçinin, onların idarəedilməsi metodlarının işlənib hazırlanmasına imkan verir. Risklərin təsnifləşdirilməsi onların qruplar üzrə təsnifat meyarları əsasında bölüşdürülməsindən ibarətdir. Tədqiqatın məqsədlərindən asılı olaraq, maliyyə, istehsal, maddi-texniki təchizat və s. ayrılır.

RİSKLİ AKTİVLƏR (ing. *risk asets*) – 1. Dəyəri bütünlüklə bazar konyunkturasının dinamikasından asılı olan bank aktivləri, eləcə də, uzunmüddətli investisiyalar və uzunmüddətli borclar. 2. Məzənnəsi dayanıqlı olmayan qiymətli kağızlar. 3. Şirkətin həmin şirkət tərəfindən emissiya edilmiş qiymətli kağızların saxlayıcılarının təsiri altında olan səhmdar kapitalı. Səhm sahiblərinin tələbləri emitentin mənafelərinə zidd olduqda, bu, səhmdar cəmiyyətinin müflisləşməsinə gətirib çıxara bilər.

RİSKLİ FRAXT – fraxtın məbləği; əgər gəmi sahibi yükü təyinat məntəqəsinə çatdırmırsa, o bu fraxt məbləğini itirə bilər. Riskdə olan fraxtda sığorta marağına malik olduğundan, gəmi sahibinin onun sığortalanmasına hüququ vardır.

RİSKLİ KAPİTAL (ing. *venture capital*) – riskli kapital qoyuluşu ilə bağlı istifadə olunan termin. Riskli (vençur) maliyyələşdirmə texniki cəhətdən mütərəqqi iqtisadi sahələr üçün xarakterikdir.

Riskli maliyyələşdirmə üçün vəsait ixtisaslaşmış institutlar tərəfindən cəmləşdirilir və bir-biri ilə bağlı olmayan, sürətlə xərcini çıxaran layihələrə investisiya olunur. Adətən, böyük olmayan, prinsipial surətdə yeni istehsal növlərini mənimsəməklə orta normadan artıq mənfəət gətirəcək firmalara təklif edilir. Kapital qoyuluşları, bir qayda olaraq, müştəri – firmanın səhmlərinin bir hissəsinin alınması və ya ssuda verilməsi yolu ilə həyata keçirilir. Riskli kapitalı öz sərəncamlarına alan firma rəhbərləri, hərəkətlərinin azadlığı ilə seçilir.

RİSK-TREYDİNQ (ing. *risk-trading*) – investisiya portfeli və birja brokerlərinin hazırlanması zamanı konsultativ və praktik fəaliyyət.

RİSTORNO (ing. *Discount/Rebate*; ital. *Rebaja;* fr. *Ristourne*) – müştərinin müəyyən dövrdə aldıqlarının ümumi dəyərinə prorposional vaxtda həyata keçirdiyi alqılara qiymət endirimi.

RİTMİKLİK – istehsal prosesinin zaman və məkan etibarilə müəyyən edilmiş qaydası. Bu qayda ayrı-ayrı istehsal elementlərinin işləri arasında məhsulun nomenklatura həcmi, təqvim müddətləri baxımından plan nisbətlərinə riayət edilməsinə əsaslanır. Ritmiklik bütün istehsal prosesinin rəvanlığını, məmulatların vaxtında, fasiləsiz hazırlanmasını və buraxılışını təmin etməyə imkan verir. İstehsalın idarə edilməsində ritmiklik müəssisənin istehsal fondlarının fasiləsiz və müntəzəm hərəkətinə nail olmaq, onların tədavül və dövriyyə sürətinin səmərəli olmasına sistematik təsir göstərmək məqsədi daşıyır.

Müəssisədə ritmikliyin təmin edilməsi məmulatın işə salınma – buraxılış göstəricilərinin müəyyən edilmiş dövriliyi nəzərə alınmaqla iş yerlərinin müntəzəm yüklənməsi ilə xarakterizə olunur. Ədədi və xırda seriyalı istehsalda ritmiklik özünü onda göstərir ki, hər bir təqvim müddəti ərzində müxtəlif iş növlərinin müəyyən həcmləri müəyyən nisbətlərdə yerinə yetirilir. Bu halda, məhsulun müəyyən olunmuş müddətdə buraxılmasını təmin edən komplekslik şərti nəzərə alınır.

RİTORNO (ing. *return*) – hadisənin *(vəziyyətin)* baş verməsi nəticəsində bağlanmış sığorta müqaviləsinin sığortalı tərəfindən pozulması zamanı sığorta mükafatının (haqqının, ödəməsinin) bir hissəsinin sığortaçı (sığorta təşkilatları) tərəfindən

tutulması. Adətən ritorno sığortalının eyni marağın əvvəlcədən sığortalandığını bilmədiyi zaman – ikiqat sığortalanma həyata keçirilərkən tətbiq olunur. Ritorno sığorta olunan subyekt tərəfindən sığorta müqaviləsinin hər hansı *(əsas etibarilə mübahisəli məqamlarla bağlı)* şərtinin pozulmasına görə sığorta şirkətinin sığorta ödənişinin bir hissəsini ödəməkdən imtina etməsidir.

RİYAZİ İQTİSADİYYAT – təhlilin, proqnozlaşdırmanın, planlaşdırmanın gedişində iqtisadi proseslərin təsviri və iqtisadi göstəricilərin hesablanması üçün riyazi metod və modellərdən istifadə edən iqtisadi nəzəriyyənin bir hissəsi, iqtisadi nəzəriyyənin bir istiqaməti. İqtisadi obyekt və proseslərin idarə edilməsi, planlaşdırılması, proqnozlaşdırılması və nəzarəti üçün ekonometriya, tətbiqi statistikanın metodlarından istifadə olunur.

ROBİNSON-PATMON QANUNU – qanunun əsas müddəası müxtəlif istehlakçılar üçün növ və keyfiyyətinə görə analoji olan mallara müxtəlif qiymətlərin müəyyən edilməsini qadağan edirdi. Qanun ABŞ-da ştatlararası ticarət zamanı rəqibləri üstələmək üçün eyni malların topdansatış qiymətlərinin aşağı salınmasına yol verməmək məqsədilə qəbul olunmuşdu. Amma belə *qiymət diskriminasiyası* aşağıdakılar sübut olunduğu təqdirdə *qanunidir:*

1) müxtəlif xərclərə əsaslanır;
2) haqlı rəqabətə uyğun gəlir;
3) malın sürətlə zay olması və ya köhnəlməsi ilə əlaqəlidir.

ROKFELLER CON (1839-1937) – Amerika sənayeçisi və



filantropu, Standard Oil kompaniyasının yaradıcısı, öz adını daşıyan universitet və fondun, həmçinin, xeyriyyə təşkilatlarının təsisçisi; nümayəndələri sənaye (elektrotexnika və maşınqayırma), maliyyə-kredit sahələrində və sığorta biznesində aparıcı postları tutan ABŞ-ın ən varlı ailələrindən birinin əcdadı.

ROLL-OVER İPOTEKA – üzən (rəvan dəyişən) dərəcə və ya dövri təkrar maliyyələşmə ilə ipoteka krediti.

ROMA KLUBU – 1968-ci ildən fəaliyyət göstərir. Məqsəd və məramı dünyanın resurslarının məhdudluğu ilə bağlı "bəşəri çətinliklər"in elmi təhlilini aparmaq, planetar kritik situasiyalarda "həyəcan təbili" çalmaq, "işlərin idraklı gedişinə" nail olmaqda, "qlobal tarazlığın" əldə edilməsində ictimaiyyətə hansı ölçü və tədbirləri gerçəkləşdirmək yollarını göstərmək və ümumilikdə problemin həllinə kömək edəcək tövsiyələr hazırlamaqdır. Siyasi doktrinalar formalaşdırmayan elm, təhsil, ətraf mühit və iqtisadiyyatla bağlı aktual məsələlər üzrə dialoqa çağırış edən Roma klubu bəşəriyyət qarşısında dayanan çətin problemlərin aşkarlanması və onların həlli strategiyasının işlənməsi kimi şərəfli missiyanı həyata keçirir. 1968-ci ildən fəaliyyət göstərən və 40 ildən çoxdur ki, "Qlobal düşün, lokal hərəkət et" prinsipini rəhbər tutan klubun üzvləri sırasında çoxsaylı sahibkarlar, siyasi xadimlər, alimlər, etibarlı ekspertlər, mədəniyyət nümayəndələri, yüksək vəzifəlilər vardır. Klubun nailiyyətlərindən biri elmi-tədqiqatların yeni bir istiqaməti – qlobal modelləşdirmənin yaradılmasıdır.

ROYALTİ – lisenziya razılaşmalarının fəaliyyəti dövründə lisenziat tərəfindən hazır məhsulun qiymətindən ayırmalar şəklində, ya da məhsul vahidindən yığım formasında verilən mükafat. Həmçinin, əsərdən istifadəyə görə müəllifin gəlir payını təşkil edən müəllif qonorarının xüsusi növü. Royalti, bir qayda olaraq, əsər nüsxələrinin yayılması və ya ifaların təkrarlanması hallarında nəzərdə tutulur; nəşrlərin, yaxud teatr biletlərinin satışından əldə olunan gəlirdən faizlə müəyyən edilir; royalti müəllifə satılan nüsxələrin, yaxud təkrarlanan ifaların sayına uyğun olaraq vaxtaşırı ödənilir.

ROZENBERQ DAVİD İOXELEVİÇ (1878–1950) – sovet iqtisadçısı, SSRİ EA-nın müxbir



üzvü (1939). 1924-1931-ci illərdə N.K. Krupskaya adına Kommunist Tərbiyəsi Akademiyasında dərs demişdir. 1931-1937-ci illərdə İqtisad Universitetinin professoru, eyni zamanda, Kommunist Akademiyasının İqtisadiyyat İnstitutunun baş elmi işçisi olmuşdur. 1936-cı ildən MDU-da dərs demişdir. 1941-1943-cü illərdə Kazan Universitetinin professo-

ru, 1945-1948-ci illərdə Marks-Engels-Lenin İnstitutunun baş elmi işçisi olmuşdur. Siyasi iqtisadın tarixi üzrə silsilə əsərləri nəşr edilmişdir.

RTS (Rusiya ticarət sistemi) **İNDEKSİ** – Rusiya fond bazarının hərəkətini daha tam əks etdirən əsas inkişaf göstəricisi. O, hər yarım saatdan bir bütün ticarət sessiyası ərzində daha likvid səhmlərlə RTS-nin bağladığı sövdələşmələr haqqında göstəricilər əsasında hesablanır.

RUMYANTSEV ALEKSEY MATVEYEVİÇ (1905-1993) – sovet iqtisadçısı, sosioloqu.



1960-cı ildə SSRİ EA-nın müxbir üzvü, 1966-cı ildə SSRİ EA-nın akademiki seçilmişdir. Rusiya EA-nın akademikidir (1991). Xarkov Xalq Təsərrüfatı İnstitutunu (1926), Sənaye İstehsalının İqtisadiyyatı və Təşkili İnstitutunun aspiranturasını (1932) bitirmişdir (Xarkov). 1930-1950-ci illərdə elmi-pedaqoji fəaliyyətlə məşğul olmuşdur, 1950-1952-ci illərdə Ukrayna EA-nın İqtisadiyyat İnstitutunun direktoru, 1952-1965-ci illərdə Sov.İKP MK-nın elm və mədəniyyət şöbəsinin müdiri, 1965-1967-ci illərdə SSRİ EA-nın İqtisadiyyat şöbəsinin akademik katibi, 1967-1971-ci illərdə SSRİ EA-nın vitse-prezidenti, 1968-1971-ci illərdə SSRİ EA-nın Konkret Sosial Tədqiqatlar İnstitutunun direktoru, 1971-1975-ci illərdə SSRİ EA-nın Rəyasət Heyətinin üzvü, habelə, bir çox xarici ölkələrin EA-nın üzvü olmuşdur. O, sosialist siyasi iqtisadının mərkəzi metodoloji problemlərini (predmet, kateqoriyalar sistemi, iqtisadi təhlil metodları) tədqiq etmişdir. Onun rəhbərliyi ilə böyük bir elmi məktəb yaradılmışdır.

RUSİYA ELMLƏR AKADEMİYASININ İQTİSADİYYAT İNSTİTUTU – elmi-tədqiqat müəssisəsi. Moskva şəhərində yerləşir. 1930-cu ildə ictimai elmlər elmi-tədqiqat institutlarının Rusiya assosiasiyasının İqtisadiyyat institutuna iqtisadi və kooperativ seksiyaların birləşməsi nəticəsində formalaşmış Kommunist Akademiyası bazasında yaradılmışdır. 1980-ci ildə Qırmızı Əmək Bayrağı Ordeni ilə mükafatlandırılmışdır. 1922-ci ildə Kommunist akademiyası iqtisadiyyat institutunun əvəzində Sosialist akademiyasında iqtisadiyyat kabineti fəaliyyət göstərirdi. 8 iyul 1930-cu ildə birləşmədən sonra Komakademiyanın İqtisadiyyat institutu yaradıldı. 10 avqust 1931-ci ildə Komakademiyanın İqtisadiyyat institutuna Qırmızı professuranın iqtisadiyyat institutu birləşdirildi (1932-1936-cı illərdə institutun direktoru Kvirinq olub). 15 fevral 1936-cı ildə yenidən təşkiletmə nəticəsində İqtisadiyyat institutuna Komakademiyanın Aqrar institutu da birləşdirilmiş və institut SSRİ EA sisteminə daxil edilmişdir. 1941-1943-cü illərdə institut Alma-Atada evakuasiyada olub. 4 oktyabr 1947-ci ildə Dünya təsərrüfatı və dünya siyasəti İnstitutu və İqtisadiyyat İnstitutu SSRİ EA sistemində birləşdirildi. İnstitutun strukturuna daxildir: siyasi-iqtisadi araşdırmalar mərkəzi, investisiya və innovasiyalar mərkəzi, makroiqtisadi strategiya mərkəzi, əmək bazarı və sosial proseslərin tədqiqi mərkəzi, federalizmin sosial-iq-



İnstitutun 80 illiyinə həsr olunmuş yubiley iclası (2010-cu il)



İnstitutun elmi şurası

tisadi problemləri mərkəzi, institusioanal və makroiqtisadi tədqiqatlar mərkəzi, maliyyə-bank tədqiqatları mərkəzi, informasiya mərkəzi.

2005-ci ildə Beynəlxalq iqtisadi və siyasi tədqiqatlar İnstitutu da İqtisadiyyat İnstitutuna beynəlxalq iqtisadi və siyasi tədqiqatlat şöbəsi formasında birləşdirildi. İnstitut 08.00.01 – iqtisadi nəzəriyyə, 08.00.05 – xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi, 08.00.10 – maliyyə, pulun dövriyyəsi və kredit, 08.00.14 – dünya iqtisadiyyatı və s. ixtisaslar üzrə alimlər hazırlayır. İnstitut "Voprosı ekonomiki" jurnalının təsisçisidir.

İnstitutun direktoru REA-nın müxbir üzvü, i.e.d., professor Ruslan Semyonoviç Qrinberqdir. Onun birinci müavinləri isə f.e.d., professor Aleksandr Yakovleviç Rubinşteyn və REA-nın müxbir üzvü, i.e.d., professor Dmitriy Yevgeneviç Sorokindir. İnstitutun ilk direktoru V.P.Milyutin olub. Müxtəlif illərdə instituta aşağıda adları çəkilən alimlər rəhbərlik etmişlər: akademik M.A.Solovyov (1936-1940), B.L.Markus (1940-1941), akademiyanın müxbir üzvü P.A.Xromov (1945-1947), akademiyanın müxbir üzvü K.V.Ostrovityanov (1948-1953), akademiyanın müxbir üzvü V.P.Dyaçenko (1953-1956), akademik İ.D.Laptyev (1957-1958), akademiyanın müxbir üzvü L.M.Qatovskiy (1959-1971), Y.İ.Kapustin (1971-1986), akademik L.İ.Abalkin (1986-2005).

Əhməd Mahmudov, Ağasəlim Ələsgərov, Ziyad Səmədzadə, Bədir Qarayev, Arif Manafov, Sevil Rzayeva, Fuad Mürşüdlü kimi alimlərin yetişməsində bu elm ocağının əvəzsiz xidmətləri olmuşdur.

RUTİNA (ATİLLİK) – 1. Sadə, lakin dəfələrlə təkrarlanan yeknəsəq əməliyyatlardan ibarət olan iş. 2. Şablonçuluq, yenilikdən qorxmaq, mühafizəkarlıq. 3. Ətalətlilik, yenilik hissinin olmaması. 4. Kompüter proqramı.

RUZİ – azuqə. *Ruzisini əlindən buraxmaq (çıxarmaq)* – əlinə düşən nemətdən, azuqədən məhrum olmaq; uduzmaq.

Ruzisini kəsmək – qazanc yolunu kəsmək, dolanışıq üçün imkandan məhrum etmək, yeyəcəyini əlindən almaq, ac qoymaq.

RUZİSİZ – ruzisi olmayan, yeyəcəyi olmayan, azuqəsiz.

Ruzisiz qoymaq – azuqəsini, ruzisini əlindən almaq, ac qoymaq, aclığa məhkum etmək.

RÜSTƏMBƏYOV HACIAĞA BAXIŞ OĞLU (1949) – Azərbaycan iqtisadçısı, i.e.d., dosent.1973-ci ildə Bakı Dövlət Universitetini bitirmişdir. 1978-ci ildə Moskva Dövlət Universitetində "İnfkişaf etməkdə olan ölkələrdə iqtisadi islahatların sosial-iqtisadi məzmunu" mövzusunda namizədik, 2010-cu ildə isə "Milli iqtisadi mənafelər: ilkin şərtlər, məqsədlər, nail olma vasitələri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.



1978-1998-ci illərdə BDU-nun "İqtisadi nəzəriyyə" kafedrasının, 1998-2009-cu illərdə "Beynəlxalq iqtisadi münasibətlər" kafedrasının dosenti, 2009-cu

ildən "Beynəlxalq iqtisadi münasibətlər" kafedrasının müdiridir. 2012-ci ildən Azərbaycan Respublikası Prezidenri yanında AAK-ın ekspert şurasının sədridir. 81 elmi-nəzəri məqalənin, 3 monoqrafiyanın müəllifidir.

RÜSTƏMOV AĞARZA AĞAHƏSƏN OĞLU (1952) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



2004-cü ildə "Yeni iqtisadi münasibətlər şəraitində əhalinin maddi rifah halının yüksəldilməsinin iqtisadi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 9 kitab və kitabçanın, 80-dən artıq elmi məqalənin müəllifidir. 2004-cü ildə "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Hazırda Naxçıvan Dövlət Universitetində kafedra müdiridir.

RÜSTƏMOV ELMAN SİRAC OĞLU (1952) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d.



1973-cü ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. Həmin ildən Dövlət Plan Komitəsinin nəzdindəki Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda iqtisadçı, 1978-ci ildə Bakı Zərif Mahud İstehsalat Birliyi İqtisadiyyat İdarəsinin rəisi, 1980-ci ildə Dövlət Plan Komitəsinin nəzdində Elmi-Tədqiqat İnstitutunda baş iqtisadçı, 1991-ci ildə Prezident Aparatında iqtisadi məsələlər üzrə baş məsləhətçi işləmişdir. 1992-ci ildə Milli Bankın İdarə Heyəti sədrinin birinci müavini, 1993-cü ildə Aqrar-Sənaye Səhmdar Bankının İdarə Heyətinin sədr müavini, 1995-ci ildən isə Mərkəzi Bankın İdarə Heyətinin sədridir.

1986-cı ildə namizədlik, 2011-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində dünya iqtisadiyyatı üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir. İqtisadiyyat, maliyyə və bank işi üzrə respublikada və xaricdə çap olunmuş 2 kitabın, çoxsaylı elmi məqalələrin və nəşrlərin müəllifidir. Azərbaycan dövlətinin pul-kredit sisteminin hazırlanmasında, hökumətin antiinflyasiya tədbirlərinin uğurla reallaşdırılmasında, ölkədə dinamik inkişaf edən bank sisteminin formalaşmasında, Azərbaycanın Mərkəzi Bankının beynəlxalq aləmdə ahəngdar fəaliyyət göstərən bir qurum kimi formalaşmasında müstəsna xidmətləri var.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

RÜSUM – dövlət orqanları tərəfindən müəssisələrə, təşkilatlara, idarələrə və ayrı-ayrı şəxslərə göstərilən xidmətlərə görə onlardan tutulan məcburi vergilər, tutulmalar, tədiyyələr. Rüsumun aşağıdakı əsas növləri fərqləndirilir: inzibati rüsum – hüquqi və fiziki şəxslərin mənafeyi naminə həyata keçirilən inzibati hərəkətlərə görə onlardan tutulan vergi növü, bir qayda olaraq, sabit dərəcələrlə hesablanır; aksiz rüsumu kütləvi istehlak məhsullarına tətbiq olunan dolayı vergi; banderol rüsumu – vergiyə cəlb olunan əmtəənin bağlanması (yapışdırılması) üçün banderol satışı vasitəsi ilə tutulan dolayı vergi (aksiz). Bununla belə, satın alınmış əmtəələrin istehlakçısı əvvəlcədən dövlət kassasında ona lazım olan miqdarda banderolları satın alır və beləliklə, banderol rüsumunu köçürür; veksel gerb rusumu hər bir köçürmə və sadə vekselin veksel verən tərəfindən verilməsinə görə ölkənin dövlət büdcəsinə birdəfəlik ödədiyi pul məbləğidir. Veksel verən tərəfindən veksel gerb rüsumunun ödənilməsi rüsum markasının (markalarının) əldə olunması yolu ilə həyata keçirilir və bunun da nominal dəyəri pul məbləğinin kəmiyyətinə proporsionaldır (mütənasibdir). Rüsum markasının ödənilməsi pul məbləğinin kəmiyyəti ilə mütənasibdir ki, bunun ödənilməsi veksel öhdəliyinin məzmununu təşkil edir. Veksel gerb rüsumunun veksel verən tərəfindən ödənilməsinin təsdiq edilməsi ona verilən köçürmə və sadə vekselə marka (markalar) bağlamaq (yapışdırmaq) yolu ilə həyata keçirilir. Veksel verən tərəfindən köçürmə və sadə veksel tərtib edilərkən onun mövcud qanunvericiliklə müəyyən edilmiş veksel blankından istifadə edilməsi zamanı veksel gerb rüsumunun ödənilməsi bu blankın əldə edilməsi yolu ilə həyata keçirilir. Veksel gerb rüsumu markaların buraxılışı, ödənişə məruz qalan faizləri nəzərə alaraq və nəzərə almadan veksel öhdəliyinin pul məbləğinin nominal dəyərinin

nisbətinin hesablanması qaydası, eləcə də, hər bir əldə edilmiş veksel blankına görə ödənişin ölçüsü hökumət tərəfindən müəyyən edilir; gerb rüsumu sazişlərin və sənədlərin qeydiyyatına görə bir sıra sövdələşmə növlərindən (məsələn, qiymətli kağızlarla sövdələşmələrdən) dövlət tərəfindən tutulan vergidir; yük rüsumu dəniz limanının göstərdiyi xidmətlərə görə yük sahibləri tərəfindən ödənilir. Brutto çəkisinə görə hesablanır və hər ton yükdən tutulur. Yük rüsumunun dərəcələri hövzələr və liman qrupları, göndəriş növləri, yüklərin hər bir tarif qrupu üzrə fərqləndirilir; klirinq qeydiyyat rüsumu fyuçers müqaviləsinin qeydiyyatına görə tutulan birja rüsumudur. Yalnız alqı zamanı ödənilir və ya satış müqaviləsi zamanı sövdələşmədə dolayı vergi; Konsul rüsumu konsulluqlar və Xarici İşlər Nazirliyinin digər orqanları tərəfindən vətəndaşların, idarə və təşkilatların xahişi ilə yerinə yetirilən rəsmi hərəkətlərə görə onlardan tutulan haqdır; lisenziya rüsumu ixrac və idxal üçün rəsmi idarələrin ixracatçılar və idxalatçılar tərəfindən yazılı icazələrin alınması zamanı onların vergiyə cəlb olunmasının bir növüdür; sənətlə məşğul olan, gəlirlərə malik hüquqi və fiziki şəxslərin büdcəyə ödədiyi patent tədiyəsi. Rüsumun həm də gömrük və qanunvericilikdə nəzərdə tutulmuş digər növləri olur. Gömrük rüsumu mallar ölkə ərazisinə gətirilərkən və ya bu ərazidən çıxarılarkən ölkənin gömrük orqanları tərəfindən tutulan haqq olmaqla yanaşı, həm



də bu cür idxal və ixracın mühüm şərtidir.

RÜSUMSUZ TİCARƏT MAĞAZASI – mallardan gömrük rüsumları, vergilər alınmadan və onlara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən ölkənin gömrük ərazisində (beynəlxalq hava və dəniz limanlarında və ölkə gömrük orqanları tərəfindən müəyyən edilən digər yerlərdə) həmin malların gömrük nəzarəti altında satılmasından ibarət gömrük rejimi.

RÜŞVƏTXOR – rüşvət alan. Rüşvət alma, yəni vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsi. Rüşvət vermə, yəni xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemət, imtiyaz və ya güzəşt təklif olunması, vəd edilməsi və ya verilməsi.

RYABUŞKİN TİMON VASİLYEVİÇ (1915-1986) – sovet iqtisadçısı, SSRİ EA-nın müxbir



üzvü (1966). Varonejdə Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir (1936). 1948-1953-cü illərdə SSRİ Mərkəzi Statistika İdarəsində Statistik metodologiya şöbəsinin müdir müavini, müdiri, Dövlət Statistika Nəşriyyatının baş redaktoru, 1954-1961-ci illərdə SSRİ EA-nın İqtisadiyyat İnstitutunun İqtisadi statistika sektorunun müdiri, 1961-1970-ci illərdə SSRİ EA-nın Dünya Sosialist Sisteminin İqtisadiyyatı İnstitutunun statistika sektorunun müdiri, İnstitutun direktor

müavini, 1948-1961-ci illərdə SSRİ-nin BMT-nin Statistika Komissiyasında və Əhali Sakinliyi üzrə Komissiyada nümayəndəsi, 1958-ci ildən Beynəlxalq Statistika İnstitutunun üzvü, 1976-cı ildən SSRİ EA-nın Sosioloji Tədqiqatlar İnstitutunun direktoru olmuşdur. Əsas əsərləri siyasi iqtisad və statistikaya həsr olunmuşdur.



RZAYEV VƏFADAR ƏZİZ OĞLU (1933) – Azərbaycan Respublikasının əməkdar iqtisadçısı (1982). 1958-ci ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu, 1982-ci ildə SSRİ Nazirlər Soveti yanında Xalq Təsərrüfatını İdarəetmə Akademiyasını bitirmişdir. Respublikada maliyyə işinin təşkilində müstəsna xidmətləri var. 1971-1978-ci illərdə Azərbaycan SSRİ-in maliyyə nazirinin birinci müavini, 1987-ci ildə Aqrar-Sənaye Bankının İdarə Heyətinin sədri olmuşdur. 10-dan çox elmi məqalənin müəllifidir. 1999-cu ildən özəl bank sektorunda məsləhətçidir.



Altıağac



Dübrar dağı (2205 m)

S

SABİT XƏRCLƏR – istehsalın həcmindən asılı olmayaraq dəyişməyən xərclər. Bu xərclərə icarə haqqı, amortizasiya ayırmaları, sığorta ödəmələri, idarəetmə personalının əmək haqqı və s. aiddir. Sabit xərclər hətta müəssisə heç bir məhsul istehsal etmədiyi halda da (istehsalın sıfır həcmində belə) ödənməlidir.

SABİT İDXAL – gömrük rejimi; bu rejimə görə, obyekt sifarişçiyə təhvil verildikdən sonra əvvəllər idxal olunmuş əmtəələr (avadanlıq, material, nəqliyyat vasitələri və s.) sifarişçinin mülkiyyətinə çevrilir. Sabit idxal zamanı əmtəələrdən (mallardan) adi idxal qaydalarına və dərəcələrinə uyğun olaraq gömrük rüsumları və vergiləri tutulur.

SABİT İPOTEKA – ipoteka krediti; buna görə bütün müddət ərzində yalnız faizlər ödənilir, əsas məbləğ isə kreditin müddəti bitdikdən sonra birdəfəlik ödənilir.

SABİT İSTEHSAL SƏMƏRƏLİLİYİ – istehsal həcmi dəyişdikdə uzunmüddətli orta məcmu xərclərin dəyişməz qaldığını əks etdirən xüsusiyyət.

SABİT QİYMƏT – 1. Təsbit olunmuş qiymət, müqavilə (kontrakt) qiymətinin bir növü. 2. Müqavilə bağlanarkən tərəflərin razılığı ilə müəyyən edilir və onun bütün fəaliyyəti dövründə dəyişilməz qalır. Başqa sözlə, alqı-satqı müqaviləsində göstərilən və dəyişilməyə məruz qalmayan qiymət.

SABİT RENTA – ödənişi ölçülməz dərəcədə aparılan renta.

SABİTLƏŞMƏ (ing. *grystallisation)* – 1. Girovun statusunun dəyişildiyi mərhələ. Sabitləşdirmədən əvvəl girov qoyan girovdan müxtəlif məqsədlər, həmçinin, təminatsız borcların ödənilməsi üçün istifadə edə bilər; lakin sabitləşdirmədən sonra girov qoyulmuş aktivlər yalnız təmin etdikləri borcun ödənilməsi üçün istifadə oluna bilər. 2. "Ədalət hüququ" (və ya digər hüquqların ötürülməsi formaları) əsasında hüquqi varis (təminatın saxlayıcısı) ötürülən aktivlərin qanuni mülkiyyətçisinə çevrildiyi mərhələ.

SABLET (ing. *sablet*) – bir fraxtçının gəmini müqavilə üzrə götürdüyü öhdəlikləri yerinə yetirmək üçün əsas sığortaçının vacib şərtləri ilə digərinə çarterə verməsi.

SADƏ AGENTLİK – sığortaçının agent şəbəkəsinin təşkili tiplərindən biri. Agent sığorta şirkəti ilə müqavilə bağlayır, şirkətin ştatda olan işçilərinin nəzarəti altında müstəqil işləyir.

SADƏ ƏMƏK – ixtisası olmayan işçinin əməyi, yəni ixtisassız əmək. Hər cür mürəkkəb əmək sadə əməyə çevrilə bilər.

SADƏ FAİZLƏR *(simple interest)* – kreditin (depozitin) yalnız əsas məbləğinə, faizlərə faiz əlavə olunması nəzərə alınmadan əlavə olunan faizlər.

SADƏ KAPİTALİST KOOPERASİYASI – kapitalist istehsalının manufakturadan əvvəlki ilkin inkişaf mərhələsi; əməyin ictimailəşdirilməsinin ən sadə forması. Sadə kapitalist kooperasiyası zamanı kapitalist eyni vaxtda eyni işi yerinə yetirən muzdlu fəhlələri istismar edir. Əl əməyinə əsaslanır. Sadə kooperasiya hələ kapitalizmdən əvvəlki formasiyalarda yaranmışdır. Onun köməyilə piramidalar, məbədlər ucaldılmış, suvarma qurğuları və s. tikilmişdir. Lakin sadə kapitalist kooperasiyası kapitalist istehsalının spesifik forması olmaqla əvvəlki kooperasiya növlərindən fərqlənir; sadə kapitalist kooperasiyası nə texnikada, nə də istehsal metodunda heç bir əsaslı dəyişiklik etmir. Lakin onun xırda əmtəə istehsalına nisbətən üstünlüyü var: o əməyin ictimailəşməsini təmin edir və bununla da onun məhsuldarlığını yüksəldir. Sadə kapitalist kooperasi-

yasının inkişafı kapitalist manufakturasının yaranmasına səbəb olmuşdur.

SADƏ VEKSEL – vekselverənin müddət başa çatanadək müəyyən məbləğdə pulu veksel sahibinə (vekselsaxlayana) ödəyəcəyi barədə sözsüz pul öhdəliyini təsdiq edən qiymətli kağız. Sadə vekseldə tədiyə müddəti göstərilmirsə, o, təqdim edildikdə ödənilməli olan veksel kimi nəzərə alınır. Sadə vekseldən çox vaxt ssudaların rəsmiləşdirilməsi zamanı istifadə olunur. Sadə veksel qanunla təsdiq olunmuş formada tərtib edilərək vekselverən tərəfindən vekselsaxlayana verilmiş şərtsiz yazılı öhdəlikdir. Eyni zamanda, bu öhdəlik vekselin sahibinə və ya vekseli təqdim edənə onda göstərilmiş məbləği vekseli verən və ya akseptləşdirən şəxsdən tələb etmək hüququ verir. Nəhayət, bu, dövriyyə vasitələrinə kontragentin sənədləşdirilmiş sərmayəsidir. Kontragent vekseldə göstərilən şərtlərlə onu müəyyən müddətdə investora ödəməyi öhdəsinə götürür.

Sadə veksel haqqında əsasnaməyə uyğun olaraq və sadə vekseldə iki şəxsin iştirak etməsinə baxmayaraq, veksel üzrə tədiyə tam və ya zəmanət (aval) vasitəsilə qismən təmin oluna bilər. Belə təminat üçüncü şəxs (adətən bank) tərəfindən həm vekselverən, həm də veksel üzrə öhdəliyi olan hər bir şəxs üçün verilir. Vekseli ödəyən avalçı vekseldən irəli gələn bütün hüquqlara sahib olur. Aval haqqında qeyd vekseldə, əlavə vərəqdə və ya hətta ayrıca bir vərəqdə edilə bilər. Bu zaman o, kimin üçün verildiyi göstərilməklə imzalanır. Avalçı və onun zamin olduğu şəxs birgə məsuliyyət daşıyırlar.

Sadə vekselin rekvizitləri

Sadə vekselin aşağıdakı rekvizitləri olmalıdır:

– sənədin tərtib edildiyi dildə "veksel" sözü;

– heç bir qeyd-şərt qoyulmadan müəyyən məbləği ödəmək haqqında sadə vəd;

– tədiyə müddətinin göstərilməsi;

– tədiyənin həyata keçiriləcəyi yerin göstərilməsi;

– ödəniləcək məbləğin kimə və kimin əmri ilə veriləcəyi;

– vekselin tərtib edildiyi tarix və yer;

– vekselverənin imzası;

– tədiyəçinin adı.

SADƏLƏŞDİRİLMİŞ VERGİ – əlavə dəyər vergisi (ƏDV) məqsədləri üçün qeydiyyata alınmayan və müəyyən bir dövr ərzində vergi tutulan, əməliyyatlarının həcmi müəyyən edilmiş həddən az olan, həmçinin, müəyyən fəaliyyət növləri ilə məşğul olan vergi ödəyiciləri tərəfindən tətbiq olunan vergi. Əsasən, kiçik sahibkarlığın inkişaf etdirilməsi məqsədilə tətbiq edilməsinə başlanılmışdır. Belə ki, sadələşdirilmiş vergini ödəyən hüquqi şəxslər mənfəət vergisinin və əmlak vergisinin, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər isə bu fəaliyyət üzrə gəlir vergisinin ödəyiciləri deyildirlər. Sadələşdirilmiş vergi Bakı şəhərində 4 faiz, digər şəhər və rayonlarda, Naxçıvan Muxtar Respublikasında 2 faiz dərəcə ilə hesablanmaqla, vergi ödəyicilərinin əldə etdiyi ümumi hasilatın, habelə satışdankənar gəlirlərin həcmindən tutulur.

Eyni zamanda, mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsilə həyata keçirən şəxslər və mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər sadələşdirilmiş verginin ödəyicilərididirlər.



Bu fəaliyyətlə məşğul olan şəxslərə sadələşdirilmiş verginin tətbiqi kiçik sahibkarlığın inkişafı deyil, əsasən, vergitutmanın asanlaşdırılması məqsədilə həyata keçirilir.

SADIXOV SADIX SƏMƏD OĞLU (1926-2005) – Azərbaycan iqtisadçısı, Respublikanın



əməkdar iqtisadçı (1982). 1952- ci ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İns- titutunu bitirmişdir. 1961-ci ildə Dövlət Bankının Azərbaycan Kontorunda müdir müavini, 1975-1987-ci illərdə Azərbaycan Sənaye-Tikinti Bankında sədr, 1992-ci ildən ömrünün sonuna kimi özəl bank sektorunda rəhbər vəzifələrdə çalışmışdır. Azərbaycan sənayesinin, tikinti kompleksinin maliyyələşdirilməsi problemlərinin həllində, bank işinin inkişafında onun xidmətləri əvəzsizdir. Uzun müddət SSRİ Tikinti Bankının Azərbaycan Respublika Kontorunda rəhbər vəzifələrdə çalışmış, bu sahədə çoxlu kadrlar yetişdirmişdir. Maliyyə-kredit sistemindəki uzunmüddətli fəaliyyətinə görə bir çox orden və medallarla təltif olunmuşdur.

SADIQOV QARA ƏLİ OĞLU (1926-1992) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1957-ci ildə namizədlik, 1973-cü ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1950-1951-ci illərdə Dövlət Plan Komitəsində baş iqtisadçı, 1952-1954-cü illərdə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində təbliğat və təşviqat şöbəsində müha-



zirəçi, 1954-1968-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda müəllim, 1968-1990-cı illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda dosent, professor, dekan, kafedra müdiri vəzifələrində çalışmışdır. Böyük Vətən müharibəsi iştirakçısı Q.Sadıqov "Qafqazın müdafiəçisi" medalı ilə təltif olunmuşdur.

Tədqiqat obyekti kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi olmuşdur. Siyasi iqtisadın tədrisinin təkmilləşdirilməsinə dair 26 tədris və metodoloji vəsait, habelə məqalə dərc etdirmişdir.

SADIQOV MƏMMƏDSADIQ MUSTAFA OĞLU (1924-1994) – Azərbaycan iqtisadçısı,



i.e.d., prof. 1956-cı ildə Moskva Dövlət İqtisad İnstitutunda "Şəhər ilə kənd arasında mühüm fərqlərin aradan qaldırılması" mövzusunda namizədlik, 1977-ci ildə Moskva şəhərində Sov. İKP MK yanında İctimai Elmlər Akademiyasında "Şəhərlə kənd arasında sosial-iqtisadi fərqlərin aradan qaldırılması" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Həmin il professor elmi adına layiq görülmüşdür.

1957-ci ildən Bakı Ali Partiya Məktəbində baş müəllim, dosent, 1965-ci ildən ömrünün sonuna kimi kafedra müdiri vəzifələrində çalışmışdır. Böyük Vətən müharibəsi iştirakçısı M.Sadıqov "Vətən müharibəsi" ordeni ilə təltif olunmuşdur.

M.M.Sadıqov 70-ə qədər elmi əsərin, o cümlədən 4 monoqrafiya, 2 dərslik və bir sıra dərs vəsaiti, məqalə və elmi-kütləvi nəşrin müəllifidir. Onun tədqiqatının əsasını aqrar problemlər, şəhərlə kənd arasında mühüm fərqlərin tədqiqi, elmi-texniki inqilabın şəhər və kəndin inkişafına əsaslı təsirinin tədqiqi, kənd təsərrüfatının sənaye istehsalına yaxınlaşması və vahid istehsal prosesinə çevrilməsinin ümumi qanunauyğunluqlarının tədqiqi təşkil edir.

SADIQOV MİRDAMƏD MİRSADIQ OĞLU (1950) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d.,



prof. 1977-ci ildə Moskva şəhərində namizədlik, 2004-cü ildə Bakıda "Azərbaycan Respublikasının maliyyə potensialının formalaşması problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1971-1988-ci illərdə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda laborant, baş laborant, baş müəllim və dekan vəzifələrində çalışmışdır. 1988-1999-cu illərdə Azərbaycan Maliyyə-İqtisad Kollecinin direktoru olmuşdur. 2000-2007-ci

illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin tədris işləri üzrə prorektoru vəzifəsində çalışmışdır.

2007-2008-ci illərdə Azərbaycan Respublikası Vergilər Nazirliyi Vergi siyasəti və vergi qanunvericiliyi strateji araşdırmalar Mərkəzinin Baş İdarə rəisi vəzifəsində çalışmışdır.

İqtisadiyyat, maliyyə və vergi problemləri ilə bağlı 200-dən çox elmi məqalənin, o cümlədən 10 dərslik, 8 dərs vəsaitinin, 9 monoqrafiyanın müəllifidir. Əməkdar elm xadimidir.

Hazırda Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru və həmin universitetin nəzdində yaradılmış iqtisad elmləri üzrə birləşmiş dissertasiya şurasının sədr müavinidir. Respublikanın elm və təhsil sistemində özünəməxsus yeri olan Aqrar Universitetdə aqrar-iqtisad elminin tədrisinin təkmilləşdirilməsində müasir təhsil sisteminin qurulmasında mühüm xidmətləri vardir.

SADIQOV ŞAHİN MUSTAFA OĞLU (1954) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1983-cü ildə "Regional iqtisadiyyatın inkişaf trayektoriyalarının asimotik xassələrinin araşdırılması" mövzusunda namizədlik, 2007-ci ildə "Transformasiya olunan iqtisadiyyatda makroiqtisadi proqnozlaşdırma və idarəetmə metodikasının təkmilləşdirilməsi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Bir neçə kitabın, 50-yə qədər elmi məqalənin, tədris vəsaitinin və monoqrafiyanın müəllifidir. Elmi araşdırmalarının əsas istiqamətini makroiqtisadi proqnozlaşdırma və tənzimləmə problemləri təşkil edir.

Hazırda Azərbaycan Respublikasının Nazirlər Kabinetində İqtisadiyyat və maliyyə-kredit siyasəti şöbəsinin müdiridir.

SAĞLAMLIĞA YARDIM TƏŞKİLATLARI (*Health Maintenance Organizations*) – ABŞ-da bir təşkilatda həmin təşkilatın üzvlərinə həm sığorta, həm də tibbi xidmətlərin birgə göstərilməsinə imkan verən tibbi xidmət forması.

SAĞLAMLIĞIN FASİLƏSİZ SIĞORTALANMASI – sığortalının əmək qabiliyyətini itirməsi, xəstəlik və ya yaralanma zamanı bu sığortalıya məbləğin ödənilməsini nəzərdə tutan sığorta növü. Bu ödənişin (örtülmənin) müddəti adətən 60 və ya 65 ilə qədərdir. "Fasiləsiz" sözü o deməkdir ki, müqaviləni bağlayan sığorta şirkəti onu poza bilməz. Bu sığorta növünü bədbəxt hadisələrdən şəxsi sığorta ilə qarışdırmaq olmaz.

SAĞLAMLIĞIN SIĞORTASI – bədbəxt hadisə və ya xəstəlik nəticəsində sığortalanmış şəxsin sağlamlığının zərər vurarkən razılaşdırılmış ölçülərdə sığortaçının sığorta ödənişlərini aparmaq öhdəliklərini nəzərdə tutan şəxsi sığorta yarımsahəsi.

"SAĞMAL İNƏK" (gəlir mənbəyi) – aşağı artım sürəti ilə daha böyük bazar payı əldə etmiş mallar.

SAHƏLƏRARASI BALANS (ictimai məhsulun istehsalı və bölgüsünün sahələrarası balansı) – ictimai məhsulun istehsalı və bölgüsü balansı – geniş təkrar istehsal prosesinin sahələr üzrə nisbətlərinin iqtisadi təhlili və planlaşdırılması metodu. Xətti bərabərlik formasında iqtisadi riyazi balans modeli olub, bir sahədə məhsul istehsalı ilə bu istehsal üçün zəruri digər sahələrin məsrəfləri arasında əlaqələri xarakterizə edir. O, məhsulların bölüşdürülməsi (cədvəlin hər bir sətri), yekun əsasında (şahmat balansı) istehsala çəkilən məsrəf (bəndlər) balanslarının çarpazlaşdırılması yolu ilə əldə edilir; sahənin istehsal və təsərrüfat əlaqələrini xırdalıqlarına qədər əks etdirir. Pul və natural formada tərtib edilir. Əsas göstəriciləri tam məsrəflər əmsalı və birbaşa məsrəflər əmsalıdır. Xaricdə "məsrəflər – buraxılış" (nəticə) metodu adlanır. İqtisadiyyatın inkişafının sahələrarası modelləri xalq təsərrüfatının planlaşdırılması sisteminin təkmilləşdirilməsində mühüm halqadır. Sahələrarası balansın tərtibi ideyası və prinsipial metodoloji əsasları SSRİ-də XX əsrin 20-ci illərində yaranmışdır. 1923-1924 təsərrüfat ili üçün işlənilmiş SSRİ xalq təsərrüfatının balansında sahələrarası balansın əsas prinsipləri əksini tapmışdır.

Sahələrarası əlaqələrin təhlili metodu ilk dəfə XX əsrin 30-cu illərində Amerika iqtisadçısı, Nobel mükafatı laureatı V.Leontyev tərəfindən tətbiq edilmişdir (bax: V.Leontev). İnformasiyanın iqtisadi məzmununa və xarakterinə görə sahələrarası balans iki əsas növdə – dəyər və natural məhsul növlərində işlənib hazırlanır. Bu balansların hər biri, öz növbəsində, hesabat,

Cədvəl 1

Məşğulluğun və məhsul istehsalının bölgüsünün sahələrarası balansı

İstehsal (buraxılış) / Xərclər	Sahələrdə aralıq tələb				Son tələb				İstehsal
						o cümlədən			
	Hasilat	Hazır məhsul	Xidmətlər	Yekun	Cəmi	Son istehlak	Ümumi yığım	Xalis daşınma və xalis ixrac	
Hasilat									
Hazır məhsul									
Xidmətlər									
Yekun aralıq istehlak									
ÜƏD									
İstehsal (buraxılış)									
Məşğulluq									

yaxud plan şəklində tərtib olunur. Hesabat sahələrarası balans SSRİ Mərkəzi Statistika İdarəsi tərəfindən 1959, 1966, 1972 və 1977-ci illər üçün ölkə üzrə tərtib edilmişdir. SSRİ xalq təsərrüfatının bütün sahələrini əhatə edən balanslarla yanaşı, ayrı-ayrı müttəfiq respublikalar və iqtisadi rayonlar üzrə regional modellər tərtib olunurdu. Azərbaycan SSR-də 1964-cü il üçün natural ifadədə, 1966-cı il üçün dəyər və natural ifadədə, 1972-ci il üçün dəyər ifadəsində hesabat, 1975-ci il üçün natural ifadədə plan və 1977-ci il üçün dəyər ifadəsində hesabat balansları tərtib edilmişdir. Dəyər sahələrarası balansın təkrar istehsal prosesini pul ifadəsində xarakterizə edir. Natural ifadədə sahələrarası balanslar məhsulun konkret növləri (prokat, mühüm kimya məhsulları növləri və s.) üzrə işlənib hazırlanır. Sahələrarası əlaqələri, maddi istehsalda struktur dəyişikliklərinin effektliliyini təhlil etmək və sahələrarası balans sistemi üzrə plan hesablamalarını həyata keçirmək üçün tam məsrəf əmsalları hesablanır. Bu əmsallar müəyyən məhsulun digər məhsul vahidinin istehsalına sərf olunmasını xarakterizə edir. Sahələrarası balansın köməyilə sosialist təsərrüfatının əsas qanunauyğunluqlarını, ümumi daxili məhsulun və milli gəlirin qarşılıqlı əlaqələrini, sənaye, kənd təsərrüfatı, tikinti, tədavül sahələri arasındakı qarşılıqlı əlaqələri dərindən öyrənmək mümkün olur. Sahələrarası balansın əsasında müəyyən edilmiş tam məsrəf əmsalları səmərəli beynəlxalq əmək bölgüsü problemlərinin həlli, xarici ticarətin səmərəliliyinin hesablanması, həmçinin, ölkələrin iqtisadi inkişaf səviyyələrinin beynəlxalq müqayisəsi üçün geniş tətbiq edilir.

SAHƏLƏRARASI ƏMƏK MƏSRƏFLƏRİ BALANSI – məhsul (iş və xidmətlər) istehsalı prosesini və sahələr arasındakı qarşılıqlı əlaqələri əmək məsrəflərində əks etdirən iqtisadi cədvəl. Sahələrarası əmək

məsrəfləri balansının məlumatları ayrı-ayrı məhsullara (xidmətlərə) çəkilən canlı və maddiləşmiş əmək sərfinin ümumi həcmini, ayrıca bir sahə üzrə bu məsrəflərin nisbətini müəyyənləşdirməyə, məhsulların ayrı-ayrı növləri üzrə birbaşa və tam əmək məsrəfləri əmsalını hesablamağa, eləcə də bir sıra digər hesablamalar aparmağa imkan verir. Onlar, həmçinin, adam-saat göstəricisində də hesablana bilərlər. Hər bir sahə üzrə maddiləşmiş əmək məsrəflərinin göstəriciləri sahənin canlı əmək məsrəflərinin, bu sahənin məhsulunun digər sahələrdə istifadəsi üzrə proporsional bölüşdürülməsi haqqında məlumatlar əsasında müəyyən edilir. Sahələrarası əmək məsrəfləri balansının hər bir sətri bu sahənin məhsulunun istehsalına çəkilən canlı əmək məsrəflərinin həmin sahənin məhsulunu istehlak edən digər bütün sahələr arasında necə bölüşdürüldüyünü, habelə son istehlaka və məcmu kapital qoyuluşlarına bölüşdürülən hissəsini göstərir. Balansın məlumatları şaquli xətt üzrə nəzərdən keçirilirsə, bu əmək məsrəfləri müxtəlif sahələr tərəfindən aralıq istehlakda istifadə edilən məhsulda maddiləşən keçmiş əmək sərfi kimi çıxış edir. Bundan əlavə, şaquli xətt üzrə hər bənddə canlı əmək məsrəfləri əks olunur. Nəticədə hər bir sahə qrupu üzrə hər hansı bir sahədə məhsul istehsalına çəkilən canlı və maddiləşmiş əmək məsrəflərinin cəmi (məcmu əmək sərfi) alınır. Sahələrarası əmək məsrəfləri balansının tərtibi üçün əsas informasiya mənbəyi kimi sahələrarası balansın və əmək statistikasının məlumatları çıxış edir.

SAHİBKAR – qanunla nəzərdə tutulmuş hər hansı bir fəaliyyətlə məşğul olan müəssisənin, şirkətin təşkili üçün vəsaitlər axtaran və bununla da, sahibkarlıq riskini öz üzərinə götürən şəxs. Sahibkarın əsas məqsədi mənfəət götürməkdən ibarətdir.

Fərdi sahibkar – hüquqi şəxs yaratmadan təsərrüfat fəaliyyəti ilə məşğul olan, fəaliyyət göstərdiyi yer üzrə vergi orqanlarında dövlət qeydiyyatından keçən və bununla bağlı şəhadətnaməni almış vətəndaş (fiziki şəxs) (bax: sxem 1). Sahibkar aşağıdakı səbəblərdən təsərrüfat fəaliyyətinə olan hüququnu itirir: a) əgər ona verilən şəhadətnamənin və keçdiyi qeydiyyatın ləğvi haqqında ərizə təqdim edirsə; b) əgər məhkəmə onun imkansız (müflis) olması haqqında qərar çıxararsa.

SAHİBKARIN SOSİAL MƏSULİYYƏTİ – geniş mənada biznesin cəmiyyətə təsiri kimi başa düşülür. Dünya təcrübəsi göstərir ki, əhalinin yaşayış keyfiyyəti və cəmiyyətin sosial sabitliyi daha çox özəl sahibkarlığın partnyor münasibətləri sisteminin formalaşmasının, hakimiyyətin və sosial sahədə vətəndaş cəmiyyətinin uğurlu olmasından asılıdır. Korporativ sosial məsuliyyət sahəsində əməliyyatlar aparan təşkilatlar bu anlayışı müxtəlif cür izah edir:


"Sosial məsuliyyət üçün biznes":
Korporativ sosial məsuliyyət kommersiya uğuruna etik prinsipləri qiymətləndirən və insanlara, birliklərə, ətraf mühitə hörmət edən yollarla nail olmaq deməkdir.

"Biznes-liderlərin beynəlxalq forumu":
Korporativ sosial məsuliyyət dedikdə məsul biznesin praktikalarının irəli hərəkəti başa düşülür ki, bunlar da biznesin cəmiyyətə və neqativin minimumlaşdırılması ilə pozitiv təsirinin maksimallaşdırılması yolu ilə biznesə və cəmiyyətə fayda gətirir, sosial-iqtisadi, ekoloji dayanıqlı inkişafa kömək edirlər.

"Dayanıqlı inkişaf üçün Dünya biznes şurası":
Korporativ sosial məsuliyyətə biznesin dayanıqlı iqtisadi inkişafa öz payını vermək öhdəliyi, işçilərlə, onların ailələri ilə, yerli ictimaiyyətlə və bütövlükdə cəmiyyətlə, onların yaşayış keyfiyyətini yaxşılaşdırmaq üçün əmək münasibətləri kimi tərif verir.

"SATİO sistem biznes-texnologiyalar mərkəzi":
Biznesin sosial məsuliyyəti (BSM) – biznesin cəmiyyətə sosial-iqtisadi və ekoloji sahələrdə birbaşa şirkətin əsas fəaliyyəti və minimum qanununun hüdudlarından çıxan könüllü payı.

Biznesin sosial məsuliyyəti çoxsəviyyəli xarakter daşıyır.
Baza səviyyəsi aşağıdakı öhdəliklərin yerinə yetirilməsini nəzərdə tutur:
Vergilərin vaxtında ödənilməsi, əmək haqqının ödənilməsi, imkan olduqca yeni iş yerlərinin təqdim edilməsi (işçi ştatının genişləndirilməsi).
BSM-in ikinci səviyyəsi işçilərin nəinki iş, həm də həyatlarının adekvat şəraitlə təmin olunmasını nəzərdə tutur: işçilərin



Sxem 1

ixtisas səviyyəsinin yüksəldilməsi, profilaktik müalicə, mənzil tikintisi, sosial sahənin inkişafı. Məsuliyyətin bu tipi şərti olaraq "korporativ məsuliyyət" adlandırılır.

Məsuliyyətin üçüncü, ali səviyyəsi xeyriyyəçilik fəaliyyətini nəzərdə tutur.

Biznesin daxili sosial məsuliyyətinə əməyin təhlükəsizliyinin təmin edilməsi tədbirlərini, əmək haqqının sabitliyini, sosial önəmli əmək haqqının saxlanmasını, əməkdaşların əlavə tibbi və sosial sığortasını, tədris proqramları və ixtisasartırma proqramları vasitəsilə insan resurs-



larının inkişafını, kritik vəziyyətlərdə işçilərə kömək göstərilməsini aid etmək olar.

Biznesin xarici sosial məsuliyyətinə sponsorluğu və korporativ xeyriyyəçiliyi, ətraf mühitin mühafizəsi üzrə tədbirlərin həyata keçirilməsinə köməyi, yerli birlik və yerli hakimiyyətlə qarşılıqlı əlaqəni, böhranlı şəraitdə iştirak etməyə hazırlığı, mal və xidmət istehlakçıları qarşısında məsuliyyəti aid etmək olar.

Biznesin sosial məsuliyyətinin motivləri şəxsi iş heyətinin inkişafından ibarətdir ki, bu da təkcə kadr axınından yan keçməyə deyil, həm də bazarda ən yaxşı mütəxəssisləri cəlb etməyə; şirkətdə əmək məhsuldarlığının artmasına; şirkətin imicinin yaxşılaşmasına, cəmiyyətdə nüfuzunun artmasına; mal və ya xidmətin reklamına; şirkətin fəaliyyətinin KİV-də işıqlandırılmasına; uzunmüddətli perspektivdə sabitliyin və dayanıqlığın möhkəmləndirilməsinə; investisiya kapitalının cəlb edilməsi imkanlarının mümkünlüyünün yüksəlməsinə; cəmiyyətdə və bütövlükdə sosial stabilliyin saxlanmasına; vergi güzəştlərinin əldə edilməsinə imkan verir. Şirkətin, müəssisələrin və s. korporativ sosial məsuliyyətin inkişafı, fəaliyyətin istiqamətlərinin müəyyənləşdirilməsi və sosial proqramların işlənib hazırlanması, onların maliyyə bazasının yaradılması üçün, adətən, **inzibati-sosial büdcə** – şirkətin özünün sosial proqramlarının reallaşdırılması üçün ayırdığı maliyyə vəsaitləri müəyyən edilir; **korporativ məcəllə** – şirkətlərin işgüzar münasibətlərinin

dəyərlərinin və prinsiplərinin, bəzən isə onun tədarükçülərinin və biznes tərəfdaşlarının rəsmi ifadəsi işlənib hazırlanır. Məcəllədə göstərilən minimal standartlar və şirkətlərin onlara riayət etmək haqqında zəmanətləri, həmçinin, tədarükçülər, podratçılar, subpodratçılar və lisenziya verənlər tərəfindən bu standartlara riayət olunması tələbləri əks olunur. Məcəllə qanun deyil, ona görə də yalnız ona riayət etmək öhdəliyi götürənlər üçün məcburi xarakter daşıyır. Həmçinin, sosial məsul şirkətin **missiyası** – şirkətin sosial siyasətində formalaşan rəsmi mövqeyi müəyyən olunur və şirkətin sosial siyasətinin prioritetləri – şirkətin sosial proqramlarının sənədli şəkildə müəyyən edilmiş əsas istiqamətləri qurulur.


Sosial proqramlar – şirkət tərəfindən təbiətin mühafizəsi, iş heyətinin inkişafı, əlverişli əmək şəraitinin yaradılması, yerli birliyə dəstək, xeyriyyəçilik fəaliyyəti və vicdanlı iş təcrübəsi üzrə könüllü həyata keçirdiyi fəaliyyətdir. Bu zaman başlıca meyar proqramların biznesin inkişafı məqsədlərinə və strategiyasına uyğunluğudur.

Şirkətin **sosial fəallığı** həm daxili, həm də xarici istiqamətdə müxtəlif sosial proqramların həyata keçirilməsində öz ifadəsini tapır. Sosial fəallıq proqramlarının fərqləndirici xüsusiyyətləri onların həyata keçirilməsinin könüllü olması, sistemli xarakteri, şirkətin inkişaf missiyası və strategiyası ilə bağlılığıdır.

Sosial proqramlara həm şirkətlərin öz proqramları, həm də yerli, regional və federal dövlət idarəetmə orqanları ilə partnyorluq proqramları; qeyri-kommersiya təşkilatları ilə partnyorluq proqramları; ictimai təşkilatlarla və professional birliklərlə əməkdaşlıq proqramları; KİV-lə informasiya əməkdaşlığı proqramları daxildir.

Korporativ sosial proqramların idarə edilməsi – bu, şirkətdə fasiləsiz proses olub, aşağıdakı mərhələlərdən ibarətdir: şirkətin sosial siyasətinin prioritetlərinin müəyyən edilməsi; sosial proqramları idarəetmənin xüsusi strukturunun yaradılması; sosial məsuliyyət sahəsində tədris proqramlarının keçirilməsi; şirkətin sosial proqramlarının həyata keçirilməsi; şirkətin sosial proqramlarının nəticələrinin bu işdə marağı olan tərəflərin diqqətinə çatdırılması və onlar tərəfindən qiymətləndirilməsi.

Sosial proqramların aşağıdakı istiqamətləri var: **vicdanlı iş praktikası** – onun məqsədi tədarükçülər, biznes-partnyorlar və şirkətin müştəriləri arasında vicdanlı iş praktikasının qəbul edilməsinə və yayılmasına yardımdır; **təbiəti mühafizə və resursqoruyucu fəaliyyət** – şirkətin təşəbbüsü ilə ətraf mühitə zərərli təsiri azaltmaq məqsədilə



Sxem 1

(təbii resurslardan qənaətli istehlak proqramları, tullantılardan təkrar istifadə və onların utilləşdirilməsi, ətraf mühitin çirklənməsinin aradan qaldırılması, ekoloji təhlükəsiz istehsal prosesinin təşkili, ekoloji təhlükəsiz nəqliyyat daşınmalarının təşkili) həyata keçirilir; **yerli cəmiyyətin inkişafı** – bu, könüllü əsaslarla həyata keçirilir və yerli cəmiyyətin inkişafına (sosial proqramlar və əhalinin sosial müdafiə olunmamış təbəqəsinə dəstək aksiyaları, uşaqlara və gənclərə dəstək, yaşayış-kommunal təsərrüfatının və mədəni-tarixi təyinatlı obyektlərin qorunması və inkişafına kömək, yerli mədəni, təhsil və idman təşkilatlarına və tədbirlərinə sponsorluq, sosial əhəmiyyətli tədqiqatlara və kampaniyalara dəstək, xeyriyyəçilik aksiyalarında iştirak) öz payını verir; **iş heyətinin inkişafı** – istedadlı əməkdaşların cəlb olunması və burada qalması məqsədilə iş heyətinin inkişaf strategiyası (tədris və peşəkarlığın inkişafı, əmək haqqının motivasiyalı sxemlərinin tətbiqi, işçilərə sosial paketin təqdim edilməsi, istirahət və asudə vaxt üçün şərait yaradılması, təşkilatda daxili kommunikasiyaların saxlanması, idarəetmə qərarlarının verilməsində əməkdaşların iştirakı) çərçivəsində keçirilir; **sosial məsul restrukturizasiya** – restrukturizasiyanın aparılmasını sosial məsul şəkildə, hər şeydən əvvəl, şirkətin iş heyətinin maraqlarında təmin etməlidir; **sosial məsul investisiya qoyuluşu** – təkcə maliyyə gəlirləri əldə etməkdən ibarət olmayıb, həm də etik normalara riayət əsasında fəaliyyət göstərən şirkətlərə investisiyalar qoymaq yolu ilə sosial məqsədlərin həyata keçirilməsindən ibarətdir. **Sosial proqramların həyata keçirilməsi alətlərinə daxildir: Xeyriyyəçilik ianələri və sponsor köməyi** – sosial proqramların həyata keçirilməsi üçün şirkət tərəfindən həm pul, həm də natural formada ayrılan ünvanlı yardım (məhsullar, inzi-

Sahibkarlığın funksiyaları

- **Novatorluq** funksiyası – yeni ideyaların məhsullara çevrilməsinə, təcrübə-konstruktor işlərinin həyata keçirilməsinə, yeni malların yaradılmasına, yeni xidmətlərin göstərilməsinə və s. yardım etmək
- **Təşkilati** funksiya – istehsalın təşkilinin yeni forma və metodlarının, yeni əmək haqqı formalarının tətbiqi və onların ənənəvi forma və metodlarla optimal inteqrasiyası
- **Təsərrüfat** funksiyası – əmək, maddi, maliyyə, intellektual və informasiya resurslarından daha səmərəli istifadə olunması
- **Sosial** funksiya – əsas iqtisadi qanunun tələblərinə müvafiq olaraq cəmiyyətə lazım olan mal və xidmətlərin istehsalı
- **Şəxsi** funksiya – öz məqsədinə çatmaqla sahibkarın bir şəxsiyyət kimi özünü realizasiyası, gördüyü işdən razı qalması

Sxem 2

bati binalar, tədbirlərin keçirilməsi üçün ayrılan binalar, nəqliyyat, avadanlıq, mükafat fondları, yardım alan təşkilatların hesablarının ödənilməsi və s.).

Şirkətin əməkdaşlarının göndərilməsi – əməkdaşların vaxtını, biliyini, vərdişlərini, informasiyanı, əlaqəsini təmənnasız verməklə şirkətin əməkdaşlarının xarici istiqamətli sosial proqramlara könüllü cəlb edilməsi.

Pul qrantları – şirkət tərəfindən təhsil sahəsində və tətbiqi tədqiqatların aparılması məqsədləri üçün sosial proqramların həyata keçirilməsinə ayrılan ünvanlı maliyyə yardımının formasıdır. Qrantlar sosial proqramların həyata keçirilməsinin daha əlyetərli və ənənəvi alətlərindəndir. Bir qayda olaraq, qrantlar bu və ya digər dərəcədə şirkətin əsas fəaliyyəti və biznesin strateji məqsədləri ilə bağlıdır.

Korporativ sponsorluq – şirkət (korporasiya) tərəfindən obyekt və ya qurğuların yaradılması, təşkilatlara və ya tədbirlərə yardım üçün bir qayda olaraq, reklam məqsədi ilə kütləvi xarakter daşıyan müxtəlif resursların verilməsi.

Korporativ fondun yaradılması – bu fond şirkət (korporasiya) tərəfindən onun sosial fəaliyyətini həyata keçirmək məqsədilə yaradılır.

Sosial investisiyalar – şirkət tərəfindən uzunmüddətli və bir qayda olaraq, şirkətin olduğu regionlarda sosial gərginliyi azaltmaq və cəmiyyətin müxtəlif təbəqələrinin həyat səviyyəsini yüksəltməyə yönəldilmiş müştərək partnyorluq sosial proqramlarının həyata keçirilməsi üçün ayrılmış maliyyə yardımının forması.

Sosial əhəmiyyətli marketinq – ünvanlı maliyyə yardımı forması olub, konkret malın satışından gələn faizləri şirkətin sosial proqramlarına yönəltməkdən ibarətdir.

Sponsorluq – hüquqi və ya fiziki şəxs (sponsor) tərəfindən əmanətin (əmlakın verilməsi, intellektual fəaliyyətin nəticələri, xidmətlərin göstərilməsi, işlərin aparılması) başqa fiziki və ya hüquqi şəxsin (sponsorluq edilən) fəaliyyətinin sponsorluq edən tərəfindən sponsor haqqında reklamın yayımı şərti ilə həyata keçirilməsidir.

Sosial proqramlar həyata keçirilərkən **sosial hesabat** da aparılır ki, bura **korporativ sosial hesabat** – iqtisadi dayanıqlıq, sosial rifah və ekoloji sabitlik baxımından səhmdarları, əməkdaşları, partnyorları, müştəriləri, cəmiyyəti şirkətin öz strateji planlarında inkişafının məqsədləri barədə necə və hansı sürətlə həyata keçirdiyi barədə məlumatlandırması daxildir. **İctimai audit** – qəbul edilmiş standart və gözləmələrlə müqayisədə şirkətin ictimai təsirinin sistemli qiymətləndirilməsidir. Geniş mənada sosial hesabat şirkətin təkcə iqtisadi fəaliyyətinin deyil, həm də sosial və ekoloji göstəricilərinin nəticələri barədə informasiya daxil olan hesabatlardır.

Sosial hesabat üzərində işin mühüm aspekti onun qiymətləndirilməsi və müstəqil auditor tərəfindən verifikasiyasıdır. Həmçinin hesabatın yaradılmasının gedişində alınan nəticələrdən şirkətin gələcək sosial məsuliyyəti təcrübəsində istifadə etməkdir. Bu prosedurun həyata keçirilməsi şirkətə üçüncü tərəfin hesabatdakı məlumatların düzgünlüyü və reklam olmadığı haqqında zəmanətini verir. Son vaxtlar hesabatların standartlaşdırılmış formaları daha çox yayılmışdır. Hesabatlarını beynəlxalq səviyyədə yayılmış standartlara uyğun hazırlayan şirkət, yaradılan sənədin müvafiq sertifikata sahib müstəqil auditor tərəfindən verifikasiya olacağına iddia edir.

Sosial audit – geniş mənada şirkətin sosial proqramların səmərəliliyinin analizi və onların seçilmiş standartlara uyğunluğunun yoxlanması, dar mənada, sosial hesabatın verifikasiyasıdır.

AA1000 standartı – sosial hesabat standartı olub, şirkətin fəaliyyətinin nəticələrini etik mövqelərdən ölçən və onlara meyarların prosedurunu və yığımını vermək üçün təyin olunmuşdur. Bu meyarların köməyilə onların fəaliyyətinin sosial və etik auditi həyata keçirilə bilər.

GRI standartı (Global Reporting Initiative) – dayanıqlı inkişaf sahəsində hesabat standartı. Xarici hesabat metodologiyası olub, sosial hesabatın dərəcəsinin artırılması üzrə hərəkətlərin təşkilini müəyyən etmir. Korporativ sosial hesabatın verilməsi üzrə standartlar – nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən işlənib hazırlanan prinsiplər, qaydalar və şirkətin tövsiyə xarakteri daşıyan sosial fəallığı haqqında informasiyanın açılması göstəriciləridir.

Maraqlı tərəflər üçün korporativ hesabatların verilməsi üzrə

Sanşayn Standartları 1996-cı ildə təbiəti mühafizə və dini təşkilatları, o cümlədən istehlakçı hüquqlarının müdafiəsi üzrə təşkilatları birləşdirən Steykholderlər Alyansı (ABŞ) tərəfindən qəbul edilmişdir. Sanşayn Standartlarında korporasiyaların hansı informasiyaları müntəzəm surətdə "Maraqlı tərəflər üçün korporativ hesabat" illiyində təqdim etmələrinin rəhbər prinsipləri göstərilir. Bu, müştərilərə təqdim edilən (məhsul və xidmətlər haqqında), əməkdaşlar üçün nəzərdə tutulmuş (məşğulluğa, təhlükəsizliyə və səhiyyəyə zəmanət, muzd götürən zaman bərabər imkanlar), yerli birliklər üçün (mülkiyyətin strukturu, maliyyə göstəriciləri, ətraf mühitə təsir, vergi ödəmələrinin həcmi, yaradılan iş yerlərinin sayı, investisiyalar və xeyriyyəçilik fəaliyyəti), geniş ictimaiyyət üçün informasiyadır (düşmən ölkələrlə ticarət, yerinə yetirilən dövlət sifarişləri, şirkətdən tutulan cərimələr).

Biznesin sosial məsul təşəbbüsləri Qərb dünyasında dərin ənənəyə malikdir.

BMT-nin Baş katibi Kofi Annanın 2002-ci ildə "Özəl sektorun rolu və sosial məsuliyyəti haqqında rəhbər prinsiplərin işlənib hazırlanması" adlı məruzəsində göstərilir ki, "iri şirkətlərdə korporativ məsuliyyət haqqında müəyyən manifestin olması istənilən uğurlu korporativ kommunikasiyanın və ictimaiyyətlə əlaqələr strategiyasının vacib şərtinə çevrilir". Dünyada yaranmış bir neçə KSM modelini nəzərdən keçirmək olar. KSM-in Amerika modelinin tarixi XIX əsrdən başlayır. Subyektlərin maksimum azadlığına əsaslanan Amerika sahibkarlığının təbiətinə görə, ictimai münasibətlərin bir çox sahələri bu vaxta qədər özünü tənzimləməkdə davam edir. O cümlədən bu, işçi – işəgötürən (ikitərəfli müqavilə) əmək münasibətlərinin, tibbi sığortanın könüllü olmasıdır. Eyni zamanda, Amerika biznesin cəmiyyətə korporativ fondlar vasitəsilə sosial yardımda çoxsaylı iştirak mexanizmlərini işləyib hazırlamışdır ki, bunlar da biznesin hesabına (peşə təhsilinə, iş heyəti üçün pensiya və sığorta sahələrinə sponsorluq) müxtəlif sosial problemlərin həllinə yönəldilmişdir. Korporasiyaların sosial davranışı və xeyriyyəçiliyi qanunvericiliklə möhkəmlənmiş vergi güzəştləri ilə mükafatlandırılır.

Kontinental Avropada korporativ fəaliyyət, bir qayda olaraq, müvafiq dövlətlərin normaları, standartları və qanunları ilə tənzimlənir. Avropa biznesi dövləti qəbul edilmiş davranış qaydalarını yerinə yetirən institut kimi nəzərdən keçirir, ABŞ-da isə dövlətin bu cür müdaxiləsi biznesin azadlığını pozmaq kimi qiymətləndirilir.

Avropanın bir çox ölkələrində icbari tibbi sığorta, pensiya tənzimlənməsi, müəssisələrin təbiəti qoruyan fəaliyyəti qanunvericiliklə möhkəmləndirilmişdir.

Əgər Amerika modeli KSM-in məqsədi kimi səhmdarlar qarşısında mənfəətliliyi və məsuliyyəti nəzərdə tutursa, Avropa modelində KSM-ə əlavə olaraq işçilər və yerli birliklər qarşısında məsuliyyət məsələləri də aid edilir.

Avropada xeyriyyəçilik ABŞ-da olduğu kimi populyar deyil, bu da xeyli dərəcədə vergi yükü ilə izah edilir.

Rusiyada 2004-cü ildə Rusiya Sənayeçilər və Sahibkarlar (işə götürənlər) İttifaqı (RSSİ) tərəfindən Rusiya biznesinin Sosial xartiyası bəyənilmişdir. Sosial xartiya – işgüzar birliyin sosial-



humanitar sahədə hərəkətlərinin mahiyyəti, Rusiya biznesinin sosial missiyasının ifadəsidir. RSSİ-nin fikrinə görə, bu, biznesin uzunmüddətli iqtisadi maraqlarına cavab verən, sosial sülhə nail olmağa, vətəndaşların təhlükəsizliyinə və rifahına kömək edən, ətraf mühitin mühafizəsinə, insan hüquqlarına riayət etməyə cavab verən müstəqil və məsul şirkətlərin dayanıqlı inkişafından ibarətdir. KSM özünün ilkin inkişaf mərhələsini yaşadığından, burada konsepsiyanın bütövlüyü, aprobasiya edilmiş təcrübələr və faydalılıq tam başa düşülmür. KSM əvvəlki kimi steykholderlərin yaxın dairəsinə – dövlətə, mülkiyyətçilərə və personala yönümlüyünü saxlamaqda davam edir. Maraqlı tərəflərin daha geniş dairəsi (yerli birliklər, tədarükçülər və s.) hələ sistem əlaməti deyil. Məsələn, bu daha çox o səbəbdən baş verir ki, Rusiyada KSM-in tətbiqi proseslərinin hərəkətverici qüvvələri hələ ki, "irəliləyən" şirkətlərin və ya özəlləşdirmə prosesi nəticəsində yaradılmış iri şirkətlərin az sayı və ya dövlətdir. İstehlakçılar və vətəndaşlar müasir mülki təşkilatların və kütləvi hərəkatların ənənələrinin inkişaf etməməsi səbəbindən biznesə hissediləcək təsir göstərmirlər. Lakin bazarın inkişafı və cəmiyyətin yetkinləşməsi ilə, görünür, tədricən yerli birliklərin, istehlakçıların və başqa steykholderlərin cəlb edilməsi baş verəcək.

Rusiya biznesinin cəmiyyətin həyatında iştirakı meyillərinin təhlili "xaotik" xeyriyyəçilikdən sosial investisiya yatırmağa keçidi nümayiş etdirir.



Yeni müstəqil ölkələrdə sosial investisiyalar sahəsində institusional qeyri-mükəmməlliklə bağlı problemlər müşahidə olunur: dövlət kifayət qədər effektiv olmayan hüquqi və sosial institutlar yaradır, biznes strukturlar isə dövlətin "səhvlərini" neytrallaşdırmağa məcbur olaraq böyük sosial investisiyalar həyata keçirir, bununla dövləti sosial sahədə "əvəz edirlər". Xarici bazarlarda öz yerini tutmağa macal tapmayan və hələ möhkəmlənməyən bizneslə isə, bu inkişaf xətti xarici bazarlarda ölkənin rəqabətqabiliyyətliliyini pisləşdirir. Şirkətlərin sosial proqramlarının informasiya şəffaflığı nöqteyi-nəzərindən, bu ölkələr hazırda keçid dövrü vəziyyətindədir.

MDB ölkələrində aparılan tədqiqatların nəticələri təsdiqləməyə imkan verir ki, özəl sektoru sosial investisiyalar haqqında informasiyanın açılmasından destimullaşdıran bir sıra ciddi amillərə baxmayaraq, birinci növbədə, iri və transmilli korporasiyalar eşelonunda şəffaflığa tərəf faktiki irəliləyiş baş vermişdir. Çoxlu sayda şirkətlər bir faktın zəruriliyini anlayırlar ki, sosial fəaliyyətlərinin və ya şirkətlərin kapitallaşmasının informasiya şəffaflığının yüksəlməsinə yönəldilmiş strateji özünü doğrultmuş addımdır. Bütövlükdə, əksər keçid dövrü yaşayan ölkələrdə sosial investisiyalar "daxili" proqramlara – şirkətlərin insan kapitalının inkişafına yönəldilmişdir.

Respublikamızda korporativ sosial məsuliyyət sektoru hələ kifayət qədər inkişaf etməmişdir. Bu, hər şeydən əvvəl, onunla əlaqədardır ki, Azərbaycan biznesi təşəkkül dövrünü keçir və eləcə də MDB ölkələrinin əksəriyyətində olduğu kimi, KSM tətbiqi proseslərinin hərəkətverici qüvvələri hələ ki, az sayda iri şirkətlərdir və ya xarici iştiraklı şirkətlərdir. Lakin tədricən işgüzar mühitdə KSM-in imicə, nüfuza dəstək olması başa düşülür. Artıq uzun müddət KSM-in uzunmüddətli proq-

ramları ilə məşğul olan şirkətlər daha loyal və səlahiyyətli əməkdaşlara malikdir ki, bu da xroniki olaraq ixtisaslı kadrların çatışmadığı şəraitdə az əhəmiyyət daşımır. Xarici bazarlara çıxış axtaran iri yerli şirkətlər şirkətdə KSM departamentinin və ya hər hansı uzunmüddətli layihələrin olması investorlar üçün çox cəlbedici olur. Avrasiya Əməkdaşlıq Fondu artıq neçə illərdir ki, ölkədə "Korporativ sosial investisiyalar" proqramını reallaşdırır. Onun məqsədi – KSM sahəsində mütəxəssislər şəbəkəsi yaratmaqdır. Bu şəbəkədə iştirak edən mütəxəssislər yerli və beynəlxalq şirkətlərdə işləyir, məsləhət xidmətləri həyata keçirir və KSM proqramlarını həyata keçirmək istəyən şirkətlər üçün tədris seminarları aparırlar. Azərbaycanda KSM sahəsində fəaliyyət işıqlandırılan aylıq elektron bülleten nəşr olunur.

Qeyd edək ki, uzunmüddətli sosial proqramların həyata keçirilməsi təcrübəsi, həmçinin, təhsil və səhiyyə sistemlərinə yardım Azərbaycan üçün yeni deyil və ölkəmizdə qədim tarixi ənənələrə malikdir. Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov, Musa Nağıyev, Ağa Şəmsi Əsədullayev – bu, xeyriyyəçilik və mesenatlıqla məşğul olan Azərbaycan neft sənayeçilərinin tam siyahısı deyil. Hacı Zeynalabdin Tağıyev pullarını böyük səxavətlə sosial ehtiyaclara fəda edirdi: məktəblər tikdirir, qəzet və jurnallar təsis edirdi. Bakıda onun bilavasitə iştirakı ilə Şollar su kəməri çəkilmişdi. O, təqaüdlər təsis edir və istedadlı gənclərin xarici ölkələrdə təhsilini maliyyələşdirirdi.

Murtuza Muxtarov real məktəbin, qadın gimnaziyasının himayəçisi olmuş, ali və orta tədris müəssisələri üçün 40 təqaüd təsis etmiş, məktəblər və məscidlər tikdirmişdi. Ağa Şəmsi Əsədullayev Bakı real məktəbinin tikintisinə böyük məbləğdə vəsait ayırmış, onlarla azərbaycanlının xarici ölkələrdə təhsilini maliyyələşdirmiş, özünün Zamoskvareçyedəki evini Moskvadakı müsəlman icmasına hədiyyə etmişdi.

Bakıda bir çox nəsillərin nümayəndələri arasında indi də yaxşı tanınan məşhur Aşurbəyovlar ailəsi həm sahibkarlıq, həm də xeyriyyəçilik sahəsində hələ 1747-ci ildən geniş fəaliyyət göstərmişdir. Aşurbəyovlar zadəgan ailələri arasında ən varlı və kübar ailə sayılırdı.

Hazırda Bakıda mövcud olan dörd böyük məsciddən ikisini Aşurbəyovlar tikdirmişlər. Onlardan biri – Təzəpir məscidi şəhərin ən böyük dini mərkəzidir. Məscid neft sahibkarının dul qadını Nabat xanım Aşurbəyovanın puluna ucaldılmışdır. O, ən yaxşı memarları bu işə cəlb etmişdi. Dəvət olunanlar arasında Bakı şəhərində doğulub, Sankt-Peterburqda təhsil almış Zivər bəy Əhmədbəyov da vardı.

Məscidin tikintisi 1905-ci ildən 1914-cü ilədək, təqribən on il davam etdi. Təəssüf ki, Nabat xanım məscidin açılışını görmədi. Bu xeyriyyəçi qadın 117 yaşında vəfat etdi. Məscidin tikintisini onun oğlu, varlı sahibkar və xeyriyyəçi Hacı Abbasqulu Rzayev başa çatdırdı.

Qədim zamanlardan başlayaraq, Bakının həyatında su məsələsi ən böyük problemlərdən biri olmuşdur. Şəhər böyüyür, hündür binalar, yaraşıqlı imarətlər ucaldılır, təzə küçələr salınırdı. Təbii ki, əhalinin artması suya olan tələbatı da artırmışdı. Suyun azlığından bağlar və küçələr sulanmırdı. Şəhərə kənardan su gətirmək və yeni mənbələr axtarmaq barədə tərtib olunan layihələr şəhər dumasında aylarla gecikdirilir və axırda da baha başa gələcəyi bəhanə gətirilərək, geri qaytarılırdı. Mədənlərə su neft sahibkarlarının Qurultaylar Şurası tərəfindən dəmir yolu vasitəsilə gətirilirdi. Sutkada gətirilən cəmi 2500 vedrə su 40 min əhalisi olan Sabunçunu qətiyyən təmin etmirdi. Daşınan su da antisanitar şəraitdə saxlanılırdı. Ramana və Sabunçu kəndləri ancaq quyu suyundan istifadə edirdilər. Bütün bunları nəzərə alan Bakı varlılarından Ağabəy Məlikov maneə və çətinliklərə baxmayaraq, öz hesabına Zuğulbadan Sabunçu və Ramanıya su çəkdirdi. Yalnız bundan sonra Duma işə girişərək, Məlikovun çəkdirdiyi kəməri davam etdirdi. 1903-cü ildə Zuğulba suyu şəhərin Balaxanı küçəsinədək gətirildi.

Samurdan Bakıya su çəkilməsi layihəsi üçün də əvvəlcə komissiya yaradılmış və müsabiqə elan edilmişdi. Müsabiqədə ingilis mühəndisi Lindleyin layihəsi bəyənildiyi üçün müəllif Londondan Bakıya dəvət edilmişdi. Mühəndis hesablamalardan sonra Bakıya Samurdan su gətirilməsinin Kürdən su gətirilməsinə nisbətən baha başa gələcəyini söylədikdə, komis-

siya, onun ardınca isə Duma layihəni rədd etdi. Komissiya üzvlərindən yalnız H.Z.Tağıyev təkid edirdi ki, Samurun suyu təmiz bulaq suyu olduğu üçün kəmər çəkilməlidir. Bu dəfə Duma başqa bəhanə tapır: deyirlər ki, Şahdağın ətəyindəki bulaqların suyu kifayət qədər deyildir. Şəhər əhalisinin sudan son dərəcə korluq çəkdiyi bir şəraitdə şəhər Dumasının məsələyə laqeyd yanaşdığını görən Tağıyev şəhər idarəsinə məktub yazaraq bildirir ki, o, Lindleyin fikrinə inandığına görə kəmərin çəkilişinə təcili başlamaq üçün öz cibindən 25 min manat pul ayırır. Bu şərtlə ki, Duma üzvləri göstərilən mənbədə kifayət qədər su olmasına inanandan sonra şəhər idarəsi onun pulunu geri qaytarsın. Məktubunda daha sonra yazırdı ki, əgər onun təklifi sentyabr ayınadək Dumaya təqdim edilməzsə, şəhər idarəsi su təchizatı komissiyası ilə birlikdə təcili surətdə onun hesabına quyu qazmağa başlamalıdır. Əgər sentyabrda Duma şəhər idarəsi və komissiyanın bu qərarını da bəyənməzsə, o verdiyi 25 min manatdan imtina edəcəkdir. Məktubun axırında yenə təkidlə bildirirdi ki, Samurdakı yeraltı sular Şahdağın daimi buzlaqları kimi tükənməz və əbədidir.

1904-cü ildə kəmərin çəkilişi Amerika firmasına tapşırıldı və işə başlandı. Lakin 1905-1907-ci illərdə ölkədə baş vermiş ictimai-siyasi hadisələr işə mane olaraq, çəkilişi xeyli ləngitdi. Vətəninə qayıdan Lindley bir də 1909-cu ildə geri dönərək təzədən işə başladı. Həmin ilin axırında hökumət Bakı üçün 27 milyonluq istiqraz buraxılmasına icazə verdi. Bu pulun 23,5 milyonu su kəmərinin çəkilişinə sərf ediləcəkdi. Sonralar daha 15 milyonluq istiqraz buraxıldı. Şəhər varlılarından Murtuza Muxtarov, Aşurbəyovlar və başqaları da bu işdə öz köməklərini əsirgəməmişdilər.


1916-cı ildə Bakı-Şollar su kəməri başa çatdı və 1917-ci ilin yanvar ayından tam istifadəyə verildi. Şollar suyu Bakıya təxminən 180 km uzaqdan gəlirdi. Xudat dəmir yolu stansiyasının yaxınlığında təxminən 1 metr diametri olan sement borularla "Nasosnu"yadək öz axarı ilə gəlirdi. "Nasosnu"dan başlayaraq su hərəsi 600 at gücü qüvvəsində olan güclü dizel nasosları vasitəsilə Bakıya vurulurdu. Kəmərin işə düşməsi ilə şəhərdə su fontanlarının sayı çoxaldı. Ayrı-ayrı məhəllələrdə tikilmiş belə daş fontanlardan bəziləri indiyədək qalmışdı. Fontanlara gündə üç dəfə su buraxılırdı: səhər, günorta və axşam. Fontanlardan uzaq olan evlərə isə xüsusi adamlar çəlləklə arabalarda və ya da ulaq belində su daşıyıb satırdılar. Evlərin çoxunda suyu saxlamaq üçün iri küplər vardı. Yalnız 1920-ci ildən sonra evlərə də su kranları çəkildi.

SAHİBKARLIĞA KÖMƏK MİLLİ FONDU – respublikada özəl strukturların yaradılması və inkişaf etdirilməsi istiqamətində kiçik və orta sahibkarlığın dövlət büdcəsinin vəsaiti hesabına güzəştli kreditləşməsini həyata keçirən ilk milli maliyyə qurumu. İqtisadi İnkişaf Nazirliyinin nəzdində fəaliyyət göstərir.

SKMF-nin vəsaitlərinin istifadəsi mexanizmi və şərtləri 2002-ci il avqustun 27-də "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun Vəsaitinin İstifadəsi Qaydaları"na və "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamə"yə uyğun olaraq müəyyən edilir. Həmin sənədlərə əsasən, Fondun vəsaitləri İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi və Mərkəzi Bankın nümayəndələrindən ibarət yaradılmış Müsabiqə Komissiyası tərəfindən seçilmiş müvəkkil banklar vasitəsilə yerləşdirilir. Fond tərəfindən sahibkarlıq subyektlərinə ən aşağı faizlə (illik 7%-lə; kütləvi informasiya vasitələrinin inkişafı yönümlü layihələr üzrə isə illik 5%-lə) milli valyutada kreditlərin verilməsi, həmçinin, kreditlərin müddətinin ilk üçdə iki hissəsinədək güzəşt dövrünün müəyyən edilməsi və kredit faizinin aşağı olması, sahibkarlıq subyektlərində bu kreditlərdən istifadəyə hədsiz marağın yaranmasına səbəb olmuşdur.

Azərbaycan Respublikasının Prezidentinin 2006-cı il 504 nömrəli Fərmanı ilə SKMF-nin fəaliyyət mexanizmi dəyişdirilərək regionlarda Fondun nümayəndəliklərinin və Fondun idarəetmə orqanı olan Müşahidə Şurası yaranmışdır. 2009-cu il 7 oktyabr tarixli Fərmanda (bu Fərman 2009-cu il 9 oktyabr tarixdə qüvvəyə minmişdir) isə Fondun fəaliyyət mexanizminin, hüquq və vəzifələrinin, fəaliyyətinə dair qanunvericilik bazasının və idarəetmə strukturunun daha da təkmilləşdirilməsi, o cümlədən fəaliyyəti üzrə nəza-

Sahibkarlığa Kömək Milli Fondunun Strukturu



Sxem 1

Sahibkarlığa Kömək Milli Fondu tərəfindən istifadəyə verilmiş bəzi investisiya layihələri





Tutumu 18 min ton olan 2 taxıl anbarı (2,5 mln. manat)





İllik istehsal gücü 41,6 mln. ədəd damazlıq yumurta, 17,7 min ton quş əti, 147 mln. ədəd əmtəəlik yumurta olan 18 quşçuluq təsərrüfatı (21,8 mln. manat)




İllik istehsal gücü 22,1 min ton süd və 115 ton ət istehsal edən 3 heyvandarlıq (2900 başlıq) kompleksi (3,8 mln. manat)




İllik istehsal gücü 18,4 min ton meyvə olan 7 təsərrüfat (6,2 mln. manat)




İllik istehsal gücü 7 min ton olan 3 meyvə-tərəvəz emalı zavodu (6,6 mln. manat)





İllik istehsal gücü 12 min ton olan 2 süd emalı zavodu (1,4 mln. manat)




İllik istehsal gücü 14.9 min ton tərəvəz, 9,8 mln. ədəd dekorativ bitkilər olan 12 istixana (34,9 ha) (18 mln. manat)




İllik istehsal gücü 95,7 min ton olan 10 çörək istehsalı zavodu (8 mln. manat)

İllik istehsal gücü 50 min ton olan 1 kağız və karton istehsalı fabriki (5 mln. manat)




İllik istehsal gücü 24 min ton olan 1 metal-konstruksiya istehsalı müəssisəsi (2 mln. manat)




İllik istehsal gücü 25,2 min ton ət kəsimi, 10 min ton ət emalı olan 3 müəssisə (3,7 mln. manat)




İllik istehsal gücü 6,5 mln. metr parça, 12 min ton boya olan 2 müəssisə (10 mln. manat)




İldə 2,6 min dəst mebel istehsal edən 1 fabrik (1,3 mln. manat)




3 turizm kompleksi (0,7 mln. manat)

rətin daha dəqiq və effektiv həyata keçirilməsi kimi mühüm əhəmiyyət kəsb edən tədbirlər nəzərdə tutulmuşdur.

Fondun işini tənzimləyən normativ-hüquqi aktlara edilən dəyişikliklər nəticəsində onun təkmil fəaliyyət mexanizmi formalaşdırılmış və dövlət büdcəsindən güzəştli kreditlərin verilməsinə ayrılan vəsaitlərin həcmi artırılmışdır.

Sahibkarlığa Kömək Milli Fondunun məqsəd və vəzifələri aşağıdakılardır:

– Azərbaycan Respublikasında sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına və əhalinin işgüzarlıq fəaliyyətinin artırılmasına kömək göstərmək, onlara maliyyə dəstəyi vermək;

– Fondun vəsaitləri hesabına Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının prioritet istiqamətləri üzrə sahibkarlıq subyektlərinin investisiya layihələrini qanunvericiliyə uyğun maliyyələşdirmək;

– Fonda maliyyə ehtiyatlarının cəlb olunması üçün tədbirlər görmək, o cümlədən maliyyə bazarlarından kreditlərin cəlb olunması barədə danışıqlar aparmaq və təkliflər vermək;

– Fonda sahibkarlıq subyektlərinin maliyyələşdirilməsi üçün verilmiş vəsaitlərin səmərəli və təyinatı üzrə istifadə olunmasını təmin etmək;

Cədvəl 1

Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilmiş kredit vəsaitlərinin, iqtisadiyyatın sahələri və kreditin növləri üzrə bölgüsünə dair statistik məlumat (2011-ci il)

s/s	İqtisadiyyatın sahələri	Layihələrin sayı	Xüsusi çəkisi (%)	Kreditin məbləği	Xüsusi çəkisi (%)	Yaradılacaq yeni iş yerlərinin sayı (nəfər)
1	Müxtəlif sənaye məhsullarının istehsalı və emalı	104	6,3	27648,0	20,0	964
2	Kənd təsərrüfatı məhsullarının emalı	13	0,8	16853,0	12,2	435
3	Kənd təsərrüfatı məhsullarının istehsalı	1503	91,5	70358,5	51,0	4505
4	Xidmət (infrastruktur) sahələrinin inkişafı	23	1,4	23140,5	16,8	574
	Yekun	**1643**	**100,0**	**138000,0**	**100,0**	**6478**
	Kreditin növləri üzrə					
s/s	Kreditin növləri	Layihələrin sayı	Xüsusi çəkisi (%)	Kreditin məbləği	Xüsusi çəkisi (%)	Yaradılacaq yeni iş yerlərinin sayı (nəfər)
1	Kiçik həcmli kreditlər	1550	94,3	19332,2	14,0	3320
3	Orta həcmli kreditlər	18	1,1	4059,5	2,9	262
4	Böyük həcmli kreditlər	75	4,6	114608,3	83,0	2896
	Cəmi	**1643**	**100,0**	**138000,0**	**100,0**	**6478**

– Fondun vəsaitləri hesabına maliyyələşdiriləcək investisiya layihələrinin ekspertizasını həyata keçirmək;
– sahibkarlığın inkişafına yönəldilmiş dövlət proqramlarından irəli gələn investisiya layihələrinin maliyyələşdirilməsinə üstünlük vermək;
– regional proqramların işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək, zəruri elmi-texniki biliklərin və yeniliklərin təbliğinə kömək etmək;
– sahibkarlıq subyektlərinin xarici iqtisadi fəaliyyətinin genişləndirilməsinə, sahibkarlığın bazar infrastrukturlarının formalaşmasına və inkişafına kömək göstərmək;
– sahibkarlıq subyektləri üçün qanunvericiliyə uyğun olaraq digər vəzifələri həyata keçirmək.
Hazırda, Sahibkarlığa Kömək Milli Fondu güzəştli kreditlərin sahibkarlıq subyektlərinə çatdırılmasında 38 müvəkkil kredit təşkilatı, o cümlədən 30 bank, 1 bank olmayan kredit təşkilatı və 7 kredit ittifaqının xidmətlərindən istifadə edir.
Fondun iş mexanizminə uyğun olaraq Fondun vəsaiti hesabına güzəştli kredit almaq üçün sahibkarlıq subyektləri ilkin olaraq müvəkkil kredit təşkilatlarına müraciət edirlər. Müvəkkil kredit təşkilatları 10 (on) bank günündən gec olmayaraq öz biznes maraqları və Fondun müəyyən etdiyi investisiya layihələrinin tərtib olunmasına dair minimal tələblər və qiymətləndirmə meyarlarına əsaslanaraq investisiya layihələrini təhlil edir və müsbət qiymətləndirdiyi layihələri Fonda təqdim edir. İnvestisiya layihəsi mənfi qiymətləndirilən sahibkarlıq subyektlərinə isə müvəkkil kredit təşkilatları tərəfindən 3 (üç) bank günü müddətində əsaslandırılmış imtina məktubu verilir.
Müsbət qiymətləndirilən layihələr üzrə sahibkarlıq subyektləri ilə kredit müqaviləsi bağlandıqdan sonra müvəkkil kredit təşkilatları tərəfindən kredit vəsaitinin ayrılması barədə Fonda sifariş göndərilir. Fond 3 (üç) bank günü ərzində vəsaitlərin müvəkkil kredit təşkilatlarına ayrılmasını təmin edir. Kredit təşkilatı tərəfindən 2 (iki) bank günü ərzində vəsait sahibkarlıq subyektinin hesabına köçürülür. İnvestisiya layihəsi təqdim etmiş bütün sahibkarlıq subyektləri haqqında müvəkkil kredit təşkilatları tərəfindən hər rüb bitdikdən sonra növbəti ayın ilk 5 (beş) bank günündən gec olmayaraq Fonda məlumat verilir. Eyni zamanda, müvəkkil kredit təşkilatları tərəfindən investisiya layihəsi üzrə istifadənin monitorinqi aparılır.
Fond tərəfindən aparılan monitorinq zamanı güzəştli kredit vəsaitinin təyinatı üzrə istifadə edilməməsi halları aşkar edildikdə Fondun yazılı tələbinə əsasən həmin sahibkarlıq subyektinə verilmiş güzəştli kredit və faiz borcu müvəkkil kredit təşkilatı tərəfindən sahibkarlıq subyektinin onun qarşısında öhdəliklərini icra edib-etməməsindən asılı olmayaraq 10 (on) bank günü ərzində bütövlükdə Fondun hesabına köçürülür.
Azərbaycanda özəl bölmənin inkişafında, sahibkarlığa dövlət maliyyə dəstəyinin gücləndirilməsində SKMF-nin işinin səmərəli təşkili xüsusilə əhəmiyyətlidir.
Fondun fəaliyyəti dövründə 12000-dən çox sahibkarlıq subyektinə 700 milyon manata qədər güzəştli kredit verilmişdir. Güzəştli kredit vəsaitlərinin 60%-i aqrar sahənin inkişafına (80%-i kənd təsərrüfatı məhsullarının istehsalı və emalına, 20%-i aqrar sahənin inkişafını stimullaşdıran infrastruktur sahələrinin – taxıl anbarları və soyuducu anbar komplekslərinin yaradılmasına) verilmişdir. Bu kreditlər hesabına 94000-ə yaxın yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur. Güzəştli kredit vəsaitinin 80%-i respublikanın regionlarının, 20%-i Bakı qəsəbələrinin payına düşmüşdür.
Fond tərəfindən 2009-2011-ci illər ərzində respublika iqtisadiyyatının qeyri-neft sektoru üçün xüsusilə önəmli olan, ümumi dəyəri 619,9 milyon manat, ümumi kredit tələbatı 290,5 milyon manat olan 160 investisiya layihəsinə 273,7 milyon manat güzəştli kredit verilmişdir. Bu layihələrdən 79-u istifadəyə verilmiş, digər 81 investisiya layihəsi üzrə isə tikinti-quraşdırma işləri aparılır.
"2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq, Bakı qəsəbələrinin ənənələri, təbii iqlim şəraiti nəzərə alınmaqla, Fond burada sahibkarlığın inkişafının sürətləndirilməsi, qəsəbələrdə yaşayan əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi istiqamətində investisiya layihələrini həyata keçirir.

Şəffaflığın təmin edilməsi, sahibkarlığın inkişafına verilən güzəştli kreditlər haqqında daha geniş məlumat əldə edilməsi məqsədi ilə hər il Sahibkarlığa Kömək Milli Fondunun Azərbaycan və ingilis dillərində illik hesabatları dərc olunur, beynəlxalq audit şirkəti tərəfindən maliyyə hesabatlarının auditi keçirilir, daim yeniləşdirilən veb-saytı (www.anfes.gov.az) fəaliyyət göstərir.

SAHİBKARLIQ – fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə etməsi məqsədilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti, yaxud digər hüquqi və ya fiziki şəxslərin adından qanunvericilikdə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyəti.

Qanunsuz sahibkarlıq – iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin bir növü. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan və ya xüsusi razılıq (lisenziya) olmadan, həmçinin, lisenziyalaşdırma şərtlərini pozaraq mülki dövriyyə ilə məşğul olma, vətəndaşlara, təşkilatlara və ya dövlətə gizlədilmiş gəlir əldə edilməsi kimi əlamətlərlə səciyyələndirilir (bax: cədvəl 1, sxem 1).

SAHİBKARLIQ AZADLIĞI (SƏRBƏSTLİYİ) – firma və şirkətlərin öz seçiminə görə əmtəələrin (malların) istehsalı üçün iqtisadi resurslardan istifadə etmək və bazarlarda istehsal olunmuş əmtəələri (malları) satmaq hüququ.

SAHİBKARLIQ ETİKASI – bazar iqtisadiyyatı subyektlərinin davranışının əxlaqi normalarının məcmusu. Bu normalar təsərrüfat subyektlərinin fərdiyyətçi məqsəd funksiyalarının ictimai mənafelərə maksimum uyğun olmasına və əsas bazar institutlarının fəaliyyəti üçün adekvat (proqnozlaşdırıla bilən) mühit yaradılmasına imkan verir. Sahibkarlıq etikası, ilk növbədə, kontragentlərin mülkiyyət hüquqlarına zəmanət verilməsini, bağlanan müqavilə və kontraktların etibarlılığını, rəqabət azadlığını təmin edən formal qaydalara riayət olunmasını nəzərdə tutur. Firmanın iqtisadi uğurları ilə onun etik kodeksi arasında aşkar korrelyasiya mövcud olması müşahidə olunur.

Etik normalar məcmusunun etibarlı təməli iqtisadi subyektlər arasında qarşılıqlı münasibətlərin bütün nüanslarını nəzərdə tutan və qaydaların pozulmasına görə sanksiyaların labüdlüyünə təminat verən hüquq sistemidir. Hər bir sosiumda formal etik qaydalarla yanaşı, tarixən yaranmış adətlərin, mədəniyyətin, hakim ideologiya və dinin təsiri altında formalaşmış qeyri-formal mənəvi məqsədlər də mövcuddur.

Cədvəl 1

Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti göstərən kiçik müəssisələrin işi


Sahələr	Fəaliyyət göstərən müəssisələrin sayı		Onlarda işləyənlərin sayı, nəfər		Orta aylıq əmək haqqı, manat		Məhsulun (işlərin, xidmətlərin) həcmi, min manat	
	2000	2011	2000	2011	2000	2011	2000	2011
Cəmi	**24254**	**14187**	**99778**	**90182**	**33,5**	**222,2**	**434399**	**1966255,2**
Sənaye	1414	1829	15184	16516	32,4	216,2	136372,2	252300,7
Tikinti	724	921	11083	9348	67,8	319,0	99213,1	543836,5
Səhiyyə və sosial xidmətlər	168	155	787	1221	43,2	190,0	1062,0	3541,5
Təhsil	65	84	368	700	30,7	195,9	1636,2	3549,7



Sxem 1

Sahibkarlığın başlıca etik prinsipi olan qarşılıqlı etimad prinsipi tərəfdaşlığın üç formasının, transaksiya fəaliyyətinin hər hansı növlərinin əsasını təşkil edir. Bazarın ən mühüm vasitəsi olan kredit, ilk növbədə, etimada əsaslanır. Borc intizamı, əmtəənin vəd edilmiş keyfiyyətinə görə istehlakçı qarşısında məsuliyyət, sahibkarın öz işçiləri qarşısında məsuliyyəti və başqa amillər etimadla məntiqi əlaqəli şəkildə təzahür edir. Sahibkarın öz mənafelərini əqd üzrə tərəfdaşlarının mənafeləri ilə əlaqələndirmək, öz hərəkətlərinə kənardan qiymət vermək, eləcə də özünü tərəfdaşının yerində hiss edərək əqdə onun nəzəri ilə baxmağı bacarmaq qabiliyyəti bazar subyektlərinə yüksək tələblər təqdim edən etik normadır. Etika sahibkardan tələb edir ki, o öz fəaliyyəti barədə zəruri və düzgün informasiyanı versin və kontragentdən də bu cür informasiya almağa ümid edə bilsin. Kifayət qədər informasiya olmadıqda, yaxud mövcud informasiya qeyri-bərabər paylandıqda transaksiya xərcləri (yəni sistemin fəaliyyəti ilə bağlı xərclər) qadağan edilməli dərəcədə yüksək ola bilər və bu halda ictimai faydalı əqd baş tutmaz.

Sahibkarlıq fəaliyyətinin növlərinin tərkibi




Sxem 1

Etik yanaşma eksternaliyalar, yəni təsərrüfat fəaliyyətinin zahiri əlavə effektləri problemini aradan qaldırmağa kömək edir (məsələn, ətraf mühitin çirklən-dirilməsi halında).

Sahibkarın davranışının etikaya uyğun olmasının meyarı onun sosial əhəmiyyətini dərk etməsi, fəaliyyətinin uzaq nəticələrini qabaqcadan görmək və düzgün qiymətləndirmək bacarığı, qarşıya qoyulmuş məqsədlərə çatmaq naminə qeyri-məhsuldar məsrəfləri azaltmaq, onlara nə-

zarət etmək qabiliyyətidir.
Sabit fəaliyyət göstərən sistem şəraitində ideal etik kodeksə yaxınlaşmaq dərəcəsi müxtəlifdir. Bu sistemdə kütləvi hüquqi şüurun yüksək səviyyədə olması əsrlər boyu formalaşmış hüquq və əxlaq normalarının yerinə yetirilməsinə zəmanət verir və keçid dövründə təşkilati-hüquqi formalar kökündən dəyişdikdə qeyri-formal şəxsi əlaqələr formal-hüquqi münasibətlərdən daha əhəmiyyətli olur. Formal-hüquqi etika normaları "xeyirxahlar etikası"na istiqamətlənmiş qeyri-formal fərdiləşdirilmiş münasibətlərlə əvəz edilir. Postsovet respublikalarının əksəriyyətində sahibkarlıq etikasının qeyri-formal xarakteri müəyyən dərəcədə bazar islahatları prosesinin amortizatoruna çevrilmiş və sosial müdafiənin inkişaf etmədiyi şəraitdə ölkəni çoxsaylı sosial sarsıntılardan xilas etmişdir. Buna baxmayaraq,

Sahibkarlıq prosesinin sxemi



Sxem 1

bu ölkələr də ictimai prioritetlərin demokratik qaydada müəyyən edilməsi, iqtisadi etika və hüquqi qaydanın formal normalarına hörmət bəslənilməsi məktəbini keçməlidir.

SAHİBKARLIQ FƏALİYYƏTİ – şəxsin müstəqil surətdə, öz riski ilə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların təqdim edilməsindən, işlərin görülməsindən və ya xidmətlərin göstərilməsindən mənfəət götürülməsi ilə bağlı olan fəaliyyəti (bax: sxem 1).

SAHİBKARLIQ FƏALİYYƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ – dövlətin sahibkarlıq fəaliyyətinə qanunverici qadağalar, vergi sistemi, mütləq ödəniş və ayırmalar, dövlət investisiyaları, subsidiya və güzəştlər vasitəsilə təsir göstərməsi. Dövlət tənzimlənməsi, əsasən, istehsal vasitələrinə şəxsi, səhmdar mülkiyyəti ilə məhdudlaşır.

Bura daxildir:

1) vergi sahəsində – vergilərin tutulması üzrə müxtəlif obyektlərin müəyyən edilməsi, vergi dərəcələrinin miqdarının nizama salınması və bölünməsi, vergi güzəştlərinin tətbiqi, vergi ödənişindən tam azad etmə;

2) pul-kredit sahəsində – pul tədavülünə təsir. AR Mərkəzi Bankı dövlət pul emissiyasını və ümumi pul kütləsini tənzimləməsi, kommersiya banklarının ssuda faizinin dərəcəsinə təsir etməsi, istiqrazlar və digər qiymətli kağızlar buraxması;

3) əmək münasibətləri sahəsində – əmək və məşğulluq sahəsində dövlətin qanunverici fəaliyyəti. Belə fəaliyyət əməyin mühafizəsini, əmək kontraktları şərtlərini, habelə minimal əmək haqqını təmin etməyə istiqamətlənir;

4) sosial tənzimləmə sahəsində – dövlət sosial tənzimlənməsi də daxil olmaqla, pensiya təminatının mümkünlüyünü, insanların həyat və sağlamlığını, əlillərə, uşaqlara yardım göstərilməsinə imkan verən tədbirlərin nəzərdə tutulması;

5) ətraf mühitin mühafizəsi və bərpasının dövlət tənzimlənməsi sahəsində – ətraf mühitin mühafiəsi üzrə tədbirlərin görülməsi, çirklənməyə görə cərimə və sanksiyaların tətbiqi, mütləq təbiəti müdafiə və təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsinin təyini.

SAHİBKARLIQ FƏALİYYƏTİNİN SIĞORTALANMASI – sığortalının kommersiya fəaliyyəti prosesində itkilərə görə sığortaçının məsuliyyətini nəzərdə tutan sığorta növü. Bunlara aiddir: məhsulun göndərilməsi müqavilələrinin yerinə yetirilməməsi hallarında sığortalanma, satılmış məhsulun haqqının ödənilməməsi zamanı sığorta, kreditlərin sığortası, qeyri-tədiyə (ödəməmə) riskinin sığortalanması, birja əməliyyatlarının sığortalanması və s. Sahibkarlıq fəaliyyətinin sığortalanması növləri üzrə əməliyyatların həyata keçirilməsinin vacib şərti sahmanlı və tənzimlənən iqtisadi mexanizmin olmasıdır. Belə sığortalanma, əsasən, yüksək və mütəşəkkil bazar iqtisadiyyatı olan ölkələrdə inkişaf edir (bax: sxem 1).

SAHİBKARLIQ HÜQUQU – sahibkarlıq fəaliyyətinə təminat verən hüquq. Hər bir sahibkar bu fəaliyyətə təminat verən müəyyən hüquqlardan istifadə edir. Qanuna müvafiq olaraq, hər bir sahibkar aşağıdakı hüquqlara malikdir (bu, eyni səviyyədə müəssisəyə də aiddir):

1) sahibkarlıq fəaliyyətini müəssisənin, alışın və ya icarəyə götürmənin, yaxud müəssisədə islahatlar aparmaq, həmçinin, müəssisə əmlakına mülkiyyət hüququnu saxlayanla müvafiq müqavilənin bağlanması hesabına sahibkarlıq fəaliyyətini başlamaq və həyata keçirmək;

2) müqavilə və razılaşmalara müvafiq olaraq, maliyyə vəsaitlərini, əqli mülkiyyət obyektlərini, fiziki və hüquqi şəxslərin əmlakını, həmçinin, ayrı-ayrı əmlak hüquqlarını cəlb və istismar etmək;

3) müəssisəni avtonom olaraq kadrlarla təchiz etmək və sərbəst olaraq istehsal proqramı yaratmaq;

4) bir müəssisə, ölkə və s.-nin çərçivəsindən kənar iqtisadi fəaliyyət aparmaq;

5) fəaliyyətdə olan qanunvericilik və normativ aktlara müvafiq olaraq, müəssisə mənfəətinə sərəncam vermək;

6) dövlət sosial təminat, tibbi və sosial sığorta sistemlərinin təqdim etdikləri xidmətlərdən istifadə;

7) sahibkarlıq birlikləri təşkil etmək (ittifaqlar, assosiasiyalar və s.);

8) məhkəmə (arbitraj) qaydasında fiziki və hüquqi şəxslərin (o cümlədən, dövlət idarəetmə aparatı orqanlarının) hərəkətləri ilə bağlı iddia qaldırmaq.

Sahibkarlıq fəaliyyətini həyata keçirmək hüququna Azərbaycan Respublikasının qanunvericiliyi təminat verir. Əlverişli olmayan hallarda müəssisənin müvafiq

qeydiyyatından imtinaya yol verilmir. Müəssisənin əmlakının qanunsuz qoparılmadan müdafiəsi, qanun və bağlanmış müqavilələr çərçivəsində müəssisə fəaliyyətinin sahibkarlıq sferasının sərbəst seçiminin təmini, zəruri məlumatların əldə edilməsi, sahibkarlıq riskinin sığorta mümkünlüyü nəzərdə tutulur. Sahibkarlıq fəaliyyətinə təminat verən vacib *şərtlərdən* biri dövlətin müəssisə fəaliyyətinə müdaxilədən imtinasıdır. Bu zaman Azərbaycan Respublikası qanunvericiliyi çərçivəsində nəzərdə tutulan müstəsna hallar istisna olunur.

SAHİBKARLIQ RİSKLƏRİNİN SIĞORTALANMASI – siyasi və iqtisadi şərait, layihələrin öz maliyyə xərcini ödəməsi, biznesə dair tərəfdaşların seçilməsi, bazarın dəyişməsinə operativ reaksiya verilməsi və səmərəli idarəetmə qərarlarının qəbul edilməsi ilə bağlı qabiliyyətlərdən asılı olaraq sahibkarların risklərinin gözlənilməz hadisələrdən sığortalanması.

Sahibkarlığın inkişafına mane olan amillər aşağıdakılardır: hakimiyyət tərəfindən dəstəyin olmaması, ixtisaslı menecerlərin çatışmazlığı, ixtisaslı işçilərin çatışmazlığı, aşağı səviyyəli infrastruktur, güclü rəqabət, vergi dərəcəsinin yüksək olması, kredit alınmasında çətinlik, qanunvericilik və normativ aktlarda tez-tez baş verən dəyişikliklər, dövlət qulluqçularının rüşvətxorluğu, dövlətin müəssisələrin işinə müdaxiləsi, kriminal strukturların və hüquq-mühafizə orqanlarının reketi, bazarda haqsız rəqabət, təbii inhisarların təzyiqi, energetika, rabitə və s.

SAXLAMA DƏYƏRİ – sığorta, anbar xərcləri və faizlərin tədiyəsi daxil olmaqla malın (əmtəənin) saxlanılması dəyəri.

SAXLAMA MÜQAVİLƏSİ – bu müqaviləyə görə bir şəxs (yük götürən, saxlayıcı) başqa şəxsin (yük verənin, tapşıranın) ona verdiyi daşınar əşyanı saxlamağı və müqavilənin qüvvəsi sona çatdıqda qaytarmağı öhdəsinə götürür.

SAXLAMA ŞƏHADƏTNAMƏSİ – əmanət bankının müəssisələri vətəndaşların istiqrazlarını saxlamaq üçün qəbul etdikdə həmin müəssisələr tərəfindən verilən şəhadətnamə.

SAXLANC – girov; onun predmeti girov saxlayanın sahibliyinə verilir.

SAXTA ƏQD – başqa əqdi örtbasdır etmək məqsədilə bağlanan əqd.

SAXTA MÜFLİSLƏŞMƏ – kommersiya təşkilatı rəhbərinin və ya mülkiyyətçisinin, habelə fərdi sahibkarın kreditorlara olan borcun ödənilməsini təxirə salmaq və ya möhlət almaq, həmçinin, borcun və ya borcu ödəməkdən yayınmaq üçün kreditorları aldatmaq məqsədilə özünü bilə-bilə yalandan ödəmə qabiliyyəti olmayan elan etməsi.

SAXTA PULLAR – dollar əsginasları adi saxtalıqdan qorunur. Əsginasların hazırlanması üçün kağızı yalnız bir şirkət istehsal edir və ona bu kağızları dövlətdən başqa kimlərəsə satmaq qadağan edilmişdir. Mürəkkəbin hazırlanması formulu isə ABŞ Naxışqoyma və Çap Bürosunun gizli saxladığı sirdir. 1990-cı ildən ABŞ əlavə mikroçap vasitəsilə qorunan dollar əsginası istehsal etməyə başladı. 1996-cı ildə əsginasların müdafiəsi daha da gücləndirildi. 2003-cü ildə 20, 2004-cü ildə 50, 2005-ci ildə 100, 2006-cı ildə 10, 2008-ci ildə isə 5 dollarlıq əsginasların yeni versiyası çap olunmağa başladı.

ABŞ Məxfi Xidmətinin (bu struktur iki məsələyə cavabdehdir: ABŞ prezidentinin şəxsi təhlükəsizliyi və Amerika maliyyə sisteminin təhlükəsizliyi)



Cədvəl 1

Pul nişanlarının arxa tərəfindəki təsvirlərin və şəkillərin banknotların dəyər nişanlarına uyğunluğu

Nominal	Hərflərlə yazı	Üz tərəfindəki portret	Arxasındakı şəkil
1 dollar	ONE DOLLARS	Vaşinqton (WASHINGTON)	"ONE" sözü və iki müxtəlif təsviri olan ABŞ-ın böyük möhürü: soldan – yuxarıda piramida üzərində "hər şeyi görən göz"; sağdan – ABŞ-ın dövlət gerbi.
2 dollar	TWO DOLLARS	Cefferson (JEFFERSON)	"Montiçello" binası – ABŞ biletləri üçün və yaxud ABŞ-ın 1776-cı ildə müstəqilliyinin elan olunmasını təsvir edən səhnə - Federal ehtiyat biletləri üçün.
5 dollar	FİVE DOLLARS	Linkoln (LINKOLN)	Linkoln üçün Memorial
10 dollar	TEN DOLLARS	Hamilton (HAMILTON)	ABŞ-ın xəzinədarlıq binası
20 dollar	TWENTY DOLLARS	Cekson (JAKSON)	"Ağ Ev" binası
50 dollar	FIFTY DOLLARS	Qrant (GRANT)	Kapitoliya binası
100 dollar	ONE HUNDRED DOLLARS	Franklin (FRANKLIN)	İstiqlaliyyət binası

hesablamalarına görə, 1990-cı illərin əvvəllərinə qədər saxta dolların həcmi bir o qədər çox olmamışdır. Bundan sonra əsginas rəsmlərinin emalı və çapı texnologiyasında inkişaf başlandı və bunun nəticəsində saxta əsginasların istehsalı ilə məşğul olanlar üçün kifayət qədər əlverişli texnikalar meydana gəlməyə başladı. Hazırda saxta dollarların 60%-i bu texnologiya ilə hazırlanır.

Xidmətin verdiyi məlumata görə, 2009-cu ildən 2010-cu ilə qədər 879 milyon dollar məbləğində saxta əsginas müsadirə edilib.

Saxtakarların əksəriyyəti fərdi şəxslər və ya təşkilatlanmış cinayətkar birləşmələridir. 2007-2008-ci illərdə İtaliya, Kolumbiya və Ekvadorda saxta dollar istehsalı ilə məşğul olan zavodlar aşkarlanaraq məhv edilmişdir. Buna qədər iddia olunmuşdu ki, 50 və 100 dollar nominasiyalı saxta əsginasların istehsalı ilə Şimali Koreyada məşğul olunur. Məhz bu, ABŞ-ı 100 dollarlıq əsginasın dizaynını təcili olaraq dəyişməyə vadar etmişdi. ABŞ-da dollar əsginasları Texasda və ölkənin paytaxtı Vaşinqtonda yerləşən fabriklərdə istehsal olunur. Bu müəssisələrdə 2,8 minə yaxın insan çalışır. Hər gün dollar əsginaslarının hazırlanması üçün 18 ton mürəkkəb istifadə olunur.

SAXTA SƏNƏD – həqiqi sənədlər əsasında tərtib edilmiş saxta sənəd.

Fiktiv sənədlərin hüquqi qüvvəsi yoxdur. Hər hansı nemət-

lərin əldə edilməsi məqsədilə fiktiv sənədlər tərtib edilməsi qanunvericilik yolu ilə cəzalandırılır.

Müəssisələr *fiktiv sənədlər tərtib etməkdə* müxtəlif məqsədlər güdə bilərlər. Məsələn, vergi ödəmələrini azaltmaq məqsədilə mənfəətin süni şəkildə azaldılması, əlavə mənfəət əldə etmək üçün müəssisənin tərəfdaşlarını bilərəkdən çaşdırmaq və s.

"SAKİTLƏŞDİRİCİ" QİYMƏT – alıcıların cəlb edilməsi üçün psixoloji fərd kimi adi "yuvarlaq" kəmiyyətdən (məsələn, 10 dollar əvəzinə 9 dollar 98 sent) bir qədər aşağı müəyyən edilən qiymət.

SALDO (ital. *saldo* – hesablaşma, əvəzini çıxma) – müəyyən dövrdə pul daxilolmaları (gəlirləri) ilə xərcləri arasında fərqdir. Mühasibat uçotunda – mühasibat hesabları (sintetik və analitik) üzrə hər ayın sonunda müəyyən edilən debet dövriyyəsi ilə kredit dövriyyəsi arasındakı fərqdir. Tədiyə balansında – müəyyən ölkənin rezidentlərinin ixracının və idxalının dəyər qiymətləndirilməsi (ticarət balansının saldosu) və ya onların xarici tədiyələri ilə daxilolmaları arasında fərqdir (tədiyə balansı saldosu).

Demoqrafiyada miqrasiya saldosu – müəyyən dövr ərzində ölkənin ərazisinə gələn (yerləşən) və ölkənin ərazisindən gedən insanların sayı arasında fərqdir.

Milli hesablar statistikasında – yenidən bölgü saldosu hər hansı bir şəxs (iqtisadiyyatın sahə və ya sferası) üçün milli gəlirin yenidən bölgüsünün nəticəsi, bu prosesin gedişində onların əldə etdiyi gəlirlərlə sərf olunmuş xərclər arasında fərqdir.

SAMUELSON–HİKS MODELİ – işgüzar tsikl modeli; burada konyunkturanın tərəddüd etmə mexanizmləri akselerasiya prinsipi və multiplikator konsepsiyası bazasında təsvir olunur. Onun əsasında aşağıdakı dinamik tənlik durur:

$$Y(t) = (a+v)\,Y(t-1) - v\,Y(t-2)+b,$$

Burada: $Y(t)$, $Y(t-1)$, $Y(t-2)$ – müvafiq olaraq t, $t-1$, $t-2$ dövrlərinin milli gəliri;

v – akselerasiya gücü (və ya amili);

a – istehlak meyli;

b – baza istehlakıdır.

SAMUELSON POL ANTONİ (1915-2009) – amerikalı iqtisadçı, "statik və dinamik iqtisadi nəzəriyyəyə və iqtisad elmində təhlilin ümumi səviyyəsinin yüksəlməsində göstərdiyi elmi işə görə" iqtisadiyyat üzrə Nobel mükafatı laureatı (1970). 1941-ci ildə Harvard universitetində dissertasiya müdafiəsi zamanı doktor elmi dərəcəsi ilə birlikdə universitetin ali fərqlənmə dərəcəsini – "Devid A.Uells" medalını da almışdır. İkinci Dünya müharibəsi zamanı (1939-1945-ci illər) Milli Resursların Planlaşdırılması İdarəsinin və Hərbi Səfərbərlik və Yenidənqurma Nazirliyi hərbi istehsal idarəsinin məsləhətçisi, radiasiya laboratoriyasının əməkdaşı kimi fəaliyyət göstərmişdir. Müharibədən sonrakı dövrdə ABŞ-ın Maliyyə Nazirliyi, Büdcə idarəsi, İqtisadi İnkişaf Komitəsinin Məsləhət Şurası ilə əməkdaşlıq etmiş, Federal ehtiyat sisteminin (Mərkəzi Bankın), İqtisadi Məsləhətçilər Şurasının, habelə bir çox digər hökumət və xüsusi təşkilatların məsləhətçisi olmuşdur. ABŞ prezidenti C.F.Kennedinin iqtisadi müşaviri işləmişdir. Amerika Milli Elmlər Akademiyasının, Amerika Elm və İncəsənət Akademiyasının, Amerika Fəlsəfə Cəmiyyətinin, Britaniya Elmlər Akademiyasının üzvü olmuş, eləcə də Amerikanın bir sıra universitet və kolleclərinin fəxri elmi dərəcələrinə layiq görülmüşdür.



Samuelson iqtisadi dinamika nəzəriyyəsinin, sabitlik, ümumi tarazlıq nəzəriyyəsinin, istehlak və rifah nəzəriyyəsinin işlənib hazırlanmasına, səmərəlilik və optimallıq problemlərinin tədqiqinə mühüm töhfə vermişdir. Onun ən iri fundamental əsəri "İqtisadi təhlilin əsasları"dır (*"Foundations of Economic Analysis"*, 1947) ki, bu kitab XX əsrin ən əhəmiyyətli iqtisadi əsərlərindən biri hesab edilir. Kitab iqtisadi nəzəriyyənin bütün bölmələrinin riyazi izahını ehtiva edir. Burada başlıca məsələ iqtisadi dinamika konsepsiyasının işlənib hazırlanması idi. Bu konsepsiyada iqtisadi maksimum anlayışı və iqtisadi tarazlıq şərtlərinin müəyyən edilməsi mərkəzi yer tutur. İqtisadi tarazlıq anlayışı onun izahında iqtisadiyyatın elə sabit vəziyyəti deməkdir ki, burada bütün kənarlaşmaların (sapmaların) özünütənzimləməsi meyli mövcuddur.

Samuelsonun növbəti iri əsəri – "Ekonomiks: giriş və təhlil"dir (*"Economics: An Introductory Analysis"*) – iqtisadi nəzəriyyə üzrə dünyada ən geniş yayılmış dərslikdir. Birinci çapından (1948) sonra kitab dəfələrlə yenidən nəşr edilmiş və 20-dən çox xarici dilə tərcümə olunmuşdur.

1970-ci illərin ortalarında və daha sonralar onun "faktor qiymətlərinin tarazlaşması haqqında" məqalələri beynəlxalq ticarətdə məşhurlaşdı. Onun əsərlərində İkinci Dünya müharibəsindən sonra dünya bazarında və xarici iqtisadi münasibətlərdə mövcud dəyişikliklər təhlil olunur, əmək və kapital gəlirlərindəki fərqlərin tarazlaşması amili kimi ölkələr arasına tam azad ticarətin zəruriliyi əsaslandırılırdı. Samuelson müasir dövrün ən universal iqtisadçılarından biri hesab olunur. Onun tədqiqatlarının spektri genişdir və riyazi iqtisadiyyatdan cari maliyyə məsələləri üzrə jurnal məqalələrinə qədər geniş dairəni əhatə edir.


SANASİYA (lat. *sanatio* – sağlamlaşdırma, müalicə) – firmanın (şirkətin, bankın, müəssisənin) müflis olmasının və ləğv olunmasının qarşısının alınmasına yönəldilmiş tədbirlər kompleksi. Sanasiyanın mahiyyəti müflisolma (tədiyə qabiliyyətli olmamaq) haqqında işlər üzrə səlahiyyətli mütəxəssislərin sırasından kreditorlar şurasına və ya dövlət orqanına firmanın işlərinin idarə edilməsi üzrə funksiyaların verilməsindən (məhkəmənin qərarı ilə) ibarətdir. Sanasiya qaydasının tətbiqi aşağıdakı məsələlərin həllini nəzərdə tutur: a) bütövlükdə və ya qismən iqtisadi orqanizm kimi firmanın salamat qalmasının təmin edilməsi; borclu və kreditorlar arasında qarşılıqlı sövdələşmənin bağlanması; şirkətin ləğvi ilə müqayisədə onun aktivlərinin ən yaxşı şəkildə və şərtlərlə reallaşmasına nail olunması üçün real imkanlar yaradılması. Sanasiya qaydasının tətbiqi haqqında qərar kreditorların tələblərindən özünəməxsus qorunmadır. Belə ki, onun tətbiqi müddətində kreditorların xüsusi iddiaları kimi heç bir digər qaydaya müdirin və ya məhkəmənin razılığı olmadan əməl edilmir. Sanasiya qaydasının həyata keçirilməsi metodlarına aşağıdakılar aiddir: təşkilati (firmanın inzibati aparatında dəyişikliklər – rentabelsiz bölmələrin ləğv edilməsi və ya azaldılması); b) maliyyə (yeni kapitalın cəlb edilməsi, eləcə də lazımsız kapitaldan imtina).

Maliyyə tədbirləri aşağıdakıları nəzərdə tuta bilər: pul kapitalının səfərbər edilməsi üçün istiqrazların və ya yeni səhmlərin buraxılışı; bank kreditlərinin artırılması və büdcə subsidiyalarının verilməsi; səhmlər (istiqrazlar, depozitlər) üzrə dividendlərin azaldılması, onların ödənişinin uzadılması; qısamüddətli borcların uzunmüddətli borclara keçirilməsi.

Sanasiyanın müasir təcrübəsində "korporativ yenidən təşkiletmə" deyilən hüquqi şəxs kimi şirkətin mövcud olmasının dayandırılması və onun bazasında yenisinin yaradılması qaydası daha əhəmiyyətli yer tutur. Qanunvericilik aktları ilə bütövlükdə və ya konkret kreditorların maraqlarının məcburi ödənilməsi zamanı onların müəyyən qismində şirkətin hissə-hissə bərpası (dirçəlişin) üsulları və şərtləri nəzərdə tutulur.

SANKSİYA (lat. *sanctio* – ciddi qərar) – 1. Hüquqi aktların, müqavilələrin, müqavilə etikası normalarının pozulması zamanı kontragentə məcburi iqtisadi təsir tədbiri. Sanksiyanın ən geniş yayılmış formaları cərimə və peniyalardır. 2. Hüquqi normanın, qanunun maddəsinin bir hissəsidir və burada normanın pozulmasının hüquqi nəticələri göstərilir (bax: sxem 1).

SARCENT TOMAS (1943) – Amerika iqtisadçısı. Berklidəki Kaliforniya Universitetinin bakalavrı (1964), Harvard Universitetinin fəlsəfə doktorudur (1968). Pensilvaniya (1970-1971), Minnesot (1971-1987), Çikaqo (1991-1998), Stenford (1998-2002) və Nyu-York (2002-ci ildən) universitetlərində dərs deyib.



Nimmers mükafatı laureatıdır (1996). İqtisadi dinamika cəmiyyətinin (1989-1992), ekenometrik cəmiyyətin (2005), Amerika İqtisadçılar Assosiasiyasının prezidentidir (2007).

2011-ci ildə "Makroiqtisadiyyatda səbəb-təsir əlaqələrinin empirik təhlili"nə görə Nobel mükafatına layiq görülüb. Əsas əsərləri "Makroiqtisadi nəzəriyyə" və "Dinamik makroiqtisadi nəzəriyyə"dir.

SATICININ SIĞORTA MARAĞI – satıcı əmtəədə sığorta marağına o vaxta qədər malikdir



Sxem 1

ki, əmtəəyə olan hüquq alıcıya keçməmişdir. Polis satıcı tərəfindən alıcıya verilə bilər.

SATICILAR BAZARI (ing. *sellers market*) – şərtləri satıcılar diktə etdiyi bazar (mal təklifinin məhdudluğu, satıcıların az sayda olması).

SATINALAN TƏŞKİLAT – malları (işləri və xidmətləri) satınalan dövlət müəssisə və təşkilatları (idarələri), nizamnamə fondunda dövlətin payı 30 faiz və daha çox olan müəssisə və təşkilatlar.

SATINALMA – malların (işlərin və xidmətlərin) qanunvericilikdə müəyyənləşdirilmiş üsullarla əldə edilməsi.

SATINALMA MÜQAVİLƏSİ – satınalan təşkilatla tender qalibi (qalibləri) arasında bağlanan və malların (işlərin və xidmətlərin) satın alınması ilə əlaqədar tərəflərin öhdəliklərini müəyyənləşdirən sənəd.




SATINALMA MÜQAVİLƏSİNİN YERİNƏ YETİRİLMƏSİNİN TƏMİNATI – tender qalibinin (qaliblərinin) satınalan təşkilata təqdim etdiyi və satınalma müqaviləsi üzrə öhdəliklərinin icrasına verdiyi təminat. Bu təminat bank zəmanəti, akkreditiv, qiymətli kağızlar, nağd pul vəsaiti, depozitlər və digər maliyyə aktivləri ola bilər.

SATINALMALAR ÜZRƏ DÖVLƏT AGENTLİYİ (SDA) – 1997-ci ildə yaradılmışdır. Azərbaycan Respublikasında dövlət vəsaitləri hesabına malların (*iş-*



Satınalmalar üzrə Dövlət Agentliyi və Dövlət Qurumlarının İdarə Edilməsinin Təkmilləşdirilməsinə Dəstək Proqramının (SİGMA) birgə təşəbbüsü ilə seminar (15 və 16 noyabr 2011-ci il)

Maliyyə mənbəyindən asılı olaraq həyata keçirilmiş dövlət satınalmalarının məbləği (2010-cu il)



Qrafik 1

lərin və xidmətlərin) satın alınması sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Əsas vəzifələri sırasına dövlət vəsaitləri hesabına malların (*işlərin və xidmətlərin*) satın alınması sahəsində dövlət siyasətinin həyata keçirilməsi; dövlət vəsaiti hesabına malların (*işlərin və xidmətlərin*) müsabiqə əsasında satın alınmasının qanuniliyinə və müqavilələrin icrasına nəzarət edilməsi; mübahisəli məsələlərin araşdırılması, qanunvericiliyin pozulması halları aşkar edildikdə satınalma prosedurlarının qanunla müəyyənləşdirilmiş müddətə dayandırılması və lazım gəldikdə satınalan təşkilat qarşısında tenderin nəticələrinin ləğv edilməsi barədə məsələ qaldırılması; dövlət satınalmalarını tənzimləyən normativ hüquqi aktların, sənədlərin və məlumatların ictimaiyyətə çatdırılmasının təmini və s. daxildir.

SATIŞ KANALI – iqtisadi agentlərin məcmusu; istehsalçı ilə istehlakçı arasında konkret məhsul üçün mülkiyyət hüquqlarının mübadiləsinə vasitəçilik edir; bölgü kanalı da adlanır. İstehsalçı öz məhsulunun satışına görə işin bir hissəsini vasitə-

çilərin üzərinə qoymasına hazırdır. Belə ki, o, əmtəəni vasitəçiyə ötürərək, əksər hallarda fayda əldə edir.


Birincisi, birbaşa (müstəqim) marketinqin təşkili üçün xeyli ilkin investisiyalar tələb olunur. Buna görə də ABŞ-ın ən böyük avtomobil istehsalçısı olan "General motors" öz avtomobillərini 20 min müstəqil dilerin köməyilə satır. Hətta büdcəsi böyük olmayan dövlətin büdcəsinə uyğun gələn bu şirkət üçün bu diler müəssisələrini satın almaq çətin olardı.

xərcləri birbaşa marketinq xərclərinə nisbətən aşağıdır. Adətən, investisiyaların istehsalçıya mal yeridilməsi şəbəkəsinin təkmilləşdirilməsinə yox, əsas istehsala yönəldilməsi daha əlverişli olur. Məsələn, bir çox neft şirkətləri inteqrasiyaya cəhd göstərir və hesab edirlər ki, öz yanacaqdoldurma məntəqələrinə malik olmaq, xırda yanacaqdoldurma məntəqələrinə benzin satmağa nisbətən daha əlverişlidir.

Hər bir bölgü kanalını onu təşkil edən səviyyələrin sayına, yəni

üsulu var: səyyar (əldə gəzərək) ticarət, poçt (göndəriş) ticarəti və istehsalçıya məxsus mağazalar vasitəsi ilə ticarət. "Eyvon"un kommivoyajerləri kosmetika məhsullarını səyyar (əldə gəzərək) ticarət metodu ilə evdar qadınlar satırlar. Poçta dair ticarətə misal kimi nümunəni "divanda mağaza" formasında televiziyada müşahidə etmək olar. Nəhayət, "Leqo" oyuncaqları yalnız ixtisaslaşdırılmış mağazalarda və ya univermaqların ixtisaslaşdırılmış şöbələrində satılır.

Müxtəlif davamiyyətli bölgü kanallarının xarakteristikası



Sxem 1

İkincisi, kütləvi ticarət iqtisadi cəhətdən bir çox hallarda yalnız bir istehsalçının məhsulu ilə əlverişli deyil. Baxmayaraq ki, bu cür hadisə nadir hadisə deyil, hər halda, bir mağaza bir neçə istehsalçının məhsulu ilə ticarət edir. Bu da alıcıların zəruri malların axtarışı üzrə xərclərini azaldır və deməli, universal ticarəti daha əlverişli edir.

Üçüncüsü, bu müəssisədə ixtisaslaşan malın hərəkətinin nisbi

mal yeridilməsi prosesinə vasitəçilik edən iştirakçıların sayına görə xarakterizə etmək olar. Bölgü kanalının fasiləsiz iştirakçıları istehsalçı və istehlakçıdır. Təcrübədə sıfır, bir, iki və üç səviyyəli kanallara rast gəlmək olar (bax: sxem 1).

Sıfır səviyyəli kanal ("birbaşa marketinq kanalı" da adlanır) əmtəəni (malı) bilavasitə istehlakçıya satan istehsalçıdan ibarətdir. Birbaşa satışın üç əsas

Birsəviyyəli satış kanalına bir vasitəçi daxildir (bu cür vasitəçilər bir neçə, lakin bir səviyyəli ola bilər). İstehlak bazarında bu vasitəçi pərakəndə ticarətçi, sənaye təyinatlı mallar bazarında isə çox zaman broker və ya makler ola bilər. Makler müəyyən komisyon mükafatına görə satıcı ilə alıcını birləşdirir. Makler fəaliyyəti, məsələn, daşınmaz əmlak bazarında yayılmışdır.

İkisəviyyəli satış kanalı istehsalçıdan, istehlakçıdan və iki vasitəçidən: topdansatış və pərakəndə ticarətçidən ibarətdir.
Üçsəviyyəli satış kanalı özündə artıq üçsəviyyəli vasitəçini birləşdirir. Məsələn, ət məhsulları bazarında topdansatış və pərakəndə ticarətçilər arasında xırda topdansatış ticarətçi durur. Xırda topdansatış ticarətçiləri iri topdansatış ticarətçilərindən malları alır və onları iri olmayan partiyalarla yenidən və pərakəndə şəkildə iri topdansatış ticarət xidməti göstərməyən ticarətçilərə satırlar.
Satış kanalının idarə olunması ixtisaslı vasitəçilərin seçilməsini və maraqlandırılmasını tələb edir. Tanınmış ticarət markalı məhsul buraxan hər hansı iri şirkətdə dilerlərin müəlliflləşdirmə avtorizasiyası (vəkalət verdiyi, yaxud ixtiyar verdiyi) proqramları mövcuddur. Bu cür avtorizasiyanın zəruri şərtlərinə sabit dövriyyələr, rəsmi tərəfdaşların tövsiyələri, satış texnikasının və xidmət mədəniyyətinin xüsusi öyrədilməsi daxildir. Dilerlərlə xüsusi yardım proqramları işlənib hazırlanır. Bunlara aşağıdakılar daxildir: reklam materialları ilə təmin edilmə, istehsalçının reklamında dilerin xatırlanması; informasiya, texnika, idarəetmə, bəzən isə maliyyə dəstəyi; diler personalının ixtisasının daim və çox zaman pulsuz artırılması.
Əksər istehsalçılar əsas problemi vasitəçi tərəfindən əməkdaşlığa necə nail olmaqda görürlər. Bunun üçün onlar "qamçı və kökə siyasəti"nə can atırlar. Müsbət motivləşdirmə amilləri kimi daha yüksək güzəştlər, güzəştli əsasda sövdələşmələr, mükafatlar, birgə reklama və malın eksponat qoyulmasına görə hesablamalar, habelə, satıcıların müsabiqəsinin keçirilməsi haqqında söhbətlər aparılır. Hərdənbir istehsalçılar güzəştlərin azaldılması təhlükəsi, məhsul göndərilməsinin sürətinin zəifləməsi və ya ümumiyyətlə, münasibətlərin qırılması kimi neqativ (mənfi) motivləşdirmə amillərindən də istifadə edirlər.
Satış kanalına xeyli dərəcədə nəzarət edən istehsalçı, adətən, hər bir satış kanalının keçmiş və indiki satış göstəricilərini eyni səviyyəli kanalın digər üzvlərinin göstəriciləri ilə müqayisə edir və bu satış kanalının fəaliyyətinin qiymətləndirilməsini aparır. Adətən, istehsalçı vasitəçilərə müəyyən satış normaları təyin edir. Növbəti plan müddəti bitdikdən sonra o, bütün vasitəçilərə onların hər birinin fəaliyyəti haqqında göstəricilərdən ibarət məlumat göndərə bilər. Bu məlumat geridə qalanları yaxşı işləməyə, qabaqcılları isə nail olduqları mövqeləri saxlamağa həvəsləndirməlidir. Vasitəçilərin ticarət fəaliyyətinin göstəricilərini onların ötən dövrdəki öz göstəriciləri ilə də müqayisə etmək olar. Bütövlükdə qruplar üzrə göstəricilərin orta faiz artımını norma hesab etmək olar. İstehsalçılar öz dilerlərinin tələblərinə həssaslıqla yanaşmalıdırlar. Vasitəçilərə lazımi diqqəti yetirməyən şəxslər bağlanmış ("zibillənmiş") satış kanalını qazanmaq riski edirlər.

SATIŞ ÜÇÜN OPSİON (ing. *put option*) – fyuçers kontraktını realizə etmək və ya başqa qiymətlini (əmtəə istisna olmaqla) əvvəlcədən müəyyənləşdirilmiş qiymətə satmaq hüququnu təmin edir (lakin bu, öhdəlik deyildir). Bu opsion qiymətləri azaltmağa yönəlmiş oyunda tətbiq olunur.

SATIŞDAN SONRAKI SERVİS – şirkət tərəfindən alıcıya təqdim edilən xidmətlər. Onlar əsasən malın çatdırılması, quraşdırılması, saxlanması və sonradan zəmanət müddəti dövründə həmin malın təmir edilməsindən ibarət olur.

SATIŞDANKƏNAR GƏLİRLƏR – digər müəssisələrin fəaliyyətində payçı kimi iştirakdan gəlir, müəssisəyə məxsus səhmlər, istiqrazlar və digər qiymətli kağızlardan əldə olunan gəlirlər, mal və xidmət (iş) istehsalı və satışı ilə bilavasitə bağlı olmayan əməliyyatdan götürülən digər gəlirlər; cərimə və zərərin ödənilməsi şəklində alınmış məbləğ; xarici valyuta əməliyyatları üzrə artan məzənnə fərqi; daşınmaz əmlakın dəyərinin artmasından gəlir, qanunvericiliyə müvafiq iddia müddəti keçmiş kreditor və deponent borc məbləğləri.

SATURASİYA (lat. *saturatio*) – bazarın doydurulması, iqtisadiyyatda malın bazarın daxilində yayılması şəraiti.

SAYMON HENRİ KALVERT (1899-1946) – 1920-ci ildə Miçiqan Universitetini bitirməklə, tez bir müddətdə Ayova Universitetində müəllimlik fəaliyyətinə başlamışdır. 1927-ci ildən ömrünün sonuna kimi fəaliyyət göstərdiyi Çikaqo Universitetinə keçmişdir. O, 1946-cı ildə, çox tez – 47 yaşında vəfat etmişdir. Henri Saymon Çikaqo məktəbinin Milton Fridmen,



Heri Bekker və Corc Stiqlits kimi tanınmış yaradıcılarından biridir. O, Çikaqo məktəbinin müasir iqtisadçılarının başlıca ideyalarını 1930-cu illərdə yazdığı "Azad cəmiyyətdə iqtisadi siyasət" (1948) adlı toplusunda şərh etmişdir. Saymona görə, dövlətin iqtisadiyyatda rolu strukturun saxlanmasını həyata keçirir və bunu azad sahibkarlığın dəstəklənməsinə xidmət edən büdcə-maliyyə, pul-kredit, antiinhisar və digər siyasəti vasitəsilə həyata keçirmək mümkündür.

Saymon böyük depressiya illərində azad bazar sistemini müdafiə edən "Dövlətin iqtisadiyyata müdaxilə etməməsinin müsbət proqramları" (1934) adlı görkəmli əsərini nəşr etdirmişdir. Onun fikrincə, depressiya düzgün olmayan monetar siyasət nəticəsində yaranmışdır. Saymonu büdcə defisitliyi vasitəsilə ekspansiv pul siyasəti həyata keçirməklə, işsizliklə mübarizəni dəstəkləyən iqtisadçılar sırasına aid etmək olar.

Saymon öz fəaliyyətində vergi sistemində islahatlara həsr olunan əsərlərə nəzərəçarpacaq dərəcədə diqqət ayırmışdır. O, "Şəxsi gəlirə qoyulan vergi" (1938), "Federal vergi islahatları" (1943) kimi iki böyük kitabında özü tərəfindən təklif olunan və ideyanın nüvəsi sayılan bir sıra müddəaların tam şərhini vermişdir. O, həmçinin, vergiqoyma nöqteyi-nəzərindən tələbata çəkilən xərc olaraq "gəlir"in tərifini vermiş və "təqvim ilinin" gəlirin qiymətləndirilməsi üçün çox qısa müddət olduğunu israrla bildirmişdir.

Onun bütün təklifləri, demək olar ki, vergi ödəyicisinə vergilərin ödənişindən sonra maksimal azadlıq verilməsi üzərində cəmləşir. Lakin Saymon bu ideyaları irəli sürərkən sosial bərabərliyə nail ola biləcək motivasiya məsələlərinə və bunun üçün xərclərin həyata keçirilməsi siyasətinə məhəl qoymamışdır.

SAYMON HERBERT ALEKSANDR (1916-2001) – amerikalı iqtisadçı, sosioloq və pedaqoq.



Psixologiya, informasiya nəzəriyyəsi, idrak proseslərinin kompüter modelləşməsi, təşkilatçılıq nəzəriyyəsi, süni intellekt və qərarların qəbulu nəzəriyyəsi sahəsində orijinal əsərlərin müəllifidir. "İqtisadi təşkilatlar çərçivəsində qərarların qəbul edilməsi prosesinin novator tədqiqinə görə" Nobel mükafatına (1978),

"Elmdə görkəmli xidmətlərinə görə" Amerika Psixoloji Assosiasiyasının mükafatlarına layiq görülmüşdür (1969). Bir sıra universitetlərin, o cümlədən, Çikaqo, Yel, Makqilla, Lunda və Erazm adına (Rotterdam, Niderland) universitetlərin fəxri elmi dərəcələrini almışdır. Saymonun iqtisad elminə töhfəsi, ilk növbədə, iqtisadi sistemlərdə qərarların qəbul edilməsi nəzəriyyəsi üzrə əsərlərlə əlaqədardır. Onun istehsalın təşkili və idarəsi sahəsində qərarların qəbuluna novatorcasına yanaşması ilk dəfə "İnzibati davranış" ("Administrative Behavior", 1947) kitabında ifadə edilmişdir. Bu kitab qərarların təşkili və qəbul edilməsi nəzəriyyəsi sahəsində klassik əsər sayılır. Saymon tədqiqatlarında işgüzar firmanı onun üzvlərinin ümumi məqsədlərə nail olmaq üçün birbirilə əməkdaşlıq edən; ümumi cəhdi və kommunikasiya şəbəkəsi ilə öz aralarında birləşən maddi, insani və sosial komponentləri ehtiva edən sistem kimi təsvir etmişdir. Saymon iqtisadi nəzəriyyədə firma haqqında yalnız maksimum mənfəət əldə etmək məqsədi güdən, "səmərəli fəaliyyət göstərən müəssisə" kimi klassik təsəvvürü inkar etdi. O, belə bir tezis irəli sürdü ki, firmada qərarlar onun üzvləri tərəfindən kollektiv surətdə qəbul olunur. Onların səmərəli hərəkətlərə olan qabiliyyətləri, bir tərəfdən, onların qəbul etdiyi qərarların bütün nəticələrini qabaqcadan görmək imkanının olmaması, digər tərəfdən isə şəxsi səylərlə və sosial şərtlərlə məhdudlaşır. Saymon o dövr üçün belə bir nəticə formalaşdırdı ki, firma məqsəd kimi öz qarşısında maksimum mənfəət əldə edilməsini yox, bu firmalar qarşısında meydana çıxan mürəkkəb problemlərin əlverişli həlli üsullarının tapılmasını qoyur. Bu da bəzən onları münaqişə vəziyyəti doğuran məqsədlər irəli sürməyə vadar edir. "İnsanın modeli" ("Models of man", 1957) və "Təşkilatlar" ("Organizations", 1958) kitablarında Saymon informasiyanı

əmal edən və qərar qəbul edən insanların davranışını və məsrifləndirici keyfiyyətlərini öyrənməyə xüsusi diqqət yetirmişdir. Saymonun tədqiqatları ciddi mənada əməəvi davranış nəzəriyyəsi çərçivəsində müşahidələrin məcmusudur. O, məhdud və ya "məcburi" rasionallıq nəzəriyyəsinin müəlliflərindən biridir.

Saymonun sonuncu əsərlərində mərkəzi yeri süni intellekt və elmin kompüterləşməsi problemləri tutur. O, ABŞ-da cəmiyyət həyatının müxtəlif sahələrində kompüterlərdən geniş istifadə etməsinin istedadlı yayımlayıcısı və fəal təbliğatçısı kimi məşhurdur.

SAZİŞ – iki və ya daha çox şəxs arasında qarşılıqlı fəaliyyət, ümumi hərəkətlərin görülməsini tənzimləyən hüquqi akt. Malgöndərmələr, tədiyələr, kreditlər, malların alqı-satqısı və başqa məsələlər barəsində qeyri-rəsmi razılaşma, yaxud rəsmi sənəd kimi tərtib edilmiş müqavilə.

SECASTER – eyni zamanda losecaster.

SEÇİM AZADLIĞI – mülkiyyətçinin mövcud resurslardan və pullardan öz mülahizəsinə görə istifadə etmək üçün seçim hüququ; işçilərin iş yerini və əmək növünü öz arzularına əsasən seçmək hüququ; istehlakçıların öz gəlirlərini öz ehtiyacları üçün xərcləməkdə sərbəstlik hüququ.

SEÇİMİN FORMALAŞMASI – sorğu məqsədilə ümumi populyasiya olan müəyyən qrup insanların qeyd edilməsi üçün tədqiqatlarda istifadə olunan termin.

SEÇMƏ ELEMENTİ (*Sampling unit*) – icmalı təşkil edən ayrı-ayrı komponentlər. Məsələn, depozit blanklarında göstərilən çeklər, bank hesabı üzrə çıxarışda göstərilmiş kredit qeydləri, kommersiya hesab-fakturaları və ya debet qabıqları, yaxud pul vahidi.

SEÇMƏ RİSKİ (*Sampling risk*) – seçmə (nümunə) əsasında auditor tərəfindən əldə edilmiş nəticənin eyni audit prosedurasının qalan bütün icmala tətbiqi zamanı qazanılacaq nəticədən fərqlənmə ehtimalı.

SEÇMƏ VAHİDİ – seçmənin əsasını təşkil edən və seçilən məcmunun formalaşması üçün istifadə olunan element.

SEDENT (ing. *sedent*) – sığortada riski yerləşdirən, riski təkrar sığortaya verən sığorta şirkəti. Sığortaçı, yaxud riski verən təkrar sığortaçı.

SEDENTİN XÜSUSİ TUTULMASI – sığorta məbləğinin və ya sığorta ödənişinin o hissəsidir ki, onlara görə məsuliyyət təkrar sığortalıda qalır.

SEDENTİN PRİORİTETİ (üstünlüyü) – elə kəmiyyətdir ki, bu həddər daxilində sedent itki baş verən zaman məsuliyyət daşıyır.

SEDENT-ŞİRKƏT – özünün bütün risklərini və ya onların bir hissəsini təkrar sığortaçıya verən sığorta şirkəti.

"SEİLİF" (*Ceilif*) – kimya sənayesi assosiasiyası (*Chemical Industries Association – CİA*) ilə əməkdaşlıqda – 1989-cu ilin dekabrında Böyük Britaniyada əsası qoyulan sığorta pulu. Tam adı belədir: "Ceilif – CİA Environmental Impairment Liatility İnsurance Facility".

SEKTOR – 1. Fəaliyyət sahəsi. 2. İdarənin, təşkilatın bölməsi.

SEKVESTR (lat. *seqvestro* – kənara qoyuram, ayırıram) – 1. Mübahisəli əmlakın kimə məxsus olmasını müəyyənləşdirmək üçün mübahisənin həllinə qədər iki tərəfin iddialı olduğu bir mübahisəli əmlakın üçüncü tərəfə müvəqqəti verilməsi; qarşılıqlı razılaşma üzrə (müqavilə sekvestri) və ya məhkəmənin qərarı ilə (məhkəmə



sekvestri) həyata keçirilə bilər. 2. Dövlət büdcəsinin ayrı-ayrı maddələrinin və ya bütün dövlət büdcəsinin icrasının dayandırılması; Sekvestr – "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa görə dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrin gəlirləri yerinə yetirilmədikdə, müdafiə olunmuş xərc maddələri istisna edilməklə büdcə ilinin qalan ayları üzrə xərclərin müəyyənləşdirilmiş qaydada ixtisarı.

SEQMENT – müəyyən ümumi xüsusiyyətlərə malik olan istehlakçılar qrupu (o cümlədən potensial). Seqmentləşmə – müəyyən strategiyanın işlənməsinə əhəmiyyətli təsir göstərən ümumi xüsusiyyətlərə malik olan insan qruplarının və ya təşkilatlarının identifikasiyası.

SELEKTOR AUKSİON (ing. *auction by selective telephony*) – özəlləşdirilən müəssisələrin səhmlərinin selektor rabitəsi vasitəsilə satışı üzrə auksion. Alıcıların auksionda şəxsən olmadığı halda auksionda iştirak etməsinə imkan verir.

SELLER-KEFOVER QANUNU (ing. *Seller-Kefauver antimerger ast.*) – Kleyton qanununa düzəliş kimi 1950-ci ildə ABŞ-da qəbul edilən və yalnız səhmlərin alqısı kimi yox (bu, Kleyton qanununda nəzərdə tutulmuşdu), həm də müəssisələrin hər hansı bir aktivlərinin alqısı yolu ilə qovuşmanın məhdudlaşmasına yönəlmiş qanunverici akt. Beləliklə, Seller-Kefover qanunu qəbul edildikdən sonra ABŞ-da müəssisələrin hər cür qovuşması üçün xüsusi hökumət icazəsi tələb olunur.

SELTEN RAYNHARD (1930) – alman iqtisadçısı, "qeyri-kooperativ oyunların təhlilinə üstün töhfəsi"nə görə 1994-cü ildə iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür (C.Harşanyi və C.Neşlə birlikdə). 1957-ci ildə Frankfurt Universitetinin təbiət elmləri fakültəsini bitirmişdir. Sonrakı 10 il ərzində Frankfurt-Mayn Universitetində işləmiş, 1961-ci ildə riyaziyyat üzrə namizədlik dissertasiyası müdafiə etmiş, 1968-ci ildə elmlər doktoru dərəcəsi almışdır. Azad Universitetinin (Qərbi Berlin, 1969-1972-ci illər) professoru, Bilfeld şəhərində Riyazi-İqtisadiyyat İnstitutunun direktoru (1972-1984-cü illər) işləmişdir. 1984-cü ildən Bonn Universitetinin iqtisadiyyat professorudur.



Selten ilk dəfə olaraq bir ədəddən artıq tarazlığa malik qeyri-kooperativ oyunların təhlili üçün "Neş mənasında tarazlıq" konsepsiyasının tətbiqi sferasını genişləndirməyə cəhd göstərmişdir. Seltenin prinsipial ideyası yalnız mümkün tarazlıqların miqdarını azaltmaqdan ötrü yox, həm də iqtisadi münasibətdə mənasız olan tarazlıqlardan yaxa qurtarmaqdan ötrü daha ciddi oyun şərtlərindən istifadə edilməsindən ibarətdir. Eyni zamanda, Neşin tarazlıq konsepsiyası digər oyunçuların müəyyən davranış strategiyasını seçməyə məcbur edən mümkün rəqib tərəfindən təhlükələr və ya vədlərin mövcudluğuna əsaslanırdı. Baxmayaraq ki, bu təhlükələr və vədlər yalan ola bilərdi, çünki onların reallaşması heç bir oyunçunun maraq dairəsinə daxil deyildi. Selten "təkmil tarazlıq formasında həll"i təklif edərək bu cür boş təhlükələri və vədləri kənarlaşdırmağa (istisna etməyə) cəhd göstərirdi. Klassik iqtisadi nəzəriyyəyə uyğun olaraq inhisarlar bazarda tarazlığı və öz hökmran mövqeyini ona görə saxlayırlar ki, əgər hər hansı yeni rəqib bu bazara daxil olmaq istəyirsə, onda o, qiymətlərin müharibəsi təhlükəsi ilə rastlaşacaqdır. Konsepsiyaya "dona girməyin ("özünü tülkülüyə qoymağın") başa çatması" tarazlığını tətbiq edərək, bu məsələnin bir neçə satıcının rəqabət apardığı şəraitdə həllini göstərmişdir. Selten konsepsiyası oyunçulardan hər hansı bir şəraitdə, o cümlədən müstəsna rasional hərəkətləri sayəsində nail oluna bilməyən şəraitdə səmərəli davranışı tələb edir. "Neş mənasında tarazlığ"a əlavə olaraq Seltenin, "dona girmənin başa çatması"nın zəruri şərti dedikdə tələbin müntəzəm formalaşması nəzərdə tutulur ki, bu zaman yalnız etimad qazanan təhlükələr diqqəti cəlb etməlidir. Neşin tarazlığının ən fundamental təkmilləşdirilməsi kimi qiymətləndirilən Seltenin tarazlıq konsepsiyası strateji qarşılıqlı hərəkətlərin dinamikasının öyrənilməsində, məsələn, bazarda hökmran mövqeyə nail olmağa cəhd göstərən firmalar arasında, eləcə də hökumət səviyyəsində müəyyən iqtisadi siyasətin aparılması ehtimalı ilə əlaqədar mübahisələrdə, informasiya iqtisadiyyatında geniş tətbiqini tapmışdır.

Seltenə görə, kiçik də olsa, hər bir oyunçu strategiyanın seçimi zamanı hər hansı bir səhvin baş verməsi və ya ona təhlükə törətməsi ehtimalını nəzərə alır. Bu ideya iqtisadi siyasətin təhlili zamanı makroiqtisadi nəzəriyyədə və sənaye təhlili nəzəriyyəsində istifadə olunur.

SENÇAQOV VYAÇESLAV KONSTANTİNOVİÇ (1940) – rus iqtisadçısı; i.e.d., professor.



1964-cü ildə Plexanov adına Moskva Xalq Təsərrüfatı İnstitutunu bitirib. 1964-1965-ci illərdə Elektron İdarəetmə Maşınları İnstitutunda kiçik elmi işçi, 1965-1982-ci illərdə SSRİ Maliyyə Nazirliyinin Maliyyə İnstitutunda böyük iqtisadçı, ekspert, böyük elmi işçi, sektor müdiri, elmi işlər üzrə direktor müavini, 1982-1986-cı illərdə SSRİ Dövlət Plan Komitəsində planlaşdırmanın təkmilləşdirilməsi və iqtisadi stimullaşdırma şöbəsində rəis müavini, 1986-1987-ci illərdə SSRİ Dövlət Plan Komitəsinin nəzdində Planlaşdırma və Normativlər Elmi-Tədqiqat İnstitutunda direktor, 1987-1989-cu illərdə maliyyə nazirinin müavini, 1989-1991-ci illərdə Qiymətəmələgəlməsi üzrə SSRİ Dövlət Komitəsinin Sədri, 1991-1994-cü illərdə RF İqtisadiyyat Nazirliyinin İqtisad Akademiyasının rektoru, 1994-1995-ci illərdə RF Müasir İqtisadiyyat Akademiyasının Fond Bazarları İnstitutunun direktoru olub. 1977-1982-ci illərdə SSRİ Xalq Təsərrüfatı Akademiyasında dərs deyib. Rusiya Təbiət Elmləri Akademiyasının vitse-prezidenti, "Makroiqtisadiyyat və sosial bazar təsərrüfatı problemləri" seksiyasının sədridir. 1995-ci ildən Rusiya EA-nın İqtisadiyyat İnstitutunun Maliyyə və Bank Tədqiqatları Mərkəzinin rəhbəridir.

Beynəlxalq İnformatizasiya Akademiyasının və Beynəlxalq Menecment Akademiyasının akademiki, Nyu-York Akademiyasının akademiki, RF hökuməti yanında ekspert şurasının üzvü, RF Federal Sovetində İqtisadi Siyasət Komitəsində ekspert şurasının sədr müavini, Avropa İqtisadiyyat Assosiasiyasının, Beynəlxalq İqtisadçılar İttifaqının (Bİİ), Beynəlxalq Dövlət Maliyyəsi İnstitutunun və RF Təhlükəsizlik Şurasında elmi şuranın üzvüdür.

Rusiya Təbiət Elmləri L.P.Kapitsa adına medalına layiq görülüb.

SENİOR NASSAU UİLYAM (1790-1864) – ingilis iqtisadçısı, D.Rikardonun şagirdi. Dəyərin



əmək nəzəriyyəsi ilə müxtəlif sahələr üçün vahid mənfəət normasının qəbul edilməsi arasında ziddiyyəti aradan qaldırmağa çalışmış, əməyin dəyərin yaradıcısı kimi anlayışını yenidən nəzərdən keçirmişdir. O, əməyi imtina etmənin xüsusi halı kimi səciyyələndirir. İşçi öz əməyinin sərfi yolu ilə asudə vaxtından imtina edir. Kapitalist isə istehsalata öz pullarını sərmayə qoymaqla həmin pulları ona bu gün məmnunluq gətirəcək şəkildə sərfindən imtina edir. O, imtinaetmə nəzəriyyəsini bölgünün əsası kimi irəli sürmüşdür.

SEN-SİMON KLOD ANRİ DE RUVRUA (1760-1825) – Sen-Simonun əsərlərində üç



başlıca ideya nəzərə çarpır. İlk ideya dövrünün nadir elmi-texniki nailiyyətləri haqqında məlumat verməsi ("sənayeləşmə" terminini ilk dəfə o işlətmişdi) idi. O, sənayeləşməni cəmiyyətin qurulmasının güclü amili hesab edirdi. Daha sonra o, sənayeləşmə sayəsində müharibə və yoxsulluğun aradan qaldırılmasını həyata keçirəcək gələcək cəmiyyətin proyektini vermişdir. İkinci ideya həqiqi elmi metodların sosial sferada daha geniş tətbiqinin mümkünlüyündən ibarətdir. Bu, onun üçüncü ideyasında adlandırdığı kimi, "pozitiv elm"dir. Üçüncü ideyasında Sen-Simon qeyd edirdi ki, tarix, mahiyyət etibarilə, ideoloji xarakter daşıyaraq müəyyən inkişaf qanunauyğunluqları ilə xarakterizə olunur. O, bu fikri müxtəlif ictimai quruluşların mahiyyətindəki fərqlərlə izah edirdi.

Sen-Semon 1760-cı ildə Parisdə anadan olmuşdur. Həyatı boyu əsgər, amerikan inqilabı ilə mübarizə aparmaqla və kilsə torpaqlarını müsadirə etməklə müxtəlif fəaliyyət sahələrində çalışmışdır. 1793-1794-cü illər ərzində həbsə məhkum edilmiş

və çətinliklə ölüm hökmündən "boyun qaçıra" bilmişdi. O, çalışdığı 10 il ərzində özünə kifayət qədər pul yığa bilmiş və 1825-ci ildə vəfatına qədər jurnalist kimi fəaliyyət göstərmişdir.

SENT-LUİS MODELİ – M.Fridmanın tənliyində qiymətlərin uzunmüddətli qeyri-inflyasiya dəyişməsinin bazar tərəfindən tələb edilməsini müəyyənləşdirən nəzəri monetarist konsepsiyası. Ümumi halda, bu parametr əmtəələrə olan pul tələbinin gərginliyinin və gələcəkdə qiymətlərin gözlənilən dəyişməsinin cəmi kimi müəyyən edilir. Bu model L.Andersen, C.Cordan, K.Karlson, Federal Ehtiyat Bankının mütəxəssisləri tərəfindən (Sent-Luis şəhəri, ABŞ) işlənib hazırlanmışdır.

SENYORAJ (fr. *seiqneuriage* – senyorun hüququ) – pul emissiyasından əldə edilən gəlir, dövlətin pul nişanlarının çapı üçün müstəsna hüququ, mərkəzi bank tərəfindən pul emissiyası hesabına dövlət büdcəsinin kəsirinin örtülməsi üsulu. Senyoraj pul kütləsinin artmasının əsas amili və inflyasiyanın artım səbəblərindən biridir. Senyoraj hökumətin xəzinəyə vergi daxilolmalarının miqdarını artırmağa imkanı olmadığı və nağd pulun qiymətdən düşməsində ifadə olunan gizlin vergi ilə bu ölkənin bütün əhalisinin vergiyə cəlbi zamanı istifadə olunur. Beləliklə, hökumət inflyasiya vergisinin köməyilə vəsaitləri əhalidən kənar edərək, öz xərclərini maliyyələşdirir. Bununla belə, çap maşınının köməyilə maliyyə resurslarının əldə edilməsi imkanı məhdudiyyətsiz deyil. İnflyasiya artdıqca əhalidə olan real pullar azalır; bu, büdcəyə vəsaitlərin yığılması üçün təbii həd yaradır, çünki vergi bazasını azaldır. Pul emissiyasının nəzarətsiz istifadəsi, senyorajdan sui-istifadə edilməsi maliyyə sisteminin iflasına gətirib çıxara bilər.

SERİYA – eyni növlü mallar, əşyalar qrupu; eyni identifikator ilə buraxılmış qiymətli kağızların, bank biletlərinin məcmusu.

SERİYALI İSTEHSAL – məhsulun seriya ilə buraxılması, başqa sözlə, məhsulun kifayət qədər böyük, lakin kütləvi olmayan partiyalar şəklində istehsalı. Məmulatların nomenklaturunun nisbətən geniş olması istehsalın bu tipinin səciyyəvi əlamətidir. Lakin məhsulun miqdarına görə bu tip fərdi istehsal tipindən geri qalır. Fərdi məhsul buraxılışından fərqli olaraq, məhsulun seriya ilə istehsalı bir və ya bir neçə il müddətində vaxtaşırı təkrarlanır. Bu hesaba həmin məhsulu texnoloji cəhətdən ixtisaslaşdırılmış sahələrdə istehsal etmək mümkündür. Bu, çox cəhətdən kütləvi istehsalı xatırladan orta və iri seriyalı istehsala daha çox aiddir.

SERİYALI İSTİQRAZLAR – ödəniş müddətləri müxtəlif olan seriyalar şəklində buraxılan istiqrazlar; bu cür istiqrazlar bir cox ölkələrdə çox vaxt bələdiyyə hakimiyyəti tərəfindən də buraxılır; buraxılışı seriyaları üzrə ödənilən istiqrazlar.

SERTİFİKAT (lat. *sertum* – əsl, həqiqi, düzgün, *facere* – etmək) – 1. Sahibində müəyyən biliyin və bacarığın mövcudluğunu təsdiqləyən şəhadətnamə. 2. Maliyyə-kredit münasibətləri sferasında hesablama palatalarının şəhadətnaməsidir (vəsiqədir) ki, bunların əsasında palataların üzvləri olan bankların borcları tənzimlənir; adətən, əsginaslarla az miqdarda buraxılan, xırda və orta sahiblər (saxlayanlar) arasında yerləşdirilən dövlət istiqrazlarının (borclarının) bir növüdür; borcda iştirak haqqında və istiqrazın alınmasına hüququ olan şəhadətnamədir; depozitin alınmasına əmanətçinin hüququnu təsdiqləyən




pul vəsaitlərinin deponentləşməsi haqqında kredit idarəsinin yazılı şəhadətnaməsidir. 3. Əmtəənin (malın) keyfiyyətini, onun mənşəyini, çəkisini və s. təsdiq edən və müvafiq səlahiyyətli orqanlar tərəfindən verilən sənədlərdir.

SERTİFİKATLAŞDIRMA – 1. Sertifikatın alınması qaydası. 2. Məhsulun müəyyən tələblərə, konkret standartlara və ya texniki şərtlərə uyğunluğunun sənədli təsdiqi.

SERTİFİKATLAŞDIRMA ORQANI – uyğunluq sertifikatlaşdırmasını həyata keçirən orqan. O, yüksək səlahiyyətlərə malik olmalıdır. Sertifikatlaşdırmada iştirak edən təşkilatlar müvafiq hüquqi, iqtisadi və inzibati məsuliyyət daşıyırlar. Müxtəlif dövlətlərdə sertifikatlaşdırma orqanlarının statusu və strukturu müxtəlifdir. Bu orqanlar dövlət orqanları və ya özəl orqanlar ola bilər.

Sertifikatlaşdırma orqanı sistemində sertifikatlaşdırmanın iştirakçılarını və üzvlərini fərqləndirirlər. Sertifikatlaşdırma sisteminin iştirakçısına sertifikatlaşdırma sistemini idarə etmək hüququ verilmişdir. Sertifikatlaşdırma sisteminin üzvü isə həmin sistemin idarəçiliyi prosesində iştirak edə bilər. Sertifikatlaşdırma orqanı sertifikatlaşdırma sahəsində nəzarət üzrə xüsusi orqan yaradır. Bu orqan məhsul istehsalçısının keyfiyyətin idarə edilməsi sahəsində işini qiymətləndirir. Bir qayda olaraq sertifikatlaşdırma orqanları Avropa Sınaqlar və Sertifikatlaşdırma Təşkilatının (ASST) tələblərinə uyğun fəaliyyət göstərir.



SERVİS – həm sözün geniş mənasında, həm də texniki vasitələrin, məişət aparatlarının, kommunal texnikanın təmiri və sazlanması mənasında xidmət.

SERVİS LİZİNQİ – lizinq verən riskə gedərək texniki əmlak alır və onu müvafiq haqq müqabilində lizinqalanın müvəqqəti sahibliyinə və müəyyən müddətdə onun istifadəsinə verir. Müqavilənin qüvvədə olması müddəti başa çatdıqdan dərhal sonra lizinqin predmeti lizinq verənə qaytarılır. Bu halda, lizinq alan ona əmlak üzərində mülkiyyət hüquqları verilməsinə iddia edə bilməz. Azərbaycan Respublikasının qanunvericiliyinə görə lizinqin predmeti üzərində mülkiyyət hüquqlarının lizinq alana bu şəkildə keçməsi yalnız alqı-satqı əqdi bağlanan halda mümkündür.

Operativ lizinqin xüsusiyyətləri

Beləliklə, operativ lizinqin xüsusiyyəti ondan ibarətdir ki, müqavilənin qüvvədəolma müddəti avadanlığın normativ xidmət müddətindən azdır, yəni bu lizinq öz xərcini tam çıxartmır. Lizinqin bu növü ona görə operativ lizinq adlanır ki, icarəyə verən əmlakı lizinq alana təqdim etməklə həmin avadanlığın sazlanması, təmiri və ona xidmət edilməsi üzrə öhdəlikləri üzərinə götürür. Bu xərcləri icarəyə verən ödəyir, onlar həm də lizinq ödəmələrinə aid edilir. Bu xərclərin həcminin maliyyə lizinqi halındakı xərclərin həcmindən çox olması onunla izah edilir ki, birinci halda, yeni müştərilərin olmaması nəticəsində əmlakın dövriyyədən müvəqqəti çıxarılması və gələcəkdə əmlakın icarəyə verilməsi ilə əlaqədar əlavə risklər nəzərə alınır. Servis lizinqinin obyektləri istismarı üçün işçilərdən yüksək peşəkar hazırlıq, xidmət edilməsi üçün xeyli məsrəf tələb olunan informasiya və hesablama texnikasının mürəkkəb növləri, nəqliyyat vasitələridir. Bu cür obyektlər sıradan çıxdığı halda müəssisələr avadanlığın təmirini qısa müddətdə müstəqil şəkildə heç də həmişə həyata keçirə bilmir. Buna görə də servis lizinqi kiçik müəssisələr üçün xüsusilə cəlbedicidir.

Servis lizinqi sahəsində işin xüsusiyyətləri

Servis lizinqi ilk dəfə ABŞ-da kompüter avadanlığı və təşkilatı texnika istehsalı ilə məşğul olan İBM şirkəti, eləcə də təyyarələr istehsal edən McDonnel-Douglas korporasiyası tətbiq etməyə başlamışdır. Həmin şirkətlər lizinqdən istifadə etmək nəticəsində öz məhsullarının satış kanallarını və bazarlarını xeyli genişləndirmişlər. Servis lizinqinin qüvvədə olma müddəti başa çatdıqdan sonra lizinq verən əmlakı icarəyə vermək məqsədilə yeni müştərilər axtarmaqla məşğul olur. Bazarı tutmaq uğrunda rəqabət mübarizəsi şəraitində lizinq şirkətləri öz xidmətlərinin spektrini daim genişləndirir, o cümlədən icarəçinin mütəxəssislərinin peşəkar hazırlığını və bəzən unikal avadanlığın səmərəli tətbiqini təmin edirlər.

SERVİS RƏHBƏRLƏR – ideyanı məqsədləri ilə yanaşı, daha çox öz işçilərinin tələblərini ödəməyə sərf etməklə fərqlənirlər.

SERVİTUT (lat. *servitus* – öhdəlik, vəzifə, mükəlləfiyyət) – 1. Müəyyən hədlərdə özgə əmlakından qanunla və ya müqavilə ilə müəyyən edilmiş istifadə hüququ (məsələn, hər hansı bir şəxsə məxsus torpaq sahəsindən keçib-getmək hüququ) və ya hər hansı mülkiyyət hüququnun məhdudlaşdırılması (məsələn, qonşunun sahəsini kölgələyə bilən tikilinin inşasına qadağa qoyulması); inzibati servitut xüsusi mülkiyyətdə olan torpaq sahələrinə dövlətin infrastruktur şəbəkələrinin salınması hüququdur. 2. Beynəlxalq hüquqda digər dövlətin xeyrinə bir dövlətin ərazi suverenliyinin məhdudlaşdırılmasıdır.

SESSİON KREDİTİ – kreditin müxtəlif növlərindən biri; onun təqdim edilməsi sedent-kreditora sessionerdən borcun tutulması üzrə öhdəliyi üçüncü şəxsə – sessionariyə ötürmək hüququ verir.

SESSİONARİ – 1. Tələbetmə hüququ verildiyinə görə, kreditor olan şəxs. 2. Maliyyə sərvətləri, yaxud mülkiyyətlə əməliyyatlar aparmaq hüququ ötürülən hüquqi varis. 3. Təkrar sığorta etməyə riski qəbul edən sığorta şirkəti (təkrar sığorta edən).

SESSİONER – riski təkrar sığortaya qəbul edən sığorta (təkrar sığorta) cəmiyyəti; təkrar sığortaçı. Başqa sözlə, müəyyən riski təkrar sığortaya qəbul edən təkrar sığortaçı, sığorta (təkrar) cəmiyyəti.

SESSİYA – çatası faizlərin ödənilməsi ilə bank əmanətinin geri qayıtması tələbi hüquqlarının başqasına verilməsi (satılması). Bir qayda olaraq, əmanət sertifikatlarının indosso edilməsi yolu ilə aparılır. Öz hüquqlarını başqasına verən (satan) sedent, alan şəxs isə sessioner adlanır.

SETLMENT – birja əməliyyatları üzrə hesablaşmalar, birja əməliyyatlarının ləğv edilməsi.

SEY JAN BATİST (1767-1832) – fransız iqtisadçısı, azad ticarətin və dövlətin iqtisadi həyata müdaxilə etməsinin tərəfdarıdır.

Lionda tacir ailəsində anadan olmuşdur. Böyük Britaniyada kommersiya təhsili alaraq Parisdə sığorta cəmiyyətinin kontorunda qulluq etmişdir. Yakobinçilərin hakimiyyətə gəlməsinə qədər Böyük Fransa inqilabında iştirak etmişdir. 1819-cu ildən Paris Universitetində və Fransanın digər tədris müəssisələrində siyasi iqtisad professoru olmuş Sey özünü A.Smitin təliminin şərhçisi və populyarlaşdıranı hesab edirdi.



1803-cü ildə özünün başlıca əsəri olan "Siyasi iqtisadın traktatı"nı dərc etdirmişdir.

Keyns tərəfindən "Ümumi nəzəriyyə" (1936) əsərində şərh edilən Sey qanununun müəllifi kimi məşhurdur. Sey qanununa görə, rəqabətli bazarlar avtomatik şəkildə tam məşğulluğa nail ola biləcək tendensiyaya malikdir.

Sey siyasi iqtisadı üç müstəqil hissəyə bölürdü: istehsal, mülkiyyətin bölgüsü və istehlak. Siyasi iqtisad qanunlarını əbədi qanunlar kimi izah edirdi. D.Rikardonun əmək-dəyər nəzəriyyəsinə qarşı çıxırdı. Sərvətin əmtəə formasını faydalı şeylərin cəmi ilə eyniləşdirir, sərvətin "qiyməti" adlandırırdı.

Onun nəzəriyyəsinə uyğun olaraq, dəyər üç amillə: torpaqla, əməklə və kapitalla yaradılır. Əmək haqqı əməyin, renta torpağın, mənfəət isə kapitalın mükafatıdır. Onun nəzəriyyəsində pul təkcə mübadilə aləti, "məhsulların dəyərini daşıyan araba" deyil, həm də məhsulların mübadiləsi prosesində mühüm rol oynayır. Seyin fikrincə, sənaye böhranları əmtəələrin

həddən artıq çox istehsalına görə yox, bir sıra digər sahələrdə əmtəələrin istehsalının kifayət etməməsi ilə əlaqədar baş verir. Sahələr arasında qarşılıqlı əlaqələrlə bağlı artıq əmtəələrin satışı üçün ən yaxşı vasitə az (çatışmayan həcmdə) istehsal olunmuş məhsulların istehsalının artmasıdır.

Sey fərz edirdi ki, istehsalın inkişafı üçün tələbatların təşviqinə və istehlakçılara daha çox əmək haqqı almağa kömək etmək lazımdır ki, onlar bu əmək haqqına daha çox əmtəə (xidmət) ala bilsinlər.

Seyin bir sıra əsərləri tarixi yanaşması ilə Smitin, sərt analitik kimi Rikardonun, tənqidi fərasəti ilə Maltusun nəzəri keyfiyyətinə əsaslanır. Onun fransız iqtisad elmində rolu A.Smitin fikirlərinin məşhurlaşdırılmasından əlavə, ingilis klassik iqtisad elminin geniş təbliği, ingilislərin təklifə zidd olmaqla, səmərəlilik və tələbin qorunması aksenti ilə xarakterizə olunur.

SEY QANUNU – XIX əsrin birinci yarısının fransız iqtisadçısı J.B.Seyin aşkar etdiyi qanunauyğunluqdur ki, buna uyğun olaraq təklif və onun doğurduğu tələb kəmiyyətcə öz aralarında üst-üstə düşür (uyğun gəlir): Sey qanununa görə, istehsal prosesində istehsal olunmuş məhsulun dəyərinə dəqiq bərabər olan və onun tam reallaşmasını təmin edən milli gəlir yaranır. Sey qanununun tərəfdarları (D.Rikardodan başlayaraq, klassik məktəbin bütün nümayəndələri onun tərəfdarları olmuşlar) təsdiq edirdilər ki, ifrat istehsal və ya yarımçıq istehsal problemi, sadəcə, mənasız problemdir. Bazar sistemində məcmu tələblə məcmu təklif arasında disproporsiyalar ya dövlətin iqtisadiyyata müdaxiləsi nəticəsində, ya da müharibələr, quraqlıqlar, zəlzələlər, siyasi çevrilişlər və s. kimi fövqəladə hallar nəticəsində yarana bilər. Bununla belə, sübut olunurdu ki, bazar sisteminə məxsus özünütənzimləmə qabiliyyəti tezliklə itirilmiş tarazlığı və proporsionallığı bərpa edir. Sey qanununun tərəfdarlarının fikrincə, bu qanunun fəaliyyəti o halda pozulur ki, gəlirlərin bir hissəsi xərclənmir və yığıma (qənaətə) çevrilir. Buna pul bazarı sayəsində nail olunur ki, burada da dəyişən faiz dərəcəsi vasitəsilə yığım (qənaət) investisiyalara çevrilir və onların bərabərliyi təmin edilir. İqtisadiyyat böyük vannaya bənzəyir ki, burada axan boru vasitəsi ilə hər hansı bir yığımın (qənaətin) əskilməsi (axma, tökülmə nəticəsində) investisiyaların kranı vasitəsi ilə geri qayıdır. Sey qanunu K.Marks və onun məktəbi, sonradan isə XX əsrdə C.Keyns və onun ardıcılları tərəfindən geniş tənqidə məruz qalmışdır. Sey qanununun mütləq ədalətli olmasını şübhə altına aldı, ötən əsrin 30-cu illərinin Böyük depressiyasını yaratdı. O, aşağıdakıları nümayiş etdirdi: a) işsizliyin və ifrat istehsalın qeyri-mümkünlüyünə əsaslanan nəzəriyyə ilə real gerçəklik arasında dərin uyğunsuzluq; b) iqtisadi proseslərin dövlət tənzimlənməsinin bəzi formalarının məhsuldarlığı.

SƏBZƏLİYEV SİFARİZ MİRZƏXAN OĞLU (1945) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1980-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində "Şirvan zonasının təsərrüfatlarında istehsal fondlarının uçotu və təhlilinin təkmilləşdirilməsi" mövzusunda namizədlik, 2005-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində "Bazar şəraitində maliyyə hesabatının formalaşmasının konseptual əsasları, onların beynəlxalq standartlara uyğunlaşdırılması" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Elə həmin ildən də universitetin professorudur. 140-dan çox elmi əsərin, o cümlədən 4 dərslik, 4 monoqrafiyanın müəllifidir. 30-a yaxın elmi məqaləsi xaricdə çap olunmuşdur.

Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin "Mühasibat uçotu" kafedrasının müdiridir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 sentyabr tarixli sərəncamına əsasən ona təhsilin inkişafındakı xidmətlərinə görə "Əməkdar müəllim" fəxri adı verilmişdir.

SƏCİYYƏVİ RİSK – yalnız bir iqtisadi agentə təsir edən risklərə deyilir.

SƏFALƏT – fizioloji minimumdan aşağı olan yoxsulluğun, kasıblığın son aşağı həddi.

SƏFƏROV QƏNİMƏT ƏSƏD OĞLU (1951) – Azərbaycan iqtisadçısı, i.e.d. 1973-cü ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir.



1986-cı ildə Ufa Neft İnstitutunun İxtisaslaşdırılmış Elmi Şurasında namizədlik, 2005-ci ildə isə "Neftqazçıxarmada istehsal səmərəliliyinin iqtisadi problemləri və onların həlli yolları" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1990-2008-ci illərdə "Neftqazelmitədqiqatlayihə" İnstitutunda laboratoriya müdiri, direktorun iqtisadiyyat sahəsində elmi işlər üzrə müavini işləmişdir.

Onun elmi maraq dairəsi: neft yataqlarının işlənməsi və neft hasilatının iqtisadi problemləri; neft quyularının qazılması və geologiyanın iqtisadi problemləri; investisiya layihələrinin iqtisadi qiymətləndirilməsi; iqtisadiyyatda iqtisadi-riyazi və iqtisadi-statistik üsulların tətbiqi; riski nəzərə almaqla müxtəlif situasiyalarda iqtisadi qərarların qəbulu və s. əhatə edir.

2 monoqrafiya, 1 kollektiv kitab və 100-dən artıq elmi məqalənin müəllifidir.

Hazırda "Neftqazelmitədqiqatlayihə" İnstitutunun "Layihələrinin iqtisadi qiymətləndirilməsi" şöbəsinin rəisi vəzifəsində çalışır.

SƏFƏROV SƏTTAR İSMAYIL OĞLU (1937-2011) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof. 1970-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Elmi Şurasında "İş gününün qısaldılmasının iqtisadi əsaslarına dair" mövzusunda namizədlik, 1984-cü



ildə Moskva şəhərində Sov. İKP nəzdindəki İctimai Elmlər Akademiyasında "Üstqurum amillərinin iqtisadi münasibətlərin təkmilləşdirilməsi və inkişafına təsiri probleminə dair" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

S.Səfərov 200-dən artıq çap vərəqi həcmində çoxsaylı kitab və məqalənin müəllifidir. Onun elmi əsərləri üçün analitik ümumiləşdirmələr, bir çox ciddi problemlərə özünəməxsus yanaşma xarakterikdir. Professor S.Səfərov Azərbaycan iqtisad elmində qeyri-iqtisadi amillərin iqtisadi inkişafda rolu, büdcə-vergi, pul-kredit, qiymət-tarif siyasətinin təkmilləşdirilməsi, milli istehsalın stimullaşdırılması, iqtisadiyyatın pula tələbatının ödənilməsi məsələlərinə dair ciddi elmi mülahizələrin müəllifidir.

1995-ci ildə Azərbaycan Kooperasiya Universitetinin rektoru vəzifəsində işləmişdir. S.Səfərov 1995-2005-ci illərdə Milli Məclisin deputatı olmuş, əvvəlcə Büdcə Məsələləri, sonra isə İqtisadi Siyasət daimi Komissiyalarına sədrlik etmişdir. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru olmuşdur.

SƏHİYYƏ – Müxtəlif tarixi mənbələrdə, o cümlədən "Avesta"da əks olunan məlumatlardan aydın olur ki, tarixi Azərbaycan ərazilərində – e.ə. 7-4 əsrlərdə Midiyada 7 və e.ə. 4 əsrdən başlayaraq Atropatenada yaşayış məskənlərinin, içməli su mənbələrinin təmizliyinə, ərzaq məhsullarının keyfiyyətinə nəzarət edən, müharibələrdə yaralananlara tibbi yardım göstərən həkimlərin mövcul olmuş, tibbin müxtəlif sahələri, o cümlədən cərrahlıq, mamalıq, sınıqçılıq, diş və göz həkimliyi, təbii vasitələrlə müalicə, dərmanşünaslıq və s. sahələr inkişaf etmişdi. Görkəmli yunan alimi Alkmeon tarixi Azərbaycan ərazilərində həkimlik peşəsinin təkmilləşdirilməsində, anatomiya, cərrahiyyə və digər sahələrin inkişafına mühüm xidmət göstərmişdir. Orta əsrlərdə dünya tibb elminin inkişafında Azərbaycan alimlərinin də böyük rolu olmuşdur. Ömər Osmanoğlu dəri xəstəliklərinin, ürək, qara ciyər və s. daxili orqanların müalicəsində yeni üsullar tətbiq etmiş, orqanoterapiyanın əsasını qoymuşdur. İsa əl-Rahi Tiflisi insanların xəstələnməsinin sosial amillərdən asılılığını göstərmiş, özünün "Tibb" əsəri ilə həkimlik peşəsinin inkişafına təkan vermişdir. Mahmud ibn İlyas "Tibbnamə" əsəri ilə müasir dərmanşünaslığın əsasını qoymuş, dərman preparatlarının hazırlanması və tətbiqi sahəsində mühüm yeniliklər etmiş, xəstəxanaların düzgün və rasional yerləşdirilməsi və tikilməsini layihələşdirmişdir.

XI əsrdə yaşamış İbn Sinanın yazdığı 450-yə qədər əsər dünya tibb elminə bir çox yeniliklər gətirmişdir. Onun tibbə dair əsərlərini ilk tətbiq edən XII əsrin görkəmli Azərbaycan alimi Nəcməddin Əhməd Naxçıvani



Səhiyyə Nazirliyinin yeni inzibati binası

Prezident İlham Əliyev Səhiyyə Nazirliyinin yeni inzibati binası ilə tanış olur





24 saat 365 gün ərzində Respublika Səhiyyə Nazirliyinin Ambulans və Təcili Tibbi Yardım Xidməti təcrübəli və dinamik tibbi heyət ilə birlikdə həm xəstəxana şəraitində, həm də hadisə yerində fasiləsiz və operativ olaraq təcili tibbi yardım xidməti göstərir

olmuşdur. XIII əsrin əvvəllərində Təbrizdə maarif müəssisələri, tibb məntəqələri, elmi idarələri, kitabxanası olan "Dar üş-Şəfa" ("Şəfa evi") yaradılmışdı. Burada azərbaycanlılarla yanaşı Çin, Hindistan, Suriya, Misir və s. ölkələrdən dəvət olunmuş alimlər çalışırdılar. XIX əsrin sonlarına kimi səhiyyənin inkişaf səviyyəsi əhalinin tələbatına uyğun deyildir. Şəhər və kəndlərdə vəba, çiçək, yatalaq kimi yoluxucu xəstəliklər geniş yayılmışdı.

Şimali Azərbaycan Rusiyanın tərkibinə daxil edildikdən sonra səhiyyə sahəsində islahatlara başlanılsa da, bu proses müalicə ocaqlarının və tibb kadrlarının çatışmaması ucbatından çox ləng gedirdi. İslahatları sürətləndirmək məqsədilə 1891-ci ildə Bakı şəhər Həkimlər Cəmiyyəti yaradıldı. Cəmiyyətin səmərəli fəaliyyətində Mirzəməmmədqulu Qayıbov, Məmmədrza Vəkilov və Mirəsədulla Mirqasımovun mühüm xidmətləri olmuşdur. 1910-cu ildə Azərbaycanın kənd yerlərində 198 çarpayılıq 33 xəstəxana, 33 feldşer məntəqəsi fəaliyyət göstərirdi. Şəhər səhiyyə məntəqələri isə qəza mərkəzləri olan Bakı və Yelizavetpol (indiki Gəncə) şəhərlərində mövcud idi.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə səhiyyə sistemində böyük irəliləyişlər baş verdi: Səhiyyə Nazirliyi təşkil olundu və Xudadat bəy Rəfibəyov nazir təyin edildi. Nazirliyin tərkibinə tibbi statistika, şəhər və məhkəmə tibbi, əczaçılıq, kənd səhiyyəsi, baytarlıq və sanitariya şöbələri daxil idi. Bu dövrdə əhaliyə pulsuz tibbi xidmət göstərilir, kənd yerlərində yeni müalicəxanalar və tibb məntəqələri açılır, dərman anbarları yaradılır və avadanlıqlar alınırdı. 1919-cu ildə Bakı Universitetində tibb fakültəsinin açılması ilə Azərbaycanda səhiyyənin inkişaf təməli qoyuldu. 1920-ci ildən başlayaraq Azərbaycanda ölkənin səhiyyə sistemində dəyişikliklər baş verdi. Yoluxucu xəstəliklərlə mübarizə üçün Xalq Səhiyyə Komissarlığı, Bakıda Bakteriologiya və Tropik Xəstəliklər Elmi Tədqiqat İnstitutu, feldşer-mama məktəbləri, Bakı Soveti nəzdində şəhər səhiyyə şöbəsi yaradıldı. Bu dövrdə əsas problemlərdən biri də müalicə-profilaktika müəssisələrini tibb kadrları ilə təmin etməkdən ibarət idi. Ona görə 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsi əsasında Azərbaycan Dövlət Tibb İnstitutu yaradıldı. 1935-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun və orta tibb məktəblərinin açılması tibb tibb işçilərinin sayının artmasına səbəb oldu. İkinci Dünya müharibəsi illərində Respublika Səhiyyə Komissarlığı tərəfindən ixtisaslaşdırılmış hospitallar yaradıldı, yüksəkixtisaslı kadrlar hazırlandı, mükəmməl tibb xidmət, yeni diaqnostika və müalicə üsulları tətbiq edildi. Akademik Mustafa Topçubaşov və b.-nın təşəbbüsü ilə Bakıda 600 çarpayılıq neyrocərrahiyyə hospitalı açıldı. 1946-cı ildə müharibə əlilləri üçün Ortopediya və Bərpa Cərrahiyyəsi Elmi Tədqiqat İnstitutu yaradıldı. Müharibə dövründə və sonrakı illərdə geniş yayılan səpgili yatalaq, brusellyoz, göbələk xəstəliklərinə qarşı ciddi mübarizə tədbirləri görüldü.

1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlişi səhiyyədə də canlanma yaratdı. Tibb işçilərinin nəzəri-təcrübi nailiyyətlərinin səmərəliliyini təmin etmək üçün səhiyyənin ayrı-ayrı sahələri üzrə qurultay, konqres və konfranslar keçirildi, yüksəkixtisaslı həkim və alim kadrlar hazırladı. Respublikada profilaktik tibbin tələbinə uyğun kurort-sanatoriya şəbəkələrinin genişləndirilməsinə, səhiyyə işçilərinin ixtisaslaşmasına diqqətin artırılması və s. səhiyyənin təxirəsalınmaz məsələləri kimi qarşıya qoyuldu və həll edildi. Əksər rayonlarda xəstəxanalar, poliklinikalar inşa edildi və ya onların yerləşdiyi binalar əsaslı təmir olundu. Ana və uşaqlara tibbi xidmətin vəziyyətinin yaxşılaşdırılması üçün 1870-1875-ci illərdə respublikada uşaq xəstəxanaları və poliklinikalarının sayı 150-dən 186-ya çatdırıldı. 1972-1982-ci illərdə şəhər və rayonlarda fəaliyyət göstərən xəstəxana və poliklinikaların, dispanser və tibb məntəqələrinin 46,5%-i yeni binalarla təmin edildi. Urologiya Klinik Xəstəxanası, Neyrocərrahiyyə Mərkəzi, Toksikologiya Mərkəzi, Yanıq Mərkəzi, Əlillərin Reabilitasiya Mərkəzi və digər müasir tipli müəssisələr açıldı. Oftalmologiya və Onkologiya Elmi Tədqiqat İnstitutları üçün yeni binaların inşasına başlandı, yüzlərlə müasir səhiyyə obyektləri inşa edildi. Tibb müəssisələrinin yarıdan çoxu yenidən quruldu, ambulatoriya-poliklinika şəbəkəsi genişləndirildi, kənd səhiy-



Sosialist Əməyi Qəhrəmanı akademik Mustafa Topçubaşov, prof. İbrahim Topçubaşov və texnika elmləri namizədi Arif Quliyev (1968-ci il)

Yeni tibb avadanlığının tətbiqi barədə fikir mübadiləsi



Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının açılışında akademik Adilə Namazovanın dövlət başçısı ilə söhbəti



yəsi yüksək inkişaf səfiyyəsinə çatdırıldı. Bakıda və digər şəhərlərdə istifadəyə verilmiş müasir tibbi mərkəzlər ən yeni ləvazimatlarla, cihaz və avadanlıqlarla təchiz edildi. SSRİ-nin dağılmasından sonrakı illərdə Azərbaycanda səhiyyənin səviyyəsi aşağı düşdü. Heydər Əliyeyin yenidən hakimiyyətə qayıdışı ilə səhiyyədə geniş islahatlar proqramı işlənib hazırlandı, səhiyyənin qanunvericilik bazası təkmilləşdirildi, bu sahədə 15 qanun qəbul edildi, özəl səhiyyə sistemi tətbiq olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanına (2003) uyğun olaraq səhiyyə sahəsində yeni islahatlara başlanmışdır.

Tibbi sığorta. Sovet hakimiyyəti dövründə büdcə təminatı üzərində qurulmuş maliyyə sistemi əhalinin tibbi yardıma olan tələbatını kifayət qədər ödəmək iqtidarında olmamışdır. Vətəndaşlara ödənişsiz tibbi xidmət göstərilməsi sahəsində dövlət öhdəlikləri daha çox deklarativ xarakter daşıyırdı. Tibbi sığorta sosial sığortanın tərkib hissəsi olmaqla, əhalinin sağlamlığının qorunması sahəsində büdcə təminatının məhdudluğu şəraitində aztəminatlı təbəqənin tibbi yardıma olan ehtiyacının ödənilməsində və əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Beynəlxalq praktikada geniş yayılmış tibbi sığorta mahiyyət etibarilə həmrəylik prinsiplərinə əsaslanaraq, sığorta fondunun yaradılması və "unvanlı maliyyələşmə" prinsipinin həyata keçirilməsi vəzifəsini qarşıya qoyur. Respublikada 1999-cu ildə "Tibbi sığorta haqqında" qanun qəbul olunmuşdur. 2002-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə "Tibbi sığorta şəhadətnaməsinin forması və onun tətbiqi qaydaları", "İcbari tibbi sığorta üzrə müqavilənin forması" müəyyən edilmiş, digər normativ sənədlərin hazırlanmasına başlanılmışdır. Bununla yanaşı, 10-dək könüllü tibbi sığorta şirkəti yaradılmış, əhalinin məcburi tibbi sığortası prinsipləri müəyyənləşdirilmişdir.

Xəstələnmə. XX əsrin əvvəllərində Rusiya imperiyasında əhali arasında kəskin yoluxucu xəstəliklərin yayılmasına görə Azərbaycan ilk yerlərdən birini tuturdu. Kəskin bağırsaq xəstəlikləri, səpgili və qayıdan yatalaqlar, yoluxucu uşaq xəstəlikləri geniş yayılmışdı. Təbii çiçək, vəba, taun xəstəlikləri isə dövri olaraq epidemiya xarakteri daşıyırdı. 1921-ci ildə Bakıda vəba ilə 1190, səpgili və qayıdan yatalaqla 3541 xəstələnmə halları qeydə alınmışdı. Malyariya ilə xəstələnmə daha yüksək səviyyədə idi. Kəskin yoluxucu xəstəliklərdən qrip, qızılca, göy öskürək, qızılazar (skarlatina) və s. təsadüf edildi. 1941-45-ci illərdə səpgili yatalaq, vərəm, brusellyoz xəstəlikləri epidemiya şəklində yayılmışdı. XX əsrin 50-ci illərində əhalinin ümumi xəstələnmələri strukturunda dəyişikliklər baş vermiş, infeksion və parazitar xəstəliklərin payı azalmışdı. 2005-ci ildə əhalinin ümumi xəstələnmələri strukturunda ilk yeri tənəffüs sistemi xəstəlikləri, ikinci yeri yoluxucu və parazitar xəstəliklər, üçüncü yeri isə qan dövranı sisteminin xəstəlikləri tutmuşdur. 1995-2005-ci illərdə ümumi xəstələnmə böyüklərdə uşaqlardan 1,2 dəfə yüksək olmuşdur. Bu dövrdə yoluxucu və parazitar xəstəliklər 12,0% azalmış, həzm sistemi xəstəlikləri 16,0%, sidik-cinsiyyət sistemi xəstəlikləri 20,0% artmış, qan və qanyaradan orqanların xəstəlikləri uşaqlarda 1,5, böyüklərdə isə 3 dəfə çoxalmışdır.

1995-2005-ci illərdə Azərbaycanda bədxassəli şişlərlə xəstələnmə azalmağa meyilliliklə səciyyələnmişdir (bu göstəricilər kişilərdə 3,0%, qadınlarda 5,0% azalmışdır). 2005-ci ildə bədxassəli şişlərlə xəstələnmənin strukturunda birinci 5 yeri kişilərdə – ağ ciyər, mədə, qida borusu, qara ciyər xərçəngləri və hemoblastozlar, qadınlarda isə süd vəzisi, mədə, uşaqlıq boynu, uşaqlıq cismi xərçəngləri və hemoblastozlar tutmuşdur. Psixi pozuntuları olan xəstələrin sayı 1995-2005-ci illərdə kişilərdə 1,5 dəfə, qadınlarda 2,8 dəfə, psixonevroloji dispanserlər tərəfindən qeydiyyata götürülən xəstələrin sayı 37,0% artmışdır. Bu dövrdə psixi xəstəliklər böyüklərdə 38,0%, uşaqlarda 19% çoxalmışdır. 2003-cü ildən başlayaraq respublikada vərəmlə xəstələnmə azalmağa meyllilklə səciyyələnir. 1995-2005-ci illərdə vərəmlə xəstələnmə halları 23% azalmış, 2005-ci ildə əhalinin hər 100 min nəfərinə xəstələnmə göstəricisi 44 təşkil etmişdir. 2000-2005 illərdə vərəmdən ölüm 2,9 dəfə azalmışdır.



Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi

Akademik Mirməmməd Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanası



Ölüm. Bütün səbəblər üzrə ölüm kişilərdə qadınlardan yüksəkdir. 1990-2005-ci illərdə ölümün dinamikasında 2 dövr ayırd edilir: ölüm göstəricisi 1990-1995-ci illərdə 10,7% artmış, 1996-2005-ci illərdə isə 0,5% azalmışdır. 1995-2005-ci illərdə əhalinin hər 100 min nəfərinə ölüm göstəricisi qan dövranı sistemi xəstəlikləri üzrə 340,6-dan 355,3-ə (4,3%), yenitörəmələr üzrə 62,9-dan 77,2-yə (22,7%), həzm orqanları xəstəlikləri üzrə 34,9-dan 37,7-yə (8,0%) artmış, bədbəxt hadisələr, zəhərlənmə və zədələr 46,5-dən 32,6-ya (29,9%), tənəffüs orqanlarının xəstəlikləri 86,3-dən 37,1-ə (57,0%) enmişdir. 2005-ci ildə Azərbaycanda ölümə səbəb 56,6% hallarda qan dövranı sistemi xəstəlikləri, 5,9% tənəffüs orqanları, 6,0% həzm orqanları, 2,7% endokrin sistemi xəstəlikləri, 2,1% infeksion və parazitar xəstəliklər, 5,2% bədbəxt hadisələr, zəhərlənmə və zədələr 12,3%, yenitörəmələr və s. olmuşdur.

Tibb kadrları. XX əsrin əvvəlində Azərbaycanda 353 həkim və 450 orta tibb işçisi var idi, yəni əhalinin 10 min nəfərinə 1,5 həkim və 1,9 orta tibb işçisi düşürdü. 2005-ci ildə isə respublikada əhalinin sağlamlığının qorunması işi ilə bütün müəssisələr üzrə 30,6 min həkim və 60,8 min orta tibb işçisi məşğul olmuşdur. Əhalinin hər 10 min nəfərinə düşən həkimlərin sayı 36,8, orta tibb işçilərinin sayı isə 73,1 olmuşdur. 1995-2005-ci illərdə həkimlərlə orta tibb işçilərinin say nisbəti azalmış və 1996-cı ildə 1:2,3 2005-ci ildə isə 1:2,0 təşkil etmişdir. Respublika üçün tibb kadrlarının hazırlanması ilə Azərbaycan Tibb Universiteti və bəzi özəl universitetlərin müvafiq fakültələri, həkimlərin təkmilləşdirilməsi və ixtisaslarının artırılması ilə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu məşğul olur.

Sanitariya-epidemiologiya xidməti. Azərbaycanda sanitariya xidməti XX əsrin əvvəllərində yalnız qəza mərkəzlərində yaradılmışdı. Bakıda 9 (o cümlədən, neft-mədən rayonlarında 3), Gəncədə 3 sanitar həkimi işləyirdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920) əhalinin sağlamlığının qorunması üçün əlverişli şəraitin yaradılması və antisanitariya ilə mübarizə yeni yaranmış Səhiyyə Nazirliyinin fəaliyyətinin əsas istiqamətlərini təşkil edirdi. Ölkədə inzibati ərazilərin sayına uyğun olaraq 15 həkim-epidemioloq vəzifəsi təsis edildi. Səhiyyə nazirliyi və onun nəzdində yaradılmış yatalaq epidemiyasına qarşı xüsusi komitə epidemiyanın yayılmasını dayandırmağa, böyük şəhərlərdə və qəzalarda isə onu ləğv etməyə nail oldu. 1920-1921-ci illərdə Azərbaycan hökuməti kəskin yoluxucu xəstəliklərlə mübarizə tədbirləri haqqın bir sıra qərarlar qəbul etdi, vəba ilə mübarizə aparmaq üçün fövqəladə komissiya yaratdı. 1926-cı ildə bütün şəhər və qəzalarda sanitar həkim vəzifələri təsis edildi. 1934-cü ildə respublikanın sanitariya orqanları, sanitariya-epidemiologiya stansiyaları təşkil edildi, səhiyyə maarifinin işi yenidən quruldu, sanitariya müfəttişliyi yaradıldı. İkinci dünya müharibəsi dövründə sanitariya-epidemiologiya xidməti respublika əhalisinin və qoşunların sağlamlığını, xalq təsərrüfatının bütün sahələrinin fasiləsiz işləməsini təmin etmişdir. Müharibədən sonrakı respublikada sanitariya-epidemiologiya xidməti tərəfindən atmosferin, suyun və torpağın müxtəlif istehsalat tullantıları ilə çirklənməsinə, eləcə də əhalinin istifadə etdiyi içməli su və yeyinti məhsullarına dövlət sanitariya nəzarəti təmin olunmuş və təkmilləşdirilmişdir.

XX əsrin 20-ci illərinin sonunda peyvənd materialları ilə təminatda fasilələrin yaranması vəziyyəti gərginləşdirmiş, lakin uşaqların immunizasiya işi dayandırılmamışdı. XX əsrin 90-cı illərinin əvvəllindən başlayaraq bir sıra infeksion xəstəliklərə, o cümlədən difteriyaya və poliomielitə tutulma halları çoxalmışdır. 1993-cü ildə Ümumdünya Səhiyyə Təşkilatı və BMT-nin Uşaq Fondunun köməyi ilə təhlükəsiz immunizasiya praktikası sistemi yaradıldı. Respublika əhalisi infeksion xəstəliklərə qarşı peyvəndə cəlb edildi. Nəticədə 1996-cı ildə difteriya xəstəliyi 1995-ci ilə nisbətən 6 dəfə azaldı. 2002-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı Avropanın bütün ölkələrində poliovirusun ötürülməsinin dayandırıldığını elan etmiş, Azərbaycana da poliomielitdən azad ərazi kimi sertifikat vermişdir. Malyariya xəstəliyi əleyhinə də genişmiqyaslı profilaktik tədbirlər görülmüşdür. Azərbaycanda malyariya ilə xəstələnmə səviyyəsi XX əsrin 90-cı illərinin ortalarında yüksək olmuş, lakin



Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev akademik Böyükkişi Ağayevə səhiyyənin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordenini təqdim edir (1999-cu il)

Tibb elmləri doktoru, professor Fəxrəddin Cavadov Prezident İlham Əliyevə regionda istifadəyə verilmiş xəstəxananın müasir laboratoriyaları barədə məlumat verir (2007-ci il)



Tibb elmləri doktoru, professor, oftolmoloq Çingiz Cərullazadə və İmran Cərullazadə xəstəni müayinə edərkən





aparılan kompleks tədbirlər nəticəsində qısa müddətdə azaldılmışdır. 2005-ci ildə malyariya ilə xəstələnmə əhalinin hər 100 min nəfərinə 2,9 olmuşdur. Hazırda respublika ərazisində vəba, qarayara, tulyaremiya, epidemik parotitin xeyli azalması yoluxucu xəstəliklərlə mübarizə strategiyasının düzgün qurulmasını göstərir. Viruslu hepatit xəstəliyinə qarşı da ciddi tədbirlər görülmüşdür. "Qlobal Fond"un yardımı ilə Azərbaycanda 2001-ci ildən B hepatiti əleyhinə vaksinasiya kampaniyasına başlanmışdır.

Dövlət sanitariya-epidemiologiya xidməti idarələrinin vahid sisteminə Səhiyyə Nazirliyinin Sanitariya-Epidemiologiya Nəzarəti sektoru, Respublika Gigiyena və Epidemiologiya Mərkəzi, Respublika Taun Əleyhinə Stansiyası, Respublika Sanitariya-Karantin Müfəttişliyi, Naxçıvan MR Gigiyena və Epidemiologiya Mərkəzi, inzibati şəhər və rayonlardakı, eləcə də su nəqliyyatındakı gigiyena və epidemiologiya mərkəzləri daxildir. Sanitariya-epidemiologiya xidməti sahəsində Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutu da fəaliyyət göstərir. Bu sahədə 2127 həkim və ali təhsilli digər mütəxəssis, 6061 orta tibb işçisi çalışırdı.

Əhaliyə tibbi xidmətin təşkili. Stasionar tibbi xidmət. 1920-ci ildə Azərbaycanda cəmi 2000-ə yaxın çarpayısı olan 41 xəstəxana var idi (əhalinin hər 10 min nəfərinə 10,1 çarpayı), 2005-ci ildə stasionar tibbi xidmət göstərən müəssisələrin sayı 729, çarpayıların sayı 68,9 min (əhalinin hər 10 min nəfərinə 82,9 çarpayı) olmuşdur. Hazırda bir çox ixtisaslaşdırılmış mərkəzlər (onkologiya, neyrocərrahiyyə, uşaq stomotologiyası, toksikologiya və s.), iri çoxprofilli xəstəxanalar, özəl tibb müəssisələri yaradılmış və bu, çarpayı fondundan daha səmərəli istifadə etməyə, müalicə yardımının keyfiyyətini yaxşılaşdırmağa imkan vermişdir. Şəhər və rayon xəstəxanalarının çoxunda intensiv müalicə palataları, reanimasiya şöbələri təşkil edilmişdir. Respublikada Diaqnostika Mərkəzi, Mərkəzi Klinik Xəstəxana fəaliyyət göstərir, lazer cərrahiyyəsi tətbiq olunur.

Ambulatoriya-poliklinika yardımı. XX əsrin əvvəllərində Azərbaycanda ambulatoriyalar yalnız Bakı, Gəncə və qəza mərkəzində mövcud idi. Hazırda respublikanın şəhər və kəndlərində əhalini pulsuz və ixtisaslaşdırılmış tibbi yardımla təmin edən sahə prinsipi və dispanser üsulu əsasında qurulmuş 1595-dən artıq ambulator-poliklinika müəssisəsi fəaliyyət göstərir. Profilaktika müəssisələrinin sayı əvvəlki illərə nisbətən xeyli artmışdır. Sənaye müəssisələrində çalışanlara tibbi yardımı yaxşılaşdırmaq, peşə xəstəlikləri və travmalara qarşı profilaktik tədbirləri gücləndirmək məqsədilə tibbi-profilaktik səhiyyə hissələri və s. həkim məntəqələri təşkil edilmişdir. Ölkədə çoxsaylı təcili və təxirəsalınmaz yardım xəstəxanaları və stansiyaları fəaliyyət göstərir. Təcili yardım stansiyaları yeni texnoloji avadanlıqlarla təchiz edilmiş, müxtəlif ixtisaslar üzrə həkim briqadaları yaradılmışdır. Respublikada sanitar aviasiyası da mövcuddur ki, bu da kənd əhalisinə təkmilləşdirilmiş və yüksəkixtisaslı tibbi yardım göstərilməsini, mürəkkəb cərrahi əməliyyatların icra edilməsi üçün xəstələrin Bakı şəhərində yerləşən tibb müəssisələrinə vaxtında çatdırılmasını təmin edir.

Ana və uşaqlara müalicə-profilaktika yardımı. Azərbaycanda ana və uşaqların mühafizəsinin dövlət sistemi qadınlara uşaqların tərbiyəsi ilə və ictimai əməklə məşğul olmağa imkan verir. Bu sistem hamiləliyə qədər, hamiləlik və hamiləlikdən sonrakı dövrdə qadınların, həmçinin yenidoğulanların, məktəbəqədər və məktəbyaşlı uşaqların sağlamlığının mühafizəsi və onun yaxşılaşdırılmasına xidmət göstərir. 1920-ci ilə qədər yalnız Bakıda 40 çarpayılıq yeganə doğum evi var idi və burada əhaliyə pullu yardım göstərilirdi. Sonralar döğum evlərinin şəbəkəsi genişləndirildi, xəstəxanalarda mama-ginekologiya şöbələri, kəndlərdə isə feldşer-mama məntəqələri və kolxoz doğum evləri təşkil edildi. Burada bütün hamilə qadınlar doğuşa qədər müayinə edilir və doğuş zamanı stasionar yardımla təmin olunurdu. 2005-ci ildən respublikada hamilə və doğmuş qadınlar üçün 7442 çarpayılıq yer ayrılmışdır. Respublikada uşaq xəstəxanaları, poliklinikalar, ümumi xəstəxanaların uşaq şöbələri, sanatoriyalar, körpələr evi, bağçalar, gigiyena və epidemiologiya mərkəzlərinin uşaq və yeniyetmələr gigiyenası şöbələri uşaq sağlamlığını təmin edir. Uşaqlar üçün ixtisaslaşdırılmış (nevroloji,



Milli Onkologiya Mərkəzinin Heydər Əliyev Fondunun dəstəyi ilə yeni tikilmiş uşaq klinikasının açılışı





Tibb Elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvi Sudeyif İmamverdiyev Beynəlxalq Elmi Konfransda

cərrahiyyə və s.) tibb mərkəzləri və şöbələri təşkil edilmiş, Bakıda Birləşmiş Uşaq Xəstəxanası yaradılmışdır. 1995-2005-ci illərdə erkən neonatal ölüm, 0-5 yaşa qədər uşaq ölümu, eləcə də ana ölümü göstəriciləri və abortlar xeyli azalmışdır.

Azərbaycan Respublikasında 2005-ci ildə əhalinin sayı 1988-ci ilə nisbətən 1,2 dəfə artmışdır. Əhalinin hər 1000 nəfərinə doğum 17,2 nəfər, təbii artım 10,1 nəfər, ölüm 6,3 nəfər olmuş, hər 1000 nəfər diri doğulan uşaqlar arasında ölüm 9,3 nəfər təşkil etmişdir. Orta ömür uzunluğu 2005-ci ildə 72,5 il olmuşdur.

Aptek işi. Azərbaycanda 1920-ci ildə cəmi 29 əczaçı var idi. 2005-ci ildə isə artıq 4600 nəfər ali və orta təhsilli əczaçı fəaliyyət göstərirdi. 1984-cü ildə Bakı şəhərində (İçərişəhərdə) ilk Yaşıl aptek açılmışdır və burada dərman bitkiləri və s. təbii müalicə vasitələri satılır. 1995-ci ildə əhaliyə 1050 aptek xidmət edirdi, 2005-ci ildə isə aptek müəssisələrinin sayı 1500-ə çatmışdır. 2000-ci ildə respublikada 60-a qədər topdansatış əczaçılıq müəssisəsi qeydə alınmışdı. Son illər əczaçılıq sahəsində aparılan islahatlar çərçivəsində dövlət apteklərinin böyük bir qismi özəlləşdirilmişdir. Dərmanların idxalı və satışının özəl əczaçılıq şirkətləri tərəfindən həyata keçirilməsi, eləcə də respublikaya idxal olunan dərman preparatlarının sertifikatlaşdırılması təmin edilmişdir. Hazırda topdansatış əczaçılıq müəssisələrinin 3%-ni dövlət, 97%-ni özəl müəssisələr təşkil edir. Pərakəndə satış müəssisələrinin isə 20%-i dövlət, 80%-i özəldir. 1995-ci ildə əhalinin hər 7500 nəfərinə 1 aptek xidmət edirdi, 2005-ci ildə isə hər 5300 nəfərə 1 aptek xidmət etmişdir. Apteklərdə həkim resepti (nüsxə) əsasında hazırlanan dərmanların sayı 20%-dən 1-1,5%-ədək azalmışdır.

Sanatoriya-kurort müalicəsi. Azərbaycanın təbii-iqlim şəraiti sanatoriya-kurort müalicəsi üçün geniş imkanlar açmışdır. Xəzər dənizinin qərb sahilləri narın qumlu çimərliklərlə zəngindir. Respublika ərazisində, xüsusilə də dağlıq rayonlarda 60-dan çox müxtəlif mineral su mənbələri mövcuddur. Naftalan, İstisu, Qalaaltı, Şuşa, Mərdəkan, Buzovna, Bilgəh və s. yerlər mühüm balneoloji əhəmiyyətə malikdir. Bakıda Sağlamlıq Zonası fəaliyyət göstərir. Xəzər dənizi sahillərində və dağ-iqlim zonalarında istirahət evləri, turist düşərgələri şəbəkəsi yaradılmışdır. Respublikada beynəlxalq turist marşrutlarının sayı artmışdır.

Səhiyyə sahəsində beynəlxalq əlaqələr. Azərbaycan həkimləri və alimləri bir sıra xarici ölkələrdə səhiyyə idarələrinin təşkilində, açılmasında, əhaliyə tibbi yardımın göstərilməsində, tibb elminin inkişafı və epidemiyalara qarşı mübarizə tədbirlərində, eləcə də beynəlxalq konqres, qurultay, simpozium və konfransların işində fəal iştirak edirlər. Azərbaycan səhiyyəsinin beynəlxalq əlaqələri tələbə və aspirantların xarici ölkələrdə təhsil alması, həmin ölkələr üçün həkimlərin və elmi kadrların hazırlanması, Azərbaycan Tibb Universitetinin beynəlxalq assosiasiyalarda iştirakı istiqamətində inkişaf edir. Hazırda Azərbaycan Tibb Universitetində Türkiyə, İran, İordaniya, Fələstin, Livan, Almaniya, Suriya, Səudiyyə Ərəbistanı, Sudan, Pakistan, Hindistan və s. ölkələrdən 250-yə yaxın xarici vətəndaş müxtəlif ixtisaslar üzrə təhsil alır.

Azərbaycan Dövlət Tibb Universitetinin professor-müəllim heyəti, aspirantları və yuxarı kurs tələbələri Almaniyanın akademik mübadilə xidmətinin DAAD proqramı, Avropa İttifaqı çərçivəsində fəaliyyət göstərən TEMPUS proqramı, Amerikanın HUMPHREY və FULBRAYT proqramlarında iştirak edirlər. Təhsil sahəsində müxtəlif ölkələrlə İnternet əlaqələri davam etdirilir. Ümumdünya səhiyyə strukturlarına inteqrasiyanı sürətləndirmək məqsədilə Azərbaycan Dövlət Tibb Universitetində tədrisin Azərbaycan və rus dilləri ilə yanaşı, ingilis dilində də aparılmasına başlanılmışdır.

YUNİSEF və Avropa İqtisadi Birliyi ilə birlikdə aparılan araşdırmalar nəticəsində respublika əhalisi arasında yod çatışmazlığı xəstəliklərinin, dəmir defisitli anemiyanın və A vitamini çatışmazlığının artması aşkar edilmişdir. Buna əsasən duzun universal yodlaşdırılması haqqında qanun qəbul edilmiş, respublikada yodlaşdırılmış duzun istehsalı və realizasiyası təmin olunmuşdur. Azərbaycanda unun zənginləşdirilməsinə (dəmir, sink və B qrupu vitaminləri ilə) başlanmış, 2004-cü ildə 5 yaşadək uşaqlar və hamilə qadınların A vitamini ilə kütləvi

immunizasiyası həyata keçirilmişdir.

Respublika Mərkəzi Klinik Xəstəxanasında elmi tədqiqat işlərinin, ən mürəkkəb cərrahi əməliyyatların, keyfiyyətli müalicə üsullarının yerinə yetirilməsi üçün beynəlxalq standartlara uyğun şərait yaradılmışdır. Burada plastik cərrahiyyə, ürək-damar cərrahiyyəsi (aorta-koronar şuntlama) aparılır, süni mayalanma tətbiq edilir, sümük iliyi köçürülür və s. mürəkkəb əməliyyatlar yerinə yetirilir. İhsan Doğramacı, Maykl Debeyki, Cavad Heyət və b. dünya şöhrətli alimlərin Azərbaycan alimləri ilə dəfələrlə qarşılıqlı ünsiyyətdə olması Azərbaycan tibb elminin artan nüfuzunu təsdiq edir. Bütün bunlara 35 ilə yaxın müddətdə Azərbaycan Respublikasına rəhbərlik etmiş ümummilli lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində mümkün olmuşdur.

Ədəbiyyat: И.К.Эфендиев. История медицины в Азербайджане. Б., 1964; М.А.Ибрагимов. Здравоохранение Советского Азербайджана. М., 1967; М.Ф.Эфендиев, М.Ф.Эфендиев, А.Д.Мехтиев. Развитие научной медицинской мысли в Азербайджане Б., 1999.

Kurortologiya – Azərbaycanda kurortologiyanın kökləri qədim xalq təbabətinə bağlıdır. Hələ 12-ci əsrdə İstisu mineral mənbələrindən və Naftalan neftindən xəstəliklərin müalicəsində istifadə olunurdu. Lakin Azərbaycanda kurortologiyanın konkret bir sahə kimi formalaşması XIX əsrin sonu – XX əsrin əvvəllərinə təsadüf edir. 1925-ci ildə Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığının əmri ilə komissarlığın tərkibində kurort bölməsi yaradıldı. 1926-cı ildə müalicəvi Naftalan nefti yatağı bərpa olundu, 1927-ci ildə İstisu kurortu fəaliyyətə başladı, 1928-ci ildə Xankəndi və Şuşa şəhərləri dövlət əhəmiyyətli kurort statusu aldı. 1929-cu ildə Naftalan kurortu, 1930-cu ildə isə Abşeron yarımadasında Mərdəkan, Buzovna, Bilgəh, Suraxanı və s. kurortlar yaradıldı. Kurort zonalarına aid əsərlər (D.İlyin. Lənkəranın mineral suları. Bakı, 1866; P.M.Smirnov. Müalicəvi Naftalan nefti haqqında. Bakı, 1915; V.İ.Olenov. Azərbaycan kurortları. 1928 və s.) nəşr olunmağa başladı.

1930-cu illərdən başlayaraq Kiçik Qafqazın kurort zonalarında (Kəlbəcər, Şuşa və Laçın) müxtəlif qruplu karbon qazlı çoxsaylı müalicəvi mineral su mənbələri aşkar edildi, 1940-cı illərin əvvəllərindən isə Naxçıvan MR-in mineral su mənbələrinin (Sirab, Badamlı, Darıdağ, Vayxır, Nəhcir və s.) öyrənilməsinə başlanıldı. 1954-1970-ci illərdə akademik Mirəli Qaşqayın rəhbərliyi ilə aparılan geoloji kəşfiyyat işləri nəticəsində Yuxarı İstisudan 20-30 km aralı, Tutqunçay vadisində eyniadlı su mənbəyi, Qarasu, Mozçay, Qoturlu ərazilərində fiziki-kimyəvi tərkibinə görə Borjomi, Sirab və dolomitli Narzan sularına oxşar güclü müalicə təsirli mineral su mənbələri aşkar edildi. Həmin dövrdə Aşağı İstisu sahəsində zəif mərgmüşlü (0,02-0,05 mq/l), karbon qazlı, hidrokarbonatlı-sulfidli-natriumlu, hipertermal (62°C) məşhur Karlovı-Varı suyunun analoqu olan su mənbələri tapıldı. Azərbaycanda kurort amillərinin aşkar edilməsi, onların fiziki-kimyəvi xüsusiyyətlərinin tədqiqi və müalicə təsirinin öyrənilməsi, kurortlar üçün kadrların hazırlanması məqsədilə 1935-ci ildə Elmi Tədqiqat Balneofizioterapiya İnstitutu (indiki Azərbaycan Elmi Tədqiqat Tibbi Bərpa İnstitutu) yaradıldı. Burada İstisu, Şamaxı, Turşsu, Göygöl, Hacıkənd, Xaldan, Abşeron və s. kimi kurort yerlərinin Badamlı, Sirab, Darıdağ mineral su mənbələri ərazilərinin iqlim-balneoloji ehtiyatlarının öyrənilməsi üçün elmi ekspedisiyalar təşkil edildi, Azərbaycanın kurort amillərindən istifadə edərək müalicə üsullarının hazırlanması, onların insan orqanizminə təsiri öyrənildi. Müalicə üçün qatransızlaşdırılmış Naftalan neftindən və mastikasından, müalicəvi palçıqdan (peloidoterapiya), hidroterapiyadan və müxtəlif fizioterapevtik cihazlardan istifadə edilir.

Hələ 1935-ci ildə Naftalan kurortunda 150 yerlik sanatoriya, vanna binası və yaz-yay aylarında ambulator şəraitdə işləyən poliklinika fəaliyyət göstərirdi. 1938-ci ildə akademik Abdulla Qarayevin təşəbbüsü ilə dünyada yeganə müalicə nefti sayılan Naftalan neftinin orqanizmə təsiri və Azərbaycanın digər balneoloji amilləri də öyrənilməyə başlandı. 20 əsrin 60-cı illərində Bakıda bitkilər, dəniz iqlimi və təbii amillərlə müalicə aparan və indi də səmərəli fəaliyyət göstərən "Sağlamlıq zonası" yaradıldı. Azərbaycanda kurortologiyanın intensiv inkişafı XX əsrin 70-ci illərindən başlan-

mışdır. Yalama-Nabran, Qalaltı, Naftalan, İstisu, Şuşa, Naxçıvan MR-də sanatoriya-kurort müəssisələrinin tikintisi ilə əlaqədar "Sanatoriya-kurort müalicəsinin daha da yaxşılaşdırılması tədbirləri haqqında" (1972), "Şuşa şəhərində kurort kompleksinin gələcək inkişaf tədbirləri haqqında" (1976), "Azərbaycan SSR Xəzər dənizi sahilində ümumittifaq əhəmiyyətli kurort zonalarının yaradılması tədbirləri haqqında" (1982), "Azərbaycan SSR-də "Çıraqqala" kurortunun inkişafı tədbirləri haqqında" (1984) və s. mühüm qərarlar qəbul edildi. Kurortlarda insanların istirahəti, yaşayışı və müalicəsini təmin edən müəssisələr (sanatoriyalar, istirahət evləri, pansionatlar, balneoloji və palçıq müalicəxanaları, kurort poliklinikaları, reabilitasiya mərkəzləri), mühafizə zonası və digər kurort infrastrukturları təşkil olundu. Respublikada sanatoriya-kurort müalicəsi və istirahətinin təşkili elmi cəhətdən əsaslandırıldı. XX əsrin 90-cı illərindən kurort zonalarında müasir tipli özəl istirahət və müalicə ocaqları yaranır, müalicəvi turizm şirkətləri şəbəkəsi inkişaf edir. "Kurort" Səhmdar Cəmiyyətinin sanatoriyası və istirahət evləri fəaliyyət göstərir (2006).

Azərbaycanda əsas müalicə amilinə görə balneoloji və iqlim kurortları ayırd edilir, lakin kurortların əksəriyyəti bir çox hallarda iqlim-balneoloji kurort kimi dəyərləndirilir.

Respublikada, əsas müalicə amili kimi mineral sulardan, palçıqdan, Naftalan neftindən və iqlimdən istifadə olunur.

Müalicəvi mineral suları Azərbaycanda balneoloji xüsusiyyətinə görə dünyada qəbul olunmuş 8 qrup mineral suyun bütün növləri (1600-dən artıq mənbə) mövcuddur. 150-dən artıq mineral suyun ("Badamlı", "Sirab", "Qax", "Vayxır", "İstisu", "Şıx", "Qalaaltı", "Carlı", "Darıdağ" və s.) tərkibi və balneoloji xüsusiyyətləri hərtərəfli öyrənilmiş və kadastr şəklində toplanmışdır. Müalicəvi palçığın üç növü mövcuddur. Azərbaycan vulkan palçıqları ehtiyatlarına görə dünyada birinci yeri tutur. Masazır və Zığ göllərindən çıxan lil palçığından, Naxçıvan MR-dəki Batabat lilindən və torf palçığından müalicə məqsədilə istifadə olunur.

Müalicəvi iqlim amilləri dəniz iqlimi, dağ iqlimi və səhra iqlimidir. Müalicəvi Naftalan nefti ağır neftlər qrupuna aiddir (xüsusi çəkisi 0,92-0,97 q/cm^2) və dünyada analoqu olmayan yüksək müalicə əhəmiyyətli təbii amildir. Tərkibi naften və aromatik karbohidrogenlərdən, naften turşularından, qatranlardan, sudan ibarətdir. Müalicəvi əhəmiyyəti ağrıkəsici, iltihab əlehyinə, damargenəldici, immun sisteminə stimuləedici təsirindən ibarətdir. Naftalan nefti ilə müalicə vanna, yaxma, tampon şəklində və müxtəlif fizioterapevtik amillərlə birgə aparılır. Naftalan nefti dayaq-hərəkət, periferik sinir, qan-damar sistemləri, burun-boğaz-qulaq, dəri, ginekoloji və uroloji xəstəliklərin müalicəsində təyin edilir.

Azərbaycan Respublikasının ərazisi kurort amillərinin xüsusiyyətinə görə şərti olaraq 5 kurort zonasına bölünür:

Böyük Qafqaz zonası mülayim isti və quru dağ iqlimlidir. Orta temperatur yanvarda 0-3°C, iyulda 20-25°C-dir. Bu zonada 30-dan artıq termal və soyuq, kükürdlü (əsasən, Qax, İsmayıllı və Şamaxı rayonlarının ərazilərində) və tərkibində üzvi maddələr olan, zəif minerallaşmış (Dəvəçi rayonunda Qalaaltı kurortu) mineral su yataqları mövcuddur. Respublikada geniş yayılmış palçıq vulkanları bu zonada yerləşir (Qobustan rayonu).

Qalaaltı dəniz səviyyəsindən 600-700 m yüksəklikdə, sıx meşə zolağında yerləşən iqlim-balneoloji kurortdur. Neft mənşəli, tərkibində üzvi maddələr olan, zəif minerallaşmış sular qrupuna aid ("Naftusi" tipli) içməli su kurortun əsas müalicə amilidir. Qara ciyər və öd yolları, mədə-bağırsaq, böyrək və sidik yolları xəstəliklərinin, podaqranın nəticəsi üçün yararlıdır. Sanatoriya fəaliyyət göstərir. İlisu kurortunda termal, Ağsay, Süskənd kurortlarında isə (hamısı Qax rayonundadır) hidrokarbonatlı-kalsiumlu içməli və soyuq zəif minerallaşmış sularla balneoloji müalicə aparılır. Kurortlarda sanatoriya və pansionat fəaliyyət göstərir. Burada mədə-bağırsaq xəstəlikləri müalicə olunur.

İsmayıllı rayonundakı kurortlar dağ iqlimlidir. Bədo, Diyallı, Namazgah bulaqlarının sularından müalicə məqsədilə istifadə olunur. Bədo soyuq, zəif qələvili, az minerallaşmış (0,8 q/l), xloridli-hidrokarbonatlı-natriumlu-kalsiumlu-maqneziumlu-silisiumlu mineral su kimi dəyərləndirilir. Mədə-bağırsaq

və öd yolları xəstəliklərinin müalicəsində istifadə olunur. Diyallı azotlu, yüksək mineral-laşmış, yodlu-bromlu-silisiumlu içməli sudur. İstirahət evləri fəaliyyət göstərir. Namazgah metanlı, zəif minerallaşmış (0,3 q/l), sulfidli, müalicəvi süfrə suyudur.

Çuxuryurd Çağan (Şamaxı rayonu) balneoloji-iqlim kurortlarıdır. Müalicə soyuq və termal sulfidli- hidrokarbonatlı-natriumlu sularla vanna şəklində və daxilə qəbul etməklə aparılır. Əsasən, dayaq-hərəkət, periferik sinir, tənəffüs sistemi xəstəliklərinin müalicəsində istifadə olunur. Altıağac (Xızı rayonu) da balneoloji-iqlim kurortudur. Əsas müalicə amilləri dağ iqlimi və içməli xlorlu-natriumlu mineral sulardır. Maddələr mübadiləsinin pozulması və tənəffüs sistemi xəstəliklərinin müalicəsində istifadə edilir. İstirahət evləri fəaliyyət göstərir.

Kiçik Qafqaz zonası, əsasən zəngin balneoloji kurortlarla, karbonat turşulu mineral sularla fərqlənir. Şəfalı iqlimə malikdir. Qışı quru və mülayim (yanvarda temepuratur -6°C-dən -3°C-dək müşahidə olunur), iyulda orta temperatur +20° – +25°C, yağıntı ildə 750 mm təşkil edir. Burada nadir təbii müalicə amili kimi tanınan Naftalan nefti mədənləri yerləşir.

Naftalan kurortu, Goranboy rayonunun dağətəyi ərazisində yerləşir, dəniz səviyyəsindən 400 m yüksəklikdədir. Müalicə vanna, yaxud naftalan sürtməsi şəklində aparılır. Yüksək müalicəvi təsirə malik olan Naftalan nefti bir çox xəstəliklərin müalicəsi üçün istifadə olunur.

İstisu kurortu Kəlbəcər rayonunda balneoloji və dağ-iqlim kurortudur. Tərtər çayının sağ sahilində 2200 m yüksəklikdə yerləşir. Yüksək balneoloji əhəmiyyətli mineral sular tərkibinə görə karbon qazlı, hidrokarbonatlı-xloridli-sulfidli-natriumlu-kalsiumlu sular qrupuna məxsusdur (minerallaşması 5,7-7 q/l, temperaturu 58-65°C təşkil edir). Müalicə vanna şəklində və daxilə qəbul etməklə aparılır. Kurortda radonlu suların yataqları da mövcuddur (160-380 HKu/l). Bu sular İstisudan 1,5-2 km aralı, 2400 m yüksəklikdə yerləşən Bağırsaq adlı ərazidə bulaq kimi üzə çıxır. Balneoloji xüsusiyyətlərinə görə mədə-bağırsaq, qara ciyər və öd yolları, böyrək, maddələr mübadiləsi xəstəliklərinin müalicəsində istifadə olunur.

Tutqunçay kurortu Kəlbəcər rayonundakı Tutqunçay sahilində 1500-1600 m yüksəklikdə yerləşir. Əsas müalicə amili termal (19-50°C), karbon qazlı, hidrokarbonatlı-natriumlu-kalsiumlu (minerallaşması 3-4 q/l) sulardır. Müalicə vanna şəklində və daxilə qəbul etməklə aparılır. Hərəkət aparatı, periferik sinir və mədə-bağırsaq sistemi xəstəliklərinin müalicəsində istifadə olunur.

Şuşa dağ-iqlim və balneoloji kurortu 1500 m yüksəklikdə yerləşir. Balneoloji amil kimi karbon qazlı, dəmirli (minerallaşması 2,7 q/l) Şırlan mineral sulardan istifadə edilir. Bu mineral sulardan mədə-bağırsaq, qanazlığı, tənəffüs orqanları və sinir sistemi xəstəliklərinin müalicəsində istifadə olunur.

Hacıkənd-Göygöl dağ-iqlim kurortu Gəncədən 25 km aralı, meşəliklərlə əhatə olunmuş ərazidə yerləşir. İstirahət evi fəaliyyət göstərir.

Xəzər dənizinin Azərbaycana məxsus sahil zonası iqlim və balneoloji xüsusiyyətlərinə görə 3 kurort sahəsinə bölünür.

Xudat-Yalama zolağı (Nabran kurortu) qumlu çimərliklərlə, meşələrlə, yodlu-bromlu su ehtiyatları ilə zəngindir, istirahət və müalicə üçün əlverişlidir. Çoxsaylı istirahət evləri fəaliyyət göstərir.

Abşeron yarımadası zolağı Mərdəkan, Şıx, Bilgəh, Zuğulba, Buzovna, Suraxanı kurortlarından ibarətdir. Müalicə dəniz iqlimi ilə yanaşı müxtəlif mineral sularla (Suraxanı kükürdlü suları, Şıx termal sulfidli suyu, çoxsaylı yodlu-bromlu su mənbələri) da aparılır. Masazır və Zığ lil palçıqlarından müalicə üçün istifadə olunur. Çoxprofilli sanatoriyalar və bərpa müəssisələri fəaliyyət göstərir. Mədə-bağırsaq, sinir sistemi, kardioloji, artroloji, uroloji xəstəliklərin müalicəsində istifadə edilir.

Lənkəran-Astara subtropik zolağı. Müalicəvi suyu olan "Meşəsu" bulağı Lənkəranın 12 km-də yerləşir. Masallıda "Ərkivan" istisuyu, termal (45-65°C), sulfidli-xloridli-natriumlu-kalsiumlu, spesifik komponentləri olmayan su çıxır. Astarada isə metanlı, yüksək minerallaşmış (22 q/l), spesifik komponentləri olmayan termal (49°C) "Alaşa" adlı su mənbələri var. Kurortlarda, sanatoriyalarda və ambulatoriya şəraitində dayaq-hərəkət, periferik sinir, qan-damar sistemlərinin xəstəlikləri müalicə olunur. Zonanın dağlıq his-

səsində (Lerik rayonunda) yerləşmiş "Bülüdül", "Zərinqala" və s. mineral su bulaqlarından müalicəvi süfrə suyu qismində istifadə edilir.

Naxçıvan MR kurortları. Mineral sularla zəngin bölgədə (150-dək bulaq) müalicə üçün əhəmiyyətli olan Badamlı, Darıdağ, Sirab və Vayxır kurortları fəaliyyət göstərir.

Badamlı balneoloji kurortu Şahbuz rayonunda, Dərələyəz dağ silsiləsinin yamacında yerləşir. Bulaqlarının suyu karbon qazlı, hidrokarbonatlı-natriumlu-kalsiumludur. Müalicəvi süfrə suyu kimi dəyərləndirilir. Həzm orqanlarına müalicəvi təsir edir.

Darıdağ balneoloji kurortu Culfa şəhərindən 8 km şərqdə, 1200 m yüksəklikdə yerləşir. Darıdağ mərgmüş yatağında yüksək minerallaşmış karbon qazlı, hidrokarbonatlı-xloridli-natriumlu-mərgmüşlü su çıxır. Müalicə vanna şəklində və daxilə qəbul etməklə aparılır. Burada ürək-damar, maddələr mübadiləsi, qanazlığı, oynaq və ginekoloji xəstəliklər müalicə olunur.

Sirab balneoloji kurortu Babək rayonunun Sirab kəndi yaxınlığında yerləşir. Tərkibi Borjomi, Narzan sularına yaxın olan karbon qazlı, hidrokarbonatlı-natriumlu-kalsiumlu içməli mineral sulardır. Mədə-bağırsıq, qara ciyər və öd yolları, maddələr mübadiləsi xəstəliklərinin müalicəsində istifadə olunur.

Vayxır balneoloji kurortu Naxçıvan şəhərinin 18 km-liyində, Naxçıvan-Şahbuz magistralının kənarında yerləşir. Əsas müalicə amilini Yessentuki tipli karbon qazlı, hidrokarbonatlı-xloridli-kalsiumlu-natriumlu mineral sular təşkil edir və içməli müalicə suyu kimi istifadə olunur. Müalicə vanna şəklində və daxilə qəbul etməklə aparılır.

Kür-Araz çökəkliyi kurortları. "Carlı" balneoloji kurortu Kürdəmir rayonunda yerləşir. Əsas müalicə amili metanlı-azotlu, yüksək minerallaşmış (35 q/l), silisiumlu-yodlu-bromlu termal sudur (95°C). Müasir tipli sanatoriya fəaliyyət göstərir.

Neftçala rayonunda metanlı, çox yüksək minerallaşmış (200 q/l), yodlu-bromlu termal (42°C) su ehtiyatları mövcuddur. Vanna şəklində istifadəyə yararlıdır.

Ədəbiyyat: M.A.Кашкай. Минеральные источники Азербайджанской ССР. Б., 1952; А.Г.Аскеров. Минеральные источники Açербайджанской ССР. Б., 1954; С.А.Гултева, С.А.Гулиева. Уникальные лечебная нафталановая нефть. Б., 1981; R.İ.Əliquliyev, M.M.İsmayılova, A.R.Əliquliyev. Naxçıvan MR-in mineral suları. B., 2002.

Əlişir Musayev,
Sevda Nəsrullayeva

SƏHİYYƏNİN İQTİSADİYYATI – səhiyyə sahəsində təsərrüfat fəaliyyətinin formaları, metodları və nəticələri haqqında iqtisadi biliklər kompleksidir. Səhiyyənin iqtisadiyyatının predmeti tibbi yardım göstərilməsi, yəni peşəkar tibbi fəaliyyət prosesində obyektiv formalaşan və yaranan iqtisadi münasibətlərdir.

Bu iqtisadi münasibətlərin hansı səviyyədə – səhiyyə sisteminin daxilində, yoxsa ondan kənarda nəzərdən keçirilməsindən asılı olaraq, onları makroiqtisadi, midiiqtisadi və mikroiqtisadi münasibətlərə bölmək mümkündür.

Makroiqtisadi səviyyədə münasibətlər bütövlükdə milli iqtisadiyyat çərçivəsində və hər şeydən əvvəl, bilavasitə səhiyyə ilə bağlı sahələrdə formalaşır (belə sahələrin sayı təxminən otuzdur). Beləliklə, makroiqtisadiyyat səhiyyə sisteminin dövlətlə, bütövlükdə cəmiyyətlə və təsərrüfatın başqa sahələri ilə qarşılıqlı təsirini öyrənir.


Makroiqtisadi səviyyə cəmiyyətin siyasi və sosial-iqtisadi quruluşunun universal qanunlarını, mövcud iqtisadi sistemdə tibbi təşkilatların nizamnamə fəaliyyətinin həyata keçirilməsinin əsas prinsiplərini nəzərdə tutur.

Midiiqtisadi səviyyədə iqtisadiyyatın vahid funksional məsələsinin – əhalinin sağlamlığının qorunması və möhkəmlədilməsi məsələsinin həlli ilə bağlı bir sıra yarımsahələri, istehsalat və ixtisaslaşmaları əhatə edən bir sahəsi olan səhiyyə sisteminin daxilində təsərrüfat əlaqələri tədqiq olunur.

Mikroiqtisadi səviyyə ayrılıqda götürülmüş hər bir müalicə-profilaktika idarəsinin, müəssisəsinin, onun tərkib hissələrinin və strukturlarının fəaliyyətini əhatə edir.

Mikroiqtisadi (praktik) səviyyədə tibbi fəaliyyətin həyata keçirilməsi ilə bağlı konkret qanunauyğunluqlar: maliyyələşdirmə, qiymət mexanizmi, əmək haqqı, investisiya və innovasiya siyasətinin əsasları, tibbi əməyin xüsusiyyətləri reallaşır. Tibb işçilərinin əməyinin idarə edilməsi, onların real əmək töhfəsinin və əməyinin səmərəliliyinin qiy-

İnkişaf etmiş ölkələrdə səhiyyəyə çəkilən xərclər (ÜDM-də xüsusi çəkisi, faizlə)



Qrafik 1

mətləndirilməsi. İşçilərin əməyinin keyfiyyətinə və nəticəsinə uyğun olaraq onun ödənilməsi və stimullaşdırılması səhiyyədə mikroiqtisadi təhlilin ən mühüm problemləridir.

Səhiyyənin iqtisadiyyatının metodları. Səhiyyənin iqtisadiyyatı idrak metodlarının geniş spektrindən istifadə edir:

1. Analiz və sintez metodları.
2. Riyazi və statistik metodlar.
3. Balans metodu.
4. Proqnozlaşdırma metodu.
5. Eksperimental metod.


Analiz və sintez. Analiz prosesində təfəkkür ümumidən xüsusiyə doğru hərəkət edir. Yəni tədqiq olunan hadisə onu təşkil edən hissələrə və tərəflərə ayrılır. Sintez ən mühüm qanunauyğunluqları aşkar etmək üçün ayrı-ayrı anlayışların, xassələrin ümumiyə inteqrasiyasını nəzərdə tutur.

Riyazi və statistik metodlar iqtisadi dəyişənlər arasında kəmiyyət əlaqəsini üzə çıxarmağa kömək edirlər. Səhiyyənin iqtisadiyyatı proseslərin kəmiyyət dəyişikliklərini üzə çıxarmaqla, həm də kəmiyyətin yeni keyfiyyətə keçməsini tədqiq edir. Riyazi və statistik analiz yalnız təhlil edilən predmetin keyfiyyət məzmunu ilə sıx bağlı olduğu halda real əlaqələri üzə çıxarmağa imkan verir.

Balans metodu iqtisadi hesablama metodlarının məcmusudur. Bu metod hər hansı tərkib hissələr arasında (məsələn, tibbi xidmətlərin bu və ya digər növünə, tibbi texnikaya, maliyyə resurslarına tələbat və onların təmin edilməsi imkanları arasında; büdcənin mədaxil və məxaric hissələri arasında və s.) dəqiq müəyyən olunmuş kəmiyyət nisbətlərinin təminatı üçün istifadə edilir.

Proqnozlaşdırma metodu səhiyyə sahəsinin vəziyyətində, cəmiyyətin tibbi xidmətlərə tələbatında, təbabətin istehsal imkanlarında, sahənin texniki tərəqqi istiqamətlərində və s. ən çox ehtimal edilən dəyişiklikləri elmi uzaqgörənliklə sezmək deməkdir. Proqnozlaşdırma işin ilkin mərhələsidir. O, hər hansı məqsədlərə nail olmaq üçün həlli lazım olan problemləri qabaqcadan görməyə imkan verir.

Eksperimental metod bir neçə regionun və ya ayrı-ayrı tibb müəssisələrinin nümunəsində səhiyyə sisteminin səmərəsini artırmağın bu və ya digər formalarının axtarışını təşkil edir və praktik baxımdan böyük əhəmiyyət daşıyır.



Cədvəl 1

Dünyanın ən iri əczaçılıq şirkətləri (2010-cu il)

	Şirkətin adı	Ölkə	Satış həcmi, mlrd. dollar	ETTKİ-nin həcmi, mlrd. dollar	Məşğul olanların sayı, min nəfər
1	Novartis	İsveçrə	53,3	7,1	138
2	Pfizer	ABŞ	48,4	7,6	122,2
3	Bayer	Almaniya	44,2	1,8	106,2
4	GlaxoSmith Kline	Böyük Britaniya	42,8	6,4	106
5	Johnson & Johnson	ABŞ	37,0	5,3	102,7
6	Sanofi-Aventis	Fransa	35,6	5,5	100,7
7	Hoffman-La Roche	İsveçrə	33,5	5,3	100,3
8	AstraZeneca	Böyük Britaniya	26,5	3,9	50,0
9	Merck & Co	ABŞ	22,6	3,9	74,3
10	Abbott Laboratories	ABŞ	22,5	2,3	66,8
11	Wyeth	ABŞ	20,3	3,1	66,7
12	Bristol-Myers Squibb	ABŞ	17,9	3,1	60,0
13	Eli Lilly and Company	ABŞ	15,7	3,1	50,0
14	Amgen	ABŞ	14,3	3,4	48,0
15	Boehringer Ingelheim	Almaniya	13,3	2,0	43,0
16	Shering-Plough	ABŞ	10,6	2,2	43,0
17	Baxter İnternational	ABŞ	10,4	0,6	38,4
18	Takeda Pharma-ceutical Co.	Yaponiya	10,3	1,6	15,0
19	Genentech	ABŞ	9,2	1,8	33,5
20	Procter & Gamble	ABŞ	8,9	-	29,3
	Cəmi		**497,5**	**70,8**	**1342**




Səhiyyənin iqtisadiyyatının ümumi məqsədi peşəkar tibbi fəaliyyətin həyata keçirilməsi prosesində obyektiv yaranan iqtisadi münasibətlərin və təsərrüfat əlaqələrinin öyrənilməsidir.


Bu ümumi məqsəd çərçivəsində səhiyyə iqtisadiyyatının qarşısında duran konkret məsələləri seçmək və onları bir neçə problem qrupu şəklində birləşdirmək olar.

Məsələlərin birinci qrupu göstərilməli səhiyyə xidmətlərinin növlərini, bu xidmətlərin kimə və hansı təşkilatı-hüquqi formalardan istifadə edilməklə gös-

Dünyanın səhiyyəyə ən çox xərc çəkən 20 ölkəsi
(ÜDM-ə nisbətən faizlə)



Qrafik 1



Qrafik 2

tərilməli olduğunu müəyyənləşdirir. Bu problemlərin həlli baxımından, səhiyyənin iqtisadiyyatı müalicə-profilaktika prosesinin bütün mərhələlərində təsərrüfatçılıq şərtlərini və metodlarını nəzərdən keçirir. Hər şeydən əvvəl, potensial pasiyentlərin tərkibini, onların tibbi xidmətlərə ehtiyaclarının strukturunu, maliyyə imkanlarını aşkar etmək və bundan asılı olaraq öz peşəkar fəaliyyətinin təsərrüfat tipini müəyyənləşdirmək lazımdır. Hər bir konkret halda hansı tibbi müəssisənin təşkilinin daha məqsədəuyğun olduğunu müəyyən etmək vacibdir.

Məsələn, müəssisə əhaliyə yeni bir xidmət (masaj, ultrasəs müayinələrinin aparılması, kosmetoloji xidmətlər və s.) təqdimatı haqqında məsələni həll edərkən xidmətlərin bu növlərinə tələbatı, pasiyentlərin cəlbi (reklam, başqa tibbi müəssisələrlə, sənaye müəssisələri ilə müqavilə və s.), xidmətlərin göstərilməsi qaydasını (pullu xidmətlər, məcburi və ya könüllü tibbi sığorta müqavilələri üzrə xidmətlər) müəyyənləşdirilməlidir.

Məsələlərin ikinci qrupu tibbi xidmətlərin müəyyən növünün resurs bazasının tədqiqatını əhatə edir. Bununla əlaqədar səhiyyə iqtisadiyyatı təbabətdə təsərrüfat fəaliyyəti amillərinin öyrənilməsi (maddi-texniki bazanın

tədqiqatı, istifadə edilməli resursların strukturunun üzə çıxarılması, tibbi müəssisənin əsas və dövriyyə vəsaitlərinin tərkibinin və faiz nisbətinin, onların tətbiqləşdirilməsi xüsusiyyətlərinin müəyyən olunması) ilə məşğul olur. Tibbi müəssisənin fəaliyyətinin kadr təminatı məsələsi həll edilir, əmək resurslarının strukturu və peşəkar mütəxəssislərin işə cəlbinin iqtisadi formaları (əmək müqaviləsi, kontrakt, əsas yoxsa əlavə iş yeri, əmək haqqının səviyyəsi və s.) müəyyənləşir.

Məsələlərin üçüncü qrupu göstərilən xidmətlərin haqqının ödənilməsi ilə bağlıdır. Səhiyyə iqtisadiyyatı bu sahədə investisiya prosesinin müxtəlif imkanlarından və növlərindən istifadə edir. Səhiyyə fəaliyyətinin və inkişafının təmin edilməsinə vəsait qoyan investor qrupları aşağıdakılardır:

– dövlət;
– tibbi sığorta təşkilatları;
– pasiyentlərin özləri.


İnvestisiya mənbələrinin bu üç qrupuna uyğun olaraq, səhiyyənin maliyyələşdirilməsinin aşağıdakı sistemləri vardır:

– büdcə sistemi;
– sığorta sistemi;
– özəl sistem.

Məsələlərin dördüncü qrupu peşəkar fəaliyyətin və iqtisadi fəaliyyətin gözlənilən nəticələrini qabaqcadan müəyyən edir. Bu halda, *iqtisadi optimallaşdırma*, yəni aşağıda göstərilən amillərdən səmərəli istifadə yolları haqqında təsəvvürə malik olmaq lazımdır:

– tibbi əməyin amilləri;
– pul vəsaitləri;
– müxtəlif peşələr və ixtisaslar üzrə cəlb edilmiş işçilər.

Dünya əczacılıq istehsalının regional strukturu (2010-cu il, %-lə)



Qrafik 3

Məsələlərin beşinci qrupu müalicə-profilaktika müəssisəsinin fəaliyyətinin əldə edilmiş (faktiki) nəticəsinin müəyyən edilməsi ilə bağlıdır. Səhiyyə sahəsindəki bütün qeyri-müəyyənliklərə və gözlənilməzliklərə baxmayaraq, hər halda faktiki nəticələri hesablamaq yenə də mümkündür. Bunun üçün səhiyyənin iqtisadiyyatı bu sahənin iqtisadi normativ bazasının yaradılması ilə məşğul olur.

Bu normativ bazadan aşağıdakı məqsədlər üçün istifadə olunur:

– birincisi, bu və ya digər müalicə-profilaktika müəssisəsinin fəaliyyətinin start şəraitinin müəyyən edilməsi üçün;
– ikincisi, konkret tibbi müəssisənin və ya özəl təcrübə keçirən həkimin cari maliyyə-iqtisadi vəziyyətinin təhlil edilməsi üçün;
– üçüncüsü, göstəricilər sistemi təkcə müəyyən konkret anda iqtisadi vəziyyətin təsbit edilməsi üçün deyil, həm də tibbi müəssisənin fəaliyyətinin bu və ya digər parametrlərinin dəyişmə dinamikasına nəzarət üçün tətbiq edilir;
– dördüncüsü, eyni təhlil bütövlükdə sahəyə, yarımsahəyə və ya regiona tətbiqən həyata keçirilə bilər;
– beşincisi, təhlil edilən göstəricilərin məzmunu məlum olduqda, hesablamaların metodikası haqqında təsəvvür olduqda, bütövlükdə əhalinin və ya pasiyentlər qrupunun sağlamlığının vəziyyətində baş vermiş dəyişiklikləri müəyyənləşdirmək və müvafiq sosial-iqtisadi təshihlər etmək olar.

Məsələlərin altıncı qrupu tibbi müəssisələrdə iqtisadi proseslərin idarə edilməsindən ibarətdir. İqtisadi fəaliyyətin idarə edilməsi bu fəaliyyətin idarə oluna bilməsinin dərəcəsini və şəraitini, həmçinin, idarəçilik fəaliyyətinin həyata keçirilməsi metodlarını əhatə edir.

Məsələlərin yeddinci qrupu tibbi xidmətlər sahəsində tələb, təklif və qiymətləndirmə, tibbi marketinq, reklam, iqtisadi emblematika (əmtəə nişanları, firma adları, simvollar və s.), istehlak-



"AvroMed" Şirkəti

çının psixologiyası və fövqəladə əhəmiyyətli bir sıra başqa məsələləri əhatə edir.

Sosialyönümlü bazar iqtisadiyyatı, eyni zamanda səhiyyə sahəsinin də inkişafını tələb edir. Azərbaycanda səhiyyənin inkişafına özəl strukturlar öz töhfələrini verməkdədirlər. Aşağıda özəl səhiyyə şirkətlərinin timsalında əczaçılıq şirkəti haqqında məlumatlar verilmişdir.

"AvroMed" Şirkəti – əsası 2001-ci ildə qoyulmuşdur. Dünyanın aparıcı beynəlxalq istehsalçıları ilə bağladığı birbaşa müqavilələr əsasında əczaçılıq məhsullarını Azərbaycan bazarına gətirən ən böyük idxalçılardan biri. Fəaliyyətinin ilk ili ərzində "AvroMed" Avropanın 20-dən çox əczaçılıq şirkətinin distribütoru olmuş və 2003-cü ilin sonuna şirkətin gəlirlərinin artması onun Avropa və Amerika əczaçılıq şirkətləri ilə münasibətlərinin genişlənməsinə gətirib çıxarmışdır. Hazırda "AvroMed" şirkəti dünyanın 42 ölkəsində yerləşən 200-dən çox şirkətin məhsullarını Azərbaycan əczaçılıq bazarına təqdim edir.

Daha sonra Azərbaycanın müxtəlif şəhərlərində yaradılan regional satış bazaları şirkət məhsullarının milli miqyasda təklif edilməsi üçün böyük potensial yaratmışdır. Hazırda "AvroMed" şirkətinin mərkəzi ofisi (1500 m^2) və mərkəzi anbarları (4500 m^2) Bakı şəhərində yerləşir. Gəncə, Sumqayıt, Mingəçevir, Şamaxı, Şirvan, Lənkəran, Şəki şəhərlərində paylayıcı şəbəkələri fəaliyyət göstərir. Azərbaycan bazarında ən geniş çeşid (prays listi 14000-dən artıq addan ibarətdir) təqdim edən "AvroMed" şirkəti səhiyyə və müdafiə nazirliklərinin tibbi ləvazimatlar ilə təchiz edir, 1420 aptek, onlardan 900-ü dövlət aptekinə müstəsna olaraq xidmət göstərir. Şirkət tərəfindən 42 ölkədən 200 təchizatçılarla əməkdaşlıq nəticəsində 105 klinika və xəstəxanaya xidmət göstərilir. 2010-cu ildə dövriyyəsi 130933,0 min manat olmuşdur.

SƏHM – müəyyən payın (məbləğin) müəssisənin inkişafı üçün keçirilməsi, onun işində iştirak və gəlirdən pay almaq hüququnu təsdiq edən qiymətli kağız. Səhmin sahibi – səhmdar gəlirin bir



Cədvəl 1

Açıq satılmış səhmlərin bazar qiyməti Dünyanın 20 ən çox açıq satılmış səhmləri olan ölkəsi

№	Ölkə	Açıq satılmış səhmlərin həcmi, mlrd. dollar
1	ABŞ	19950
2	Çin	6226
3	Yaponiya	4453
4	Böyük Britaniya	3859
5	Fransa	2771
6	Kanada	2187
7	Almaniya	2106
8	Hindistan	1819
9	İspaniya	1800
10	Rusiya	1503
11	Braziliya	1370
12	Avstraliya	1298
13	İsveçrə	1275
14	Cənubi Koreya	1124
15	İtaliya	1073
16	Niderland	956,0
17	CAR	833,5
18	İsveç	612,5
19	Səudiyyə Ərəbistanı	515,1
20	Meksika	397,7

hissəsini dividend şəklində alır. Səhmlər səhmdar cəmiyyətlər, müəssisələr, təşkilatlar, kooperativlər, kommersiya bankları və s. tərəfindən müddəti göstərilmədən dövriyyəyə buraxılır.

Səhmlərin nəzarət zərfi – səhmlərin sayı sahibinə səhmdar cəmiyyətinin fəaliyyəti üzərində nəzarət hüququnu təmin edir.

Səhmlər üzrə mülkiyyət hüquqlarının ötürülməsi – səhmin sertifikatı mülkiyyət hüququnun şəhadətnaməsi hesab edilir. Səhm sahibi – mülkiyyətçi öz mülkiyyətini və ya onun bir hissəsini ötürmə sərəncamı ilə bir başqa şəxsə vermək hüququna malikdir (bax: sxem 1, 2, cədvəl 2).

SƏHMDAR – səhm sahibi; səhmə malik olan və bununla əlaqədar yaranan bütün hüquqlardan istifadə edən şəxs; müəyyən miqdarda səhmin mülkiyyətçisi olan və bununla əlaqədar yaranan bütün hüquqlardan istifadə edən fiziki və ya hüquqi şəxs.

Şəxsi hüquqlara səhmdarların ümumi səsverməsində iştirak etmək hüququ (müəssisənin idarə edilməsində səhm sahibinin səs hüququ səhmlərin sayına mütənasibdir), səhmdar cəmiyyətinin (SC) rəhbər orqanlarında üzvlük hüququ aiddir.

Əmlak hüquqlarına səhmdar cəmiyyətin xalis mənfəətinin bir səhmə düşən hissəsini dividend şəklində almaq, cəmiyyət ləğv edilən halda isə onun əmlakının satılmasından əldə edilmiş məbləğin bir hissəsini almaq hüququ aiddir. SC təsis edilərkən səhmdarın vəzifəsi nizamnamə kapitalına müəyyən maya qoymaqdır. Sonradan səhmlərin bağışlanması əsasında, vərəsəlik qaydasında, alqı-satqı müqaviləsi, mülki hüquq xarakterli sair müqavilələr əsasında səhm sahibləri olmuş şəxslər səhmdarlara çevrilirlər. Səhmdarlar SC-nin öhdəliklərinə görə cavabdeh deyillər, onun fəaliyyəti ilə əlaqədar yaranmış zərərlərin riskini isə yalnız onlara məxsus səhmlər həcmində daşıyırlar.

Bütün səhmdarlar səhmdar cəmiyyətinin reyestrində qeydiyyata alınmalıdırlar. Bu reyestrdə SC-nin hər bir iştirakçısının adına yazılmış səhmlərin sayı və kateqoriyaları (tipləri) barədə məlumat vardır.

Səhmdar nizamnamə kapitalına qoyduğu mayanın qaytarılmasını tələb edə bilməz. Əgər səhmdar ona məxsus səhmlərin satılması, bağışlanması, dəyişdirilməsi nəticəsində həmin

Səhm anlayışı və verilən hüquqların həcmi



Sxem 1

səhmlər üzərində mülkiyyət hüququnu itirərsə, o, SC-nin iştirakçıları sırasından çıxır. Səhmdar SC-nin əmlakı barədə heç bir hüquqa malik deyildir, bu əmlak hüquqi şəxs olan SC-nin mülkiyyətidir; yalnız SC ləğv edildikdə səhmdar SC-nin bütün kreditorlar qarşısında bütün öhdəlikləri təmin edildikdən sonra qalan əmlakından pay almaq hüququna malikdir.

Səhmdarların öz mənafelərini müdafiə etmələri üçün onlara xüsusi hüquqlar, məsələn, SC iştirakçılarının birliklərini yaratmaq və ya ümumi yığıncağın qərarlarından cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş qaydada protest vermək hüququ verilir.


Səhmdarların növləri

Qeydiyyata alınmış səhmdar – barəsində məlumatların qeydiyyata alınmış olduğu səhmdar; səhmin və ya səhm paketinin qanuni sahibi.

Xırda səhmdar – səhmdar kapitalında cüzi paya və səsvermə zamanı bəzi məhdudiyyətlərə malik olan səhmdar. Xırda səhmdar SC-nin fəaliyyətinin idarə edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərə bilməz.

Əsas səhmdar – SC-nin iri (10 faizdən çox) səhm paketinə malik olan səhmdar. Əsas səhmdar SC-nin direktorlar şurasına daxil ola bilər.

SƏHMDAR BANK (ing. *joint-stock bank*) – bir qayda olaraq, konkret proqramların maliyyələşdirilməsi məqsədilə səhmdar cəmiyyəti prinsiplərinə görə yaradılan bank. Səhmdar bankın xüsusi vəsaitləri səhm və istiqrazların buraxılışı vasitəsilə pul gəlirlərinin birləşməsi yolu ilə yaradılır. Sonra isə səhmdar bankın mənfəətinin bir hissəsindən ayırmalar və yeni səhmlərin buraxılışı yolu ilə artırılır. Burada səhmdar bankının açıq və qapalı tipləri fərqləndirilir. Qapalıtipli səhmdar bankında səhmlər səhmdarlar arasında bölünür və açıq satışa çıxarılmır. Açıqtipli səhmdar bankında isə səhmlər səhmdarlar arasında



Sxem 2

bölgüdən başqa, açıq satışa da çıxarılır.

SƏHMDAR CƏMİYYƏTİ – korporativ müəssisələrin fəaliyyətinin təşkilati-hüquqi formalarından biri. Öz səhmləri müqabilində məsuliyyəti nəzərdə tutan geniş əməkdaşlıq forması. Onun ilk təzahürü İngiltərədə 1600-cü ildə görünmüşdür. Böyük tarixi yol keçən səhmləşmə prosesi postsovet məkanında iqtisadi yeniləşmədə ən geniş yayılan və əhəmiyyəti ilə seçilən struktur forması olmuşdur. Bununla belə, səhmdar cəmiyyət imkan verir ki, onun iştirakçılarının maraqları baxımından resursları daha səmərəli istifadə edilsin. Səhmdar cəmiyyət dünya təcrübəsində bazar təsisatlı iri müəssisənin əsas təşkilati forması kimi çıxış edir. O, özəl mülkiyyətin birliyi əsasında iqtisadiyyatın təşkilində mühüm iqtisadi mexanizmdir. Səhmdar cəmiyyət aşağıdakı xassələrlə xarakterizə olunur:

1) cəmiyyətin nizamnamə kapitalı, yəni ilkin əmlak ehtiyatı səhmlər şəklində ifadə olunmuş müəyyən sayda bərabər paylara bölünmüşdür;

2) səhm sahiblərinin əmlakından, onlara məxsus səhmlərin dəyəri müstəsna olmaqla, həmin əmlakın sahibinin razılığı olmadan cəmiyyətin borclarının ödənilməsi üçün istifadə edilə bilməz;

3) adi, yəni səsvermə hüququna təminat verən səhmlərin hər bir

Cədvəl 1

Dünyanın 20 ən az açıq satılmış səhmləri olan ölkəsi[1]

№	Ölkə	Açıq satılmış səhmlərin həcmi, mln. dollar
1	Ermənistan	105,0
2	Qırğızıstan	121,0
3	Uruqvay	159,0
4	Svazilend	203,1
5	Qayana	262,4
6	Sent-Kits və Nevis	439,7
7	Fici	522,2
8	Moldova	573,9
9	Monqolustan	612,2
10	Namibiya	702,0
11	Gürcüstan	1389
12	Kosta-Rika	2035
13	Boliviya	2263
14	Zambiya	2346
15	Qana	2380
16	Makedoniya	2715
17	Latviya	3111
18	Çernoqoriya	3699
19	Ekvador	4266
20	Nepal	4909

[1] *А.П. Олейник. Страны мира в цифрах (2011)*

sahibi səhmdarların ümumi yığıncağında iştirak edərkən səs-vermə zamanı səhmlərin ümumi dəyərində onun malik olduğu adi səhmlərin nisbi payına mütənasib sayda səsə malikdir. Səhmdar cəmiyyəti hüquqi şəxsdir.

Səhmdar cəmiyyətləri sosial və ya iqtisadi məsələlərin həlli və mənfəət əldə edilməsi üçün kapitalları birləşdirmək və mərkəzləşdirmək məqsədilə yaradılır.

Səhmdar cəmiyyətinin səhmləri vətəndaşlar və ya hüquqi şəxslər, eləcə də dövlət tərəfindən aşağıdakı məqsədlərdən birinə və ya bir neçəsinə nail olmaq üçün alınır:

1) səhmlər üzrə illik dividendlər şəklində gəlir əldə edilməsi;

2) sonradan həmin səhmlərin bilavasitə və ya bütöv səhm paketinin tərkibində daha yüksək qiymətə satılması hesabına gəlir əldə edilməsi;

3) ümumi yığıncağın və ya direktorlar şurasının tərkibində müəssisənin idarə olunmasında iştirak etmək;

4) cəmiyyət ləğv edilən halda, onun əmlakının satılmasından hər səhmə düşən pay şəklində gəlir əldə edilməsi.

Səhmdar cəmiyyətinin idarəetmə orqanı səhmdarların ümumi yığıncağı tərəfindən seçilən direktorlar şurasıdır.

Səhmdar cəmiyyətlərinin iki tipi olur: qapalı və açıq səhmdar cəmiyyəti.

Qapalı səhmdar cəmiyyəti öz səhmlərini təsisçilərin qərarına əsasən qapalı abunə formasında yayır.

Açıq səhmdar cəmiyyəti öz səhmlərini açıq satış vasitəsilə yayır.

Açıq SC-nin iştirakçılarının sayına məhdudiyyət yoxdur, səhmdarlar onlara məxsus səhmləri digər iştirakçıların razılığı olmadan özgəninkiləşdirmək hüququna malikdirlər. Hər bir insan bu cür SC-nin səhmini ala bilər və onun səhmdarı ola bilər. Qapalı SC-nin səhmdarlarının sayı 50-dən çox olmamalıdır, onun səhmləri isə fond bazarında sərbəst dövr edə bilməz.

Açıq səhmdar cəmiyyəti iri sahibkarlıq üçün kapitalların birləşdirilməsi və mərkəzləşdirilməsi forması kimi nəzərdə tutulmuşdur. Dünyada geniş şöhrət tapmış bütün firmalar, bir qayda olaraq, açıq səhmdar cəmiyyətləridir. Bu, həmin müəssisələrə əlavə səhmlər buraxılışı

SƏHMDAR CƏMİYYƏTLƏRİNİN YARANMASI

➢ **Yeni cəmiyyətin təsis edilməsi**

- ❖ bir neçə şəxs tərəfindən;
- ❖ bir şəxs tərəfindən;

➢ **Mövcud olan hüquqi şəxsin yenidən təşkil olunması**

birləşmə;	bölünmə;
ayrılma;	dəyişdirilmə (yeniləşmə).

Birləşmə çərçivəsində yalnız birləşmiş hüquqi şəxsin ləğv olunması baş verir, yeni hüquqi şəxslər yaranmır

TƏSİS SƏNƏDLƏRİ

Nizamnamə

- aşağıdakı şərtləri özünə daxil etməlidir:
  - cəmiyyətin forması (qapalı və ya açıq);
  - buraxılan səhmlərin kateqoriyaları, onların nominal qiyməti və sayı;
  - səhmdarların hüquqları;
  - cəmiyyətin nizamnamə kapitalının həcmi;
  - idarə etmə orqanlarının tərkibi və səriştəliyi və onların qərar qəbul etməsi qaydası, eyni zamanda, bir səslə və yaxud kvalifikasiyalı çoxluq tərəfindən qəbul olunan qərarlar;
- təsisçilər tərəfindən imzalanır və təsdiq edilir

Sxem 1

və satışı (emissiyası) yolu ilə investisiyalar cəlb etməyə imkan verir.

Qapalı səhmdar cəmiyyətində səhm bir sahibdən digərinə keçdikdə digər səhmdarların razılığı tələb olunur.

İri SC-lərin idarə edilməsi səhmdarların ümumi yığıncağı (ali idarəetmə orqanı), direktorlar şurası (müşahidə şurası) və yeganə icra orqanı (direktor, baş direktor), yaxud kollegial icra orqanı (idarə heyəti, müdiriyyət) arasında bölünür.

Səhmdar cəmiyyətinin xüsusi kapitalı, yəni cəmiyyətin əmlakının dəyəri ilə onun öhdəlikləri arasındakı fərq səhmdar kapitalı adlanır.

Səhmdar mülkiyyəti buraxılmış adi və imtiyazlı səhmlərin bazar dəyərindən, şirkətin mənfəətinin həmin şirkətin özünün inkişafına investisiya (yaxud təkrar investisiya) qoyulmasına yönəldilən hissəsindən, habelə yaradılması qanunvericilik yolu ilə təsbit edilmiş pul ehtiyatlarının bəzi növlərindən ibarətdir. Bu-

raxılmış səhmlərin nominal dəyəri səhmdar cəmiyyətinin nizamnamə kapitalını təşkil edir. Bu kapitalın həcmi qanunvericilik yolu ilə müəyyən edilmiş kəmiyyətdən az olmamalıdır.
Nizamnamə kapitalı cəmiyyətin səhmdarlarının və kreditorlarının mənafelərinə təminat verməlidir. Buna görə də əgər cəmiyyətin aktivlərinin dəyəri onun nizamnamə kapitalından az olarsa, cəmiyyət özünün nizamnamə kapitalının məbləğini azaltmağa borcludur. Əgər bu halda nizamnamə kapitalı yol verilə bilən minimum kəmiyyətdən az olarsa, cəmiyyət özünün ləğvi barədə qərar qəbul etməyə borcludur.
Qapalı səhmdar cəmiyyəti – iştirakçılarının sayı Mülki Məcəlləyə əsasən məhdudlaşdırılmış səhmdar cəmiyyəti. Belə cəmiyyətin səhmdarları onun digər üzvlərinin satdıqları səhmləri almaqda hüquqi üstünlüyə malikdirlər. Səhmlər bir şəxsin mülkiyyətindən digərinin mülkiyyətinə yalnız səhmdarların çoxunun razılığı ilə keçə bilər. Respublika müstəqillik əldə etdikdən sonra bir çox müəssisələr özəlləşdirilmiş və səhmdar cəmiyyətlərinə çevrilmişlər. Onlara misal olaraq aşağıdakıları göstərmək olar:
"Xəzər" Səhmdar Cəmiyyəti – 1990-cı ildə Azərbaycan Respublikası Nazirlər Sovetinin 530 saylı qərarı ilə respublikada yaradılmış ilk səhmdar cəmiyyətdir. Cəmiyyət 1995-ci ildə Respublika Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.
"Xəzər" Səhmdar Cəmiyyətinin respublika ərazisində 16 təsərrüfat subyektləri var. Mərkəzi ofisi Sumqayıt şəhərində yerləşir. Başqa şəhərlərdə nümayəndəlikləri var. Fəaliyyət dairəsi aşağıdakılardır: tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, xalq istehlakı mallarının istehsalı, dağ-mədən işləri, elmi-texniki yaradıcılıq, turizm xidməti, nəqliyyat xidməti, təmir-tikinti xidməti, kommersiya fəaliyyəti, xarici iqtisadi əlaqələr.
Sumqayıt Şüşə Zavodu 1991-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı əsasında "Xəzər" Səhmdar Cəmiyyəti tərəfindən özəlləşdirilmişdir. Bir zamanlar Gürcüstana, Ermənistana, Orta Asiya Respublikalarına, habelə Rusiyanın bəzi şəhərlərinə şüşə ixrac edən Sumqayıt Şüşə Zavodu bu sahədə təbii inhisarçı kimi dövlət qeydiyyatındadır. Son illər inşa olunan binalarda şüşədən istifadə daha da genişlənmişdir. Əgər əvvəllər binaların yalnız pəncərələri üçün şüşə tələb olunurdusa, hazırda onların fasadlarının örtülməsi, müəyyən dizayn işəlrinin aparılması, işıqlandırma sistemlərinin quraşdırılması üçün də şüşələrdən istifadə olunur. Müasir dövrdə keyfiyyətli şüşə qablar istehsalı insanların sağlamlığı və sanitariya-gigiyena tələblərinin qorunması baxımından son dərəcə vacibdir.
Azərbaycanda şüşə məmulatlarının sənaye istehsalına 1932-ci ildən Bakı Şüşə Zavodunun tikilməsi ilə başlanmış, burada əvvəllər pəncərə şüşəsi, sonralar isə xalq istehlakı mallarının istehsalı təşkil edilmişdir. Sə-



"Xəzər" Səhmdar Cəmiyyəti

nayenin, kənd təsərrüfatının, sosial-mədəni obyektlərin və tikintinin bu məmulatlara artan tələbatının ödənilməsi üçün 1963-cü ildə Sumqayıtda illik istehsal gücü 5,5 milyon kvadratmetr (şərti qalınlıqda) pəncərə şüşəsi olan, şaquli dartma texnologiyası ilə işləyən şüşə zavodu inşa edilmişdir. Həmin müəssisə müvafiq dövrün daxili tələbatını ödəmiş və onun istehsal etdiyi məhsulun 30 faizi keçmiş SSRİ-nin digər respublikalarına göndərilmişdir. 1975-ci ildə Gəncədə, 1980-ci ildə isə Naxçıvanda şüşə məmulatları istehsal edən daha bir müəssisə istifadəyə verilmişdir. Bununla belə, bütün növ şüşə məmulatlarına olan tələbatın tam həcmdə ödənilməsi təmin edilməmiş, xeyli çeşiddə şüşə məmulatları digər respublikalardan gətirilmişdir. Keçmiş SSRİ məkanında planlı-balanslaşdırılmış iqtisadi əlaqələrin olması, habelə ölkənin digər regionlarında kifayət qədər məhsuldarlığa malik xammal yataqlarının mövcudluğu ilə əlaqədar respublikada şüşə sənayesi üçün xammal bazasının yaradılması və zənginləşdirici fabriklərin qurulması istiqamətində işlər aparılmamışdır. SSRİ-nin süqutu ilə bağlı iqtisadi əlaqələrin pozulması xammal təchizatı və hazır məhsulun satışında yaranmış problemlər, keyfiyyətə olan tələblər və digər səbəblərlə əlaqədar Bakı və Gəncə şüşə zavodlarının fəaliyyəti tamamilə dayanmış, bu müəssisələr ləğv edilmişdir.

1963-cü ildə inşa olunan Sumqayıt Şüşə Zavodu ötən əsrin 50-ci illərinə aid köhnəlmiş texnologiya ilə rəqabətə davamlı məhsul istehsal etmək imkanında deyildir. Kifayət qədər kadr potensialına malik olan zavodun 500 tonluq 2 ədəd su anbarları, dəmiryol xətləri və dayanacaqları, habelə elektrik enerjisi, qaz və su təchizatı mövcuddur.

Azərbaycan şüşə istehsalı üçün lazım olan xammal ehtiyatları ilə zəngindir. Əgər əsas xammal və kvars qumu sovet dövründə Ukrayna və Rusiyadan idxal edilirdisə, hazırda bununla bağlı problem yoxdur. Bu istiqamətdə vaxtı ilə Azərbaycan Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi, Tikinti Materialları Sənayesi Nazirliyi, eləcə də "Xəzər" Səhmdar Cəmiyyəti tərəfindən müəyyən geoloji-axtarış, minerallarn fiziki-kimyəvi tərkibinin və texniki parametrlərinin öyrənilməsi işləri həyata keçirilmiş, şüşə istehsalında əsas xammal olan kvars qumu (Hacıvəli və Hökməli yataqları – ehtiyatı 43,0 milyon ton), dolomit (Abşeron rayonu Keçiqaya yatağı – ehtiyatı 5,5 milyon ton) və digər yataqlar aşkar edilmişdir. Hesablamalar göstərir ki, bu gün inkişafdan qalmış ölkələrdə bir ildə adambaşına 1-1,5 kvadratmetr, inkişaf etməkdə olan ölkələrdə 2-2,5 kvadratmetr, inkişaf etmiş ölkələrdə isə 3-3,5 kvadratmetr şüşə tələb olunur. Azərbaycanda ildə azı 18 milyon kvadratmetr şüşəyə ehtiyac var. Problemin həlli üçün zavodda yenidənqurma işləri illik istehsal gücünü 20 milyon kvadratmetrə çatdırmağa, respublikanın pəncərə şüşəsinə olan tələbatını ödəməyə, eyni zamanda, bu məhsulu dünya bazarlarına çıxarmağa imkan verəcəkdir. Sumqayıt Şüşə Zavodunun tam gücü ilə fəaliyyətə başlaması həm də 1500-dək yeni iş yerinin açılmasını təmin edəcəkdir.

"Dəvəli" ASC – 2001-ci ildə təsis edilmişdir. "Dəvəli" ASC çoxsahəli istehsalat müəssisəsidir. Cəmiyyətin öz gücü ilə Abşeron yarımadasında, Bakıdan 70-80 km aralıda yerləşən Gülbax (Güldağ) dağındakı karxanalardan daşlar blok şəklində çıxarılıb istehsal sexlərinə gətirilir və müxtəlif növ məmulatlar hazırlanır. Tərkibi 70-80% kalsium korbonatdan ibarət olan və tərkibində digər kimyəvi komponentlər olmayan Gülbax daşı binaların arxitektur, klassik və modern üslubda üzlənməsində, pilləkən məhəccərlərinin sürahi və baylansların hazırlanmasında geniş istifadə olunur.

Azərbaycanda istehsal olunan daşların bütün növləri ilə yanaşı "Dəvəli" ASC digər xarici ölkələrdən – Ukrayna Respublikasından, Rusiya Federasiyasından, İran İslam Respublikasından, Çin Xalq Respublikasından, Cənubi Afrikadan, Hindistandan, Braziliyadan, Türkiyədən, İtaliyadan, İspaniyadan, Yunanıstandan, Malayziyadan, Vyetnamdan, Pakistandan, Əf-





qanıstandan, Dubaydan, Misirdən, Zimbabve və s. ölkələrdən müxtəlif çeşidli qranit və mərmər daşları, xammal, yarımfabrikat və hazır məhsul şəklində mallar alır.


Cəmiyyətin istehsal sexində sifarişlərə uyğun olaraq, müxtəlif növ qranit və mərmərdən heykəl, büst və qəbirüstü abidələrin hazırlanması, istənilən çeşiddə tikinti üçün üzlük plitələrin hazırlanması işləri yerinə yetirilir. Evlərin fasad hissələrinin əhəngdaşı (ağlay), mərmər, qranit və başqa növ daşlarla üzlənməsi, yüksək mərtəbəli binalarda vestibül və pilləkənlərin müxtəlif çeşidli qranit, mərmər və travertin plitələrlə üzlənməsi, döşəmə və divarların Voter Jet (su ilə kəsən) dəzgahda kəsilmiş müxtəlif ornamentli şəbəkə və fiqurlarla işlənməsi və s. bu kimi işlərin keyfiyyətlə və vaxtında yerinə yetirilməsi üçün təcrübəli ustalardan ibarət olan əmək kollektivinin əsas məqsədidir. Eyni zamanda, cəmiyyətin mexaniki sexində daş emalı üçün lazım olan bəzi dəzgah və avadanlıqlar da hazırlanır.

Cəmiyyətin əmək kollektivinin qarşısına qoyduğu əsas vəzifə dinamik inkişaf yolunu davam etdirməkdir.

SƏHMDAR CƏMİYYƏTİNİN NİZAMNAMƏ KAPİTALI – miqdarı səhmdar cəmiyyətinin nizamnaməsində təsbitlənmiş səhmdarlar tərəfindən əldə edilən, cəmiyyətin səhmlərinin nominal dəyərindən tərtib olunan kapital. Onun miqdarı səhmdar cəmiyyəti haqqında qanunda nəzərdə tutulan ölçüdən az ola bilməz (bax: sxem 1).

SƏHMDAR CƏMİYYƏTLƏRİNİN XALİS AKTİVLƏRİ – səhmdar cəmiyyətinin xüsusi kapitalı olmaqla və öhdəliklərini çıxmaq şərtilə onun nəzarət etdiyi uzunmüddətli və qısamüddətli aktivlərinin cəmi. Təcrübədə səhmdar cəmiyyətinin xalis aktivləri cəmiyyətin bütün aktivlərinin balans dəyərinin cəmi ilə onun öhdəlikləri arasında fərq kimi müəyyən edilir. Səhmdar cəmiyyətinin xalis aktivlərinin həcmini müəyyən edən bütün aktivlərin balans dəyərinə aşağıdakılar daxildir: qeyri-maddi aktivlər, torpaq, tikili və avadanlıqlar; daşınmaz əmlaka investisiyalar; bioloji aktivlər, təbii sərvətlər, iştirak payı metodu ilə uçota alınmış investisiyalar; təxirə salınmış vergi aktivləri, uzunmüddətli və qısamüddətli debitor borcları, uzunmüddətli və qısamüddətli başqa maliyyə aktivləri; gələcək hesabat dövrlərinin xərcləri, verilmiş uzunmüddətli və qısamüddətli avanslar, ehtiyatlar, pul vəsaitləri və onların ekvivalentləri, əvəzləşdirilən əlavə dəyər vergisi və digər aktivlər. Səhmdar cəmiyyətlərinin xalis aktivlərinin müəyyən edilməsi zamanı onun bütün aktivlərindən aşağıdakı öhdəliklərinin dəyəri çıxarılır: faiz xərcləri yaradan uzunmüddətli və qısamüddətli öhdəliklərin, uzunmüddətli və qısamüddətli qiymətləndiril-

Səhmdar cəmiyyətin nizamnamə kapitalı



Sxem 1

miş öhdəliklərin; vergi və s. məcburi ödənişlər üzrə öhdəliklərin; məqsədli maliyyələşmələrin, icarə öhdəliklərinin, hüquqi və fiziki şəxslərə uzunmüddətli və qısamüddətli kreditor borclarının, gələcək hesabat dövrlərinin gəlirlərinin, alınmış uzunmüddətli və qısamüddətli avansların, digər uzunmüddətli və qısamüddətli öhdəliklərin dəyəri. Səhmdar cəmiyyətinin mülkiyyətinin həcmini xarakterizə edən səhmdar cəmiyyətlərinin xalis aktivlər göstəricisi cəmiyyətin maliyyə vəziyyətinə, onun fəaliyyətinin bəzi aspektlərinin dövlət tərəfindən tənzimi prosesinə nəzarət üçün istifadə edilir. Törəmə, asılı və birgə müəssisələrə investisiya qoyuluşu zamanı da xalis aktivlərin dəyərinin müəyyən edilməsi zərurəti yaranır.

SƏHMDAR HÜQUQU – səhmdarların hüquqlarının müdafiəsinə yönəldilmiş hüquq norması. Bir çox ölkələrin qanunvericiliyinə görə, hər bir səhm (tipindən asılı olmayaraq) sahibinə aşağıdakı hüquqları verir: ona məxsus olan səhmlərin güzəşti; dividend almaq hüququ; öz səhminə proporsional olaraq ləğv edildikdən sonra cəmiyyətin əmlakının bir hissəsini almaq hüququ; səhmdarın ümumi yığıncağının protokolunun surətini, səhmdarların reyestrinin surətini almaq hüququ; səhmdarın ümumi yığıncağının həqiqi olmayan qərarı haqqında məhkəməyə müraciət etmək hüququ; nizamnamə kapitalının həcmi, buraxılan səhmlərin miqdarı, onların bölünməsi haqqında məlumat almaq hüququ və s. Adi səhm sahiblərinin xüsusi olaraq aşağıdakı hüquqları vardır: öz iştirakı, yaxud nümayəndəsi vasitəsilə səhmdarın ümumi yığıncağında səs hüququna malik olmaq; seçmək və seçilmək, yaxud öz nümayəndəsini cə-

miyyətin idarəetmə və nəzarət orqanlarına irəli sürmək.
İmtiyazlı səhm sahiblərinin xüsusi hüquqları aşağıdakılardır: təsbit olunmuş dividendlərin alınması; cəmiyyət ləğv edildikdən sonra qalan əmlaka görə pay alınması; ümumi yığıncaqlarda səsvermə hüququ olmadan şəxsən iştirak etmək.
Səhmdarın imkanları onlara məxsus səhm paketinin həcmindən asılı olaraq fərqlənir. Əgər adi səhm paketləri nizamnamə kapitalının 2%-dən çoxunu təşkil edirsə, səhmdarlar ümumi yığıncağın gündəliyinə iki təklif vermək hüququ qazanırlar. Bura həmçinin, direktorlar şurasına və təftiş komissiyasına namizədlər verilməsi də aiddir. Nəzarət səhm paketinin 10%-dən artığına malik olmaq ("təsir paketi") növbədənkənar yığıncağın çağırılması hüququ verir. Kiçik səhm paketi (nizamnamə fondunun 25%-dən çoxu) səs çoxluğu ilə həll edilən səsvermədə "veto" hüququ verir.
Nəzarət səhm paketi (50%-dən çox) səhmdarların ümumi yığıncağının gündəliyinin əsas məsələlərinin təkbaşına həll edilməsi hüququnu verir. Əgər səhmdar səhmlərin 75%-nə malikdirsə (böyük nəzarət paketi), o, ümumi yığıncağın istənilən məsələsini təkbaşına həll etmək hüququna malikdir.

SƏHMDAR KAPİTALI – səhmdar cəmiyyətinin səhmlərinin buraxılması və satışı yolu ilə yaranan əsas pul kapitalı, səhmdar cəmiyyəti şəklində yaradılmış müəssisənin, bankın səhmlərin emissiyası, yəni onların açıq dövriyyəyə buraxılması yolu ilə yaranan kapitalı. Səhmdar kapital səhmdarların birləşmiş fərdi kapitallarının məcmusudur.
Səhmlər onların nominal (səhmin özünün üzərində göstərilən) dəyərindən yuxarı qiymətə satıldıqda təsisçilər səhmdar kapitalının tərkib hissəsi olan təsisçi mənfəəti əldə edirlər. Bundan sonra səhmdar kapitalının artması həm toplanmış mənfəətin və SC-nin digər xüsusi vəsaitlərinin kapitallaşması yolu ilə, həm də yeni səhmlərin buraxılışı hesabına baş verir.

SƏHMDAR SERTİFİKATI – səhmlər üzərində mülkiyyət hüququnu təsdiq edən sənəd. Səhm başqasına satıldıqdan (və ya hər hansı başqa şəkildə özgəninkiləşdirildikdən) sonra səhm üzərində mülkiyyət hüququ alıcıya keçir, bu halda ona yeni sertifikat verilir.

SƏHMDAR SIĞORTASI – sığorta fəaliyyətinin təşkilati forması; burada sığortaçılar qismində səhmlərin (bəzən istiqrazların) buraxılışı və reallaşması yolu ilə öz nizamnamə kapitalını formalaşdıran səhmdar cəmiyyəti çıxış edir. Bu, təsisçilərə imkan verir ki, digər hüquqi və fiziki şəxslərin pul vəsaitlərinin cəlb edilməsi hesabına xüsusi sığorta əməliyyatlarını sürətlə genişləndirsinlər. Bütün səhmdar cəmiyyətlərinin yaradılması və fəaliyyəti qanunvericilik əsasında sığorta nəzarəti orqanları tərəfindən tənzimlənir və onlara nəzarət olunur. Səhmdar sığortası XVII əsrin 80-ci illərində İngiltərədə və Fransada yaranmış, lakin sığorta idarələrinin hakim forması kimi yalnız XIX əsrdə təşəkkül tapmışdır.

SƏHMDAR ŞİRKƏTİN BAĞLANMASI – rəsmi olaraq, yenidən qeydiyyat prosesində səhmdar şirkətin xüsusi şirkətə keçididir ki, nəticədə bu şirkətin səhmlərinin bazarda satışına icazə verilmir. Bu, səhmlərin kursunun gözlənilmədən onların dəyərindən aşağı düşdüyü halda mümkündür.
Səhmdar cəmiyyətinin bağlanması – səhmləri ancaq təsisatçılar və ya əvvəlcədən müəyyən olunan şəxslər dairəsinə şamil olunan cəmiyyətdir.
Bağlı səhmdar cəmiyyətinin buraxdığı səhmlər adlı və ya adsız ola bilər. Adlı səhmlərdə onun sahibinin rekvizitləri göstərilir, sahibin özü isə konkret SC-nin sənədlərində qeydiyyatdan keçir. SC-yə məlumat verdikdən sonra sahibi belə səhmi sata bilər. Adsız səhmlər anonim xarakter daşıyır.
Sadə və imtiyazlı səhmləri də ayırırlar. İmtiyazlı səhmlərin sahiblərindən fərqli olaraq, sadə səhmlərin sahibləri səhmdarların iclaslarında səs hüququna malikdirlər.

SƏHMDARLARIN ÜMUMİ YIĞINCAĞI – səhmdar cəmiyyətinin ali idarəetmə orqanı.
Yığıncaqların təsis yığıncağı, fövqəladə yığıncaq, xüsusi yığıncaq və növbəti yığıncaq kimi növləri vardır. Səhmdarların yığıncağında səsvermə hüququna adi, imtiyazsız səhmlərin sahibləri malikdir. Bu yığıncaqda iştirak etmək səhmdar cəmiyyətinin adi səhm sahibləri olan üzvlərinin idarəetmə hüququnu həyata keçirməsinə imkan verir. Səhmdara məxsus adi səhmlərin sayı ümumi yığıncaqda onun malik olduğu səslərin sayını



müəyyən edir ("bir səhm – bir səs" prinsipi). Yığıncaq cəmiyyətin inkişafının əsas xəttinin müəyyən edilməsi, nizamnaməsinin dəyişdirilməsi, filiallar, törəmə müəssisələr yaradılması, səhmdar cəmiyyətinin fəaliyyətinin nəticələrinə yekun vurulması, idarə heyətinin seçilməsi və hər səhm üçün dividendlərin məbləğini müəyyənləşdirmək hüququna malikdir. Ümumi yığıncağın səlahiyyəti müxtəlif ölkələrdə müxtəlif şəkildə müəyyən edilir. Lakin bir qayda olaraq, həmin yığıncaqda *iştirak edənlərin* adi səs çoxluğu ilə müəyyənləşir, səslərin 50%-i üstəgəl bir səhm. Ən mühüm qərarlar adi səs çoxluğu ilə deyil, səslərin əksəriyyəti, məsələn, səslərin 3/4 hissəsi ilə qəbul edilir. Səhmdarların yığıncağı ildə bir dəfədən gec olmayaraq çağırılır.

Səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:

– cəmiyyətin fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirmək, tərtib olunmuş planları və hesabatları təsdiq etmək;

– cəmiyyətin nizamnaməsini dəyişdirmək;

– müşahidə şurasının tərkibini, idarə heyətini və nəzarət, maliyyə-təftiş komissiyasını seçmək və geri çağırmaq;

– illik nəticələri (filiallar da daxil olmaqla), nəzarət, maliyyə-təftiş komissiyasının hesabatlarını təsdiq etmək;

– mənfəətin bölüşdürülməsi və zərərin ödənilməsi qaydalarını müəyyən etmək;

– filialları və nümayəndəlikləri yaratmaq, onların əsasnamələrini təsdiq etmək və fəaliyyətinə xitam vermək;

– cəmiyyətin vəzifəli şəxslərinin əmlak məsuliyyətinə cəlb edilməsi haqqında qərarlar çıxarmaq;

– cəmiyyətin təşkilati strukturunu, daxili qaydalarını təsdiq etmək;

– cəmiyyətin, onun filiallarının və nümayəndəliklərinin vəzifəli şəxslərinin əmlak haqlarını müəyyən etmək.

Ümumi yığıncaq səsvermə hüququna malik olan səhmdarların azı 60 faizi iştirak etdikdə səlahiyyətli sayılır.

Aşağıdakı məsələlər barədə qərarlar səhmdarların ümumi yığıncağında iştirak edən səhmdarların 3/4 səs çoxluğu ilə qəbul edilir:

– cəmiyyətin nizamnaməsinin dəyişdirilməsi;

– cəmiyyətin fəaliyyətinə xitam verilməsi;


– filialların yaradılması və onların fəaliyyətinə xitam verilməsi.

Qalan məsələlərin həlli barədə qərarlar səhmdarların ümumi yığıncağında iştirak edənlərin adi səs çoxluğu ilə qəbul edilir.

Adlı səhm sahiblərinə ümumi yığıncağın keçirilməsi haqqında məlumat xüsusi bildirilir.

Bildiriş səhmdarlara ümumi yığıncağın keçirilməsinə ən gec

Səhmlərin əldə edilməsi zamanı səhmdarın və səhmdar cəmiyyətinin qarşılıqlı münasibəti



Sxem 1

45 gün qalmış çatdırılmalıdır. Hər bir səhmdar ümumi yığıncağın keçirilməsinə ən gec 20 gün qalanadək gündəliyə dair təkliflərini vermək hüququna malikdir.

Ümumi yığıncaq gündəlikdə olmayan məsələlər üzrə qərar qəbul etmək hüququna malik deyildir.

Ümumi yığıncaqda səsvermə bir səhm (minimum nominal dəyərində) – bir səs prinsipi ilə həyata keçirilir.

Səhmdarlar öz hüquqlarının ümumi yığınacaqda həyata keçirilməsini etibarnamə əsasında digər səhmdarlara (onların nümayəndələrinə), həmçinin, üçüncü şəxslərə həvalə edə bilərlər. Nümayəndələr daimi, yaxud müəyyən müddət üçün təyin edilə bilərlər.

Cəmiyyətin idarə heyətinə xəbər verməklə səhmdar istənilən vaxt ali orqanda öz nümayəndəsini dəyişə bilər.

Səhmdarların ümumi yığıncağı, nizamnamədə başqa hal nəzərdə tutulmayıbsa, ildə bir dəfə çağırılmalıdır.


Növbədənkənar ümumi yığıncaq səhmdarların mənafeyini təmin etmək məqsədi ilə idarə heyəti, müşahidə şurası və maliyyə-təftiş komissiyası tərəfindən çağırılır.

SƏHMİN ETİBARLILIĞI – səhmlərin müxtəlif risklərə məruz qalmaması. Onun qiyməti səhmdar cəmiyyətində işlərin vəziyyəti, onun maliyyə durumu və bu vəziyyətin dəyişmə perspektivləri ilə müəyyən edilir. Müəssisənin heç bir şəraitdə müflisləşmə qorxusunun olmamasına əminlik səhmlərin alıcılarının və investorların nəzərində onların qiymətini artırır. Açıq səhmdar cəmiyyəti hər il kütləvi informasiya vasitələrində illik hesabat, mühasibat balansı, mənfəət və zərərlərin hesabını dərc etdirməyə borcludur.

SƏHMLƏR (lat. *action* – əməl) – səhmdar cəmiyyətləri tərəfindən buraxılan, dövriyyə müddəti müəyyən edilməyən qiymətli kağız. Səhm onun sahibi tərəfindən cəmiyyətin səhmdar kapitalına (nizamnamə fonduna) pay ödənilməsini təsdiq edir.

Səhmlər nizamnamə kapitalının bütün məbləği üçün buraxılır. Əgər təsərrüfat fəaliyyəti, yeni istehsal fondlarının alınması və dövriyyə vəsaitlərinin artması nəticəsində əmlakın dəyəri nizamnamə kapitalının ilkin həcmindən artıq olarsa, bu artıq məbləğ üçün əlavə səhmlər buraxıla bilər. Səhm öz saxlayıcısını səhmdar cəmiyyətinin əmlakının dəyərinin bir hissəsinin mülkiyyətçisinə, onun sahiblərindən birinə çevirir. Səhmdar cəmiyyətləri səhmlər buraxmaqla öz maliyyə qüdrətini artırır, bu isə onların iri investisiya layihələrini həyata keçirməsinə imkan verir. Hər hansı başqa hadisə kimi, səhm buraxılışının artırılmasının da müsbət və mənfi cəhətləri vardır. Səhm bu-

Səhmin məcmu gəlirliyinin formalaşdırılması sxemi



Sxem 1

raxılışı, bir tərəfdən səhmdar cəmiyyətinin maliyyə resurslarını artırır, digər tərəfdən onun real kapitalını "suya çevirir". Bu o deməkdir ki, səhmlərin hər növbəti buraxılışı nəticəsində səhmdar cəmiyyətinin əmlakından bir səhmə düşən real pay azalır.

Səhmlərdə aşağıdakı rekvizitlər olmalıdır:

1) səhmi buraxmış səhmdar cəmiyyətinin firma adı, onun yerləşdiyi ünvan;

2) qiymətli kağızın adı (səhm), onun sıra nömrəsi, buraxılış tarixi, səhmin kateqoriyası, onun nominal dəyəri, səhm saxlayıcısının adı (adlı və imtiyazlı səhmlər üçün).

Səhm öz saxlayıcısına aşağıdakı hüquqları verir:

1) mənfəətin bir hissəsini dividendlər şəklində almaq hüququ;

2) səhmi qiymətli kağızlar bazarında satmaq hüququ;

3) səhmdar cəmiyyətinin idarə edilməsində iştirak hüququ;

4) əmlak hüququ.

Səhmin gəlirliliyi – bir adi səhmə düşən mənfəətin həmin səhmin bazar dəyərinə nisbəti. Səhmlərin gəlirliliyi səhmin məzənnəsinin artma sürətindən; ödənilən dividendlərin məbləğindən; inflyasiya sürətindən və bank faizinin artmasından; mənfəət vergisinin məbləğindən asılıdır.

Səhmlərin sahiblərinə verilən hüquqların həcmi eyni deyildir. Səhmlərin növlərinin çox müxtəlif olmasına baxmayaraq, praktik baxımdan onları iki əsas növə bölmək vacibdir: adi səhmlər və imtiyazlı səhmlər.

SƏHMLƏR BAZARI – səhmlərin satıcıları ilə alıcıları arasında iqtisadi münasibətlər kompleksi. Səhmlərin alqı-satqısı fond birjasında həyata keçirilir, lakin bu əməliyyatlar birjadankənar metodlarla da aparıla bilər. Səhmlərin alqı-satqısının aparılması şərtləri və qaydası qanunvericiliklə tənzimlənir.

SƏHMLƏR ÜÇÜN VARRANT – qiymətli kağızlar (adətən, imtiyazlı səhm və istiqrazlar) saxlayıcısının müəyyən sayda adi səhmlərini bu şirkətdən almaq hüququnu təsdiqləyən sertifikat (göstərilmiş müddət hüdudlarında).

SƏHMLƏRİN RENTABELLİYİ – səhmlərin məzənnəsi ilə onların gətirdiyi mənfəətin məbləğinin nisbəti kimi təyin edilən göstərici.

SƏHMLƏŞDİRMƏ – müəssisənin mülkiyyətinin çevrilməsi prosesi. Bu prosesdə mülkiyyət,

məsələn, dövlətin əlindən səhmdarların mülkiyyətinə keçir. Dövlət mülkiyyəti səhmlərin yayılması yolu ilə satılır, səhmləri almaq istəyən hər kəs onları ala bilər.

SƏLAHİYYƏTLƏRİN VERİLMƏSİNİN SKALYAR METODU – 1. Yaxşı təşkilat yaratmağın A.Fayol tərəfindən ifadə edilmiş prinsipi. 2. Tam və mütləq məsuliyyət. Yəni təkcə idarəçilik hüququnun deyil, həm də səlahiyyətlərin bir qisminin rəhbərlik xətti ilə başqa şəxslərə verilməsi, həvalə edilməsi.

SƏMƏDOV AYDIN HİDAYƏT OĞLU (1951) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof.



1972-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. 1979-cu ildə Kiyev Ticarət-İqtisad İnstitutunda "Ticarətin idarə edilməsinin təşkili strukturunun təkmilləşdirilməsi" mövzusunda namizədlik, 1992-ci ildə Moskva Kommersiya İnstitutunda "Bazar iqtisadiyyatına keçid şəraitində Azərbaycan Respublikasında ticarətin idarə edilməsinin təşkilinin təkmilləşdirilməsi problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1996-cı ildən professordur.

Kommersiyanın müxtəlif problemlərinə dair bir neçə monoqrafiya, kitab, broşur, tədris vəsaiti, 120-dən artıq məqalə, tezis və s. elmi əsərləri Azərbaycan, rus, slovak, türk, fars və ingilis dillərində nəşr edilmişdir. Onun rəhbərliyi ilə 13 nəfər iqtisad elmləri namizədi yetişmişdir.

1982-1983-cü illərdə Avropa ölkələrinin qabaqcıl iqtisadiyyat və kommersiya institutlarında elmi ezamiyyətlərdə olmuş, elmi-tədqiqat və elmi-tədris işləri aparmışdır. O, ilk dəfə olaraq ABŞ-da yaşayan, dünyada tanınmış azərbaycanlı alim professor Lütfizadənin nəzəriyyəsini kommersiya elmləri sahəsində tətbiq etmişdir. 1999-cu ildə Rusiya Kommersiya Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. A.Səmədov hazırda Azərbaycan Dövlət İqtisad Universitetində professor vəzifəsində çalışır.

SƏMƏDZADƏ ŞAMİL ƏLİABBAS OĞLU (1936-2010) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof.



1953-cü ildə Bakının Buzovna qəsəbəsində 125 saylı orta məktəbi, 1959-cu ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu (indiki Dövlət Neft Akademiyası) bitirmişdir. 1964-cü ildə Moskvada SSRİ Elmlər Akademiyasının İdarəetmə İnstitutunda texnika elmləri üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. Azərbaycan SSR EA Energetika İnstitutunda kiçik elmi işçi və böyük elmi işçi vəzifələrində çalışmışdır. 1965-ci ildə Azərbaycan Dövlət Plan Komitəsi nəzdində Elmi-Tədqiqat İqtisadiyyat İnstitutu təşkil edildikdə, Şamil Səmədzadə respublikada ilk dəfə yaradılmış "İqtisadi-riyazi metodlar və elektron hesablama texnikasının planlaşdırmada tətbiqi" şöbəsinə rəhbərlik etmək üçün həmin instituta dəvət almışdır. 1973-cü ilə qədər burada şöbə müdiri, sonralar isə 1980-ci ilə qədər planlaşdırma praktikasında iqtisadi-riyazi metodların və elektron hesablama maşınlarının tətbiqi əsasında respublikanın xalq təsərrüfatının planlaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi və Azərbaycan SSR Dövlət Plan Komitəsində avtomatlaşdırılmış plan hesablamaları sisteminin yaradılması üzrə baş təşkilat olan Respublika DPK-nın ETİİ hesablama mərkəzinin müdiri işləmişdir. Azərbaycan DPK-nın ETİİ-də işlədiyi müddətdə Ş.Səmədzadənin elmi fəaliyyətinin əsas istiqaməti xalq təsərrüfatının planlaşdırılması və idarə edilməsi problemlərinin elmi və texniki nailiyyətlərinin, əsasən, iqtisadi-riyazi metodlar və EHM-in tətbiqi əsasında kompleks tədqiqi və avtomatlaşdırılmış idarəetmə sistemlərinin yaradılması olmuşdur. Onun rəhbərlik etdiyi elmi kollektiv uzun illər bu sahədə ciddi tədqiqatlar aparmış, sanballı nəticələr əldə etmişdir. 1973-cü ildə "Azərbaycan SSR xalq təsərrüfatının planlaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, 1978-ci ildə isə ona professor elmi adı verilmişdir.

1965-1980-ci illərdə Ş.Səmədzadənin elmi fəaliyyəti Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutu ilə bağlı olmuşdur. İnstitutun baş mühəndisi, direktor müavini, hesab-

lama mərkəzinin müdiri kimi bu elm ocağının xalq təsərrüfatının planlaşdırılması və idarə edilməsinin avtomatlaşdırılması sahəsində aparıcı mərkəzə çevrilməsində mühüm rol oynamışdır. Professor Ş.Səmədzadə sənaye tətbiqli avtomatlaşdırılmış planlaşdırma və idarəetmə sistemlərinin yaradılmasında hesablama və rabitə texnikasından geniş istifadə edilməsi ideyasının pionerlərindəndir. Onun elmi rəhbərliyi ilə xalq təsərrüfatı sahələrinin, regionların optimal planlaşdırılması və onların praktik tətbiqi sahəsində aparılan işlər respublikaya böyük səmərə vermişdir. Professor Ş.Ə.Səmədzadənin elmi fəaliyyətində iqtisadiyyatda idarəetmə və informasiya texnologiyasının nəzəri və tətbiqi problemləri mühüm yer tutur.

12 kitabın, 100-dən çox elmi məqalənin müəllifidir. Onun elmi rəhbərliyi ilə 40 nəfər elmlər namizədi və bir neçə elmlər doktoru hazırlanmışdır. İqtisadi-riyazi modellər və hesablama texnikası vasitələrinin yaradılması, onların xalq təsərrüfatında planlaşdırma və idarəetmə məsələlərinin həllində geniş tətbiqi üzrə işlərinə görə 1984-cü ildə Azərbaycan Dövlət Mükafatına layiq görülmüşdür.

Ş.Səmədzadə 1980-ci ildən ömrünün sonuna kimi Azərbaycan Texniki Universitetində (keçmiş Politexnik İnstitutunda) "Sənaye iqtisadiyyatı və menecment" kafedrasının müdiri vəzifəsində çalışmışdır. Professor Ş.Səmədzadə kafedra müdiri seçilənədək kafedra əməkdaşlarından cəmi üç nəfərinin elmi dərəcəsi var idi. Professor Ş.Səmədzadə özünün elmi və təşkilatçılıq potensialı ilə qısa müddətdə kafedraya sağlam qüvvələr cəlb etmiş, əməkdaşlar arasında işgüzar, yaradıcı mühit yaratmış, kadr bazasını gücləndirərək onu bu istiqamətdə ölkənin aparıcı elm-tədris mərkəzlərindən birinə çevirmişdir. Onun rus dilindən tərcümə etdiyi onlarla müasir dərslik və dərs vəsaitindən tələbələr geniş istifadə edirlər.

Əsərləri: Azərbaycan SSR xalq təsərrüfatının planlaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsinin metodoloji və metodiki məsələləri. Bakı, 1972; Avtomatlaşdırılmış idarəetmə sistemləri. Bakı, 1977; Sahələrarası komplekslərin idarə edilməsi. Bakı, 1986; Cəmiyyət və kompüterləşdirmə. Bakı, 1992; İstehsal menecmenti. Bakı, 1998; Sahibkarlığın əsasları. Bakı, 2000; İnvestisiya layihələşdirilməsi. Bakı, 2003; İstehsal menecmenti. Bakı, 2006; İqtisadi subyektlərin iqtisadi təhlükəsizliyi. Bakı, 2009.


SƏMƏDZADƏ ZİYAD ƏLİ-ABBAS OĞLU (1940) – Azərbaycanın görkəmli iqtisadçı alimi, AMEA-nın müxbir üzvü (1980), AMEA-nın akademiki (1989). O, 1956-cı ildə K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuşdur. 1958-ci ildə həmin institutun universitetlə birləşdirilməsi ilə əlaqədar Z.Səmədzadə ali təhsilini Azər-





İzzət-nəfs, qürur,
sədaqət rəmzi Tut ağacı
Tut ağacım, aman yerim,
uman yerim
Uşaqlığım, ucalığım,
xəyalımda qocalığım...
TUT AĞACIM

XX əsrin 50-ci illəri



Əsaslı təmirdən sonra
Buzovna məscidinin açılışı



Tarixlərin yadigarı olan
Alban kilsəsi










Buzovna qəsəbəsində 125 nömrəli orta məktəb



baycan Dövlət Universitetinin iqtisad fakültəsində davam etdirmiş və 1961-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir.
1962-1964-cü illərdə Z.Səmədzadə Moskvada SSRİ Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun aspiranturasında təhsil alır. 1965-ci ildə elə həmin institutda namizədlik dissertasiyasını müdafiə edir. Azərbaycan EA İqtisadiyyat İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi, elmi katib, daha sonra "Xalq təsərrüfatının inkişaf sürəti və proporsiyaları" şöbəsinin müdiri vəzifələrində çalışır. 1971-ci ildə Z.Səmədzadə iqtisad elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə edir. Alimin doktorluq dissertasiyası "Əmək məhsuldarlığı və əhalinin məşğulluq strukturunun aktual problemləri" mövzusuna həsr edilmişdi. 1977-ci ildə ona professor adı verilir. 1976-1978-ci illərdə o, Azərbaycan Dövlət Plan Komitəsi Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunun direktorunun birinci müavini, 1978-ci ilin avqust ayından 1982-ci ilin sonunadək Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun elmi işlər üzrə prorektoru olmuşdur. Z.Səmədzadə 1983-1991-ci illərdə Azərbaycan KP MK-nın plan-maliyyə orqanları, iqtisadiyyat, sosial iqtisadi siyasət şöbəsinin müdiri, Azərbaycan Respublikası Ali Soveti Sədrinin birinci müavini, Dövlət Plan İqtisad Komitəsinin sədri, Baş nazirin birinci müavini vəzifələrində işləmişdir. 1984-1995-ci illərdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı, planbüdcə komissiyasının sədri olmuşdur. Respublikada əmək məhsuldarlığı, iqtisadi inkişaf, sürət və proporsiyalar, milli gəlir və səmərəlilik problemləri üzrə yaranmış elmi məktəb bilavasitə Z.Səmədzadənin xidmətidir.
Ziyad Səmədzadə iqtisadi inkişaf, struktur, demoqrafiya, məşğulluq, regional inkişaf, effektivlik, bazar iqtisadiyyatı problemlərinə dair 500-dən çox əsərin, çoxsaylı monoqrafiyanın müəllifidir.
"1976-1990-cı illərdə Azərbaycan SSR-də məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi sxemi"nin işlənib hazırlanmasına bilavasitə rəhbərlik etmişdir.
Onun elmi rəhbərliyi ilə 50-dən çox tədqiqatçı namizədlik, bir neçə doktorluq dissertasiyası müdafiə olunmuşdur. O, 1993-2001-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin üzvü olmuşdur. Azərbaycan Dövlət Aqrar Universitetində iqtisad elmləri üzrə birləşmiş dissertasiya şurasının sədridir.
Akademikin baş elmi redaktəsi ilə 1997-1998-ci illərdə ümumi həcmi 2500 səhifəyə bərabər olan "Azərbaycan XXI əsrin astanasında" üçcildliyi nəşr edilmişdir.
Z.Səmədzadənin elmi fəaliyyətində Azərbaycan paytaxtının iqtisadi və sosial inkişafı ilə bağlı araşdırmalar mühüm yer tutur. Bakının inkişafı problemlərinə dair onun bilavasitə iştirakı və elmi rəhbərliyi ilə aparılmış araşdırmalar, əslində, ölkənin xalq təsərrüfatı sistemində paytaxtın rol və əhəmiyyətinin obyektiv nəzərə alındığı ilk tədqiqatlardır. Bu araşdırmalar əsasında 45 çap vərəqi həcmində monoqrafiya dərc edilmiş, konkret tövsiyələr hazırlanaraq ali idarəetmə orqanlarına təqdim edilmişdir. Onun bilavasitə rəhbərliyi və iştirakı ilə 1987-1991-ci illərdə Azərbaycanın iqtisadi müstəqillik konsepsiyası və müvafiq qanun layihələri hazırlanmış və parlament tərəfindən qəbul edilmişdir.
Z.Səmədzadə TACİS proqramının Azərbaycanda fəaliyyətə başlaması üçün Avropa İttifaqının (Aİ) ekspertləri ilə çoxsaylı görüşlər keçirmiş, milli koordinator olmuş, TRASEKA (Qədim İpək Yolu) proqramının hazırlanması ilə bağlı elmi araşdırmalar aparmışdır. 1993-cü ilin may ayında Brüsseldə birinci beynəlxalq konfransda əsas məruzə ilə çıxış etmiş Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılmasına xidmət edən Brüssel bəyannaməsini imzalamışdır.
45 ildir ki, alim çoxsaylı beynəlxalq simpozium və konqreslərdə Azərbaycanı layiqincə təmsil edir (Strasburq, Stokholm, San-Fransisko, Barselona, İstanbul, Brüssel, Sidney, Paris, Moskva, Sankt-Peterburq, Kiyev, Minsk, Vaşinqton, Pekin, İordaniya və s). Nüfuzlu elmi məclislərdə çıxış edən akademik müasir iqtisad elminin aktual istiqamətləri və respublikanın iqtisadi inkişafı, onun dünya iqtisadiyyatına inteqrasiyası imkanları və bunun yolları barədə sanballı elmi məruzələri ilə diqqəti cəlb edir.
Alimin bilavasitə rəhbərliyi ilə ötən əsrin 80-ci illərində "Dağ rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsi", "Ma-

terial tutumu", "İntensivləşdirmə", "Demoqrafik inkişaf və əmək ehtiyatlarından istifadə" və digər məqsədli proqramlar işlənib hazırlanmışdır.

2004, 2009, 2010-cu illərdə Z.Səmədzadənin ölkə və onun hüdudlarından kənarda böyük əks-səda doğurmuş "Böyük yolun mərhələləri" – "Azərbaycan iqtisadiyyatı yarım əsrdə: reallıq və perspektivlər", (rus dilində) çap olunmuş, Çin iqtisadiyyatına dair fundamental monoqrafiyaları nəşr edilmişdir. Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti və Azərbaycan İqtisadçılar İttifaqının sədri kimi müasir sivilizasiyanın aktual problemlərinin araşdırılması və həllində fəal iştirak edir.

Z.Səmədzadə Beynəlxalq Menecment Akademiyasının, Avropa Beynəlxalq Akademiyasının Azərbaycan bölməsinin akademikidir.

Z.Səmədzadə III çağırış (2005-2010-cu il) və IV çağırış (2010-2015) Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi Siyasət Komitəsinin Sədri kimi ölkədə iqtisadi qanunvericilik bazasının möhkəmləndirilməsi, büdcə sisteminin təkmilləşdirilməsi və s. məsələlərin həllində fəal iştirak edir.

Z.Səmədzadənin 3 övladı var. Oğlu Elşad Səmədzadə iqtisad üzrə fəlsəfə doktorudur. Azərbaycan İqtisadçılar İttifaqının sədr müavinidir. Böyük qızı Aygün Səmədzadə tanınmış bəstəkardır. Onun "Tut ağacı", "Məktəb illəri", "Yağış", "Bu dünyanı nağıl bilək" və s. mahnıları ürəklərə, evlərə, geniş salonlara xoş təranələr, düşüncələr bəxş edir. Z.Səmədzadə yeni ideya və üsulların, yeni iqtisadi təfəkkürün yorulmaz təbliğatçısıdır. 1999-cu ildə akademik "İqtisadiyyat" adlı Azərbaycan dövlətinin, onun iqtisadi qüdrətinin möhkəmlənməsinə xidmət edən qəzet təsis etmişdir. Kiçik qızı Aytən Səmədzadə "İqtisadiyyat" qəzetinin baş redaktorudur. 2010-cu ildə iqtisad elminin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

2010-cu ildə Belarus Respublikasının Prezidentinin sərəncamı ilə Ziyad Səmədzadə "Belarus ilə Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmlənməsinə əhəmiyyətli töhfəsinə görə" "Fransisk Skorina" medalı ilə təltif edilmişdir.

Əsərləri: "Azərbaycan SSR-də əmək məhsuldarlığı və əhalinin məşğulluğunun sahə quruluşu". Bakı, 1973, 204 s.; "Zaqafqaziya iqtisadi regionunun məhsuldar qüvvələrinin yerləşdirilməsinin əsas istiqamətləri. Tbilisi, 1974, 262 s.; "Əhalinin regional problemləri və SSRİ-nin əmək ehtiyatları (Azərbaycan SSR-də əmək ehtiyatlarının formalaşmasının və səmərəli istifadəsinin iqtisadi-demoqrafik şərtləri)", Moskva, 1978, 278 s.; "İctimai istehsalın strukturu və səmərəliliyi. Bakı, 1980, 260 s., rus dilində; "Dağlıq Qarabağ: naməlum həqiqətlər". Bakı, 1995, 83 s.; "Нагорный Карабах: неизвестная правда". Баку, 1995, 60 с.; "Этапы большого пути". Баку, 2004, 932 с. "Çin qlobal dünya iqtisadiyyatında", Bakı, 2009, 607 s.; "Китай в глобальной мировой экономике". Баку, 2010, 631 с.; "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri". Bakı, 2010, 982 s.; "Böyük İqtisadi Ensiklopediya" (beş cilddə), (ideya müəllifi və baş redaktor). Bakı, 2012.

SƏMƏRƏLİ BAZARLAR HİPOTEZİ – aktivlərin qiymətinin onların dəyəri haqqında bütün mövcud olan aşkar məlumatlara təsirini öyrənir.

SƏMƏRƏLİ PORTFEL – riskin verilmiş səviyyəsində investora gözlənilən ən yüksək gəlirliliyi təmin edən portfel; investora həm riskin verilmiş səviyyəsində maksimum gözlənilən gəlirliliyi, həm də gözlənilən gəlirliliyin verilmiş qiymətində minimum riski təmin edən risk; verilmiş (və ya istənilən) risk səviyyəsində maksimum gözlənilən gəlir və ya verilmiş (və ya istənilən) gözlənilən gəlirdə minimum riski olan portfel, çoxsaylı amilləri nəzərə alan riyazi hesablamalar əsasında hesablanır; investor üçün qəbul olunan risk səviyyəsində maksimum gözlənilən gəlirliliyi və ya buna bərabər (ekvivalent) olaraq, gözlənilən gəlirliliyin qəbul olunan səviyyəsində minimum riski təmin edən portfel.

SƏMƏRƏLİLİK – cəmiyyətin malik olduğu qıt sərvətlərdən maksimum dərəcədə faydalanmaq xüsusiyyəti.

Səmərəlilik həddi – orta məcmu xərcləri minimallaşdıran istehsal həcmi. **Səmərəli əmək haqqı** – işçilərin məhsuldarlığını artırmaq məqsədilə firmalar tərəfindən ödənilən tarazlıq səviyyəsindən yüksək əmək haqları.

SƏMƏRƏLİLİK ƏMSALI – məsrəf vahidlərinə düşən səmərənin kəmiyyətini müəyyən etməyə və iqtisadi problemin ən yaxşı variantlarını seçməyə imkan verən göstərici.

SƏMƏRƏSİZ TƏLƏB – qeyri-funksional tələbin bir növü. İnsan və onun sağlamlığı üçün zərərli olan mallara tələbatı nəzərdə tutur. İstehlakçının planlaşdırmadığı, ötəri arzuların və şıltaqlıqların təsiri altında həyata keçirilən bütün alışlar bu kateqoriyaya aiddir. İri mağazaların çoxu istehlakçıların spesifik qruplarında, məsələn, uşaqlı valideynlərdə tələbatın bu formasını yaratmaq üçün kassa aparatlarının yanındakı rəflərə qəsdən şirniyyat və maraqlı əyləncələr qoyurlar.

SƏNAYE – xalq təsərrüfatının ən mühüm sahəsi; cəmiyyətin inkişaf səviyyəsinə həlledici təsir göstərir. Sənaye həm özü və həm də xalq təsərrüfatının digər sahələri üçün əmək alətləri istehsalı, həmçinin, xammal, material, yanacaq hasilatı, enerji istehsalı, meşə tədarükü və s. alınmış, yaxud kənd təsərrüfatında tədarük edilmiş məhsulların sonrakı emalı ilə məşğul müəssisələrin (zavod, fabrik, mədən, şaxta, elektrik st.) məcmusudur. İki böyük sahədən ibarətdir: hasilat sənayesi və emaledici sənaye. Yanacaq sənayesi hər bir ölkənin, ümumiyyətlə dünyanın inkişafına güclü təsir edən amil hesab edilir (bax: cədvəl 1).

Sənaye natural ev təsərrüfatı çərçivəsində yaranmışdır; belə təsərrüfatlarda xammal həm hasil və həm də emal edilirdi. Sənayenin ictimai istehsalın müstəqil sahəsi kimi təşəkkül tapması sənətkarlığın kənd təsərrüfatından ayrılması prosesi ilə bağlıdır. Kapitalizmin meydana gəlməsi və inkişafı sənayenin sürətli yüksəlişinə və sənaye istehsalının xarakterində dərin dəyişikliklərə səbəb olmuşdu. Sənayedə iqtisadi fəallığın səviyyəsi onun mərhələlərinin təsir səviyyəsi ilə müəyyən edilir. Sənaye dövrü və onun mərhələləri barədə görkəmli iqtisadçılar müxtəlif baxışlara malikdirlər (qrafik 1). Sənaye öz inkişafında üç mərhələ keçmişdir: sadə kapitalist kooperasiyası, manufaktura və iri maşınlı sənaye-fabrik. Sənaye çevrilişi manufakturadan irimaşınlı sənayeyə keçidin şərti olmuşdur.

SƏNAYE BANKLARININ MİLLİLƏŞDİRİLMƏSİ – ayrı-ayrı sənaye müəssisələrinin və bir çox istehsal sahələrinin dövlət mülkiyyətinə keçməsi. Sənaye Banklarının millileşdirilməsi müxtəlif miqyasda, demək olar ki, bütün ölkələrdə həyata keçirilir. Yaranmış çətinliklərin aradan qaldırılması məqsədilə bu tədbiri həyata keçirirlər.

SƏNAYE BİRLİYİ – SSRİ-də təsərrüfat rəhbərliyi orqanı, sənayenin idarə edilməsinin üçhalqalı sistemində orta halqa. Sənaye müəssisələri, elmi-tədqiqat, konstruktor, layihə-konstruktor, texnoloji təşkilat və s.-dən ibarət vahid istehsal təsərrüfat kompleksi. Sənaye Birliyinin tərkibinə istehsal birliyi və kombinat da daxil idi. İlk sənaye birliyi 1965-1966-cı illərdə yaradılmışdır. XX əsrin 70-ci illərinin əvvəlindən sənaye birliyi vasitəsilə bir çox sənaye sahələrinə (cihazqayırma, kimya, neft, meşə sənayesi və s.) rəhbərlik edilirdi. Ümumittifaq Sənaye Birliyinə (bilavasitə SSRİ nazirliyinə, yaxud idarəsinə tabe idi) və respublika Sənaye Birliyinə (müttəfiq respublikaların nazirliyinə, idarəsinə), yaxud Nazirlər Sovetinə tabe idi.

SƏNAYE CƏMİYYƏTİ NƏZƏRİYYƏLƏRİ – ictimai inkişaf nəzəriyyələrinə görə bütün ölkələr üçün ümumi inkişaf modelində texniki tərəqqi və sənaye cəmiyyətində iri maşınlı istehsalın artması xüsusi əhəmiyyət kəsb edir. Vahid sənaye cəmiyyəti nəzəriyyəsinin yaranması, ilk növbədə, fransız sosioloqu Raymon Aronun adı ilə bağlıdır. O bildirirdi ki, müxtəlif ölkələrin sənayeləşməsinin gedişində onlar üçün vahid sənaye cəmiyyəti yaranır. Sovet və Qərb sistemləri isə yalnız həmin cəmiyyətin müxtəlif növləridir. Vahid sənaye cəmiyyəti nəzəriyyəsinin digər müəllifi fransız J.Ellülün fikrincə, texniki tərəqqi təkcə iqtisadi qanunların tətbiqini deyil, bu qanunların mahiyyətini də modifikasiyaya məruz qoyur: mülkiyyətin aparıcı rolu aradan qalxır, iqtisadi hakimiyyət iri korporasiyalara keçir, zənginlik və dilənçilik qütbləri dövlətin köməyi ilə aradan qaldırılır. Beləliklə, kapitalist mülkiyyətçilər tərəfindən təkrar istehsal prosesi üzərində hakimiyyətin itirilməsi haqqında əvvəllər idarəçilərin inqilab nəzəriyyəsində inkişaf etdirilmiş ideya yeni sənaye cəmiyyəti nəzəriyyəçiləri üçün də səciyyəvidir. Sonuncular bildirirlər ki, sənaye sivilizasiyası prob-

Cədvəl 1

Dünyanın yanacaq sənayesi

Mineral ehtiyatlar			
Sahənin adı	***Coğrafi bölgüsü***	***Əsas hasilat əraziləri***	***Əsas yük axını***
Neft	Ümumi ehtiyatların 4/5-dən çoxu və hasilatın ½-i - inkişaf etmiş ölkələrin payına düşür	Fars körfəzi, Qərbi Sibir, Meksika körfəzi, Karib hövzəsi	Yaxın Şərq –Yaponiya, Qərbi Avropa –ABŞ; İndoneziya– Yaponiya; Rusiya – Qərbi Avropa; Qərbi Avropa–ABŞ
Qaz	Başlıca olaraq inkişaf etmiş ölkələrdə cəmləşib və inkişaf etməkdə olan ölkələrdə də hasilat artır	Qərbi Sibir, Şimali Afrika, Şimali Amerika, Şimal dənizi hövzəsi	Rusiya – Qərbi Avropa; Əlcəzair –ABŞ, Qərbi Avropa; İndoneziya – Yaponiya; Kanada – Malayziya, ABŞ
Kömür	Ehtiyatların və hasilatın böyük hissəsi inkişaf etmiş ölkələrdədir	Şərqi Sibir, Çin, Hindistan, Şimal-Şərqi ABŞ, Qərbi Avropa	ABŞ–Qərbi Avropa, Yaponiya; Avstraliya – Yaponiya, Qərbi Avropa; CAR–Qərbi Avropa, Yaponiya

Dünya elektroenergetikası	
Elektrik enerjisinin aparıcı istehsalçıları	***Hər nəfərə daha çox elektrik enerjisinin istehsalı***
ABŞ, Rusiya, Yaponiya, Çin, Almaniya, Fransa, Kanada	**Norveç, Kanada, İsveç, ABŞ, Finlandiya, Fransa**

Elektrik enerjisinin istehsalının strukturu		
Çox hissəsi İES-lə	***Çox hissəsi SES-lə***	***Çox hissəsi AES-lə***
Niderland (97%), Polşa, CAR, Çin, Meksika	Norveç (99%), Braziliya, Kanada, Efiopiya, Kolumbiya	Fransa (72%), Belçika, Cənubi Koreya, İsveç, İsveçrə

Dünyanın kimya sənayesi


- Bütövlükdə ölkədəki elmi-texniki tərəqqini müəyyənləşdirir.
- Kimya sənayesində aparıcı yer inkişaf etmiş ölkələrə məxsusdur.

Müxtəlif sahələrin coğrafi bölgüsü

Əsas kimya		*Orqanik sintez kimyası*		
Kükürd turşusu istehsalı	***Mineral gübrələrin istehsalı***	***Kimyəvi liflər***	***Plastmaslar***	***Sintetik kauçuk***
ABŞ Rusiya Çin Yaponiya Fransa	ABŞ Çin Rusiya Kanada Hindistan	ABŞ Yaponiya Tayvan Çin Cənubi Koreya	ABŞ Yaponiya Almaniya Niderland İtaliya	ABŞ Yaponiya Fransa Böyük Britaniya Braziliya

İnkişaf etmiş kimya sənayesi olan ölkələr: ABŞ, Yaponiya, Qərbi Avropa, Rusiya, Çin.
Kimya sənayesi İnkişaf etməkdə olan ölkələr: Hindistan, CAR, Əlcəzair, Liviya, Meksika, Türkmənistan.
Kimya sənayesi zəif inkişaf etmiş ölkələr: Okeaniya, Afrikanın tropik ölkələri.

Sənaye dövrü (tsikli) və onun mərhələləri



Qrafik 1

lemlərinin həlli idarəçilərin – menecerlərin əlinə keçmişdir. Aron və yeni sənaye cəmiyyətinin digər tərəfdarları belə hesab edirdilər ki, müasir korporasiyaların strukturu inhisar xarakteri daşımır. Çünki bu struktur təkcə səmərə əldə etməyə deyil, həm də həyati əhəmiyyətli bir sıra sosial funksiyaların yerinə yetirilməsinə yönəlmişdir. Yeni sənaye cəmiyyəti nəzəriyyəsi amerikalı iqtisadçı C.K.Hellbreytin bir sıra əsərlərində, ilk növbədə, "Yeni sənaye cəmiyyəti" kitabında (1967) təsvir edilmişdir. C.K.Hellbreyt hələ 1957-ci ildə isbat etməyə çalışırdı ki, mürəkkəb və getdikcə daha mükəmməl texnikanın tətbiq edilməsi kapitalizmin daxilən dəyişməsinə, bazarda istehlak malları bolluğu yaranmasına, yaxşı təşkil olunmuş xidmətlər sisteminə və bunun nəticəsi olaraq əvvəlki sosial təzadların aradan qaldırılmasına gətirib çıxarır. O, müasir kapitalizmin bütün iqtisadi sistemini iki müxtəlif sektorun – "planlaşdırma sisteminin" və "bazar sisteminin" məcmusu kimi göstərirdi. Birinci sistemə iri korporasiyalar aləmi aiddir. Onlar təkcə qiymətlərə, xərclərə, texnologiyalara deyil, cəmiyyətə və dövlətə də hökmranlıq edir. İkinci sistemə xırda firmalar, yox olmaq həddinə çatmış sahələr, xidmət sahəsi və digər elementlər aiddir. Onların fikrincə, sərt planlaşdırma sistemi hədsiz ekspansiyaya meyl etməsinə və ictimai maraqları nəzərə almadığına görə qeyri-sabitlik və ziddiyyətlərin kəskinləşməsinin mənbəyi kimi çıxış edir. Yaranmış ziddiyyətləri aradan qaldırmaq üçün islahatlar təklif edilir. Onlar dövləti planlaşdırma sisteminin hakimiyyətindən çıxararaq inhisarlaşdırılmayan sektora xidmət etməyə yönəltməli bazar sisteminin rəqabət qabiliyyətini və alıcılıq qabiliyyətinin artmasını təmin edərdi.

SƏNAYE İQTİSADİYYATI – iqtisadiyyat elmi sahəsi; sənayeni bir-birilə qarşılıqlı əlaqəsi olan sahələrin, istehsalın və müəssisələrin (birliklərin) kompleks sistemi kimi öyrənir İnkişaf etmiş ölkələrdə sənayenin strukturu onun tərkibində elmi-tədqiqat, təcrübə-konstruktor işləri (ETTKİ) ayrıca bir bölmə kimi araşdırılır (cədvəl 1).


SƏNAYE İSTEHSALI İNDİKATORU – milli zavodların, mədənlərin məhsullarını, kommunal xidmətlərin haqqını və s. əks etdirir. Onun artımı valyuta ehtiyatlarının artımını, milli iqtisadiyyatın inkişafını, ölkənin ixrac potesialını xarakterizə edir.

SƏNAYE KAPİTALI – öz strukturunda tədavül fazası ilə yanaşı, həm də istehsal fazasını ehtiva edən kapitalın vahid forması; başqa sözlə, mənfəət əldə etmək üçün avans edilən kapital. Sənaye kapitalı maddi və qeyri-maddi istehsalın kapitalistcəsinə təşkil olunmuş hər bir sahəsində fəaliyyət göstərir: yalnız sənayedə yox, kənd təsərrüfatında, tikintidə, nəqliyyatda, eləcə də xidmət sferasında. "Sənaye kapitalı" anlayışı elmi dövriyyəyə K.Marks tərəfindən daxil edilmişdir ("Kapital", II cild). Sənaye kapitalının hərəkət düsturu belədir: P – Ə... İ...Ə* – P*. Sənaye kapitalı öz hərəkətinə puldan (P) başlayır; sənaye kapitalının dövranın bu mərhələsində istehsal prosesinin həyata keçirilməsi, bununla da, istehsal ehtiyatlarının dəyəri avans edilmənin artırılması prosesi üçün zəruri olan iş qüvvəsinin və is-

Cədvəl 1

Sənayedə ETTKİ-nin (elmi-tədqiqat, təcrübə-konstruktor işləri) sahə strukturu (2010-cu il, %-lə)

Sahələr	ABŞ	Avropa Birliyi	Yaponiya
Əczaçılıq	25	17	8
Hesablama texnikasının istehsalı	24	13	12
Proqram təminatı və xidmətlər	15	3	2
Avtomobil	9	25	27
Elektron	2	5	13
Kimya	3	6	7
Digər	22	31	31



Sxem 1

tehsal vasitələrinin (Ə) alınması həyata keçirilir. İkinci mərhələ – istehsal prosesi (...İ...) mərhələsidir ki, burada yeni istehlak dəyəri yaradılır və avans olunmuş kapitalın dəyəri artır; bu mərhələdə sənaye kapitalı məhsuldar kapital formasını alır. Üçüncü mərhələ dəyəri ehtiva edən istehsal olunmuş əmtəənin reallaşma prosesini əhatə edir. Bu dəyər avans olunmuş kapital – izafi dəyər (Ə*) qədər artdı, yəni bu əmtəə pula (P*) çevrildi. Bu mərhələdə sənaye kapitalı əmtəə kapitalı formasında çıxış edir. İstehsal olunmuş məhsulun əşya şəkli almadığı, istehsal prosesinin zaman etibarilə istehlak prosesi ilə üst-üstə düşdüyü qeyri-maddi istehsal sferasında sənaye kapitalının hərəkəti bir qədər başqa forma alır: P – Ə... İ* – P*. Bu vəziyyət ona səbəb olmuşdur ki, xidmət sferası sovet iqtisadi ədəbiyyatında sahə kimi nəzərdən keçirilməmiş, istehlak sferası ilə eyniləşdirilmişdi. Xidmət sferasına bu cür yanaşma sovet iqtisadi sisteminin köklü səhvlərindən biri idi.

Sənaye kapitalı əmtəə-pul münasibətlərinin, kapitalın qabaqcadan mövcud olmuş formalarının – ticarət və borc kapitalının inkişafı, feodal münasibətlərinin dağılması, ilkin kapital yığımının gedişi, iş qüvvəsinin əmtəəyə çevrilməsi nəticəsində XV-XVI əsrlərdə yaranmışdır. Sənaye kapitalı öz inkişafında dörd mərhələdən keçmişdir: sadə kapitalist kooperasiyası, manufaktura, fabrik sənayesi və təşkilati-texnoloji cəhətdən özündə elmi tədqiqatları və sənaye istehsalını birləşdirən elmi-istehsal kompleksləri. Sənaye kapitalının yaranması ilə istehsal prosesi ilk dəfə kapitalın hərəkət anına çevrilir ki, bu da ona güclü inkişaf stimulu verir: sənaye kapitalının funksiyası yalnız mənfəət əldə etmək deyil, həm də onun yaradılmasıdır. Məhz bununla izah olunur ki, sənaye kapitalının əmələ gəlməsi ilə əvvəlcə maddi, sonra isə qeyri-maddi istehsal daha yüksək sürətlə inkişaf etməyə başladı. Elmin məhsuldar qüvvəyə çevrilməsi ilə sənaye kapitalının quruluşunda mühüm dəyişikliklər baş verir. Hər şeydən əvvəl bu dəyişikliklər sənaye kapitalının hərəkəti prosesinə elmi istehsal fazasının daxil olmasında ifadə olunur. Elmin (hər şeydən əvvəl, tətbiqi elmlərin) inkişafı kapitalın spesifik funksiyasına çevrilir. Sənaye kapitalının hərəkətində digər yeni hadisə onun tərkibinə sənaye kapitalının ehtiyacı olduğu mürəkkəb, keyfiyyətcə yeni iş qüvvəsinin təkrar istehsalının daxil olmasıdır.

SƏNAYE QURĞULARI – istehsal prosesində müəyyən funksiyaları yerinə yetirən, yaxud texnoloji avadanlıq, xammal, kommunikasiya və s. yükləri qəbul edən qurğular. Sənaye qurğularının müxtəlif növ və tiplərinin miqdarı 100 addan çoxdur və şərti olaraq aşağıdakı qruplara bölünür: kommunikasiya tikililəri (tunellər; texnoloji kommunikasiya, enerji təchizetmə şəbəkələri, xammal və materialın ötürülməsi üçün kanal və boru kəmərləri; elektrik, işıq və rabitə xətlərinin dayaq-

NEFT-QAZ EMALI VƏ NEFT-KİMYA KOMPLEKSİ LAYİHƏSİ

Son 15-20 il ərzində neft-qaz sektorunun inkişafı strategiyasına uyğun olaraq neft-qaz hasilatı və karbohidrogen xammalının dünya bazarlarına nəqli ilə əlaqədar respublikada irimiqyaslı tədbirlərin icrası, habelə ötən əsrin 90-cı illərində və 2000-ci illərin əvvəllərində müvafiq maliyyə çətinliklərinin yaşanması və sair obyektiv səbəblərdən neft-qaz emalı və neft-kimya sənayesində köklü yenidənqurma işlərinin aparılması mümkün olmamışdır. Neft emalı və neft-kimya sənayesi müəssisələrinin əsas texnoloji qurğularının istismar müddətlərinin layihə müddətindən (təqribən 20 il) 1,5-2 dəfə artıq olması səbəbindən qurğular mənəvi cəhətdən köhnəlmiş və fiziki cəhətdən aşınmaya məruz qalmışdır. Eyni zamanda, qurğular ətraf mühitə mənfi təsir edir və istehsal etdikləri məhsullar müasir keyfiyyət standartlarına cavab vermir.

"Azərbaycanda yeni və güclü neft emalı və neft-kimya kompleksinin tikintisinə böyük ehtiyac vardır. Mövcud emal zavodlarında müəyyən yenidən qurma işləri aparılsa da, orada istehsal olunan məhsullar dünya standartlarına uyğun deyil və bu da gələcəkdə dünya bazarına çıxış imkanlarımızı məhdudlaşdıracaqdır. Bu müəssisələr eyni zamanda ətraf mühitin çirklənməsinə də səbəb olur".

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti




ARDNŞ Neft-qaz emalı və neft kompleksi forumu (Bakı, 2012-ci il 10-12 aprel)



Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq tapşırıqları nəticəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən yeni neft-qaz emalı və neft-kimya (NQNK) kompleksinin layihəsi nüfuzlu beynəlxalq təşkilatların, biznes dairələrinin iştirakı ilə keçirilən Bakı forumunda ətraflı müzakirə olundu.

Aparılmış araşdırmalara əsasən Azərbaycanda əksər neft emalı məhsullarına tələbat stabil olaraq artacaqdır. Aşağıdakı qrafikdə əsas neft emalı məhsullarına ölkədaxili tələbatın proqnozu verilmişdir:




Mənbə: PGİ, ARDNŞ

Qrafik 1

Daxili tələbatdan artıq istehsal olunan məhsul həcmləri ixraca yönəldiləcəkdir. Neft emalı məhsullarının ixracı əsasən Aralıq Dənizi ölkələri, Türkiyə, Gürcüstan və sair regional bazarlara nəzərdə tutulur.

Neft-kimya məhsulları. Aşağıdakı diaqramda neft-kimya məhsullarının (polietilen, polipropilen və s.) satışı üçün potensial bazarlar əks olunmuşdur (bax: qrafik 2).

Kompleks Neft Emalı Zavodu, Qaz Emalı Zavodu və Neft-kimya Zavodundan ibarət olacaqdır. Bundan əlavə Kompleksin enerji, buxar və s. resurslarla təmin olunması üçün enerji bloku inşa ediləcəkdir. Sahəsi 1300 ha təşkil edən Kompleks Bakı şəhərindən 60 km məsafədə, Abşeron və Qaradağ rayonlarının sərhədində yerləşdiriləcəkdir. Kompleksdə təqribən 2500 nəfər iş yeri ilə təmin olunacaqdır.




Qrafik 2

Neft Emalı Zavodu Azərbaycan yataqlarından hasil edilən istənilən növ nefti qəbul edərək ildə 10 milyon ton xam neftin emalını təmin edəcəkdir. Bundan başqa, zərurət yarandıqda Azərbaycan nefti ilə yanaşı, xaricdən idxal olunacaq potensial neft növlərinin emalı imkanları Kompleksin texnoloji konfiqurasiyasının layihələndirilməsində nəzərə alınmışdır.

NEZ-in texnoloji sxeminə neftin ilkin emalı və atmosfer-vakuum qurğusu, naftanın katalitik riforminqi, baza yağlarının istehsalı, katalitik krekinq, hidrokrekinq, tədrici kokslaşma və sair qurğular daxildir. Ümumiyyətlə, NEZ-də 20-dən artıq texnoloji proses və 30-dan artıq qurğunun quraşdırılması nəzərdə tutulur. Seçilmiş konfiqurasiya açıq neft məhsullarının çıxım faizinin 85%-ə qədər çatdırılmasına imkan verir.

NEZ-in konfiqurasiyası aşağıdakı məhsul çeşidlərini və illik istehsal həcmlərini əldə etməyə imkan verir (bax: qrafik 3):



Qrafik 3

Texnoloji qurğuların seçimi ilk növbədə ölkənin 2040-cı ilə qədər neft məhsullarına olan daxili tələbatının təmin edilməsi zərurətinə əsasən aparılmışdır. Bununla yanaşı, xeyli həcmdə reaktiv və dizel yanacağı ixraca yönəldiləcəkdir.


İstehsal edilən avtomobil benzinlərinin və dizel yanacaqlarının bütün növləri Avro-5 standartının tələblərinə cavab verəcək. Qrup III baza yağlarının istehsalı əsasında müxtəlif nomenklaturalı və təyinatlı yağların istehsalını təşkil etmək mümkün olacaqdır.

Qaz Emalı Zavodu emal gücü ildə 10 milyard m^3 olmaqla emal üçün Azərbaycanın neft-qaz yataqlarından hasil edilən təbii və səmt qazlarını qəbul edəcək. Gələcəkdə emala yönəldilən qazların həcmləri artdıqca zavodun gücünün 15 milyard m^3-ə qədər artırılması nəzərdə tutulur.

QEZ-ə daxil olan xammal təmizlənəcək və tərkibindən C2+ fraksiyaları çıxarılacaqdır. Təmizləmə və çıxarılma prosesləri Avropa standartlarının tələbləri çərçivəsində aparılacaqdır.

Təmizlənmiş metan qazı daxili istehlakçılara çatdırılması üçün ölkənin qaz nəqliyyat şəbəkəsinə, eləcə də ixraca yönəldiləcəkdir. Etan və propan xammal qismində Neft-kimya Zavoduna ötürüləcəkdir.

Neft-kimya Zavodu QEZ və NEZ-dan müvafiq xammalı qəbul edərək ildə təqribən 1,7 mln. ton neft-kimya məhsulu istehsal edəcəkdir (bax: qrafik 4).



Qrafik 4

Kompleksdə buraxılacaq neft-kimya məhsulları, xarici bazarlara ixracla yanaşı, Sumqayıt şəhərindəki Kimya Sənaye Parkı tərkibində yaradılacaq istehsal sahələrində xammal qismində istifadə olunaraq geniş çeşiddə yekun kimya məhsullarının istehsalına imkan verəcəkdir.

NQNK Kompleksinin inşası və istismara verilməsi milli iqtisadiyyata müsbət təkan verəcəkdir. Belə ki, Kompleks ölkəmizin ənənəvi prioritet sahələrdən biri hesab olunan neft-qaz sektorunda emal potensialının yenidənqurulmasına, ən son texnologiyaların tətbiqinə, müasir tələblərə cavab verəcək neft emalı və neft-kimya məhsullarının istehsalına imkan yaradacaqdır.

NQNK Layihəsinin iqtisadi təhlilinin nəticələri göstərir ki, Layihənin rentabellik göstəriciləri dünyadakı oxşar layihələrin göstərdiyi nəticələrə uyğundur.

NQNK layihəsinin maliyyə dayanıqlığı və iqtisadi səmərəliliyinin təmin edilməsi, habelə layihənin maliyyələşdirilməsi üçün zəruri həcmdə və uyğun faiz şərtləri ilə borc vəsaitinin cəlb olunması üçün əlverişli vergi və gömrük rejimlərinin tətbiqi və müvafiq dövlət təminatlarının verilməsi vacib əhəmiyyət kəsb edir.

Bakıda yeni neft-kimya, neftayırma və qaz emalı zavodlarının ilkin təqdimatı keçirildi. Bu layihələr üzərində Azərbaycan Dövlət Neft Şirkəti müəyyən müddətdir ki, işləyibdir. Bu layihələrin həyata keçirilməsi haqqında əvvəlki dövrdə mənim tərəfimdən göstərişlər verilmişdir. Hazırda bu göstərişlər artıq reallığa çevrilir. Bu sahəyə – sadaladığım yeni müəssisələrin yaradılmasına qoyulacaq investisiya milyardlarla ölçülür. Bəlkə, 10 milyard manatdan da artıq ola bilər.

Bu, gələcəyə yönəldilən investisiyalardır. Bu investisiyalar hesabına biz bu sahədə bütün işləri müasir səviyyədə qura biləcəyik, yeni böyük neftayırma zavodunun tikintisi bizə daha da keyfiyyətli məhsulun istehsalına şərait yaradacaqdır, ixrac potensialımız böyük dərəcədə artacaqdır, eyni zamanda, uzun illər fəaliyyət göstərən iki neftayırma zavodunun fəaliyyətinin dayandırılmasına da gətirib çıxaracaqdır. Buna da böyük ehtiyac vardır. Yeni neftayırma zavodu tikilməyənə qədər bu iki zavod fəaliyyətini davam etdirəcəkdir... O zavodda ən müasir ekoloji standartlara uyğun yanacaq istehsal ediləcəkdir. Beləliklə, indiki zavodların əraziləri də abadlaşacaqdır.

İlham Əliyev, 16.04.2012

Sənaye kapitalının dövriyyə müddətinin strukturu



Sxem 2

ları; tüstü boruları və s.); nəql qurğuları (ötürücülər, yükboşaltma və kran estakadaları, transportyor və konveyer qalereyaları); qaz və maye məhsullar, səpələnən materiallar üçün tutumlar, su və qaz təchizi, ventilyasiya və kanalizasiya sistemi qurğuları (bunker, qazholder, neft anbarı, subasqı qülləleri və s.) texnoloji avadanlıq üçün dayaq kimi istifadə olunan quruluşlar (maşın və avadanlıq bünövrələri, texnoloji aparat üçün postament və s.).

SƏNAYE MALLARININ RƏQABƏT QABİLİYYƏTİ İNDEKSİ – müəyyən ölkənin sənaye məmulatlarının ixrac üçün göndərilən nisbi rəqabət qabiliyyəti göstəricisi. Qeyri-ərzaq sektorunda topdansatış qiymətlərlə əlaqədar olaraq, inflyasiyaya görə düzəliş etməklə rəqabət aparan ölkənin valyutasının mübadilə məzənnəsi ilə ölkənin valyutasının mübadilə məzənnəsinin müqayisəsi əsasında hesablanır.

SƏNAYE MƏHSULUNUN İQTİSADİ TƏYİNATI ÜZRƏ QRUPLAŞMASI – istehsal olunan sənaye məhsulunun istehsal vasitələrinə (sənayenin A qrupu məhsuluna) və istehlak predmetlərinə (sənayenin B qrupu məhsuluna) bölünməsi.

Sənaye məhsulunun strukturu:

1) bütövlükdə A qrupuna aid olan istehsal təyinatlı məhsul (əlvan və qara metal filizi, iplik, texnoloji avadanlıq, sellüloz);

2) bütövlükdə B qrupuna aid olan (çörək və çörək-bulka məmulatları, qənnadı məmulatları və s.) qeyri-istehsal təyinatlı məhsul (əhali və qeyri-istehsal sferasının sahələri üçün nəzərdə tutulur);

3) qismən A qrupuna, qismən isə B qrupuna aid (elektroenergetika, kömür, qaz, hazır qumaş, ət) qarışıq təyinatlı məhsul.

SƏNAYE MƏHSULUNUN ÖLÇÜ VAHİDİ – istehsal olunmuş məhsulun miqdarını ifadə edən ölçü vahidi. Sənaye məhsulunun aşağıdakı ölçü vahidləri vardır: təbii (fiziki) vahidlər – ədəd, metr, ton və s.; istehlak xassəsi (və ya texniki-iqtisadi parametri) ortaq ölçü kimi qəbul edilmiş bir məhsulun növünün miqdarı ilə ifadə edilmiş şərti-təbii vahidlər (məsələn, sabunun miqdarı piyliliyi qırx faizə bərabər qəbul edilməklə təkrar hesablanır, müxtəlif tipli traktorlarda mühərriklərin gücü və s.); bir neçə növdən ibarət məhsulun həcminin ölçüsü üçün qəbul edilmiş şərti vahidlər. Bu halda, məhsul növlərindən biri hər hansı əlamət üzrə vahid qəbul edilir, başqa növlər üzrə təkrar sayma əmsalı müəyyən edilir və məhsulun həcmi məhsulun həmin növündə vahid kimi qəbul edilmiş növdə əlamətin ölçüsünün nisbətinə əsasən hesablanır (məsələn, konserv sənayesində məhsulun həcmi şərti bankalarla hesablanır).

SƏNAYE MÜLKİYYƏTİ OBYEKTİ – insanın əqli fəaliyyətinin nəticəsi olan ixtira, faydalı model və sənaye nümunəsi.

SƏNAYE NÜMUNƏSİ – məmulatın yeni zahiri görkəmini müəyyən edən bədii-konstruktiv həll.


SƏNAYE SİYASƏTİ – milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, istehsal edilən məhsulun rəqabət qabiliyyətinin saxlanması, bazarda uğursuzluq hallarında bazar mexanizmlərinə düzəlişlər edilməsi üçün resursların paylanmasına yönəlmiş kompleks tədbirlər sistemi. Müxtəlif ölkələr üçün sənaye siyasətinin bir neçə *modeli* vardır. Bu modellərin hər biri özünəməxsus cəhətləri ilə fərqlənir, həmin cəhətlər də öz növbəsində, iqtisadi inkişafın spesifikası və səviyyəsi, iqtisadi və elmi-texniki potensial, tarixi ənənələr və əməyin beynəlxalq differensiasiyasında konkret ölkənin mövqeyi ilə müəyyən olunur.

Təcrübə göstərir ki, fəal və ardıcıl sənaye siyasəti əvvəllər geridə qalan ölkələrin qısa müddətdə nəinki sənayeləşməsinə, hətta, post-sənaye inkişafının təməlini qoymağa imkan verir. Sənaye siyasətinin əsas məsələsi sosial-iqtisadi inkişafın məqsədlərinin prioritetini seçmək məsələsidir. Bu məqsədlərə yalnız dövlətin dəstəyi sayəsində nail olmaq mümkündür. Müasir mərhələdə bu, ilk növbədə, resurslara qənaət, yeni istehsalatların inkişaf etdirilməsi və mövcud istehsalatların təkmilləşdirilməsi, yüksək texnologiyalara əsaslanan və elm tutumlu sahələrin məhsulunun rəqabət qabiliyyətinin artırılması, ətraf mühitin qorunması məsələləridir.

Sənaye siyasətinin tərkib hissəsi olan struktur siyasəti konkret institusional dəyişikliklər aparılmasını nəzərdə tutur.

Sənaye siyasətinin reallaşdırılması mexanizminə aşağıdakı elementlər daxildir: borclar, kreditlər, subsidiyalar, müxtəlif vergi güzəştləri, dövlət sifarişləri və dövlət satınalmaları sistemi formasında investisiyaların stimullaşdırılması. Zəruri institusional tədbirlər dedikdə çox vaxt müəssisələrin strukturunun dəyişdirilməsi və özəlləşdirilməsi, müflisləşmə mexanizmləri, kiçik biznesə kömək və onun inkişafı məqsədilə qəbul edilən proqramlar başa düşülür.

Azərbaycanda sənaye istehsalı indeksi, neft və qaz hasilatı
1991 = 100, faizlə



Qrafik 1

Kiçik və orta müəssisələrin inkişafı sənayenin strukturunun təkmilləşməsi üçün əlverişli şərait yaradır. Azərbaycan müstəqillik əldə etdikdən sonra sənaye siyasətinin formalaşması prinsipləri də köklü surətdə dəyişmişdir. Bu sahədə dövlət siyasəti ölkənin müstəqilliyinin qurulmasına, dünya iqtisadiyyatına inteqrasiya olunmasına xidmət edir (bax: İnkişafın Azərbaycan modeli, Əsrin müqaviləsi, H.Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri). Azərbaycanda sənayenin strukturunun təkmilləşməsi istiqamətində qarşıdakı onilliklərdə böyük işlər görüləcəkdir. Bu istiqamətlərdən biri neft-qaz emalı və neft-kimya kompleksinin tamamilə yenidən qurulmasıdır (bax: Neft-qaz emalı və neft-kimya kompleksi layihəsi). Bununla yanaşı respublikada yeyinti, tikinti materialları istehsalı, yüngül sənaye və digər sahələrin məhsullarının istehsalı ilə məşğul olan çoxsaylı müəssisələr movcuddur. **"Dəvəçi Broyler" Açıq Səhmdar Cəmiyyəti** – Dəvəçi Quşçuluq Fabrikinin maddi-texniki bazasının yenidən qurulması ideyasının gerçəkləşdirilməsi sayəsində yaranıb. Fabrik 1996-cı ilədək fəaliyyət göstərib. Fabrikdə istehsalın əvvəlki gücünün bərpası, köhnəlmiş avadanlıqların əvəzinə müasir avadanlıqların gətirilib quraşdırılması, mövcud mexanizm və qurğuların sazlanaraq istifadəyə yararlı hala salınması və s. kimi yenidənqurma işlərinə 2002-ci ildən başlanılıb. Respublika Səhmdar-Kommersiya Bankının "Dəvəçi Broyler" ASC-yə kredit kimi ayırdığı 2,6 milyon manatın, demək olar ki, 80 faizi müəssisənin istehsal gücünün bərpasına sərf edildi. Bundan başqa ASC-nin rəhbərliyi istehsalın bərpası məqsədilə mövcud maddi-texniki bazadan istifadə etdi ki, bu da ümumi xərcləri təxminən 50 faizədək azaltmağa imkan verdi. Nəzərdə tutulmuş planları həya-





ta keçirmək üçün ilk növbədə mövcud kapital fondlarından (infrastruktur və sairə) maksimum səviyyədə istifadə etmək, istehsal prosesində yeni texnologiyanın tətbiqinə nail olmaq, quş ətinin emalı, genetik materialların seçilməsi, yem istehsalı üçün optimal reseptlərin hazırlanması, işçilərə yeni texnoloji avadanlıqlardan istifadə qaydalarını və texnoloji prosesləri idarəetmə bacarığını aşılamaq, sınaqdan çıxmış texnologiyalar və digər proqressiv iqtisadi proqramların tətbiqi yolu ilə səhmdarların risk səviyyəsini minimuma salmaq tələb olunurdu.

"Dəvəçi Broyler" ASC-nin istehsal gücünün yenidən qurulmasında Almaniyanın "Big Dutchman" şirkəti əvəzsiz rol oynadı. Quşların açıq şəraitdə yetişdirilməsi üçün avadanlıq məhz bu şirkətdən alınıb. Qəfəs üsulu ilə broylerin yetişdirilməsi sektorunun yenidən qurulması üçün isə Rusiya texnologiyasından və ASC-nin özünün texniki imkanlarından istifadə olunub. Bundan başqa, kəsim sexi yeni avadanlıqlarla təchiz olunub, yardımçı sahələr yeniləşdirilib, müəssisənin avtomobil parkı maşınlarla təchiz edilib.

Müəssisə rəhbərliyi "Dəvəçi Broyler" ASC-nin işinin yenidən qurulmasında Almaniya, Türkiyə və Rusiya kimi ölkələrin mütəxəssislərinin xidmətindən geniş istifadə edib.

Səhmdar cəmiyyət dinamik sürətlə inkişaf edir. 2001-ci ildən "Dəvəçi Broyler" Açıq Tipli Səhmdar Cəmiyyətinə Zakir Əzimov başçılıq edir.

Əzimov Zakir Mikayıl oğlu 1946-cı ildə Gəncə şəhərində anadan olmuşdur. 1970-ci ildə Moskva baytarlıq akademiyasını bitirmişdir.

1970-1990-cı illərdə Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin Baş baytarlıq idarəsində böyük baytar həkimi, Respublika damazlıq birliyində baş baytar həkimi, "Azmeyvətərəvəzsənaye" Respublika Birliyində heyvandarlıq idarəsinin rəisi, Azərbaycan KP MK-nın kənd təsərrüfatı şöbəsində təlimatçı, "Azərquşsənaye" Dövlət Baş Quşçuluq İdarəsinin rəisi, Respublika Damazlıq Birliyinin sədri, Azərbaycan Dövlət Plan Komitəsində əvvəl heyvandarlıq şöbəsinin rəisi, sonradan isə kənd təsərrüfatı idarəsinin rəisi vəzifələrində işləmişdir. 1990-1992-ci illərdə "Azərquşsənaye" Dövlət Baş Quşçuluq İdarəsinin rəisi, 1993-1997-ci illərdə isə şirkətin birinci vitse prezidenti vəzifələrində çalışmışdır.

"Şirin" Qənnadı Fabriki – 2006-cı ildə təsis edilmişdir və Azərbaycan ərazisində yüksəkkeyfiyyətli qənnadı məmulatlarının istehsalçısıdır. Fabrikin istehsal xətti məhsulların yüksək keyfiyyətini qorumağa imkan verən ən müasir Avropa avadanlıqları ilə təchiz edilmişdir.

QƏNNADI FABRİKİ ®
Şirin
həyatı sevənlərə

Məmulatların istehsalında genetik şəkli dəyişmiş komponentləri olmayan məhsullardan istifadə edilir. İstehsal olunan mallar Uyğunluq və Gigiyenik Sertifikata malikdir. İstehsal edilən məhsulların təkrarolunmaz dadını Rusiya, Ukrayna, Türkiyə və Azərbaycanın ən tanınmış dizayn studiyaları tərəfindən müasir üslubda, nəfis şəkildə tərtib olunmuş dizayn müşayiət edir. Gürcüstan, Qazaxıstan, Monqolustan, ABŞ və Rusiya bazarlarında fabrikin istehsal etdiyi məhsulların satışı həyata keçirilir. 2008-ci ildə 15-ci Beynəlxalq Qida "GHJLIRCGJ-2008" sərgisində müəssisənin məhsulları "Ən yaxşı məhsul-2008" adına layiq görülərək, qızıl medalla mükafatlandırılmışdır.

"Avrora" firması – 2000-ci ildə fəaliyyətə başlamışdır. "Avrora" firması Azərbaycanda makaron, biskvit, peçenye kimi şirniyyat məhsullarının istehsalı, pərakən-



də və topdan satışı ilə məşğul olur. Öz istehsal sahələrində istehsal edilən məhsulları, həmçinin distribüterlik etdiyi şirkətlərin məhsullarını marketlərə və istehlakçılara çatdıran "Avrora" firması qısa müddət ərzində dövrün tələblərinə uyğun müasir texnologiya ilə təchiz olunmuş geniş ticarət şəbəkəsi qurmuşdur. Distribüterlik şəbəkəsi 100-dən çox işçi qüvvəsi və çoxlu sayda nəqliyyat vasitələri ilə ölkənin bütün bölgələrini, rayon və qəsəbələrini, hətta kəndlərini çox rahat şəkildə əhatə edir.

"Avrora" firmasının əsas istehsal sahələrindən biri makaron fabrikidir. Sahəyə makaron istehsalı texnologiyasında öndə olan İtaliyadan alınan ən son avadanlıqlar cəlb edilmişdir. Qeyd etmək lazımdır ki, avadanlıqlar İtaliyanın ən məşhur makaron texnologiyaları istehsalçısı olan "Fava" firmasına məxsusdur. Qablaşdırma İtaliyanın "Martini", paketləmə və salafanlama əməliyyatları isə həmin ölkənin "Selemati" firmasına məxsus olan avadanlıqlarda həyata keçirilir.

Firmada istehsal olunan makaronlar bu sektorda dünya lideri olan İtaliyadakı makaron istehsal tipi ilə eynidir. Qeyd etmək lazımdır ki, firmanın aparıcı makaron brendi "Doymak" məhsuludur. Bundan başqa, firmanının digər makaron brendləri bunlardır: Pastelli, Tanelli, Pasta Max, Lyubimıy, Luxe.

"Avrora" firması həmçinin biskvit və peçenye məhsullarının istehsalı, pərakəndə və topdan satışı ilə də məşğul olur. Biskvitli məhsullar əsasən "Barovski" brendi adı altında müxtəlif adlarda – "Amor", "Ziq-Zaq", "Kvadrat Cemli", "Viktoriya", "Alman Pryaniki", "Molli", "Kokoslu", "Cemli qat-qat", "Vanilli suşki" istehsal olunur. Biskvitli məhsulların istehsal xətti dünya standartlarına cavab verən ən müasir texnologiyalarla təchiz olunmuşdur. Bu istehsalat sahəsində bir növbədə 36 nəfərdən artıq işçi qüvvəsi çalışır. Günlük istehsal gücü 2,5-3 ton olan avadanlıqlar əsasən



Almaniya, Yaponiya və İtaliya firmalarının istehsalıdır. Qablaşdırma isə İtaliya mənşəli avadanlıqlarla həyata keçirilir. Personal yüksək bilik və bacarığı ilə seçilir. İstehsal olunan müxtəlif çeşidli, eləcə də gözəl dizaynlı biskvit məhsullar istehlakçıların tələbatlarına tam cavab verməyə qadirdir.

Rusiya mənşəli avadanlıqla işləyən və gücü gündəlik 12-13 ton məhsul istehsal etməyə çatan peçenye sexində istehsal olunan məhsullar daxili bazarda öz yerini tuta bilib.

"Avrora" firması "OST-ALKO", "OST-AQVA", "PERNOD RİCARD", "PODOCM", "AS LİGAS PİENA KOMBİNAT", "TRADİTİİ KAÇESTVA", "BALTİKA", "SAN-İNTERBRYU", "TRANSMARK", "YESENTUKSKİY PİVZAVOD", "ROLLTON", "KUPYANSKİY MOLOÇNIY KOMBİNAT", "LYUSTDORF", "HOCHLAND-RUSSLAND", "PUSSKIY RELEPT", "SİBİRSKİY LIBERO VODOÇNIY ZAVOD", "SOLNEÇNIY PRADUKT", "TBİLVİNO", "VİSMA", "XLEBCI MOLODCII", "AREİTES DEL SUR-COOSUR", "ACEİTUNAS GUADALQVİVİR", "SİBİRSKİY BEREQ", "AKADEMİYA ŞOKOLADA", "SADİQO", "EHRMANN" markalarının Azərbaycanda eksklüziv distribüteridir.

"Zəhmət-Ruzi" MMC – 1998-ci ildən fəaliyyət göstərir. Hazırda "Zəhmət-Ruzi" şirkəti 2 hektardan artıq ərazini əhatə edir. Ən müasir avadanlıqlarla təhciz edilmiş laboratoriyalar, istehsal sexləri, anbar və daşınma sistemlərinin fəaliyyət göstərdiyi "Zəhmət-Ruzi" ailəsində bu gün müxtəlif sahələr üzrə 150 nəfər yüksək ixtisaslı mütəxəssis çalışır.

Şirkət iki sahədə – ət və süd məhsullarının istehsalı sektorunda tam gücü ilə çalışır. İslam



qanunları əsasında hazırlanan, ekoloji təmiz, yüksək keyfiyyətli "SAB" ət və süd məhsulları beynəlxalq standartlara uyğun şəkildə Azərbaycan istehlakçılarına təqdim olunur.

"SAB" ticarət nişanı "AZS" – Keyfiyyət, İdarəetmə Standartının Sertifikatına layiq görülmüşdür. Hazırda "SAB" MDB ölkələrində 60 çeşiddə ət, 50 çeşiddə isə süd məhsulları ilə Azərbaycanı uğurla təmsil edir.

Vinaqro Məhdud Məsuliyyətli Cəmiyyət – 2006-cı ilin mart ayında təsis edilmişdir. Vinaqro MMC "Göygöl Şərab Zavodu" ASC-nin səhmlərinin əsas hissəsinin səhmdarıdır.

Sovet iqtisadi sistemində "Xanlar Aqrosənaye" kombinatı adı altında bu zavod şərab və konyak məhsulları istehsalında ixtisaslaşaraq öz məhsullarını bütün sovet respublikalarına göndərirdi. Müəssisənin istehsal etdiyi konyak və konyak spirti ümumittifaq istehsalının 7%-ni təşkil edirdi. 1985-ci ildə qəbul olunmuş "Alkoqolizm və sərxoşluğa qarşı mübarizə tədbiri haqqında" qərarından sonra və təsərrüfatsızlıq nəticəsində zavod xarabalığa çevrilmişdi. Hazırda "Göygöl Şərab Zavodu" öz yeni istehsal həyatını qurmağa başlamışdır.

İndi zavod özündə klassik texnologiyanı və ən yeni texniki nailiyyətləri birləşdirən müasir şərabçılıq müəssisəsidir. Hazırda bütün istehsal binaları, sexlər və köməkçi sahələr yenidən qurulmuş və təmir olunmuşdur, bütün avadanlıqlar və texnoloji xətlər yenilənmiş və





müasirləri ilə əvəz olunmuşdur. İstehsalın modernləşdirilməsi ilə əlaqədar olaraq şərab zavodunun sexlərində istehsal vasitələri və texnoloji avadanlıqlar tamamilə yenilənmişdir. Bu məqsədlə şərabçılıq sənayesi üçün avadanlıqlar istehsalında aparıcı şirkət olan İtaliyanın tanınmış "TECNOFOOD GROUP" SRL şirkəti ilə müqavilələr bağlanmışdır.

Hazırda "Göygöl Şərab Zavodu"nun 2006-2008-ci illərdə əkilmiş, müxtəlif yüksəkkeyfiyyətli yerli və Avropa üzüm növlərinin becərildiyi 537 hektar üzüm sahəsi var. Əkilmiş üzüm tingləri yerli şəraitə uyğunlaşdırılmış, Avropanın tanınmış şirkətləri olan Fransanın "GONTARD FRERESEPINIERES VITICLES" və İtaliyanın "VIVAI MARCYI" şirkətlərindən alınmışdır. Hazırda zavodun Göygöl və Samux bölgələrində yerləşən üzümlüklərində Merlo, Kaberne-Soviniyon, Prima, Sapervi, Hamburq muskatı, Mədrəsə, Şirvanşahı qırmızı sortlar və Şardone, Soviniyon, Rkasiteli, Uni-Blan, Aq Qrenaş, Ağ Muskat, Bayan-şirə, Sultani ağ üzüm sortları yetişdirilir. Yaxın gələcəkdə üzüm bağlarının sahəsinin 1500 hektara çatdırılması nəzərdə tutulur. "Xan" markası şirkətin əsas ticarət brendidir.

"Veysəloğlu" Şirkəti – 1994-cü ildə yaradılmışdır. İlk zamanlar topdansatış mərkəzi kimi işə başlayan şirkət inkişaf edərək, hazırda yüksək səviyyəli xidməti ilə seçilən müasir ticarət holdinqinə çevrilmişdir. Yalnız Türkiyə Respublikasından qida məhsulları idxalı ilə fəaliyyətə başlayan şirkət, hazırda Rusiya, Ukrayna, Belarus, Latviya, Almaniya, Polşa, Macarıstan, Danimarka, İtaliya, Koreya və s. kimi ölkələrlə əməkdaşlıq edir. Məqsəd Azərbaycan bazarında mövcud olan bütün satış nöqtələrinə yüksək keyfiyyətli satış xidməti göstərməkdir.

Şirkət distribüteri olduğu şirkətlərin məhsullarının öncə Bakı şəhərində, az bir müddətdən sonra isə Azərbaycanın bütün bölgələrində satışını təşkil et-



"Veysəloğlu" Şirkətinin məhsulları

məyə başladı. Bunun nəticəsi olaraq satışını təşkil etdiyi məhsullara olan tələbatın artması nəticəsində son bir ildə şirkətdə çalışanların sayı 40% artmışdır. Şirkətin Bakı şəhərində yerləşən Mərkəzi anbarı, Cənub bölgəsini əhatə edən Salyan şəhərində yerləşən filialı, Qərb bölgəsini əhatə edən Mingəçevir şəhərində yerləşən filialı vardır.

Şirkətin müasir anbar infrastrukturuna malik olması və dünyanın 80-dən çox aparıcı istehsalçılarının (Türkiyə, Rusiya, Ukrayna, Belarus, Almaniya, Fransa, Macarıstan, Polşa və s. kimi ölkələrin) distribüterliyini həyata keçirməsi inkişafımıza daima təkan veir.

Şirkət müştərilərinə keyfiyyətli satış, xidmət göstərmək üçün müasir texnologiyaların uğurlarından da bacarıqla istifadə edir.

"BİSMAK" Qida Sənaye Kompleksi MMC – 2004-cü ildə təsis edilmiş, 2005-ci ilin noyabr ayında istifadəyə verilmişdir. Kompleks Sumqayıt şəhərinin Sənaye Zonasında yerləşir və 81600 m² sahəni əhatə edir. Bu komplekse müasir üslubda tikilmiş üç mərtəbəli ofis binası, 6 istehsal xəttinə sahib Biskivit fabriki, 3 istehsal xəttinə sahib makaron fabriki, müasir dəyirman kompleksi və 2 istehsal xəttinə malik şokolad fabriki daxildir. Kompleksdə 350 nəfərdən artıq işçi çalışır. Yeni istehsal bölmələrinin açılması ilə işçi sayı artırılacaqdır. Şirkətin əsas məqsədi yeni texnologiyalar əsasında yüksək keyfiyyətli məhsul istehsal etməklə yerli istehsalı gücləndirmək və xarici bazarlara rəqabət qabiliyyətli məhsullar ixrac etməkdir.





"BİSMAK" Qida Sənaye Kompleksi MMC

"ULDUZ" Şokolad Fabriki – "Ulduz" şokolad fabriki 2001-ci ildə yaradılıb. Fabrikin işçi sayı 178 nəfərdən ibarətdir. Məhsulları yerli bazarda mövqeyini möhkəmləndirməklə yanaşı, xarici bazarlarda da müəyyən qədər alıcı kütləsi qazanmaqdadır. "Ulduz" fabriki yerli və Orta Asiya, Rusiya, Gürcüstan kimi xarici bazarlarda da "Çinar" – badam, "Çinar" – kişmiş, "Çinar" – fındıq, "Favorit" – südlü, "Favorit" – kişmişli, "Favorit" – çiyələkli, "Favorit" – ananaslı, "Favorit" – qəhvəli, "Ritm" – portağallı, "Ritm" – kişmişli, "Rocky" – ağ nuqalı, "Rocky" – qəhvə nuqalı, "Safir" – portağal nuqalı, karamelli konfet, "Mono", "Sweet" (floupak, double twist), "Tango" (floupak, double twist), "Xonça" (floupak, double twist), "Cocoulduz" (floupak, double twist) kimi məhsullarının müxtəlif çeşidləri ilə böyük nüfuz qazanıb. 9-13 fevral 2009-cu il tarixlərində Moskva şəhərində keçirilən "PRODEKSPO – 2009" sərgisində "Ulduz" fabrikinin şoko-







"ULDUZ" Şokolad Fabriki məhsulları.

ladları qızıl medala layiq görülmüşdür.

"Biləsuvar Aqro" MMC – "Biləsuvar Aqro" süd emalı zavodu "Regionların 2004-2008 -ci illər Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı" əsasında Biləsuvar şəhərində inşa edilib. Zavodun açılışı 2008-ci ildə olmuşdur. Ümumi investisiya xərcləri 10 mln. manat təşkil edən zavodda süddən 72 və 82 faizlik kərə yağı alınır, qalan kütlədən isə mükəmməl texnologiya əsasında yağsız və 25 faiz yağlılığı olan quru süd istehsal edilir. Zavod sutkada 300 ton süd qəbul etmək gücünə malikdir. Gündəlik emal həcmi 150 tona bərabər olan müəssisədə hal-hazırda

Biləsuvar Aqro
MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

50 nəfər daimi işlə təmin edilib. Müəssisədə quru süd, kərə yağı və qatılaşdırılmış süd emalı üçün Almaniya, Polşa, Türkiyə, ABŞ və digər ölkələrdən gətirilən müasir avadanlıqlar quraşdırılıb. "Biləsuvar Aqro" emalda yerli xammaldan istifadə edir. Beləliklə, zavod öz növbəsində regionda heyvandarlığın inkişafına öz əvəzsiz töhfəsini verir. Regionda analoqu olmayan bu müəssisə böyük ixrac potensialına da malikdir. Zavodun işə düşməsi ilə Azərbaycan quru süd kimi mühüm məhsul ixrac edən ölkəyə çevrilib. İndiyədək Hollandiya, Rusiya və digər ölkələrdən bu məhsulu idxal edən Azərbaycana artıq bir sıra ölkələrdən sifarişlər gəlir.

Zavodun ərazisində yüksək ixtisaslı mütəxəssislər üçün altı



"Biləsuvar Aqro" MMC



liyyə vəsaitinin 5 milyon manatı "Sahibkarlığa Kömək Milli Fondu" tərəfindən ayrılıb. Azərbaycanın "Atropatena" şirkətinin sahibi olduğu "Atena" süd məhsulları kombinatının ümumi ərazisi 22 hektar, kombinatın tikinti hissəsinin sahəsi isə 1,2 hektardır. Kompleks ildə 7,6 min ton süd istehsalı və 90 min ton süd emalı gücündədir. Zavodda ilkin olaraq 42 çeşiddə süd məhsulları istehsal edilir, gələcəkdə bu rəqəmi 100-ə çatdırmaq nəzərdə tutulur. Kombinatda süd, qatıq, kəsmik, pendir və digər məhsulların hər biri xüsusi şəraitdə hazırlanır və gigiyenik normalara uyğun şəkildə qablaşdırılır. İstehsal olunan məhsulların qablaşdırılması üçün tələb olunan taralar zavodda hazırlanır. Zavodun xammalla təmin edilməsi məqsədilə Ağ-

mənzilli iki bina inşa olunub, hərtərəfli abadlıq işləri aparılıb. Müəssisəyə elektrik enerjisi və təbii qaz ayrıca xətlərlə daxil olur. Zavod üçün 8 min kubmetrlik tutumu olan süni göldən götürülən su ABŞ-dan gətirilən mükəmməl avadanlıqlarda ideal şəkildə təmizlənərək zavoda verilir.

Atena Süd Məhsulları Kombinatı – 2011-ci il tarixində Ağcabədi rayonunun Ağabəyli kəndində istifadəyə verilmişdir. Kombinatın tikintisinə 40 mln. manat vəsait sərf olunub. Ma-



Atena Süd Məhsulları Kombinatı



cəbədi və ətraf rayonlarda 21 süd qəbulu məntəqəsi təşkil olunmuşdur.

"Az-Granata" şirkəti – 30 oktyabr 2011-ci il tarixində Ağsu rayonunda istifadəyə verilmişdir. Zavod 8,8 hektar ərazidə salınmışdır. Zavodun əsas örtülü sahəsi 20500 kvadratmetrdir. İstehsalat sahəsi 15000 kvadratmetr olan zavodun örtülü köməkçi sahəsi 5500 kvadratmetrdir. İstehsal gücü saatda 12 ton meyvə şirəsi və 3 ton şərab olan zavod saatda 20 ton meyvə qəbulu gücünə malikdir. İllik istehsal gücü isə 50000 ton meyvə şirəsi və ya 65 milyon şərti qablaşdırmadır. Zavodda 16 növ meyvə şirəsi istehsal edilərək 50 ədəd şərti qablarda istehlakçıya təklif olunur. "Az-Granata" şirkəti meyvə sularını Vita1000 brendi adı altında istehlakçılarına təqdim edir.

Zavodun şərab xəttində isə "Qırmızı Kəmşirin", "Qırmızı Kəmtürş" və "Ağ Türş" növləri üzrə şərab istehsal olunmaqdadır. Zavod nar və üzüm ehtiyatını tərkibində olan 700 hektar bağlardan təmin etməkdədir. Bağlarda Rkasiteli və Saperavi texniki sortları ilə yanaşı, süfrə üzümü də yetişdirilməkdədir.

Zavod öz məhsullarını respub-



"Biləsuvar Aqro" MMC



likamızın şəhər və rayonları ilə yanaşı, MDB və Avropa ölkələrinə də göndərir.

"ASNAF" Sənaye Şirkəti – 1987-ci ildə Rusiyanın Tolyatti şəhərində yerləşən Voljsk avtomobil zavodu üçün rezin-texniki ehtiyat hissələri istehsal etməklə fəaliyyətə başlamışdır. Sovetlər





İttifaqı dağıldıqdan sonra şirkət istehsalatın yönümünü dəyişmək məcburiyyətində qalaraq xalq istehlakı mallarının istehsalının təşkili ilə öz fəaliyyətini davam etdirirdi. Belə ki, Avropanın nüfuzlu şirkətləri ilə müqavilələr bağlanaraq Azərbaycana dünya standartlarına cavab verən avadanlıqlar və xammal gətirilirdi. Əldə olunmuş istehsalat təcrübəsi nəticəsində şirkət Avropanın müxtəlif ölkələrindən idxal etdiyi xammal və materiallardan yüksək keyfiyyətli mallar istehsal edərək əhalinin tələbatını qismən də olsa ödəməyə nail oldu. Qapı-pəncərələrə vurulan ağcaqanad torları, alüminium jalüzilər, evlərin, ofislərin interyerlərini tamamlayan şaquli parça jalüzilər, rulon pərdələr, evlərin, mağazaların kənar şəxslərin təcavüzündən qorunması üçün nəzərdə tutulan alüminium rolletlər "Asnaf" şirkətinin məhsullarındandır.

2003-cü ildən başlayaraq "Asnaf" şirkəti Türkiyənin "Alkon" şirkəti ilə birgə Bakıdakı binaların fasadının yeni üsulla tərtibinə başlamışdır. İnşaat materialları kimi istifadə olunan əsas materiallar – alüminium kompozit lövhələr birbaşa Yaponiyadan, şüşələr İran və Belçikadan, alüminium profillər və aksesuarlar İtaliyadan, Yunanıstandan idxal olunur.

2007-ci ildən başlayaraq "Asnaf" şirkəti respublikanın tikinti sektorunda da fəaliyyətə başlamışdır.

"Bakelektro" Şirkətlər Qrupu – 1998-ci ildə yaradılmış "Bakelektro" elektrik avadanlıqlarının və ləvazimatlarının istehsalı, satışı və quraşdırılması sahəsində Azərbaycanın tanınmış şirkətlərindən biridir. Şirkətlər qrupunun ən qocaman şirkəti olan "Bakelektro" ATSC yarımstansiyaların qurulması, ötürücü xətlərin çəkilməsi, sənaye və məişət obyektlərində bütün növ elektrik işləri, alçaq və gərginlikli panoların yığılması, işıqlandırılma, elektrik avadanlıqlarının sazlanması üzrə xidmətlər göstərir. "Bakelektro" ATSC sifarişləri yüksək keyfiyyətdə və vaxtında təhvil verilməsi üçün ixtisaslaşmış maşın və avadanlıqlar parkına malikdir. Şirkətin mürəkkəb elektrik quraşdırma işlərini həyata keçirən zaman tanınmış yerli və xarici istehsalçıların məhsullarından istifadə edilir.

Heydər Əliyev Sarayının daxili və xarici elektrik təchizatı, Heydər Əliyev adına Beynəl-

xalq Hava Limanına gedən yolun işıqlandırılması, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi binasının elektrik təchizatı işləri, Azərbaycan Respublikası Maliyyə Nazirliyi binasının elektrik quraşdırma işləri, Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının binasının işıqlandırılması, Beynəlxalq Ticarət Mərkəzi binasının elektrik avadanlığı ilə təmin olunması "Bakelektro" ATSC tərəfindən yüksək keyfiyyətlə həyata keçirmişdir. Həmçinin "Bakelektro" ATSC Azərbaycanda elektroenergetikanın modernləşməsi və texniki baxımdan yenilənməsi ilə bağlı aparılan işlərə cəlb edilir. Bakı şəhərinin Buzovna qəsəbəsində 110 kV-lıq, Bilgəh qəsəbəsində 35-10 KV-lıq yarımstansiyaları "Bakelektro" ATSC tərəfindən qurularaq müvəffəqiyyətlə istismara verilmişdir.

"Bakelektro" ATSC İSO 9001: 2000 Keyfiyyətin idarə olunması və 18001:1999 Peşə sağlamlığı və təhlükəsizliyi sertifikatlarına malikdir.

"Bakelektro" Şirkətlər Qrupunu satış sahəsində "Santral Elektrik" Ltd. təmsil edir. Elektrik avadanlıqları və ləvazimatlarının satışını həyata keçirən "Santral Elektrik" Ltd. dünyanın 70-dən çox ölkəsindən 400-ə yaxın şirkət ilə əməkdaşlıq qurmağa nail olub. "Santral Elektrik" İngiltərənin "Legrand", Almaniyanın "Siemens", "Schneider Elektric", "Philips", "Osram", "Bosch", "Wolf", İtaliyanın "Gewis", Türkiyənin "Genpower" və digər onlarca iri istehsalçıların Azərbaycanda distribütorudur.

Hazırda Bakıda "Santral Elektrik" şirkətinin 3 satış mərkəzi fəaliyyət göstərir. Satış mərkəzlərində 25000-dən artıq çeşiddə mal mövcuddur. Naqillər, kabellər, lampalar, avtomatik ayırıcılar, generatorlar, kompressorlar, su nasosları, qaynaq aparatları, elektrikli əl alətləri, bir sözlə, elektrik cihazları dünyasından axtardığınızı bu mərkəzdə tapa bilərsiniz. "Santral Elektrik" dünyanın bir nömrəli istehsalçılarının santexnika məhsullarını, çilçıraqlarını, ev və bağ mebellərini də təklif edir. "Santral Elektrik" LTD elektrik avadanlıqları və ləvazimatlarının satışı ilə bərabər layihələndirmə və quraşdırma işləri ilə də məşğul olur. Bu gün Azərbaycanda elə bir irimiqyaslı layihə yoxdur ki, həmin layihədə cüzi də olsa "Santral Elektrik"in payı olmasın. Heydər Əliyev adına Beynəlxalq Hava Limanı və Yük terminalının arxitektur işıqlandırılması, Heydər Əliyev Sarayı binasının elektrik təchizatı, Heydər Əliyev adına prospektin işıqlandırılması, 20 Yanvar dairəsində tunelin daxili işıqlandırılması, İçərişəhər Qız qalası ətrafının işıqlandırılması, Azərbaycan Respublikası Milli Məclisi binasının elektrik təchizatı, Ali Məhkəmənin elektrik təchizatı və fasad işıqlandırılması, Azərbaycan Milli Konservatoriya binasının elektrik avadanlıqları ilə təchizatı, Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının fasadının işıqlandırılması, "Yeni Həyat" yaşayış binasının elektrik təchizatı, "Port Bakı" binalarında elektromexaniki quraşdırma işləri, Park Bulvar binasının elektrik quraşdırma işləri, Muğam Teatrı binasında paylayıcı lövhələrin quraşdırılması "Santral Elektrik" şirkəti tərəfindən həyata keçirilmişdir.

"Santral Elektrik" şirkəti fəaliyyətini beynəlxalq standartlar üzərində qurub. "DNV" sertifikatlaşdırma təşkilatı tərəfindən şirkət İSO və OHSAS sertifikatları verilmişdir. Sertifikatların tələblərinə ciddi əməl edən "Santrlal Elektrik" məhsulların keyfiyyətinə və görülmüş işlərin təhlükəsizliyinə zəmanət verir. "Gök-Nur Bakı Ltd." "Bakelektro" Şirkətlər Qrupuna daxildir. 2003-cü ildə təsis olunmuş "Gök-Nur Bakı Ltd." kabel və kabel kanallarının istehsalı ilə məşğul olur. Şirkət 4 hektarlıq ərazidə yerləşən ən müasir avadanlıqlarla təchiz olunmuş, ayda 2000 ton kabel istehsal gücündə olan zavoda sahibdir. Zavodda dünya standartlarına uyğun geniş çeşiddə və müxtəlif ölçüdə izoləedici orta və alçaq gərginlikli mis kabellər və PVC kabel kanalları istehsal olunur. "Gök-Nur Bakı Ltd."nin zavodunda istehsaldan çıxan hər bir kabel ayrı-ayrılıqda laboratoriya testindən keçirilir. Məhsullar yerli və beynəlxalq standartlara tam uyğundur.

"Gök-Nur Bakı Ltd."nin istehsal etdiyi kabellər Gürcüstan, Əfqanıstan və Qazaxıstana da ixrac edilir.

"Bakelektro" Şirkətlər Qrupuna daxil olan ikinci istehsal şirkəti "GBS" MMC-dir. Şirkətin istehsal sahəsində 0,4-35 kV-lıq elektrik paylayıcı lövhələr, yuvalar, kabel kanalları, satış rəfləri və əməliyyat köşkləri istehsal olunur.

Lövhələrin şkaf tipli, divarüstü, divariçi lövhələr, yağışdan örtüklü lövhələr, fiderli lövhələr, reaktiv güc kompensasiya lövhəsi, sivacon lövhələri, böyük cərəyanlı giriş lövhəsi, EAQ lövhələri və s. növləri vardır. "GBS" MMC sivacon lövhələrinin istehsalı üçün "Siemens" şirkətinin lisenziyasını əldə etmişdir.

"GBS" MMC-nin emal sahəsində lövhələrin daxilinə cihaz və avadanlıqlar quraşdırılır və sınaqlardan keçirilir. Şirkətin məhsulları DÜST və beynəlxalq standartlara uyğundur.

"Bakelektro" şirkətlər qrupunun xidmət müəssisələrindən biri "CBS Construction Electromechanical Systems" MMC-dir. Şirkət sənaye müəssisələrində binalarda, evlərdə elektrik, televiziya, telefon, yanğın xəbərdarlıq sistemlərinin quraşdırılması, işıqlandırma, transformator stansiyalarının, generatorların qurulması, video və audio sistemlərin quraşdırılması işləri həyata keçirir.

Bu gün Azərbaycanın dövlət və özəl qurumları "CBS Construction Electromechanical Systems" MMC-ni seçirlər. Görülən işlərə nümunə olaraq Bakı Biznes Mərkəzi, Park Bulvar, Landmark III, Premium Villa, Şüvəlan Park Ticarət Mərkəzi və onlarca yaşayış binalarında müvafiq işlər görülmüşdür.

SƏNAYE VƏ ENERGETİKA NAZİRLİYİ (SEN) – sənaye və yanacaq-energetika kompleksində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı. Sənaye və yanacaq-energetika kompleksi mədənçıxarma, emal (*neftin və qazın emalı, nəqli və paylanması, kimya, maşınqayırma, metallurgiya, yüngül və digər sənaye sahələrində*), elektrik və istilik enerjisinin istehsalı, təchizatı, ötürülməsi və bu sahələr ilə əlaqədar işləri həyata keçirən hüquqi şəxslərdən və fərdi sahibkarlardan ibarətdir. SEN-nin əsas fəaliyyətini rəqabətədavamlı sənaye mallarının istehsalının həyata keçirilməsi; enerji resurslarından səmərəli istifadə olunması və bu sahədə dövlətin maraqlarının qorunması; ayrı-ayrı enerjidaşıyıcılarının istehsalının və istehlakının proqnoz göstəricilərinin hazırlanması; qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq sahədə elm, texnika və texnologiyanın inki-








şafının və elmi-texniki nailiyyətlərin tətbiqinin təmin edilməsi; enerji resurslarının istehsalı (hasilatı), ötürülməsi (nəqli), paylanması və istehlakı sahəsində texnoloji itkilərin və sərfin azaldılmasına yönələn tədbirlərin hazırlanması; Azərbaycan Respublikasının yanacaq-enerji balansının tərtibi və icrası; Azərbaycan Respublikasında istehsal olunan sənaye mallarının xarici bazarlara çıxarılması üçün əlverişli şəraitin yaradılması; ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiya olunmasının təmini üçün tədbirlərin işlənib hazırlanması kimi istiqamətlər əhatə edir.

SƏNAYE YAĞLARI – sənayedə və məişətdə maşın, cihaz və s. mexanizm növlərini yağlamaq üçün işlədilən neft yağları. Sənaye yağları Bakı və Emba neftindən, həmçinin, bəzi başqa neft növlərindən alınır. Sənaye yağlarına bəzən bitki yağları (məs., günəbaxan, xardal, vəzə-

1995-2010-cu illər ərzində neft və qeyri-neft sektoru üzrə əsas kapitala yönəldilmiş cəmi investisiyalar (mln. AZN)



Qrafik 1

rək yağları), oksidləşməyə və korroziyaya qarşı aşqarlar, qatılaşdırıcılar və yağın istismar xassələrini yaxşılaşdıran digər maddələr qarışdırılır. Sənaye yağlarının çeşidi sintetik yağlar (məs., silikon, poliefir, flüorlu karbohidrogen yağları) və s. hesabına getdikcə artır. Özlülüyündən asılı olaraq, sənaye yağlarını üç qrupa ayırırlar: yüngül, orta və ağır. Yüngül (50°C-də özlülüyü 5-10 sm, *t* donma –25°C-yə qədər) sənaye yağlarından, az yüklənən itisürətli mexanizmləri yağlamaq üçün istifadə edilir. Bu qrupa toxuculuq sənayesində əyirici və burucu (eşmə) maşınları, metal emalı dəzgahlarının şpindellərini və itifirlanan kiçik motorları yağlamaq üçün işlədilən L (velosit) və T (vazelin) yağları, yüngül separatorları yağlamaq üçün separator yağı, tikiş, toxuma və trikotaj maşınlarını yağlamaq üçün maşın yağı, nəzarət-ölçü cihazlarını yağlamaq üçün 60°C-də donan MVP markalı cihaz yağı və s. daxildir. Özlülüyü 50°C-də 10-50 sm olan, –30°C-dən aşağı donan sənaye yağları ilə orta sürətli və orta yüklü mexanizmlər yağlanır. Bu qrupa maşın yağı, cəhrə yağı, T. markalı separator yağı və teleqraf yağı daxildir. Həmin yağlar sənayenin (yüngül sənaye, metal emalı sənayesi və s.) müxtəlif sahələrində, o cümlədən kiçik elektrik mühərriklərini, podşipniklərini (diyircəklərini) və metal emalı dəzgahlarının sistemlərini yağlamaq üçün işlədilir. Özlülüyü 100°C-də 10-30 sm olan ağır sənaye yağları ilə sənayedə az sürətlə və böyük yük altında işləyən mexanizmləri, məs., dəmirçi pres avadanlığını, sonsuz və dişli ötürücüləri və s. yağlamaq üçün istifadə edilir.

SƏNAYEDƏ BAŞA ÇATDIRILMAMIŞ İSTEHSAL – hər hansı bir sex hüdudunda istehsalı qurtarmamış sənaye müəssisəsinin məhsulu. Uzun silsiləli istehsal sahələrində natamam istehsalın qalığının dəyişməsi istehsal olunmuş məhsulun dəyərinə daxil edilir. Başa çatdırılmamış istehsalın qalığının qiymətləndirilməsi üç üsulla həyata keçirilir: ***birbaşa*** – inventarlaşdırma məlumatları və xüsusi işlənmiş qiymət cədvəli üzrə; məlumatların hazırlıq faizi üzrə; dolayı – natamam istehsalın qalığının maya dəyərinin hazır məmulatların dəyərinə və onların maya dəyərinin nisbəti əmsalına vurulması ilə.

SƏNAYEDƏ ƏMLAK HÜQUQLARININ SIĞORTALANMASI – patentlərə, sənaye nümunələrinə, ticarət markalarına və adlarına olan hüquqların pozulmasından, eləcə də müəllif hüquqlarının və onların qoruduqları məmulatlara olan hüquqların pozulmasından əmlak hüquqlarının geniş sığortalanması.

SƏNAYENİN SİYAHIYA ALINMASI – sənayenin (inkişafının müəyyən vaxtında) statistik tədqiqi (yoxlanılması) formalarından biri. Sənayenin siyahıya alınması proqramı, dövriliyi və yoxlanılan müəssisələr dairəsi sənayenin inkişaf şəraiti və məqsədlərindən asılı olaraq müəyyənləşdirilir. Buna görə onlar nəinki ayrı-ayrı ölkələrdə müxtəlif olur, hətta, ölkə daxilində siyahıyaalmalarda da dəyişir. Sənayenin siyahıya alınması ilk dəfə ABŞ-da keçirilmişdir (1850).

SƏNAYENİN TOPDANSATIŞ QİYMƏTLƏRİ – istehsalçı müəssisələrin və yaxud topdansatış təşkilatlarının məhsullarına görə ödədikləri qiymətlər. Bu qiymətin tərkibinə müəssisənin topdansatış qiyməti, təchizat-satış əlavələri (güzəştləri), aksiz və əlavə dəyər vergisi daxildir.

SƏNAYENİN ÜMUMİ MƏHSULU – sənayedə yaradılan ümumi daxili məhsulun bir hissəsi. Müəyyən dövrdə bütün sənaye müəssisələrinin sənaye-istehsal fəaliyyətinin pul ölçüsündə ümumi nəticəsidir. SSRİ-də sənayenin ümumi məhsulu zavod metodu ilə, yəni ayrı-ayrı sənaye müəssisələrinin ümumi məhsulu haqqındakı məlumatları toplamaqla hesablanırdı. Bu metod onunla xarakterizə olunur ki, hər bir müəssisə istehsal prosesinin son mərhələsi kimi götürülür. Sənayenin ümumi məhsulu trest (birlik) metodu, sahə metodu və bütün xalq təsərrüfatı metodu üzrə də hesablanır. Xalq təsərrüfatının inkişafına dair planlarda, statistik hesabat və məlumatlarda sənayenin ümumi məhsulu zavod metodu ilə hesablanır. Sənayenin ümumi məhsulunun hesablanması metodlarından trest, birlik, sahə, sənaye və xalq təsərrüfatı çərçivəsində təsərrüfat əlaqələrinin təhlili, həmçinin xalq təsərrüfatı balansının tərtibi üçün istifadə olunur.

SƏNƏD – 1. İnformasiyanın işlənməsi, onun zaman və məkan etibarilə ötürülməsinə imkan verən maddi daşıyıcı. 2. Müəy-

2011-ci ilin yanvar-dekabr ayları üzrə hesablanmış sığorta haqları və ödənişləri haqqında məlumat (təcili məlumatlar əsasında)

№	Sığortaçının adı	Sığorta haqları	Sığorta ödənişləri
1	"A-Qroup Sığorta Şirkəti" Açıq Səhmdar Cəmiyyəti	8 106 194,26	5 339 607,61
2	"AXA MBASK" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti	12 724 945,30	3 243 766,37
3	"Alfa Sığorta" Açıq Səhmdar Cəmiyyəti	3 053 665,87	537 935,24
4	"AtaSığorta" Açıq Səhmdar Cəmiyyəti	5 440 914,05	2 085 610,97
5	"Atəşgah Həyat" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti	9 524 119,64	169 558,05
6	"Atəşgah" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti	18 547 133,98	6 204 163,89
7	Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti	26 144 818,00	11 078 118,00
8	"Azərbaycan Sənaye Sığorta" Açıq Səhmdar Cəmiyyəti	6 694 276,97	1 801 768,55
9	"Azərqarant Sığorta" Açıq Səhmdar Cəmiyyəti	1 282 358,46	312 702,55
10	"AzSığorta" Açıq Səhmdar Cəmiyyəti	20 787 634,92	1 978 378,11
11	"Bakı Sığorta" Açıq Səhmdar Cəmiyyəti	4 541 659,11	1 017 617,71
12	"Başak İnam Sığorta Şirkəti" Açıq Səhmdar Cəmiyyəti	2 873 484,90	1 277 767,46
13	"Beynəlxalq Sığorta Şirkəti" Açıq Səhmdar Cəmiyyəti	12 408 505,98	5 687 401,71
14	"Çartis Azərbaycan" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti	1 604 090,35	15 086,89
15	"Era Trans Sığorta" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti	1 805 916,94	914 234,74
16	"Əmrah Sığorta" Açıq Səhmdar Cəmiyyəti	653 842,99	368 681,29
17	"Fidan Sığorta" Açıq Səhmdar Cəmiyyəti	274 651,60	206 421,77
18	"Günay Sığorta" Açıq Səhmdar Cəmiyyəti	485 289,69	197 501,28
19	"Xalq Sığorta" Açıq Səhmdar Cəmiyyəti	8 752 308,79	2 594 470,52
20	"İpək Yolu Sığorta" Açıq Səhmdar Cəmiyyəti	21 580 749,82	8 975 702,06
21	"Qala Həyat" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti	4 759 673,39	43 274,42
22	"Qarant Sığorta" Açıq Səhmdar Cəmiyyəti	8 091 881,46	1 251 180,22
23	"Mega Sığorta" Açıq Səhmdar Cəmiyyəti	1 749 769,00	126 814,99
24	"Paşa Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyəti	8 185 106,06	180 855,42
25	"Paşa Sığorta" Şirkəti Açıq Səhmdar Cəmiyyəti	10 507 510,13	2 191 628,10
26	"Rəvan Sığorta" Açıq Səhmdar Cəmiyyəti	2 065 964,79	838 969,22
27	"Standard Insurance" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti	9 723 021,06	2 787 779,83
28	"Temz Sığorta Qrupu" Açıq Səhmdar Cəmiyyəti	612 495,00	140 113,94
YEKUN		**212 981 982,51**	**61 567 110,91**

2011-ci ilin yanvar-dekabr ayları üzrə hesablanmış sığorta haqları və ödənişləri haqqında məlumat (təcili məlumatlar əsasında)

Sığorta sinifləri	Sığorta haqları	Sığorta ödənişləri
Könüllü sığorta üzrə – cəmi	**161 000 894,48**	**51 674 891,10**
o cümlədən		
Həyat sığortası üzrə	**3 652 743,38**	**177 630,22**
o cümlədən		
həyatın ölüm halından sığortası	1 450 493,05	151 359,22
həyatın yaşam sığortası	2 202 250,33	26 271,00
annuitet sığortası	0,00	0,00
əmək qabiliyyətinin sığortası	0,00	0,00
sağalmaz xəstəliklərdən sığorta	0,00	0,00
Qeyri-həyat sığortası üzrə	**157 348 151,10**	**51 497 260,88**
o cümlədən		
Şəxsi sığorta	**36 702 639,87**	**20 981 094,27**
o cümlədən		
fərdi qəza və xəstəlik sığortası	8 289 041,10	1 707 750,62
tibbi sığorta, o cümlədən	28 413 598,77	19 273 343,65
xaricə səfər edən vətəndaşların sığortası	1 434 693,75	245 696,95
Əmlak sığortası	**120 645 511,23**	**30 516 166,61**
o cümlədən		
əmlakın sığortası	**106 475 877,02**	**29 936 702,04**
o cümlədən		
əmlakın yanğından və digər risklərdən sığortası	29 757 270,85	3 735 288,91
avtonəqliyyat vasitələrinin sığortası	44 864 761,53	15 808 847,58
dəmiryol nəqliyyatı vasitələrinin sığortası	36 053,32	0,00
hava nəqliyyatı vasitələrinin sığortası	15 551 187,70	9 037 499,24
su nəqliyyat vasitələrinin sığortası	2 071 235,14	84 773,00
yüklərin (nəqliyyat) sığortası	12 752 013,91	1 147 434,71
kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası	881 804,13	34 579,00
kənd təsərrüfatı heyvanlarının sığortası	169 711,16	81 662,60
əmlakın sığortası ilə bağlı digər siniflər	391 839,28	6 617,00
o cümlədən		
işçilərin dələduzluğu sığortası	374 575,08	6 617,00
pul və pul sənədlərinin saxtalaşdırılmasından sığorta	17 264,20	0,00
mülki məsuliyyətin sığortası	**14 030 261,72**	**550 806,75**
o cümlədən		
avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası	1 081 519,00	267 362,55
dəmiryol nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası	0,00	0,00
hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası	5 748 088,76	177 049,62

su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası	20 257,02	0,00
yük daşıyanın mülki məsuliyyətinin sığortası	15 955,59	0,00
mülki-hüquqi müqavilə üzrə mülki məsuliyyətin sığortası	276 440,10	0,00
peşə məsuliyyətinin sığortası	52 098,97	0,00
işəgötürənin məsuliyyət sığortası	746 654,77	36 874,02
ümumi mülki məsuliyyətin sığortası	6 089 247,51	69 520,56
kredit sığortası	**137 730,52**	**28 657,82**
o cümlədən		
kreditlərin sığortası	137 730,52	28 657,82
ipoteka sığortası	0,00	0,00
qarışıq maliyyə risklərinin sığortası	**1 641,97**	**0,00**
o cümlədən		
əmlakın bazar dəyərinin düşməsi riskindən sığorta	0,00	0,00
işin dayanması ilə bağlı risklərdən sığorta	1 641,97	0,00
İcbari sığorta üzrə—cəmi	**51 981 088,03**	**9 892 219,81**
o cümlədən		
Həyat sığortası üzrə	**18 900 724,82**	**292 384,67**
o cümlədən		
İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta	18 900 724,82	292 384,67
Qeyri-həyat sığortası üzrə	**33 080 363,21**	**9 599 835,14**
o cümlədən		
nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası	4 343 173,34	1 008 622,72
sərnişinlərin icbari sığortası	933 642,22	4 100,00
icbari ekoloji sığortası	103 096,13	11 000,00
yanğından icbari sığorta	7 115 811,56	588 528,42
MM deputatların icbari şəxsi sığortası	114 723,00	39 204,00
tibbi personalın AİDS-dən sığortası	0,00	0,00
hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası	15 865 862,00	7 109 387,00
məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası	4 489 812,00	832 907,00
dövlət qulluqçularının icbari sığortası	7 634,00	6 086,00
diplomatik nümayəndələrin icbari sığortası	0,00	0,00
auditorların peşə məsuliyyətinin icbari sığortası	8 108,96	0,00
daşınmaz əmlakın icbari sığortası	150,00	0,00
daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası	30,00	0,00
avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası	98 320,00	0,00
sərnişinlərin icbari fərdi qəza sığortası	0,00	0,00
YEKUN	**212 981 982,51**	**61 567 110,91**

yən hüquqi faktı və ya müəyyən hüququ təsdiqləyən işgüzar kağız.

Sənəddəki məlumatlar qanunvericiliyə müvafiq hüquqi əhəmiyyət kəsb etməli, onların işlənməsi rahat və sadə olmalıdır. Bütün təsərrüfat əməliyyatlarının sənədli şəkildə rəsmiləş-

dirilməsi mühasibat uçotunun əsasını təşkil edən prinsiplərdən biridir.

Müasir dövrdə elektron avadanlıqların və elektron rabitə vasitələrinin sürətli inkişafı ilə əlaqədar elektron sənədlər getdikcə daha artıq əhəmiyyət kəsb edir. Bu, həmin sənədlərin yığcamlığı, eləcə də onlarda olan informasiyanın işlənməsinin rahatlığı və modem vasitəsilə uzaq məsafələrə sürətlə ötürülməsi imkanı ilə şərtlənmişdir.

SƏNƏD DÖVRİYYƏSİ – sənədlərin yazıldığı andan onların saxlanmaq üçün arxivə təhvil verilməsinə qədər keçdikləri yol. Başqa sözlə desək, sənədləri tərtib edənlər, onların icraçıları həmin sənədləri informasiya-texnoloji zəncirlər boyunca hərəkət etdirirlər. Bu, bütün aidiyyəti şəxslərin informasiya əldə etməsinə, onlara əsasən qərar verilməsinə uçot və nəzarətin həyata keçirməsinə imkan verir. Məsələn, mühasibatın qəbul etdiyi və yoxladığı sənədlər mühasiblər tərəfindən işlənilir. Mühasibat həmin sənədləri qiymətləndirir, qruplaşdırır və "nişanlayır" (kontirovka edir). Kontirovkadan sonra təsərrüfat əməliyyatları haqqında sənədlərdə olan məlumatlar analitik və sintetik hesablara köçürülür, istifadə edilmiş sənədlər isə arxivləşdirilir.

Sənədləri arxivə vermək üçün əvvəlcə onlar müvafiq qaydada hazırlanmalıdır. Bu məqsədlə eyni növlü ilkin sənədlər, adətən, 250-yə qədər vərəqdən ibarət qovluqlar şəklində formalaşdırılır. Qovluqların qalınlığı dörd santimetrdən çox olmamalıdır.

Qovluqları formalaşdırarkən:

– daimi və müvəqqəti saxlanılmaq üçün qovluqlar ayrı-ayrılıqda qruplaşdırılmalı;

– sənədlərin əsli onların surətlərindən, rüblük və aylıq planlar və hesabatlar illik planlardan və hesabatlardan ayrılmalı;

– qovluğa hər sənədin bir nüsxəsi tikilməli;

– qovluqda olan hər bir sənəd dövlət standartlarının və digər normativ aktların tələblərinə uyğun olaraq tərtib edilməli;

– qovluqda olan sənədlər bir təqvim dövrünə – bir aya, rübə, təqvim ilinə görə qruplaşdırılmalıdır.

Keçici işlərin, məsələn, şəxsi işlərin qruplaşdırılması istisna təşkil edir – təqvim ili başa çatdıqdan sonra həmin işlər bağlanılmır.

Əgər qovluqda bir neçə aya aid sənədlər varsa, hər ayın sənədlərindən sonra kağız vərəqlərində müvafiq ay göstərilir. Sənədlərə əlavələrin nə vaxt tətbiq və ya təsdiq edilməsindən asılı olmayaraq, onlar aid olduqları sənədlərə birləşdirilir.

SƏNƏDLƏRİN QRUPLAŞDIRILMASI – sənədlərin emalı elementlərindən biridir. Yəni, onların sintetik və analitik uçot cədvəllərinə qeydlər üçün hazırlığı deməkdir. Müəssisədə hər gün böyük həcmdə müxtəlif sənədlər hazırlanır.

Sənədlərin hər biri ayrıca olaraq, mühasibat uçotu hesablarında qeydiyyatdan keçsə, uçot çox böyük bir iş olardı. Uçot cədvəllərində qeydlərin azaldılması üçün sənədlərin eyni əlamətlər üzrə və müəyyən müddətə qruplaşdırılması aparılır. Bunun üçün mexanikləşdirmə vasitələrindən və toplu halda (qruplaşdırılmış) sənədlərdən istifadə olunur. Toplu halda olan sənədlər əsasında hesablar üzrə qeydlər aparılır.

Məsələn, kassa sənədləri hər günə görə mədaxil və məxaric üzrə qruplaşdırılır ki, bu da xəzinədarın hesabatında öz əksini tapır. Xəzinədarın hesabatı və ona əlavə olunan təsdiqləyici sənədlər əsasında "50 №-li" "Kassa" hesabının debeti üzrə 1№-li cədvəldə və elə həmin hesabın krediti üzrə "1 №-li" jurnal-orderdə qeydlər edilir. Uçotun memorial-order forması zamanı xəzinədarın hesabat göstəriciləri müxbir hesabların debet və krediti üzrə qruplaşdırılmış cədvələ qeyd olunur. Bu siyahı təsdiqləyici sənədlərlə birgə memorial orderin tərtib olunması üçün əsas kimi çıxış edir.

SƏNƏDLƏRİN REYESTRİ (reyestr) – informasiya sahibinə daxil olan, ictimai vəzifələrin yerinə yetirilməsi nəticəsində yaradılan və ya toplanan informasiyaların qeydə alındığı və hər kəsin istifadə edə biləcəyi elektron məlumat toplusu.

SƏNƏDLƏŞDİRMƏ – 1. Təsərrüfat əməliyyatlarının mühasibatda qeydiyyatlar üçün əsas olan xüsusi uçot sənədlərində qeydiyyat üsulu. 2. Sənədlərin məcmusu.

Sənədləşdirmənin aşağıdakı növləri vardır:

– mühasibat sənədləri;

– texniki sənədlər;

– layihə sənədləri;

– konstruktor sənədləri;

– texnoloji sənədlər;

– əmtəə (mal-müşayiət) sənədləri.

Sənədləşdirmə sayəsində sənədlərin səlis və dəqiq uçotu aparılır, təsərrüfat əməliyyatlarının başlanğıc və sonrakı mərhələdə həyata keçirilməsinə nəzarət təmin edilir.
Hər hansı bir sənəd ilkin informasiyanın daşıyıcısıdır və hər bir təsərrüfat əməliyyatı və ya eynicinsli əməliyyatlar qrupu üçün ayrıca tərtib edilir.

SƏNƏDLİ İNKASSO – kommersiya sənədləri (hesablar, nəqliyyat və sığorta sənədləri) ilə müşayiət olunan maliyyə sənədlərinin inkassosu, həmçinin yalnız kommersiya sənədlərinin inkassosu.

SƏNƏDSİZ VEKSELİ VERƏN – dövriyyəyə sənədsiz veksel buraxan şəxs. Bu veksel üzrə ödəmə öhdəliyi hesab operatoru tərəfindən nəzərə alınmışdır.


SƏNƏTKARLIQ – əl ilə xırda sənaye məmulatı istehsalı; iri maşınlı sənayenin yaranmasınadək hakim rol oynamışdır (sonradan onunla birlikdə qismən qalmışdır). Sənətkarlıq üçün aşağıdakılar xarakterikdir: sadə əmək alətlərinin tətbiqi; sənətkarın şəxsi ustalığının həlledici əhəmiyyəti; istehsalın məhdud xarakteri (sənətkarın tək və ya bir neçə köməkçi ilə işləməsi). Sənətkarlıq insanın istehsal fəaliyyətinə başlaması ilə birgə yaranmış, müxtəlif ictimai formasiyalar çərçivəsində texnikanın yüksəlişi ilə inkişaf edərək müxtəlif forma almışdır. İctimai əmək bölgüsünün mərhələlərinə uyğun olaraq sənətkarlıq ev sənətkarlığına, sifarişli sənətkarlığa və bazar sənətkarlığına ayrılmışdır. Ev sənətkarlığı ibtidai icma quruluşunda hakim











rol oynamış, quldarlıq quruluşu və feodalizmdə geniş yayılmışdı. Lakin sənətkarlığın inkişafında həlledici rol tədricən sifarişli sənətkarlığa və bazar sənətkarlığına keçmişdir. Peşə sənətkarlığının, xüsusilə şəhər peşə sənətkarlığına ayrılması ilə keyfiyyətcə yeni istehsal sahəsi meydana gəlmiş və tarixə keyfiyyətcə yeni sosial təbəqə – şəhər sənətkarları daxil olmuşlar; bunlar da cəmiyyətin inkişafında mühüm rol oynamışlar. Kapitalizmin yaranması ilə sənətkarlığın təsərrüfat əhəmiyyəti, təşkili və sənətkarların sosial vəziyyəti kökündən dəyişmişdir. Kapitalizmin erkən mərhələsində ev sənətkarlığının xüsusi çəkisi azalmış, bazar sənətkarlığının rolu artmışdır. Sənətkarların xeyli hissəsi öz iqtisadi müstəqilliyini itirərək sələmçi tacirlərdən asılı vəziyyətə düşür, çox halda isə muzdlu fəhləyə çevrilirdilər. Sənaye çevrilişindən sonra sənayenin aparıcı sahələrində fabrik sənayesi sənətkarlığı sıxışdırmışdır. İnkişaf etmiş kapitalist ölkələrilə sənətkarlıq (sifarişli sənətkarlıq və bazar sənətkarlığı) istehlakçıların fərdi ehtiyaclarına xidmət göstərən, yaxud qiymətli bədii məmulat istehsalı ilə əlaqədar sahələrdə saxlanılmışdır. İqtisadiyyatı zəif inkişaf etmiş ölkələrdə sənətkarlığın əhəmiyyəti nisbətən böyükdür.

Azərbaycanda ibtidai icma quruluşunda insanlar daş, sümük, ağac, gil və metaldan müxtəlif alətlər və məişət əşyaları hazırlamaq texnikasına yiyələnmişlər. Qobustan, Kültəpə (Naxçıvan), Aveydağ (Qazax), Gillikdağ (Xanlar), Xocalı (Gədə-

bəy), Cənubi Azərbaycanda Həsənli, Mərlik, Ziviyyə və digər yaşayış yerlərində tapılmış sənətkarlıq məmulatları bunu aydın göstərir. Həsənlidən Tunc dövrünə (e.ə. 3-2-ci minilliklər) aid tapılmış emalatxana qalıqları, tuncdan balta, mil və bəzək əşyaları düzəltmək üçün tökmə daş qəliblər sənətkarlığın inkişafını göstərir. E.ə. 1-ci minillikdən başlayaraq dəmirin geniş yayılması nəticəsində inkişaf etmiş şəhər sənətkarlığı meydana gəlmişdi. Feodalizm dövründə (təqribən VIII-IX əsrlərdən) sənətkarlıq məhsulları daxili və xarici bazara da çıxarılırdı. Bu dövrdə sənətkarlıqda əmək bölgüsü dərinləşmiş, istehsal texnikası təkmilləşmişdi; ipək istehsalında ayaqla hərəkət etdirilən təkərli mancanaqlar (baramaaçan dəzgahlar), ipək karxanalarında mütəhərrik toxucu dəzgahlar tətbiq olunurdu.

SƏNƏTKARLIQ KOOPERASİYASI – əsasən istehlak mallarının birgə istehsalı və xidmət göstərilməsi üçün xırda istehsalçıları (kustarları və sənətkarları) birləşdirən kooperasiya növü.

Xırda istehsalçıların ilk kooperativləri 1849-cu ildə Almaniyada, XIX əsrin ikinci yarısında digər kapitalist ölkələrində yaranmışdır. Sənət kooperasiyası XIX əsrin sonlarında və XX əsrin əvvəllərində xüsusilə inkişaf etmişdir. Rusiyada ilk kustar və sənət istehsalı artelləri 1865-ci ildə Kostroma quberniyasında yaranmışdır. Müasir şəraitdə inkişaf etmiş ölkələrdə sənət kooperasiyaları digər kooperativlərə nisbətən xeyli az yayılmışdır.

Oktyabr çevrilişinə qədər Rusiyada, o cümlədən, Azərbaycanda bir sıra çoxişlənən istehlak mallarını kustar sənət sənayesi istehsal edirdi. İnqilabın qələbəsindən sonra (1918-1920) xırda əmtəə istehsalçılarının kooperativləşməsi sahəsində ilk addımlar atıldı və ikinci beşillik illərində bu proses başa çatdırıldı. 1941-ci il yanvarın 1-nə 2,6 mln. adamı birləşdirən 25,6 min sənət kooperasiyaları var idi. Sənət kooperasiyaları xırda kustar-sənət sənayesini kökündən dəyişdirdi, onu bütün respublikalarda geniş inkişaf etmiş kooperativ-sənaye istehsalı sisteminə çevirdi. Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından dərhal sonra kustar və sənətkarları birləşdirən ittifaq yaradıldı (1920). 1927-ci ildə həmin ittifaq "Azərsənətbirliyi" adlandırıldı. 1940-cı ildə Azərbaycan SSR-də 25,7 min adamı birləşdirən 174 sənət kooperasiyaları olmuşdur. Əsasən çoxişlənən istehlak mallarının istehsalı ilə məşğul olan sənət kooperasiyaları zəhmətkeşlərin artan tələbatının ödənilməsinə, müharibə illərində isə ordunun və arxa cəbhənin zəruri geyim, şəxsi məişət predmetlərilə təchiz edilməsinə kömək göstərmişdir. Keçmiş sosialist ölkələrində sənət kooperasiyasının inkişaf etdiyi ölkələr arasında ADR-i, Macarıstan və Rumıniyanı göstərmək olar. Kustar sənaye Asiya və Afrikanın bir sıra ölkələrində də inkişaf etmişdir.

SƏNƏT MƏKTƏBLƏRİ – SSRİ-də 1940-1950-ci illərdə sənaye, nəqliyyat, tikinti, rabitə, kənd təsərrüfatı və s. sahələr üçün ixtisaslı fəhlə kadrları hazırlayan texniki peşə məktəbləri. 1920-1930-cu illərdə SSRİ-də, o cümlədən, Azərbaycanda fəaliyyət göstərən fabrik-zavod şagirdliyi (FZŞ) məktəbləri SSRİ Ali Soveti Rəyasət Heyətinin "SSRİ Dövlət Əmək Ehtiyatları haqqında" 1940-cı il 2 oktyabr tarixli Fərmanı ilə sənət məktəblərinə çevrilmişdir. Təhsil müddəti 2-3 il olan sənət məktəblərinə 14-17 yaşlı gənclər qəbul olunurdular. Xalq təsərrüfatının bütün sahələri üçün daha geniş profilli, ixtisaslı fəhlə kadrları hazırlamaq məqsədilə sənət məktəbləri 1959-cu ildən kənd texniki peşə məktəbləri ilə əvəz edilmişdir.

SƏRBƏST AUDİTOR – ölkənin Auditorlar Palatasının verdiyi lisenziyaya əsasən ölkə ərazisində sərbəst auditor xidməti göstərmək hüququnu əldə etmiş fiziki şəxs.

SƏRBƏST DƏYİŞƏN VALYUTA MƏZƏNNƏSİ – valyutanın sərbəst dəyişən məzənnəsi bazar konyunkturası. Tələb və təklif, digər bazar amilləri ilə müəyyən edilir. Bu cür valyuta məzənnəsinə nəzarət edilmir. Buna görə də o, artıb-azala bilər. Sərbəst dəyişən valyuta məzənnəsi valyuta bazarında dövlətin hər hansı müdaxiləsi olmadan tələb və təklifin qarşılıqlı təsiri nəticəsində yaranır. Mübadilə məzənnəsi dəyişdikdə xarici valyutanın milli valyuta ilə ifadə edilmiş qiyməti xarici valyutanın tələb və təklifini müəyyənləşdirən amillərdən asılıdır. Milli valyutanın məzənnəsinin dəyişməsi onun ucuzlaşması və ya bahalaşması deməkdir. Birinci halda, xarici valyutanın bir vahidini almaq üçün daha çox milli



valyuta tələb edilir, ikinci halda isə xarici valyutanın bir vahidinin alınması üçün daha az məbləğdə milli valyuta sərf edilir.

Bu sistemin ən mühüm üstünlüklərindən biri ondan ibarətdir ki, bu halda tədiyə balansı avtomatik olaraq təshih edilir və valyuta ehtiyatlarından istifadə zəruri olmur. Çevik məzənnələr sisteminin digər üstünlükləri sırasında beynəlxalq əmək bölgüsünün üstünlüklərindən daha səmərəli istifadə etməyin mümkünlüyünü, daxili tarazlığın saxlanması məsələlərinin həllinin asanlaşmasını vurğulamaq olar. Bu halda, tədiyə balansının tənzimlənməsi, yəni xarici iqtisadi tarazlıq məsələlərinin həllindən azad pul-kredit siyasətindən istifadə etməklə daxili iqtisadi tarazlığa nail olmaq, antiinflyasiya siyasətini, tənəzzül və işsizliyə qarşı mübarizəni həyata keçirmək mümkündür.

Sərbəst dəyişən məzənnələr sisteminin nöqsanları sırasında mübadilə məzənnəsinin dəyişmələrinə nəzarət edilməməsi ilə əlaqədar qeyri-müəyyənlik və qeyri-sabitlik hallarını göstərmək olar. Bu amillər xarici ticarətin, investisiyaların həcminin azalması, daxili qeyri-sabitliyin, xüsusən, iqtisadi sabitlik səviyyəsi yüksək olan ölkələr üçün güclənməsi kimi neqativ nəticələrə gətirib çıxara bilər.

SƏRBƏST DÖNƏRLİ (KONVERTASİYALI) VALYUTA (SDV) (lat. *convertere* – dəyişmək, çevirmək) – ən müxtəlif beynəlxalq əməliyyatlar (ticarət, kredit, investisiya və s.) üzrə məhdudiyyətsiz hesablaşmalar üçün hər hansı bir saxlayan tərəfindən istifadə edilə bilən, digər xarici valyutalara və beynəlxalq tədiyə vasitələrinə sərbəst mübadilə olunan valyuta. SDV (bəzən onu "möhkəm" valyuta da adlandırırlar) tam xarici və daxili dönərliliyə, yəni həm rezidentlər, həm də qeyri-rezidentlər üçün eyni mübadilə rejiminə malikdir. Dünya təcrübəsində bu və ya digər valyutanın dönərliliyinin qiymətləndirilməsində başlıca cəhət hər hansı valyuta məhdudiyyətlərinin olmaması prinsipidir. Hazırda SDV sırasına ABŞ dolları, Avropa İttifaqı ölkələrinin vahid valyutası olan avro, Böyük Britaniyanın funt-sterlinqi, İsveçrə frankı, yapon iyeni daxildir. Öz hesablarında SDV olan müəssisə və təşkilatlar hər hansı bir ölkədə ticarət və qeyri-ticarət əməliyyatları üzrə hesablaşmalar üçün ondan istifadə edə bilərlər.

SƏRBƏST DÖVRİYYƏ ÜÇÜN BURAXILIŞ – ödənilməli olan bütün gömrük rüsumları və vergilər ödənildikdən və bütün lazımi gömrük rəsmiyyətçilikləri yerinə yetirildikdən sonra gətirilən malların gömrük ərazisində sərbəst dövriyyəyə buraxılışından ibarət gömrük proseduru.

SƏRBƏST GÖMRÜK ZONASI – bu gömrük rejimi o deməkdir ki, xarici mallar müvafiq ərazi hüdudlarında gömrük rüsumları və vergilər tutulmadan, eləcə də həmin mallara iqtisadi siyasət tədbirləri (kvotalaşdırma və lisenziyalaşdırma) tətbiq edilmədən yerləşdirilir və istifadə olunur. Azərbaycan malları isə ölkənin gömrük rejimi ilə müəyyən edilmiş qaydada malların ixracına tətbiq edilən gömrük rejimi şərtləri daxilində yerləşdirilir və istifadə olunur. Sərbəst gömrük zonası həm də gömrük ərazisinin elə məhdud sahəsidir ki, həmin sahə hüdudlarında sahibkarlıq fəaliyyətinin xüsusi rejimi müəyyən edilir. Sərbəst gömrük zonası xarici mənşəli malların gömrük rüsumları və vergiləri ödənilmədən saxlanması, satılması və alınması mümkün olan rüsumsuz ərazidir. Vergi rejimi baxımından bu zona ölkənin gömrük ərazisinin hüdudlarından kənarda yerləşən zona hesab edilir.

İstehsal tipli sərbəst gömrük zonası

İstehsal tipli sərbəst gömrük zonaları inkişaf etmiş istehsal və nəqliyyat infrastrukturuna, eləcə də sahibkarlıq fəaliyyəti üçün zəruri digər şəraitə malik ərazilərdə yaradılır.

Ticarət tipli sərbəst gömrük zonası

Ticarət tipli sərbəst gömrük zonaları limanlarda, dəmiryol qovşaqlarında, ən mühüm avtomobil magistrallarında, sərhəd məntəqələrində və digər sahələrdə yaradılır. Bu cür zonalardan onların ərazisində sərgilər keçirmək, idxal edilən malları sonradan ölkə ərazisinin hüdudlarından kənara və ya ölkə ərazisinin həmin zona hüdudlarından kənardakı hissəsinə daşımaq üçün emal etmək, sortlaşdırmaq, qablaşdırmaq, markalamaq üçün istifadə olunur. Sərbəst gömrük zonaları, adətən, qəbul edən ölkənin gömrük qanunvericiliyinə əsasən müəyyən edilən vergilər, gömrük rüsumları, idxal vergiləri ödənilməsindən və idxal üzərində digər nəzarət növlərindən azaddır. Bundan əlavə, sərbəst iqtisadi zonada həyata keçirilməsinə icazə verilmiş fəaliyyət növləri vergilərdən də azad edilə bilər.

SƏRBƏST GÖMRÜK ZONASI VƏ SƏRBƏST ANBAR – xarici mallardan gömrük rüsumları və vergilər alınmadan, həmçinin, göstərilən mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən onların müvafiq ərazi sərhədlərində və ya binalarda (yerlərdə) yerləşdirilməsi və istifadəsindən; ölkə mallarının isə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ixrac gömrük rejiminə müvafiq malların aparılmasına tətbiq edilən şərtlərlə yerləşdirilməsi və istifadə olunmasından ibarət gömrük rejimi.

SƏRBƏST İSTİFADƏ – qorunan əsərlərdən qanunvericiliklə nəzərdə tutulmuş hallarda müəllifdən (və ya digər hüquq sahibindən) icazə almadan və qonorar ödənilmədən istifadə. Bu halda, müəllifin şəxsi (qeyri-əmlak) hüquqları gözlənilməlidir. Sərbəst istifadə başlıca olaraq informasiya, elm, təhsil və tədris məqsədlərinə xidmət edir. Əsərdən sərbəst istifadə halları və formaları "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 17-24-cü maddələrində göstərilmişdir.

SƏRBƏST OFERTA – satıcı tərəfindən bir neçə alıcıya təklif edilən və bazarın ilkin öyrənilməsi üçün istifadə olunan oferta.

SƏRBƏST ZONA – gətirilən malların idxal və ixrac gömrük rüsumları və vergilərin tətbiqi baxımından gömrük ərazisinin hüdudlarından kənarda yerləşdirilmiş mallar hesab edildiyi gömrük ərazisinin bir hissəsi.

SƏRƏNCAMDA QALAN GƏLİRLƏRİN İSTİFADƏSİ – ev təsərrüfatları, dövlət idarələri və ev təsərrüfatlarına xidmətlər göstərən qeyri-kommersiya təşkilatlarının sərəncamında qalan gəlirlərdən son istehlaka xərclər və qənaətə (yığımlara) bölgüsü ilə səciyyələndirilir. MHS-də istifadə edilən göstəricidir.

SƏRƏNCAMDA QALAN ÜMUMİ MİLLİ GƏLİR – hüquqi və fiziki şəxslərin (institusional vahidlərin – rezidentlərin) sərəncamında olan gəlirlərin cəmidir. Ondan son istehlak və əmanətlər üçün istifadə edilə bilər. İlkin gəlirlərin saldosundan (qalığından) verilmiş cari transferləri çıxmaq və alınmış cari transferləri əlavə etməklə hesablanır.

SƏRƏNCAMDA OLAN GƏLİR – gəlirin sahibi bütün vergiləri ödədikdən, zəruri xərcləri çəkdikdən sonra onun sərəncamında qalan mənfəət hissəsi. "Sərəncamda olan təshih edilmiş gəlir" – müəyyən dövr ərzində əhalinin hər nəfərinə və ya hər ailəyə düşən, natural formada alınan və ya verilən sosial transfertlərin qiyməti qədər təshih edilmiş gəlir.

M.Fridmanın Daimi Gəlir Konsepsiyasına uyğun olaraq, əgər sərəncamda olan gəlir nisbətən sabitdirsə, onda cari gəlirin artımı, yəni əlavə vəsaitlər yığıma meyillidir. İstehlak xərcləri isə əlavə gəlirin artması ilə paralel artmır. Gəlirin artması adi hala çevrildikdə istehlak da artır.

SƏRƏNCAMVERİCİ MƏRKƏZLƏRİN İYERARXİYASI – "idarə – tabelik" münasibətlərinə əsaslanan avtoritar-təşkilati tabelik.

SƏRHƏDYANI TİCARƏT – həmsərhəd dövlətlərin sərhədyanı rayonlarında yerləşən müəssisələr və həmin rayonlarda yaşayan fiziki şəxslər arasında əmtəə mübadiləsi. Ölkə qanunvericiliyinə əsasən, sərhədyanı ticarət bu ölkənin hüquqi şəxsləri ilə sərhədyanı ərazidə daimi yaşayış yeri olan fiziki şəxslər arasında, xarici hüquqi şəxslərlə bu ölkənin həmhüdud dövlətlərlə beynəlxalq müqavilələrində müəyyən edilən müvafiq sərhədyanı ərazidə daimi yaşa-

yış yeri olan fiziki şəxslər arasında aparıla bilər. Sərhədyanı ticarət obyekti sərhədyanı ərazi hüdudlarında istehsal edilən, yalnız yerli ehtiyacların təmini üçün nəzərdə tutulan və sərhədyanı ərazi hüdudlarında istehlak edilən mallardır. Sərhədyanı ticarət çərçivəsində malgöndərmələrin əsasını yerli ixrac resursları, bazar fondları, yerli istehsal malları və xidmətləri təşkil edir. Sərhədyanı ticarət qarşılıqlı sərfəli əmtəə mübadiləsinin, firmalararası əməkdaşlığın, kooperasiya əlaqələrinin, istehsalat təcrübəsi mübadiləsinin müxtəlif formalarının inkişafına şərait yaradır. Sərhədyanı ticarətin inkişafı qonşu ölkələr arasında ziddiyyətlərin kəskinləşməsini və münaqişələrin yaranmasını istisna edən münasibətlərin möhkəmlənməsi üçün də böyük əhəmiyyət daşıyır.

SƏRİŞTƏLİK – şirkətin təcrübə və resurslarının məcmusu.

SƏRNİŞİNLƏR QARŞISINDA AVİADAŞIYANLARIN MƏSULİYYƏT SIĞORTASI – bağlanmış müqaviləyə görə, sığortaçıların itkilərinin, ödənilməsi öhdəliyini öz üzərinə götürmələri; sığortaçı sığortalı (sığortalanmış şəxs) sərnişinlərin sağlamlığına, eləcə də ölümü hallarında onların yükünün (baqajının, əl yükünün) məhv olması və ya zədələnməsi zamanı dəymiş zərəri ödəməlidir.

SƏRNİŞİNLƏRİN İCBARİ SIĞORTASI – şəhərdaxili və şəhərətrafı nəqliyyat; sənaye müəssisələrinə məxsus dəmir yolları; sənaye müəssisələrinin gəmiləri və avtomobil nəqliyyatına xidmət edən xətlər; respublika, diyar və ya vilayət sərhədlərindən kənara çıxmayan avtomobil marşrutları istisna olmaqla, ictimai nəqliyyatın bütün növlərində keçmiş SSRİ-də həyata keçirilirdi.



SƏRNİŞİNLƏRİN İCBARİ ŞƏXSİ SIĞORTASI – hava, dəmiryolu, dəniz, daxili su və avtomobil nəqliyyatı, eləcə də səfər (uçuş) zamanı turist-ekskursiya təşkilatları xətti üzrə beynəlxalq ekskursiyaları həyata keçirən sərnişinlərə şamil olunur.

SƏRNİŞİNLƏRİN SIĞORTALANMASI – sərnişinlərlə yolda baş verən bədbəxt hadisənin nəticələri ilə əlaqədar sığorta məbləğinin tam və ya qismən ödənilməsini nəzərdə tutan sığorta növü.

SƏS VERƏN ADİ SƏHMLƏR – öz sahibinə səhmdarların ümumi yığıncağında iştirak etmək, qərarlar qəbulu zamanı səs vermək və alınan mənfəətin həcmindən asılı olaraq gəlir götürmək hüququ verir.

SƏS VERƏN VƏ SƏS VERMƏYƏN SƏHMLƏR (ing. *voting and voteless stock*) – səs verən səhmlər öz sahibinə nəinki səhmdarların yığıncaqlarında iştirak, həm də mühüm təsərrüfat qərarları qəbulu zamanı səs vermək hüququ verir; səs verməyən ("səssiz") səhmlər öz sahiblərinə səhmdarların yığıncaqlarında səs hüququ vermir, lakin dividend almaq hüququnu təmin edirlər.

SƏSVERMƏ ÜÇÜN TRAST – xırda səhmdarların əməkdaşlığının hüquqi forması. Bu formanın əsasını etimada əsaslanan mülkiyyət prinsipləri təşkil edir. Şirkətin idarə edilməsinə faktiki təsir göstərə bilməyəcək xırda səhmdarlar ümumi yığıncaqda öz səhmlərini etimada əsaslanan mülkiyyət kimi səsvermənin gedişində istifadə məqsədilə trastlara verirlər. Belə hallarda trastlar səhmdarlardan aldıqları səhmlərin əvəzinə onlara öz sertifikatlarını verir, bu isə səhmdarların dividendlər almaq hüququnu təmin edir.

SƏYYAR VERGİ YOXLAMASI – vergi orqanlarının səlahiyyətli vəzifəli şəxsləri tərəfindən bilavasitə vergi ödəyicisinin yerləşdiyi yerdə həyata keçirilən vergi yoxlaması. Səyyar vergi yoxlaması həm vergi

ödəyicisi olan hüquqi şəxslərdə, həm vergi agentlərində, həm də hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərdə aparıla bilər. Bir qayda olaraq, səyyar vergi yoxlaması növbəti və növbədənkənar olur.

SFR (ing. *cost, insurance and freight* – "dəyər və fraxt") – satıcı malı alıcının yerləşdiyi ölkənin limanına gətirmək üçün bütün xərcləri və fraxtı (gəmi ilə daşınan yükün kirayə xərcləri) ödəməlidir. Yükün boşaldılma və idxal – rəsmiləşdirmə xərclərini alıcı ödəyir.

SİBOR – Sinqapur bazarında xarici valyuta şəklində banklararası depozitlər üzrə faiz dərəcəsi.

SİF (ing. *cost, insurance, freight* – dəyər, sığorta, fraxt, kirə) – 1. Xarici ticarət sövdələşməsinin növü; bu zaman satıcı öz hesabına gəmini və oradakı yeri kirələməli, yükü yükləməli və onu alıcının adına sığortalamalıdır. 2. İxracatçı tərəfindən reallaşmış əmtəənin (malın) satış qiyməti; əmtəənin satış qiymətinə yükün sığortalanmasının, yükləmənin dəyəri və satıcının anbarından təyinat limanına qədər daşımanın ödənilməsi daxildir. Satıcı yalnız bu yük üçün adi dəniz risklərini sığortalayır; hərbi risk yalnız alıcının tapşırıqları üzrə və onun hesabına sığortalana bilər. SİF beynəlxalq ticarətdə su nəqliyyatı ilə malların daşınması şərtlərindən biridir. KFR-dən fərqli olaraq bu şərtdə satıcı daşıma zamanı malın korlanması və məhv olması riskindən dəniz sığortasını təmin etməlidir. Satıcı aşağıdakıları etməlidir: tonnajı kirələməli və kirəni ödəməli, malı limana çatdırmalı və onu gəminin bortuna yükləməli, eləcə də sığortaçı ilə müqavilə bağlamalı, sığorta mükafatını ödəməli, alıcının adına sığorta polisi yazmalı və ona verməlidir. Yükün boşaldılması və idxal xərclərini alıcı ödəyir.

SİF QİYMƏTİ – beynəlxalq ticarətdə əmtəənin, malın daşınması və ödənilməsi şərti. Bu şərtə görə ixracatçı əmtəənin limanda boşalması, onun sığortalanması, yüklənməsi, təyinat limanına qədər kirələnməsi üzrə xərclərini, başqa sözlə, qiymətini öz üzərinə götürür. Buna görə də əmtəənin satıcısı yükün daşınması, gömrük vergilərinin ödənilməsi, alıcı limanında əmtəənin gəmiyə çatdırılmasına qədər onun məhv və ya xarab olması riskilə əlaqədar birgə sığortalama ilə bağlı bütün xərclərə görə məsuliyyət daşıyır.

SİFARİŞ – alıcının, istehlakçının onun üçün müəyyən işi yerinə yetirmək, müəyyən növ və keyfiyyətdə əmtəəni hazırlamaq, göndərmək, satmaq, xidmət göstərmək üzrə təklifi. Başqa sözlə, alıcının satıcıya göndərdiyi sənəddir ki, burada müəyyən əmtəənin (xidmətin) alınmasında möhkəm fikir ifadə olunmuşdur. Alışın baş verməsi üçün bütün şərtlər: əmtəənin kəmiyyəti, keyfiyyəti, qiyməti, daşınma müddəti və s. təsvir olunmuşdur. Alıcı (sifarişçi) tərəfindən satıcıya göndərilən və müəyyən malı (xidməti) almağı təsdiq edən sənəddə alışın baş verməsi üçün bütün zəruri şərtlər göstərilməlidir: malın kəmiyyəti və keyfiyyəti, qiyməti, göndəriş vaxtı və s. Sifarişdə, adətən, satıcının cavabının son müddəti göstərilir. Əgər göstərilən müddətdə satıcı sifarişini danışıqsız təsdiq edirsə (aspektləşdirirsə), müqavilə bağlanmış hesab edilir və hər iki tərəf üçün mütləqdir.

SİFARİŞ ƏSASINDA YARADILAN ƏSƏR – müəlliflə fiziki və ya hüquqi şəxs arasında bağlanmış müqavilə əsasında müəllif qonorarı ödənilmək şərti ilə yaradılması sifariş olunan əsər.

SİFARİŞ FORMASI – elə formadır ki, bununla ərizəçi sığorta müqaviləsini bağlamaq təklifi ilə şirkətə müraciət edir.

SİFARİŞ-NARYAD – müəyyən işlərin aparılması üçün plan üzrə nəzərdə tutulan, maliyyələşdirilməsi təmin edilmiş, tapşırıq formasında təqdim edilmiş konkret sifariş.

SİFARİŞ NORMASI – təchizatçı tərəfindən bir sifariş üzrə istehsala qəbul edilən məhsulun minimal miqdarı. Sifariş normasının qiyməti istehsalın texniki-iqtisadi parametrləri ilə təyin edilir. İstehlakçılar aztonnajlı və kiçik partiyalardan ibarət sifarişlərin icrası üçün topdansatış qiymətlərindən əlavə pulu ödəyirlər.

SİFARİŞÇİ-SERVER TEXNOLOGİYASI – hər biri öz məsələsini həll edən müxtəlif məntiqi komponentlər üzrə tətbiqi proqramların bölüşdürülməsi.

SİFARİŞLƏRDƏN PUL QAZANANLAR (DƏLLAL) – əsas məqsədi təklif olunan malın bilavasitə alışını həyata keçirmək üçün müştərini razı salmaq olan şəxslər.

SİFARİŞLƏRİN DAXİLİ QƏBULEDİCİSİ – adətən, pərakəndə satış mağazasında

satıcı. Onun vəzifəsi pulun qəbulu və alınan məhsulun verilməsindən ibarətdir.

SİFARİŞLƏRİN TƏŞƏBBÜSÇÜLƏRİ – birbaşa olaraq sifariş qəbul etməyən ticarət heyəti. Belə ki, o, alıcılara deyil, alış spesifikasiyasını tərtib edənlərə müraciət edir. Məsələn, memarlar alıcılar üçün deyil, sifarişçi üçün konkret memarlıq layihəsini seçən, hazırlayanlar kimi çıxış edirlər.

SİMENS ERNST VERNER (1816-1892) – alman elektrotexniki və sənayeçisi, Sankt-Peterburq Elmlər Akademiyasının xarici müxbir üzvü. İlk yeraltı teleqrafı qurmuş, Londondan Hindistana kabel çəkmiş, çoxsaylı elektrik cihazlarını, induktorları, elektrik dinamomaşınını, elektrik dəmir yolunu, generatoru və s. ixtira etmişdir. 1847-ci ildə əmisi oğlu İohann Georq Simenslə və istedadlı mühəndis İohann Georq Qalske ilə birlikdə teleqraf və elektrik avadanlıqlarının istehsalı və quraşdırılması üzrə "Telegraphen – Bau – Anstalt von Siemens and Halske" kompaniyasını yaratmışdır. 1855-ci ildə kompaniyanın Rusiyada, 1858-ci ildə isə İngiltərədə şöbələri açılmışdı. 1867-ci ildə kompaniyanın sürətli genişlənməsi xoşuna gəlmədiyindən, Qalskenin işdən kənarlaşması ilə əlaqədar, kompaniya 4 Simens qardaşının əlinə keçdi. Buraxılan məhsulun assortimentini genişləndirən kompaniya dinamo maşınlar, telefon aparatları, kabellər, müxtəlif elektrik cihazları istehsal edirdi. 1890-cı ildə kompaniya məhdud əmlak məsuliyyətli müəssisəyə çevrilmişdi. Ona Vernerin qardaşı Karl Simens, filiallarına isə Vernerin oğlanları Arnold və Vilhelm Simenslər rəhbərlik etməyə başladılar. 1897-ci ildə kompaniya "Siemens and Halske" AG məhdud məsuliyyətli kompaniyasına çevrildi. Sonralar Simenslər ailəsi daha bir neçə kompaniya yaratdı. 1966-cı ildə həmin dövrdə fəaliyyət göstərən 3 kompaniya "Siemens AG" korporasiyasında birləşdi. Korporasiya dünyanın 35 ölkəsində zavodlar tikməklə 125 ölkə ilə ticarət edir, kompüter sistemləri, tibb avadanlıqları, məişət texnikası, kommunikasiya sistemləri, teleqraf və siqnal əlaqəsi üçün müxtəlif avadanlıqların istehsalı ilə məşğul olur.

SİNDİKATLAŞMIŞ KREDİT *(Paticipation loan)* – kreditorlar (bank konsorsiumu və ya sindikat) tərəfindən vahid kredit müqaviləsi əsasında pay iştirakı ilə bir borcalana verilən kredit. Sindikatlaşmış kredit böyük maliyyə həcmlərini cəlb etməyə imkan verir. Adətən, belə kreditləşmə zamanı iri əməliyyatlardan söhbət gedir (20-50 mln. dollardan az olmayan). Ən iri sindikatlaşmış kredit "General Elektrik" kompaniyası tərəfindən cəlb edilmişdir – 25 mlrd. dollar. Konsorsium (banklar birliyi), adətən, müəyyən bir layihəni kreditləşdirməklə müvəqqəti xarakter daşıyır. Beynəlxalq təcrübədə sindikatlaşmış kreditləşməni tam və təkbaşına həyata keçirmək istəməyən, yaxud risk normativlərinə görə buna qadir olmayan banklar qrupu tərəfindən verilən ssudadır. Adətən, sindikatlaşmış kredit beynəlxalq banklararası kreditləşmənin formalarından biridir. Hüquqi baxımdan sindikatlaşmış kredit borcalana birgə kredit verən kreditorlar arasında razılaşmadır (bax: cədvəl 1).

Cədvəl 1

Sindikatlaşmış kreditin əsas parametrləri:

Faiz dərəcəsi	Adətən fiksə edilmiş üzən limitlə – Libor + 0,5-3,5% (illik)
Müddət	1 ildən 5 ilədək (bəzi hallarda 25 ilədək)
Təminat	Girov əmlakı, zəmanət, məsuliyyətin sığortalanması və s.
Ödəmə	Ödəmə qrafiki fərdi olaraq müəyyən edilir
Tərtibat	Borcalan kreditorların sayından asılı olmayaraq bir kredit müqaviləsi bağlayır. Prosedurların çoxsaylı olması səbəbi ilə xarici ölkələrdən münasibətlərin sindikatın daxilində və elektron formada (sənədsiz) rəsmiləşdirilməsi tendensiyası müşahidə olunur

SİNERGETİK EFFEKT – "sistem effekti" hesabına ayrı-ayrı hissələrin vahid sistemdə birləşməsi, inteqrasiyası nəticəsində fəaliyyətin səmərəliliyinin yüksəldilməsi. Lider elə edir ki, əməkdaşların fərqli xüsusiyyətləri sinergetik şəkildə işləsin. Sinergetik fəaliyyətin 3 əsas prosesini (adekvat planlaşdırma, əməkdaşlar arasında bilik və cari informasiyanın səmərəli mübadiləsi və işlərin cari koordinasiyası) birlikdə "kollektiv təfəkkür" termini ilə ifadə etmək olar.

SIFIR İPOTEKASI – sıfır kuponu, yəni ödəniş zamanı faizlərin və əsas məbləğin ödənilməsi ilə uzunmüddətli kommersiya ipotekası.

SIFIR SƏVİYYƏLİ KANAL – bilavasitə istehsalçı ilə istehlakçını birləşdirən bölgü kanalı, əmtəənin (malın) istehsalçıdan istehlakçıya birbaşa satışı.


SİFSİ – razılaşdırılmış qiymətdir ki, bura əmtəənin qiyməti, sığorta, icarə, xərclər və vekselllərin ödənilməsi zamanı bankın tutduğu faizlər daxildir.

SIĞORTA – hüquqi və fiziki şəxslərin (sığortalıların və ya sığorta olunanların) müvafiq olaraq əmlakı, həyatı, sağlamlığı, mülki məsuliyyəti, həmçinin qanunvericiliklə qadağan olunmayan fəaliyyəti. O cümlədən, sahibkarlıq fəaliyyəti ilə əlaqədar əmlak mənafelərinin müdafiəsi sahəsində və yaxud bölüşdürülməsinə, əsaslanan hüquqi və iqtisadi münasibətlər sistemi. Könüllü sığorta sığortaçı ilə sığortalı arasında könüllü qaydada bağlanan müqavilə əsasında həyata keçirilir. Sığortanın



aparılmasının ümumi şərtlərini və qaydalarını müəyyən edən könüllü sığorta qaydası sığortaçı tərəfindən müəyyən olunur. Sığortanın konkret şərtləri isə sığorta müqaviləsinin bağlanması zamanı müəyyən olunur. İcbari sığorta qanunun tələbi ilə həyata keçirilən sığortadır. Aşağıdakılarla bağlı qanunvericiliyə zidd olmayan əmlak mənafeləri sığorta obyektinə çevrilə bilər: sığortalının və ya sığorta olunan şəxsin həyatı, sağlamlığı, əmək qabiliyyəti və pensiya təminatı ilə əlaqədar (şəxsi sığorta); əmlaka sahiblik, ondan istifadə və ona sərəncam (əmlak sığortası); sığortalı tərəfindən digər fiziki şəxsin sağlamlığına və ya əmlakına vurulmuş ziyanın, eləcə də hüquqi şəxsə dəymiş ziyanın ödənilməsi (məsuliyyət sığortası).

Ölkə ərazisində yerləşən və ya mövcud olan fiziki şəxs, əmlak və ya hal ilə bağlı əmlak mənafelərinin sığortalanması yalnız müvafiq lisenziyaya malik olan sığortaçılar tərəfindən həyata keçirilir. Sığorta sığorta agentləri və sığorta brokerləri vasitəsi ilə də təmin edilə bilər. Verilmiş səlahiyyətlərə uyğun olaraq sığortaçının adından və onun tapşırığı ilə müvafiq icazə əsasında fəaliyyət göstərən fiziki və ya hüquqi şəxslər sığorta agentlə-



Sxem 1

ridir. Sığortalının, yaxud sığortaçının tapşırıqları əsasında öz adından sığorta üzrə vasitəçilik fəaliyyətini həyata keçirən, bu fəaliyyət üçün müəyyən olunmuş qaydada icazə almış hüquqi və ya fiziki şəxslər sığorta brokerləri sayılır.

Sığorta riski zənn (fərz) olunan hadisədir ki, bu hal baş verən zaman sığorta ödənişi verilir. Sığorta riski qismində nəzərdən keçirilən hadisə onun baş verməsi ehtimalı və təsadüfilik əlamətlərinə malik olmalıdır.

Sığorta hadisəsi sığorta müqaviləsi və ya qanunla nəzərdə tutulan baş vermiş hadisədir ki,




Cədvəl 1

Sığortanın məqsədləri

Məqsəd	Əldə olunan nəticələr	
	Sosial sığorta	Kommersiya sığortası
1. Akkumulyasiya	Dövlət sosial sığorta fondlarının maliyyə daxilolmaları	Maliyyə vəsaitlərinin sığorta fondlarında akkumulyasiyası və bu vəsaitlərin təsərrüfat dövriyyəsinə investisiyalaşdırılması
2. Əvəzi ödənilmə	Müalicəyə sərf olunmuş əmək gəlirləri və xərclərinin ödənilməsi	Sığorta hadisəsinə əsasən dəymiş zərərin ödənilməsi
3. Xəbərdarlıq və nəzarət	Risklərin və onların nəticələrinin ağırlığının azaldılması. İdarəetmənin bütün səviyyələrində cavabdehliyin artırılması. Öz gələcəyi üçün şəxsi cavabdehliyin artırılması.	

bunun başlanması ilə sığortaçı sığortalıya, sığortalanmış şəxsə, faydalanan şəxsə və ya digər üçüncü şəxslərə sığorta ödənişinin verilməsini öz öhdəsinə götürür.

SIĞORTA (ehtiyat) FONDLARI – təsadüfi xarakterli, əlverişli olmayan hadisələrin təsiri nəticəsində yaranan itkilərin ödənilməsi üçün nəzərdə tutulan maddi və pul formasında xüsusi formalaşan ehtiyatlar. Sığorta fondu bəzən dövlət ehtiyat fondu kimi çıxış edir. Dövlət ehtiyat fondu ümumdövlət resursları hesabına mərkəzləşdirilmiş qaydada yaranır



Sxem 1

və həm natural, həm də pul formasında çıxış edir. Sığortaçının sığorta fondu, onun geniş dairədə sığorta olunan kimi çıxış edən iştirakçıları hesabına yaradılır. Fondun formalaşması qeyri-mərkəzləşdirilmiş qaydada baş verir. Belə ki, sığorta haqları sığorta olunana əlahiddə şəkildə ödənilir. O, yalnız pul formasında olur və bu zaman bir sığorta olunanın zərəri sığorta fondunun yaradılması iştirakçıları arasında bölüşdürülür. Bu isə sığorta fondunun manevr-etmə qabiliyyətinə, sığorta ehtiyatlarının dövriyyəliliyinin sürətlənməsinə gətirib çıxarır.

SIĞORTA AGENTİ – sığortaçının adından və onun verdiyi səlahiyyətlər daxilində sığorta müqavilələrinin bağlanmasında, davam etdirilməsində və ya yenilənməsində, habelə tərəflər arasında danışıqların aparılmasında vasitəçilik fəaliyyəti göstərən fiziki, yaxud hüquqi şəxs. Sığorta agenti bir neçə sığortaçının sığorta agenti kimi fəaliyyət göstərə bilər.

SIĞORTA AGENTLƏRİNƏ KOMİSYON MUZDUN VERİLMƏSİ – könüllü sığorta müqavilələrinin bağlanması və sığorta haqlarının qəbulu üzrə vasitəçilik xidməti göstərən sığorta agentlərinin əməyinin sığorta haqqı məbləğindən faizlə ödənilməsi.

SIĞORTA AKTI (ing. *insurance act*) – qoyulmuş qaydada rəsmiləşdirilən, baş vermiş sığorta hadisəsinin fakt və səbəblərini təsdiqləyən sənəd; yaxud elə sənəd ki, burada sığortalı və ya onun nümayəndəsi, sığorta təşkilatının müfəttişliyi sığorta hadisəsinin faktını, səbəbini və nəticələrini təsbit edir. Sığorta aktı sığortalanmış əmlaka dəyən zərər zamanı tərtib olunan sənəddir; sığorta ödənişi üçün əsasdır. Sığorta aktında əmlakın məhv olması vaxtı və səbəbləri, sığortalı tərəfindən onun məzmunu üzrə öhdəliklərin (vəzifələrin) yerinə yetirilməsi, dəymiş zərərin ölçüsü, sığorta ödənişinin hesablanması və ödənilməsi üçün zəruri digər göstəricilər (məlumatlar) əksini tapır. Sığorta aktına əmlakın məhv olmasını təsdiqləyən onun səbəblərini təfərrüatı ilə xarakterizə edən sənədlər əlavə olunur. Bura yanğın nəzarəti orqanlarının, dövlət yol polisinin, baytarlıq orqanlarının, hava bürosu xidmətinin, elmi-tədqiqat institutlarının və digər təşkilatların sənədləri daxildir. Sığorta aktı sığorta təşkilatının yuxarı instansiyası tərəfindən təsdiq edilməlidir. Yalnız bundan sonra sığorta ödənişi həyata keçirilir.


SIĞORTA AUDİTİ – dərc edilmək və yuxarı orqanlara çatdırılmaq üçün təqdim edilən maliyyə hesabatlarının, məlumatlarının hüquqi, iqtisadi və mühasibat qiymətləndirilməsinin – həmin məlumatları təqdim edən sığorta şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətinin kompleks yoxlanılması (ekspertizası). Sığorta auditi daxili və xarici auditə bölünür: xarici audit sığorta şirkətlərinin hesabatının təsdiqi, qiymətli kağızların emissiyası və valyuta əməliyyatları ilə bağlıdır; daxili audit isə sığorta şirkətlərinin fəaliyyətinin auditor hissəsi, uçot siyasətinin seçilməsi və bir sıra lisenziyalaşma məsələləri ilə əlaqədardır. Sığorta auditinin bütün növləri ümumi əlamətlərə və problemlərə malikdir. Onlara sığorta şirkətlərinin təsərrüfat və maliyyə əməliyyatlarının uyğunluğunun icbari yoxlanılması və uçot-hesabatda onların əks olunması aiddir. Belə ki, sığorta şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyəti sığorta fəaliyyəti ilə əlaqədardır. Xarici auditin aparılması zamanı auditor hesabatdan uçota, sığorta şirkətlərinin maliyyə-təsərrüfat əməliyyatlarının uçotundan xarakterinə doğru gedir. Daxili auditə uyğun olaraq, tədqiqatın məntiqi istiqamətinin əksinə, ilkin əməliyyatlardan sığorta təşkilatlarının uçotunda və hesabatında onların əks olunmasına doğru gedir. Audit prosesində sığorta təşkilatları sığortaçının gəlirlərinin tərkibinə daxil olan məbləğin tamlığını və etibarlılığını; çəkilən xərclərin əsaslılığını və məqsədəuyğunluğunu; sığorta ehtiyatlarının formalaşmasının düzgünlüyünü, hesabatda təsbit olunan aşkar edilmiş maliyyə nəticələrinin reallığını yoxlamalıdır. Sığorta auditinin xüsusiyyətlərinə həyat sığortası üzrə mükafat ehtiyatlarının, habelə digər sığorta növləri üzrə texniki ehtiyatların yaradılması və istifadəsinin düzgünlüyünün yoxlanılması zərurətini aid etmək olar.

SIĞORTA BAZARI – maliyyə-pul münasibətlərinin xüsusi bir bölməsi. Burada bazar münasibətlərinin obyekti kimi spesifik bir əmtəə alqı-satqı əməliyyatlarının iştirakçılarına göstərilən sığorta xidməti çıxış edir. Respublika iqtisadiyyatının, o cümlədən milli sığorta bazarının sürətli inkişafı "Sığorta haqqında" Azərbaycan Respublika-

Cədvəl 1

Dünya sığorta bazarlarının əsas göstəriciləri (2011-ci il)

Ölkə	Əhali (mln. nəfər)	ÜDM (mlrd. dollar)	Məcmu mükafat (mlrd. dollar)	İnflyasiya (%)	ABŞ dollarına nisbətən məzənnə	Hər nəfərə düşən mükafat (dollar)	Mükafat / ÜDM (%)
ABŞ	270,3	8,083 trilyon	694,9	2	1	2570,6	8,49
Yaponiya	126,0	3,08 trilyon	490,6	1,70	122,7	3896	11,87
Böyük Britaniya	59,0	1,242 trilyon	144,6	3,10	0,61	2451,5	11,22
Almaniya	82,0	1,74 trilyon	136,8	1,80	1,73	1666,1	6,53
Fransa	59,0	1,32 trilyon	129,6	2	5,84	2203,6	9,25
Cənubi Koreya	46,4	631,2	57,2	5	1145,48	1323,3	15,42
Kanada	30,7	658,0	47,4	1,80	1,37	1543,9	7,37
İtaliya	56,8	1,24 trilyon	47,1	1,90	1703,1	829,9	4,17
Avstraliya	18,6	394,0	35,9	1	1,35	1926,3	9,12
İsveçrə	7,2	172,4	31,1	-0,10	1,45	4289,7	11,94
İspaniya	39,1	642,4	28,4	2,10	146,41	726,3	5,38
Braziliya	169,8	1,04 trilyon	18,1	4,80	1,08	106,5	2,12
Belçika	10,2	236,3	16,5	1,70	35,77	1620,2	6,8
Çin	1237,0	4,25 trilyon	13,5	2,80	8,29	10,9	1,46
Avstriya	8,1	174,1	11,1	1,30	12,2	1369,4	5,36
İsveç	8,9	176,2	11,0	2	7,63	1215,1	4,72
Danimarka	5,3	122,5	10,7	2,20	6,6	2003,3	6,22
Finlandiya	51,5	102,1	9,3	1,20	5,19	1810,2	7,76
Hindistan	984,0	1,534 trilyon	7,5	7	37,3	7,6	1,95
Norveç	4,4	120,5	7,0	2	7,03	1588,1	4,56
Argentina	36,3	348,2	5,8	0,30	1	161,1	1,77



Sxem 1

sı Qanununun (1993) dəyişdirilməsini zəruri etdi. 1999-cu ildə qəbul edilmiş "Sığorta haqqında" yeni qanun sığortalılara etibarlı sığorta təminatı vermək, sığortaçılara isə öz maliyyə sabitliyini və ödəmə qabiliyyətini qorumaq üçün əlverişli şərait yaratdı.

Respublikada sığorta işinin beynəlxalq standartlara uyğun təşkili sığortalılara etibarlı sığorta təminatının verilməsi, sığorta xidmətləri səviyyəsinin yüksəldilməsi, sığortaçıların maliyyə sabitliyinin və ödəmə qabiliyyətlərinin gücləndirilməsi, sığorta işini inkişaf etdirməklə büdcə daxilolmalarının artırılmasının təmini məqsədilə Maliyyə Nazirliyi tərəfindən bir sıra məqsədyönlü tədbirlər həyata keçirildi. 2007-ci ildə "Sığorta fəaliyyəti haqqında" yeni qanun qəbul edildi.

Azərbaycanın milli sığorta bazarında 29 sığorta şirkəti, o cümlədən 23-ü yerli, 6-sı isə xarici investisiyalı (ABŞ, İngiltərə, Türkiyə, Rusiya, İran) birgə sığorta təşkilatı, bundan başqa, 7 broker təşkilatı, o cümlədən 3 yerli, 4 xarici investisiyalı birgə (ABŞ, İngiltərə, Rusiya) broker təşkilatı, 1 "İnqosstrax" Açıq Səhmdar Cəmiyyətinin Bakı şəhərindəki nümayəndəliyi, 2 ekspert təşkilatı, sığortaçıların fəaliyyətini işıqlandıran 1 jurnal ("Qarant"), 2 ictimai təşkilat "Sığorta Cəmiyyətləri İttifaqı" və "Sığortaçılar Birliyi" fəaliyyət göstərir (2006) (bax: sxem 2).

SIĞORTA BAZARINDA YENİ MƏHSULLAR – bunlara aiddir: tibbi qulluq üzrə müddətli sığorta (*LTC – Long – term care*), seçmə universal həyat sığortası (*SUL – Select universal Life*), qrup universal həyat sığortası (*GUL – general universal Life*).

SIĞORTA BAZARININ ƏSAS SUBYEKTLƏRİ – sığortalılar, yəni sığorta xidmətlərinin alıcıları və sığortaçılar, yəni sığorta xidmətlərinin satıcıları.

SIĞORTA BƏYANNAMƏSİ – sığorta obyekti və riskin xarakteri haqqında sığortalının bildirişi. Sığorta bəyannaməsi. Adətən, yerləşmə, dəyər, vəziyyət, saxlama və ya istifadəetmə qaydası, yanğınsöndürməyə qarşı və digər qəza siqnallaşdırılmasının texniki hazırlığı haqqında məlumatları, eləcə də keyfiyyət xarakteristikalarını (marka, model, növ, struktur)



Sxem 1

ehtiva edir. Sığortaçının nümayəndəsi qismində sığorta bəyannaməsini *sürveyer* yoxlayır və riskin xarakteri və dərəcəsi haqqında yekun nəticəni verir. Sığorta bəyannaməsi sığorta şirkətinin müəyyən etdiyi forma üzrə tərtib olunur. Geniş mənada sığorta bəyannaməsi sığorta müqaviləsinin bağlanması üçün ofertadır.

SIĞORTA BİZNESİ – geniş mənada fiziki və hüquqi şəxslərin əmlak mənafelərinin sığorta müdafiəsi üzrə onlara sığorta şirkətləri tərəfindən xidmətlərin göstərilməsi.

SIĞORTA BROKERİ *(*ing. *insurance broker)* – sığortalayanın və ya sığortalananın tapşırığı əsasında onlar arasında öz adından vasitəçilik fəaliyyəti ilə məşğul olan broker. Bir qayda olaraq, sığorta brokeri broker firmaları, filial və kontorların geniş şəbəkəsini təşkil edən sığorta şirkətlərində qulluqda olur. Fərdi sığortaçılar sistemində sığorta əməliyyatları sığortaçıların nümayəndələri olan abunəçilər və sığortalananların nümayəndələri olan brokerlər vasitəsilə həyata keçirilir.

Broker sığortanın bu növü üzrə işləyən abunəçini tapır və ona öz riskini təklif edir. Abunəçi riskin ya bütün məbləğinin, ya da bir hissəsinin ödənişini təmin edir. Sonuncu halda, bütün riskin ödənişi təmin olunanadək başqa abunəçilərə müraciət edir. Broker bütün abunəçilərin imzası olan ümumi polis hazırlayır və zərər olduqda onun aradan qaldırılması ilə məşğul olur.

SIĞORTA BROKERLƏRİNİN DÖVLƏT REYESTRİ – ölkənin ərazisində öz fəaliyyətini həyata keçirən sığorta brokerlərinin siyahısı. Reyestrə aşağıdakı məlumatlar daxildir:


qeydiyyat nömrəsi; brokerin adı; hüquqi ünvan; reyestrə daxil olmaq haqqında şəhadətnamənin nömrəsi; şəhadətnamənin verilməsi (geri çağırılması) vaxtı. Reyestri sığorta fəaliyyətinə görə nəzarət üzrə federal xidmət aparır. Federal xidmət tərəfindən verilən reyestrə daxil olmaq haqqında şəhadətnamə sığorta üzrə broker fəaliyyətinin aparılması üçün sahibin hüququnu təsdiq edən sənəddir.

SIĞORTA BRUTTO-DƏRƏCƏSİ – sığorta üzrə haqların tarif dərəcəsidir. Sığorta brutto-dərəcəsi netto-dərəcə ilə, məsələn, sığorta əməliyyatlarının aparılması, ehtiyat fondunun yaradılması, xəbərdaredici tədbirlərin maliyyələşməsi üzrə xərclərin ödənilməsi üçün istifadə olunan əlavənin cəmidir.

SIĞORTA CƏMİYYƏTİ – sığorta fəaliyyətinin həyata keçirilməsi üçün yaradılan (sığorta təşkilatları və qarşılıqlı sığorta cəmiyyəti) və sığorta fəaliyyətinin həyata keçirilməsi üçün müəyyən olunmuş qaydada lisenziya alan, qanunvericilikdə nəzərdə tutulmuş hər hansı bir təşkilati-hüquqi formada rəsmi qeydiyyatdan keçmiş hüquqi şəxslər. Qanunvericiliyə görə, sığortaçıların bilavasitə fəaliyyət predmeti istehsal, ticarət-vasitəçi və bank fəaliyyəti ola bilər.

"SIĞORTA DAXİLİ" – müəyyən risklərin birgə sığortalanması üçün sığorta şirkətlərinin birliyi. Sığorta daxılı əsasən təhlükəli, iri və yeni risklərin sığortaya qəbul edilməsi zamanı yaradılır.

SIĞORTA DEKLARASİYASI – sığortaçının sığorta obyektinin xarakteri və sığorta riski haqqında təqdim etdiyi rəsmi məlumat, bəyannamə. Sığorta



Sxem 1

deklarasiyasında sığorta obyektinin adı, dəyəri, yeri, vəziyyəti, eləcə də bu istiqamətdə digər məlumatlar əks olunur. Sığorta deklarasiyası sığorta şirkəti tərəfindən təsbit edilən xüsusi blankda tərtib olunur.

SIĞORTA DƏYƏRİ (ing. *insurance cost*) – sığortalanmış əmlakın həqiqi dəyəri olub, aşağıdakı kimi müəyyənləşdirilir: a) əmlak üçün – müqavilənin başlandığı gün onun yerləşdiyi yerdə həqiqi bazar və ya bərpa dəyəri ilə; b) sahibkarlıq riski üçün – sığorta hadisəsi baş verə bildiyi halda, sahibkarlıq fəaliyyətindən itirə biləcəyi gəlirlərin ümumi miqdarı ilə. Sığorta dəyəri – sığorta müqaviləsində həqiqi əmlak marağının pulla qiymətləndirilməsi məbləğidir. Sığorta məbləği sığorta müqaviləsinin bağlanması anında sığortalanmış əmlakın həqiqi sığorta dəyərindən yüksək ola bilməz. Bu qayda sığorta limiti adlanır. Sığorta dəyəri (bax: Sığorta haqqı) – sığorta obyektinin həqiqi, faktiki dəyəridir. Sığorta dəyərinin hesablanması qaydası müxtəlif ölkələrdə fərqlidir, mövcud qanunvericiliyə və formalaşan təcrübəyə əsaslanır. Məsələn, yüklərin sığortalanması zamanı ingilis bazarı təcrübəsində sığorta dəyəri qismində qiymət qəbul edilir ki, bu, yükləmə (ilkin dəyər) anında sığortalıya başa gələn sığortalanmış əmlakın qiyməti, üstəgəl, onun yüklənməsi və sığortası üzrə xərclərdir.

SIĞORTA DÖVRÜ – sığorta müqaviləsinin qüvvədə olduğu dövr. Sığorta mükafatının ödənilməsi anından başlayır və müqavilə müddəti bitdikdə, sığorta halı baş verdikdə, yaxud sığortalanan sığorta mükafatını ödəmədikdə başa çatır.

SIĞORTA EHTİYAT FONDU – sığorta ödənişinin ödənilməsi üçün istifadə olunan pul vəsaitləri fondu; bu zaman onlar cari ilin sığorta tədiyələri ilə örtülmür. Sığorta ehtiyat fondu sığorta haqları ödənişlərini təmin edə bilmədikdə yaranmış fərqi ödəmək üçün sığorta şirkətinin təsis etdiyi pul vəsaitləri fondudur.

SIĞORTA EHTİYATLARI – sığorta ödənişinin və sığorta həcminin ödənilməsi zəmanətlərinin təmin edilməsi üçün sığorta təşkilatları tərəfindən yaradılan fondlar. Sığortalıya ödənilən məbləğin müəyyən əməliyyat dövründə cari tədiyə daxilolmalarından çox olduğu, eləcə də əvvəlcədən razılaşdırılmış digər hallar zamanı istifadə olunur. Sığorta ehtiyatlarına həyat sığortası və pensiyalar üzrə haqların ehtiyatları, müxtəlif ehtiyat fondları, gələcək tədiyələrin və ödənilməmiş itkilərin fondları, baş verən, lakin gizlədilən itkilər və s. aiddir. Sərbəst sığorta ehtiyatları vəsaitləri dövlət qiymətli kağızlarına, səhmlərə və müəssisələrin istiqrazlarına (borclarına) qoyulan investisiyalar üçün istifadə olunur ki, bu da sığorta təşkilatlarına əlavə gəlir gətirir (bax: cədvəl 1).

SIĞORTA ETDİRƏN (daşıyıcı) – mülkiyyətində və ya digər qanuni əsaslarla istifadəsində nəqliyyat vasitələri olan və ölkədə sərnişin daşımaları üzrə fəaliyyət göstərən yerli və xarici hüquqi və fiziki şəxslər.

SIĞORTA ƏMƏLİYYATLARI – icbari və könüllü sığortanın aparılması ilə bilavasitə bağlı olan sığorta təşkilatlarının bütün fəaliyyət növlərinin məcmusu. Sığorta əməliyyatlarına aiddir:

Cədvəl 1

Sığorta ehtiyatlarının məqsədli təyinatı

Ehtiyatların təbiəti	Riskli sığorta növləri	Həyat sığortası
Gələcək ödəmələr üçün	Qazanılmamış mükafat ehtiyatı	Həyat sığortası ehtiyatı (riyazi ehtiyatlar)
Cari ödəmələr üçün	Bildirilmiş, amma həll olunmamış ehtiyatlar xərci; Baş vermiş, amma bildirilməmiş ehtiyatlar xərci; Sabitləşdirici ehtiyat	Gücləndirilmiş risk amili ehtiyatı

icbari sığortaya məruz qalan əmlakın uçotu və qiymətləndirilməsi; sığorta tədiyələrinin hesablanması və onların tutulmasının təmin edilməsi; könüllü əmlak və şəxsi sığorta müqavilələrinin bağlanması; inkassasiyanın və nağdsız hesablaşmaların təşkili, sığortalıların şəxsi hesablarının aparılması; sığorta aktlarının tərtib edilməsi, sığorta ödəməsinin (sığorta məbləğinin), sığorta müavinətinin, əlavə pensiyanın müəyyən edilməsi və ödənilməsi; sığortalı tərəfindən hər hansı bir şərtin pozulması zamanı sığorta müqavilələrinin ləğv edilməsi; iri risklərin təkrar sığortasının təşkili, ehtiyat fondların yaradılması və s. Deməli, sığorta əməliyyatları sığortalılara xidmət göstərilməsini, eləcə də sığorta münasibətlərinin xarakterini şərtləndirən digər fəaliyyəti də ehtiva edir.

SIĞORTA ƏMƏLİYYATLARINDAN ƏLDƏ OLUNAN MƏNFƏƏT – əldə olunan sığorta haqlarının (mükafatların, tədiyələrin) məbləği ilə sığorta ödənişinin yerinə yetirilməsinə, preventiv (xəbərdarlıq) tədbirlərinin həyata keçirilməsinə, aparatın saxlanmasına və s. çəkilən xərclər arasında fərq. Sığorta əməliyyatlarından əldə olunan mənfəət sığortanın maliyyə nəticələrini xarakterizə edir, onun rentabelliyinin müəyyənləşdirilməsinə yardım göstərir. Qeyri-dövlət sığortasında netto-mükafat şirkətin sığorta fondlarının bütün növlərinin formalaşması mənbəyidir.

SIĞORTA ƏMƏLİYYATLARININ MALİYYƏ SABİTLİYİ – sığorta təşkilatının gəlirlərinin xərclərdən və ya onun daimi tarazlanmasından təmin edilməsi.

SIĞORTA ƏMƏLİYYATLARININ RENTABELLİYİ – sığorta əməliyyatlarının gəlirlilik səviyyəsinin göstəricisi. Əldə edilmiş mənfəətlərin ümumi məbləğinin ($\sum MM$) sığorta ödəmələrinin ümumi məbləğinə ($\sum SÖ$) faiz nisbəti kimi müəyyən edilir:

$$R_{s.ə.} = (\sum MM \times 100\%) / \sum SÖ.$$

SIĞORTA FƏALİYYƏTİ – fiziki və ya hüquqi şəxslər tərəfindən ödənilən sığorta haqlarından (sığorta mükafatlarından) formalaşan pul fondları hesabına müəyyən hadisələrin (sığorta hadisələrinin) baş verməsi zamanı bu şəxslərin əmlak maraqlarının müdafiəsi üzrə mülki-hüquqi münasibətlərlə əlaqədar fəaliyyət.

SIĞORTA FƏALİYYƏTİNİN APARILMASI ÜÇÜN LİSENZİYA – lisenziyanın verilməsi zamanı razılaşdırılmış şərtlərin və tələblərin yerinə yetirilmədiyi hallarda ölkə ərazisində sığorta fəaliyyətinin aparılması üçün lisenziya sahibinin hüququnu təsdiq edən sənəd.

SIĞORTA FƏALİYYƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ – sığorta bazarının fəaliyyət göstərməsi üçün dövlət tərəfindən şərtlər çərçivəsinin yaradılması; bu çərçivədə onun subyektləri qərarların qəbul edilməsində sərbəstdir.

SIĞORTA FƏALİYYƏTİNİN LİSENZİYALAŞDIRILMASI – dövlət orqanı tərəfindən sığortanın aparılması hüququna icazə (lisenziya) verilməsi. Lisenziyanın alınması üçün sığortaçı təsis sənədlərini əlavə etməklə müvafiq ərizəni; qeydiyyat haqqında şəhadətnaməni; ödənilmiş nizamnamə kapitalının ölçüsü haqqında bankın arayışının sığorta fəaliyyətinin iqtisadi əsaslandırılmasını (biznes planını və s.); sığorta növləri üzrə qaydaları; sığorta tariflərinin hesablamalarını; rəhbərlər və onların müqavilələri haqqında məlumatları və s. təqdim edir. Təkrar sığortaçıdan biznes-planın, tariflərin qaydalarının və hesablanmasının təqdim edilməsi tələb olunmur. Lisenziyalar, əsasən, könüllü və icbari şəxsi sığorta, əmlak sığortası və məsuliyyət sığortası, eləcə də təkrar sığortanın həyata keçirilməsi üçün verilir.

SIĞORTA FONDU – 1. Sığorta ödənişinin və sığorta məbləğinin ödənilməsi yolu ilə əlverişsiz (xoşagəlməz) hadisələrin doğurduğu müxtəlif növ zərərlərin, itkilərin aradan qaldırılması və ödənilməsi üçün xüsusi vəsaitlər fondunun yaranmasını, onun istifadə edilməsini (bölgüsünü və yenidən bölgüsünü) ehtiva edən iqtisadi münasibətlər sistemi. 2. Sığortalıların zərərinin ödənilməsi və sığorta işinin təşkili üzrə məsrəflərin maliyyələşdirilməsi üçün sığortaçı tərəfindən yığılan pul vəsaitləri. Həm sığorta mükafatlarının hesabına, həm də mənfəət əldə edilməsi məqsədilə investisiyalaşma hesabına formalaşır. Sığorta fondu çərçivəsində nəzərdən keçirilən dövrdə fiziki zərərlərə uyğun olaraq bölünür. Sığorta fondu – kortəbii və sosial fəlakətlərlə, qəzalarla və digər risklərlə ictimai təkrar istehsal prosesinə dəymiş zərərlərin xəbərdarlıq

edilməsi, lokallaşması və ödənilməsi məqsədilə cəmiyyətin nəzərdə tutulan təbii ehtiyatlarının və maliyyə resurslarının məcmusudur. Sığorta fondu sığorta olunanların haqları (tədiyələri, mükafatları) hesabına sığortaçının öhdəlik götürdüyü pul vəsaitləri məbləğidir. Sığorta istehsal kateqoriyası olaraq sığorta fondunun yaranması və istifadəsi ilə əlaqədar yaranan müəyyən istehsal münasibətlərini ifadə edir. Sığorta fondu sığorta olunanın haqları hesabına formalaşan və sığortaçının təşkilati-əməliyyat idarə edilməsində olan pul və ya maddi vəsaitlərinin ehtiyatlarıdır. Daha geniş iqtisadi mənada, sığorta fondu – dövlət ehtiyat fondu (dövlət mərkəzləşdirilmiş sığorta fondu), sığortaçının fondu, özünüsığorta prosesində əmələ gələn sahibkarın ehtiyat fondudur (kommersiya riski fondu, sığorta fondu).

SIĞORTA FONDUNUN AMORTİZASİYA NƏZƏRİYYƏSİ – sığorta fondunun əmələgəlmə nəzəriyyəsi. Buna uyğun olaraq bu fondun yaranma mənbəyi istehsal xərcləridir.

SIĞORTA HADİSƏSİ – sərnişinlərin icbari sığortasında nəqliyyat vasitəsindən istifadə etməklə sərnişin daşınması, habelə dayanacaqda olduğu dövrdə aeroportların, dəmiryolu vağzallarının, stansiyalarının və platformalarının, dəniz vağzallarının, körpülərinin, avtobus vağzallarının ərazisində nəqliyyat vasitəsinin istismarı zamanı baş verən fərdi qəza (bədbəxt hadisə) nəticəsində sərnişinin həyatına, yaxud səhhətinə zərərin vurulması. *Sığorta hadisəsi* auditorun mülki məsuliyyətinin icbari sığortası müqaviləsində sığortalıya sığorta ödənişinin həyata keçirilməsi üçün əsas olan haldır. *Sığorta hadisəsi* – ümumilikdə, qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan haldır.

SIĞORTA HADİSƏSİ EHTİMALI – hadisələrin baş verməsi imkanlarının miqdar xarakteristikası; bu zaman sığortaçıya sığorta ödəməsi və ya sığorta məbləği ödənilir.

SIĞORTA HADİSƏSİNİN BAŞ VERDİYİ GÜN – qanunvericiliyə müvafiq olaraq Mərkəzi Bank tərəfindən Fonda göndərilən bildirişdə sığorta hadisəsinin baş verməsi günü kimi qeyd olunan tarix.

SIĞORTA HAQQI – sığorta müqaviləsinə və ya qanunauyğun şəkildə sığortalının sığortaçıya verməli olduğu pul məbləğidir. *Sığorta haqqı* – risklərin qəbulu və ya bölüşdürülməsi müqabilində sığortalının sığortaçıya ödəməli olduğu pul məbləğidir. Sığorta haqqı auditorun mülki məsuliyyətinin icbari sığortası müqaviləsinə uyğun olaraq sığortalının sığortaçıya verməli olduğu pul məbləği. Sığorta haqqı ya dərhal (bütün sığorta müddəti üzrə birdəfəlik), ya da vaxtaşırı (hissə-hissə) ödənilir. Müəyyən olunmuş sığorta tariflərini və sığorta məb-

Cədvəl 1

Sığorta ödəməsinin strukturu

Ödəmənin struktur elementi	Təyinatı
Sığorta riskinə görə xalis ödəmə (orta statistik zərər + risk əlavəsi)	Sığorta hadisəsi baş verdikdə zərərin ödənilməsi və sığorta ehtiyatlarının formalaşması
+ sığorta təşkilatının xərclərinin ödənilməsi üçün əlavə	Xərclərin ödənilməsi, şəxsi heyətin əmək haqqı daxil edilməklə (ofisin saxlanılması üçün xərclər, reklam, komisyon və s.)
+ mənfəət əlavəsi	Mənfəətin formalaşması
= brutto – ödəmə	Bütün sığorta fəaliyyətinin maliyyə təchizatı

ləğini əsas götürərək, bir sıra hallarda, o cümlədən uzun müddətə könüllü sığorta müqaviləsi zamanı, avtonəqliyyat vasitələrinin qəzasız istismarı zamanı sığortalıya verilən güzəştlər nəzərə alınmaqla hesablanır. Keçmiş illərin elmi ədəbiyyatlarında "sığorta haqqı" termini ilə yanaşı, çox zaman "sığorta tədiyəsi" termini də istifadə edilir. Beynəlxalq təcrübədə sığorta haqqı, adətən, "sığorta mükafatı" (ing. *insurance premium*) adlandırılır.

SIĞORTA HAQQINDA MÜVƏQQƏTİ ŞƏHADƏTNAMƏ – sığorta polisinin tərtib edilməsinə qədər sığorta təşkilatı və ya sığorta brokeri tərəfindən sığortalıya verilən sənəd. Sığorta haqqında müvəqqəti şəhadətnamə sığortaçının sığortalıya məktubu şəklində ola bilər.

SIĞORTA HAQLARI ALTINDA AVTOMATİK BORC – sığortalı tərəfindən sığorta haqlarının vaxtında köçürülməməsi zamanı sığortaçının həmin sığortalıya verdiyi borc. Bu şərt sığorta polisində təsdiq olunmalıdır.

SIĞORTA HAQLARININ (TƏDİYƏLƏRİNİN) ÖDƏNİLMƏSİ ÖHDƏLİYİ – sığortalıya olan əsas tələblərdən biri. İcbari sığorta zamanı sığorta haqlarının (tədiyələrinin) ödənilməsi öhdəliyi sığorta qanunvericiliyinin tələblərindən irəli gəlir. Sığorta orqanları öz növbəsində sığorta tədiyələrinin daxil olmasını təmin etməyə, zəruri hallarda onların vaxtında ödənilməməsinə görə sanksiya tətbiq etməyə borcludur. Sığorta tədiyələrinin ödənilməməsi sığorta orqanlarını icbari sığorta ilə örtülən zərərlərə görə hüquqi və fiziki şəxslər qarşısında məsuliyyətdən azad etmir. Bununla belə, sığortaçı ödənilməmiş sığorta tədiyələrini və cəriməni çatası sığorta ödəməsi məbləğindən çıxır. Könüllü sığorta zamanı sığorta tədiyələrinin (haqlarının) və ya onların bir hissəsinin ödənilməsi sığorta müqaviləsinin qüvvəyə minməsinin icbari şərtidir. Uzunmüddətli sığorta növlərində, eləcə də tədiyələrin möhlətlə ödənilməsi nəzərdə tutulan sığorta növlərində sığortalılar ciddi müəyyən olunmuş müddətdə onlardan çatası məbləği köçürməlidirlər. Onların ödənilməməsi müəyyən sanksiyalara səbəb olur (müqavilənin pozulması, müqavilə üzrə sığorta məbləğinin azaldılması).

SIĞORTA HAQLARININ İNKASSASİYASI – dövlət sığortasının ayrı-ayrı növləri üzrə haqların nağd pulla qəbul edilməsi və onların kredit idarələrinə təhvil verilməsi.

SIĞORTA HAQLARININ NÖVÜ – sığorta haqlarının təsnifatı kateqoriyası. Sığorta haqları sığorta təcrübəsində aşağıdakı növlərə bölünür: netto-sığorta haqqı və ya risk-sığorta haqqı, əmanət (yığım) haqqı, kifayət edən haqq, brutto-sığorta haqqı, natural sığorta haqqı.

SIĞORTA XİDMƏTİNİN DƏYƏRİ (qiyməti) – sığortalının sığortaçıya ödədiyi sığorta haqqında (tarifində, mükafatında) ifadə olunur.

SIĞORTA XİDMƏTİNİN İSTEHLAK DƏYƏRİ – sığorta müdafiəsinin təmin edilməsindən ibarətdir.

SIĞORTA XİDMƏTLƏRİ – sığorta şirkəti aparatının və sığorta vasitəçilərinin məqsədəuyğun əmək fəaliyyətidir ki, bunun nəticələri müştərilərin (sığortalıların) sığorta maraqlarını ödəyən faydalı effektdə ifadə olunur. Sığorta xidmətləri vasitəsilə sığorta müdafiəsinin alqı-satqısı həyata keçirilir, sığorta polislərinin iştirakı ilə təşkil edilir.

SIĞORTA XİDMƏTLƏRİ BAZARI – sığorta müdafiəsinə ictimai tələbatın ödənilməsi prosesində "sığorta örtüyü" adlanan xüsusi əmtəənin alqı-satqısı ilə əlaqədar yaranan iqtisadi münasibətlər sistemi. Sığortaçıların sayının çox olduğu şəraitdə təşəkkül tapır. Sığorta sahələri, miqyaslar və s. üzrə təsnif edilir.

SIĞORTA XİDMƏTLƏRİNİN REKLAMI – onun məqsədi sığorta müqaviləsinin bağlanmasında fiziki və ya hüquqi şəxsin tələblərinin formalaşmasıdır.

SIĞORTA İDDİASI – sığorta müqaviləsində nəzərdə tutulan risklərin baş verməsi ilə əlaqədar sığortalının sığortaçıya irəli sürdüyü, sığorta ödənişinin verilməsi ilə bağlı tələb, iddia. "İddia" anlayışına sığorta hadisəsinin meydana gəlməsində təqsirli olan tərəfə qarşı irəli sürülən tələb də daxildir.

SIĞORTA İLİ – təqvimə uyğun olan ildir ki, bu il ərzində müvafiq polislər yazılır. Sonradan həmin və sonrakı illərdə bütün daxil olan mükafat, eləcə də ödənilən itkilərin və zərərlərin məbləği polislərin çıxarışı ilinə aid olur ki, bu da il ərzində işin aparılmasının yekun nəticələrini çıxarmağa imkan verir.

Lakin, bəzən polislər çoxillik baza üçün tərtib olunduğundan, sığorta ili bir çox illər ərzində, xüsusilə tikinti-quraşdırma risklərinin sığortalanmasında mövcud ola bilər (bir sıra hallarda 10-15 ilə qədər).

SIĞORTA İNHİSARI – 1. Ölkədə sığortanın aparılması üçün dövlət təşkilatlarının müstəsna hüququ. Sığorta inhisarı tam ola bilər, bu zaman dövlət sığortaçısı sığortanın bütün növlərini həyata keçirir. Qismən sığorta inhisarı zamanı dövlət sığortaçısına müəyyən növ sığorta fəaliyyəti üçün müstəsna hüquq verilir. 2. Sığortanın və ya təkrar sığortanın müəyyən növlərinin aparılması zamanı milli və beynəlxalq sığorta bazarında hökmranlıq edən ən iri sığorta şirkəti və ya şirkətlər qrupu. Müasir şəraitdə sığorta inhisarı sığorta işində ümumi siyasəti müəyyən edərək, çoxsaylı xırda sığorta təşkilatları ilə yanaşı fəaliyyət göstərir. Sığorta inhisarı sığortanın aparılması üçün dövlətin və ya şirkətin müstəsna hüququdur. Sığorta inhisarı sığortanın bütün sahəsini və bütün növlərini əhatə edən tam və ya qismən (natamam) formada ola bilər.

SIĞORTA İŞİ – sığorta ödənişinin, həyata keçirilməsi üzrə məsələnin həlli üçün zəruri olan sənədlərin məcmusu. Sığorta işini təşkil edən sənədlər dəsti aşağıdakıları ehtiva edir: baş vermiş sığorta hadisəsi haqqında sığortalının və ya sığorta olunanın ərizəsi (sığorta tələbi), hadisə faktını, vəziyyətini və nəticələrini əks etdirən sığorta aktı, sığorta şəhadətnaməsi, sığortalının şəxsi hesabı, sığortaçı tərəfindən tərtib edilən, eləcə də sığortaçının sorğusuna əsasən səlahiyyətli təşkilatlar və idarələr tərəfindən təqdim olunan sənədlər (məsələn, tibb müəssisəsinin, yanğından mühafizə idarəsinin, hüquq mühafizə orqanlarının arayışları). Hazırda Azərbaycanda 28 sığorta şirkəti və 1 təkrar sığorta şirkəti fəaliyyət göstərir. Onlardan 25 sığorta şirkəti qeyri-həyat sığortası, 3 sığorta şirkəti isə həyat sığortası sahəsində məşğuldur. 2010-cu ildə ölkəmizdə sığorta müqavilələrinin sayı 1051816, sığorta hadisələrinin sayı 100792, sığorta haqları 155586415 manat, sığorta ödənişləri isə 53829272 manat olmuşdur.

Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin bəziləri ilə tanış olaq.

"Beynəlxalq Sığorta Şirkəti" ASC – 2002-ci il fevral ayının 5-də "Azərbaycan Beynəlxalq Bankı" ASC tərəfindən 4 milyon 800 min manat nizamnamə kapitalı ilə təsis edilmişdir. Həmin il aprel ayının 1-də Şirkət



Beynəlxalq Sığorta Şirkəti

25 sığorta növü üzrə xidmət göstərmək üçün Maliyyə Nazirliyindən lisenziya alaraq fəaliyyətə başlamışdır. 2005-ci ilin sonlarında təsisçi tərəfindən BSŞ-nin nizamnamə kapitalı artırılaraq 8 milyon 800 min manat həddinə çatdırılmışdır.

Şirkət fəaliyyətə başladığı gündən sığorta işinin təşkili və risklərin qiymətləndirilməsində Qərb ölkələrinin sığorta şirkətlərinin qabaqcıl təcrübəsindən istifadə etməyə başlamışdır. Bununla əlaqədar əməkdaşların müvafiq iş təcrübəsi əldə etmələri və işin Qərb standartlarına uyğun təşkili məqsədi ilə onların Avropada təlim kursları keçmələri təmin olunmuşdur.

Ümumiyyətlə, şirkətin fəaliyyətində 2002-2005-ci illəri quruculuq, 2006-cı ili dönüş ili kimi səciyyələndirmək olar. Belə ki, 2005-ci ilin sonlarında təsisçi tərəfindən BSŞ-nin nizamnamə kapitalının artırılması ilə qəbul etdiyi hər bir risk üzrə şəxsi tutumunun yüksəlməsi şirkətin maliyyə göstəricilərinə müsbət təsir etmişdir.

2006-cı ildə strukturun yenidən formalaşdırılması, eləcə də təsisçi tərəfindən əsaslı kadr dəyişikliklərinin həyata keçirilməsi sayəsində Şirkətin fəaliyyətinin effektivliyi və göstərdiyi sığorta xidmətlərinin keyfiyyəti daha da yüksəlmişdir. Bu da son nəticədə müştəri bazasının genişlənməsinə və müxtəlif sığorta növləri üzrə sığorta portfelinin həcminin artmasına təkan vermişdir. Həmin ildən etibarən Şirkət müştərilərin rahatlıq amilini əsas götürərək filial şəbəkəsinin formalaşdırılmasına başlamışdır. 2006-cı ildə Gəncə filialı, 2007-ci ildə Şəki filialı və Bakı şəhərində Xətai xidmət bölməsi, 2008-ci ildə Bakı şəhəri Nərimanov xidmət bölməsi və 2009-cu ildə Sumqayıt filialı fəaliyyətə başlamışdır. Şirkət bazarın tələblərinə uyğun çevik fəaliyyət göstərərək, sığorta məhsullarının və sığorta xidmətlərinin diversifikasiyası sayəsində ilbəil yeni nailiyyətlər əldə etmişdir.

Hazırda Şirkət struktur üzrə 6

departamentdən və idarə heyəti sədrinin tabeçiliyində olan İcra Aparatından ibarətdir. Şirkətin kollegial icra orqanı olan 7 nəfərdən ibarət İdarə Heyəti onun cari fəaliyyətinə rəhbərlik edir. Şirkətə ümumi rəhbərlik və onun fəaliyyətinə nəzarət Direktorlar Şurası tərəfindən həyata keçirilir. Şirkətin fəaliyyəti hər il beynəlxalq nüfuza malik audit şirkəti "Price Water House-Coopers" tərəfindən yoxlanılaraq qiymətləndirilir.

2006-cı ildə Şirkət "İSO-9001-2000" keyfiyyət sertifikatına, 2009-cu ildə isə "İSO-9001-2008" keyfiyyət sertifikatına layiq görülmüşdür. 2009-cu ilin oktyabr ayında nüfuzlu beynəlxalq reytinq agentliyi "Moody's Investors Service" tərəfindən Azərbaycanın sığorta şirkətləri arasında möhkəm mövqeyə, sanballı bazar payına, biznesin yüksək rentabellik göstəricilərinə görə "Beynəlxalq Sığorta Şirkəti" ASC-yə "Stabil" proqnozlu "B2" səviyyəli maliyyə sabitliyi reytinqi (*insurance financial strength rating, IFSR*) təqdim edilmişdir. BSŞ Azərbaycanın sığorta sektoru üçün ən yüksək reytinq dərəcəsi alan ilk sığorta şirkətidir.

Şirkət sığorta bazarında sabit mövqe və intensiv inkişaf nümayişi, həmçinin maliyyə şəffaflığı və korporativ idarəetmə sahəsində beynəlxalq standartlara cavab verməsi ilə bağlı 2003 və 2009-cu illərdə "İlin şirkəti" nominasiyasında İqtisadiyyat və biznes sahəsində milli mükafat olan "Uğur" mükafatına, 2008-ci ildə "Consulting & business" jurnalı tərəfindən "İlin ən yaxşı sığorta şirkəti" nominasiyasında "İlin şirkəti" milli mükafatına layiq görülmüşdür.

"Beynəlxalq Sığorta Şirkəti" ASC sığorta sahəsində informasiya texnologiyalarının tətbiqinə xüsusi diqqət yetirməklə ölkənin sığorta bazarına bir sıra yeniliklər gətirmişdir. Şirkət respublikada ilk dəfə olaraq 2008-ci ildə plastik kart sahibi olan müştərilərinin sığorta haqlarının ödənilməsinin bankomatlar vasitəsilə həyata keçirilməsini, 2009-cu ilin may ayından etibarən isə İnternet vasitəsi ilə sığorta şəhadətnamələrinin ONLAYN satışını təşkil etmişdir. Bununla da, bazarda müasir texnologiyaların tətbiqi ilə sığorta məhsullarının satışı sahəsində yeni mərhələnin əsası qoyulmuş və sığorta sektorunda bu qabaqcıl ideyaların tətbiqi geniş vüsət almışdır.

"Beynəlxalq Sığorta Şirkəti" ASC respublikanın sığorta bazarının inkişafı istiqamətində böyük fəallıq və təşəbbüskarlıq göstərən şirkətlərdən biridir. Şirkət 2005-2006-cı illərdə Azərbaycan Sığortaçılar Assosiasiyasının yaradılmasının təşəbbüskarı olan beş şirkətdən biri olmuş, sığortaçıların vahid ictimai birlik ətrafında birləşməsi üçün intensiv fəaliyyət göstərmişdir. Şirkət 2006-cı ilin noyabr ayında yaradılmış Azərbaycan Sığortaçılar Assosiasiyasının təsis-



"Beynəlxalq Siğorta Şirkəti"nin inzibati binası

çilərindən biri olmaqla, qurumun müşahidə şurasının üzvüdür.

Şirkət təminat verdiyi risklərin təkrar sığortası üçün dünyada kifayət qədər yüksək reytinqə malik təkrar sığorta şirkətləri ilə aparılan işləri 2010-cu ildə də davam etdirmişdir. Hazırda BSŞ Almaniyanın "Hannover Re", İngiltərənin "Willis", İsveçrənin "Swiss Re", Rusiyanın "RussianRe", "Allianz", "Rosno", "Moskow RE", "Inqosstrax", Qazaxıstanın "Evraziya", Türkiyənin "Martin & Martin Insurance and Reinsurance Brokers Co.Inc.", "Anadolu Sığorta" şirkətləri, eləcə də "AIG", "Malakut" və "Inqosstrax" şirkətlərinin Azərbaycandakı nümayəndəlikləri və Azərbaycanın "Az.Re" təkrar sığorta və "Azərbaycan İnşurans Broking", "Kaspian İnterneşnl Broking" broker şirkətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq edir. Bununla yanaşı, yerli sığorta şirkətləri ilə də qarşılıqlı təkrar sığorta əməliyyatları həyata keçirilir.

Hazırda "Beynəlxalq Sığorta Şirkəti" ASC müştərilərinə 32 könüllü və 5 icbarı sığorta növü üzrə xidmət göstərir.

SIĞORTA İŞİNİN İNHİSARSIZLAŞDIRILMASI – sığorta xidmətləri bazarında sığortaçılara öz şərtlərini diktə edən, bir sığorta şirkətinin (adətən dövlətə məxsus şirkətin) dövlət və ya başqa səviyyədə inhisarının ləğv edilməsi.

SSRİ-nin dağılması və ölkə iqtisadiyyatında inzibati amirlik sistemindən bazar təsərrüfatı sisteminə keçid nəticəsində Azərbaycanda da sığorta işi inhisarsızlaşmışdır. Çoxsaylı özəl, sığorta və təkrar sığorta şirkətləri yaradılmış, dövlət sığorta sistemi yenidən təşkil edilmişdir; yəni bazar təsərrüfatçılığı prinsipləri əsasında fəaliyyət göstərən sığorta bazarının yaradılmasına başlanmışdır. Sığorta haqqında qanunların qəbulu və qüvvəyə minməsi həm dövlətin, həm sığortalıların və həm də sığortaçıların mənafelərini müdafiə etmək məqsədilə sığorta nəzarəti orqanının yaradılması sığorta işinin inhisarsızlaşdırılması yolunda mühüm addım olmuşdur (bax: sxem 1).

SIĞORTA İŞİNİN MİLLİLƏŞDİRİLMƏSİ – xüsusi sığorta təşkilatlarının dövlətin mülkiyyətinə verilməsi.

SIĞORTA İTKİSİ – sığorta hadisəsi nəticəsində sığortalıya dəymiş maddi ziyan.

SIĞORTA KASSALARI – 1922-ci ildə keçmiş SSRİ-də yaranan və Xalq Əmək Komissarlığı sisteminə daxil olan sosial sığorta kassaları. Ərazi (şəhər, rayon) prinsipi üzrə yaradılmaqla həmin ərazidə bütün fəhlə və qulluqçuları əhatə edirdi. Sığorta kassalarının vəsaitləri xəstəlik üzrə müavinətlərə, əlillərin pensiyasına, sanatoriyalara, istirahət evlərinə və s. xərclənirdi. 1933-cü ildə sosial sığortanın həmkarlar ittifaqına verilməsi ilə sığorta kassaları ləğv olundu. Qərb ölkələrində sığorta kassaları 1917-ci ilə qədər Rusiyada mövcud olmuş pensiya kassalarının növlərindən biridir.


SIĞORTA KOMİSSİYASI – obyektlərin sığortaya cəlb olunması, sığorta sənədlərinin tərtib edilməsi və bəzi hallarda sığortaçının hesabına sığorta məbləğinin və sığorta ödənişlərinin yerinə yetirilməsi, sığorta iddialarının nəzərdən keçirilməsi daxil olmaqla sığorta haqlarının (mükafatlarının) inkassasiyasına görə sığortaçı tərəfindən vasitəçilərə (brokerlərə və ya agentlərə) ödənilən mükafat. Sığorta komissiyası haqlardan müəyyən faiz kimi əlavə olunur, onun ölçüləri ölkənin adətlərindən və sığorta növündən asılı olaraq çox geniş hədlərdə variasiya edir.

SIĞORTA KOVERNOTU (ing. *cover* – örtmək, təmin etmək, *note* – yazma, yazma ilə təmin etmək) – sığortaçı göstərilməklə sığorta müqaviləsinin bağlanmasını təsdiq edən, makler (dəllal) tərəfindən sığortalıya verilən arayış. Sığorta kovernotundan başlıca olaraq Böyük Britaniyada istifadə olunur. Sığorta kovernotu sığortaçı tərəfindən sığortalıya verilən sənəddir ki, burada sığorta müqaviləsinin bağlanması üzrə onun təlimatının yerinə yetirilməsi göstərilir. Sığorta kovernotu sığortaçıların siyahısı göstərilməklə sığorta müqaviləsinin bağlanmasını təsdiq edən və brokerin sığortalıya verdiyi sığorta haqqında şəhadətnamədir. Sığorta kovernotu sığortalı üçün vacibdir, çünki onun riskinin yerləşmə ünvanını və tamlığını göstərir. Lakin o, sığortaçı üçün hüquqi qüvvəyə malik deyil. Buna görə də broker şərtlənmiş müddət ərzində sığortalıya sığorta polisini təqdim etməlidir. Sığorta kovernotu, həmçinin, təkrar sığortada da tətbiq olunur. Burada təkrar sığorta slipini əvəz edərək, hüquqi sənəd ola bilər. Sığorta kovernotunda sı-

ğorta şərtləri və mükafatın dərəcəsi göstərilir.

SIĞORTA QAYDALARI – hər bir sığorta növü üzrə sığortalı ilə sığortaçının qarşılıqlı münasibətlərini müəyyən edən əsas şərtlər. Sığorta qaydaları ümumi müddəaları ehtiva edir (sığorta predmeti, sığorta riskləri, sığorta fəaliyyətinin və sığorta məbləğinin müəyyən edilməsi qaydası, sığorta müqaviləsinin bağlanması və sığorta ödənişinin yerinə yetirilməsi qaydası və s.). **Sığorta qayda-**

Sığorta biznes-proseslərinin ardıcıllığı




Sxem 1

ları – sığorta müqaviləsi üzrə tərəflərin hüquq və vəzifələrini, sığorta obyektini, sığorta hadisələrinin siyahısını və istisnaları müəyyənləşdirən şərtlərin ehtiva edildiyi sənəddir. Sığorta qaydaları sığorta müqaviləsində ifadə olunur və ya onun ayrılmaz hissəsini təşkil edir. Sığorta qaydası sığorta fəaliyyətinin lisenziyalaşdırılması üçün lazım olan sənədlər paketinə daxildir. Sığorta qaydaları sığortaçı tərəfindən qanunvericiliyə, həmçinin, müəyyən sığorta növü üzrə beynəlxalq təcrübəyə uyğun olaraq işlənib hazırlanır və sığorta nəzarəti orqanının rəsmi razılığından sonra tətbiq edilir.

SIĞORTA QEYD-ŞƏRTİ – 1. Ticarət, kirayə (fraxt), ticarət sövdələşmələrində şərt; hər hansı bir hadisə baş verən zaman, yaxud sazişin bağlanması zamanı dəyişikliklər baş verərkən tərəflərin qarşılıqlı münasibətləri ona uyğun olaraq tənzimlənir. 2. Sığorta müqaviləsinin şərti; məsələn, "bütün risk növlərindən" yüklərin sığortalanması şərti 14 ayrıca qeyd-şərtdən ibarətdir. 3. Sığorta müqaviləsində, sığorta olunanın sığorta məsrəflərinin müəyyən həddən yüksək olan hissəsini ödəyəcəyi haqqında müddəa.

SIĞORTA QİYMƏTİ (ing. *insurance valuation*) – 1. Sığorta müqaviləsi bağlanarkən nəzərə alınan sığorta obyektinin dəyəri. Praktikada sığortalı tərəfindən müəyyənləşdirilmiş həddi aşmayan real, bəyan edilmiş qiymət üzrə, bazar qiymətləri üzrə və sığorta qiymətlərinin digər növ-

Sığorta təşkilatının xarici mühitlə əlaqəsinin sadələşdirilmiş sxemi



Sxem 1

ləri üzrə tətbiq edilir. Sığorta qiymətinin düzgünlüyünü yəqin etmək zərurəti yarandıqda sığortaçı sürveyerləri cəlb edə bilər. Tarif dərəcəsinin və sığorta mükafatının hesablanması üçün ilkin baza sığorta qiyməti haqqında məlumatlardır. Zəruri hallarda sığorta qiymətləndirməsi üçün, məsələn, sığorta müqaviləsi bağlanması üçün tibbi əksgöstərişlər olduğunu aşkar etmək məqsədilə tibbi-sığorta ekspertizası aparılır. 2. Sığorta obyektinin qiymətləndirilməsi prosesi. 3. Sığortalanmış əmlakın dəyərini təsdiq edən, adətən müstəqil ekspert tərəfindən verilən sənəd.

SIĞORTA QİYMƏTLƏNDİRİLMƏSİ – sığorta məqsədləri üçün əmlakın dəyəri.

SIĞORTA LİDERİ HAQQINDA SAZİŞ – sliplərdə, açıq koverlərdə və digər bu cür sənədlərdə ehtiva olunur. Bunlara görə, sığortaçı lider deyil və əgər o, öz tərəfindən mövcud sığorta şərtlərinə əlavə kimi mümkün dəyişikliklərə hazırlaşırsa, avtomatik olaraq liderin ardınca getməyə razılaşır.

SIĞORTA LİMİTİ – sığorta məbləğinin maksimum ölçüsü; bu ölçü daxilində dövlət sığorta sisteminin ayrı-ayrı halqaları fərdi, şəxsi sığorta müqavilələrinin bağlanması üçün icazə vermək hüququna malikdir.

SIĞORTA MAKLERİ (alm. *makler*) – sığortaçı ilə sığortalı arasında dəniz sığortası müqavilələri, demək olar ki, həmişə makler vasitəsi ilə bağlanır. Formal olaraq makler sığortalının nümayəndəsidir və sığortalı sığorta haqqında tapşırığın vicdanla yerinə yetirilməməsi zamanı onu məsuliyyətə cəlb edə bilər; lakin sığorta makleri komisyon mükafatını sığorta haqlarının ödənilməsinə görə məsuliyyət daşıyan sığortaçıdan alır. Sığorta makleri sığorta brokeri kimi Almaniyada və Avstriyada sığorta bazarları üçün ən xarakterik fiqurdur.


SIĞORTA MARAĞI (ing. *insurance interest*) – 1. Sığortada iştirak etməni maraqlandırmaqdan ötrü iqtisadi tələbat. 2. Əmlakın məhvi və ya itməsi ilə dəymiş ziyanın sığorta miqdarının əks olunması; sığorta marağı, əvvəla, sığortada iştirakçıları maraqlandıran iqtisadi tələbatı, ikincisi, mümkün hallarla əlaqədar olaraq meydana çıxan zərərin qiymətləndirilməsini əks etdirən sığorta məbləğini ifadə edir. Sığorta marağı sığortada maddi maraq ölçüsüdür. Əgər hər hansı bir hüquqi və ya fiziki şəxsin sığorta obyektində marağı yoxdursa və ya onun baş verməsini gözləmirsə, o, sığortaya meyil etməz. Əgər sığortalanmış əmlak itmiş və ya zədələnmişsə, yaxud əgər sığortalanmış əmlakla əlaqədar üçüncü şəxslər qarşısında sığortalının maddi məsuliyyəti yaranarsa, sığortalı maddi zərər daşımalıdır. Sığorta marağına sığorta obyekti olan əmlak, əmlak hüququ, yaxud əmlak hüququna münasibətdə öhdəlik də daxildir. Sığorta marağı tam və qismən ola bilər. Tam maraq sığorta olunan obyektdə sığorta olunanın 100% marağıdır. Qismən maraq riskdə olan əmlaka görə ümumi marağın bir hissəsi olan maraqdır. Sığorta marağı sığortalının qoruduğu və ya əldə etdiyi əmlak, yaxud əmlak öhdəliyidir ki, o, sığortanın köməyilə ondan yaxa qurtarmaq istəyir.

SIĞORTA MARKETİNQİ (*insurance market*) – rəqabət şəraitində sığortaçının fəaliyyətinin strategiya və taktikasının müəyyən edilməsi məqsədilə sığorta xidmətləri bazarının öyrənilməsi. Sığorta marketinqi, eyni zamanda, sığorta şirkətinin sığorta xidmətləri bazarının tədqiqat metodu, sığorta fəaliyyətinin təşkili və idarə olunmasının kompleks üsulu və sığorta şirkətinin funksiyalarının məcmusu kimi çıxış edir. Sığorta marketinqi aşağıdakı məqsədlərə istiqamətlənir: təklif olunan sığorta növünün zəruriliyinin və məqsədəuyğunluğunun əsaslandırılması; sığorta tələbatının formalaşdırılması; sığortalının sığorta maraqlarının təmin olunması; qiymətqoymanın təşkili; sığortaçının fəaliyyətinin nizama salınması; sığorta xidmətlərinin inkişaf şəbəkəsinin təşkili; sığortaçının satış və maliyyə fəaliyyətinin planlaşdırılması və s.

SIĞORTA MEYDANI (ing. *insurance field*) – hər sığorta münasibəti zamanı sığorta obyektlərinin konkret məkan daxilində maksimum sayı.

SIĞORTA MƏBLƏĞİ – elə pul məbləğidir ki, sığorta hadisəsi nəticəsində dəyən zərərin əvəzi sığortaçı tərəfindən ondan yuxarı olmamaq şərtilə ödənilir. Sığorta məbləği – sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin qanunvericilik, yaxud müqavilə ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddidir. Əmlakın sığortasında sığorta məbləği sığorta olunan

Mükafat yığımının regional üzrə bölgüsü (2010-cu il)



	Milyard ABŞ dolları
Şimali Amerika	775,59
Latın Amerikası və Karib hövzəsi	38,27
Qərbi Avropa	684,85
Mərkəzi və Şərqi Avropa	14,63
Yaponiya	453,09
Cənub-Şərqi Asiya	107,43
Mərkəzi Asiya	10,75
Afrika	28,79
Okeaniya	37,87

Qrafik 1

predmetin dəyərinə uyğun olmalıdır. Lakin sığorta dəyərindən aşağı məbləğ müəyyən edildiyi hallar da vardır ki, buna qismən və ya natamam sığorta deyirlər. Şəxsi sığorta müqavilələrində sığorta məbləği sığortaçı ilə sığortalı arasındakı razılaşmaya əsasən müəyyən edilir.

SIĞORTA MƏBLƏĞİ VAHİDİ – sığorta məbləğinin kəmiyyətlə ifadə olunmuş hissəsi. Bu vahid tariflərin qoyulması və sığortaçı ödənişlərini hesablamaq üçün əsasdır. Sığorta məbləği vahidi icbari sığorta haqqında qanunlar və ya könüllü sığorta müqavilələri əsasında sığortalıların tədiyələrinin hesablanması və tariflərin müəyyənləşdirilməsi üçün əsas olan sığorta məbləğinin kəmiyyətcə ifadə edilmiş hissəsidir (bax: qrafik 1).

SIĞORTA MƏBLƏĞİNİN İNFLYASİYADAN MÜDAFİƏSİ – sığorta məbləğinin inflyasiyadan dollar ekvivalentində qorunduğu sığorta növü.

SIĞORTA MƏBLƏĞİNİN ZƏRƏRLİ OLMASI – sığorta hadisələrinə görə ödənişlərin məbləğinin həmin sığorta növünə (sığorta məhsuluna) görə məcmu sığorta məbləğinə nisbətdə bərabər göstəricisi; başqa sözlə, ödənilmiş sığorta ödənişi ilə (kompensasiyası ilə) sığorta məbləği arasında nisbəti ifadə edən iqtisadi göstəricidir (maksimum mümkün sığorta ödənişi).

SIĞORTA MƏBLƏĞİNİN ZƏRƏRLİLİK ELEMENTLƏRİ – bu və ya digər amillərin sığorta məbləğinin zərərlilik miqdarına təsirini xarakterizə edən riyazi göstəricilər.

SIĞORTA MƏHSULUNUN TARİFLƏŞMƏSİ – müəyyən sığorta məhsulu üçün tarifləşmə sisteminin işlənib hazırlanması sistemi.

SIĞORTA MƏNFƏƏTİ – sığorta xidmətinin qiyməti ilə (tarifi ilə) bu xidmətin maya dəyəri arasındakı fərq. Sığorta təşkilatının mənfəətə olan tələbatı sığortanın cari fəaliyyətinin özünümaliyyələşdirməsinin vəzifələri və inkişafı ilə müəyyənləşir. Sığorta tədiyələrinin cari daxilolmalar fondu sığorta xidmətinin qiyməti kimi tarif əsasında formalaşır. Sığorta əməliyyatlarının maya dəyəri sığorta əməliyyatlarının maliyyə sabitliyinin təmini və sığortalılar qarşısında sığortaçının öhdəliklərinin yerinə yetirilməsinə zəmanət verilməsi üçün lazım olan ehtiyat fondlarına ayırmalar daxil olmaqla həm birbaşa, həm də dolayı xərclər kimi sığorta müdafiəsinin təmin edilməsi üçün sığortaçının bütün xərclərinin məcmusudur.

SIĞORTA MƏSULİYYƏTİ – sığorta təşkilatının sığorta şərtləri ilə nəzərdə tutulmuş, sığorta hadisəsi baş verən halda, sığorta ödənişinin (sığorta məbləğinin) qanuna görə və ya bağlanmış müqaviləyə uyğun sığortaçıya ödənilməsi öhdəliyi. Sığorta məsuliyyəti müqavilədə müəyyən edilmiş müddət hədlərində baş vermiş sığorta hadisəsini təsdiqləyən zəruri sənədlərin sığortalı

tərəfindən təqdimatından sığorta təşkilatları tərəfindən verilmiş sənədlərin uyğunluğu yoxlandıqdan və sığorta şəraiti real təyin olunduqdan sonra başlayır. Sığorta təşkilatı vətəndaşın sağlamlığına və əmlakına dəymiş ziyanın ölçüsünü qiymətləndirir və baş verən sığorta məsuliyyətinə uyğun ödəmə məbləğini müəyyən edir.

SIĞORTA MƏSULİYYƏTİ PORTFELİ – bütün fəaliyyətdə olan polislər üzrə sığortaçının və ya təkrar sığortaçının məcmu məsuliyyəti.

SIĞORTA MƏSULİYYƏTİNİN HƏCMİ – sığorta müqaviləsində nəzərdə tutulmuş risklərin siyahısı.

SIĞORTA MİQDARI (ing. *insured amount*) – 1. Sığorta edənin müqaviləyə görə şəxsi sığorta olunana ödəyəcəyi miqdar. Əmlakın və ya sahibkarlıq riskinin sığortalanması zamanı sığorta miqdarı, onun həqiqi dəyərindən çox ola bilməz. 2. Əmlakın, həyatın və sağlamlığın faktiki sığortalanmış miqdarı. Sosial sığortanın miqdarı pensiya və yardımlarla müəyyənləşdirilir. Şəxsi sığortanın miqdarı isə onun arzusundan və maddi imkanlarından asılıdır.

SIĞORTA MÜDAFİƏSİ – konkret obyektə dəymiş ziyanın ödənilməsi və ya aradan qaldırılması ilə bağlı olan münasibətlər. Məsələn, kənd təsərrüfatı məhsullarının, əmlakın, əhalinin həyat səviyyəsinin sığorta müdafiəsi. Sığorta müdafiəsi əlverişli olmayan hadisələrin təsirinin mənfi nəticələrinin aradan qaldırılması və onların törətdiyi itkilərin ödənilməsi ilə təsadüfi xarakter daşıyan həmin əlverişli olmayan hadisələrin baş verməsinə yol verməməklə əlaqədar məcmu münasibətləri əks etdirən ictimai kateqoriyadır. Sığorta müdafiəsi konkret obyektə dəymiş zərərin aradan qaldırılması, yaxud ödənilməsi məqsədilə yaranan münasibətlərdir.

SIĞORTA MÜDDƏTİ (ing. *insurance period*) – sığorta obyektinin sığortalandığı müddət. Sığorta müddəti müəyyən zaman dövrüdür ki, sığorta müqaviləsi həmin dövr ərzində qüvvədə olur. O, tərəflərin razılığı ilə müəyyənləşdirilir. Müqavilədə başqa cür nəzərdə tutulmadığı halda, sığorta müddəti əsasən sığorta haqqının ödənildiyi andan başlanır. Sığorta hadisəsinin baş verməsi ilə əlaqədar sığorta ödənişinin sığorta məbləği həcmində ödənilməsi, sığortalı tərəfindən sığorta haqqının ödənilməməsi zamanı, həmçinin müqavilənin bağlandığı müddət başa çatdıqdan sonra dayandırılır.

SIĞORTA MÜKAFATI – müəyyən krediti sığortalamağa görə sığorta təşkilatı tərəfindən alınan mükafat (bankın verdiyi həmin kredit məbləğindən müəyyən faiz kimi). Əgər bank tərəfindən müəyyən edilmiş kreditə görə faiz ödənilməklə kredit banka müqavilədə göstərilmiş müddətdə qaytarılarsa, onda bu halda sığortaçı sığorta mükafatı alır. İnkişaf etmiş ölkələrdə kreditlərin sığortalanması, o cümlədən dövlət tərəfindən sığortalanması geniş yayılmışdır.

SIĞORTA MÜKAFATININ QAYTARILMASI – təkrar sığortaya, yaxud sığortalıya riski verən şirkətə qaytarılan mükafat və ya mükafatın bir hissəsi. Sığorta mükafatının qaytarılması o zaman olur ki, sığortalanma baş vermir və sığortaçı praktik olaraq heç bir məsuliyyət daşımır. Sığorta mükafatının qaytarılması digər hallarda da baş verə bilər. Sığorta mükafatının qismən qaytarılması, adətən, sığortanın vaxtından əvvəl dayandırılması, ikiqat sığorta zamanı da nəzərdə tutulur.

SIĞORTA MÜKAFATLARININ (HAQLARININ) NÖVÜ – sığorta mükafatlarının (haqlarının) təsnifatı kateqoriyası. Sığorta mükafatları (haqları) sığorta təcrübəsində aşağıdakı növlərə bölünür: netto-mükafat və ya risk mükafatı, əmanət (yığıcı) haqqı, kifayət edən haqq, brutto-mükafat, natural mükafat.

SIĞORTA MÜQAVİLƏLƏRİNDƏ OPERATİV QEYD-ŞƏRT – sığorta müqaviləsində qeyd-şərt; xüsusi təkrar sığorta müqaviləsi ilə örtülən fəaliyyət növünü və xarakterini müəyyən edir.

SIĞORTA MÜQAVİLƏSİ – sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşma. **Sığorta müqaviləsi** – zərərdən sığorta müqaviləsinə görə, bir tərəf (sığortaçı) müqavilə ilə şərtləşdirilmiş haqq (sığorta haqqı) müqabilində digər tərəfə (sığortalıya) və ya sığorta müqaviləsi xeyrinə bağlanmış



başqa şəxsə (faydalanan şəxsə) müqavilədə nəzərdə tutulan hadisənin (sığorta hadisəsinin) baş verdiyi təqdirdə həmin hadisə nəticəsində sığortalanmış əmlaka dəymiş zərərin əvəzini, yaxud sığortalının digər əmlak mənafeləri ilə bağlı zərərin əvəzini müqavilə ilə müəyyənləşdirilmiş məbləğ (sığorta məbləği) həddində ödəməyi (sığorta ödənişi verməyi) öhdəsinə götürür.

SIĞORTA MÜQAVİLƏSİNİN FƏALİYYƏT MÜDDƏTİ – sığorta şərtlərinin nəzərdə tutulduğu vaxt; bu müddət ərzində sığortaçının sığorta məsuliyyəti əmək sığorta hadisəsi baş verməsi zamanı sığorta məbləğinin ödənilməsi öhdəliyi (vəzifəsi) fəaliyyət göstərir.

SIĞORTA MÜQAVİLƏSİNİN İCRASI – şirkət tərəfindən qəbul edilmiş öhdəliklərin yerinə yetirilməsi çərçivəsində sığorta və ya təkrar sığorta müqaviləsi üzrə ilkin mükafatın ödənişi.

SIĞORTA NƏZARƏTİ – hər il keçirilən sığorta idarələrinin fəaliyyəti üzərində nəzarətdə sığorta təşkilatı orqanları sığorta idarələrinin fəaliyyətinin yoxlanmasını həyata keçirir, onların tədiyə qabiliyyətini izləyir, sərbəst vəsaitlərin istifadəsi üzrə tövsiyələr verir və nəhayət, müəyyən sığorta növlərinin həyata keçirilməsinə lisenziyalar verir. Hər hansı bir ölkədə sığorta fəaliyyəti üzərində dövlət nəzarəti sığorta fəaliyyəti üzərində nəzarət üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Azərbaycanda bu funksiyanı Maliyyə Nazirliyinin Sığorta nəzarəti şöbəsi həyata keçirirdi. 2009-cu ildə Azərbaycan Respublikasının Prezidentinin Maliyyə Nazirliyinin strukturunun təkmilləşdirilməsinə dair Fərmanı ilə Dövlət Sığorta Nəzarəti yaradılmışdır. Hazırda bu orqan sığorta nəzarəti funksiyalarını həyata keçirir. Sığorta nəzarəti orqanının əsas funksiyalarına aiddir: a) sığorta fəaliyyətinin həyata keçirilməsi üçün sığortaçılara lisenziya verilməsi; b) sığortaçıların və sığortaçı birliklərinin vahid dövlət reyestrinin, eləcə də sığorta brokerlərinin reyestrinin aparılması; c) sığorta tariflərinin əsaslandırılması və sığortaçıların tədiyə qabiliyyətinin təmin edilməsi üzərində nəzarət; ç) sığorta fəaliyyəti haqqında sığorta ehtiyatlarının göstəricilərinin, sığorta əməliyyatlarının uçotu formalarının və hesabının formalaşması və yerləşməsi qaydalarının müəyyən edilməsi; d) qanunla müəyyən edilmiş qaydada sığorta fəaliyyəti məsələlərinə dair normativ və metodik vəsaitlərin hazırlanması; e) sığorta fəaliyyəti təcrübəsinin müəyyənləşdirilməsi, sığortaya dair ölkə qanunvericiliyinin ilk inkişafı və təkmilləşdirilməsi üzrə təkliflərin müəyyən olunmuş qaydada hazırlanması, təqdim edilməsi (bax: sxem 1).


SIĞORTA NƏZARƏTİ ORQANI – sığorta sektorunda dövlət tənzimləməsi və nəzarəti funksiyalarını həyata keçirən müvafiq icra hakimiyyəti orqanı.

SIĞORTA NÖVLƏRİNİN BALANS TƏSNİFATI – 1. Aktivlərin sığortalanması. 2. Passivlərin sığortalanması. 3. Gəlirlərin sığortalanması.

Aktivlərin sığortalanmasına zərərin sığortalanmasının bütün ən mühüm sahələri aiddir. Passivlərin sığortalanması zamanı əmlak maraqları yox, ödəməsiz passiv borclardan yaranan zərərlər sığortalanır. Sığorta təcrübəsində gəlirlərin sığortalanması, o cümlədən məsələn, yanğın zamanı müəssisənin işinin müvəqqəti dayandırılması nəticəsində tam əldə olunmayan gəlirlərin sığortalanması mövcuddur.

SIĞORTA NÖVÜ – sığortaçı tərəfindən bir, yaxud bir neçə

Sığorta sektorunda dövlət tənzimləməsi və nəzarəti



Sxem 2

sığorta sinifləri əsasında təklif edilən və sığorta müqaviləsi bağlanması yolu ilə sığortalılara təqdim olunan sığorta məhsulu.

SIĞORTA OBYEKTİ – sığortalının, yaxud sığorta olunanın qanunla ziddiyyət təşkil etməyən hər hansı əmlak mənafeyi.

SIĞORTA OLUNAN – sığorta müqaviləsi əsasında əmlakı və digər mənafeləri sığortalanan şəxs. **Sığorta olunan** ölkə ərazisində hərəkət etmək, yaxud bu ölkədən xarici ölkələrə getmək və bu ölkəyə gəlmək üçün sığorta etdirənin (daşıyıcının) nəqliyyat xidmətindən istifadə edən, nəqliyyatda gediş üçün icazə sənədi (gediş bileti) olan, habelə biletsiz getmək hüququ olan sərnişinlərdir.

SIĞORTA OLUNANIN SIĞORTA STAJI – sığorta olunanın xeyrinə məcburi dövlət sosial sığorta haqqı ödənilən əmək fəaliyyəti dövrlərinin ümumi müddəti.

SIĞORTA OLUNANLAR – xeyrinə sığorta fəaliyyətini həyata keçirilənlər.

SIĞORTA ÖDƏMƏLƏRİ SİSTEMİ – əmlak sığortasında zərərin ödənilməsi üçün elmi cəhətdən əsaslandırılmış sistem. Bu sistem sığortalanmış əmlakın sığorta dəyəri ilə faktiki ziyan arasında nisbəti, yəni yaranmış zərərin ödənilməsi dərəcəsini şərtləndirir.

SIĞORTA ÖDƏMƏLƏRİNİN LİMİTİ – bir sığorta hadisəsinə görə sığorta ödənişinin hədd ölçüləridir ki, bu da sığorta sisteminin bu və ya digər halqasını müstəqil ödəmək hüququna malikdir.

SIĞORTA ÖDƏMƏSİNDƏ İDDİANIN OLMAMASINA GÖRƏ MÜKAFAT – əgər bir il və ya daha çox müddət ərzində sığorta polislərini saxlayanlar sığorta ödəməsinə görə ərizə verməmişlərsə, onlara verilən sığorta haqlarından güzəşt formasında mükafat.

SIĞORTA ÖDƏNİŞİ (ing. *insurance indemnity*) – əmlak sığortası və ya məsuliyyətdən sığorta üzrə zərərin ödənilməsi üçün sığorta hadisələri nəticəsində sığorta idarəsi tərəfindən ödənilən pul vəsaitləri. Sığortanın növlərindən asılı olaraq, ayrı-ayrı sığorta idarələri tərəfindən müxtəlif sığorta ödənişi qaydaları nəzərdə tutulmuşdur. Sığorta vəsaitlərinin müəyyənləşdirilməsi və ödənişi müəssisə, təşkilat və əhaliyə vurulan zərərin kifayət qədər tam və vaxtında verilməsini təmin etməlidir. Ödəmə qaydası sığorta idarəsi üçün əmlakın məhv edilməsinin və ya ona zərər vurulmasının qarşısının alınması tədbirlərini görmək, yanğına qarşı, veterinar-zootexniki, aqrotexniki qaydalara, yol hərəkəti qaydalarına ciddi riayət etmək öhdəliyini nəzərdə tutur. Bununla belə, sığorta üzrə vəsaitin ödənişi qaydası sığorta edilən əmlakın mühafizəsini stimullaşdırır, buna da sığortaçının təqsirindən asılı olaraq baxılır.

Sığorta ödənişinin ölçüsü

Əmlakın məhv olması və zədələnməsi səbəblərinin göstərildiyi sığorta aktı əsasında qeyri-mütəşəkkil qüvvədən zərər çəkmiş obyektlər haqqında məlumatlar verilir, sığorta məbləğlərinin



Sxem 1

ödənilməsi həyata keçirilir. Sığorta ödənişinin sonrakı hesablaşması sığorta məbləğinin ölçüsündən, sığorta təminatı sistemindən və franşizanın tətbiqin dən asılıdır. Yanğından və digər qeyri-mütəşəkkil qüvvədən sığorta olunmuş əmlak üzrə sığorta ödənişinin ölçüsünü müəyyən etmək üçün aşağıdakılar aydınlaşdırılır:

1) qarşısıalınmaz qüvvə nəticəsində tam məhv olunmuş əmlakın dəyəri;

2) əmlakın qismən zədələnməsindən baş verən ziyanın ölçüsü (bərpa xərcləri, bəzi hallarda isə qiymətdən salmadan ziyan);

3) əmlakın xilas edilməsinə məsrəflər və onu normal vəziyyətə salma.

Əmlakın qalıqlarının dəyəri alınmış ümumi ziyan məbləğindən çıxılır. Bu qalıq sığorta idarəsinin zərərini təşkil edir.

SIĞORTA ÖDƏNİŞİNİN LİMİTİ – bir sığorta hadisəsinə görə sığorta ödənişinin maksimum ölçüsü; bu ödəniş sığorta təşkilatı tərəfindən ödənilə və ya yuxarı sığorta təşkilatı tərəfindən ödənişlə təsdiq oluna bilər.

SIĞORTA ÖDƏNİŞİNİN NORMASI – sığorta olunan heyvanların, kənd təsərrüfatı mədəni bitkilərinin və digər əmlakın ayrı-ayrı növləri üçün müəyyən olunan sabit sığorta məbləği. Sığorta ödənişi bu məbləğ hədlərində həyata keçirilir.

SIĞORTA POLİSİ – sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən sənəd; sığortaçı tərəfindən sığortalıya verilir. SSRİ "Qosstrax" (Dövlət Sığorta İdarəsi) təcrübəsində sığorta polisi şəxsi sığortanın bütün növləri (sərnişinlərin icbari sığortası istisna olmaqla) üzrə verilirdi. 1956-cı ildən o, "sığorta şəhadətnaməsi" adlandırıldı. Bəzi ölkələrin qanunvericiliyi (məs., Rusiya) sığorta polisi ilə sığorta şəhadətnaməsini eyni anlayış kimi nəzərdən keçirir. Sığorta polisində aşağıdakı məcburi rekvizitlər əks olunmalıdır: sənədin adı; sığortaçının adı, hüquqi ünvanı və bank rekvizitləri; sığortalının soyadı, adı, atasının adı, onun ünvanı; sığorta məbləğinin və sığorta haqqının ölçüsü, onun köçürülməsi müddəti və qaydası; müqavilənin fəaliyyət müddəti, onun dəyişməsi və dayandırılması qaydası. Sığorta polisinə icbari qaydada sığorta qaydası əlavə olunmalıdır. Sığorta polisi sığorta marağını həlledici sübut edən sənəddir. Sığortaçının sığortalıdan buna görə hər hansı bir əlavə sübut tələb etmək hüququ yoxdur.

SIĞORTA POLİSİ ALTINDA KREDİT – sığorta polisinin təminatı altında sığorta şirkətindən alınan kredit.

SIĞORTA POLİSİNDƏ "ƏMƏYƏ GÖRƏ" ŞƏRTLƏR – dəniz sığortası polisində təshih edilən və sığorta hadisəsinin baş verməsi nəticəsində yaranan zərərlərin qarşısını almaq, yaxud əgər sığorta hadisəsindən yaxa qurtarmaq mümkün olmamışdırsa, onları minimuma endirmək cəhdi zamanı polisin sahibi tərəfindən onun fəaliyyətinin vurulan xərclərin örtülməsinə şamil edilməsi şərtləri.

SIĞORTA POLİSİNİ ALAN ŞƏXS – şəxsi sığorta şərtlərinə uyğun olaraq sığorta məbləği ödənilən şəxs.

SIĞORTA PORTFELİ – sığorta təşkilatının fəaliyyətinin ümumi həcmini xarakterizə edən və bu təşkilat tərəfindən qəbul olunan sığorta haqlarının (tədiyələrinin) məcmusu. Sığorta portfeli sığortalanmış obyektlərin miqdarına, sığorta müqavilələrinin sayına, eləcə də ümumi sığorta məbləğinin ölçüsünə görə müəyyən edilir. Sığorta portfeli sığorta agentliyinin, xüsusilə, həyat sığortası üzrə onun işinin həcminin hesablanması zamanı nəzərə alınır. Xarici təcrübədə "sığorta portfeli" termini əvəzinə "qazanılmış sığorta mükafatının həcmi" terminindən istifadə olunur.

SIĞORTA PREDMETİ – sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu fiziki şəxs, əmlak və ya hal.

SIĞORTA PREVENTİV FƏALİYYƏT – mümkün sığorta hadisələrinin xəbərdarlıq edilməsi üzrə sığortaçının fəaliyyəti.

SIĞORTA PULU – müəyyən risk növlərinin (üstün olaraq təhlükəli, iri və ya yeni, az məlum olan) birgə sığortalanması üçün sığorta şirkətlərinin birliyi. Birgə sığorta prinsipi əsasında qurulur. Sığorta pulunun üzvlərinin kvotası verilən haqların həcminə mütənasib olaraq və ya müqavilə sazişi ilə müəyyən edilir. Sığorta pulu – sığortaçıların xüsusi birləşməsi norması, yaxud sığorta şirkətlərinin birliyidir, ittifaqıdır. Pulun iştirakçıları adından bağlanan sığorta müqavilələri üzrə öhdəliklərin yerinə yetirilməsinə görə sığorta pulu, iştirakçıların həmrəylik məsuliyyəti şərtlərində sığorta əməliyyatla-





rının maliyyə sabitliyinin təmini üçün yaradılır.

SIĞORTA RENTASI – yalnız sığorta olunanın ödəniş vaxtı sağ olması şərti ilə həyata keçirilən növbəti sığorta ödənişi.

SIĞORTA RİSKİ – sığorta hadisəsinin baş verməsi ehtimalı; bu və ya digər sığorta növü üzrə sığortaçının öhdəliyinin mümkün həcmini ifadə edir. **Sığorta riski** ehtimal olunan elə hadisədir ki, onun baş verməsinə qarşı sığorta aparılır. Sığorta riski sayılan hadisənin təsadüfi əlamətləri olmalıdır. Statistika məlumatları əsasında müəyyənləşən sığorta öhdəliyinin həcminə daxil olan bu və ya digər hadisənin baş verməsinin mümkünlük dərəcəsi, sığortalı qarşısında sığortaçının maliyyə öhdəliklərinin yerinə yetirilməsi üçün zəruri sığorta ehtiyatlarının düzgün formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edir. **Sığorta riski** sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəlik. **Sığorta riskləri** elə təsadüflər və təhlükələrdir ki, bunların baş verməsi nəticəsində sığortaçı zərər çəkmiş tərəfə sığorta ödənişi verməyi öz üzərinə götürür. Təsadüflər və təhlükələr labüd yox, məhz, mümkün xarakter daşımalıdır. Baş verməsi labüd olan hadisə yox, məhz, "risk" sığortalanır. Sığorta ilə təminat verilən sığorta risklərinin dairəsi sığorta şərtlərində dəqiq razılaşdırılmalıdır.

SIĞORTA RİSKİ VƏ YA RİSK – sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin, bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəlik.

SIĞORTA RİSKİNİN QİYMƏTLƏNDİRİCİSİ – sığortalının razılığı ilə sığortaçı tərəfindən təyin olunan, sığorta riskini müstəqil surətdə qiymətləndirən və bu sahədə ixtisaslaşmış hüquqi şəxs və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs.

SIĞORTA RİSKLƏRİ – təsadüflər və təhlükələrdir ki, bunların mümkün baş verməsi nəticəsində sığortaçı zərər çəkmiş tərəfə sığorta ödənişinin məbləğinin ödənilməsini öz üzərinə götürür. Bu zaman təsadüflər və təhlükələr labüd yox, məhz mümkün xarakter daşımalıdır. Labüd baş verən hadisə yox, "risk" sığortalanır. Sığorta ilə örtülən sığorta risklərinin dairəsi sığorta şərtlərində əsaslı razılaşdırılmalıdır.

SIĞORTA RÜSUMU – sərnişinlərin məcburi sığortası üzrə ödənilən və biletin dəyərinə daxil edilən haqq.


SIĞORTA SAHƏSİ (ing. *insurance field*) – sığortalanması

mümkün olan maksimal miqdarda obyektlər. Müəyyən ərazidə (ölkədə, inzibati-ərazi vahidində) könüllü sığortanın bu və ya digər növləri ilə əhatə oluna bilən potensial obyektlərin və fiziki şəxslərin ümumi miqdarıdır. İcbari sığorta üçün sığorta sahəsinin müəyyən edilməsi artıq hesab olunur. Belə ki, o, bir qayda olaraq, sığorta obyektlərinin tam əhatəsi ilə üst-üstə düşür. Sığorta sahəsi dedikdə həmçinin sığorta bazarının maksimum inkişafı zamanı əldə oluna bilən sığorta məbləğinin məcmu kəmiyyəti başa düşülür. Bu dəyər yanaşması, eyni zamanda, sığorta obyektlərinin bazarla əhatə olunma dərəcəsini bildirir. "Sığorta sahəsi" termini bir çox hallarda bağlanmış sığorta müqavilələrinin və ya sığortalanmış obyektlərin sayını bildirən "sığorta portfeli" termini ilə üst-üstə düşür.

SIĞORTA SERTİFİKATI – 1. Yükü sığorta edən şəxsə verilən, yükün sığorta edildiyini və polis verildiyini təsdiqləyən sığorta şəhadətnaməsi. 2. Sığorta cəmiyyəti tərəfindən sığortalanmanın həyata keçirildiyini və polis verildiyini təsdiq edən sənəd. **Sığorta sertifikatı** – tərəflərin sığorta müqaviləsinin bağlanmasını təsdiq edən və sığortalı tərəfindən sığorta mükafatının ödənilməsi anından müqavilənin qüvvəyə minməsini göstərən köməkçi sığorta sənədidir. Sığorta sertifikatı xüsusilə, baş polisin fəaliyyəti altına düşən ayrıca yük partiyasının sığortalanmasını təsdiq edən sığortaçının sığortalıya verdiyi sənəddir. **Sığorta sertifikatı** sığorta polisini əvəz edən və sığorta müqaviləsinin şərtlərini ehtiva edən sənəddir. Sığortaçı tərəfindən verilir. Qərb ölkələrində, adətən, baş polisin təsiri altına düşən yüklərin sığortalanması zamanı verilir. Sığortaçı tərəfindən yazılan və əvvəlcədən imzalanan sığorta sertifikatı sığortalı tərəfindən düzəlişlə (qeyd-şərtlə) təsdiq olunur. Bu düzəlişdə göstərilir ki, sığortalının imzası olmadan sığorta sertifikatı həqiqi sayıla bilməz. Sığortaçı sığorta sertifikatını onu saxlayanın tələbi ilə polis tərəfindən əvəz etməlidir.


SIĞORTA STATİSTİKASI – 1. Əmlak və şəxsi sığorta üzrə göstəricilərin (məlumatların) toplanması və sistemləşdirilməsi. Sığorta statistikası sığortaçıların və sığortalıların münasibətlərinin kəmiyyət xarakteristikasını, həmçinin sığortaçı tərəfindən düzgün idarəetmə qərarlarının qəbul edilməsi üçün lazımi materialları təmin edir. 2. Elə bir statistika sahəsidir ki, bunun obyekti sığortaçıların fəaliyyəti və sığortalı ilə onların

Təbii və antropogen fəlakətlər statistikası (1970-2010)



Qrafik 1

1970-ci ildən sonra ən böyük sığorta ödəmələri



Qrafik 2

qarşılıqlı münasibətləridir. Bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə sığorta statistikası, sığortanın maliyyə nəticələrinin və tariflərin müəyyənləşdirilməsi, reklamın təşkili və s. üçün istifadə edilən geniş dairədə göstəricilər üzrə statistik müşahidələrin nəticəsi olaraq formalaşdırılır. **Sığorta statistikası** informasiyanın toplanması və təhlili sistemi, sığorta işinin vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılmasıdır. Sığorta statistikası sığorta və təkrar sığorta əməliyyatlarında istifadə olunan statistikadır.


SIĞORTA SİRRİ – bağlanmış müqavilədə olan sığorta ilə bağlı məlumatların yayılmayacağı barədə sığorta edənin götürdüyü öhdəlik. Sığorta sirrinin aşkarlanması qanunla qadağandır.

SIĞORTA ŞƏHADƏTNAMƏSİ – sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən, sığortaçı tərəfindən sığortalıya və (və ya) sığorta olunana verilən sənəd.

SIĞORTA ŞİRKƏTİ – sığorta xidmətləri göstərən, həyatın, sağlamlığın, əmlakın, məsuliyyətin sığortasını həyata keçirən şirkət. Sığorta şirkəti sığorta fəaliyyətini həyata keçirmək üçün müəyyən olunmuş qaydada icazə (lisenziya) alan təşkilatdır.

Sığorta şirkətinin aktivləri – sığorta şirkətlərinin funksional rolunun əlamətləri üzrə qruplaşan vəsaitlərinin tərkibi, yerləşməsi və istifadə olunmasıdır. Balansa görə, sığorta şirkətinin aktivlərinin tərkibinə daxildir: qeyri-maddi aktivlər, əsas vəsaitlər, uzunmüddətli maliyyə qoyuluşları, təsisçilərlə hesab-

Sığorta təşkilatının funksional strukturunun nümunəvi sxemi



Sxem 1

laşmalar, istehsal ehtiyatları, az qiymətli və tez xarab olan əşyalar, gələcək dövrlərin xərcləri, qısamüddətli maliyyə qoyuluşları, kassa (xəzinə), hesablaşma hesabı və digər pul vəsaitləri.

Sığorta şirkətinin büdcəsi – növbəti (gələcək) maliyyə ili üçün sığortaçının fəaliyyətinin əsas plan göstəricilərinin toplusu (cəmi).

Sığorta şirkətinin gəliri – sığorta və qanunla qadağan olunmayan fəaliyyətin həyata keçirilməsi nəticəsində pul daxilolmalarının ümumi məbləği.

Sığorta şirkətinin xərcləri – nizamnamə fəaliyyətinin həyata keçirilməsi ilə şərtlənən və müvafiq olaraq mühasibat sənədlərində əksini tapan məsrəflər.

Sığorta şirkətinin idarəetmə orqanları – 1. Səhmdarların ümumi yığıncağı (ali idarəetmə orqanı). 2. Direktorlar Şurası. 3. İdarə Heyətinin sədri. 4. Prezident. Bundan əlavə, idarəetmə orqanlarının vitse-prezident, baş menecer, qeyri-icbari direktor, katiblik, icraçı direktor və s. kimi yardımçıları da var.

Sığorta şirkətinin likvidliyi – sığortaçının sığorta müqavilələrinə görə öhdəliklərinin vaxtında yerinə yetirilməsi qabiliyyəti.

Sığorta şirkətinin mənfəəti (balans) – qanunla qadağan olunmayan bu və ya digər sığorta fəaliyyəti növü üzrə sığortaçının gəlirləri ilə xərcləri arasında fərq, sığorta şirkətinin maliyyə nəticəsi.

Sığorta şirkətinin mənfəəti (normativi) – qiymətlər (tariflər) müəyyən edilərkən sığorta xidmətlərinə qoyulan aktuar hesablar nəticəsində müəyyən edilən hesablanma mənfəəti.

Sığorta şirkətinin reklamı – onun məqsədi sığortaçının müsbət imicinin, onun fəaliyyətinə xeyirxah ictimai fikrin formalaşması.


Sığorta şirkətlərinin təşkilati-hüquqi formaları – bu formalara aiddir:

– təsərrüfat yoldaşlıqları: a) tam yoldaşlıqlar, b) kommandit yoldaşlıqları;

– məhdud məsuliyyətli cəmiyyət;

– səhmdar cəmiyyəti;

Qarışıq sığorta təşkilatının strukturu



Sxem 2


– qarşılıqlı sığorta cəmiyyəti;
– dövlət (hökumət) sığorta şirkətləri (müəssisələri);
– bələdiyyə unitar sığorta müəssisələri;
– qeyri-kommersiya təşkilatları;
– fondlar.

SIĞORTA TARİFİ – sığortalayanın sığorta məbləğinin hər vahidindən və ya sığortalayanın obyektindən pul şəklində sığorta haqqı (sığorta ödənişinin dərəcəsi) və ya müəyyən tarixdə məcmu sığorta məbləğinin faiz dərəcəsi.

Sığorta tarifləri hesablanarkən əsas məqsədlər hər sığortalayana və ya sığorta məbləğinin hər vahidinə düşən zərərin ehtimal edilən məbləğinin müəyyənləşdirilməsi və ödənilməsidir. Əgər sığorta tarifi hesablanarkən ehtimal olunan zərər aşkar edilərsə, zərər sığortalayanlar arasında bölüşdürülür. Sığorta tarifi sığortaçının sığorta məsuliyyətinin həcminin müəyyənləşdirilməsini və məhdudlaşdırılmasını təmin edir. Başqa sözlə desək, sığorta tarifi sığorta fondunun sığorta fəaliyyətini zərərsiz həyata keçirməsini təmin edən meyardır.

Sığortalama aparan şəxs iki məsələnin həllinə çalışır: sığortalayanların geniş dairəsi üçün münasib olan minimum tariflər daxilində sığorta məsuliyyətinin sanballı həcmini təmin etmək. Əgər sığorta tarifi düzgün hesablanmış olarsa, sığorta əməliyyatlarının zəruri maliyyə sabitliyi (gəlirlərin və xərclərin davamlı tarazlığı və ya gəlirlərin xərclərdən artıq olması) təmin edilir və sığortalayanların gəlirlərinin cüzi hissəsi sığorta haqları şəklində alınır. Beləliklə, elmi cəhətdən əsaslandırılmış sığorta tariflərinin köməyi ilə sığorta işinin inkişafı üçün zəruri şərt kimi sığorta fondunun optimal həcmi təmin edilir.

Beynəlxalq təcrübədə sığorta haqqının (ödənişin, mükafatın) əsasını təşkil edən sığorta tarifi brutto-stavka adlanır. Brutto-stavka netto-stavkaya və ona əlavəyə bölünür. Netto-stavka sığorta ödənişlərinin verilməsi üçün istifadə edilən sığorta fondunun əsas hissəsinin formalaş-



Sxem 1

ması üçün nəzərdə tutulmuşdur. Netto-stavkaya əlavə sığortalamanın aparılması ilə bağlı xərclərin ödənilməsi, yəni sığortaçının əlavə xərcləri üçün zəruridir. Əlavə brutto-stavkanın az hissəsini təşkil edir (sığortanın formasından və növündən asılı olaraq əlavə 9-40% həddində dəyişir). Beləliklə, sığorta tarifi sığortalananın zərərsiz (və ya mənfəətlə) aparılmasını təmin edən sığorta fondunun ideal qarantıdır.

SIĞORTA TƏBABƏTİ – xərcləri xüsusi sığorta fondları hesabına örtülən təbabət növü. Belə fondların təşkili forması icbari və könüllü ola bilər. Təbabəti (tibbi) maliyyələşdirən sığorta fondlarının əmələgəlmə mənbələrinə aiddir: dövlət büdcəsinin, sahibkarların vəsaitləri və işləyənlərin haqları. Dövlət vəsaitləri hesabına yaranan sığorta fondlarının bir hissəsi məhdud növ tibbi yardımın, o cümlədən təxirəsalınmaz tibbi yardımın göstərilməsi ilə əlaqədar xərclərin örtülməsinə yönəldilir.

SIĞORTA TƏLƏBİ – sığorta hadisəsi baş verdikdə sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığortaçıya öz vəzifələrini qanunvericiliyə və sığorta müqaviləsinə uyğun olaraq icra etməsi barədə müraciəti; bu anlayış təkrar sığorta müqavilələri üzrə təkrar sığortalının təkrar sığortaçıya etdiyi müvafiq müraciətinə münasibətdə "təkrar sığorta tələbi" kimi işlədilir.

SIĞORTA TƏMİNATI SİSTEMİ – əmlak sığortasında dəymiş zərərin əvəzinin ödənilməsinin elmi cəhətdən əsaslandırılmış sistemi. Sığortalanmış əmlakın sığorta məbləği ilə faktiki zərər arasındakı nisbəti, yəni dəymiş zərərin əvəzinin ödənilməsi dərəcəsini şərtləndirir. Sığorta təminatı sistemi sığortanın əsas şərtlərindən biridir və sığorta ödəməsinin hesablanması metodu buna əsaslanır. Üç əsas sistem məlumdur:

1) proporsional məsuliyyət;
2) birinci risk;
3) həddi məsuliyyəti.

Keçmiş SSRİ-də proporsional məsuliyyət sistemi geniş yayılmışdı. O, tikililərin, inventarların, avadanlığın, kənd təsərrüfatı mədəni bitkilərinin, heyvanların sığortasını əhatə edirdi. Birinci risk sistemi üzrə ev əmlakı və əhalinin nəqliyyat vasitələri sığortalanırdı. Həddi məsuliyyəti sistemi ayrı-ayrı texniki bitkilərin sığortası zamanı 1934-cü ilədək keçmiş SSRİ-də istifadə olunmuşdur.

SIĞORTA TƏSHİHLƏRİ (düzəlişləri, qeyd-şərtləri) – sövdələşmə (əqd) bağlanan zaman hər hansı bir öhdəliyin

vaxtı çatdıqda və ya gələcəkdə şərait dəyişdikdə tərəflər arasındakı qarşılıqlı münasibətləri tənzimləyən sığorta, fakt və ticarət bəndlərində nəzərdə tutulmuş şərtlər.

SIĞORTA TƏSNİFATI – müəyyən meyar əsasında sığorta xidmətlərinin fəaliyyət sahələrinə bölünməsi sistemi. Sığorta münasibətləri təsnifatına görə sosial sığortaya və mülkihüquqi sığortaya bölünür. Aparılma formasına görə icbari və könüllü sığorta formaları fərqləndirilir. Sığorta obyektinə görə şəxsi və əmlak sığortası sahələri ayrılır. Şəxsi sığorta, öz növbəsində, həyat sığortasına və sağlamlıq sığortasına bölünür. Sığortalıların qruplarına görə sığorta əməliyyatları fiziki və hüquqi şəxslərlə aparılan sığorta əməliyyatlarına bölünür. Sığorta əməliyyatları qısamüddətli (adətən 1 ilə qədər) və uzunmüddətli (1 ildən yuxarı) əməliyyatlara bölünür. Sığortalanmış şəxslərin təsnifatına görə, fərdi sığorta və kollektiv sığorta müqavilələrini ayırmaq olar. Sığorta müqaviləsinin bağlanması qaydasına əsasən, kütləvi sığorta növlərini və fərdi yanaşma növlərini tələb edən sığorta növləri fərqləndirilir. Sığortaçıların fəaliyyəti baxımından həyat və qeyri-həyat (ümumi) sığorta sinifləri fərq-

Cədvəl 1

Sığorta təsnifatı

Sığorta sahəsi	*Sığorta növləri*	*Sığorta müxtəlifliyi*	*Sığorta forması*	*Sığorta əlaqələri sistemi*
Şəxsi sığorta	*Sığorta:* • həyat • xəstəlik və bədbəxt hadisələrdən • tibbi	*Sığorta:* • *uşaqların* • *nikah mərasiminə* • *qarışıq həyat sığortası*	*icbari* *könüllü*	• *sığorta (birbaşa)* • *birgə sığorta* • *ikinci dəfə sığorta* • *təkrar sığorta* • *özünü sığortalama*
Əmlak sığortası	*Sığorta:* *nəqliyyat vasitələrinin:* • yerüstü • hava • su • yüklərin və digər əmlak növlərinin • maliyə risklərinin	*Sığorta:* • tikililərin • əsas və dövriyyə fondlarının • heyvanların • ev əmlakının • k/t məhsulunun • digər		
Məsuliyyət sığortası	*Sığorta:* • borcluların krediti qaytarmamasına görə məsuliyyəti • nəqliyyat vasitələri sahiblərinin məsuliyyəti • məsuliyyətin digər növləri	*Sığorta:* • təsərrüfat və ya professional fəaliyyət zamanı ziyan vurulduqda • fasilələr zamanı baş verən zərərdən • digər		

ləndirilir. Həyat sığortasına həyatın ölüm halından sığortası, həyatın yaşam sığortası, annuitet sığortası, əmək qabiliyyətinin sığortası, ölümcül xəstəliklərdən sığorta və digər bu kimi sığorta sinifləri daxildir. Göründüyü kimi, həyat sığortasının bütün sinifləri şəxsi sığortaya aiddir. Qeyri-həyat sığortası sahəsinə isə həm şəxsi, həm də əmlak sığortasına aid olan aşağıdakı siniflər daxildir: Şəxsi sığortaya aid qeyri-həyat sığortası sinifləri – fərdi qəza sığortası, sağlamlıq (tibbi) sığortası. Əmlak sığortasına aid qeyri-həyat sığortası sinifləri – əmlakın yanğından və digər risklərdən sığortası, avtonəqliyyat vasitələrinin sığortası, dəmiryol nəqliyyatı vasitələrinin sığortası, su nəqliyyatı vasitələrinin sığortası, hava nəqliyyatı vasitələrinin sığortası, yüklərin (nəqliyyat) sığortası, avtonəqliyyat, dəmiryol, su və hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası, yük daşıyanın mülki məsuliyyətinin sığortası, mülki-hüquqi müqavilə üzrə mülki məsuliyyətin sığortası, peşə məsuliyyətinin sığortası, işəgötürənin məsuliyyət sığortası, kreditlərin sığortası, ipoteka sığortası, bazar dəyərinin düşməsi riskindən sığorta, işin dayanması ilə bağlı risklərdən sığorta və s. (bax: cədvəl 1).

SIĞORTA TƏŞKİLATLARININ SIĞORTA EHTİYATLARI – sığortaçı tərəfindən sığorta mükafatlarının alınması hesabına formalaşan və üzərinə götürdüyü sığorta öhdəliklərinin təmin edilməsi üçün istifadə olunan məqsədli təyinatlı pul vəsaitlərinin məcmusu.

SIĞORTA TƏŞKİLATLARININ ƏMLAKI – səhmdarlar tərəfindən verilən əmlak, eləcə də sığorta növləri üzrə tədiyə məbləğindən ayırmalar yolu ilə əmələ gələn ehtiyatlar, ehtiyat fondları; sığorta və kommersiya fəaliyyətindən alınan mənfəət.

SIĞORTA TƏZMİNATI – əmlak və məsuliyyət sığortaçısının sığorta hadisəsinin baş verməsi nəticəsində ödədiyi pul vəsaiti.

SIĞORTA ÜZRƏ DAXİLİ XƏRCLƏR – sığorta fəaliyyətinin həyata keçirilməsi üçün sığorta təşkilatının xərcləri.

SIĞORTA ÜZRƏ XARİCİ XƏRCLƏR – yeni sığortalıların cəlb olunması və onlara xidmət göstərilməsi üzrə xərclər.

SIĞORTA VASİTƏÇİLƏRİ – sığorta agentləri, sığorta brokerləri, acasterlər və sürveyerlər.

SIĞORTA YIĞIMI (rüsumu) – 1. Gediş haqqına daxil olan – sərnişinlərin sığortalanması üzrə haqq. 2. İdarə (müəssisə) sığortası qaydasında yükün (baqajın) daşınması ilə əlaqədar müvafiq orqanlar tərəfindən tutulan tədiyə. Digər xidmətlərlə bağlı tutulan tədiyə.

SIĞORTA ZƏMANƏTİ – sığorta şirkətinin və sığortalıya görə (onun kredit qabiliyyəti haqqında) yazılı zaminlik forması. Bu o deməkdir ki, sığortaçı sığortalı tərəfindən təshih edilmiş qeyri-tədiyə şərtləri zamanı öz hesabına sığorta müqaviləsi ilə nəzərdə tutulmuş məbləğin ödənilməsi öhdəliyini öz üzərinə götürür. Bu halda, sığortaçı sığortalıya qarşı reqress iddiası hüququna malikdir. Sığorta zəmanəti sığorta polisi ilə təsdiq olunur.

SIĞORTA ZƏRƏRİ (ing. *insurance loss*) – sığorta hadisəsi nəticəsində sığortalı şəxsə dəymiş maddi zərər. Sığorta zərəri sığortalanana sığorta hadisəsinin baş verməsi nəticəsində dəyən zərərdir. Dəymiş ziyanın ödənilməsi sığorta ilə əvəz edilmə sayılır. Sığorta zərəri sığorta qiymətini nəzərə alaraq müəyyən edilən məhv olmuş əmlakın dəyəri və qismən zədələnmiş əmlakın itirilmiş dəyəridir. Başqa sözlə, sığortalıya və ya üçüncü şəxslərə vurulmuş itkinin maddi ifadəsidir ki, bunların xeyrinə sığorta müqaviləsi bağlanmışdır. Sığorta zərəri sığorta qiymətləndirilməsi zamanı korlanmış əmlakın tam məhv olmuş və yaxud qiymətdən düşmüş hissəsinin dəyəridir. Zərərin qapalı şəkildə aradan qaldırılması sığorta fondunda səfərbərliyə alınmış vəsaitlərin bilavasitə geri qaytarılmasını şərtləndirir. Sığorta zərəri, yaxud sığorta itkisi – sığorta qiyməti üzrə ölmüş və ya zərər dəymiş əmlakın tam dəyəridir.

SIĞORTA ZONASI – sığorta əməliyyatlarının həyata keçirilməsinin güzəştli rejiminə əsaslanan zona.

SIĞORTAÇI – sığortanı həyata keçirən, sığortada iştirak edən sığortalıya və ya digər şəxslərə zərərin ödənilməsini və ya sığorta məbləğinin ödənişini öhdəsinə götürən təşkilat. Sığorta fondunun vəsaitlərinin yaradılmasını və xərclənməsini idarə edir. Sığortaçı qanunvericilik əsasında sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq



lisenziyaya malik, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda, qanunvericiliklə və ya müqavilə ilə müəyyənləşdirilmiş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan, sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxsdir. Sığortaçı ölkə qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məcburi dövlət sosial sığortası və ya könüllü sığorta üzrə fəaliyyəti həyata keçirən və sığorta fondlarını idarə edən hüquqi şəxsdir. Sığortaçı mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq qanunvericiliyə əsasən sərnişinlərin icbari sığortasını aparan sığorta təşkilatıdır. Sığortaçı yalnız sığorta və təkrar sığorta fəaliyyətini göstərmək məqsədi ilə yaradılmış və qanunvericiliklə müəyyən edilmiş qaydada xüsusi razılıq (lisenziya) almış hüquqi şəxsdir.

Dövlət sığorta təşkilatları ilə yanaşı, müəyyən olunmuş qaydada qeydiyyatdan keçən və müəyyən sığorta növlərinin aparılmasına hüquq verən lisenziyanı alan səhmdar, kooperativ və digər şirkətlər də sığortaçı ola bilərlər. Keçmiş SSRİ-də sığortanın aparılmasına dövlət inhisarı zamanı sığortaçı qismində SSRİ Dövlət Sığorta İdarəsi və müttəfiq respublikaların Dövlət Sığorta İdarəsi, xarici sığorta ilə əlaqədar isə xarici ticarət və digər xarici iqtisadi təşkilat üzrə – SSRİ "İnqosstrax" təşkilatı çıxış edirdi. Hazırda isə sığortaçı kimi dövlət və özəl sığorta şirkətləri çıxış edir.

SIĞORTAÇILAR BİRLİKLƏRİ – öz fəaliyyətinin əlaqələndirilməsi, üzvlərinin maraqlarının qorunması və birgə proqramların həyata keçirilməsi üçün yaradılan təşkilatlar. Bu təşkilatlar ölkənin qanunvericiliyinə əsasən könüllü əsasda yaradılır.

SIĞORTAÇININ MALİYYƏ SABİTLİYİ – sığorta təşkilatının fəaliyyətinin və inkişafının fasiləsiz həyata keçirilməsini təmin etməyə imkan verən aktivlərin və öhdəliklərin optimal keyfiyyət və kəmiyyət vəziyyətində saxlanılması. Sığortaçıların maliyyə sabitliyinin başlıca əlaməti onların tədiyə qabiliyyətidir. Sığorta təşkilatının fəaliyyət göstərməsi onun maliyyə vəziyyətinə təsir göstərən üç növ riskdən: sığorta, investisiya və ümumi maliyyə riskindən asılıdır. Sığortaçının maliyyə sabitliyinə və tədiyə qabiliyyətinə təsir göstərən amilləri iki qrupa bölmək olar: xarici və daxili. Xarici amillər sığorta təşkilatından asılı olmayan amillərdir. Daxili amillər konkret sığorta təşkilatının fəaliyyətindən asılıdır. Bu amillərə aiddir: 1) anderrayter siyasəti; 2) tarif dərəcələrinin müəyyən edilməsi sahəsində siyasət; 3) zəruri ölçülərdə sığorta ehtiyatlarının nağd olması; 4) xüsusi kapitalın kifayət etməsi; 5) təkrar sığorta sistemindən istifadə edilməsi; 6) investisiya fəaliyyəti.

SIĞORTAÇININ MƏSULİYYƏT LİMİTLƏRİ – sığortaçı tərəfindən ödənilən ödəmə məbləğinin maksimum hədlərinin müəyyən edilməsi.

SIĞORTAÇININ MƏSULİYYƏTİNİN ÖLÇÜSÜ – sığorta ilə örtülən hadisə ilə əlaqədar yaranan itki zamanı sığortalının sığortaçıdan ala biləcəyi məbləğ. Valyutalaşmış polis (sığorta məbləğinin təsbit olunduğu dəniz sığortası üzrə polis) üzrə əmlakın tam məhv olması zamanı sığortaçının maksimum mənfəəti sığorta məbləğini təşkil edir. Qeyri-valyutalaşmış polis (sığortalanmış marağın sığorta məbləğinin göstərilmədiyi polis) üzrə isə sığortanın məruz qaldığı mənfəət sığorta obyektinin məbləğini təşkil edir.

SIĞORTAÇININ ÖDƏNİŞİNƏ MƏRUZ QALMAYAN İTKİLƏR – adətən sığortaçı sığorta şərtlərinə, eləcə də sığortalının qəsdən törətdiyi hərəkətlər nəticəsində itkilərə və

örtülməyən təhlükələr nəticəsində baş verən itkilərə görə məsuliyyətdən azaddır. Bununla belə, sığorta şərtləri ilə örtülən səbəblər nəticəsində baş verən itkilər zamanı, hətta bu gəminin kapitanı və ya komandası tərəfindən düzgün olmayan hərəkətlərin və diqqətsizliyin doğurduğu səbəblərdən olarsa, onlar ödənilməlidir.

SIĞORTAÇININ ÖZ VƏSAİTİ – sığortaçının öhdəliklərindən azad olan, məbləği sığorta nəzarəti orqanı tərəfindən müəyyənləşdirilən qaydalara əsasən hesablanan vəsaitləri.

SIĞORTADA AKTİVİZASİYA – yeni sığorta müqavilələrinin bağlanması üzrə əhali ilə iş.

SIĞORTADA AKTİVLƏR – sığorta təşkilatının bu və ya digər təsərrüfat sahələrinə investisiya olunan, idarəetmə orqanlarına, əhaliyə, sığortalılara kreditə və ya borca verilən, saxlanmaq üçün bankda yerləşdirilən vəsaitlərinin bir hissəsi.

SIĞORTADA ARTIQLIQ – sığorta bazarına çıxarıla bilməyən riskin qalığı. Onu bazara çıxarmaq üçün yeni sığortalanma tələb olunur.

SIĞORTADA AŞKAR OLUNMUŞ ZƏRƏRLƏRİN ÖRTÜLMƏSİ (ödənilməsi) – təkrar sığorta müqaviləsi; burada yalnız müqavilənin fəaliyyət göstərdiyi müddət ərzində aşkar olunan zərərlər örtülür.

SIĞORTADA BƏDBƏXT HADİSƏ ZAMANI ÖRTÜLMƏ (ödəmə) – zərərin ekssedenti ilə təkrar sığorta forması; bu zaman xüsusi bildirişin olması vaxtı və müəyyən həddə qədər sedent şirkətə bir bədbəxt hadisə (məsələn, zəlzələ, qasırğa, yanğın) nəticəsində yaranan zərərlərin məcmusu kompensasiya olunur.

SIĞORTADA BİLDİRİLMİŞ ZƏRƏRLƏR – sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalanmışın əmlak maraqlarına dəymiş ziyanın pulla ifadəsi; bu hadisənin baş verməsi faktı qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığortaçıya bildirilir.

SIĞORTADA BİRBAŞA ZƏRƏRLƏR – sığortalanmış əmlakın miqdarca azalması və ya sığorta hadisəsinin baş verməsi nəticəsində maddi-əşya formasının saxlanması zamanı onun dəyərinin azalması.

SIĞORTADA BROKER ETİBARNAMƏSİ – bir sıra ölkələrin beynəlxalq sığorta təcrübəsində sığortalı tərəfindən sığorta brokerinə verilən sənəd; bu sənədə görə ona sığortaçıdan bildirilmiş iddia ilə əlaqədar zərərin ödənilməsini tələb etmək hüququ verilir. Zərərin ödənilməsi haqqında sığortalının iddialarının tənzimlənməsi üzrə göstərilmiş xidmətlərə görə sığorta brokeri adətən, ödənilməli olan sığorta ödəməsinin məbləğindən faiz kimi broker mükafatı (komissiyası) alır.

SIĞORTADA BROKER FƏALİYYƏTİ – sığorta xidmətlərinin alqısı və ya satqısı üzrə vasitəçilik fəaliyyəti. O, sığortada maraqlı şəxslər arasında razılaşmaya, son məqsədi tərəflər üçün əlverişli sığorta variantları və şərtlərinin tapılması olan sığortalı ilə sığortaçının arzusuna uyğun olaraq sığorta üzrə danışıqların aparılmasına təsiri nəzərdə tutur. Sığortada broker fəaliyyəti – tərəflər üçün qarşılıqlı münasib şərtlərin və formaların tapılması son məqsədi olan sığortalını və ya sığortaçının iradəsinə uyğun olaraq, sığorta üzrə danışıqların aparılmasını nəzərdə tutan sığortada maraqlı tərəflər arasında sazişə yardım göstərilməsini bildirən sığorta xidmətlərinin alqısı və ya satqısı üzrə vasitəçilik fəaliyyətidir.

SIĞORTADA BROKERİC – brokerin muzdu. Sığorta müqaviləsi bağlanarkən şərtləşdirilir ki, sığorta brokerinə ödənilən məbləğ sığorta pulu məbləğinin neçə faizini təşkil edəcəkdir. Sığorta halı faktı üzrə irəli sürülmüş iddianın tənzimlənməsində vasitəçilik xidmətlərinə görə sığorta brokerinə ödənilən muzd da brokericə daxildir.

SIĞORTADA CENSON ŞƏRTLƏRİ – gəmilərin sığortalanması zamanı tətbiq olunan elə şərtlərdir ki, bunlara görə sığortaçı dəymiş zərərin yalnız gəminin dəyərinin 3%-dən yuxarı hissəsini ödəyir. Sığorta təminatının əmlak, şəxsi və sosial formaları fərqləndirilir.

"SIĞORTADA DAŞINMA ÖDƏNİLMİŞDİR" – yalnız satıcının daşıma zamanı əmtəənin (malın) sığortalanması üzrə əlavə öhdəliyindən fərqli olaraq, "təyinat məntəqəsinə qədər daşıma ödənilmişdir" şərtinə oxşar daşıma şərti.

SIĞORTADA DOLAYI ZƏRƏRLƏR – əmlakın məhv olması (korlanması) və ya sığorta hadisəsindən sonra ondan istifadə edilməsinin qeyri-mümkünlüyünün nəticəsi kimi zərər; əsasən, birbaşa zərərdən törəmədir.



SIĞORTADA EHTİYAT FONDLARI – cari ilin sığorta ödəmələrinin konkret sığorta hadisəsinə görə ödəmə vəsaitlərini bağlaya bilmədiyi hallar üçün nəzərdə tutulmuş ehtiyat pul vəsaitləri.

SIĞORTADA EKSSEDENT – təkrar sığorta sistemi; buna uyğun olaraq sığorta təşkilatı sığortaya qəbul olunmuş risklərin bir hissəsini təkrar sığortaya verir.

SIĞORTADA ƏLAVƏ RİSK – baş verməsi ehtimalı qabaqcadan çətin bilinən təhlükə növü; məsələn, zəlzələ, partlayış, fırtına, tufan, qasırğa və s.

SIĞORTADA ƏTRAFLI SERTİFİKAT – sedent şirkətdən təkrar sığortaçı tərəfindən qəbul olunan təkrar sığortanın hər bir ayrıca hadisəsinin detallarını əks etdirən sənəd.

SIĞORTADA GƏLİRLİLİK NORMASI – həyat sığortası üzrə haqların ehtiyatına əlavə edilən faiz.

SIĞORTADA GÜZƏŞTLƏR – ayrı-ayrı sığortalıların icbari sığorta üzrə tədiyələrin ödənilməsindən qismən və ya tam azad olunması, eləcə də könüllü sığorta müqavilələrinin bağlanması zamanı müəyyən üstünlüklərin verilməsi.

SIĞORTADA GÜZƏŞTLİ GÜNLƏR – polisin qüvvədə olduğu dövr; baxmayaraq ki, uzadılmış dövr ödənilməmişdir. Bu dövrdə iddialar meydana gəldiyi zaman ödənilmiş mükafat ödənilmiş sığorta məbləğindən çıxılır.

SIĞORTADA HESABAT MÜDDƏTİ – təqvim müddəti; sığortaçının mühasibat balansı buna əsasən tərtib edilir.

SIĞORTADA XƏBƏRDARLIQ TƏDBİRLƏRİ – sığortalanmış əmlakın məhvinin, korlanmasının və xarab olmasının xəbərdarlıq edilməsi üzrə tədbirlər.

SIĞORTADA XƏTT – hər hansı bir şəxsin xüsusi hesabı. Həmçinin, sığortaçının və ya təkrar sığortaçının "payı"nın xarakteristikası üçün istifadə olunur.

SIĞORTADA İKİQAT BƏDBƏXT HADİSƏ NƏTİCƏSİNDƏ ÖDƏNİŞ – bədbəxt hadisə nəticəsində sığortalının ölümü zamanı sığorta polisinə əlavə ödəniş.

SIĞORTADA İLKİN ŞƏRTLƏR – təkrar sığorta zamanı ilkin sığorta müqaviləsinin şərtlərinin və mükafat dərəcələrinin qorunub saxlanması.

SIĞORTADAN İMTİNA – sığorta ödəməsinin və ya sığorta məbləğinin ödənişi ehtimalı həddən artıq böyük olanda və ya sığorta obyekti artıq təsadüfi hadisə qurbanı (hədəfi) kimi nəzərdən keçirilə bilməyəndə, həmin obyektin sığortaçı tərəfindən ən riskli obyektlər (təhlükələr) sırasına salınmasından imtina edilməsidir. Vətəndaşların köhnə və sahibsiz tikililəri; fəlakət (təhlükə) zonasında yerləşən ev əmlakı; I qrup əlillər, ahıl vətəndaşlar (77 yaşdan yuxarı) və digər obyektlər sığortalanmaq üçün qəbul olunmur.

SIĞORTADA İTKİNİN ƏVƏZİNİN ÖDƏNİLMƏSİ – sığorta edən idarə tərəfindən sığorta halının olması nəticəsində sığortaçının itkilərinin tam, yaxud qismən kompensasiyası. Sığorta ödəməsinin ödənilməsi yolu ilə həyata keçirilir.

SIĞORTADA KOMİSYON (KOMİSSİYA) MÜKAFATI – şəxsi və əmlak sığortasının həyata keçirilməsi işinə görə sığorta obyektlərinin əməyinin ödənilməsi.

SIĞORTADA KVOTA – 1. Birgə sığorta qaydasında eyni vaxtda bir neçə sığortaçı tərəfindən sığortalanan müəyyən obyektin (riskin) sığortalanmasında sığortaçının iştirak payı. 2. Müəyyən obyektin sığortalanmasında təkrar sığortaçının iştirak payı; müxtəlif təkrar sığorta müqavilələri ilə tərtib

olunur. Sığortada kvota ümumi sığorta riskinin bir hissəsidir və iki mənanı bildirir: a) bir və ya bir neçə obyektin bir neçə sığortaçının eyni risklərdən (təhlükələrdən) sığortalanması zamanı yaranan sığortada iştirak edən hər bir sığortaçının payıdır; b) təkrar sığortada iştirak edən hər bir təkrar sığortaçının payıdır.

SIĞORTADA MAKSİMUM QİYMƏTLƏNDİRİLƏN ZƏRƏRLƏR – pul zərərləridir ki, bunlar sığortaçıya yanğın və ya partlayış nəticəsində vurula bilər.

SIĞORTADA MAKSİMUM MÜMKÜN ZƏRƏRLƏR – elə zərərlərdir ki, bir hadisə nəticəsində onların yaranması ehtimalı kifayət qədər böyükdür. Bu ehtimal onun baş verməsinin real imkanlarını, müxtəlif təsadüflər nəzərə alınmaqla nəzərdən keçirir, bununla belə, kortəbii hadisələrin ehtimalı nəzərə alınmır.

SIĞORTADA MƏLUMAT VERƏN (ərizəçi) – polisi almağı və mükafatı ödəməyi arzu edən şəxs.

SIĞORTADA MÜKAFAT EHTİYATLARI – maliyyə zəmanəti qismində təkrar sığortaçıya çatası təkrar sığorta müqavilələri üzrə təkrar sığortalı tərəfindən müvəqqəti tutulan mükafatın bir hissəsi (bir qayda olaraq 40%-ə qədər), müəyyən müddətdən sonra mükafat ehtiyatı qaytarılır və bu zaman yeni dövr üçün növbəti mükafat ehtiyatı tutulur.

SIĞORTADA MÜKAFATIN HESABLANMASI – sığortanın müəyyən növləri üzrə sığorta mükafatının ölçüsünün müəyyənləşdirilməsi ilə hesablanması; mükafat şkalasının tərtib edilməsi.

SIĞORTADA ORİJİNAL BRUTTO-MÜKAFAT – sığortaçının aldığı və ya tam həcmdə sığortalıdan ona çatası mükafat.

SIĞORTADA ÖDƏNC DƏYƏRİ – nağd pul məbləği; sığortalı bu pulu, onun sığorta həyatı polisi dayandırılarkən ala bilər.

SIĞORTADA ÖDƏNC MƏBLƏĞİ – həyat sığortası müqaviləsinin vaxtından əvvəl dayandırıldığı zaman sığortalıya ödənilən haqların bir hissəsi.

SIĞORTADA ÖDƏNİLMƏMİŞ İTKİLƏRİN EHTİYATLARI – yaranan, lakin ödənilməmiş sığorta itkilərinə görə ödəmələrin mümkün ölçüsünün müəyyən edilməsi üsulu. Xüsusilə dəniz sığortasında mühüm əhəmiyyət kəsb edir.

SIĞORTADA ÖDƏNİLMƏMİŞ ZƏRƏRLƏRİN EHTİYATLARI – sığortaçının bildirdiyi, lakin hələ ödənilməmiş zərərlər üzrə maliyyə öhdəliklərinin yerinə yetirilməsi üçün bu sığortaçı tərəfindən yaradılan xüsusi fondlar.

SIĞORTADA PREVENTİV TƏDBİRLƏR – sığortalanmış əmlakın məhvi, korlanması və xarab olması barədə xəbərdarlıq edən tədbirlər. Əmlak sığortası üzrə tədiyələrdən ayırmalar hesabına aparılır.

SIĞORTADA RAN-OFF ÜZRƏ ÖHDƏLİK – sığorta müqaviləsinin fəaliyyəti dayandırıldıqdan sonra yerinə yetirilməli olan öhdəlik.

SIĞORTADA REQRESS İDDİASI – sığorta orqanlarının zərərin vurulmasına görə məsuliyyət daşıyan şəxsə qarşı tələblər irəli sürmək hüququ.

SIĞORTADA REPRESSİV TƏDBİRLƏR – sığortalanmış əmlaka dəyən zərərin həcmini azaltmaq məqsədilə baş vermiş fəlakətlərlə mübarizə tədbirləri. Sığortada repressiv tədbirlər – sığortalanmış əmlakın məhv olması, korlanması və xarab olması ölçülərinin azaldılması məqsədilə baş verən fəlakətlərlə mübarizə üzrə tədbirlərdir (yanğının söndürülməsi, sellə mübarizə və s.).

SIĞORTADA REPREZENTASİYA (təkrar təqdimat) – sığorta müqaviləsinin bağlanması zamanı riskin dərəcəsi haqqında mülahizələrin obyektivliyi üçün əhəmiyyət kəsb edən bütün vəziyyət (şərait) haqqında məlumatları sığortalının sığortaçıya bildirməsi öhdəliyi. Sığortalının susması, vəziyyət haqqında məlumatın bilə-bilə yalandan təhrif olunması sığortaçıya yalanın təsiri altında bağlamış sığorta müqaviləsinin pozulmasını tələb etmək hüququ verir.

SIĞORTADA RETROSESSİYA – təkrar sığortaçı tərəfindən təkrar sığorta müqaviləsinə görə onun qəbul etdiyi fakültativ və ya digər təkrar sığorta müqavilələri üzrə risklərin bir hissəsinin digər təkrar sığortaçılara verilməsi. Retrosessiya zamanı həmin ölkənin ayrı-ayrı sığortaçıları arasında risklərin böyük miqdarda bölünməsi baş verir. İri risklərə görə onların bir hissəsinin verilməsi digər ölkələrin sığortaçıları tərəfindən həyata keçirilir. Riskin bir hissəsi ardıcıl təkrar sığorta qay-

dasında ilkin sığortaçıya qayıda bilər.

SIĞORTADA SON XALİS ZƏRƏRLƏR – 1. Bütün ödənişlər ödənildikdən sonra sığortaçının və təkrar sığortaçının daşıdığı xərclər. 2. İddiaların tənzimlənməsi məqsədi ilə hesablanan zərərin ekssedent müqaviləsi üzrə riskləri təkrar sığortaya verən sığortaçının zərərləri. Adətən, ödəmələr üzrə tutulmalar çıxılmaqla tənzimlənmə üçün sığortaçıya lazım olan iddiaların, silinmə üzrə xərclərin və digər təkrar sığorta növləri üzrə iddiaların cəmi kimi müəyyən edilir; təkrar hesab üzrə xərcləri ehtiva edir, lakin sığortaçının işçi heyətinin əməyinin ödənilməsinə və sığorta kontorunun saxlanmasına çəkilən xərcləri əhatə etmir.

SIĞORTADA STONLAŞMA – növbəti sığorta ödəmələrinin həyata keçirilməməsi səbəbindən müqavilənin vaxtından əvvəl ləğv edilməsi nəticəsində sığorta portfelinin azalması.

SIĞORTADA SÜRÜŞKƏN ŞKALA ÜZRƏ KOMİSSİYA – sığortada xüsusi düsturla hesablanan qazanılmış mükafatların komissiyası; buna uyğun olaraq, real komissiya zərərlər əmsalından asılı olaraq dəyişir və müəyyən maksimum və minimum qiymətlərlə məhdudlaşır.

SIĞORTADA ŞƏXSİ HESAB – sığortaçı tərəfindən sığortalının adına açılan və sığorta haqlarının ödənilməsini təsbit edən sənəd.

SIĞORTADA TAM FASİLƏSİZ FƏALİYYƏT (İŞ) QABİLİYYƏTİNİN OLMAMASI – xəstəliklər siyahısı; polisi saxlayan (dayandıran) artıq heç vaxt iş ala bilməz.



SIĞORTADA TƏDİYƏ VAXTI – əmanətin sığortalanması zamanı ilkin müəyyən edilmiş müddətin bitməsidir.

"SIĞORTADA TUTULMA" – sığortanın uzadılmasını (risk və ya sığorta obyekti haqqında) bildirən sığorta şərti.

SIĞORTADA YAZILMIŞ (QEYD EDİLMİŞ) XƏTT – elə sığorta məbləğidir ki, təkrar sığortaçı onu slipin imzalanması zamanı qəbul etməyə razıdır. O, "qapalı xətt" və ya "imzalanmış xətt" kimi məlum olan həqiqi sığorta məbləğindən çox ola bilər.

SIĞORTADA YEKUN MÜKAFATI – ya ölüm, ya da ömrün qalan hissəsi zamanı sığorta polislərini saxlayanlara ödənilən məbləğ.

SIĞORTADA YENİDƏN MÜƏYYƏNETMƏ – əlavə mükafatın ödənilməsi haqqında polis tərəfindən nəzərdə tutulmuş tələb. Sığorta məbləği zərərin ödənilməsi məbləğinə qədər azaldıldıqdan sonra ilkin həddə çatdırılır.

SIĞORTADA ZƏMANƏT – riskin qəbul edilməsinə sübut kimi təkrar sığortaçı tərəfindən yazılan sənəd.

SIĞORTADA ZƏRƏRİN AZALDILMASI ÜZRƏ ÖHDƏLİK – sığortalanmış əmlakın məhv olmasının xəbərdarlıq edilməsi və ya üçüncü şəxslərdən onlara zərərlərin cərimələnməsi (alınması) ilə əlaqədar sığortalının xərclərinin sığortaçı tərəfindən ödənilməsini nəzərdə tutan sığorta müqaviləsində şərt.

SIĞORTADA ZƏRƏRİN HESABLANMASI – 1. Sığortanın müxtəlif növlərində zərərin ləğv edilməsi zamanı sığorta ödəməsinin hesablanması ölçüsü. 2. Burada müəyyən qaydaya uyğun və sığorta şərtlərinə müvafiq olaraq həm sığorta ödəməsindən çıxarılmalı məbləğ, həm də sığortalının irəli sürdüyü iddiaların məbləği göstərilir.

SIĞORTADA ZƏRƏRLƏRİN ƏMSALI – ödənilmiş və ya ödənilməli olan iddiaların qazanılmış mükafatlara nisbəti.

SIĞORTADA ZƏRƏRLƏRİN LƏĞV EDİLMƏSİ – əmlak sığortasında və məsuliyyət sığortasında sığorta ödəməsinin müəyyənləşdirilməsi və ödənilməsi üzrə kompleks işlər. Bura daxildir: əmlakın korlanması, xarab olması və ya məhvi ölçülərinin müəyyən edilməsi, onun saxlanmasına və qorunmasına dair əsas tələblərin sığortalı tərəfindən yerinə yetirilməsinin yoxlanılması, sığorta aktının tərtibi və s.; sığortada zərərlərin ləğv edilməsi sığorta ödəməsinin sığortalıya ödənişi ilə başa çatır.

SIĞORTAEDƏNLƏR – ölkədə fəaliyyət göstərən mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, bu ölkənin və ya xarici dövlətin qanunvericiliyinə uyğun yaradılmış hüquqi şəxs statusunda olan müəssisə, idarə və təşkilatlar, onların filial və nümayəndəlikləri, seçkili orqanlar, habelə özünü və ya başqasını sosial sığorta edən digər şəxslər.

SIĞORTALANAN – öz qiymətlərini sığortalayan sığortaçı ilə sığorta müqaviləsi bağlayan fiziki və ya hüquqi şəxs.

SIĞORTALANAN MARAQ – sığorta müqaviləsini bağlamaq hüququ. İnsan o zaman sığortalanan marağa malik olur ki, sığortalanmış hadisə bu insan üçün maliyyə itkisinə səbəb ola bilər.

SIĞORTALANMANIN VALYUTASI – burada sığortalanmada istifadə olunan valyuta nəzərdə tutulur. Mükafatın ödənilməsi sığortalanmanın valyutasının məzənnəsindən asılı olur. Çünki sığorta ödənişinin məbləği də həmin valyutada ödənilir.

SIĞORTALANMAYAN OPSİON – bərabər kompensasiyalı, lakin əks mövqeli opsion. Məsələn, satış üçün opsionsuz, alış üçün opsionlu və ya əksinə.

SIĞORTALANMAYAN RİSK – yaranması ehtimalını hətta ümumi şəkildə belə hesablamaq çətin olan və sığortalanmaq üçün həddən artıq yüksək hesab edilən risk. Bəzi ölkələrin qanunvericiliyində məcburi qaydada sığortalanmalı olan sığortalanmayan risklərin siyahıları reqlamentləşdirilir. Qanunu pozmamaq üçün həmin risklər sığortalanır. Bu məqsədlə sığortaçı pulları yaradılır, həmin pullar çərçivəsində pulun iştirakçısı olan tərəflərin hüquq və vəzifələrinin nisbətləri xüsusi müqavilə ilə müəyyən edilir.

SIĞORTALANMIŞ ƏMANƏT – qorunan əmanətçinin qorunan əmanətinin fond tərəfindən kompensasiya ödənilən hissəsi.

SIĞORTALANMIŞ ƏMLAK – maddi dəyərlər (qiymətlilər); bunlara icbari sığorta və ya könüllü sığorta şamil olunur. Sığortalanmış əmlak bir predmetlə və ya predmetlərin məcmusu ilə təqdim oluna bilər.

SIĞORTALANMIŞ ƏMLAKIN MƏHV OLMASI HAQQINDA ƏRİZƏ (müraciət) – sığorta ödəməsini almaq məqsədilə sığortaçı tərəfindən şifahi şəkildə edilir, yaxud yazılır, sığorta halının mövcudluğunda sığorta aktının tərtib edilməsi üçün əsasdır.

SIĞORTALANMIŞ HESAB – depozitlərin sığortalanması sistemində iştirak edən bankda və ya maliyyə-kredit idarəsində hesab. Hesabın sahibi bankın iflası zamanı kompensasiya almaq hüququna malikdir.

SIĞORTALANMIŞ KONOSAMENT – beynəlxalq gəmiçilikdə yüklərin daşınması prosesində daşıyıcı və yük sahibinin qarşılıqlı münasibətlərini müəyyənləşdirən, əksər hallarda yüklərin konteynerlərlə da-



şınmasında tətbiq olunan sənəd. Sığortalanmış konosament nəqliyyat sənədinin sığorta polisi ilə əlaqələndirilməsi olduğuna görə o, yükün daşınmasına qəbul üçün sənəd rolunu oynayır və eyni zamanda, onun sığortalandığını təsdiq edir.

SIĞORTALANMIŞ KREDİT – elə kreditdir ki, ona görə zamin borclunun öz öhdəliklərini yerinə yetirməkdən imtina edən zaman kreditora zərərləri və ya itkiləri ödəyir; məsələn, ABŞ-da mənzil ipotekası üzrə kredit riski, Federal Mənzil Administrasiyası tərəfindən qismən və ya tam sığortalana bilər.

SIĞORTALANMIŞ ŞƏXS – sosial və şəxsi sığortaya görə həyatı, sağlamlığı və əmək qabiliyyəti sığorta müdafiəsinin obyekti olan fiziki şəxs. Əgər o şəxs sığorta şərtləri üzrə üzvlük haqqı ödəyirsə, onda sığortaçı da hesab olunur. Sığortalanmış dedikdə, geniş mənada, sığorta müqaviləsi bağlamış fəaliyyət qabiliyyətli fiziki və hüquqi şəxs başa düşülür. Sığortalanmış sığorta müqaviləsini nəinki öz xeyrinə, habelə üçüncü şəxsin xeyrinə də bağlaya bilər. Sığortalanmış o şəxsdir ki, onun adına şəxsi sığorta müqaviləsi bağlanmışdır; müqavilədə bu şəxsin həyatı ilə bağlı müəyyən hadisələrin baş verməsi zamanı sığorta məbləğinin ödənilməsi nəzərdə tutulur.

SIĞORTALANMIŞ ŞƏXSİN FƏRDİ ŞƏXSİ HESABI – bəzi ölkələrin (məsələn, Rusiya Federasiyasının) ərazisində hər bir sığortalanmış şəxsə ölkənin Pensiya Fondu daimi sığorta nömrəsi olan fərdi şəxsi hesab açır. Bu hesabda çoxsaylı məlumatlar, o cümlədən sığorta nömrəsi, sığortalanmış şəxsin adı, soyadı, atasının adı, işəgötürənin hesabına sığorta haqları və sığortalanmış şəxsin özünün sığorta haqları daxil olmaqla, bu sığortalanmış şəxsə keçirilən sığorta haqlarının məbləği və s. əks olunur. Sığortalanmış şəxsin fərdi şəxsi hesabı sığortalanmış şəxsin bütün ömrü boyu ölkənin Pensiya Fondunda qorunub saxlanılır.

SIĞORTALI – sığortaçı ilə sığorta və ya məsuliyyət sığortası müqaviləsi bağlayan, əmlakı sığorta etdirən fiziki və ya hüquqi şəxs. Sığortalı sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfidir. Sığortalı qanunvericiliklə müəyyən edilmiş qaydada auditor xidməti ilə məşğul olan, öz mülki məsuliyyətini sığorta etdirmək üçün sığortaçı ilə müqavilə bağlayan fiziki və ya hüquqi şəxsdir. Sığortalı sığorta haqlarını ödəyir və onun qanuna görə (icbari sığorta) və ya müqaviləyə görə (könüllü sığorta) sığorta hadisəsi baş verərkən ödəmə (sığorta məbləği) almaq, eləcə də digər şəxs tərəfindən onun alınmasını təmin etmək (məsuliyyət sığortasında və şəxsi sığortada) hüququ vardır. Əmlak sığortasında əmlak sahibi, əmlakı icarəyə, istifadəyə götürən şəxs, qorunmaq, girov (lombard) və s. üçün maddi dəyərləri qəbul edən təşkilat sığortalı ola bilər. Şəxsi sığortada özünü, digər şəxsləri (məsələn, uşaqları) sığortalatdıran vətəndaşlar, eləcə də öz işçilərinin sığorta müqavilələrini bağlayan təşkilatlar sığortalı sayılırlar. Məsuliyyət sığortasında sığortanın hər hansı bir fəaliyyəti (və ya fəaliyyətsizliyi) nəticəsində yarana bilən zərərin (ziyanın, itkinin) ödənilməsi üzrə öz öhdəliklərini qanun və ya müqavilə əsasında üçüncü şəxslərə ötürən (verən) hər hansı bir fiziki və ya hüquqi şəxs sığortalı kimi çıxış edir.

SIĞORTALILARIN SİYAHISI – ayrı-ayrı vətəndaşlara məxsus olan, icbari vergi sığortasına məruz qalan tikililərin və heyvanların uçota alınması üçün dövlət sığorta müfəttişlikləri tərəfindən aparılır.

SIĞORTALININ GÜNAHI – sığorta hadisəsi baş verərkən sığorta ödənişinin və ya sığorta məbləğinin ödənilməsindən imtina etmək üçün əsas olan sığortalının ehtiyatsızlığı. Sığortalının günahı şəxsin öz qanunazidd davranışına və onun mümkün nəticələrinə subyektiv münasibətidir ki, bu da bəzən zərərin (itkinin) baş verməsinə səbəb olur.

SIĞORTANIN BƏRPA OLUNMASI – 1. Qeyri-dövlət sığortasında: əgər polisin müddəti bitmişdirsə, onda o, bərpa oluna bilər və bu bərpa fəaliyyət müddəti bitdikdən sonra bir il ərzində mümkündür. 2 Dövlət sığortasında: a) əsasən həmin şərtlər qalmaqla yeni müqavilənin bağlanması yolu ilə sığortanın uzadılması; b) növbəti sığorta haqlarının ödənilməməsi nəticəsində vaxtından əvvəl dayandırılan həyat sığortası müqaviləsinin fəaliyyətinin bərpası.

SIĞORTANIN BÖLGÜ SİSTEMİ – sığortanın ilkin forması; kortəbii hadisələrin və bədbəxt hadisələrin baş verməsi

zamanı qarşılıqlı yardım prinsiplərinə əsaslanır və dar təcrübədə iştirakçılarla məhdudlaşır.

SIĞORTANIN FƏALİYYƏT GÖSTƏRMƏSİ DÖVRÜ – sığortaçının sığortalanmış əmlakın məhvi, korlanması və ya xarab olması, eləcə də sığortalanmış vətəndaşın həyatında müəyyən hadisələrin baş verməsi zamanı fəaliyyət göstərdiyi müddət.

SIĞORTANIN FUNKSİYALARI – 1. İtkilərin (zərərlərin) ödənilməsi funksiyası. 2. Sosial funksiya. 3. İnvestisiya funksiyası. 4. Xəbərdarlıq funksiyası (bax: sxem 1, səh. 488).

SIĞORTANIN KAPİTALLAŞMASI – ömrün sonuna qədərki sığortalanması üsulu. Bu zaman sığorta məbləğinin həcmi sığorta olunan, yaxud üçüncü şəxs (çox vaxt işə götürən) tərəfindən edilən ödəmələrlə bilavasitə bağlıdır. Sığortanın bu növü bir tərəfdən, insan ölümü səviyyəsinin nəzərə alınması, digər tərəfdən isə, müddətli pul qoyuluşlarının gəlirliyinin, yəni bu vəsaitlərin kapitallaşmasının nəzərə alınması üzərində qurulur. Sığortanın kapitallaşması valyuta sabitliyi və cüzi inflyasiya dövründə səmərəlidir.

SIĞORTANIN KÜTLƏVİ RİSK NÖVLƏRİ – sığorta obyektlərinin yekcinsliyi və sığorta məbləğinin ölçüsündə az səpələnmə ilə xarakterizə olunan sığorta risklərinin və sığorta subyektlərinin xeyli hissəsini əhatə edən sığorta növləri.

SIĞORTANIN NÖVLƏRİ – 1. Yekcins obyektlər üçün bu obyektlərin xarakterik təhlükələrdən sığortası; həmin obyektlərin sığorta müdafiəsi ilə əlaqədar sığortalıların konkret marağını ifadə edir. Əhali arasında sığortanın aşağıdakı növləri həyata keçirilir: a) əmlak sığortası, o cümlədən tikililərin, heyvanların, ev əmlakının, nəqliyyat vasitələrinin və s. (cəmi 14 növ əmlak) sığortası; b) şəxsi sığorta, o cümlədən həyatın qarışıq sığortası, uşaqların sığortası, nikahın sığortası, ömürlük sığorta (ölüm və əmək qabiliyyətinin itirilməsi hallarında), pensiya sığortası, bədbəxt hadisələrdən sığorta (fərdi); müəssisə və təşkilatlar hesabına işçilərin sığortası, sərnişinlərin sığortası (icbari qaydada, digər sığorta növləri yalnız könüllü formada (cəmi 9 növ) həyata keçirilir). 2. Xarakterik, çoxlu sayda təkrarlanan, bir-biri ilə oxşar, bir-birindən əhəmiyyətli dərəcədə fərqlənməyən sığorta müqavilələri. 3. Beynəlxalq sığorta təcrübəsi tarifində (burada ziyanın ehtimalı qoyulur) nəzərə alınan şərtlərdə sığorta zamanı həmin tarifdir. Xarici təcrübədə sığorta növlərinin (siniflərinin) qaydaya salınmış sistemindən istifadə olunur. Avropa İqtisadi Birliyində (AİB) bu birliyin üzvü olan ölkələrin vahid sığorta bazarının formalaşmasına təsir etmək məqsədilə sığorta növlərinin vahid təsnifatı qəbul edilmişdir.

SIĞORTANIN TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ – sığortanın yaranmasından indiyə qədər olan dövrü əhatə edən tarix. Sığortanın yaranma tarixi uzaq keçmişə təsadüf edir. Tarixin müxtəlif mərhələlərində sığorta işi daim təkmilləşmiş, dövrün tələbinə uyğunlaşmışdır. Sığorta ilin ayrı-ayrı dövrlərində (hər şeydən əvvəl, qışda) aclıqdan qorunmaq kimi natural formada yaranmışdır. Şamanlar və ibtidai icma cəmiyyətinin insanları "qara gün" üçün ehtiyat saxlayaraq yeməyi qurudur və dondururdular.

Bu günə gəlib çatan ilk mətn təxminən eramızdan 2000 il əvvəl Mesopotamiyada qəbul edilən Şulqanın qanunları olmuşdur. Ən dürüst və klassik iqtisadi sənəd isə Babilistan çarının, təqribən, eramızdan 1800 il əvvəl qəbul etdiyi qədim "Hammurapi qanunları"dır.

Sığortanın inkişafında bu dövr eramızdan əvvəl 550-ci ilə qədər davam etmişdir.

İlk dövrlərdə sığorta, əsasən, qarşılıqlı yardım formasında mövcud olmuşdur. Sığortanın bu forması quru və dəniz yollarından istifadə edən ticarətçilər arasında əldə olunan birdəfəlik razılığa əsaslanırdı. Razılıqlar, əsasən, gəmiləri, həmçinin heyvanlardan ibarət olan daşıma (nəqliyyat) vasitələrini əhatə edirdi.

Ehtimala görə, ilkin sığorta formasına eramızdan iki min il əvvəl təsadüf edilmişdir. Babilistan çarı Hammurapinin qəbul etdiyi qanunlarda ticarət karvanı iştirakçılarının quldur hücumları, oğurluq, qarət, həmçinin digər hadisələr zamanı vurulmuş zərərin birgə ödənilməsi haqqında razılığa gəlinməsinin vacibliyi öz əksini tapmışdır. Fars körfəzi, Finikiya və digər dəniz yollarından istifadə edən tacirlər arasında suda baş verə biləcək müxtəlif hadisələr zamanı dəyən ziyanın bölüşdürü-



Sığortanın ilk şərti formaları Qədim Roma və Qədim Misirdə yaranmışdır



lərək birgə ödənilməsi haqqında razılıqlar əldə olunurdu.


Qədim Yunanıstanda qarətçilik əməliyyatları nəticəsində əldə olunan gəlir, həmçinin, dənizdə baş vermiş hadisələrdən yaranan itkilərin bölüşdürülməsi haqqında ticarətçi quldurlar arasında sövdələşmələrin mövcudluğu haqqında məlumatlar vardır.

Tarix boyu sığorta inkişaf edərək daha mükəmməl formaya malik olmuşdur. Belə ki, müntəzəm şəkildə toplanan pul vəsaitləri sığorta fondunun yaranmasına gətirib çıxarmışdır. Bədbəxt hadisə vaxtı ailə üzvlərinə, ölüm hadisəsi zamanı isə başsız qalmış ailələrə maddi yardım göstərilirdi. Bu cür qarşılıqlı yardım təşkilatları Qədim Hindistan və Qədim Misirdə də mövcud olmuşdur. Sonrakı tarixi mərhələdə sığorta inkişaf edərək daha mükəmməl formaya malik olmuşdur.

Nizamnamə tipli daimi qarşılıqlı sığorta təşkilatları Qədim Romada daha geniş inkişaf etmişdi. O, öz tətbiqini müxtəlif peşəkar ittifaq və kollegiyalarda tapmışdı. Əsası eramızın 133-cü ilində qoyulmuş Lanuviya kollegiyasının Nizamnaməsində üzvlüyə qəbul zamanı hər şəxsin 100 sestersi və bir amfora (24 litrə qədər) həcmində keyfiyyətli şərab verməsi, sonra isə ayda 5 assa (bir sestersi 4 assadan ibarət olan gümüş puldur) məbləğində vəsait ödəməsi nəzərdə tutulmuşdu. Kollegiya üzvünün ölümü zamanı onun kassasından (fondundan) 300 sestersi məbləğində pul ödənilirdi. Bunun 50 sestersisi dəfn mərasimi iştirakçılarına paylanırdı. Sığorta məbləğinin qalığı dəfnin layiqli təşkili üçün məqsədyönlü şəkildə xərclənirdi.

Orta əsr sığortası, adətən, gildiya-sex sığortası adlandırılır. İlk gildiyalar İngiltərədə (X-XI əsrlərdə), sonralar Almaniyada (XI-XII əsrlərdə) və Danimarkada (XII əsr) yaradılmışdır.

İlk mərhələdə qarşılıqlı yardım, yardımın və sığorta hadisələri dairəsinin ölçüsünü müəyyən etmədən ümumi formada gildiyaların və sexlərin nizamnamələrində möhkəmləndi. Şəxsi sığorta gildiyalarda ölüm, xəstəlik, əlillik zamanı müavinətin ödənilməsini nəzərdə tuturdu. Xəstələrə yardım, bir qayda olaraq, ağır, müalicəsi olmayan xəstələr üçün nəzərdə tutulurdu. Əvvəlcədən tədiyə almağa əsaslanan sığorta təxminən 1250-ci illərdə Venesiya, Florensiya və Genuya şəhərlərində müşahidə olundu. Amma sığortanın bu-



Avropa sığorta tarixi öz başlanğıcını "Lloyds" (Böyük Britaniya) şirkətindən götürür

günkü mənasında işlənməsindən danışmaq hələ tez idi. XIV əsrdə iqtisadi vəziyyətin dəyişməsi ilə əlaqədar ticarətdə çox vacib dəyişikliklər baş verdi. O dövrdə dəniz ticarətində İtaliyada sığortaya hədsiz ehtiyac hiss olundu və ilk dəfə dəniz sığortası anlayışı burada yarandı.

Təkrar satınalma qiyməti ilə ilkin satış qiyməti arasındakı fərq "riskin qiymətini" təşkil edirdi və kilsə tərəfindən qadağan edilmiş ssuda faizini əvəzləyirdi. Belə sxemlər vasitəsilə tacirlər, dənizçilər və borcverənlər ilkin sığorta müqavilələrinin ortaya çıxmasına şərait yaratmış oldular.

Yükdaşıyanlar gəminin, yükün və daşımanın müddətindən asılı olaraq tacirlərə və bankirlərə "riskin qiymətini" əlavə pul məbləği kimi ödəyirdilər. "Riskin qiyməti" daha sonra sığorta mükafatı (premiyası) adlanmağa başladı (lat. *Premium*). Beləliklə, sığortaçılıq peşəsi yarandı. 1559-cu ildə ingilis parlamentinin ilk iclasını açan **Nicholas Baconun işlətdiyi cümlə bu gün də öz aktuallığını qoruyur: "Qoy təhlükələrlə dolu səyahətə çıxan hər bir ağıllı alıcı pulunun digər hissəsini qorumaq üçün onun bir hissəsini ayırsın"**. Bu cümlə özlüyündə sığortanın əsas məqsədini əks etdirir.

Qarşılıqlı yardımlaşma forması kimi, sığorta hələ bəşəriyyət tarixinin ilk vaxtlarından mövcud olmuşdur. Qədim yunanların apardıqları borc əməliyyatlarını bunun prototipi saymaq olardı. Müasir sığorta şirkətlərinə bənzər institutlar ilk dəfə XII əsrdə İspaniyada yanğına və mal-qaranın tələf olmasına qarşı birgə təminatı həyata keçirmək üçün meydana gələn kəndli ittifaqları olmuşdur. İttifaqlar, adətən, 20 varlı kəndlidən ibarət olur və bədbəxtlik baş verdikdə zərərin əvəzinin bir hissəsi material və işlə, digər hissəsi isə pulla ödənilirdi.

1300-cü ildə Belçikada sığorta mükafatı müqabilində dəniz risklərinin birbaşa ödənilməsi praktikası formalaşmışdı.

XIV əsrin əvvəllərində (1310-cu ildə) Almaniyanın Bryuqqe şəhərində tacirlərin və sənət gildiyalarının əmlak mənafelərini sığorta edən "Sığorta palatası" yaradılmışdır. Sonradan – XVIII əsrin ortalarında İngiltərədə – Londonda böyük yanğından sonra, sığorta işinin aparılmasına başlandı. Sığorta işinin yaranmasının sövqedici motivi böyük London yanğını oldu. 1666-cı ildə baş verən və 4 gün davam edən yanğın 70 min nəfəri və 13200 evi, 100 kilsəni məhv etdi. 1667-ci ildə "FIRE OFFICE" (Yanğın şöbəsi) sığorta şirkəti, 1684-cü ildə isə bu şirkətə rəqib olaraq "Friendly Society" fəaliyyətə başladı. Beləliklə, həmin hadisədən sonra XVIII əsrin ortalarından bütün Avropada sığorta şirkətləri yaranmağa başladı.

Bugünkü mənada sığortaya isə yalnız XIV əsrdə dəniz ticarətinin çox geniş yayıldığı İtaliyada rast gəlinib. Sığorta hüququ tarixində ilk sığorta şəhadətnaməsi (polisi) kimi qəbul edilən müqavilə 1347-ci

il oktyabrın 23-də Genuyadan Malyorkaya yola düşən "Santa Klara" adlı gəminin daşıdığı yükü "sığortalamaq" məqsədilə bağlanmışdı. Tarixdən bizə məlum olan ilk sığorta şirkəti də Genuyada 1424-cü ildə yaradılmışdı.

XV əsrdə isə Londondan qitəyə və geriyə müntəzəm gəmiçilik üçün sığorta tarifləri müəyyən edildi, sığorta qanunvericiliyi formalaşdı və 1435-ci ildə sığorta sahəsində ilk qanun olan Barselona Fərmanı verildi. XV əsrin sənədlərindən aydın olur ki, həmin qanun o dövrün müfəssəl işlənilmiş sığorta qanunvericiliyi olmuşdur. 1601-ci ildə dəniz risklərinin sığortası üzrə mübahisəli məsələlərin həll edilməsi üçün İngiltərə parlamenti yanında komissiya yaradıldı. 1680-ci ildə İngiltərədə tarixdə ilk dəfə olaraq yanğından sığorta üzrə şirkət təsis edildi.

XV əsrdə Qərbi Avropa dövlətlərində ilk dəfə sığorta işi ilə əlaqədar sığorta gildiyaları və sığorta sexləri meydana gəldi. Sığorta işinin inkişafında növbəti mühüm addım XV əsrin sonunda Avropada "yanğın ortaqlıqları" (Brangilden) adlanan birgə sığorta cəmiyyətlərinin meydana gəlməsi idi. Alman sığorta nəzəriyyəçisi professor A.Manes 1910-cu ildə yazırdı: "Səhmdar cəmiyyətlər, demək olar ki, iqtisadiyyatın bütün sahələrində tətbiq edilir, birgə cəmiyyətlər isə, demək olar ki, sığortaya xasdır". XVII əsrin sonlarından etibarən isə səhmdar şirkətlər ortaya çıxmağa başladı. İlk belə şirkət 1602-ci ildə yaranan "Holland-ostind ortaqlığı" olmuşdur. Dənizdə başlayıb inkişaf edən sığorta daha sonra həyat sığortasının yaranmasına səbəb oldu. Gəmi və yükün sığorta edilə bilməsi daha sonra kapitanın, sərnişinlərin, ekipajın sığortalana bilməsini mümkün etdi.

London yanğınından sonra bir neçə illər ərzində Avropanın bəzi ölkələrində, xüsusilə İngiltərədə bir sıra sığorta şirkətləri və qarşılıqlı sığorta cəmiyyətləri yarandı və onların bəziləri hazırda da fəaliyyət göstərir. Məsələn, İngiltərənin "Birlik" sığorta cəmiyyəti 1905-ci ilə qədər mövcud olmuş, sonra o Londonun "Kommerşiel Yunion" şirkəti tərəfindən alınmışdır və indiyə qədər fəaliyyət göstərir.

Kapitalist münasibətləri inkişaf etdikcə sığorta işi ilə məşğul olan şirkətlər "qardaşlıq, yoldaşlıq" formasından "əmtəə" formasına keçirdi. XIX əsrin II yarısında Rusiya, İsveç, Avs-



İlk dəfə olaraq Babilistanda sığorta ilə xüsusi mütəxəssislər məşğul olmağa başlayıblar. Beləliklə, ilk sivilizasiya ilə birlikdə sığorta fəaliyyəti də yaranmışdır

triyada onlarca sığorta cəmiyyətlərindən ibarət kartel və konsern tipli sığorta birlikləri əmələ gəldi. Beynəlxalq sığorta cəmiyyətləri və s. dövlətləri birləşdirən sığorta cəmiyyətləri təşkil olundu. Kommersiya sığortasının bütün növləri inkişaf etdi və onların əsasında sığortanın çoxsaylı formaları, növləri, yarımnövləri, variantları, meydana gəldi.

1720-ci ildə İngiltərədə 2 dəniz sığortası cəmiyyəti yarandı. O dövrdə dəniz sığortası sahəsində ilk sığorta cəmiyyətləri meydana gəldi: Fransa (1686-cı il, Paris), İtaliya (1741-ci il, Genuya), Danimarka (1746-cı il), İsveç (1750-ci il).

XIX əsrdən kartel və konsern tipli sığorta birlikləri aparıcı yer tutur. İlk iri kartel 1874-cü ildə Berlində yarandı. O, beynəlxalq xarakter daşıyırdı və 16 sığorta cəmiyyətindən (Rusiya, Avstriya, İsveç və s.) ibarət idi. 1920-ci illərdə o, 26 ölkədən 230 cəmiyyəti birləşdirirdi.

XIV əsrin ortalarından dəniz borcunun mürəkkəb notarius forması pul polisi ilə əvəz olundu. Sığortaçı bu polisi bağlanmış müqavilələrin təsdiqi kimi gəmi sahibinə verirdi. İlk polis 1377-ci (bəzi məlumatlara görə, 1374-cü) ildə Barselonada verilmişdi. 1468-ci ildə Venesiya dəniz sığortası məcəlləsi əmələ gəlir. 1601-ci ildə İngiltərədə hüquqi akt qəbul edildi ki, həmin sənəddə dəniz sığortası sahəsində mübahisələrin ayırd edilməsi ilə məşğul olan xüsusi məhkəmələrin yaradılması nəzərdə tutulurdu.



1871-ci ildə Britaniya parlamentinin aktı ilə "Lloyds" sığortaçılar birliyi sığortaçıların korporasiyası (Müştərək cəmiyyət) rəsmi statusunu aldı.

Burada səfərə çıxan bir gəmi və ya gəminin yükünə təminat verən şəxslər "Underwriter" şəxsində sənədlər hazırlayaraq fəaliyyətə başlamışlar və yenə bu şəxslər Edvard Lloydun ölümündən sonra öz aralarında "Lloyd" adında bir cəmiyyət yaratmışlar. "Lloyd" ilk illərdə, sadəcə, dəniz sığortası sahəsində fəaliyyət göstərsə də, sonralar quruda da sığorta sahəsində ixtisaslaşan birlik şəklinə gəlmişdir.

Həyat sığortasının vətəni İngiltərə hesab olunur. Bu ölkədə 1699-cu ildə ilk dəfə dulların və yetimlərin həyat sığortası ilə məşğul olan peşəkar təşkilat yarandı, sonra şəxsi sığorta ilə məşğul olan "Eckvatedl" sığorta şirkəti meydana gəldi.

Təkrar sığortanın vətəni Almaniyadır. İlk təkrar sığorta cəmiyyəti 1846-cı ildə Kölndə yaranmışdır. Sonra Münhen təkrar sığorta cəmiyyəti meydana gəlmişdir. 1885-ci ildə yanğın risklərinin təkrar sığortası ilə məşğul olan "Rusiya təkrar sığorta cəmiyyəti" yaranmışdır.

Sığortanın birinci inkişaf mərhələsində nəqliyyat sığortası, ilk növbədə, dəniz sığortası üstünlük təşkil edirdi.

İkinci mərhələ ixtisaslaşmış sığorta cəmiyyətlərinin əmələ gəlməsi və inkişafı ilə əlaqədardır. İlk müasir sığorta şirkətinin sələfi kimi 1668-ci ildə Parisdə yaranmış dəniz sığortası cəmiyyəti tezliklə dağılmışdır.

Almaniyada ilk dəniz sığortası cəmiyyətləri 1765-ci ildə Hamburq və Berlində yaranmışdır.

XVIII əsrin başlanğıcından sığortanın inkişafında liderlik İngiltərəyə keçdi və bu dövlət onu XIX əsrdə də saxladı.

XVIII əsrin sonlarında kənd təsərrüfatı sığortası meydana gəldi. Fransa doluvurmanın, Almaniya isə heyvanların sığortalanmasının vətəni sayılır.

Maşınlı istehsalın inkişafı ilə XIX əsrin ortalarında əvvəlcə Böyük Britaniyada, sonra Almaniyada və digər ölkələrdə bədbəxt hadisələrdən sığortalanma əmələ gəlir. 1825-ci ildə Fransada mülki məsuliyyətin sığortalanması yaranır.

Üçüncü inkişaf mərhələsində sığorta iri sahibkarlıq formasına çevrilir. Bunun əsasını sığorta təşkilatlarının birliyi və sığorta kartellərinin və konsernlərinin yaranması təşkil etdi.

Kənd təsərrüfatı bitkilərinin, məhsullarının doluvurmadan sığortalanması kimi yeni əmlak sığortası növləri yarandı.

Şəxsi sığorta ilə əlaqədar kommersiyanın digər növləri inkişaf etməyə başladı. Bədbəxt hadisədən sığortalanma, mülki məsuliyyət sığortası – bunların əsasında çoxsaylı sığorta növləri, yarımnövləri, formaları və variantları meydana gəldi. Xəstəliklərdən sığortalanma sahəsində, məsələn, appendisit sığortalanması 1921-ci ildə İngiltərədə tətbiq olundu. 1933-cü ildə ciyərlərə soyuqdəymədən xüsusi sığortalanma həyata keçirildi.

Yükdaşımaların sığortalanması – əmlak sığortasının geniş yayılmış növü kimi XVIII-XIX əsrlərdə, hər şeydən əvvəl, dəniz ticarəti mərkəzlərində – Genuyada və Florensiyada yaranmış və inkişaf etmişdir.

Sənayenin inkişafı ilə yaranan böyük texniki zərərlər mühəndislik sığortasının yaranmasına şərait yaratmışdır. XX əsrin ikinci yarısından dünyada baş verən iqlim dəyişiklikləri, qlobal istiləşmə, nüvə silahlarının sınaqları, ekoloji tarazlığın pozulması və s. amillərlə əlaqədar təbii fəlakətlər sığorta bazarının inkişafına, sığorta institutuna olan tələbi qat-qat artırdı.

Həyat sığortası üzrə sığortalanmanın sayına görə Avropa ABŞ-ı ötüb-keçmişdir. Bunun da əsas səbəbi Qərbi Avropada təqaüd sığortasındakı islahatlar və bu sahədə artımın 4%-ə çatması olmuşdur. Yaponiyada isə təqaüd sığortası növündə artım baş versə də, bununla bərabər, ümumi sığorta yığımlarında 1%-ə qədər azalma da müşahidə olunmuşdur. 2004-cü ildən dolların dəyərinin düşməsi, iqtisadi inkişaf və sığorta-vergi sahələrində regional dəyişikliklər dünya sığorta sahəsində bazar paylarının bölüşdürülməsində yeni xüsusiyyət ortaya çıxardı. Həyat sığortasındakı bu yeni balans hesabına Avropa bazarda payını 1,9% artırmış, Şimali Amerika və Asiya isə, əksinə, bazar paylarını müvafiq olaraq 1,8 və 0,5% itirmişlər. Bununla bərabər, həm Qərbi Avropa, həm də ABŞ qeyri-həyat sığortası sahəsində 2%-ə qədər artım əldə etmişlər.

1980-ci illərin sonlarından artmaqda olan təbii fəlakətlərin səbəb olduğu sığorta zərərləri 2004-cü ildə yüksək həddə çatdı və riskə uyğun sığorta tarifinin artırılmasına ehtiyac yarandı. 2004-cü ilin sonunda Hind okeanında baş vermiş sunaminin ardınca 2005-ci ildə eyni bölgədə ikinci böyük zəlzələ, Pakistanda zəlzələ, Tayvanda tufan, Şərqi Avropa və Mübaidə meydana gələn sellər və Skandinaviyada "Ervin" qasırğası baş vermişdir. 2005-ci ildə 40-a yaxın çox güclü qasırğa baş verdi. Lakin nəqliyyat, enerji və əmtəə sığortalarından tariflərə ən çox təsir edən Meksika körfəzi ilə Florida sahillərini yerlə yeksan etmiş "Katrina", "Rita" və "Vilma" qasırğaları olmuşdur.

Sığorta Xidmətləri Ofisinin (İSO) statistik məlumatlarına görə, qasırğalardan sonra yaranan sellərin və iş durğunluğunun zərərləri nəzərə alınmazsa, "Katrina" qasırğası sığorta şirkətlərinə 38,1 mlrd. dollar, "Vilma" 6,1 mlrd. dollar, Rita 4,7 mlrd. dollar zərər vurmuşdu.

Baş verən təbii fəlakətlər reytinqli firmaların zərər ehtiyat fondunun, yeni qurulan sığorta və təkrar sığorta şirkətlərinin isə nizamnamə vəsaitlərinin artmasını şərtləndirdi.

2010-2011-ci ildə Yaponiyanın və dünyanın bir çox ölkələrinin üzləşdiyi təbii fəlakətlərdən dəyən zərər 1 trilyon dolları ötmüşdü.

Azərbaycanda ilk dəfə sığorta XIX əsrin ortalarında tətbiq olunmağa başlanmışdır. O dövrdə ən iri sığorta şirkəti "Rus sığorta cəmiyyəti" sayılırdı. Məşhur iş adamı Məşədi Abbasqulu Əhmədov 30 ildən çox həmin cəmiyyətin əvəzedilməz təmsilçisi olmuşdur. XIX əsrin axırlarında Azərbaycanın neft sənayesinə xarici investorların cəlb olunması nəticəsində ilk neft və gəmiçilik şirkətləri meydana gəlmiş, sığorta işinin inkişafında tərəqqi başlanmışdır. Sənayeçilərin qarşılıqlı sığortası, yanğından sığorta, vətəndaşların şəxsi əmlakının sığortası növləri geniş yayılmışdır.

Azərbaycanda bu dövrdə, əsasən, xarici ölkələrin sığorta şirkətlərinin filialları fəaliyyət göstərmişdir. Təbii ki, sığorta biznesində rus şirkətlərinə böyük yer verilmişdir. 1912-ci ilin məlumatlarına görə, Bakıda 30 sığorta cəmiyyəti və agentliyi fəaliyyət göstərmişdir. Məhz bu dövrdə ingilis, alman şirkətləri

və başqa böyük şirkətlərin filialları, habelə bir sıra Rusiya sığorta təşkilatları fəaliyyətə başlamışdır. Azərbaycanda sığorta işinin başlanğıcını görkəmli sənayeçilər, milli burjuaziyanın tanınmış nümayəndələri, Dövlət Bankı şöbəsinin uçot-ssuda komitəsinin üzvləri Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Ələkbər Dadaşov, Mustafa Rəsulov və başqaları qoymuşlar.

Azərbaycanda sənaye riskinin qarşılıqlı sığortalanması ilə yanaşı, dəniz sığortası da həyata keçirilirdi. Belə ki, Bakıda iri sənayeçilər və tacirlər tərəfindən "Xəzər dənizi" qarşılıqlı sığorta cəmiyyəti yaradılmışdı.

Azərbaycanda sığorta xidmətinin üç əsas inkişaf mərhələsini qeyd etmək olar:

a) Oktyabr inqilabından əvvəlki dövr;

b) inqilabdan sonrakı dövr;

c) 1990-cı illərdən başlanan müasir dövr.

Oktyabr inqilabınadək Azərbaycanda xarici dövlətlərin sığorta şirkətlərinin filialları və şöbələri fəaliyyət göstərmişdir. İnqilabdan sonra, 1921-ci ildə Rusiya Xalq Maliyyə Komissarlığı nəzdində Dövlət Sığorta İdarəsi təşkil olunmuş və bu sığorta idarəsi təkcə RSFSR deyil, SSRİ adı altında birləşmiş dövlətlərin, o cümlədən Azərbaycan ərazisində sığorta xidmətini həyata keçirmişdir.

1921-ci ildən başlayaraq dövlət sığortasına həyatın könüllü sığortası və bədbəxt hadisələrdən sığorta işinin həyata keçirilməsi hüququ verilmişdir. 1922-ci ildə dövlət sığortası təsərrüfat hesabına keçmişdir. Sovet hakimiyyəti illərində keçmiş SSRİ-nin başqa respublikalarında olduğu kimi, Azərbaycanda da dövlət sığorta sistemi təşkil edilmişdir. Azərbaycan SSR Dövlət Sığortası Baş İdarəsi və SSRİ İnqosstraxının Bakı şöbəsi respublikada sığorta işinin inkişafında müəyyən rol oynamış və onun sosial-iqtisadi inkişafına təkan vermişdir. SSRİ-də sığorta dövlət inhisarında idi. 1991-ci ilin axırınadək respublikada sığorta işi iki sığorta təşkilatı – Azərbaycan Respublikasının Dövlət Sığorta Fondu və SSRİ-nin xarici sığorta təşkilatının Bakı şəhərindəki şöbəsi tərəfindən aparılırdı. Onların fəaliyyət dairəsi qanunvericilik tərəfindən bölüşdürülmüşdü. SSRİ məkanına daxil olan dövlətlərdə, o cümlədən Azərbaycanda sığortanın könüllü və icbari növlərinin aparılması qaydaları vahid formada SSRİ Baş Dövlət Sığorta İdarəsi tərəfindən hazırlanmış qaydalar əsasında aparılmışdır. Şəxsi sığorta qaydalarında ən böyük dəyişikliklər 1956-1965-ci illərə təsadüf olunur. 1963-cü ildə müstəqil sahə kimi uşaqların könüllü sığortalanmasına, 1966-cı ildən başlayaraq şəxsi sığorta müqavilələri üzrə hesablanmış sığorta haqlarını idarənin, təşkilatın və müəssisənin mühasibatlığında nağdsız hesablaşmalar yolu ilə həyata keçirilməsinə başlanmışdır. 1975-ci ilin əvvəlinə SSRİ-də şəxsi sığorta üzrə sığortalananların sayı təxminən 60 min nəfər olmuşdur ki, bunun da 50%-ə qədərini fəhlələr, qulluqçular və kolxozçular təşkil etmişdir. 1977-ci ildən başlayaraq toy mərasimlərinin keçirilməsi üzrə əlavə sosial təminat yaradılması məqsədi ilə könüllü qaydada nikahadək (toyadək) sığorta müqavilələri bağlanması üzrə sığorta xidmətinin həyata keçirilməsinin bünövrəsi qoyulmuşdur. 1986-cı ildə şəxsi sığortanın növlərinə məktəblilərin, 1987-ci ildən isə uşaqların bədbəxt hadisələrdən sığortası da əlavə olunmuşdur. Lakin 1990-cı illərin iqtisadi böhranları SSRİ məkanında şəxsi sığortanın, o cümlədən həyatın qarışıq sığortasının, uşaqların və nikahadək (toyadək) sığortanın perspektivsiz olduğunu üzə çıxardı. Müstəqillik əldə edildikdən sonra həmin sığorta müqavilələri üzrə sığorta olunanlara indeksləşdirilmiş sığorta ödənişlərinin verilməsi təmin edilmədiyi üçün vətəndaşlar bu növ sığorta üzrə müqavilələr bağlamaqdan boyun qaçırdılar.

Azərbaycanda müstəqillik dövründək əhaliyə göstərilən sığorta xidməti məhdud dairədə, daha doğrusu, dövlət sosial təminat sisteminə əlavə kimi fəaliyyət göstərirdi. Ölkəmizdə sığorta işi 1990-cı ildən başlayaraq müstəqil inkişaf etməyə başladı və bu istiqamətdə Azərbaycan dövləti tərəfindən məqsədyönlü iş aparıldı. 1991-ci il oktyabrın 16-da ölkəmizdə sığorta olunanların, sığortaçıların və dövlətin mənafelərinin qorunması və sığorta xidməti sahəsində dövlət nəzarətinin təşkili və metodik rəhbərliyin həyata keçirilməsi məqsədi ilə Nazirlər Kabineti yanında Dövlət Sığorta Nəzarəti yaradılmışdır.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar bazar infrastrukturunun yaranması, əmtəə istehsal-

çılarının müstəqilliyi, istehsal münasibətlərinin inkişafında və maddi nemətlərin bölgüsündə dövlətin inzibati təsirinin kəskin surətdə azalması milli sığorta bazarının yaranması prosesini, onun tərkibini, fiziki və hüquqi şəxslərə göstərilən sığorta xidməti növlərini kəskin surətdə dəyişdirdi. Ölkədə sığorta xidmətinin təkmilləşdirilməsində sığorta bazarının formalaşması və hüquqi bazasının yaranması xüsusi əhəmiyyət kəsb edir. Müstəqillik dövründən başlayaraq, Azərbaycanda Dövlət Sığorta Kommersiya Şirkəti ilə yanaşı, sığorta təşkilatları sığorta cəmiyyətləri və şirkətləri formasında yaranmağa və ilbəil inkişaf etməyə başladı.

1993-cü ildə ölkə tarixində ilk dəfə olaraq "Sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu Qanun Azərbaycanda sığorta fəaliyyəti ilə bağlı münasibətlərin tənzimlənməsinin hüquqi əsasını qoydu. Ölkədə sığorta təşkilatlarının səylərini birləşdirmək, sığorta bazarının inkişafına kömək göstərmək, onların fəaliyyətini əlaqələndirmək, dövlət, beynəlxalq təşkilatlarla əlaqələrini təşkil etmək və bərabərlik prinsipləri əsasında sığorta fəaliyyətinin həyata keçirilməsinə yardım məqsədi ilə 1993-cü ildə ilk dəfə olaraq Azərbaycanda Sığorta Cəmiyyətləri İttifaqı yaradıldı.

Müstəqil Azərbaycan Respublikasında 1998-2000-ci illərdə sığorta bazarında sığorta işinin təkmilləşdirilməsi və inkişaf etdirilməsinə dair Dövlət Sığorta Nəzarəti tərəfindən konsepsiya işlənib hazırlanmış və onun həyata keçirilməsi üçün müvafiq tədbirlər həyata keçirilmişdir. Bu dövrdə respublikada sığorta bazarının tənzimlənməsi və sığorta qanunvericiliyinin tələblərinə uyğun inkişaf etdirilməsinə dair 35-dən çox normativ və metodiki sənəd hazırlanaraq icra mexanizmi kimi istifadə olunmuş, ardıcıl olaraq həmin sənədlərdə sığorta işinin inkişafına və günün tələblərinə müvafiq əlavə və dəyişikliklər edilmişdir.

1993-cü ildə qəbul edilmiş "Sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ölkəmizdə sığorta işinin inkişaf etdirilməsi üçün geniş imkanlar açsa da, sığorta bazarı inkişaf etdikcə bu Qanunun dəyişdirilməsi və təkmilləşdirilməsi zəruriliyi ortaya çıxdı. Təkrar sığortanın tətbiqi və inkişafı, Avropa İqtisadi İttifaqına inteqrasiya və sığorta olunanlara etibarlı sığorta təminatının verilməsi, sığorta təşkilatları tərəfindən sərbəst vəsaitlərin investisiyaya yönəldilməsi və əlavə gəlir götürmələrin tənzimlənməsi qüvvədə olan qanunun dəyişdirilməsini tələb etdi. Dövlət Sığorta Nəzarəti Sığortaçılar İttifaqı ilə birlikdə ölkədə sığorta bazarının tələb və təkliflərini nəzərə almaqla, "Sığorta haqqında" Azərbaycan Respublikası Qanununun dünya və Avropa standartlarına uyğun yeni variantını işləyib hazırladı. 1999-cu il iyunun 25-də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilən bu Qanun 1999-cu il avqustun 19-da ölkə Prezidenti tərəfindən təsdiq edilməklə hüquqi qüvvəyə mindi. Qanun ölkədə sığorta işinin inkişafı və həyata keçirilməsini, sığortalıların hüquq və mənafelərinin müdafiəsini, sığorta təşkilatlarının maliyyə bazasının möhkəmləndirilməsini, sığorta sahəsində fəaliyyət göstərən fiziki və hüquqi şəxslərin (sığorta ekspertlərinin, aktuarilərinin, agentlərin, brokerlərin və produktorların) peşə fəaliyyətinin, sığorta müqavilələrindən irəli gələn münasibətlərin tənzimlənməsini və sığorta sahəsində müvafiq dövlət orqanlarının səlahiyyətlərinin müəyyənləşdirilməsini özündə əks etdirmişdir.

Milli iqtisadi təhlükəsizliyin mühüm amillərindən biri sığortanın rolunun yüksəldilməsidir. Lakin, eyni zamanda, sığorta təşkilatlarının mövcud qanunvericiliyin tələblərinə əməl etməklə fəaliyyət göstərməsinə dövlət nəzarətinin gücləndirilməsi də vacib şərtlərdəndir.

1999-cu ildə qəbul olunmuş "Sığorta haqqında" Azərbaycan Respublikasının qanunu öz dövründə sığorta işinin respublikada dünya standartlarına uyğun inkişaf etdirilməsi, sığorta münasibətlərinin tənzimlənməsi və təkmilləşdirilməsinin hüquqi bazasını yaratmışdır. Lakin bu qanun müasir dövrün tələblərinə tam cavab vermədiyi üçün yeni qanunun qəbul edilməsinə ehtiyac duyulurdu.

2008-ci il 15 mart tarixindən qüvvəyə minən yeni "Sığorta fəaliyyəti haqqında" Qanunla ilk dəfə olaraq həyat sığortası və ümumi sığorta üzrə fəaliyyətin bölgüsü tətbiq olundu. Hazırda həyat sığortası və ümumi sığorta üzrə fəaliyyəti birgə aparan sığortaçılar hər bir sahə üzrə

ayrıca olaraq tələb olunan kapitala malik olmalıdırlar. Artıq yeni yaradılan şirkətlər yalnız bir sığorta sahəsi – ya həyat sığortası, ya da ümumi sığorta üzrə lisenziyalaşacaqdır.

Eyni zamanda, "Sığorta fəaliyyəti haqqında" Qanunla əlaqədar Azərbaycan Respublikası Mülki Məcəlləsinin "Sığorta haqqında" 50-ci fəslinin yeni redaksiyası da qüvvəyə minmişdir. Bu fəsildə sığorta müqaviləsinin məzmununa olan tələblər, sığorta müqaviləsi tərəflərinin hüquq və vəzifələri, zərərlərin tənzimlənməsi prosesi, sığorta ödənişindən imtina etmək üçün əsaslar öz əksini tapmışdır.

2010-cu il 11 may tarixdə qəbul olunmuş "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta sahəsində münasibətləri tənzimləyir. Bu münasibətlərin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

SIĞORTANIN TƏSNİFATI – sığortanın fəaliyyət sferalarına, sahələrinə, yarımsahələrinə və növlərinə bölünməsi sistemi; bunun halqaları elə yerləşir ki, hər bir sonrakı halqa əvvəlkinin hissəsidir.

SIĞORTANIN VAXTINDAN ƏVVƏL DAYANDIRILMASI – növbəti sığorta ödənişlərinin ödənilməməsi üzündən həyat sığortası müqaviləsinin fəaliyyətinin dayandırılması. Sığortanın vaxtından əvvəl dayandırılması aşağıdakı hallarda baş verir: 1) həyat sığortası müqavilələri üzrə növbəti sığorta haqlarının ödənilməməsi üzündən; 2) sığorta müqaviləsinin pozulması haqqında ərizə verilən zaman; 3) nəqliyyat vasitələrinin sığortası üzrə tədiyələrin ödənilməməsi üzündən.

SIĞORTANIN YERLƏŞDİRİLMƏSİ – irimiqyaslı və təhlükəli risklərin brokerlər vasitəsilə bir neçə sığorta edən təşkilatda sığortalanması metodu. Broker risk və onun sığortalanması haqqında məlumata slip adlanan xüsusi sənəd yazır, sonra isə sığortalanmalı olan risk üzrə lider sayılan sığorta təşkilatına və daha sonra ardıcıl olaraq başqa sığorta təşkilatlarına riski tamamilə sığortalayana qədər müraciət edir. Yalnız bu halda risk yerləşdirilmiş hesab edilir. Aydındır ki, sığorta edənlər liderin arxasınca gedir və onların riskdə iştirak payları birinci sima olan liderin payından çox olmur.

SIĞORTASIZ OPSİON – bərabər, lakin əks mövqe ilə tənzim edilməmiş opsion. Məsələn, opsionsuz satqı, alqı opsionu və ya əksinə.

SIXIŞDIRMA EFFEKTİ – genişləndirici vergi-büdcə siyasəti faiz dərəcəsini qaldırdıqda və bununla da, investisiya xərclərini azaltdıqda məcmu tələbdəki azalma.

SİKKƏ – metaldan hazırlanmış tədiyə vasitəsi. Hər bir sikkə üzərində təsvir (gerb, dövlət xadiminin adı, profili) və legenda (sikkə üzərində yazı), yəni şəhərin, dövlətin adı, sikkənin zərb edildiyi il və onun adı göstərilir. Sikkənin üz tərəfi (avers), əks tərəfi (revers) və çevrəsi (qurt) olur. Xırda tədiyələrə xidmət etmək üçün, əsasən, mis-nikel, mis-sink və alüminium ərintilərindən hazırlanan xırda sikkələrdən istifadə edilir. Daha yüksək dəyərə malik metallardan yubiley və xatirə sikkələri buraxılması üçün istifadə olunur. Sikkələrin zərb edilməsi xüsusi dövlət zavodlarında – sikkə saraylarında həyata keçirilir.

SİKKƏ BONLAR – satıcıya çatası məbləğdən və alınmış metalın miqdarı göstərilməklə qızıl və gümüşün əvəzinə sikkə



saraylarından verilən öhdəliklər. Onların ödənilməsi müddəti yenidən zərb edilmiş metal üçün zəruri vaxtdan asılı olaraq müəyyən edilir.

SİKKƏLƏRİN KÖHNƏLMƏSİ (ing. *abrasion*) – sikkələrin öz çəkisini itirməsi.

SİLSİLƏVİ (DÖVRİ) İŞSİZLİK – istehsalın silsiləvi azalması və ya iqtisadiyyatın böhranı səbəbindən yaranan işsizlik. Silsiləvi işsizlik iqtisadiyyatın təbiəti, yəni onun inkişafının silsiləvi xarakteri ilə bağlı haldır. Bu zaman tənəzzül fazasında silsiləvi işsizlik yüksək səviyyəyə çatır. Bu növdə işsizliyin səviyyəsi dövlətin makroiqtisadi siyasətinin iş qabiliyyətli əhaliyə təsirindən bilavasitə asılıdır.

SİMS KRİSTOFER (1942) – Amerika iqtisadçısı. Harvard Universitetinin bakalavrı (1963),



fəlsəfə doktorudur (1968). Harvard (1967-1970), Minnesot (1970-1990), Yel (1990-1999) və Priston (1999-cu ildən) universitetlərində dərs deyib. 1974-cü ildən professordur. Ekenometrik cəmiyyətin (1995) prezidentidir.

2011-ci ildə "Makroiqtisadiyyatda səbəb-təsir əlaqələrinin empirik təhlili"nə görə Nobel mükafatına layiq görülüb. Əsas əsərləri "İqtisadi modellərlə siyasətin təhlili", "Qiymətlərin səviyyəsinin, monetar və fiskal siyasətin qarşılıqlı əlaqəsinin müəyyənləşdirilməsi üçün sadə model" və "Mərkəzi bankın müstəqilliyinin fiskal aspektləri"dir.

SINAQ, NÜMUNƏ – nümunənin seçimi, istehlakçı tərəfindən malın yoxlanılması və ya təcrübədən keçirilməsi.

SİNDİKAT (lat. *sundico* – nəzərdən keçirirəm, yoxlayıram; yun. *sundicos* – birgə fəaliyyət göstərən) – 1. İnhisar birliklərinin təşkili formasıdır ki, bunun da fərqləndirici xüsusiyyəti mənfəət əldə edilməsi məqsədi ilə məhsulun satışı və xammalın satın alınması üzərində nəzarət üzrə sənayenin bir sahəsinin müəssisələri arasında sazişin bağlanmasıdır. 2. Yeni iqtisadi siyasət dövründə RSFSR-də, sonradan isə keçmiş SSRİ-də sənayenin idarə edilməsinin spesifik təşkili forması olmuşdur.

Sindikata daxil olan müəssisələr istehsal və hüquqi müstəqilliyini saxlayır, bununla belə, kommersiya müstəqilliyini itirir. Sindikatın bütün iştirakçıları tərəfindən məhsulun satışı vahid orqan kimi satış kantoru vasitəsi ilə həyata keçirilir, bununla yüksək inhisar mənfəəti üzrə bütün yekcins məhsulun satışı təmin olunur. Satış kantorunun funksiyalarına, həmçinin, müəyyənləşmiş ciddi kvotalara uyğun olaraq saziş iştirakçıları arasında bütün sifarişlərin sonradan bölgüsü ilə onların təmərküzləşməsi daxildir. Beləliklə, ticarət əməliyyatlarının təmərküzləşməsi sindikat iştirakçılarına azaldılmış qiymətlər üzrə xammalın satın alınmasından və artırılmış qiymətlər üzrə məhsulun satışından gələn bilavasitə xeyiri (gəliri) qazanmağa, eləcə də, bazarda qiymətləri diktə etməyə, əmtəə dempinqini həyata keçirməyə və s. imkan verir. Sindikatlar adətən səhmdar cəmiyyətləri formasında yaradılır. Ayrı-ayrı müəssisələrlə yanaşı, trestlər və konsernlər də sindikatın iştirakçıları ola bilərlər. Trestlər və konsernlər sindikatların inkişafının son mərhələlərində hökmran rol oynayırlar ki, bu da daxili bazarda xırda və orta müəssisələr üzərində nəzarətin güclənməsindən, eləcə də xarici bazara ekspansiyanın həyata keçirilməsi zəruriliyindən irəli gəlir.

Sindikatlar XX əsrin əvvəllərində Rusiyada, Almaniyada, Fransada daha geniş yayılmışdı. Almaniyada ən iri sindikat



Reyn-Vestfaliya kömür sindikatı idi. Rusiyada ilk inhisar birliklərindən biri 1887-ci ildə yaradılan şəkər zavodları sindikatı idi. Şəkərə yüksək inhisar qiymətlərinin qoyulması bu sahənin ən yüksək gəlirli sahələrdən birinə çevrilməsinə imkan verdi. 1900-1903-cü illərdə Rusiyada ağır sənayedə bir sıra ən iri sindikatlar meydana gəldi və onların inkişafı çar hökuməti tərəfindən dəstəklənirdi. Sonralar sindikat öz yerini konqlomerat, korporasiya, konsern kimi daha mürəkkəb və çevik formalara verərək, sahə profilli inhisar birliyi forması kimi əhəmiyyətini itirdi.

Keçmiş SSRİ-də sindikatlar payçılar kimi dövlət sənaye trestlərinə daxil olaraq, bu trestlərin sərbəst, təşəbbüskar və könüllü birləşməsi hesab olunurdular. Payçıların sindikata daxil olmasına Ümumittifaq (Ümumrusiya) Xalq Komissarları Soveti tərəfindən icazə verilirdi. Sindikatların idarə heyəti trestlərdən seçilirdi. Sindikatlar məhsulun nomenklaturası, həcmi və keyfiyyəti üzrə trestlərə sifariş və tapşırıq planlarını müəyyən edirdilər. Onlar arasında satış və satınalma rayonlarının məhdudlaşmasını və fərqləndirilməsini həyata keçirirdilər. Bu, ilk növbədə, trestlərin satış və təchizat funksiyalarının birliyi idi. Lakin sonradan sindikatlar yeni istehsalların və tikililərin maliyyələşməsini, trestlərin ixtisaslaşmasının planlaşdırılmasını öz üzərlərinə götürdülər. Sindikatların fəaliyyəti təsərrüfat hesabı prinsipləri əsasında qurulur, dövlət orqanları tərəfindən nəzarət olunur və tənzimlənirdi. Bütövlükdə, 1922-1926-cı illərdə 23 sindikat fəaliyyət göstərmişdir. 1929-1930-cu illərdə sindikatlar ləğv olundu. XIX əsrin ən böyük sindikatı 1894-cü ildə Bakıda yaradılmışdır. "Bakı Neft Zavodçularının İttifaqı" adlanan bu sindikata "Bakı standartı"nda birləşən xırda və orta neft sahibkarları, "Nobel qardaşları" Birliyinin firmaları və Rotşildin başçılıq etdiyi "Xəzər-Qara dəniz Ticarət və Sənaye Cəmiyyəti" daxil idi. Bu sindikatın ticarət agentləri Nobel, Rotşild və Mantaşevin nümayəndələri idilər. Onlar ümumi razılığa əsasən, xarici neft bazarlarını öz aralarında bölmüşdülər.

SİNERGİZM – işgüzar təcrübədə mövcud olan hal. Bu ondan ibarətdir ki, ümumi nəticə ayrı-ayrı effektlərin (təsirlərin) məcmusunu üstələyir.

SINMADAN MAŞINLARIN SIĞORTALANMASI – sənaye maşınlarının, mexanizmlərin, avadanlığın və alətlərin, texniki əməliyyatları yerinə yetirən mexanizmlərin (texnoloji xətlər, istehsal qurğuları və s.) və digər əmlakın sığortalanması. Sınmadan maşınların sığortalanması – istismar zamanı müxtəlif səbəblərə görə maşınların, mexanizmlərin və avadanlığın qəfildən və gözlənmədən sıradan çıxması zamanı onların müdafiəsini təmin edən sığorta növüdür.

SİNTETİK NEFT – ilk dəfə sintetik nefti qonur kömürdən almışlar. Birinci Dünya müharibəsində yanacaq qıtlığı keçirən almanlar bu texnologiyanı mükəmməl mənimsəmiş və yetərli miqdarda sintetik neft istehsalına nail olmuşlar. Hazırda sintetik neft istehsal xammalı çeşidinə yanar şistlər də qoşulmuşlar. Onların planetdə ehtiyat miqyası neftdən 2-3 dəfə çoxdur. Hazırda yanar şistlərdən Braziliya, Kanada və digər ölkələrdə sintetik neft alınır.

SİP – *"daşınma və sığorta təyinat yerinədək ödənilmişdir"* – satıcı alıcının yerləşdiyi ölkənin limanında yükü daşıyıcıya və ya alıcıya təhvil vermək üçün digər xərclərlə bərabər, sığorta xərclərini də ödəyir.

SİSMONDİ JAN ŞARL LEONAR (1773-1842) – isveçrəli tarixçi, iqtisadçı. Kapitalizmin ziddiyyətli olmasını tənqid edir, bu problemin həlli yolunu kapitalizmin inkişafı bazasında sosial maraqların harmoniyasına nail olmaqda görürdü. İri kapitala qarşı çıxır, xırda kapitalist istehsalını dəstəkləyirdi.



J.Ş.L.Sismondi 1773-cü il mayın 9-da qədim aristokratlar nəslinə mənsub ailədə doğulmuşdur. Onun uşaqlıq illəri atasının Cenevrə yaxınlığında yerləşən malikanəsində keçmişdir. Əvvəlcə kalvinist ruhani kollegiyasını bitirmiş, sonra universitetə daxil olmuş, lakin atasının üzləşdiyi maddi çətinliklərə görə təhsilini yarımçıq qoymuşdur. Liondakı bankir evlərinin birində işləməyə başlamış, Fransa inqilabı dövründə həbs edilmişdir. J.Ş.L.Sismondinin 20 yaşı olanda o, ailəsi ilə birlikdə İngiltərəyə, sonra İtaliyaya mü-

hacirət etməli olur. Burada o, Toskana əyalətində atasının malikanəsində təsərrüfat işlərini idarə edir. Həmin dövrdə o, A.Smitin "Xalqların sərvəti" əsəri ilə tanış olmuş və özünün ilk elmi əsərlərini yazmağa başlamışdır. J.Ş.L.Sismondi yalnız 1800-cü ildə İsveçrəyə qayıtmış və özünü bütünlüklə ədəbi və elmi fəaliyyətə həsr etmişdir.

Onun ilk əsərləri mühacirətdə olduğu dövrdə qazandığı təcrübə və müşahidələrə əsaslanırdı. "Toskananın kənd təsərrüfatının mənzərəsi" (1801), "Kommersiya sərvəti və ya siyasi iqtisadın prinsipləri və onların ticarət qanunvericiliyinə tətbiqi haqqında" (1803) əsərlərində A.Smitin mövqeyini dəstəkləyirdi. Lakin sonradan o, özünün məxsusi iqtisadi baxışları sistemini əsaslandırmış və siyasi iqtisadda yeni istiqamətin əsasını qoymuşdur. Az sonra madam de Stal ilə tanış olmuş, 1804-1808-ci illərdə Almaniya və İtaliyaya səyahətdə onu müşayiət etmişdir. Təbii ki, Avropanın iri ölkələrində iqtisadi prosesləri müşahidə etməsi, eləcə də, müxtəlif istiqamətli (iqtisadiyyat, siyasət, tarix) alman və italyan ədəbiyyatını öyrənməsi bu alimin parlaq və çoxtərəfli əsərlərinin xarakterini müəyyən etmişdir. Bu illər Sismondinin yaradıcılığının yüksəliş dövrü idi. Hər yeni əsəri dərc edildikcə onun məşhurluğu artırdı. Bu illərdə 2 cildlik "İtalyan lirəsinin tarixi" (1807), roman ədəbiyyatına həsr edilmiş mühazirələr, "Cənubi Avropa ədəbiyyatı" (1813) əsərləri çapdan çıxmışdır. 1813-cü ildə Sismondi Fransaya köçmüş, öz məqalələrində Napoleonu dəstəkləmişdir. Burbonlar sülaləsi hakimiyyətə qayıdandan sonra Sismondi İngiltərəyə köçmüş, bir neçə ildən sonra isə İsveçrəyə, Cenevrəyə qayıtmış, burada özünün iqtisadiyyata və tarixə aid ən parlaq əsərlərini yazmışdır: "Siyasi iqtisadın yeni əsasları və ya sərvətin əhaliyə münasibəti haqqında" (1819), "Siyasi iqtisada dair etüdlər" (1837), "Fransızların tarixi" (31 cild), "Roma imperiyasının süqutunun tarixi" (2 cild) və s.

Sismondi iqtisadi təlimlər tarixinə sanballı töhfə vermişdir. Onun öz təbirincə desək, D.Rikardonun acığına yazdığı "Siyasi iqtisadın yeni əsasları..." əsəri bu alimin ən yaxşı işi hesab edilir. Bu 2 cildlik əsər siyasi iqtisadın predmetinə və metoduna, əmək məhsuldarlığının və əmək bölgüsünün təsvirinə, əhalinin, gəlirlərin və təkrar istehsalın xarakteristikasına həsr edilmişdir. Sismondi 1842-ci il iyunun 21-də Cenevrədə vəfat etmişdir.

SİSTEM – 1. Müəyyən hərəkətlərin qarşılıqlı əlaqəsində nizamlılıq. 2. Təşkilatın forması. 3. Struktur şəklində yerləşən və qarşılıqlı əlaqəli hissələrin vəhdəti. 4. Cəmiyyətin quruluş forması. 5. Vəzifələri eyni olan təşkilatlar və ya müəssisələr birliyi.

Harmonizasiya edilmiş sistem (HS) – dünyanın 120-dən çox ölkəsində istifadə olunan məhsul (məlumat) nomenklaturası. Bu sistem xarici ticarət və gömrük tarifləri üzrə statistik məlumatlar nomenklaturası üçün əsas sayılır. HS Gömrük Əməkdaşlığı üzrə Şuranın Nomenklaturasının və Beynəlxalq Standart Ticarət Təsnifatının bazası əsasında hazırlanmışdır. Buraya təqribən dörd və ya altı rəqəmli kodla kodlaşdırılmış, 21 bölməyə və 96 qrupa bölünmüş ayrıca 5000 adlı əmtəə qrupları daxildir. Harmonizasiya edilmiş sistem Gömrük Əməkdaşlığı üzrə Şuranın himayəsi altında hazırlanmış və imzalanmaq üçün 1983-cü il iyunun 14-də Brüsseldə Beynəlxalq Konvensiyaya təqdim olunmuş olur. Konvensiya 1988-ci il yanvarın 1-dən qüvvəyə minmişdir (bax: cədvəl 1).

SİSTEM İSLAHATLARI ANLAYIŞI – keçid iqtisadiyyatlı ölkələrdə başlayan islahatlar öz mahiyyətinə görə inqilabi xarakter daşıyır. Belə ki, onlar tarixi ölçülərə görə çox qısa müddətdə sosial-iqtisadi sistemin köklü dəyişikliyinə gətirib çıxarır. Bu sistem dəyişiklərini hamılıqla, o cümlədən beynəlxalq təşkilatlarda sistem islahatları adlandırıldı. Onlara, yəni sistem islahatlarına (sistem dəyişikliyinə) sosial-iqtisadi sistemin tipini dəyişən dəyişiklər aiddir, eyni vaxtda, hətta iqtisadiyyata təsir üzrə çox vacib olsalar belə, sistemdənkənar islahatlar sistemi dəyişdirmirlər.

SİSTEM RİSKİ – şaxələndirmə yolu ilə aradan qaldırılması və ya yaxa qurtarılması mümkün olmayan risk.

SİSTEMATİK QEYDİYYAT – uçot registrinin mühasibat hesablarında müəyyən sistem üzrə həyata keçirilən təsərrüfat əməliyyatlarının qeydiyyatı. Bu sistemin köməyilə təsərrüfat əməliyyatları eyni qəbildən olan iqtisadi əlamətlər üzrə qruplaşır

ki, bu da qeydiyyat üçün mütləqdir. Sistematik qeydiyyat mühasibat uçotlarında qeydiyyata alınmış obyektlər haqqında məlumatlar əldə etməyə imkan verir. O, "baş kitab" adlanan ayrı-ayrı uçot registrlərində icra edilir və ya bir registrdə xronoloji qeydiyyatla birgə həyata keçirilir (epuriallar – orderlər). *Sistematik qeydiyyatın məlumatları xronoloji qeydiyyatın məlumatları ilə qarşılıqlı əlaqəyə malikdir (*təsərrüfat əməliyyatlarının tarixlər üzrə onların baş vermə qaydasında qeydiyyatı). Sistematikdən əlavə xətti, kopiya, təsərrüfat əməliyyatlarının qeydiyyatı, əl ilə, maşınla, xronoloji, şahmat qeydiyyatları da var.

SİSTEMLƏR NƏZƏRİYYƏSİ – sistemlərin öyrənilməsinin metodoloji prinsiplərinə dair nəzəriyyə. Müxtəlif sistem növləri bir sıra elmlər tərəfindən öyrənildiyi üçün bu prinsiplər fənlərarası xarakter daşıyır.

Sistemlərin ümumi nəzəriyyəsinin yaradıcısı Avstriya mənşəli amerikalı bioloq L.fon Bertalanfi olmuşdur (1901-1972). Sistemlər nəzəriyyəsi idrak nəzəriyyəsi və fəlsəfənin digər bölmələri, eləcə də riyazi məntiqlə əlaqədardır və bütün sistemlər üçün ümumi olan obyektləri öyrənir: giriş, proses, çıxış, məqsəd, əks əlaqə, sistemin fəaliyyəti, genişlənməsi, inkişaf, qarşılıqlı təsir və s. Bu sistemin əsasını təşkil edən müxtəlif elmlər, o cümlədən iqtisadiyyat sistemli təhlil deyilən tədqiqat metodlarından istifadə edirlər.

Sistemli tədqiqatın iki aspekti var – genetik aspekt (sistemin inkişaf prosesində öyrənilməsi) və funksional aspekt (sistemin real təsir və fəaliyyət baxımından öyrənilməsi).

Sistemlər nəzəriyyəsi əsasında sistemlər həm analiz, həm də sintez edilir. Bu proseslər bir-biri ilə sıx qarşılıqlı əlaqədədir.

SİSTEMLİ İSLAHATLAR MODELİ – sistem dəyişikliklərin iki modelə bölünməsi daha geniş yayılmışdır: radikal (köklü) islahatlar ("şok terapiyası") və tədrici islahatlar ("qradualist yanaşma"). Radikal sistem islahatları dedikdə tez bir zamanda bazar iqtisadiyyatı bazasının yaradılmasına istiqamətlənən qəti, geniş və sürətli dəyişiklər başa düşülür. Tədrici sistemli islahatlar isə daha uzunmüddətli və dəyişikliklərin nisbətən zəif radikal yoludur.

Amma sistem islahatlarının iki yola ayrılması daha dərindir: birinci – birsektorlu, ikinci isə ikisektorlu keçid iqtisadiyyatının yaradılmasına aparır.

Şərqi Avropa ölkələrində və keçmiş sovet respublikalarında islahatların həm köklü, həm də tədrici modelləri hələ bazar institutlarının fəal təşkili başlamamışdan, əvvəlki planlı-bölgü təsərrüfat mexanizminin total olaraq dağıdılmasından başlanmışdı.


Sovet İttifaqının son mövcudluq aylarında köhnə iqtisadi mexanizm faktiki olaraq fəaliyyət göstərmirdi. Yaradılmış yeni təsərrüfat mexanizmi əvvəldən birsektorlu bazar mexanizmi idi. Planlı sistemə xas institutlar artıq mövcud deyildi. Burada sistemli islahatların birsektorlu tipi realizə edilirdi.

Çin və Vyetnamda planlı mexanizm saxlanılaraq onun funksiyaları yerinə yetirilirdi: direktiv plan qalıb (daha dar göstəricilər üzrə) mal və xidmətlərin baza növlərinin qiymətləri dövlət tərəfindən nəzarətdə saxlanılırdı (amma qiymətlərin tənzimlənməsi tədricən azalırdı), kapital qoyuluşlarının əhəmiyyətli hissəsinin maliyyələşməsi müxtəlif səviyyəli dövlət büdcələri vasitəsilə həyata keçirilirdi. Xarici iqtisadi (xüsusən valyuta) tənzimlənməsi kifayət qədər sərt idi, kredit sistemi, əsasən, dövlətə məxsus idi. Burada planlı-bölgü mexanizminin fəaliyyət sahəsi tədricən, bazar iqtisadiyyatı elementlərinin artımı üzrə azalırdı. Beləliklə, təsərrüfat mexanizminin dualizmi planlı mexanizmin tədricən bazar mexanizmi ilə əvəz edilməsi ilə saxlanılır.

Sistemli islahatların ikisektorlu tipinin mənası da bundan ibarətdir. Onu qarışıq iqtisadiyyat anlayışı, müxtəlif ukladların mövcudluğu ilə qarışdırmaq lazım deyil. Bu, bütün ölkələr üçün bu və ya digər səviyyədə xarakterikdir. Axı digər ölkələrdə qeyri-bazar ukladları eyni təsərrüfat mexanizminə malik olmur. Buna nümunə olaraq uzun müddət üstünlük təşkil edən Çinin dövlət sektorunu göstərmək olar ki, burada da indiyə qədər planlı mexanizm və uyğun siyasi sistem saxlanılır.

SİSTEMLİ TƏHLİL – mürəkkəb obyektlərin, proseslərin, çoxsəviyyəli və çoxkomponentli sistemlərin elementləri arasında qarşılıqlı əlaqələrin və qarşılıqlı fəaliyyətin nəzərə alınmasına kompleks yanaşmaya əsaslanan tədqiqat metodları və

Sistemliliyin strukturu və funksiyaları



Sxem 1

vasitələrinin məcmusu. Sistemli təhlil planlaşdırma və idarəetmə prosesində, idarəçilik qərarlarının işlənib hazırlanması və qəbul edilməsi şəraitində mühüm rol oynayır.


SİSTEMLİLİK – sistematik şəkildə cərəyan edən planlaşdırma, fəaliyyət, nəzarət, təhlil və təshih prosesləri. Məsələn, *dövriyyə vəsaitlərinin normalaşdırılmasının sistemliliyi prinsipi* maliyyə normaları ilə texnoloji norma və normativlərin tətbiq olunmasını əhatə edən sistemlər arasında qarşılıqlı üzvi əlaqə olmasını ifadə edir. Maliyyə normaları texnoloji normalara (istehsal tsikli əməliyyatlarının yerinə yetirilməsi müddəti, maddi resursların gündəlik sərfi və s.) əsaslanır. Maliyyə normaları da, öz növbəsində, müəyyən edilən normativlər sisteminin köməyi ilə istehsal texnologiyasının təkmilləşdirilməsinə stimullaşdırıcı təsir göstərir (bax: sxem 1).

SİTİ PLYUS – Amerikanın ən iri bankı olan "Siti-bank" tərəfindən müştərilərə təklif edilən hecirləmə aləti.

SİTUASİON İDARƏETMƏ – strateji, perspektiv idarəetməyə əlavə kimi mövcud olan operativ idarəetmə. Onun vəzifəsi mövcud iqtisadi şəraitə uyğun olaraq problemlər yarandıqda idarəetmə qərarları qəbul etməkdən ibarətdir.

SİTUASİONAL TƏHLİL (ing. *situational analysis*) – firmanın fəaliyyətinə təsir göstərən xarici amillər, yəni həmin firmanın praktik olaraq təsir göstərə bilməyəcəyi amillər nəzərə alınmaqla firmanın fəaliyyətində baş verə biləcək dəyişikliklərin qiymətləndirilməsi. Marketinqdə situasion təhlil marketinqin planlaşdırılmasının bir mərhələsidir. Bu mərhələdə həm marketinqin xarici mühitinin dəyişənləri (sosial-iqtisadi, siyasi-hüquqi, bazar və rəqabət amillərinin təhlilinə xüsusi diqqət yetirilməklə), həm də təşkilatın daxili fəaliyyət amilləri tədqiq edilir.

Situasion təhlilin məqsədi – marketinq problemlərini və təşkilatın gələcək fəaliyyətində onu gözləyən imkanları aşkar etməkdir. Təhlilin bu növünün nəticələri çox vaxt marketinq planının "svot-təhlil" (ing. *strenghts* – "güclü tərəflər", *weaknesses* – "zəif cəhətlər", *opportinitie* – "imkanlar", *threats* – "təhlükələr" sözlərinin ilk hərfləri) adlanan bölməsində cəmlənir. Situasion təhlil zamanı


Qərb sivilizasiyası
Pravoslav sivilizasiyası
Latın Amerikası sivilizasiyası
İslam sivilizasiyası
İnduist sivilizasiyası
Çin sivilizasiyası
Afrika sivilizasiyası
Buddis sivilizasiyası
Yapon sivilizasiyası
Böyük Britaniyanın Karib dənizindəki müstəmləkələri
"Tənha" ölkələr

alınmış proqnoz qiymətləri əsasında marketinq planının sonrakı bölmələrində marketinq fəaliyyətinin məqsədləri müəyyən edilir və strategiyaları işlənib hazırlanır.

SİVİLİZASİYALARIN TOQQUŞMASI NƏZƏRİYYƏSİ – amerikalı professor Semuel Hantinqton göstərir ki, "soyuq müharibə"dən sonra siyasi və mədəni həyat daha çox qütbləşir və səkkiz əsas: Qərb, İslam, induist, Çin, yapon, pravoslav, Afrika və Latın Amerikası sivilizasiyalarını özündə cəmləyir. Bu nəzəriyyəyə əsasən, son vaxtlarda dünyada və dünya iqtisadiyyatında Qərbin rolu azalır, Asiya sivilizasiyalarının əhəmiyyəti artır; əlaqələr, hər şeydən əvvəl, müxtəlif sivilizasiyalar daxilində güclənir və əsasən, bu sivilizasiyaların əsas ölkələrinə meyillənir. Nəticədə, gələcək həyat, Hantinqtonun fikrincə, vahid sivilizasiyaya yox, müxtəlif sivilizasiyaların yığınına çevrilir, onların arasında ümumi cəhətlər çoxdur, amma silinməsi mümkün olmayan fərqlər də var.

Sivilizasiyaların toqquşması nəzəriyyəsi sosial-mədəni olaraq, hər şeydən əvvəl, mədəni və siyasi aspektlərlə əlaqədardır. Bununla belə, buradan kifayət qədər mühüm iqtisadi nəticələr yaranır. Belə ki, dünya iqtisadiyyatında Qərb ölkələrinin hegemonluğu tədricən azalır. XX əsrin ortalarında dünya ÜDM-in 2/3 hissəsi Qərbi Avropa, Şimali Amerika, Avstraliya və Okeaniyanın payına düşdüyü halda, XX əsrin axırlarında bu 1/2-dən az olmuşdur. Eyni vaxtda dünya iqtisadiyyatında Asiya ölkələrinin xüsusi çəkisi sürətlə artır.

Sivilizasiyaların toqquşması nəzəriyyəsi dünyanın nəinki siyasi, həm də iqtisadi çoxqütblülüyünün güclənməsidir. Dünya iqtisadiyyatında, yuxarıda deyildiyi kimi, Qərbin rolunun azalması və son iki onillikdə başlanan keçmiş sovet respublikalarının xüsusi çəkisinin azalması Çinin, Şərqi və Cənub-Şərqi Asiyanın rolunun sürətlə güclənməsi ilə paralel gedir. Bunlar Latın Amerikası və Cənubi Asiyanın rolunun güclənməsi ilə başlanmışdır.


Bundan başqa, hər bir sivilizasiya daxilində həlledici ölkələr seçilir (İslam sivilizasiyası istisna edilir, burada həlledici əsas üç ölkə yoxdur). Hantinqtonun nəzəriyyəsindən belə nəticə çıxarmaq olar ki, bu həlledici ölkələr sivilizasiyaları idarə edəcək və ya artıq çoxdan idarə edir. Onları nəinki siyasi və mədəni, həm də iqtisadi cəhətdən aparıcı dövlətlərə çevriləcəklər.

Digər nəticə ölkələr arasında və inteqrasiya birlikləri daxilində iqtisadi əlaqələrin möhkəmliyi, sarsılmazlığı onların bir və ya müxtəlif sivilizasiyalara mənsub olmalarından asılıdır. Əgər müxtəlif sivilizasiyalara mənsubdurlarsa, onların uyğunluq səviyyəsi əhəmiyyət daşıyır (Hantinqtona görə, məsələn, pravoslav sivilizasiya İslam və yapon sivilizasiyasına nisbətən, daha çox Qərb, induist və Çin sivilizasiyası ilə dostluq münasibətindədir). Aİ daxilində uğurlu inteqrasiya, əsasən onun bütün ölkələrinin bir sivilizasiyaya mənsub olmasına əsaslanır (düzdür, bir hazırkı iştirakçı Yunanıstan və bir gələcək iştirakçı Kipr pravoslav sivilizasiyasına mənsubdur, amma onlar kiçikdir və mənsub olduqları sivilizasiya Qərblə yüksək səviyyədə oxşardır), NAFTA çərçivəsində inteqrasiya və onun tədricən bütün Amerikaya genişlənməsi planları isə yenə də iki: Qərbi və Latın Amerikası xristian sivilizasiyasının bənzərliliyinə əsaslanır. Şərqi və Cənub-Şərqi Asiyanın əksər ölkələrinin əsas iqtisadi əməkdaş kimi Çinə doğru səmtləşməsi nəinki Çinin sürətlə artan iqtisadi gücü, həm də bu ölkələrin bəzilərində onunla birgə sosial-mədəni keçmişin çox böyük olması ilə izah olunur (Vyetnam, Koreya), bəzilərinin iqtisadi həyatının əksər hissəsi Çinin etnik azlığının əlində cəmlənib (İndoneziya, Malayziya, Tailand, Filippin), bəziləri isə, demək olar ki, ancaq çinlilərlə məskunlaşıblar (Sinqapur, Tayvan, Makao). Bu nöqteyi-nəzərdən, həmin regionda aparıcı ölkə olmağa – Yaponiyaya nisbətən – Çinin daha çox şansı var. Yaponiyada Çin sivilizasiyası ilə bənzər sivilizasiya olsa da, o, regionda Çin kimi sosial-mədəni əlaqələrə malik deyil.

SİYAHI (GÖNDƏRMƏ) SAHİBİ – öz məhsulunun daimi və ya potensial alıcılarının siyahısına sahib olan təşkilat.

SİYAHILAR BROKERİ (göndərmə) – vasitəçi qismində fəaliyyət göstərən və şirkətlərə poçtla birbaşa müraciət üçün potensial alıcıların ünvan siyahılarını təqdim edən təşkilat.

SİYASƏT – 1. Dövlət hakimiyyəti və dövlət idarəçiliyi orqan-



Sxem 1

larının ölkənin ictimai quruluşu və iqtisadi strukturu ilə şərtlənən fəaliyyəti, eləcə də, partiyaların və partiya təşkilatlarının, ictimai qrupların maraq və məqsədləri ilə müəyyən edilən fəaliyyəti. 2. İctimai həyatın, dövlət həyatının problemləri və hadisələri. 3. Konkret məqsədə nail olmağa yönəlmiş, insanlarla münasibətləri müəyyən edən hərəkətlərin tərzi.


SİYASİ İQTİSAD (yun. *politicos* – dövlətə aid, ictimai, ekonomika; yun. *oiconomia* – ev təsərrüfatının idarə edilməsi) – cəmiyyətin təsərrüfat həyatını – ictimai istehsalı, bölgünü, mübadilə və istehlakı, bununla da, hər hansı sosial iqtisadi sistemlərin təşəkkülü, inkişafı və dağılmasından ibarət ictimai-tarixi prosesi tənzimləyən iqtisadi qanunlar haqqında elm. Siyasi iqtisad uzun və ziddiyyətli inkişaf yolu keçmişdir. Siyasi iqtisadın daxili strukturu onun ikili xarakteri ilə səciyyəvidir: o, eyni zamanda, həm elm, həm də ideologiyadır, onların ziddiyyətli vəhdətidir. Bununla bərabər, bu və ya digər sinfin, sosial təbəqənin və ya bütövlükdə sosial iqtisadi sistemin mənafelərini əks etdirən ideologiya iqtisadi hadisələrin dərk edilməsi prosesinə heç də birmənalı təsir göstərmir. Bəzi şərtlər daxilində bu prosesi stimullaşdırır, başqa hallarda isə onu ləngidir və deformasiya edir. Lakin bütün hallarda bu təsir idrak prosesində bu və ya digər ideoloji məqsədə müvafiq olan birtərəfli xarakter kəsb etdirir.

Elmdən fərqli olaraq, ideologiyanın istifadə etdiyi anlayış və kateqoriyaları praktikada yoxlamaq mümkün deyil. İdeologiya məhz onların köməyi ilə idrak prosesini istiqamətləndirir və beləliklə, siyasi iqtisadın strukturunda əsas element kimi çıxış edir. O, iqtisadi hadisələrin dərk edilməsi prosesini müəyyənləşdirir: bir qayda olaraq, bu və ya digər iqtisadi nəzəriyyənin bu və ya başqa tarixi şəraitdə ideoloji və praktik təsərrüfat məqsədlərinə müvafiq olan dəyərləri, müvafiq aspektdə və yalnız müvafiq dərəcədə dərk olunur. Öz növbəsində, iqtisadi hadisələrin və onların qanunlarının real gerçəkliyə adekvat biliklərini verən idrak prosesi nisbi müstəqilliyə, inkişafın öz məntiqinə və qanunauyğunluğuna malikdir. Bu vəziyyət müəyyən şəraitdə iqtisad elminə neqativ ideoloji təsirin zəifləməsinə imkan yaradır. İdrak prosesinin onun ideoloji oriyentasiyasından asılı olması siyasi iqtisadda cərəyanların çoxsaylı olması fenomenini bir çox cəhətdən izah edir. XX əsrin axırlarında siyasi iqtisad dörd əsas cərəyanla təmsil edilmişdir: neoklassik, postkeynsçi, marksist və sosial-institusional cərəyanlar. Bu istiqamətlər bir-birinə qarşı mübarizə aparmaqla, ideoloji maneələri və xurafatları dəf edərək, bir-birinə nüfuz etməklə küll halında vahid elmi-iqtisadın formalaşmasının müasir prosesini təmsil edirlər. Şərti olaraq deyə bilərik ki, bu cərəyanlar faktiki olaraq müasir iqtisadi təfəkkürün iki başlıca istiqaməti şəklində qruplaşır – neoklassik və klassik istiqamətlər. Bu istiqamətlər arasında hədd qoyulmasının meyarı onların bazar mexanizminə, kapitalist təsərrüfat sisteminə tarixi inkişaf perspektivlərinə münasibətidir. Belə ki, klassik istiqamət bazarın yaradıcılıq imkanlarını mütləqləşdirir və kapitalizmi əbədi sosial-iqtisadi sis-

tem hesab edirsə, postkeynsçi, sosial-institusional və marksist cərəyanlar müxtəlif formalarda bazar mexanizmini tənqid edir. Diqqəti onun sosial qüsurları üzərində cəmləşdirir, ictimai istehsalın kapitalist formasının tarixi xarakterini bu və ya digər dərəcədə təsdiqləyir.

İqtisadi biliklərin mənbələri quldarlıq cəmiyyəti dövrünə, qədim Misir papirusları üzərində yazılmış mətnlərə, Babilistan padşahı Hammurapinin (b.e.ə. 1792-1750-ci illər) qanunlarının daş üzərində yazıldığı dövrə, qədim hind vedlərinə – dini himnlər məcmuələrinə (b.e.ə. II minilliyin sonu – I minilliyin əvvəli) aiddir. Müasir siyasi iqtisadın nəzəri ilkin müddəalar, ilk növbədə, Antik dövrün böyük mütəfəkkiri Aristotelin (b.e.ə. 384-322) "Politika" əsəri ilə bağlıdır. O, bir sıra mühüm iqtisadi problemləri, o cümlədən əmtəə, pul, kapitalın ilkin formalarını öz zəmanəsi üçün dərindən təhlil etmişdir. Aristotel "Nikomaxın etikası" adlı əsərində iki əsas əmtəə münasibətinin – əmək və tələbatın mövcud olmasını göstərərək onların təbiəti barədə diskussiyaların istiqamətlərini bir neçə əsr qabaqcadan müəyyən etmişdir. İlk siyasi iqtisad məktəbi – merkantilizm XVI əsrin axırlarından XVIII əsrin ortalarınadək ilkin kapital yığımı dövründə yaranmış və inkişaf etmişdir. Bu istiqamət siyasi iqtisad tarixinin başlanğıcı hesab edilir, çünki o, tədavül sferasındakı iqtisadi hadisələrin zahiri tərəflərini təsvir etməklə kifayətlənirdi. Siyasi iqtisad elminin adı fransız merkantilisti A.*Monkretyenin* (təqribən 1575-1621) "Krala və kraliçaya ithaf edilmiş siyasi iqtisad traktatı" əsərindən (1615) götürülmüşdür. XVII əsrin ikinci yarısından XIX əsrin ortalarınadək inkişaf etmiş və ilk növbədə, U.*Petti* (1623-1687), F.*Kene* (1694-1774), A.*Türqo* (1727-1781), A.*Smit* (1723-

İqtisadi nəzəriyyənin adının təkamülü



Sxem 2

1790), D.*Rikardo* (1772-1823), S.de *Sismondi* (1773-1842) kimi böyük alimlərlə təmsil olunmuş klassik məktəb siyasi iqtisadın inkişafına mühüm töhfələr vermişdir. Klassiklər öz tədqiqatlarının ağırlıq mərkəzini cəmiyyətin iqtisadi həyatının əsas sahəsi olan istehsal sferasına yönəltmiş və üstəlik, ictimai istehsal formasının siyasi iqtisadının məxsusi təhlil predmetinə, yəni ictimai istehsalın həyata keçirildiyi çərçivədə ictimai istehsal münasibətlərinin ayrılmasına lap yaxınlaşmışlar (Rikardo nəzəriyyəsində). Məlum olduğu kimi, Rikardo tədqiqatlarının predmetinin bilavasitə istehsal qanunlarını deyil, bölgü qanunlarını tədqiq etməkdən ibarət olduğunu bildirirdi. Çünki ictimai istehsal forması məhz bölgü sferasında daha aşkar hiss olunan xüsusiyyətlər kəsb edir. Klassik məktəb çərçivəsində mücərrəd tədqiqat metodu inkişaf etdirilmiş, əmək-dəyər nəzəriyyəsinin əsasları işlənib hazırlanmış, iqtisadi meyarlar əsasında ilk dəfə olaraq burjua cəmiyyətinin əsas sinifləri göstərilmiş, onların gəlirlərinin mənşəyini əmək dəyər nəzəriyyəsi mövqeyindən izah etmək üçün cəhd göstərilmişdir. F.Kenenin "İqtisadi cədvəl" adlı əsərində (1758) bütün ictimai kapitalın təkrar istehsalı prosesinin təhlil edilməsi klassik məktəbin çox mühüm nailiyyəti (ilk növbədə, metodoloji baxımdan) olmuşdur.

Siyasi iqtisadın neoklassik və klassik istiqamətləri arasında həddqoyulması üçün bir növ mənbə rolunu oynamış A.Smitin nəzəriyyəsi siyasi iqtisadın

Cədvəl 1

İqtisadi nəzəriyyə predmetinin müəyyən edilməsi təkamülü

İqtisadi nəzəriyyə predmetinin müəyyən edilməsi	**Məktəb (müəlliflər)**
Ev təsərrüfatının və evdarlığın aparılması qaydaları haqqında nəzəriyyə	Qədim Yunan və Qədim Roma mütəfəkkirləri
Millətlərin var-dövlətinin yaradılması, çoxaldılması və bölüşdürülməsi haqqında elm	Merkantilistlər, fiziokratlar, klassik siyasi iqtisad
İstehsal münasibətləri və istehsalın idarə olunması, bölgü, mübadilə və insan cəmiyyətinin inkişafının müxtəlif mərhələlərində maddi nemətlərin istehsalı haqqında elm	Marksistlər
Müasir qərb iqtisadçıları iqtisadi nəzəriyyəni aşağıdakı kimi müəyyən edir:	
– insanların rifahlarının maddi əsaslarının yaradılması və istifadəsi ilə sıx əlaqəli olan fərdi və ictimai fəaliyyət sahələri	A.Marşal
– müxtəlif iqtisadi nemətlərin istehsalı üçün məhdud resursların seçimi prosesində insanların hərəkətləri	P.Samuelson
– resurs qıtlığı olduğu şəraitdə insanların fəaliyyəti	E.Dolan
– alternativ istifadə yolları ola bilən hədəf və məhdud vəsaitlərin arasında bir keçid kimi insanların davranışı	C.Robinson
– məhdud istehsal resurslarının effektiv istifadəsi və ya insan ehtiyaclarının maksimal təmin edilməsi məqsədi ilə onların idarə edilməsi	K.R.Makkonell, S.L.Bryu

inkişafında dönüş nöqtəsi olmuş, bu elmin məzmununu və gələcək strukturunu çox cəhətdən qabaqcadan müəyyən etmişdir. Smit manufaktura kapitalizmini ümumiləşdirən bir iqtisadçı kimi eyni vaxtda iki müxtəlif tədqiqat metodundan – təsviri və mücərrəd metoddan istifadə edərək, öz iqtisadi təlimində iki müxtəlif nəzəri sistemin əsaslarını yaratmışdır. Bu sistemlərdən biri iqtisadi hadisələrin zahiri, bilavasitə qavranılan xassələrini və asılılıqlarını göstərdiyi halda, o biri sistem bu xassə və asılılıqların mühüm daxili qanunauyğunluqlarını tədqiq edirdi. Burjua cəmiyyətinin yeni formalaşmaqda olan və bir-birinə qarşı mübarizə aparan siniflərin təsərrüfat və ictimai praktikasının ehtiyacları, eləcə də onların ideoloji vəzifələri Smit nəzəriyyəsinin son nəticədə siyasi iqtisadın iki istiqamətinə: neoklassik və klassik istiqamətlərə "parçalanmasını" zəruri şərtə çevirmişdir.

Bu istiqamətlərdən birincisi fransız iqtisadçısı, "praktik siyasi iqtisad" yaratmağa çalışan *J.B.Seyin* (1767-1832) əsərlərində Smitin konsepsiyasına xas təsviri elementlərin sistemləşdirilməsi sayəsində formalaşmağa başlamışdır. Bu prosesdə ideoloji amillər də mühüm rol oynamışdır, çünki Sey də, sonradan bütün neoklassik istiqamətin nümayəndələri də öz nəzəri araşdırmalarında kapitalist təsərrüfat sistemi barəsində şişirdilmiş təsəvvür yaradan iqtisadi hadisələrin zahiri ("çevrilmiş") forma və asılılıqlarından istifadə edirdilər. Sey əməkdəyər nəzəriyyəsindən imtina etmiş, əmtəənin dəyərini və onun faydalılığını (istehlak dəyərini) eyniləşdirmişdir. Bu anlayışlar ayrıca əmtəə istehsalçısının mövqeyi ilə eynidir. Ondan ötrü istehlak dəyərinin əlavə vahidinin istehsal edilməsi praktik olaraq yeni dəyər vahidinin yaradılmasına bərabərdir. Sey üç istehsal amili konsepsiyasını işləyib hazırlamışdır. Faktor analizinin əsaslarını yaratmış Sey məcmu tələblə məcmu təklifin bərabər olmasını elan etmiş, sonradan bu bərabərlik "Sey qanunu" adlanmışdır. Neoklassik istiqamətin əsaslarının işlənib hazırlanmasına ingilis iqtisadçısı *R.T.Maltus* (1766-1834), eləcə də iqtisadçı-riyaziyyatçılar – riyazi tədqiqat metodlarının köməyi ilə iqtisadiyyatın fəaliyyətinin bazar mexanizmini və istehlakın iqtisadi rolunu məxsusi təhlil etməyin əsasını qoymuş alman *Q.Q.Qossen* (1810-1858) və fransız O.*Kurno* (1801-1877) da mühüm töhfələr vermişlər. Hossen son faydalılıq nəzəriyyəsinin formalaşmasında ilk addımları atmışdır. Sonradan bu nəzəriyyə onun baniləri olan iqtisadçı-riyaziyyatçıların – ingilis *S.Cevons* (1835-1882), isveçrəli *M.Valras* (1834-1910), italiyalı *V.Pareto* (1840-1923), eləcə də Avstriya məktəbini təmsil edən nəzəriyyəçilərin – *K.Menqer* (1840-1921), *Y.Bem-Baverk* (1851-1914) və *F.Vizerin* (1851-1926) əsərlərində inkişaf etdirilmişdir. Son həd faydalılığı konsepsiyasının nəzəriyyəçiləri qiymətyaranmanın "istehlakçı versiyası"nı işləyib hazırlamışlar. Bu versiyaya görə əmtəələrin qiymətləri onların faydalı xassələrinin alıcılar tərəfindən, bu sonuncuların tələbatının ödənilmə dərəcəsi nəzərə alınmaqla subyektiv qiymətləndirilməsi gedişində formalaşır. Əmtəə istehsalçılarının əmək məsrəfləri isə bu versiya baxımından qiymətlərə heç bir təsir göstərmir. Neoklassik istiqamətin formalaşması prosesi Kembric məktəbinin banisi, ingilis iqtisadçısı A.*Marşallın* (1842-1924) əsərlərində başa çatmışdır. O, bazar iqtisadiyyatının əsas mexanizmi – "iqtisadi araşdırmaların özəyi olan, onlara vəhdət və ardıcıllıq kəsb etdirən tələb və təklifin nisbətləri"ni əsas götürərək iqtisadi baxışlar sistemini işləyib hazırlamışdır (Маршалл А. "Принципы политической экономии", М.; "Прогресс", 1983, т.1., с.145). Marşallın nəzəriyyəsinin əsas xüsusiyyəti ondan ibarət idi ki, o, iqtisadi hadisələrin sosial iqtisadi təbiətini və tarixi meyillərini müəyyən edən mühüm qa- nunları bir kənara qoyaraq, bu hadisələrin zahiri kəmiyyət və funksional asılılıqlarını sistemləşdirmişdir. Bu xüsusiyyət Marşall tərəfindən işlənib hazırlanmış dəyərsiz, yalnız tələb və təklifin dəyişkən nisbətlərindən asılı olaraq müəyyənləşən qiymət nəzəriyyəsində çox parlaq şəkildə təzahür etmişdir. İqtisadi hadisələrin təhlilinə bu cür yanaşma Marşallın "siyasi iqtisad" terminindən imtina edərək, onu "ekonomiks" termini ilə əvəzləməsi üçün əsas olmuşdur. Siyasi baxımdan neytral bir iqtisadi fənn kimi təsəvvür edilən ekonomiks bazar mexanizminin

xalis təsərrüfat xarakterli problemlərini nəzərdən keçirir və siniflərin, o cümlədən bölgü sferasında iqtisadi münasibətlərini tədqiq etmir. Əslində isə ekonomiksin nəzəri bazası olan neoklassik istiqamətin fərqləndirici xüsusiyyəti onun öyrəndiyi iqtisadi hadisələrin və onları tənzimləyən asılılıqların problematikasından daha çox onların nəzərdən keçirilmə aspektində təzahür edir. Məsələn, bu istiqamət milli gəlirin siniflər arasında bölgüsü proseslərinin zahiri təzahürlərindən biri olan bazar iqtisadiyyatında varlılıq və yoxsulluq problemini araşdırır. Fərq ondan ibarətdir ki, neoklassika, əslində, dərin, mühüm qanunların təsir mexanizmi və zahiri təcəssümü olan iqtisadi hadisələrin aşkar görünən funksional kəmiyyət asılılıqlarına əsaslanır. Məsələn, tələb və təklif qanunu dəyər qanununun zahiri təcəssümündən və onun təsir mexanizminin tərkib hissəsindən başqa bir şey deyil. Mahiyyət etibarilə dərin iqtisadi qanunauyğunluqlarla müəyyən edilən zahiri funksional asılılıqlar nisbi müstəqilliyə malikdir və bu səbəbdən onlar ayrıca tədqiqat obyekti kimi seçilə bilər. Belə asılılıqların öyrənilməsi iqtisadi hadisələr və proseslər barədə heç də dolğun olmayan birtərəfli elmi biliklər verir. Buna baxmayaraq, bu cür asılılıqların öyrənilməsi dövlətin iqtisadi siyasəti, iri korporasiyaların iqtisadi strategiyaları işlənib hazırlanarkən, bazar iqtisadiyyatının fəaliyyət mexanizminin ümumi mənzərəsini dərk edərkən, o cümlədən yeni Avstriya məktəbinin nümayəndələri (F.Hayek və L.Mizes), eləcə də müasir neoklassik cərəyanının – monetarist iqtisadi nəzəriyyənin (M.Fridman), rasional gözləmələr nəzəriyyəsinin (R.Lukas) və iqtisadi təklif nəzəriyyəsinin nümayəndələri (A.Laffer) tərəfindən geniş istifadə edilmişdir. Bütün bunlar göstərir ki, neoklassik istiqamət ayrıca bir iqtisadi fənn deyil, siyasi iqtisadın spesifik funksional istiqamətidir. O, iqtisadi qanunların bəsit tərəflərini, müəyyən mənada iqtisadi formanın qanunlarını tədqiq edir. Mühüm dərin asılılıqlardan fərqli olaraq bu qanunlar çoxsaylı eyni iqtisadi amillərin bilavasitə təsirinə məruz qalır. Bu səbəbdən neoklassik analiz iqtisadi proseslərə təsir göstərən siyasi, etik, hüquqi, psixoloji, təşkilati xarakterli və digər hadisələri öyrənməklə məşğuldur.

Neoklassik istiqamətin əksinə olaraq, klassik məktəb adətən iqtisadi qanunların mühüm obyektiv aspektlərinə – iqtisadi hadisələrin sosial-iqtisadi təbiətini və onların tarixi inkişaf meyillərini müəyyən edən aspektlərə əsaslanır, onların zahiri təcəssüm formalarını və təsir mexanizmlərini ətraflı təhlil etmir. Klassik istiqamətin məktəbləri əsas diqqəti istehsal sferası, cəmiyyətin iqtisadi həyatında əməyin mərkəzi rolu üzərində cəmləşdirir, istehlak sferasının iqtisadi rolu və istehlakçıların təsərrüfat prosesində rolu problemini məxsusi tədqiq etmirlər. Klassik istiqamət son həddi faydalılığı nəzəriyyəsinə və məhsuldarlığın son həddi nəzəriyyəsinə qarşı çıxaraq qiymətyaranmanın "istehsal versiyası"nın müxtəlif variantlarını işləyib hazırlamışdır (Marksın təlimində əmək-dəyər nəzəriyyəsindən başlamış, postkeynsçi P.Sraffanın (1898-1983) konsepsiyasında dəyərin texnoloji baxımdan mənalandırılmasına qədər). Bu istiqamətin nümayəndələri bazar mexanizminin cəmiyyətdə iqtisadiyyatın normal fəaliyyətini təmin etməyə qabil olması barədə neoklassiklərin əsas konsepsiyasına münasibətdə əks mövqe tuturlar. Onlar kapitalist təsərrüfat sisteminin tarixən keçici xarakterini bu və ya digər formada etiraf edirlər.

A.Smitdən sonra klassik istiqamət D.Rikardo və C.St.Millin (1806-1873) əsərlərində, başqa sinfi mövqedən K.Marksın (1818-1883) və onun davamçılarının R.Hilferdinq (1877-1941), K.Kautski (1854-1938), G.Plexanov (1856-1918), R.Lüksemburq (1871-1918), V.Lenin (1870-1924) və bir sıra başqa alim və siyasətçilərin əsərlərində inkişaf etdirilmişdir. XX əsrin axırlarında bu istiqamət, ilk növbədə, xüsusi marksist iqtisadi tədqiqatlarda, radikal siyasi iqtisad nəzəriyyəçilərinin, sosial-institusional məktəbin və postkeynsçilik nümayəndələrinin əsərlərində əksini tapmışdır. Marksın əsas nəzəri əsəri olan "Kapital"da (4 cild, 1867-1918) şərh edilmiş iqtisadi nəzəriyyəsi XX əsrdə də klassik istiqamətin əsas elementi olaraq qaldı. İqtisad elminin inkişafına Marksın töhfəsi o qədər əhəmiyyətli və geniş əhatəli olmuşdur ki, onun qarşıya qoyduğu problemlər müasir siyasi iqtisadın da diqqət mərkəzində qalmaqdadır. Bu baxımdan 1994-cü ilə qədər

3 dəfə nəşr olunmuş və 150 fəsildən ibarət "Marksın iqtisadi nəzəriyyələri: tənqidi qiymətlər" (*Marx's economics: critical assessments. Ed.By. J.C.Wood. Croom Helm. L., NY., Sydney, 1994.*) adlı dördcildlik sanballı əsərin dərc edilməsi əlamətdar haldır.

Keynsçilik məktəbinin banisi C.M.Keynsin (1883-1946) nəzəriyyəsi neoklassik və klassik istiqamətlər arasında müəyyən mənada orta mövqe tutur. Keyns öz təhlilində psixoloji metoddan və neoklassik məktəbin limit təhlilindən, eləcə də klassik məktəbin bir sıra, mərkəzi mövqelərindən geniş istifadə etmişdir. Bu baxımdan Keynsin bir fikri çox səciyyəvidir. O, "...hər şeyin əmək sayəsində hasil edilməsi doktrinasını özünə daha yaxın hesab etdiyini" bildirirdi (Кейнс Дж.М. "Избранные произведения". М.; "Экономика", 1993, с.389). Keyns əsas iqtisadi əsəri olan "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi" kitabında (1936) bütövlükdə iqtisadi sistemin tədqiq edilməsi üçün yararlı ölçü vahidləri seçdiyini bildirir. Keynsin fikrincə, "əmək vahidi" və "əmək haqqı vahidi" məhz bu cür ölçü vahidləridir (Göstərilən əsər, s.248-255). Burada Keyns Marksın nəzəriyyəsində mühüm metodoloji rol oynayan əməyin ikili təbiəti konsepsiyasını daha da inkişaf etdirməyə cəhd göstərmişdir.

Siyasi iqtisadın iki əsas cərəyanının əlahiddəliyi nəzərəçarpacaq cizgilər kəsb etməyə başlayandan dərhal sonra iqtisadi ədəbiyyatda bu cərəyanların qarşılıqlı münasibətləri problemin dərk olunmasına başlandı. Hələ C.St.Mill XIX əsrin ortalarında siyasi iqtisadda o dövrdə yaranmış "ən yeni nailiyyətləri" "bu elmin ən yaxşı mütəfəkkirləri tərəfindən əvvəllər müəyyən edilmiş prinsiplərlə" "harmonik şəkildə birləşdirməyə" cəhd göstərmişdir (Милль Дж.Ст. Основы политической экономии. М.; "Прогресс", 1980, т.1. с.75). Lakin bu cərəyanları bir-birindən ayıran nəzəri-metodoloji və ideoloji maneələri dəf etmək, bununla da vahid elmi siyasi iqtisadın əsaslarını işləyib hazırlamaq üçün ən fəal cəhdlər XX əsrin əvvəllərində Rusiyada edilmişdir. Bu, müəyyən mənada, siyasi iqtisadda Rusiya ənənəsidir. Onun banilərindən biri kimi çıxış etmiş rus alimi *S.Frank* (1877-1950) "Marksın dəyər nəzəriyyəsi və onun əhəmiyyəti. Tənqidi etüd" adlı əsərində (SPb., 1900) qarşıya əmək dəyər nəzəriyyəsi ilə son faydalılıq nəzəriyyəsi arasında təmas nöqtələrinin tapılması məsələsini qoymuşdur. Tanınmış rus tədqiqatçısı, iqtisadçı-riyaziyyatçı *V.K.Dmitriyev* (1868-1913) "İqtisadi oçerklər. Əmək-dəyər nəzəriyyəsi ilə son faydalılıq nəzəriyyəsinin üzvi sintez təcrübəsi" (1904) adlı əsərində bu problemin həllinə mühüm töhfələr vermişdir. Görkəmli rus alimi *M.İ.Tuqan-Baranovskinin* (1865-1919) "Siyasi iqtisadın əsasları" əsərində (4-cü nəşr, 1917) siyasi iqtisadın bir elm kimi vəhdəti problemi dərindən tədqiq edilmişdir. Tuqan-Baranovski bu vəhdətin mümkünlüyünü iqtisadi hadisələrin təhlilində fərqlər üzərində yüksələn və insan şəxsiyyətini ən ali dəyər elan edən ümumbəşəri əxlaq normalarından istifadə edilməsində görürdü. O yazırdı: "Hər bir insan şəxsiyyəti nə üçün bütün insanların bəşər şəxsiyyətinə xas olan müqəddəs dəyərlərin daşıyıcıları kimi bərabər olmasını aydınlaşdırmağı özünün ən ali məqsədi hesab edir. Ən ali praktik maraq da bununla müəyyən olunur. Bu baxımdan vahid siyasi iqtisad yaradıla bilər: fəhlənin, kapitalistin, yaxud torpaq mülkiyyətçisinin mənafeyi deyil, ümumiyyətlə, insanın bu və ya digər sinfə mənsubluğundan asılı olmayaraq onun maraqları nəzərə alınmalıdır". Dəyər nəzəriyyəsində bu yanaşma Tuqan-Baranovskinin əməkdəyər nəzəriyyəsi ilə son faydalılıq nəzəriyyəsini sintez etmək cəhdində öz ifadəsini tapmışdır. Onun fikrincə, təsərrüfat səmərəli şəkildə idarə edildikdə nemətlərin ən yüksək faydalılığı onların əmək dəyərlərinə mütənasib olmalıdır. İqtisadiyyatın optimal fəaliyyət sistemini (İOFS) yaradanlar da (*S.Şatalin* (1934-1997), *N.Fyodorenko* (1917), *L.Kantoroviç* (1912-1986)) sosialist iqtisadiyyatının planlı idarə edilməsinin optimallaşdırılması məsələlərinin həlli zamanı əmək-dəyər nəzəriyyəsində və son faydalılıq nəzəriyyəsində təklif olunan üsulların birtərəfliliyinin aradan qaldırılması zərurəti ilə üzləşmişdilər.

Siyasi iqtisad elminin vəhdət təşkil etməsi meylinin obyektiv əsası onun tədqiqat predmetinin vəhdətidir. Subyektiv dəyər və son faydalılıq konsepsiyasının

nəzəriyyəçiləri klassik istiqamət çərçivəsində, o cümlədən Marksın nəzəriyyəsində də ideoloji səbəblər üzündən işıqlandırılmamış əmtəənin qiymətinin formalaşması prosesində istehlakçının rolunun tədqiqi zamanı onlar faktiki olaraq əmək-dəyər nəzəriyyəsini inkişaf etdirmişlər (halbuki onlar qətiyyətlə bu nəzəriyyənin əleyhinə çıxırdılar). Marjinalizm nəzəriyyəsinin obyektiv əsası ondan ibarətdir ki, əmtəənin dəyərinin (təkcə qiymətinin yox) formalaşması prosesində təkcə istehsalçılar deyil, həm də istehlakçılar iştirak edir. Məhz sonuncular (özü də fərdi qaydada, subyektiv olaraq) təklif edilən əmtəənin onlara lazım olub-olmamasını və bu əmtəənin istehsalına yönəlmiş əməyin ictimai zəruriliyini müəyyənləşdirirlər. Alıcının fəal iştirakı olmadan fərdi dəyərlərin əmtəənin ictimai dəyərinə çevrilməsi prosesinin özü mümkün deyildir. İlk baxışda bu, eyni əmtəələr üçün vahid qiymət yaranması prosesi kimi qarşıya çıxır. Bu qiymət bazar mexanizminin görünən əsasıdır (bax: Маршалл А. "Принципы политической экономии". М.; "Прогресс", 1984, т.2, стр.6-8).

Neoklassik və klassik istiqamətlər üçün səciyyəvi olan elmi biliyin birtərəfliliyini aradan qaldıran və vahid elmi siyasi iqtisad yaradılmasını mümkün edən inteqrasiya yolu sosial iqtisadi münaqişələrin həllinin sivil formalarının inkişafı, orta əsrlərə xas olan, eləcə də daha müasir təfəkkürə nəzarətin, rəsmi ideologiyanın zorla qəbul etdirilməsi, şəxsi intellektual azadlığın boğulması kimi halların zəiflədilməsi və aradan qaldırılması, iqtisad elminin sosial statusunun artırılması istiqamətindən ibarətdir.

SİYASİ RİSK – ölkədə siyasi şəraitin qeyri-sabit olması ilə müəyyən edilir. O, hökumətin və ya onun iqtisadi proqramının dəyişməsi ilə, qanunvericilikdə əlverişsiz dəyişikliklərlə bağlıdır.

Riskin bu tipi, əsasən, keçid iqtisadiyyatı zəif olan ölkələr üçün səciyyəvidir.

Neqativ nəticələr: istehsalata xarici investisiyalar axınına mane olur.

SİYASİ RİSKLƏRDƏN İNVESTİSİYALARIN QORUNMASI – xarici investisiyaların sığorta müdafiəsi üçün həyata keçirilir və burada sığortaçı qismində çox zaman investor ölkənin dövlət sığorta strukturları və beynəlxalq maliyyə təşkilatları çıxış edir.

SİYASİ RİSKLƏRİN SIĞORTALANMASI – dövlət orqanlarının fəaliyyəti nəticəsində ekspropriasiya investisiyalara və kapitallara həbs, dividendlərin köçürülməsinə qadağa qoyulması, kapitalın qaytarılması və s. hallarda sığorta örtülməsinin təqdim edilməsi ilə əlaqədar əmlak sığortası sahəsi. Sığorta müqavilələri torpaq, binalar, zavodlar, avadanlıq, neft kəmərləri, gəmilər, təyyarələr, kənd təsərrüfatı heyvanları, satış malları və s. daxil olmaqla hər hansı bir investisiyanı əhatə edir. Sığorta həm xüsusi sığorta şirkətləri, həm də dövlət təşkilatları tərəfindən həyata keçirilir. Siyasi risklərin sığortalanması xarici bazarlara, xüsusilə inkişaf etməkdə olan ölkələrin bazarlarına xüsusi kapitalın nüfuz etməsinin stimullaşdırılması metodu kimi, inkişaf etmiş dövlətlər tərəfindən geniş istifadə olunan sığorta növüdür. Siyasi risklərin sığortalanması siyasi risklərin sığortalanması anlayışına xarici ticarətlə və xarici kapital qoyuluşları (investisiyalar) ilə əlaqədar sığorta daxildir: ixrac və idxala qoyulan embarqo, valyutanın köçürülməsinə qadağa, xarici aktivlərin ekspropriasiyası nəticəsində ticarət müqavilələri və kreditlər üzrə qeyri-tədiyə riskləri, eləcə də idxal edənlər – dövlət təşkilatları tərəfindən qeyri-tədiyə riskləri. Bir sıra inkişaf etmiş ölkələrdə dövlət və yarımdövlət təşkilatları uzun müddət ərzində ixrac kreditlərinin sığortalanmasını həyata keçirirlər: İxrac kreditlərinin zəmanəti departamenti (İngiltərə), KAFAS (Fransa), "Kermes" (Almaniya), "OPİK" (ABŞ).

SIYRILMA – rənglənmiş, minalanmış, pardaqlanmış, cilalanmış səthlərdə sıyrılma ilə əlaqədar risk nəzərdə tutulur. Bu riskin sığortaçıların məsuliyyət həcmindən çıxarılması qəbul olunmuşdur. Lakin əgər sığorta şərtləri ilə örtülən təhlükələr nəticəsində sıyrılmalar yaranırsa, məsuliyyət baş verir. Sıyrılma riskinin sığortalanması xüsusi razılaşdırılır. Sığorta jarqonunda "Scratching", həmçinin, "inisiallarını qoymaq" mənasını bildirir.

SKALPER (ing. *scalper*) – qiymətlərin tərəddüd etməsindən istifadə edən birja üzvü.

SKEYT – dilerlərin səhmləri kotirovka etməkdən imtina et-

məsi. Bu imtina barədə qərar dilerlər tərəfindən əvvəlcədən kütləvi informasiya vasitələrində dərc edilir. Diler alqı-satqı müqaviləsi bağlamaqdan qanunsuz imtina etdikdə ona qarşı həmin müqavilənin məcburi şəkildə bağlanması barədə iddia qaldırıla bilər.

SKRİPOFİLİYA – emissiya standartı – qiymətli kağızların buraxılış və yerləşmə proseduru-nu, reklam qaydalarını və s.-ni müəyyən edən hüquqi sənəd.

"SKUNS" QRUPU – hansısa bürokratik müdaxilə olmadan layihə üzərində iş üçün şirkətin qalan qulluqçularından ayrılan və yeni malın işlənməsi üçün formalaşan qrup.

SKVATTER – ingilisdilli ölkələrdə: xırda icarəçi.

SKVİZ – bir konkret ay və ya bir konkret sort üçün malgöndərmələrdə korner (adətən, malın gəlməsinin gecikməsi nəticəsində).

SLİP – sığorta sənədinin forması. Slip – təkrar sığortalının potensial təkrar sığortaçıya göndərdiyi təklif sənədi.

SLOUN ALFRED (1875-1966) – menecer və menecment nəzəriyyəçisi. 50 ilə yaxın "General Motors" kompaniyasında çalışmışdır.



1921-ci ildə "General Motors" kompaniyasının baş direktoru kimi işlədiyi zaman kompaniya səkkiz avtomobil modeli ilə bazarın 12%-nə malik olmaqla, yalnız bir avtomobil modeli ilə həmin bazarın 60%-nə sahib olan "Ford" kompaniyasından əhəmiyyətli dərəcədə geri qalırdı. Sloun fəaliyyətinə Amerikanın avtomobil istehsal edən kompaniyaları üçün ideal biznes sxeminin işlənməsi ilə başladı. Sloun "Ford"un belə bir fikrini inkar edirdi ki, müştərini yalnız avtomobilin qiyməti maraqlandırır. O, əmin idi ki, avtomobil sosial pilləkən üzrə hərəkəti əks etdirməlidir. Yəni, hər bir model müəyyən sosial sferadan xəbər verməlidir. Kompaniya müştərinin köhnə avtomobilinin satılması və yenisinin alınması işini maksimal dərəcədə asanlaşdırmalıdır. "General Motors"un ən ucuz modelini alan hər bir alıcısı həmin maşının ən ucuz yeni modeli üçün asanlıqla pul toplaya bilməlidir. Beləliklə, cəmi 1-2 il istifadədə olan işlənmiş avtomobillərin bazarı yarandı.

SLUTSKİ YEVGENİ YEVGENYEVİÇ (1880-1948) – 1880-ci ildə Rusiyada məktəb müəllimi ailəsində anadan olmuşdur.



1899-cu ildə Kiyev Universitetinin riyaziyyat fakültəsinə daxil olmuş və inqilabi fəaliyyətinə görə təhsildən kənarlaşdırılmışdır. 1903-cü ildə mühəndislik təhsili almaq məqsədilə Münhen Texnologiya Universitetinə daxil olmuş və bu dəfə də təhsili tam başa çatdırmayaraq Rusiyaya qayıtmışdır. Nəhayət, 1911-ci ildə Kiyev Universitetini fərqlənmə ilə bitirməklə hüquqşünaslıq üzrə elmi dərəcə almışdır. 1918-ci ildə iqtisadiyyat üzrə elmi dərəcəyə yiyələnərək Ticarət İnstitutunda siyasi iqtisad üzrə professor vəzifəsini almışdır. 1926-cı ildən etibarən Moskvaya qayıdaraq Kondratayevin rəhbərlik etdiyi Konyunktur İnstitutunda çalışmış, 1931-1934-cü illər ərzində Mərkəzi Hava Məlumatları İnstitutunun əməkdaşı olmuş, 1934-cü ildən etibarən SSRİ Riyaziyyat Elmlər Akademiyasında fəaliyyət göstərmişdir.

1934-cü ildə Xiks və Roy Allen özlərinin istehlakçının bazarda davranışı nəzəriyyəsini irəli sürdülər və bu konsepsiya ilə işçi qüvvəsinə tələbin azalmasının dəqiq açıqlamasını verdilər. Daha sonra Allen aşkarladı ki, bu ideyalar nəinki artıq deyilmiş, hətta məşhur rus iqtisadçısı və statistiki Yevgeni Slutski tərəfindən riyazi əsaslandırmalarla təsbit edilərək, 1935-ci ildə İtaliyada nəşr olunmuşdur. Odur ki, Allen bu nəzəriyyəni açıqlayaraq onun ilkin və böyük hissəsinin Slutski yaradıcılığının bəhrəsi olduğunu da etiraf etmişdi. Daha sonra iqtisadi ədəbiyyatlarda bu ideya məhz "Fərqsizlik əyriləri" diaqramları ilə məşhurlaşan Hiks Allen adını daşıdı.

Slutskinin iqtisad elminə verdiyi töhfələr bununla bitmir. 1913-cü ildə o, məşhur statistik Fişerin əlyazması ilə elmə daxil olan tənəzzül xətti kriterisi haqqında ideya və müddəalarını "Loyal statistik cəmiyyət" adlı jurnalda nəşr etdirmişdir. Slutskinin sonuncu müddəaları isə ehtimal və statistik proseslər nəzəriyyəsinə həsr edilmişdir.



SMETA – büdcə idarələrinin smetası – idarə və təşkilatların xərclərini dövlət büdcəsindən maliyyələşdirmək üçün əsas plan sənədi.

Smeta qiymətləri – yeni tikintilərin, fəaliyyətdə olan müəssisələrin, binaların, tikililərin və obyektlərin yenidən qurulması, texniki təchiz edilməsi və genişləndirilməsinin dəyərinin müəyyənləşdirilməsi üçün istifadə olunan qiymətlər, tariflər, qiymətqoymalar. Tikinti təşkilatları layihələri və smetaları işləyərkən tikilən obyektlərin smeta dəyərlərinin ilkin müəyyənləşdirilməsi üçün hesablama smeta normalarından və qiymətqoymalarından istifadə edirlər. İnvestorlar (sifarişçilər) və tikinti təşkilatları (podratçılar) arasında faktiki hesablaşmalar sərbəst (müqavilə) qiymətlərlə həyata keçirilir.


Smeta normativləri (tikintidə) – normativ sənədlər sistemi. Smeta normativləri dövlət, sahə-istehsal, ərazi, firma (istifadəçi bazanın xüsusi normativi) bölmələrinə ayrılır. Smeta normativləri təyin olunma qaydaları və tikintinin dəyəri ilə birlikdə bütün tikintidə qiymətqoyma və ya smeta normalaşdırma sistemini təşkil edir. Onların cəmi tikintidə qiymətqoyma və smeta normalaşdırma sisteminin smeta-normativ (normativ-informasiya) bazasını təşkil edir. Sərbəst (bazar) qiymətlər, eyni zamanda, istehsal-texniki təyinatlı məhsul və xidmətlə nizamlanan qiymət və tariflər bu sistemə daxil edilmir. Smeta normativləri tikintinin dəyərinin təyin edilməsi ilə birbaşa əlaqəsi olan şərtlərə cavab verməlidir.

SMİT (SMİTH) ADAM (1723-1790) – Britaniya iqtisadçısı və filosofu, mənşəyinə görə şotlanddır. Kerkoldi şəhərində gömrük məmuru ailəsində anadan olmuş, Qlazqo və Oksford universitetlərində təhsil almış, gənc kübar şəxs (aristokrat) tərbiyəçisi kimi Fransaya səyahət etmişdir. "Əxlaqi hisslər nəzəriyyəsi" (1759) və "Xalqlar sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" (1776) kimi fundamental əsərlərin müəllifidir. Sonuncu kitab XVIII əsrdə çap olunmuş siyasi iqtisada dair ən əhəmiyyətli əsərlərdən biri sayılır.



Bir iqtisadçı kimi Smit əvvəlki yüzillik ərzində alimlərin ideyalarını ümumiləşdirmiş, iqtisad elminin kateqoriyalar sistemini, metodlarını, prinsiplərini işləyib hazırlamış, Böyük Britaniyada və digər ölkələrdə, o cümlədən Rusiyada XIX əsrdə inkişafa həlledici təsir göstərmişdir. Smitin bəzi müddəaları öz əhəmiyyətini hazırda da saxlayır. Həm marksizm, həm də qeyri-marksizm elmində Smit klassik siyasi iqtisadın (klassik məktəbin) banisi və ən görkəmli nümayəndəsi hesab olunur. Onlar arasında Smitin rolunun şərhində başlıca fərq ondan ibarətdir ki, marksizm Smit təlimini, ilk növbədə, K.Marksın iqtisadi sisteminə, xüsusilə onun əmək-dəyər nəzəriyyəsinə və izafi dəyər nəzəriyyəsinə gedən yolda elmin inkişafında mərhələ kimi nəzərdən keçirir. Qeyri-marksizm elmi isə onu daha geniş və daha az ideologiyalaşmış mövqelərdən izah edir.

Smit əmək-dəyər (qiymət) nəzəriyyəsinin ən sadə postulatlarını qəbul edir, bildirirdi ki, o, əmtəə mübadiləsini yalnız cəmiyyətin primitiv halında tənzimləyir. Halbuki istehsal alətləri fondu kimi dərk olunan kapital əmək prosesində zəif rol oynayır. "Ticarət cəmiyyəti", yəni kapitalizm şəraiti üçün Smit əmtəə dəyərinin formalaşmasında, eləcə də bölüşdürülən məhsulda istehsal amillərinin paylarının müəyyən kapitalın və




Sxem 1

əməyin birgə iştirakı ideyasına meyil edir. Smitin sistemində cəmiyyət üç əsas sinifdən – kapitalistlərdən, muzdlu fəhlələrdən və torpaq sahiblərindən ibarətdir. Özü də o, torpaq sahiblərinin, əməyi qeyri-məhsuldar əhali qruplarının, xüsusilə, ev qulluqçularının və dövlət idarəetməsinə qədər olan ictimai qulluq sferası işçilərinin ictimai əməyinə son dərəcə tənqidi yanaşırdı.

Smit xalq təsərrüfatını obyektiv inkişaf qanunlarına tabe olan və əks əlaqə ("görünməz əllər" prinsipi) mexanizmi vasitəsilə yüksək özünü sistem kimi nəzərdən keçirirdi. O hesab edirdi ki, tərəqqinin başlıca hərəkətverici qüvvəsi azad rəqabət vasitəsi ilə istehsal iştirakçılarının daha tez reallaşan xüsusi (öz xeyrini güdən) marağıdır. Bir qayda olaraq, rəqabətin məhdudlaşması, habelə inhisar iqtisadi artıma və əhalinin maddi vəziyyətinin yaxşılaşmasına ("xalqların sərvətinin" artımına) mane olur. Smit dövlətin iqtisadi rolunu inkar etmir, lakin "oyun qaydaları" üzərində onun nəzarət funksiyalarının məhdudlaşdırılması təklifini irəli sürürdü. O, nəzəri sistem və dövlət siyasəti kimi merkantilizmin geniş tənqidi ilə çıxış edirdi. Onun təlimi Böyük Britaniyada və bir sıra digər dövlətlərdə feodalizmin bir çox qalıqlarından imtinada və kapitalizmin inkişaf

Smitə görə azad bazar iqtisadiyyatının ictimaiyyətə olan faydalılığının əsaslandırılması



Qrafik almaz və suyun son faydalılığını istehlak həcminin funksiyası kimi göstərir (faydalılıq vahidi ilə ölçülür)

Qrafik 1

tələbatlarına uyğun daxili və xarici siyasət prinsiplərinin formalaşmasında əhəmiyyətli rol oynamışdır. Rusiyada bu təlim təhkimçilik hüququnun ləğv edilməsi xeyrinə dəlillər (əsaslar) mənbəyi kimi istifadə olunmuşdu. Smitin xidmətləri, həmçinin, vergiqoymanın, bank sisteminin, xarici ticarət siyasətinin və s. səmərəli prinsipinin işlənib hazırlanmasında əhəmiyyətlidir.

SMİT EHKAMI – ictimai məhsulun dəyərinin, gəlirlərin – əmək haqqı, mənfəət və rentanın məbləğinə bərabər götürülməsi. Smitin bütün ictimai kapitalın təkrar istehsalı nəzəriyyəsi onun dəyər nəzəriyyəsinə (hər bir inkişaf etmiş cəmiyyətdə bir çox məhsulların qiyməti və ya dəyəri gəlirlərlə üstüstə düşür) əsaslanır.

Əgər ayrıca götürülmüş hər bir məhsulun dəyəri gəlirlərə bölünürsə, Smitin fikrincə, onda bu, hər bir ölkənin illik torpaq və əmək məhsulunu təşkil edən bütün əmtəə kütləsinə aid olunmalıdır.

SMİT VERNON (1927) – Amerika iqtisadçısı, Harvard Universitetinin professoru.



İqtisadiyyat Elmləri Assosiasiyasının (1986-1987), İctimai Seçim Cəmiyyətinin (1988-1990) prezidentidir.

1995-ci ildə "Adam Smit mükafatı"na layiq görülmüşdür. 2002-ci ildə alternativ bazar mexanizmlərinin empirik iqtisadi təhlilinə görə Nobel mükafatına layiq görülmüşdür.

SOFTLAŞMA – bir hadisə kimi qeyri-material resurslarının, o cümlədən müxtəlif servis xidməti, cəmiyyətin intellektual potensialı, işçi qüvvəsi və kadr hazırlığı, konsaltinq, ekspert, idarəetmə sənətkarlığının iqtisadi inkişafın amilinə çevrilməsi kimi xarakterizə etmək olar.

SOLÇU KEYNSÇİLİK – Keyns nəzəriyyəsinin yeni islahatçı variantlarından biri. Əsas nümayəndələri C.Robinson və P.Sraffdır. Solçu keynsçilər müasir kapitalizmin acılarının köklərini "effektiv tələbin" çatışmazlığında görür, bu səbəblərdən də işsizlik və böhranlar yarandığını göstərir, iqtisadi mexanizm kimi hərbi xərclərin sosial ehtiyac məsrəfləri ilə əvəzlənməsini tələb edirdilər. Bir sıra solçu keynsçilər K.Marksın bəzi baxışlarını da bölüşərək marksizmlə keynsçiliyi birləşdirməyə cəhd etmişlər.

SOLOU (SOLOW) ROBERT MERTON (1924) – amerikalı iqtisadçı, iqtisadi artımın neoklassik modelinin müəllifi. "İqtisadi artım nəzəriyyəsinə töhfəsinə görə" iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür (1987).



Harvard (1940-1942, 1945-1948) və Kolumbiya (1949-1950) universitetlərində təhsil almışdır. 1942-1945-ci illərdə ABŞ-ın silahlı qüvvələrində xidmət etmişdir. 1951-ci ildən Massaçusets Texnologiya İnstitutunda (MTİ) statistika və ekonometrikadan dərs demişdir, professor (1954-1958), iqtisadiyyat professoru (1958-1973), 1973-cü ildən MTİ-nin tam (həqiqi) professoru, 1961-1962-ci illərdə ABŞ prezidenti yanında İqtisadi Şuranın üzvü olmuşdur. Harvard Universitetinin Devid A.Uells mükafatı (1951), Amerika İqtisadi Assosiasiyasının C.B.Klark medalı ilə (1961) təltif olunmuşdur. Amerika Milli Elmlər Akademiyasının (1972-ci ildən), Amerika Fəlsəfə Cəmiyyətinin, Amerika Elm və İncəsənət Akademiyasının üzvü; Britaniya Kral Cəmiyyətinin və İtaliya Milli Akademiyasının fəxri üzvü; Ekonometrika Cəmiyyətinin (1964-cü ildən) və Amerika İqtisadi Assosiasiyasının (1979-cu ildən) prezidentidir. Çikaqo, Yel, Braun, Tuleyn (Yeni Orlean şəhəri – ABŞ), Uorik (Böyük Britaniya), Paris (Sorbonna), Cenevrə universitetlərinin və bir sıra Amerika kolleclərinin fəxri elmi dərəcələrinə malikdir.

Solounun müasir iqtisadi nəzəriyyəyə əsas töhfəsi neoklassik iqtisadi artım modelinin yaradılmasıdır. Bu nəzəriyyəni o, ilk dəfə "İqtisadi artım nəzəriyyəsinə töhfə" ("*A Contribution to the Theory of Economic Growth*", 1956) məqaləsində ifadə etmişdir. Təsbit olunmuş əmsallara əsaslanan və kapital ilə əmək arasında qarşılıqlı fəaliyyətə diqqət yetirməyən E.Domar, R.Harrod, V.Leontyev və C. fon Neyman tərəfindən işlənib hazırlanmış daha erkən modellərlə müqayisədə Solounun modeli bu amillərin nisbətini müəyyən edir və iqtisadi artım

prosesində onun dəyişməsini göstərirdi. Solou müəyyən etdi ki, uzun müddət ərzində nəzərdən keçirilən iqtisadi artım sürəti, ilk növbədə, texnoloji inkişafdan asılıdır. İlkin dövrdə üstün olaraq iqtisadi artımın təhlili aləti olan Solounun nəzəri modeli sonradan digər istehsal amillərinin modelə daxil (tətbiq) olması hesabına genişləndi. Özünün sonrakı "Texniki dəyişikliklər və məcmu istehsal funksiyası" ("*Technical Change and the Aggregate Production Function*", 1957) və "İnvestisiyalar və texniki tərəqqi" ("*İnvestment and Technical progress*", 1959) adlı məqalələrində Solou milli məhsulun artımında müxtəlif istehsal amillərinin rolunun empirik qiymətləndirilməsini verdi. Solounun neoklassik iqtisadi artım modeli optimal qənaət probleminin tədqiqində, dövlət maliyyəsinin vəziyyətinin təhlilində istifadə olunurdu. Ondan ictimai tarazlıq nəzəriyyəsi çərçivəsində, eləcə də qiymətli kağızlar bazarının təhlilində iqtisadi tsiklin tərəddüdünün öyrənilməsi zamanı sonrakı iqtisadi inkişafa vergi siyasətində dəyişikliklərin mümkün təsirinin qiymətləndirilməsi üçün istifadə edilirdi. Solounun əsərləri digər ölkələrdə oxşar tədqiqatların aparılmasını stimullaşdırırdı.

1970-ci illərin başlanğıcında urbanizasiya prosesləri ilə əlaqədar Solou o zaman üçün yeni şəhərlərin iqtisadiyyatı və torpaqdan istifadə, təbii resurslar probleminin öyrənilməsi, sonradan isə makroiqtisadi təhlilin müxtəlif aspektləri, o cümlədən sabit siyasət üçün məşğulluq probleminin əhəmiyyətinin tədqiqi ilə əlaqədar istiqamətlərlə məhsuldar məşğul olmuşdur.

SOLOUNUN ARTIM MODELİ – neoklassik iqtisadi artım modeli. Bu modeldə texniki tərəqqi iqtisadi artımın əsas şərti hesab olunur. Solounun gəldiyi nəticəyə görə texniki tərəqqi rifahı təmin etmək üçün faktorartıran (kapital, əmək, vaxt artıran) vasitədir. Solounun modelində maddiləşmiş (əşyalaşmış) texniki tərəqqi bütün istehsal funksiyasının (kapital, əmək, torpaq, vaxt) dəyişməsində aktiv iştirak edir. Bu modeldə kapital və əmək bir-birini əvəz edən amillər kimi götürülür. Ona görə də iqtisadi artıma aparan yol həm də tam məşğulluğa aparan yol hesab edilir.

SOLO-VEKSEL – ödəməni icra etməyə borclu olan bir şəxsin imzası ilə veksel.

SON DİVİDEND – şirkət müdiriyyətinin tövsiyəsi üzrə maliyyə ilinin son hissəsinə görə ödənilən və səhmdarlar ümumi yığıncağı tərəfindən təsdiq edilən dividend.

SON ƏVƏZLƏMƏ NORMASI – bir nemətin başqa nemətlə əvəz edilməsi norması. Bu normaya riayət edildikdə istehlakçının ehtiyaclarının təmin olunması əvvəlki səviyyədə qalır, yəni ümumi faydalılıq dəyişmir. Məsələn, bir litr xamanı beş litr südlə əvəz etdikdə istehlakçının süd məhsullarına tələbatı əvvəlki səviyyədə təmin olunursa, onda bu nisbət əvəzləmənin son normasıdır. Son əvəzləmə norması istehlakçı tələbatı nəzəriyyəsində tətbiq edilir.

SON FAYDALILIQ HƏDDİNİN AZALMASI QANUNU – istehlakçı tərəfindən müəyyən məhsulun əlavə vahidinin mənimsənilməsi zamanı onun faydalılığı istehlakçı üçün getdikcə azalacaqdır. Başqa sözlə, istehlakçı əmtəə və xidmətlərin istehlakını nə qədər artırırsa, əmtəə və xidmətin hər bir əlavə vahidinin son faydalılıq həddi azalır. Son faydalılıq həddinin azalması qanunu faydalılıq həddi ilə istehlak olunan iqtisadi nemətlərin həcmi arasında əks asılılığı təcəssüm etdirir. Bu zaman nəzərdə tutulur ki, istehlakçının zövqləri daimi, istehlak funksiyası isə fasiləsizdir. Bu o deməkdir ki, ümumi faydalılığın artımı istehlak olunan nemətin istənilən ən kiçik artım kəmiyyətinə uyğun gəlir. Nemətlərin kəmiyyətinin artması ilə ümumi faydalılıq getdikcə artsa da, istehlak olunan nemətlər üzrə son vahidin faydalılıq həddi durmadan azalır. Ümumi faydalılığın maksimum təmin edilməsinə elə bir "nöqtə"də nail olunur ki, burada faydalılıq həddi sıfıra bərabərdir. Bu o deməkdir ki, nemət tamamilə tələbatı ödəyir. Belə ki, nemətin faydalılığı onun bir və ya bir neçə insanın tələbatını ödəmək qabiliyyətidir. Əgər sonrakı istehlak ziyan gətirərsə (nemətin faydalılıq həddi mənfidirsə), onda ümumi faydalılıq mənfidir. Beləliklə, əgər insan daha çox nemətə malikdirsə, bu nemətin hər bir əlavə vahidi daha az qiymətlidir. Son faydalılıq həddinin azalması qanununa əsasən, nemətin qiyməti istehlakçı üçün ümumi deyil, nemətin faydalılıq həddi ilə müəyyən

edilir. Son faydalılıq həddinin azalması qanunu tələb və daha geniş olaraq bazarda istehlak davranışı ilə müəyyənləşir. Faydalılıq həddi nəzəriyyəsinin əsasları ilk dəfə olaraq, alman iqtisadçısı Q.Hossen tərəfindən 1854-cü ildə formulə edilmişdir. Sonra isə U.Cevons (1871), K.Menger (1871), L.Valras (1871), demək olar ki, hər biri ayrılıqda faydalılıq nəzəriyyəsinin mahiyyətinin yeni tərifini vermişlər. Hossen tərəfindən "Hossenin qanunları" adı altında məşhur olan istehlakın iki qanunu dürüst ifadə edilmişdir. Hossenin birinci qanununda deyilir: verilən növdən olan nemətin hər bir əlavə vahidinin istehlakından təmin olunmanın kəmiyyəti tam bolluq "nöqtə"sində sıfıra çatmayınca azalır. İkinci qanunda göstərilir: tam bolluq üçün nemətlərin ehtiyatı kifayət etməzsə, tələbatların maksimum ödənilməsi üçün bütün nemətlərin istehlakını elə "nöqtə"lərdə saxlamaq lazımdır ki, bu zaman istehlakla təminat intensivliyi eyni olsun. Lakin Hossenin əsəri nəzərə çarpmamış qaldı. Yalnız analoji yanaşmaları təklif edən və onları bazar qiymətqoymasının əsaslarına gətirən Avstriya məktəbinin nümayəndələrinin əsərləri yarandıqdan sonra Hossenin ideyaları geniş yayıldı. Bazar qiymətinin əsası kimi faydalılıq həddi və onun səmərəliliyinin azalması qanunu klassik məktəbin və Marksın əmək-dəyər nəzəriyyəsilə qarşı-qarşıya qoyulmuşdur. Son faydalılıq həddi mövqeyindən qiymətqoyma probleminə yanaşma birtərəfliliyi ilə fərqlənir, belə ki, satıcının deyil, ancaq alıcının maraqlarını nəzərə alır. Bu nəzəriyyənin mahiyyətcə digər çatışmazlığı onun subyektiv psixoloji xarakteri və faydalılığın obyektiv kəmiyyət ölçülməsinin qeyri-mümkünlüyüdür. Avstriya məktəbinin həmin nümayəndələri son faydalılıq həddinin bazar qiymətinə bilavasitə keçidini gerçəkləşdirə bilmədilər. Son faydalılıq həddinin azalması qanunu bazarda alıcının davranışının izah edilməsində mühüm rol oynayır (iqtisadi nemətlərin qiyməti və alıcının pul gəlirləri ilə yanaşı).

SON GƏLİR – ilkin törəmə (ikinci dərəcəli) gəlirləri əsasında formalaşan və iqtisadi proseslərin iştirakçıları tərəfindən son istehlak və yığıma sərf edilən gəlir. Xalq təsərrüfatının balansında son gəlirə maddi nemətlərin istehsalına və yığımına faktiki istifadə edilən gəlirlər aid edilir. Onların kəmiyyəti müəssisə, idarə, təşkilatlar və əhali üzrə müəyyən olunur. Onlar yaradılan gəlirin yenidən bölgüsündə iştirak edirlər. Dövlət ancaq yenidən bölgü proseslərində iştirak edir və son gəlirə malik olmur. Milli hesablar sistemində (MHS) son gəlir kateqoriyasına bölüşdürülən gəlirlər kateqoriyası uyğun gəlir. Onlar əmtəə və xidmətlərin son istehlakı, həmçinin, əmanətlər üçün istifadə olunur. MHS-də dövlət iqtisadiyyatın digər sektorları ilə yanaşı, həm yenidən bölgü subyekti, həm də gəlirlərin sahibi kimi çıxış edir. Dövlətin son istehlakı cəmiyyətə bütövlükdə təqdim edilən kollektiv xidmətlərin dəyəri ilə ölçülür.

SON HƏDD XƏRCLƏRİ (ing. *marginal cost*) – istehsal fəaliyyətinin son həddi təhlili göstəricisi, əlavə məhsulun istehsal vahidinə çəkilən əlavə məsrəflər. Hər bir istehsal səviyyəsi üçün digərlərindən fərqli olan xüsusi son həddi xərcləri mövcuddur. Riyazi cəhətdən onlar bu fəaliyyət növünə görə xüsusi törəmə xərclər funksiyası kimi çıxış edir.

Həmin dövrdə istehsalın vəziyyəti nəzərdən keçirilərkən sabit istehsal məsrəfləri son həddi xərclərinin səviyyəsinə təsir göstərmir, onlar yalnız dəyişən xərclərlə müəyyən olunur. Daha uzunmüddətli perspektivdə nəzərdən keçirilərkən isə, onlar istehsal miqyası effektindən və digər amillərdən asılı olaraq arta, dəyişməz qala, yaxud azala bilər.

Ən aşağı həddə məhsul o deməkdir ki, məhsulun daha çox həcminin istehsalı üçün əlavə resursların daha çox miqdarı zəruridir. Bu isə yüksək son həddi xərclərinə aparıb çıxarır.

Məhsul buraxılışı artırılarkən həmişə elə məqam yaranır ki, bu zaman son həddi xərcləri (əlavə xərclər) və müəssisənin son həddi gəliri (mənfəət) üst-üstə düşür. Deməli, son həddi mənfəəti sıfıra bərabər olur. Son həddi təhlili vasitələri ilə təsdiq (sübut) olunur ki, məhz bu məqamda ümumi mənfəət ən yüksək həddə çatır (məhsul buraxılışının daha da artırılması zamanı son həddi gəlirə, yaxud mənfəəti son həddi xərclərinə nisbətən az olacaqdır). Əgər mənfəətin ölçüsü optimallıq meyarı kimi hesab edilərsə, onda bu o deməkdir ki, müəssisə üçün istehsalın bu həcmi optimaldır.

SON HƏDD SIĞORTA MƏBLƏĞİ – hər hansı bir əmlakın

könüllü sığortası üzrə mümkün təminatın maksimum ölçüsü. Ayrı-ayrı sığorta növləri üzrə qaydalarda nəzərdə tutulur. Məsələn, ilkin baxış olmadan ev əmlakının, qiymətli metallardan və daş-qaşlardan olan məmulatların sığortalanması üzrə. Son həddi sığorta məbləği sığorta (maliyyə) orqanlarının xüsusi qərarları ilə təsdiq oluna bilər. Bunlara sığorta qaydaları ilə nəzərdə tutulmuş təminatın yüksək səviyyəsini nəzərə alaraq belə hüquq verilə bilər. Məsələn, vətəndaşların heyvanlarının könüllü sığortası, əmlak sığortasının əksər növləri üzrə yalnız dəyərə faizlə sığorta təminatının maksimum səviyyəsi müəyyən olunur. Sığorta məbləğinin konkret ölçüsü sığortalının arzusu ilə müəyyən edilir. Son həddi sığorta məbləği sığorta limitindən fərqlənir ki, bu da yalnız sığortaçılar üçün deyil, həm də müqaviləni bağlayan ayrı-ayrı sığorta orqanları üçün müəyyən edilir.

SON XALİS İTKİ – bütün ödənişlər edildikdən sonra sığortaçının və ya təkrar sığortaçının daşıdığı ümumi itki.

SON İSTEHLAK XƏRCLƏRİ – ölkə daxilindəki ev təsərrüfatlarının istehlak malları və xidmətlərə, dövlət idarəetmə orqanları və ev təsərrüfatlarına pulsuz xidmətlər göstərən qeyri-kommersiya təşkilatlarının fərdi, habelə kollektiv istehlak üçün istifadə etdikləri məhsullara, xidmətlərə çəkilən xərcləri özündə əks etdirir. MHS-də istifadə edilən göstəricidir.

SON MÜKAFAT – hadisə və ya ölüm zamanı sığorta polislərini saxlayanlara ödənilir.

SON ÖDƏMƏ TARİXİNƏ (MÜDDƏTİN SONUNA) OLAN GƏLİRLİLİK (ing. *Yield to Maturity (YTM), Redemption Yield, Gross Yield)* – mürəkkəb faizlərin illik dərəcəsi şəklində investisiyaların effektivliyini ölçür; hesablamalarda kupon (faiz) dərəcəsi, faiz müddətinin uzunluğu, alış qiyməti, ödəmə tarixinə olan qiymət, ödənişədək olan müddət nəzərə alınır. Son ödəmə tarixinə (müddətin sonuna) gəlirlilik gələcək gəlirlərin maliyyə alətinin cari qiymətinə ekvivalent olduğu diskont dərəcəsinə bərabərdir. Son ödəmə tarixinə (müddətin sonuna) gəlirlilik həm kupon üzrə gəlirləri, həm də müddətin sonuna olan kapital artımını itkilərini nəzərə alır. Buna görə də maliyyə alətlərinə edilən investisiyalar üzrə gəlirliyi sabit gəlirliliklə müqayisə üçün ən yararlıdır. Həmçinin, "Daxili gəlirlilik dərəcəsi" adlanır (ing. *Internal Rate of Return IRR).*

SON TƏLƏB (ing. *final demand*) – xalq təsərrüfatının son məhsulunu təşkil edən əmtəə və xidmətlərə olan, yəni, hər şeydən əvvəl, əhalinin xalq istehlakı mallarına, xidmətlərə, yeni istehsal və qeyri-istehsal fondlarının yaradılması üçün zəruri avadanlığa və tikinti materiallarına və s., həmçinin, həmin ildə onların sıradan çıxan və istifadə olunan hissəsinin ödənilməsinə yönəldilən tələbdir.


SONRAKI AKSEPT (ing. *subsequent acceptance*) – akseptin bu növündən istifadə bank tərəfindən hesabın tədiyəçi ilə qabaqcadan razılaşdırılmadan ödənilməsini nəzərdə tutur. Əgər müəyyən müddət (adətən 3 gün) ərzində bank tədiyəçinin ödəniş aparmaqdan yazılı imtinası barədə (məsələn, təsərrüfat müqaviləsinin şərtlərinə riayət edilməməsi səbəbindən) məlumat alarsa, bank müəssisəsi əvvəllər köçürülmüş pul vəsaitlərini müəyyən olunmuş qaydada tədiyəçinin hesabına qaytarır; akseptdən imtina ödəniş müddəti çatana qədər qəbul edilir.

SONRAKI İPOTEKA – daşınmaz əmlak obyektinin və ya torpaq sahəsinin girovudur ki, bunlarla əlaqədar artıq ipoteka mövcuddur. İki kreditin ümumi dəyəri (qoyulmuş və təkrar qoyulmuş obyektə görə), bir qayda olaraq satış dəyərinin 80%-indən artıq deyil.

SONUNCU SAĞ QALAN ÜÇÜN POLİS – iki insandan sonuncunun ölməsinə görə sığortalanan məbləğ ödənilən zaman bu iki insanın həyat sığorta polisi.

SOROKİN GENNADİ MİXAYLOVİÇ (1910-1990) – sovet iqtisadçısı, SSRİ EA-nın müxbir üzvü. 1931-ci ildə Kazan Universitetinin iqtisad fakültəsini bitirmişdir. 1933-1940-cı illərdə Moskvanın bir sıra ali məktəblərində və elmi-tədqiqat institutlarında elmi və pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1940-1957-ci illərdə SSRİ Dövlət Plan Komitəsində işləmişdir. 1961-1969-cu illər ərzində Dünya Sosialist Sisteminin İqtisadiyyatı İnstitutunun direktoru, 1969-cu ildən SSRİ EA-nın İqtisadiyyat İnsti-





Sxem 1

tutunun baş elmi işçisi, 1972-ci ildən şöbə müdiri olmuşdur.

Əsas elmi əsərləri xalq təsərrüfatının planlaşdırılması nəzəriyyəsi, metodologiyası, təşkili və tarixi məsələlərinə, dünya sosializm sisteminin problemlərinə, beynəlxalq əmək bölgüsü, iqtisadi əməkdaşlıq, QİYŞ ölkələrinin inteqrasiyası məsələlərinə, sosialist geniş təkrar istehsalının qanunauyğunluqlarına həsr olunmuşdur.

SOSİAL BAXIMDAN DAVAMLI İQTİSADİYYAT – bu iqtisadiyyatda vətəndaşların ölkənin iqtisadi inkişafının nəticələrinə görə sosial məsuliyyətinin və iqtisadiyyatın effektivliyinin artması əsasında təkrar istehsalın sosial sabitliyi müşahidə olunur. Dövlətin iqtisadi fəaliyyəti kimi onun iqtisadi siyasəti də ardıcıl olaraq ölkənin milli xüsusiyyətlərini nəzərə almalı, sosial baxımdan davamlı iqtisadiyyat yaradılmasına istiqamətlənməlidir. Sosial baxımdan davamlılıq cəmiyyətin və iqtisadiyyatın sosial sabitliyinin daimi təkrar istehsalı deməkdir. İctimai istehsalın əhali artımına və iqtisadiyyatın effektivliyinin yüksəldilməsinə müvafiq artımı sosial sabitliyin zəruri iqtisadi şərtləridir. Bununla bərabər, sosial və iqtisadi sahələrin qarşılıqlı əlaqəsinin xüsusiyyətləri ilə müəyyən edilən spesifik sosial davamlılıq şərtləri də mövcuddur. Əhalinin gəlirləri artdıqda cəmiyyətin sosial məqsədləri üçün xərclər gələcək iqtisadi artımın mənbələrinə zərər vurmur. Bu şərtin həyata keçirilməsinin mürəkkəbliyi təkcə onunla bağlı deyil ki, iqtisadiyyatın effektivlik səviyyəsi, ÜDM artımı çox vaxt iqtisadiyyatın özünün vəziyyəti ilə birbaşa bağlı olmayan amillərin, xarici iqtisadi səbəblərin, siyasi vəziyyətdə baş verən dəyişikliklərə, ekstremal halların təsirinə məruz qalır. Bütün dövlətlərin inkişaf təcrübəsi göstərir ki, burada əsas səbəb budur: sosial ödənişlər, əhalinin pul gəlirləri. Bir qayda olaraq gəlir əldə edənlərin əks-təsir qüvvəsi üzündən iqtisadiyyatın effektivliyi azaldıqda, bu məbləğlər azalma istiqamətində dəyişə bilməz. Nəticədə pul gəlirlərinin səviyyəsi, sosial transfertlər, ortamüddətli və uzunmüddətli dövrlərdə effektivliyin real mövcud olan səviyyəsi arasında fərqin tədricən kəskinləşməsi ümumi meylə çevrilir.

İqtisadiyyatın inkişafı sosial baxımdan yalnız o halda davamlı olur ki, maddi rifahın yaxşılaşması və sosial sabitlik effektivliyin artmasına uyğunlaşdırılsın. Bu, sosial sabitliyin əsasıdır. *İqtisadi münasibətlərin xarakteri* məhz elə olmalıdır ki, bütün subyektlərin sosial davamlı inkişafına görə sosial məsuliyyəti təmin edilsin. Buna görə də sosial davamlı iqtisadiyyatın formalaşması vətəndaşların bu inkişafa görə məsuliyyəti, eləcə də dövlətin davamlı sosial siyasəti ilə sıx bağlıdır. Bütün bunlar uzunmüddətli dövrdə cəmiyyətdə sosial sabitliyin bərpası üçün etibarlı zəmin yaradır.

SOSİAL DİSTANSİYA (məsafə) – qarşılıqlı əlaqəli şəxslər və ya təşkilatların bir-birlərinin iş metodları ilə tanış olmadıqları səviyyə.

SOSİAL DÖVLƏT (*social state*) – sosial ədalət, vətəndaşların sosial müdafiəsi, sosial yönümlü iqtisadi siyasət yürüdən dövlət. Sosial dövlət hər bir vətəndaşa gördüyü iş müqabilində həyat şəraiti yaradır, əmək qabiliyyətinə malik olmayan əhalini də minimum yaşayış şəraiti ilə təmin edir. Sosial dövlətin əsas məqsədlərindən biri maddi-mənəvi nemətlərin istehlakının kəmiyyət və keyfiyyət baxımından artırılması, təhsil,



Sxem 1

səhiyyə, sosial təminatdan hamının istifadə edə bilməsidir.

SOSİAL ƏDALƏT – cəmiyyətin təşkilinin fərdlərin və sosial qrupların maraqlarına cavab verən prinsip və formalarının sosial-psixoloji canlandırılması. Başqa sözlə desək, sosial ədalət ictimai münasibətlərin ümumiləşmiş mənəvi qiymətləndirilməsidir.

Sosial ədalət bəşəri sosial ideallardan biridir. Bu termin tarix boyu müxtəlif formalarda izah edilmişdir. Sosial ədalət indi də birmənalı izah olunmur. Sosial ədalət anlayışının müəyyənləşdirilməsi zamanı onu çox vaxt sosial bərabərliyə aid edirlər. Bu kontekstdə sosial ədaləti cəmiyyətdəki maddi və mənəvi dəyərlərin bölüşdürülməsində, səlahiyyət və hakimiyyət məsələlərində iştirakında, eləcə də müxtəlif ictimai qrupların həyat vəziyyətində bərabərlik və bərabərsizlik ölçüsü kimi qəbul edirlər. Ayrı-ayrı siyasi meyillərin tərəfdarları belə bölgü mexanizminə müxtəlif şəkildə yanaşırlar. Konservativ ənənə bazar bölgüsü prinsipindən başqa heç bir bölgü prinsipini qəbul etmir. Onların fikrinə görə, azad cəmiyyətdə bölgü modellərinin müəyyənləşdirilməsi və ya təyin edilməsi düzgün deyil. Çünki bu halda insan hüquqları pozulur və məhdudlaşdırılır.

Liberallar dövlətin bölgü məsələlərinə qarışmasını zəruri hesab edirlər. Marksizm-leninizm sosial ədaləti xüsusi mülkiyyətin ləğvində, əməyə görə bölgü prinsipini irəli sürməkdə görürdü. Sosial siyasət ictimai şüurun müəyyən fenomeni (hüquqi, dini, əxlaqi, iqtisadi) kimi mövcud olur. Sosial ədalət ictimai fikirdə özünə yer tapmır. Bu halda, sosial əməyə görə mükafatlandırma və qiymətləndirmə, hamının minimum sosial təminat səviyyəsi və həyat şəraiti ilə təminatını, sosial dəyərlərin (təhsil almaq, sağlamlığı qorumaq), məlumatdan və mədəni dəyərlərdən bərabər istifadə imkanını özündə birləşdirir.

SOSİAL XƏRCLƏR – həm istehsalçıların, həm də bütün üçüncü şəxslərin məcmu məsrəflərinin xarakteristikası; müəyyən məhsulun istehsalı və istehlakı ilə bağlıdır. Sosial xərclərin yuxarı həddi verilmiş məhsulun istehsalının müəyyən qədər artması nəticəsində sosial xərclərin artımıdır.

DÖVLƏTİN SOSİAL SİYASƏTİ

Bazar yanaşması	Sosial yanaşma
Əhalinin yoxsulluq səviyyəsindən aşağı düşməsinə yol verməmək üçün dövlət iqtisadi fəallığın göstərilməsi və gəlirin əldə edilməsi üçün cəmiyyətin hər bir üzvünə şərait yaratmalıdır	Dövlət cəmiyyətin hər bir üzvünə ictimai tələbatların ödənilməsi üçün gəlirin əldə edilməsinə zəmanət verməlidir

SOSİAL SİYASƏTİN MƏQSƏDLƏRİ

- cəmiyyət üzvlərinin minimal gəlir əldə etmələrinə zəmanətin verilməsi
- cəmiyyət üzvlərinin bacarıqlarının dəstəklənməsi və inkişafı
- cəmiyyət üzvlərinin əlverişli sosial xidmətlərlə təmin olunması

REALİZASİYA FORMALARI

Sosial müdafiə	Sosial zəmanətlər
Cəmiyyət və onun üzvləri tərəfindən vətəndaşların maddi və sosial həyatlarının normal təmin olunması üçün həyata keçirilən tədbirlər sistemi	Cəmiyyətin öz üzvlərinin zəruri tələbatlarının ödənilməsinə yönəldilmiş öhdəliklər sistemi
• ixtisaslaşdırılmış əmək fəaliyyətinə hazırlıq • əmək və sahibkarlıq fəaliyyəti prosesində imkanların reallaşması mümkünlüyü • əmək və sahibkarlıq fəaliyyəti prosesinin təmin olunması • yeni iş yerlərinin yaradılması və əmək qabiliyyətini itirmiş işçilərə dəstək	• təhsilin əlçatanlığı və pulsuz olmasına zəmanət • əmək və sahibkarlıq fəaliyyəti prosesində imkanların reallaşmasına zəmanət • məcburi işin yolverilməzliyi ilə bağlı zəmanət • əmək fəaliyyətinin dayandırılmasına görə itkilərin minimuma çatdırılmasına zəmanət

Sxem 1

Sosial siyasətdə sosial ədalət



Sxem 2

SOSİAL XİDMƏT – sosial yardımın əsas formalarından biri. Sosial xidmət sosial tibbi, psixoloji-pedaqoji, sosial-hüquqi, sosial-məişət, zəmanətli xidmətlərin məcmusu, vətəndaşların sosial uyğunlaşması, qeyri-sağlam davranışlı vətəndaşların və əlillərin reabilitasiyasını özündə ehtiva edir. Bir sözlə, sosial xidmət əhalinin müxtəlif kateqoriyalarının, sosial tələbatlarının ödənilməsinə yönəldilmiş spesifik sosial fəaliyyət növüdür.

SOSİAL İDARƏETMƏ – müəssisənin idarə edilməsində iştirak üçün işçilərin cəlb edilməsi. Sosial idarəetməyə müqavilələr, qarşılıqlı məsuliyyətlər, sosial tələblərin bölüşdürülməsi və təmin edilməsi aiddir.

SOSİAL İQTİSADİ MƏNAFELƏR – subyektin (fərd, kollektiv, sosial qruplar, cəmiyyət, dövlət) sosial-iqtisadi tələbatları sistemi. Sosial-iqtisadi tələbatlar sisteminin vahidliyi kimi çıxış edərkən, mənafe özünü subyektin fəaliyyətinin stimulu kimi göstərir, onun davranışını, sosial əhəmiyyətli hərəkətlərini müəyyənləşdirir. Ona görə də əşya məqsədlərinə yönəlmiş tələbatlardan (ayaqqabı, çörək və s. tələbatları) fərqli olaraq, mənafelər sosial-iqtisadi münasibətlərə, bütövlükdə həyat şəraitinə istiqamətlənmişdir. Mənafelər həyat şəraitinin dəyişilməsinə uyğun transformasiya olunur.

Fərd tərəfindən şəxsi sosial-iqtisadi maraqların dərk olunması tarixi prosesdir. Belə ki, bazar münasibətləri əsasında iqtisadi azadlığın qurulması ona gətirib çıxarır ki, əmtəə istehsalçısının şəxsi mənafeyi məhsuldar qüvvələrin artımında, sosial-iqtisadi münasibətlərin əsaslı şəkildə yenidən qurulmasında stimul kimi çıxış edir. Uyğun olaraq, iqtisadi mənafelər, onların qovuşması və qarşılıqlı fəaliyyəti istehsal münasibətləri mexanizminin əsasında qurulur. Cəmiyyətdə şəxsi, kollektiv və ümumi mənafelərin qarşılıqlı fəaliyyətinin mürəkkəb dialektikası mövcuddur. Birincisi, sosial-iqtisadi mənafelər fərdin fəaliyyətinin mənbəyi olaraq, ümumi mənafelərin reallaşma mexanizmini də təmin edir. Mənafelərin qarşılıqlı asılılığı və qarşılıqlı əsaslanmaları kollektiv mənafenin reallaşması vasitəsilə ümumi mənafenin təsdiqi kimi, kollektiv və ümumi mənafelərin dialektikasında daha çox təcəssüm olunur. Belə ki, bütövlükdə cəmiyyət kimi mürəkkəb sosial orqanizmdə həm kollektiv, həm də şəxsi mənafe çox zaman

ümumi mənafe ilə üst-üstə düşmür.

Dövlət bütün sosial qrupların və təbəqələrin, həmçinin, ayrı-ayrı fərdlərin mənafeləri ilə həm şəxsi, həm də qrup (kollektiv) mənafelərini tənzimləyir və nəzarət edir, bununla da, dövlət mənafelərini formalaşdırır və qoruyur.

SOSİAL İQTİSADİYYAT – predmeti insanların rifah halının artımının, sistemli olaraq onların potensialından iqtisadiyyatın və sosial sferanın dayanıqlı inkişafının təmin edilməsindəki rolunun öyrənilməsidir.

Müvafiq konturlar kontekstində "Sosial iqtisadiyyat"ın nəzəri və metodoloji formalaşması problemləri tədqiq olunur. Sosial-iqtisadi inkişafın təşkilati, kadr, sahibkarlıq, sosial-iqtisadi proseslərin idarə edilməsinin texnoloji və resurs amilləri, onların proqnozlaşdırılması öz şərhini tapır. Sosial-əmək potensialından istifadə problemləri, yeni iş yerlərinin açılması, iqtisadi fəal əhalinin işgüzar və yaradıcı təşəbbüskarlığının artırılması, əməyin sosial təşkili kimi məsələlər də "sosial iqtisadiyyat"ın tədqiqat obyektini əhatə edir (bax: sxem 1, 2).

SOSİAL İNFLYASİYA – məhsulun keyfiyyətinə, ətraf mühitin qorunmasına və s. olan yeni ictimai tələblərlə əlaqədar xərclərin artımının təsiri altında qiymətlərin yüksəlməsi.

SOSİAL İNFRASTRUKTUR – əmtəə və xidmətlərin istehsalını, əhalinin normal həyat şəraitini təmin edən sahələr qrupu. Buraya yaşayış və sosial-mədəni, pərakəndə ticarət, ictimai iaşə, təhsil, səhiyyə və s. təyinatlı obyektlərin tikintisi, habelə istismara verilməsi aiddir. Bilavasitə maddi dəyərlər yaratmasa da, onun mövcud olmaması ya maddi dəyərlərin istehsalı zamanı problemlər yaradır, ya da ümumiyyətlə, istehsalı mümkünsüz edir.


SOSİAL KONSENSUS – cəmiyyətin müxtəlif sosial qruplarının, təbəqələrinin maraqlarının balansı, ictimai məhsulun və resursların bölgüsü ilə əlaqədar razılığın əldə olunması.

SOSİAL QRUPLAR – insanların tarixən müəyyən cəmiyyət çərçivəsində formalaşan, dayanıqlı məcmu qruplarıdır və ümumi maraqlara, davranış normalarına, sosial fəaliyyətlərə malikdirlər. Başqa sözlə, birgə fəa-

Dövlətin yaranmasının sosial-iqtisadi nəzəriyyəsi



Sxem 1



Sxem 2


liyyətin yerinə yetirilməsi, yaxud sosial və sosial-psixoloji xarakteristikası üzrə birləşən insanların birliyidir.

Müasir ictimai sistemlər sosial qrupların müxtəlifliyi ilə xarakterizə olunur, həm ölçülərinə (böyük, orta, kiçik), həm də keyfiyyət cəhətlərinə görə fərqlənirlər. Böyük sosial qruplar cəmiyyət (ölkə) miqyasında mövcud insan məcmusudur: siniflər, sosial təbəqələr, professional qruplar, etnik cəmiyyətlər (millət, qəbilə), yaş qrupları (gənclər, təqaüdçülər) və s.

Orta sosial qruplara, adətən, insanların ərazi və istehsal birlikləri aiddir (eyni kəndin, rayonun, çox da böyük olmayan şəhərin sakinləri, bir müəssisənin işçiləri və s.). Ərazi birlikləri, adətən, öz-özünə təşkil olunur, istehsal birlikləri məqsədyönlü yaradılır, hakimiyyətin iyerarxik strukturunun köməyilə tənzimlənir. Çoxsaylı kiçik qruplara aiddir: ailə, maraqlara görə birliklər, qonşu birlikləri, dostluq kompaniyaları və s. Kiçik qrupun spesifik cəhəti onun üzvlərinin bilavasitə şəxsi ünsiyyətidir. Bunun da təsiri altında kiçik qrupun daxili strukturu təşkil olunur və o, xarici mühitin təsirini özündə hiss edir. Kiçik sosial qruplar həm əvvəldən müəyyən olunmuş əlavələrə, nizamnamələrə uyğun olaraq fəaliyyət göstərən formal, həm də şəxsi simpatiya və antipatiya əsasında formalaşan qeyri-formal qruplara bölünür. Cəmiyyətdə onun sosial strukturunun əsas elementini təşkil edən, ictimai istehsal sistemində öz yerinə, istifadə vasitələri üzərində mülkiyyət formalarına, sosial təbəqələşmə meyarlarına görə fərqlənən sosial qruplar xüsusi yer tutur.

Eyni sosial qruplara daxil olan insanlar oxşar sosial vəziyyətə malikdirlər. Sosial vəziyyət iyerarxik sosial strukturda yerdir. Aşağıdakı sosial əhəmiyyətli amilləri özündə birləşdirən kompleks şərtlərlə xarakterizə olunur: a) cəmiyyətdə funksional rola malik sosial vəziyyət (hakimiyyət funksiyalarının mövcudluğu, yerinə yetirilən işin xarakteri, gəlir, sərvət, təhsil səviyyəsi və s.); b) atributiv (o cümlədən birincidən törəmələr) həyat tərzi və üslubu, istehlak xarakteri, asudə vaxtdan istifadə formaları və s.

Cəmiyyətin xarakterindən asılı olaraq, sosial vəziyyəti müəyyənləşdirən amillər yerlərini dəyişə bilər. Əsas yeri bir tərəfdən, cəmiyyətdə sosial vəziyyətin əksi və qiyməti kimi, digər tərəfdən, bu vəziyyətin tərəflərindən birini göstərən mühüm



Sxem 1

nemət kimi çıxış edən sosial nüfuz tutur.

Oxşar sosial vəziyyətə malik insanlar yüksək həyat şəraitinin qiymətləndirilməsində, maraqlarda, tələbatlarda ümumi cəhətlərə malik olurlar. Sosial vəziyyətin oxşar olması sosial qrupların bütün nümayəndələri üçün xarakterik bir sıra ümumi cəhətlərə malik şəxsiyyətin sosial tipinin formalaşmasına gətirib çıxarır.

Müasir cəmiyyətlərdə sosial qruplar, bütün sosial strukturda olduğu kimi, dinamik inkişafa malikdirlər. Sosial qrupların kəmiyyət və keyfiyyət dəyişikliklərinin əsas amil, onların sosial strukturdakı yeri istehsalın maddi-texniki bazasında olan dəyişikliklər, sosial fəaliyyət, xüsusilə sosial səfərbərlikdir. Sosial səfərbərlik fərd və ya sosial mövqe qrupu tərəfindən sosial strukturda tutulan yerin dəyişilməsidir.

Son onilliklərdə bazar iqtisadiyyatlı sənaye cəhətdən inkişaf etmiş ölkələrdə mühüm keyfiyyət dəyişiklikləri baş vermiş, cəmiyyətin sosial strukturunda əsas yeri orta təbəqə tutmağa başlamışdır.

SOSİAL MƏKTƏB – XIX əsrin sonunda, XX əsrin əvvəllərində bir qrup alman iqtisadçısının Qərbin iqtisadi fikirlərini əsas tutan istiqamət. Onların ümumi ideyası hüququn üstünlüyündən ibarət idi, iqtisadi münasibətlər isə əsasən sosial-hüquqi münasibətlər kimi izah edilirdi. R.Ştammlerin ideyalarının təsiri altında olan ən nüfuzlu qrupa R.Ştolsman, O.Şpann, A.Ammon, K.Dil, F.Petri daxil idilər. Bu qrupdan

olan nümayəndələr iqtisadi kateqoriyalarda sosial aspektlərin öyrənilməsinin metodoloji əhəmiyyətini, iqtisadi hadisələrin formasının mövcudluğunun sosial-hüquqi quruluşdan asılılığını qeyd edirdilər. Onlar kapitalizmin kateqoriyalarını – bazar mübadiləsi və mübadilə dəyərini, kapitalı, əmək haqqını, mənfəəti müəyyən sosial-hüquqi münasibətlərin – xüsusi mülkiyyətin, cəmiyyət üzvləri arasında sərvətin qeyri-bərabər bölgüsünün, fəhlələrin kapitalist üçün işləmək zərurətinin və s. əksi kimi nəzərdən keçirirdilər. Həmin kateqoriyalara buradan yaranan tarixi yanaşma, sosial məktəbin nümayəndələrinə kapitalizmin xüsusi mülkiyyət təkamülünün, dövlət tənzimlənməsi mexanizmlərinin və s. təsiri altında yeni ictimai quruluşa transformasiyası imkanları haqqında nəticə çıxarmağa imkan verdi.

İqtisadi, sosial, hüquqi, etik və digər kateqoriyaların qarşılıqlı asılılığını vurğulayaraq sosial məktəbin nümayəndələri iqtisadi münasibətlərin hərəkətinin müstəqil xarakterini inkar edir, istehsalın, texnika və texnologiyanın, elm və əmək potensialının, eləcə də iqtisadi artımın digər maddi amillərinin inkişafdakı rolunu kifayət qədər nəzərə almırdılar. Sosial məktəb Qərb iqtisad elminin institusional-sosial istiqamətinin sələfi idi və kapitalizmin transformasiyası nəzəriyyəsinin əsasını qoydu.

SOSİAL MƏQSƏDLƏR – əhalinin həyat şəraiti, keyfiyyəti və səviyyəsi ilə əlaqədar proseslərin istiqamətinin və yönümünün seçimini müəyyən edən məqsədlər. Əhalinin həyat səviyyəsinin tam qiymətləndirmə göstəriciləri sistemi mövcuddur: milli gəlirin və ümumi məhsulun istehsalı və istifadəsi göstəriciləri (istehsalın qiymətləndirilməsi); əhalinin gəlir və xərclərinin səviyyəsi, "ərzaq səbəti"nin kəmiyyəti (tələbatların inkişafının qiymətləndirilməsi); maddi nemətlərin və xidmətlərin istehlakı səviyyəsi (istehlakın real səviyyəsinin qiymətləndirilməsi); əhalinin məşğulluq səviyyəsi və vaxt büdcəsi (əhalinin sosial şəraitinin qiymətləndirilməsi); həyat səviyyəsinin demoqrafik qiymətləndirilməsi kimi əhalinin sayının, tərkibinin və təkrar istehsalının (əhalinin doğum, ölüm və ömür müddəti) göstəricisi və s.

Bazar iqtisadiyyatının təşəkkül tapdığı dövrdə sosial məqsədlər sosial siyasət vasitəsilə sosial-iqtisadi inkişaf zamanı reallaşır.

SOSİAL MƏZUNİYYƏTLƏR – müxtəlif sosial amillərin nəzərə alınmasına görə verilən məzuniyyət. Məsələn, işləyən qadınlara hamiləlik dövründə və doğuşdan sonrakı dövr üçün 126 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 56 təqvim günü) müddətində ödənişli məzuniyyət verilir. Doğuş çətin olduqda, iki və daha çox uşaq doğulduqda, doğuşdan sonrakı məzuniyyət 70 təqvim günü müddətində verilir. İki aylığadək yaşında uşağı övladlığa götürən, yaxud övladlığa götürmədən böyüdən qadınlar doğuşdan sonra müəyyən edilmiş 56 günlük sosial məzuniyyətdən istifadə edə bilərlər.

SOSİAL MİNİMUM – sosial cəhətdən vəziyyəti məqbul səviyyədə olan ailələrin, yaxud tənha şəxslərin tipik tələbatlarının ödənilməsinə yönəldilmiş istehlak dəsti; *yaşayış minimumundan* sosial-mədəni təyinatlı əmtəə və xidmətlərin daha geniş çeşidi əhalinin cins, yaş, əmək fəallığı və s. üzrə nümunəvi strukturunun uçotu ilə fərqlənir. Sosial siyasət sahəsində mütəxəssislərin çoxu sosial minimuma yalnız informasiya-analitik kateqoriya kimi baxır.

Sosial minimum hesablamaları 1960-cı illərin əvvəllərində Şərqi və Mərkəzi Avropa ölkələrində aparılmışdır. İnkişaf etmiş ölkələrdə "sosial minimum" termini yoxdur. Əhalinin yoxsulluq problemləri üzrə geniş nəşrlərdə bu terminə ən yaxını "həyatın minimum standartları" anlayışıdır. Bu anlayış, məsələn, fransız ədəbiyyatında müəyyən sosial kateqoriyanın istehlak vərdişlərinə cavab verən nemətlərin kəmiyyət və keyfiyyət dəsti kimi başa düşülür. Buna orta qazanc səviyyəsində olan ailələrin aşağı, son yaşayış həddi kimi baxıla bilər. Bu həddən sonra onlar aztəminatlı dərəcəsinə düşür. İngilisdilli ədəbiyyatda "sosial minimum" anlayışına moderato (orta) kimi ifadə olunan dəst yaxındır. BMT nəşrlərində sosial minimum həyat səviyyəsinə bərabər qəbul olunur.

SOSİAL MOBİLLİK – sosiologiyada, demoqrafiyada və iqtisad elmlərində fərdlərin bir sosial qrup və təbəqədən, sosial-peşə qruplarından digərlərinə keçidinin, onların cəmiyyətin sosial strukturunda tutduğu yerin dəyişməsinin ifadəsi ("sosial yerdəyişmə" və "sosial hərəkət-

lilik" terminləri də tətbiq olunur). Sosial mobillik anlayışı 1927-ci ildə R.Sorokin tərəfindən "fərdin, yaxud sosial obyektin, yəni insan fəaliyyəti ilə yaradılmış və modifikasiya edilmişlərin hamısının bir sosial mövqedən digərinə" istənilən keçidini xarakterizə etmək üçün tətbiq olunmuşdu.

Sosial mobillik həm fərdin sosial strukturunun dəyişməsi, həm də şəxsi fəallığın ümumi meyilləri ilə bağlıdır. ***Şaquli sosial mobillik*** – sosial mövqelər sistemində "yuxarı", yaxud "aşağı"; ***üfüqi sosial mobillilik*** – fərdin eyni bir sosial səviyyədə hərəkət etməsidir. Onun, həmçinin, əsas və ikinci dərəcəli, tipik və təsadüfi, kütləvi və təktək istiqamətləri, kanalları da ayrılır. Sosial mobillik sosial mövqelərin bir iki (atalar və uşaqlar), üç (babalar, atalar və uşaqlar) nəsil çərçivəsində dəyişikliklərı əks etdirir.


SOSİAL MÜAVİNƏTLƏR – gəlirləri və həyat səviyyəsi (rifahı) aşağı olan ayrı-ayrı kateqoriya şəxslərə müvafiq qanunvericiliyə uyğun şəkildə sosial yardım göstərilməsi məqsədilə aylıq və ya birdəfəlik ödənilən pul vəsaiti. Müavinət ciddi məqsədli təyinat xarakterinə malikdir. Sosial müavinətlərin ödənilməsini şərtləndirən səbəblərə daxil edilir: müalicəyə ehtiyacın olması, himayədə olanları saxlamaq zərurəti, təqaüdə çıxmaq, işsizlik, xəstəlik, əlillik, zədələnmələr, uşağın doğulması və s. ilə əlaqədar işləməyin mümkün olmaması, ailə başçısının ölümü, təhsil xərclərinin ödənilməsi zərurəti, mənzilə və uzunmüddətli zəruri istehlak mallarına ehtiyacın olması.

Sosial müavinətlər natural formada da həyata keçirilir. Yəni pulsuz və ya ucuz qiymətlərlə mənzil, uzunmüddətli zəruri istehlak malları (soyuducu və s.) verilir.

Sosial müavinətlərə əhalinin dövlət büdcəsindən, dövlət və qeyri-dövlət sosial sığorta fondlarından, sığorta şirkətlərindən, həmkarlar ittifaqlarından, digər ictimai təşkilatlardan, xeyriyyə fondlarından aldığı təqaüd və müavinətlər daxil edilir: qocalığa, uzun müddət işləməyə, ailə başçısını itirməyə görə təqaüdlər; xüsusi təqaüdlərə əlilliyə görə, həlak olmuş hərbçilərin ailələrinə verilən təqaüd və müavinətlər; iş qabiliyyətinin müvəqqəti itirilməsinə görə, əmək zədələri və peşə xəstəlikləri zamanı verilən müavinətlər; hamiləliyə və doğuşa görə, uşaqlara qulluğa görə, aztəminatlı ailələrdə uşaqlara, uşaqlıqdan əlilliyə, çoxuşaqlı və tənha analara və s. müavinətlər; sanatoriya və istirahət evlərinə göndərişlərin ödənilməsi, müalicəyə və istirahətə getmək pulunun ödənilməsi; təqaüdlərin verilməsi. MHS-də istifadə edilən göstəricidir.



SOSİAL MÜDAFİƏ – bütün vətəndaşları müəyyən həyat səviyyəsi ilə təmin edən və ayrı-ayrı qrupların xüsusi dəstəklənməsini həyata keçirilməsinə yönələn iqtisadi, sosial və hüquqi tədbirlər sistemi. Əhalinin sosial müdafiəsinin dövlət sistemi gəlirlər və həyat səviyyəsinin gözlənilməsi, məşğulluğun və normal həyat fəaliyyətinin təmin olunması istiqamətində tədbirləri nəzərdə tutur. Sosial müdafiə geniş mənada fərdin özünün və ailəsinin maddi tələbatını müstəqil şəkildə təmin edə bilən sosial müavinətlər sistemidir. Bu mənada, sosial müdafiə sistemi, faktiki olaraq, şəxsiyyət hüquqları ilə üst-üstə düşür. Dar mənada isə, sosial müdafiə xüsusilə çətin vəziyyətdə olan və kənardan köməksiz yaşaya bilməyən əhali qruplarının heç olmazsa, qənaətbəxş yaşayışını inzibati yolla təmin etməyə yönəldilmiş



Sxem 1

dövlət siyasətidir. Sosial müdafiə dövlətin beynəlxalq və milli normalar əsasında insanların əsas sosial hüquqlarının təmini üzrə mühüm funksiyalarından biridir.

Demokratik dövlətin qanunvericiliyi tərəfindən məşğulluğa, əməyə görə mükafatlandırma, istirahətə görə hüquqlar, yaşa, xəstəliyə, işsizliyə, ailə başçısını itirməyə, uşaqların tərbiyəsinə, təhsilə, sağlamlığın mühafizəsinə, mədəni həyatda iştiraka görə sosial təminatlar, habelə mənzil hüququ nəzərdə tutulur. Sosial müdafiə hüquqi, təşkilati və maliyyə-iqtisadi əsaslar üzərində qurulur. Hüquqi əsası sadalanan istiqamətlər üzrə sosial yönümlü qanunvericilik təşkil edir; təşkilati idarəetmə bütün səviyyələrdə və uyğun institutlarda sosial blokun mövcudluğunu nəzərdə tutur; maliyyə-iqtisadi – sosial müdafiə mənbələrinin səfərbər edilməsidir. Burada əsas yeri dövlət büdcəsinə ödənilən vergilər və uyğun sığorta fondlarına keçirilən ödənişlər tutur. Dövlət bu və ya digər formada sosial müdafiə sahəsində xüsusi təşəbbüsü həvəsləndirir: xeyriyyəçilik, müəssisə və firmaların, şəxslərin sosial xərcləri.

Cədvəl 1


Azərbaycan Respublikası dövlət büdcəsinin təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat xərcləri

Göstəricilər	Ölçü vahidi	2001-ci il icra	2003-cü il icra	2011-ci il icra	2011-ci ilin 2001-ci illə müqayisəsi
Təhsil xərcləri	mln. manat	186,2	234,8	1327,3	7,1 dəfə
Səhiyyə xərcləri	mln. manat	42,0	55,3	507,2	12,1 dəfə
Sosial müdafiə və sosial təminat	mln. manat	146,1	214,0	1506,7	10,3 dəfə
ondan: sosial müdafiə xərcləri	mln. manat	103,0	153,6	1489,2	14,5 dəfə
Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət	mln. manat	22,0	31,1	197,2	9,0 dəfə



SOSİAL MÜNASİBƏTLƏR – qruplar və birliklər arasındakı inteqrativ (sinfi, milli kollektiv) münasibətlər.

Cəmiyyətdə müxtəlif mövqe tutan, onun iqtisadi, siyasi və mənəvi həyatında qeyri-bərabər rol oynayan, həyat tərzinə, gəlir mənbələrinə və səviyyəsinə, şəxsi istehlak strukturuna görə fərqlənən adamların qrupları arasındakı münasibətləri səciyyələndirir. Sosial münasibətlər maraqların uyğun gəlməsindən və toqquşmasından asılıdır.



Sxem 1

Sosial münasibətlər – cəmiyyətin müxtəlif həyat fəaliyyəti təbəqələrində yaranan sosial elementlər arasındakı qarşılıqlı əlaqə və asılılıq

Ona görə də münasibətlər qarşılıqlı əməkdaşlıq şəraitində keçən dostluq, habelə münaqişə xarakterli münasibətlər ola bilər. Sosial münasibətlərin xarakteri və bu münasibətlərdə insanın iştirakı sosiumun formalaşması və yenidən təşkili prinsiplərindən asılıdır. Müasir cəmiyyətdə belə prinsiplərdən başlıcası insanın və vətəndaşın hüquqları haqqında beynəlxalq bəyannamələrdir.

SOSİAL NEMƏTLƏR – fərdi nemətlərə zidd xarakteristikalara malik olduğundan, bazar sistemində, ümumiyyətlə, istehsal edilməyəcək bəzi ictimai mallar və xidmətlər. İctimai nemətlər bölünməzdir, çünki onlar o qədər iri vahidlərdən ibarətdir ki, adətən, onları ayrıca alıcıya satmaq mümkün deyil. İnsanlar bazarda hamburger, kompüter və ya avtomobil ala bilərlər, amma raketləri, sürətli avtomobil yollarını, kosmik teleskopları, yaxud hava nəqliyyatının idarə edilməsi sistemlərini ala bilməzlər.

Bundan əlavə, istisna prinsipi sosial nemətlərə şamil edilmir. Bu o deməkdir ki, sosial nemətlər yarandıqda fərdləri onlarla birgə əmələ gələn mənfəət qazanmaqdan uzaqlaşdırmağa kömək edən səmərəli üsul yoxdur. Fərdi nemətlərdən səmərə əldə edilməsi həmin nemətlər qazanıldıqdan sonra baş verir. İctimai nemətlərin səmərəsi bilavasitə həmin nemətlər istehsal edildikdən dərhal sonra cəmiyyətə daxil olmağa başlayır.

SOSİAL NORMALAŞDIRMA – ayrı-ayrı qruplar, kollektivlər və işçilər arasında müxtəlif sosial normaların yeridilməsi yolu ilə sosial münasibətlərin tənzimlənməsi. Buraya, birinci növbədə, daxili əmək intizamı qaydaları daxildir.

SOSİAL ÖDƏMƏLƏR – bu ödəmələr subsidiyalaşdırılmış və güzəştli qidalardan; müəssisənin öz məhsullarını işçilərinə güzəştlə satmasından; işçilərin iş yerinə gəlməsi və qayıtması xərclərinin ödənilməsindən; işçilərə faizsiz və ya faiz səviyyəsi aşağı ssudalar verilməsindən; firmanın nəqliyyatından istifadə etmək hüququ verilməsindən; xəstəlik vərəqələri üzrə müəyyən edilmiş səviyyədən əlavə ödənişdən; işçilərin və onların ailə üzvlərinin sağlamlığının firma hesabına sığortalanmasından və s. ibarətdir.

SOSİAL ÖDƏNİŞLƏR – büdcədən, büdcədənkənar dövlət fondlarından, eləcə də ictimai təşkilatlardan əhaliyə verilən (pul və ya natural formada) ödənişlər. Sosial ödənişlər: yaşa, əlilliyə, ailə başçısını itirməyə görə əmək pensiyalarını, sosial müavinətləri; ali və orta ixtisas məktəblərinin tələbələrinə, texniki peşə məktəblərinin şagirdlərinə ödənilən təqaüdlərin bütün növlərini; əhali tərəfindən alınan müavinətlərin bütün növlərini – məcburi dövlət

sosial sığorta haqlarını və dövlət büdcəsi hesabına verilən müavinətləri, uşaqlara aylıq müavinətləri, işsizliyə görə müavinətləri və s. kompensasiya ödənişlərini və güzəştləri; eləcə də sanatoriyalara, istirahət evlərinə putyovkaların (yol vərəqələrinin) dəyərinin tam və ya qismən kompensasiyasını; ictimai nəqliyyat xərclərinin kompensasiyasını və s. əvəzsiz ödənişləri (pul şəklində) əhatə edir.

Natural formada sosial ödənişlər əhaliyə pulsuz və ya güzəştli qiymətlərlə təqdim edilən fərdi əmtəə və xidmətlərdən, məsələn, təhsil, mədəniyyət, səhiyyə, idman, sosial təminat, mənzil-kommunal təsərrüfatı və s. sahələrdə xidmətlərdən ibarətdir.

SOSİAL PLANLAŞDIRMA – sosial sistemlərin mövcud cəmiyyətin tələblərinə uyğun gələn vəziyyətinə nail olmaq üçün metod və vasitələrin işlənib hazırlanması fəaliyyəti. Sosial planlaşdırmanın obyekti sosial münasibətlərdir. Sosial planlaşdırma həyat səviyyəsini, onun göstəricilərinin planlaşdırılmasını, əhalinin real gəlirlərinin xarakteristikasını, istehlakın səviyyəsini və artımı göstəricilərini, əmək şəraitinin yaxşılaşdırılmasını, işçilərin ixtisasının yüksəldilməsini, tibbi xidmət səviyyəsini, işçilərin mədəni-məişət şəraitinin yaxşılaşdırılmasını özündə birləşdirir.

Sosial planlaşdırmanın ilk mərhələsi planlaşdırma obyektinin qurulmasıdır. Sosial qruplar, təşkilatlar, institutlar, dəyər və normativ sistemin elementləri belə obyekt rolunu oynaya bilər. Obyektin modeli qurularkən aşağıdakıların müəyyən edilməsi vacibdir: 1) daha böyük sosial sistemin hansı hissəsinin obyekt ola bilməsi; 2) bu hissənin bütün sistemlə və onun yerinə yetirdiyi funksiyalarla qarşılıqlı əlaqəsi; 3) idarə olunan və olunmayan dəyişənlər, daha doğrusu, sistemin inkişaf amilləri.

Obyektin planlaşdırılması idarə olunan dəyişənlərə nəzərən təyin edilir. Obyekt haqqında məlumat əldə edildikdən sonra sosial planlaşdırma yerinə yetirilə bilər. Dörd növ sosial planlaşdırma fərqləndirilir: 1) obyektin məqsəd və vəzifələri; 2) obyektin fəaliyyət üsulları; 3) obyektin ehtiyatları; 4) obyektin təşkilati quruluşu.

Planlaşdırma dövrünün sonunda əldə edilməli olan vəziyyət planlaşdırmanın məqsədidir. Sosial planlaşdırma zamanı ümumi məqsəddən başqa aralıq məqsədlər də təyin edilir. Aralıq məqsədlər sosial planlaşdırmanın əhatə etdiyi dövrün müəyyən mərhələlərində əldə olunur. Sosial planlaşdırmada çatma üsulları proqram və fəaliyyət istiqamətlərinin işlənib hazırlanması ilə həyata keçirilir. Əgər obyekt sabit olarsa və onun dəyişməsi qabaqcadan müəyyənləşdirilərsə, onda proqram qəbul olunur. Sosial obyektlər çox mürəkkəbdirsə və onların inkişafını müəyyən etmək çətindirsə, onda proqram qəbul etmək düzgün deyildir. Bu halda, sosial planlaşdırma sosial siyasət şəklində qurulur. Belə siyasət fəaliyyətin müxtəlif dövründə vəziyyətə uyğun şəkildə dəyişdirilə bilər.


Ehtiyatların (kadr, pul və s.) planlaşdırılması, bir qayda olaraq, üç mərhələdə aparılır. Birinci mərhələdə tələbatlar müəyyənləşdirilir. İkinci mərhələdə ehtiyatların alınması və istehsalı həyata keçirilir. Sonuncu mərhələdə ehtiyatların bölüşdürülməsi planlaşdırılır. Təşkilat quruluşunun planlaşdırılması ən mürəkkəb səciyyə daşıyır. Bu zaman planlaşdırma dövründə görüləcək bütün işlərin növləri, planlaşdırılan obyekt haqqında informasiyanın əldə olunma yolları müəyyənləşdirilir. Sosial planlaşdırma adamların həyatına təsir göstərdiyinə görə, onun etik və hüquqi təminatına diqqət yetirilməlidir. Bu zaman cəmiyyətdəki mədəni normalar və müxtəlif submədəniyyətlər mütləq nəzərə alınmalıdır. Qeyd etmək lazımdır ki, sosial uyğunlaşma və sosial müdafiə məsələlərinin sosial planlaşdırılmasına təcrübədə daha çox rast gəlinir.

SOSİAL PROQNOZLAŞDIRMA – sosial tənzimləmədə istifadə olunan metodlardan biri. Sosial proqnozlaşdırma müəssisələrin sosial inkişafı ilə bərabər, konkret istehsal kollektivinin nəzərə alınması ilə burada baş verən prosesləri qabaqcadan görmək və onları kollektivin gələcək planlarında əks etdirməkdən ibarətdir. Əmək kollektivlərinin, müəssisələrin və sahələrin sosial inkişaf planları cəmiyyətin sosial proqnozları əsasında tərtib edilir.

SOSİAL REABİLİTASİYA – təqsiri olmadığı halda zərər çəkmiş insanların hüquqlarının və reputasiyasının bərpa edilməsi, onlara dəymiş maddi ziyanın və mənəvi zərərin kompensasiya edilməsi.

SOSİAL RİSKLƏR – əmək qabiliyyətinin müvəqqəti itirilməsi, istehsalatda bədbəxt hadisələr, işin və ailə başçısının itirilməsi, qocalığa görə əmək qabiliyyətinin itirilməsi və s. Sosial risklər kütləvi sosial hal olması ilə səciyyəvidir və cəmiyyətin bütün üzvlərinə aiddir. Buna görə də etibarlı və davamlı sosial sığorta sisteminin yaradılması inkişaf etmiş hər bir dövlətdə sosial risklərdən müdafiənin ən mühüm istiqamətidir.

SOSİAL ROL – konkret statusa oriyentasiya edən davranış modeli; bu və ya digər insanın malik olduğu status ilə assosiasiya edilən, gözlənilən davranış. Sosial rolun məzmunu sosiallaşma prosesində mənimsənilmiş və insanın yerinə yetirdiyi sosial funksiyaların, eləcə də bu funksiyalara müvafiq davranışın məcmusudur. Adətən, hər bir status bir neçə rola malik olur (R.Merton bunu rollar toplusu adlandırır). Rolların öyrənilməsi sosiallaşma prosesində baş verir. Rol insanla cəmiyyətin qarşılıqlı fəaliyyətinin ən mühüm aspektlərindən biridir. Cəmiyyət insana münasibətdə ondan gözlənilən rolları irəli sürür. Bu rollar sərəncamlarda, qaydalarda,



Sxem 1

qanunlarda və əxlaq normalarında təsbit olunur. Bundan əlavə, ehtimal edilən formal rollar (qanunlar) və qeyri-formal rollar (davranış etikası, etiket qaydalar) mövcuddur (bax: sxem 1).

SOSİAL SAHƏ – öz aralarında birbaşa əlaqəli olan, insanların həyat tərzini və həyat səviyyəsini, onların maddi rifahını və istehlak səviyyəsini müəyyənləşdirən sahələrin, müəssisələrin və ya təşkilatların məcmusu. Sosial sahəyə, ilk növbədə, təhsil, səhiyyə, mədəniyyət, bədən tərbiyəsi, ictimai iaşə, kommunal və sosial xidmətlər, sərnişin nəqliyyatı, rabitə kimi xidmətlər aiddir.

SOSİAL SƏMƏRƏ – bilavasitə istehlakçıların və bütün üçüncü şəxslərin müəyyən məhsulun istehsalı, istehlakı ilə əlaqədar ümumi daxili və xarici mənfəətini xarakterizə edir.

SOSİAL SƏMƏRƏLİLİK – həyati keyfiyyətləri ehtiva edən sosial səmərəlilik cəmiyyətin xidmət və sosial sferasında tələblərin dolğun ödənilməsini səciyyələndirir. Məhsulun keyfiyyəti, əmək məhsuldarlığı, əməyin fond təminatı, fondtutumu, fondverimi, mənfəət və zərərlər, aktivlərin rentabelliyi, həyat səviyyəsi göstəricilərini xarakterizə edən sosial səmərəlilik iqtisadi səmərəliliklə qarşılıqlı rabitə, təmas və asılılıqdadır.

SOSİAL SİFARİŞ – intellektual qabiliyyətlərin tətbiq olunmasını tələb edən iş. Məsələn, incəsənət, mədəniyyət sahəsində dövlətin rəsmi siyasətinin ideoloji istiqamətini nəzərə alan iş.

SOSİAL SIĞORTA – sosial risklərdən qorunmaq üçün həyata keçirilən tədbir. Qanunvericilikdə nəzərdə tutulmuş hallarda vətəndaşların itirilmiş əmək haqlarının, gəlirlərinin və ya əlavə xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat forması.

Sosial sığorta məcburi dövlət sığortası və könüllü (əlavə) sığorta formalarında olur.

Məcburi dövlət sosial sığortası işəgötürənlər tərəfindən bütün fərdi əmək müqaviləsi (kontraktı) üzrə işləyənlər barəsində həyata keçirilir. Qanunvericilikdə nəzərdə tutulmuş hallarda digər şəxslər də məcburi dövlət sosial sığortasına cəlb olunurlar.

Sosial sığortanın prinsipləri aşağıdakılardır:

– sosial sığortanın müntəzəmliyinə dövlət təminatı;
– sosial sığortanın ümumiliyi;
– əmək qabiliyyətinin itirildiyi hər bir halda işçilərə sosial sığorta təminatının verilməsi;
– sosial sığorta subyektlərinin hüquq bərabərliyi;
– dövlət sosial sığortasının məcburiliyi.

Məcburi dövlət sosial sığortasının idarə edilməsində ictimai təşkilatların iştirakının təmini.

SOSİAL SIĞORTA FONDU – bəzi ölkələrdə (məsələn, Rusiyada) federal mülkiyyətdə olan dövlət büdcədənkənar fondu; əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, hamiləliyə və doğuma görə, uşağın anadan olması zamanı, 3 yaşına qədər uşağa baxmağa görə, eləcə də digər sosial sığorta məqsədləri üçün yaradılır.

SOSİAL SIĞORTA HADİSƏSİ – elə bir haldır ki, onun baş verməsi ilə sığorta olunanın sığorta təşkilatlarından sığorta ödəməsi almaq hüququ yaranır.

Sosial sığorta hadisəsinə aşağıdakılar daxildir:

– pensiya yaşına çatmaq;
– əlil olmaq;
– ailə başçısını itirmək;
– əmək qabiliyyətinin müvəqqəti itirilməsi;
– hamiləlik və doğum;
– uşağın anadan olması;
– uşağa qulluq;
– ölüm;
– sanatoriya-kurort müalicəsi zərurəti.

Məcburi dövlət sığortası qanunvericilikdə göstərilən bütün hadisələr üzrə, könüllü (əlavə) sosial sığorta isə tərəflərin seçdiyi sığorta hadisələri üzrə aparılır.

Sosial sığorta hadisəsi baş verdikdə aşağıdakı sığorta ödəmələri verilir:

– qanunvericiliyə uyğun olaraq dövlət pensiyaları;
– könüllü (əlavə) sosial sığorta əsasında dövlət pensiyalarına əlavələr;
– əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət;
– hamiləliyə və doğuma görə müavinət;
– uşağın anadan olmasına görə birdəfəlik müavinət;
– qanunvericilikdə nəzərdə tutulmuş yaş həddinə çatana qədər uşağa qulluqla əlaqədar müavinət;
– dəfn üçün müavinət;
– sığortaolunanlar üzrə sanatoriya-kurort müalicəsi xərclərinin tam və ya qismən ödənişi.

Ölkə qanunvericiliyi ilə sosial sığorta üzrə təminatın başqa növləri də müəyyən edilə bilər.

SOSİAL SIĞORTA STAJI – əmək pensiyası hüququnun

Sosial sistem (yunan dilindən *sistem* – bütöv, hisslərdən təşkil olunmuş; birləşmə) – bir-biri ilə münasibət və əlaqələrdə olan, özünəməxsus sosial vəhdət və cəmiyyət birliyini təşkil edən, cəmiyyətin əsas sosial elementlərinin məcmusu.



Sxem 1

müəyyənləşdirilməsi zamanı nəzərə alınan iş və ya digər fəaliyyət dövrlərinin (müvafiq icra hakimiyyəti orqanına məcburi dövlət sosial sığorta haqları ödəmək şərti ilə), eləcə də müvafiq qanunvericiliklə sığorta stajına daxil edilən digər dövrlərin məcmusu.

SOSİAL SİĞORTANIN FUNKSİYALARI – bu funksiyalara aiddir: 1) zəmanət; 2) iqtisadi; 3) tənzimləyici; 4) akkumulyasiya (toplayıcı); 5) investisiya.

SOSİAL SİSTEM – istehsalın əsas sferalarından biri, qeyri-istehsal sferasının məcmusu olan sahələrin sistemi. Sosial sistemin sahələrinin tərkibi bu sferanın sahələrinin təsnifatlaşmasının dəyişməsinə uyğun olaraq dəyişir. 1990-cı illərin əvvəllərində Azərbaycanda SSRİ Dövlət Statistika Komitəsinin təsnifatı fəaliyyət göstərirdi. Buna uyğun olaraq maddi istehsal sistemi 12 iri sahəni, qeyri-istehsal sferası isə 2 qrup sahəni ehtiva edirdi. Bunların sahələri və xidmətləri cəmiyyətin ümumi, kollektiv tələbatlarını (geologiya və yerin təkinin kəşfiyyatı; su təsərrüfatı; idarəetmə, elm və elmi xidmət; kreditləşmə və s.), eləcə də əhalinin mədəni-məişət və sosial tələbatlarını (mənzil-kommunal təsərrüfatı, məişət xidməti, təhsil, mədəniyyət və incəsənət, sərnişin nəqliyyatı, rabitə, səhiyyə, sosial sığorta və s.) ödəyirdi. BMT-nin beynəlxalq təsnifatına (Beynəlxalq Standart Təsərrüfat Təsnifatı – BSTT) uyğun olaraq bütün fəaliyyət istiqamətləri müəyyən fəaliyyət növünü əhatə edən 10 sahəyə bölünmüşdür: dağ-mədən sənayesi, emal sənayesi, meşə və kənd təsərrüfatı, ovçuluq və balıqçılıq, elektrotexnika, qaz və su təchizatı, tikinti, topdansatış ticarət və pərakəndə ticarət, maliyyə, sığorta, daşınmaz əmlakla bağlı əməliyyatlar, kommersiya xidmətləri (20 növ), nəqliyyat, anbar təsərrüfatı, rabitə (20 növ), kommunal, ictimai, şəxsi xidmət (49 növ) və s. Azərbaycanla beynəlxalq təsnifatlaşma arasında müəyyən fərq ondan ibarətdir ki, respublika bazar münasibətlərinə keçir, bunlar da ictimai istehsalın xarakterinə və strukturuna təsir göstərir. Buna görə də hazırda "sosial sfera", "qeyri-istehsal sferası" anlayışları ilə yanaşı, idarəetmə praktikasında "sosial infrastruktur" anlayışı mövcuddur (ticarət və ictimai iaşə, məişət xidməti, səhiyyə, təhsil, sosial təminat və s. obyektlərin məcmusu). Sosial sistemin iqtisadiyyatının tədqiqat obyektlərinə bu sferanın sahələrində mülkiyyət, sosial sistem sahələrinin obyektlərində əməyin idarə edilməsi, fəaliyyət növü, xarakteri nəzərə alınmaqla əməyin təşkili və ödənilməsi, xidmətlərin keyfiyyəti, məhsuldarlığı, eləcə də maliyyələşmə, maliyyə-kredit münasibətləri, tariflər sistemi, sosial sistem

müəssisələrinin gəlirlərinin və mənfəətinin bölgüsü üsulları, normativləri və s. məsələlər daxildir.

SOSİAL SİYASƏT – dövlətin ümumi siyasətinin bir hissəsi. Sosial siyasət dövlətin cəmiyyətdəki sosial proseslərin idarə edilməsi, maddi və mənəvi tələbatların təmini, cəmiyyətin hər bir üzvünə özünün şəxsiyyətin normal təkrar istehsalı və inkişafı üçün lazımi sosial-iqtisadi hüquqlarının realizəsinə imkan verən sosial diferensiasiya proseslərinin tənzimlənməsi üzrə fəaliyyətidir. Bu siyasət əhalinin əsas təbəqələrinin, qrup və kateqoriyalarının həyat şəraitinə təsirlə bağlıdır. Dövlətin sosial siyasətinin mahiyyəti həm də sosial qruplar, cəmiyyətin təbəqələri arasında və bu təbəqələrin daxilində münasibətlərin gözlənilməsindən ibarətdir. Sosial siyasəti həyata keçirərkən dövlət sosial-əmək münasibətlərinin tənzimlənməsi və ictimai istehsalda iştirak etmək üçün iqtisadi stimulların yaradılması kimi məsələləri həll edir. Sosial siyasətin əsas prinsipləri hər bir cəmiyyət üzvünün minimal yaşayış səviyyəsinin təmin olunması, gəlirlərin qeyri-bərabərliyinin mümkün qədər azaldılması, əmək qabiliyyətli hər bir kəsin səmərəli iqtisadi fəaliyyəti üçün şəraitin yaradılmasından ibarətdir.

Sosial siyasət, əsasən, insana, onun qanuni və təbii hüquqlarının müdafiəsinə yönəlmişdir. Sosial siyasətin məqsədi hər bir cəmiyyətin ən ali dəyəri olan insanı dəstəkləmək və inkişaf etdirməkdir. Sosial siyasət modelinin praktik reallaşdırılması ölkənin siyasi quruluşundan, iqtisadi inkişaf səviyyəsindən, mülkiyyət münasibətlərindən, idarəetmənin strukturundan, mədəniyyətdən, tarixi xüsusiyyətlərdən və ənənələrdən asılıdır.


Sosial siyasətin *əsasını* istehsal edilmiş ictimai məhsulun bölgüsü təşkil edir. Bu bölgünün prinsipləri müxtəlifdir. Onları şərti olaraq aşağıdakı modellərə aid etmək olar:

1) liberal model – bu modeldə əsas diqqət fərdə və dövlətin əhalinin həyatına təsirinin minimuma endirilməsinə yönəldilir;

2) sosial-demokratik model (bu modelin bir variantı sosial yönümlü bazar iqtisadiyyatıdır) – gəlirlərin əhalinin müxtəlif qrupları arasında yenidən bölgüsündə dövlətin müəyyən rol oynamasını, sosial cəhətdən zəif qrupların tələbatının hesaba alınmasını nəzərdə tutur;

3) dövlət mülkiyyətinin üstünlüyünə, istehsalın və bölgünün mərkəzləşdirilmiş şəkildə tənzimlənməsinə əsaslanan model;

4) inkişaf etməkdə olan ölkələrdə istifadə edilən modellər. Bu halda, resursların vəziyyətindən asılı olaraq sosial siyasətin məqsədi yoxsulluğa qarşı mübarizə, kənd təsərrüfatı is-



Sxem 1

Keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

FƏRMANI

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra keçmiş Sovet İttifaqından miras qalmış problemlərdən biri ötən əsrin doxsanıncı illərinin əvvəllərində keçmiş SSRİ məkanında yaşanan iqtisadi və siyasi böhran, milli zəmində törədilmiş iğtişaşlar, İttifaq tərkibində olan respublikaların ayrılması nəticəsində uzun illər ərzində formalaşmış təsərrüfat əlaqələrinin pozulması və bir ictimai-iqtisadi inkişaf modelindən digərinə keçilməsi ilə əlaqədar baş vermiş yüksək inflyasiya səbəbindən Azərbaycan Respublikası vətəndaşlarının keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankında olan əmanətlərinin kəskin şəkildə ucuzlaşması olmuşdur. Keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankında saxlanılmış bank əmanətləri ötən dövrlərdə Azərbaycan dövləti tərəfindən bir neçə dəfə indeksləşdirilmiş və onlara görə kompensasiyalar verilmiş (1993-1997-ci illərdə), əmanətçilərin bir qismi qeyd olunan kompensasiyanı almış, böyük bir hissəsi əmanətləri və onlara görə verilən kompensasiyaları almaq hüquqlarından istifadə etməmiş və keçən müddət ərzində həmin əmanətlərin dəyəri xeyli azalmışdır. Qeyd etmək zəruridir ki, Azərbaycan Respublikası vətəndaşlarının keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankında əmanətləri yerləşdirdikləri dövrdə qüvvədə olmuş SSRİ-nin "Banklar və bank fəaliyyəti haqqında" Qanununda və Azərbaycan Respublikasının "Banklar və bank fəaliyyəti haqqında" 1992-ci il 7 avqust tarixli Qanununda Əmanət Bankının öhdəliklərinə görə dövlətin məsuliyyəti nəzərdə tutulmamışdır.

Son dövrlərdə ölkəmizin sosial-iqtisadi inkişafında qazanılmış uğurlar, əldə olunmuş makroiqtisadi sabitlik, Azərbaycan dövlətinin maliyyə imkanlarının artması əhalinin inflyasiya nəticəsində ucuzlaşmış bank əmanətlərinə görə onlara dövlət tərəfindən əlavə yardım ödənilməsi üçün şərait yaratmışdır. Bu uğurların əldə edilməsində Azərbaycan Respublikası vətəndaşlarının töhfəsini nəzərə alaraq, Azərbaycan dövləti keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsini təklif etmək niyyətini bəyan edir.Qeyd olunanları nəzərə alaraq Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 1992-ci il 1 yanvar tarixinə keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının əmanətçiləri olan və həmin Bankın hüquqi varisi "Kapital Bank" Açıq Səhmdar Cəmiyyətində bu Fərman qüvvəyə mindiyi tarixə şəxsi əmanət hesablarının qalıqlarını saxlamış Azərbaycan Respublikası vətəndaşlarına və ya onların vərəsələrinə, həmin hesabdakı qalıqlar nəzərə alınmaqla, bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilmiş Qaydalara uyğun olaraq fərdi birdəfəlik ödəmələr verilsin.2. "Keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).
3. Müəyyən edilsin ki:
3.1. əmanətçilərə fərdi birdəfəlik ödəmələrin (bundan sonra – birdəfəlik ödəmələr) verilməsi 2012-ci ilin iyun ayından başlayır və 2013-cü il 31 dekabr tarixinədək başa çatdırılır;
3.2. keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının hüquqi varisi olan "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti birdəfəlik ödəmələrin verilməsi üzrə müvəkkil bank hesab edilir.
4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, 15 gün müddətində:
4.1. birdəfəlik ödəmələrin verilməsi zamanı yaranmış mübahisəli məsələlərə baxılması və bu işlərə ümumi nəzarətin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin nəzdində aidiyyəti dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə həmin ödəmələrin verilməsi başa çatanadək fəaliyyətdə olacaq Xüsusi Komissiyanın (bundan sonra – Xüsusi Komissiya) yaradılmasını təmin etsin;
4.2. Xüsusi Komissiyanın fəaliyyət qaydasını təsdiq etsin;
4.3. birdəfəlik ödəmələrin verilməsi və bu ödəmələrin verilməsi işinin təşkil edilməsi üçün dövlət büdcəsindən müvafiq vəsaitlərin ayrılması məsələlərini və bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.
5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki:
5.1. birdəfəlik ödəmələrin dövlət büdcəsindən maliyyələşdirilməsini "Kapital Bank" Açıq Səhmdar Cəmiyyətinin sifarişləri, habelə Xüsusi Komissiyanın rəyi əsasında həyata keçirsin;
5.2. birdəfəlik ödəmələrin verilməsi zamanı əmanətçilərin müraciətləri ilə bağlı operativ tədbirlər görülməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyində qaynar xətt yaradılmasını təmin etsin;
5.3. birdəfəlik ödəmələrin verilməsi vəziyyətinə dair məlumatların mütəmadi olaraq kütləvi informasiya vasitələrində yerləşdirilməsini təmin etsin.

İlham Əliyev

Bakı şəhəri, 14 mart 2012-ci il

Azərbaycan Respublikasının Prezidenti



Sxem 2

tehsalının inkişaf etdirilməsi və başqa məsələlərdir.

Azərbaycan Respublikasında dövlət siyasətinin prioritet istiqaməti kimi həyata keçirilən sosial siyasət ölkənin davamlı inkişafı və əhalinin həyat səviyyəsini xarakterizə edən göstəricilərin yüksəlməsi ilə müşayiət olunur.

SOSİAL STRATİFİKASİYA NƏZƏRİYYƏSİ – sosial nəzəriyyəyə görə, cəmiyyət peşəkar, təhsil, mənəvi-etik, dini, mülkiyyət və başqa əlamətlərdən asılı olaraq, ayrı-ayrı sosial qruplara (stratlara) bölünür. XX əsrin əvvəllərində meydana gəlmişdir. Sosial diferensiasiyanı stratifikasiyanın köməyilə izah edən iki əsas istiqamət mövcuddur. Birinci istiqamətin nümayəndələri (Y.Şumpeter, L.Yubenk, A.İnkels) subyektiv səbəbdən: insanların fizioloji və psixoloji fərqlərindən irəli gəlirlər. Sosial qrupun başlıca əlaməti kimi şüurun mahiyyəti, müəyyən tərzdə yaşamaq cəhdidir. Xarakterlər, qabiliyyətlər və s. bir-birinə oxşar olmadığından, insanlar bir-birinə bənzəməyən həyat tərzi seçir. Beləliklə, sosial diferensiasiya yaranır. İkinci istiqamət (Q.Pirson, U.Uorner) ön plana obyektiv səbəbləri çıxarır. Stratların sərhədləri bu və ya digər individlər tərəfindən yerinə yetirilən ictimai funksiyaların həmcinsliyi ilə müəyyən edilir.

SOSİAL ŞƏRTLƏR – əhalinin həyat səviyyəsini və onun keyfiyyətini, real gəlirlərini, maddi dəyərlər və xidmətlər istehlakının səviyyəsini, maddi dəyərlər və xidmətlərlə təminat səviyyəsini xarakterizə edən kəmiyyətlər toplusu. Sosial şərtlər, həmçinin, əmək şəraiti, işçilərin təsnifat və peşəkarlıq səviyyəsi, əhalinin təhsili mədəni səviyyəsi ilə də xarakterizə olunur. Sosial şərtlərin dövlət tənzimlənməsinin əsas istiqamətlərinə əhalinin gəlirlərinin tənzimlənməsi, təhsil, səhiyyə, yoxsulluqla mübarizə proqramlarının işlənib hazırlanması və s. aiddir.

SOSİAL TƏMİNAT – sosial müdafiə sisteminin bir bölməsi kimi, əmək qabiliyyəti olmayan əhalinin tələbatının ödənilməsi, həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər sistemi. Sosial təminat cəmiyyətin öz üzvləri qarşısında onların bir sıra zəruri tələbatlarının ödənilməsinə görə öhdəlikləridir. Sosial təminat vətəndaşlara yaşayış vasitələri mənbəyini itirdiyi və ya zəruri yaşayış minimumu olmadığı hallarda sosial əhəmiyyətli əlavə xərclər çəkilməsi, eləcə də tibbi yardım və digər sosial xidmətləri göstərməklə, güzəştlər müəyyən etməklə onların tələbatını ödəmək üçün sosial təyinatlı vəsaitlərin bölüşdürülməsi üzrə ictimai münasibətlərin məcmusunu əhatə edir. Sosial təminat sisteminin obyektləri ahıl yaşına çatmış insanlar: əmək qabiliyyətli yaşında xəstələnmiş şəxslər, o cümlədən əlillər; çoxuşaqlı ailələrin

uşaqları, əlil uşaqlar; yetimlər; qəyyumluğa ehtiyacı olan tənhalar; minimum gəlir əldə etmək imkanı olmayan yoxsullar; təbii fəlakətdən zərər çəkmiş vətəndaşlar; qaçqınlar və köçkünlər və s. ola bilər. Sosial təminat özü də üç hissəyə bölünür: sosial sığorta, sosial təminatın özü və sosial yardım. Sosial sığorta əmək münasibətlərində tətbiq olunur. Sosial təminat qanunvericiliklə müəyyən edilmiş əhali qruplarına tətbiq olunur. Sosial yardım isə əhali gəlirlərinin nəzərə alınması nəticəsində ünvanlı xarakter daşıyır. Sosial təminat pul ödənişləri (pensiya, müavinət, maddi yardım), natural ödənişlər (ərzaq, sənaye məhsulları, pulsuz yeməklər, dərmanlar, protezlər verilməsi), pulsuz xidmətlər (evdə xidmət; internat evi; gediş haqqına, telefon haqqına, yaşayış yerinə, sanatoriya-kurort müalicəsinə güzəştlər) və s. formasına malikdir.

SOSİAL TƏNZİMLƏMƏ – dövlət, qeyri-hökumət, özəl strukturlar tərəfindən sosial sferada resursların bölüşdürülməsi, sosial strategiya və sosial siyasətin hazırlanması və həyata keçirilməsi. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə tənzimləmənin ayrılmaz hissəsi hesab olunur. Buraya sosial normalaşdırma, sosial planlaşdırma və proqnozlaşdırma, sosial idarəetmə və stimullaşdırma aiddir.

SOSİAL TƏRƏFDAŞLIQ – əmək münasibətlərinin tənzimlənməsində muzdlu işçilər, işəgötürənlər (sahibkarlar) və dövlətin birgə iştirakı. İşçilərin, sahibkarların, dövlət nümayəndələrinin iştirakı ilə əmək münasibətləri sahəsində razılaşdırılmış qərarların qəbulu üçün əməkdaşlıq. Bu prosesdə üç tərəfin iştirakı nəzərdə tutulduğundan sosial tərəfdaşlığı "tripartizm" də adlandırırlar. Sosial əmək münasibətlərinin tənzimlənməsində kollektiv müqavilə üsulunu nəzərdə tutan sosial tərəfdaşlıq muzdlu işçilər və sahibkarlar arasında əmək haqqı və digər pul ödəmələrinin ölçüsü, əmək haqqı və gəlirlərin indeksləşdirilməsi, iş günü və iş həftəsinin müddəti, əmək şəraiti və əməyin mühafizəsi və s. məsələlər üzrə razılaşmaya əsaslanır. Dövlət isə burada arbitr rolunda çıxış etməklə müqavilələrin hüquqi statusunu müəyyənləşdirir.

Hazırda bir sıra ölkələrdə sosial tərəfdaşlıq şaquli müqavilələr sistemi vasitəsilə bütövlükdə cəmiyyət və ölkənin ayrı-ayrı regionlarında da qəbul olunur.

İlk dəfə 1891-ci ildə Roma katolik kilsəsinin papası X Lev "Rerum Novarum" adlı müraciətində işəgötürənlər və muzdlu işçilər arasında kompromisin əldə olunması ideyasını irəli sürmüşdür. Daha sonra L.Brentano, A.S.Piqu və digərləri də həmin ideyanı dəstəkləmiş, həmkarlar ittifaqlarının təşkili və iştirakı ilə işəgötürənlərlə muzdlu işçilərin nümayəndələrinin daxil olduğu xüsusi komissiyaların yaradılmasını zəruri hesab etmişlər. Lakin geniş tətbiqi İkinci Dünya müharibəsindən sonra başlamış və XX əsrin 60-70-ci illərindən daha çox inkişaf etmişdir.

Sosial tərəfdaşlıq sistemi Azərbaycanda iqtisadi islahatların ilk mərhələsindən tətbiq olunmağa başlanmışdır.

SOSİAL TRANSFERTLƏR – milli və ya yerli büdcələrdən, büdcədənkənar sosial dövlət fondlarından, eləcə də ictimai təşkilatların vəsaitlərinin əhaliyə verilməsindən (pul və ya natural formada) ibarət olan ödənişlər. Sosial transfertlər: qocalığa, əlilliyə, ailə başçısının itirilməsinə, uzun illər ərzindəki xidmətə görə pensiyaların bütün növlərini, sosial pensiyaları; ali və orta ixtisas məktəblərinin tələbələrinə, texniki peşə məktəblərinin şagirdlərinə ödənilən təqaüdlərin bütün növlərini; əhali tərəfindən alınan müavinətlərin bütün növlərini – sosial sığorta, uşaqlara aylıq müavinətlər, işsizliyə görə müavinətlər və s.; kompensasiya ödənişləri və güzəştlər, eləcə də sanatoriyalara, istirahət evlərinə, putyovkaların (yol vərəqələrinin) dəyərinin, yaxud onların dəyərinin bir hissəsinin ödənilməsi formasında ictimai nəqliyyat xərclərinin kompensasiyası və s. formada pul şəklində xeyriyyə yardımını əhatə edir.

Natural formada sosial transfertlər əhaliyə pulsuz və ya güzəştli qiymətlərlə təqdim edilən fərdi əmtəə və xidmətlərdən, məsələn, təhsil, mədəniyyət, səhiyyə, idman, sosial təminat, mənzil-kommunal təsərrüfatı və s. sahələrdə xidmətlərdən ibarətdir.

SOSİAL TURİZM – tam və ya qismən dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və ya bələdiyyə büdcəsi, yaxud onların büdcədənkənar vəsaitləri hesabına sosial ehtiyaclar üçün təyin olunmuş



ayırmalar vasitəsi ilə maliyyələşdirilən turizm növü.

SOSİAL YARDIM – dövlətin, cəmiyyətin yaşla, səhhətinin vəziyyəti, sosial vəziyyəti, dolanışıq vasitələri ilə kifayət qədər təmin olunmaması üzündən köməyə, dəstəyə ehtiyacı olan vətəndaşlara qayğısı. Yaşayış minimumunun və zəmanətli sosial xidmətlərin cəmiyyətin bütün üzvləri üçün əlçatan olması məqsədilə həyata keçirilən tədbirlər sistemi. Sosial yardım, pensiyalar, müavinətlər, xəstə və ahıl adamlara xidmət, maddi yardım göstərilməsi, uşaqlara qayğı şəklində mövcuddur.

Sosial yardım – vəziyyətlərinin pisləşməsi, şəxsi gəlirlərinin lazımi səviyyədə olmaması, ailə vəziyyəti, yaşı, səhhəti və digər səbəblərlə əlaqədar maddi köməyə ehtiyacı olan vətəndaşlara dəstək verilməsidir. Sosial yardım pul şəklində və müxtəlif natural formalarda güzəştlər və ödənişlər, eləcə də mallar və xidmətlər şəklində həyata keçirilir. Sosial yardım mahiyyət etibarilə konkret, daha dəqiq desək, ünvanlı və ya kateqorial xarakter daşıyır. Sosial yardımın sığorta sistemindən və ya əhaliyə baza sosial təminatları verilməsindən prinsipial fərqi bundan ibarətdir.

SOSİAL YENİLİKLƏR – sosial strukturda və qarşılıqlı münasibətlərdə dövlət tərəfindən (bütövlükdə cəmiyyət səviyyəsində), yaxud təşkilat tərəfindən həyata keçirilən, şəxsiyyətin sosial statusunun artırılması, şəxsi mənafelərlə ictimai mənafelərin optimal nisbəti üçün zəruri olan məqsədyönlü dəyişikliklər.

SOSİAL YÖNÜMLÜ BAZAR TƏSƏRRÜFATI – AFR-in məşhur dövlət və siyasi xadimi Lüdviq Erhard (1897-1977) neoliberalizm nəzəriyyəsinə əsaslanaraq özünün sosial yönümlü bazar təsərrüfatı nəzəriyyəsini yaratmış və onu praktikada həyata keçirmişdir. Bu nəzəriyyənin əsas müddəaları aşağıdakılardır: sərbəst qiymətlərin, sərbəst rəqabətin zəruriliyi, tələb və təklifin tarazlığı, iqtisadiyyatın tarazlığı. Dövlət bazar təsərrüfatında bu şərtlərə zəmanət verməli və onun inkişafının sosial yönümünü təmin etmək üçün şərait yaratmalıdır. Bu nəzəriyyə 1956-cı ildə dərc edilmiş "Hamı üçün rifah" kitabında şərh edilmişdir. Azərbaycanın sosial yönümlü bazar təsərrüfatı sisteminə daxil olmasının spesifikası aşağıdakı amillərlə müəyyən edilir:

– məhsuldar qüvvələrin inkişaf səviyyəsinin nisbətən aşağı olması;

– müasir inteqrasiya proseslərinə xas olan dünya təsərrüfat əlaqələrinin eninə və dərininə zəifləmiş vəziyyəti;

– inzibati-amirlik təsərrüfatçılıq sisteminin hələ də davam edən – elementlərinin zorakılığı;

– kiçik və orta sahibkarlıq sahələrinin çox cüzi olması müqabilində istehsalın qeyri-adi, yüksək səviyyədə təmərküzləşməsi;

– əsas bazarların və iqtisadiyyatın strukturunda dərin inhisarçılıq;

– insandan təcrid olunmaq (istehsaldan uzaqlaşmaq);

– iqtisadiyyatın tarazlaşmış olmaması;

– ümumdövlət və regional mənafelərin əlaqələndirilməsi zərurəti;

– bazarların regionallaşması ilə əlaqədar ziddiyyətli proseslərin və ayrı-ayrı regionların iqtisadiyyatları arasında təsərrüfat asılılığının əlaqələnməsi;

– vahid iqtisadi məkan yaratmağın zəruriliyi.

2009-cu il 18 mart tarixində keçirilmiş ümumxalq səsverməsində (referendum) Azərbaycan Konstitusiyasının 15-ci maddəsinin II bəndinə edilmiş dəyişikliyə əsasən, Azərbaycan dövləti bazar münasibətləri əsasın-

da sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır.


SOSİAL ZƏMANƏT – ölkə vətəndaşlarının əsas sosial nemət və xidmətlərlə təmin olunması hüququnun dövlət tərəfindən reallaşdırılması; cəmiyyət üzvlərinin sosial-iqtisadi, sosial-siyasi konstitusiya hüquqlarının və azadlıqlarının təmini üçün maddi və hüquqi şərtlər, üsullar və vasitələrin məcmusu. Əsas sosial zəmanətlərə əmək, əmək haqqının və pensiyaların minimum ölçüsü, istirahət, yaşayış yeri ilə təmin olunma, pulsuz təhsil və tibbi xidmət əldə etmək hüququ və s. aiddir. Sosial zəmanət aşağıdakıları özündə birləşdirir: sosial hüquqlar və onların məhdudlaşdırılması imkanlarının aradan qaldırılması; qanunvericiliyə əməl olunması üzərində dövlət və ictimai nəzarət; rəhbərliyin fəaliyyətinin ictimai təşkilatlarla, yaxud fəhlə və qulluqçularla razılaşdırılması; sosial hüquqların pozulmasına görə məsuliyyət; qanunsuz qərarların məhkəmə yolu ilə ləğv edilməsi hüququ; mübahisələrin reqlamentləşdirilmiş qanuni qaydada həlli; vətəndaşların əsas sosial hüquqlarının həyata keçirilməsi qaydalarının qanunvericiliklə reqlamentləşdirilməsi.

Sosial zəmanətin təmin olunması şərtlərinə ölkənin iqtisadi-siyasi rejimi, eləcə də vətəndaşların sosial hüquq və azadlıqlarının həyata keçdiyi (sosial-iqtisadi, həmçinin siyasi) vəziyyət aiddir.

Dövlət orqanlarının və vətəndaşların öz hüquq və azadlıqlarını reallaşdırdığı, bu hüquq və azadlıqların mühafizəsinin, eləcə də bərpasının təmin olduğu hüquq mexanizmi sosial zəmanətin vasitələridir. Əsas sosial zəmanət minimum istehlak büdcəsinin işlənib hazırlanmasıdır. Məhz bu büdcə əsasında minimum gəlir səviyyəsi mənzilə, təhsilə, səhiyyəyə olan tələbatın mümkün minimum səviyyədə ödənilməsi təminatı ilə müəyyənləşdirilir. Həmin minimum ölkənin iqtisadi inkişaf səviyyəsindən asılı olur. Bu məqsədlə dövlət yalnız fizioloji deyil, həm də mənəvi tələbatların ödənilməsinə hesablanmış müəyyən sosial vasitələrin toplusunu əldə etməyə təminat verən sosial-iqtisadi normativləri işləyib hazırlayır. Müəyyən kateqoriyalı vətəndaşların həyat şəraitinin əlverişsiz xüsusiyyətlərini kompensasiya edən sosial güzəştlər sistemi də sosial zəmanətə aiddir.

Sosializm cəmiyyətində əmək qabiliyyəti olmayan üzvlərinin sosial müdafiəsinin əsas təminatçısı, dövlət sosial siyasətinin başlıca realizasiya forması ictimai istehlak fondları olmuşdur. Sosial siyasətin əsası kimi sosial zəmanətlərin təsbit olunması möhkəm qanunvericilik bazasının formalaşdırılmasını tələb edir.

SOSİAL-DEMOKRATİK BAZAR İQTİSADİYYATI – sosial bazar iqtisadiyyatı modeli ilə eyniyyət təşkil edən və dövlət mülkiyyətinin nisbətən çox olduğu xarakterik iqtisadi sistem. Ən çox İsveçrədə tətbiq olunduğundan İsveç modeli adlanır (bax: sxem 1).



Sxem 1

SOSİAL-İQTİSADİ FORMASİYA – nəzəriyyəsi XIX əsrin ortalarında gənc hegelçilər və digər idealistlərə zidd olaraq K.Marks və F.Engels tərəfindən işlənmişdir. Formasion paradiqmanın əsasında ictimai-iqtisadi formasiya kateqoriyası dayanır. O, özündə müvafiq struktur çərçivəsində maddi nemətlərin istehsal üsulunu, məhsuldar qüvvələri, istehsal vasitələri olan bazisi və müvafiq siyasi oriyentasiyanı üstqurumu birləşdirir. Mahiyyətcə bu yanaşma *ibtidai icma, quldarlıq, feodalizm, kapitalizm* və *ikifazalı kommunizmi* ehtiva edən beş ictimai-iqtisadi formasiyada təcəssüm olunur.

SOSİAL-İQTİSADİ MEYARLAR – iqtisadi sistemin əsas məzmunlu cəhətlərinin seçilməsinə əsaslanan meyarlar. Buraya aşağıdakılar aiddir: istehsalın və istehlakın birləşdirilməsi üsulu (iqtisadi fəaliyyətin koordinasiyası üsulu); bilavasitə istehsalçıları istehsal vasitələri ilə birləşdirməyə imkan verən üsul (mülkiyyət tipi); sosial-mədəni amilin rolu, sənaye və iqtisadi başlanğıcın inkişaf səviyyəsi.

SOSİAL-İQTİSADİ MÜNASİBƏTLƏR – mülkiyyətin formaları və mülkiyyət münasibətləri ilə əlaqədar istehsal münasibətləri sistemi. Bu münasibətlərin mərkəzi elementi istehsal şəraitinin və onun nəticələrinin mənimsənilməsi münasibətləridir. Bu halda, istehsal münasibətləri məhsuldar qüvvələrin ictimai formasıdır. İstehsal münasibətləri istehsal qüvvələrinin dəyişməsini göstərməklə tarixi baxımdan inkişaf etməkdə olan (nəzəri sistemdə genetik subordinasiyalı) münasibətlər kimi reallaşır.

SOSİAL-İQTİSADİ NƏZƏRİYYƏ – bu nəzəriyyənin bilavasitə predmeti milli iqtisadiyyatı iqtisadi və sosial məzmunun vəhdət təşkil etdiyi sosial-iqtisadi sistem kimi araşdırmaq, eləcə də iqtisadi quruluşu və iqtisadiyyatın konkret modellərini təhlil etməkdir.

SOSİAL-İQTİSADİ STATİSTİKA – ictimai (humanitar) elmlərin mühüm bir sahəsi olmaqla, kütləvi sosial-iqtisadi hal, hadisə və proseslərin kəmiyyətini, onların keyfiyyət əlamətləri ilə qarşılıqlı əlaqədə öyrənmək vəzifəsini yerinə yetirir. Cəmiyyətdə baş verən bütün hal, hadisə və proseslər sosial-iqtisadi statistikanın obyektinə daxil edilir. Sosial-iqtisadi statistikanın göstəricilər sistemi və metodologiyası bazar iqtisadiyyatı şəraitinə uyğun gələn milli hesabların tərtib edilmə nəzəriyyə və təcrübəsinə əsasən hazırlanır və həyata keçirilir. Hal, hadisə və proseslərin kəmiyyət, keyfiyyət əlamətləri üzrə natural və dəyər ifadəsində öyrənmək nəticəsində cəmiyyətin, ölkənin sosial həyat tərzi, iqtisadiyyat sahələrinin inkişaf meyilləri və qanunauyğunluqlarını müəyyən etmək mümkün olur.

Sosial-iqtisadi statistikanın tərkibi aşağıdakı bölmələrdən ibarətdir:

– əhalinin sayı, işçi qüvvəsi və məşğulluq statistikası: əhali statistikası (demoqrafiya); əmək bazarının statistikası;

– ətraf mühit və təbii ehtiyatlar statistikası: ətraf mühit və təbii ehtiyatlar statistikası; milli sərvət statistikası;

– iqtisadi fəaliyyətin statistikası: müəssisələr və sahələr statistikası; qiymət statistikası; dəyər, aralıq istehlak xərcləri və yeni yaradılmış (əlavə) dəyər statistikası;

– maliyyə əməliyyatlarının statistikası: dövlət maliyyəsinin statistikası; vergilər sisteminin statistikası; qiymətli kağızlar və fond birjalarının statistikası; bank və qeyri-bank maliyyə təşkilatlarının statistikası; pul dövriyyəsinin statistikası; kredit statistikası; sığorta bazarının statistikası; müəssisələr maliyyəsinin statistikası;

– xarici iqtisadi əlaqələr statistikası: xarici iqtisadi əlaqələr statistikası; əhalinin beynəlxalq miqrasiyasının statistikası; tədiyə balansı statistikası;

– milli hesablar sistemi və əsas makroiqtisadi göstəricilərin statistikası: milli hesablar statistikası; ümumi daxili məhsul və milli gəlir statistikası; sahələrarası balansların statistikası;

– sosial statistika: elm, təhsil və innovasiya (novatorluq, texniki tərəqqi) statistikası; əhali gəlirləri, istehlakı və sosial müdafiəsinin statistikası; yaşayış şəraiti və kommunal xidmətlərin statistikası; səhiyyə xidmətlərinin statistikası; bədən tərbiyəsi və idman statistikası; sərnişindaşıma və əhaliyə rabitə xidmətlərinin statistikası; hüquqpozmaların statistikası; sair xidmət sahələrin statistikası;

– hüquqpozmalar, səhiyyə və turizm xidmətləri statistikası sosial statistikanın, kənd təsərrüfatı statistikası isə iqtisadi fəaliyyət statistikası bölmələrinin ayrı-ayrı məsələlərini öyrənir, özünəməxsus əlamətlərə, vəzifə

lərə və göstəricilər sisteminə malikdir. Vahid statistik metodlardan: müşahidə, qruplaşdırma, ümumiləşdirmə və təhlildən (dinamik sıraların qurulması, nisbi və orta kəmiyyətlərin, indekslərin, variasiya göstəricilərinin hesablanması, qarşılıqlı əlaqələrin öyrənilməsi və s. üsulları özündə əks etdirir) istifadə edilir.

Bank statistikası – maliyyə statistikasının sahələrindən biri olaraq, kredit təşkilatlarının nağd pul dövriyyəsi, uzun və qısamüddətli kreditləşmə, nağdsız hesablaşmalar, kapital qoyuluşlarının maliyyələşdirilməsi, valyuta əməliyyatları sahəsində fəaliyyətini və bank fəaliyyətinin digər istiqamətlərini öyrənir. Pul dövriyyəsi, pul-kredit sisteminin idarə edilməsi, o cümlədən kassa, kredit planlaşdırılması və nəzarəti üçün kredit münasibətlərinin vəziyyəti və inkişafı haqqında müxtəlif məlumatların, analitik materialların işlənib hazırlanmasını təmin edir. Bank statistikasında bankların pul-kredit əməliyyatlarını (verilmiş və qaytarılmış kreditlərin məbləği, ssudalar üzrə borcların qalıqları, qaytarılmış borcların orta müddəti, nağdsız və nağd pul dövriyyəsi və s.) əks etdirən göstəricilər sistemindən istifadə olunur.

Azərbaycanda bank statistikasının təşkili və idarə olunması Mərkəzi Bank tərəfindən aparılır. Mərkəzi Bankın müvafiq departamenti bank statistikası üzrə göstəriciləri toplayır, bu sahədə statistik bülleten və digər dövri nəşrləri həyata keçirir. Həmçinin müxtəlif aidiyyətli dövlət və ictimai institutlara, habelə elm və təhsil müəsisələrinə yayımlanmasını təmin edir. Yerli və beynəlxalq ictimaiyyət Mərkəzi Bankın daim yenilənən internet səhifəsində (www.cbar.az) bank statistikası ilə operativ surətdə tanış olmaq imkanına malikdir.

Kənd təsərrüfatı statistikası – 1) kənd təsərrüfatı istehsalının statistik göstəricilər sistemini öyrənir, onların dərketmə metod və üsullarını işləyib hazırlayır; 2) kənd təsərrüfatı istehsalının şəraiti, hərəkəti, nəticələri və səmərəliliyi haqqında statistik məlumatların toplanmasını, işlənməsini, təhlilini və yayılmasını təmin edən praktik fəaliyyət sahəsi; 3) kənd təsərrüfatının vəziyyəti haqqında məlumatların məcmusu. Kənd təsərrüfatı statistikasında əsas müşahidə vahidləri müxtəlif növ və formalardakı kənd təsərrüfatı müəssisələri, ailə kəndli və ev təsərrüfatları hesab edilirlər. İstehsalın şəraiti və nəticələrinin tətbiqində eyni zamanda torpaq sahələri, mal-qara və quşlar, işçilər və s. müşahidə vahidi ola bilər. Onlar haqqında məlumatların toplanması statistika müşahidələrinin köməyi ilə həyata keçirilir. Məlumatların mənbəyi ya ilkin hesabat sənədləri, ya da vətəndaşların bilavasitə sorğusudur.

Statistik məlumatlar bütünlükdə kənd təsərrüfatı statistikasını bitkiçilik və heyvandarlıq sahələri, mülkiyyət formaları, təsərrüfat kateqoriyaları, eləcə də inzibati-ərazilər üzrə birləşdirir.


Hüquq statistikası – hüquqi pozuntuların və onların üzərində sosial nəzarət tədbirlərinin öyrənilməsi sahəsində tətbiq olunan, hüquq elminin ümumi prinsiplərinə və mahiyyətinə əsaslanan statistikanın ümumi nəzəriyyəsinin əsasları və üsulları sistemi. Hüquq statistikasının əsas məqsədi ölkənin polis, prokurorluq və məhkəmə orqanları tərəfindən qanun pozuntularının və qarşı həyata keçirilən tədbirlərin hesaba alınmasıdır. Hüquq statistikası cinayət hüququnu, ictimai və dövlət quruluşunun inzibati-mülki hüquqlarını, vətəndaşların, təşkilatların hüquq və maraqlarının mühafizəsini həyata keçirən dövlət orqanlarının məlumatları əsasında formalaşır.

Hüquqi pozuntuların xüsusiyyətləri nəzərə alınmaqla, hüquq statistikası aşağıdakı istiqamətlərə bölünür:

a) cinayət-hüquq statistikası;
b) mülki-hüquq statistikası;
c) inzibati-hüquq statistikası.

SOSİALİZM (lat. *socialis* – ictimai) – əsasını sosial ədalət və bərabərlik təşkil edən təlim; məqsədi sosialist cəmiyyətinin yaradılması ilə bağlıdır. Nəzəriyyənin bir neçə qolu var: 1) ortodoksal marksizm, keçən əsrin 20-ci illərində kommunizm qurulması məqsədilə yaranmış Lenin təlimi. Bu təlim sosializmin ibtidai formasıdır; 2) sosial-demokratik təlim, genetik kimi marksizmlə əlaqəli olmuş, amma sosial təbəqələrin harmoniyası nəticəsində keçən əsrdə sosialist cəmiyyətinin təkamül yolu ilə formalaşmışdır; 3) milli və dini baxışlarla əlaqədar olmuş, milli azadlıq hərəkatlarının təsiri ilə formalaşmış müxtəlif sosialist təsəvvürlər.

Bundan əlavə, planlı sosializmi və bazar yönümlü sosializmi də




Sxem 1

fərqləndirirlər. Dünyada geniş yayılmış sosializm modellərindən biri də İsveç sosializm modelidir. İsveçdə azad bazar münasibətləri bərqərar olmuşdur. Amma dövlət işsizliyin aradan qaldırılması, sosial təminat, infrastrukturun yaradılması məsələlərini səmərəli vergi sistemi vasitəsilə həyata keçirir.

SOSİALLAŞMA – qarışıq xarakterli mülkiyyət formalarının yaranmasının ayrıca istiqaməti. Sosiallaşma müxtəlif mülkiyyət formalarının oxşar əlamət və xassələrinin artmasını, eləcə də mülkiyyət subyektlərinin ictimai əlaqəsinin gücləmməsini əhatə edir. Bu, istehsalın idarə edilməsində və gəlirin bölüşdürülməsində işçilərin iştirakı; işçiləri mənzil və tibbi xidmətlə təmin etmək məqsədilə dövlət və özəl müəssisələrin bu işdə iştirakı vasitəsilə baş verir. Bütün bunlar müxtəlif mülkiyyət formalarının sosial sahəsini dəyişir. Sosiallaşma funksiyası təhsil, uşaqların tərbiyəsi, səhiyyə, mədəniyyət və digər sahələrdə dövlətin köməyi ilə insanın ictimai sistemə qoşulması deməkdir. Bu, bazar iqtisadiyyatında əhaliyə göstərilən sosial xidmətlərin müxtəlifliyində əksini tapır. Bu cür xidmətlər sırasına aşağıdakılar aiddir: işədüzəltmə tədbirləri, sosial yardım, uşaqlar üçün müavinətlər, işsizliyə görə sığorta, pensiya sığortası, bədbəxt hadisələrdən sığortalanma, təhsil almağa kömək, qadınların və yetkinlik yaşına çatmayanların əməyinin mühafizəsi, mənzil icarəsi üçün dotasiyalar, sosial mənzil tikintisi.

SOSİOLOGİYA – bütövlükdə cəmiyyətin formalaşması, fəaliyyəti və inkişafı, sosial münasibətlər barədə qanunauyğunluqlar haqqında elm. Elmin və terminin banisi Ogüst Komtdur. Sosiologiyanın əsas informasiya



Sxem 1

obyektləri aşağıdakılardır: demoqrafik (doğum, ölüm və əhalinin miqrasiya səviyyəsi), psixoloji (insanların davranış motivləri), sinfi (siniflər, qruplar, təbəqələr və təşkilatlar haqqında məlumat), münasibətlər (sosial qruplar, təbəqələr arasındakı münasibətlər) (bax: sxem 1).

SOVXOZ – yalnız keçmiş SSRİ-də mövcud olmuş dövlət kənd təsərrüfatı müəssisəsi. İlk sovxozlar iki vəzifəni həll etmək üçün Oktyabr inqilabından dərhal sonra – 1917-ci ildə yaranmışdı: 1) yüksək keyfiyyətli və ucuz məhsulun böyük miqdarda istehsalı; 2) elan edilmiş sosialist prinsipləri, hər şeydən əvvəl, istehsalın ictimailəşməsi əsasında xırda kəndli təsərrüfatının yenidən qurulmasına yardım göstərilməsi. İlk illər sovxozlar mülkədar malikanələri torpaqlarında yaradılmış və kənd təsərrüfatında iri istehsalın üstünlüklərini göstərməyə yönəlmişdi.

1922-ci ildə ümumi torpaq sahəsi 3324 min ha olmaqla 4316 sovxoz var idi. Kollektivləşmə dövründə sovxozların sayı daha 2,5 min artdı və 1937-ci ildə istehsal olunmuş məhsulda onun xüsusi çəkisi 13%-ə çatdı. İkinci Dünya müharibəsindən sonra xam torpaqların mənimsənilməsi prosesində böyük miqdarda sovxozlar yarandı. 80-ci illərin sonlarında sayı, ümumi əkin sahəsi 115 mln. ha olmaqla, 20 mini keçdi (ümumi əkin sahələrinin 51%-ni, ümumi kənd təsərrüfatı məhsulları istehsalının 36%-ni təşkil edirdi).



Azərbaycanda ilk sovxozlar sovet hakimiyyətinin ilk illərində iri mülkədar malikanələri əsasında yaranmışdı. Respublikada olan 17 sovxozun sərəncamında 23 min desyatin torpaq var idi. Lakin az gəlirli olduğuna görə bir sıra sovxozlar ləğv edildi və 1922-ci ildə onların sayı 11-ə qədər azaldı. Kollektivləşdirmə dövründə Azərbaycanda sovxoz quruculuğu ləng inkişaf edirdi. 1929-cu ildə respublikada 13 sovxoz olduğu halda, 1981-ci ildə onların sayı 750-yə çatdırıldı. "Sovxoz istehsalı" təcrübəsi göstərdi ki, sovxozlar sovxoz təsərrüfatının səmərəli aparılması nümunəsinə çevrilmədi. Bunun əsas səbəblərindən biri o idi ki, şəxsi təşəbbüs ləngidilirdi və şəxsi maraq məhdudlaşdırılırdı. İstehsalın, bölgünün, idarəetmənin mərkəzləşməsi həddən artıq yüksək idi. Bunun nəticəsində məhz sovxoz sistemində məsrəfli təsərrüfat mexanizminin fəaliyyəti özünü aşkar büruzə verirdi, istehsalın qeyri-səmərəli fəaliyyətindən əldə olunan külli miqdarda itkilər dövlət tərəfindən ödənilirdi. Əməyin fondla silahlanmasının daha yüksək olmasına baxmayaraq, məhsulun əsas növləri üzrə sovxozlar kolxozlara nisbətən daha yüksək maya dəyərinə və aşağı rentabelliyə malik idi.

İqtisadi alətlərdən istifadə etməklə, xüsusi mənfəət və alınan kreditlər hesabına sovxozların tam təsərrüfat hesabına keçirilməsi üçün 60-cı illərin sonlarında ilk cəhdlər edildi. Lakin bütün bunların mərkəzləşdirilmiş sistemin labüdlüyü, konkret istehsal şəraitindən asılı olmayaraq məhsulun reallaşması üzrə məcburi tapşırıqların hər bir sovxoza çatdırılması çərçivəsində həyata keçirilməsi zəruri idi. Mərkəzləşmiş qaydada kapital qoyuluşlarının həcmi, əmək haqqı fondu, əsas fondların işə salınması və s. müəyyən edilirdi. Baxmayaraq ki, təsərrüfat müstəqilliyi və müəssisələrin özləri tərəfindən istehsalın həcminin və strukturunun müəyyənləşdirilməsi birbaşa əlaqələrin inkişafı və s. bəyan edilirdi. Azərbaycanda sovxozların təsərrüfat fəaliyyətinin real demokratikləşməsi ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə aparılan aqrar islahatlar prosesində başlandı. Belə ki, müstəqil Azərbaycan Respublikasında sovxozların islahatı 1995-ci ildə "Kolxoz və sovxozların islahatı haqqında" Qanun qəbul edildikdən sonra həyata keçirildi. Bu qanunvericiliyə görə sovxozların fəaliyyəti dayandırıldı.

SOYQIRIM, genosid (yun. *genos* nəsil, tayfa və lat. *caedo* öldürürəm) – hər hansı milli, etnik, irqi və ya dini qrupun tam, yaxud qismən məhv edilməsinə yönəldilmiş, qabaqcadan düşünülmüş zorakı fəaliyyət. Belə hərəkətlərə bu qrupun üzvlərinin öldürülməsi, sağlamlıqlarına ağır xəsarət yetirilməsi, qrup daxilində nəsil artırılmasına qarşı yönəldilmiş tədbirlər, ailələrdən uşaqların məcburi alınması, onların fiziki cəhətdən bütövlükdə və ya qismən məhv edilməsi məqsədinə xidmət edən həyat şəraitinin yaradılması daxildir.

Termin kimi o, 1943-cü ildə yəhudi mənşəli Polşa hüquqşünası Rafael Lemkin tərəfindən elmə daxil edilmişdir. 1948-ci ildə BMT tərəfindən insanlığa qarşı ən ağır cinayət kimi qəbul edilmişdir.

Qədim zamanlardan başlamış müasir dövrümüzədək tarixə çoxlu soyqırım faktları məlumdur. Eyni zamanda, erməni millətçiləri tərəfindən Azərbaycan xalqına münasibətdə törədilmiş çoxlu soyqırım faktları məlumdur. Azərbaycanın müasir tarixinin ən kədərli və faciəli səhifələrindən biri kimi 26 fevral gününü hər il xalqımız dərin hüznlə qeyd edir. Faciənin üstündən 20 il keçsə də, onun vurduğu yara-

lar bu gün də sızlayır və heç zaman unudulmayacaqdır.

Xocalı Azərbaycan xalqı üçün qəddarlıq və cəzasızlıq rəmzinə çevrilmişdir. Dinc əhalinin vəhşicəsinə kütləvi qırğını insanlığa qarşı ən ağır cinayətlərdən biri olmaqla, XX əsrin Xatın, Lidiçe, Babi Yar kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

Xocalı soyqırımı Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini zəbt etmək məqsədi ilə Ermənistan Respublikasının apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir. Bundan əvvəl azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilmişdir. Təkcə Qaradağlı kəndində 80 nəfərdən çox dinc azərbaycanlı, o cümlədən uşaqlar, qadınlar və qocalar işgəncə verilərək qəddarcasına öldürülmüş, onlarca adam girov götürülmüş, kənd isə yandırılaraq yer üzündən silinmişdir.

Dağlıq Qarabağda Şuşadan sonra azərbaycanlıların yaşadıqları ikinci böyük yaşayış məntəqəsi olan Xocalı Ermənistan hərbi birləşmələrinin növbəti hədəfi idi. Şəhərdə 7 min nəfərədək adam yaşayırdı. Ermənistan Respublikasındakı ata-baba torpaqlarından zorla qovulub didərgin salınmış azərbaycanlıların bir hissəsi və 1989-cu ildə Fərqanədən qovulmuş məhsəti türklərinin 54 ailəsi də burada məskunlaşmışdı.



XX əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı

Xocalı şəhərinin yer üzündən silinməsi və əhalisinin kütləvi surətdə qətlə yetirilməsi planı qabaqcadan hazırlanmışdı. Davakar erməni millətçiləri Ermənistanın kütləvi informasiya vasitələrində, Yerevanda və Xankəndində keçirilən mitinqlərdə azərbaycanlıların kütləvi məhvini təşkil etməyə çağırışlar edirdilər. Məqsəd Dağlıq Qarabağ bölgəsinin işğalı üçün həyata keçirilən hərbi təcavüz zamanı doğma torpağının müdafiəsinə qalxmış Azərbaycan xalqını qorxutmaq və onun mübarizə əzmini qırmaq idi.

1991-ci ilin noyabr ayından şəhər blokadaya alınmışdı; Xocalının xarici aləmlə əlaqəsi ancaq radiotelefon və mülki vertolyotlar vasitəsi ilə həyata keçirilirdi. 1992-ci il yanvarın 28-də "Azərbaycan Hava Yolları" Dövlət Şirkətinə məxsus Mİ-8 markalı mülki vertolyot Dağlıq Qarabağ səmasında erməni hərbi birləşmələri tərəfindən vurulmuş, vertolyotun sərnişinləri olan 47 azərbaycanlı həlak olmuşdu. Bundan sonra şəhərlə hava əlaqəsi də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik enerjisi verilməsinin qarşısı alınmışdı. Şəhəri yalnız atıcı silahları olan yerli özünümüdafiə dəstələri qoruyurdular. Əlbəttə, bu qüvvələr ən müasir hərbi texnika ilə təchiz edilmiş, əvvəlcədən xüsusi hazırlıq keçmiş silahlı birləşmələrə müqavimət göstərməyə qadir deyildilər.

Fevralın ikinci yarısından başlayaraq Xocalı Ermənistan silahlı birləşmələri tərəfindən tam mühasirəyə alınmışdı. Dinc sakinlərin ikibir-üçbir və ya təklikdə mühasirədən çıxmaq üçün göstərdiyi bütün cəhdlərin qarşısı alınırdı.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıya hücum

başlandı. Hücumda Ermənistan Respublikasının hərbi birləşmələri, Dağlıq Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Dağlıq Qarabağda yerləşən 366-cı motoatıcı alayı iştirak edirdi. Heç bir hərbi zərurət olmadan şəhər bir neçə saatın içərisində yerlə yeksan edildi. Xocalı sakini olan 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın işgəncə ilə öldürüldü. 8 ailə bütünlüklə məhv edildi. 487 nəfər şikəst edildi. 1275 sakin – qocalar, uşaqlar, qadınlar girov götürülərək ağlasığmaz təhqirlərə, zülmə və həqarətə məruz qaldılar. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyildir.

Mühasirədən çıxıb xilas olmağa çalışan dinc sakinləri yollarda, meşələrdə pusqu quran erməni hərbçiləri xüsusi amansızlıqla qətlə yetirmişlər. Azğınlaşmış cəlladlar insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmış, cəsədlərin bir qismini minalamışlar.

Xocalı şəhərinə hücum əməliyyatına 366-cı alayın ikinci taqımının komandiri Seyran Ohanyan, üçüncü taqımının komandiri Yevgeni Nabokix, birinci taqımının qərargah rəisi Valeri Çitçyan rəhbərlik etmişlər. Əməliyyata alayın 90-dan çox tankı, piyada döyüş maşını və digər hərbi texnikası cəlb edilmişdir. Dinc əhaliyə qarşı soyqırımı cinayətlərində alayın hərbi qulluqçularından Slavik Arutyunyan, Andrey İşxanyan, Sergey Beqlaryan, Movses Akopyan, Qriqori Kisebekyan, Vaçik Mirzoyan, Vaçaqan Ayriyan, Aleksandr Ayrapetyan və başqaları, erməni silahlı birləşmələrinin üzvlərindən Karo Petrosyan, Vitali Balasanyan, Seyran Tumasyan, Valerik Qriqoryan və digərləri fəal iştirak etmişlər. Dinc əhaliyə qəddarcasına divan tutanlar arasında Xankəndi şəhər daxili işlər şöbəsinin rəisi işləmiş Armo Abramyanın, Əsgəran rayon daxili işlər şöbəsinin rəisi işləmiş Mavrik Qukasyanın, onun müavini Şaqen Barseqyanın, Dağlıq Qarabağda erməni xalq cəbhəsinin sədri olmuş Vitali Balasanyanın, Xankəndi şəhər həbsxanasının rəisi işləmiş Serjik Koçaryanın və başqa şəxslərin də olduğu müəyyən edilmişdir. Bu gün cinayətkarlardan 30 nəfərinin adları Azərbaycanın istintaq orqanlarına məlumdur.



Xocalı şəhərində hərbi əməliyyatdan sonra 366-cı alayın cinayətdə iştirakının izlərini itirmək üçün alay tələm-tələsik Dağlıq Qarabağdan çıxarılıb Gürcüstana aparılmış, bu zaman hərbi texnikanın böyük bir hissəsi, yəni 9 tank, 4 zirehli transportyor, 70 piyada döyüş maşını, 4 "Strela-10" raket qurğusu, 8 top, 57 minaatan və digər silah-sursat erməni birləşmələrinə təhvil verilmiş və azərbaycanlı əhaliyə qarşı sonrakı cinayət əməllərində istifadə edilmişdir.

Diqqəti cəlb edən məqamlardan biri də budur ki, vəhşilik əməlindən bir neçə gün sonra Xocalı qurbanlarının faciəsini videolentə almaq üçün qırğın yerinə gedən kütləvi informasiya vasitələrinin nümayəndələrinə mane olmağa cəhd göstərilməmişdir. Bunun özü də sübut edir ki, erməni millətçilərinin əsas hədəflərindən biri törətdikləri cinayətlərin daha çox adama məlum olması yolu ilə dinc əhali arasında xof yaratmaq, eyni zamanda, Bakıda siyasi vəziyyəti qarışdırmaq, Azərbaycan torpaqlarının işğalını asanlaşdır-

maq olmuşdur. Bununla birlikdə, bəzi xarici dövlətlərdən böyük miqdarda hərbi yardım alan Ermənistan Respublikası Xocalı faciəsindən sonra tezliklə özünə gələ bilməyən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğalını qısa müddətdə başa çatdırmış və ətraf rayonların zəbt edilməsi planlarının icrasına başlamışdır.

Xocalı şəhərində törədilmiş müdhiş cinayətlərin xarakteri və miqyası bu soyqırımı aktının BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada ifadə olunmuş tərifə tam uyğun gəldiyini sübut edir. Qabaqcadan planlaşdırılmış bu kütləvi və amansız qırğın aktı həmin ərazidə yaşayan insanları məhz azərbaycanlı olduqlarına görə tamamilə məhv etmək niyyəti ilə törədilmişdir. Yanan şəhərdən qaçıb xilas olmaq istəyən insanlara aman verilməmiş, uşaqlar və qadınlar, xüsusən hamilə qadınlar vəhşicəsinə qətlə yetirilmişlər.

Xocalı faciəsi erməni millətçilərinin son yüz ildən artıq dövrdə türklərə və azərbaycanlılara, digər qonşu xalqlara qarşı həyata keçirdikləri soyqırımı və etnik təmizləmə siyasətinin yeni mərhələsini təşkil etmişdir. Bütövlükdə XX əsrin əvvəllərindən etibarən "böyük Ermənistan" xülyasını həyata keçirmək üçün erməni millətçiləri azərbaycanlılar yaşayan on minlərcə kvadrat kilometrlik ərazini zorla boşaltmış, həmin ərazidən 1,5 milyondan çox azərbaycanlını qovmuşlar. Bu zaman dinc əhaliyə qarşı kütləvi terror aktları və qırğınlar törədilmişdir.

1905-1907-ci illərdə, habelə 1918-1920-ci illərdə İrəvanda, Dərələyəzdə və Zəngəzurda (müasir Ermənistan Respublikası ərazisində), Tiflisdə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Qarabağda, Muğanda və Azərbaycanın digər yerlərində azərbaycanlı əhali soyqırımına məruz qalmışdır. 1918-ci ilin mart soyqırımı zamanı təkcə Azərbaycanın paytaxtı Bakı şəhərində 30 mindən çox dinc əhali qətlə yetirilmişdir.



Ermənistanda və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının böyük bir hissəsi Ermənistana qatılmış, Ermənistan ərazisində qalan, ata-baba torpaqlarında yığcam halda yaşayan yüz minlərcə azərbaycanlıya muxtariyyət verilmədiyi halda, Azərbaycan ərazisində bir ovuc erməni üçün qondarma "Dağlıq Qarabağ Muxtar Vilayəti" yaradılmışdır. Beləliklə, erməni millətçilərinin Azərbaycana qarşı gələcək ərazi iddiaları üçün zəmin yaradılmış, Cənubi Qafqazda baş verəcək yeni faciələrin əsası qoyulmuşdur.

Erməni millətçilərinin azərbaycanlılara qarşı soyqırımı cinayətlərinin cəzasız qalması, bu cinayətlərə heç bir siyasi-hüquqi qiymət verilməməsi sovet hakimiyyəti dövründə də bizim xalqımıza qarşı düşmənçilik siyasəti yeridilməsinə gətirib çıxarmışdır. SSRİ rəhbərliyinin köməyi ilə Ermənistan SSR hakim dairələri 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının deportasiya edilməsinə nail olmuşlar.

Rəsmi Moskvanın dəstəyinə arxalanan erməni millətçiləri Azərbaycana qarşı əsassız ərazi iddialarını davam etdirsələr də, 1970-ci illərdə və 1980-ci illərin əvvəllərində Azərbaycan rəhbərliyinin qətiyyətli mövqeyi bu cür cəhdlərin qarşısını almağa imkan vermişdir. 1987-ci ildə Heydər Əliyev SSRİ rəhbərliyində yüksək vəzifələrdən uzaq-



Xocalı Soyqırımının 20-ci ildönümü ilə əlaqədar Bakıda Ümumxalq Yürüşü (26.02.2012) (şəkil 1, 2)

laşdırıldıqdan sonra erməni millətçiləri Azərbaycana qarşı düşmənçilik siyasətini açıq şəkildə davam etdirmək üçün fürsət tapmışlar.

1988-ci ildə keçmiş SSRİ mərkəzi hökumətinin, şəxsən Mixail Qorbaçovun ermənipərəst siyasətindən istifadə edən erməni millətçiləri Ermənistan ərazisində etnik təmizləmə aparmaq niyyəti ilə azərbaycanlıların elliklə yaşadıqları rayon və kəndlərə silahlı basqınlar etməyə, azərbaycanlıları ata-baba yurdlarından qovmağa başladılar. Düşmənçilik siyasətinə əsas yaratmaq üçün SSRİ xüsusi xidmət orqanlarının birbaşa iştirakı və təşkilatçılığı ilə Azərbaycanın Sumqayıt şəhərində məlum fitnəkarlıq əməli törədildi. Əvvəlcədən hazırlanmış plana əsasən bu hadisələr bəhanə gətirilərək, qısa müddət ərzində Ermənistandan 250 minə yaxın azərbaycanlı kriminal ünsürlərlə əlbir olan hakimiyyət orqanlarının nümayəndələri və silahlı quldurlar tərəfindən qovulub qaçqın salındı. Bu zaman yüzlərcə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Erməni millətçiləri insanların müxtəlif bədən üzvlərini kəsməklə, gözlərini çıxarmaqla, azyaşlı uşaqları dəmir boruların içinə doldurub hər iki ucunu qaynaq etməklə insana nifrət ideologiyasının baniləri olan ata-babalarının əməllərini özlərinə layiq şəkildə davam etdirmiş oldular.

1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə verilməsi haqqında SSRİ Ali Sovetinə müraciət qəbul etdi. Beləliklə, Ermənistan Azərbaycanın əzəli torpaqlarını ilhaq etmək məqsədi ilə qonşu dövlətə qarşı açıq təcavüzə başladı. Azərbaycan ərazisinə silahlı dəstələr göndərilir, Dağlıq Qarabağın azərbaycanlı kəndlərinə mütəmadi basqınlar təşkil edilir, əhaliyə qarşı zor tətbiq olunurdu. Azərbaycanlıların evlərini yandırır, özlərini köçməyə məcbur edirdilər. Keçmiş DQMV-nin inzibati mərkəzi olan Stepanakert (indiki Xankəndi) şəhərindən 15 minə qədər azərbaycanlının qovulması məhz belə bir şəraitdə həyata keçirilmişdi.

1988-ci il iyulun 12-də Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin sessiyası vilayətin Azərbaycan SSR-in tərkibindən çıxması haqqında məsələni azərbaycanlı deputatların iştirakı olmadan müzakirə edərək, bu barədə qeyri-qanuni bir qərar qəbul etdi. Sovet İttifaqı rəhbərliyinin üstüörtülü razılığı ilə muxtar vilayətin ərazisində erməni silahlı birləşmələri yaradılmağa başlandı. Ermənistandan DQMV-nin Mardakert (indiki Ağdərə) rayonun-

dakı gizli təyyarə meydanına silah və sursat daşınır, azərbaycanlılardan isə adi ov tüfəngləri də alınırdı.

Təəssüf ki, Azərbaycanın o dövrdəki rəhbərliyinin fərsizliyi və öz xalqının mənafelərinə biganəliyi ucbatından təcavüz və terror siyasəti geniş miqyas aldı. Ermənistan ərazisindən qovulmuş qaçqınların Dağlıq Qarabağda məskunlaşmasının hər vasitə ilə qarşısının alınması, Dağlıq Qarabağın ayrı-ayrı yaşayış məntəqələrində yerləşə bilmiş qaçqınların oradan zorla çıxarılması, DQMV üzrə Xüsusi İdarəetmə Komitəsinin yaradılması muxtar qurumun Azərbaycan tabeliyindən çıxarılmasına əlverişli şərait yaradılmasına yönəlmişdi.

1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti "Ermənistan SSR və Dağlıq Qarabağın birləşməsi haqqında" qərar qəbul etdi. Dağlıq Qarabağın Azərbaycandan qoparılması üçün bir sıra addımlar atıldı. Vilayətdəki müəssisə və idarələr Ermənistanın nazirlik və baş idarələrinə tabe edildi. Vəziyyət son dərəcə kəskin şəkil aldı. Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə həyasızcasına qəsdlərin qarşısının alınmaması respublikada böyük etiraz dalğaları doğurdu.

SSRİ və Azərbaycan SSR rəhbərliyinin Azərbaycanın mənafelərinə zidd olan siyasətinə kəskin etirazını bildirən xalqın müqavimət əzmini qırmaq, milli heysiyyatını tapdalayaraq ona ağır mənəvi zərbə vurmaq məqsədi ilə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna qoşun hissələri yeridildi, dinc əhaliyə divan tutuldu, yüzlərcə insan qətlə yetirildi, yaralandı, itkin düşdü.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi elan edilsə də, müstəqil dövlətin əsas atributlarından olan ordunun qurulması istiqamətində planlı və ardıcıl iş aparılmadı. O vaxt respublikada mövcud olan siyasi vəziyyət, hərc-mərclik və hakimiyyət davası Ermənistanın Azərbaycana qarşı açıq təcavüzünün qarşısını almaq, ölkənin ərazi bütövlüyünü qorumaq, Dağlıq Qarabağda yaşayan azərbaycanlıların təhlükəsizliyini təmin etmək üçün qətiyyətli tədbirlər görülməsinə imkan vermədi.

Ermənistan ərazisinin azərbaycanlılardan təmizlənməsini başa çatdırdıqdan sonra Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağı Ermənistana ilhaq etmək üçün fəal döyüş əməliyyatlarına başlandı. Qarşı duran tərəflərin qüvvələri heç də bərabər deyildi. Nizami ordusunu təşkil etməyə macal tapmamış əliyalın azərbaycanlı əhali əvvəlcədən xüsusi hazırlıq keçmiş erməni silahlı birləşmələri, xarici ölkələrdən gətirilmiş muzdlu dəstələr və keçmiş sovet ordusunun tör-töküntüləri ilə üz-üzə dayanmışdı. Nəticədə Azərbaycan Respublikası ərazisinin 20 faizi, yəni Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı daha yeddi rayon – Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonları işğal olunmuş, 18 mindən çox azərbaycanlı qətlə yetirilmiş, 20 mindən çox dinc sakin yaralanmış, 50 mindən çox adam əlil olmuşdur. 4 mindən çox adam əsir və itkin düşmüş, girov götürülmüşdür. 877 şəhər, kənd və qəsəbə qarət edilmiş, dağıdılmış və yandırılmışdır. Ermənistan ərazisindən və Azərbaycanın işğal edilmiş bölgəsindən qovulub didərgin salınmış azərbaycanlıların sayı 1 milyondan çoxdur.

Məlum olduğu kimi, qonşu dövlətlərə, o cümlədən Azərbaycan Respublikasına qarşı ərazi iddialarına haqq qazandırmaq, bunun vasitəsi kimi seçdikləri qəsbkarlıq, soyqırımı və etnik təmizləmə siyasətini pərdələmək üçün davakar erməni millətçiləri guya 1915-ci ildə ermənilərin soyqırımına məruz qaldıqları barədə uydurmalara istinad edirlər. Beləliklə, təcavüzkar və cinayətkar özünü təcavüzün və cinayətin qurbanı kimi qələmə verərək beynəlxalq ictimaiyyəti çaşdırmağa cəhdlər göstərir. Təəssüf ki, ayrı-ayrı dövlətlərin parlamentləri Xocalı faciəsi kimi real soyqırımı görməməzliyə qoyaraq, yalançı erməni təbliğatının təsiri altında, yaxud siyasi konyunktura mülahizələri ilə "erməni soyqırımı" əfsanəsini müzakirə mövzusuna çevirir, hətta bu barədə əsassız və ədalətsiz aktlar qəbul edirlər. Davakar erməni millətçiliyinə qarşı dövlət səviyyəsində mütəşəkkil müqavimət Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra qurulmuşdur. "Azərbaycanlıların soyqırımı haqqında" Ulu öndərin 1998-ci il 26 mart tarixli Fərmanı tarixi həqiqətlərin üzə çıxmasına və öz yerini tutmasına təkan vermişdir. Bu mühüm sənəddə

tariximizdə ilk dəfə olaraq azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınların – soyqırımılarının rəsmən adı çəkilmiş, Cənubi Qafqaz miqyasında xalqımıza qarşı aparılmış etnik düşmənçilik siyasətinin kökləri açılmışdır. "Böyük Ermənistan" xülyasını həyata keçirməyin əsas yolunu tarix boyu bu ərazilərin yerli sakinləri olmuş xalqların, o cümlədən azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarix və mədəniyyət abidələrinin dağıdılmasında, yer adlarının dəyişdirilməsində görmüş davakar erməni millətçilərinin mənfur fəaliyyətinə siyasi qiymət verilmişdir. Fərmana əsasən 31 mart günü son yüz ildən artıq dövrdə davakar erməni millətçilərinin xalqımıza qarşı törətdikləri vəhşiliklərin qurbanı olmuş günahsız insanların xatirəsinə ehtiram əlaməti olaraq azərbaycanlıların soyqırımı günü elan edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev azərbaycanlıların soyqırımı ilə əlaqədar dəfələrlə xalqa müraciət etmiş, Xocalı faciəsini insanlığa qarşı ən qəddar və amansız kütləvi terror hadisələrindən biri kimi qiymətləndirmişdir. Dövlət başçısının sərəncamı ilə bu il Xocalı soyqırımının 20-ci ildönümü qeyd edilir.

Azərbaycan Respublikasının Milli Məclisi bu məsələ ilə əlaqədar xüsusi bəyanatlar və müraciətlər qəbul etmiş, beynəlxalq təşkilatlardan, dünya ölkələrinin parlamentlərindən və hökumətlərindən XIX-XX əsrlərdə erməni millətçiliyinin və onun havadarlarının azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayətlərini tanımağı, gələcəkdə bu cür cinayətlərin cəzasız qalmasının qarşısını almaqdan ötrü təsirli beynəlxalq hüquq mexanizmlərinin yaradılması işini tezliklə başa çatdırmağı, azərbaycanlılara qarşı yeni soyqırımı cinayətlərinə yol verilməməsi üçün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla ədalətli həllinə kömək göstərməyi xahiş etmişdir. Milli Məclisin müvafiq qərarına əsasən 26 fevral Xocalı soyqırımı günü elan edilmiş və bu barədə beynəlxalq təşkilatlara məlumat verilmişdir.

Xocalı soyqırımının dünya miqyasında tanıdılması üçün görülən işlərin artıq ilkin nəticələri vardır. İslam Konfransı Təşkilatı Parlament Birliyinin, Meksika və Pakistan parlamentlərinin müvafiq qərarlarında Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilmişdir.

Xocalı şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi üçün dövlət tərəfindən bir sıra tədbirlər görülmüşdür. Bakı şəhərində, ölkəmizin digər şəhər və rayonlarında Xocalı qurbanlarına abidələr ucaldılmış, Xocalı faciəsi haqqında məlumatlar orta məktəb proqramlarına daxil edilmişdir.

Azərbaycan Respublikasının gündən-günə inkişaf edib möhkəmlənməsi və hərbi qüdrətini artırması Xocalı soyqırımı kimi faciələrin bir daha baş verməməsi üçün ən etibarlı təminatdır. Bu gün Azərbaycanın hərbi sahəyə ayırdığı xərclər Ermənistanın bütün dövlət büdcəsinə bərabərdir. Ermənistan nə hərbi sahədə, nə də digər sahələrdə Azərbaycanla müqayisə edilə bilməz. Ölkəmizin ərazi bütövlüyünü təmin etmək, davakar erməni millətçiliyi təhlükəsinə birdəfəlik son qoymaq üçün dövlətimizin bütün imkanları vardır. Lakin biz bu problemin sülh yolu ilə nizama salınmasına çalışırıq. İnanırıq ki, sülh danışıqlarının potensialı hələ tükənməmişdir.

Məlum olduğu kimi, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi məqsədi ilə beynəlxalq səylər 1992-ci ilin mayında ATƏT-in Minsk qrupunun yaradılması və gələcək sülh konfransının mandatının müəyyən edilməsi ilə başlanmışdır. 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrində Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını birmənalı şəkildə təsdiqləmiş və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Bu qətnamələr münaqişənin nizama salınmasının hüquqi bazasının ayrılmaz hissəsini təşkil etmişdir.

1994-cü ildə ATƏT-in Minsk qrupunun həmsədrləri simasında münaqişənin nizama salınması mexanizmi təsbit edilmişdir. BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan Amerika Birləşmiş Ştatları, Fransa Respublikası və Rusiya Federasiyası hazırda Minsk qrupunun həmsədrləridir.

2005-ci il yanvarın 25-də Avropa Şurası Parlament Assambleyasının qış sessiyasının iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair məruzə dinlənilmiş və AŞPA-nın münaqişəyə dair mövqeyini əks etdirən qətnamə və problemin həlli istiqamətində təşkilatın həyata keçirə biləcəyi tədbirlərə dair Avropa Şurasının Nazirlər Komitəsinə ünvanlanmış tövsiyə qəbul edilmişdir. Bu sənədlərdə Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi, Dağlıq Qarabağ bölgəsinin separatçı qüvvələrin nəzarəti altında olması və həmin ərazilərdə etnik təmizləmə aparılması faktları öz əksini tapmışdır. Digər tərəfdən, Avropa Şurasının üzvü olan dövlət tərəfindən xarici ərazilərin işğalının həmin dövlətin təşkilat qarşısında götürdüyü öhdəlikləri ciddi surətdə pozduğu bəyan edilmiş, güc vasitəsi ilə ilhaq cəhdi rədd olunmuş, işğal edilmiş Azərbaycan ərazilərinin azad olunmasını tələb edən BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə istinad olunmuş, silahlı qüvvələrin işğal olunmuş bütün ərazilərdən çıxarılması zərurəti göstərilmiş, yurdlarından didərgin düşmüş şəxslərin öz torpaqlarına geri dönməsi hüququ təsdiq edilmişdir.

2010-cu il mayın 20-də Avropa Parlamenti "Cənubi Qafqaz üzrə Avropa İttifaqı strategiyasına ehtiyac" adlı qətnamə qəbul etmişdir. Sənəddə Azərbaycanın işğal edilmiş bütün ərazilərindən Ermənistan silahlı qüvvələrinin çıxarılması tələb edilmişdir. Həmin il aprelin 7-də qəbul etdiyi "Avropa Qonşuluq Siyasəti – Şərq ölçüsünün icmalı" adlı qətnamədə isə Avropa Parlamenti qaçqın və köçkünlərin bütün hüquqlarının, o cümlədən öz torpaqlarına qayıtmaq hüququnun qeyd-şərtsiz şəkildə təmin edilməsinin vacibliyini vurğulamışdır. Həmçinin bu qətnamənin qəbulu zamanı deputatların tam əksəriyyəti tanınmamış ərazilərdəki separatçı rejimlərlə təmaslar qurulmasını rədd etmişlər.

Şübhə yoxdur ki, Ermənistanın və Azərbaycanın inkişaf səviyyələri arasında fərqin getdikcə artdığı bir şəraitdə təcavüzkara göstərilən beynəlxalq təzyiqin güclənməsi Azərbaycanın ərazi bütövlüyünün bərpasına, qaçqın və köçkün soydaşlarımızın doğma yurdlarına qayıtmasına, bölgədə uzunmüddətli möhkəm sülhün bərqərar olmasına gətirib çıxaracaqdır. Bu gün hamı anlayır ki, Azərbaycan Respublikası öz ərazisinin bir hissəsində suverenliyinin qəsb edilməsinə, əzəli torpaqlarının quldurcasına zəbt edilməsinə və qoparılmasına heç zaman razı ola bilməz və mövcud imkanların hamısından istifadə edərək ərazi bütövlüyünün bərpasına nail olacaqdır. Əminəm ki, Ermənistan da gec-tez bunu anlayacaq, tarix boyu heç zaman ona məxsus olmamış Azərbaycan torpaqlarını xoşluqla, ya da zor gücünə geri qaytaracaqdır. Buna da əminəm ki, Xocalı şəhidlərinin, digər şəhidlərimizin qanı yerdə qalamayacaq, Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı cinayətlərinin ideoloqları, təşkilatçıları və icraçıları öz cəzalarına çatdırılacaqlar.



Şəkil 2

Ziyafət Əsgərov

Xocalı soyqırımının iyirminci ildönümü haqqında
Azərbaycan Respublikası Prezidentinin
SƏRƏNCAMI

Azərbaycan xalqının tarixinə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı faciəsi kimi daxil olmuşdur. Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarına zidd olaraq, keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin iştirakı ilə yatan şəhərə hücum edərək azərbaycanlılara qarşı soyqırım aktını törətmişlər.

Bu hərbi təcavüz zamanı Xocalı ağır hərbi texnikadan şiddətli atəşlər nəticəsində darmadağın edilmiş, dinc sakinlərə amansızcasına divan tutulmuşdur. Bir neçə saat ərzində 613 soydaşımız, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilmiş, meyitlər üzərində təhqiredici hərəkətlərə yol verilmişdir. Həmin kütləvi qırğın həyata keçirilərkən 8 ailənin həyatına son qoyulmuş, 25 uşaq hər iki valideynindən, 130 uşaq isə valideynlərinin birindən məhrum edilmiş, 487 dinc Xocalı sakini ağır yaralanmış və 1275 nəfər girov götürülmüşdür. Girov götürülənlərdən 150 nəfərin taleyi indiyədək məlum deyil.

Qanlı Xocalı qırğınını törətməklə Dağlıq Qarabağın hüdudlarından kənara çıxan Ermənistan Azərbaycana qarşı genişmiqyaslı təcavüzə başladı. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı 20 min vətəndaşımız öldürüldü, 50 min nəfərdən çox adam yaralandı və əlil oldu, ölkəmizin ərazisinin 20 faizi işğal edildi. Xalqımız misli görünməyən humanitar fəlakətlə üz-üzə qaldı.

Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının, Avropa Parlament Assambleyasının və bir sıra beynəlxalq qurumların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması və problemin ölkəmizin ərazi bütövlüyü çərçivəsində obyektiv həllini tapmasına dair qətnamə və qərarlarına baxmayaraq, bu günə qədər ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar heç bir nəticə verməmişdir.

Azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almalıdır.

Xocalı soyqırımı zamanı qətlə yetirilmiş həmvətənlərimizin xatirəsini faciənin iyirminci ildönümü ərəfəsində dərin hüznlə bir daha yad edərək və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Xocalı soyqırımının iyirminci ildönümü ilə bağlı tədbirlər planı hazırlayıb onun həyata keçirilməsini təmin etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 yanvar 2012-ci il.

SÖVDƏLƏŞMƏ XƏRCLƏRİ – sövdələşməni razılaşdırarkən və həyata keçirərkən tərəflərin çəkdikləri xərclər.

SÖVDƏLƏŞMƏ QİYMƏTLƏRİ – adətən, sövdələşmələr bağlanarkən tətbiq edilir. Bəzən faktiki sövdələşmə qiymətləri təklif qiymətlərindən xeyli fərqlənir.

SÖZSÜZ AKSEPT (ing. *tacit acceptance*) – akseptin bu halında tədiyə tələbi o şərtlə təmin edilir ki, alıcı aksept müddətində ödənişdən imtina etməsin.

"S&P 500" ("Standart and Poor's 500 Index") – S&P indeksi Nyu-York fond birjasında qiymətli kağızların 80%-dən çoxunu əhatə edən Amerika səhm kurslarının ən mötəbər indeksi. 500 müxtəlif səhmin qiymət təyinetmə dinamikasını əks etdirir.

SPEKULYATİV ƏQD – zaman keçdikcə maliyyə aktivlərinin kurs dəyərində yarana biləcək fərq hesabına mənfəət əldə etmək istəyinə əsaslanır. Əgər spekulyant gələcəkdə aktivin qiymətinin artacağını gözləyirsə, o, həmin aktivi gələcəkdə daha yüksək qiymətə satmaq məqsədilə indi alacaqdır. Spekulyantların ("öküzlərin") bu cür hərəkətləri qiymətin artması oyunu adlanır. Əgər spekulyant aktivin qiymətinin azalacağını gözləyirsə, o, belə hərəkət edir: aktivi borc alır və dərhal satır, sonra isə aktivi daha aşağı qiymətə alır. "Ayılar" adlanan spekulyantlar üçün bu cür davranış səciyyəvidir və qiymətin azalması oyunu adlanır.

SPENS MAYKL (1943) – Amerika iqtisadçısı. Priston və Oksford universitetlərində təhsil



almış, Stenford və Harvardda dərs demişdir. Harvard Universitetinin fəlsəfə doktorudur. 1981-ci ildə C.B.Klark medalı ilə təltif olunmuş, 2001-ci ildə qeyri-simmetrik bazarların təhlilinə görə Nobel mükafatına layiq görülmüşdür.

Spens Maykl sübut edir ki, əmək bazarında işə götürən seçimi təhsil amilinə görə edir. Çünki potensial işçinin digər qabiliyyətlərini müəyyən etmək hələ mümkün deyildi. Bu da yaxşı nəticələrə gətirib çıxarmır. Ola bilər ki, kimsə yaxşı təhsil almasın, ancaq diplomu olsun, kiminsə diplomu olmasın, ancaq qabiliyyəti olsun. Əmək haqqı isə yüksək təhsilə görə verildiyindən, bacarıqsız adamın bacarığından daha çox əmək haqqı alması baş verə bilər. Bu isə mənfi haldır. Ona görə də təhsilə ancaq ilk siqnallar kimi, informasiya kimi baxılmalıdır.

SPESİFİK MƏSULİYYƏT SIĞORTASI – avtonəqliyyat vasitələri sahiblərinin məsuliyyətinin (mülki məsuliyyət) sığortalanması və muzdlu işçilər qarşısında sahibkarların məsuliyyəti.

SPESİFİK SUBSİDİYA – yetərliliyi məhdudlaşdırılan, konkret istehsalçıya və ya ixracatçıya mal ixracının stimullaşdırılmasına və ya müəyyən mal idxalının əvəz edilməsinə görə yönəldilmiş subsidiya.

SPESİFİKASİYA ÜZRƏ MÜTƏXƏSSİS – alınan məhsulun spesifikasiyasının müəyyən olunmasına görə təşkilatda məsul şəxs.

SPİRAL ƏMƏK HAQQI – əmək haqqı ilə inflyasiya arasındakı fərqi ifadə edir. Bu halda, əmək haqqının artması xərc inflyasiyasını, inflyasiyanın artması isə əmək haqqının artmasını şərtləndirir. Bu halın izah edilməsi zamanı əsas diqqət *kollektiv müqavilənin bağlanması haqqında danışıqların üç aspektinə verilir*:

1) iqtisadiyyatın müəyyən bölməsində nail olunan əmək haqqı artımı meyli digər bölmələrə tələbdən və əmək məhsuldarlığında sahədaxili fərqlərdən asılı olmayaraq şamil edilir;

2) ixtisaslaşma və peşəkarlıqdan asılı olaraq əmək haqqı tariflərinin ənənəvi fərqinin saxlanma meyli;

3) əmək haqqının əmək məhsuldarlığına nisbətən daha sürətlə artdığı zaman geriləyən işçi qrupunun düşdüyü vəziyyət. Əmək haqqının qeyri-bərabər artımı prosesi daha aşkar formada o vaxt baş verir ki, əmək haqqı barədə danışıqlar ayrıca olaraq müxtəlif sahələrdə aparılır. Amma o həm də müxtəlif işçi qrupları arasında, istehsal sahələri daxilində baş verir.

SPONSOR (lat. *spondeo* – zamin olmaq, zəmanət vermək; ing. – *sponsor*) – şirkətin səhm buraxılışını təşkil edən investisiya bankı və ya broker; müəyyən qiymətli kağızlara tələbi yüksəltməyə kömək edən nüfuzlu investor; yaratdığı qarşılıqlı fondlarda səhmlərini təklif edən investisiya şirkəti; nəyə isə zamin olan, zəmanət verən şəxs; ictimai təşkilatın

fəaliyyətini (məsələn, xeyriyyə, yaradıcı, ekoloji və s.), hər hansı tədbirin keçirilməsini, obyektin quraşdırılmasını maliyyələşdirən fiziki və ya hüquqi şəxs.

SPONSORLUQ – əvəzsiz (təmənnasız) olaraq hər hansı bir tədbirin aparılmasının maliyyələşməsi, hər hansı bir obyektin tikintisi və s. Bu cür maliyyələşməni həyata keçirən şəxs sponsor adlanır.

SPORADİK (kortəbii, nadir)

DEMPİNQ – artıq mal ehtiyatlarının bilərəkdən aşağı qiymətə xarici bazara epizodik satışı.

Malın daxili istehsal həcmi daxili bazarın tutumundan artıq olduqda və şirkət ya öz istehsal imkanlarının bir hissəsindən, ümumiyyətlə, istifadə etməmək və mal istehsal etməmək; yaxud mal istehsal etmək və onu xarici bazarda daxili bazardakından daha aşağı qiymətə satmaq dilemması ilə üzləşdikdə belə hal yaranır.

Sporadik dempinq *nadir hadisə* xarakteri daşıyır.

Sporadik dempinqin epizodik xarakter daşıması ölkə iqtisadiyyatına ciddi ziyan vurmur.

SPOT (ing. *spot* – nağd, dərhal ödənişə məruz qalan) – nağd əmtəənin (malın) daşınması və dərhal ödənilməsi, o cümlədən birja ticarəti zamanı sövdələşmə növü və bu sövdələşmənin həyata keçirildiyi qiyməti. İcarədarın tələblərinə təxminən cavab verən tonnaja malik gəmidir. Bir neçə saniyəyə radio və televiziya verilişinə qoşulmaq üçün videoklip və radiodialoq olan reklam növüdür. Spot sövdələşməsi sövdələşmənin bağlandığı anda təsbit edilən məzənnə (spot məzənnəsi) üzrə bu sövdələşmənin bağlanmasından iki gündən gec olmayaraq rəqib (kontragent) banklar tərəfindən valyutanın göndərilməsi şərtlərində onun (valyutanın) alqı-satqısıdır. Bununla belə, sövdələşmədə iştirak edən valyutalardan hər bir valyuta üzrə iş günləri hesablanır; əgər sövdələşmə günündən sonrakı gün bir valyuta üçün iş günü deyilsə, valyutanın göndərilməsi müddəti bir gün artır. Lakin əgər digər valyuta üçün sonrakı gün iş günü deyilsə, onda valyutanın göndərilməsi müddəti daha bir gün artır. Spot məzənnəsi kotirovka (qiymətqoyma) bülletenlərində dərc olunur. Spot sövdələşməsi üçün başlıca cəhət ondan ibarətdir ki, onun bağlanması anı praktik olaraq icrası anı ilə üst-üstə düşür. Valyutanın göndərilməsi müddəti "valyutalaşma müddəti" adlanır. Bağlanmış sövdələşmə üzrə valyutanın ikigünlük köçürülmə müddəti əvvəllər onun daha qısa müddət ərzində həyata keçirilməsində obyektiv çətinliklərlə müşayiət olunurdu. Elektron rabitə vasitələrinin, əməliyyatların kompüter işlənməsinin geniş yayılması proseslərin daha sürətlə həyata keçirilməsinə imkan verdi. Lakin spot sövdələşməsi ənənəvi olaraq baza valyuta əməliyyatıdır, spot məzənnəsi isə valyuta bazarının baza məzənnəsidir. Müxtəlif qiymətləndirməyə görə, spot sövdələşməsi banklararası bazar əməliyyatlarının ümumi həcminin 55%-dən 90%-ə qədərini təşkil edir. Spot əməliyyatlarının köməyilə banklar arbitraj və möhtəkirlik əməliyyatlarını həyata keçirərək xarici valyutada öz müştərilərinin tələbatlarını, kapitalların, o cümlədən "qaynar" pulların bir valyutadan digərinə axınını təmin edir. Spot sövdələşməsi gedişində örtülmənin köçürülməməsi riskini yaradır. Müxtəlif valyuta bazarlarının iş vaxtı ərzindəki fərqi ona gətirib çıxarır ki, bəzən bank alınmış valyutanın məbləğinin bu bankın hesabına köçürülməsi haqqında informasiyanın alınmasına qədər satılmış valyutanı köçürür. Bununla əlaqədar banklar bazarda öz müştəriləri üçün limitlər, yəni valyuta sövdələşmələrinin ümumi məbləğini müəyyən edir ki, bunlar üzrə valyutanın köçürülməsi haqqında məlumat yoxdur.

SPOT ƏQDİ (nağd mal üçün əqd, dərhal təhvil verilən mal üçün əqd, kassa əqdi) – bu əqd üzrə hesablaşma və əqdin yerinə yetirilməsi onun bağlandığı tarixdən etibarən ikinci iş günündə aparılmalıdır; bu əqd üzrə mallar nağd pul müqabilində satılır və dərhal göndərilir.

SPRED (ing. *spread*) – qiymətli kağızların buraxılmasına görə emitent tərəfindən alınan qiymətlə, onlara görə investor tərəfindən ödənilən qiymət arasında ümumi fərq. İdarəetməyə və yerləşməyə görə komissiyaların satın güzəştlərinin cəminə bərabərdir. Müxtəlif daşıma müddətli eyni əmtəənin və ya iki müxtəlif, lakin qarşılıqlı əmtəənin fyuçers müqavilələrinin eyni zamanda alqısı və ya satqısıdır. Ödənilən vergilərin azalması məqsədilə qarşılıqlı əlaqəli olmayan əmtəələrlə fyuçers kontraktlarının alqı və satqısıdır – vergi spredi. Eyni tipli, lakin müxtəlif bazis qiymətləri

üzrə və ya opsionun bitməsi anına qədər, yaxud müxtəlif bazis qiymətləri üzrə və müxtəlif dövrdə opsionların eyni zamanda alqısı və satqısıdır. Qiymət tərəddüdlərinin (dəyişmələrinin) genişlənməsidir.

SPT ("daşınma təyinat yerinədək ödənilmişdir") – satıcı malın təyinat yerinə çatdırılana qədər bütün xərclərini ödəməlidir. Mal daşıyıcıya təhvil verildikdən sonra satıcı heç bir məsuliyyət daşımır.

SSUDA – kredit, borc.

SSUDA FAİZİ NORMASI – ssudanın sərfəli olmasının ifadəsi, pul kapitalı üzərində mülkiyyət hüququnun reallaşma dərəcəsi. Bu norma ssuda kapitalının gəlirinin məbləğinin ssuda kapitalının məbləğinə faiz nisbəti kimi təyin edilir. Əgər ssudaya verilmiş kapital (A) 300 min dollar olarsa, bu kapitalın mülkiyyətçisi isə ildə 30 min dollar gəlir əldə edərsə, onda faiz norması aşağıdakı kimi hesablanır:

PR1=PR/A x 100=30.000/
300.000 x 100 = 10%

Adətən, faiz norması mənfəət normasından çox olmur. Lakin o, sıfıra yaxın səviyyəyə qədər azala bilməz. Birinci halda bu, borcalan müəssisə, ikinci halda isə ssuda verən kapitalist üçün əlverişli olacaqdır.

SSUDA KAPİTALI BAZARI – obyekt qismində ssuda kimi təqdim edilən pul kapitalının çıxış etdiyi iqtisadi əqdlər sistemi. Ssuda kapitalına tələb və təklifin formalaşması sərbəst pul vəsaitlərinin akkumulyasiyasına, onların ssuda kapitalına çevrilməsinə və təkrar istehsal prosesinin iştirakçıları arasında yenidən bölünməsinə şərait yaradır. Bu bazar ssuda kapitalının yenidən bölüşdürülməsini təmin edən maliyyə-kredit müəssisələrinin məcmusudur. Burada satıcılar qismində maliyyə-kredit müəssisələri, fond birjaları, sığorta şirkətləri, pensiya fondları və digər müəssisələr (təşkilatlar); alıcılar qismində dövlət, sənaye və ticarət firmaları, digər hüquqi və fiziki şəxslər çıxış edir.

Ssuda kapitalları bazarının köməyi ilə müvəqqəti sərbəst pul vəsaitləri ssuda kapitalına çevrilir və yenidən kapital dövriyyəsinə cəlb olunaraq təkrar istehsalın fasiləsizliyini təmin edir.



Bu cür bazarlar funksional təyinatından asılı olaraq aşağıdakı növlərə bölünür:

qısamüddətli pul bazarı – əsasən, dövriyyə kapitalının hərəkətini təmin edir;

kapital bazarı (ortamüddətli və uzunmüddətli). Ortamüddətli, uzunmüddətli kreditlərə tələb və təklifin formalaşdığı bu bazar əsas kapitalın fəaliyyətini, genişlənməsini təmin edir.

Bazarların bu növləri arasındakı sıx əlaqəyə və dəqiq sərhəd olmadığına görə praktikada onları fərqləndirmək çətindir. Ssuda kapitalı bazarının zəruriliyi onunla şərtlənir ki, kapitalın hərəkəti prosesində bir tərəfdən o, daim sərbəstləşir, digər tərəfdən, əlavə kapitala tələbat yaranır. Sərbəstləşmə əsas kapitalın köhnəlməsi (amortizasiya yığılması) və dövriyyə kapitalının bir hissəsinin ehtiyat saxlanması, əmək haqqı fondunun formalaşması, mənfəət yığımı nəticəsində baş verir. Əlavə kapitala tələbat isə, məsələn, xammal və materialların tədarük edilməsi, ehtiyatlar yaradılması, məhsul realizə edilənə (satılana) qədər əmək haqqı ödənilməsi, istehsalın yenidən qurulması və ya modernləşdirilməsi, akkreditivlər təqdim edilməsi, borcun ödənilməsi və s. amillərlə bağlı ola bilər. Kapitalın sərbəstləşməsi və pul resurslarına əlavə tələbatla əlaqədar problemlərin tənzimlənməsi kredit münasibətləri vasitəsilə həyata keçirilir. Bu, tələb və təklifi tarazlaşdırmağa imkan verir. Kreditor

ilə borc alan arasında kredit münasibətləri, adətən, yazılı formada həyata keçirilir və borclu tərəfindən xüsusi öhdəliklər – kredit sənədləri təqdim edilməsi ilə müşayiət olunur. Ssuda kapitalları bazarı qiymətli kağızlar bazarından və ipoteka bazarından ibarətdir.

Ssuda kapitallarının mənbələrinə və tətbiq sahələrinə uyğun olaraq beynəlxalq və milli ssuda kapitalları bazarını fərqləndirirlər.



SSUDALARIN ÖDƏNİLMƏSİNİN TƏXİRƏ SALINMASI – ssudaların əvvəl müəyyən edilmiş müddətinin uzadılması; maddi qiymətlilərin və məsrəflərin kreditləşdirilməsi hallarında istifadə edilir. Ssudanın ödənilməsi müəssisələrdən asılı olmayan səbəblər üzündən maliyyə çətinlikləri yaranan hallarda həmin müəssisələrin əsaslandırılmış vəsatətinə əsasən təxirə salınır. Möhlət verilən müddət kreditvermə obyektindən asılıdır.

STABİLLƏŞMƏ (İQTİSADİ) – iqtisadi sistemin stabil vəziyyətə gətirilməsi prosesidir ki, burada üç tərkib hissə əsas götürülür: istehsalın sabit artımı, əhalinin təbii artımına uyğun gələn məşğulluq və qiymətlərin praktik dəyişməzliyi. Bu üç tərkib hissədən biri və ya bir neçəsi pozulursa, iqtisadiyyatın stabilləşməsinə tələbat yaranır. Stabilləşmə məqsədilə müxtəlif ölkələrin hökumətləri tərəfindən qəbul edilən tədbirlər göstərilən pozulmaların xarakterindən, eləcə də onların həqiqi səbəblərindən, siyasi və iqtisadi baxışların dərki səviyyəsindən asılı olaraq fərqləndirilə bilər. Lakin sərbəst bazar iqtisadiyyatı şəraitində iqtisadi proseslərin axınına hökumətin (dövlətin) müdaxilə etməsi imkanı və hüququna malik olması C.Keyns tərəfindən müəyyənləşdirilmişdir. XX əsrin xeyli hissəsi ərzində onun bu ümumi nəzəriyyəsi Qərbin bir sıra ölkələrində dəfələrlə öz təsdiqini tapmışdır. Dövlət müdaxiləsinin konkret yanaşmalarına və metodlarına gəldikdə isə, onlar bir-birindən fərqlənirdilər. Bəzən də Keynsin və onun ardıcıllarının işləyib hazırladıqları yanaşmalara və metodlara zidd gəlirdi. Belə ki, XX əsrin 90-cı illərində M.Fridmanın monetarist nəzəriyyəsi ideyalarına əsaslanan sabitləşdirici metodlar geniş yayıldı və tanındı.

İqtisadiyyatın stabilliyi onun hərəkətsizliyi (dayanıqlığı) demək deyil, o, iqtisadi artım anlayışına zidd gəlmir (yalnız qiymətlər istisnadır – uzunmüddətli tədrici artım qiymətlərin dəyişməzliyi ilə əlaqələndirilə bilər. Hərçənd ki, bir sıra səbəblərə görə onların az miqdar yüksəlməsi hər halda faydalı ola bilər. P.Samuelsonun dediyi kimi, stabilləşdirmə "iqtisadiyyatın təkərləri üçün yağlamadır"). İqtisadiyyatın stabilliyindən danışarkən, hər şeydən əvvəl, ümumi, makroiqtisadi sabitlik nəzərdə tutulur. Lakin mikroiqtisadiyyatda, yəni müəssisə səviyyəsində vəziyyətin yaxşılaşmasının zəruri şərtidir (məsələn, islahatlar şəraitində bu o deməkdir ki, müəssisələri bazara uyğunlaşmağa, struktur dəyişiklikləri aparmağa yalnız makroiqtisadi stabillik məcbur edir). Makroiqtisadi stabilliyin əsasını maliyyə sabitliyi, yəni ölkədə stabil (sabit) dönərli valyutanın tətbiqi, dövlət büdcəsinin tarazlığının təmini kimi tədbirlər daxil olmaqla inflyasiyanın ram edilməsi təşkil edir. Stabilliyin sosial nəticələrini, adətən, qısamüddətli, ortamüd-

dətli və uzunmüddətli növlərə bölmək olar. Sabit iqtisadiyyatın uğursuzluğa və iflasa uğraması haqqında iqtisadiyyatın əvvəlki vəziyyətinə (yaxud vəziyyətin pisləşməsinə) qayıdarkən dərhal mühakimə yürütmək mümkündür. Yalnız kifayət qədər uzun davam edən perspektivlər, stabillikdən sonra gələn sabit artım şəraitində iqtisadi sistemin fəaliyyət göstərdiyi müəyyən dövr nəzərə alınmaqla aparılan stabilliyin uğuru haqqında danışmaq olar.

STAQFLYASİYA – iqtisadiyyatda istehsal səviyyəsinin inkişafının dayanmasının və hətta aşağı düşməsinin arasıkəsilməz qiymət artımının sürətləndirilməsi ilə əlaqələndirilməsi. Termin 1965-ci ildə Böyük Britaniyada iqtisadiyyat elminə daxil edilmişdir. Keçən əsrin 70-ci illərinədək hesab olunurdu ki, tsiklik inkişaf edən iqtisadiyyatlarda böhran qiymətlərin də aşağı düşməsinə səbəb olur. 1974-1975-ci illər böhranı zamanı artıq staqflyasiya özünü göstərməyə başladı. Belə ki, ABŞ-da qiymətlərin 10% artması istehsalın aşağı düşməsi ilə müşayiət olunurdu. Staqflyasiya sözü iki sözün – staqnasiya və inflyasiyanın birləşməsindən yaranmışdır. Staqflyasiya 1991-1996-cı illər Rusiya iqtisadiyyatı üçün də xarakterik idi.

STAQNASİYA – (lat. *stagnem* – durğun, axmaz su; ing. *stagnation*) – 1. İqtisadiyyatda durğunluq bildirən hadisə, sənaye və kənd təsərrüfatı istehsalında, ticarət dövriyyəsində artımın olmaması. 2. İqtisadi artımın sıfır, son dərəcə aşağı (3%-dən aşağı) və ya mənfi dövrü (inflyasiya nəzərə alınmaqla). 3. Qiymətli kağızlar bazarında aşağı fəallıq dövrü.

STAQNASİYA VƏZİYYƏTİNDƏ OLAN ŞİRKƏT (lat. *stagno* – hərəkətsiz etmək, ing. *ex growth*) – əvvəllər göstəriciləri artan, lakin yaxın gələcəkdə dəyərinin artması perspektivi olmayan şirkət.

STALİYA – gəminin yüklənməsinin və ya boşaldılmasının mütləq vaxtı. Bu vaxt tərəflərin razılığı və ya limanın qəbul etdiyi normalarla müəyyənləşdirilir. Staliya vaxtından gecikdirilməyə görə fraxtgötürən demerrec ödəməli, əksinə, vaxtından qabaq yerinə yetirdiyinə görə isə dispaş olmalıdır.

STANDART (ing. *standart*) – norma, nümunə, etalon modeldir ki, bunlar digər oxşar obyektlərlə müqayisə edilmək üçün başlanğıc kimi qəbul edilir. Standartlaşma obyektinə aid kompleks norma, qayda və tələbləri müəyyən edən və səlahiyyətli orqan tərəfindən təsdiq edilən texniki sənəddir. Standart həm maddi predmetlər (məhsullar, etalonlar, əşya nümunələri), həm də insanların təhlükəsizliyini, ekoloji normativləri və s. təmin edən istehsal prosesləri və şərtləri üçün tərtib olunur. İqtisadiyyatın qloballaşması və beynəlmiləlləşməsi şəraitində 100-dən artıq ölkəni birləşdirən və 1947-ci ildə yaradılan Beynəlxalq Standartlaşma Təşkilatının, Avropa Elektronika Standartlaşma Komitəsinin, Avropa Telekommunikasiya Standartlaşma İnstitutunun və s. təşkilatların məşğul olduğu beynəlxalq standartın rolu artır.

STANDART ƏND PUR (ing. *Stabdard and Poor"s (S&P)* (ABŞ) – qiymətli kağızların kredit reytinqlərinin müəyyən edilməsi üzrə qabaqcıl firma, müxtəlif investisiya xidmətləri göstərir, fond indekslərini hesablayır və dərc edir. Qiymətli kağızlar, şirkətlər, banklar üzrə çoxsaylı məlumat və analitik materiallar nəşr edir.

STANDART ƏMƏK HAQQI – C.R.Hiks tərəfindən əmək haqqının müəyyənləşmə üsulunun xüsusi izahı üçün tətbiq olunan termindir. C.R.Hiksin təsdiqinə görə, əmək haqqının tələb və təklifin qarşılıqlı təsiri nəticəsində müəyyən olunduğu təsəvvür faydalı deyil. *Əmək haqqı daha çox sosial-iqtisadi qüvvələrin qarşılıqlı fəaliyyətinin nəticəsi kimi təsəvvür oluna bilər.* Pulda təcəssüm olunan əmək ödənişi səviyyəsi isə pul kütləsinin həcmini müəyyən edir.

STANDART İPOTEKA KREDİTİ (ing. *Conforming Loan)* – ümumi qəbul olunmuş kreditləşmə standartlarına uyğun kredit. ABŞ-da standart kredit "Fenni Mey" və "Fredi Mak"ın standartlarına uyğun olmalı, yəni kreditin hər il yenidən nəzərdən keçirilən maksimal məbləğini aşmamalı, anderraytinqin tələblərinə cavab verməlidir (sənədlər paketi, əmsallar K/3 və P/D və s.). "Fenni Mey" və "Fredi Mak" ipoteka krediti standartlara uyğun olduqda onu regional bankdan satın ala bilər.

STANDART KƏNARLAŞMA *(standard deviation)* – faktiki gəlirliliyin gözlənilən gəlirlilikdən ehtimal olunan kənarlaşması ölçüsünün müəyyənləşdirilməsi üçün geniş tətbiq olunan statistik göstərici. Standart kənarlaşma nə qədər çox olarsa, səhmin gəlirliliyinin dəyişkənliyi də o qədər yüksəkdir.

STANDART-KOST – daxili auditin tərkib hissəsi kimi, standart-kost smeta nəzarətini rəhbər tutur. Faktiki göstəricilərin təsbit edilmiş standartlarda smeta fərqliliyinin müəyyən olunması, mənfəət və xərclər baxımından mümkün korrektələrin qeydiyyatı standart-kost sisteminin ana xəttini, əsas struktur komponentini təşkil edir.

STANDARTLAŞDIRMA – məhsullar (işlər, xidmətlər) üçün norma, qayda və xarakteristikaları müəyyənləşdirən fəaliyyət aşağıdakıları təmin etmək məqsədi daşıyır:

– məhsulların (işlərin, xidmətlərin) insanın həyatı, sağlamlığı, əmlakı və ətraf mühit üçün təhlükəsizliyini;

– məhsulların (işlərin, xidmətlərin) texniki, texnoloji və informasiya uyğunluğunu, eləcə də qarşılıqlı əvəz olunmasını;

– məhsulların (işlərin, xidmətlərin) elm, texnika və texnologiyanın inkişafına uyğunluğunu və onların rəqabət qabiliyyətinin yüksəldilməsini;

– ölçmələrin dəqiqliyini və vəhdətini;

– bütün növ resursların qənaətini;

– təbii və texnogen qəzaların, habelə, digər fövqəladə vəziyyətlərin yaranması ehtimalları nəzərə alınmaqla təsərrüfat obyektlərinin təhlükəsizliyini;

– ölkənin müdafiə qabiliyyətini və səfərbərliyə hazırlığını və s.

STANDARTLAŞDIRMA, METROLOGIYA VƏ PATENT ÜZRƏ DÖVLƏT KOMİTƏSİ – 2008-ci ildə müvafiq Dövlət Agentliyinin bazası əsasında yaradılmışdır. Komitə Azərbaycan Respublikasının standartlaşdırma, metrologiya, sertifikatlaşdırma, sənaye mülkiyyəti obyektlərinin mühafizəsi sahəsində dövlət siyasətini formalaşdıran və həyata keçirən mərkəzi icra hakimiyyəti orqa-





Standartlaşdırma, Metrologiya və Sertifikatlaşdırma üzrə Dövlətlərarası Şuranın (MDB) 40-cı iclasında yekun protokolun imzalanması və Azərbaycanla Polşa arasında Sazişin imzalanması. Bakı



Standartlaşdırma, Metrologiya və Sertifikatlaşdırma üzrə Dövlətlərarası Şuranın (MDB) 40-cı iclası



20 may – Ümumdünya Metrologiya günü münasibətilə seminar keçirilib

nıdır. Fəaliyyətinin əsas istiqamətlərini standartlaşdırma, metrologiya, sertifikatlaşdırma, patent və akkreditasiya təşkil edir. Standartlaşma istiqamətində fəaliyyət məhsulların keyfiyyət və nomenklaturasının, xidmət və proseslərin insanların həyatı və sağlamlığı üçün təhlükəsizliyinin təmin olunması, ətraf mühitin mühafizəsi məsələlərində dövlətin və istehlakçıların mənafeyinin müdafiəsini əhatə edir. Metrologiya sahəsində dövlət siyasətini həyata keçirir, məqsədli proqramlar hazırlayaraq onların həyata keçirilməsini təmin edir. Digər dövlət və yerli özünüidarəetmə orqanlarını, təsərrüfat subyektlərinin bu sahədəki fəaliyyətini əlaqələndirir. Dövlət metroloji nəzarəti və təftişini, habelə, ölçmə vasitələrinin dövlət qəbulu və dövlət nəzarət sınağını, ölçmə vasitələrinin sertifikatlaşdırılmasını, onların ölçmə vasitələrinin dövlət reyestrində qeydiyyatının aparılmasını həyata keçirir. Patent sahəsində fəaliyyətini patent müvəkkillərinin milli reyestrinin aparılması, Patent fondunun milli və xarici ixtiraların təsviri ilə, sənədlərlə və sənaye mülkiyyətinin digər sahələrinə aid ədəbiyyatla komplektləşdirməsi üzrə təşkilati köməkliklərin göstərilməsi, onun saxlanmasının təminatı, dövlət innovasiya proqramlarının işlənməsi və həyata keçirilməsində iştirakı, innovasiya layihələrinin ekspertizasının aparılması əhatə edir. Sertifikatlaşdırma istiqamətində fəaliyyəti əhalinin həyatı, sağlamlığı, əmlakı və ətraf mühit üçün təhlükəli olan məhsulların (*xidmətlərin*) istehsalının (*idxalının*) və satışının qarşısının alınması, respublikada müəssisələrin və sahibkarların beynəlxalq, iqtisadi, elmi-texniki əməkdaşlıqda, həmçinin, daxili bazarda və ticarətdə iştirakı üçün əlverişli şəraitin yaradılması, rəqabətliliyin inkişafı və istehlakçılara məhsulların (*xidmətlərin*) səriştəli seçilməsində köməklik göstərilməsini təşkil edir. Akkreditasiya üzrə əsas fəaliyyət isə müəssisə və laboratoriyalarda akkreditasiyaların aparılması və bundan irəli gələn digər məsələlərin həllini həyata keçirməkdən ibarətdir.

STANDARTLAŞDIRMA ÜZRƏ BEYNƏLXALQ TƏŞKİLAT (İSO) – təşkilat İsveçrənin Cenevrə şəhərində 1947-ci ilin fevralında yaradılmışdır. BMT-nin standartlaşdırma üzrə milli birliklərin beynəlxalq Federasiyasının və Koordinasiya Komitəsinin fəaliyyətini davam etdirir. Standartlaşdırmanın və bununla bağlı mal və xidmətlərin beynəlxalq mübadilə fəaliyyətinin təmin edilməsinin, habelə intellektual, elm, texnoloji və iqtisadi fəaliyyətin inkişafına yardım göstərir.

STATİSTİK FAKT – kütləvi müşahidə zamanı alınan tipik məcmu rəqəm xarakteristikası.

STATİSTİK SEÇMƏ (*statistical sampling*) – aşağıdakı xüsusiyyətlərə malik istənilən seçmə metodu:

a) nümunənin təsadüfi seçilməsi;

b) nümunə nəticələrinin qiymətləndirilməsi üçün ehtimal nəzəriyyəsindən istifadə edilməsi, o cümlədən nümunənin yoxlanılması riskinin qiymətləndirilməsi.

STATİSTİK UÇOT – kütləvi müşahidə, müqayisə, qruplaşdırma, təhlil, statistik məlumat-

ların alınması və işlənməsini ifadə edir. Burada ölçü sistemi çoxşaxəli və genişdir.

STATİSTİK VAHİDLƏR REGİSTRİNİN VƏ TƏSNİFATLARIN APARILMASI – statistik məlumatların beynəlxalq müqayisəliliyini təmin etmək üçün beynəlxalq təsnifatlarla uzlaşdırılmış, yerli şəraitə uyğunlaşdırılmış texniki-iqtisadi və kommersiya məlumatlarının statistik təsnifatlarının (TİKMST) yaradılması və aparılması.

Azərbaycan Respublikası ərazisində məlumatların mübadiləsini aparan bütün hüquqi və fiziki şəxslər mütləq statistik təsnifatlardan (məlumatların kodlaşdırılmasından) istifadə etməlidirlər.

Statistik təsnifatların aparılması, yenilərin yaradılması və köhnələrin ləğv edilməsi qaydası "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

Azərbaycan Respublikası ərazisində rəsmi statistikanı həyata keçirmək üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən statistik məlumatları əks etdirən statistik vahidlərin dövlət reyestri aparılır. Orada təsərrüfatçılıq-sahibkarlıq fəaliyyəti göstərən və qanunvericiliklə qadağan olunmayan digər fəaliyyət növləri ilə məşğul olan hüquqi və fiziki şəxslərin maliyyə-təsərrüfat fəaliyyətini əsas və qeyri-əsas fəaliyyətini səciyyələndirən ünvan və statistika göstəriciləri əks etdirilir.



STATİSTİKA (lat. *status* – dövlət) – müəyyən spesifikliyə malik və kütləvi hadisə və proseslərin kəmiyyət tərəfini onların keyfiyyət tərəfi ilə qırılmaz əlaqədə öyrənən mürəkkəb və geniş bölmələri olan elm. Onun aşağıdakı əsas bölmələri vardır: a) statistika elminin ən ümumi kateqoriyalarının, prinsiplərinin və metodlarının nəzərdən keçirildiyi ümumi statistika nəzəriyyəsi; b) iqtisadiyyatda baş verən hadisə və prosesləri öyrənən iqtisadi statistika; c) sosial hadisə və prosesləri öyrənən iqtisadi statistika; ç) sosial hadisə və prosesləri öyrənən sosial statistika. İctimai həyatın hadisələri və prosesləri haqqında kütləvi məlumatların (verilənlərin) toplanması, işlənməsi, təhlili və dərc edilməsi. İctimai həyatın kütləvi hadisələrinin, proseslərinin vəziyyətini və ya onların məcmusunu xarakterizə edən rəqəm məlumatlarının cəmi.



STATİSTİKA BANKI – göstəricilərin seçilməsi çərçivəsində qarşılıqlı asılılığın tam açılmasına və onların statistik etibarlılığı dərəcəsinin müəyyənləşdirilməsinə imkan verən informasiyanın statistik işlənməsinin müasir metodikalarının məcmusu.

STATİSTİKA MÜŞAHİDƏLƏRİ – bu müşahidələr müntəzəm və dövri statistik hesabatlardan, birdəfəlik uçotaalmalardan, müxtəlif siyahıyaalmalardan, sorğulardan, müayinələrdən ibarətdir.

Dövlət (region) statistika müşahidələri aparılan zaman, qanunvericilikdə başqa hal nəzərdə tutulmamışdırsa, statistik müşahidələrin növü, metodologiyası, proqramları və obyektləri, həmçinin, rəsmi statistikanın aparılması üçün bütün mənbələrdən məlumatların alınması, inzibati registrlərdən və ya dövlət statistika orqanlarının məlumatları əsasında aparılan qiymətləndirmələrdən istifadəsi beynəlxalq təşkilatların və Şuranın tövsiyələri nəzərə alınmaqla, dövlət statistika orqanları tərəfindən müəyyənləşdirilir. İstifadə olunacaq mənbənin seçilməsinə dair qərar qəbul edilərkən onun keyfiyyətinə, məlumatların vaxtında təqdimatına, xərclərə və bununla əlaqədar respondentlərə düşən yükə xüsusi diqqət yetirilir.

İqtisadi siyahıyaalmalar, habelə əhalinin ümumrespublika siyahıyaalınmasının həyata keçirilməsi normativ aktlara uyğun aparılır. Onların yerinə yetirilməsi üçün dövlət statistika orqanlarında işləməyən şəxslər müvafiq icra hakimiyyəti orqanının qərarlarında müəyyənləşdirilmiş şərtlər əsasında cəlb edilirlər.

Azərbaycan Respublikasının ərazisində yerləşən bütün hüquqi (onların nümayəndəlik və filialları) və fiziki şəxslər dövlət (region) müşahidələrinin aparılması üçün lazımi məlumatları müəyyən həcmdə və müddətlərdə haqqı ödənilmədən kağız və ya müvafiq qanunvericiliyə uyğun olaraq məlumatların təqdim edilməsi təsdiqlənə bilən elektron sənəd formasında dövlət statistika orqanlarına təqdim etməyə borcludurlar. Rəsmi statistika materiallarının istehsalı üçün məlumatların təqdim olunmasına cəlb edilmiş statistik vahidlərin müayinə və siyahıyaalmanın məqsədi, əhatə dairəsi, statistik məlumatların məxfiliyinin təmini üçün təminat, həmçinin, bu barədə öz səlahiyyət və vəzifələri haqqında məlumat almaq hüququ vardır. Başdan-başa siyahıyaalmalarda məlumatların təqdim edilməsi üzrə öhdəlik (vəzifə) müvafiq məcmu çərçivəsində əhatə dairəsinin müəyyən meyarlarına cavab verən bütün statistik vahidlərə şamil olunur. Seçmə müayinələrdə bu öhdəlik yalnız seçmə planı əsasında müəyyənləşdirilmiş vahidlərə aid edilir. Seçmə planı müvafiq icra hakimiyyəti orqanı tərəfindən hazırlanır və respondentlərin təmsilçiliyinin, habelə, onlara düşən yükün azaldılması məqsədinə xidmət edir.

Dövlət (region) müşahidələrinin aparılması üçün lazım olan məlumatların elektron sənəd formasında dövlət statistika orqanlarına təqdim edilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada həyata keçirilir.

STEPAŞİN SERGEY VADİMOVİÇ (1952) – h.e.d., prof., Rusiya Elmlər Akademiyasının



akademiki. Rusiya Federasiyasının dövlət ədliyyə müşaviridir, hərbi rütbəsi – general-polkovnik. SSRİ Daxili İşlər Nazirliyinin Ali Siyasi Məktəbini, V.İ.Lenin adına Hərbi-Siyasi Akademiyanı, Rusiya Federasiyası Hökuməti nəzdində Maliyyə Akademiyasını bitirmişdir.

1973-1990-cı illər SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında müxtəlif vəzifələrdə xidmət; 1991-1994-cü illər RSFSR Federal Təhlükəsizlik Agentliyinin Sankt-Peterburq şəhəri və Leninqrad vilayəti üzrə idarə rəisi, Rusiya Federasiyası Təhlükəsizlik nazirinin birinci müavini, Federal Əks-Kəşfiyyat Xidməti direktorunun birinci müavini, Rusiya Federasiyası Federal Əks-Kəşfiyyat Xidmətinin direktoru, Rusiya Federasiyası Təhlükəsizlik Xidmətinin direktoru; 1995-1997-ci illər Rusiya Federasiyası Hökuməti Aparatının inzibati departamentinin rəisi; 1997-1998-ci illər Rusiya Federasiyasının Ədliyyə naziri; 1998-1999-cu illər Rusiya Federasiyasının Daxili işlər naziri, Rusiya Federasiyası Hökuməti Sədrinin birinci müavini, Rusiya Federasiyası Hökumətinin Sədri olmuşdur. 2000-ci ilin aprelin 17-dən Rusiya Federasi-

yası Hesablama Palatasının sədridir.

RSFSR xalq deputatı (1990-cı il), RSFSR Ali Sovetinin Müdafiə və təhlükəsizlik məsələləri üzrə Komitə Sədri, RSFSR Ali Soveti Rəyasət Heyətinin üzvü (1992-ci il), Rusiya Federasiyası Dövlət Dumasının deputatı (1999-cu il), Korrupsiya ilə mübarizə üzrə Dövlət Duması Komissiyasının sədri (2000-ci il) seçilmişdir.

"Şücaət" ordeni (1998-ci il), "Vətən qarşısında xidmətə görə" III dərəcəli ordeni (2002-ci il), "Vətən qarşısında xidmətə görə" II dərəcəli ordeni (2007-ci il), İsveçin I dərəcəli "Şimal ulduzu" Ali Kral ordeni, Fransanın "Komandor" dərəcəli Fəxri Legion ordeni (2005-ci il) ilə təltif olunmuşdur.

STERİLİZASİYA (ing. *sterilization*) – xarici valyutanın ölkədən çıxarılması və ya ölkəyə gətirilməsini neytrallaşdırmaq məqsədilə Mərkəzi Bankın açıq bazarda həyata keçirdiyi əməliyyatlar; hökumətin valyuta bazarlarına intervensiyası zamanı rast gəlinən inflyasiya və deflyasiya təsirlərinin kompensasiya edilməsi prosesi. Əgər milli valyutanın kursu aşağı düşürsə və hökumət kursun sabitləşdirilməsi məqsədi ilə intervensiya həyata keçirməlidirsə, xarici valyutada olan ehtiyatlarını satmağa, öz milli valyutasını isə almağa başlayır. Lakin öz valyutasının alınması həmin pulun tədavüldən çıxarılmasına gətirir. Bu isə faiz dərəcələrinin yüksəlməsinə və iqtisadi tənəzzülə səbəb olur. Sterilizasiya yuxarıda qeyd olunan şəraitdə faiz dərəcələrinin yüksəlməsi və gələcək iqtisadi tənəzzülün qarşısının alınması məqsədi ilə pul kütləsinin tədavülə cəlb edilməsi prosesidir. Hökumətin intervensiyanı öz valyutasının kursunun yüksəlməsinə yol verməmək üçün həyata keçirdiyi halda isə, sterilizasiya tədavüldə pul kütləsinin azalmasından ibarət olur.

STİQLER (STIGLER) CORC (1911-1991) – amerikalı iqtisadçı, sənaye təşkilatı (təşkili) nəzəriyyəsi, informasiyanın iqtisadiyyatı, iqtisadiyyat və hüququn qarşılıqlı fəaliyyət problemləri üzrə işlərin müəllifidir. "Sənaye strukturlarının, bazarların fəaliyyət göstəricisinin, dövlət tənzimlənməsinin səbəblərinin və nəticələrinin novatorcasına tədqiqinə görə" 1982-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür.



İqtisadi təhsilini Vaşinqton, Şimal-Qərb (İllinoys ştatının Evanston şəhəri) və Çikaqo universitetlərində almışdır. Ayova (1936-1938), Minnesota (1938-1946), Braun (1946-1947) və Kolumbiya (1947-1958) universitetlərində dərs demişdir. İkinci Dünya müharibəsi zamanı (1939-1945) Kolumbiya Universitetinin statistik tədqiqatlar qrupunun məsləhətçisi olmuşdur. 1958-1981-ci illərdə Çikaqo Universiteti nəzdində Davranış Haqqında Elmlər üzrə İxtisasartırma Mərkəzinin Amerika iqtisadi institutları tədqiqi kafedrasının müdiri işləmişdir. Amerika Milli Elmlər Akademiyasının, Amerika Fəlsəfə Cəmiyyətinin üzvü, Amerika İqtisadi Assosiasiyasının (1964-cü ildən) və İqtisadi Tarix Cəmiyyətinin (1977-ci ildən) prezidenti olmuşdur. Bir sıra universitetlərin (Karnegi Mellon, Roçester, Braun universitetlərinin), Helsinki İqtisad Məktəbinin fəxri elmi dərəcələrinə layiq görülmüşdür.

Stiqlerin elmi maraqları mikroiqtisadiyyat nəzəriyyəsi (məhz qiymət nəzəriyyəsi), sənaye təşkilatı (təşkili), iqtisadi tarix və ictimai tənzimlənmə problemlərinin işlənib hazırlanması ilə əlaqədardır. Onun bazar strukturu və sənaye təşkilinə dair tətbiqi tədqiqatları geniş yayılmışdır. Stiqler "informasiya iqtisadiyyatı"nın və "tənzimləmə iqtisadiyyatı"nın banisi, həmçinin, iqtisadiyyat və hüququn qarşılıqlı fəaliyyətinin öyrənilməsində pioner hesab olunur. Onun işləyib hazırladığı sənaye təşkilatı (təşkili) nəzəriyyəsi üzrə kurs geniş yayılmışdır. Bir sıra illər ərzində o, Çikaqo Universitetinin nəşr etdiyi "Siyasi iqtisad üzrə jurnal"ın ("*Journal of Political Economy*") redaktoru olmuşdur.

Özünün elmi karyerasının başlanğıcında Stiqler mikroiqtisadiyyat nəzəriyyəsi ilə məhsuldar məşğul olmuş və tətbiqi mikroiqtisadiyyat sənaye təşkilatı (təşkili) məsələləri üzrə çoxsaylı məqalələr və kitablar dərc etdirmişdir. Hələ 1945-ci ildə o, xətti proqramlaşdırmanın köməyi olmadan "istehlak səbəti"nin nümunəsi kimi "ən ucuz məhsullar dəsti" tərtib etmişdir. Stiqlerin "Qiymətlər nəzəriyyəsi" ("*The Theory of Price*") tələbə və as-

pirantların bir neçə nəsli üçün mikroiqtisadiyyat üzrə dərslik rolunu oynamışdır.

40-cı illərin sonlarından başlayaraq Stiqler sənayenin təşkilatı (təşkili) problemlərini işləyib hazırlamışdır. "İstehsal miqyasında iqtisadiyyat" ("*The Economices of Scale*", 1958) oçerkində o, iqtisad elminə sənaye təşkilatının (təşkilinin) ayrılmaz ünsürü olan "salamatlıq prinsipi"ni gətirmişdir. Stiqler texnologiyada və bazar vəziyyətində baş verən dəyişikliklərdən sonra istehsal sferasında qalmağa qadir müəssisənin ən az kəmiyyəti (istehsal olunan məhsul və məşğul olan işçi qüvvəsi vahidində ölçülən) kimi salamatlığı təmin edən minimum səmərəlilik miqyasını müəyyən etmişdir.

Stiqler iqtisadi tənzimləmə problemləri ilə məşğul olaraq tənzimləmədə "zəbtetmə nəzəriyyəsi"ni irəli sürdü ki, bu nəzəriyyəyə uyğun olaraq tənzimləmə siyasətini həyata keçirən müvafiq idarələrin (təşkilatların) niyyətlərinin əksinə olaraq, tənzimləmə heç də istehlakçının mənafeyini yox, sənaye müəssisəsinin özünü yeni rəqabətdən qoruyur. Stiqlerin hüquq və iqtisadiyyatı birləşdirən, intizamarası xarakterli yenilikçi iş olan tənzimləmə nəzəriyyəsi göstərdi ki, bütövlükdə sənayenin tənzimlənməsinin necə və niyə tətbiqini yalnız dövlətin siyasi-iqtisadi təşkilinin təhlili izah edə bilər. Stiqlerin iqtisadi inkişafın tənzimlənməsi problemi üzrə bir çox müddəaları ABŞ prezidentləri C.Karter və R.Reyqan tərəfindən istifadə üçün qəbul edilmişdir.

STİQLİTS COZEF YUCİN (1943) – Amerika iqtisadçısı. Massaçusets Texnoloji İnstitutunda təhsil almış və elə orada da doktor dərəcəsinə layiq görülmüşdür. Neokeynsçi alim Kolumbiya Universitetinin professorudur. 1979-cu ildə C.B.Klark medalı ilə təltif olunmuşdur. Rektenvald mükafatı (1998) laureatıdır. ABŞ prezidentinin iqtisadi müşavirlər şurasının sədri (1995-1997), Dünya Bankının iqtisadçı-şefi (1997-2000) olmuşdur. Kolumbiya universitetinin professoru, üzvləri iqtisadçılar və siyasətçilərdən ibarət "Siyasi dialoq naminə" elmi cəmiyyətinin sədridir. 2001-ci ildə qeyri-simmetrik bazarların təhlilinə görə Nobel mükafatına layiq görülmüşdür.



Stiqlits Beynəlxalq Valyuta Fondunun inkişaf etməkdə olan ölkələrdəki iqtisadi siyasətinin sərt tənqidçilərindəndir. Onun bir çox fikirləri özünün elmi orijinallığı ilə seçilir. O, hesab edir ki, SSRİ dağıldıqdan sonra BVF-nin tövsiyələr vermək üçün keçmiş sovet respublikalarına ezam olunmuş əməkdaşları şəxsi mənafeləri üçün çalışırlar və tövsiyələri də dünya bazarının inkişafına xidmət edir. Bu nöqteyi-nəzərdən professorun aşağıdakı fikirləri maraq doğurur:

"Vaşinqton konsensusu tərəfindən dəstəklənən siyasəti kompleks hesab etmək olmaz. Bazarların fəaliyyətini təmin etmək üçün təkcə kiçik inflyasiyanın təmini azdır. Bunun üçün fəaliyyət göstərən maliyyə tənzimlənməsi, rəqabətin dəstəklənməsinə yönəldilən siyasət, texnologiyaların verilməsi üzrə tədbirlərin stimullaşdırılması və bazarların şəffaflığının artırılması tələb olunur. Bu isə Vaşinqton konsensusu tərəfindən nəzərdən qaçırılmış fundamental tədbirlərin bəzilərıdir".

Bununla yanaşı, Stiqlits BVF kimi qurumun olmasının əleyhinə deyil, o, sadəcə olaraq, Fond tərəfindən hər bir dövlətə münasibətdə eyni ssenarinin tətbiqinin əleyhinə çıxır. Vahid siyasət əvəzinə müxtəlif zaman kəsiyində müxtəlif ictimai-siyasi ukladlı quruluşlara münasibətdə individual siyasətin işlənib hazırlanmasının vacibliyini vurğulayır.

STİMULLAŞDIRICI ƏMƏK HAQQI NƏZƏRİYYƏLƏRİ – real əmək haqqı və işsizlik nəzəriyyələrinə görə, tarazlıq səviyyəsi ilə müqayisədə ən yüksək əmək haqqı əmək məhsuldarlığının artması və müəssisənin mənfəətinin artması vasitəsi.

STİMULLAŞDIRICI LOTEREYA – malın (işin, xidmətin) satışını stimullaşdırmaq məqsədilə həmin malı (işi, xidməti) almış şəxslər arasında keçirilən lotereya forması.

STİMULLAŞDIRICI LOTEREYANIN OBYEKTİ – satışı stimullaşdırıcı lotereya ilə müşayiət olunan mal (iş, xidmət).

STİMULLAŞDIRMA – şəxsiyyətin keyfiyyətinin meyarı olmaqla, özünə hər kəsin necə işləməsini, xidmətlərin necə qiymətləndirilməsini müəyyən edir. Kollektiv və şəxsi təşəb-

büsə görə fərqlənir. Kollektiv mükafatlandırma metodlarına istehsal kollektivlərinə fəxri fərmanların, fəxri adların verilməsi, şəxsi mükafatlandırma metodlarına isə ayrı-ayrı şəxslərə fəxri fərmanların verilməsi, təşəkkür elan olunması, orden və medallarla təltif, fəxri adların verilməsi və s. aid etmək mümkündür.


STİVİDOR – nəqliyyat-ekspeditor təşkilatları ilə bağlı tətbiq olunan ümumi ad.

STOK-MASTER – firmalar və onlara məxsus səhmlər haqqında ixtiyari an məlumat əldə etmək imkanı verən orqan.

STOK-NOT – eksportyor tərəfindən satışa təklif olunan meşə materiallarının bəzi növlərinin xüsusiyyətini xarakterizə edən ifadə.

STOLİPİN İSLAHATI – kənd təsərrüfatı istehsalının sosial-iqtisadi islahatı, rus kəndində torpaq mülkiyyət münasibətləri. 1906-1914-cü illərdə Rusiyada tətbiq olunmuş və islahatın müəllifi Nazirlər Sovetinin sədri P.A.Stolıpinin adını almışdır. 1906-cı il 9 noyabr tarixli fərmanı ilə islahata başlandı və kəndlilərə torpaq sahələri verildi. Məqsəd kəndlilərin icmaçılıqdan imtinası nəticəsində pay torpaqlarına sahib olması və sonradan özəl təsərrüfatçılığın inkişaf etdirilməsi idi. 1906-cı ilə qədər Rusiyada icma torpaqları bütün yararlı torpaqların yarısına qədərini təşkil edirdi.

P.A.Stolipinin aqrar islahatları (1906-1911)



Sxem 1

İslahatın əsas tədbirləri: özəl kəndli təsərrüfatlarının yaranması prosesinin stimullaşdırılması, Kəndli torpaq bankına üstünlük verməklə əhalinin bütün sosial təbəqələri tərəfindən torpağın azad surətdə alqı-satqısına icazə verilməsi. Kəndlilərin Sibirin, Orta Asiyanın, Uzaq Şərqin az məskunlaşmış ərazilərinə köçürülməsi (köçürülənlər Rusiyanın Avropa hissəsində satdığı torpaq sahələrindən əldə etdikləri vəsaitdən əlavə, dövlətdən yol xərclərini ödəmək üçün güzəştli şərtlərlə ssudalar və yeni torpaq sahələri əldə edirdilər), kəndlilərin dövlət kreditləri hesabına kənd təsərrüfatının səmərəli inkişafına nail olunması üçün texnika ilə təmini vacib idi.

STOLİPİN PYOTR ARKADYEVİÇ (1862-1911) – rus dövlət xadimi. 1885-ci ildə



Sankt-Peterburq Universitetini bitirərək Torpaq Nazirliyində işə düzəlmişdir. 1905-ci ildə 1-ci Dövlət Dumasının buraxılmasından sonra çar onu daxili işlər naziri təyin etmiş və o, həmin il iyunun 8-də Nazirlər Sovetinin sədri olmuşdur. Bu vəzifədə Stolıpin bir çox qanun layihələrini qəbul etdirmişdir. 1906-cı il noyabrın 9-da qəbul edilmiş "Kəndli torpaq sahibkarları və torpaqdan istifadə haqqında" qanuna əsasən icmalar ləğv olunurdu və kəndlilərə şəxsi istifadə üçün torpaq sahələri verilirdi. 1908-ci il martın 31-də Dövlət Duması qarşısında Amur dəmir yolunun tikintisi məsələsini qaldırmışdı.

"Əvvəlcə sakitlik, sonra islahatlar"

P.A.Stolıpin

STOLPER-SAMUELSON TEOREMİ – bu nəzəriyyəyə görə, digər amillər sabit qalarsa, hər hansı bir əmtəənin qiymətinin artması, bu əmtəələrin istehsalında nisbətən intensiv istifadə edilən resursların qiymətinin yüksəlməsinə və onun istehsalında az intensiv istifadə olunan resursların qiymətinin azalmasına gətirib çıxarır.

Eyni adda xarici ticarət proseslərinin riyazi təhlilinə aid olan teorem də məlumdur. Bu teoremdə deyilir: müəyyən şərtlər zamanı beynəlxalq ticarət, istehsalın məhdud amilinin (resursun) real qiymətləndirilməsini azaldır, məsələn, əmək haqqını, himayədarlıq (proteksionizm) kimi isə onun yüksəldilməsinə səbəb olur.

STOP-ƏMRLƏRİN ARTAN YEKUNLA AKTİVLƏŞDİRİLMƏSİ – fond bazarında kifayət qədər böyük miqdarda səhm satılan halda tətbiq edilən taktika. Bu taktikanın məqsədi qiymətlərin səviyyəsini o dərəcədə azaltmağa nail olmaqdır ki, bu səviyyədə əldə olan məlumatlara görə çoxsaylı stop-əmrlər, yəni qiymətli kağızların müəyyən qiymət üzrə alınması və ya satılması üçün əmrlər vardır. Həmin əmrlər bazar əmrlərinə (yəni səhmləri fond bazarında ən sərfəli qiymətə almaq və ya satmaq barədə əmrlərə) çevrilir, bu da, öz növbəsində, qiymətlərin dəyişməsinə səbəb olur, qiymətlərin hərəkəti isə verilmiş digər stop-əmrləri aktivləşdirir. Bu proses "qar topası effekti" adlanır.

STOP-LOSS MÜQAVİLƏSİ – qeyri-proporsional təkrar sığorta müqaviləsi. Həmin müqaviləyə görə sığorta şirkəti müqavilədə razılaşdırılmış zərər faizi aşıldığı halda işin ümumi nəticələrinin müəyyən sığorta növü üzrə müdafiəsini təmin edir.

Bağlanmış müqavilə, adətən ziyanın məbləği müəyyən həddi aşdıqda qüvvədə olur. Bu məqsədlə riskləri həvalə edən şirkətin əlavə və ya fövqəladə itkilərdən müdafiəsi elə müəyyən edilir ki, şirkət onun payına düşən məsuliyyətdən maliyyə səmərəsi əldə edə bilməsin.

Təkrar sığortaçının bu cür müqavilə üzrə məsuliyyətinin limitləri (stop-loss) mütləq məbləğ şəklində və ya il ərzində zərərin müəyyən həddində qəbul edilir. Məsələn, əgər müqavilədə stop-loss müəyyən edilmişdirsə, bu o deməkdir ki, zərərin həmin həddən artıq hissəsini təkrar sığortaçı ödəyir.

STORNO (ing. *storno* – hesabın köçürülməsi) – mühasibat uçotunda səhvlərin düzəldilməsi qaydası. Əvvəllər səhvən uçota alınmış məbləğlərin azaldılması və ya tam silinməsinə zərurət yarandıqda qırmızı mürəkkəblə ("qırmızı storno") yazılış verilir və səhv verilmiş məbləğ hesab üzrə dövriyyənin cəmindən çıxılırdı. Uzunmüddətli həyat sığortasının, müəyyən hesabat tarixində fəaliyyətdə olan müqavilənin sığorta portfelinin kiçilməsini xarakterizə edən göstərici.

STORNOLAŞMA – növbəti sığorta haqlarının ödənilməməsi üzündən müqavilələrin vaxtın-

dan əvvəl dayandırılması nəticəsində həyat sığortası portfelinin azaldılması (qısaldılması).

STOUN (STONE) CON RİÇARD NİKOLAS (1913) – Britaniya iqtisadçısı, keynsçidir,



milli gəlirin statistikası metodlarının işlənməsinə xeyli töhfə vermişdir. İstehlak tələbinin tətbiqi tədqiqatlarının, iqtisadi artımın riyazi modellərinin müəllifidir. "Milli hesablar sisteminin işlənməsində fundamental töhfəyə və empirik iqtisadi təhlilin əsaslarının əhəmiyyətli surətdə təkmilləşdirilməsinə görə" Nobel mükafatına layiq görülmüşdür (1984).


Kembric Universitetini bitirmişdir. 1935-1936-cı illərdə – "Lloyd" sığorta iqtisadi informasiya bülleteninin redaktoru, 1937-ci ildə (U.M.Cenkinslə birlikdə) "İndastrial illyustreyd"ə ("*İndustrial İllustrated*") əlavə kimi çıxan "Trends" ("Trends") jurnalının məsul redaktoru olmuşdur. 1939-1944-cü illərdə dövlət qulluğunda çalışmış, Hərbi İqtisadiyyat Nazirliyinin və Hərbi Kabinet idarələrinin Mərkəzi iqtisadi informasiya xidmətinin əməkdaşı olmuşdur. 1945-ci ildə Prinstonda (Nyu-Cersi ştatı) İxtisasartırma institutunda işləmişdir. Kembric Universitetinin tətbiqi iqtisadiyyat şöbəsinin direktoru (1945-1955) olmuş, Beynəlxalq Statistika İnstitutunun, Britaniya Elmlər Akademiyasının (1956-cı ildən) üzvü, Amerika Elm və İncəsənət Akademiyasının, Amerika İqtisadi Assosiasiyasının xarici (əcnəbi) üzvü, 1952-ci ildən isə BMT-nin Ekspertlər Komitəsinin sədri və Ekonometrika Cəmiyyətinin (1955-ci ildən) prezidenti seçilmişdir. Oslo, Brüssel, Cenevrə, Uorvik, Paris, Bristol universitetlərinin fəxri elmi dərəcələrinə malikdir. "Müharibənin aparılması üçün maliyyə mənbələrinin təhlili və 1938-1940-cı illərdə milli gəlirin və xərclərin qiymətləndirilməsi" ("*An Analysis of the Soures of War Finance and an Estimate of the National Income and Expenditare in 1938 and 1940*") əsəri iqtisad elminə böyük töhfə kimi qiymətləndirildi. Hərbi əməliyyatların maliyyələşməsi üçün zəruri olan fondların və resursların ümumi həcmi haqqında bitkin informasiyanı özündə ehtiva edən əsər standart milli hesablar sisteminin – milli gəlirin hesablanmasının, onun mənbələrinin və bölgüsünün yaradılması yolunda mühüm addım oldu. O, əvvəlki cəhdlərdən (ABŞ-da S.Kuznets, Avstraliyada K.Klark) onunla fərqlənirdi ki, milli gəliri ikiqat hesab çərçivəsinə açıq daxil edirdi. Burada ev təsərrüfatında, xüsusi bölmədə, eləcə də hökumət fəaliyyətində gəlirlər və xərclər haqqında məlumatlar nəzərə alınırdı. Bu həm iqtisadiyyatın müxtəlif sektorlarında, həm də müxtəlif ölkələrdə fəaliyyət nəticələrinin müqayisəli təhlilini aparmağa imkan verdi. Müxtəlif vaxtlarda Avstriya, Danimarka, Fransa, Yunanıstan, Niderland, Norveç, İsveç və İsveçrənin tədqiqatçılarının daxil olduğu dövlət büdcəsi üzrə tədqiqat qrupuna rəhbərlik edən Stoun, iştirakçı ölkələrin statistikalarına özünün ayrı-ayrı ölkələr üzrə dövlət büdcələrinin standart sisteminin və hesablaşma metodikasının işlənib hazırlanması, beynəlxalq səviyyədə yayılan metodikalarını öyrətməklə məşğul idi. O, "məsrəf – buraxılış" metodu üzrə təhlillə milli hesabların əlaqələndirilməsinə nail oldu və maliyyə əməliyyatını öz sisteminə daxil edərək, maliyyə balansları sistemini qurdu. Stounun BMT-nin məruzəsində dərc olunan "Milli hesablar sistemi və yardımçı cədvəllər" ("*A System of National Accounts and Supporting Tables*", 1952) əsəri 12 il ərzində etalon olaraq milli gəlirin hesablanmasının vahid standartlaşma sisteminin əsasında durdu. 1968-ci ildə A.Aydenoffla birlikdə Stoun yeni milli hesablar sistemini hazırladı ki, bu da dünyanın əksər ölkələri tərəfindən qəbul edildi.

Stoun uzun müddət ərzində Kembric iqtisadi artım layihəsinə rəhbərlik etmişdir ki, bunun da vəzifəsi Britaniya iqtisadiyyatının ekonometrik modelinin qurulması idi. "İqtisadi artımın hesablanan modeli" ("*A Computable Model of Economic Growth*", 1964) kitabı 1974-cü ilə qədər Kembric artım modelini təsvir edən 12 cildlik "Artım proqramı" ("*A Programme for Growth*") seriyasını açdı.

STRATEJİ İDARƏETMƏ PROSESİ – işgüzar müəssisəyə göndərilən şirkət rəhbərliyinin müvafiq praktik fəaliyyətidir. SİP ardıcıl yerinə yetirilən bir neçə mərhələdən ibarətdir:

1) təşkilatın daxili və xarici mühitinin təhlili;
2) təşkilatın missiyasının dürüst ifadə olunması;
3) məqsədlərin müəyyən olunması;
4) strategiyanın işlənməsi;
5) strategiyanın reallaşması;
6) strategiyanın dürüstləşdirilməsi (plan-faktın təhlili əsasında).

Strateji idarəetmə təşkilatın yaşaması və uzunmüddətli perspektivdə onun məqsədlərinə nail olması üçün şərtlərin təmin edilməsinə istiqamətlənmişdir. Rəhbərliyin diqqəti əsasən dəyişikliklərə dərhal və adekvat reaksiya üçün xarici mühitə istiqamətlənməlidir.
Müasir şəraitdə şirkətin uğurlu işi üçün strateji idarəetmə elementlərinin təcrid edilmiş yox, kompleks tətbiqi vacibdir. Bu o deməkdir ki, strateji idarəetmənin rəsmi sisteminin yaradılması tələb olunur. Söhbət məhz məntiqi müəyyən edilən formalara vaxtında riayət olunmasından gedir. Rəsmiyyətçilik konkret insanlardan və onların



Sxem 1

şəxsi keyfiyyətlərindən zəif asılı olan idarəetmə sisteminin yaradılması üçün zəruridir. Nəticədə bütövlükdə təşkilatın dayanıqlığı artır.

Strateji idarəetmə sisteminin yaradılması aşağıdakı istiqamətlərdə şirkətin idarəetmə sisteminin əhəmiyyətli dərəcədə yenidən qurulmasını tələb edir:

1) işgüzar proseslər (idarəetmə prosedurları);

2) təşkilati strukturlar (səlahiyyətlərin bölüşdürülməsi);

3) düşüncə tərzi, rəhbər və əməkdaşların davranışı.

Strateji idarəetmə sisteminin yaradılması dərin təşkilati dəyişikliklərə səbəb olur. Strateji idarəetmə sisteminin tətbiqi digər dəyişikliklərin aparılmasına nisbətən, əsasən, əmək tutumlu və problemlidir. Belə ki, strateji davranışa keçid müqavimət yarada bilər, amma bu şirkətin fəaliyyətinin burada işləyənlərin hamısı tərəfindən yenidən dərkini tələb edir. Şirkətin rəhbəri və əməkdaşları tərəfindən təşkilati dəyişikliklərin aparılması üçün müvafiq tədbirlərin zərurəti və onların olmamasının kifayət qədər dərk edilməməsi müəssisənin idarəetmə prosesinin təkmilləşdirilməsi üzrə istənilən niyyətləri heçə endirə bilər.

STRATEJİ İNVESTOR – müəssisəyə yeni texnologiya və "nou-hau"nu cəlb etmək imkanına malik, müəssisənin fəaliyyətində və idarəçiliyində bilavasitə iştirak etmək niyyəti olan, həmin sahədə böyük idarəçilik, istehsal təcrübəsinə malik hüquqi şəxs.

STRATEJİ MALLAR (əmtəələr) (ing. *strategic goods*) – nəzarətsiz ixrac edilməsi "ev sahibi" olan ölkənin təhlükəsizliyinə ziyan vura biləcək mallar. Başqa sözlə, əmtəənin sahibi olan ölkənin milli təhlükəsizliyinə dəyən ziyanın qarşısını almaq məqsədilə ixracı yasaqlanan, məhdudlaşan və ya nəzarət edilən əmtəələr (avadanlıq, texnologiya); "nou-hau" strateji malların aparılması (ixracı) üçün icazə qaydası, eləcə də təyinat ölkəsindən və malın xarakteristikasından asılı olaraq lisenziyalaşdırma qaydası səciyyəvidir. Strateji mallar qisminə silahlar və hərbi texnika, ayrı-ayrı xammal, avadanlıq, texnologiya növləri, elmi-texniki informasiya və "nou-hau" aiddir. Strateji malların siyahısı 1950-ci ildə ABŞ və NATO üzvü olan ölkələr tərəfindən yaradılmış Strateji Malların İxracına Nəzarət üzrə Koordinasiya Komitəsi (KOKOM) çərçivəsində işlənib hazırlanmışdır. Bu siyahı üç bölmədən ibarət idi: silahların siyahısı, nüvə siyahısı və sənaye malları siyahısı. Sonuncu siyahı da, öz növbəsində, üç yarımbölmədən ibarət idi (embarqo obyektləri olan malların siyahısı, kontingentləşdirilən malların siyahısı və idxalatçı ölkədə istifadə edilməsi xüsusi müşahidə altında olan malların siyahısı). KOKOM-un fəaliyyəti, ilk növbədə, keçmiş sosialist ölkələrinə, bitərəf dövlətlərə və inkişaf etməkdə olan dövlətlərin bəzilərinə qarşı yönəlmişdi. KOKOM 1994-cü il martın 31-nə qədər mövcud olmuşdur; 1994-cü il aprelin 1-dən o, "klub"a çevrilmiş və bu klubun üzvlərinin sayı əhəmiyyətli dərəcədə artmışdır. Klubun əsas vəzifəsi hərbi istehsalda istifadə edilə biləcək ikiqat təyinatlı, elm tutumlu texnologiyaların ixracına nəzarətdən və nüvə silahının yayılmasına yol verməməkdən ibarətdir. Xarici ticarət orqanları ikiqat təyinatlı texnologiyaların, qiymətli metalların və qiymətli daşların, eləcə də bəzi başqa malların ölkədən aparılmasına nəzarət edir.

STRATEJİ MƏSƏLƏLƏRİN TƏHLİLİ – marketinqin məqsədlərinin və seqmentləşmə üçün əsasların uyğunluq səviyyəsinin tədqiqi.

STRATEJİ PLAN – şirkətin strategiyasının həyata keçirilməsi üzrə konkret tədbirlərin siyahısı. Strateji planın hazırlanmasının əsas məqsədi təşkilatın strateji tədbirlərin həyata keçirilməsi üçün zəruri ehtiyatlara tələbatını müəyyənləşdirmək, həmçinin, mövcud ehtiyatların müxtəlif fəaliyyət istiqamətləri arasında və müəssisənin bölmələri arasında bölgüsünü razılaşdırmaqdır.

Strateji planın strukturuna aşağıdakı bölmələr daxildir:

1) strateji diaqnostika haqqında hesabat;

2) müəssisənin missiyası;

3) əsas strateji məqsədlər;

4) şirkətin inkişaf strategiyası;

5) strateji tədbirlər planı.

STRATEJİ PLANLAŞDIRMA – statistik, normativ, balans və ekspert metodlarını əks etdirən planlaşdırma strateji aspektdə komplekslilik, sistemlilik kimi prinsipial əsaslarda qurulan təyinatı ilə seçilir. Proses üç əsas mərhələdə: diaqnostika, məqsədlərin müəyyənləşdirilməsi və təyinatlı tədbirlərin – strategiyanın işlənməsi və reallaşmasında ehtiva olunur. *Satışın sti-*

mullaşması – alışın stimullaşdırılması məqsədilə istehlakçıların və ya ticarətin həvəsləndirilməsi. *Strateji yönəldilmə* – müəyyən məqsədin əldə olunması üçün seçilə bilən müxtəlif strategiyalardır. Strateji qətiyyət – vəziyyətlə şərtlənən əsas məqsəd, məsələn, *Caterpiller* şirkətinin "mühasirəsi" (*Komatsu* şirkətinin strateji məqsədi) və ya *Xerox* üzərində qələbə (*Canon* şirkətinin məqsədi). Strateji imkanlar – satış həcminin artırılması və şirkətin mənfəətinin yüksəldilməsi üsulları. Strateji alyans – birgə müəssisələrin yaradılması, uzun müddətə mal göndərişinə, alınmasına lisenziyalı razılaşmalarına müqavilələrin imzalanma yolu ilə iki və daha artıq təşkilatın əməkdaşlığı. Strateji profil – şirkətin əsas məqsədlərinin, baza strategiyasının, bazar tipinin, marketinq tədbirlərinin və mənfəət göstəricilərinin təsvirini özündə cəmləyən təşkilatın seçdiyi strategiya haqqında qısa hesabat. Təsərrüfatçılığın strateji mərkəzi – şirkətin ayrıca istehlakçılar qrupuna xidmət edən və öz rəqiblərinə malik bölməsi; bir qayda olaraq, strateji muxtariyyatla xarakterizə edilir. Strateji geriləmə – şirkətin zəif tərəflərindən xilas olmaq prosesində onun güclü tərəflərindən istifadə; bəzən həm də *müdafiənin birləşdirilməsi* terminindən istifadə olunur. "Qaymaqların ləğv olunması" strategiyası – yeni malın yüksək qiymətlə bazara çıxarılması. Bu zaman məqsəd həmin malın elmi-texniki tədqiqatına və konstruktor işləməsinə sərf olunan məsrəflərin ödənilməsidir. Fərqləndirmə strategiyası – bu və ya digər malın alışı zamanı alıcıların istifadə etdiyi meyarlardan birinin və ya bir neçəsinin seçimi, bu meyarlara müvafiq olaraq təklifin pozisiyalaşması. Kanalın təşkili strategiyası – səmərəli bölgü kanalının, bölgü intensivliyinin daha müvafiq səviyyəsinin və kanalın inteqrasiya səviyyəsinin seçimi. "Hərəkət vermək" ("itələmək") strategiyası – şəxsi satış metodlarından istifadə etməklə və satışın stimullaşdırılması vasitəsilə malı bölgü kanalı vasitəçilərinə satmaq cəhdi. "Sürümək" strategiyası – istehsalçının və ya provayderin istehlakçılarla birbaşa əlaqəsi. Bu zaman məqsəd onları vasitəçi qismində bölgü kanalına "çəkib aparmaqdır" (adətən, reklamın və istehlakçıların stimullaşdırılması vasitəsilə). Məsrəflərə yönəldilmiş strategiya – bu strategiyanı seçərək, şirkət bazarın bir və ya məhdud sayda seqmentində məsrəflər üzrə üstünlüyü təmin etməyə çalışır. Güzəştlərin strategiyası – preyskurantlarda göstərilən qiymətlərə münasibət üzrə güzəştlər sistemi.

STRATİFİKASİYA (lat. *stratum* – təbəqə) – yeni əhali təbəqələrinin yaranışı prosesi olan sosial təbəqələşməni ifadə edərək bəşəri qütbləşmənin imtiyazlı və qeyri-imtiyazlı, kasıb və varlı, təhsil səviyyəsi, hakimiyyət mövqeyi kontekstində bölgüsünü göstərir. Stratifikasiyanın başlanğıc nöqtəsini əmlak və sosial vəziyyətlərinə görə fərqlənməyən eynicinsli cəmiyyət təşkil edir.


STRAYK QİYMƏTİ (İCRANIN QİYMƏTİ) – kontraktda (sazişdə) müəyyən edilmiş qiymət. Opsionu almış şəxs sonradan baza aktivini həmin qiymətə almaq (satmaq) hüququna malikdir.

STRİNQ (ing. *string* – sıra) – birlikdə və eyni qiymətə satılan eynicinsli mallar qrupu.

STRİP – səhmlərin mənfəət əldə etmək məqsədilə alışı.

STRUKTUR İŞSİZLİK – elmi-texniki tərəqqi nəticəsində istehsalat strukturunun dəyişməsindən, istehsalatın təşkili və idarə edilməsində baş verən dəyişikliklərdən irəli gələn işsizlik forması. Struktur işsizlik istehsal obyektlərinin çatışmaması, cins və yaş xüsusiyyətləri, ixtisas, milliyyət və digər şəxsi keyfiyyətlərlə bağlı səbəblər üzündən iş tapmağın mümkünsüzlüyü ilə əlaqədardır. İşsizliyin bu növü işçilərin uzun müddətə nəinki iş yerlərini, həm də peşələrini də itirməsi ilə xarakterikdir. XX əsrin 40-50-ci illərində başlanmış elmi-texniki inqilab (ETİ) struktur işsizliyin daha geniş yayılmasına rəvac vermişdir. ETİ istehsalatın strukturunun dəyişməsində böyük rol oynayır. O, bir tərəfdən, prinsipcə yeni istehsalat sahələri və növlərinin meydana gəlməsinə, digər tərəfdən, iqtisadiyyatın kömür, torf sənayesi, qara metallar istehsalı, toxuculuq sənayesi və s. kimi bir çox ənənəvi sahələrinin ixtisarına və tənəzzülünə səbəb olur. Milli təsərrüfatda belə struktur dəyişiklikləri nəticəsində iqtisadiyyatın yeni sahələri üçün fəhlə və mütəxəssis kadrlarına böyük ehtiyac yaranır. Eyni zamanda, köhnəlmiş istehsal sahələrində işsizlik kəskin surətdə meydana çıxır.






İşlərini itirmiş insanların yenidən öyrədilməsi, köhnə iş yerlərinin ləğvi və ya yenidən qurulması yeni peşə və ixtisaslar üzrə işləmək istəyi, qabiliyyəti olanlar üçün yeni iş yerlərinin yaradılmasından ötrü xeyli vaxt tələb olunur (bax: sxem 1).

STRUKTUR SİYASƏTİ – cari və gələcək ehtiyaclar nəzərə alınmaqla iqtisadiyyatın strukturunun formalaşmasına, dəyişdirilməsinə və qorunub saxlanmasına yönəlmiş siyasət. Ölkənin, regionların hökuməti, müəssisələrin müdiriyyəti tərəfindən bütövlükdə iqtisadiyyatın və onun ayrı-ayrı hissələrinin sahəvi, regional, istehsal strukturu barəsində, eləcə də gəlirlərin və xərclərin, istehlakın, yığımın, ixrac və idxalın strukturu barəsində həyata keçirilən siyasət.

Hər bir tarixi zaman kəsiyində struktur siyasətinin səciyyəvi xüsusiyyətləri olur. Bununla bərabər, son məqsəd iqtisadiyyatın tarazlaşdırılmış inkişafını təmin etmək, elm və texnikanın nailiyyətlərinin, eləcə də innovasiyaların tətbiq edilməsi hesabına istehsalın texniki cəhətdən təkmilləşdirilməsinə nail olmaqdır. Struktur siyasətə *daxili* və *xarici* amillər, o cümlədən elmi-texniki inqilab, xarici iqtisadi əlaqələr,



Sxem 1

ölkədə demoqrafik şərait, əməyin beynəlxalq bölgüsündə və kooperasiyasında iştirakın dərəcəsi, sosial və siyasi amillər təsir göstərir (bax: sxem 1).

Struktur siyasətin *məqsədləri* üçün investisiya siyasətinin alətlərindən, zərərlə işləyən, perspektivsiz istehsalatların bağlanmasına, perspektivli istehsalatların formalaşmasına və dəstəklənməsinə yönəlmiş milli məqsədli proqramlardan, dövlət satınalmaları siyasətindən istifadə edilir.

STRUKTUR TSİKLLƏRİ – makrostruktur dinamikasının oxşar fazalarından keçən iqtisadiyyatın strukturunun dövri dalğavari dəyişməsi. Struktur tsikllər iqtisadi tsikllərin bir hissəsidir və elmi-texniki tsikllərin iqtisadiyyatın texnoloji strukturlarının dinamikasına təsirini əks etdirərək onlarla sıx bağlıdır. Davamlılıq müddətinə görə struktur tsiklləri aşağıdakı hissələrə bölünür: modellərin dəyişməsi ilə və buraxılan məhsulun çeşidinin təzələnməsi ilə əlaqədar qısamüddətli (3–4 illik); öncül sahələrdə texnikanın yeni nəsillərinə keçidlə və ortamüddətli iqtisadi tsikllərin dəyişməsi ilə əlaqədar ortamüddətli (onillik); Kondratyev tsikllərinin bir hissəsi olan və struktur böhranlarında, yeni sahələrin formalaşmasında, yeni texnoloji ukladın təşəkkül tapması ilə əlaqədar istehsal aparatının irimiqyaslı təzələnməsində ifadə olunan uzunmüddətli (yarım əsrlik); yeni texnoloji və iqtisadi istehsal üsullarının təşəkkül tapması nəticəsində iqtisadiyyatın strukturunda çevrilişdən əvvəl gələn uzunmüddətli struktur böhranından başlayan sivil tsiklin bir hissəsi kimi həddən artıq uzunmüddətli (əsrlik) tsikllər.

Miqyasına görə struktur tsikllərin lokal (bir şəhər, rayon çərçivəsində), regional, milli, qlobal struktur tsikllər formaları fərqləndirilir.

Makrostruktur tsikllərin tərkibindəki dinamikanın aşağıdakı növləri ayrılır: təkrar istehsal strukturları – təkrar istehsal sektorlarının (şəxsi istehlak, dövlət istehlakı, innovasiya – investisiya, yanacaq-xammal tədavülü və idarəetməsi) nisbəti; sahə strukturları (sahələrarası komplekslərin proporsiyaları); texnoloji strukturlar (texnoloji ukladların nisbəti); dəyər strukturu (ÜDM-in və ÜMM-in dəyərinin strukturu); iqtisadi strukturlar (iqtisadi ukladların, mülkiyyət formalarının xüsusi çəkisi); xarici iqtisadi strukturlar (təkrar istehsal sektorları, ölkələr qrup-

ları üzrə ixrac və idxalın bölgüsü).

Makrostruktur dinamikasının təhlili və proqnozu üçün sahələrarası balans, çoxölçülü təkrar istehsal – tsikl makromodeli, eləcə də struktur dinamikasının ölkələrarası müqayisəli metodları istifadə olunur.

XX əsrin son 25 ili postindustrial cəmiyyətin təşəkkül tapması ilə əlaqədar qlobal struktur böhranı və çevrilişlə xarakterizə olunur. Şəxsi istehlak və innovasiya-investisiya sektorlarının xüsusi çəkisi artır, yanacaq-xammal sektorunun payı aşağı düşür, dövlət mülkiyyətinin xüsusi çəkisi azalır. Böhrandan iqtisadiyyatın canlanmasına keçid mütərəqqi struktur irəliləyişləri tələb edir.

STRUMİLİN STANİSLAV QUSTAVOVİÇ (1877-1974) – sovet iqtisadçısı, statistiki, iqtisad elmləri doktoru (1914), SSRİ EA-nın akademiki (1931).




Petroqrad politexnikumunun iqtisadiyyat şöbəsini iqtisad elmləri namizədi dərəcəsi ilə bitirmiş, 1919-1923-cü illərdə Xalq Əmək Komissarlığında statistika şöbəsinin müdiri işləmiş, 1929-1930-cu illərdə Q.V.Plexanov adına Xalq Təsərrüfatı İnstitutunun professoru, 1930-cu ildə SSRİ Dövlət Plan Komitəsinin İqtisadi Tədqiqatlar İnstitutunun direktoru, 1931-1934-cü illərdə SSRİ Dövlət Plan Komitəsinin mərkəzi plan bürosunun rəis müavini, 1942-1951-ci illərdə SSRİ Dövlət Plan Komitəsinin elmi-texniki ekspertiza şurası üzvü olmuşdur. 1918-ci ildən etibarən əməyin iqtisadiyyatı və statistikası onun tədqiqatlarının əsas qayəsini təşkil etmişdir. Alim büdcə tədqiqatlarının metodologiyasına yenilik gətirmiş (1924), əmək məhsuldarlığının büdcə indeksi anlayışını ("strumilin indeksi" adlandırılırdı) elmə daxil etmişdir. Onun rəhbərliyi ilə SSRİ Dövlət Plan Komitəsində dünyada ilk dəfə olaraq material balans sistemi hazırlanmışdı. O, əsərlərində statistikaya xüsusi əhəmiyyət verirdi. 1956-cı ildə onun rəhbərliyi ilə statistika dərsliyi nəşr edilmişdir.

STRUVE PYOTR BERNQARDOVİÇ (1870-1944) – rus iqtisadçısı, filosofu, siyasətçisi və ictimai xadimi. 1895-ci ildə Peterburq Universitetinin hüquq fakültəsini bitirmişdir. 1896-cı ildə II İnternasionalın 4-cü konqresində, 1898-ci ildə Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının manifestinin hazırlanmasında iştirak etmiş, sonradan isə inqilabi marksizmə qarşı çıxmışdır. 1906-1917-ci illərdə Peterburq Politexnik İnstitutunda siyasi iqtisaddan dərs demiş, Oktyabr çevrilişindən sonra xaricə mühacirət etmişdir. İqtisadi əsərlərində o, xalqçılığı tənqid edirdi. Onun əsas baxışları "Təsərrüfat və qiymət: təsərrüfat həyatı nəzəriyyəsi üzrə kritik tədqiqatlar" əsərində əksini tapmışdır.



STÜART CEYMS DENHAM (1712-1780) – Ser Ceyms Stüart 1712-ci ildə Edinburqda anadan olmuşdur.




Edinburqda hüquqşünas ixtisasına yiyələndikdən sonra uzun müddət Avropada səyahətdə olmuşdur. Onun Şotlandiyanı İngiltərə hakimiyyətindən azadetmə və yakobinlərin yenidən bərpası cəhdləri 1763-cü ilin sonuna kimi ölkədən xaricdə qalmasına səbəb olmuşdur. Şotlandiyaya qayıdan Stüart özünü ədəbi əsərlərin yazılmasına həsr etmiş və 1780-ci ildə vəfat etmişdir.

Ceyms Stüart XVI yüzillikdən başlanğıc götürmüş Britaniya merkantilist cərəyanının sonuncu təmsilçisidir. O, özünün "Siyasi iqtisadın prinsiplərinin araşdırılması" əsərini 1776-cı ildə nəşr etdirmişdir. Bir müddət sanki kölgədə qalan Stüartın bu əsəri XIX əsrin sonunda K.Marksın ona müraciətindən sonra məşhurlaşmağa başladı. Onun ölkənin iqtisadi inkişafının hökumət tərəfindən tənzimlənməsi fikri, alman iqtisadi tarix məktəbinin üzvləri arasında geniş yayıldı. Beləliklə, o, "Planlaşdırılmış iqtisadi inkişaf" konsepsiyası və "İdarə olunan iqtisadiyyat" nəzəriyyələrini izləyən iqtisadçılar sırasına aid edilməyə başladı.


SU EHTİYATLARININ VƏZİYYƏTİ, İSTİFADƏSİ VƏ MÜHAFİZƏSİ STATİSTİKASI – təbii ehtiyatlar və ətraf mühit statistikasının altsahəsi. Su ehtiyatlarını, onun tərkibi və

On ən çox su ehtiyatı olan ölkə



Qrafik 1

Daha çox su ilə təchiz olunmuş ölkələr



Qrafik 2

Dünyanın 20 ən az bərpa olunan su ehtiyatı olan ölkəsi

№	Ölkə	Bərpa olunan su ehtiyatlarının həcmi, km^3
1.	Küveyt	0,02
2.	Sent-Kits və Nevis	0,02
3.	Maldiv	0,03
4.	Malta	0,07
5.	Antiqua və Barbuda	0,1
6.	Bəhreyn	0,1
7.	Barbados	0,1
8.	Katar	0,1
9.	BƏƏ	0,2
10.	Kabo-Verde	0,3
11.	Cibuti	0,3
12.	Kipr	0,4
13.	Liviya	0,6
14.	Sinqapur	0,6
15.	İordaniya	0,9
16.	Oman	1,0
17.	Komor	1,2
18.	Lüksemburq	1,6
19.	İsrail	1,7
20.	Mavriki	2,2

Dünyanın 20 ən böyük suvarılan ərazisi olan ölkəsi

№	Ölkə	Suvarılan ərazilərin sahəsi, $min.km^2$
1.	Hindistan	558,1
2.	Çin	546,0
3.	ABŞ	223,9
4.	Pakistan	182,3
5.	İran	76,5
6.	Meksika	63,2
7.	Türkiyə	52,2
8.	Tailand	49,9
9.	Banqladeş	47,3
10.	Rusiya	46,0
11.	İndoneziya	45,0
12.	Özbəkistan	42,8
13.	İspaniya	37,8
14.	Qazaxıstan	35,6
15.	İraq	35,3
16.	Misir	34,2
17.	Rumıniya	30,8
18.	Vyetnam	30,0
19.	Braziliya	29,2
20.	İtaliya	27,5

Dünyanın 20 ən az suvarılan ərazisi olan ölkəsi

№	Ölkə	Suvarılan ərazilərin sahəsi, km^2
1.	Vatikan	0
2.	Marşal adaları	0
3.	Botsvana	10
4.	Bruney	10
5.	Djibuti	10
6.	Sent-Vinsent və Qrenlandiya	10
7.	Qambiya	20
8.	Konqo	20
9.	Malta	20
10.	MAR	20
11.	Beliz	30
12.	Bosniya və Herseqovina	30
13.	Kabo-Verde	30
14.	Lesoto	30
15.	Liberiya	30
16.	Sent-Lüsiya	30
17.	Sloveniya	30
18.	Fici	30
19.	Avstriya	40
20.	Bəhreyn	40

Dünyanın 20 ən çox bərpa olunan su ehtiyatı olan ölkəsi

№	Ölkə	Bərpa olunan su ehtiyatlarının həcmi, km^3
1.	Braziliya	8233
2.	Rusiya	4498
3.	Kanada	3300
4.	ABŞ	3069
5.	İndoneziya	2838
6.	Çin	2830
7.	Kolumbiya	2132
8.	Peru	1913
9.	Hindistan	1908
10.	Konqo (Kinşasa)	1283
11.	Venesuela	1233
12.	Banqladeş	1211
13.	Myanma	1046
14.	Çili	922
15.	Vyetnam	891
16.	Konqo (Brazzavil)	832
17.	Argentina	814
18.	Papua- Yeni Qvineya	801
19.	Boliviya	623
20.	Malayziya	580

Dünyanın daha çox şirin su akvatoriyası olan 20 ölkəsi

№	Ölkə	Şirin su akvatoriyasının sahəsi, km²
1.	Kanada	891,2
2.	Rusiya	720,5
3.	ABŞ	664,7
4.	Hindistan	314,1
5.	İran	116,6
6.	Efiopiya	104,3
7.	Kolumbiya	100,2
8.	İndoneziya	93,0
9.	Konqo (Kinşas)	77,8
10.	Tanzaniya	61,5
11.	Avstraliya	58,9
12.	Braziliya	55,5
13.	Uqanda	43,9
14.	Argentina	43,7
15.	İsveç	40,0
16.	Finlandiya	34,3
17.	Venesuela	30,0
18.	Çin	27,1
19.	Pakistan	25,2
20.	Qazaxıstan	25,2

***Ərazisində şirin su akvatoriyası olmayan ölkələr* (47):**

Əlcəzair, Anqola,
Andorra, Antiqua və Barbuda,
Əfqanıstan, Barbados,
Bəhreyn, Butan,
Vanuatu, Vatikan,
Şərqi Timor, Qrenada,
Gürcüstan, Dominika,
Yəmən, Kabo-Verde,
Qatar, Kiribati,
Komor adaları, Küveyt,
Lesoto, Liviya,
Lixtenşteyn, Lüksemburq,
Mavritaniya, Maldiv adaları,
Malta, Marşall adaları,
Monako, Nauru,
Yeni Zelandiya, BƏƏ,
Oman, Palau,
San-Marino, San-Tome və Prinsipi,
Səudiyyə Ərəbistanı, Seyşel adaları,
Sent-Vinsent və Qrenadina, Sent-Kits və Nevis,
Serbiya, Trinidad və Tobaqo,
Tuvalu, Fici,
MFŞ, MAR,
Ekvatorial Qvineya


İl ərzində hər nəfərə düşən şirin su ehtiyatı ən çox olan ölkələr

№	Ölkə	Hər nəfərə düşən şirin suyun həcmi, m³/ildə
1.	Türkmənistan	5104
2.	Qazaxıstan	2360
3.	Özbəkistan	2194
4.	Qayana	2187
5.	Macarıstan	2082
6.	Qırğızıstan	1916
7.	Tacikistan	1837
8.	ABŞ	1600
9.	Surinam	1489
10.	İraq	1482
11.	Kanada	1386
12.	Tailand	1288
13.	Ekvador	1283
14.	Avstraliya	1193
15.	Makedoniya	1118
16.	Pakistan	1072
17.	Estoniya	1060
18.	Portuqaliya	1056
19.	İran	1048

İl ərzində hər nəfərə düşən şirin su ehtiyatı ən az olan ölkələr

№	Ölkə	Hər nəfərə düşən şirin suyun həcmi, m³/ildə
1.	Konqo (Kinşasa)	6
2.	MAR	7
3.	Konqo (Brazzavil)	8
4.	Maldiv	9
5.	Uqanda	10
6.	Komor	13
7.	Benin	15
8.	Papua-Yeni Qvineya	17
9.	Ruanda	17
10.	Qambiya	20
11.	Anqola	22
12.	Çad	24
13.	Cibuti	25
14.	Lesoto	28
15.	Toqo	28
16.	Mozambik	32
17.	Liberiya	34
18.	Burundi	38
19.	Kabo-Verde	39

İri su ambarlarının regionlar üzrə bölgüsü (2010-cu il)



Qrafik 3

keyfiyyətini, ölkə iqtisadiyyatının su ehtiyatları ilə təminatını, suburaxıcı və su istehlakını, su itkisi, təmiz suyun təkrar və dövriyyə istifadəsi hesabına qənaətini, suyun kənara axıdılmasını, yeraltı suların təbii göllərə, su anbarlarına və s. (çıxan suyun növləri üzrə), axıdılmasını, su mühafizə qurğuları ilə təchizatını və s. öyrənir (bax: qrafik 1, 2, 3).

SU NƏQLİYYATI VASİTƏLƏRİNİN SIĞORTALANMASI – hər hansı bir kateqoriyadan və təyinatdan olan dəniz və su gəmilərinin (əlavə artma, tikili, budka ilə gəminin korpusunun, gəmi otaqlarının, mühərrikin, qazanxananın, köməkçi mexanizmlərin, gəmi qurğularının və s.) sığortalanmasını əhatə edir. Sığorta müqaviləsi aşağıdakı variantlardan biri ilə bağlana bilər: 1) "tam məhv olunmaya görə məsuliyyətlə"; 2) "zədələnməyə görə məsuliyyətlə"; 3) "tam məhv olmaya və zədələnməyə görə məsuliyyətlə".

SUBHESABLAR – banklarda kommersiya və başqa özünü maliyyələşdirən təşkilatların əsas hesablarına əlavə olaraq açdıqları yardımçı hesablar (hesab, cari, müxbir). Bu hesablara yerləşdikləri yerlərdə mülkiyyətçi tərəfindən maliyyələşdirilən müəssisələr, filiallar, şöbələr malikdir. Subhesablara daxil olan vəsaitlər (əgər hesablar passiv hesab, cari, müxbir loro hesablarıdrsa) və ya bankın yığılan borcları (əgər aktiv hesablar – ssuda, müxbir nostro hesablardırsa) müntəzəm olaraq təsərrüfat təşkilatlarının və bankların hesabına keçir.

SUBKOMİTENT – istehsalçının malın satılmasını həvalə etdiyi şəxs.

SUBLİSENZİYA – lisenziyaların üçüncü şəxsə satılmasında lisenziata verilən hüquq.

SUBLİZİNQ – sublizinq müqaviləsi ilə rəsmiləşdirilir. Sublizinq zamanı lizinq müqaviləsi üzrə əvvəllər lizinq verəndən alınmış obyekt lizinq alan üçüncü şəxslərə (sublizinq müqaviləsi üzrə lizinq alana) haqq ödənilməklə və sublizinq müqaviləsinin şərtlərinə uyğun müddətə sahibliyə və istifadəyə verilir.

SUBORDİNASİYA BORCU – xüsusi müddətsiz borc; bunun üçün resurslar ssuda kapitalları bazarından cəlb edilir və borc şərtlərinə görə həmin resurslar borcalanın xüsusi vəsaitlərinə bərabər tutulur.

SUBROQASİYA – sığortalının və ya faydalanan şəxsin zərərin əvəzinin ödənilməsinə dair hüquqlarının sığortaçıya keçməsi. Bu, subroqasiya haqqında aktla rəsmiləşdirilir. Sığortaçı tərəfindən sığortalıya sığorta ödənişini ödədikdən sonra həmin sığortalıya üçüncü şəxslərdən itki cəriməsi üçün sığortalı tərəfindən öz hüquqlarının verilməsi haqqında sənəddir.

SUBSİDİARLIQ PRİNSİPİ – sığorta ödənişlərinin və ödəmələrinin ölçüsünün sığortalıların, habelə, sığortaçıların müstəqil müəyyən etməsi və gəlirlərin dəqiqləşdirilməsi sərhədlərinin dəqiqləşdirilməsi (bunlardan sığortalılar icbari sığorta haqqı ödəməlidirlər). Subsidiarlıq prinsipi – ehtiyatdan asılı olaraq sosial yardım qismində maliyyə vəsaitlərinin bölgüsü prinsipidir.

SUBSİDİYA (lat. *subsidium* – kömək, yardım, müdafiə) – dövlət və ya digər təşkilat tərəfindən hüquqi və ya fiziki şəxslərə pul və ya natural formada verilən müavinət növü. Subsidiya alandan sonradan onu geri qaytarması da tələb edilə bilər. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa görə, subsidiya həmçinin, dövlət büdcəsindən yerli büdcələrə və hüquqi şəxslərə əvəzsiz verilən maliyyə vəsaitidir.

Dövlət subsidiyası – dövlət büdcəsinin vəsaitləri və ya xüsusi dövlət fondları hesabına müəssisələrə, təşkilatlara, yerli hakimiyyət orqanlarına, eləcə də ayrı-ayrı şəxslərə və digər dövlətlərə pul və ya natural formasında verilən məqsədli, qaytarılmayan müavinətdir. Subsidiyanın əsas məqsədi az gəlirli, lakin milli iqtisadiyyat üçün vacib sahələrə, eləcə də yenidənqurma, yaxud böhran halında olan istehsal sahələrinə yardım göstərməkdir. İlkin tələbat mallarının və inflyasiya şəraitində kommunal xidmətlərin qiymət səviyyələrini sabitləşdirmək məqsədilə fəal istifadə olunur. Birbaşa və dolayı subsidiyalaşma fərqləndirilir. Birbaşa dövlət subsidiyaları iqtisadiyyatın prioritet sahələrinə, hər şeydən əvvəl, sənayenin kapital tutumlu sahələrinə, kənd təsərrüfatına, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə (ETTKİ) kapital qoyuluşunu maliyyələşdirmək üçün yönəldilir. Dolayı subsidiyalaşma, əsasən, vergi və pul-kredit siyasətinin alətləri: güzəştli vergiqoyma, güzəştli şərtlərlə kreditlərin verilməsi, sürətli amortizasiya siyasətinin aparılması, ixrac kreditlərinə dövlət zəmanətlərinin verilməsi, depozitlərin sığortalanması və s. vasitəsilə həyata keçirilir. Birbaşa vergilərin və gömrük rüsumlarının qaytarılması təcrübəsi tətbiq olunur. Məhsulun istehsal xərclərini ödəməyən, yaxud müəyyən gəlir gətirməyən, qiymətlər üzrə bu məhsulun reallaşmasından yaranan itkinin ödənilməsi məqsədilə konkret əmtəə növünün istehsalçılara kompensasiya ödənişləri sistemi vasitəsi ilə qiymətlərin subsidiyalaşmasından geniş istifadə olunur. Dövlət tərəfindən müəyyən edilən güzəşt dərəcələri ilə maliyyə-kredit idarələrinə və ya bilavasitə krediti alanlara kreditlər üzrə bazar faizi arasında fərqin ödənilməsi vasitəsi ilə faiz dərəcələrinin subsidiyalaşmasından istifadə olunur.

Dövlət subsidiyası, bir qayda olaraq, xüsusi korporasiyalara sağlamlaşdırma məqsədləri üçün verilir. Ayrı-ayrı ölkələrdə (məsələn, Böyük Britaniyada) kapital qoyuluşlarının maliyyələşməsi üçün xüsusi şirkətlərə verilən dövlət subsidiyasından istifadə olunur.

Subsidiya sistemi mərkəzlə yerli hakimiyyət orqanları arasında maliyyə əlaqələrinin mühüm formasıdır.

Yerli orqanlara verilən subsidiyalar mərkəzi büdcədən və ya büdcə sisteminin yuxarı halqalarından aşağı halqalarına verilən maliyyə resurslarıdır. Ayrı-ayrı hallarda yerli büdcələr hesabına mərkəzin subsidiyalaşması təcrübəsi də olur, lakin onların payı çox deyil. Subsidiyalar ciddi şərtlənmiş proqramların maliyyələşməsi üçün ayrılır və yerli büdcələrin pay iştirakını tələb edir. Subsidiyanın verilməsindən əvvəl yerli büdcələrin xərcləri və onların örtülməsi mənbələri ətraflı öyrənilir. Yerli büdcələrin xroniki kəsiri şəraitində subsidiyalar yerli büdcələrin maliyyə resurslarının 25%-dən 50% hissəsinə çataraq onların (yerli büdcələrin) gəlirlərinin mühüm mənbəyi kimi çıxış edir. Yerli hakimiyyət orqanlarına ayrılan subsidiyalar ümumi və məqsədli təyinatlı subsidiyalara bölünür. Ümumi subsidiyalar yerli büdcələrin kəsirinin örtülməsi üçün ayrılır. Onlar vəsaitlərin istifadəsində yerli hakimiyyət orqanlarına müəyyən sərbəstlik verir, az miqdarda məhdudiyyətləri və göstərişləri ehtiva edir. Mahiyyətcə dotasiyaya yaxındır. Məqsədli subsidiyalar kapital qoyuluşlarının maliyyələşməsi və cari xərclərin örtülməsi üçün verilir.

Subsidiya sistemi yerli hakimiyyət orqanlarına maliyyə nəzarəti və təzyiq göstərilməsində mühüm vasitədir. Subsidiyadan istifadə edərək, mərkəzi hökumət yalnız verilmiş vəsaitlərin yox, həm də yerli orqanların xü-

susi vəsaitlərinin xərclənməsi istiqamətini və xarakterini müəyyənləşdirir. Subsidiya iqtisadi tənzimləmə və sosial manevretmə üzrə dövlət siyasətinin mühüm alətidir.

SUBVENSİYA (lat. *subveniere, subsidium* – köməyə gəlmək, kömək, yardım) – "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa görə subvensiya məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün və ya müəyyənləşdirilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaitidir. Əgər subvensiyadan istifadə şərtləri pozularsa, onda o, geriyə qaytarılır. Yerli hakimiyyət orqanlarının öz təşəbbüsü, lakin mərkəzin razılığı ilə, yaxud mərkəzi hökumətin göstərişi üzrə həyata keçirilən proqram və layihələrin maliyyələşməsi üçün verilir. Subvensiya, həmçinin, məktəblərin, xəstəxanaların və digər yerli sosial-iqtisadi infrastrukturun saxlanılmasına yönəldilir. Subvensiyanın verilməsi mərkəzi hökumətin maliyyələşməsində pay iştirakını tələb edir. Yerli hakimiyyət orqanları ayrılmış subvensiya məbləğindən artıq müəyyən xüsusi vəsaitlərin məbləğini xərcləməyə borcludurlar ki, bu da əlavə gəlir mənbələrinin axtarılmasında marağı artırır. Subvensiyanın verilməsi şərtləri büdcə təşəbbüsünə və yerli idarəetmə orqanlarının maliyyə siyasətinə ciddi məhdudiyyətlər qoyur. Yerli büdcələrin xroniki kəsiri zamanı subvensiya yerli hakimiyyət orqanlarının mərkəzdən asılılığını gücləndirən amil və nəzarət vasitəsi kimi çıxış edir.

SUBVENSİYALAŞMIŞ QİYMƏT – istehsalçılara dövlət subvensiyalarının (subsidiyalarının) verilməsi sayəsində maya dəyərindən aşağı və ya ona bərabər qiymət. Subvensiyalaşmış qiymət ayrı-ayrı məhsul növlərinin istehsalının həvəsləndirilməsi (stimullaşdırılması), milli istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsi, eləcə də milli məhsulun ixracının genişlənməsinə təsir etmək üçün istifadə olunur.

SULTANOVA RƏNA POLAD QIZI (1958) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1983-cü ildə



S.M.Kirov adına Xarkov Nəqliyyat Mühəndisləri İnstitutunun mühəndis-iqtisad fakültəsini bitirmişdir. 1989-cu ildə "İstehsalın intensivləşdirilməsi şəraitində əmək vasitələrinin tənzimlənməsi problemləri" mövzusunda namizədlik, 2003-cü ildə "Azərbaycan Respublikası maşınqayırma kompleksində istehsal potensialından səmərəli istifadə olunması" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. O, 100-dən çox elmi əsərin, o cümlədən 6 kollektiv və 4 monoqrafiyanın, 1 dərs vəsaitinin müəllifidir. Azərbaycan MEA-nın İqtisadiyyat İnstitutunda "Regional inkişaf və təbii sərvətlərdən istifadə problemləri" şöbəsinin müdiri vəzifəsində çalışır.

SUMBATZADƏ ƏLİSÖHBƏT SUMBAT OĞLU (1907-1992) – Azərbaycanın görkəmli



tarixçisi və iqtisadçı alimi, AMEA-nın akademiki (1958). Respublikada iqtisad elminin bir sıra istiqamətlərinin inkişafına əlverişli şəraitin yaradılması, iqtisad elmləri sahəsində elmlər doktorlarının hazırlanmasında Əlisöhbət Sumbatzadənin əvəzsiz xidmətləri olmuşdur. Əlisöhbət Sumbatzadə özünün elmi potensialına, müxtəlif elmlərə yaxından bələd olmasına, elmi təcrübəsinə söykənərək, Azərbaycan xalqının etnogenezi probleminin öyrənilməsinə təşəbbüs göstərmiş, uzun illərdən bəri apardığı tədqiqatları ümumiləşdirərək 1990-cı ildə, ömrünün müdrik çağında "Azərbaycanlılar etnogenez və xalqın formalaşması" adlı son dərəcə vacib monoqrafiyasını yazmış, elmdə mənşəyimiz haqqında yeni konsepsiyanın əsasını qoymuşdur.

1958-ci ildə Azərbaycan EA Şərqşünaslıq İnstitutu təşkil olunduqdan sonra Ə.S.Sumbatzadə həmin elm mərkəzində öyrənilən "Yaxın və Orta Şərq ölkələrində milli azadlıq və fəhlə hərəkatı" probleminin rəhbəri olmuşdur.

Akademik Ə.Sumbatzadənin xalqımız qarşısındakı böyük xidmətlərindən biri də Bakı istisna olmaqla, ümumilikdə, Azərbaycanın kapitalizm formasiyasına keçməməsi fikirlərinin qeyri-elmi olmasının tar-

ixi faktlarla əsaslandırmasıdır. Bu problemlərə alimin "XIX əsrdə Azərbaycanın kənd təsərrüfatı" (1958) adlı əsərində cavab verildi. Azərbaycan qəzalarının timsalında kənd təsərrüfatının, demək olar ki, bütün sahələrini tədqiq edən müəllif sübuta yetirdi ki, Azərbaycanda tarix boyu üzümçülük, əkinçilik, pambıqçılıq, tütünçülük və digər aparıcı sahələrdə əmtəə istehsalı və muzdlu əmək üstünlük təşkil edib. Bu isə kapitalizmin kənd təsərrüfatında əsas və başlıca göstəricisi demək idi.

Adıçəkilən əsərdə elmi həllini tapan digər problem Azərbaycan xalqını köçəri adlandıranlara cavabın verilməsidir. Maldarlıq təsərrüfatının xarakterini təhlil edən müəllif Azərbaycan maldarlarının yaz və yayda yaylağa, qışda isə qışlağa köçmələrini əsas götürüb, azərbaycanlıları köçəri adlandıran XIX əsr müəlliflərindən fərqli olaraq, bunu köçərilik əlaməti deyil, düzgün olaraq Azərbaycanın təbii-coğrafi şəraiti ilə izah etmiş, bununla da azərbaycanlıların köçəri xalq olmaması nəticəsinə gəlmişdir.

XIX əsrdə Azərbaycanın ictimai-iqtisadi tarixinin bütün mənzərəsinin elmi təhlilini vermək üçün onun sənaye həyatının öyrənilib tədqiq edilməsi də xüsusi əhəmiyyət kəsb edirdi. 1964-cü ildə "Elm" nəşriyyatı tərəfindən buraxılan "XIX əsrdə Azərbaycan sənayesi" adlı əsəri ilə alim həm tarix, həm də iqtisad elminə böyük töhfə verdi. Akademik Ə.S. Sumbatzadənin XIX əsr iqtisadiyyatına dair monoqrafiyası respublikamızda yeni elmi istiqamətin – iqtisadi tarixin yaranmasına səbəb oldu. 1970-ci ildə Leninqradda (Sankt-Peterburq), 1974-cü ildə Budapeştdə iqtisadi tarix üzrə keçirilən Beynəlxalq konqreslərdə akademik Ə.Sumbatzadənin başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti iştirak etmişdi. Hər iki monoqrafiyası ilə akademik sübut edirdi ki, Azərbaycan özünün iqtisadi inkişaf səviyyəsinə görə XIX əsr və XX əsrin əvvəllərində geridə qalan məmləkət sayıla bilməz, burada gedən ictimai-iqtisadi proseslərə dünyanın inkişaf kontekstindən yanaşılmalı və qiymət verilməlidir.

Akademik Ə.S.Sumbatzadəni respublikamızda və ondan kənarda həm də bacarıqlı elm təşkilatçısı kimi tanıyırdılar. 1957-1959-cu illərdə Azərbaycan EA-nın vitse-prezidenti, sonra Yaxın və Orta Şərq Xalqları İnstitutunun direktoru və İctimai elmlər bölməsinin akademik-katibi vəzifəsində işləyərkən onun təşkilatçılıq fəaliyyəti özünü daha bariz şəkildə göstərmişdir. Onun rəhbərliyi altında aparılan tədqiqatlar xalqımızın milli tarixi, arxeologiyası, etnoqrafiyası, memarlığı, incəsənəti, dili, ədəbiyyatı, iqtisadiyyatı, fəlsəfi fikri və şərqşünaslığının ən ümdə problemlərinin araşdırılmasına yönəldilmişdir.

XX əsr haqqında düşünərkən onun xalqımızın tarixində, mədəni həyatında hansı izlər buraxdığı, istər-istəməz, gözümüz önündə canlanır. Azərbaycanın iki dəfə müstəqillik qazanması, elm, təhsil ocaqlarımızın yaranıb inkişaf etməsi, respublikamızın dünyada tanınması və onlarca yaddaqalan digər hadisələr, məhz, bu əsrlə bağlıdır. Lakin bütün bunlarla yanaşı, XX əsr həm də xalqımızın yaddaşında neçə-neçə elm xadimlərimizin yaşayıb-yaratması, tarixə çevrilməsi ilə yadda qalacaqdır. Onların sırasında elmi irsi, neçə-neçə sanballı monoqrafiyaları ilə yanaşı, həm də xüsusi görkəmi, ali elmi məclislərdə özünəməxsus çıxışları, çoxlarına nəsib olmayan hazırcavablığı, müdrik məntiqi və natiqlik məharəti ilə seçilən Əlisöhbət Sumbatzadə adlı bir elm cəfakeşi var idi.

SUPERKARQO – taym-çarterlə kirayə alınmış gəmini kirayəçilərin (yüklərini daşıtdırmaq üçün gəmi kirayə edən şəxs və ya müəssisə) maraqlarının qorunması məqsədilə müşahidə edən etibarlı şəxs. Buraya yüklərin yüklənməsinə və boşaldılmasına nəzarət, yük anbarlarından istifadə, kirayəçilərin hesabına olan vəsaitlərin sərfi daxildir. Qeyd etmək lazımdır ki, super karqo gəmi rəhbərliyinin gəmiçiliklə bağlı işlərinə, gəminin idarə edilməsinə qarışmamalıdır. Super karqo adı ilə həm də daşınma zamanı yüklərə xüsusi nəzarət və xidmət tələb olunduqda onları müşayiət edən şəxs başa düşülə bilər. Yük sahiblərinin öz yüklərini müşayiət etmək üçün nümayəndələrini göndərmək hüququ adətən çarterlərdə razılaşdırılır.

SUPERMARKET – ənənəvi olaraq ərzaq malları, içkilər və s. ilə iri özünəxidmət mağazası. Son zamanlar mal diapazonunun genişləndirilmə meyli yaranmışdır ki, bu da indi kitab, geyim və dərman kimi malları özündə cəmləyə bilər. İnkişaf





etmiş ölkələrin iqtisadiyyatının əsasını kiçik və orta sahibkarlıq təşkil edir. Supermarketlər isə kiçik və orta sahibkarlığın inkişafı üçün buxova çevrilir. Belçika, Danimarka, İspaniya, Yunanıstan, İtaliya, Lüksemburq, Hollandiya, Portuqaliyada ticarət meydanlarının sahəsi 2500 kv.m və ya daha çox; Almaniyada 1500 kv.m-dən 4999 kv.m-dək, iri supermarketlərin sahəsi 5000 kv.m və ya daha çox; İrlandiya, Böyük Britaniyada 2323 kv.m və daha çox olan supermarketlər vardır.

SUVEREN BORCLU (ing. *sovereign borrower*) – borclu dövlət (hökumət).

SUVEREN İMMUNİTET (ing. *sovereign immunity*) – bu doktrinaya görə suveren dövlət məhkəmə qaydasında izlənilə bilməz, onun vəsaitlərinə isə həbs qoyula bilməz.

SUVEREN SIĞORTA RİSKİ (ing. *sovereign risk)* – milli siyasətin dəyişməsi ilə xarici hökumətin onu ödəməkdən imtina etməsi riski, bütöv dövlətin maliyyə vəziyyəti ilə bağlı olan, bütün və ya əksər iqtisadi agentlərin (hökumət də daxil olmaqla) xarici borcları dondurması riski; "suveren" riskə nəzarət üçün banklar kreditləşmə limitləri qoyur.

SÜBUT MEYARI – bu sübutun əlamətləri istifadə olunan informasiyanın xarakteri, onun əldə edilməsi və emalı (elmi ədəbiyyatdan, təcrübədən, eksperimentdən, sınaqlardan, riyazi metodlardan istifadə) üsullarıdır.

SÜLEYMANOV QƏZƏNFƏR SALMAN OĞLU (1961) – Azərbaycan iqtisadçı, i.e.d., prof. 1989-cu ildə "Sənaye müəssisələrinin tənzimlənməsi metodları" mövzusunda namizədlik, 2003-cü ildə "Azərbaycan neft maşınqayırma sənayesinin idarə edilməsinin informasiya təminatı problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 98 elmi əsərin, o cümlədən 5 monoqrafiyanın müəllifidir. Hazırda Azərbaycan Dövlət Neft Akademiyasının "Neft maşınqayırma sənayesinin iqtisadiyyatı və menecment" kafedrasının professorudur.





Böyük İqtisadi Ensiklopediya. 5 cilddə. IV cild.
Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2012, 592 səh.
www.eastwest.az

ISBN 978-9952-34-796-8 (IV cild)
ISBN 978-9952-34-816-3

"Böyük İqtisadi Ensiklopediya" iqtisadiyyatın mahiyyətini, xarakterini, inkişaf meyillərini və qanunauyğunluqlarını müəyyən edən və onun əsas ideyaları, konsepsiyaları, modelləri, anlayışları və kateqoriyalarının mahiyyətini açıqlayan fundamental nəşrdir. Burada dünya iqtisadiyyatı ilə yanaşı, Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri, bazar strukturları və infrastrukturları, aparıcı maliyyə, bank institutları haqqında yığcam məlumatlar öz əksini tapmışdır. 7000-dən çox termin-məqaləni əhatə edən "Böyük İqtisadi Ensiklopediya" MDB məkanında milli dildə işıq üzü görmüş ilk irihəcmli nəşrdir. "Böyük İqtisadi Ensiklopediya" tələbələr, magistrlər, doktorantlar, təhsil və idarəetmə sistemində çalışan müəllim və mütəxəssislər, sahibkar və investorlar üçün nəzərdə tutulmuşdur.

© Azərbaycan İqtisadçılar İttifaqı, 2012
© "Şərq-Qərb" Nəşriyyat evi, 2012
www.eastwest.az

"Şərq-Qərb" Nəşriyyat evində çapa hazırlanmışdır

Korrektorlar: ***Pərinaz Səmədova***
Gültəkin Yusifova
Texniki redaktor: ***Rövşən Ağayev***
Nəşriyyat direktoru: ***Rasim Müzəffərli***

Çapa imzalanmışdır 11.06.2012
Formatı 64×90$^{1}/_{8}$. Fiziki çap vərəqi 74,0.
Sifariş № 128. Tiraj 6000

"Şərq-Qərb" Nəşriyyat evinin mətbəəsində çap olunmuşdur
AZ 1123 Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 370 68 03; 374 75 62
Faks: (+99412) 370 68 03; 370 18 49
www.eastwest.az